**AZƏRBAYCAN RESPUBLİKASI**
**SİLAHLI QÜVVƏLƏRİNİN HƏRBİ AKADEMİYASI**

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

**MEHMAN SÜLEYMANOV**

# SƏFƏVİLƏR

## IV cild

## Şah Təhmasib

Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyasının Elmi şurasının 27 fevral 2020 cu il tarixli 1 nömrəli protokolu ilə çapa tövsiyə olunub

MAARİF
nəşriyyatı
**BAKI – 2020**

Baş məsləhətçilər: **Heydər Piriyev** – general-leytenant

**Yaqub Mahmudov** – AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi, Dövlət mükafatı laureatı

Elmi redaktorlar: **Tofiq Nəcəfli** - tarix üzrə elmlər doktoru,

**Eynulla Mədətli** - tarix üzrə elmlər doktoru

**Səməd Bayramzadə**, tarix üzrə fəlsəfə doktoru

Mehman Süleymanov: Səfəvilər.IV cild. Şah Təhmasib
Bakı, 2020, 744 səh.

Kitab Azərbaycan xalqının dövlətçilik tarixində xüsusi yer tutmuş və 52 il ərzində hökmdarlıq etmiş Şah Təhmasib Səfəvinin həyat və fəaliyyətinin tədqiqinə, Şah İsmayıldan miras qalmış səltənətin qorunması və inkişaf etdirilməsi istiqamətində gördüyü tarixi xidmətlərin obyektiv mənzərəsinin yaradılmasına həsr olunmuşdur.

**İSBN: 978-9952-37-141-7**

# GİRİŞ

Azərbaycanın dövlətçilik tarixində yeni bir səhifə açmış Şah İsmayılın 1524-cü ildə dünyasını dəyişməsindən sonra Səfəvi dövlətinin Şah Təhmasib dövrü başlayır. Özündən sonra yaratdığı dövlətin taleyinin necə olacağı həyatının son günlərində Şah İsmayıla da nisgilli hisslər yaşadırdı. Bir tərəfdən Səfəvi dövləti ətrafında formalaşan hərbi-siyasi şərait, digər tərəfdən dövlətin daxili vəziyyəti və onun varisi olacaq oğlu Təhmasibin kiçik yaşda olması haqlı bir narahatçılıqları ortaya qoymaqda idi. Xüsusən, Təhmasibin kiçik yaşda olması, lazımi dövlətçilik təcrübəsinə malik olmaması Səfəvi dövlətinin gələcəyinin müəyyənləşdirilməsinə həlledici təsir edə bilərdi. Ona görə Şah Təhmasibin hakimiyyətə gəlişi Səfəvi dövlətinin tarixində həssas və maraqlı bir dövrün başlanğıcını qoydu.

Şah Təhmasib isə kiçik yaşlarında olmasına baxmayaraq ətrafında səfərbər olmuş sədaqətli türk əmir və əyanlarının həmkarlığı ilə dövlətin gələcəyinə olan nigarançılıqları aradan qaldıra və Şah İsmayıldan miras qalmış dövləti möhkəmləndirərək inkişafının yeni bir səviyyəsinə yüksəldə bildi. Başlıcası isə Şah Təhmasib hələlik tariximizə məlum olan yeganə Azərbaycan türküdür ki, ən uzun müddətdə - 52 il ərzində səltənət hökmdarı olmuşdur.

Şah Təhmasib hakimiyyətinin belə uzunömürlü olmasının sirri nədə idi? Bu hakimiyyət dövründə onun uğurları və xidmətləri nə idi, Azərbaycanın dövlətçilik tarixinə hansı töhfələri verdi, Səfəvi dövlətinin gələcəyi üçün hansı işləri görə bildi? Təqdim olunan hazırkı kitabda da bu suallara cavab verilməsinə cəhd göstərilmişdir.

Səfəvi dövlətinin Şah Təhmasib dövrü Azərbaycan tarixşünaslığında çox az öyrənilmiş mövzulardan biridir. Səfəvi dövlətinin tarixi ilə bağlı mövcud olan ümumiləşdirilmiş araşdırmalarda bu dövrlə bağlı müəyyən qiymətli məlumatlara rast gəlmək mümkündür. Ayrı-ayrı əsərlərdə də Şah Təhmasiblə bağlı ötəri məlumatlarla rastlaşmaq mümkündür. Sözsüz ki, hazırkı kitabın

hazırlanmasında bu maraqlı məlumatlardan istifadə olunmuşdur. Bütünlükdə isə, Şah Təhmasibin həyatı, onun hakimiyyət dövrü və dövlətçilik fəaliyyəti Azərbaycan tarixşünaslığında geniş tədqiqatın obyekti olmamışdır. Bu baxımdan Şah Təhmasibin tarixinin öyrənilməsi həm bu tarixi şəxsiyyətin həyat yolunun dəyərləndirilməsi, həm də elmi ictimaiyyətə və maraqlı dairələrə çatdırılması baxımından əhəmiyyət kəsb edir. Şah Təhmasibin həyat yolunun araşdırılması Səfəvilər dövlətinin tarixinin, eləcə də Azərbaycan tarixinin müvafiq dövrünün öyrənilməsi baxımından aktual olaraq qalmaqdadır.

Qeyd edilməlidir ki, Şah Təhmasibin həyatına və dövlətçilik fəaliyyətinə Azərbaycandan kənarda da müəyyən maraq vardır və bu marağın nəticəsi kimi Şah Təhmasib mövzusuna həsr edilmiş xeyli sayda məqalələrlə və hətta iri həcmli araşdırmalarla da rastlaşmaq mümkündür. Bu əsərlərdə Şah Təhmasibin həyatının və hakimiyyətinin müxtəlif anlarının işıqlandırılması istiqamətində elmi-tarixi əhəmiyyət kəsb edən nəticələr əldə edilmişdir. Lakin həmin əsərlərin çoxunda Şah Təhmasibin milli-etnik kökündən və mühitindən qoparılmasına, Şah Təhmasibin fəaliyyətinə tədqiqatda qarşıya qoyulan niyyət prizmasından qiymət verilməsinə aydın meyllər vardır ki, bununla əldə edilnmiş nəticələrdə bir natamamlıq vardır. Bütün qiymətli tərəfləri nəzərə alınmaqla Azərbaycandan kənarda Şah Təhmasib mövzusuna həsr edilmiş bir sıra yazılarda elə məqamlar da vardır ki, onların birmənalı şəkildə qəbul edilməsi mümkün deyildir. Bu məqamların qəbuledilməzliyinin aydınlaşdırılması, əsaslı arqumentlərin ortaya qoyulması baxımından da Şah Təhmasib tarixinin obyektiv öyrənilməsinə bir elmi-tarixi ehtiyac vardır.

Şah Təhmasib tarixinin araşdırılması Azərbaycanın hərb tarixinin Səfəvilər dövrünün öyrənilməsi baxımından da əhəmiyyət kəsb edir. Məlumdur ki, hələ Şah İsmayıl dövründən Səfəvilər dövləti həm şərqdən, həm də qərbdən güclü dövlətlərin qonşuluğunda yerləşmişdi və bu dövlətlərin də Səfəvi dövlətinə qarşı ərazi iddiaları var idi. Yəni Səfəvi dövlətinə qarşı həm şərq sərhədləri boyunca, həm də qərb sərhədləri boyunca ciddi hərbi

təhdidlər mövcud idi. Bu təhdidlərin qarşısının alınması üçün güclü müdafiə qüvvələrinə ehtiyac var idi. Həmin qüvvələr necə formalaşmışdı və Səfəvi sərhədlərinin mühafizəsində, dövlətin müstəqilliyin qorunmasında bu qüvvələrin rolunun nədən ibarət olduğunu aydınlaşdırmaqla hərbi quruculuq sahəsində görülən işlər və əldə edilən nəticələr barəsində də aydın təsəvvür əldə etmək mümkündür.

Şah Təhmasibin hakimiyyət dövrü Azərbaycanın hərb tarixində yeni bir səhifənin açılması dövrüdür. Çünki məhz Şah Təhmasibin hakimiyyəti illərində qoşunların təchizatında odlu silahlar özünə yer tapdı. Odlu silahların qoşunların təchizatına gətirilməsi onların taktikasında əsaslı islahatlarla da müşayiət olunmalı idi. Bu məsələlərin aylaşdınlaşdırılması, qoşunlarda keyfiyyət dəyişikliyinin necə baş verməsi və bunların Səfəvi dövlətinin tarixində hansı əhəmiyyətə malik olmasının aydınlaşdırılması da Şah Təhmasibin hakimiyyəti dövrünün tədqiqinə təbii bir zərurət ortaya qoymaqdadır.

Şah Təhmasib dövrünün tarixinin araşdırılması Azərbaycanın dövlətçilik, beynəlxalq münasibətlər tarixinin öyrənilməsi baxımından da aktual olaraq qalmaqdadır. Şah Təhmasibin hakimiyyət illərinin kifayət qədər uzun olması Şah İsmayıl tərəfindən formalaşdırılmış dövlətçilik aparatının daha da möhkəmləndirilməsi nəticəsində mümkün ola bilərdi. Sözsüz ki, bu istiqamətdə müəyyən addımlar atılırdı, müəyyən tədbirlər həyata keçirilirdi. Bunların aydınlaşdırılması Şah Təhmasibin dövlətçilik təfəkkürünün də aydınlaşdırılmasına imkan verə bilər. Qonşu dövlətlərin güclü hərbi təhdidlərinin qarşısında yetərli müqavimət göstərilməsi, səltənət daxilində mərkəzləşdirilmiş hakimiyyətin gücləndirilməsi də möhkəm dövlətçiliyin mövcudluğunu tələb edirdi. Bu məsələnin həllində mərkəzi hakimiyyətlə əyalət idarəçiliyinin düzgün əlaqələndirilməsinin əhəmiyyətinin aydınlaşdırılması da uyğun tədqiqatla mümkün ola bilər.

Şah Təhmasib dövründə səltənətin bəzi əyalətlərinin mərkəzdən qopma, parçalanma meylləri də var idi. Bu meyllərin qarşısının alınması və parçalanma meyllərinə birdəfəlik son

qoyulması da möhkəm mərkəzi hakimiyyətin mövcudluğu ilə mümkün ola bilərdi.

Şah Təhmasibin hakimiyyət illəri istər Səfəvi dövlətinin, istərsə də Azərbaycanın beynəlxalq münasibətləri tarixinin yeni bir səhifəsidir. Obyektiv və ətraflı tədqiqatın aparılması ilə Səfəvi dövləti ilə Osmanlı dövlətinin münasibətlərinin keyfiyyət dəyişikliklərinin necə baş verməsinin, Səfəvi dövləti ilə Hind hakimləri, Avropa dövlətləri arasında münasibətlərin necə formalaşmasına cavab tapmaq mümkündür. Bununla həm də bütünlükdə Şah Təhmasib dövrü Səfəvi dövlətinin xarici siyasətinin istiqamətlərini və hədəflərini dəyərləndirmək mümkündür.

Şah Təhmasibin hakimiyyəti illəri Azərbaycanda ədəbiyyatın, mədəniyyətin, Azərbaycan dilinin, ədəbi və mədəni məktəblər formalaşmasının yeni bir dövrüdür. Şah İsmayıldan sonra Azərbaycanda dilin, ədəbiyyatın, incəsənətin inkişafının hansı istiqamətlərdə getməsi maraq doğuran bir məsələdir. Bununla bağlı Səfəvi sarayının hansısa bir siyasətinin və ya əsaslı münasibətinin olub-olmaması ədəbiyyat və mədəniyyət tarixinin bu dövrünün mənzərəsinin müəyyənləşdirilməsi baxımından da maraq kəsb edə bilər.

Şah Təhmasibin həyat yolunun araşdırılması onun özünün həm bir dövlət xadimi kimi, həm bir təriqət rəhbəri kimi, həm də tarixi bir şəxsiyyət kimi xarakterinin açılması, ictimailəşməsi, ictimaiyyətə çatdırılması baxımından əhəmiyyət kəsb edir. Baxmayaraq ki, Şah Təhmasib Azərbaycan tarixində ən uzun hakimiyyətə malik olmuş bir hökmdardır, indiyə kimi Azərbaycan tarixşünaslığında və ictimai fikrində Şah Təhmasib haqqında tamamlanmış bir təsəvvür mövcud deyil. Hakimiyyət başında uzun bir dövrü əhatə edə bilmək heç şübhəsiz ki, Şah Təhmasibdən müəyyən keyfiyyətlərə malik olmasını tələb edə bilərdi. Bu keyfiyyətlər hansılar idi və onların formalaşması hansı amillərin təsiri altında baş vermişdi? Şah Təhmasibin elmi-intellektual, milli, fiziki potensialının üzə çıxarılması onun şəxsiyyətinin tamamlanmış portretini yaratmağa imkan verəcəyi kimi, dövlətçilik potensialının üzə çıxarılmasına da zəmin yarada bilər. Yəni elmi və

ictimai fikirdə Şah Təhmasiblə bağlı olan sualların və marağın aradan qaldırılmasının yolu da onun tarixinin ətraflı öyrənilməsi ilə bağlıdır.

Şah Təhmasibin həm də qələm adamı olması məlumdur. Ədəbi əsər nümunələrindən əlavə o özünün təzkirəsini də yazmış və həyat yolunu müxtəsər şəkildə bu təzkirədə işıqlandırmışdır. Şah Təhmasib tarixinin öyrənilməsi baxımından bu əsər dəyərli bir mənbədir. Bu əsər hələ sovet XX əsrin sonlarında illərində Əbülfəz Rəhimli tərəfindən Azərbaycan dilinə də tərcümə edilərək çap olunmuşdur. Şah Təhmasib tarixinin öyrənilməsi üçün digər dəyərli və mötəbər mənbələr olan İsgəndər bəy Münşi Türkmanın "Tarix-i aləmara-yi Abbasi" əsəri və Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri, Əbdi bəy Şirazinin "Təkmilətül-əxbar" də Azərbaycan dilinə tərcümə edilmişdir. Bu fundamental əsərlərin tərcümə edilməsində mərhum Oqtay Əfəndiyevin, professor Şahin Fərzəliyevin (Fazilin), tarix üzrə fəlsəfə doktoru Namiq Musalının və Əbülfəz Rəhimlinin böyük xidmətləri vardır. Adları çəkilən alimlərin həm də Səfəvi tarixinin və onun bir parçası olan Şah Təhmasib dövrünün araşdırılmasında gördükləri dəyərli işlər hazırkı tədqiqatın aparılması üçün faydalı bir baza olmuşdur.

Tədqiqat işinin aparılmasında fars və türk dilində olan mənbələrdən çox geniş şəkildə istifadə olunmuşdur. Bu mənbələrdən bir çoxunu artıq internet səhifələrindən də əldə etmək mümkündür. Qeyd etmək lazımdır ki, mövzunun araşdırılması üçün zəngin mənbə bazası mövcuddur. Lakin bu mənbələrdən istifadə edilməsinə tənqidi yanaşılmasına ehtiyac vardır. Çünki bu və ya digər hadisəyə müxtəlif müəlliflər tərəfindən müxtəlif şəkildə yanaşılmasına, Şah Təhmasibə münasibətdən asılı olaraq hadisələrin fərqli şərhinə rast gəlmək mümkündür. Ona görə də mənbələrdəki məlumatlardan istifadə edilməsinə diqqətlə yanaşılmasına ehtiyac vardır.

Şah Təhmasibin şəxsində Səfəvi dövlətinin 52 illik tarixinin geniş şəkildə araşdırılmasına Azərbaycan tarixşünaslığında ilk dəfə cəhd göstərildiyindən sözsüz ki, bu tarixin bütün məqam-

larının bütöv şəkildə əhatə ediləcəyini iddia etmək mümkün deyildir. Yalnız davamlı və peşəkar şəkildə aparılan araşdırmalarla Şah Təhmasibin siyasi-hərbi-mənəvi portretinin yaradılmasına, onun hakimiyyəyti illərində Azərbaycan dövlətçiliyinin inkişaf istiqamətlərinin düzgün və əhatəli mənzərəsinin ortaya qoyulmasına nail olmaq mümkündür. Ümid olunur ki, təqdim olunan hazırki əsər də Şah Təhmasib şəxsiyyətinə elmi və ictimai marağın artırılmasına bir təkan verə biləcəkdir.

Kitabın çapa hazırlanmasında məsləhətlərini və əməli köməyini əsirgəməmiş hörmətli həmkarlara müəllif məmnuniyyətlə öz səmimi minnətdarlığını çatdırır.

# I FƏSİL

# ŞAH TƏHMASİBİN HAKİMİYYƏTƏ GƏLİŞİ

## 1.Şah İsmayılın hakimiyyətinin sonunda səltənət daxilində ictimai-siyasi və hərbi şərait

Şah İsmayıl Səfəvinin 1524-cü il may ayının 23-də dünyasını vaxtsız dəyişməsi səltənət daxilində son dərəcə böyük hüzn və üzüntü ilə qarşılanmaqla yanaşı, həm də əsası bu böyük tarixi şəxsiyyət tərəfindən qoyulmuş Səfəvi dövlətinin sınaq anına çevrildi. Çünki Şah İsmayılsız bu dövlətin gələcəyinin necə olacağı məntiqi bir sual və narahatçılıq kimi ortaya çıxırdı. Doğrudur, Şah İsmayıl Səfəvi tərəfindən əsası qoyulan Səfəvi dövlətinin kifayət qədər səbatlı və dayanıqlı olması həm tədqiqatçıların araşdırmalarında öz əksini tapmış, həm də tarixi təcrübədə təsdiqlənmişdi. Bu dövlətin siyasi-iqtisadi sistemi qurulmuş, milli-mənəvi-ideoloji dəyərləri formalaşmış, ciddi müdafiə qüdrəti yaranmışdı. Səfəvi dövləti Şah İsmayılın vəfatı anında Şərqin qüdrətli dövlətlərindən biri idi və davamlı inkişaf xəttinə malik idi. Bununla belə, tarixi dövrün təcrübəsi və xarakteri səltənət işlərinin bütün sahələrində qətiyyətliliyin, tələbkarlığın və ardıcıllığın olmasını, zəifliyin, süstlüyün və məsuliyyətsizliyin aradan qaldırılmasını tələb edirdi. Şah İsmayıl tərəfindən qurulan dövlət öz gücü və qüdrəti ilə fərqlənsə də, sadalanan bu tələblərin zəruriliyini və əhəmiyyətini də istisna etmirdi. Səfəvi dövləti ətrafında formalaşmış olan tarixi şərait, bəzi hallarda səltənət daxilində hakimiyyət iddialarından irəli gələn proseslər də buna bir əsas ola bilərdi. Elə Şah İsmayıl da həyatının son günlərində Səfəvi dövlətinin gələcəyi ilə bağlı onun narahatlığına və nigarançılığına səbəb olan müəyyən məsələlərin mövcudluğunu etiraf edirdi. Şah İsmayıl qurduğu dövləti birmənalı şəkildə öz nəzarəti altında saxlaya bilsə də, bu dövlətin əsaslarına qarşı istiqamətlənmiş meyllərin olmasından da xəbərsiz deyildi. Bu meyllər istər səl-

tənət daxilində, istərsə də səltənət xaricində mövcud idi. Səltənət daxilində elə qüvvələr var idi ki, onlar hələ də mərkəzləşdirilmiş dövlətin çevrəsindən kənar qalmağı öz maraqlarına daha uyğun hesab edirdilər. Çaldıran döyüşündən sonra səltənət daxilində olan belə qüvvələrdə öz məqsədlərinin həyata keçirilməsi üçün bir fəallaşma da hiss edilməkdə idi. 1518-ci ildə Mazandaran və Gilanda, 1521-ci ildə Xorasanda yerli hakimlərin mərkəzi hakimiyyətdən qopmaq cəhdləri də bundan xəbər verirdi. Dövlətin zəifləyəcəyi təqdirdə belə meyllərin daha da güclənə biləcəyi istisna deyildi. Eyni zamanda saray çevrəsində olan əyanların daha üstün nüfuz əldə etmək üçün gizli niyyətlərə düşməsi ehtimalları da Şah İsmayılın səltənətin gələcəyi ilə bağlı nigarançılığını artırmaqda idi. Səltənət vəkili Mirzəşah Hüseyni İsfahaninin Şah İsmayılın həyatının sonlarına yaxın qətlə yetirilməsi də müəyyən dairələrin hakimiyyətdə daha üstün mövqeləri ələ keçirmək uğrunda qoşulduğu gizli mübarizənin ifadəsi ola bilərdi ki, bu da səltənətin gələcəyi üçün yeni narahatçılıq mənbəyi idi.

Bu toxunulan faktlar, əslində, kütləvi xarakter daşımırdı və Şah İsmayılın həyatının sonunda Səfəvi dövləti öz dayanıqlığı və səbatlığı ilə seçilirdi. Şah İsmayılın ətrafına toplaşan insanlar da dövlətin rəhbərinə və mürşidi-kamilə öz sədaqətləri ilə seçilirdilər. Dövlət idarəçiliyində də ən vacib məqamlara məhz Şah İsmayıla sədaqətləri ilə seçilən qızılbaş türk əyanları təyin edilmişdilər. Bu təyinatların aparılması zamanı səltənətə sədaqətliliklə bərabər, idarəçilik qabiliyyətinin mövcudluğu Şah İsmayıl üçün mühüm meyarlardan biri idi. Ona görə idi ki, səltənət daxili idarəçilikdə bir ahəngdarlıq, davamlılıq özünü göstərirdi. Şah İsmayıl özü də öz şəxsi keyfiyyətləri ilə dövlətin idarəçiliyində xüsusi təsirə malik olan əyanlarının şəxsi və idarəçilik keyfiyyətlərinə nümunə idi. Bu da geniş mənada səltənət daxilində səbatlılığa yol açan atmosferanın formalaşmasına birbaşa müsbət təsir göstərirdi.

Mövcud olan idarəçilik sistemi səltənət daxili səbatlı ictimai-siyasi şərait üçün güclü bir zəmin idi. Bu idarəçilik sistemi Şah İsmayıl tərəfindən yaradılmışdı. Həmin sistemdə dövrün

təcrübəsindən və ənənələrindən irəli gələn elementlər öz yerini saxlasa da, Şah İsmayılın siyasi-ideoloji baxışlarından doğan yeni elementlər də özünə yer tapmışdı. Dinin və siyasətin üzvü şəkildə əlaqələndirilməsi Səfəvi dövlətinin ictimai-siyasi həyatının mühüm tərəflərindən biri idi. Səltənət müsəlmanlarının dinə, şəriətə, imana olan etiqadı dövlətə və dövlət başçısına olan sədaqəti kimi qəbul edilirdi (1). Dinin və məzhəbin insanların həyatında böyük təsirə malik olması bu insanların dövlət və dövlətçiliyə rəğbətli münasibətini daha da gücləndirirdi. Başqa sözlə, dini dəyərlərin siyasi dəyərlərlə çulğaşması səltənət daxilində səbatlı ictimai-siyasi münasibətlərin formalaşmasına da yol açırdı. Şah İsmayılın mürşidi-kamil, yəni təriqət rəhbəri olması isə səltənət müsəlmanlarının onun ətrafında birləşməsinə, bununla dini etiqadın siyasi etiqadla qovuşmasına zəmin yaradırdı. Şah İsmayılın dövründə Səfəvi təriqəti inkişafının və nüfuzunun zirvəsində idi. Bu təriqət dövrün ən kütləvi islam təriqətlərindən biri idi və bu təriqətə mənsub olan çox böyük sayda insanlar Səfəvi dövlətinin daxili və xarici ictimai-siyasi şəraitinin formalaşmasına da əhəmiyyətli təsir göstərirdi. Bəzi tədqiqatçıların fikrincə isə, Şah İsmayılın hakimiyyəti illərində səltənətin əsas məzhəbi olan şiəlik səltənət daxilində birliyin və ittihadın mövcudluğunu təmin edən ideoloji bazıs idi (2).

Məlumdur ki, şiə məzhəbi Səfəvi dövlətin rəsmi məzhəbi olduğu üçün onun insanlara qəbul etdirilməsi müəyyən fiziki təzyiqlərlə də müşayiət olunurdu. Doğrudur, bu təzyiqlər öz ənənəvi məzhəbini dəyişmək istəməyən dairələr tərəfindən heç də birmənalı qarşılanmırdı. Lakin Şah İsmayılın dünyasını dəyişmək ərəfəsində səltənət daxilində məzhəb zəminində ciddi ictimai-siyasi narahatçılığa səbəb ola biləcək bir baza mövcud deyildi. Şah İsmayıl tərəfindən Şah Təhmasibin təriqət rəhbəri elan edilməsi isə dini zəmində olan sabitliyin yeni hakimiyyət dövründə də davam edəcəyinə bir ümid yaradırdı.

Şah İsmayılın hakimiyyəti illərində səltənət daxilində ictimai-siyasi sabitliyi və dayanıqlığı təmin edən amillərdən biri Səfəvi dövlətinin Azərbaycan türk tayfalarına dayaqlanması idi.

Məlumdur ki, şamlı, rumlu, ustaclı, təkalu, əfşar, qacar və zülqədər tayfaları Səfəvi dövlətinin qurulmasında və təşkilatlanmasında aparıcı rolu oynayırdılar. Sonralar daha çox qızılbaşlar adı altında xatırlanan bu tayfalar dövlət idarəçiliyində mühüm rola malik idilər və onların bu sahədəki fəaliyyəti səltənət daxilində sabitliyin təmin edilməsində də xüsusi əhəmiyyət kəsb edirdi. Şah İsmayıl bu tayfaların əyanları ilə öz hərəkatına başlamış və əsasını qoyduğu hakimiyyətin idarəçiliyini də onların üzərində qurmuşdu. Saray əyanları, əyalət hakimləri, qoşun rəhbərləri başlıca olaraq məhz qızılbaş tayfaları arasından seçilirdi. Doğrudur, Şah Təhmasibin hakimiyyətə gəlməsi ərəfəsində səltənət idarəçiliyinin ayrı-ayrı vəzifələrinə mənbələrdə və elmi ədəbiyyatda tacik kimi təqdim olunan farsdilli əyanların təyin edilməsi ilə də rastlaşmaq mümkündür (3). Lakin bu hal kütləvi xarakter daşımırdı. Yəni qızılbaş tayfaları səltənətin hərəkətverici və aparıcı qüvvələri kimi qalmaqda idi. Ona görə Şah İsmayıl da səltənət daxilində ictimai-siyasi və hərbi sabitliyin təmin edilməsində bu tayfalara xüsusi olaraq istinad edirdi.

Qızılbaş tayfaları həm də Şah İsmayılın qurduğu qoşunların əsasını təşkil edirdi ki, həmin qoşunların da səltənətin hərbi-siyasi sabitliyinin təmin edilməsində böyük rolu var idi. Şah İsmayılın istər başladığı hərəkatın mərkəzində, istərsə də yaratdığı dövlətin sərhədlərinin genişləndirilməsində və səltənət daxilində hərbi sabitliyin qorunmasında bu qoşunların rolu danılmaz idi. Təriqət-məzhəb etiqadı səltənət daxilindəki və xaricindəki hərbi-siyasi şəraitin formalaşmasında mühüm əhəmiyyət kəsb edən bu qoşunların təşkilatlanmasında başlıca meyarlardan biri olması səltənət ətrafında sabit hərbi-siyasi mühitin formalaşmasına da imkan verirdi. Şah Təhmasibin hakimiyyətə gəlməsi ərəfəsində də Səfəvi qoşunları bölgənin ən güclü qoşunlarından biri olaraq qalmaqda idi. Bu da səltənətə qarşı istiqamətlənmiş daxili və xarici hərbi təhdidlərin qarşısının alınmasında güclü bir vasitə idi.

Məlumdur ki, Şah İsmayılın hakimiyyəti illərində Səfəvi qoşunlarının istifadəsində odlu silahlar yox idi. Bu cəhət Səfəvi qoşunlarını qonşu dövlətlərin qoşunları qarşısında, konkret ola-

raq Osmanlı qoşunları qarşısında həssas bir duruma sala bilərdi. Əslində, tarixi dövr özü də odlu silahların istifadəsini kifayət qədər aktuallaşdırmışdı. Hərb işində ciddi yenilik kimi dəyərləndirilən odlu silahdan kənar qalmaq Səfəvi dövlətinin hərbi-siyasi şəraitinə mənfi təsir göstərə bilərdi. Odlu silahların qoşunların istifadəsinə gətirmək üçün hələ Şah İsmayılın sağlığında müəyyən cəhdlər göstərilmiş və Avropa dövlətləri ilə hərbi-texniki əməkdaşlıq qurulması istiqamətində müəyyən addımlar atılmışdı (4). Lakin bu cəhdlər gözlənilən nəticəni vermədi və Şah Təhmasib hakimiyyətə gələndə Səfəvi qoşunlarının ixtiyarında odlu silahlar bəzi istisnalar olmaqla mövcud deyildi. Bununla belə, Səfəvi qoşunları güclü bir zərbə qüvvəsi olaraq qalmaqda və səltənətin hərbi-siyasi şabitliyini qorumaq imkanında idi.

Səfəvi qoşunlarının güclü olmasını, əslində, tarixi şərait də tələb edirdi. Çünki həm Osmanlı dövləti tərəfindən, həm də şərqdə Şeybani qoşunları tərəfindən Səfəvi dövlətinə qarşı hərbi təhlükə qalmaqda davam edirdi. Şah İsmayılın hakimiyyəti illərində Şeybani qoşunlarına güclü zərbə vurulmaqla Xorasan bütünlüklə Səfəvi dövlətinin hüdudları tərkibinə qatılsa da, özbək xanları tərəfindən itirilmiş ərazilərin geri alınması niyyəti heç də aradan qalxmamışdı. Bunun üçün cəhdlər də göstərilmişdi. Amma Şah İsmayılın qətiyyətli tədbirləri nəticəsində səltənətin şərq sərhədlərinin bütövlüyünü təmin etmək mümkün olmuşdu. Özbək xanları Şah İsmayıl qoşunlarının mübarizliyi nəticəsində geri çəkilmək məcburiyyətində qalmışdı. Baxmayaraq ki, özbək xanları ilə Səfəvi sarayı arasında sərhəd xəttinin pozulmaması haqqında razılaşma əldə edilmişdi, lakin səltənətin şərq sərhədlərinin təhlükəsizliyinə ciddi bir əminlik yox idi. Şah Təhmasibin hakimiyyətə gəlməsi ərəfəsində də özbək qoşunları tərəfindən səltənətin şərq sərhədlərinə istiqamətlənə biləcək təhlükə istisna deyildi. Yəni səltənətin şərq sərhədlərində hərbi-siyasi şəraitin mürəkkəbləşməsinə yol aça biləcək bir gərginlik ocağı var idi.

Şah Təhmasibin hakimiyyətə gəlməşi ərəfəsində səltənətin hərbi-siyasi şəraitinə mənfi təsir göstərə biləcək gərginlik ocaqlarından biri də qərb sərhədlərində qalmaqda idi. 1514-cü ildə baş

verən Çaldıran döyüşündən sonra Osmanlı qoşunları Səfəvi dövlətini bütünlüklə çökdürə bilməyərək geri çəkilib qərb sərhədi boyunca yerləşən bir sıra məntəqələri ələ keçirdi. Amma Osmanlı sarayı bununla da kifayətlənmədi. Çünki Çaldıran döyüşünün nəticələri ilə Səfəvi dövlətinin qüdrətinə və əzəmətinə güclü bir zərbə vurmaq mümkün olmadı. Xüsusən, onu daxildən parçalamaq cəhdləri bir nəticə vermədikdə Osmanlı dövlətinə qarşı qoşun çıxarılması yenidən aktuallıq kəsb etməyə başladı. Əks təqdirdə Səfəvi dövlətinin güclü bir dövlət kimi mövcudluğu Osmanlı dövlətinə ciddi bir təhlükə təşkil edə bilərdi. Buna yol verməmək üçün Osmanlı sarayı məlumdur ki, 1520-ci ildə Səfəvi dövləti üzərinə yenidən qoşun çəkdi. Yalnız Osmanlı sultanı Sultan Səlimin qəfil dünyasını dəyişməsi bu hücumun davam etməsinə imkan vermədi. Lakin bu heç də Osmanlı dövləti ilə Səfəvi dövləti arasındakı gərginliyin bütünlüklə aradan qalxması demək deyildi. Səfəvi sarayı üçün gizli deyildi ki, münasib şərait yetişən kimi Osmanlı qoşunları yenidən səltənətin qərb sərhədlərini aşa bilərlər. Bu nigarançılıq Şah Təhmasibin hakimiyyətə gəldiyi vaxt da mövcud idi.

Səltənətin cənub sərhədləri boyunca isə Portuqaliya dövləti ilə münasibətlər müəyyən nigarançılıq doğururdu. Bölgədə öz maraqlarını ərazilər ələ keçirmək hesabına qorumağa çalışan Portuqaliyanın fəallaşması Səfəvi dövlətinin maraqlarına cavab vermirdi və cənub sərhədləri boyunca təhlükəsizliyin təmin edilməsi Portuqaliya ilə uyğun münasibətlərin yaradılmasını tələb edirdi.

Qeyd edilməlidir ki, Səfəvi dövləti də dövrün xüsusiyyətlərinə uyğun olaraq yalnız siyasi yekdillik və maraqlar üzərində qurulan bir dövlət deyildi. Bu dövlət həm də gücə dayaqlanan bir dövlət idi. Yetərli gücə malik olmayacağı təqdirdə Səfəvi dövlətinin mövcudluğunun şübhə altında qalacağı kimsəyə gizli deyildi. Şah İsmayılın özünə də gizli deyildi ki, Səfəvi təriqətçiliyi ilə bərabər bu təriqətçiliyə və qızılbaşlığa dayaqlanan güc Səfəvi dövlətinin meydana gəlməsinin əsas vasitələrindən biri olmuşdu. Bu gücün formalaşmasında isə Şah İsmayıl (İsmayıl Mirzə) özü

aparıcı rol oynayırdı. Şah Təhmasibdən fərqli olaraq Şah İsmayıl hakimiyyətə gələndə özü ətrafında formalaşmış olan gücün hərəkətverici qüvvəsi idi. O, rəhbərlik etdiyi qoşunlarda kimsədən geri qalmayacaq bir qılınc sahibi idi və hərbi keyfiyyətləri ilə bütün qoşun əhlinə nümunə idi. Şah İsmayıl həm də qoşun komandanı idi, ən ciddi döyüşlərdə qoşunlara komandanlıq edirdi, qoşunları istiqamətləndirirdi. Şah Təhmasib isə hakimiyyətə yiyələnəndə hələ o yaşa çatmamışdı ki, əsil döyüşçü üçün zəruri olan keyfiyyətlərə malik olsun, qoşunları öz ardınca apara bilsin, döyüşgənliyi ilə ətrafında güc formalaşdıra bilsin. Bu məsələ də həyatının sonlarında Şah İsmayılın narahatçılığına səbəb olan məqamlardan biri idi. O ehtiyat edirdi ki, müxtəlif mənsəb sahibləri öz ətrafında güc formalaşdırmaqla Şah Təhmasibin hakimiyyətindən boyun qaçıra və bununla səltənətin hərbi-siyasi durumuna da dağıdıcı təsir göstərə bilərlər. Onun bu narahatçılığı mənbələrdə də öz əksini tapmışdır. Mənbələrdən birinin verdiyi məlumata görə, Şah İsmayıl ehtiyat edirdi ki, onun dünyadan getməsi ilə küncdə-bucaqda gizlənib gözləmə mövqeyində olan fitnə-fəsad sahibləri yeni yaranan şəraitdən istifadə etməyə çalışaraq öz dağıdıcı əməllərinə başlaya bilərlər (5).

"Aləmara-yi Şah İsmayıl" əsərində Şah İsmayılın bu narahatçılığı daha geniş şəkildə təsvir edilmişdir (6). Bu əsərdə verilən təsvirə görə, Şah İsmayıl həyatının son günlərində Təhmasib Mirzə (Şah Təhmasib) ilə görüşəndə onun və eləcə də yaratdığı dövlətin gələcəyinə olan nigarançılığını gizlədə bilmədi. O, ətrafına toplaşmış əyanlarına keçirdiyi döyüşləri xatırlatmaqla böyük zəhmət və fədakarlıq hesabına yarada bildiyi dövlətin zay ola biləcəyi ehtimalını üzüntü ilə qarşıladığını bəyan etdi. O istisna etmirdi ki, qılıncının zərbindən qorxub dağlarda gizlənmiş hakimiyyət həvəskarları onun dünyasını dəyişməsindən sonra hərəkətə gələcək və qızılbaş qoşunlarına qarşı "ədəbsizlik" nümayiş etdirəcəklər. Bu da öz növbəsində onun qurduğu dövləti və eləcə də Şah Təhmasibin həyatını ciddi təhlükə qarşısında qoya bilərdi. Belə bir vəziyyətin qarşısının alınması üçün Şah İsmayıl yeganə çarə kimi qızılbaş əyanlarından birinin Şah Təhmasibə vəkil təyin

edilməsində görürdü. Amma bu məsələdə də arxayınçılığa səbəb olacaq bir seçim edilməsi elə də asan olmadı. Şah İsmayıl elə bir qızılbaş əyanını səltənət vəkili etmək istəyirdi ki, həm səltənətin idarəsi üçün yetərli təcrübəsi, həm səltənət daxilində yetərli nüfuzu, həm də Şah Təhmasib hakimiyyətinə yetərli sədaqəti olsun. Çətin olsa da Şah İsmayıl nəhayət ki, öz seçimini etdi və bu seçimini Div Sultan üzərində dayandırdı. Şah İsmayıla görə, qızılbaş əyanları arasında səltənət vəkili vəzifəsinə Div Sultandan yaxşı namizəd yox idi və bu fikrini o, saray əyanlarına və əmirlərinə də acıqladı. Sonra da Div Sultana dedi ki, onu oğlu Təhmasib Mirzənin vəkili təyin edir. Şah İsmayılın buyuruğuna əsasən, Div Sultan 7 il vəkili-mutləq olmalı, bütün saray əmirləri, qızılbaş qoşunları, sufilər birmənalı şəkildə ona itaət etməli idilər. Amma bir şərtlə ki, gərək Div Sultan qızılbaş qoşunlarını incitməyəydi və qoşun əhlini narazı salmayaydı. Şah Təhmasib 18 yaşına catandan sonra isə dövlət idarəciliyini bütünlüklə öz əlinə almalı idi.

Səltənət daxilində hərbi-siyasi səbatlığın davamlı olması üçün Şah İsmayıl bir tərəfdən qoşuna qayğı göstərilməsini tövsiyə edirdisə, digər tərəfdən də əyanlar arasında birliyin və yekdilliyin olmasını lazım bilirdi. O şübhə etmirdi ki, güclü qoşunun və daxili yekdilliyin mövcudluğu səltənət daxilində ictimai-siyasi və hərbi sabitliyin də əsasıdır.

## 2. Şah Təhmasibin hakimiyyətinin başlanması

Şah İsmayılın dünyasını dəyişməsindən sonra onun vəsiyyəti əsasında Səfəvi şahı elan edilmiş Təhmasib Mirzə (Şah Təhmasib) 1514-cü il fevral ayının 22-də İsfahan yaxınlığındakı Şəhabad kəndində anadan olmuşdu. Hicri qəməri tarixi ilə Şah Təhmasibin doğum tarixi 919-cu ilin zilhəccə ayının 26-na təsadüf edir. Mənbələrin verdiyi məlumata görə, Təhmasib Mirzə çərşənbə günü sübh çağı anadan olmuşdu (7). Bəzi mənbələrdə və tarixi ədəbiyyatda Şah Təhmasibin doğum gününün fərqli tarixi ilə də qarşılaşmaq mümkündür. Məsələn, “Rövzətüs səfəviyyə”

əsərinin tərtibçiləri tərəfindən onun 1513-ci ildə anadan olması (8), İsgəndər Münşinin "Tarix-e aləmara-y Abbasi" əsərinin professor Şahin Fazil tərəfindən edilmiş tərcüməsində isə Şah Təhmasibin fevral ayının 26-da anadan olması göstərilmişdir (9). Amma araşdırmaçılar və tədqiqatçılar daha çox yuxarıda göstərilən tarix üzərində (22 fevral 1514-cü il) dayanırlar.

Mənbələrdən o da məlum olur ki, Təhmasib Mirzənin anadan olduğu Şəhabad kəndi sonradan onun şərəfinə Şah Abad adlandırılmışdı (10). Bu məqama toxunan mənbələrin demək olar ki, hamısı Təhmasib Mirzənin dünyaya gəlişini son dərəcə sevinclə və səxavətlə təsvir etmişlər. Məsələn, "Rövzətüs səfəviyyə" müəllifi Təhmasib Mirzənin doğuluşunu qönçənin qışda gülə çevrilməsi, səltənət bürcündən dürr doğması, xilafət sədəfindən gövhər cilvələnməsi kimi təqdim etmişdir. Sonra bildirilir ki, Səfəvi padşahının dövlət bağçasında açan bu qızıl gülün ətri aləmə yayıldı. Müəllifə görə, Təhmasib Mirzənin doğuluşu ilə insan sifətində olan bir mələk bu dünyaya qədəm basdı, zamanı öz nuruna boyadı və sevinc qapısını rüzgarın üzünə açdı. Mənbənin məlumatına görə, Təhmasib Mirzənin dünyaya gəlişi yalnız Şah İsmayılın deyil, onun ətrafının da böyük sevincinə səbəb oldu. Buna görə idi ki, nüfuzlu əmirlər, yüksək məqamlı vəzirlər və digər əyanlar çoxlu sayda qiymətli daşlar və gövhərlər nəzir verməklə səltənət varisinin doğulması ilə bağlı yaradana öz şükürlərini çatdırdılar (11).

Başqa bir mənbədə isə bildirilir ki, tanrının feyzindən aləmin padşahının bəxt ağacı İsfahan gülşənində murad meyvəsi verdi. Bu mənbənin məlumatına görə, Təhmasib Mirzənin doğuluşundan əvvəl Şah İsmayılın övlad sahibi olmağa elə də böyük marağı yox idi. Lakin Təhmasib Mirzənin dünyaya gəlişi onun sonsuz sevincinə səbəb oldu. Sonra da Əmir Seyid Şərif adlı birisinə tapşırıldı ki, Təhmasib Mirzənin gələcək taleyinin necə qurulacağına baxsın. Bundan sonra Əmir Seyid Şərif də nücum sahəsində malik olduğu təcrübəsinə uyğun olaraq Təhmasib Mirzənin gələcək taleyinin necə qurulacağını müəyyənləşdirməyə çalışdı. Əmir Seyid Şərif Təhmasib Mirzənin taleyinin sevincli olacağını,

hələ cavan yaşlarında ikən cahan taxtına qədəm qoyacağını, dünyanı öz ədaləti və səxavəti ilə bəzəyəcəyini, hakimiyyətinin uzun müddətli olacağını bəyan etdi (12). Əmir Seyid Şərifin bu açıqlaması sözsüz ki, həm Şah İsmayıl, həm də onun ətrafındakılar tərəfindən böyük bir sevinclə qarşılandı.

"Tarix-i aləmara-yi Abbasi" əsərində isə Təhmasib Mirzənin dünyaya gəlməsi və onun ilk uşaqlıq illəri belə təsvir edilmişdir: "Cəm məqamlı (Cəmcah), cənnətməkan, alışan şahın şahzadələr zümrəsinin izzətli və böyük övladı [olan Təhmasib Mirzə] qələbə bəxtli (firuzbəxt) Kəsr və Keyqubad taxtına layiq [bir padşah] idi. O həzrətin səadətli təvəllüdü (veladət) doqquz yüz on doqquzuncu ilin zülhiccətül-həram ayının iyirmi altısında (miladi 1514, 26 fevral) çəharşənbə günündə İsfahana məxsus Şəhabad kəndində (qərye) doğulmuşdur. Ağalıq məclisinin uzaqgörən (durbin) adamları o həzrətin təvəllüdünü "Şəhabade-mobarək" ("Mübarək Şəhabad") və "meymun" ("xoşbəxt") sözləri ilə əlaqələndirərək onun padşahlığı və cahandarlığı barədə fal açmışlar. Üstürlab-danlar onun xoşbəxt taleli ziclərinə (zayece) əsasən sübut etdilər ki, tezliklə şərafətli vücudu xosrovluq taxtının (ovrəng) bəzəyi olacaq, dövlət günəşi aləmi işıqlandıracaqdır. Qeyb aləmindən gələn "aftabe-aləməfruz" ("aləmi işıqlandıran günəş") sözləri onun təvəllüdünün maddeyi tarixidir. Süleyman şanlı xaqan yaşadığı dövrdə yaşının azlığına baxmayaraq, Xorasan mülkünün idarəçiliyində başqa qardaşlarından artıq imtiyaz sahibi oldu, Herat şəhərində böyüdü. Amma, onun lələsi olan Əmir xandan bəzi bəyənilməz hərəkətlər göründüyündən [şahzadə] hakimlikdən çıxarıldı, ali saraya çağırıldı. Bir müddət möhtərəm atasının yanında qaldı. Səltənət və cahandarlıq əsəri onun bütün hümayun hərəkətlərində özünü göstərməkdəydi. Hümayun alnında ilahi nurlar şüa saçmaqdaydı" (13).

"Aləmara-yi Şah İsmayıl" əsərində isə Təhmasib Mirzənin anadan olması həm daha geniş, həm də digər mənbələrə nisbətən bir qədər fərqli şəkildə öz ifadəsini tapmışdır. İstər bu mənbədən, istərsə də digər mənbələrdən məlumdur ki, Təhmasib Mirzənin anası Taclı bəyim idi və onun dünyaya gəlişi Şah İsmayılın Xo-

rasana növbəti yürüşündən geri dönərkən baş vermişdi. Yəni belə məlum olur ki, Taclı bəyim Xorasan yürüşündə Şah İsmayılı müşayiət edirdi. Hərbi yürüşlərə çıxarkən şahların, əyanların, qoşun başçılarının və digərlərinin öz hərəmlərini, qulluqçularını də bu yürüşə aparmaları ənənəvi təcrübə idi və ona görə Taclı bəyimin də Xorasan yürüşündə Şah İsmayılı müşayiət etməsi təbii sayılmalıdır. Mənbələrdən məlumdur ki, Şah İsmayıl qoşunları ilə birlikdə 1513-cü ilin may ayında Sultaniyyədən Xorasana doğru hərəkətə başladı. Çox güman ki, o zaman Taclı xanım hələ Təhmasib Mirzəyə hamilə deyildi. O da yəqindir ki, hətta onun hamiləliyi bəlli olanda belə Şah İsmayıl xanımının saraya qaytarılmasını istəməmişdi. Ona görə də Taclı xanım da hamiləlik dövrünü hərbi yürüşdə keçirməli olmuşdu. Yalnız Xorasandan geri qayıdarkən İsfahan yaxınlığında Təhmasib Mirzə dünyaya gəlmişdi.

"Aləmara-yi Şah İsmayıl" əsərinə görə, İsfahan ətrafına yetişəndən sonra Şah İsmayıl xacəsaraylara və xidmətçilərə göstəriş verir ki, hamiləliyinin son günlərini yaşayan Taclı xanımı götürüb özlərini tezliklə İsfahana yetirsinlər. Çünki Şah İsmayıl Taclı xanımın doğuşunun uyğun şəraitin olmadığı bir yerdə baş verməsini istəmirdi. Xacəsaraylar və xidmətçilər də şahın göstərişinin icrasına başlayırlar və Taclı xanımı da götürərək İsfahana doğru üz tuturlar. Lakin qısa müddətdə İsfahana yetişmək bu dəstəyə qismət olmur. Çünki yolda ikən bu dəstə güclü yağış və tufanla qarşılaşır və ona görə də irəli hərəkət etmək də mümkünsüz olur. Onda qərara alınır ki, yaxınlıqdakı yaşayış məntəqələrinin birində sığınacaq tapılsın. İsfahan şəhərinə təxminən iki fərsəx məsafədə yerləşən kənddə bu dəstə özünə sığınacaq tapır. Adı çəkilən mənbədə bu kəndin adı "Rənan" kimi göstərilmişdir. Mənbədə göstərilməyən səbəblərə görə, kəndin insanlarının çoxu öz ev-eşiyində deyilmiş. Amma dəstə üzvlərinin yaratdığı səs-küydən sonra kəndin başçısı olan Yusif adlı birisi bu dəstəyə yaxınlaşır və nə baş verdiyini öyrənməyə çalışır. Taclı xanımı müşayiət edən dəstəsinin görünüşü, bahalı kəcavələr, yaxşı bəzədilmiş atlar Yusifdə belə bir fikir yaradır ki, bu dəstə yüksək

mənsəbli Səfəvi əyanlarından birinə və ya elə şahın özünə məxsusdur. Biləndə ki, Taclı xanım doğuş ərəfəsindədir və ona kömək lazımdır, onda onu öz evinə aparır və onun üçün lazımi şərait yaradır. Sonradan Yusifə məlum olur ki, doğrudan da Taclı xanım şah hərəminə məxsusdur və onu müşayiət edənlər də saray xidmətçiləridir. Təhmasib Mirzə dünyaya gələndən sonra Taclı xanım məktub yazaraq onun Şah İsmayıla çatdırılmasını Yusifdən xahiş edir (14).

Təhmasib Mirzənin dünyaya gəlməsindən cox sevinən Şah İsmayılın göstərişi ilə məktub gətirən Yusifə qiymətli hədiyyələr bağışlandı. Bundan başqa Yusifin yaşadığı ərazidə padşah əmlakı sayılan ərazilər də syurqal kimi ona verildi. Yusif sonra geri qayıdıb Şah İsmayılın onun evinə qonaq gəlməsinə hazırlaşmağa başladı. Mənbədə Şah İsmayılın qarşılanması ucun Yusif tərəfindən təmtəraqlı tədbirlər görülməsi, Şah İsmayıla çoxlu sayda qiymətli hədiyyələr hazırlanması haqqında geniş təsvir verilmişdir. Başlıcası isə Yusif böyük sevinclə bu işi gördü. Şah İsmayıl bu təmtəraqı görəndən sonra Yusifə dedi ki, sən mənim atam yaşındasan, evin abadan olsun. Şah İsmayıl Yusifin evində qonaq olub istirahət etdikdən sonra öz əyanlarına münəccimlər vasitəsilə Təhmasib Mirzənin gələcək taleyi haqqında məlumat verilməsini tapşırdı. Mir Məhəmməd adlı seyid ona ərz etdi ki, Kaşanda Mövlana Nəsir adlı tanınmış bir münəccim vardır və onun münəccimlik sahəsindəki təcrübəsindən faydalanmaq yaxşı olar. Şah İsmayıl da Mövlana Nəsirin ardınca Kaşana adam göndərdi. Mövlana Nəsir gəlib Şah İsmayılın hüzuruna yetişəndən sonra Şah Təhmasibin aqibəti haqqında müşahidələrini acıqladı. O bildirdi ki, Təhmasib Mirzə gələcəkdə padşah olacaq, 25 ilə yaxın islam yolunda qılınc çalacaq, Osmanlı padşahı onun qarşısında məğlub duruma düşəcək və sonra 30 il o öz qılıncını qınından cıxarmaq məcburiyyətində qalmayacaq, onun hakimiyyəti illərində ədalət hökm sürəcək, əmin-amanlıq bərqərar olacaq və onun çoxlu sayda övladları olacaqdır. Təhmasib Mirzənin anadan olmasının yeddinci günü sevinc və şadyanalıqla qeyd olundu. Mənbə bildirir ki, elə həmin günlərdə Şah İsmayıl öz yuxusunda

Həzrət Əlini gördü və onun tövsiyəsi ilə yeni dünyaya gəlmiş övladına Təhmasib adını verdi (15).

Təhmasib Mirzənin uşaqlığının necə keçməsi barəsində mənbələrdə yetərli məlumat yoxdur. Məlum olan odur ki, doğulan kimi Təhmasib Mirzəyə lələ təyin olunmuşdu. Bu lələ Əmir Soltan Mosullu idi (16). Əmir Soltan Mosullunun Təhmasib Mirzəyə lələ təyin edilməsi Təhmasib Mirzənin Xorasana göndərilməsi vaxtına təsadüf edir. Çaldıran döyüşündən sonra bu bölgədə vəziyyət gərginliyi ilə seçilirdi. Sultan Səlim Şah İsmayıl ilə apardığı döyüşü öz xeyrinə başa çatdırdıqdan sonra özbək xanı Übeyd xanı da Xorasan üzərinə hücuma təhrik etdi. Doğrudur, bu təhrikin nəticəsi olaraq o, Xorasan üzərinə qoşun çəkmədi. Lakin Xorasanda vəziyyət mürəkkəb olaraq qalırdı. Çünki bir tərəfdən müharibə dağıntıları, bir tərəfdən vilayətdə qıtlığın və aclığın baş alıb getməsi, bir tərəfdən də vilayətin idarəçiliyində mövcud olan çətinliklər bu bölgənin əhalisinin yaşayış vəziyyətini də xeyli mürəkkəbləşdirmişdi. Bölgənin bəzi hakimlərinin isə mərkəzdən qopmaq cəhdləri də öz növbəsində vilayətin vəziyyətini mürəkkəbləşdirirdi. Bu çətinliklərin aradan qaldırılması, xüsusi ilə aclığın və qıtlığın həlli üçün səmərəli işlərin görülməsi üçün vilayət daxili hakimlər Şah İsmayıla müraciət etməyi qərara aldılar. Ona görə də Bəlx hakimi Div Sultan, Herat hakimi Zeynal xan və Qain hakimi Əmir Sultan Təbrizə yollandılar, Şah İsmayıl ilə görüşdülər və Xorasan vilayətində mövcud olan vəziyyət haqqında ətraflı məlumat verməklə ondan kömək göstərilməsini xahiş etdilər. Şah İsmayıl təbii olaraq Xorasanda vəziyyətin mürəkkəbləşməsindən narahatçılıq keçirdi və bu vilayətdə vəziyyətin düzəldilməsi üçün qətiyyətli tədbirlərin həyata keçirilməsini lazım bildi. Buna görə idi ki, Şah İsmayıl kiçik yaşlı oğlu Təhmasib Mirzəni Xorasan hakimi təyin etdi və onun Xorasana göndərilməsinə qərar verdi. Bu zaman Təhmasib Mirzə ikinci yaşında idi. Məlum idi ki, bu yaşında olan bir uşaq vilayət idarəçiliyini öz üzərinə götürə bilməzdi. Şah İsmayıl oğlunu bu vilayətin hakimliyinə təyin etməklə, əslində, bu vilayətə çox ciddi diqqət ayırdığını nümayiş etdirirdi. Vilayətin idarəçiliyini isə

real olaraq Təhmasib Mirzəyə lələ (hami) təyin edilmiş Əmir Sultan Mosullu həyata keçirməli idi. Bu məsuliyyətli iş həvalə olunduqdan sonra Əmir Sultan Mosulluya Şah İsmayıl tərəfindən xan məqamı da verildi. Eyni zamanda ona tapşırıldı ki, Əmir xan Mosullu öncədən Xorasana yollansın və Təhmasib Mirzənin vilayət hakimi təyin edilməsi haqqında şah fərmanı vilayətə çatdırmaqla mövcud aclığın qarşısının alınması istiqamətində konkret tədbirlər həyata keçirsin (17).

Təhmasib Mirzənin Herata çatması 1516-cı ilin aprelinə təsadüf edir (18). Heratda onun qarşılanması üçün müəyyən hazırlıq işləri aparılmışdı. Əslində, bu qarşılanma məcazi bir məna daşıyırdı. Bununla yerli əhaliyə daha açıq və qabarıq şəkildə göstərilirdi ki, vilayətin hakimliyi vəzifəsinə şah övladı təyin edilmişdir və bu təyinata xüsusi əhəmiyyət verilir. Həm Təhmasib Mirzənin gəlişi münasibəti ilə, həm də onun qarşılanmasından sonra Herat əhalisinə çoxlu hədiyyələr bağışlandı, insanlarının çətinliklərinin həlli üçün ilkin cəhdlər göstərildi. Təhmasib Mirzənin lələsi və eləcə də onun yanında Xorasana göndərilmiş əyanlar da yaxşı bilirdilər ki, övladını bu vilayətə göndərməklə Şah İsmayıl burada baş verənlərə biganə deyil. Ona görə onlar da vilayətin idarəçiliyində mümkün işgüzarlıq nümayiş etdirməyə başladılar. Bu da az sonra vilayətin vəziyyətində özünü göstərməyə başladı.

Təhmasib Mirzənin şahlıq taxtına çıxmasına qədər olan bütün həyatı demək olar ki, Xorasanla bağlıdır. O, təxminən səkkiz ilə yaxın Xorasanda yaşamalı oldu. Bu dövrdə onun şəxsi qayğılarının xarakteri haqqında da mənbələrdə məlumatla rastlaşmaq çətindir.

Məlumdur ki, Xorasanda yaşadığı vaxtlar Təhmasib Mirzə vilayət sədrinin (dini işlərin rəhbərinin) yanında təhsil alırdı. Xorasanda olduğu dövrdə Təhmasib Mirzənin adı mənbələrdə daha çox vilayətdə baş verən hərbi-siyasi hadisələrlə bağlı xatırlanmaqdadır. Bu da bir tərəfdən təbiidir. Çünki heç 10 yaşına çatmamış bir uşağın vilayət idarəçiliyində hansısa xüsusi bir fəallığa malik olmasını söyləmək çətindir. Amma onu da istisna

etmək olmaz ki, Təhmasib Mirzənin böyüməsi və tərbiyələnməsi nəzarət altında idi və lələsi də bu məsləyə məsuliyyət daşıyırdı.

Müəyyən ümidlər bağlanmasına baxmayaraq, Təhmasib Mirzəyə lələ təyin edilmiş Əmir xan Mosullunun səmərəli fəaliyyəti çox da uzun sürmədi. Mənbə məlumatlarına görə, Əmir xan Mosullu iki il ərzində ona tapşırılan vəzifəni sədaqətlə yerinə yetirdi. Lakin sonradan bu insanda da şəxsi iddiaların böyüməsi özünü göstərməyə başladı. Hətta mənbələrdə onun Osmanlı sarayı ilə müəyyən əlaqələr qurması və onun Osmanlı sarayı tərəfindən Səfəvi dövlətinə qarşı təhrik edilməsi haqqında da məlumat vardır. 1517-ci ildə Təhmasib Mirzənin lələsi Əmir xan Mosullu haqqında yayılan məlumatlara aydınlıq gətirilməsi üçün o, Şah İsmayıl tərəfindən Təbrizə dəvət edildi. Lakin Əmir xan Mosullu özbək qoşunlarının Xorasan üzərinə hücum təhlükəsinin mövcudluğunu bəhanə gətirərək Təbrizə yollanmaqdan yayına bildi (19).

Bununla belə, Əmir xan Mosullu öz iddialarından da əl çəkmədi. Bunun üçün o, müəyyən hallarda Təhmasib Mirzənin də onun yanında olmasından sui-istifadə etməyə çalışırdı. Başqa sözlə, Təhmasib Mirzəni bir növ Əmir xan Mosullunun girovu da hesab etmək olardı. Əmir xan Mosullu yaxşı bilirdi ki, Təhmasib Mirzə onun yanında olduğu vaxt ona qarşı kəskin qərarlar qəbul etmək çətin olacaqdır.

1521-ci ildə özbək qoşunları Herat üzərinə hücum etdi. Məlumdur ki, bu hücumun qarşısının alınması və Heratın müdafiəsi üçün Əmir xan Mosullu vilayət əyanlarını Təhmasib Mirzənin yanına topladı və onlara müxtəlif tapşırıqlar verdi. Bununla, Əmir xan Mosullu bir növ belə bir görüntü yaratmağa çalışdı ki, Heratın müdafiəsi ilə bağlı tapşırıqlar Təhmasib Mirzənin adından verilir (20). Doğrudur, Əmir xan Mosullu Heratın müdafiəsi üçün lazımi təşəbbüskarlıq və qətiyyət nümayiş etdirmədi. Bununla belə, Heratın bir çox əyanları yaxşı başa düşürdülər ki, Herat şəhəri özbək qoşunlarının əlinə keçərsə, onda Təhmasib Mirzənin həyatını da xilas etmək mümkün olmayacaqdır. Ona görə də həmin əyanlar tərəfindən Heratın müdafiəsi üçün fəda-

karlıq göstərildi və nəticədə özbək qoşunları geri çəkilməli oldular.

Bununla belə, Əmir xan Mosullu öz iddialarından da əl çəkmədi. Onun bu iddiaları, eləcə də Heratın və vilayətin müdafiəsinin təşkilində laqeydliklərə yol verməsi yenidən Şah İsmayıla çatdırıldı. Şah İsmayıl da Xorasan vilayətinin və onun mərkəzi olan Herat şəhərinin müdafiəsinin gücləndirilməsi, habelə Əmir xan Mosullunun özbaşınalıqlarına son qoyulması üçün onun Təhmasib Mirzə ilə birlikdə geri çağırılması, Xorasan hakimliyinə isə digər oğlu Sam Mirzənin təyin edilməsi barədə qərar qəbul etdi. Sam Mirzə də kiçik yaşlarında idi və ona görə ona da lələ təyin edildi. Bu lələ nüfuzlu qoşun başçılarından biri olan Durmuş xan oldu. Durmuş xan şah tapşırığına əsasən, Xorasana yollanmalı və Əmir xan Mosullunu əvəz etməli idi. Amma Durmuş xan və eləcə də saray əyanları yaxşı anlayırdılar ki, Əmir xan Mosullu onu gözləyən cəzadan qurtulmaq üçün Təhmasib Mirzənin həyatına qəsd edə və ya onun həyatını təhlükə altına ala bilər. Ona görə də Təhmasib Mirzənin daha təhlükəsiz şəraitdə geri çağırılması və Əmir xan Mosullunun zərərsizləşdirilməsi üçün yollar aranmasına başlandı. Durmuş xan məktub yazaraq Əmir xan Mosulluya göndərdi və vilayət işlərində kömək göstərilməsi məqsədi ilə onun yanına gəlməyə hazırlaşdığını bildirdi. Əmir xan Mosullu bu gəlişin onun xeyrinə olmayacağını ehtimal etdi və Təhmasib Mirzəni yanına alaraq Qəndəhar üzərinə qoşun çəkmək adı ilə Heratı tərk etdi. Durmuş xan Herata yetişəndə Əmir xan Mosullu da, Təhmasib Mirzə də artıq orada deyildilər. Əmir xan Mosullu etiraf etməsə də, əslində, Təhmasib Mirzəni öz yanında girov kimi aparmışdı. Ona görə Durmuş xan yenə elə bir yol tapmağa çalışdı ki, Əmir xan Mosullunun şübhələrini doğurmadan onun yanına getsin və Təhmasib Mirzəni sağ-salamat geri qaytara bilsin. O bunun da yolunu tapdı və Əmir xan Mosullunun ardınca yola düşdü. Görüşdükləri vaxt Durmuş xan şübhə yaratmamaq üçün Əmir xan Mosulluya Xorasan hakimi kimi müraciət etdi və onun yanına yalnız kömək və məsləhət üçün gəldiyini bildirdi. Bu yolla Durmuş xan məqsədinə nail oldu və Əmir xan

Mosullunu Təhmasib Mirzə ilə birlikdə Herata qaytarmağa müvəffəq oldu. Herata qayıtdıqdan sonra isə Əmir xan Mosullu vəzifəsindən kənarlaşdırılmasından, yəni Təhmasib Mirzənin lələsi vəzifəsindən azad edilməsindən xəbər tutdu. Belə olduqda Əmir xan Mosullu müqavimət göstərməyin mənasız olduğunu anladı və Təhmasib Mirzə ilə birlikdə Şah İsmayılın yanına yollanmağı və yol verdiyi xətalar üçün Şah İsmayıldan bağışlanmasını xahiş etməyi məqsədəuyğun saydı (21).

Təhmasib Mirzənin Təbrizə yetişməsi 1521-ci ilin yayına təsadüf edir və onun gəlişi Şah İsmayılı çox sevindirdi. Şah İsmayıl göstəriş verdi ki, Təhmasib Mirzə Təbriz yaxınlığındakı yaylaqlardan birində yerləşdirilsin və orada asudə həyat sürsün. Bir neçə gündən sonra Şah İsmayıl həmin yaylağa yollandı və bir müddət Təhmasib Mirzənin yanında qaldı. Onun burada olduğu vaxt Təhmasib Mirzənin Təbrizə dönüşü münasibətilə şadyanalıq məclisləri təşkil edildi (22).

Təzkirəsində olan məlumatlara görə, 1523-cü ildə də Təhmasib Mirzə həyatı üçün təhlükəli olan bir hadisə ilə qarşılşmalı oldu. Bu hadisə Şah İsmayıl tərəfindən səltənət vəkili təyin edilmiş Mirzəşah Hüseyni İsfahaninin qətli ilə bağlı idi. Bəzi məlumatlara görə, türk-qızılbaş əyanları Mirzəşah Hüseyninin səltənət vəkili təyin edilməsindən və onun dövlət idarçiliyində Şah İsmayıldan sonra ikinci məqama çevrilməsindən narazı idilər və ona görə də onun qətlini təşkil etdilər. Bir mənbənin verdiyi məlumata görə Mirzəşah Hüseyni qətlə yetirildiyi vaxt Təhmasib Mirzə də onunla bir məclisdə imiş. Mirzəşah Hüseynini qətlə yetirmək istəyənlər əllərində qılınc məclisə daxil olanda Əsəd bəy Qəzvini adlı bir əyan Təhmasib Mirzəni qucağına alaraq həmin məkandan uzaqlaşdırdı (23).

Məlumdur ki, Heratdan geri döndükdən sonra Təhmasib Mirzə atasının vəfatına qədər Təbrizdə yaşadı. Amma bəzi mənbələrə görə, səhhətinin pisləşdiyi zaman Şah İsmayıl Təhmasib Mirzənin Heratdan onun yanına gətirilməsini istəmişdi (24). Təhmasib Mirzənin Ərdəbildə Şah İsmayılın hüzuruna yetişməsindən belə güman etmək olar ki, əslində, onun Heratdan

deyil, Təbrizdən gəlməsi nəzərdə tutulmuşdu. Həyatının son günlərini yaşadığını bilən Şah İsmayıl Ərdəbildə oğlu Təhmasib Mirzəni göz yaşları ilə qarşıladı və bu görüş zamanı həm dövlətə, həm də təriqətə rəhbərlik Təhmasib Mirzəyə vəsiyyət edildi. Şah İsmayıl ətrafına toplaşmış əyanlar onu da bildirdi ki, Səfəvi taxt-tacının Təhmasib Mirzəyə tapşırılması həm də Əmirəl-mö-minin Həzrət Əlinin yuxuda ona etdiyi tövsiyə ilə bağlıdır.

Dünyasını dəyişməsi ərəfəsində Şah İsmayıl bütün böyük əmirləri, ağsaqqalları, qızılbaş qoşun əmirlərini yanına topladı, onların yanında şahlıq tacını Təhmasib Mirzənin başına qoydu, belindəki kəmərini onun belinə bağladı, boynunu qucaqladı, əcdadlarından eşitdiyi öyüdləri onun qulağına söylədi, sonra da onun adına xütbə oxudu. Üç gün sonra onun ağrıları xeyli şid-dətləndi. Həmin gün Şah İsmayıl böyuk əmirlərin hər biri ilə vidalaşdı və sonra da onlardan xahiş etdi ki, cadırı tərk etsinlər və onu tənha buraxsınlar. Bütün əmirlər Şah İsmayılın olduğu cadırı tərk etdilər. Sonra Şah İsmayıl oğlu Təhmasib Mirzənin də onu tək qoymasını istədi və ona dedi: "Ey gözümün işığı oğlum, sən də cıx bayıra". Təhmasib Mirzə isə ona belə cavab verdi: "Ey möhtərəm ata, sənə qurban olum! İcazə ver, mən qalım". Təh-masib Mirzə hiss etdi ki, Şah İsmayıl nə isə demək istəyir. Qalx-maq istəsə də özündə güc tapa bilmədi. Sonra o əlini dodaqlarına aparmaq istədi. Yenə gucu catmadı, əli yanına düşdü və Şah İsmayıl özündən getdi. Təhmasib Mirzə (mənbələrdə o artıq Şah Təhmasib kimi təqdim olunub) ona yaxınlaşıb gördü ki, Şah İs-mayıl daha dünyasını dəyişib. Şah Təhmasib başındakı tacını ye-rə qoydu və haray cəkərək göz yaşı axıtdı. Onun səsinə digər böyük əmirlər də gəlib Şah İsmayılın kecinməsindən xəbər tut-dular (25).

Şah İsmayılın dünyasını dəyişdiyi gün, yəni 1524-cü il may ayının 23-də Təhmasib Mirzə şah elan edildi və Səfəvi taxtına çıxarıldı. Bu hadisə hicri-qəməri tarixi ilə 930-cu ilin rəcəb ayının 19-na, düşənbə gününə təsadüf edirdi. Mənbə məlumatlarından belə məlum olur ki, Şah İsmayıl dünyasını dəyişən kimi haki-miyyətin Təhmasib Mirzəyə (Şah Təhmasibə) ötürülməsi məra-

simi keçirildi. O da bildirilir ki, bu hadisə may ayının 23-də nahar vaxtı baş verdi. Mövcud məlumata görə, Şah Təhmasibin taxta çıxmasının nahar vaxtına salınması səma cisimlərinin müşahidəsindən sonra qərara alınmışdı. Yəni səma cisimlərinə görə hakimiyyət dəyişikliyinin nahar vaxtı baş verməsi daha münasib sayılırdı (26).

"Aləmara-ye Şah Təmasib"in verdiyi məlumata görə, Div sultan şah elan edilmiş Təhmasibi qucağına alıb səltənət taxtının üstünə əyləşdirdi. On iki imamla bərabər onun da adına xütbə oxundu, onun adına sikkə vurulmasına əmr verildi. Hakimiyyətin Şah Təhmasibə verilməsi mərasiminin təntənəsini saxlamaq üçün mövcud şəraitdə mümkün olan tədbirlər həyata keçirildi. Şah Təhmasib səltənət şahı elan edildikdən sonra mərasimdə iştirak edən əyanlar, saray mənsubları, qoşun başçıları yeni şah qarşısında təzim etməklə ona itaətlərini bildirdilər və onun şərəfinə dualar səsləndirdilər. Mərasimdə iştirak edən qızılbaş tayfa rəhbərləri, digər mərasim iştirakçıları qiymətli hədiyyələrə layiq görüldülər və onlara şah mükafatları paylandı. Bundan başqa saray mirzələri və katibləri Təhmasib Mirzənin taxta çıxması haqqında fərmanlar yazdılar və onları vilayətlərə göndərdilər. Bununla vilayət və bölgə hakimləri və əhali Təhmasib Şahın taxta çıxması haqqında məlumatlandırılmalı idilər. Mənbədə olan məlumatlara görə, şahlığının ilk illərindən Şah Təhmasib vaxtının çoxunu anası Taclı bəyimin hərəmində keçirirdi və Taclı bəyimin gündəlik qayğısı ilə əhatə olunmuşdu (27).

Mənbələrin birində Şah Təhmasibin hakimiyyətə gəlişi belə təsvir edilmişdir: "Piçin-yılda (meymun ilində), rəcəb ayının 19-da (23.05.1524), düşənbə gününün çaşt vaxtında İsgəndər şanlı xaqan Əbül-Müzəffər Şah İsmayıl Bahadır xanın xələfi, dinin pənahı və Allahın kölgəsi olan həzrət (Şah Təhmasib) səltənət kürsüsünə əyləşdi. Həmin vaxt onun mübarək yaşı on il, altı ay və iyirmi gün idi. ... Ali mənşəli əmirlər və yüksək dərəcəli vəzirlər xidmət kəmərini bellərinə bağlayaraq öz yerlərində durdular. ... Digər böyüklər və kiçiklər asiman kimi (uca) bargahın ətrafında qərar tutub gözlərini və qulaqlarını o həzrətin işarəsinə zillədilər.

Dinin və dövlətin nizam-intizamı, mülkün və millətin vəziyyəti tamamilə rövnəq tapdı. Beləliklə, yeni bir padşahlar padşahı zahir oldu. Dinin pənahı olan şah əyanları və əmirləri padşahanə bəxşişlər və xosrovanə ərməğanlarla mükafatlandırıb hamısının xatirini xoş tutdu." (28).

"Tarix-e aləmara-ye Abbasi" əsərində isə Şah Təhmasibin taxta çıxması haqqında belə bir məlumat vardır: "Məkanı cənnət olan xaqanın (Şah İsmayılın - Ş.F.) göydən nazil olmuş hadisəsindən (vəfatından) sonra [Təhmasib Mirzənin] qaməti öz ölçülərinə görə səltənət və padşahlıq köynəyi ilə bəzəndi, on bir yaşında ikən Allahın - "Allah sizə əmr edir ki, əmanətləri yiyələrinə qaytarasınız" - hökmü ilə şahlıq taxtının və padşahlıq məclisinin bəzəyi oldu. [O həzrətin] hümayun cülusu doqquz yüz otuzuncu ilə müvafiq olan meymun ilinin (piçi) rəcəb ayının on doqquzu (miladi 1524, 23 may) düşənbə gününə təsadüf etdi və o öz möhtərəm atasının yerində qərar tutdu, qeyb aləmindən gələn "caye-pedər gerefti" ("ata yerini tutdun") sözləri onun maddeyi-tarixinə müvafiq oldu. ... Peyğəmbər sirlərinin məhrəmi olan həzrət vəlayətpənah şaha hədsiz sədaqət və etiqad bəslədiyi üçün o Özünü "şahe-vəlayətpənahın bəndəsi" ("bəndeyi-şahe-vəlayətpənah") adlandırırdı. Gözəl təsadüflərdəndir ki, "bəndeye-şahe-vəlayət Təhmasib" ("şahevəlayətin bəndəsi Təhmasib") sözləri hümayun cülusun maddeyi-tarixidir və bu sözlərin onun fərman üzüyündə yazılması vacib görüləsi oldu" (29). Bu mənbədə daha sonra bildirilirdi ki, Şah Təhmasib etiqad sahibi olmaqla şəriətpərvər bir səltənət başçısı idi, Allahın buyurduqlarına hər zaman əməl edərdi və bu yoldan çıxmazdı, elm və bilik öyrənməyə həvəs göstərirdi və dövrünün alimlərinə böyük hötrmətlə yanaşırdı. Bunun nəticəsi idi ki, o öz elm və biliyi ilə Ərəstun və İsgəndər səviyyəsinə qalxmış və səltənət idarəçiliyində Şərqin əfsanəvi hökmdarlarından geri qalmışdı.

Yuxarıdakı məlumatda qeyd olunurdu ki, Şah Təhmasibin həyatından on il, altı ay və iyirmi gün keçmişdi. Bəzi mənbələrdə isə fərqli məlumatlar da mövcuddur. Məsələn, belə mənbələrdə şahlıq taxtına oturarkən Şah Təhmasibin həyatından on il altı ay

iyirmi üç gün, on bir il beş gün, on bir il və s. keçdiyi göstərilmişdir (30). Şah Təhmasibin anadan olması və taxta çıxması haqqında yuxarıda istinad olunan tarixləri müqayisə etdikdə isə şahlığı elan ediləndə Şah Təhmasibin yaşı on il üç ay idi. Şah elan edilməsi həm Şah Təhmasibin həyatında, həm də Səfəvi dövlətinin tarixində yeni bir dövrün başlanğıcı idi. Bu yaşında Şah Təhmasibin böyük bir dövləti idarə etməsi, sözsüz ki, imkanlardan kənarda idi və onun üçün idi ki, səltənətin idarəçiliyi müvəqqəti olaraq Şah Təhmasibin lələsi Div sultan Rumluya həvalə etdi. Şahlığının ilk illərində Şah Təhmasiblə Div sultan arasında münasibətlərin necə qurulması haqqında ətraflı məlumatlar mənbələrə öz əksini tapmamışdır. Elə indinin özündə də maraq doğuracaq bir sualdır ki, Div sultan yeni şəraitdə mütləq hakimiyyətə malik idi, yoxsa qəbul etdiyi qərarlar barədə kimlərinsə qarşısında məsuliyyət daşıyırdı? Özünün yazmış olduğu təzkirədə belə bir cümlə vardır: "Div sultan Rumlu lələm idi. Qardaşı Çayan sultan əvəzinə hakimiyyətə çatmış Köpək sultan [adı ilə] məşhur olan Mustafa sultanı əmirəl-üməralıqda Div sultanla şərik etdim" (31).

Şahlığının ilk illərində Şah Təhmasibin belə qərarlar qəbul etməsi yəqin ki, mümkün deyildi. Amma Div sultan tərəfindən qəbul olunmuş qərarların hansısa formada Şah Təhmasibə anladılmasını da istisna etmək olmaz.

## 3. Səltənət daxili hərbi-siyasi vəziyyətin möhkəmləndirilməsi cəhdləri

Şah İsmayıl özü də istisna etmirdi ki, oğlu Təhmasib Mirzənin şah elan edilməsi ilə səltənət daxilində nizamsızlıqlar yarana bilər. Əslində, bu nigarançılıq əbəs deyildi və Şah İsmayıla bəlli idi ki, onun qızılbaş əmirləri və əyanları arasında olan nüfuzu da səltənət daxilində nizamlayıcı bir amil idi və Şah Təhmasibin belə nüfuza malik olmaması isə onun hakimiyyəti üçün müəyyən çətinlikləri ortaya çıxara bilər. Bu mənada onun tərəfindən Şah Təhmasibin lələsi təyin edilmiş Div sultanın üzərinə böyük məs-

uliyyət düşürdü. Div sultan bir tərəfdən Səfəvi dövlətini möhkəmləndirməli, ona qarşı istiqamətlənmiş daxili və xarici təhdidləri aradan qaldırmalı, digər tərəfdən də müəyyən edilmiş vaxt ötdükdən sonra Şah İsmayılın etimad və etibarına uyğun olaraq hakimiyyətin real olaraq Şah Təhmasibə ötürülməsini təmin etməli idi.

Əmirül-ümərə təyin olunandan sonra Div sultan saray əyanlarının və qızılbaş tayfa başçılarının toplantısını keçirdi və bu toplantıya gələnləri özünün Şah Təhmasibin lələsi və əmirül-ümərə təyin edilməsi barəsində Şah İsmayılın vəsiyyətini çatdırdı. Bildirilir ki, bununla həm də səlcuqlardan qalma ifadə olan atabəy ifadəsinin yenidən istifadəsinə başlandı. Yəni Div sultan səltənət atabəyi kimi qəbul olundu. Bu toplantıda olan tayfa rəhbərlərinin əksəriyyəti Şah İsmayılın iradəsini qəbul etdilər və Div sultanın səltənət idarəçiliyinə rəhbərlik etməsinə razı oldular. Div sultanın təşkil etdiyi toplantıda tanınmış qızılbaş əmirlərindən bəziləri, o cümlədən Herat hakimi Durmuş xan və Astrabad hakimi Zeynal xan iştirak etmirdilər. Lakin toplantıda onların nümayəndəlrəi iştirak etdilər və təmsil etdikləri xanların da Div sultanın rəhbərliyini tanıdıqları bəyan edildi. Digər bir sıra tanınmış və nüfuzlu qızılbaş əyanları da Div sultanın lələliyini (atabəyliyini) tanıdılar və onun rəhbərliyi altında fəaliyyət göstərməyə hazır olduqlarını bildirdilər (32).

İsgəndər by Münşinin yazdığına görə, təxminən bir il Div sultanın səltənət lələliyi qızılbaş əyanları, əmirləri tərəfindən sakit şəraitdə qəbul edildi (33) və bir ildən sonra Div sultana qarşı müxalifət baş qaldırdı. Görünür, nə qədər ki, Şah İsmayılın xatirəsi canlı idi, kimsə onun vəsiyyətlərinə qarşı çıxmağa cəsarət etmədi. Lakin vaxt ötdükcə bu xatirə yadlaşmağa başladığı kimi, bir çox əyanlarda vəzifə və mövqe ehtirasları da güclənməyə başladı. “Tarix-e aləmara-ye Abbasi” əsərində Şah Təhmasibin hakimiyyətinin ilk illərində mərkəzi dövlətə qarşı istiqamətlənmiş müxalifətçilik haqqında belə bir məlumat verilmişdir:“O həzrət dindar və şəriətpərvər padşah, ədalətli bir şəhriyar idi. İlahinin buyurduqlarını təsdiq edən (moəyyed), sonsuz uğurlara

müvəffəq, elm öyrənən, ruzigarın alimlərinə yardımçı olan, yeddi və dörddən (həft və çəhar) alınan nəticələrin (?) ümumiləşdiricisi (xolaseye-nətayec), hikmət və elmdə Ərəstudan və İsgəndərdən, artıq, cahandarlıq ayinlərində isə [qayda qanunlarında) Cəm və Kəsradan irəli olan insan idi. O həzrətin hökmranlığının əvvəllərində dövlət işləri bir neçə istiqamətdə (cəhət) pozulmuşdu (extelal). Belə bir günün arzusunda olan aqibətsiz alçaq adamlar həm Şərqdə, həm də Qərbdə cahan abadlığının son nəticəsi (xolase) kimi Kəyan təxtgahı olan İranda fitnə-fəsad törətməyə başladılar, əmirlərin və dövlətin sultanları olan şəxslərin arasında vəkalət vəzifəsi və tayfapərəstlik təəssübkeşliyi (təəsəbe-oymaqeyyət) üstündə çəkişmə (monazee) başlandı və qətllərlə nəticələndi. Baxmayaraq ki, dərgahın əzəmətli əmirlərindən, yaxud dövlətxah ağsaqqallardan biri vəkalət vəzifəsini apararaq, dövlət işlərində ixtiyar sahibi (cahebexteyar) ola bilərdi, amına o həzrət baş verən hadisələrin başlanğıcında yaşının azlığından dövlət işlərinə baş qoşmur, hərdən qəzavü-qədərin (karxaneye-təqdir) işlərinə tamaşa etməklə məşğul olur, hərdən də müdrik adamların (pirexerəd) ali təbiətinə (fetrət) və təliminə diqqət yetirir, həqiqət və vəfa sahiblərindən (ərbab) özünə ixlas cövhəri götürür, şərafətli vücudunu naqis cövhərli dövləttələb şəxslərin şərindən qorumaqla keçirirdi. Taleyinin gücü (niruye-eqbal) və cavan bəxtinin göstərişi ilə düşmənlərin çoxluğuna, köməkçilərin (ənsar) isə azlığına baxmayaraq həm xoşbəxt amallı həyatını qoruyur, həm də zavalsız dövləti mühafizə edirdi" (34).

Ona görə də dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində əsas ağırlıq, qeyd edildiyi kimi, Div sultanın üzərinə düşürdü. Div sultan da mərkəzi dövlət hakimiyyətinin zəiflədilməsinə yönəldilmiş olan belə hərəkətlərin qarşısının alınması üçün bir sıra qətiyyətli addımların atılmasını lazım bildi. Xüsusi ilə, hakimiyyətdə mühüm vəzifələr tutan əyanların uyğun nəzarət altında saxlanması və ya mühüm dövlət vəzifələrinə sədaqətli insanların təyin edilməsi üçün daha ciddi yol tutmağı lazım bildi.

Div sultan tərəfindən vəzifəsindən uzaqlaşdırılmasına cəhd göstərilən ilk şəxs səltənət vəkili oldu. Məlumdur ki, Şah İsma-

yılın hakimiyyətinin sonlarına yaxın səltənət vəkili vəzifəsinə təyin edilmiş Mirzəşah Hüseyni İsfahaninin qətlindən sonra onun yerinə Xacə Cəlaləddin Məhəmməd Təbrizi təyin edilmişdi. O, əvvəlcə vəzifəsindən kənarlaşdırıldı və sonra isə onun yandırılmasına qərar verildi. Tədqiqatçıların fikrincə, Xacə Cəlaləddin Məhəmməd Təbrizini səltənət vəkili vəzifəsindən kənarlaşdırmaqla Div sultan özü bu vəzifəyə yiyələnmək istəyirdi (35). Çünki vəkil vəzifəsi səltənət daxilində kifayət qədər böyük səlahiyyətlərə malik idi və bu vəzifəni də əlində cəmləməklə Div sultan səltənət daxilində gedən prosesləri daha ciddi nəzarət altında saxlaya bilərdi. Bu isə heç də digər bütün əyanların razılığı ilə qarşılaşmırdı.

Şah Təhmasib öz təzkirəsində şah elan edilməsinin elə ilk günlərindən səltənət daxilində gedən prosesləri öz nəzarəti altında saxladığını, mühüm dövlət vəzifələrinə təyinatların məhz onun tərəfindən aparıldığını bildirirdi. Həmin təzkirədə Şah Təhmasib ətrafında baş verənlər haqqında belə yazırdı: "Div sultan Rumlu ləlləm idi. Qardaşı Çayan sultan əvəzinə hakimiyyətə çatmış Köpək sultan [adı ilə] məşhur olan Mustafa sultanı əmirəl-üməralıqda Div sultanla şərik etdim. Elm, fəzilət, hüsn-xətt, inşada, ədəb qaydaları, adət və qayda-qanunları bilməkdə bərabəri olmayan Seyfi seyidlərindən olan Qazi Cahan Qəzvinini Mirzə Şahhüseynin əvəzinə vəzir və sahibdivan etdim. Sədarət mənsəbini Mir Cəmaləddin Astrabadi və Mir Qəvaməddin Nəqib İsfahaniyə verdim ki, alimənsəb olduğu üçün birlikdə idarə etsinlər və bir-biri ilə yola getsinlər. Böyük mənsəb olduğu üçün küllü miqdarda məbləğlər əldə edilirdi, bu da müəyyən ehtiyaclar və ehtiyacı olanlara xərclənməli və çatmalı idi. Özüm həmişə mədaxil və məxaricə nəzər yetirirdim ki, məbada, Allah eləməmiş bir balaca səhv edib təqsirkar olsalar, şiddətli surətdə cəzalandırılsınlar. Xacə Cəmaləddin Məhəmməddən bəzi qəbahətlər baş verdiyinə görə həbs və cəzaya layiq görüldü. Axırda onu yandırdılar... Mövlana Ədhəm Xiyarçi Qəzvini də öldürüldü. Təbrizi qışlaq etdik. Çuxa sultan Təkəluya İsfahan vilayətinin hakimliyini verib oraya göndərdim" (36).



Şah İsmayılın portreti.
(Fransalı səyyah Şardenin səyahətnaməsindən götürülmüşdür)



Şah Təhmasibin portreti.
(Fransalı səyyah Şardenin səyahətnaməsindən götürülmüşdür)

Şah Təhmasibin bu iddiasına baxmayaraq onun vəzifə təyinatlarını öz iradəsi əsasında aparması, dövlət idarəçiliyini öz nəzarəti altında saxlaya bilməsi şübhəli görünür. Əgər o belə bir imkana malik olsaydı, onda heç Şah İsmayıl tərəfindən ona lələ təyin edilməsinə də ehtiyac qalmazdı. Səltənət idarəçiliyi Div sultana həvalə edilmişdisə, deməli səltənət idarəçiliyi ilə bağlı mühüm qərarlar onun tərəfindən qəbul edilirdi. Belə qərarları qəbul etmək üçün onun həm hüquqi səlahiyyəti var idi, həm də lazımi gücə malik idi. Qoşun başçısı olmaqla bərabər, Div sultan həm də qızılbaş tayfa başçılarının və nüfuzlu əyanların çoxu tərəfindən müdafiə olunurdu. Amma o da istisna deyil ki, Div sultan qəbul etdiyi qərarlar barəsində Şah Təhmasibi də məlumatlandırırdı.

Həm səltənət vəkili, həm də səltənət sədri (dini işlər üzrə rəhbər) kifayət qədər böyük mövqe və səlahiyyətlərə malik idilər. Bu vəzifəli şəxslərin hansı istiqamətdə fəaliyyət göstərmələri səltənət daxilində daxili sabitliyin və istiqrarın qorunması üçün xüsusi əhəmiyyət kəsb edirdi. Ona görə də Div sultan səltənət vəkilinin vəzifəsindən alınmasına müvəffəq olduqdan sonra səltənət sədrinin səlahiyyətlərinin məhdudlaşdırılmasına da nail oldu. Yəni səltənət sədri vəzifəsində Əmir Cəmaləddin Məhəmməd Astrabadi olduğu halda Qivaməddin Hüseyn İsfahani də həmin vəzifəyə şərik edildi. Şah Təhmasibin yuxarıdakı qeydlərindən də görmək mümkündür ki, sədr vəzifəsi çox böyük səlahiyyətlərə malik olan bir vəzifə idi və bu vəzifə sahibinin əlində çox böyük miqdarda maliyyə vəsaitləri toplanırdı. Bu maliyyə vəsaitlərindən və eləcə də malik olduğu səlahiyyətlərdən sui-istifadə edilməsinə yol verməmək üçün həmin vəzifənin icrası iki nəfərə tapşırıldı.

Bundan başqa Qazi Cahan Qəzviniyə ali divana nəzarət vəzifəsi həvalə edildi. Xorasan vilayətinin idarəçiliyi isə Durmuş xanda saxlanıldı (37). Görünür, divan işlərinə nəzarət vəzifəsi də dövlət idarəçiliyində mühüm vəzifələrdən bir hesab edilirdi. Xorasanın strateji əhəmiyyət kəsb etməsi isə səltənət mənsubları üçün şübhə doğurmayan bir məsələ idi. Bu vilayət həm səltənətin

hüdudlarının toxunulmazlığının qorunması, həm də məzhəb nöqteyi-nəzərindən dövlət rəhbərliyinin diqqət mərkəzində idi.

Tezliklə məlum oldu ki, yalnız ayrı-ayrı mənsəb sahiblərinin deyil, ayrı-ayrı tayfaların da müəyyən iddiaları var ki, bu iddialar heç də mərkəzləşdirilmiş hakimiyyətin möhkəmləndirilməsinə xidmət etmir. Belə tayfalardan biri Ustaclı tayfası idi. Ustaclı tayfası nümayəndələri Təbriz şəhərində güclü mövqelərə malik idilər. Görünür belə mövqelərin mövcudluğu bu tayfanın bir sıra əyanlarında daha böyük iddialar barəsində düşünməyə yol açırdı. Bu tayfanın lideri Köpək sultan kimi tanınan Mustafa sultan idi. Yəni tayfa müxalifətçiliyinin rəhbəri Köpək sultan idi.

Köpək sultan yalnız mənsub olduğu tayfa daxilində deyil, ümumən, səltənət daxilində çox böyük nüfuza malik əyanlardan biri idi. Onun müxalifətçiliyə başlaması səltənət idarəçiliyində ciddi parçalanmalara yol aça bilərdi. Köpək sultanın mövqelərinin möhkəmlənməsi və onun ətrafının genişlənməsi məntiqi olaraq Div sultanın mövqeyinin zəifləməsi demək idi. Bu da öz növbəsində Səfəvi dövlətçiliyinin zəifləməsinə zəmin yarada bilərdi. Ona görə də Div sultan Köpək sultanın rəhbərliyi altında Ustaclı tayfasının ona qarşı müxalifətçiliyini çox ciddi qəbul etdi və bu müxaliətçiliyin qarşısının alınması yolunun tapılması üçün axtarışlara başladı. Amma mənbələrin araşdırılması belə bir qənaətə gəlməyə imkan verir ki, Köpək sultan heç də mərkəzləşdirilmiş dövlətə qarşı sərt iddialara malik deyildi və müxalifətçiliyə meylli olanlar daha çox tayfa daxilindəki digər əyanlar idilər. Həmin əyanlar da öz maraqları nöqtetyi-nəzərindən Köpək sultanı Div sultana qarşı daha kəskin mövqeyə çəkməyə çalışırdılar.

Beləliklə, Şah Təhmasibin hakimiyyətinin elə ilk ilində səltənətin iki nüfuzlu əyanı olan Div sultanla Köpək sultan arasında qarşıdurma və müxalifətçilik yarandı. Vaxt ötdükcə bu müxalifətçilik xeyli gücləndi və son nəticədə bu müxalifətçilik silahlı qarşıdurmaya gətirib çıxardı.

Div sultanla Köpək sultan arasında yaranmış olan qarşıdurmanın əsas səbəbi sözsüz ki, mövqe və nüfuz məsələsi idi. Amma

zahiri görünüş kimi, mənbələrdə bu qarşıdurma Köpək sultanın daha böyük səlahiyyətlərə malik olan vəzifə əldə etmək istəyi ilə bağlanılır. Lakin Köpək sultanın maraq dairəsində hansı vəzifənin olması barəsində mənbələrdə fərqli fikirlərlə rastlaşmaq mümkündür. Məsələn, Şah Təhmasibin yuxarıdakı qeydlərində göstərilir ki, Köpək sultan həm də Div sultana şərik olaraq əmirül-üməra vəzifəsinə təyin edilmişdi. Bu fikirdən hasil olan qənaətə görə Div sultan çalışırdı ki, Köpək sultanı əmirül-ümərə vəzifəsindən uzaqlaşdırsın və bu vəzifəni təkbaşına icra etsin. Digər mənbələrdən isə aydın olur ki, Div sultanla Köpək sultan arasında qarşıdurma obyekti səltənət vəkili vəzifəsi olmuşdur. Hətta səltənət vəkili vəzifəsinin sahibinin də Div sultan olduğu bildirilir. Məsələn, "Tarix-e aləmara-ye Abbasi" əsərində belə qeydlər vardır: "Cah-cəlal dairəsinin mərkəzi olan o şahın (Şah Təhmasibin) hümayun cülusu şadlıq və xoşbəxtliklə baş tutduğundan, hökmranlıq taxtı onun mələk sifətli zatı ilə bəzəndi. O zaman vəkalət işi Div sultan Rumlunun əlində idi. O, Bəlxdən gələrək, Çayan Sultan Ustaclının vəfatından sonra əmirül-ümərə oldu. Bir il ötdü və dərgah əmirlərinin əzəmətlisi və qoşun başçısı olan Köpək Sultan vəkalət mənsəbi və səltənət işlərini idarə etmək (qət-o fəslemohhame-səltənət) üstündə Div sultanla rəqabətə başladı, onların arasında mübarizə getdi. Elə bu əsnada Kucəm xan və Übeyd xanın Xorasana gəlmələri xəbəri orduya yayıldı. Div sultan zəmanəyə görə Köpək Sultanla danışaraq, vəkalət vəzifəsinin onda qalması ilə razılaşdı" (38).

"Əhsənüt-təvarix" əsərində də adları çəkilən sultanlar arasında qarşıdurma obyektinin səltənət vəkili vəzifəsinin olduğu bildirilmişdir: "Bu il Div sultanla Köpək sultan Ustaclu arasında vəkillik vəzifəsi ("vəkalət") üstündə münaqişə baş qaldırdı". Həmin əsərdə belə bir cümlə də vardır: "Köpək sultan müxaliflikdən əl çəkərkən ümid etmişdi ki, Div sultan vəkillikdə onu özünə şərik edəcəkdir" (39).

Səltənət vəkili vəzifəsi öz səlahiyyətlərinə görə, əmirül-ümərə vəzifəsindən daha yüksək idi və bu vəzifə dövlət idarəçiliyində daha geniş səlahiyyətlərə malik idi. Burada məntiqli görünən

odur ki, söhbət məhz vəkil vəzifəsinin kimə məxsusluğu haqqında gedir. Div sultan Şah Təhmasibin lələsi olmaqla bu vəzifəni də ələ keçirə bilməsi səltənət idarəçiliyində onun üçün xeyli imkanlar aça bilərdi. Həm də bu vəzifəyə başqa birisinin təyin edilməməsi onun arxayınçılığını daha da artıra bilərdi. Mənbə məlumatlarından göründüyü kimi, Köpək sultan da səltənət daxilində malik olduğu mövqedən istifadə etməklə bu vəzifəyə sahiblənmək və bununla Div sultanın daha geniş səlahiyyətlər almasına yol verməmək fikrində imiş. Mütəxəssislər də belə bir qənaətdədirlər ki, bu iki əmir arasında qarşıdurma obyekti məhz vəkil vəzifəsi idi (40).

"Tarix-e aləmara-ye Abbasi" əsərinə istinadən yuxarıda verilmiş məlumata görə, "Div Sultan zəmanəyə görə Köpək Sultanla danışaraq, vəkalət vəzifəsinin onda qalması ilə razılaşdı". Bu məlumatdan belə çıxır ki, Div sultanla Köpək sultan arasında vəkil vəzifəsi ilə bağlı müəyyən müzakirələr də olmuş və Div sultan da Köpək sultanın mövqeyindən ehtiyatlanaraq onun vəkil vəzifəsində qalmasına razı olmuşdur. Lakin Div sultan Köpək sultana qarşı belə bir güzəştə getməsi ilə heç də razı deyildi və Köpək sultanın iddialı mövqeyinə son qoymaq üçün münasib an gözləyirdi. Tezliklə belə bir münasib məqam da yetişdi və Div sultan da hakimiyyətin mərkəzləşdirilməsi üçün belə bir məqamdan bəhrələnməyə çalışdı. Həmin məqam özbək qoşunlarının Xorasan vilayəti üzərinə hücum etməsi ilə bağlı idi.

Şah Təhmasibin yazdığına görə, özbək qoşunlarının hücum xəbəri alınanda o və onun ətrafındakı əyanlar Səhənd və Ucan yaylaqlarında istirahət edirdilər. Hücum xəbəri alınandan sonra Şah Təhmasib və ətrafı Təbrizə qayıdaraq Fəlğan bağında yerləşdilər. Şah Təhmasibin qeydlərinə görə, Təbrizə döndükdən sonra əyanları başına toplayıb özbək qoşunlarının hücumunun qarşısının alınması üçün onlarla məsləhətləşdi və qərara alındı ki, əmirül-ümərałıqda Köpək sultandan daha üstün olan Div sultan özbək qoşunlarına qarşı döyüşə rəhbərliyi öz üzərinə götürsün. Lakin bir şərtlə ki, "İraq və Fars [vilayətlərinin] əmirləri Təbəristan sərhəddindəki Larican yaylağında ona qoşulsunlar. Bu ba-

rədə onlara əmr verdim: İsfahan hakimi Cuxə sultan Təkəlu, Şiraz valisi Əli sultan Zülqədər, Həmədan hakimi Qaraca sultan Təkəlu və Məşhəd hakimi Burun sultan Təkəlu məzkur yaylaqda onun başçılığı ilə birləşib özbəkləri Xorasandan qovsunlar" (41).

Div sultan qarşısına belə bir məqsəd qoydu ki, Şah Təhmasibin də razılığını almaqla bir tərəfdən özbəklərlə döyüşmək adı altında ətrafına əyalətlərdən çoxlu sayda qoşun toplasın, digər tərəfdən də ətrafına topladığı bu qoşunlarla Köpək sultana üstün gəlsin və öz iradəsini ona qəbul etdirsin. Sözsüz ki, Şah Təhmasib də səltənət hüdudlarına təhlükə törədən özbək qoşunlarının qarşısının alınması üçün əyalət qoşunlarının toplanmasına etiraz etmədi və bununla bağlı yazılı göstəriş də verdi: " Div sultan zamanın məsləhəti və Köpək sultanın razılığı ilə vəkilliyi onun [öhdəsinə] buraxıb, Xorasana getməyi və özbəklərin fitnəsini dəf etməyi bəhanə edərək, o tərəfə yönəldi. Fars və İraqın böyük əmirlərinə Div sultanın başına cəmləşmək və düşmənləri ortadan qaldırmaq barədə itaət olunması vacib fərmanlar yazıldı. O, (yəni Div sultan) Lar yaylağında dayandı. Tezliklə adlı-sanlı əmirlər, xüsusən İsfahan hakimi Çuxa sultan Təkəlü, Həmədan hakimi Qaraca sultan Təkəlü, Şiraz hakimi Əli sultan və başqaları saysız-hesabsız qoşunla onun başına yığışdılar. O, bütün qoşun böyüklərini xoş rəftarla, ehsan və hədiyyələr verməklə əvvəlkindən daha artıq dərəcədə özünə tabe edərək, vəkillik mənsəbini Köpək sultanın əlindən almaq üçün onlardan kömək istədi, onlarla əhdü-peyman bağladı. Xorasan məsələsi bəxtin gücü və asiman qoşununun əmirlərinin [əli ilə] həll edildiyindən Div sultan böyük qoşun və izdihamla fələyin qulamlıq etdiyi şah ordusuna tərəf yollandı"(42).

Səltənət daxilində dağınıq halda olan qoşunların bir yerə toplanması və nəzarət altına alınması Div sultana Köpək sultanla müqayisədə qüvvə üstünlüyü verə bilərdi ki, bununla da Köpək sultanla olan qarşıdurmada öz məqsədinə nail ola bilərdi. Ona görə də Div sultan özbəklərə müqavimət göstərilməsi üçün Şah Təhmasibin icazəsi ilə Təbriz şəhərini tərk etdi və Firuzkuh istiqamətində olan Lar yaylağına yollandı. Div sultan bu yaylaqda

dayanmaqla ətraf bölgələrin hakimlərinə məktub göndərməli və onları qoşun dəstələri ilə birlikdə yanına tələb etməli idi. Yuxarıdakı məlumatdan da göründüyü kimi, onun çağırışı və tələbi əsasında İsfahan, Həmədan, Şiraz və başqa bölgələrin hakimləri tabeliklərində olan qoşun dəstəsi ilə Div sultanın ətrafına toplaşdılar.

"Əhsənüt-tarix" əsərində bu məsələ belə təsvir edilmişdir: "Bu il Div sultanla Köpək sultan Ustaclu arasında vəkillik vəzifəsi ("vəkalət") üstündə münaqişə baş qaldırdı. Həmin vaxt Div sultanın mülazimləri Çuxursəəddə idilər. O, ustaclu əmirləri qarşısında güzəşt etdi, Xorasana getmək və özbəklərlə savaşmaq üçün [şahdan] rüsxət alıb Lar yaylağına yollandı. Elə ki o, öz gəlişinin şəfəqlərini adı çəkilən yaylağın üzərinə saldı, Kəlhur valisi Çuxa sultan Təkəlüyə, Şiraz hakimi Əli sultan Zülqədəroğluya, Həmədan tiyuldarı Qaraca sultan Təkəlüyə və b. yüksək şanlı əmirlərə bu məzmunda məktublar yazdı: "Biz, dinin pənahı olan şahın əmrinə əsasən, öz məiyyətimiz və qoşunumuzla kinli özbəklər üzərinə gedirik. Gərəkdir ki, siz əzizlər də ittihad və birlik yolunu tutaraq öz əsgərlərinizi cəmləşdirəsiniz və Lar yaylağında zəfər şüarlı orduya qatılasınız. Div sultanın bu məktubu qasidlər vasitəsi ilə bölgə hakimlərinə göndərildi və bölgə hakimləri də ümumi düşmən sayılan özbək qoşunlarına qarşı hərəkətə gəlməyi vacib bildilər. Ona görə də yuxarıda adları çəkilən bölgələrin və eləcə də digər bölgələrin hakimləri çoxlu sayda qoşunlarla Lar yaylağına yollandılar. Bu qoşunlar və bölgə hakimləri Div sultan tərəfindən böyük səxavətlə qarşılandı və onların şərəfinə qonaqlıq məclisləri təşkil edildi. Bundan başqa Div sultan özü ilə gətirdiyi silah və sursatı da bölgələrdən gələn qoşunlara payladı. Bu yolla Div sultan onları öz tərəfinə çəkə bildi: "Beləliklə, ənam və ehsan dənələri ilə onların könül quşunu özünə ram etdi və hamısı ona tabe oldular. O, əmirlərə dedi:

- Dinin pənahı olan şah məni himayə etmək və yüksəltmək fikrində idi. [Lakin] Köpək sultan fəsad çıxardı. Buna görə də mən o diyarı tərk etməli oldum. Sizdən istəyim budur ki, səmimi-qəlbdən imdad kəmərini belinizə bağlayasınız və mən [sizin

köməyiniz ilə] vəkillik (vəkalət) mənsəbini ondan ala bilim. Əmirlər onunla ittifaq bağladılar və Təbriz üzərinə hərəkətə gəldilər” (43).

Div sultan onun yanına toplaşmış olan bölgə hakimlərinə və qoşun başçılarına sadəcə olaraq onu dəstəkləməyi təklif etmədi. Bu qoşun başçılarına, əmirlərə və əyanlara çoxlu hədiyyələr verildi, torpaq sahələri bağışlandı, silah və sursat paylandı. Bununla Div sultan ətrafına toplanmış əmir və əyanların rəğbətini və dəstəyini əldə edə bildi və bundan sonra o, daha qətiyyətli hərəkətə keçməyə qərar verdi.

Div sultan bununla da kifayətlənmədi. O eyni zamanda Köpək sultanın mənsub olduğu Ustaclı tayfasının bir çox əyanları ilə də əlaqə saxladı və onların bəzilərini Köpək sultana qarşı təhrik etdi, onlara tiyul torpaqlar payladı və bununla da onları öz tərəfinə çəkə bildi. Mənbə məlumatlarına görə, Div sultan və onun ətrafına toplanmış olan qoşunlar Qəzvinə çatanda bu vilayətin Ustaclı tayfasından olan hakimi Məntəşə sultan da onları xoşluqla qarşıladı. Məntəşə sultan bəyan etdi ki, bütünlüklə Div sultanın rəhbərliyi ilə razıdır və ona tabedir. Bundan sonra onun nəzərinə çatdırdılar ki, Ustaclı tayfasının müxalifətçiliyinə qarşı istiqamətlənmiş bu yürüş, əslində, dövlətçilik işidir və ona tövsiyə olundu ki, Ustaclı tayfasının nümayəndəsi kimi öz tayfadaşlarının yayına yollansın və bu tayfanın əmir və əyanlarını dinc yolla müxalifətçilikdən çəkindirməyə çalışsın. Məntəşə sultan da Ustaclı əmir və əyanlarının yanına yollandı və onları nəsihət etməklə müxalifətçilikdən əl çəkməyə çağırdı. Əvvəlcə, Məntəşə sultanın təklifi qəbul edilmədi. Hətta Məntəşə sultan onun təklifinə qarşı çıxan əyanlardan birinin qətlinə də cəhd göstərdi. Lakin həmin əyan bu qətldən canını qurtara bildi. Verilən məlumata görə, Məntəşə sultanın tövsiyələri də Köpək sultanın və Ustaclı əmir və əyanlarının Div sultanla barışığa yollanmasına öz təsirini göstərdi (44).

“Tarix-e aləmara-ye Abbasi” əsərindəki məlumata görə, özbək qoşunlarının Xorasan vilayətinə yaratdığı təhlükə tezliklə aradan qalxdı. Amma Div sultan onun ətrafına toplanmış olan qo-

şunları buraxmadı və bu qoşunları Təbriz üzərinə, yəni Köpək sultana qarşı mübarizəyə istiqamətləndirdi. Əslində, bununla da Div sultan qarşı tərəfi güzəştə getməyə məcbur etdi.

Köpək sultanın ona qarşı planlaşdırılan tədbirlərdən xəbəri var idi və onun ətrafına toplaşmış olan qüvvələr Köpək sultanın bu planlara qarşı qətiyyətli olacağı ümidində idilər. Mövcud olan məlumatlara görə, Şah İsmayılın həyat yoldaşı Taclı bəyim də bu proseslərdən xəbərdar idi və o da Köpək sultan tərəfindən cavab addımlarının atılmasının tərəfdarı idi. Taclı bəyimin Şah Təhmasib üzərində müəyyən təsirləri var idi və ona görə Şah Təhmasibin də qızılbaş əmirlərinin qarşıdurmasında Köpək sultanı dəstəkləyəcəyi ehtimalı mövcud idi. Hətta Köpək sultan özü də Div sultanla olan qarşıdurmasında Şah Təhmasib tərəfindən kömək alacağına ümid edirdi. Ona görə də Ustaclı əmir və əyanlarının təkidlərinə baxmayaraq Köpək sultan kəskin qarşıdurma yaratmağı məqsədəuyğun saymadı.

"Əhsənüt-tarix" müəllifi yazırdı: "Elə ki Köpək sultan onların hərəkətindən xəbərdar oldu, öz yaxınları ilə məşvərət etdi. Qarınca bəy dedi:

- Div sultan haq tanımaz və vəfasız bir adamdır. O, dinin pənahı olan şahdan neçə-neçə rəğbətlər və şəfqətlər görməsinə baxmayaraq, indi bu nemətə qarşı nankor çıxmaq yolunu tutub şah həzrətlərinə münasibətdə bu cür rəftar edir. Yaxşısı budur ki, mülk bağışlayan Allahın kəräminə təvəkkül eyləyərək onların say çoxluğundan qorxmayaq və onların qarşısına çıxaraq döyüş və vuruş qapılarını onların üzünə açaq.

Köpək sultan bu sözü rədd edib dedi:

- Biz hər ikimiz şahın qulamlarıyıq və bu dərgahın dostlarıyıq. Bir-birimizlə düşmənçilik etməməliyik" (45).

Yəni Köpək sultan yaranmış şəraitdə silahlı qarşıdurmaya getməyi lazım bilmədi və tərəfdarlarını da dinc barışıq yolunu tutmağa çağırdı. Mənbə məlumatlarına görə, Köpək sultan hətta mübahisə və qarşıdurma obyekti olan vəzifənin də Div sultanda qalmasına, özünün isə həmin vəzifədən imtina etməsinə razı oldu. Güman edilirdi ki, bununla mövcud olan gərginlik də aradan

qalxmış olar. Niyyətinin səmimi olduğunu göstərmək üçün Köpək sultan ətrafına toplanmış qüvvələrlə Təbrizi tərk etdi və Div sultanı qarşılamağa yollandı. Mövcud olan məlumatlara görə, Türkmənkənd yaxınlığında Köpək sultan öz əyan və əmirləri ilə birlikdə Div sultanla qarşılaşdı və onunla barışığa gəldi (46).

Şah Təhmasib də təzkirəsində Div sultanın öz ətrafına topladığı qoşunlarla özbək hücumunun qarşısının alınmasına deyil, geri dönməsinə toxunmuşdur. O bu hadisəni adi bir hadisə kimi qələmə almışdır. Şah Təhmasib bildirirdi ki, qızılbaş əmir və əyanları arasında ixtilaf yaranmışdı və bu ixtilafın aradan qaldırılması üçün Div sultan geri dönmüşdü. Sonra o da təsdiq edirdi ki, Köpək sultan bu ixtilafın daha sakit şəkildə aradan qaldırılmasının təşəbbüskarı idi. Ona görə də Köpək sultan sərəncamında olan qoşun dəstəsi ilə barışıq üçün Div sultanın qarşılanmasına çıxdı və Türkmənkənd yaxınlığında Div sultanla qarşılaşdı. Bu görüş zamanı tərəflər arasında bir barışıq əldə edildi və hətta Köpək sultan bu barışığı gücləndirmək üçün Div sultanın vəkil olması ilə razılaşdı. Şah Təhmasiblə bağlı olan başqa bir mənbədə isə tərəflər arasında döyüş baş verdiyi, bu döyüşün gedişində Div sultanın ətrafında olan qoşun dəstəsinin məğlub olduğu, Köpək sutanın şah Təhmasibin yanına gəldiyi, baş verənlərin günahının Div sultanda olduğu və Şah Təhmasibin də bu deyilənlə razılaşdığı haqqında məlumat vardır (47).

Yuxarıdakı qeydlərdən göründüyü kimi, Div sultan və Köpək sultan Türkmənkənd yaxınlığında görüşdükdən sonra birlikdə Çərəndab adlanan məntəqədə olan Şah Təhmasibin yanına yollandılar və mövcud ixtilafın aradan qaldırılması haqqında ona da məlumat verdilər. Vəkillik vəzifəsinə iddianın Div sultanla Köpək sultan arasında necə həll edilməsi haqqında isə mənbələrdə yenə fərqli məlumatlarla qarşılşamaq mümkündür. “Tarix-e aləmara-ye Abbasi” əsərindəki məlumata görə, Köpək sultan bu vəzifəyə olan iddiasından əl çəkdi və həmin vəzifənin Div sultanın olması ilə razılaşdı (48). “Əhsənüt-tarix” müəllifinin məlumatına görə isə Köpək sultan vəzifə məsələsində Div sultanla müxalifətdən əl çəksə də onun vəkillik vəzifəsinə şərik ediləcəyi ümi-

dində idi (49). Amma bu, baş vermədi. Div sultan gələcək narahatçılıqların bir də təkrarlanmaması üçün həm Köpək sultana qarşı, həm də onu Div sultanla müxalifətçiliyə təhrik edənlərə qarşı daha ciddi tədbirlər həyata keçirilməsini məqsədəuyğun bildi. Əvvəlcə, Ustaclı tayfasını Div sultana qarşı müxalifətçiliyə təhrik edən Qarınca sultan və başqa bir neçə sultan Şah Təhmasibin razılığı ilə qətlə yetirildi. Bundan sonra isə Köpək sultan müharibə aparmaq adı ilə tayfası ilə birlikdə Gürcüstana göndərildi və bununla həm Köpək sultan, həm də onun ətrafında olan qüvvələr Təbrizdən uzaqlaşdırıldı. Güman edilirdi ki, bununla Ustaclı tayfası tərəfindən hakimiyyət üçün yaranmış gərginlik də birdəfəlik aradan qalxa bilər: "Div sultan o fitnənin xəmirinin mayası olmuş Qarınca bəy Ustaclunu və Narın bəy Qacarı qətlə yetirdi və Qazi  Cahanı tutub Luri qalasına göndərdi. Köpək sultanı isə o, cəmi ustaclularla bərabər Gürcüstan üzərinə qəzavata yolladı və onlar çıxıb getdikdən sonra ustaclulara məxsus tiyulları ləğv etdi. Köpək sultan müxaliflikdən əl çəkərkən ümid etmişdi ki, Div sultan vəkillikdə onu özünə şərik edəcəkdir. Amma bu istək baş tutmadı" (50).

"Tarix-e aləmara-ye Abbasi" müəllifi isə bildirir ki, Köpək sultan və Ustaclı el-obası Gürcüstan istiqamətinə göndəriləndən sonra Ustaclı əmirlərinə və əyanlarına paylanmış olan tiyullar (torpaq sahələri) geri alındı. Adı çəkilən əsərin müəllifi Div sultanın bu qərarını heç də məqsədəuyğun bir qərar saymırdı: "Div sultan nifaqa səbəbkar bildiyi Qarınca sultanı və bir neçə nəfəri qətlə yetirdi və Köpək sultanı bütün ustaclu el-obası ilə Gürcüstana müharibəyə göndərərək, saraydan uzaqlaşdırdı. Bununla da kifayətlənməyib, onların (ustacluların) olmadığı zaman təkəlü əmirlərini razı salmaq üçün [ustacluların] tiyullarını ləğv etdi və onları ortadan qaldırmaq istədi. Həqiqətən də, belə [bir] iş dövlət sahibinə və ağsaqqallığa layiq iş deyildi və bu, ona səbəb oldu ki, o tərəfdən də narazılıq və düşmənçilik qapıları açıldı, [ustaclular da] birlik və müttəfiqlik qapılarını bağladılar"(51).

Mənbələrin birində isə bildirilir ki, Div sultan əmirül-ümərа vəzifəsinə Çuhə sultanla birlikdə sahib oldular və zahiri barışıq-

dan sonra Ustaclı əmir və əyanlarının cəzalandırılmasını da Div sultan ona yaxın olan Çuhə sultanla birlikdə həyata keçirdi. Bir tərəfdən məsul vəzifələrdə olan Ustaclı əmir və əyanları həmin vəzifələrdən uzaqlaşdırıldı, digər tərəfdən də Köpək sultan Təbrizdən uzaqlaşdırıldıqdan sonra Ustaclı əmir və əyanlarına məxsus torpaq sahələri adları çəkilən sultanların göstərişi ilə onların əlindən alındı. Bu mənbədəki məlumata görə, Köpək sultan çətin vəziyyətlə qarşılaşdığını görəndə Təbrizi tərk etməyi özünə xeyir bildi və sahib olduğu Naxçıvan və İrəvan vilayətinə yollandı (52). İstinad olunan bu mənbədə Köpək sultanın döyüş aparmaq üçün Gürcüstana göndərilməsi haqqında məlumat yoxdur. Mövcud olan bəzi məlumatlar isə Köpək sultanın Naxçıvan və İrəvan bölgəsinə gəlməsindən sonra Gürcüstan üzərinə yürüş etməsindən və bu yürüş başa çatandan sonra onun yenidən Naxçıvan- İrəvan bölgəsinə qayıtmasından xəbər verirlər (53).

Köpək sultanla və Ustaclı əmir və əyanları ilə müxalifətçilikdə üstünlük əldə etdikdən sonra Div sultan məlikül-üməra, Çuxa sultan isə rüknüs-səltənə (səltənətin əsası) elan edildi (54). Başqa sözlə onlar səltənət idarəçiliyində yüksək mənsəb və mövqe əldə etdilər.

“Rövzətüs səfəviyye” əsərində Div sultanla Köpək sultan arasında olan müxalifətçiliyin ilk səhifəsi çevrildikdən sonra Xorasan vilayətinin hakimi və Şah Təhmasibin kiçik qardaşı Sam Mirzənin lələsi Durmuş xanın vəfatı və bir müddət sonra vilayətdə baş verən qoşun narazılığı haqqında məlumat verilir (55). Durmuş xan hələ Şah İsmayılın sağlığında Sam Mirzənin lələsi təyin edilərək Xorasana göndərilmişdi və Xorasan vilayətinin idarəçiliyi real olaraq onun əlində idi. Bu xan Şah İsmayılın bacısı oğlu olmaqla ona etibarlı olan əyanlardan biri sayılırdı. Mənbələrdə olan məlumata görə, hətta Şah İsmayıl heç kimə Durmuş xan qədər hörmət və ehtiram bəsləmirdi. Ona görə idi ki, Şah İsmayıl onu səltənət üçün strateji əhəmiyyət kəsb edən Xorasan vilayəti kimi bir vilayətin idarəçiliyinə göndərmişdi. Şah Təhmasibin hakimiyyətə gəlişindən sonra özbək qoşunlarının Herat üzərinə ilk hücumunun qarşısı da onun rəhbərliyi altında

alınmışdı (bu barədə aşağıda danışılacaqdır). Özbək qoşunları Xorasan vilayətindən çıxarıldıqdan sonra Durmuş xan ağır xəstəliyə tutuldu və hətta yataq xəstəsinə çevrildi. O, qara ciyərindən əziyyət çəkirdi və göstərilən cəhdlərə baxmayaraq vaxt ötdükcə onun ağrıları daha da güclənməyə başladı. Onu müalicə edən həkimlər tərəfindən verilən dəva və dərmanların heç biri onun ağrılarını heç də yüngülləşdirmədi. Nəticədə 1525-ci ildə Durmuş xan dünyasını dəyişdi və o, Məşhəddə İmam Rza məqbərəsi ətrafında dəfn edildi. Durmuş xanın vəziri olmuş Xoca Həbibulla Savəçi öz vəzifəsindən istifadə etməklə vilayət daxilində müəyyən bir mövqe əldə etmişdi. O hətta belə güman edirdi ki, Durmuş xandan sonra Sam Mirzəyə kimin lələ təyin edilməsi məsələsinə də təsir göstərə bilər. Bunun nəticəsi kimi, Xoca Həbibulla vilayət daxilində bir sıra nüfuzlu əmir və əyanlara arxalanmaqla Durmuş xanın qardaşı Hüseyn xanı Sam Mirzənin lələsi elan etdi (56). Hüseyn xan real olaraq Xorasan vilayətinin idarəçiliyini həyata keçirməli idi. Çox güman ki, Xoca Həbibulla da Hüseyn xan üzərindəki təsirindən istifadə etməklə vilayət idarəçiliyində böyük səlahiyyətlər əldə etmək istəyirdi. Əslində, buna cəhd də göstərdi. Yəni öz maraqlarını həyata keçirmək üçün Xoca Həbibulla müəyyən qanunsuz əməllərə də əl atdı. Bunun nəticəsi idi ki, vilayət daxili bölgələrin rəhbərləri, qoşunlar, qoşun başçıları, əmirlər, Şamlı tayfası baş verən narazılıqlara görə Hüseyn xana itaətsizlik göstərir, onun tərəfindən verilmiş əmrləri yerinə yetirməkdən imtina edirdilər. Mövcud olan məlumatlara görə, Xoca Həbibulla hətta vilayət daxilində mövcud olan narazılıqların da Hüseyn xana çatdırılmasına maneçilik törədirdi. Bu isə son nəhayətdə vilayət daxilindəki durumu daha da gərginləşdirirdi. Bir müddətdən sonra Hüseyn xanın Sam Mirzənin lələsi təyin edilməsi barəsində Şah Təhmasib tərəfindən də fərman imzalandı və həmin fərman qorçuların biri ilə Herata göndərildi (57).

Bu fərman Herata yetişəndə vilayət daxilində vəziyyət xeyli gərginləşmiş və Xoca Həbibullanın qanunsuz hərəkətlərindən narazı olanların sayı xeyli artmışdı. Bölgələrdə maaşlarını vaxtında ala bilməyən xeyli sayda əyanlar öz narazılıqlarını bil-

dirmək üçün Herata yollanmağı məqsədəuyğun sayırdılar. Hətta Şamlı tayfasının əmir və əyanları yaranmış gərginliyə səbəb olan Xoca Həbibullanın qətlinə də qərar vermişdilər. Bütün bunlara baxmayaraq, Xoca Həbibulla da yaranmış gərginliyin aradan qalxması üçün təsirli bir addım atmırdı. Narazı insanlar, xüsusi ilə də əyanlar və rəsmi mənsəb sahibləri tələb irəli sürdülər ki, əgər onlara aid olan maaşlar ödənməsə onlar şahzadəyə xidmət etməyəcəklər və istədikləri yerə çıxıb gedəcəklər. Xoca isə öz cavabı ilə bu narazı insanların qəzəbini daha da artırdı və onlara bildirdi ki, istədikləri yerə getməkdə azaddırlar. Başqa sözlə, Xoca Həbibulla vilayət xidmətçilərinin vaxtı keçmiş maaşlarını ödəməkdən və mövcud olan narazılığı aradan qaldırmaqdan imtina etdi. Belə olanda narazı insanlar Xoca Həbibulladan onlara xidmətdən azad olmaları haqqında sənəd verilməsini tələb etdilər. Xoca Həbibulla da mövcud narazılıqları aradan qaldırmaqdansa vilayət xidmətçilərinə tutduqları vəzifələrdən azad olmaları haqqında sənəd yazıb verdi. Narazı olan bu insanlar xidmətdən azad olunmaları haqqında sənədlə onların yüzbaşısı olan Yarəhməd Xəlifə adlı birisinin yanına gəldilər, Xoca Həbibullanın onlara olan münasibəti və əməlləri haqqında məlumat verdilər. Yarəhməd Xəlifə də mövcud olan narazılıqların aradan qaldırılmasına cəhd göstərdi. Hətta bununla bağlı təşkil olunan məclislərin birində Yarəhməd Xəlifə ilə Xoca Həbibulla arasında söhbət də olmuşdu. Xoca Həbibulla hörmətsizlik göstərərək yenə də narazılıqların aradan qaldırılması üçün heç nə etmədi və xidmət mənsublarının maaşlarını ödəməkdən imtina etdi. Bu əməl yenidən həm xidmət mənsublarının, həm də Yarəhməd Xəlifənin qəzəbinə səbəb oldu. Yarəhməd Xəlifə qarşılaşdıqları məclislərdən birində Xacə Həbibullanın qətlinə də cəhd göstərmək istədi. Lakin onu bu qərardan daşındıra bildilər. Bununla belə, narazı insanların qəzəbini soyutmaq da mümkün olmadı və bu insanlar Yarəhməd Xəlifə ilə Xoca Həbibullanın qarşılaşmasından bir gün sonra böyük bir izdihamla şəhər bağının darvazası qarşısına toplaşaraq yenidən Xoca Həbibullanın cəzalandırılması tələbini irəli sürdülər. Bu tələbi irəli sürənlər silahlı insanlar idilər və onlar

tələblərinin çox ciddi olduğunu da ortaya qoydular. Vəziyyət o qədər gərginləşdi ki, nüfuzlu əyanlar bu izdihamın qarşısına çıxdılar və onlar qəzəblənən insanları sakitləşdirməyə çalışdılar. Yarəhməd Xəlifə də qəzəblənən insanlar izdihamına qatıldı və bu izdiham Xoca Həbibullanın evinə doğru hərəkətə başladı. İzdiham tərəfindən Xoca Həbibullanın evi mühasirəyə alındı, evə giriş və çıxış bağlandı. Xoca Həbibulla vəziyyətin pisləşdiyini görəndə öz xidmətçilərindən biri vasitəsilə qəzəblənmiş insanlara onların bütün maaşlarının dərhal ödənəcəyi barəsində vəd səsləndirdi. Qəzəblənmiş insanlar isə eşitdikləri sözlərə tüfəng atəşləri ilə cavab verdilər. Sonra isə Xoca Həbibullanın evinə hücum çəkən izdiham onun iki oğlunu qətlə yetirməklə bütün xidmətçiləri də qılıncdan keçirdilər. İzdihamın rəhbərlərindən bir olan Dərviş bəy Rumlu bu hücumun gedişində Xoca Həbibullanı əsir götürdü. Xoca Həbibulla xahiş etdi ki, onu Sam Mirzənin yanına aparsın və əgər öldürülməlidirsə onun yanında öldürsünlər. Dərviş bəy bu xahişi qəbul etdi və Xoca Həbibullanın başını bağladı ki, qəzəblənmiş insanlardan kimsə onun üzünü görüb tanımasın. O bu yolla Xocanı izdihamın arasından çıxarmaq istəyirdi. Lakin qəzəblənmiş insanlar Xoca Həbibullanı tanıdılar və onu tutub qətlə yetirdilər. Yalnız bundan sonra izdihamın qəzəbini soyutmaq mümkün oldu (58).

Qeyd etmək lazımdır ki, istər Div sultanla Köpək sultan arasında başlanan ziddiyət, istərsə də Xoca Həbibulla ilə bağlı baş verən hadisə kiçik yaşlarında olmasına baxmayaraq Şah Təhmasibin də diqqətini cəlb etmişdi və sonralar yazdığı təzkirəsində bu hadisələr haqqında öz fikirlərini bəyan etmişdi (59).

Div sultanın Ustaclı tayfa mənsublarını dövlət vəzifələrindən uzaqlaşdırması, Köpək sultanı Təbrizdən uzaqlaşmağa məcbur etməsi səltənət idarəçiliyində müvəqqəti və nisbi sakitliyin meydana gəlməsinə səbəb oldu. Lakin Div sultanın dövlət idarəçiliyini öz əlində cəmləşdirməsi Ustaclı tayfasının ona qarşı müxalifətçiliyini heç də aradan qaldırmadı. Əksinə, Ustaclı əmir və əyanlarının cəzalandırılması, onlara məxsus torpaq sahələrinin

əllərindən alınması sonsuz qəzəblə qarşılandı. Ona görə mövcud olan narazılıq tezliklə daha bir qarşıdurmaya yol açdı.

"Əhsənüt-təvarix" müəllifinin məlumatına görə, Köpək sultan Gürcüstan səfərindən geri qayıtdıqdan sonra Div sultanın ona qarşı müxalifətçiliyinin kəskinləşməsinin şahidi oldu. Bu məlumata görə, Div sultan hətta onun hakim olduğu vilayətin idarəçiliyini də Çuxa sultana və onun ətrafındakılara həvalə etmişdi. Div sultanla Çuxa sultanın ittifaqı bütünlükdə Ustaclı tayfasına qarşı ciddi təhlükəyə çevrilməkdə idi. Ona görə də Köpək sultan bu təhlükənin qarşısının alınması barədə ciddi addımlar atmaq qərarına gəldi. Bu qərarın davamı kimi Köpək sultan ona qarşı müxalifətçiliyi gücləndirən Div sultan və Çuxa sultana qarşı güc tətbiq edilməsi yolunu tutdu və ətrafına topladığı qoşunla 1526-cı ilin aprel ayında Xalxaldan keçməklə Sultaniyyə çəməninə doğru hərəkətə başladı. Başlanan bu yürüşdə uğurun əldə edilməsi üçün Köpək sultan qoşunların sıralarının genişləndirilməsini lazım bildi. Bunun üçün o, ustaclı tayfasının nüfuzlu əmirlərinə, o cümlədən Qılıc xan Ustaclıya, Məntəşə sultan Şıxlara, Kürdü sultana, Bədir sultana və ustaclı tayfasının digər sultanlarına məktub göndərdi və onları da qoşun dəstəsi ilə birlikdə öz yanına çağırdı. Həmin əmir və sultanlar da Köpək sultanın məktubunu aldıqdan sonra tabeliklərində olan qoşun dəstələri ilə Sultaniyyəyə gəldilər. Onlar Köpək sultanın birlikdə Div sultana qarşı mübarizə aparmaq təklifinə qoşuldular və bu qarşıdurmaya hazırlaşmağa başladılar. Köpək sultan tərəfindən eyni zamanda bu mübarizəyə qoşulmaq imkanı olan digər ustaclı əmirlərinə də xəbər göndərildi və onlar da Div sultana qarşı mübarizəyə dəvət olundu (60).

Bu xəbər dərhal Div sultana və onun ətrafındakılara çatdı. Köpək sultan tərəfindən yenidən başlanan müxalifətçiliyə cavab vermək üçün Div sultan da hazırlıq işləri görməyə başladı. Div sultan rumlu, təkəli tayfalarının, onun mövqeyini dəstəkləyən digər oymaqların əmir və əyanlarına xəbər göndərdi və onları qoşun dəstələri ilə birlikdə öz yanına dəvət etdi. Bu işlərini Div sultan mərkəzi hakimiyyət adından görürdü və Köpək sultanın

ətrafına toplaşan qoşunlar üzərinə yürüşə başlayanda Şah Təhmasibi də özü ilə apardı. Yəni Div sultan tərəfindən Köpək sultana qarşı mübarizənin Şah Təhmasibin rəhbərliyi altıda aparılması görüntüsü yaradıldı və hətta mənbə məlumatlarından məlumdur ki, döyüş düzülüşü zamanı Şah Təhmasib qoşunların mərkəzində dayanmışdı.

"Tarix-i aləmara-yi Abbasi" əsərində Köpək sultanla Div sultan arasında müxalifətçiliyin yenidən qızışması belə təsvir edilmişdir: "932-ci (18.10.1525 -07.10.1526) ildə [Köpək sultan] öz tayfası və qoşunu ilə Sultaniyyəyə gəldi. Orada ustacluların başqa əmir və əyanları, xüsusən Məntəşa sultan, Faruq sultan, Xan Məhəmmədin qohumu Qılıc xan və digərləri onun başına yığılaraq, Div sultan və onun tərəfdarlarına qarşı müharibə kəmərini bağladılar. Bu tərəfdən Div sultan və Çuxa sultan barışıq və sülhdən bəhs edərək, Qasım xəlifə Varsağı onlara nəsihət verməyə və onları fələyi bürüyən şah çətirinin kölgəsində duran ordu ilə qarşıdurmadan çəkindirməyə göndərdilər. O, (yəni Qasım xəlifə) fitnə və toqquşma atəşini söndürmək üçün çox çalışdı. [Lakin] onlar Div sultanın sözünə inanmadılar. Onların müharibə etməsi Allahın iradəsindən asılı olduğuna görə onun vasitəçiliyi [elçiliyi] heç bir nəticə vermədi. Hər iki tərəf döyüşə hazırlaşdı. Səmimi adamlar bu iki müntəzəm qoşunu müşahidə edərkən ürək qanı və göz yaşı ilə təəssüf edirdilər ki, nə üçün bu hər iki dəstə fələk qüdrətli şahın üzəngisi ətrafında birləşib [ümumi] düşmənlərə qarşı vuruşmurlar?" (61).

Bu məlumatdan göründüyü kimi, Div sultan və onun ətrafındakılar Köpək sultanın dəstəsinə qarşı döyüşə başlamazdan əvvəl barışıq əldə edilməsinə cəhd göstərdilər. Çox güman ki, Köpək sultan öz ətrafına çox böyük sayda qoşun dəstəsi toplaya bilmişdi və bu dəstəyə qarşı vuruşmaq Div sultanda müəyyən nigarançılıq yaradırdı. Ona görə də mənbə məlumatlarına görə, Div sultanın rəhbərliyi altında olan şah qoşunları Sultaniyyə yaxınlığında yerləşən Səgsəncək adlanan məntəqəyə yetişəndən sonra Köpək sultanla barışıq əldə edilməsinə cəhd göstərildi. Bununla əlaqədar olaraq Qasım xəlifə Varsaq danışıqlar aparmaq üçün Köpək sul-

tanın yanına göndərildi. Bu barışığın hansısa bir şərt çərçivəsində olub-olmaması haqqında mənbələrdə bir məlumat yoxdur. Məlum olan odur ki, Qasım xəlifə Varsağın Köpək sultanla apardığı danışıqlar bir nəticə vermədi və Köpək sultan öz mövqeyindən geri çəkilmədi. Belə olanda tərəflərin silahlı qarşıdurmasından başqa bir yolu qalmadı.

Hər iki tərəf bu qarşıdurmaya ciddi hazırlaşmışdı. Hətta döyüşdən qabaq təbillər səsləndirildi, ney sədaları ətrafa yayıldı, qoşunlar dövrün müharibə ənənələrinə və təcrübəsinə uyğun olaraq qruplaşdırıldı, sağ və sol cinahlar ayrıldı, onların hər birinə rəhbərlər təyin edildi.

Qasım xəlifə Varsağın barışdırıcılıq missiyası və şah qoşunlarının döyüşqabağı düzülüşü, habelə tərəflər arasında baş verən döyüş "Əhsənüt-təvarix" əsərində daha geniş şəkildə təsvir edilmişdir. Doğrudur, bu əsərdə Div sultanın rəhbərliyi altında olan şah qoşunlarının fəaliyyəti haqqında məlumatlar daha çoxdur. Bununla belə, həmin məlumatlar döyüşün gedişi haqqında ümumu təsəvvür əldə etməyə imkan verir: "Köpək sultan rəcəb ayının (13.04.-12.05.1526) əvvəlində Xalxal yolundan Sultaniyyəyə gəldi. Məntəşa sultan, Qılıc xan, Qurd bəy və Bədir bəy ona qoşuldular və savaş meydanına üz qoydular. Div sultanla Çuxa sultan ustaclu əmirlərinin müxalifliyindən agah olduqda, miqdarını xəyal mühasiblərinin sayıb qurtarmaqda aciz qaldıqları qədər çoxsaylı bir qoşunla və dinin pənahı olan şah ilə birlikdə onlara qarşı hərəkət etdilər, gəlib Səksəncək mövqeyində dayandılar. Əmirlərin fikrindən keçdi ki, yenə də Köpək sultanla sülh bağlasınlar, fitnə alovlarını tədbir suyu ilə söndürsünlər, ortalıqda qalxmış olan vəhşət tozanağını və şölələnmiş fəsad atəşini öyüd-nəsihət zülalı ilə yatırsınlar. [Bu məqsədlə] onlar Qasım xəlifə Varsağı elçi sifəti ilə ustaclu əmirlərinin yanına göndərdilər, uzlaşmanın əsasını möhkəmlətmək və nifaq zəncirini qırmaq yönündə təkliflər irəli sürdülər. [Qasım] xəlifə Varsaq "Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşursa, onları dərhal barışdırın" ayəsinin zərurətinə əməl edib razılaşma köynəyini geyindi, barışıq əlini səmimiyyət qolçağından çıxardı, Köpək sultanın yanına

gəldi və tərəflərin barışması üçün xeyli səy göstərdi. Amma asimani qəzavü-qədər üstün gəldi, şər atəşi şöləl추 şölələndi və iti qılıncdan savayı heç bir şeylə düşmənçiliyin kökünü kəsmək mümkün olmadı. Söhbətlər, məzəmmətlər və tənələr mübahisəyə gətirib çıxardı. [Ustaclu əmirləri] zülal suyundan və halal sehrdən daha faydalı olan nəsihətləri dəyərsiz və əhəmiyyətsiz toz-torpaq kimi qiymətləndirdilər, nurdan və alovdan daha parlaq öyüdləri külək kimi vəznsız və etibarsız hesab etdilər.

...[Ustaclu əmirləri] hərb atəşini alovlandırmaq üçün tələsdilər, kama çatmaq üçün qaldırdıqları küləklə vəfadarlığın gözünün içinə toz saldılar, özlərinin şər işlərlə və yersiz düşüncələrlə dolu başlarını bir Ənqa quşu kimi fitnə Qafının arxasına çəkdilər. Onlar səmadakı günəş kimi böyük bir qoşunla, qılınc qurşanan, qalxan tutan əsgərlərlə, sayları ulduzların sayı qədər çox olan nizədarlarla və xəncər vuran cəngavərlərlə alovlu bir şəkildə hərəkətə keçib, savaş küləyinin dalğalandırdığı su kimi coşqun və hay-küylü bir şəkildə döyüş və vuruş meydanına yollandılar. Hər iki tərəf səflərin tərtibi, nizələrin və qılıncların döyüşə hazır vəziyyətə gətirilməsi ilə məşğul oldu. Bu tərəfdən ordunun mərkəzi dinin pənahı olan şahın bədirlənmiş ay misallı simasının nuru ilə bəzəndi. Div sultan və Çuxa sultan o həzrətin yanında dayandılar. Sağ cinahda (“meymənə”də) Burun sultan Təkəlü, Qaraca sultan Təkəlü və Əxi sultan Təkəlü durdular. Sol cinahda (“meysərə”də) Dəmri sultan Şamlu və Zülqədəroğlu Məhəmməd xan qərar tutdular. Ustaclu qoşunlarının isə ümid gözü mərkəz (“qol”) tərəfdə Köpək sultanın bayrağının ayparasının nuru ilə işıqlandı. Sağ cinah (“bərənğar”) Məntəşa sultanın rövnəqi və şövkəti ilə möhkəmləndi. Sol cinah (“cəvanğar”) Qazaq sultanın qılıncının və nizəsinin parıltısından zinət tapdı. Elə ki həmin iki kinli ordu bu tərtiblə bir-birinin qarşısına çatdılar, zəmanənin ürəyi təəssüfdən qana döndü ki, gərək eyni soydan olan bu iki qoşun bər-biriləri ilə ittifaq edərək dövlətin yağılarını zəlil və məmləkətin düşmənlərini qəhr edəydilər. Köpək sultanla Məntəşa sultan təkəlü əmirlərinin üzərinə at çapdılar. Minik heyvanlarının nallarının tozanağından günəşin gözü tutuldu və atların dırnaqlarından qal-

xan toz-torpaqdan dünya başına tozdan pərdə çəkdi. ... Köpək sultanla Məntəşa sultan nisan (aprel) ildırımı kimi cuşa gəlmişdilər və qamışlığa düşən şimşəktək qızmışdılar. [Ustaclular] hər iki tərəfdən basqın edirdilər və mübarizə aparırdılar. Hər qılınc zərbəsi ilə bir aslanı yoxluq diyarına yollayırdılar və hər ox atışı ilə bir pəhləvanı həlak torpağına sərirdilər.

... Təkəlülər məğlub oldular. Burun sultanla Qaraca sultan qətlə yetirildi. Ustaclular [təkəlüləri] təqib edərək [şah ordusunun] mərkəzinin arxasına doğru dolandılar. Süleyman məkanlı padşah, qorçuların bir dəstəsi ilə onlara həmlə etdi.

.... Yüksək uçan şahbaz kimi şığıyan Köpək sultan hökmdarın çətirini səadətin qanadları kimi açılmış gördükdə quş kimi iztirabın əsiri oldu, ayağını savaş meydanından geriyə qoydu, yüyənini nakamlığın əlinə verib, az adamla, fəqət çoxlu xofla fərar vadisinə tələsdi. Qorçular onları təqib etdilər və bir hissəsini qətlə yetirdilər. Ustaclu əmirləri Əbhər hüduduna gəldilər. Orada arxadan sürətlə gələn təkəlülər onlara çatdılar. [Ustaclular] çarəsiz qalıb Rəşt hakimi Müzəffər sultana pənah apardılar. Müzəffər sultan onların köməyinə səkkiz min piyada göndərdi. Bu xəbər orduya çatdıqda, dinin pənahı olan şah öz ordugahını Xalxalda qoyub sürətlə irəli atıldı. O, Div sultanı, Çuxa sultanı, Məhəmməd xan Zülqədəroğlunu, Əxi sultanı və Dəmri sultanı ön dəstə ("mənqəlay") təyin etdi. Onlar Xərzəvil ətrafına çatdıqda, qəflətən Köpək sultan, Məntəşa sultan, Qazaq sultan, Qurd bəy, Bədir bəy və Qılıc xan [öz qoşunlarının] mərkəzini, sağ və sol cinahlarını tərtib etmiş şəkildə, yırtıcı aslan və qorxulu bəbir kimi Gilan cəngəlliyindən çıxıb onların qarşısında səf qurdular. Həmin iki qaniçən qoşun və həmin iki coşqun dəniz təlatümə gəldi. Döyüş mərəkəsinin tozanağı yüksəldi. İti qılınclar başçıların başlarını zillət torpağı üzərinə tökməyə başladı.

... Axırda ilahi zəfər yeli şah əmirlərinin bayrağını yellətdi. Köpək sultan ayağını fərar vadisinə qoydu. Əmirlər onları təqib etdilər və əksər giləkləri qətlə yetirdilər. Köpək və Məntəşa kəklik kimi qartal caynağından xilas olub böyük məşəqqətlə Gilana getdilər" (62).

“Rövzətüs səfəviyye” müəllifinin yazdığına görə, Köpək sultanın rəhbərliyi altında olan ustaclı qoşunları Əbhərə yetişdikdən sonra orada dayandılar, burada həm ətrafa səpələnmiş olan qoşunların yenidən toplanmasına, həm də ətraf bölgələrdən əlavə qoşun gətirilməsinə cəhd göstərdilər. Bu məlumatlara görə, Köpək sultan ətrafdan toplana biləcək əlavə qoşunlara böyük ümid bağlayırdı və güman edirdi ki, bu yeni qüvvələrin gəlişi ilə onları izləyən şah qoşunlarının müqavimətini qıra biləcəkdir. Həmin zaman ərzində ustaclılar Rəşt hakiminə pənah apardılar, ona sığınmaqla bərabər, ondan kömək də istədilər. Rəşt hakimi də onları mehribanlıqla qarşıladı, ustaclı əmirlərinə ehtiram göstərdi, onlara hədiyyələr göndərdi. Bildirilir ki, ustaclı qoşunlarının Rəşt hakiminə sığınması xəbəri şah qoşunlarına yetişəndə, bu qoşunların həmin bölgəyə doğru irəliləməsi məsləhət bilinmədi. Təkəli və rumlu əmir və əyanları Rəşt ətrafında döyüş aparılmasını məqsədəuyğun saymadılar və ona görə də ustaclı qoşunlarının təqibinə son qoydular. Rəşt hakimi isə vaxtaşırı məclislər təşkil etməklə Köpək sultana və Qılıc xana qarşılaşdıqları uğursuzluğun kədərini unutdurmağa çalışdı. Bir müddət beləcə ötdü. Qeyd edildiyi kimi, ustaclı əmirləri Gilan vilayətində sadəcə vaxt keçirməklə məşğul deyildilər. Şah qoşunlarının geri qayıtmasından istifadə etməklə onlar əlavə qoşun toplanmasına da bir fürsət əldə etdilər. O zamanlar Qəzvin ətrafında olan Abdulla xan Ustaclıya və Qazi bəyə də xəbər göndərildi ki, onlar da öz qoşunları ilə Div sultana qarşı mübarizədə kömək göstərsinlər. Belə bir xəbər eyni zamanda Kerman valisi Əhməd sultan Sufioğluna göndərildi. Əhməd sultan da bu xəbəri alandan sonra idarəçiliyi altında olan bölgələrin hakimlərindən qoşun dəstələri toplayaraq Qəzvin ətrafına göndərmələrini tələb etdi. O, Abdulla xan Ustaclı və Qazi bəylə birlikdə şah qoşunlarına qarşı hərəkət etməyə razı oldu. Sonra da Gilanda olan Köpək sultana birgə hərəkətə başlamağa razı olduqlarını bildirdilər. Eyni zamanda Köpək sultan qarşısında harada görüşmək barədə məsələ qaldırdılar. Müəyyən edilmiş məntəqədə qoşunlar bir yerə toplanmalı və sonra da birgə fəaliyyət planı müəyyənləşdirilməli

idi. Yuxarıdakı qeydlərdən göründüyü kimi, Köpək sultan Rəşt hakimindən də səkkiz min nəfərlik qoşun dəstəsi kömək almışdı. Lakin Köpək sultan ona həmfikir olan əmir və əyanlarla birləşmək imkanı tapa bilmədi. Div sultanın düşərgəsində qərara alındı ki, Qəzvin ətrafında toplaşmış olan qüvvələrin Köpək sultanla birləşməsinə yol verilməsin və Qəzvin ətrafında olan qüvvələrlə Köpək sultan ətrafında olan qüvvələrə ayrı-ayrılıqda zərbə vurulsun. Belə də edildi. Div sultan tabeliyində olan qoşunları əvvəlcə Qəzvin istiqamətinə göndərdi. Abdulla xan Ustaclı ilə Qazi bəy onlara qarşı göndərilmiş qüvvələrə müqavimət göstərmək imkanında olmadıqları üçün geri çəkildilər və Rəştə doğru istiqamət götürdülər. Div sultanın qoşunları da onların ardınca Rəştə doğru hərəkəti davam etdirdi. Tərəflər arasında növbəti qarşıdurma qaçılmaz olanda Köpək sultan, Qılıc xan, Məntəşə sultan öz əmirlərinə və qoşun başçılarına çoxlu hədiyyələr paylamaqla onları bu döyüşə qaldırdılar və Xərzəvil adlanan məntəqəyə doğru üz tutdular. Bu məntəqə ətrafında tərəflər arasında növbəti güclü döyüş baş verdi. Köpək sultan və onunla həmfikir olanlar göstərdikləri bütün cəhdlərə baxmayaraq yenə də sayca üstün olan təkəli və rumlu qoşun dəstələri qarşısında uğursuzluğa düçar oldular (63). Beləliklə, Div sultan bu dəfə də mərkəzi hakimiyyətə qarşı müxalifətçilik edən qüvvələrə ağır zərbə vurdu. Köpək sultanla Məntəşə sultan canlarını qurtararaq Rəştə doğru geri çəkildilər.

Div sultanla Köpək sultanın müxalifətçiliyinin yol açdığı döyüşlər haqqında Şah Təhmasibin təzkirəsində də bəzi qeydlər vardır. Bu qeydlərdəki məlumat kifayət qədər müxtəsərdir. Lakin həmin qeydlərdə digər mənbələrdə olmayan bəzi maraqlı detallar mövcuddur: "...Şaban ayının 14-də (26-V-1526) şənbə günü, günorta vaxtı türklərin (azərbaycanlıların) Səksəncək dedikləri, Həştadcoft adlı yerdə döyüşə başladılar. Bu vaxt Qaraca sultan Təkəlu Həmədandan [gəlib] çatır. Çatmağı ilə öldürülməyi bir olur. Burun sultan Təkəlu da öldürüldü. Ancaq Rumlu, Təkəlu əmir və qorçiləri güc gəlirlər. Ustaclu əmirləri qaçıb Əbhərə gedirlər. Orada da Təkəlu camaatı hücum edib onlara çatır. Məc-

buriyyət qarşısında qalıb Tarıma gedir və Rəştin hakimi Müzəffər sultan Gilaniyə sığınırlar. Bu zaman Xanməhəmmədin qardaşı oğlu [olan] Qaraxanın oğlu Abdulla xan Ustaclu Qazi Cahan Qəzvinini Lori qalasından xilas edib bizə çatdırdı və Rumlu, Təkəlu camaatına etirazını bildirdi. Kirman hakimi Əhməd sultan Sufi oğlu Ustaclu da onlara qoşulur.

Daha iki dəfə bu tayfalar və ustaclular arasında Xərzəvil vilayətində böyük vuruşma olur və Gilandan köməyə gəlmiş çoxlu piyada öldürülür. Ustaclular və gilanlılar böyük məğlubiyyətə uğrayırlar. Bu qələbənin xəbəri Qəzvində olarkən mənə çatdı. O camaatın çoxlu [kəsik] başını gətirdilər və onların başlarından Qəzvində minarə düzəltdilər. Onlar yenidən Rəştə gedirlər, Əhməd sultan və başqaları əzilub xar olur. Bu, əvvəlinci dəfə idi ki, Qəzvində düşərgə salıb qışladıq, daha bir qələbə üz verdi” (64).

Şah Təhmasibin bu qeydlərindən aydın olur ki, o, Köpək sultanla Div sultanın rəhbərliyi altında olan qoşunların birinci döyüşündə şəxsən iştirak etsə də, ikinci döyüşdə iştirak etməmişdi. Amma bu döyüşün gedişini izləyirdi və nəticə barəsində dərhal ona məlumat çatdırılmışdı.

Lakin baş verən bu hadisələr də bütünlükdə mərkəzi hakimiyyətin zəiflədilməsinə yönəldilmiş daxili çəkişmələrə və rəqabətə son qoymadı. Hətta özbək qoşunlarının yenidən Səfəvi hüdudlarına hücum etmək cəhdi də qızılbaş əmir və əyanlarının yüksək mövqe və nüfuz uğrundakı mübarizəsini aradan qaldırmadı. Şah Təhmasib səltənət daxilində hərbi-siyasi gərginliyə rəvac verən daha bir qarşıdurma haqqında öz təzkirəsində məlumat vermişdir. Onun verdiyi məlumat aşağıdakı məzmundadır: “Donquz il – 933-cü (8-X-1526 – 26 - IX – 1527) ildə özbəklərin baş qaldırması və Heratın mühasirəsi xəbəri ortaya çıxdı. Özüm Xorasana yola düşdüm. Savucbulaqda xəbər çatdı ki, Əxi sultan Təkəlu və Dəmdi (yaxid Dumri) sultan Şamlu Bistamda özbək Übeydlə vuruşmada öldürülmüşlər.

Başqa bir xəbər; Azərbaycandan gəldi ki, Ustaclu əmirləri Rəştdən Ərdəbilə gediblər. Oranın hakimi tavaçı Badıncan sultan Rumlu, Əhməd ağa və Köpək sultan öldürülüblər. Oradan Div

sultanın ordusunun məskən salıb dayandığı Çuxursəədə yollanıblar. Div sultan və Çuxa sultan bu xəbəri eşidib, cümə günü ramazan [ayının] 29-da (29-VI-1527) Naxçıvanın Arpa çayına çatır. Bir-birilə vuruşurlar, ustaclular məğlub olur, Köpək sultan öldürülür və Bəhram bəy Qaramanlunun oğlu Məhəmmədi bəy əsir düşərək qətl edilir.

Şəvval ayının 26-cı (26-VII-1527) tarixində bu xəbərləri eşidib qayıtdım və Qəzvinə gəldim. Tam aydın və doğru xəbər bilmək üçün münhilərin (xəbər gətirəck çaparların) gəlməsini gözlədim" (65).

Burada söhbət Köpək sultanın və onun ətrafında birləşmiş ustaclı əmir və əyanlarının öz əvvəlki mövqelərini geri qaytarmaq üçün Div sultanla apardıqları rəqabətin yenidən qızışmasından gedir. Köpək sultan və onun ətrafında olan əmir və əyanlar qarşılaşdıqları uğursuzluqla, habelə mövqelərinə güclü zərbə dəyməsi ilə heç də barışmaq istəmirdilər və onlara qarşı cəbhə tutmuş qüvvələrə zərbə vurmaq üçün münasib məqam gösləyirdilər. Özbək qoşunlarının yeni hücum cəhdi və bu cəhdin səltənət daxilində yaratdığı yeni şərait ustaclı əmir və əyanları tərəfindən növbəti hərəkət üçün münasib məqam kimi dəyərləndirildi və onlar bu məqamdan bəhrələnməyə çalışaraq hərəkətə keçdilər. Çünki təkəli və rumlu tayfalarından təşkil edilmiş qoşunlar, yəni Div sultanın arxalandığı qoşunlar bu zaman özbək qoşunlarının qarşısının alınmasına cəlb edilmişdi. Bundan istifadə edən Köpək sultan ilk zərbəsini Div sultana yaxın əyanlardan sayılan Ərdəbil hakimi Badincan sultan Rumluya qarşı istiqamətləndirməyi qərara aldı.

Mənbələrin birinin verdiyi məlumata görə, Div sultan yaxını saydığı Badincan sultanın ixtiyarına 2 min nəfərlik qoşun dəstəsi verərək Ərdəbil və Talışın təhlükəsizliyini ona tapşırdı. Lakin Badincan 90 yaşında ahıl bir adam idi və onun üstünə hücum çəkən qoşunun qarşısını alacaq qədər çevik deyildi. Xüsusilə də ona görə ki, Köpək sultan çox böyük qoşun dəstəsi ilə Gilandan Ərdəbil istiqamətinə hərəkətə başlamışdı. Köpək sultan əvvəlcə

Mirzə Xalxali adlı əyanın mülkini dağıtdı və sonra da Ərdəbilə doğru hərəkətini davam etdirdi (66).

Başqa bir mənbə məlumatına görə isə, özbək qoşunlarının səltənət hüdudlarına hücumu zamanı Div sultanla Çuxa sultanın qoşunları Çuxursəəddə qərar tutmuşdular. Bu mənbədəki məlumatdan belə bir qənaət hasil olur ki, Köpək sultan Gilandan hərəkətə başlamaqla əvvəlcə Ərdəbili ələ keçirmək və sonra da Çuxursəədə doğru hərəkət etmək niyyətində imiş. Badincan sultanla döyüşdən və onun qətlə yetirilməsindən sonra ustaclı əmirlərinin və qoşunlarının əlinə böyük miqdarda var-dövlət keçibmiş. Əldə edilən nəticə onları xeyli razı salmışdı. Bundan sonra da ustaclı əmirləri öz diqqətlərini təkəli qoşunlarına, yəni Div sultana qarşı çevirdilər (67).

"Əhsənüt-təvarix" əsərində isə Köpək sultanın yenidən fəallaşması, növbəti silahlı qarşıdurma zamanı hansı hadisələrin baş verməsi belə təsvir edilmişdir: "Köpək sultan dilavərlərin basqınından sonra Gilana getdiyi zamandan etibarən gecə-gündüz o fikirdə idi ki, görəsən, onun muradının çöhrəsi məqsəd aynasında necə təzahür edəcək və əcəba, hansı şahmat taxtası üzərində öz ümid daşını qəm dünyasından çıxara biləcək? Buna görə də o, həmin vaxt çoxsaylı bir qoşunla Gilandan çıxıb öz hərəkət bayrağını Ərdəbil tərəfə yüksəltdi. Şərəfli ömrü yaşayış mərhələlərindən doxsan mərhələ qət etmiş (yaşı doxsana çatmış) və yaşının çoxluğu səbəbindən ağlının cövhərinə tamamilə xələl gəlmiş Badıncan sultan Rumlu Ərdəbildə sakin idi. O, Ayqut bəy Rumlu, Maqsud bəy Çepni, Talış əmirləri və təxminən üç min səkkiz yüz süvari ilə onların qarşısını kəsməyə tələsdi. Qaradərədə [iki qoşun] bir-birinə çatdı və səf qurdular. Məntəşa sultan savaş tozanağını səadət gözünün tutiyası bilən və həyat suyunu döyüş meydanının zülmətində axtaran bir dəstə qazi ilə onların mərkəzinə həmlə etdi. Badıncan sultan çoxlu qoşuna və hədsiz qürura malik olmasına baxmayaraq, binamusluq külünü başına töküb az miqdarda adamın qarşısından qaçdı. Ustaclular onları təqib etdilər. O vaxt Qazuq sultanın tuğaçısı olan Əhməd ağa Çavuşlu, Badıncan sultanı qətlə yetirib başını əmirlərin yanına apardı.

Ustaclular Ərdəbil şəhərinə daxil oldular, övliyaların sultanı olan Həzrət Şeyx Səfiəddin İshaqın ziyarətinin ehramını bağlayıb tamam ədəblə, son dərəcə təzimlə və ehtiramla ziyarət şərtini yerinə yetirdilər və hərəkət bayrağını Təbriz tərəfə qaldırdılar.

Badincan sultanın vuruşmada qətlə yetirilməsi və ustaclu əmirlərinin Təbrizə getməsi xəbəri dinin pənahı olan şaha çatdıqda o, Div sultanı, Çuxa sultanı və Zülqədəroğlu Məhəmməd xanı səkkiz min nizədar süvari və min nəfər xasseyi-şərifə qorçusu ilə onlara qarşı savaşa göndərdi. Əmirlər tam sürətlə üsyankarların üzərinə yürüdülər. O zaman ustaclular Təbrizə çatmışdılar. Lakin Div sultanın gəlişindən xəbər tutan kimi Çuxursəədə tələsdilər. Çox cəsur əmirlər Şərur hüduduna çatdıqda Köpək sultan qılıncla qayanı zərrə-zərrə parçalayan və hər birisi tükü hədəf ala bilən ox atışları ilə zirehi yüz parçaya ayıran dilavərlərlə birlikdə gözlənilmədən peyda oldu. Təxminən min nəfər süvari həmin fil kimi heybətli, ilantək yara vuran və qarışqa qədər çox olan ordunun önündə səf qurdu.

…Əmirlər sürətli hərəkətin ardından dayandılar və ordunun hazırlığı ilə məşğul oldular. Div sultan mərkəzdə yerləşdi. Çuxa sultan sağ cinahda mövqe tutdu. Zülqədəroğlu Məhəmməd xan ehtiyatda qərarlaşdı. İlk öncə igidlik və mərdlikdə dövranın yeganəsi olan Tacəddin bəy göz qamaşdıran şimşək və şiddətli külək kimi qoşunun mərkəzinə at çapdı və ordunun səfini yarıb, qoşunun arxasında olan yedək atların arasına çatdı. Onun arxasınca Köpək sultan, Məntəşa sultan, Qazuq sultan, Bədir bəy və digər ustaclular həmlə etdilər. İgidlərin nizəsinin şöləsi cavanların həyat xırmanını yandırdı və pəhləvanların həmləsinin küləyindən kin atəşi yayıldı.

... İti dilli qılınc pis xasiyyətli düşməni sakitləşdirirdi və kaman son dərəcə lovğalıq və təkəbbür ilə arxasını müxalif tərəfə çevirib rəqibi zillət torpağı üzərinə salırdı. O gün ustaclu dilavərləri elə bir savaş göstərdilər ki, cahan sakinləri Rüstəm və İsfəndiyar dastanını unutdular. Div sultanla Çuxa sultana gəldikdə isə, bu iki nəfər:

Nəzm
“Mizrağın ucu və xədəng oxları ilə,
Xurşidin üzündəki ləkəni vururdular”.

Döyüş və vuruş vaxtı Zülqədəroğlu Məhəmməd xan ustacluların böyründən daxil oldu və amansız qılıncla onları vurmağa başladı. O, illərlə öz xatirində saxladığı arzunun bir zərrəsinin də ürəyində qalmasına imkan vermədi. Köpək sultan, Tacəddin bəy və Dərviş bəy dilavərlərin bir dəstəsi ilə birlikdə qətlə yetirildilər. Məntəşa sultanla Qazuq sultan ordunun səfini yarıb aradan çıxdılar və çoxlu məşəqqətlə özlərini Gilana yetirdilər. Adlı-sanlı əmirlər saysız qənimətlərlə ali dərgaha üz tutdular və Zəncanərudda [şahın] ordusuna qoşuldular” (68).

Göründüyü kimi, bu qarşıdurmada Köpək sultan həyatını itirməli oldu. Bununla səltənət idarəçiliyində yüksək mövqeyə malik olan Div sultan ona qarşı müxalifətdə olan güclü rəqiblərindən birini aradan qaldıra bildi.

“Ələmara-ye Şah Təhmasib” əsərində Köpək sultanın qətlə yetirilməsi ilə bağlı digər mənbələrdə olmayan fərqli məlumatlar mövcuddur. Bu əsərdə bildirilir ki, Köpək sultan bu hadisədən sonra Şah Təhmasibin qardaşı Əlqas Mirzəyə məktub yazdı, baş verənlər haqqında ona məlumat çatdırdı və razı olacağı təqdirdə Əlqas Mirzəni şah etməyə hazır olduğunu bildirdi. Əlqas Mirzənin də cavabı belə oldu ki, ondan şah olmaz. Yəni o, Köpək sultanın planlarını rədd etdi və hakimiyyət mübarizəsinə qoşulmadı. Belə olanda Köpək sultan Sam Mirzəyə də müraciət etdi, ona da hakimiyyəti ələ keçirməyə kömək etməyə hazır olduğunu bildirdi. Köpək sultan çalışırdı ki, bu yolla həm böyük mövqe ələ keçirsin, həm də Div sultanı səltənət idarəçiliyindən uzaqlaşdırsın. Amma Sam Mirzə də bu təklifdən imtina etdi. Bundan sonra Köpək sultan öz məkanına geri döndü. Div sultana üstün gəlmək niyyəti isə onu sakit buraxmadı. Bu niyyətinin həyata keçirilməsinə yollar axtarmaq məqsədilə o, Rəşt hakimi Əmirə Müzəffərin yanına yollandı. Köpək sultan baş verənləri ona da danışaraq Şah Təhmasibin bacısı oğlu Ədhəm Mirzəni hakimiyyət başına gətirmək və bununla da Div sultanla olan rəqabətini tamamlamaq

istədiyini bildirdi. Ədhəm Mirzə də hakimiyyətə yiyələnmək arzusunda olmadığını bəyan etdi. Amma Köpək sultan onun bu istəyi ilə razılaşmadı və bundan sonra onu da yanına alaraq Qəzvinə tərəf istiqamət götürdü. Köpək sultanın qoşun çəkmək xəbəri Div sultan tərəfindən böyük narahatçılıqla qarşılandı və Şah Təhmasibi də özü ilə götürərək birlikdə ustaclı qoşunlarının qarşılanmasına yollandı. Mənbədə bildirilir ki, Div sultan qoşunu ilə Köpək sultanın və Ədhəm Mirzənin qoşunu qarşısında mövqe tutdu. Tərəflər arasında döyüş başlamazdan əvvəl Şah İsmayılın bacısı oğlu olan Şahverdi sultan 500 nəfərlik qoşun dəstəsi ilə Şah Təhmasibin düşərgəsinə yetişdi və onun müdafiəsinə hazır olduğunu bildirdi. Şahverdi sultan hətta Şah Təhmasibi də əmin etdi ki, narahat olmasın və gedib düşmənlərinin kəsilmiş başını ona gətirəcəkdir. Bundan sonra tərəflər arasında baş verən ciddi döyüş əsnasında Şahverdi sultan fürsət tapıb Ədhəm Mirzənin arxasına keçdi və onun başını bədənindən ayıraraq Şah Təhmasibin hüzuruna gətirdi. Onun öldürülməsi xəbərini eşidəndən sonra Köpək sultanın ətrafında olan qoşun dəstəsi müqavimət göstərməyi mənasız bilib dağınıq şəkildə döyüş meydanını tərk etdi (69).

Köpək sultan da döyüş meydanını tərk etdi. Amma çox da uzaqlaşmamış fikirləşdi ki, döyüş meydanını uğursuz şəkildə tərk etmək bir xəcalətdir və ona görə də dəstəsini yenidən toplayıb geri qayıtdı. Div sultan da öz qoşunu ilə düşərgəyə qayıtmaq istəyəndə ustaclı qoşunlarının yenidən hücuma keçməsi barəsində məlumat aldı. Belə olanda Div sultan da öz qoşun dəstəsini səfərbər edərək yenidən döyüş meydanına geri döndü. Tərəflər arasında döyüş yenidən qızışdı. Köpək sultan yenidən başlanan döyüşə bütün gücünü səfərbər etmişdi. Bu da ona imkan verdi ki, Div sultanın qoşun dəstəsi üzərində müəyyən üstünlük əldə etsin. Hətta Div sultan əlacsız qalıbmış ki, bu döyüşdən necə çıxsın. Elə bu vaxt onun yanında olan Kor Şahrux adlı əmiri Div sultanı əmin edir ki, Köpək sultanın iradəsini qıra biləcəkdir. Sonra da o özünü döyüş meydanına atır. Qeyd olunur ki, Kor Şahrux qoşunları yararaq Köpək sultana yaxınlaşmağa müvəffəq oldu və bildirdi

ki, ona çatdırılası gizli məlumatları vardır. Köpək sultan da bu sözlərə inandı və onlar ox atışlarının yetişə bilməyəcəyi məsafə qədər döyüş meydanından aralandılar. Söhbətlərinin başlanğıcında Kor Şahrux onu sövq edir ki, üzünü döyüş meydanına tərəf çevirsin. Real bir şübhə hiss etməyən Köpək sultan üzünü qoşunlara tərəf çevirən kimi, Kor Şahrux bu vəziyyətdən istifadə etdi, arxadan onun boynuna qılınc zərbəsi endirdi və onun başını bədənindən ayırdı. Sonra onun kəlləsini nizəyə keçirib Div sultanın yanına apardı. Bununla da tərəflər arasında alovlanan döyüş başa çatdı (70).

Lakin Div sultanın bu uğuru heç də uzun sürmədi. Güclü rəqiblərindən birini ortadan götürdükdən sonra onun uzun müddət müttəfiq olduğu Çuxa sultanla qarşıdurması başladı. Köpək sultan üzərində əldə edilən müştərək qələbədən sonra Div sultan səltənət idarəçiliyində öz səlahiyyətlərini daha da genişləndirmək və Çuxa sultana hansısa əlavə səlahiyyətlərin verilməsinin qarşısını almaq niyyətində idi. Çuxa sultan isə bununla razı deyildi. Səltənət idarəçiliyinə qarşı böyük müxalifət təşkil edən Köpək sultanın öldürülməsindən sonra o, əlavə səlahiyyətləri ələ keçirmək ümidində idi. Amma görəndə ki, Div sultan tamam başqa əhval-ruhiyyədədir, onda onun Div sultana qarşı müxalifətçiliyi başladı. Bu müxalifətçilik elə kəskin xarakter aldı ki, Çuxa sultan hətta Div sultanı qətlə yetirmək planını da ortaya qoydu. Çox tezliklə də Çuxa sultan bu niyyətinə nail ola bildi və 1527-ci il iyul ayının 5-də (hicri qəməri təqvimi ilə 933-cü il şəvval ayının 5-də) Div sultan qətlə yetirildi. Həmin qətlin baş verməsi Şah Təhmasibin elə də xüsusi bir narahatçılığına səbəb olmadı və bu qətli sakit şəkildə qarşıladı. Qətldən sonra isə Div sultana məxsus olan iqta torpaqları və onun qoşunları Şah Təhmasib tərəfindən Süleyman bəy Rumluya bağışlandı. Süleyman bəy Rumlu şahın yaxın ətrafına mənsub idi və ona görə də Div sultanın mülki və qoşunları ona bağışlanmışdı. Çuxa sultan isə Div sultanın qətlindən sonra səltənət idarəçiliyində kifayət qədər geniş səlahiyyətlər əldə etdi və səltənət vəkili vəzifəsinin icrasını bütünlüklə öz üzərinə götürdü (71).

Başqa bir məlumata görə isə Çuxa sultan yeni şəraitdə Şah Təhmasibi inandıra bildi ki, Div sultan səltənət daxilində baş verən qarşıdurmaların əsas təqsirkarıdır və ona görə də onun aradan götürülməsi təklifini irəli sürdü. Bununla da Şah Təhmasibi inandırmaq mümkün oldu və qətlin baş verdiyi gün Div sultan divanxanaya daxil olanda Şah Təhmasib ona tərəf bir ox atdı. Bu ox Div sultanın sinəsinə dəysə də ona ciddi bir təsir etmədi. Lakin atılan bu ox Şah Təhmasibin Div sultana münasibətinin göstəricisi oldu. Bundan sonra divanxanada olan gözətçilər Div sultanı qətlə yetirdilər (72).

Şah Təhmasib də yazırdı ki, Div sultanın qətlə yetirilməsi onun Gözəldərə yaylağında olduğu vaxt baş vermişdi. Qətl baş verəndən sonra isə Şah Təhmasib Qəzvinə yollandı. Öz təzkirəsində Şah Təhmasib qızılbaş əyanları arasında baş verən qarşıdurmaların nəticələrini rəğbətlə qarşılayırdı və bunu böyük qələbənin başlanğıcı sayırdı. O bildirirdi ki, bu hadisələrdən sonra həqiqi padşah oldu. Yəni belə güman etmək olar ki, Köpək sultan, Div sultan və başqa bir neçə nüfuzlu sultanın öldürülməsindən sonra Şah Təhmasibin səltənət idarəçiliyindəki rolu və təsiri daha da artdı: “Böyük Allah tərəfindən üz verən bu qələbə həqiqətən böyük qələbənin başlanğıcı idi. Bu vaxt Qəzvində həqiqi padşah oldum. Müxtəlif yerlərdə olan bəzi qiyamçıların hərəsini bir növlə aradam götürdüm. Pəncşənbə günü zülhəccə ayının 12-də (9-IX-1527) xoş saatda atamın Qəzvində olan divanxanasına gəldim. Car çəkdirdim ki, əmirlərdən, qoşundan, böyüklərdən və əhalidən hər kəs ki, var çağırsınlar. Əvvələn, məndən icazəsiz gedərək özbək Übeyd xanla müharibədə öldürülmüş Əxi sultan Təkəlu və Dəmri sultan Şamlu istəyirdilər ki, igidlik göstərib ixtiyar sahibi olsunlar, bilmirdilər ki, iş səylə deyil. ...Əxi sultan Təkəlunun vəzifəsini və Qəzvində olan vilayətini Məhəmməd bəy Şərəfəddin oğlu Təkəluya verib, ona Məhəmməd sultan ləqəbi qoydum. Dəmri sultanın vəzifəsini onun mülazimlərindən olan Məhəmməd bəy Rumluya verdim. Həmçinin hər vilayət və diyarın idarə və hökumətini hər kimin ki, buna qabiliyyəti vardı, ona verdim” (73).

Bu təyinatlar və həvəsləndirmələr heç şübhəsiz ki, Şah Təhmasib hakimiyyətinin möhkəmləndirilməsi və mərkəzi hakimiyyətin gücləndirilməsi üçün edilmişdi. Şah Təhmasibin qeydlərindən aydın olur ki, mərkəzi hakimiyyətin zəifləməsinə istiqamətlənmiş daxili qarşıdurmalar və itaətsizliklər yalnız yuxarıda haqqında danışılan hadisələrdən ibarət deyildi. Səltənətin bir çox bölgələrində buna cəhdlər olmuşdu ki, Şah Təhmasib də müxtəlif yollarla bu cəhdlərin təşəbbüskarlarını aradan qaldırmışdı.

Qeyd edilməlidir ki, Şah Təhmasibin mərkəzləşdirilmiş hakimiyyətin möhkəmləndirilməsi üçün müxtəlif tədbirlər həyata keçirdiyi vaxtlarda özbək qoşunları davamlı olaraq səltənət hüdudlarına hücumlar edirdilər. Bu hücumlar da Şah Təhmasibdən əlavə və ciddi tədbirlərin həyata keçirilməsini tələb edirdi. Həmin hücumlar eyni zamanda səltənətin hərbi-siyasi vəziyyətinə ciddi təsir göstərirdi. Eyni zamanda Bağdad ətrafında vəziyyət mürəkkəbləşməyə başlamışdı. Bu şəhərə hakimlik edənlər arasında da mərkəzi hakimiyyətdən uzaqlaşmaq meylləri özünü göstərməkdə idi. Baş verən bu hadisələr Şah Təhmasib üçün heç də ürəkaçan olmasa da səltənətin və hakimiyyətin möhkəmləndirilməsi istəyi onun idarəçilik təcrübəsinin formalaşmasına zəmin yaradırdı. Şah Təhmasib qətiyyətli qərarlar qəbul etməklə hərbi-siyasi şərtaitin sabitləşdirilməsinə müsbət təsir göstərdi. Bu barədə Şah Təhmasibin təzkirəsində də müxtəsər qeydlərlə rastlaşmaq mümkündür. 1528-1529-cu illərdə Şah Təhmasib Xorasan vilayətində və Bağdad ətrafında yaranmış təhlükəni aradan qaldıra bildi (bu barədə aşağıda danışılacaqdır).

1530-cu ildə ustaclı tayfası ilə mərkəzi hakimiyyət arasında münasbətlərin sahmana salınması istiqamətində də Şah Təhmasib tərəfindən uyğun addım atıldı. O, gərginliyin qalmasına meylli deyildi. Köpək sultanın öldürülməsindən sonra bu tayfanın əmir və əyanları mövqelərinin zəiflədiyinə görə Gilana çəkilərək fəal hərbi-siyasi həyatdan kənarda qalmışdılar. Şah Təhmasib bu barədə belə yazırdı: "Pələng il – 936-cı (5 – IX – 1529 - 24 – VIII – 1530) ildə Gilanda olan Ustaclu əmirləri: Bədr xan, Müntəşa sultan, Çayan sultanın qardaşı Həmzə sultan Qəzvinə

gəlib ayağımızı öpmək şərəfinə nail oldular. Hər birinə vilayət təyin etdim və dedim:

-O ruzigarı ki, bundan əvvəl görmüş idiniz, getdi. İndi bilin ki, nə yolla rəftar edəcəksiniz. Çünki həqiqətən mənə aydın oldu ki, dövləti Allah verir. Əmirlərin ciddi-cəhdi və qüvvəti, zor işlətmələri ziyandan başqa heç kimə bir şey verməyib. Beləliklə, Allahın rizasını nəzərdə tutmaq, acizlərin, miskinlərin və rəiyyətin rifahı halına qalmaq daha vacibdir” (74).

“Tarix-i aləmara-yi Abbasi” əsərinin məlumatına görə, Şah Təhmasib özbək qoşunlarının hücumunun qarşısını almaq üçün Xorasana yollanarkən “Gilanda olan Məntəşa sultanın atası, Faruq sultan, Qazaq sultan və ustaclunun başqa əyanları səmimiyyət və sədaqətlə fələyə bərabər dərgaha yönələrək, qılınc və kəfənlə zəmanə şəhriyarının hüzuruna tələsdilər. [Şah Təhmasib] o camaata rəğbət və sayğı göstərmədi, amma onlarla düşmənçilik və münaqişə də etmədi. Onlar da onunla yola gedirdilər” (75).

Yəni Şah Təhmasib ustaclı tayfasının əmir və əyanları ilə gərgin münasibətin davam etməsini məqsədəuyğun saymadı və bununla, əslində, qızılbaş tayfaları arasında münasibətlərin sabitləşməsinə tərəfdar olduğunu bildirdi. Lakin bununla da qızılbaş tayfaları arasında olan ziddiyətə son qoyulmadı. 1531-ci ilin yayında təkəli və şamlı tayfaları arasında silahlı qarşıdurma baş verdi. Mənbələrdə olan məlumatlara görə, bu qarşıdurmanın da başlıca səbəbi nüfuz və mövqe uğrunda aparılan daxili çəkişmələr idi. Belə ki, təkəli tayfasının nümayəndəsi kimi Çuxa sultanın böyük səlahiyyətlər əldə etməsi və bu səlahiyyətlərə görə təkəli tayfasının digər tayfalar üzərində üstünlük təşkil etməsi digər tayfaları razı salmırdı. Məlumatlara görə, ehtimal edilir ki, heç Şah Təhmasib də Çuxa sultanın böyük nüfuz və səlahiyyətlərə malik olması ilə razı deyilmiş və ona görə də Şah Təhmasibin razılığı ilə şamlı tayfası təkəli tayfasına qarşı silah qaldıra bildi (76).

Adları çəkilən tayfalar arasında silahlı qarşıdurma yaranması ərəfəsində Xorasan hakimi olan Şah Təhmasibin qardaşı Sam Mirzə və onun ləsləsi olan Şah İsmayılın bacısı oğlu Hüseyn xan

bölgədə hərbi-siyasi şəraitin kifayət qədər mürəkkəb olduğu bir vaxtda Heratı icazəsiz tərk edib Şiraza gəldilər. Onların bu gəlişi Şah Təhmasibi heç də razı salmadı və əslində, şamlı və təkəli tayfaları arasındakı silahlı qarşıdurma da Hüseyn xan Şamlının Şiraza gəlməsindən sonra kəskinləşməyə başladı.

Bu barədə Şah Təhmasibin təzkirəsində də bəzi qeydlər mövcuddur. "Dovşan il – 937-ci (25-VIII-1530 – 14-VIII-1531) ildə Hüseyn xan və Sam Mirzə özbaşına Heratdan çıxıb Şiraza getmişdilər. Əmirlər şəfaət göstərib İsfahanın Kəndman yaylağında onları qoşun və məiyyətləri ilə (müşayiət edən şəxslərlə) dərgaha gətirdilər. Sam Mirzə xidmətimizə gələnəcən alnını neçə dəfə yerə sürtdü və çox xəcalət çəkirdi. Ona nəvaziş göstərib arxayın etdim və özümlə hərəmxanaya apardım ki, anası əvəzi olan Bəyimlə (Taclı bəyim nəzərdə tutulur – M.S.) görüşsün. Bacıları Sam Mirzəni görüb çox sevindilər. Bu hadisə Hüseyn xana pis təsir etdi. Bir səhər vaxtı Hüseyn xan mükəmməl silahlanaraq hazır halda qoşun və məiyyəti ilə Dövlətxananın üstünə gəldi. Ucadan qışqırdılar. Keşikdə dayanmış Zülqədər və Şamlu qorçilər mərdanə vuruşdular. Qılıncdan keçirilməyənlər Hüseyn xanla İsfahan yolu ilə Fars [vilayətinə] qaçdılar. Ondan sonra Çuxa sultanın vəzifəsini onun böyük oğlu Şahqubada verdiyim üçün onun (Şahqubadın) vəzifəsini kiçik qardaşı Əli bəyə verdim və hər ikisini sultan adlandırdım" (77).

Bu qeydlərdə bir qədər qarışıqlıq vardır. Digər mənbələrdə olan məlumatlara əsasən belə bir qənaətə gəlmək olar ki, Hüseyn xanın silahlanması Şah Təhmasibə qarşı deyil, Çuxa sultana qarşı mübarizə aparmaq planı ilə bağlı idi. Çuxa sultanın öldürülməsindən sonra onun vəzifəsinin oğluna verilməsi də buna bir əsasdır.

Bu hadisə ilə bağlı Şah Təhmasibin sonrakı qeydləri belədir: "Ustaclu, Zülqədər və Əfşar əmirləri Təkəlu tayfasının uzun müddətdən bəri təzyiq və hökmranlığına dözmədilər, daldada etiraz və hay-küyə başladılar. Çuxa sultanın oğlanları mənimlə məsləhətləşmədən Ustaclu, Zülqədər və Əfşar camaatından iki-üç nəfər öldürmüşdülər. Ümumiyyətlə, Təkəlu tayfası hazırlıqlı

və silahlı halda Dövlətxananın qarşısında toplaşmışdılar. Bu hərəkət bizim xətrimizə çox bərk toxundu. Təkəlu camaatının qətlinə hökm verdim. Onların qorçubaşı Pərvanə bəy, möhrdar İbrahim xəlifə kimi mötəbər əmirləri öldürüldü. Təkəlu əmirzadələrinin bir-bir, iki-iki bağlayıb dərgaha gətirdilər. Həmin şərbəti ki, neçə gün qabaq Hüseyn xan hadisəsi zamanı Şamlu döyüşçülərinə içirtmişdilər, indi özləri içdilər. ...Hüseyn xan Şamlu üçün bağışlanma və çağırış hökmünü Fars [vilayətinə] göndərdim və o, dərgaha gəldi. Onunla yaxşılıqla rəftar edib əmir-üməralığı ona və Abdulla xan Ustacluya verdim. Hüseyn xan Mir Cəfər Avəciyə qarşı ürəyində kin olduğu üçün onun çıxarılmasını xahiş etdi. Onun xatirinə onu (Mir Cəfər Avəcini) vəzarətdən çıxardım vəzifəsini Əhməd bəy Nurkamal İsfahaniyə verdim. Təkəluların fitnəsi aradan qalxdığı üçün oymaqların əsilzadələrinə öz mövqe və qabiliyyətlərinə görə mənsəblər verib başı uca etdim. Bəzilərinin əmirlik rütbəsi yox idi, verdim. Əmin-amanlıq aləmi yaranmışdı” (78).

Şah Təhmasibin qeydlərinə görə, təkəli və şamlı tayfaları arasındakı qarşıdurmanın aradan qaldırılması, bütünlükdə, səltənət daxilində əmin-amanlığın yaranmasına da müsbət təsir göstərdi. Təkəlilərin səltənət daxilində bir nizamsızlıq yaratmaq cəhdlərinin qarşısının alınması istiqrarlı sabitliyə müsbət bir zəmin yaratdı. Bundan sonra əyan və əmirlərin qabiliyyət və bacarığına görə vəzifəyə təyin edilməsinə də diqqət artırıldı.

Digər mənbələrdə təkəli və şamlı tayfaları arasında baş verən hadisə haqqında daha geniş və daha təfərrüatlı məlumatla rastlaşmaq mümkündür. Məsələn, “Tarix-i aləmara-yi Abbasi” əsərində belə bir məlumat mövcuddur: “Çuxa sultan, şahın mübarək ürəyinin razılığını əldə edərək, gündən-günə öz ixtiyar və iqtidarını artırdı. Amma təkəlü tayfası həddindən artıq özbaşınalıq edirdi. Batində onların davranışından şahın ürəyində narazılıq vardı. 937-ci il aylarında (25.08.1530 - 14.08.1531) Hüseyn xan Şamlu Şirazdan gələrək, İsfahanın Kənduman [adlı yerində] səltənət taxtının ətəyində şahın nəvazişlərinə nail oldu. Çuxa sultan ona qarşı fitnə quraraq, onu öldürmək istədi. [Hüseyn xan]

təkəlülərin sözləşməsindən xəbərdar olaraq, bir gecə qoşununa cəbbə və yaraq geydirib, Çuxa sultanın çadırının üzərinə gəldi (18.06.1531 – M.S.). [Çuxa sultan] təşvişə düşərək, özünü hökmdar divanxanasının çadırına saldı. Mübarək dövlətxanada şamlu və təkəlülər arasında döyüş baş verdi. Keşikdə dayanan zülqədər qorçularından Misir Qoruqlu adlı [birisi] Çuxa sultanı ağır yaralayaraq öldürdü. Təkəlülər onun ölümünü gizli saxlayaraq, müdafiəyə davam etdilər.

Hüseyn xan o qaranlıq gecədə çox çalışdı, amma səhər vaxtı dəstə-dəstə, qoşun-qoşun yetişən təkəlü əmirlərinin hücumu [nəticəsində] məğlubiyyətə uğrayaraq, qaçmağa üz qoydu və məqsədinə çatmamaqdan məyus olub, İsfahana getdi. Bu hadisədə şamlu gənclərindən bir çoxu öldürüldü. Təkəlü əmirləri Çuxa sultanın Şahqubad adlı böyük oğlunu onun yerinə vəkil edib, bütün şamlu, ustaclu, zülqədər və əfşar oymaqları ilə düşmənçilik və intiqam yoluna düşdülər. Çarəsizlikdən, o oymaqların camaatı da onlarla düşmənçilik və ədavətə başladılar. İmamzadə Səhl-Əli - ona Allahın salamı olsun - məzarı yaxınlığında onların arasında müharibə oldu. Təkəlü əmirləri Çuxa sultanın dövründəki kimi iqtidar sahibi olmaq istəyərək, bütünlüklə dövlətxanaya gəldilər ki, cənnətməkan şahı öz aralarına apararaq, düşmənlərini dəf etsinlər. Yenicə dünyanı idarə etməyə başlayan cənnətməkan şah o tayfanın xoşa gəlməyən davranışlarından qəzəblənərək, o başıpozuq və özbaşına hərəkət edənləri aradan qaldırmaq əmrini verdi. Böyük qorçular hökmdar dövlətxanasında onları güllə yağmuruna tutdular. Təkəlülər Cəmşid rütbəli şahın köməyindən ümidlərini üzüb, qaçmağa üz qoydular. Tale onlardan üz çevirdiyinə görə onların dövlətinə zillət tozu qondu. O tayfadan çoxları öldürüldü. Bu ibrətli əhvalatın tarixi «afət-i təkəluyan»dır («təkəlülərin müsibəti»). Bu hadisədən sonra onları həsrət bürüdü və [onlar] Bağdad tərəfə getdilər. Bağdad hakimi Məhəmməd xan Şərəfəddinoğlu Təkəlü, Qunduz sultanı, Hüseyn sultanı və ədəbsiz təkəlü fitnəkarlarından bir neçəsini öldürərək, onların başlarını aləmin pənah olan dərgaha göndərdi. Bu hadisədən sonra o həzrət (Şah Təhmasib) Hüseyn xan şamlunun adına rəğbət mək-

tubu göndərib, onu [yanına] çağırdı. Ona və Abdulla xan Ustacluya hörmətli qızılbaş tayfalarının əmirəlüməralıq mənsəbi verildi. Onların hər ikisi Süleyman şanlı xaqanın bacısı oğulları idilər. Oymaqlar arasında gedən çəkişmə və dedi-qodu aradan qalxdı. Sədaqətli adamlar mürşidi-kamilin mübarək könlünün razılığını öz istəklərindən üstün tutub, ədəb dairəsində davrandılar. O həzrət (Şah Təhmasib) səltənət və hökmdarlıq işlərini şəxsən ələ alıb, istiqlaliyyət və mütləqiyyət bayrağını göylərə qaldırdı" (79).

Bu qeydlərdə də Şah Təhmasib tərəfindən səltənət idarəçiliyinin artıq öz üzərinə götürməsi faktı vurğulanmışdır. Çuhə sultanın aradan götürülməsi ilə Şah Təhmasibin idarəçiliyinə bu və ya digər dərəcədə təsir göstərə biləcək qüvvə də aradan qaldırıldı. Çuhə sultanın dünyasını dəyişməsi həm də qızılbaş tayfaları arasında ortaya atılmış rəqabətin gərginliyini kifayət qədər səngitdi və bunun nəticəsi idi ki, vəzifə təyinatlarında tayfa mənsubluğu deyil, idarəçilik təcrübəsi və bacarığı əsas götürüldü. Bu da səltənət daxilində hərbi-siyasi sabitliyi daha da gücləndirdi.

"Rövzətüs səfəviyye" əsərində bu hadisənin müəyyən fərqli detalları öz əksini tapmışdır. Bu əsərdən belə məlum olur ki, Sam Mirzə lələsi Hüseyn xan Şamlı ilə birlikdə özbək xanı Übeyd xanla barışıq əldə edəndən sonra Şiraza yollanmış və 1530-31-ci ilin qışını Şirazda keçirmişdilər. 1531-ci ilin yazında Şah Təhmasib İsfahan qışlağını tərk edib Kənduman yaylağına gedəndən sonra Sam Mirzə ilə Hüseyn xan onun dərgahına yollanmışdılar. Bu əsərdə də bildirilir ki, Şah Təhmasib onları mehribanlıqla qarşıladı, onlara nəvaziş göstərdi. Onların Kənduman yaylağında olduqları vaxt Şah Təhmasib tərəfindən məclislər təşkil edilər və Şah Təhmasiblə birlikdə Sam Mirzə ilə Hüseyn xan da xoş günlər keçirərdilər. Belə məclislərin gedişində Şah Təhmasiblə Sam Mirzə və Hüseyn xan arasında baş verən söhbətlər zamanı Çuxa sultanın böyük səlahiyyətlərə malik olmasına narahatçılıq bildirildi. Xüsusilə, Hüseyn xan onun malik olduğu səlahiyyətlərin məhdudlaşdırılması məsələsini qaldırdı və Şah Təhmasib də bununla razılaşdı. Mənbədə göstərilməsə də, şübhə yoxdur ki, Çuxa

sultanın neytrallaşdırılması məsələsi Şah Təhmasib tərəfindən bəyənilmiş və bu işin təşkili Hüseyn xana tapşırılmışdı. Bildirilir ki, Hüseyn xan da uzun müddət bu məsələ ilə məşğul olmalı oldu, mənsub olduğu şamlı tayfasının əmir və əyanlarını Çuxa sultana qarşı qəsddə iştirak etmək üçün öz ətrafında birləşdirə bildi. Sonra da Çuxa sultanın üzərinə hücum üçün münasib anın gözlənilməsinə başlandı. Hüseyn xan elə bir an seçdi ki, həmin vaxt Çuxa sultanın ətrafında elə də böyük qüvvə olmasın və planlaşdırılan qəsd gecə ikən həyata keçirilsin. Bununla belə, hücum edən Hüseyn xanın adamları ilə Çuxa sultanın ətrafında olan silahlılar arasında ciddi döyüş baş verdi. Çuxa sultan ətrafında silahlıların az olması üzündən ağır vəziyyətlə qarşılaşdı və həyatını real təhlükədən qurtarmaq üçün özünü şah divanxanasının çadırına yetirdi. Həmin gün divanxana çadırında keşik çəkən qorçular zülqədər tayfasına mənsub idilər və bu tayfanın əmir və əyanları da Çuxa sultana qarşı Hüseyn xanla müttəfiq olmuşdular. Ona görə də qorçular Çuxa sultanı qətlə yetirdilər. Təkəli əmir və əyanları Çuxa sultanın qətlə yetirilməsini gizli saxlamağa çalışdılar. Amma səhər açılan kimi təkəlilər Çuxa sultan üzərinə hücum təşkil edilməsi haqqında xəbər tutdular və ona görə təkəli silahlıları dəstə-dəstə şah divanxanasına doğru axışdılar. Təkəli silahlılarının sayının çoxaldığını görəndə Hüseyn xanın vəziyyəti mürəkkəbləşdi və bu dəfə Hüseyn xanın həyatı üçün təhlükəli durum yarandı. Ona görə Hüseyn xan oranı tərk edib Farsa doğru üz tutdu (80).

“Rövzətüs səfəviyye” əsərində də göstərilir ki, təkəli əmir və əyanları Çuxa sultanın öldürülməsi və bununla da təkəlilərin öz mövqelərini itirmələri ilə barışmadılar. Çuxa sultanın yerinə onun oğlu Şahqubadı seçdikdən sonra təkəlilər onlara əks olan digər tayfalara qarşı silah qaldırdılar. Bildirilir ki, ustaclı, şamlı, zülqədər, əfşar, qacar və rumlu tayfaları isə təkəli tayfasının səltənət idarəçiliyində uzun müddət yüksək mövqe tutması ilə razı deyildilər. Ona görə də onlar da birləşərək təkəli tayfasına qarşı mövqe tutdular. Təkəli tayfasının əmir və əyanları yuxarıdakı məlumatlarda qeyd edildiyi kimi, istəyirdilər ki, Şah Təhmasibi girov

götürsünlər, onu özləri ilə aparıb nəzarət altında saxlasınlar və beləliklə, öz iradələrini Şah Təhmasibin vasitəsi ilə həyata keçirsinlər. Bununla, həm də səltənət daxilində hakim mövqelərini mühafizə etsinlər. Lakin onlar öz niyyətlərinə nail ola bilmədilər. "Rövzətüs səfəviyye"yə görə, təkəli tayfası ilə digər qızılbaş tayfaları arasında baş verən döyüşdə Çuxa sultanın oğlu Şahqubad bəylə təkəlilərin qorçubaşısı Dədə bəy qətlə yetirildilər. Bundan sonra təkəli silahlıları qaçıb dağılmağa başladılar. "Rövzətüs səfəviyye" də Şah Təhmasibin də təkəli tayfasının niyyətlərinə qarşı mövqe tutmasını təsdir edir (81).

"Aləmara-ye Şah Təhmasib"də Çuxa sultanın böyük mövqelər ələ keçirməsinin və bu mövqelərindən istifadə etməklə səltənət idarəçiliyində öz iddialarını ortaya qoymasının Şah Təhmasibin narazılığı ilə qarşılandığı bildirilir. Həmin mənbədəki məlumata görə, öz iddialarının maneəsiz həyata keçirilməsi üçün Çuxa sultan hətta Hüseyn xanla Şahverdi sultanı da aradan götürməyə çalışırdı. Bu məsələ müəyyən gərginlik həddinə çatdığı vaxtlar Şahverdi sultan Qarabağa yollanmaq üçün Şah Təhmasibdən icazə istəyir. Şahverdi sultan Qarabağa yollanmaq arzusunun həmin bölgədə idarəçiliyi sahmana salmaq niyyəti ilə bağlı olduğunu bildirəndə Şah Təhmasib ona icazə verir və eyni zamanda ona tapşırır ki, gecikmədən də geri qayıtsın. Çünki özünün də dediyi kimi, ətrafında etibarlı insanlar yox idi. Çuxa sultan da Şahverdi sultanın yoxluğundan istifadə etməklə Hüseyn xanı aradan götürmək fürsətindən bəhrələnmək qərarına gəlir. Onun niyyəti belə imiş ki, əvvəlcə Hüseyn xanı aradan götürsün, sonra da Şahverdi xanın həyatına son qoysun. Niyyətinə yetmək üçün Çuxa sultan məkrli bir plan qurur. Bu plana görə o, Hüseyn xanı qonaqlıq adı ilə dəvət etməli və bu qonaqlıqda onun axırına çıxmalı idi. Bildirilir ki, bu planını həyata keçirmək üçün Çuxa sultan təkəli, rumlu tayfalarının əmir və əyanları ilə də sövdələşməyə gedir. O öz məkrli planının icrasına təhrik etdiyi əmir və əyanları əmin edir ki, baş verən hadisə ilə bağlı şahın etiraz etməsinə yol verməyəcəkdir. Qərarlaşdırılan vaxt Hüseyn xanın qonaqlığa dəvət edilməsi üçün onun yanına adam göndərilir.

Şamlı tayfasından olan Səmuroğlu adlı birisi Çuxa sultanın məkrli planından xəbər tutub özünü Hüseyn xanın yanına yetirir və məsələni ona danışır. Hüseyn xan da bu zaman artıq atlanaraq Çuxa sultanın evinə yollanmaq istəyirmiş. O, qəfildən fkrindən dönməyi özünə rəva bilmir ki, onu qorxaqlıqda günahlandırmasınlar. Çünki Çuxa sultanın adamları da onunla birlikdə hərəkət etməli idilər. Belə olanda Səmuroğlu da atlanıb onunla yollanır və yolda ikən onun təklifi əsasında Hüseyn xan bəyan edir ki, onu güclü qarın ağrısı tutub və hərəkət etmək gücündə deyil. Belə bir bəhanə ilə o, geri qayıdır. Onu müşayiət edən Çuxa sultanın adamları da Hüseyn xanın doğrudan da xəstələndiyini qəbul edib geri qayıdırlar. Onlar bu barədə Çuxa sultana da xəbər çatdırırlar. Hüseyn xan isə öz tərəfindən Çuxa sultanın evinə casuslar göndərir ki, Səmuroğlunun gətirdiyi xəbərin doğru olub-olmamasını yoxlasınlar. Casuslar Çuxa sultanın adamları ilə görüşdükdən sonra doğrudan da Hüseyn xana qəsd təşkil olunduğuna əmin olurlar və bu xəbəri ona çatdırırlar (82).

"Aləmara-ye Şah Təhmasib"in məlumatına görə, bu hadisədən sonra Hüseyn xan da Çuxa sultanın aradan qaldırılması niyyətinə düşdü və Şah Təhmasib Kənduman yaylağında olanda bu niyyəti həyata keçirmək mümkün oldu. Bildirilir ki, Kənduman yaylağında Çuxa sultan qalada yerləşmişdi. Şah Təhmasibin çadırları isə qaladan kənarda qurulmuşdu. Bu vəziyyət də şahda və Hüseyn xanda Çuxa sultanın qətli üçün təhrikedici rol oynayır və Şah Təhmasib də Çuxa sultanın qətlinə razılığını bildirir. Belə olanda Hüseyn xan onun qətli üçün planlar qurmağa başlayır və bir gün Süməroğlu və digər döyüşçülərlə birlikdə Çuxa sultanın məskunlaşdığı qalaya yaxınlaşırlar. Qalanın güclü mühafizəsi olduğu üçün Hüseyn xan və onun ətrafındakılar qalanın arxasından qala daxilinə yol tapırlar. Qala daxilində də bir neçə mühafizəçini öldürdükdən sonra növbə Çuxa sultana çatır və Hüseyn xan ona elə bir qılınc zərbəsi endirir ki, bədəni yuxarıdan aşağı iki yerə bölünür. Amma nədənsə Hüseyn xan bu hadisədən sonra şah çadırına qayıtmır və Səmuroğlu ilə birlikdə İraqa doğru hərəkətə başlayır. Adı çəkilən mənbə də bunun səbəbini göstərməmişdir.

Çuxa sultanın qətlindən sonra onunla əlbir olan təkəli, rumlu tayfalarının silahlıları Şah Təhmasibin hərəmxanasına yollanırlar. Şah hərəmxanasını qoruyan yasavullar onlara mane olmaq istəsələr də, mənbədəki məlumata görə 7 nəfər şah dərgahına daxil ola bilirlər. Həmin adamlar şaha qarşı hörmətsizlik göstərərək Hüseyn xanın onlara təhvil verilməsini tələb edirlər. Onlar eyni zamanda istəyirdilər ki, səltənət vəkili vəzifəsini Çuxa sultanın oğlu Şahqubad bəyə verilməsinə nail olsunlar. Bildirilir ki, qorçubaşı Dədə bəy hətta əlindəki zənciri Şah Təhmasibin boynuna keçirərək ondan tələblərin icra olunmasını istədi. Mənbə məlumatına görə, Dədə bəy vaxtilə Şah İsmayılın cəzasına layiq görülmüşdü və ona görə də o, Şah Təhmasibdən qisas almaqla onun həyatına son qoymaq istəyirdi. Belə bir vaxtda Şahverdi sultan özünü yetirir və Dədə bəyi qətlə yetirməklə Şah Təhmasibin də həyatını xilas edir. Şahverdi sultan sonra Şah Təhmasibə məlumat verir ki, hələ Qarabağa çatmamış yuxuda Şah İsmayılı görür və Şah İsmayıl da oğlu Şah Təhmasibin təhlükəli vəziyyətlə qarşılaşdığı üçün onun geri qayıtmasını və Şah Təhmasibin dadına çatmasını xahiş edir. Şahverdi sultan da bu yuxudan sonra geri qayıtmağı qərara alır və Kənduvana yetişəndə yuxuda gördüyünün doğruluğuna şahid olur. Çuxa sultanın qətlindən sonra Şah Təhmasib onunla əlbir olmuş tayfaların məhvinə fərman verir. Lakin Şahverdi sultanın xahişindən sonra Şah Təhmasib həmin tayfaların cəzalandırılması fikrindən daşınmalı olur (83).

Bu hadisə də səltənət idarəçiliyndə yüksək mövqelər tutmaq üçün tayfalar arasındakı ziddiyətə son qoymadı. Xüsusilə, təkəli tayfası üzvləri qarşılaşdıqları vəziyyətlə heç cürə razılaşmaq istəmirdilər. Çuxa sultanın və onun ardınca da oğlu Şahqubad bəyin öldürülməsindən sonra vaxtilə Çuxa sultanın vəziri olmuş Ülamə Təkəli mübarizəyə qoşuldu. Ülamə Təkəli özünü belə bir mübarizəyə qoşulmaqda haqlı bilirdi. Çünki Çuxa sultanın səltənət vəkili vəzifəsinə yüksəlməsi uğrunda apardığı mübarizədə o da iştirak etmişdi və belə güman edirdi ki, bu yolda qılınc çalması ona Çuxa sultanın əldə etdiyi vəzifəyə yiyələnmək haqqı verir. Ülamə Təkəli Şah İsmayılın hakimiyyəti illərində adi bir xid-

mətçi idi və Şah İsmayılın lütfü nəticəsində müəyyən vəzifələrə yüksələ bilmişdi. Çuxa sultanın vəkilliyi dövründə isə o, Azərbaycan bölgələrindən birinin hakimi və qoşun başçısı vəzifəsinə təyinat almışdı. Təkəli tayfası ilə digər qızılbaş tayfaları arasındakı qarşıdurmadan xəbər tutandan sonra Ülamə sultan ətrafına 7 min nəfərlik atlı dəstəsi toplayaraq səltənət dərgahına üz tutmaq və təkəlilərin əvvəlki mövqeyini bərpa etmək niyyətinə düşdü. Ülamə Təkəli yalnız təkəlilərin mövqeyini bərpa etmək deyil, həm də Çuxa sultanın tutduğu səltənət vəkilliyi vəzifəsini ələ keçirmək istəyirdi (84).

Şah Təhmasib bu hadisəni belə xatırlayırdı: "Bu vaxt Balıq ildə - 938-ci (15-VIII-1531-2-VIII-1532) ildə atam həzrət xaqan [Şah İsmayıl] zamanında yasavul, sonra yüksələrək eşikağası olan, mənim əmirlik rütbəsi verdiyim və pələng ilində uğurlu Xorasan səfərinə gedərkən Azərbaycanın əmirül-ümərası etdiyim Ülamə Təkəluya buyurmuşdum ki, Xorasana 300 nəfər yasağa göndərsin və özü də orada olsun. Təkəlu camaatının üsyanı və qətli baş verən vaxt Ülamə darüssəltənə Təbrizə gedib darğalığı ələ keçirmək istəyir. O vilayətdə olan bizim xüsusi atlarımızı ələ keçirir. Güləbətin tikmək məqsədi ilə ustalara tapşırdığımız kənizləri (qızları) onların əlindən alıb mülazimlərə paylayır. Təbriz fərraşxanasında olan bizə məxsus naxışlı çadırı özünə götürür. O ətrafda olan varlı adamların hərəsini bir bəhanə ilə tutur, onların mallarını alır və Təbrizdən çıxarır. Dinsizlikdə məşhur olan və hətta arvadlarını bir-birinə əsirgəməyən alçaq təbiətli həyasıza mal və silah verib özünə qoşur.

Bu xəbər bir neçə gündən sonra tam müəyyən və aydın olanda vəzirlər mənə dedilər. İgid döyüşçülərdən bir qədər adam onun üstünə göndərdim. Bu döyüşçülər yolda məsləhətləşirlər ki, gecə xəbərsiz Ülamənin ordusunun üstünə tökülsünlər. Zülm və azğınlıqla əldə etdikləri bütün mal və silahları geri alsınlar. O haramzadənin özü bu işdən xəbərdar olub, gecə ordunu buraxaraq Vana tərəf qaçır. Döyüşçülər onun ordusunun üstünə tökülən gecə əlsiz-ayaqsızlardan, kəniz və xidmətçilərdən başqa heç kim yox idi. Həyat peymanəsi hələ dolmadığı (ömrü tamam olmadığı)

üçün aradan çıxmışdı. Onun yerdə qalmış mal və silahları bütünlüklə ələ keçirildi. Döyüşçülərdən bir hissəsi onu tutmaq üçün yola düşdü. Lakin o, fitnəkar, ikiüzlü və hiyləgər bir adam idi. Günahsız imamlardan – onların hamısına salam olsun – başqa hamını aldadıb oynadardı” (85).

“Əhsənüt-təvarix” əsərində isə bu məsələ belə təsvir edilmişdir: “Dinin pənahı olan şahın himayəsinin səadəti altında Azərbaycan vilayətinin hakimiyyətini əlində tutan Ülamə qeyri-mümkün bir sevdaya düşüb, özündə səltənət və istiqlal xəyalına yol verərək Çuxa sultanın yerinə vəkil olmaq istədi. O, təxminən yeddi min süvari toplayıb dinin pənahı olan şahın dərgahına üz tutdu və Qidar Nəbi yaxınlığına gəlib dayandı. Onun nankorluğu və üsyanı [haqqında xəbərlərin] bir qismi [Şah Təhmasibin] izzət və calal qulağına çatdıqda, dinin pənahı olan şah onun üstünə sürətlə yürüdü. Ülamə döyüşdən və qırğından üz çevirdi və cahangir hökmdarın qorxusundan, oxun kamandan uçduğu kimi qaçıb aradan çıxdı, günəş misallı çətirin əzəməti qarşısında kölgə kimi yerə düşdü, göy üzünə ucalan bayrağın ayparasının şövkətindən hilal kimi [rəngi] ağardı və [qəddi] əyildi. O, suya qərq olmuş gözlə və atəşə düşmüş ürəklə özünü Van qalasına saldı. Orada öz yaxınları və qohumları ilə məşvərət etdi. Hamısı belə dedi:

- Çıxış yolu budur ki, hər nə cür olursa olsun, o həzrətin [Şah Təhmasibin] razılığını və könlünü almağa çalışmalıyıq. Çünki padşaha qarşı müxaliflik etməyin axırı əzab və iztirab olacaqdır. Müdriklər demişlər ki, hökmdarlara qarşı çıxmağın sonu bu dünyada rəzil olmaq və axirətdə atəşə düşməkdir. Bu söz Ülamənin ürəyincə oldu. O, Ürkməz Zülqədəri layiqli peşkəşlərlə və müvafiq töhfələrlə ərşə bənzər dərgaha göndərdi. Amma onu yola saldıqdan sonra başqa bir fikrə düşüb öz-özünə dedi ki, axı mən cəfa toxumu səpdiyim yerdə vəfa xırmanını necə biçə bilərəm və düşmənçilik ağacı əkdiyim halda dostluq meyvəsini nə cür təvəqqe edə bilərəm?! ...[Buna görə də] dinin pənahı olan şahın yanına getmək barədə tərəddüd etdi. O əsnada [Ülamə üçün] Rum padşahı Xondgar Süleyman tərəfindən zərlə tikilmiş bir

paltar və qızılla işlənmiş bir çalma (mücəvvəzə) gətirdilər. O, xondgarın xələtini geyib Ruma yollandı “ (86).

Yuxarıda qeyd edildiyi kimi, təkəli əmir və əyanları ətraflarında toplanmış qoşun dəstəsi ilə qızılbaş tayfaları ilə döyüşdə uğursuzluğa düçar olduqdan sonra Bağdada qaçmaqla canlarını qurtarmağa cəhd göstərdilər. Lakin onlar burada özlərinə təhlükəsiz sığınacaq tapa bilmədilər. “Cəvahürül əxbar” müəllifinin verdiyi məlumata görə, Bağdada pənah aparmış təkəli qoşun dəstəsi 1800 nəfərdən ibarət idi. Bağdad hakimi hətta təkəli əmirlərindən bəzilərini qətlə yetirərək başlarını Şah Təhmasibə göndərdi. Bu yolla o, Səfəvi təriqətinin ardıcılı kimi təriqət rəhbəri olan Şah Təhmasibə öz sədaqətini nümayiş etdirdi (87).

Bununla belə, baş vermiş hadisələrdən sonra da səltənət idarəçilyində nüfuzlu mövqe əldə edilməsi üçün qızılbaş əmir və əyanları arasında iddialı mövqelərə son qoyulmadı. Bəzi mənbə məlumatlarına görə, Çuxa sultanın qətlindən sonra böyük məqam əldə etmiş Hüseyn xan da fürsətdən yararlanaraq daha böyük məqam və mövqe əldə etmək fikrinə düşdü. Buna görə o da sonradan öz iddialarının həyata keçirilməsinə çalışdı. Bildirilir ki, Hüseyn xan hətta öz planlarının icrası üçün ətrafına müəyyən adamları da toplamağa başlamışdı (88).

Bu məsələ ilə bağlı mənbələrdə mövcud olan məlumatlar tam aydınlığa malik deyildirlər. Hər halda mövcud olan məlumatlar onu deyir ki, Hüseyn xan da daha yüksək mövqe əldə etmək üçün hətta Şah Təhmasibin özünü də aradan götürmək qərarına gəlibmiş. Bununla bağlı, guya onun tapşırığı əsasında Başdanqara adlı əyanlardan biri Şah Təhmasibin şərab şüşəsinə zəhər tökdü. Məclislərin birində Şah Təhmasibin piyaləsinə həmin şüşədən şərab süzürlər. Şah Təhmasib isə dərhal şərabı içmir və onun başı söhbətə qarışır. Şərabı içmək istəyəndə isə diqqət yetirir ki, şərab dolu piyalənin daxili kənarlarında qara çöküntü yaranıbdır. Bu isə onu şübhələndirir və göstəriş verir ki, şəraba nə qatıldığı müəyyənləşdirilsin. Başdanqara hiss edəndə ki, şahın şübhəsi onun üzərinə düşə bilər, onda xəlvətcə sarayı tərk edib şərqə tərəf üz tutur. Hüseyn xanın bədxahları şaha xəbər verirlər ki, Başdanqara

bu işi Hüseyn xanın göstərişi ilə edibdir. Çünkü o, Hüseyn xanın yaxın qohumlarındandır. Şah Təhmasib də bu deyilənə inanır. Lakin Hüseyn xanın cəzalandırılması üçün münasib anın yetişməsini gözləməyi qərara alır (89).

Bir də 1534-cü ildə Hüseyn xanı cəzalandırmaq və qətlə yetirmək mümkün olur. Mövcud olan məlumatlara əsasən belə bir qənaətə gəlmək mümkündür ki, Şah Təhmasibin ətrafında özünə yer tutmuş bəzi əmir və əyanlar Hüseyn xana qarşı qısqanclıqlarını davam etdirir və onu nüfuzdan salmaq üçün haqqında ən müxtəlif xəbərləri Şah Təhmasibə çatdırırdılar. Hətta belələri Şah Təhmasibi inandıra bilmişdilər ki, Hüseyn xan lələsi olduğu Sam Mirzəni hakimiyyətə gətirmək istəyir və ona görə də Şah Təhmasibə qarşı düşmən mövqeyindən əl çəkmir. Osmanlı sarayına pənah aparmış Ülamə Təkəlinin təhriki ilə Osmanlı qoşunları Səfəvi sərhədlərini aşanda yenidən Hüseyn xan haqqında Şah Təhmasibə təhrikedici xəbərlər çatdırılır və deyilir ki, məqsədinə nail olmaq üçün Hüseyn xan Osmanlı sultanına pənah aparmaq istəyir. Bu məlumatdan sonra Şah Təhmasib fürsəti əldən verməməyi qərara alır və onun göstərişi əsasında Hüseyn xan qətlə yetirilir. Hüseyn xanın qətlindən sonra Şah Təhmasib qardaşı Bəhram Mirzəni şamlı tayfasının rəhbəri təyin edir və Hüseyn xan ətrafında olan qoşun dəstəsini də onun tabeçiliyinə verir (90).

## 4. İstifadə olunmuş mənbə və ədəbiyyat

1.Ağacəri S.H. Müqəddəme-i bər münasibət-e din və dövlət dər iran-e əsr-e Səfəvi. Tehran, 1388, s. 62

2. Fəlahzade M. Seyr-e tarixi-siyasi-ye təəziye dər dövran Səfəviyan. Ensani.ir/fa/article/263683

3. Səfakiş H.R. Səfəviyan dər qozərqah-e tarix. Tehran, 1390, s.51;

Səfəviyan. Tehran, 1380, s. 76-77;

Петрушевский И.П. Азербайджан в XVI-XVII веках, с. 245/ Сборник статей по истории Азербайджана. Выпуск I. Баку, 1949, с.225-298

4. Valser S.Ş. İran əz didqah-e səfərnameha-ye Avropaiyan. Tehran, 1364, s. 82
Bərazeş Ə. Rəvabet-e siyasi – diplomatik-e İran dər əhd-e Səfəviyye. Tehran, 1392, s.299-303
5. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 362
6. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.623
Süleymanov M. Şah İsmayıl Səfəvi. Bakı, 2018, s. 796
7. Qəzvini, Budaq Münşi. Cəvahürül əxbar. Tehran, 1387, s.132
Xurşah ibn Qubad əl-Hüseyni. Tarix-e elçi-ye Nizam şah. Tehran, 1379, s. 63
8. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 368
9. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (tarix-e aləmara-ye Abbasi). Tərcümə edəni Şahin Fazil. Bakı, 2010, s. 112
10. Qəzvini, Mirzə Məhəmməd Tahir Vəhid. Tarix-e cahanara-ye Abbasi. Tehran, 1383, s. 39
11. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 369
12. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix-e elçi-ye Nizam şah. Tehran, 1379, s. 63
13. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın Tarixi (tarix-e aləmara-ye Abbasi). Tərcümə edəni Şahin Fazil. Bakı, 2010, s. 112
14. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 83
15. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 95-96
Süleymanov M. Şah İsmayıl Səfəvi. Bakı, 2018, s. 784-786
16. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix-e elçi-ye Nizam şah. Tehran, 1379, s. 63
17. Xandəmir Tarix-e həbib-üs siyər. IV cild. Tehran, 1378, s. 296
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 246
18. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s.110
19. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 329-330
Xandəmir Tarix-e həbib-üs siyər. IV cild. Tehran, 1378, s.576
İsfahani, Məhəmməd Yusif. Xolde bərin. Tehran, 1378, s.285

20. Xandəmir Tarix-e həbib-üs siyər. IV cild. Tehran, 1378, s.580
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 336
21. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 344-345
Xandəmir Tarix-e həbib-üs siyər. IV cild. Tehran, 1378, s.587
İsfahani, Məhəmməd Yusif. Xolde bərin. Tehran, 1378, s.292-293
22. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 351-52
Xandəmir Tarix-e həbib-üs siyər. IV cild. Tehran, 1378, s.594
İsfahani, Məhəmməd Yusif. Xolde bərin. Tehran, 1378, s.294
23. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix-e elçi-ye Nizam şah. Tehran, 1379, s. 77
24. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 598
25. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 624
Aləmara-yi Səfəvi. Tehran, 1350, s.600
Süleymanov M. Şah İsmayıl Səfəvi. Bakı, 2018, s. 798
26. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix-e elçi-ye Nizam şah. Tehran, 1379, s. 85
Məsum, Mirzə Məhəmməd. Tarix-e səlatin-e Səfəviyye. Tehran, 1351, s. 13
27. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix-e elçi-ye Nizam şah. Tehran, 1379, s. 85
Qəzvini, Budaq Münşi. Cəvahürül əxbar. Tehran, 1387, s.147
28. Rumlu H. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Tərcümə edənlər: Oqtay Əfəndiyev, Namiq Musalı. Kastamonı, 2017, s.447-448
29. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi, ...s. 112-113
30. Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.30
31. Qəzvini, Budaq Münşi. Cəvahürül-əxbar. Tehran, 1387, s. 143
Təzkəre-ye Şah Təhmasib. Tehran, 1363, s. 3
Şah Təhmasibin təzkirəsi. Tərcümə edən Əbülfəz Rəhimov. Bakı, 1996 s. 16
32.Seyvori R. İran-e əsr-e Səfəvi. Tehran, 1392, s. 49

33. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi, ...s. 115
34. Yenə orada, s. 113-114
35. Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.35
36. Təzkəre-ye Şah Təhmasib. Tehran, 1363, s. 3
Şah Təhmasibin təzkirəsi. Tərcümə edən Əbülfəz Rəhimov. Bakı, 1996 s.15-16
37. Rumlu H. Əhsənüt-təvarix, s.448
38. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi, ...s. 115
39. Rumlu H. Əhsənüt-təvarix, s.450
40. Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381,s.35
41. Şah Təhmasibin təzkirəsi, s.17
42. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. Tərcümə edənlər – Oqtay Əfəndiyev və Namiq Musalı. I cild. Bakı,2009, s.103-104
43. Rumlu H. Əhsənüt-təvarix, s.450
44. İsfahani, Məhəmməd Yusif. Xolde bərin. Tehran, 1378, s.333
Xurşah ibn Qubad əl-Hüseyni. Tarix-e elçi-ye Nizam şah. Tehran, 1379, s.88
Qəzvini, Budaq Münşi. Cəvahürül əxbar. Tehran, 1387, s.149
Seyvori R. İran-e əsr-e Səfəvi. Tehran, 1392, s. 50
45. Rumlu H. Əhsənüt-təvarix, s.450
46. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.104
İsfahani, Məhəmməd Yusif. Xolde bərin. Tehran, 1378, s.333
47. Şah Təhmasibin təzkirəsi, s.17
Aləmara-ye Şah Təhmasib. Tehran, 1370, s. 23
İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi, ...s. 116
Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.37
48. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.104
49. Rumlu H. Əhsənüt-təvarix, s.450
50. Yenə orada

51. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.104
52. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix-e elçi-ye Nizam şah. Tehran, 1379, s. 89
53. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 381
54. Təzkəre-ye Şah Təhmasib. Tehran, 1363, s. 5
Şah Təhmasibin təzkirəsi. Tərcümə edən Əbülfəz Rəhimov. Bakı, 1996 s.18
55. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 370-380
Rumlu H. Əhsənüt-təvarix, s.450
Təzkəre-ye Şah Təhmasib. Tehran, 1363, s. 5
Şah Təhmasibin təzkirəsi. Tərcümə edən Əbülfəz Rəhimov. Bakı, 1996 s. 17-18
56. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 370-371
Şah Təhmasibin təzkirəsi. Tərcümə edən Əbülfəz Rəhimov. Bakı, 1996 s. 18
57. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 371-372
58. Yenə orada, s.372-377
59. Təzkəre-ye Şah Təhmasib. Tehran, 1363, s. 5
Şah Təhmasibin təzkirəsi. Tərcümə edən Əbülfəz Rəhimov. Bakı, 1996 s.17-18
60. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 371-372
Şirazi, Hacı Zeynalabdin Əli Əbdi bəy. Təkmilətül-əxbar. Bakı, 1996, s.41
İsfahani, Məhəmməd Yusif. Xolde bərin. Tehran, 1378, s.334
Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s. 60
61. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.104-105
62. Rumlu H. Əhsənüt-təvarix, s.451-453
63. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 383-384
64. Təzkəre-ye Şah Təhmasib. Tehran, 1363, s. 6-7
Şah Təhmasibin təzkirəsi. Bakı, 1996 s.18-19
65. Təzkəre-ye Şah Təhmasib. Tehran, 1363, s. 8-9
Şah Təhmasibin təzkirəsi. Bakı, 1996 s. 20
66. Qəzvini, Budaq Münşi. Cəvahürül əxbar. Tehran, 1387, s.152

İsfahani, Məhəmməd Yusif. Xolde bərin. Tehran, 1378, s.337
67. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 385
68. Rumlu H. Əhsənüt-təvarix, s.456-457
69. Aləmara-ye Şah Təhmasib, s.23-24
70. Yenə orada, s. 24-25
71. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 386-387
Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381,s.39
72. Seyvori R. İran-e əsr-e Səfəvi. Tehran, 1392, s. 51
73. Təzkəre-ye Şah Təhmasib. Tehran, 1363, s. 9-10
Şah Təhmasibin təzkirəsi. Bakı, 1996 s.21
74. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996 s. 23
75. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.106
76. Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.40
77. Təzkəre-ye Şah Təhmasib. Tehran, 1363, s. 14-15
Şah Təhmasibin təzkirəsi, s. 24
78. Təzkəre-ye Şah Təhmasib. Tehran, 1363, s. 15
Şah Təhmasibin təzkirəsi, s. 25
79. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.106-107
80. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 410-411
81. Yenə orada, s. 412-413
82. Aləmara-ye Şah Təhmasib, s.29-30
83. Yenə orada, s. 30-31
84. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 413
85. Şah Təhmasibin təzkirəsi, s. 25-26
86. Rumlu H. Əhsənüt-təvarix, s.486-487
87. Qəzvini, Budaq Münşi. Cəvahürül əxbar. Tehran, 1387, s.162
Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.42
88. Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.43
89. Qazi Əhməd Qumi. Xülasətüt-təvarix. C.I, Tehran, 1383, s. 224-225
Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.44
90. Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.44

# II FƏSİL

# SƏFƏVİ-ÖZBƏK MÜHARİBƏLƏRİ

## 1.Özbək qoşunlarının Xorasan vilayəti üzərinə ilk hücumu

Şah İsmayılın dünyasını dəyişməsi ərəfəsində onun səltənətinin gələcək taleyi ilə bağlı nigarançılığından biri də xarici təhlükənin mövcudluğu ilə bağlı idi. Bu təhlükə həm şərqdə – özbək qoşunları tərəfindən, həm də qərbdə – Osmanlı dövləti tərəfindən mövcud idi. Hətta Səfəvi dövlətinə münasibətdə Osmanlı sarayının özbək xanları ilə müəyyən əlaqələr qurmaq istəyi də gizli deyildi. Şah İsmayılın həyatının sonlarına yaxın həm Osmanlı sarayının, həm də özbək xanlarının Səfəvi dövlətinə qarşı hərbi planlar qurduğu da məlumdur. Bu planların təxirə salınması heç də onların yenidən işə salınmayacağı demək deyildi.

Özbək xanlarına qarşı mübarizə, bölgədə xüsusi strateji əhəmiyyət kəsb edən Xorasan vilayətində möhkəmlənmək Şah İsmayılın Şərq siyasətinin əsasını təşkil edirdi. Məlumdur ki, özbək xanları hətta Xorasan vilayəti ilə də kifayətlənmir və bu vilayətin hüdudlarından kənara çıxmaqla Səfəvi ərazilərinin içərilərinə doğru irəliləmək və ya bu ərazilərin hakimlərini öz nəzarəti altında saxlamaq üçün ciddi cəhdlər göstərirdilər. Özbək xanlarına, xüsusi ilə də Şeybək xana qarşı mübarizə, bu xanın ətrafında toplanmış olan qoşunlarla aparılmış olan döyüşlər Şah İsmayılın hərb tarixinin yaddaqalan səhifələrindən birini təşkil edirdi. Bölgə əhalisinin şiələşdirilməsinə rəvac verilməsi, Şeybək xanın cəsədinin parçalanaraq başından piyalə düzəldilməsi isə onun varislərində qisas hisslərini unutmağa imkan vermirdi. Başlıcası isə özbək xanları böyük bir ərazini təşkil edən Xorasan vilayətinə iddianı özlərinin haqqı hesab edirdilər və bu vilayətə nəzarəti ələ keçirmək üçün münasib anı əldən buraxmaq istəmirdilər.

Xorasan vilayəti Azəərbaycan Səfəvi dövləti üçün də strateji əhəmiyyət kəsb edirdi. Bir tərəfdən bu vilayətdə şiəlik üçün

xüsusi əhəmiyyət kəsb edən İmam Rzanın məqbərəsi yerləşirdi, digər tərəfdən də bu vilayət coğrafi baxımdan strateji əhəmiyyəti ilə xarakterizə edilirdi. Bu vilayətin mərkəzi olan Herat şəhəri isə səltənətin şərqdəki ən böyük şəhəri idi və həmin şəhərin nəzarət altında saxlanması ilə səltənətin şərq sərhədlərinin təhlükəsizliyinə də böyük təminat verməkolardı. Ona görə idi ki, bu vilayətin hakimi vəzifəsinə Şah İsmayıl əvvəlcə Təhmasib Mirzəni, sonra isə digər oğlu Sam Mirzəni təyin etmişdi. Doğrudur, onlara lələlər də təyin edilmişdi. Lakin şah övladlarının vilayət hakimləri təyin edilməsi bu vilayətin müdafiəsinə və qorunmasına Şah İsmayıl tərəfindən necə böyük önəm verilməsinin göstəricisi idi. Şah Təhmasib taxta çıxanda Xorasan vilayətinin hakimi vəzifəsini Sam Mirzə icra etməkdə idi. Onun lələsi isə Səfəvi dövlətinin tanınmış əmirlərindən olan Durmuş xan idi. Yuxarıda qeyd edildiyi kimi, mənbələrdə də göstərilir ki, Şah Təhmasib bir sıra dövlət vəzifələrinə ilk təyinatlarını edəndə Xorasanın idarəçiliyini yenidən Durmuş xana tapşırmışdı (1).

Şah İsmayılın vəfatından sonra bütün səltənət daxilində olduğu kimi, səfəvi-özbək münasibətlərində də yeni bir səhifə açıldı. İtirdikləri mövqelərin geri qaytarılması ümidləri ilə yaşayan özbək xanları Şah İsmayılın dünyasını dəyişməsini öz niyyətlərinin həyata keçməsi üçün bir fürsət kimi dəyərləndirdilər və Şah Təhmasibin taxta çıxmasından dərhal sonra Xorasan vilayəti üzərinə hücumlara başladılar. Bu hücumların əsas təşəbbüskarı və rəhbəri isə Buxara hakimi Übeyd (Übeydulla) xan oldu. Übeyd xan hələ Şah İsmayılın dünyasını dəyişməsi ərəfəsində səltənət hüdudlarına hücum etmişdi. Lakin öz məqsədinə nail olmadan geri çəkilməli olmuşdu.

Şeirə, ədəbiyyata marağı olmasına baxmayaraq Übeyd xan kifayət qədər qəddar, yırtıcı, şiəliyə qənim kəsilmiş bir xan idi (2) və Səfəvi hüdudlarına hücum onun üçün həm varlanmaq, həm də məzhəb davası etmək məqsədi daşıyırdı. Sözsüz ki, həm də itirilmiş mövqelərin geri qaytarılması və bununla da bölgədə üstün mövqe əldə edilməsi Übeyd xanın böyük arzularından biri idi. Bu məqsəd və niyyətinə çatmaq üçün Übeyd xan digər özbək xanları

olan Kuçum xanla, Əbu Səid sultanla, Səncək Məhəmməd sultanla razılaşmaya gəldilər və birlikdə Herat üzərinə hücuma hazırlaşdılar (3). Bu hakimlərin müştərək qoşunları Amu-Dərya (Ceyhun) çayını keçərək Xorasan ərazilərinə daxil oldular.

Tədqiqatçıların fikrincə, aşağıdakı amillər Übeyd xanın və onun müttəfiqlərinin Xorasan üzərinə hücumuna səbəb olmuşdu: 1) özbəklərin şiə məzhəbinə qarşı barışmazlığı; 2) Xorasan vilayətinin coğrafi və strateji mövqeyi; 3) özbək xanlarının öz sərhədlərini genişləndirmək istəyi; 4) Şah Təhmasibin kiçik yaşda olması, onun döyüş meydanına çıxmaq cəsarətində olmaması; 5) bəzi qızılbaş əyan və əmirlərinin daxili çəkişmələri və Şah Təhmasibə itaətsizlik göstərmələri; 6) özbək qoşunlarının Səfəvi qoşunları ilə müqayisədə üstünlüyə malik olması; 7) özbək xanlarının böyük iddialarla yaşaması və Səfəvi dövlətinin gücünü düzgün qiymətləndirməməsi və s. (4).

"Əhsənüt-təvarix" əsərinin müəllifinin fikrincə, özbək hakimləri Şah Təhmasibin təcrübəsizliyinə ümid edərək bu hücuma başlamışdılar (5).

"Tarix-i aləmara-yi Abbasi" əsərində isə Übeyd xanın Xorasan xülyaları haqqında belə yazılmışdır: "Bu şirin hekayəti söyləyən [İsgəndər bəy Münşi] bilikli adamların sözləri əsasında belə rəvayət edir ki, Übeyd xan ibn Mahmud sultan ibn Əbülxeyr xan ibn Dövlətşeyx-oğlan, Şeyban ibn Cuci ibn Çingiz xanın nəslindən idi və Şeybək xan ibn Budaq sultan ibn Əbülxeyr xanın həqiqi əmisi oğlu idi. Belə deyilir ki, o, həmişə Xorasan mülkünü və gözəl Herat şəhərini ələ keçirməyin arzusunda olsa da, Süleyman şanlı xaqanın cahangir qılıncının şöləsinin və Şeybək xanın başına gələnlərin qorxusundan Buxara mülkünə qısılıb qalmışdı. Süleyman şanlı xaqanın [vəfatı] hadisəsindən sonra Cəmşid məqamlı cənnətməkan şah həzrətlərinin yaşının azlığı səbəbindən və özbaşına qızılbaş əmirlərinin arasındakı düşmənçilik xəbərlərinin gəlməsi üzündən [Übeyd xan] elə güman etdi ki, İran mülkü sahibsizdir və bir neçə başıpozuğun əlindədir. Buna görə də o, Xorasan mülkü üçün tamah dişlərini qıcıyıb, altı dəfə işğalçılıq əzmi ilə Xorasana qoşun çəkdi...

[Übeyd xan] bu yürüşlərə baxmayaraq, məqsədinə nail olmadı. Hər dəfə cənnətməkan şah həzrətləri onun fitnəsini dəf etmək üçün hərəkətə gəlib, özünün qələbə ayətli bayraqlarını bir günəş kimi Xorasan mülkünün ərazisi üzərinə qaldıranda o, aradan çıxıb fərar etməyə qərar verirdi. Belə ki, o, dəfələrlə bu hərəkəti təkrar edib özünü sınadı. Hər dəfə [Şah Təhmasibin] cahangir məiyyəti [Xorasanda] olmadıqda [Übeyd xan] o tərəfə üz tutub, qalaları ələ keçirməyə və məmləkəti xaraba qoymağa məşğul oldu. Xülasə, o, qan tökməkdən və fitnə salmaqdan təngə gəlmədi. On iki il ərzində Xorasan mülkünə özbəklər təpik döydülər, zəiflər və təbəələr atların tapdaqları altında məhv oldular və o vilayətin sakinləri onun zülmündən cana gələrək, asudəliyin nə olduğunu bilmədilər" (6).

Yəni göstərilən ciddi cəhdlərə baxmayaraq Übeyd xan və onun başına toplanmış olan özbək xan və sultanları niyyətlərinə nail ola bilmədilər. Kifayət qədər zəngin döyüş təcrübəsinə malik olan Durmuş xan Heratın müdafiəsini yüksək şəkildə təmin edə bildi. Müdafiə mövqelərinin düzgün müəyyənləşdirilməsi, qüvvələrin dəqiqliklə qruplaşdırılması və onların fəaliyyətinin səmərəli əlaqələndirilməsi özbək xanlarının və onların qoşunlarının hücum cəhdlərini nəticəsiz qoydu. Əksinə, fəal müdafiə döyüşlərinin Durmuş xan tərəfindən düzgün qurulması özbək qoşunlarının özlərini ağır vəziyyətə saldı və ona görə də özbək qoşunları qarşılarına qoyduqları məqsədə nail olmadan geri qayıtmaq məcburiyyətində qaldılar.

Bəzi məlumatlara görə bir neçə ay çəkən bu döyüşlər zamanı Xorasan vilayətinin hakimi olan Şah Təhmasibin kiçik qardaşı Sam Mirzənin lələsi Durmuş xanın təcrübəsi və məharəti özbək qoşunlarına ciddi bir dərs oldu. Übeyd xan və onun ətrafındakılar anladılar ki, Xorasan vilayətində kifayət qədər güclü Səfəvi qarnizonu vardır və bu qarnizon qarşısında qarşılarına qoyduqları məqsədə çatmaları heç də asan olmayacaqdır. Durmuş xan isə nəinki yalnız qalanın müdafiəsində dayanmaqla kifayətlənmədi. Əksinə, yuxarıdakı qeydlərdən göründüyü kimi, Durmuş xanın reydlər etməsi, qoşun dəstələrini qaladan kənara çıxarmaqla öz-

bək qoşunları üzərinə hücum etməsi özbək qoşunlarını gözləmədikləri halda ağır vəziyyətə sala bildi. Mövcud məlumatlara görə, bu reydlər zamanı hətta özbək xanlarının əsir düşmək təhlükəsi də yaranmışdı (7).

Özbək qoşunlarının Xorasan vilayətindən çıxarılması həmin vilayətdə yerləşən Səfəvi qarnizonu vasitəsi ilə həyata keçirildi. Səfəvi sarayı tərəfindən bu hücumun qarşısının alınması üçün Xorasana qoşun göndərilməmişdi. Daha doğrusu, buna ehtiyac qalmamışdı. Şah Təhmasib öz təzkirəsində Xorasana özbək xanlarının hücumu barəsində məlumat vermişdi. O bildirirdi ki, özbək qoşunlarının hücum xəbəri alınanda sarayın əyan və əmirlərinin toplantısı keçirildi və qərara alındı ki, özbək qoşunlarının Xorasan vilayətinə hücumunun qarşısının alınması üçün Div sultanın rəhbərliyi altında həmin vilayətə qoşun dəstəsi göndərilsin. Yuxarıdakı qeydlərdən məlumdur ki, Div sultan da mərkəzdə olan qoşun dəstəsindən əlavə vilayətlərdən də qoşun dəstələrinin onun tabeçiliyinə verilməsi barəsində məsələ qaldırdı. Şah Təhmasibin razılığı ilə bir neçə vilayətin qoşun dəstələri də Lar yaylağında Div sultana qoşuldular. Lakin özbək qoşunları Durmuş xan tərəfindən Xorasan vilayətindən qovulduqdan sonra Div sultanın ora hərəkət etməsinə ehtiyac qalmadı. Məlum olduğu kimi, Div sultan da vilayətlərdən toplanmış qoşunları geri göndərməzdən əvvəl onların köməyi ilə Köpək sultanla münasibətlərin aydınlaşdırılmasına cəhd etdi.

## 2. Özbək qoşunlarının ikinci hücumu

Übeyd xanın və onunla müttəfiq olmuş xanların Herat ətrafında uğursuzluğa düçar olaraq geri qayıtması heç də onların Xorasan vilayətinə olan iddialardan əl çəkməsi demək deyildi. Əskinə, qarşıya çıxan uğursuzluq onların səfəvilərə qarşı olan qəzəblərini daha da kəskinləşdirdi. Gözləmədikləri halda Durmuş xandan güclü zərbə almaları onlardakı qisasçılıq hisslərini daha da gücləndirdi. İlk hücumdan sonra Xorasan vilayətində yaşa-

nanlar isə onların iddialarının həyata keçirilməsinə yeni bir ümid yaratdı.

Yuxarıda qeyd edilənlərdən məlumdur ki, Durmuş xanın vəfatı, onun vəfatından sonra isə vəziri Xoca Həbibulla Savəçinin vilayət idarəçiliyini öz nəzarəti altına almaq cəhdi və ona qarşı vilayət daxilində güclü narazılıqların baş qaldırması Xorasan vilayəti daxilində hərbi-siyasi vəziyyəti də müəyyən qədər mürəkkəbləşdirdi. Bir tərəfdən Səfəvi sarayı ətrafında əmir və əyanların münaqişəsinin davam etməsi və digər tərəfdən də Xorasan vilayətində Səfəvi əyanlarının əsassız iddiaları üzündən daxili vəziyyətin qeyri-sabit hal alması özbək qoşunlarının növbəti hücumuna qarşı ümumi müqavimətin zəifləməsi təəssüratını yaradırdı. Übeyd xan da bu yaranmış vəziyyəti Xorasan vilayətinin nəzarət altına alınması üçün münasib məqam kimi dəyərləndirdi və tezliklə onun rəhbərliyi altında özbək qoşunlarının Xorasan vilayətinə ikinci hücumu başladı.

Mənbələrdə özbək qoşunlarının Xorasan vilayəti üzərinə ikinci hücumunun hicri qəməri tarixi ilə 932-ci ildə başladığı göstərilmişdir. Həmin hicri ili 1525-ci ilin payızının sonlarından başlayırdı. Məlumdur ki, döyüşlər və hərbi yürüşlər bir qayda olaraq havaların isti vaxtlarında keçirilirdi. Ona görə güman etmək olar ki, özbək qoşunlarının Xorasan vilayəti üzərinə ikinci hücumu 1526-cı ilin yazında və ya yayında baş vermişdi.

Mənbələrdə də göstərilir ki, Durmuş xanın dünyasını dəyişməsi ilə Xorasan vilayətinin vəziyyəti mürəkkəbləşdi və bu vilayətdə düşmənə müqavimət göstərə biləcək bir sərdar tapılmadı. Bu isə Übeyd xanın sevincinə səbəb oldu və o, yenidən böyük qoşunla Xorasan üzərinə hücum çəkdi. Verilən məlumatdan aydın olur ki, Übeyd xan bu hücum üçün də bir sıra özbək sultanları və bahadırları ilə sövdələməyə girmişdi və onlarla birlikdə uğur əldə edəcəyinə şübhə etmirdi. Bildirilir ki, Übeyd xan öz qoşunları ilə Amu-Dərya çayı üzərindəki Çaharsu bərə körpüsündən keçərək Mərvə doğru üz tutdu və sonra da Məşhəd şəhərinə tərəf hərəkətə başladı (8). Onun məqsədi Xorasanın bu böyük dini mərkəzini ələ keçirmək idi. Məşhəd, əslində, Səfəvi dövlətinin

dini mərkəzi idi və onun əldə saxlanması səltənət üçün həm də böyük dini-ideoloji əhəmiyyət kəsb edirdi. Təəssüf ki, mənbələrdə bu şəhərin müdafiəsi haqqında geniş məlumat mövcud deyil. Lakin mövcud olan müxtəsər məlumatlar da Məşhəd şəhərinin müdafiəsi üçün Səfəvi qoşunları ilə özbək qoşunları arasında gərgin döyüşlərin getməsindən xəbər verir. Mövcud məlumatlara əsasən onu demək mümkündür ki, şəhər uğrunda döyüşlər xeyli uzandı. Yəni özbək qoşunları planlaşdırdıqlarının əksinə olaraq qısa müddət ərzində şəhəri ələ keçirə bilmədilər. Digər tərəfdən o da məlum olur ki, şəhərin müdafiəsinə ətraf bölgələrdən də qoşun dəstələri cəlb edilibmiş. Lakin bu qoşun dəstələri özbək qoşunlarının müqavimətini sındıracaq qədər qüvvəyə malik deyildi. Şəhər müdafiəçilərinin gücü ona çatdı ki, bir neçə ay ərzində Məşhədi qoruyub saxlaya bildilər. Mərkəzdən bu qoşunlara yetərli köməyin gəlməməsi son nəhayətdə onların gücünü zəiflətdi. Xüsusilə, mühasirədə olan şəhərdə ərzaq qıtlığının yaranması və onun aradan qaldırılması üçün lazımi tədbirlərin həyata keçirilməsi imkanının olmaması şəhər müdafiəçilərinin iradəsini qırdı və Məşhəd şəhəri özbək qoşunlarının əlinə keçdi (9).

"Əhsənüt-təvarix" əsərində Übeyd xan tərəfindən Məşhəd şəhərinin işğal edlməsi belə təsvir edilmişdir: "Dərgah əmirlərinin ixtilafı, Xoca Həbibullanın qətli, yolsuz-yordamsız şamluların [Xorasandakı] istilası, Durmuş xanın ölümü, Burun sultanın qətli və Xorasanın pərişanlığı [haqqında xəbərlər] Übeyd xana çatdıqda, o, Amudərya çayını keçib Mərvə gəldi. Oradan məiyyəti və ordusu ilə Tus şəhərinə yollandı, sultanlardan və bahadırlardan ibarət bir zümrə ilə həmin şəhərin ətrafına vüqarla qədəm qoydu və şəhəri dairə kimi araya aldı. O zaman Burun sultanın ailəsi və köçü həmin məkanda idi. Qazilər [özbəkləri] dəf etmək və onlara mane olmaq üçün şəhərdən çıxıb döyüşdülər. Qırğın və mübarizə səhərdən axşamüstünə qədər davam etdi və [axırda] qazilər şəhərə döndülər. Übeyd xan oranı dövrəyə aldı. Qazilər neçə ay ərzində mühasirədə oturub səbir etdilər. O əsnada mühasirədəki qoşunun arasında aclıq alovu geniş yayıldı. Acların ürəyinin tüstüsü atəş kürəsini dəlib keçdi. Azuqənin azlığı o

dərəcəyə çatdı ki, köhnə dəriləri qaynadıb yeyirdilər. Atları olan bəziləri atların damarını kəsib qanlarını içirdilər və atlara yem kimi çubuq yonub saman əvəzində verirdilər. Qazilər Xorasan hakimlərinin yanına [adam] göndərib kömək istədilər. [Lakin] heç kəs fəryada yetmədi. Mühasirədəkilərin möhnəti taqət həddini ötüb keçdi. Özbək qoşunları onlara qalib gəldilər və adı çəkilən vilayət (Tus bölgəsi) o yaramaz qövmün əlinə keçdi. Übeyd xan öz etibarlı adamlarından birini orada qoyub Astarabada yollandı" (10).

Məşhəd şəhərini ələ keçirməsi Übeyd xanı daha da ilhamlandırdı və o, hücumunu Astrabad şəhərinə doğru davam etdirdi. Bu zaman Astrabad səltənətin tanınmış və nüfuzlu əmirlərindən biri olan Zeynal xan tərəfindən idarə edilirdi. Zeynal xan da özbək qoşunlarını mərkəzin köməyi olmadan qarşılamalı oldu. Onun qərarı əsasında əvvəlcə Qayapa bəy Qacarın rəhbərliyi altında bir qoşun dəstəsi şəhər kənarına göndərildi ki, özbək qoşunlarına ilkin müqavimət şəhər kənarında göstərilsin. Qayapa bəy Qacar da səltənət qoşunlarının güclü sərkərdələrindən biri idi. O, tabeliyində olan qoşun dəstəsi ilə şəhərdən dörd fərsəx məsafədə özbək qoşunları ilə üzbəüz gəldi. Mənbələrdəki məlumatlara görə, istər Qayapa bəy Qacar, istərsə də onun döyüşçüləri özbək qoşunlarına qarşı böyük şücaət göstərdilər. Lakin qüvvələr nisbəti elə idi ki, özbək qoşunlarının qarşısını saxlamaq mümkün olmadı. Belə olanda Qayapa bəy Qacarın dəstəsi geri çəkilməli oldu. Bu da Astrabad şəhərinin təhvil verilməsinə gətirib çıxardı. Amma şəhər özbək qoşunlarının əlinə keçməzdən əvvəl şəhər hakimi Zeynal xan da, şəhərdəki digər əyanlar və əmirlər də öz ailələrini götürüb Rey şəhərinə yollandılar (11).

Astrabad şəhəri ələ keçirildikdən sonra Übeyd xan onun idarəçiliyini oğlu Əbdüləziz xana həvalə etdi və özü isə işğal coğrafiyasını genişləndirmək üçün Bəlxə tərəf üz tutdu. İki böyük şəhərin ələ keçirilməsi o demək idi ki, bölgədə yetərli sayda Səfəvi qoşunları yox idi və bu da Übeyd xanın işğalçılığının genişlənməsi üçün əlverişli zəmin yaradırdı. Qızılbaş əmir və əyanları arasında münaqişənin güclənməsinə baxmayaraq, özbək qoşun-

larının hücum xəbəri alınanda Şah Təhmasib lazımi tədbirlərin həyata keçirilməsini zəruri saydı və bölgəyə göndərilməsi üçün qoşun dəstəsi müəyyənləşdirdi. Kəsərli müqavimətin göstərilməsinin təmin edilməsi üçün səltənət qoşunlarının təcrübəli əmirləri seçildilər və bölgəlyə yollanması üçün vəzifələndirildilər. Onların arasında Əxi sultan Təkəli, Ağzıvar xanın atası Dəmri sultan Şamlı və Şahəli sultan Ustaclı da var idi. Bu əmirlər qoşun dəstəsi ilə Zeynal xanın yanına yollanmalı və özbək qoşunlarının bölgədən qovulması üçün Zeynal xana kömək göstərməli idilər. Adları çəkilən əyanlar tapşırıq alan kimi dərhal bölgəyə yollandılar və Reydə Zeynal xanla görüşdülər. Sonra da həmin əyanlar Zeynal xanla birlikdə Astarabada yollandılar (12).

Amma digər böyük əmirlər bununla razılaşmadılar və özbək qoşunlarına qarşı döyüşə girməyi qərarlaşdırdılar. Nəticədə, Bistam yaxınlığında Səfəvi qoşunları ilə özbək qoşunları qarşılaşmalı oldular. Mənbələrdəki məlumatlardan belə bir qənaət hasil olur ki, Əxi sultanın, Dəmri sultanın və Şahəli sultanın rəhbərliyi altında olan qoşunlar cəmi 3 min nəfərdən ibarət idi. Özbək qoşunlarının isə 20 min nəfər olması göstərilir. Yəni Səfəvi qoşunlarının sayı özbək qoşunlarının sayından 7 dəfəyə yaxın az idi. Buna baxmayaraq özbək qoşunları ilə döyüşə girmək və Səfəvi qoşunlarının iradəsini onlara nümayiş etdirmək qərara alındı. Mənbələrdə də qeyd olunur ki, əslində, qüvvələr nisbətinin belə olduğu təqdirdə döyüşə girilməsi məntiqdən uzaq idi. Lakin qızılbaşlar belə bir qərarı qəbul etdilər və elə döyüş meydanına yollananda qoşunların qruplaşdırılmasına başladılar. Əxi sultan qoşunların mərkəzində mövqe tutdu. Bu o demək idi ki, Əxi sultan döyüşün əsas ağırlığını öz üzərinə götürəcəkdi. Sağ cinah (meymənə) Dəmri sultana tapşırıldı. Sol cinah (meysərə) mövqeyi isə Şahəli bəyə həvalə edildi. "Əhsənüt-təvarix" əsərində qızılbaş dəstəsinin cəmi 2500 nəfər olması göstərilmişdir (13).

Özbək qoşunları da bu döyüşə girmək üçün lazımi hazırlıq tədbirlərini həyata keçirdilər. Səfəvi qoşun dəstəsinə qarşı növbəti uğurunu əldə etmək üçün Übeyd xan da öz qüvvələrini qruplaşdırdı. Onun qərarına əsasən, qoşunların sol cinahı (cə-

vanğar) Qənbər Əliyə tapşırıldı. Digər bir özbək əmiri olan Zinəş Bahadur isə qoşunların sağ cinahında (bərangar) mövqe tutdu. Übeyd xan özü isə çox güman ki, qoşunların mərkəzində qərar tutdu. Şeypurlar və zurna sədaları havaya yüksələndən sonra tərəflər arasında qanlı bir döyüş başladı. Səfəvi qoşun dəstəsi sayının az olmasına baxmayaraq çox böyük bir əzmkarlıq nümayiş etdirdi, özbək qoşunlarının müqavimətinin qırılması üçün böyük bir istəklə onların üstünə atıldı. Amma qüvvələr nisbətində fərqin böyük olması özbək qoşunlarını məğlub etməyə imkan vermədi.

"Əhsənüt-təvarix" əsərində həmin döyüş belə təsvir edilmişdir: "Şeypur və zurna sədaları asimanın mavi küpünə səs saldı. Dilavərlər hücuma keçdilər. Özbəklər onları dəf etmək üçün irəli atılıb həmlə küləyi ilə ölüm atəşini alovlandırdılar. Dilavərlər də özbəklərə həmlə etdilər. Günəşin nur bəxş edən gözü mərəkənin tozanağından tutuldu. Parlaq ulduzların gözləri ordunun qaldırdığı toz-torpaqdan qaraldı və görməz oldu. ... Dəmri sultan inadkar düşmənləri nizə yarası ilə yerindən dəbərdib özünü mərkəzə yetirdi. Özbəklərin çoxsaylı bir dəstəsi mərkəzdən xeyli həmlələr etdi və Dəmri sultanı öz yolundan kənarlaşdırıb qızılbaş ordusunun mərkəz ("qol") hissəsinin arxasına keçdi. Əxi sultan özünü Übeyd xanın mərkəzinə vurub qılıncını oynatdı, lakin özbəklərdən birinin vurduğu yara ilə atdan düşdü. Übeyd xana qələbə müyəssər oldu və Dəmri sultan da igidliyini və pəhləvanlığını zahir etdikdən sonra əbədi dünyaya tələsdi (öldürüldü). Əxi sultanı diri-diri Übeyd xanın yanına apardılar. O, Übeyd xana neçə-neçə söyüşlər dedi və onun hökmü ilə qətlə yetirildi. Zeynal xan bu xəbərləri eşitdikdə, Astarabadı tərk edib Firuzkuha getdi. Übeyd xan Astarabadın idarəçiliyini Zinəş Bahadıra verib özü Herata yollandı və Quryanda qışlaq etdi" (14).

"Tarix-i aləmara-yi Abbasi" əsərində də yuxarıda söylənilənlərin kiçik fərqlə təkrarlandığını görmək mümkündür (15).

Beləliklə, 1527-ci il iyul ayının 24-də baş verən bu döyüşdə Übeyd xan özünün Səfəvi qoşunları üzərinə daha böyük qələbəsini əldə etdi (106). Astrabad yenidən özbək qoşunlarının nə-

zarəti altına düşdü. Übeyd xan isə bu uğurdan ilhamlanaraq Xorasan vilayətinin mərkəzi şəhəri olan Heratı da tutmaq qərarına gəldi. Amma soyuq havaların yaxınlaşması üzündən Übeyd xan bu planının icrasını təxirə salmalı oldu və Quryanda qışlağa dayandı ki, havalar qızandan sonra Herat üzərinə yürüşünü davam etdirsin.

Özbək qoşunlarının Səfəvi hüdudlarına ikinci hücumu barəsində "Aləmara-ye Şah Təhmasib" əsərində də bəzi məlumatlar verilmişdir. Amma müəllifi bəlli olmayan bu əsərdə hadisənin təsviri digər mənbələrlə müqayisədə kifayət qədər fərqli verilmişdir. Yalnız Astrabadın və Übeyd xanın oğlu Əbdüləzizin adının çəkilməsi təsvirin özbək qoşunlarının ikinci hücumuna aid olması ehtimalını verir. Bu əsərdə söhbət əvvəlcə Xarəzm üzərinə hücumdan gedir. Guya Übeyd xanın oğlu Əbdüləziz xan Xarəzm vilayətini öz idarəçiliyi altına almağı arzulayırdı və ona görə də atasından xahiş etdi ki, onu bu arzusuna çatdırsın. Übeyd xan da bu arzunun həyata keçirilməsi ilə bağlı Xarəzmə hücum edir. Xarəzmin hakimləri Əli sultanla Mehrab xan əvvəlcə Herata sığınmaq istəyirlər. Bu şəhərdə olan Sam Mirzə onların Herata daxil olmasına icazə vermədikdə həmin hakimlər Astrabada yollanırlar. Astrabad hakimi Xarəzm hakimlərinin gəlməsi və sığınacaq istəməsi haqqında Şah Təhmasibə məktub göndərir. Şah Təhmasib də qardaşı Bəhram Mirzənin rəhbərliyi altında Xarəzmin geri alınması üçün qoşun göndərir. Bu qoşun dəstəsi Astrabadda olan Əli sultanla Mehrab xanı da yanına alaraq Xarəzmə yollanır və bu şəhəri Əbdüləziz xanın əlindən alır. Şah Təhmasib də qardaşının əldə etdiyi nəticələrdən məmnunluğunu ifadə edir (16).

Bir daha qeyd edilməlidir ki, bu məlumat istifadə olunmuş digər mənbələrdə mövcud deyil. Hətta Şah Təhmasibin təzkirəsində də bu barədə məlumat verilməmişdir. Şah Təhmasib öz təzkirəsində onun hakimiyyətinin ilk illərindən özbək xanlarının bütün yürüşlərinə qısaca da olsa toxunmuşdur. Lakin yuxarıda söylənilən məlumatın onun təzkirəsində yer almaması həmin məlumatın doğruluğunu şübhə altına alır.

Übeyd xan isə Herat üzərinə hücum üçün hazırlıqlarını davam etdirirdi. Eyni zamanda Herat şəhəri daxilində də özbək qoşunlarının hücumunu dəf etmək üçün hazırlıq görülürdü. Məlumdur ki, Heratın və bütünlükdə Xorasanın hakimi Şah Təhmasibin kiçik qardaşı Sam Mirzə idi. Onun əvvəlki lələsi Durmuş xan dünyasını dəyişdikdən sonra isə lələ vəzifəsini Durmuş xanın qardaşı Hüseyn xan icra edirdi. Hüseyn xan da onu və eləcə də şəhəri nə gözlədiyini yaxşı bilirdi. Herat şəhərinin ələ keçirilməsi eyni zamanda Şah Təhmasibin qardaşı Sam Mirzənin özbəklərin əlinə keçməsi demək idi. Çox ciddi təhlükə gözlənilməsinə baxmayaraq Sam Mirzə Heratı tərk etmədi və qış ərzində şəhərin müdafiəsinin möhkəmləndirilməsi üçün müəyyən tədbirlər həyata keçirilməyə başlandı. Qala divarlarının möhkəmlənməsi, şəhər daxilində ərzaq ehtiyatlarının yaradılması belə tədbirlərdən idi. 1528-ci ilin yazında, havaların qızması ilə Übeyd xan Herat qalası üzərinə hücum etdi. Mənbələrdəki məlumatlara görə, qala müdafiəçiləri ilə özbək qoşunları arasında ciddi döyüşlər də baş verdi. Ehtimal etmək olar ki, bu döyüşlər qala müdafiəçiləri ilə özbək qoşunları arasında Heratın qala divarlarından kənarda baş vermişdi. Amma qala divarları Herat qarnizonu üçün daha etibarlı sığınacaq idi. Ona görə də döyüşlərin əsas hissəsinin qala döyüşləri olmasını istisna etmək olmaz. Gözlənilənlərin əksinə olaraq, Übeyd xan Heratı tezliklə işğal etmək niyyətinə nail olmadı. Qala divarları üzərinə həyata keçirilən basqınlar da uğursuz oldu. Nəticədə Herat şəhərinin mühasirəsi uzanmalı oldu. Bu isə yalnız şəhər daxilindəkilərin deyil, eyni zamanda özbək qoşunlarının özlərinin də vəziyyətini mürəkkəbləşdirdi (17).

"Əhsənüt-təvarix" əsərində özbək qoşunlarının Heratı mühasirəyə alması belə təsvir edilmişdir: "Übeyd xan Quryan ölkəsində qışlaq edən vaxt Hüseyn xan Şamlu Heratın bürc və hasarını təmir edib darvazaları etibarlı adamlarına tapşırdı, yolları və küçələri də təmir etdirdi (möhkəmləndirdi). Übeyd xan baharın əvvəllərində, gecə ilə gündüzün bərabərləşdiyi zamanda Heratın qala divarlarının yaxınlığında yerləşən Şadmanə kəndində öz çadırını qurdurdu. Özbək əsgərləri iki-üç dəfə döyüşə atıldılar.

Amma şəhərin istehkamı və Bəhram kimi qəhredici şamluların şücaəti sayəsində onlar bir iş görə bilmədilər. Hüseyn xan və şamlu camaatı qızğın aslan və qorxunc bəbir kimi mərdlik meydanına cumurdular, xeyli şücaət göstərirdilər, çarpışma zamanı üzlərini təhlükəli bəladan çevirmirdilər, ox və nizə zərbələri ilə tükü bölürdülər. Übeyd xan [özü üçün] məlum etdi ki, Herat şəhərini döyüşlə tutmaq müyəssər deyil. O, zalım özbəkləri yollarda və keçidlərdə yerləşdirdi ki, yemək cinsindən olan heç bir şey şəhərin daxilinə aparılmasın və şəhərdə mühasirə edilmiş olanların və çarəsiz məhbusların su mənbəyinin də qarşısını alıb o diyarın rahatlıq nohurlarını zülmün toz-torpağı ilə doldurdu.

Nəql edirlər ki, gəda libasında bir şəxs şəhərin içinə bir az duz aparıbmış və daha sonra həmin libasda yenə şəhərdən çıxıbmış. Xəbislərdən biri Übeydə çatdırmış ki, bir adam şəhərin içinə duz apardı. Xanın buyruğu ilə onu bazarın başına gətirib ən qəbahətli bir şəkildə qətlə yetirmişlər. Übeyd xan öz qoşunu və ordusu ilə birlikdə dörd ay Heratın ətrafında oturdu. O qeyrətsiz güruh hər dəfə döyüş üçün irəli gəldikdə onların çoxu yaralı, ölü, uğursuz və məyus olurdular və cürbəcür bədbəxtliklərlə geri dönürdülər. Bu əsnada Canvəfa mirzənin əmirülümərа olan oğlu Yari bəy Buxara şəhərindən gəlib çıxdı. O, Übeyd xana ərz etdi və etirazını bildirdi:

- Yerimizdə oturmaqla və küçəbəndlər uğrunda [xırda] döyüşlər aparmaqla [Heratı] fəth etmək müyəssər olmayacaqdır. [Bizə] layiq olan budur ki, bu gün aləmi yandıran ordunun hamısı birlikdə müxtəlif tərəflərdən və istiqamətlərdən döyüşə atılsın və məqsədimizi əldə edək. Daha sonra o, bu iddianı gerçəkləşdirməkdən ötrü özbək sərdarları ilə birlikdə küçəbəndə tamaşa etmək qərarına gəldi və neçə nəfər əbləhlə birlikdə atlanıb yola çıxdı. Xeyli tamaşa etdikdən və saysız arzulara düşdükdən sonra keçməli olduğu bir yolda onun diqqətini bürcün qonşuluğunda yerləşən və dağılmış vəziyyətdə olan bir küçəbənd cəlb etdi. O, öz mülazimlərindən ayrılıb tamaşa üçün irəli getdi. Elə bu zaman o ərazinin qoruyucularından olan bir tüfəngçi onun tərəfə bir tüfəng [gülləsi] atdı. [Güllə] ona dəyib onu izzət atından zillət

torpağına saldı. Tüfəngçi dərhal onun başını bədənindən ayırıb atını və yarağını Hüseyn xanın yanına gətirdi. Onun kisəsindən bir möhür çıxardılar və kağıza vurdular. Orada [bu sözlər] nəqş olunmuşdu: "əl-Əbd Yari bin Canvəfa mirzə". O əsnada [Yari bəyin] mülazimlərindən biri onun başına nə gəldiyini öyrənmək üçün şəhərə daxil olub, onun əhvalı haqqında məlumat alaraq geri qayıtdı. Bu yaramazın qətli baş verən gün Damğan vilayətindən, Zinəş Bahadırın ("Aləmara-ye Şah Təhmasib" əsərində Zəmiş Bahadır kimi verilmişir) yanından bir şəxs gəlmişdi və Zeynal xanın qətli xəbərini gətirmişdi. Bu xəbərin yetişməsi səbəbindən Übeyd xana çoxlu sevinc nəsib oldu. Onun köhnə məhrəmləri deyirdilər ki, biz onu heç vaxt belə şad və xoşhal görməmişik. [Lakin] həmin günün axırında Yari öldürüldü və həmin sevinc qəmlə əvəz olundu. Heratın mühasirəsi günləri uzanır, aclıq mərəzi yayılır, eyş karvanı yoxluq diyarına tələsirdi. Hüseyn xan, ərbablar (ağalar) və kələntərlər işin çarəsini bunda gördülər ki, ortabab adamları, şiəlikdə şöhrət tapmayanları arvadları və uşaqları ilə birlikdə, həmçinin malları və taxılları olmayan yoxsulları şəhərdən çıxarıb onların azuqəsini öz ərzaq ehtiyatlarına əlavə etsinlər. Bu işin icrası üçün sərt qaziləri təyin etdilər və onların hamısını [şəhərdən] çıxardılar. Nəticədə, Heratın içi camaatdan o şəkildə xali oldu ki, bazarda rəiyyətdən və qeyrilərindən bir kəs nəzərə gəlməz oldu. Heratın [çəki] daşı ilə bir batman duzun qiyməti üç yüz Təbriz dinarı məbləğinə yüksəlmişdi. Heratın bir batmanı Təbriz [çəkisi] ilə yarım batman və bir sir bərabərindədir. İş o yerə çatmışdı ki, xeyli nəzakətlə əllərində almaz gövhərini oynadan rifah və nemət sahibləri bir parça duzu sarıqlarının içində gizlədirdilər, xörək yeyərkən onu sarıqlarının içindən çıxarıb bir az dillərinin üstünə sürtürdülər və yeməyi bitirdikdən sonra onu yenə də gizlədirdilər.

...Təhlükə ilə dolu mühasirə günləri yeddi aya gəlib çatdıqda şahın bayraqlarının gəlişi xəbəri o pis yol yolçusunun (Übeyd xanın) ordusunda yayıldı. Bununla eyni anda xəbər gəldi ki, Übeyd xan tərəfindən Damğanda hakim olan Zinəş Bahadır, şah

qoşununa qarşı müharibə etmiş və qətlə yetirilmişdir. Übeyd xan Herat ətrafından köç edib fərar yolunu tutdu" (18).

Hüseyn xanın Heratın müdafiəsi ilə bağlı qəbul etdiyi ciddi qərarlardan biri bu oldu ki, o, şəhərin müdafiəsində dayanmaq imkanı olmayan əhali şəhərdən çıxarılsın. Bu kontingentə yaşlılar, qadınlar, uşaqlar, silah tuta bilməyənlər daxil idi. Həmin qərar başlıca olaraq şəhər daxilindəki ərzaq ehtiyatlarının mühafizəsi və qənaəti məqsədilə qəbul edilmişdi. Məlum idi ki, şəhərin müdafiəsi uzanacağı təqdirdə ərzaq ehtiyatları da tükənəcəkdi. Hüseyn xan isə şəhərin müdafiəsinə çox qərarlı idi və bunun üçün lazım olan addımları da atırdı. Digər tərəfdən döyüş qabiliyyəti olmayan əhalinin şəhərdən çıxarılması döyüşlərin daha arxayın şəkildə aparılmasına zəmin yarada bilərdi. Çox güman ki, şəhər əhalisinin heç də hamısı bu qərarı xoşluqla qarşılamamışdı. Ona görə də yuxarıdakı mənbə məlumatından göründüyü kimi, bu işin icrasına Hüseyn xan tərəfindən qazilər təyin edildilər. Köçürülməyə məsuliyyət daşıyan insanlar həm bu məsələni təşkil etməli, həm də şəhəri tərk edən insanlar tərəfindən böyük miqdarda ərzaq əşyalarının və qiymətli əşyaların şəhərdən çıxarılmasının qarşısını almalı idilər. Bununla bağlı şəhər darvazalarında xüsusi insanlar dayanmışdı və onlar şəhəri tərk edənlərin əşyalarını yoxlayırdılar. Amma mənbə məlumatlarına görə, bu məsələdə müəyyən sui-istifadə hallarına da yol verilirdi ki, bu da şəhəri tərk edənlərin narazılığı ilə qarşılaşırdı. Yəni şəhəri tərk edənlər çox ciddi şəkildə yoxlanılırdı, qiymətli əşyaların tapılması üçün hətta qadınların paltarı soyundurulurdu. Bu isə adamların narazılığını şiddətləndirməklə bərabər, həm də böyük vaxt itkisinə yol açırdı. Onun nəticəsi idi ki, şəhəri tərk etmək istəyənlər bəzən günlərlə şəhər darvazaları ağzında onların yoxlanılacağını və şəhəri tərk etmək üçün icazə veriləcəyini gözləməli olurdular. Bəzi hallarda isə məmurlar yoxlama növbəsini gözləyənlərdən rüşvət aldıqdan sonra onlara lazımi icazəni verirdilər (19).

Yuxarıdakı mənbə məlumatından göründüyü kimi, Heratın mühasirəsinin davam etdiyi günlərdə Astrabad hakimi, tanınmış qızılbaş əmirlərindən olan Zeynal xan da özbək qoşunları tərə-

findən qətlə yetirildi. Astrabad şəhəri özbək qoşunlarının əlinə keçdikdən sonra Zeynal xan Firuzkuha çəkilmişdi və orada şah qoşunlarının köməyə gəlməsi intizarında idi. Amma həmin köməyin gəlməsinə qədər Zeynal xan həyatla vidalaşmalı oldu. Mənbələrin birində bildirilir ki, Zeynal xan Damğanda ikən Səbzəvar hakimi Çəkurgə sultanla birləşib özbək qoşunlarına zərbə endirmək qərarına gəldilər. Bu məqsədlə onlar qoşun dəstəsi ilə Zinəş bahadır üstünə qoşun çəkdilər. Bildirilir ki, Zeynal xan bu hücumun əvvəlində uğur da qazana bildi və Zinəş bahadır təsadüf nəticəsində ölüm təhlükəsindən canını qurtara bildi. Lakin Zinəş bahadır çox tezliklə özünü toparlamış, ətrafındakı qüvvələri səfərbər edərək qızılbaş dəstəsinə üstün gəlmişdi. Zeynal xanla Çəkurgə sultan da bu döyüşdə həyatlarını itirmişdilər. Digər mənbədə olan məlumata görə, isə Zeynal xanla Çəkurgə sultan təsadüf nəticəsində özbək qoşunları ilə rastlaşmış və onlarla döyüşə girməyə məcbur olmuşdular. Belə ki, məlumata görə, Zinəş bahadır Heratın mühasirəsi davam etdiyi günlərdə bir dəfə qoşun dəstəsi ilə Firuzkuha yollanır. Orada təsadüfən ov üçün gəzib dolanan Zeynal xanla Çəkurgə sultanla qarşılaşır. Bu fürsəti əldən verməyən Zinəş bahadır qızılbaşlar üzərinə hücum edir. Lakin bu döyüş Zinəş bahadır üçün uğurlu başlamır. Qızılbaş döyüşçülərindən biri öz nizəsi ilə onu vurub atdan yerə salır. Hətta başını da kəsmək istəyir. Zinəş bahadır elə böyük bir bədənə malik imiş ki, onun başının bədənindən ayrılması çətinlik təşkil edir. Ona görə qızılbaş döyüşçüsü fikrindən daşınır və ona görə də Zinəş bahadır sağ qalır. Zinəş bahadır və onun ətrafındakılar bundan çox sevinirlər və güclərini toplayıb yenidən hücuma keçirlər. Bu isə Zeynal xanla onun yanında olan digər əmirlərin həyatı bahasına başa gəlir. Bildirilir ki, Zinəş bahadır qızılbaş əmirlərinin, o cümlədən də Zeynal xanın kəsilmiş başını Herat ətrafında olan Übeyd xana göndərdi (20).

Mənbə məlumatlarında bildirilir ki, Zeynal xanın öldürülməsi xəbəri Übeyd xan tərəfindən çox böyük sevinclə qarşılandı və həmin xəbər alınan gün Herat qalasının divarları üzərinə yeni bir hücum təşkil edildi. Həmin hücuma Übeyd xanın əmirül-ümərası

olan Canvəfa Mirzənin oğlu Yari bəy rəhbərlik edirdi. Amma bu hücum da qala müdafiəçiləri tərəfindən çox böyük müqavimətlə qarşılandı və qala müdafiəçilərinin iradəsini sındırmaq mümkün olmadı. Əksinə, döyüşün gedişində hücuma rəhbərlik edən Yari bəy nişan alındı və qızılbaş döyüşçülərinin tüfəngindən açılan atəş onun həyatına son qoydu. Mənbələrdən birində isə onun topçular tərəfindən nişan alındığı və top atəşi nəticəsində dünyasını dəyişdiyi bildirilir. Yari bəy qala divarları boyu gəzərkən gözü torpaq bürclərdən birinə sataşır və belə güman edir ki, torpaq bürcdən şəhərə daxil olmaq daha asan ola bilər. Bu niyyətini həyata keçirmək istəyərkən isə topçunun gülləsinin qurbanına çevrilir. Həmin topçu dərhal da bürcdən yerə atlanaraq həm onun başını kəsir, həm də onun yaraq və təchizatını götürüb Hüseyn xana hədiyyə aparır. Yari bəyin ölümü Übeyd xanın nəinki kədərinə səbəb olur, həm də onda Heratın əl keçirilməsinin qeyri-mümkünlüyünə bir əminlik yaradır (21).

"Rövzətüs səfəviyye" əsərində Yari bəyin öldürülməsi ilə bağlı bəzi başqa detallar da öz əksini tapmışdır. Bu əsərdə onun adı Bari bəy kimi təqdim olunmuşdur. Bildirilir ki, Mavərənnəhrdə əmirül-üməralıq ənənəvi olaraq Yari bəyin nəslinə mənsub idi və o da əcdadlarından ona çatmış əmirül-üməralığın təcrübəli daşıyıcılarından biri kimi kömək üçün Herat ətrafına gəlmişdi. Yari bəydə belə bir əminlik var idi ki, malik olduğu döyüş təcrübəsinə istinad etməklə Heratın qısa zaman ərzində ələ keçirilməsinə nail ola biləcəkdir. Herat ətrafına yetişdikdən sonra Yari bəy özünü Übeyd xana təqdim edir və Heratın ələ keçirilməsi üçün ona səmərəli kömək göstərəcəyini vəd edir. Sonra da Heratı mühasirəyə almış özbək qoşunlarının əmirlərini toplayaraq onlarla müşavirə keçirir və onlara belə müraciət edir: "Oturmaqla və şəhər müharibəsi ilə Herat şəhərinin qapıları açılmayacaqdır. İlk növbədə şəhərin ətrafını və kənarlarını daha da daraltmaqla hər gün səhərdən axşama qədər döyüşmək lazımdır. Yəni döyüş apararaq şəhəri güclə və məcburi şəkildə qızılbaşların əlindən çıxarmaq lazımdır". Hmin əsərdə daha sonra bildirilir ki, səhəri gün Yari bəy bir neçə atlı ilə Herat qalasının divarlarına,

giriş-çıxış yerlərinə baxış keçirdi və şəhərin müdafiə şəraiti ilə, yaradılmış maneələrlə, keçidlərlə tanış oldu. Nəhayət, Yari bəy qala divarlarının torpaq bürcü istiqamətində mövcud olan keçidlə qarşılaşdı. Bu mövqe onun marağına səbəb olduğundan onunla yaxından tanış olmaq qərarına gəldi. Yari bəy onu müşayiət edən atlılara müəyyən məsafədə dayanmağı tapşırdı və özü təkbaşına həmin mövqeyə yollandı. Yari bəy güman edirdi ki, qala müdafiəçiləri təklikdə qalaya yaxınlaşan bir atlını özləri üçün təhlükə saymaz və onu zərbə altına almazlar. Amma torpaq bürcün mühafizəsində dayanmış bir topçu düşmən döyüşçülərindən birinin divara yaxınlaşmasını heç də düzgün saymadı və əlindəki tüfənglə onu nişan aldı. Atdığı güllədən sonra atlının yerə yıxıldığını görən kimi topçu dərhal onun üstünə tullandı, başını kəsməklə onun qiymətli yaraqlarını da götürüb qalaya çəkildi. Sonra da o, Hüseyn xanın yanına yollandı və baş verən hadisəni ona danışdı. Hüseyn xan və onun ətrafındakılar qiymətli yarağa və əşyalara görə belə bir nəticəyə gəldilər ki, ödürülən adam özbəklərin nüfuzlu əmirlərindən biridir. Sonra öldürülənin paltarının cibindən kağız tapıldı ki, həmin kağızda da öldürülənin adı yazılmışdı. Bununla məlum oldu ki, öldürülən Canvəfa Mirzənin oğlu Yari bəydir. Bu isə həm Hüseyn xanın, həm də qala müdafiəçilərinin böyük sevincinə səbəb oldu və hətta Yari bəyin öldürülməsi ilə bağlı şadyanalıq məclisləri də təşkil edildi. Yari bəyi müşayiət edən atlılar isə onun yollandığı istiqamətdən geri qayıtmadığını görüncə ardınca getdilər və onun başsız bədənini tapdılar. Sonra da onun Übeyd xanın yanına apardılar ki, o da bu hadisədən çox kədərləndi (22).

Bundan başqa Übeyd xan eşitdi ki, Şah Təhmasib özbək qoşunlarının hücumunun qarşısını almaq üçün Xorasana doğru istiqamət götürüb. Onda Übeyd xan anladı ki, Şah Təhmasib də Səfəvi qoşunu ilə Herat ətrafına gəlsə onda onun vəziyyəti daha da pisləşə bilər və qaçılmaz məğlubiyyətlə rastlaşmamaq üçün o, Heratın mühasirəsindən əl çəkib Xorasan vilayətini tərk etməli oldu.

Şah Təhmasib də öz təzkirəsində Zeynal xanın Zinəş bahadırla döyüşü, Zeynal xanın və onun ətrafındakı əmirlərin qətlə yetirilməsi, özbək qoşunlarının uğur qazanması barəsində xəbər verir və sonra da özbək qoşunlarının hücumunun qarşısını almaq üçün Xorasana doğru yola düşdüyünü qeyd edirdi. Onun təzkirəsində verilən məlumatından eyni zamanda o da aydın olur ki, özbək qoşunlarının hücumunun qarşısını almaq üçün Şah Təhmasib ciddi hazırlıq görmüş və böyük qoşun dəstəsi ilə hərəkətə başlamışdı (23).

"Əhsənüt-təvarix" əsərində olan məlumatlar da Şah Təhmasibin böyük bir qoşunla Xorasana doğru hərəkətə başlamasından xəbər verir. İstər Şah Təhmasibə, istərsə də həmin zaman səltənət idarəçiliyində xüsusi mövqe tutan Çuxa sultana aydın idi ki, səltənət hüdudlarının təhlükəsizliyi təmin edilməsi üçün özbək qoşunlarına ciddi bir zərbə vurulmalıdır. Bu məqsədlə Şah Təhmasib tərəfindən kifayət qədər güclü bir qoşun dəstəsi formalaşdırıldı. Həmin dəstə elə bir qüdrətə malik idi ki, onun qarşısında Damğan qalasında müdafiə olunmaq istəyən Zinəş bahadır da diz çökməli oldu. Səfəvi qoşunlarının Zinəş bahadırla olan döyüşünün nəticələrindən xəbər tutandan sonra Übeyd xan da hansı təhlükə qarşısında olduğunu anladı və bu təhlükədən qurtulmaq yolunu Xorasanı tərk etməkdə gördü ( 24).

O da bildirilir ki, Damğan şəhəri ətrafında həm hündür divarlar tikilmişdi, həm də divarlar boyu dərin xəndəklər qazılmışdı. Zinəş bahadır tərəfindən qala daxilində ərzaq ehtiyatları yaradılmış, silah və sursat təchizatı gücləndirilmişdi. Qalanın müdafiəsinə vəzifələndirilmiş qüvvələrin sayı artırılmış və qalaya aparan yollar bağlanmışdı. Bunlar Damğanın müdafiəsinin daha da gücləndirmişdi. Amma buna baxmayaraq Səfəvi qoşunları çox sürətli bir hücum həyata keçirdilər və çox qısa bir zamanda Damğanı ələ keçirdilər. Bildirilir ki, Zinəş bahadırın kəsilmiş başı Şah Təhmasibin hüzuruna gətirildi. Döyüş başa çatan kimi isə döyüşgənliyi ilə seçilən Çuxa sultan da Şah Təhmasibin dərgahına gəldi və döyüşün nəticələri barəsində ona məlumat verdi. Şah Təhmasib də bu döyüşdə şücaət göstərənləri səxavətlə

mükafatlandırdı. Məsələn, məlumdur ki, vaxtilə Əxi sultana iqta kimi verilmiş olan Qəzvin bölgəsi və bölgə qoşunları Çuxa sultanın əmirlərindən olan Məhəmməd bəy Şərəfəddinoğluna iqta edildi. Mənbələrdə lazımi məlumat olmasa da, çox güman ki, Məhəmməd bəy Şərəfəddinoğlu Damğan qalasının ələ keçirilməsində xüsusi məharət göstərmişdi. Damğan ələ keçiriləndən sonra Səfəvi qoşunları Xorasana doğru irəliləməyə başladı. Qoşunların avanqard dəstələrinə Çuxa sultan özü rəhbərlik edirdi. Çuxa sultan qoşun dəstəsi ilə Xorasan istiqamətində özbəklərin nəzarəti altında olan məntəqələrə yaxınlaşdıqca özbəklər bu məntəqələri tərk edərək geri çəkilir və Übeyd xanın yanına yollanırdılar. Bu isə öz növbəsində Übeyd xanın təşvişlərinə artmasına rəvac verirdi (25).

Qeyd edildiyi kimi, hərbi şəraitin dəyişməsi, Şah Təhmasibin rəhbərliyi altında Səfəvi qoşunlarının yaxınlaşması Übeyd xanı məcbur etdi ki, Heratın mühasirəsindən əl çəksin və Amu Dərya çayının şimalına çəkilsin. Şah Təhmasib isə bölgəyə gəlməyindən istifadə edərək Məşhədə, 8-ci imam – İmam Rzanın məzarının ziyarətinə yollandı. “Dünyanın şərəfli hökmdarı [Şah Təhmasibin] günəşə bənzər bayraqları dəniz kimi coşan, dərya kimi dalğalanan qoşunla Kalpuş yolundan müqəddəs və ulu Məşhədə çatıb, cinlərin və insanların imamı olan həzrətin məlaikələrin sakin olduqları astanasını ziyarət etmək şərəfinə nail oldular, o rövzənin sultanı olan İmam Rzanın - ona salam və dua olsun – ruhundan imdad istədilər və darüssəltənə Herata getmək əzmi ilə müzəffər bayraqlar  Cam tərəfə qaldırıldı” (26).

Bir sözlə, Übeyd xan bu dəfə də niyyətinə nail ola bilmədi və ciddi bir nəticə əldə etmədən geri qayıtmalı oldu. Baxmayaraq ki, Übeyd xan çox böyük qoşunla Xorasan üzərinə hücum etmişdi, lakin Səfəvi qolunlarına üstün gələ bilmədi. Übeyd xan heç Heratı da işğal edə bilmədi və anladı ki, Səfəvi hüdudlarında möhkəmlənmək üçün daha böyük imkanlara malik olmalıdır. Yəni qızılbaş əmir və əyanları daxilində müəyyən münaqişə və qarşıdurma olsa da, səltənət öz qüdrətini saxlamaqda idi və Übeyd xan da əyani şəkildə bunun şahidi oldu.

"Aləmara-ye Şah Təhmasib" əsərindəki məlumata görə, Herat özbək qoşunları tərəfindən mühasirəyə alınanda Sam Mirzə kömək göndərilməsi üçün Şah Təhmasibə məktub yazdı (27). Bu məlumat da digər mənbələrdə təsdiq olunmur. Sam Mirzənin kömək üçün Şah Təhmasibə müraciət etməsi mümkündür. Lakin Şah Təhmasibin Səfəvi qoşunları ilə Xorasana doğru hərəkətə başlaması yalnız Herata kömək çatdırılması ilə bağlı deyildi. Ümumən, hələ Herat mühasirəyə alınmazdan əvvəl Xorasan vilayətində yaranmış hərbi-siyasi vəziyyət qətiyyətli tədbirlərin həyata keçirilməsini tələb edirdi.

Hüseyn xan Şamlı Herat şəhərinin mühasirəsinin dayandırılmasından və özbək qoşunlarının geri çəkilməsindən sonra Şah Təhmasiblə görüşə hazırlaşdı, şaha layiq olan hədiyyə və töhfələr topladı və Şah Təhmasibin dərgahına yollandı (28).

Bəzi tədqiqatçılar Məşhəd ziyarətindən sonra Şah Təhmasibin Herata yollanması haqqında məlumat verirlər (29). Lakin mənbə məlumatları bunu təsdiqləmir. Məsələn, yuxarıdakı məlumatda bildirilir ki, Şah Təhmasib Herata getmək əzmi ilə müzəffər bayraqları Cam tərəfə qaldırdı. Burada Şah Təhmasibin Herata yetişməsi barədə bir söz deyilmir. "Əhsənüt-təvarix" əsərində də Şah Təhmasibin Cama yollandığı bildirilmişdir. "[Şah ordusu] müqəddəs Məşhəddə dayandı. Səkkizinci imam və yeddinci qiblə olan İmam Rzanın – ona salavat və salam olsun – ziyarətindən sonra Cama yollandılar. Günəş şəfəqli bayraqlar səadət kölgəsini Xərgərdə saldılar" (30). Ola bilsin ki, Şah Təhmasib Herata da yollanmaq fikrində olmuşdu. Lakin tezliklə özbək qoşunlarının yeni hücum xəbəri onun da bütün diqqətinin məhz bu məsələyə yönəlməsinə səbəb olmuşdu.

## 3. Özbək qoşunlarının üçüncü hücumu

Übeyd xan Xorasan vilayəti üzərinə növbəti yürüşünün uğursuzluğundan sonra yenə də öz niyyətlərini həyata keçirməkdən çəkinmədi. O nəyin bahasına olursa-olsun Xorasan vilayətini ələ keçirmək, Səfəvi dövlətinə ağır zərbə vurmaq və bölgədən bu

dövləti sıxışdırıb çıxarmaq istəyirdi. Übeyd xan eyni zamanda şiə məzhəbinin bölgəyə yayılmasının qarşısını almağa çalışırdı və şübhə etmirdi ki, bunun üçün də Səfəvi dövlətinə ağır zərbə vurmaq lazımdır. Xorasan vilayəti üzərinə ikinci yürüşündən sonra Übeyd xan əmin oldu ki, Səfəvi dövləti öz qüdrətini saxlamaqdadır. Lakin onun nəzərində çox böyük qoşunlar toplamaqla bu qüdrətin qarşısına çıxmaq olardı. Belə bir qoşunu toplamaq üçün Übeyd xan geri qayıdan kimi dərhal özbək xanları ilə danışıqlara başladı və çox qısa zamandan sonra onların böyük bir hissəsini qoşunları ilə birlikdə Səfəvi dövlətinə qarşı müharibədə iştirak etməyə razı sala bildi. "Amma Übeyd xan [yuxarıda] qeyd olunan tərzdə Heratdan köç edib Buxaraya çatdıqda Kuçum xandan və Çingiziyyə nəslindən olan sultanlardan kömək aldı, Mavəraünnəhrin, Türküstanın, Əxsinin, Əndicanın, Otrarın, Qəlmaqın, Kaşğarın, Qırğızın və Qazax[ıstan]ın bütün vilayətlərindən, ta Dəşti-Qıpçağa kimi ərazilərdən çoxsaylı bir qoşun və dağ kimi əzəmətli bir ordu topladı və Kuçum xanla, Yaraq xanla, Fulad sultanla, Əbdüləziz sultanla, Əbdüllətif sultanla, Canibəy sultanla, Gəldi Məhəmməd sultanla, Əbu-Səid sultanla, Sevincək Məhəmməd sultanla, Gəskən Qara sultanla və s. özbək sərdarları və hər qəbilənin mötəbər əmirləri ilə birlikdə dəmir və polad kimi ürəklərə malik döyüşçülərdən ibarət olan, coşğun bir dənizə bənzəyən qoşunlarla Xorasana doğru üz tutdu. ... Xülasə, Çingiz xanın meydana çıxmasının əvvəlindən ta o vaxtadək bu qədər çoxsaylı və izdihamlı bir qoşun Amudərya çayını keçməmişdi." (31).

Übeyd xan o sayda qoşun toplaya bilmişdi ki, həmin qoşunla Səfəvi qoşunlarına üstün gələcəyinə şübhə etmirdi. Həmin qoşunlara ən təcrübəli və tanınmış özbək sultanlarının və xanlarının rəhbərlik etməsi isə Übeyd xanın arxayınçılığına bir əminlik verirdi. Qoşunların sayı o dərəcədə çox idi ki, müxtəlif mənbə müəlliflərinin də diqqətini cəlb etmişdi. Məsələn, yuxarıdakı məlumatda deyilir ki, Çingiz xandan sonra bu qədər sayda qoşun toplanıb Amudəryanın cənubuna göndərilməmişdi. Konkret rəqəmə gəldikdə isə Xorasan vilayəti üzərinə hücum edən özbək qoşunlarının sayı 80 minlə 300 min arasında göstərilmişdir. O cüm-

lədən, 80 min, 105 min, 120 min, 150 min, 250 min rəqəmləri mənbələrdə öz əksini tapmışdır (32).

Bu sayda özbək qoşunlarının qarşısına çıxmış Səfəvi qoşunlarının sayına gəlincə isə "Tarix-i aləmara-yi Abbasi" əsərində onların sayı 24 min nəfər göstərilmişdir (33). Başqa bir mənbədə isə onların sayı 30 min nəfərə qədər göstərilmişdir (34). İstənilən halda mənbələrdəki məlumatlar özbək qoşunları ilə Şah Təhmasibin ətrafında olan qoşunlar arasında özbək qoşunları xeyrinə çox böyük fərqin olmasından məlumat verirlər.

Özbək qoşunlarının Xorasan ərazisinə daxil olması haqqında məlumat Şah Təhmasibin qızılbaş qoşunları ilə Cam adlanan məntəqədə olduğu vaxt yetişdi. Düşərgənin mühafizəsi üçün ətrafa təyin edilmiş qarovullar ilkin olaraq özbək qoşunlarının yaxınlaşmaqda olması xəbərini gətirdilər. Görünür, Şah Təhmasib özbək qoşunlarının tezliklə geri qayıtmasını ehtimal etmirdi. Ona görə Şah Təhmasib 14 nəfər qorçunu özbək döyüşçülərindən kimləri isə tutub gətirməyə vəzifələndirdi ki, onların vasitəsi ilə məlumatları dəqiqləşdirmək mümkün olsun. Qorçular da tapşırıq alandan sonra onun icrasına yollandılar. Özbək qoşunlarının rəhbərliyi də eyni məqsədlə 400 nəfər atlını şah qoşunlarına tərəf göndərmişdi. Təfərrüatı açıqlanmasa da mənbədə bildirilir ki, qızılbaş döyüşçüləri özbək atlılarından bir neçə nəfəri tutub özləri ilə gətirə bildilər. Amma görünür həmin atlılardan lazım olan məlumatı almaq mümkün olmamışdı. Ona görə də səhəri gün Şah Təhmasibin tapşırğı ilə Ülamə sultanla Zülqədəroğlu Məhəmməd xan özbək qoşunları istiqamətinə kəşfiyyata göndərildilər. Özbək qoşunları bu vaxt daha da irəli gələrək Zirabad keçidi adlanan yerdə əlverişli hündür mövqelərdə mövqe tutmuşdular (35). Ona görə də qızılbaş kəşfiyyatçıları geri qayıtmalı oldular. Yəni aydın oldu ki, özbək qoşunları artıq döyüşə hazır bir vəziyyətdədir və tərəflər arasında döyüş qaçılmazdır. Elə həmin gün tərəflər tonqallar yandırdılar, gözətçilər və mühafizəçilər təyin etdilər və döyüşə hazır vəziyyət aldılar.

"Rövzətüs səfəviyye" əsərində olan məlumatdan belə bir qənaətə gəlmək olar ki, Übeyd xan bu dəfəki hücumunda çox ümidli

idi və güman edirdi ki, Səfəvi şahının növcavan olmasından istifadə etməklə qarşıdakı döyüşdə uğura çata biləcəkdir. Bu əsərdəki məlumata görə, özbək qoşunlarının Amudərya çayını aşması xəbərini Şah Təhmasib Məşhəddə olarkən eşitdi və müqəddəslərdən kömək diləməklə çox böyük sürətlə özbək qoşunlarına tərəf yola düşdü (36).

Qoşunların say tərkibinə görə tərəflər arasında çox ciddi bir döyüş gözlənilirdi. Übeyd xan qarşıya qoyulan məqsədə nail olmaq üçün bölgənin bütün hakimlərini malik olduqları hərbi qüvvələrlə birlikdə Səfəvi dövlətinə qarşı səfərbər edə bilmişdi. Mənbə məlumatında bildirildiyi kimi "Übeyd xan tamam Məvəraünnəhr, Kaşğar, Türküstan, Əndican, Otrar, Seyran, Qamil, Turfan, Qəlmaq və Qazax məmləkətlərindən, Dəşti-Qıpçaqdan və Qırğızdan saysız qoşun toplamışdı" (37). Amma Şah Təhmasib səltənətin hüdudlarını qorumaqda, Şah İsmayıldan ona miras qalmış dövləti parçalanmaqdan xilas etməkdə qərarlı idi. Ona görə də, Şah Təhmasib çox böyük sayda qoşun dəstəsinin səltənət hüdudlarına hücum etməsindən çəkinmədi və yuxarıdakı mənbə məlumatlarında deyildiyi kimi, böyük sürətlə onların qarşısını almağa tələsdi. Yaşının azlığı, döyüş təcrübəsizliyi onu qarşıda dayanan ciddi təhlükədən heç də çəkindirmədi və böyük əzmkarlıqla Səfəvi qoşunlarını bu döyüşə hazırlaşdırmağa çalışdı. Mənbələrdə də bu döyüşün təsvirinə xüsusi yer ayrılmışdır. Çünki bu döyüş Şah Təhmasibin həyatında həlledici əhəmiyyət kəsb edirdi. Bu döyüşün nəticəsi Səfəvi dövlətinin dayanıqlığının göstəricisi ola bilərdi. Ona görə hər iki tərəfdən qoşunların qruplaşdırılmasına, döyüş mövqelərinin kimlərə həvalə olunmasına da mənbələrdə konkret yer ayrılmışdır. Başlıcasi isə Şah Təhmasib özü bu döyüşə qatılmışdı və döyüşün aparılmasına rəhbərlik edirdi. "Dinin pənahı və Allahın kölgəsi olan şah zəfər dəbilqəsini başına qoyub müsəlləh və mükəmməl oldu. ...[Şah Təhmasib] gecə xəyal dəstəsindən qurtulmuş və gündüz şimal yelini ötmüş tünd xasiyyətli gözəl atına mindi" (38).

"Tarix-i aləmara-yi Abbasi" əsərinə görə, Şah Təhmasibin döyüşqabağı hazırlığı belə aparılmışdı: "Sözün qısası, məhər-

rəmül-həram ayının 9-cu günü olan tasua günündə, 935-ci ildə (23 sentyabr 1528) özbək sultanları Camın Sarıqamış [adlı yerində] şahın asiman ehtişamlı ordusunun yaxınlığına gəldilər. Gecə vaxtı tərəflər bir-birinə qarşı gözətçilik etdilər. Aşura gününün (24 sentyabr) sübhündə hər iki tərəf səflərin tərtib edilməsinə məşğul oldu. Qızılbaş əmirlərinin böyüyü olan vəkil Çuxa sultan Təkəlü, Ülamə sultan Təkəlü, Hüseyn xan Şamlu, Şiraz hakimi Həmzə sultan Xamuslu Zülqədər, Məhəmməd xan Zülqədəroğlu, Əhməd sultan Ustaclu, Yaqub sultan Qacar, o vaxt hələ «sultan» [rütbəsinə malik] olan Məhəmməd xan Şərəfəddinoğlu Təkəlü, Həsən sultan Rumlu, Əhməd sultan Əfşar və s. əmirlər və böyük qorçular bu döyüşdə iştirak edirdilər. Cənnətməkan şah həzrətləri zəfər dəbilqəsi başında, fəth zirehi və xəftanı əynində, mükəmməl və müsəlləh vəziyyətdə, qalibiyyətli qorçularla birlikdə mərkəzdə qərar və aram tutmuşdu. Qoşunun sağ və sol cinahlarına («meymənə» və «meysərə») adlı-sanlı əmirlər və bacarıqlı şəxslər təyin olunmuşdu. Ustad Şeyxi bəy Topçubaşının məsləhəti ilə Firəng zərbzənlərinin yükləndiyi arabalar səfin qarşısında yerləşdirilmişdi. Beləliklə, [Şah Təhmasib] dünya qədər təvəkkül və qeybdən gələn imdad qoşunu ilə döyüş meydanına üz tutub, o qaniçən [özbək] ordusunun bərabərində qərar tutdu" (39).

Qoşunların qruplaşmasına gəlincə isə Şah Təhmasib sağ cinahı Çuxa sultan Təkəliyə və Hüseyn xan Şamlıya həvalə etdi. Sol cinaha isə Fars hakimi Sultan Camışlı Zülqədər təyin edildi. Məhəmməd sultan Şərəfəddinoğlunun rəhbərliyi altında isə ehtiyat qüvvə yaradıldı. Bu qüvvənin rəhbəri sağ və sol cinahlarda baş verənləri izləməli və ehtiyac yarandığı halda bu cinahlara kömək göstərməli idi. Qoşunların mərkəzindəki qüvvələrə rəhbərliyi isə Şah Təhmasib öz üzərinə götürdü (40).

Übeyd xan və onun ətrafında olan qoşunlar isə belə qruplaşdırıldı: "Übeyd xanla Kuçum xan mərkəzdə qərar tutdular. Sol cinaha Büraq xanı, Fulad sultanı, Əbdüləziz sultanı və Əbdüllətif sultanı yerləşdirdilər. Sağ cinaha isə Canibəy sultanı, Gildi Məhəmməd sultanı və Əbu-Səid sultanı təyin etdilər. Sevincək Mə-

həmməd sultanı Qənbər Əli bəy, Şeyx Dərviş bəy və Rüstəmqulu bəy ilə ittifaqda ehtiyatda qoydular. Təbil Xoca ilə Qaraca Bahadırı qaravul təyin etdilər. Hər biri bir Rüstəm olan Kəskən Qara sultan, Qəməş-oğlan, Təniş bəy, Seydim mirzə, Cağatay Bahadır, Bayaqu Bahadır, Hafiz Qünqürat, Şeyx Əbu-Səid Əfrasiyab kimi digər sultanlar və əmirlər öz yerlərində qərar tutdular" (41).

Döyüş meydanında çox böyük sayda qoşunun bir-birinə qarışması qanlı bir səhnəyə yol açdı. Tərəflərin malik olduğu silahın əsasını soyuq silahlar təşkil etdiyindən əlbəyaxa döyüş bütün meydanı bürüdü. Mənbələrdəki məlumata görə, döyüşdən əvvəl hər iki tərəfdən şeypur və gərənay sədaları yüksəldi, zurnalar çalındı, bayraqlar yüksəklərə qaldırılaraq dalğalandırıldı. Bildirilir ki, tərəflərin qoşunları okean kimi dalğalanmağa başladı, aslan ürəkli kişilərlə səf yaran pəhləvanlar bir-birinin üzərinə cumdular, atların tapdağının şiddətindən torpaq havaya qalxdı, cahanı işıqlandıran günəş bu tozanaq niqabı içində örtülü qalıb çöhrəsini açmadı. Başqa bir təsvirdə isə bildirilirdi ki, döyüş meydanının tozanağı arasında cövlan edən qılınclar qara buludlar arasındakı ildırım parıltısını xatırladırdı, oxlar çəyirtkə ordusu kimi səhranın asimanını qaraltmış, döyüşçülərin əllərindəki nizələr şımşək kimi uzanırdı, iti peykanların yeri isə döyüşçülərin ürəyi idi (42).

Yuxarıdakı məlumatlardan belə bir qənaətə gəlmək olar ki, özbək qoşunları say çoxluğuna arxayınlaşaraq elə döyüşün əvvəlindən təşəbbüsü ələ almağa çalışdılar. Belə ki, Canibəy sultan özbək qoşunlarının böyük bir dəstəsi ilə Səfəvi qoşunlarının sağ cinahına hücum etdi. Bu cinahda təkəli əmirləri və onların rəhbərliyi altında olan qoşun dəstələri yerləşirdi. Təkəli əmirləri əzmkarlıqla bu cinahda döyüşə qoşuldular və qanlı döyüşün rəvac tapmasına yol açdılar. Lakin onların əzmkar mübarizəsi, fədakarlığı çoxsaylı özbək qoşunlarına üstün gəlməyə imkan vermədi. Mənbə məlumatında bildirilir ki, döyüşlərin qızğın zamanında Məhəmməd sultan Şərəfəddinoğlu atdan yıxıldı. Döyüşçülərdən biri tez köməyə yetişib onu ata mindirdi. Məhəmməd sultan Şərəfəddinoğlunun sağ cinahda görünməsindən belə bir qənaətə gəlmək olar ki, o, ixtiyarında olan ehtiyat qüvvə

ilə bu cinaha kömək etməyə gəlibmiş. Bununla belə çoxsaylı özbək qoşunlarının hücumlarının qarşısını saxlamaq mümkün olmadı. Səfəvi qoşunlarının sağ cinahı uğursuzluğa düçar oldu, təkəli əmirləri özbək qoşunlarının hücumunun qarşısını saxlaya bilməyərək qaçmağa üz qoydular. Nəticədə, Səfəvi qoşunlarının sağ cinahı süquta uğramaqla bərabər özbək qoşunlarının Səfəvi düşərgəsinin arxasına keçmək yolu açıldı. Canibəy sultan da bu fürsətdən dərhal yararlanmağa çalışdı və Səfəvi qoşunlarının arxasına çıxdı (43).

"Rövzətüs səfəviyye" və "Xülasüt-təvarix" əsərlərində olan məlumata görə, döyüşü Səfəvi qoşunlarının sağ cinahında mövqe tutmuş Çuxa sultanla Hüseyn xan Şamlı başladılar və onların rəhbərliyi altında olan qoşun dəstəsi ilkin olaraq özbək qoşunlarının sol cinahı üzərinə hücuma keçdilər. Həmin cinahda özbək qoşunları Canibəy sultanın rəhbərliyi altında qərar tutmuşdular. Qeyd edilir ki, bu tərəflər arasında kifayət qədər gərgin və qanlı bir döyüş baş verdi və hər iki tərəf əzmkarlıqla bir-birinin üstünə atıldılar. Sözsüz ki, özbək qoşunlarının say üstünlüyü döyüşün gedişində öz təsirini göstərməyə başladı və bu da Səfəvi qoşunlarının sağ cinahının mövqelərinin zəifləməsinə yol açdı. Mənbələrdə bildirilir ki, bu vaxt Şah Təhmasibin razılığı ilə Məhəmməd sultan Şərəfəddinoğlu zəifləməkdə olan sağ cinahın köməyinə yollandı. Mövcud məlumatlara görə, adı çəkilən əmir rəhbərliyi altında olan qoşun dəstəsi ilə fəal şəkildə döyüşə qoşuldu və nəticədə özbək qoşunlarına böyük itkilər yetirildi. İstinad olunan bu mənbədə də bildirilir ki, döyüşün çox gərgin vaxtında özbək döyüşçülərinin atdığı ox Məhəmməd sultan Şərəfəddinoğlunun atına dəydi və at hərəkətdən qaldı. Buna görə Məhəmməd sultanın həyatı üçün də təhlükə yarandı. Belə bir anda Səfəvi əmirlərindən olan Həsən sultan Durğuzoğlu onun köməyinə yetişdi və ona yeni bir at verdi. Bundan sonra döyüş yenidən qızışdı və adları çəkilən Səfəvi sultanlarının və onların rəhbərliyi altında olan qoşun dəstələrinin fədakarlığı nəticəsində hətta təşəbbüsü ələ almaq da mümkün oldu. Nəticədə bu dəfə Canibəy sultanın vəziyyəti mürəkkəbləşdi. Belə bir anda özbək qoşun-

larının rəhbərliyi Canibəy sultana əlavə kömək göndərdi və bu kömək özbək qoşunlarının vəziyyətini yaxşılaşdırmaqla Səfəvi qoşunlarının sağ cinahının vəziyyətini pisləşdirdi. Çuxa sultan döyüşün gərginliyi qarşısında geri çəkilməli oldu. Mənbələrdə qeyd olunub ki, Çuxa sultan döyüş meydanını tərk etməli olsa da Hüseyn xan Şamlı və Məhəmməd sultan Şərəfəddinoğlu döyüşdən çıxmağı özlərinə ar bildilər və döyüşü davam etdirdilər. Canibəy sultan isə onlara qarşı döyüşü davam etdirməklə Səfəvi qoşunlarının arxasına yol tapa bildi. Canibəy sultanın döyüşün gedişində Səfəvi qoşunlarının arxasına və ordubazar üzərinə yol tapa bilməsi onun mövqeyini daha da möhkəmləndirdi və özbək qoşunları bu fürsətdən istifadə etməklə Səfəvi qoşunlarının sağ cinahına ciddi itki yetirə bildilər (44).

Ordubazar qoşunların xidmət dəstəsi idi və məlumdur ki, bu dəstənin vəzifəsi qoşunların təminat və təchizatı ilə məşğul olmaq idi. Ona görə aydın idi ki, bu dəstə özbək qoşunlarına ciddi müqavimət göstərə bilməzdi. Amma mənbələrdə olan məlumatlara görə, Səfəvi qoşunlarının ordubazarı da özbək qoşunlarına qarşı mümkün müqaviməti göstərməyə çalışmışdı. Lakin bu dəstə böyük sayda özbək qoşununun hücumunun qarşısını almaq imkanına malik deyildi. Buna görə idi ki, Səfəvi qoşunlarının ordubazarı da ciddi itkilərlə üzləşməli oldu. "Canibəy sultan onları qarşısından kənarlaşdırıb qələbə şüarlı ordunun arxasına həmlə etdi. [Özbəklər] ordubazarın qatırlarını oxa tutaraq onları yaraladılar və öldürdülər. İgid ordubazarçılar özbəkləri ox zərbəsi ilə özlərindən uzaqlaşdırmağa çalışsalar da, özbəklər qələbə qazanıb əksər ordubazarçıları yaraladılar və öldürdülər. ... Özbəklər qarşıdan gəlmədikləri üçün səfin qabağında dayanmış topçular və tüfəngçilər atəş açmaqdan əl çəkib öz yerlərində dayandılar" (45).

Bu məlumatdan göründüyü kimi, Səfəvi qoşunlarının ixtiyarında toplar və tüfənglər də var idi. Onlar müəyyənləşdirilmiş məkanlarda mövqe tutmuşdular. Deyildiyi kimi, onlar qarşıdan yaxınlaşacaq düşmənə zərər yetirmək vəzifəsinə malik idilər. Lakin özbək qoşunlarının Səfəvi qoşunlarının sağ cinahının arxasına keçməsi top və tüfənglərin planlaşdırılan şəkildə fəaliy-

yətinə imkan vermədi. Bu isə sözsüz ki, Səfəvi qoşunlarının zərbə qüdrətini zəiflətdi.

Səfəvi qoşunlarının sol cinahı da özbək qoşunlarının davamlı hücumuna müqavimət göstərə bilmədi və tezliklə bu cinahda da geriyə çəkilmə özünü göstərməyə başladı. Mənbə məlumatlarına görə, Səfəvi qoşunlarının sol cinahında mövqe tutmuş olan Yaqub sultan Qacar və Məlik bəy Xoyi döyüş meydanını tərk edərək Damğana və Semnana qədər qaçdılar. "Sol cinah əmirləri də sarsıntıya məruz qalıb, düşmən qoşununun ardıcıl həmlələri qarşısında dura bilməyərək, qaçmağa başladılar. Özbək ordusu qızılbaş qoşununun qaçanlarını təqib etmək üçün hərəkətə gəlib, həmin çöldə və səhrada ziyanverici qarışqalar və çəyirtkələr kimi, könüllərin tarlasına zərər vurmağa başladılar" (46).

"Rövzətüs səfəviyye" və "Xülasüt-təvarix" müəlliflərinin görə, sağ cinahda döyüşən Hüseyn xan və Məhəmməd sultan Şərəfəddinoğlu geri çəkilmək məcburiyyətində qalanda Şah Təhmasibin düşərgəsinə gəldilər və onun ətrafında olan qüvvələrə qoşuldular. Bu mənbələrdə olan başqa məlumata görə isə, Şah Təhmasibin göstərişi əsasında Səfəvi qoşunlarında olan top və tüfənglərdən döyüş zamanı istifadə olundu. Məhz top və tüfənglərdən geniş şəkildə istifadə olunması döyüş meydanında toz və dumanın baş qaldırmasına səbəb oldu. Hətta döyüş meydanını o dərəcədə qatı toz dumanı bürüdü ki, dost və düşməni bir-birindən fərqləndirmək də çətin oldu. Bu vəziyyət döyüşün gedişinə də təsir göstərdi. Bildirilir ki, belə bir vəziyyətdə ustaclı tayfasının bəzi oymaqlarının qoşun dəstələri uğursuzluğun çıxılmaz olduğunu ehtimal etdilər və ona görə də döyüş meydanını tərk etdilər. Bu oymaqların döyüşçüləri ətrafa səpələnməklə Səfəvi qoşunlarının məğlubiyyətə düçar olması haqqında da xəbərlər yaymağa başladılar (47).

Səfəvi qoşunlarının sağ və sol cinahlarının süquta uğradığı, bu cinahlarda döyüşə girən tanınmış əmirlərin döyüş meydanını tərk edərək qaçdıqları bir vaxtda da Şah Təhmasib öz mövqeyində dayanmaqda idi. Cəmi 14 yaşında olan Şah Təhmasib nəinki real təhlükədən qorxub geri çəkilmədi. Əksinə, onun bir çox

əmirləri üçün uduzulmuş görünən bu döyüşdə vəziyyətin dəyişdirilməsi, hərbi təşəbbüsün Səfəvi qoşunlarının əlinə keçirilməsi üçün qətiyyətli addımlar atmağa başladı. Şah Təhmasib özü də Cam ətrafındakı döyüşün ağır keçməsini təzkirəsində qeyd etmişdi: "Başqa işlərə baş qoşmayıb özbəkləri dəf etmək üçün yola düşdüm. Camın kənarında vuruşma oldu. Əvvəlcə özbəklər həmlə etdi. Yəqub sultan Qacar, Ülamə sultan və sağ cinahda olan başqa əmirlər məğlubiyyətə uğrayıb geri çəkildilər. Özbəklər qarətə başladılar. Allaha təvəkkül deyib, günahsız imamlara-onların hamısına salam olsun – yalvardım" (48).

Şah Təhmasibin çox təhlükəli vəziyyətdə olanda da öz mövqeyini tərk etməməsi müqəddəs imamların ona qələbə müjdəsi verməsi və Şah Təhmasibin də uğur əldə edəcəyinə əmin olması ilə bağlanılır. Bildirilir ki, yuxuda ikən müqəddəs imamlar Şah Təhmasibə qalib gələcəyi barəsində xəbər vermişdilər və Şah Təhmasib də müqəddəslərin yardımı ilə uğur əldə edəcəyinə şübhə etmirdi. "Cəmşid məqamlı cənnətməkan şah həzrətləri röya aləmində müşahidə etmişdi ki, əlahəzrət məsum imamlar - onlara salam olsun - o həzrətə bu döyüşdə qalib gələcəyinə dair müjdə vermişlər. O həzrət qətiyyətinin kamilliyi, etiqadının gözəlliyi, rəşadət, şücaət və cəsarətinin çoxluğu üzündən öz dayandığı yerdən tərpənmədi və onun mübarək simasında əsla sarsıntı əlamətləri görünmədi. Onun yanında üç min nəfər döyüşkən mübariz var idi " (49).

Mənbələrin birində isə bildirilirdi ki, həmin günlərdə Məşhəddə yaşayan möminlərdən biri də yuxusunda Şah Təhmasibin Übeyd xana qarşı döyüşdə uğur qazanacağı barəsində müjdə almışdı. Bu mömin yuxusunda möminlər əmirini görür və ondan hara getməsini soruşur. Həmin müqəddəs də bildirir ki, Şah Təhmasibin köməyinə yollanır (50).

Şah Təhmasibin göstərişi əsasında topçular və tüfəngçilər atəşlərini dayandırırlar. O bunu o məqsədlə etdi ki, döyüş meydanında bir sakitlik yaransın, toz-duman aradan qalxsın və özbək qoşunlarının mövqelərini görmək mümkün olsun. Yuxarıda qeyd edildiyi kimi, bu zaman Şah Təhmasibin yanında cəmi 3 min

nəfərlik qoşun dəstəsi var idi. Döyüş meydanını bürümüş olan toz-duman aradan qalxdıqdan sonra qarşıda mövqe tutmuş özbək qoşunlarını yenidən müşahidə etmək mümkün oldu. Özbək qoşunlarının böyük sayı qarşıda hələ də böyük bir təhlükə dayandığını nümayiş etdirdi. Eyni zamanda Şah Təhmasib özbək qoşunları mövqeyində bir ağ bayrağın dalğalandığını gördü. O şübhə etmədi ki, həmin ağ bayraq Übeyd xana məxsusdur və Übeyd xan özü də həmin bayrağın yanındadır. Şah Təhmasib bu böyük sayda qoşun üzərinə hücum etməkdən çəkinməyərək yanındakı qoşun dəstəsini döyüş üçün qruplaşdırdı, bu dəstənin sağ və sol cinahlarını qardaşları Sam Mirzə ilə Əlqas Mirzəyə tapşırdı, qorçulara müvafiq döyüş tapşırığı və ağ bayraq istiqamətində hücuma başlamaq əmri verdi. Mənbə məlumatlarına görə, Şah Təhmasibin hücuma başlaması ərəfəsində Übeyd xan qalib gəldiyini güman edərək ətrafdakı xanların və əmirlərin təbrikini qəbul edirdi. O da bildirilir ki, özbək əmirlərinin bəzilərinin başları tabeliklərində olan qoşun dəstələri ilə geri çəkilməkdə olan Səfəvi qoşun dəstələrinin təqib edilməsinə qarışmışdı. Bu isə Şah Təhmasibin uğurlu hücumuna müəyyən əlverişli zəmin yaratdı (51).

Şah Təhmasibin rəhbərliyi altında qoşun dəstəsinin hücum edə biləcəyi Übeyd xana inandırıcı görünmürdü. Çünki Səfəvi qoşunlarına çox ciddi zərbə vurulmuşdu və ona görə də güman edilmirdi ki, bu qoşunlar yenidən özbək qoşunlarına qarşı hər hansı bir ciddi təhlükə yarada bilsin. Çox güman ki, bu məqam Übeyd xanı arxayınlaşdırmış və ehtiyatlılığını əldən çıxarmışdı.

Şah Təhmasibin rəhbərliyi altında olan qoşun dəstəsinin özbək qoşunları üzərinə hücumu "Tarix-i aləmara-yi Abbasi" əsərində geniş təsvir olunmuşdur. Həmin təsvir belədir: " O, həmin üç min nəfərlə birlikdə mərdlik fəzasının qütbü kimi mətinlik və vüqar ayağını möhkəm saxlayıb, öz məkanında aramla dayanmışdı və izzətli Allah öz əzəli inayəti sayəsində sanki o azsaylı dəstəni düşmənin nəzərindən gizlədib qoruyurdu. Bir qədər keçdikdən sonra tozanaq bir az yatdı və cənnətməkan şahın nəzərinə döyüş meydanında çoxsaylı bir dəstənin arasında ucalan ağ bayraq sataşdı. O həzrətə məlum oldu ki, o bayrağın yanında duranlar

Übeyd xanla Kuçum xandır və onlar öz şəxsi («xassə») qoşunları ilə mərkəzdə mövqe tutublar. Qızılbaşları təqib etməkdən qayıdan dəstə-dəstə özbək bahadırları sözü gedən xanlara qələbə təbrikini verirdilər. Übeyd xan onlardan soruşdu:

- Uzaqdan bir dəstə qoşun görünür və bir müddətdir ki, yerində qalıb. Deyəsən, qızılbaş ordusunun qalıqlarıdır.

O, bir neçə nəfərə əmr etdi ki, gedib oradan bir xəbər gətirsinlər. Lakin özbək camaatı ona dedi:

- Qızılbaş qoşununun halına elə bir məğlubiyyət və pərişanlıq üz verib ki, bu səhrada onlardan bir nişan qalmayıbdır. O gördüyünüz isə qızılbaş ordusunun dördayaqlılarının (heyvanlarının) qaraltısıdır.

Beləliklə, onların bəsirət gözü o qaraltını müşahidə etməyə bağlı qaldı. Bu halda cənnətməkan şah özü ilə birlikdə o məkanda dayanmış olan səadət ölkəsinin döyüşçülərinə əmr etdi ki, mərdanəliklə [özbək] qoşununun üzərinə həmlə edib, ta ağ bayrağın yanına çatıncayadək sürətlə gedən atlarının yüyənlərini geri dartmasınlar, iti qılıncdan və qan tökən şəmşirdən savayı, heç bir silaha əl atmasınlar və hər kimə bir yara vurdularsa, onun işini bitirmədən digər birisinin üzərinə həmlə etsinlər ki, məğlub olub qaçmaq - ar və utancdır, mərdliklə ölmək isə - dövranda yaxşı ad-san qazanmaq deməkdir.

... Canlarını qurban edən o əqidəli dəstənin sırasından əvvəlcə şamlu və zülqədər qorçuları mürşidi-kamilin əmrini canü-dildən qəbul edib, misri qılıncları sıyırdılar, geniş ətəkli qalxanları başlarına qaldırdılar və bu dürüst əzmlə və doğru düşüncə ilə Allaha təvəkkül edərək, sağ cinahdan hücuma keçdilər. Bunun ardınca sol cinah da tez hərəkətə başlayıb, qeyb aləmi qoşununun yardımı ilə hamısı fədaicəsinə o qəddar qoşunun və qaniçən özbəklərin üzərinə cumdular. Üç min ədəd ildırım qüvvətli qılınc birdən sıyrıldı. Hər kimə bir yara vurdularsa, mürşidi-kamilin göstərişinə əməl edərək, ondan əl çəkib, bir başqasının işini həll etməyə məşğul oldular. Sayı xeyli çox olan özbək qoşununun əksəri qazilərin almaz kimi [iti və parlaq] qılınclarının dalbadal zərbələrindən yaralı və iqtidarsız hala salınaraq, müdafiə olunmaq fürsəti tap-

madılar. [Özbəklərin] mərkəzi alt-üst oldu. Onlar bir-birlərindən ayrı düşdülər. Kuçum xanla Übeyd xan elə bir qorxuya qapıldılar ki, fərar etməkdən savayı çarə görmədilər. Beləliklə, bir igidcəsinə həmlə nəticəsində, canını qurban edən fədailər o saysız-hesabsız qoşunu məğlubiyyətə uğratdılar Binatün-nəş kimi təfriqə düşmüş pərakəndə qızılbaş qoşunları məyusluq və ümidsizlikdən sonar fəthə və zəfərə ümidvar olub, Yeddiqardaş («Sürəyya») ulduzları kimi bir yerə cəmləşdilər. Özbək sultanları elə bir qələbədən sonra belə bir məğlubiyyətlə üzləşib, istər-istəməz, səy və çalışqanlıq qədəmi ilə qaçış yolunu tutdular. Deyirlər ki, böyük qorçulardan biri Übeyd xana çatıb, onun belinə bir zərbə vurdu. Lakin [Übeyd xan] həmin zərbədən özünü itirdiyi və həqir cüssəyə malik olduğu üçün [qorçu] onu tutmağa rəğbət göstərməyib ondan əl çəkdi ki, ondan daha yaxşısını ələ keçirsin. Bəziləri isə deyirlər ki, [həmin qorçu] onun dəbilqəsinə toppuz vurmuş, həmin zərbədən onun qulaqlarında qüsur yaranmış və həmin hadisədən sonra camaat arasında «Kar Übeyd» [adı] ilə məşhurlaşmışdı" (52).

Übeyd xan Səfəvi hüdudlarına hücuma hazırlaşanda Mavəraünnəhrdən və Daşkənddən qırx nəfər tanınmış üləmanı özü ilə döyüş meydanına gətirmişdi. Bu üləmalar qoşunlara qatılaraq Übeyd xanın qələbə əldə etməsi üçün dua etməli idilər. Lakin bu üləmaların duaları Übeyd xanın imdadına çatmadı. İlkin uğurdan sonra Übeyd xanın arxayınlaşması onun üçün çox ağır nəticələrə yol açdı. Daha doğrusu, onun öz döyüş taktikasını düzgün qura bilməməsi, bu taktikanın bütöv olmaması, qarşı tərəfin təşəbbüskarlığının nəzərə alınmaması Übeyd xanın artıq sevincini yaşamağa başladığı ilkin uğuru ağır məğlubiyyətə caladı. Özbək qoşunlarının uğuruna dua etmək üçün özbək qoşunlarının düşərgəsinə gətirilmiş üləmalar isə Səfəvi döyüşçülərinin sürətli hücumunun qurbanı oldular. Özbək və Mavəraünnəhr qoşunlarına rəhbərik edən Übeyd xanla Kuçum xan çox böyük çətinliklə onların başı üzərini kəsdirmiş təhlükədən qaçıb canlarını qurtara bildilər. Onların rəhbərliyi altında olan qoşunlar isə çox ciddi itkilərlə qarşılaşdılar. Mənbələrdə Şah Təhmasibə istinadən bildirilirdi ki,

onun rəhbərliyi altındakı üç min nəfərlik Səfəvi qoşun dəstəsinin min yeddi yüz nəfəri qorçu, qalanları isə əmir qoşunları idilər. Bu döyüşçülərin hamısının atlı olması şübhə doğurmur (53).

"Rövzətüs səfəviyye" və "Xülasüt-təvarix" əsərlərindəki məlumatlara görə, Şah Təhmasibin sürətli hücumunun gedişində Übeyd xan da yaralandı. Belə ki, Übeyd xan geri qaçanda qızılbaş qorçularından biri onu haqladı və əlindəki altı pərli əmudu ilə onun arxasından zərbə vurdu. Zərbə vuran qorçu zəif bədənli və cüssəsiz imiş. Ona görə də onun zərbəsi Übeyd xanın həyatına son qoyacaq qədər qüvvətli olmayıbmış. Özbək döyüşçülərindən biri Übeyd xana yaxınlaşıb ona əlavə zərbə vurulmasının qarşısını alır. Bu zaman başqa bir qızılbaş qorçusu yaxınlaşaraq Übeyd xanı nəhayət ki, qətlə yetirmək istəyir. Bunu görən özbək döyüşçüləri həmin qorçunu oxla nişan alır və onu yaralayırlar. Nəticədə Übeyd xanın həyatını xilas etmək mümkün olur. Lakin aldığı zərbədən Übeyd xan artıq huşunu itirmək üzrə imiş. Belə olanda bir özbək döyüşçüsü Übeyd xanın atının yüyənini əlinə alıb onu döyüş meydanından çıxara bilir (54).

Übeyd xanın yaralanmasını Şah Təhmasib də öz təzkirəsində təsdiq etmişdir. O eyni zamanda özünün də birbaşa iştirak etdiyi döyüşün necə başa çatması haqqında müxtəsər məlumat da vermişdir: "Təsadüfən bizim qorçilərdən biri Übeydə çatıb, tanımadığı halda ona bir qılınc vurur və ondan keçib başqası ilə məşğul olur (yəni vuruşur). Qılıc Bahadır və digər özbək candarları (qoruyucu döyüşçülər) Übeydi yaralı halda aradan çıxarırlar. Kuçkümçü xan və Canibəy xan bu hadisədən xəbərdar olub pozğun halda geri çəkilib qaçdılar və Mərvə qədər heç yerdə dayanmadılar. Bizim qoşundan qaçan adamlar yenidən həmin gün bizə qoşuldular. O gecəni həmin səhrada başa vurduq. Bilmədik ki, özbək Übeydin halı necə oldu. Xatirimə gəldi ki, bəlkə bunlar bizə [qarşı] hiylə işlədirlər. O gecə ağam Əmirəlmöminin, əsl dindarların imamı, dinin rəhbəri, Allahın qalib şiri Əli ibn Əbu Talib – ona salam olsun – yuxuda gördüm. [ O ] mənim üzümə gülüməıyib dedi:

-Allaha şükür olsun ki, sənə yaxşı bir qələbə müyəssər oldu.

Sübh olacaq bildim ki, məğlub olmuş özbəklər qaçıblar. Nişapura qədər arxalarınca getdik, qalanları da öldürüldü. Xorasanı alçaq təbiətli özbək qoşunlarının murdar vücudlarından təmizləyib, Nişapura gəldim" (55).

Amma qeyd edilməlidir ki, Übeyd xanın dəstəsi üzərinə hücum başa çatdıqdan sonra Şah Təhmasib həm də Canibəy sultanın dəstəsi ilə də qarşılaşmalı oldu. "Tarix-i aləmara-yi Abbasi"nin verdiyi digər bir məlumata görə, Übeyd xanın dayandığı mövqeyə hücum təşkil edildiyi zaman Canibəy sultan geri qaçmaqda olan Səfəvi qoşun dəstələrindən birini təqib edirmiş. O, axşama yaxın təqibi dayandırır və Übeyd xanın mövqe tutmuş olduğu məkana qayıdır. Bu zaman həmin məkan artıq Şah Təhmasibin qoşun dəstəsinin nəzarəti altında idi. Canibəy sultan bundan xəbərsiz olduğu üçün Şah Təhmasibin qoşun dəstəsini Übeyd xanın qoşun dəstəsi kimi qəbul edir və bu qoşun dəstəsinin arxasında mövqe tutur. Sentyabr ayının 25-i səhəri Şah Təhmasib də yaxınlıqda bir özbək dəstəsinin yerləşməsini müşahidə edir və dərhal da bu dəstənin üzərinə hücum çəkmək göstərişi verir. Şah Təhmasib özü də özbək dəstəsinin üzərinə hücuma qoşulur. Çuxa sultan əvvəlcə çalışır ki, Şah Təhmasibi bu hücumdan çəkindirsin. Onun gümanında bu hücum uğursuzluğa da düçar ola bilərdi. Amma Şah Təhmasib bu məsləhəti nəinki qəbul etmir, əksinə qətiyyəti və mübarizliyi ilə dəstə döyüşçülərini də bu hücuma həvəsləndirir. Canibəy sultan onun dəstəsinə qarşı istiqamətlənmiş hücumun qarşısını almağa çalışsa da, onun cəhdləri bir nəticə vermir. Şah Təhmasibin çevik və təsirli zərbəsi qarşısında Canibəy sultan da duruş gətirə bilməyib geri qaçmağa üz qoyur: "Canibəy sultan bir qədər sabitqədəmlik etdi. Onun adamları mərdliklə döyüşdülər. Lakin axırda fərar yolunu tutdular. Yüksək bəxtin və uca səadətin qüvvəti ilə zavalsız dövlətin başçılarına keçmiş zamanlarda az-az görünmüş bir qələbə nəsib oldu. Xoşbəxt [qızılbaş] qoşununun hər nəfəri bərabərində on nəfərə malik olan saysız-hesabsız zəlalət qoşunu məğlub olaraq, talesizlik diyarına üz qoydu və həqiqətlə dolu olan «sizin səbirli iyirmi adamınız onların iki yüz adamını məğlub edər» *[«Ənfal» surəsi,*

*65-ci ayə*] məzmunu baş verdi. [Şah Təhmasib] Allaha şükür etməyə məşğul olub, məmləkətlərinin müxtəlif tərəflərinə və səmtlərinə fəthnamələr göndərdi və Xorasan məsələlərinə intizam verdi. Bu döyüşdə Hüseyn xan Şamlu mərdanəliklər göstərdiyi üçün Herat əyalətinin hakimliyi əvvəlki qaydada ona tapşırıldı" (56).

"Rövzətüs səfəviyye" əsərində olan məlumata görə isə Şah Təhmasiblə Canibəy sultan arasında döyüş baş vermədi. Bildirilir ki, Übeyd xanın dəstəsi qaçmaq məcburiyyətində qaldıqdan sonra Şah Təhmasib rahatca dincəlmək fürsəti əldə etdi. Ağır döyüşün yorğunluğu ilə qarşılaşmış əmirlər və döyüşçülər də rahat nəfəs almaq üçün fürsət əldə etmişdilər. Elə həmin vaxtlarda Canibəy sultanla Kuçun xanın rəhbərliyi altında seçilmiş döyüşçülərdən ibarət səkkiz min nəfərlik bir qoşun dəstəsi Səfəvi qoşunları yaxınlığında gəlib dayandılar. Canibəy sultan baş verənlərdən xəbəri yox idi və ona görə də Şah Təhmasibin dəstəsini Übeyd xanın dəstəsi kimi qəbul etmişdi. Nəticədə o, narahatlıq hiss etmədən Səfəvi qoşunlarına yaxın bir məsafəyə qədər yaxınlaşmışdı. Özbək qoşunlarının belə yaxın məsafəyə qədər gəlməsi və sakitcə orada düşərgə salması Səfəvi əmir və döyüşçülərinin marağına səbəb olur və Məhəmməd sultan Şərəfəddinoğlu məsələni aydınlaşdırmaq üçün Şah Təhmasibin icazəsi ilə kəşfiyyata yollanır. Nəticədə özbək döyüşçülərindən iki nəfər əsir götürülərək Şah Təhmasibin yanına gətirilir. Həmin əsirlər məlumat verirlər ki, geri qaçan Səfəvi qoşunlarının bəzi dəstələrini təqib etdikdən sonra qayıdıb gəlmişlər və Şah Təhmasibin dəstəsini özbək qoşunları bilərək belə yaxınlıqda düşərgə salmışlar. Şah Təhmasib bu qoşun dəstəsinin də üzərinə hücum çəkilməsini, Canibəy sultanın da Übeyd xan kimi aradan götürülməsini məqsədəuyğun saydı. Lakin Səfəvi əmirləri və əyanları buna etiraz etdilər və ona görə Şah Təhmasib fikrindən daşınmalı oldu. Canibəy sultan isə Übeyd xanın başına gələndən xəbərdar olandan sonra orada dayanmağı təhlükəli saydı və Übeyd xanın taleyi ilə qarşılaşmamaq üçün həmin məntəqədən uzaqlaşaraq Mərvə doğru istiqamət götürdü (57).

"Əhsənüt-təvarix" müəllif də Canibəy sultanın Übeyd xanın taleyindən xəbər tutandan sonra döyüşə girmədən geri çəkildiyini bildirir. Amma o da bildirilir ki, Səfəvi döyüşçüləri geri qaçmaqda olan Canibəy dəstəsini təqib etməyə başladılar və bu təqib zamanı bir çox özbək döyüşçülərini qətlə yetirdilər. Qeyd olunur ki, Səfəvi qoşunlarının təqibindən özbək döyüşçüləri çaş-baş olub qalmışdılar və onlar çox çətinliklə böyük itkilərdən qaça bildilər (58).

Əldə edilən qələbə Şah Təhmasib tərəfindən böyük sevinclə qarşılandı və bu qələbənin əldə edilməsində xüsusi xidməti olan əmirlər və döyüşçülər böyük səxavətlə mükafatlandırıldılar. Bundan sonra Şah Təhmasib öz mirzələrinə göstəriş verdi ki, əldə edilən qələbə münasibəti ilə fəthnamələr yazıb müxtəlif yerlərə göndərsinlər. Konkret olaraq bu fəthnamələrdən biri Quma, Taclı bəyimə, biri Kuçum sultanın damadı Sultan Məhəmməd Əminin kəsilmiş başı ilə bilrikdə Təbrizə göndərildi. «Xülasüt-təvarix" əsərində Şah Təhmasibin adından Təbrizə göndərilmiş fəthnamənin mətni də verilmişdir. Səfəvi şahı Təbrizdə özbək qoşunlarına qarşı aparılan döyüşlərin nəticələrini intizarla gözləyən saray əyanlarına və mənsublarına əldə edilmiş böyük qələbə haqqında sevinclə xəbər çatdırırdı. O bildirirdi ki, Übeyd xan səltənət sərhədlərindən qovulmuş olsa da Mavəraünnəhr və Türküstan sultanlarına, özbək xanlarına müraciət edərək 100 min nəfərlik qoşun toplamış və yenidən Səfəvi hüdudlarına hücum etmişdi. Bildirilir ki, Übeyd xan məqsədinə nail olmaq üçün böyük bir sürətlə Cama qədər irəliləmişdi. Şah Təhmasibə görə, Übeyd xanın ətrafında toplaşan qoşunların səltənət hüdudlarına yeni hücumu gözlənmirmiş. Buna görə də bölgədə olan Səfəvi qoşunlarının döyüşçülərinin çoxu istirahətə buraxılıbmış. Şah Təhmasib sonra bəyan edirdi ki, Übeyd xanın ətrafında toplaşmış qoşunların qarşısını almaq üçün özü bölgəyə yollanmış və Cam məntəqəsi ətrafında Übeyd xanla qarşılaşmalı olmuşdu. Şah Təhmasib fəthnamədə həm bu qarşılaşmanın baş verdiyi tarixi göstərir, həm də bu qarşılaşma zamanı yaradanın və müqəddəslərin köməyi ilə qələbə əldə etdiyini bildirirdi. Şah Təhmasib Səfəvi

əmirərinin və döyüşçülərinin bu qarşılaşma zamanı çox böyük qəhrəmanlıqlar və şücaətlər göstərməsini və bunun nəticəsində qarşı tərəfin sultanlarının, əmirlərinin, böyük sayda döyüşçülərinin qətlə yetiridiyini sevinclə bəyan edirdi. Şah Təhmasib Təbrizin əyanlarına, mənsublarına, din xadimlərinə tövsiyə edirdi ki, əldə edilmiş qələbəyə görə yaradana dualar etsinlər və Təbriz əhli qalib qoşunların qarşılanmasına hazırlaşsın (59).

Şah Təhmasibin Übeyd xan üzərində qələbəsi kifayət qədər ciddi hərbi-siyasi əhəmiyyətə malik idi. Çünki bu döyüşün nəticələri Səfəvi dövlətinin bölgədəki mövqelərinin möhkəmlənməsinə, Şah Təhmasibin özünün istər səltənət daxilində, istərtsə də səltənət xaricində mövqelərinin möhkəmlənməsinə yol açdı. Hər şeydən əvvəl Şah Təhmasib bu döyüşdə özünü təsdiqləmiş oldu, bir şah kimi həm siyasi, həm də hərbi keyfiyyətlərə malik olmasını nümayiş etdirdi. Bu döyüş həm də onun mürşidi-kamil kimi mövqeyinin möhkəmlənməsini şərtləndirdi. Çünki az qüvvə ilə Übeyd xanın üstünə hücum çəksə də, Şah Təhmasib bu hücumun müqəddəslər tərəfindən dəstəkləndiyini bəyan etdi, qələbəyə əminliyini ortaya qoydu və qızılbaş döyüşçülərini də buna inandıra bildi. Əldə edilən qələbə isə qızılbaş döyüşçülərində Şah Təhmasibin müqəddəslər tərəfindən himayə olunduğuna bir əminlik yaratdı. Şah Təhmasib bu döyüşlə atası Şah İsmayıldan ona miras qalmış Səfəvi dövlətini qorumaq və möhkəmləndirmək əzmində və imkanında olduğunu da göstərdi. Heç şübhəsiz bu böyük qələbə həm də Səfəvi dövlətinin beynəlxalq mövqeyini möhkəmləndirdi. Qonşu dövlətlər üçün bir daha aydın oldu ki, Səfəvi dövləti öz qüdrətini saxlamaqdadır və bu dövlətlə hesablaşmaq lazımdır.

Şah Təhmasib bu tarixi qələbəni əldə etdikdən sonra bir neçə gün Nişapur ətrafında qalıb istirahət etdi. Sonra isə o, Bağdad səfərinə hazırlaşmaq üçün Qum ətrafına gəldi və orada düşərgə saldı (60).

## 4. Özbək qoşunlarının dördüncü hücumu

Şah Təhmasib tərəfindən vurulan ağır zərbədən sonra qoşunların qalıqları ilə geri qayıdan Übeyd xan bir daha Səfəvi qoşunlarına qarşı vuruşmağın asan olmadığını anlasa da, beynini sarımış təcavüzkar niyyətlərindən də əl çəkmədi. O, Xorasan vilayətini ələ keçirmək və Səfəvi qoşunlarından vurulan zərbənin qisasını almaq üçün yenidən planlar qurmağa başladı və Şah Təhmasibin Xorasan vilayətindən birbaşa Bağdad ətrafına yollanması onda yenidən müəyyən ümidlər doğurmağa başladı. Şah Təhmasib Xorasana gələndə Bağdadda itaətsizlik halı baş vermiş və Bağdad hakimi Zülfüqar xan Səfəvi sarayına tabe olmaqdan imtina etmişdi. Bu itaətsizliyin aradan qaldırılması və mərkəzi hakimiyyətin daha da möhkəmləndirilməsi üçün Şah Təhmasib Xorasandan birbaşa Bağdad ətrafına yollanmağı qərara aldı. Übeyd xana görə Şah Təhmasibin qoşun dəstəsi ilə Bağdada yollanması niyyətlərinin həyata keçməsi üçün yeni fürsətlər aça bilərdi. Yəni Şah Təhmasibin öz qoşunu ilə səltənətin başqa bir tərəfində olması, Xorasandan xeyli uzaqlaşması Xorasandakı Səfəvi hakim və əmirlərinə əlavə kömək göndərmək imkanını istisna edə bilərdi. Xorasan daxilində mövcud olan qoşunlara üstün gələcəyi haqqında isə Übeyd xanda bir şübhə yox idi. Ona görə də Übeyd xan yenidən müharibə hazırlığına, yeni qoşunların toplanmasına başladı. “Əhsənüt-təvarix” əsərində olan məlumata görə, Übeyd xan bu dəfə də çoxlu sayda qoşun toplaya bilmişdi və yenə güman edirdi ki, bu qoşunla Xorasan vilayətinin işğalına nail olacaqdır. “Dinin pənahı olan şah çıxıb getdikdən neçə ay sonra Übeyd xan, Sevincək Məhəmməd sultanla Əbdüləziz sultanı altı min süvari özbəklə İmam Rzanın müqəddəs Məşhədinə tərəf göndərdi. O zaman Əhməd sultan Əfşar, Yaqub sultan Qacar, Ağzıvar xan Şamlu və Pirqulu sultan Şamlu adlı-sanlı qazilərdən üç-dörd min süvari ilə o diyarda idilər. Onlar şəhərdən çıxıb, qətl xəyalı ilə gəlmiş özbəklərlə savaşaraq onları Türüq yaxınlığına qədər qovdular və o şər güruhundan neçə-neçə süvarini həyat atından piyada edib onların namübarək başlarını şəhərə

gətirdilər. Bu minvalla təxminən iki ay həmin iki kinli ordu arasında savaş və hərb alovu, vuruş və zərbə tozanağı səngimədi. Yüksək şanlı əmirlər o cənnət nişanlı şəhərin mühafizəsində mümkün qədər səy göstərdilər. O əsnada bir gecə Übeyd xan özbəklərin bir dəstəsi ilə şəhər ətrafına gəldi. Onun gərənayının sədası qaziləri pərişan etdi. Çünki Məşhədin qala divarının [mühasirəyə] hazır vəziyyətə gətirilməsi hələ tamamlanmamışdı. Tüfəngçilər o gecə qorxaq və hürkək halda əmirlərin yanına gəlib [dedilər]:

- Übeyd xan böyük bir ordu ilə qəzəbli və kinli bir şəkildə [gəlib] çatdı. Sadəcə küçəbəndlərin [köməyi] ilə bu qədər həddən ziyadə qoşuna [qarşı] müqavimət [göstərmək] mümkün deyil. Ertəsi gün özbək əsgərləri döyüşə başladılar. Qazilər də əllərini oxla kamana atıb, ürək paralayan oxların zərbəsi və sinə yandıran xədənglərin peykanları ilə qaragün düşmənləri yaralayırdılar və öldürürdülər. Amma Məvaraünnəhrin Bəhram kimi qəhredici qoşunu küçəbəndləri tutdu. Xorasan əsgərləri döyüşün bu cür [gedişindən] qorxaq və hürkək oldular, savaşı davam etdirməyi məsləhət bilmədilər və gecənin əvvəlində qaçmağa üz qoydular. Übeyd xan özbəklərin bir dəstəsini qazilərin arxasınca göndərdi. Amma onlar əmirlərə çata bilmədilər və qızılbaşlardan bəzilərini ələ keçirib geri qayıtdılar" (61).

Bu məlumatdan göründüyü kimi, Məşhəd şəhərinin müdafiə imkanları lazımi tələblərə cavab vermirdi. Şəhər ətrafında müdafiə divarlarının tikintisi hələ başa çatmamışdı ki, bu da şəhər qarnizonunun vəziyyətini bir qədər də çətinləşdirirdi. Ona görə şəhər müdafiəçiləri şəhər daxilində, küçələrdə qurulmuş barrikadalarda, sığınacaqlarda mövqe tutmaqla hücum edən qüvvələrə müqavimət göstərirdilər. İki ay ərzində şəhər qarnizonunun özbək qoşunlarına müqavimət göstərməsi qızılbaş döyüşçülərinin şəhərin müdafiəsində böyük fədakarlıqlar göstərməsinin nümayişi idi. Hətta bu müqavimət o qədər çəkdi ki, Übeyd xan özü də qoşun dəstəsi ilə Məşhəd ətrafına gəlməli oldu. Yalnız onun rəhbərliyi altında olan qoşun dəstəsinin gəlməsindən sonra üstün qoşunlara müqavimət göstərməyin çətin olacağı aydınlaşdı. Şə-

hər müdafiəçiləri öz əmirlərinə müraciət edərək Übeyd xana qarşı müdafiənin çətin olacağını bildirərək tədbirlər görülməsini lazım bildilər. Yalnız bundan sonra şəhərin müdafiəsinə məsul olan əmirlər çıxış yolunu şəhərin tərk edilməsində gördülər. Mənbə məlumatlarına görə, Məşhəd uğrunda gedən döyüşlərdə qızılbaş döyüşçülərindən üç yüz nəfəri şəhid oldu (62).

Əldə edilən bu uğur Übeyd xanı bir qədər də həvəsləndirdi və onda bütün Xorasanı nəzarət altına almaq arzusu daha da gücləndi. Məşhəd şəhərinin idarəçiliyini öz adamlarından birinə tapşırandan sonra Übeyd xan qoşunları ilə Herata doğru irəlilədi. Herat şəhəri Xorasan vilayətinin mərkəzi şəhəri olmaqla həm də vilayət hakimi Sam Mirzənin qərarlaşdığı bir yer idi. Yuxarıda yazılanlardan məlumdur ki, Cam ətrafında göstərdiyi şücaətə görə Hüseyn xan Şamlı yenidən Sam Mirzənin lələsi olmaqla Şiraz hakimi vəzifəsində saxlanılmışdı. Böyük döyüş təcrübəsinə malik olan Hüseyn xan yaxınlaşmaqda olan özbək qoşunlarının çoxsaylı olduğunu görəndə Herat şəhərinin müdafiəsinin kifayət qədər çətin olacağını bildi. Ona görə də Hüseyn xan Heratın müdafiəsi və şəhər əhalisinin qorunması üçün başqa yollar da axtarmağa başladı. Çox güman ki, bu məsələ ilə bağlı o, Sam Mirzə ilə də məsləhətləşmişdi. Sonda Hüseyn xan belə bir qərara gəldi ki, Übeyd xanla razılaşmaya gəlməklə Herat əhalisinin həyatını xilas etsin və şəhəri hələlik özbək qoşunlarına təhvil versin (63).

"Übeyd xan Məşhədi öz etimadlı əmirlərindən birinə tapşırıb, Herata yollandı və şəhəri mühasirəyə aldı. Lakin bundan öncə, elə həmin il Hüseyn xan və şamlu qaziləri qalanı müdafiə etməyə qalxmış, şəhər uğrunda neçə ay ərzində tərəflər arasında hərb və döyüş atəşi alışmış və şəhər ətrafında («bölükat») taxıl az tapılan, bəlkə də, tapılmaz olmuşdu. Buna görə də Hüseyn xan və şamlu ağsaqqalları azuqənin çatışmazlığı və qalanı müdafiə etmək üçün ləvazimatların olmaması üzündən [şəhəri] tərk edib getməyi məsləhət bildilər. Ortaya sülh söhbəti atıldı. Aralıqda səfirlər gedib-gəldilər. Qərara alındı ki, Übeyd xan [şəhərdən] bir neçə köç mənzili kənarda dayansın ki, qızılbaşlar öz uşaqları, arvadları, yükləri və əşyaları ilə [şəhərdən] çıxıb getsinlər və özbək

sultanlarından heç birisi onları təqib etməsin. Übeyd xan sülhə rəğbətlənərək, bir neçə köç mənzili geri çəkildi. Əhdü-peyman möhkəmləndikdən sonra Hüseyn xan bütün qazilərlə və şiə məzhəbli sakinlərlə birlikdə sağ-salamat [şəhərdən] çıxıb, Sistan tərəfə getdi. Sistan valisi Məlik Mahmud onlara insani iltifatlar göstərdi. Hüseyn xan yağı və yolkəsən olan Püştzərrə [camaatı] üzərinə gedib, onların mallarını qarət etdi və oradan da Kic və Məkran vilayətinə gedib, çoxlu taxtü-tarac etdi. Daha sonra isə oradan Şiraza gəldi. Onun əhvalatının davamının şərhi tezliklə zərif yazan qələmlə qeyd olunacaqdır. Sözün qısası, Übeyd xan Xorasan mülkünün hamısını istila edib, yenidən zülm və tüğyan bayraqlarını o mülkdə qaldırdı. Özbək qoşunu Xorasan əhlinə qarşı çoxlu zülmkarlıq və sitəmkarlıqlar etdi. Sünni olduqları yəqin olan xeyli adamları mal-dövlət tamahı üzündən rafizilik və şiəlik bəhanəsi altında qətlə yetirdilər. Öldürülənlərdən biri də məzlum şair Mövlana Hilalidir. Onu Heratın «Çaharsuq»unda qətlə yetirmişdilər. Onun qətlinin bəhanəsi bu idi ki, Übeyd xana çatdırmışdılar ki, guya cənab Mövlana [Hilali] [Übeyd] xanı həcv edibdir" (64).

Herat üzərinə hücum ilə bağlı istər yuxarıdakı məlumatdan, istərsə də "Əhsənüt-təvarix" əsərindəki məlumatdan belə aydın olur ki, özbək qoşunları yaxınlaşan kimi şəhərin təslim edilməsi məsləhət bilindi. Bəzi mənbə və tarixi ədəbiyyatda isə Herat şəhərinin uzun müddət mühasirədə qalmadığı və yalnız bu mühasirənin şəhər daxilində ağır vəziyyət yaratmasından sonra Übeyd xanla razılaşmaya gəlmək qərarı verildiyi bildirilir (65).

Mövcud məlumatlardan aydın olur ki, Herat əhalisi yenidən ciddi sınaqla üzləşməli oldu. Şəhərin mühasirəsinin uzun müddət çəkməsi ərzaq problemlərini, şəhərə giriş-çıxışı xeyli çətinləşdirdi. Məlumatlara görə, şəhərdə ərzaq qıtlığı elə bir səviyyəyə çatdı ki, insanlar köhnə dəri məmulatlarını qaynadıb yemək məcburiyyətində qalmışdılar. Çörəyin qiyməti o dərəcədə artmışdı ki, onu almaq imkanı yox idi. Hətta o da bildirilirdi ki, əraq tapılmadığı üçün hərbçilər öz atlarının qanını içməli olurdular. Bununla da çətinlik həll olunmadığı üçün qoşunlarda olan ən yaxşı

atların kəsilməsinə başlandı ki, onların əti ilə dolanmaq mümkün olsun. Salamat qalması lazım bilinən atlara isə ağac kəpəyi verilirdi ki, onlar da aclıqdan ölməsinlər (66).

Heratın mühasirə çətinlikləri ilə qarşılaşması haqqında Şah Təhmasibin təzkirəsində də qısa qeydlər vardır. O yazırdı: "Böyük Allahın yardımı ilə bu əsnada xəbər gəldi ki, özbək Übeyd xan Heratın üstünə gəlib və Heratı mühasirə edib. O, çox zalım bir adam idi. Kafir ilə müsəlmana fərq qoymazdı. Bir dəfə bir seyid alimi onun yanına gətiriblər. [O], onun ölümünə fərman verir. Camaat yalvarıb deyir ki, bu şəxs seyiddir və günahsızdır. O cavabında deyir:

-O, elə seyid və alim olduğuna görə mən onu öldürürəm.

Allah ona lənət eləsin.

Bir dəfə də onun məclisində deyirlər ki, hər kəsin ürəyində həzrət Əmirəlmöminin [Əliyə] – ona salam və dua olsun - bir arpa qədər kin-küdurət olsa, o, müsəlman deyildir. O məlum əlində olan narıncı [göstərərək] deyir:

-Allaha şükr olsun ki, o həzrətə üzərimdə bu boyda kin-küdurətim vardır.

O vaxt Bəhram Mirzə Heratda idi. Onun adamı gəlib bildirdi ki, Herat əhalisinin işi elə bir vəziyyətə düşübdür ki, it-pişik əti yeyirlər " (67).

Yaranmış vəziyyətdə Übeyd xan məqsədinə nail olmaq üçün yalnız Heratı mühasirədə saxlamaqla kifayətlənmirdi. O, eyni zamanda Herat ətrafında və yaxınlığında yerləşən yaşayış məntəqələrinə də basqınlar edir, bu məntəqələri çapıb-talayır və bununla Herata ərzaq göndərilməsi imkanlarını da aradan qaldırırdı. Yəni yalnız Heratda deyil, onun ətrafında da ərzaq baxımından mürəkkəb bir vəziyyət yaradılmışdı. Şəhər daxilində vəziyyətin getdikcə ağırlaşdığını və şəhərə kömək gətirmək imkanlarının çətinləşdiyini görəndə Hüseyn xan Şamlı ən azı salamat qalmış şəhər əhalisinin həyatının xilas edilməsi üçün Übeyd xanla razılaşmaya getməyi qərara aldı və onunla danışıqlar aparılması üçün Xacə İsaq Siyavuşanini özbək qoşunları düşərgəsinə göndərdi. Mənbə məlumatlarına görə, Heratın özbək qoşunları

tərəfindən mühasirəsi başlananda Sam Mirzə ilə onun lələsi Hüseyn xan Şamlı vəziyyət barəsində Şah Təhmasibə məlumat göndərdilər və ondan kömək istədilər. Lakin onlar bu köməyi ala bilmədilər. Çünki səltənət idarəçiliyində böyük səlahiyyətlərə malik olan Çuxa sultan ona qarşı heç də xoş münasibətdə olmayan Hüseyn xanın özbəklərin əli ilə məhv edilməsində maraqlı idi və güman edirdi ki, kömək göstərilmədiyi halda Hüseyn xan bu mürəkkəb vəziyyətdən qurtula bilməyəcəkdir. Mərkəzi hakimiyyətdən kömək ala bilməyəcəyini görəndə Hüseyn xan həm Sam Mirzə ilə, həm də Herat əmirləri və əyanları ilə məsləhətləşmə apardı və özbək qoşunlarının təhlükəsi ilə Çuxa sultanın məkrindən nicat tapmaq üçün şəhərin tərk edilməsi təklifini irəli sürdü. Sam Mirzə də, şəhərin əyan və əmirləri də bu təkliflə razılaşdılar və bundan sonra Heratın tanınmış əyanlarından olan Xacə İsaq Siyavuşani danışıqlar aparılması üçün Übeyd xanın yanına göndərildi. Şəhərin təhvil verilməsi əvəzində Übeyd xana qarşı irəli sürülən şərtlərdən biri bu idi ki, o öz qoşunlarını Herat əhalisinin hərəkət edəcəyi istiqamətdən geri çəksin və özbək qoşunları elə bir məsafədə dayansın ki, onların Herat əhalisini təqib etmək təhlükəsi yaranmasın. Herat şəhərini nəhayət ki, ələ keçirmək şansı Übeyd xana o qədər arzuolunan göründü ki, bu təkliflə razılaşdı və qoşunlarını nəzərdə tutulan məsafəyə çəkdi. Bu razılaşmaya əsasən Heratda sağ qalmış əhali öz əmlakları ilə birlikdə şəhəri tərk etdilər və Sistan istiqamətində hərəkətə başladılar. Sistan vilayətinin o zamankı hakimliyini öz üzərinə götürmüş Məlik Mahmud eşidəndə ki, Sam Mirzə və onun lələsi bu vilayətə tərəf gəlməkdədir, öz əyanlarından birini çoxlu hədiyyələrlə Hüseyn xanın yanına göndərdi, Hüseyn xanla Sam Mirzənin qarşılanması və onların istirahəti üçün zəruri olan işləri gördü. Sonradan Məlik Mahmud özü də Sam Mirzə ilə Hüseyn xanın yanına yollandı, onlara öz qonaqpərvərliyini, hörmət və ehtiramının nümayiş etdirdi, onlar yollarını davam etdirmək istərkən üçün zəruri olan yol tədarükünü etdi (68).

Yuxarıdakı məlumatlardan məlumdur ki, Sam Mirzə ilə Hüseyn xan Sistan vilayətindən Şiraza yolandılar. “Qazilərin Herat-



Şah Təhmasib



Şah Təhmasib




Şah Təhmasibin Osmanlı elçisini qəbul etməsi



Şah Təhmasibin Hümayun şahla görüşünü əks ütdirən minüatür



Şah Təhmasibin Hümayun şahla görüşünü əks ütdirən minüatür



Şah Təhmasibin əks olunduğu ehtimal edilən rəsm



Şah Təhmasibə məxsus gürz



Şah Təhmasibə məxusus möhürlərdən birinin üzərindəki yazı

dan köçməsindən sonra Übeyd xan çoxlu qoşunla şəhərə daxil olub səltənət kürsüsünə əyləşdi. Özbək yaramazları və Səmərqənd xariciləri zülm və sitəm əlini türkə və tacikə, uzağa və yaxına uzatdılar. Həmin günlərdə o natamam qövmün törətdiyi işlərdən biri bu idi ki, Herat əhlindən bir kəsdə bir az sərvət olduğunu güman etsəydilər, onu tutub Qazinin yanına aparırdılar və deyirdilər ki, bu kişi qızılbaşın zamanında səhabəni lənətləmişdir. [Qazi ] vəziyyəti araşdırmadan, sadəcə iki nəfər səadətsiz yalançının şahidliyini eşitməklə həmin bədbəxtin qətlinə hökm verirdi. Möhtəsiblər haqsız bir şəkildə onu çəkə-çəkə Herat çarşısına aparırdılar və orada oğrular kimi qətlə yetirirdilər. Yetərincə təəssübkeş sünni məzhəbli adamlar vardı ki, onlara mallarına görə şiə dedilər və həmin vaxt öldürüldülər. Eyni zamanda, yetərincə möhtac şiələr və tacsız (yoxsul) məvalilər vardı ki, sərvətə malik olmadıqları üçün salamat qaldılar” (69).

Herat şəhərinin Übeyd xan tərəfindən ələ keçirilməsi 1529-cu ilə təsadüf edir. Bu şəhərin ələ kecirilməsi Übeyd xanın sonsuz sevincinə səbəb oldu. Onda belə bir güman yarandı ki, Xorasan vilayətinin mərkəzi şəhərini ələ keçiribsə, deməli bütün vilayəti öz nəzarəti altına ala biləcəkdir. Bu məqsədlə o, Herat şəhərini ələ keçirdikdən sonra Fərah qalası üzərinə də hücum çəkdi. Bu qala-şəhərə Əhməd sultan Əfşar rəhbərlik edirdi. Fərahın müdafiəçilərinin əsasını da əfşar atlıları təşkil edirdilər. Lakin bu şəhərin müdafiəçiləri özbək qoşunlarına qarşı çox ciddi müqavimət göstərdilər. Übeyd xan anladı ki, Fərah şəhərinin müdafiə imkanları Herat şəhərinin imkanlarından da yaxşıdır və bu şəhəri ələ keçirmək elə də asan deyildir. “Tarix-i aləmara-yi Abbasi” müəllifi yazırdı ki, Əhməd sultan Əfşar qalanın müdafiəsini lazımi şəkildə qura bildi. O, hər şeydən əvvəl qalanı uzunmüddətli mühasirəyə hazırlamağa müvəffəq oldu. Bunun üçün qala daxilində həm silah-sursat, həm də ərzaq ehtiyatları yaradılmışdı. Bundan əlavə qalanın fəal müdafiəsi aparılırdı. Əhməd sultanın təşkilatçılığı ilə əfşar atlıları özbək dəstələrinin üzərinə hücumlar təşkil edir və bu dəstələrə böyük itkilər yetirirdi. Übeyd xan bu itkiləri və şəhərin müdafiəsinin möhkəmliyini görüncə orada

dayanmağı mənasız bildi. Ona görə də Fərah şəhəri bir müddət mühasirədə saxlandıqdan sonra Übeyd xan bu mühasirəni tərk edib Herata qayıtdı. Fərah şəhərinin mühasirəsinin dayandırılmasına bir səbəb də özbək qoşunlarının ərzaq ehtiyatlarının azalması oldu (70).

Bununla belə, Übeyd xanın fatehlik sevincləri çox da uzun sürmədi. Şah Təhmasib özünün Bağdad ətrafında yeni bir uğurunu əldə etdi və bu şəhəri səltənətdən qoparmaq cəhdinə son qoyduqdan sonra, yenidən Xorasana yollanmaq qərarını verdi. Çünki Übeyd xanın yenidən səltənət hüdudlarına hücum etməsi xəbəri onu Xorasan vilayətinə yollanmaq qətiyyətinə sövq etdi. "Özbəklərin Xorasanı istila etməsi xəbəri cənnətməkan şahın mübarək qulağına çaldıqda, Bağdad məsələləri şəhriyarın iradəsinə uyğun şəkildə din və ədalət yoluna müvafiq surətdə həll edildiyindən, 936-cı ilin (05.09.1529 -24.08. 1530) əvvəlində [Şah Təhmasib] özbəklərin fitnəsini dəf etmək məqsədi ilə öz səadətli yüyənini Xorasan səmtinə yönəldib, ölkə ərazisinin müxtəlif tərəflərinə və yerlərinə ay kimi gəzən qorçular göndərdi ki, [əmirlər] özlərini qələbə şüarlı orduya yetirsinlər. Qısa vaxt ərzində çox-çox və dəstə-dəstə qüdrətli qoşunlar iradə və sədaqət üzlərini asimana tay olan ali astanaya tutaraq, [şahın yanındakı] səadətli əsgərlərə qoşuldular" (71).

Bu məlumatdan göründüyü kimi, Şah Təhmasib səltənətin vilayətlərinə və bölgələrinə qoşun toplanması haqqında göstəriş göndərdi və onun fərmanı əsasında bölgələrdən çoxlu sayda qoşun Şah Təhmasibin yanına axışıb gəldi və Xorasan vilayəti üzərinə yürüş üçün hazırlıqlar başlandı. Bu hazırlıqlar İsfahan ətrafında başa çatdırıldı. Şah Təhmasib Bağdad yürüşünü uğurla başa çatdırdıqdan sonra İsfahan ətrafına gəlmiş və burada qışlağa dayanmışdı. Məlumdur ki, burada olarkən Şah Təhmasib qardaşı Sam Mirzənin də Hüseyn xanla birlikdə Heratı tərk edərək Şiraza gəlməsindən xəbərdar olmuşdu. Mənbələrdə mövcud olan məlumatlara görə, Şah Təhmasib Xorasan vilayəti üzərinə yeni yürüşünə hazırlıq işlərini aparmaqla bərabər, həm də Übeyd xana məktub göndərdi və onu vilayət əhalisinə zülm etməkdən çəkin-

dirməyə çalışdı (72). O da aydın olur ki, Şah Təhmasib bu məktubu Übeyd xanın Heratdan Mərvə yollanmasından sonra yazıbmış və Übeyd xanın Mərvə yollanmasından da Şah Təhmasibin xəbəri varmış. Şah Təhmasib məktubunda Übeyd xanın Səfəvi qoşunlarından aldığı zərbədən sonra yenidən Xorsana qoşun çəkməsindən təəccübləndiyini bildirmişdi. Sonra Şah Təhmasib məktubunda Durmuş xanın vaxtında Heratın əmin- amanlıq içində olduğunu, inkişaf etdiyini yazmaqla bu bölgədə aparılan müharibələrin həmin şəhəri də dağıntılara məruz qoymasını bəyan edirdi. Bununla Şah Təhmasib bir daha Übeyd xanı Xorasan vilayəti üzərinə hücumlardan çəkindirməyə çalışırdı. Şah Təhmasib məktub göndərsə də Übeyd xanın zəkanın səsinə qulaq asmayacağını bilirdi və ona görə Xorasan üzərinə növbəti yürüş üçün hərbi hazırlıqlarını da davam etdirirdi.

Şah Təhmasibin yenidən Xorasana yürüş etmək xəbəri Übeyd xana da çatdı. Bu xəbər onu o dərəcədə təşvişə saldı ki, dərhal Heratı tərk etdi və 1530-cu il avqust ayının 30-da Mərvə doğru qaçdı. Übeyd xan anladı ki, onun təkbaşına Şah Təhmasibin qarşısında duruş gətirmək qabiliyyəti yoxdur və onu Şah Təhmasib təhlükəsindən yalnız bölgə hakimlərinin birləşmiş qoşunları xilas edə bilər. Mənbə məlumatlarında bildirilir ki, Übeyd xan bölgə hakimlərini Mərvə toplayaraq onlardan kömək almağa çalışdı (73).

“Tarix-i aləmara-yi Abbasi” əsərində Übeyd xanın Mərvə qaçması və Şah Təhmasibə qarşı ittifaq yaratmaq cəhdinin uğursuzluğu belə təsvir edilmişdir: “Bu zaman [Şah Təhmasibin] səadətli məiyyətinin günəş kimi işıq saçıb gəlməsinin avazı o vilayətdə yayıldı. [Übeyd xanın] sabitlik və möhkəmliyinin təməlinə sarsıntı düşdü. O, Heratdan Mərv tərəfə getdi və Çingiziyyə xanlarının yanına şirindil elçilər göndərib xahiş etdi ki, təcili surətdə köməyə gəlsinlər. O, oradan cənnətməkan şah həzrətlərinə yöndəmsiz məktublar yazıb göndərdi və Mərvdə oturub, yardım və kömək gələcəyini gözlədi. Turan sultanları gəlib, Mərvdə cəmləşdilər. Yenidən [Übeyd xan] qızılbaş padşahı ilə müharibə etmək barəsində hər tayfanın aqilləri və ağsaqqalları ilə «kəngaş»

etdi. Onların əksəriyyətinin rəyi bu oldu ki, müharibə olmasın. Həmin il [özbək] sultanlarının ən böyüyü olan Səmərqənd hökmdarı Kuçum sultan vəfat etmişdi və onun oğlu Əbu-Səid öz atasının yerinə əyləşmişdi. O, mütləq surətdə Übeyd xanın əleyhinə çıxıb dedi:

- Bu müddət ərzində hər nə qədər Xorasana gəlib qızılbaşlarla müharibə etmişiksə, xəsarətdən savayı bir fayda görməmişik. Əgər sən özün təkbaşına müqavimət göstərə bilərsənsə, öz hərəkətində sərbəstsən. Biz isə qızılbaşlarla döyüşmək barəsində sənə yoldaş deyilik. Ən önəmli və vacib iş odur ki, sən də öz məmləkətinlə qane olub, bu faydasız təlaşdan əl çəkəsən. Cuci nəslindən olan əksər sultanlar [Əbu-Səidin] sözünü bəyəndilər və [Übeyd xana] kömək etmək fikrində olmadılar. Übeyd xan sultanların köməyindən ümidini üzməli oldu. Onun göndərdiyi adam da əşrəfin hüzurundan qayıdıb gəldi, [qızılbaş] qoşununun cəmləşməsi və çoxluğu xəbərini və [Übeyd xanın] məktubuna uyğun üslubda yazılmış [Şah Təhmasibin] cavabını gətirdi. …Nə isə, [Übeyd xan] həsrət dolu ürəklə və inildəyən könüllə Xorasandan əlini üzüb, Buxaraya yollandı" (74).

### 5. Şah Təhmasib və Übeyd xan yazışmaları

Yuxarıda qeyd edildiyi kimi, Xorasan üzərinə növbəti səfərə hazırlaşarkən Şah Təhmasib özbək xanına məktub göndərmişdi. Bu məktubun mətni mənbələrdə mövcud deyil. Lakin Übeyd xanın göndərdiyi cavab məktubunda Şah Təhmasibin nə barədə yazması haqqında ötəri məlumatları üzə çıxarmaq mümkündür. Heç şübhəsiz ki, Şah Təhmasibin məktubunun əsas məzmunu özbək qoşunlarının Səfəvi hüdudlarına hücumdan çəkindirilməsi məsələsi idi. Übeyd xanın Xorasan vilayətinə olan iddialarından əl çəkməməsi bu vilayət uğrunda davamlı müharibələrin rəvac tapmasına yol açırdı. Şah Təhmasib isə heç şübhəsiz ki, bununla barışmırdı və Übeyd xanı da tutduğu yoldan çəkindirmək istəyirdi.

Übeyd xanın Səfəvi şahına cavab məktubu və həmin məktuba da Şah Təhmasib tərəfindən verilən cavabın mətni Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsərində öz əksini tapmışdır. Həmin məktublar Şah Təhmasibə aid olan məktublar toplusunda da çap olunmuşdur (75). Aşağıda, "Əhsənüt-təvarix" əsərinin Azərbaycan dilində çap olunmuş variantına istinad edilmişdir (Tərcümə edənlər: Oqtay Əfəndiyev və Namiq Musalı) Məktubların hər ikisi tərəflər arasında olan münasibətlərin mahiyyətinin aydınlaşdırılması, Şah Təhmasibin və Übeyd xanın baş verən proseslərə münasibətinin, Şah Təhmasibin dövlətçilik və təriqətçilik təfəkkürünün dəyərləndirilməsi baxımından əhəmiyyət kəsb edir. Bu məktublar dövrün yazışma ənənələri əsasında tərtib olunub, mətnin daxilində çoxlu sayda Quran ayələrinə istinad olunduğu kimi, həm də çoxlu sayda nəzm parçaları verilmişdir.

Übeyd xanın məktubunda diqqəti cəlb edən məqamlardan biri budur ki, o, Səfəvi şahına Təhmasib Mirzə kimi müraciət etmişdir. Yəni bununla Şah Təhmasibi hələ də şah kimi tanımadığına işarə etmişdir. Elə ilk cümlələrdən də Übeyd xan Xorasan vilayəti ilə bağlı ona ünvanlanmış ittihamlara cavab verməyə cəhd göstərmişdir. Şah Təhmasib ilk məktubunda Übeyd xanı ittihamlandırmışdı ki, tərəflər arasında aparılan döyüşlər Xorasan vilayətini xaraba vəziyyətinə salmaqdadır. Übeyd xan bu fikirlə razılaşırdı. Lakin onun bu razılığı Übeyd xanın maraqları çərçivəsində ifadə olunurdu. Başqa sözlə o da öz növbəsində Şah Təhmasibi ittihamlandırmağa çalışırdı ki, hərbi yürüşləri ilə Xorasan vilayətini xaraba günə qoymuşdur və o bu əməlindən əl çəkməlidir. O, hətta özünü Xorasan vilayəti üzərinə hücum etməkdə haqlı sayır və bu hücumun səbəbi kimi hələ islam peyğəmbəri və islam xəlifələri dövründən bölgədə yayılmış olan sünni məzhəbinin zorla dəyişdirilməsinə Səfəvi dövləti tərəfindən cəhd göstərilməsini əsas tuturdu. Übeyd xanın fikrincə, zəmanənin fəsadı səbəbindən peyğəmbər ümmətinə ziyan dəyəcəyi halda, bu ziyanın aradan qaldırılması üçün mübarizə aparılması onun vəzifəsi idi. Übeyd xan əvvəllər bölgədə mövcud olmuş məzhəbin dəyişdirilməsini düzgün saymırdı. O, xüsusi ilə Şeybani xanın dövründə bölgədə

mövcud olmuş durumu təqdir edir və iddia edirdi ki, Şeybani xanın rəhmətə getməsindən sonra Xorasan camaatı din yolunu azmış insanların, yəni Səfəvi təriqət tərəfdarlarının təzyiqlərinə giriftar olmuşdur. Übeyd xana görə, Xorasan əhalisi zorla şiələşdiriləndən sonra bu əhali artıq islam ordusuna qayğı göstərə bilmirdi. Buna görə də belələri xarabalıqla üzləşməli olmuşdular. Übeyd xan belələrinin cəzalandırılmasını haqlı hesab edirdi. Onun yazdığına görə, məzhəbini dəyişməyənlər isə hər hansı bir təzyiqə məruz qalmır, əksinə, özbəklərin qayğısı ilə əhatə olunurdular. Yəni Übeyd xan bir daha ona işarə edirdi ki, Xorasan vilayətinin şiə əhalisini incitməkdə davam edəcəkdir və bunu etiqad baxımından da doğru sayırdı: "Səltənət və ədalətin ünvanı, həşəmət sahibi, əyalət ağası, cah-calal yiyəsi və mənalardan nəsib alan Təhmasib mirzə tərəfindən varid olmaq şərəfi tapmış şanlı məktub və istəkli səhifə yaxşı bir zamanda və bəyənilən bir saatda çatdı və dəfələrlə bəyan etdikləri sözlər [tərəfimizdən] eşidildi. Hər iki tərəfin qoşunlarının yürüşləri ucbatından Xorasanın xaraba qaldığı haqqında yazdıqlarınız həqiqətə uyğundur. Bizim məqsədimiz odur ki, Həzrət Rəsulun (ə), Raşidi xəlifələrinin və mömin imamların zamanından üzü bəri aləmdə və aləm sakinləri arasında intizam tapmış olan din, ümmət və məzhəb dəyişdirilməsin.

Əgər zəmanənin fəsadı səbəbindən peyğəmbər ümmətinə xələl və ziyan dəyərsə, imkan daxilində bunun dəf edilməsi və aradan qaldırılması üçün çalışmaq bizə vacibdir. Şəhid xaqan – Allah onun dəlilini nurlandırsın – qəzavü-qədər camından şəhidlik şərbətini içdiyi vaxtdan etibarən Xorasan camaatı bidət və zəlalət əhlinin əlində giriftar olub istər-istəməz şiəliyə və rafiziliyə tabe olmuşdur və bu sifət həmin camaatın xasiyyətinə və təbiətinə çevrilmişdir. Buna görə də onlar lazımi şəkildə islamın ulu ordusunun qeydinə qalmırlar və köməklik göstərmirlər. O səbəbdəndir ki, onlar xaraba qalmağa üz tutmuşlar. Sədaqət üzündən islam qoşununa yardım edib din yoldaşlığı nümayiş etdirən kəslərə isə yaxşı məlumdur ki, [biz] onların barəsində nə cür iltifatlar göstərmişik. Fəqət nifaq içində olan və islama itaətdən bo-

yun qaçıran şəxslərə gəlincə, onların başına gələn pərişanlıqlar zülm sayılmaz. Necə ki deyiblər:

Beyt
Bu zülm ki, aləmdə peydadır,
Hamısı zülm görkəmli ədalətdir" (76).

Sonra Übeyd xan məktubunda Şah Təhmasibin ötən il özbək qoşunlarına üstün gəlməsinə, özbək qoşunlarının tənbeh edilməsinə baxmayaraq bu qoşunların yenidən Xorasan üzərinə hücum etmək cəsarəti haqqında fikirlərini açıqlayırdı. Bunun necə baş verməsi haqqında yuxarıda danışılmışdır. Məlumdur ki, qüvvələr nisbətinin çox böyük dərəcədə özbək qoşunlarının xeyrinə olmasına baxmayaraq, sonda Übeyd xan və onun müttəfiqləri məğlub duruma düşərək döyüş meydanından qaçmışdılar. Şah Təhmasib də təəccüblə Übeyd xandan soruşurdu ki, həmin məğlubiyyətdən sonra Xorasan üzərində nəzarəti ələ keçirmək üçün yenidən qoşun çəkilməsi necə baş vermişdir? Yəni keçən il özbək qoşunlarının başına gələnlər yenidən təkrarlana bilərdi. Übeyd xan isə Şah Təhmasibin yazdığı ilə razılaşmırdı və onun işarə etdiyi döyüşdə özbək qoşunlarının qalib durumda olmasını bəyan edirdi. Bununla Übeyd xan həm də Səfəvi sərhədləri üzərinə ikinci hücumunun nəticələrinə də qiymət verirdi. O bildirirdi ki, ikinci hücum zamanı özbək qoşunları və onlara müttəfiq olan qüvvələr, əslində, Səfəvi qoşunlarına üstün gəlmişdilər. Səfəvi qoşunları təzyiqlərə davam gətirməyərək geri qaçanda özbəklər onların mallarını və əşyalarını talan etməklə məşğul oldular. Übeyd xana görə, bu zaman özbək döyüşçüləri döyüş meydanında qalxmış toz-dumanın arasında qızılbaş dəstəsinin qalmasından xəbərdar deyildilər və həmin dəstənin qəfildən döyüşə qatılması döyüşün gedişinə əks-təsir göstərdi. Übeyd xan bunu bir təsadüf kimi dəyərləndirirdi və bu təsadüfin baş verməyəcəyi təqdirdə qələbənin özbəklər tərəfində olacağına şübhə etmirdi: "Əgər bunlar olmasa, niyyətimizdə və fəaliyyətimizdə islam əhlinin rifahından, ədalətdən və mülkün abadlığından savayı heç nə yoxdur və olma-

yacaqdır. “Əməllər niyyətlərə görədir” kəlamının zərurətinə uyğun olaraq, ümidimiz var ki, öz niyyətimizə müvafiq dərəcə tapaq. Bundan əlavə, yazmışdınız ki, keçən il o cür tənbeh olunmağınıza baxmayaraq, nə üçün yenidən Xorasan səltənətinin arzusunu edirsiniz? Özünüzə məlumdur ki, islam qoşununun şövkəti sizin ordunuza necə üstün gəlmişdi. Firdovsinin dediyi kimi:

Beyt
Atların tapdaqlarından o geniş çöldə,
Zəmin altı oldu, asiman yeddi.

İki tərəfin qaldırdığı toz-torpaq içində qoşunlarınız qaçdıqdan sonra islam qaziləri bu fürsəti qənimət bilib onların mallarını və əşyalarını əxz etməklə məşğul oldular. Amma onlar bir dəstə [qızılbaş əsgərinin] tozanağın ortasında məxfi qaldığından qafil idilər. Təqdirə uyğun şəkildə belə bir hadisə baş verdi. Hərbçilik aləmində bu cür işlər eyib deyildir.

Nəzm
Lovğalanıb demə ki, əlimdə ağıl əsası var,
Çünki fitnənin əli uzundur və çubuğun iki başı var” (77).

Übeyd xan islam peyğəmbərinin iştirak etdiyi Uhud döyüşünə işarə edərək bildirirdi ki, peyğəmbər ümməti də peyğəmbərin əməllərindən dərs götürməlidir və onun yolunu davam etdirməklə fəth və qələbələrə yiyələnməlidir. Özbək xanı öz mübarizəsini də islam peyğəmbərinin yolunun davam etdirilməsinə oxşatmaq istəyirdi. Onun fikrincə, qoşunları ilə birlikdə bu mübarizə yolunu ona görə tutmuşdu ki, gerçəklik sədəfini əldə etsin. O, qarşılaşdığı çətinliklərə baxmayaraq, tutduğu yoldan çəkinməyəcəyini bildirirdi. Yəni Übeyd xan bəyan edirdi ki, Xorasan vilayətinə hücumlarından əl çəkməyəcəkdir və bu hücumlara haqq qazandırmaq üçün niyyətinin islami dəyərlərlə bağlı olduğunu iddia edirdi. Übeyd xan bir qədər qabarıq şəkildə Şah Təhmasibin diqqətinə çatdırmaq istəyirdi ki, əvvəlki döyüşün nəticələri özbək qoşunlarının xeyrinə olmasa da, hazırkı döyüşdə məqsədinə ye-

tişəcək və bununla əvvəlki döyüşlərin də əvəzini çıxacaqdır. Qarşılaşdığı əvvəlki uğursuzluğu isə Übeyd xan heç də Səfəvi qoşunlarının qələbəsi kimi deyil, Allahın onlara göndərdiyi qədər kimi dəyərləndirirdi və bildirirdi ki, Allah islam əhlini bu cür dəfələrlə tənbih etmişdir: "Həzrət Rəsulun (ə) bir dişinin şəhid olduğu (sındığı) Uhud qəzavatından sonra neçə-neçə fəth və qələbə islam əhlinə nəsib oldu. Əgər o həzrətin ümmətləri də o həzrətə bənzəsələr, ondan sonra fəth və qələbələr üz verər. Heç eybi yoxdur. İslam dəryalarının dənizçiləri ona görə şövq gəmisini qəzavatın dərin bəhrinə salmışlar ki, gerçəklik sədəfini əldə etməyincə və şahvar incini ovuclarına almayınca aram tutmasınlar. [Onlar] bu qədər zahiri zərər və nöqsana baxmayaraq, himmət ayağını mərdanəlik və cürət meydanlarından geri çəkməyəcəklər.

Şeir
Ta o yeganə dürr torumuza düşməyincə,
Biz ayağımızı dəniz sahilindən çəkməyəcəyik.

Ötən dəfə ordu və qoşunumuza belə bir hal-qəziyyə üz versə də, [Allahın] tərifli hüsn-rəğbətindən bir ümidim var ki, bu dəfə olub-keçənlərin əvəzini çıxacağıq və məqsədimiz hasil olacaqdır. Necə ki demişlər:

Nəzm
İtmiş Yusif yenə gələr Kənana, qəm yemə!
Qəmxana dönüb olar bir gün gülüstan, qəm yemə!
Fələyin dövrü əgər iki gün bizə tərəf dönmədisə,
Daima eyni cür qalmaz dövranın halı, qəm yemə!
Bax ha, ümidsiz olma, çün qeybin sirrinə vaqif deyilsən,
Pərdə arxasında var pünhan oyunlar, qəm yemə!

Şanlı və ulu Allah islam əhli barəsində bu cür tənbehləri çox etmişdir. Daha sonra [öz məktubunuzda] bizim beytimizi yazmışsınız:

Şeir
Heratı tutaram ilahi lütf ilə,
Ordumla yeriyərəm Şam və Təbrizə" (78).

Yuxarıdakı beytdən göründüyü kimi, Übeyd xan yalnız Heratı ələ keçirmək niyyəti ilə kifayətlənmirdi. O, hətta Təbrizdən keçməklə Şama doğru irəliləmək planlarına malik olmasını da gizlətmirdi. Übeyd xan hələ bununla da kifayətlənmirdi. Onun fikrincə, yaradan da onun bu planını dəstəkləyirdi və ona görə də daha böyük planlara malik olduğunu dilə gətirirdi. Belə böyük iddalara malik olmasına baxmayaraq, Übeyd xanın Şah Təhmasibin gəlməsi xəbərini eşidən kimi Mərvə qaçmasını da özü üçün qəbahət və ya gücsüzlük saymırdı. Bu hərəkətini də o, islam peyğəmbərinin həyatından aldığı faktlarla müqayisə edir və bununla bir növ öz hərəkətlərinə haqq qazandırırdı. Übeyd xanın yazdığına görə, onun Heratdan Mərvə yollanması heç də təsadüf deyildi. Guya Mərvə yollanmaqda onun məqsədi orada daha çox və daha rahat şəkildə qoşun toplamaq imkanının olması idi. Sonra Übeyd xan yenidən Heratdan Mərvə qaçmasınsa haqq qazandırır və belə bir hərəkətin islam peyğəmbərinin sünnətləri çərçivəsində edildiyini bildirirdi. Ona görə Übeyd xanın fikrincə, onun Mərvə qaçmasının qınanmasını islam peyğəmbərinin sünnətlərinə qarşı çıxılması və cahillik kimi dəyərləndirirdi: "Fal yaşananlardan görünər" məzmununa uyğun şəkildə, niyyətimiz, fikrimiz və əndişəmiz həmişə [yuxarıdakı beytdə ifadə etdiyimiz] bu kəlamın mənası ilə üst-üstə düşür. Hər işin öz vaxtı vardır. Əzəli kərim və əbədi hakim [olan Allahın] hüsn-rəğbəti islam qoşununa yoldaş olduğu üçün bizim hələ bundan da artığına təvəqqemiz vardır. Digər bir beytimizi də yazmışsınız ki:

Nəzm
Aslanların aslanıyam, mən döyüşkən bir ərəm,
Aslanların zərbəsiylə yerimdən tərpənmərəm.

Yəni [bununla deməsk] istəyirsiniz ki, Heratı qoyub Mərvə tələsməyim bu beytimin məzmununa xilafdır. Əgər özünüzün xəbəriniz yoxdursa, onda bilən adamlardan soruşun ki, kafirlərin qələbə çaldıqları vaxtda Həzrət Rəsul (ə) Məkkədən nə yolla hicrət etdi və mühacir, ənsar deyilənlər o zamandan zühur etdilər. Möminlərin faydası, yəqinlik əhlinin rifahı və din qoşununun cəmləşməsi baxımından Heratda qalmaq məsləhət deyildi. Buna görə də məkanımızı dəyişdirdik. Necə ki demişlər:

Nəzm
Qəflətən bir aqil qəzadan, bəladan qaçdı,
Cahil tənə vurdu ki, filankəs qəzadan qaçdı.
Əgər səbəbdən səbəbə qaçmaq rəva deyildirsə,
Xeyrülbəşər Məkkədən Yəsribə nə üçün qaçdı?

Həzrət Əmirülmöminin Əli (ə) özünün dürr yüklü kəlamında bu beyti buyurmuşdur:

Şeir
Ölümdən qaçmaq üçün iki günü seçmək
məcburiyyətindəyəm,
Birisi ölümün təqdir edilmədiyi gündür,
digəri isə ölüm günüdür.

Bu mənaya uyğun surətdə biz də vahid [Allahın] qəzavü-qədəri daxilində məkan dəyişdirdik. Allaha həmd olsun ki, bu hicrətimiz Həzrət Rəsulun (ə) həmin sünnəti tərzində baş vermişdir. Bu işdə kimsə bizə tənə edərsə, onun tənəsi Rəsula da aid olar. Bu üzdən həmin işə tənə vurmaq son dərəcə cahillikdir “(79).

Übeyd xan məktubunun davamında Şah Təhmasibin toxunduğu bəzi məsələlərə də münasibətini bildirirdi. Bunlardan biri Durmuş xanın dövründə Heratda firavanlığın mövcud olması və Səfəvi hakimiyyətindən sonra bu şəhərdə hakimlik etmiş Sultan Hüseynin hakimiyyəti illərinin insanlar tərəfindən unudulması idi. Yəni Şah Təhmasib bununla bildirmək istəyirdi ki, Herat Sə-

fəvi hakimiyyəti altına keçəndən sonra, xüsusilə onun özünün və lələsi Durmuş xanın Heratda hakim olduğu zaman bu şəhərin əhalisi daha yaxşı şəraitdə və firavanlıq içərisində yaşayırdı. Übeyd xan isə Şah Təhmasibin bu fikrinə cavab verərək bildirirdi ki, Durmuş xanın dövründə deyil, məhz Sultan Hüseynin dövründə Herat daha yaxşı firavanlıq içində idi. Onun fikrincə, Sultan Hüseynin dövründə mədrəsə və xanəgahlar açılmış, məscidlər və məbədlər inşa olunmuşdu. Übeyd xanın yazdığından belə məlum olurdu ki, Səfəvi hakimiyyəti illərində isə mədrəsələr və xanəgahlar pis günə qalmış, məscidlər və məbədlər at tövləsinə çevrilmiş, onların qapı və pəncərələri sökülüb odun kimi istifadə olunmuş, əksər məscidlərdə şərabxanalar yaradılmışdı. Übeyd xan yazırdı ki, onun Herat şəhərini ələ keçirməsindən sonra bu şəhərin vəziyyətini düzəltməyə başlamışdı. Yəni Sultan Hüseynin dövründə tikilmiş mədrəsələrin, xanəgahların xeyriyyə binalarının təmirinə başlandı, məscid və məbədlərin binalarından heyvanların tör-töküntüləri təmizləndi, bu ictimai yerlər üçün müdərrislər, tələbələr və xadimlər təyin edildi və Durmuş xanın dövründə yol verilənlər aradan qaldırıldı: "Daha sonra deyirsiniz ki, sizin əmirlərinizdən biri olan Durmuş xan Heratda elə bir firavanlıq yaratmışdı ki, camaat mərhum padşah Sultan Hüseyn mirzənin zamanını unutmuşdu. Məgər adı çəkilən padşahın zamanında mədrəsələr və xanəgahlar bu rüsvayçılıqda idimi? Məscidləri və məbədləri atların və eşşəklərin tövləsinə, bəlkə, lap ayaqyoluna çevirmişdilərmi? Bütün zərnigar kaşıları viran etmişdilərmi? Qapıları və taxtaları odun kimi aparmışdılarmı? Əksər məscidləri şərabxanaya və günah məkanına döndərmişdilərmi? Biz səadətlə şəhərə gəldiyimiz zaman ilk öncə Sultan Hüseyn mirzənin mədrəsələrinin, xanəgahlarının və s. xeyriyyə binalarının təmirinə səy göstərdik, adamların və heyvanatın tör-töküntülərini məscidlərdən və məbədlərdən bayıra çıxarıb [oralar üçün] müdərrislər, tələbələr və xadimlər müəyyən etdik. [Oraları] abadlaşdırdıq. Durmuşun [yaratdığı] firavanlığın keyfiyyəti bu hadisədən məlum olur" (80).

Şah Təhmasib ilk məktubunda Übeyd xanı məzlumların ahından çəkinməyə, yəni onları incitməməyə çağırmışdı. Übeyd xan bu ittihamla da razı deyildi. O bəyan edirdi ki, özbək döyüşçüləri tərəfindən hətta bir mömünə belə ziyan dəyməsi ilə razı deyildi. Übeyd xan israr etməyə çalışırdı ki, mömün insanlara əziyyət verilməsi onun siyasətində yoxdur. Belə halların ola bilməsini isə ayrı-ayrı adamların qəfləti və ya səhvi kimi dəyərləndirirdi. Übeyd xan yazırdı ki, əgər mömün insanlara əziyyət verilməsindən xəbərdar olub, günahkarı cəzalandırmamış olsa onda belə əməllər üçün onu ittihamlandırmaq olardı. Şah Təhmasibin Əli nəsli ilə düşmənçilik edənlər məhv olarlar – ittihamı ilə də Übeyd xan razılaşmırdı. Übeyd xan məktubunda Əmirəl-mömin Həzrət Əlini islam peyğəmbərinin əshabələrindən biri sayırdı və ona qarşı səhvə yol verənlərin də düzgün yolda olmadığını bildirirdi. Sonra Übeyd xan həzrət Əliyə qarşı münasibətdə Səfəvi təriqət tərəfdarlarının özlərinin düzgün mövqedə olmadıqlarını bildirirdi və bunu əsaslandırmağa da çalışırdı. Bu mənada ölülərin qəbirdən çıxarılıb yandırılmasını, insanların saqqallarının qırxılmasını, onların qulaqlarına halqa salınmasını, Həzrət Əliyə səcdə edilməsini Əmirəlmömininin adına uyğun gəlməyən əməllər kimi şərh edirdi. Bununla o, eyni zamanda şiə tərəfdarlarının düzgün yolda olmadıqlarını əsaslandırmağa çalışırdı. Übeyd xan əsaslandırmağa çalışırdı ki, Əmirəlmöninin Həzrət Əli ulu şəxsiyyətlərə hörmətlə yanaşmışdı, islam peyğəmbərinin kübar səhabələrinin yolunu izləyirdi, heç vaxt onlara müxalifətçilik etməmişdi. Daha sonra isə Übeyd xan Səfəvi şahını həm islam peyğəmbərinin, həm də ulu əcdadı, sünni məzhəb Şeyx Səfinin yolunu izləməməkdə suçlandırırdı: “Daha sonra yazmışsınız ki:

Misra
Məzlumların ahının oxundan həzər eylə!

Ey əziz! Mövcudluğu vacib olan həzrətə (Allaha) aydındır ki, bizim əsgərlərimizdən bir möminə ziyan dəyməsinə əsla razı deyiləm, bu işə razılıq verməərəm və belə bir şey bizim niyyət və

fəaliyyətimizdə yoxdur. Əgər qəflətdən və ya səhvdən [bu cür bir hadisə] olubsa da, [bizim ondan] xəbərimiz olmayıb. Buna görə də "Hər kəsin qazandığı günah ancaq özünə aiddir, heç bir günahkar başqasının günah yükünü daşımaz" [*Ənam" surəsi, 164-cü ayə*] ayəsinin səadətli məzmununa uyğun şəkildə əfv ediləcəyəm. Yox, əgər [hadisədən] xəbər tutduqdan sonra bu işlə məşğul olmasam, yalnız o zaman mən məsuliyyət daşımış olaram. Daha sonra yazmışsınız ki:

Misra
Hər kim ki Əli nəsli ilə düşmənçilik edər, məhv olar.

Hər kim ki mömindir, müsəlmandır və axırda nicat tapmaq ümidinə malikdir, [o kəs] keç vaxt Həzrət Rəsulun (ə) ulu səhabələrinin dostluğunu əldən verməz. Elə Həzrət Əmirülmöminin Əli (ə) də onlardan (səhabələrdən) biridir. Onların şanlı övladları ilə düşmənçilik etmək də eyni şəkildə islam dinindən uzaqdır. Amma biz elə bir tayfa ilə mübahisə və mücadilə aparırıq ki, onlar o böyük şəxsiyyətin (Məhəmməd peyğəmbərin) övladları olduqlarından dəm vursalar da, öz atalarının məzhəbini və əqidəsini tərk etmiş, şeytanın lənət və zəlalətinə tabe olmuş, haqqın yolundan sapmış, rafizilik və şiəliyi qəbul etmiş, şeyxeyni söyməyin küfr olduğunu bilə-bilə bu küfrü gecə-gündüz özlərinə şüar etmişlər. "O, sənin ailəndən sayılmaz" [*Hud" surəsi, 46-cı ayə.*] ayəsinin məzmununa əsasən, Həzrət (Məhəmməd) Mustafa o cür övladlardan bezardır.

Nəzm
Xoşdur ki, övlad əcdadına sadiq xələf olsun,
Əgər naxələf çıxarsa, onu görüm, tələf olsun.
Rəzil xislətli və bəd məzhəbli övlad,
Atası üçün əziyyətdir, öz-özü üçün möhnətdir.

Və doğru xəbər gətirən, "Kəlami-Məcid" də ("Qurani-Kərim" də) xəbər verir ki, "Sur çalındığı gün [insanların] arasındakı əsil-nəsəb (qohumluq) əlaqələri fayda verməz və [onlar] bir-biri-

lərindən heç bir şey soruşa bilməzlər”[*Möminun” surəsi, 101-ci ayə*]. Cəza günündə sorğu-sual nəsəbdən deyil, əməldən olacaqdır. Daha sonra, Həzrət Mürtəza Əlinin (ə) övladı və dostu olduğunuzu iddia edirsiniz. Lakin o böyük şəxsiyyətin övladı olub-olmadığınız şübhədən xali deyildir. Belə olan təqdirdə onun övladı olduğunuzu axı necə iddia edə bilərsiniz? Çünki Həzrət Rəsul (ə) buyurmuşdur ki, hər kim digər bir kəsin atasının öz atası olduğunu söyləyərsə, lakin əslində həmin adam onun atası deyilsə, o zaman həmin şəxs behiştə daxil ola bilməz. Əgər siz Həzrət Mürtəzanın (ə) övladısınızsa, onda mənə deyin görüm, o böyük şəxsiyyət hansısa bir ölünü gordan çıxarıb yandırıbmı? Neçə-neçə adamların saqqalını, qaşını qırxaraq, qulaqlarına halqa salaraq islam xəlifəsi edibmi? Ömründə bir rükət namaz qılmamış hansısa murdarı, binamazı və söyüşçünü təbərrayi edərək onu öz yaxın adamına çeviribmi? Hansısa bir adama buyurubmuş ki, mənə səcdə et?! Həzrət Rəsul (ə) buyurub ki, əgər Allah-taaladan başqasına səcdə etmək rəva olsaydı, mən əmr edərdim ki, qadın öz ərinə səcdə etsin. Buradan aydın olur ki, Allah-taaladan başqasına səcdə etmək rəva deyildir və küfrdür. Lakin bütün bu sadalanan əməllər artıqlaması ilə sizin nəslinizdə vardır. Bu qədər qəbahətə baxmayaraq, bizə moizə oxuyursunuz. İndi özünüzü tanıyın və [xəcalətdən] başınızı yaxanızın içinə çəkin! Həzrət Mürtəza (ə) elə bir böyük şəxsiyyət idi ki, ulu səhabələrə beyət etmişdi, onların arxasında namaz qılmışdı və onlara tabe olmuşdu. O ulu şəxsiyyətlərin ölümündən sonra isə o həzrət haqq xəlifəsi olmuşdu. Əgər o, həmin ulu şəxsiyyətlərin batil olduğunu bilirdisə, niyə görə onların cəsədinin Həzrət Rəsulun yanında qalmasına izin verirdi və onları oradan çıxarmırdı? Deməli, məlum olur ki, o ulu şəxsiyyətlər haqlı olmuşlar ki, [Həzrət Əli də] onlara qarşı çıxmamışdır. Hər kəsə bəllidir ki, Həzrət Mürtəza Əli (ə) Rəsulun (ə) və kübar səhabələrin yoluna tabe olmuş və heç vaxt onlara qarşı müxaliflik etməmişdir. Sizin ulu əcdadınız mərhum cənab Şeyx Səfinin də haqqında belə eşitmişəm ki, əziz bir adam imiş və əhli-sünnət və camaatdan imiş. Bizi böyük heyrət bürüyür ki, siz nə Həzrət Rəsulun (ə) yoluna tabesiz, nə də

ulu əcdadınızın. Əgər belə isə, o əzizlərin övladı olduğunuz haradan bəlli olur? Necə ki demişlər:

Nəzm

Bir beççənin aslanı qova bilməsi mümkün olmadığı kimi,

Sənin də peyğəmbər haqqında belə danışmağın mümkün deyildir.

Və bundan başqa demişlər ki:

Nəzm

Nəsəbi və nisbəsi bilinməyən adamın,

Yeganə şahidi fəaliyyətidir.

Hər halda o ulu şəxsiyyətlərin yoluna tabe olan hər kim dünyəvi mənfəət üzündən bidət və zəlalətə boyun əyərsə, “Onların dünyadakı zəhmətləri boşa getmişdir, halbuki onlar yaxşı işlər gördüklərini zənn edirdilər” [*Kəhf” surəsi, 104-cü ayə*] ayəsinin məzmununa gərək nəzər etsin və ibrət götürsün.

Misra

Aynanın arxasında tuti sifətim gizlənmişdir” (81).

Übeyd xan məktubunun sonunda Mərvdə ləngiməsinin səbəbini də açıqlayırdı. O bildirirdi ki, Mərvdə olarkən Səmərqəndin, Daşkəndin, Türküstanın, Əndicanın, Hisari-Şadmanın, Bəlxin və Şibirğanın cəmi sultanları və xanları da öz qoşunları ilə qəzavat müharibəsində, yəni Şah Təhmasibin qoşunlarına qarşı döyüşdə iştirak etmək istədiklərini bildirmişlər. Übeyd xan bildirirdi ki, məktubu yazdığı vaxt həmin qoşunlar gəlib Mərvə çatmışdılar və onlar döyüşə hazırlaşırdılar. Məktubunun sonunda Übeyd xan bildirirdi ki, əgər qızılbaşlar islam peyğəmbərinin yolunu davam etdirsələr, onda onlara qarşı müharibə və münaqişə yolundan çəkinəcəkdir. Bu yoldan imtina edənlərə qarşı isə silah qaldırmağı Übeyd xan vacib bir vəzifə sayırdı: “Bundan başqa, bizim Mərv vilayətində qalmağımızın səbəbi o idi ki, Süleyman məkanlı əlahəzrət paytaxt Səmərqəndin, Daşkəndin, Türküstanın, Əndicanın, Hisari-Şadmanın, Bəlxin, Şibirğanın cəmi xanları və sultanları ilə birlikdə böyük bir qoşunla yola çıxmışdı və bizə məktublar və ismarışlar göndərib təkid etmişdi ki, tezliklə qəza-

vat səadətinin şərəfinə müşərrəf olacağıq və buna görə də qalibiyyətli əsgərlərin gəlib çatmasına qədər döyüşü təxirə salın ki, biz də bu səadətdən məhrum qalmayaq. Bu günlərdə o həzrətlər külli cəmiyyətlə birlikdə cah-calalla gəlib çatmışlar. Allahın bir qəzası baş verməzsə, köçhaköçlə qəzavat və cihada yollanacağıq, inşallah. Hər halda, peyğəmbər şəriətinə müxalif çıxanlar və bidətlə zəlalətin ardıcılı olanlar haqqında din böyükləri və yəqinlik əhlinin öndərləri belə buyurmuşlar:

Nəzm
Hər kəs dinə fəsadla xələl gətirirsə,
Yaxud zəkat vaxtı alnını qırışdırırsa,
Həmin adam cəzaya layiq olar,
Və cahanın cabbarı (Allah) onun başına elə vurar ki, Dəbilqəsinin sorağı Maçin diyarından gələr. Nə vaxt ki siz o böyük insanın (Məhəmməd peyğəmbərin) yolunun yolçusu olacaqsınız, bizim sizinlə heç bir mübahisəmiz və münaqişəmiz olmayacaqdır. Lakin indi ki bu gözəl yoldan imtina etmişsiniz, sizi dəf və rəf etmək bizə lazım və vacibdir.

Şeir
Bizim sizinlə aramıza təəssübkeşlik girmişdir,
Lakin bu təəssüb şan-şöhrətdən deyil, dini təəssübdür.

Şeir
Əməllərimiz halımıza dəlalət edər daim,
Bunlardan ibrət al ki, davamın gəlsin.

Vəssəlam! “[Ey Məhəmməd!] Müjdə ver o kəslərə ki, sözə qulaq asarlar və eşitdiyi sözlərin ən yaxşısına tabe olarlar”[ *“Zümər” surəsi, 18-ci ayə.*] “ (82).

Göründüyü kimi, Übeyd xan bu məktubunda Xorasan vilayətinə iddiasından əl çəkmirdi və bu iddianın həyata keçirilməsini isə daha çox məzhəb davası kimi irəli sürürdü. Bu isə sözsüz ki, Şah Təhmasibi razı salmırdı və ona görə də o, Xorasan üzərinə hərbi yürüş üçün hazırlıqlarını gücləndirdi. Mövcud olan məlumatlara görə, Şah Təhmasib Xorasan üzərinə son hazırlıq işlərini Qəzvində aparmış və Übeyd xanın məktubunu da burada almışdı.

Şah Təhmasib özbək xanının məktubunu cavabsız qoymadı. Übeyd xanın elçilərinə qiymətli hədiyyələr payladıqdan sonra Şah Təhmasib öz məktubunu da onlara verdi. Elçilər də həmin məktubu alıb geriyə üz tutdular.

Übeyd xanın təhdid məzmunlu məktubuna Şah Təhmasibin verdiyi cavab da kəskin məzmuna malik idi. Bu məktubun elə ilk sətirlərindən Şah Təhmasibin istehzasını və təəssüfünü duymaq mümkündür. Xüsusilə, Übeyd xanın islamın bərqərar edilməsi, müsəlmanlar arasında özünə yer tapmış bidətin və azğınlığın dəf edilməsi üçün Xorasana yürüş etdiyini bildirməsinə Şah Təhmasib ağır cavab vermişdi. Şah Təhmasib özbək qoşunlarının Xorasana yürüşünə işarə edərək bildirirdi ki, bu vilayətin gözəl şəhərlərini itaətsiz və qabiliyyətsiz adamların çirkli vücudları kədərə batırmış, şəhərləri xaraba qoymuş, insanları əzab-əziyyətə giriftar etmişdilər. Məktubda o da bildirilirdi ki, özbək döyüşçüləri, əmirləri vilayətə hücum edərək uşaqların və qadınların qanını tökmüş, onların namusuna təcavgüz etmiş, insanların varı-nı-əmlakını qarət etmiş, islam peyğəmbərinin şəriətini, islam dininin qanunlarını pozmuşlar. Məktubda verilmiş nəzm parçasında da Übeyd xandan Xorasan vilayətinə hücum niyyətlərindən əl çəkməsi tələb olunurdu. Bu nəzm parçasında Həzrət Əlinin ayaq basdığı torpağa and içilirdi ki, Übeyd xan bədəni parça-parça edilməyincə ona qarşı qoşun çıxarılması planından əl çəkilməyəcəkdir: "Zəlalət və cəhalət çölünün sərgərdanlarının şikəstə yazan qələmi, yaramazlıq və sapqınlıq vadilərində azmışların şirk əlamətli kilki ilə təsvir edilmiş və yazılmış əcaib imlalı və qəribə inşalı məktub, zəfərin yaxın olduğu və qələbənin müşayiət etdiyi üzənginin mülazimi olan bəzi münşilərin nəzərinə dəymiş və məzmunu zati-alilərimizin yüksək ərzinə çatdırılmışdır. Amma bu məzmun [ondan ibarətdir] ki, qələminizin kirli dili ilə Xorasana gəlməkdə məqsədinizin islamın intizamı, bidətin və azğınlığın dəf edilməsi olduğunu yazmışsınız. Məxfi qalmasın ki, itaətsiz və qabiliyyətsiz adamlarınız öz çirkli vücudlarının xəbisliyi ilə Xorasanın gözəl şəhərlərini kədərə və çirkaba batırmışlar, şəhərləri xaraba qoymağa və bəndələrə əziyyət verməyə alçaq-

casına səy göstərmişlər. Əmirləriniz uşaqların və qadınların qanını tökməkdən və onların irzinə, namusuna təcavüz etməkdən başqa bir iş görməmişlər və malları soymaqdan və qarət etməkdən, peyğəmbərlər ağasının (Məhəmməd peyğəmbərin) və məsum imamların doğru şəriətinin və mətin dininin qanunlarını pozmaqdan savayı heç nə törətməmişlər.

Nəzm
Ey Allahdan bixəbər nadürüst,
Və ey qədəmi islam yolunda süst olan!
Bu qarəti və yağmaçılığı tərk et,
Məni eşit və hökmranlıq [fikrini] başından at!.
Axı nə qədər zülm qübarını yaymaq olar?!
Axı nə qədər günahsızların ürəyinin qanını tökmək olar?!
Axı nə qədər insanların evlərini yıxmaq olar?!
Hesab gününün sorğu-sualından qorx!
Sitəmdən, cövrdən və kindən əl çək,
Ayağını ətəyinə çək və bir küncdə otur!

Əgər belə etməsən, aslan ovlayan, igidlərin sərvəri olan əmirin, yəni Əlinin ayaq pəncəsinin torpağına and içirəm ki:

Səni parça-parça etməyincə,
Mən bu macəradan əl çəkməyəcəyəm" (83).

Übeyd xanın öz başına çox böyük sayda qoşun toplaması və bu qoşunların Xorasan vilayəti üzərinə hücuma hazırlaşması haqqında məlumat verməsi Şah Təhmasibi heç də təşvişə salmadı. Əksinə, o, çox böyük qətiyyətlə Übeyd xana bildirirdi ki, Xorasan vilayətinə hücum edəcəyi təqdirdə onu parça-parça etməsə yürüşündən əl çəkməyəcəkdir. Şah Təhmasib də Übeyd xanı və onun ətrafındakıları islam peyğəmbərinin yolunu azmaqda, Murtəza (Həzrət Əli) məzhəbinin qaydalarını inkar etməkdə ittihamlandırırdı. Quran ayələrinə istinad etməklə, Şah Təhmasib ona öyüd-nəsihət verməyə çalışan Übeyd xanı və onun

həmfikirlərini səfeh kimi qəbul edirdi. Şah Təhmasib şübhə etmirdi ki, Übeyd xan və onun ətrafındakılar naqis və pozğun fikirlərə aludə olublar, batil xəyallara, cəhalətə, fitnə-fəsada giriftardırlar. Beləəri küfr və mənasız çağırışlarla çoxlarını qorxu altında saxlayırlar və bu yolla cahilləri və acizləri öz təsirləri altına salırlar: "Deyəsən, o ikrah doğuran güruhunuz və o şövkətsiz tayfanız möminlərin mallarını tarac etməyi sonuncu peyğəmbərin (Məhəmməd peyğəmbərin) dininin rəvac tapması və dirçəlişi kimi başa düşür və nahaq qan tökməyi və mütləq surətdə küfr törətməyi Allahın sadiq elçisinin ümmətinin nizam-intizamı və rövnəqlənməsi hesab edir. Ümumiyyətlə, sizlər düzgün dindən və doğru yoldan azmış və sapmışsınız, səfehliyinizin çoxluğu və bədbəxtliyinizin bolluğu ucbatından batil istək və pozğun xəyallarla Mustafanın dininin qanunlarını və Mürtəzanın məzhəbinin qaydalarını inkar etmişsiniz. "Onlara: "Başqaları iman gətirdikləri kimi siz də iman gətirin!" – deyildiyi zaman [öz aralarında]: "Biz də səfehlər (ağılsızlar) kimi iman gətirək?" - deyə cavab verirlər. [Ey möminlər!] Agah olun ki, səfeh onların özləridir, lakin [bunu] bilmirlər" [*"Bəqərə" surəsi, 13-cü ayə*].

Nəzm

Sənin fəsadından cahan bezmişdir,
Səndən Allah və peyğəmbər bezar olmuşdur.
Zülm edirsən və buna ədalət adı qoyursan,
Sənin ədalətin başdan-başa tam bir zülmdür.
Ey mərdimazar, sənin adətin küfrdür,
Bu xisləti tərk et, abrın-həyan olsun!
Əgər belə etməsən, and olsun Uhud döyüşünün fatehinə,
[İbn] Əbdüvədin başını kəsən şəxsə.
Səni elə alt-üst edərəm ki,
Səndən və sənin adından heç bir nişan qalmaz.

Naqis, nalayiq və xəstə sözlərlə, cürbəcür bəlalar və məşhur naxoşluqlarla, pozğun fikirlərə qapılmaq və batil xəyallara düşməklə giriftar olmuşsunuz, cəhalətinizin və fitnə-fəsadınızın çoxluğu, küfrünüzün və inadkarlığınızın bolluğu ilə inad əhlini öz

arxanızca aparmışsınız, hədyan və mənasız kəlmələrlə, qarma-qarışıq və batil sözlərlə acizlərin və cahillərin etiqad qayığını küf-rün qorxunc girdabına, şirkin batilliyinə və tüğyana salmışsınız. “Onların ürəyində mərəz (nifaq və həsəd mərəzi) var. Allah onların [şəkk, kin və nifaq] mərəzini daha da artırar. Yalan dedikləri üçün onlar şiddətli bir əzaba düçar olacaqlar!”[*Bəqərə” surəsi, 10-cu ayə*]

Nəzm
Ey sən, başdan-ayağa zülm və fəsad içində olan,
Sənin inadkarlıqdan başqa işin-gücün yoxdur.
Sən əvvəlcə özün ədəbin nə olduğunu öyrənməlisən ki,
Ondan sonra başqalarına ədəb öyrədəsən.
Öz cahilliyin ucbatından bilik iddiası edirsən,
Sənin təhsilinin səmərəsi səmərəsizlikdən ibarətdir.
Mənim dövlətimi gör və boşbağazlıq etmə,
Cəhalətin həddini aşdı, cahillik etmə!
Əgər belə etməsən, Mürtəza Əlinin,
Kövsərin saqisinin və Xeybəri alan şahın haqqına,
Sənin kökünü qılıncla elə qopararam ki,
Səndən cahanda heç bir əsər-əlamət qalmaz ” (84).

Şah Təhmasib özbək xanını cahillikdə ittiham etməklə yenə də onu qətiyyətli şəkildə təhdid edirdi. Açıq şəkildə bəyan edirdi ki, əgər Übeyd xan öz niyyətlərindən əl çəkməsə qılıncı ilə onun kökünü qoparacaq və yer üzündə ondan hər hansı bir əsər-əlamət qalmayacaqdır. Sonra məktubda Übeyd xanın şiə təriqəti və həzrət Əli ilə bağlı düzgün təsəvvürə malik olmadığı bildirilir və onu əcdadları kimi səhv yola düşməkdən, batil məzhəbdə olmaqdan çəkindirmək tövsiyələri ifadə olunurdu. “Quran” ayələrinə istinad etməklə Şah Təhmasib ata-babaların ənənələrinin, yolunun davam etdirilməsinin heç də hər zaman doğru olmadığını diqqətə çatdırırdı: “Xəbərləri eşitmək qabiliyyətinizin yoxluğu və görmə qüvvətinizin naqisliyi ucbatından hərçənd adlı-sanlı müzəffər qazilər nəciblərin və qorxmaz igidlərin ağasının (Həzrət Əlinin) davranışlarını sizin nəzərləriniz qarşısında həyata

keçirsələr də, aslan ovlayan mübarizlər gövhər saçan qılıncın dili ilə məlahətli ayələrin sədasını sizin qulağınıza çatdırsalar da, buna baxmayaraq, hələ də küfr və cəhalət burulğanında sərgərdan, şirk və sapqınlıq (zəlalət) zülmətində çaş-baş qalıb, topuq vuran dilinizlə cürət və cəsarət izhar edirsiniz və süst qədəminizlə boş laqqırtı yolunda addımlayırsınız. "Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir!" [*"Bəqərə" surəsi, 6 və7-ci ayələr*]

Şeir
Ey kəmhövsələ və yaramaz kar,
Məndən və mənim dövlətimdən xəcalət çək!
Sən karsan və bəxtin kordur,
Axı korun və karın əlində nə zor ola bilər?!
Döyüş meydanında qədəmin süst olduğu üçün,
Sənin boş laqqırtıdan başqa işin-gücün yoxdur.
Bir halda ki, sən heç düz yerdə yeriyə bilmirsən,
Nə üçün kin ayağını çərxi-fələyin üzərinə qoyursan?!
Sən döyüş səfinə qədəm qoyduğun zaman,
Aslanlar qarşısında tülküdən də acizsən.
Savaş növbəsidir, özünü mərd kişilər kimi apar,
Qılınc qırmızı [qana] boyandıqda çöhrən saralmasın.
Kişi kimi qorxunu başından at,
Arvadlar kimi bir daha üzrxahlıq etmə!
Savaşmaq üçün bir-iki addım irəli gəl ki,
Heç kim sənin sözünə vəfasız çıxdığını duymasın.

Təqlidçilik qələmi ilə cidd-cəhd sətrinə öz əcdadlarınızın inancına riayət etdiyiniz barədə bir neçə söz yazmışsınız. Məxfi qalmasın ki, əgər əcdadlar cümləsindən kimsə bir müddət batil məzhəbdə olmuş və öz könül səhifəsini boş etiqadlarla kirləndirmişdirsə, ona əsaslanmaq və onun gəldiyi nəticəyə gəlmək lazım deyildir. "Qurani-Məcid"də və doğru kəlamda əksini tapmış bəlağətlə dolu bu məzmundan xəbərsiz olmaq və ona laqeyd ya-

naşmaq olmaz. Mübarək və Ulu Allah buyurmuşdur: “Onlar: “Biz atalarımızı bir din üzərində gördük və biz də onların ardınca getdik!” – deyirlər. [Ya Rəsulum!] Biz səndən əvvəl hər hansı bir məmləkətə [Allahın əzabı ilə] qorxudan bir peyğəmbər göndərdiksə, oranın naz-nemət içində yaşayan böyükləri (varlıları) sadəcə olaraq: “Biz atalarımızı bir din üzərində gördük və biz də (təqlidlə) onların ardınca getməkdəyik!”– dedilər. [Hər peyğəmbər öz ümmətinə] belə dedi: “Əgər sizə atalarınızın sitayiş etdiyini gördüyünüz dindən daha doğrusunu gətirmiş olsam necə?!” Onlar: “Biz sizinlə göndərilənləri inkar edirik!” – deyə cavab verdilər. Buna görə də Biz onlardan intiqam aldıq. [Ya Rəsulum!] Bir gör [peyğəmbərləri] yalançı sayanların axırı necə oldu!” [*“Zuxruf” surəsi, 22-25-ci ayələr*]

Nəzm
Təqlid bayrağını açmışsan,
Təhqiq evini yıxmışsan.
[Sözümü] eşit, çox da təqlidçi olma,
Əcdadına bu qədər tabe olma!
Sənin təqlidçiliyin kimi bir təqlid yoxdur,
Allahın lənəti olsun sənə də, sənin təqlidinə də!” (85).

Şah Təhmasib islam xəlifələrinin yolunun doğru yol olması ilə bağlı da Übeyd xanın fikirləri ilə razılaşmırdı. Şah Təhmasib bəyan edirdi ki, əgər islam xəlifələri adı altında Həzrət Əli nəzərdə tutulursa, onun yolu doğrudan da düzgün yoldur və qeyd edirdi ki, onun tərəfindən bu yol izlənilməkdədir. Onun fikrincə, insanlar da küfr və üsyan səhrasından çıxarılaraq bu yola gətirilməlidir. Məktubda bu işin Şah Təhmasib fəaliyyətinin əsasını təşkil etməsi öz ifadəsini tapmışdı. Sonra da Şah Təhmasib digər islam xəlifələrinin yolunun düzgün yol olmadığını bəyan edir və fikrini əsaslandırmaq üçün tarixə də istinad edirdi. Übeyd xanın əvvəlki döyüşdə uğur əldə etməsi fikrini də Şah Təhmasib istehza ilə qarşılayırdı. Şah Təhmasib bir daha bəyan edirdi ki, əvvəlki döyüşdə əldə edilən uğur hər zaman əldə edilmiş qələbələrin da-

vamıdır. Özbək qoşunlarının yarımcan halda, yüz möhnət və məşəqqətlə qızılbaş döyüşçülərinin qarşısından qaçmasını, onların bədbəxt bir vəziyyətə düşmələrini Şah Təhmasib heç də sevinc və şadyanalıq mənbəyi kimi qəbul etmirdi və ona görə Übeyd xanın əvvəlki döyüşdə uğur iddiasını istehza ilə qarşılayırdı. Əksinə, özbək qoşunlarının uğursuzluğunu müzəffər qızılbaş döyüşçülərinin mübarizliyinin məntiqi nəticəsi hesab edirdi. Şah Təhmasib əminliklə bildirirdi ki, döyüş meydanında düşmən ordusu dağ olsa belə, Səfəvi qoşunları onu yerindən qaldırmağa qadirdir, düşmənlər çərxi-fələk olarsa onu qanına qəltan edə bilər. Səfəvi şahı Übeyd xana xatırladırdı ki, onun tərəfindən uğur kimi qəbul edilən döyüşdə özbək qoşunları müzəffər qazilərin qarşısından canlarını qaçmaqla qurtara bildilər və bu qoşunlar Türküstanın ucqarlarına qədər geri qaçdılar: "Dağınıq yazan qələminizlə bu kəlmələri bəyan edirsiniz ki, biz Raşidi xəlifələrə tabeyik və onların yolu Allahın rəsulu olan həzrətin – Allahın salamı olsun ona və nəslinə – yoludur. Yanlış düşüncənizə məfxi qalmasın ki, Raşidi xəlifələrindən əgər təkcə möminlərin əmiri, dindarların imamı, Allahın qalib aslanı olan Həzrət Əli ibn Əbu- Talib – Allahın salamı olsun ona – nəzərdə tutulursa, onun yolu, heç şəksiz və şübhəsiz, haqqın və düzgünlüyün yoludur və biz, Allahın köməyinə müvəffəq olub həmişə bu gözəl yola riayət edirik. Qəti əqli sübutlar və aydın nəqli dəlillər əsasında həm say-seçmə, həm sadə adamlardan ibarət olan bütün insanları küfr və üsyan səhrasından islamın gözəl vadisinə gətirəcəyik. Halbuki o qəddar kafirlərin və o yaramaz əclafların xasiyyəti onun (Həzrət Əlinin) bəyənilən yoluna tamamilə zidd və müxalifdir. Əgər Əbu Bəkr, Ömər və Osman nəzərdə tutulursa, onların yolu peyğəmbər həzrətlərinin – ona və nəslinə Allahın salamı olsun – gözəl yolu deyildir. Çünki tarix və tərcümeyi-hal kitablarında yazılmışdır və bütün islam əhli arasında məşhurdur ki, Ömər minbərin başında [belə] demişdir: "Allahın rəsulunun zamanında üç şey vardi ki, mən onları haram etdim və onlara əməl edənləri cəzalandırdım. O üç şey – Həcc mütəsi, nisa (qadın) mütəsi və azanda "həyyə əla xeyril-əməl" ("əməllərin ən xeyirlisinə tələsin") cümləsidir".

Buna bənzər və oxşar [sübutlar] çoxdur. Lakin sən iman əhlinə son dərəcə nifaq bəslədiyindən, heç bu yöndəmsiz yolda da sabitqədəm və mətin deyilsən.

Misra
Küfrdə sabitqədəm ol, zünnarı rüsvay etmə!

Qırıq qələmlə ibarələri bir-birinə calayıb yazırsan ki, bizim qoşunumuz sizin qazilərinizə qalib gəlmişdir. Bütün aləmə və aləm sakinlərinə məxfi və gizli deyil ki, peyğəmbər nəslinə və imamət xanədanına münasibətdə sədaqət, hüsn-rəğbət, məhəbbət və təvəlla bizim gündən-günə inkişaf edən dövlətimizin alnından peydadır və bizim xoşbəxt talemizin çöhrəsindən zahir və aşkardır. Bizim cahanı fəth edən zehnimizin dünyanı bəzəyən gözəl düşüncəsinin arzusu ədalət dairəsinin genişləndirilməsindən və insaf-mürüvvət meydanının böyüdülməsindən ibarətdir. Biz qələbə çalmışıq və bizim qələbə bayrağımız heç vaxt sınmamış və qırılmamışdır. Savaşın sübh meydanında bəxtsizlik yeli məğlubiyyət tozunu bizim müzəffər yardımçılarımızın və tərəfdarlarımızın bayrağının pərçiminə və ətəyinə qondurmamışdır və çatdırmamışdır.

Şeir
Mərd və cavanıq mən və mənim bəxtim,
Bu iki cavanla dalaşmağa çalışma!
Çünki qılıncımın atəşindən qığılcım çıxan kimi,
Sənin ömür evin tikan kolu kimi yanar.

Lakin əgər qələbə adı altında o yağı tayfanın yarımcan halda, yüz möhnət və məşəqqətlə təhlükəli döyüş meydanında müzəffər qazilərin və xəncər vuran cahangir igidlərin qılınc zərbəsinin qarşısından xilas olmaları, qaragün və bədbəxt bir vəziyyətdə fərar edərək uğursuzluq səmtinə üz qoymaları nəzərdə tutulursa, bu məsələ sizin tərəfinizdən iftixar və öyünmək səbəbi sayılsa da, buna çox da sevinib-şənlənməyin! Çünki bu dəfə izzətli, calallı və ulu həzrətin (Allahın) köməyi, peyğəmbərlər ağasının

(Məhəmməd peyğəmbərin), övliyalar sərvərinin (Həzrət Əlinin) və doğru yol göstərən imamların – onlara salam və dua olsun – yardımı və dəstəyi sayəsində az qalıb ki, həmlə zamanı çərxi-fələkdən çevik və say baxımından sabit və səyyar göy cisimlərindən artıq olan müzəffər ordumuz, düşünən beyinləri lovğalıq küləyindən xələl görmüş və ağır yatmış bəxtləri cəhalət yatağında yuxuya getmiş o bədbəxt güruhun həyat suyunun qətrələrini atəş saçan qılıncın qığılcımı ilə həlak torpağı üzərinə səpsin və onların çöhrəsinə ölüm niqabı geydirsin.

Nəzm

Yer dəbərər, mən dəbərsəm yerimdən,
Göy oynayar, mən oynasam yerimdən.
Əgər mənim ordum ayağını üzəngiyə qoysa,
Səhranın qumunu göyə sovurar.

Əgər döyüş günü düşmən ordusu dağ olsa, biz onu yerindən qaldırarıq. Düşmənlə döyüşdə olduğumuz zaman əgər o, çərxi-fələk belə olsa, biz onu qanına qəltan edərik. Əgər qələbə adı altında bu sözün zahiri mənası nəzərdə tutulmuşdursa, kiçikli-böyüklü hamıya və hər kəsə gündüz görünən gün kimi aydın və aşkardır ki, savaş zamanı sizin döyüşüb-vuruşmağa tabınız, mücadilə və müqavimətə taqətiniz olmamış, müzəffər qazilərin və qalib mübarizlərin qan saçan qılınclarının həmləsi qarşısında qaçmağa üz qoyub, Türküstanın ucqarlarına qədər dayanmamışsınız. Həmin əzəmətli cihadda və böyük qəzavatda islam qoşununun hədəfi qənimətlər və mallar ələ keçirmək deyil, bidət və zəlalət əhlinin dəf edilməsi və ortadan qaldırılması olduğu üçün şücaət meşəsinin aslan ovçuları öz alicənablıqları üzündən bəzi malları o qəddar köpəklərə buraxmışlar.

Misra

Onlar öz alicənablıqları ilə bu artıq-urtuğu itlərin qarşısına atmışlar.

Əgər bunu ərz etməkdə məqsəd islam qoşununun qazilərinin və adlı-sanlılarının (igidlərinin) qorxduğunu bildirməkdirsə, bu məna yetərincə yanlışdır və məntiqdən uzaqdır. Çünki məşhurdur ki, "Qəssab qoyunların çoxluğundan qorxmaz" və "Bol odunları yandırmağa bir qığılcım yetər".

Utan özündən və öz qoşunundan,
Çünki sənin bəxtin toz-torpağa batıb.
Aləmi əgər başdan-başa qarışqa bürüsə də,
Süleymanın qarşısında nə edə bilər ki?!
Nədir sənin bu bayraq qaldırmağın?
Sənin işin qalxanı atıb qaçmaqdır.
Ömrünü yüz möhnətlə başa vurmuşsan,
Bü müddətdə sən nə hünər etmişsən?!
Xanların alnına dağ vuran mənəm,
Süleyman mülkünün padşahı mənəm.
Şahın nərə çəkmək növbəsi gəlib çatanda,
Dastanlardakı Rüstəmin qorxudan ürəyi gedər.
Mənim ordum kin yolundan dəm vurarsa,
Uhud dağını qaldırıb yerə vurar" (86).

Şah Təhmasib şübhə etmirdi ki, növbəti döyüşdə də Übeyd xana və onun müttəfiqlərinə qalib gələcəkdir. Bunu o öz məktubunda da ifadə edirdi. Şah Təhmasib eyni zamanda Übeyd xanın Mərvə qaçmasını islam peyğəmbərinin hicrəti ilə müqayisə etməsini də istehza ilə qarşılayırdı və Heratdan qaçmasını hicrətə oxşatmağı Übeyd xanın müşrikliyi kimi dəyərləndirirdi. Heratı ələ keçirdikdən sonra bu şəhərdəki məscid və mədrəsələri təmir etməsi haqqındakı Übeyd xanın yazdıqlarına da Şah Təhmasib öz fikirlərini açıqlayırdı. Şah Təhmasibə görə həmin məscid və mədrəsələr təmir edilmişdisə də, onlar cinayət yolu ilə əldə edilmiş vəsaitlər hesabına həyata keçirilmişdi. Yəni halal yolla əldə edilməyən vəsaitin məscid və mədrəsələrin təmirinə sərf edilməsini Şah Təhmasib savabdan uzaq bir əməl kimi qəbul edirdi: "İnşallah, tezliklə o tülkübaz və hiyləsaz (hiyləgər) köpəklər can

yaxan xəncərin zərbəsi ilə cəhənnəmin dibinə tələsəcəklər və ən kəskin bir şəkildə öz əməllərinin cəzasına çatacaqlar. Ayağı kəsik qələminlə belə bir yanlış məzmuna və boş mənaya işarə edirsən ki, Mərvə qaçmağın Həzrət Rəsula – Allahın salamı olsun ona və nəslinə – itaətdən irəli gəlmişdir. Bu iki sətirdən öncə son dərəcə küfr və zındıqlıq ucbatından özünün zülmət əlamətli gilini nurları bol olan ulduzlarla və özünün murdar görünüşlü saxsını müqəddəslərin öndərinin və xeyirxahların rəhbərinin (Məhəmməd peyğəmbərin) – Allahın salamı olsun ona – şahanə inciləri ilə əlaqələndirməyinə baxmayaraq, hələ bir bu cəsarətinin xəsarətindən əl çəkməyib, hicrəti qaçmaq və qaçmağı da hicrət kimi izah edirsən və şair Caminin bədnamlıq oxuna hədəf olan sözlərinə istinad edirsən.

Səndən bezar olsun, ey ədəbsiz,
Yəsribin şahı ləqəbli qərib peyğəmbər!
Sənin kimi bir kafir və düşkün bir müşrik,
Nə Əcəmdə var, nə də Ərəbdə.

Peyğəmbər ümmətinin qanununa və Murtəzanın – ona və nəslinə salavat və salam olsun – məzhəbinin qaydalarına uyğun şəkildə məscidləri və ibadət məbədlərini təmir etməniz barəsində bildirdiklərinizə gəlincə, bu işlər şeytanlara və məlunlara xas olan batil düşüncələr və pozğun xəyallar əsasında həyata keçirilmişdir.

Çünki məscidlərin təmiri və məbədlərin tərtibinin məsrəfi cinayət və xəyanət kimi alçaq yollarla əldə olunan mallarından təmin edilmişdir. Bu isə fayda və savabın səmərəsi deyil, kədər və əzabın səbəbidir. Necə ki, bu barədə hələ Həzrət Əmirülmöminin Əli, cəhənnəmlik Müaviyyəyə yazmışdı.

Nəzm
Bu tövrdə ki, mən səni görürəm, ey sapqın kafir,
Sən məscid nə bilirsən və Allahı nə tanıyırsan?!

Nəsəb barədə dili kəsik qələminin nazik səhifə üzərinə yazdığı pərişan ibarələr və hədyan kəlmələr bizə çatdı. Gizli qal-

masın ki, ali dərəcəli seyidlərin nəsəbləri barədə qeyri-məhdud sayda ətraflı və izahlı kitablar yazılmışdır və bunlar islam əhlinin diyarlarında yayılmışlar və məşhurdurlar. Aşkar, yayğın və aydın olan bu nəsəb, barəsində hələ heç kəsin bir kitab görmədiyi və nəsəbinin gerçəkliyi məlum olmayan digər nəsəblərə, o cümlədən də türklərin nəsəbinə bənzəməz. Bəzilərinin nəsəbinin gerçəkliyi onların əhvalının çöhrəsindən bəllidir və aydındır. Bəlkə də, Həzrət Əmirülmömininin – ona salam olsun – qəzəbini büruzə verən bu şeir sizin nəsəbinizin gerçəyi haqqındadır:

Şeir
Hər kimin Əli nəslinə məhəbbəti yoxdursa,
Onun haqqında sözü uzatmağa hacət yoxdur.
Kimin əlində atasının qolçağı yoxdursa,
Onun anasının ətəyində namaz qılmaq olmaz.

O həzrəti sevmək yanlış bir əməl deyildir və onsuz insan təbiətinin pak olması mümkün deyildir. Əgər, Allah eləməmiş, bir kimsənin ətəyi toza batıbsa, deməli, o məhəbbətin dadı onun damağına çatmamışdır.

Nəzm
Şahi-Mərdanı sevməyənin atası naməlumdur,
Çünki yad kişinin əli tutub onun anasının ayağını” (87).

Şiə məzhəbinin tərəfdarlarının Həzrət Əliyə səcdə etməsi haqqında Übeyd xanın iddiası da Şah Təhmasib tərəfindən qəbul edilmirdi. Şah Təhmasib də təsdiq edirdi ki, səcdə yalnız yaradana olmalıdır. Amma onu da əlavə edirdi ki, insanlar təzim etmək, öz ehtiramını bildirmək mənasında da səcdə edirlər və bu səcdələri bir-biri ilə qarışdırmaq lazım deyil. Təzim mənasında səcdə edilməsi ilə bağlı Şah Təhmasib hətta “Quran” ayələrinə də istinad edirdi. Sonra isə Şah Təhmasib şiəliyin Həzrət Əliyə bağlılığı haqqında öz fikirlərini də bölüşürdü. O, bu məsələ ilə bağlı islam peyğəmbərinin fikirlərini də ortaya qoyur və bununla

şiəliyin Həzrət Əliyə bağlılığın təsadüf olmadığını, onun dini-tarixi köklərə söykəndiyini bəyan edirdi. Şah Təhmasib buradakı fikirləri ilə, əslində, onun hakimiyyətinin şiəliyə bağlılığı haqqındakı fikirlərini ortaya qoyurdu. Bununla bir daha göstərirdi ki, şiəlik Səfəvi dövlətinin dini-ideoloji bazisidir və Şah Təhmasib də bu bazisdən üz döndərmək fikrində deyil. İslam peyğəmbərinin həyatına və onun hədislərinə dayaqlanmaqla Şah Təhmasib şiəliyin həyatiliyini də əsaslandırmağa çalşırdı. Şah Təhmasib digər islam xəlifələri haqqında da öz fikirlərini bölüşmüşdü. Amma bunu etməkdə onun əsas məqsədi şiləiyin təsadüfi bir məzhəb olmadığını Übeyd xanın nəzərinə çatdırmaq idi. Məktubunun sonunda Şah Təhmasib də Übeyd xanı və onunla həmfikir olanları küfrdə, bidətdə günahlandırırdı və onları haqqın doğru yoluna qayıtmağa çağırırdı. Übeyd xan eyni zamanda Xorasan vilayəti üzərinə hücumdan imtina etməyə dəvət olunurdu. Bildirilirdi ki, əks təqdirdə özbək qoşunları qızılbaş döyüşçülərinin qılıncı ilə qarşılaşacaqlar və onlar Səfəvi ərazilərindən qovulacaqlar: “Amma səcdənin qadağan olduğu barədə xəta mahiyyətli ədanıza cavab budur ki, ibadət niyyəti ilə bəndələrə səcdə etmək haramdır və bu cür səcdə yalnız Uca Allaha edilməlidir. Lakin bəndələrə təzim mənasında səcdə etmək caizdir. Çünki Yusif peyğəmbərin – ona salam olsun – qardaşları ona səcdə etmişdilər. Necə ki, gerçəkləri bilən Mübarək və Ulu Allah öz kəlamında buyurur: “Hamısı onun qarşısında səcdəyə qapandılar” [“*Yusif” surəsi, 100-cü ayə*]. Bu mənadan imtina edib itaət və tabeçilikdən boyun qaçıran şeytan özünə əbədi olaraq tənə və lənət qazandı. Necə ki, Allah-taala buyurur: “Biz mələklərə: “Adəmə səcdə edin! – dedikdə İblisdən başqa [hamısı] səcdə etdi. [Yalnız] o, lovğalanaraq [səcdə etməkdən] imtina etdi və kafirlərdən oldu”[ *“Bəqərə” surəsi, 34-cü ayə*]. Beləliklə, bu səcdəni o səcdə ilə qarışdırmaq lazım deyil. Həzrət Mürtəza Əlinin – ona salam olsun – Əbu-Bəkrin, Ömərin və Osmanın səfində namaz qıldığı və onlara beyət etdiyi haqqında ciyiltili qələminizdən təlatümlü yazınıza tökdüyünüz məzmuna gəlincə, məxfi qalmasın ki, bütün insanlara və tamam camaata aydın və məlum, hamı

üçün dəqiq, müəyyən və bəlli olduğu kimi, əhli- sünnət kitablarında, həm müxaliflərdən, həm də müvafiqlərdən zikr və qeyd edildiyi kimi, möminlərin əmiri, dindarların imamı, kafirlərin və münafiqlərin qatili, Allahın qalib aslanı olan Həzrət Əli ibn Əbu-Talib – Allahın salamı olsun ona – ömrünün əvvəlindən başlayaraq dünyadan köçdüyü vaxta qədər xilafətin ismətini üsyan və xəta tozuna bulaşdırmamışdır. O, həzrət peyğəmbərə – Allahın salamı olsun ona və nəslinə – bütün möminlər və müsəlmanlar, yaxınları və qohumları arasında hamıdan daha yaxın olmuş, ən uca məramlara və peyğəmbərlərə xas olan yüksək və şanlı mərtəbələrin ən ali mərtəbələrinə çatmışdır. O həzrətin tərifəlayiq əhvalatları haqqında çoxlu ayələr və saysız hədislər mövcuddur. Onun düz qaməti "İnnəma" və "Həl-əta" xələti ilə süslənmiş, ali məramlı xilqəti də "Mən elmin şəhəriyəm, Əli isə onun qapısıdır" [hədisinin] zinəti ilə bəzənmişdir. Həzrət peyğəmbər – Allahın salamı olsun ona və nəslinə – Qədir-Xum günündə, vida həccindən qayıdarkən səhabələrinə buyurdu ki, "Mən hər kimin mövlasıyamsa, bu Əli də onun mövlasıdır. Pərvərdigara! Əlini sevənləri sev, onun düşmənləri ilə düşmən ol! Ona məhəbbət bəsləyənlərə məhəbbət bəslə! Ona kömək edənlərə kömək et, köməyini əsirgəyənlərdən köməyini əsirgə!". [Peyğəmbər] o həzrətə buyurmuşdur ki, "Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir". Həmçinin [peyğəmbər] bu fəsahətli kəlamı mübarək dilinə gətirmişdir: "Sən mənim qardaşımsan, sən mənim varisimsən, sən mənim xəlifəmsən və dinin Qazi sısan". O həzrətin əjdahanı məğlub etməsi, cinlərlə müharibəsi, böyük qayanı dəf etməsi, Xeybərin qapısını qoparması kimi açıq-aşkar möcüzələri və kəramətləri çoxdur və saysızdır.

Nəzm

O, heç şübhəsiz, [peyğəmbərin] varisidir,

Allahın aslanı və "vilayət" şahı Əlidir. Odur "la-fəta" çəməninin fidanı,

Münafiqləri qıran və Xeybəri fəth edən odur.

Odur zülfüqarın zərbəsi ilə,

Bütün kafirlərin damarını qoparan.

Odur ümmətin həqiqi rəhbəri,
Hamının ümidi onun kəreminə bağlıdır.
Kim ki, qəbul etməsə Mustafadan sonra,
Doğru yolu göstərənin Mürtəza Əli olduğunu,
Haqqın lənəti olsun həmin bədbəxtə,
Qatı kafir o bədzatdan yaxşıdır.

Əbu-Bəkr, Ömər və Osman isə islamı qəbul etmələrinə baxmayaraq, zahirən və batinən nifaq salmış, zəlalət dəryasına qərq olmuşlar və heç vaxt doğru sözə etina etməmişlər. Onlar başqa heç bir insana aid edilməsi layiq olmayan çoxlu qəbahətlər və pis əməllər törətmişlər. Əvvəla, Əbu-Bəkr Allah-taalanın kitabına zidd hərəkət edərək Fatimətüz-Zəhranı – Allahın salamı olsun ona – öz haqlı mülkü olan Fədəkdən məhrum etdi. O, həmin xanımın qəlbini elə azarladı ki, o xanım öz vəsiyyətində Əbu-Bəkrin onun pak cəsədinin üstündə namaz qılmamasını buyurdu. Onun üçün də həmin xanımı gecə ikən dəfn etdilər. Əbu-Bəkr öz xəta söyləyən dili ilə bir dəfə etiraf edib söyləmişdir: "Məni boş verin! Nə qədər ki Əli sizin aranızdadır, sizin ən fəzilətliniz mən deyiləm". Ömər də onunla yoldaş olmasına baxmayaraq, o rəzil haqqında belə demişdir: "Ay camaat! Əbu-Bəkrə beyət tələskən və tədbirsiz bir iş olduğu üçün Allah onun şərini sizdən uzaqlaşdırdı.

Bundan sonra kimsə sizdən belə bir şey istəsə, onu öldürün!". Ömərin qəbahətləri və pis əməlləri həddən-hüduddan artıqdır. Belə ki, o, xümsü qadağan etmiş, Zəhranın Əbu-Bəkrlə münaqişəsi vaxtında Fədəklə bağlı yazılmış kitabı cırmış, dəfələrlə öz cəhalətini və qüsurunu etiraf etmişdir. Necə ki demişdir: "Əgər Əli olmasaydı, Ömər həlak olardı". Osmanın da qəbahətləri hədsiz-hesabsızdır. O cümlədən "Quran"ı yandırmış, səhabələrdən olan İbn-Məsudu çubuq zərbəsi ilə həlak etmiş, Əmmar Yasiri elə vurmuşdur ki, onda yırtıq əmələ gəlmişdir. Əbuzər Qəffariyə isə əziyyət verdikdən və açıq-aşkar təhqir etdikdən sonra onun sürgün edilməsinə hökm vermişdi. Ondan o qədər pozğunluq və riyakarlıq baş vermişdir ki, bunların imlası və inşası mümkün deyildir. Axı kim mümkün hesab edə bilər ki, ümmətin camaatı

üçün bu cür qəbahətli xüsusiyyətlərə malik belə bir zat məqbul olsun?!

Beyt

Onun (Həzrət Əlinin) elmi göyün ən yüksək zirvəsinə çatır,
Ondan yüksək saydıqlarınızın elmi isə yalançılıqdır.

Beləliklə, məlum oldu ki, bu barədə xətalı yazan qələminizlə qeyd etdikləriniz məhz töhmət, iftira və eynən böhtandır. Müsəlman olan kimsə şeytanların məlun əməlləri qarşısında laqeydlik və etinasızlıq göstərməz. Çünki peyğəmbər həzrətləri – ona və nəslinə salam olsun – bu fani dünyadan gözəl cənnətə köçdüyü vaxt buyurmuşdu ki, vəsiyyət etməsi üçün qələm və dəvat gətirsinlər və vəsiyyətini gövhər saçan qələmlə yazıya alsınlar. Lakin o məlunlar həmin zaman elə sözlər söylədilər ki, onların yazılması və hətta anlatılması ədəbsizlikdir. Onlar Bəni-Haşim qəbiləsinin əksəriyyətinin gözləri qarşısında Fatimeyi-Zəhranın – ona salam olsun – evinə od vurdular. Cəmiyyət arasında məşhurdur ki, peyğəmbər həzrətləri – ona və nəslinə salam olsun – buyurmuşdur: "Fatimə mənim bədənimin bir parçasıdır. Onu incidən məni incidər, məni incidən isə Allahı incitmiş olar". Allah-taala buyurur: "Allahı və Onun Peyğəmbərini incidənlərə Allah dünyada və axirətdə lənət eləmişdir"[*"Əhzab" surəsi, 57-ci ayə*].

Əgər siz həmin yanlış yolda qətiyyətlisinizsə, o zaman öz tüğyançı tayfanızın içində Allahdan qorxmayan, inadçı və təkəbbürlü şəxslərdən hər kim etiqadı pozmaqda, küfrü və məkri möhkəmləndirməkdə ən məşhur və ən öncüldürsə, onu göndərin ki, islam məmləkətlərində olan görkəmli alimlər, fəzilətli insanlar və peyğəmbərin – ona salavat və salam olsun – şəriətinin qoruyucuları onların qəlbinə yol tapsınlar və ondan sonra küfr, zəlalət və ədavət səmtini, kin-küdurət və tüğyan yolunu buraxıb iman və islam əhli sırasına daxil olasınız. Əks təqdirdə, aləmi tutan qılıncımız sizin qəlbinizə yol tapacaq və öz amansız tiyəsinin sığalı ilə şirk və küfr pasını sizin könül səhifənizdən təmizləyəcəkdir. Tezliklə ildırım kimi iti qılıncın şimşəyi o məkruh güruhunuzun cisminin xırmanına düşüb həyatınızı elə yandıracaqdır ki, qiya-

mət gününə qədər dövranın səhifəsi üzərində o lənətə gəlmiş, qovulmuş və rədd olunmuş camaatınızdan heç bir əsər-əlamət görünməyəcək.

Nəzm
Sənin Əli ilə ədavətin ki var, ey bədbəxt,
Bu, səni xalqın gözündə xar və ağlar edəcəkdir.
Heydəri-Kərrara qarşı kin-küdurətdən ürəyin razıdır,
Amma sənin bu qəzəbini Yaradan dəf edəcəkdir.
Yapışmışsan Yezid soyunun ətəyindən,
Bax gör ki, “vilayət”in əli nə edəcəkdir” (88).

Beləliklə, Şah Təhmasib məktubunda Übeyd xana qətiyyətlə bildirdi ki, onun səltənət hüdudlarına müdaxilə etməsinə qarşı qətiyyətli şəkildə cavab veriləcəkdir. Elçilərin geri göndərilməsindən sonra isə Şah Təhmasib Xorasan üzərinə yürüş üçün hazırlıqları daha da sürətləndirdi.

## 6. Səfəvi qoşunlarının sıra baxışı

«Xülasüt-təvarix” əsərində Übeyd xanın Heratdan Mərvə qaçması, onun orada bölgə hakimlərini yanına dəvət edərək onlarla ittifaq yaratmağa çalışması, Şah Təhmasibin özbək qoşunlarının Xorasan vilayəti üzərinə hücumunun qarşısını almaq üçün hansı tədbirlər görməsi barəsində digər mənbələrdə olmayan fərqli məlumat vardır. Bu əsərdə əvvəlcə bildirilir ki, Übeyd xan Mərvdə olarkən bölgə hakimləri öz qoşun dəstələri ilə onun yanına toplaşdılar və o, Səfəvi hüdudlarına yenidən hücum etmək üçün həmin hakimlərlə ittifaq yaratmağa cəhd göstərdi. Bununla bağlı təşkil olunmuş məşvərət iclasında Kuçum xanın oğlu olan Mavəraünnəhr hakimi Əbu-Səid xan qızılbaş qoşunlarına qarşı döyüşməyə tərəfdar olmadığını bildirdi. Bəyan etdi ki, Übeyd xan da Xorasan vilayəti üzərinə yürüşləri zamanı talan və soyğunçulqdan başqa bir nəticəyə nail ola bilməmişdir. Məlumdur ki, Übeyd xan bu cavabdan razı olmadı və yaratmaq istədiyi ittifaq da alınmadı. Amma adı çəkilən əsərdə o da bildirilir ki,

özbək hakimləri Şah Təhmasibin yanına öz elçilərini göndərmiş və qoşunlarla Mərvdə toplaşdıqlarını bəyan etməklə Şah Təhmasibin istədiyi məkanda onunla müharibə etməyə hazır olduqlarını çatdırmışdılar. Bildirildi ki, Şah Təhmasib bu elçiləri mehribanlıqla qarşıladı və onlara qiymətli hədiyyələr verilməsini tapşırdı. Eyni zamanda belə bir göstəriş də verildi ki, özbək qoşunlarına qarşı toplanacaq Səfəvi qoşun dəstəsi elçilərə göstərildikdən sonra onların getməsinə icazə verilsin. Elçilər də buna etiraz etmədilər. Əksinə, mehribanlıqla qarşılanmaları və qiymətli hədiyyələr paylanması onları xeyli sevindirdi (89).

«Xülasüt-təvarix" müəllifinin yazdığına görə, Şah Təhmasib elçilərin gətirdiyi xəbərdən sevindi və eyni zamanda təəccüb etdi. Bu hisslərini o, əyan və əmirlərin məşvərət toplantısında da bəyan etdi. Şah Təhmasib əvvəlcə qoşunların yürüşə hazırlaşması haqqında fərman verdi. Xorasan vilayəti üzərinə yürüşün təşkili ilə bağlı əmir və əyanlarla məşvərət toplantısında isə Şah Təhmasib bu yürüş zamanı mütləq uğur əldə edəcəyini bildirdi və sevincinin də bununla bağlı olduğunu qeyd etdi. Şah Təhmasib şübhə etmirdi ki, Səfəvi qoşunlarının yürüş xəbərini eşidən kimi özbək qoşunları geri qaçmağa üz qoyacaqlar. Məşvərət toplantısında iştirak edən əmirlərdən biri Şah Təhmasibin bu nikbinliyinə bir qədər şübhə və nigarançılıqla yanaşdığına işarə etdi. Şah Təhmasib də bildirdi ki, əvvəllər özbək hakimləri Səfəvi qoşunları ilə döyüşmək niyyətlərini öncədən bəyan etməmişdilər. Bunun nəticəsində özbək qoşunlarının səltənət üzərinə əvvəlki hücumları əvvəlcədən elan olunmadan baş vermişdi. Ona görə də özbəklərin Səfəvi şahını müharibəyə çağırmalarını Şah Təhmasib özbək və bölgə hakimlərinin Səfəvi hakimiyyətindən nigaran olmalarının göstəricisi kimi dəyərləndirirdi. Əyanlar və əmirlər də bu qənaətlə razılaşmalı oldular və onlar da yürüşə hazırlıq işlərinin aparılmasına qatıldılar (90).

Səhəri gün isə Şah Təhmasib qoşunlara baxış keçirdi və göstəriş verdi ki, özbək elçiləri də bu baxışa dəvət edilsinlər. Bu elçilər hündür bir yerdə yerləşdirildilər ki, topanmış olan qoşunları yaxşıca müşahidə edə bilsinlər. Mənbədə olan məlumatdan gö-

rünür ki, Şah Təhmasib bu baxışın keçirilməsinə xüsusi bir şövqlə yanaşdı və bu baxışla həm də Səfəvi dövlətinin qüdrətini ortaya qoymaq istədi. Bütün qoşunlar döyüş libasında və təchizatında qısa bir zamanda onlar üçün ayrılmış yerlərdə düzüldülər. Şah Təhmasibin əmri əsasında şahzadələr, adlı-sanlı əmirlər, igid qorçulər və digər döyüşçülər qoşun sıralarında birləşərək silahları ilə birlikdə fövclərə bölündülər və onlar üçün müəyyənləşdirilmiş mövqeləri tutdular. Mənbələrdə olan məlumata görə, qoşunların fövclərə bölünərək öz yerlərini tutmaları elə bir vəlvələ ilə müşayiət olunurdu ki, onun sədası aləmi bürümüşdü. Qoşunlara baxış musiqi sədaları altında aparılırdı. Göstəriş verilmişdi ki, nağara, dəf və kos çalanlar qoşunlardan müəyyən məsafədə yerləşsinlər və öz musiqi alətlərini səsləndirməyə başlasınlar. Musiqiçilərin arxasında üzərinə top, badlic və zərbzən yerləşdirilmiş arabalar, onların arxasında isə 3-4 min nəfərlik tüfəngçilər dəstəsi düzüldü. Əmr verildi ki, tüfəngçilər öz tüfənglərindən atəş açsınlar. Bildirilir ki, Şah Təhmasib qoşunların sıralarını müşahidə edirdi və onun qarşısında Səfəvi qoşunları dalğa kimi ləngərlənirdi. Sonra qoşun dəstələri ayrı-ayrılıqda Şah Təhmasibin qarşısından keçdilər. Bu qoşun dəstələrindən birinə şahın qardaşı Əlqas Mirzə rəhbərlik edirdi. Onun dəstəsi 4 min nəfərlik sayseçmə atlılardan ibarət idi və bu dəstə Şah Təhmasibin məqamına yaxınlaşanda təvaçilər bu barədə uca səslə məlumat səsləndirdilər. Əlqas Mirzə özü isə qiymətli təchizata malik olan cins bir atın üzərində Şah Təhmasibin qarşısından keçdi. Şah Təhmasib müşahidə etdiyinə və Əlqas Mirzəni belə döyüşgən bir durumda gördüyünə görə yaradana şükürlər etdi və qoşunların sağ cinahını Əlqas Mirzəyə tapşırdı (91).

Sonra isə Şah Təhmasibin digər qardaşı Bəhram Mirzə tabeliyində olan 3 min nəfərlik atlı dəstəsi ilə Şah Təhmasibin qarşısından keçdi. Bəhram Mirzənin dəstəsinin də libası, təchizatı, gümrahlığı Şah Təhmasibin xoşuna gəldi və Bəhram Mirzənin də bu vəziyyətini gördükdə dua eləməyi özünə borc bildi. Eyni zamanda Bəhram Mirzəyə də yürüş zamanı məsuliyyətli bir vəzifə müəyyənləşdirildi və qoşunların sol cinahına rəhbərlik ona tapşı-

rıldı. Şahın qardaşlarının ardından Çuxa sultan öz övladları və yaxınları ilə birlikdə rəhbərlik etdiyi 8 min nəfərlik təkəli qoşun dəstəsi ilə şahın önündən keçdi. Onun ardınca qoşunların sırasını Quduz sultan Təkəlinin rəhbərliyi altında olan qoşun dəstəsi davam etdirdi. Bu dəstənin də ardınca Ülamə sultanın, Qazi xanın və digər təkəli əmirlərinin qoşun dəstələri şahın önündən keçdilər. Bu təkəli dəstələrinin döyüşçülərinin ümumi sayı 5 min nəfərə çatmışdı. Şahın göstərişinə əsasən təkəli dəstələri Əlqas Mirzənin rəhbərlik etməli olduğu sağ cinaha verildilər. Təkəli dəstələrinin ardınca şahın önündən ustaclı tayfasının atlı dəstələri keçməli oldu. Ustaclı dəstələrinin önündə Şah İsmayılın bacısı oğlu olan Abdulla xanın rəhbərliyi altında olan 2 min nəfərlik atlı dəstəsi qərar tutmuşdu. Sonra ustaclı əmirləri olan Bədir xan, Əhməd sultan Sufioğlu, Şahqulu sultan və onun qardaşı Şahəli sultan və digər əmirlər keçdilər. Ustaclı əmirlərinin rəhbərliyi altında olan qoşun dəstəsinin ümumi sayı 16 min nəfər idi. Bu qoşun dəstəsinin hazırlıq vəziyyəti də Şah Təhmasibi qane etdi və həmin dəstə Bəhram Mirzənin rəhbərliyi altında olan sol cinaha verildi (92).

Qoşunlara baxış sırasını sonra əfşar dəstələri davam etdirdilər. Bu dəstələrin önündə Əhməd sultanın rəhbərliyi altında olan dəstə irəliləyirdi. Adı çəkilən mənbədə bildirilir ki, Əhməd sultan 20 il müddətində Xorasan vilayətində və ətrafında özbək qoşunlarına qarşı döyüşlərdə iştirak etmişdi. Bununla onun təcrübəli bir əmir olmasına işarə edilirdi. Əhməd sultanın rəhbərliyi altında 3 min nəfərlik kamandarlar dəstəsi var idi. Onun ardınca Kuhkələviyyə hakimi Əlvənd sultanın rəhbərliyi altında olan 3 min nəfərlik atlı dəstəsi hərəkət edirdi. Sonra isə əfşar tayfasının tanınmış əmirləri olan Şahrux sultan, Şahqulu sultan, Temur sultan, Səncab sultan, Budağ sultan, Həsən sultan, Murad sultan, Şirəhməd sultan, Sunduq sultan və digər əmirlərin rəhbərliyi altında olan qoşun dəstələri keçdilər. Bu qoşunlar da Səfəvi qoşunlarının ümumi sırasında özlərinə yer aldılar. Onların ümumi sayının nə qədər olması «Xülasüt-təvarix” də göstərilməmişdir. Əfşar dəstələrinin ardınca meydana şamlı tayfasının qoşun dəstələri daxil

oldular. Bu tayfanın tanınmış əmirləri olan Ağzıvar xan, Təbərrük sultan, Qara sultan, Həsən sultan, Əli sultan və Mahmud xan öz dəstələri ilə Şah Təhmasibin önündən keçdilər. Mənbədə bildirilir ki, şamlı tayfası ümumilikdə 9150 nəfərlik qoşun toplaya bilmişdi. Əfşar tayfasının qoşun dəstələrini sırasını zülqədər tayfasının dəstələri davam etdirdilər. Bu tayfanın qoşunlarının önündə Qazi xan Təvaçinin rəhbərliyi altında olan dəstə qərar tutmuşdu. Sonra bu tayfanın digər əmirləri olan Şahqulu xəlifə, Əli sultan, Məhəmməd sultan və digər əmirlər öz dəstələri ilə Şah Təhmasib önündən keçdilər. Zülqədər tayfasının qoşunlarının ümumi sayı 8 min döyüşgən atlıdan ibarət idi. Sonra qacar və mosulu tayfasının qoşun dəstələri də baxışda iştirak etdilər. Qacar tayfasını bu baxışda Yaqub sultanın, Göyçə sultanın, Şahəli sultanın və digər əmirlərin rəhbərliyi altında olan dəstələr təmsil edirdilər. Bu tayfanın qoşun dəstəsi 6200 nəfərdən ibarət idi. Mosulu tayfasından olan qoşun dəstələrinə isə Məhəmmədi bəy, Əli sultan Zülfüqar, Şəmsəddin sultan, Həsən sultan və digər əmirlər rəhbərlik edirdilər. Bu tayfadan olan qoşun dəstəsinin ümumi sayı 4 min nəfərə yaxın idi. Bu tayfaların qoşunlarının ardınca isə çegəni, kürd, ərəbgirli, bayandur, türkmən oymaqlarının qoşun dəstələri baxışa qatıldılar. Həmin oymaqların qoşun dəstələrinin fövc-fövc şah önündən keçdiyi bildirilir. Mənbədə yuxarıda adları çəkilən tayfa və oymaqlardan təşkil olunmuş qoşunların ümumi sayının 15550 atlı olması göstərilmişdir. Səfəvi qoşunlarına sıra baxışında Corcan və Sari atlılarından təşkil edilmiş bir min nəfərlik dəstə də iştirak edirdi. Bu dəstənin rəhbəri Xoca Müzəffər Bətəkci idi. Bu adam kifayət qədər böyük bədən ölçülərinə malik idi. Adı çəkilən mənbədə Xoca Müzəffər Bətəkçi fil bədənli, Qaf dağına oxşar bir əmir kimi təsvir edilmişdir. Onun çox heybətli bir görünüşü var imiş. Çəkisi o qədər ağır imiş ki, kənar adamların köməyi olmadan ata da minə bilmirmiş. Onu qoşunlara baxış sırasında görəndə əmirlərdən kimsə istehza ilə deyir ki, on nəfərin köməyi ilə ata minən birisinin əmir olmasına nə ehtiyac var? Bu tənəli söz Xoca Müzəffərin də qulağına çatır. Ona söz atan əmirə bildirir ki, onu

ata on nəfər mindirirsə, onun atdan yerə salınmağına isə 100 nəfər lazımdır. Başqa sözlə Xoca Müzəffər ona işarə edir ki, onun bədəninin çəkisinə deyil, necə döyüşməyinə qiymət vermək lazımdır. Bu söhbət Şah Təhmasibin də qulağına çatanda Xoca Müzəffərin verdiyi cavabdan razı qalır və onun əzmkarlığını da təqdir edir (93).

Sıra baxışı zamanı eyni zamanda Mazandarandan gəlmiş 2 min nəfərlik atlı dəstəsi də Şah Təhmasibin təqdirini qazandı. Xüsusilə bu dəstənin rəhbərləri olan Əmir Şahi xanla Əmir Timur sultan onun nəvazişini qazandılar. Bu dəstənin təchizatı, durumu Şah Təhmasibin elə xoşuna gəldi ki, o, təqdir sözləri söyləməkdən əlavə onlara cins atlar bağışladı. Həmin dəstə də Səfəvi qoşunları tərkibində müəyyənləşdirilmiş yeri tutdular. Sıra baxışında yer tutan dəstələrdən bəziləri qeyri-döyüş heyətinə məxsus idi. Nəzərdə tutulmuşdu ki, Səfəvi qoşunlarının Xorasan üzərinə yürüşündə alimlər, fazil insanlar, şeyxlər, müqəddəs məkanların xadimləri, mədh deyənlər də iştirak etsinlər. Bu kateqoriyadan olan insanların sayı da çox idi. Onların sayı 4 min nəfərdən az deyildi. Onlardan başqa qoşunlara müstövfi, münşi, katib, mühasib və başqaları da cəlb edilmişdilər ki, onların da sayı 1700 nəfər idi. Həmin kateqoriyaya malik insanlar da sıra baxışında iştirak etməklə qoşun daxilində öz yerlərini tutdular. Mənbədə daha sonra sıra baxışında iştirak edənlər arasında 3800 nəfərlik xidmət personalının, Duraq bəy Qorçubaşının rəhbərliyi altında 5 min nəfərlik təcrübəli qorçulardan təşkil edilmiş dəstənin olması haqqında da məlumat verilir. Mənbədə qorçuların tərifi ilə bağlı səxavətli fikirlər ifadə olunmuşdur ki, bununla Duraq bəy Qorçubaşının rəhbərliyi altında olan qorçular dəstəsinin kifayət qədər döyüşkən bir zərbə qüvvəsi olmasına işarə edilmişdir (94).

Bu sonuncu qoşun dəstələri Şah Təhmasibin önündən sıra baxışı ilə keçəndə artıq hava qaralmağa başlamışdı. Amma sıra baxışına toplanmış qüvvələr yalnız bunlardan ibarət deyildi. Şah Təhmasib isə onların hamısına baxmaq, eyni zamanda onları özbək elçilərinə nümayiş etdirmək istəyirdi. Ona görə qərar verdi ki, qoşunların sıra baxışı gecə vaxtı da davam etsin. Bunun üçün

sıra baxışının keçirildiyi meydana məşəllər, şamlar, fənərlər gətirildi və orada sıra baxışının müşahidə edilməsi üçün münasib şərait yaradıldı. Bu baxışın sona çatdırılması üçün Şah Təhmasib böyük məmnuniyyətlə yuxusuz qalmağa belə razı oldu. Mənbədə bildirilir ki, meydana gətirilmiş şamlar, məşəllər oranı gündüz işığından da işıqlı etdi. İfadəli şəkildə qeyd edildiyinə görə meydan o qədər işıqlanmışdı ki, gecənin asimanı da yerdən özünə nur alırdı. Sıra baxışı gecə yarısına qədər davam etdi. Qoşunlar dəstə-dəstə Şah Təhmasibin qarşısından keçərək onlar üçün müəyyənləşdirilmiş yerdə qərar tutdular. Sıra baxışı qurtardıqdan sonra Şah Təhmasibin əmrinə görə qoşunlar dağılmadılar və döyüşçülər at belində səhərə kimi o məkanda dayandılar. Səhər gün çıxan kimi Şah Təhmasib bütün qoşunlara ümumi baxış keçirdi. Mənbənin verdiyi məlumata görə, göz oxşayan at belində sıra baxışına çıxan Şah Təhmasibin qarşısında 120 min nəfərlik atlı qoşunu var idi. Bütün digər qüvvələr, qeyri-döyüş personalı, xidmət personalı ilə birlikdə isə qoşunların sayı daha da çox idi. Yuxarıda qeyd edildiyi kimi, burada topçular və tüfəngçilər də mövqe tutmuşdular. Şah Təhmasib meydanın ortasında qərar tutduqdan sonra bütün qoşun dairəvi şəkildə onun ətrafında cəm oldu. Mənbədə bu mərasimin çox həyəcanlı şəkildə keçməsindən söhbət açılmışdır. Bir tərəfdən atların şaha qalxması, onların kişnərtisi, bir tərəfdən döyüşçülərin dua sədaları, bir tərəfdən xüsusi dəstənin qışqırdığı “Allah, Allah” sədası, bir tərəfdən musiqi alətlərinin sədası, bir tərəfdən qoşunun vəlvələsi gur səslə ətrafa yayılaraq təsiredici bir səhnə yaratmışdı. Mənbədə olan məlumata görə, özbək elçiləri də gördükləri bu səhnədən dəhşətə gəlmişdilər. Onların biri müşahidə etdiklərinin təsirindən özünü at belində saxlaya bilməyib yerə yıxıldı, digərinin isə qızdırması qalxdı. Bu xəbər Şah Təhmasibə də çatdırıldı. O, sözsüz ki, ətrafına toplanmış olan qoşun dəstəsinin qarşı tərəfinin nümayəndələrində belə bir təəssürat yaratmasından çox xoşhal oldu. Elə həmin gün də Şah Təhmasib tərəfindən Mərvə, Übeyd xanın düşərgəsinə göndərilmiş casuslar geri qayıtdılar və özbək xanlarının fəallıqları barəsində son məlumatları ona çatdırdılar. Şah Təh-

masibə çatdırılan məlumata görə, Mərv ətrafına Mavəraünnəhr sultanlarına, Turan xanlarına, Şərq diyarının xaqanlarına, bütünlükdə bölgənin 45 hakiminə məxsus 170 min nəfərlik bir qoşun dəstəsi toplanmışdı. Casuslar onu da bildirdilər ki, Mərvə toplanmış hakimlər Şah Təhmasibin yanına göndərdikləri elçilərin qayıtmasını gözləyirlər ki, aldıqları cavabda Səfəvi şahının döyüşü hansı məkanda keçirmək istəyindən xəbər tutsunlar. Bu məlumatı eşidəndən sonra Şah Təhmasib göstəriş verdi ki, onun adından Übeyd xana ünvanlanmış məktub yazılsın və özbək elçiləri geriyə yola salınsın (95).

«Xülasüt-təvarix" əsərində Şah Təhmasibin məktubunun xülasəsi də verilmişdir. Səfəvi əyanlarından olan Kəbe xəlifə də özbək elçiləri ilə birlikdə Mərvə yola salındı. Şah Təhmasibin yazdığı məktubu da o Übeyd xana çatdırmalı idi. Mənbədə bildirilir ki, Kəbə xəlifə çox nataraz bir insan idi. Onun görünüşü insanda bir qorxu və təşviş yaradırdı. Eyni zamanda o, çox güclü və şücaətli bir döyüşçü idi. Uca boyu, enli kürəyi olan bu döyüşçü həm də etiqadlı bir sufi idi. Yəni o, Şah Təhmasibin etibar etdiyi birisi idi. Mənbədə bildirilir ki, özbək xanları Əbu Səid xanın düşərgəsinə toplaşaraq Səfəvi şahının yanına göndərilmiş elçilərin geri qayıtmasını gözləyirdilər. Mənbədə o da bildirilir ki, Əbu Səid xanın Təhmasib xana hörməti və ehtiramı var idi. O, əslində, Şah Təhmasiblə müharibə edilməsinə tərəfdar deyildi. Amma özbək xanları və bölgənin digər hakimləri öz qoşun dəstələri ilə onun düşərgəsinə cəmləşdikləri üçün Əbu Səid xan Şah Təhmasibin yanına göndərilmiş elçilərin geri qayıtmasını gözlədi. Elçilər gəlib çıxandan sonra Əbu Səid xan onlardan Şah Təhmasibin qoşunlarını görüb-görmədiklərini soruşdu. Onlar da Şah Təhmasibin düşərgəsində gördüklərini və müşahidə etdiklərini nəql etdilər. Elçilər Səfəvi qoşunları barəsində elə bir mənzərə və təsəvvür formalaşdırdılar ki, Übeyd xan özü də dəhşətə gəldi. Elçilər bildirdilər ki, Səfəvi şahının çox böyük sayda qoşunları və onların da sonsuz sayda silahı, sursatı, təchizatı vardır. Eşitdiklərindən xoşu gəlmədiyi üçün Übeyd xan elçilərin qətlə yetirilməsi haqqında göstəriş verdi. Əbu Səid xanın bundan xoşu gəl-

mədi və bildirdi ki, elçilərin öldürülməsi hakimiyyət ənənələrinə uyğun deyildir. O həm də verdikləri məlumata görə elçilərin günahkar olmadığını bildirdi. Elçinin məlumatlarını dinlədikdən sonra Əbu Səid xan bir daha Şah Təhmasibə qarşı qoşun çəkməyin mənasız olduğunu anladı. Bununla belə o, Turan sultanlarına müraciət edərək onların da fikrini öyrənmək istədi. Mavəraünnəhrdən toplanmış olan Bərağ xan, Abdulla xan, Əbdüllətif xan, Küsgün Qara sultan, Gəldi Məhəmməd sultan, Rəşid xan, Pirməhəmməd xan, Dost Məhəmməd xan, Sönüc Məhəmməd sultan, Əbdüləziz sultan, Əbdülrəhim sultan, habelə Qanqrat xan, Bubək xan, Qaraquş xan, Elburus xan, Mənkətay xan, Bərdi sultan, Ömər Qazi sultan, Ətək sultan kimi qazax və tatar sultanları, onlardan başqa qıpçaq çölündən gəlmiş sultanlar Əbu Səid xanın mövqeyini dəstəklədilər. Həmin sultanlar və xanlar bəyan etdilər ki, onların qızılbaş qoşunları ilə hər hansı bir işi yoxdur. Bu xanlar da bildirdilər ki, onların qoşunla gəlmələri yalnız Əbu Səid xana olan hörmətin nişanəsidir. Əbu Səid xan da əlavə olaraq bəyan etdi ki, qızılbaş şahının onların hakim olduqları ərazilərdə gözü yoxdur və qızılbaş qoşunlarından hər hansı bir təhlükəni də gözləmirlər. Əbu Səid eyni zamanda Cam ətrafında baş vermiş döyüşü xatırladaraq dedi ki, Şah Təhmasib yaşının və qoşunlarının sayının az olmasına baxmayaraq böyük sayda olan özbək qoşunlarına üstün gəldi. O sonra əlavə etdi ki, hazırkı vəziyyətdə isə Şah Təhmasibin həm təcrübəsi artıb, həm də qoşunlarının sayı-hesabı məlum deyil. Ona görə belə bir durumda ona qarşı müharibə aparılması düzgün deyildir. Düşərgəyə toplanmış olan sultanlar və xanlar Əbu Səid xanın bu fikri ilə razılaşdılar və dağılmağa başladılar. Bu zaman Əbu Səid xana çatdırıldı ki, Şah Təhmasib də öz elçisini göndərib. Əbu Səid xan həmin elçinin onun yanına gətirilməsini əmr etdi. Mənbədə Kəbə xəlifənin Turan sultanlarının hüzuruna gəlişi xüsusi olaraq təsvir edilmişdir. Bildirilir ki, sultanlar və xanlar müşahidə etdikdə onda Rüstəm və Əfrasiyab vüqarı və təntənəsi gördülər, görünüşündən özlərində bir titrəyiş hiss etdilər, qarşılarında şücaətli bir döyüşçünün dayandığını anladılar. Kəbə xəlifə gətirmiş olduğu

məktubu Əbu Səid xana təqdim etdi. Əbu Səid xan da yerindən qalxıb təzimlə Şah Təhmasibin məktubunu qəbul etdi və onun məzmunu ilə tanış oldu. Əbu Səid xan Şah Təhmasibin məktubunda yazılanları təbəssümlə qarşıladı və sonra da məktubu Übeyd xana verdi. Kəbə xəlifə özü ilə bir ədəd şişpər və bir qadın baş örtüyü gətirmişdi. Bunları ona Şah Təhmasibin göstərişi ilə verilmişdi. Kəbə xəlifə bunları da Übeyd xana verməli idi. Bununla da Übeyd sultana çatdırılmalı idi ki, müharibə seçimini edirsə şişpəri götürsün, yox əgər müharibədən çəkinirsə onda baş örtüyünü götürsün. Kəbə xəlifə məktubu təqdim edəndən sonra şişpərlə baş ortüyünü də ortaya qoydu və onların nə üçün gətirildiyini də bəyan etdi. Belə təhqir olunması Übeyd xanı yenidən son dərəcə qəzəbləndirdi və istədi ki, elə həmin şişpərlə Kəbə xəlifənin həyatına son qoysun. Kəbə xəlifə də bildirdi ki, ölməkdən heç də qorxmur. Yoxsa 170 minlik özbək qoşunları arasına gəlməzdi. Kəbə xəlifə özbək xanına belə müraciət etdi: "Ey xan, mən başımdan keçərək bura gəldim, 170 min özbəyin arasında qədəm atdım. Məni öldürməklə qorxudursan? Mənim padşahımın və mürşidimin mənim kimi 120 min atlısı vardır. Onların ən zəifi belə məndən güclüdür. Əgər kişiliyin varsa, irəli addım at və bahadırlıq bacarığını göstər" (96).

Kəbə xəlifə özü bilirdi ki, Übeyd xana qaba şəkildə müraciət edir. Mənbədə olan məlumatlara görə, o bu hərəkətindən heç də çəkinmədi. Bildirilir ki, onun bu hərəkəti və sözləri Əbu Səid xanın xoşuna gəldi. Əbu Səid xan məclisi tərk edərək Kəbə xəlifəni də özü ilə apardı, ona mehribanlıq göstərib, qiymətli hədiyyələrlə mükafatlandırdı, onun vasitəsilə Şah Təhmasibə öz salamlarını göndərdi. Onun sözlərinə görə, döyüşün baş verəcəyi halda Şah Təhmasiblə on gündən sonra döyüş meydanında görüşə biləcək. Bundan sonra Əbu Səid xan öz seçmə döyüşçülərindən 400 atlıya tapşırdı ki, Kəbə xəlifəni Cam vilayətinə qədər müşayiət etsinlər. Kəbə xəlifəyə əlavə olaraq bir neçə cins at və bir neçə samur dərisi verildi. Übeyd xan isə bütün bunlarla heç də razılaşmadı və hətta çalışdı ki, onun başına toplanmış xanlar və sultanar da Şah Təhmasiblə müharibə aparmaq fikrindən daşın-

masınlar. Lakin həmin xanların və sultanların heç biri onun niyyətini dəstəkləmədilər və səhəri günə qədər onların hamısı Mərvi tərk edib öz vilayətlərinə yollandılar. Bölgə xanları və hakimləri öz vilayətlərinə yollandıqdan sonra Übeyd xan daha iki gün Mərvdə dayandı. Mənbənin verdiyi məlumata görə, Übeyd xan həmin iki gün ərzində Mərv şəhərinə və əhalisinə böyük talanlar və dağıntılar yetirdi. Sonra isə Mərvi tərk edib Buxaraya yollandı. Kəbə xəlifə də geri qayıdaraq öz elçilik missiyası, eşitdiyi və gördükləri barəsində Şah Təhmasibə məlumat verdi. Mənbədə olan məlumata görə, Kəbə xəlifə öz elçiliyi barəsindəki məlumatı Şah Təhmasibə Xorsan vilayəti ərazisində çatdırdı. Yəni bu zaman Şah Təhmasib öz qoşunları ilə birlikdə artıq Xorasan vilayətində idi. Çuxa sultan şahın hüzurunda bildirdi ki, elçilərin göndərilməsinin ardınca hücuma başlamaq özbək xanlarının adətidir. Onun sözlərinə görə, elə həmin günlərdə özbək xanlarının hücumunu gözləmək olar. Bu xəbərdən sonra Şah Təhmasib özü də döyüşə hazır vəziyyətə gəldi, döyüş libasını geyinərək təchizatını sahmana saldı. O, eyni zamanda qoşunları döyüşə hazır vəziyyətə gətirdi və bununla bağlı lazımi göstərişləri verdi. «Xülasüttəvarix" müəllifi yazırdı ki, Şah Təhmasib qoşunlara döyüşə hazırlıq əmri verdikdən sonra bu əmrin necə icra olunmasını şəxsən yoxladı, qoşunları qruplaşdırdı, sağ və sol cinahlar müəyyənləşdirildi, mərkəzə lazımi qüvvələr yerləşdirildi. Mərkəzdə hansı qüvvələrin yerləşməsini də Şah Təhmasib özü müəyyənləşdirdi. Bundan sonra Şah Təhmasib 40 min nəfərlik bir qoşun dəstəsini isə özbək qoşunlarının gələ biləcəyi marşrut üzərində yerləşdirdi. Bu qoşun dəstəsi dağlıq ərazilərdə, təpələrdə, qayalarda gizli mövqe tutmalı və özbək qoşunlarını da ilkin olaraq bu qoşun dəstəsi qarşılamalı idi. Şah Təhmasib ciddi təhlükə ilə üzbəüz olduğu üçün başlanan işin uğurla başa çatması üçün Tanrıya dualar etdi və sonra da bütün qoşunlara göstəriş verdi ki, döyüşçülər heç atlarından da yerə enməsinlər və özbək qoşunlarının gecə hücumuna hazır olsunlar (97).

Səhərə yaxın qoşun qarovulunun üzvləri xəbər gətirdilər ki, yaxınlıqda özbək qoşun dəstələri müşahidə edilmişdir. Bir qə-

dərdən sonra isə çərxçilər xəbər gətirdilər ki, özbək qoşunları hücum etməyə cəsarət etmədilər. Bu qoşunların döyüşçülərinin çoxu baş götürüb şərqə doğru yollanıblar. Bildidilir ki, hətta başqa xalqların nümayəndələri də uzun müddət özbək qoşunlarına qoşulmalarına baxmayaraq, onlar Xorasan vilayəti üzərinə hücumdam imtina etmiş və qoşunları tərk edərək dağılmağa başlamışdılar. Səbəb də o idi ki, özbək qoşunlarına qoşulanlar başa düşmüşdülər ki, onların artıq Şah Təhmasib qoşunu ilə üzləşmək qüdrəti yoxdur və Səfəvi hüdudlarına planlaşdırılan hücum da bir nəticə verməyəcəkdir. Ona görə də onlar özbək qoşunlarından ayrılmağı məqsədəuyğun saydılar. Nəticədə, Səfəvi hüdudlarına planlaşdırılan hərbi yürüş baş tutmamış qaldı. Bu xəbəri eşidəndə Şah Təhmasib sözsüz ki, xoşhal oldu və hərbi yürüşün uğurla başa çatması üçün yaradana öz şükürlərini, islam peyğəmbərinin ruhuna isə salavatlarını göndərdi. "Xülasüt-təvarix"də olan məlumata görə, Şah Təhmasib bir neçə gün Xorasan vilayətində dayandı və sonra Herata yollandı. O, Xorasanın hakimliyini kiçik qardaşı Bəhram Mirzəyə həvalə etdi. Onun lələsi vəzifəsinə isə Səfəvi sarayının tanınmış əyanlarından biri olan Qazi xan Təkəli təyin edildi. Qazi xan Təkəli lələ olmaqla yanaşı eyni zamanda Xorasan vilayətinin əmirül-ümərası təyin edildi və vilayətin real idarəçiliyi ona tapşırıldı (98).

Bir daha qeyd edilməlidir ki, Şah Təhmasibin qoşunlara sıra baxışı keçirməsi və elçiliklərlə bağlı məlumatlar hazırkı tədqiqatda istifadə edilmiş digər mənbələrdə mövcud deyil. Amma Şah Təhmasibin Xorasana gəlməsi, sonra Herata yollanması, Xorasanın hakimliyini Bəhram Mirzəyə tapşırması digər mənbələrdə də təkrarlanmışdır. Übeyd xan Mərvdən qayıdıb Şah Təhmasiblə döyüşə girməyə cəsarət etməsə də, Səfəvi şahı Xorasan vilayətinə qoşun çəkməyi məqsədəuyğun saydı. Ola bilsin ki, o, Übeyd xanın Mərvdən Xorasana gəlməyə cəsarət etməyəcəyindən xəbərsiz idi. Yoxsa, yəqin ki, çox böyük sayda olan qoşun dəstəsi ilə Şah Təhmasib bir də Xorasan vilayətinə yollanmazdı. Digər tərəfdən bu yürüş həm də nümayiş yürüşü ola bilərdi ki, Übeyd xan bir daha Səfəvi dövlətinin qüdrətini görsün və öz tə-

cavüzkar niyyətlərindən əl çəksin. Xorasana gəldikdən sonra Şah Təhmasib Herata da yollandı, bir müddət bu şəhərdə qaldı. Şah Təhmasib qardaşı Sam Mirzəni Xorasan hakimliyində saxlanmasını məqsəduyğun saymadı və bu vəzifəni digər qardaşı Bəhram Mirzəyə tapşırdı. "Tarix-i aləmara-yi Abbasi" əsərində Şah Təhmasibin Xorasan vilayətinə növbəti yürüşü haqqında belə yazılmışdır: "Cənnətməkan şah həzrətləri səadət və bəxtəvərliklə Xorasana gəldi, öz parlaq bayrağının ayparasını o vilayətin ərazisi üzərinə qaldırdı, darüssəltənə Heratda xoşbəxtcəsinə dayandı, o diyarın xəstə ürəklilərinin iltihablı yaralarının üstünə rahatçılıq məlhəmi qoydu, Xorasan hökumətini öz doğma qardaşı Bəhram mirzəyə bəxş etdi, Qazi xan Təkəlünü [Bəhram] mirzənin lələsi və Xorasanın əmirülümərası [təyin] etdi, hər mahala əmirlər və hakimlər təyin etdi və camaatın işlərini yenidən nizam-intizama saldı. Lakin qarətçi özbək ordusunun yürüşü zamanı o diyar xarabalığa döndüyündən, müzəffər əsgərlərin orada qalması o diyarın hərbçilərinin və rəiyyətinin dolanışığına mənfi təsir göstərdiyinə görə [şah ordusunun] İraq səmtinə qayıtması lazım gəldi. Dünya hökmdarı (Şah Təhmasib) öz qələbə nişanlı yüyənini o tərəfə döndərdi" (99).

Şah Təhmasib Heratı 1530-cu il noyabr ayının 7-də tərk edib (100) Təbəs və Yəzddən keçməklə İsfahana gəldi. Yuxarıda deyilənlərdən məlum olduğu kimi, o, həmin ilin qışını orada keçirdi və sonra Kəndumana yollandı.

### 7. Özbək qoşunlarının beşinci hücumu

Şah Təhmasibin qoşunları ilə Xorasan vilayətinə gəlməsi və onun tərəfindən Bəhram Mirzənin bu vilayətin hakimi təyin edilməsi bu vilayət üzərinə özbək qoşunlarının yürüşlərinin sona yetməsi ehtimallarını heç də doğrultmadı. Doğrudur, qısa bir müddət vilayət ərazisində müvəqqəti sabitlik mövcud oldu, insanlar dinc şəkildə öz gün-güzaranları ilə məşğul olmağa fürsət tapa bildilər. Bu da istər-istəməz vilayət daxilində dinc həyat üçün müəyyən ümidlər yaratdı. Vilayət idarəçiliyində dəyişikli-

yin baş verməsi, Sam Mirzənin yerinə Bəhram Mirzənin təyin edilməsi də əmin-amanlığın uzun müddət olacağı ümidlərini artırmaqda idi. Vilayət idarəçiliyinin sahmana salınması və təkmilləşdirilməsi üçün Qazi xan Təkəli Xorasanın əmürül-üməarası təyin edildi. O, Bəhram Mirzənin lələsi olmaqla vilayətin idarəçiliyini də öz üzərinə götürməli idi. Vilayət daxilində idarəçilik və maliyyə işləri bütünlüklə onun əlində cəmləşmişdi. Vilayət vəzirliyi vəzifəsi isə Xacə Əmir bəyə verildi. Bəhram Mirzə kiçik yaşlarında olduğu üçün vilayət daxilində idarəçiliyin qurulması bu adamlardan çox asılı idi. Bəhram Mirzə isə formal olaraq bu işləri nəzarət altında saxlamalı idi. Amma vilayətdə olduğu zaman Bəhram Mirzə öz təlim-tərbiyəsini də almalı idi və Xacə Şücaəddin Mahmud bu işlərə məsul təyin edildi (101). Şah Təhmasib tərəfindən də bu qərarların qəbul olunması Xorasan vilayəti daxilində həyatın və yaşayışın nizama salınması ilə bağlı idi.

Lakin artıq neçənci dəfə Xorasan vilayəti üzərinə hücumu uğursuzluqla nəticələnən Übeyd xan heç də bu vilayətə olan iddialarından əl çəkmirdi. Bu vilayət üzərinə olan son hücumdan sonra da o bu niyyətlərindən geri durmadı. Həmin yürüşləri həyata keçirməklə Übeyd xan bir tərəfdən öz xəzinəsini doldurur, bu vilayətin öz nəzarəti altına alınmasına yeni bir cəhd göstərir, həm də onun əcdadlarının Səfəvi şahlarından qisasının alınmasına çalışırdı. Şah Təhmasibin Xorasan vilayətindən uzaqlaşması, vilayət daxilində qalan Səfəvi qoşunlarının məğlub edilməsi ümidləri Übeyd xanı yenidən bu vilayətə təşviqləndirirdi. Çox güman ki, Səfəvi dövləti daxilində mövcud olan hərbi-siyasi vəziyyət də Übeyd xanda nəhayət ki, Xorasan vilayətinə olan yürüşlərinin uğurla başa çatacağına bir inam yaratmışdı. Çünki Səfəvi və qızılbaş əmir və əyanları arasında çəkişmələr hələ də qalmaqda idi və bu da Şah Təhmasibdən bu məsələyə ciddi diqqət ayrılmasını tələb edirdi. Bu isə sözsüz ki, Şah Təhmasibin Xorasan vilayətinə olan diqqətini zəiflədir və Xorasana çevik şəkildə kömək çatdırmaq imkanlarına mənfi təsir göstərirdi.

1531-ci ildə Übeyd xan öz niyyətlərinin həyata keçirilməsi imkanlarının araşdırılması üçün Xorasan vilayətinə qoşun dəstəsi

göndərdi. Bu dəfə Übeyd xan az sayda olan bir dəstini Xorasan vilayətinə göndərmişdi. Heç şübhəsiz ki, bu dəstənin göndərilməsi daha çox kəşfiyyat xarakteri daşıyırdı. Həmin qoşun dəstəsinin hücumu "Əhsənüt-təvarix" əsərində belə təsvir edilmişdir: "Qəməş-oğlan, Tinəş bəy və Şeyx Əbu-Səid Əfrasiyab purtavulluq edərək çayı keçib Sərəxsdən Məşhədə gəldilər. Məntəşa sultan o vaxt o diyarın hakimi idi. O, döyüşməyi məsləhət bilməyib Nişapura gəldi və Ağzıvar xanı da özünə qoşub rəqiblərin üzərinə yollandı. Özbək əmirləri özlərində onlara qarşı savaşmaq qüvvəsi görmədiklərindən, naçar qalıb fərar etdilər və Siyahab (Qarasu) [çayından] keçdilər. Ağzıvar sultanla Məntəşa sultan o məkanda onlara yetişdilər. Özbəklər çayın digər sahilində mövqe tutub qazilərə ox atmağa başladılar. Özbəklərin bir dəstəsi basqın niyyəti ilə çayın bu sahilinə keçdi. Ağzıvar xan ildırım kimi özünü onlara vurdu və neçə nəfəri qətlə yetirdi. Özbəkləri hədsiz qorxu bürüdü və onlar fərar yolunu tutdular. Yüksək şanlı əmirlər müqəddəs Məşhədə qayıtdılar. O əsnada dinin pənahı olan şahdan bir qorçu gəlib əmirlərin [şahın hüzuruna] gəlmələrini tələb etdi. Onlar ulu dərgaha yollandılar" (102).

Yəni bu dəfə də özbək xanları qarşılarına qoyduqları məqsədə nail ola bilmədilər. Onlar bu dəfə də bölgədəki Səfəvi qoşun dəstələrinin gücü ilə qarşılaşdılar. Amma bu yürüş də Übeyd xanı Xorasan vilayətinə olan iddialarından daşındırmadı və növbəti ildə o, böyük bir qoşun dəstəsi ilə Xorasan vilayəti üzərinə hücuma keçdi.

Özbək dəstəsinin Məşhəd üzərinə gəlməsi və bu qoşunun qovulması elə də uzun bir zaman çəkməmiş və tezliklə vilayət ərazisində sabitlik bərqərar olmuşdu. Ona görə mənbələrdə qeyd olunur ki, Xorasan vilayəti daxilində təxminən bir il yarım sakitlik hökm sürdü. Yəni Übeyd xanın özünün rəhbərliyi altında 1530-cu ildə baş verən hücumdan bir də bir il yarım sonra onun rəhbərliyi altında olan qoşun dəstəsi yenidən Xorasan vilayəti ərazisinə daxil oldu (103).

1532-ci ilin yazında Übeyd xan yenidən böyük qoşun dəstəsi ilə Amudərya çayını adladı və həmin il may ayının 6-da Herat

şəhərini mühasirəyə aldı (104). Onun qarşısına qoyduğu məqsəd bütün Xorasan vilayətini işğal etmək olduğu üçün qoşun dəstələrini müxtəlif istiqamətlərə göndərdi. Übeyd xanın əmir və əyanları göndərildikləri məntəqələri ələ keçirib ona məlumat çatdırmalı idilər. Übeyd xan öz oğlu Əbdüləziz sultanı Xorasanın digər mühüm şəhərlərindən biri olan Məşhəd şəhərinin tutulmasına göndərdi. Qəmiş-oğlanın rəhbərliyi altında olan qoşun dəstəsi Astrabada, Xangəldi bahadırın rəhbərliyi altında olan dəstəsi Səbzəvara, başqa bir qoşun dəstəsi isə Bistama göndərildi. Adları çəkilən məntəqələrin qızılbaş əmirləri olan Məntəşə sultan, Ağzıvar xan və özbək qoşunlarının yürüşü ilə qarşılaşan digər xanlar müqavimət göstərməyi mənasız saydılar və hakimi olduqları məntəqələri tərk etdilər. Yalnız Damğan hakimi olan Zülqədər sultan öz mövqeyini tərk etmədi və özbək qoşunlarına müqavimət göstərmək qərarına gəldi. Bu müqavimətin təşkil edilməsi üçün o, gəraylı tayfasından kömək istədi. Həmin tayfadan da onun müraciətinə müsbət cavab verildi. Gəraylı tayfasının əmiri Əlixan xəlifə Gəraylının rəhbərliyi altında olan qoşun dəstəsi Zülqədər xana köməyə gəldi və onların birləşmiş qoşun dəstəsi Bistam ətrafında özbək qoşunları ilə üzləşdi. Zülqədər xanla Əlixan xəlifənin birləşmiş dəstəsi bu döyüşdə uğur qazandı, çoxlu sayda özbək döyüşçüsü qətlə yetirildi, çoxlu sayda da əsir götürüldü. Damğan hakimindən əlavə Astrabad hakimi Məhəmməd xan Zülqədəroğlu da özbək qoşunlarına müqavimət göstərmək qərarına gəldi. Bu şəhər üzərinə Qəmiş-oğlanın rəhbərliyi altında olan özbək qoşun dəstəsi göndərilmişdi. Məhvəri-Savucbulağ adlanan yerdə Damğanın qoşun dəstəsi ilə özbək qoşun dəstəsi arasında döyüş baş verdi. Lakin bu döyüşdə özbək qoşun dəstəsi üstün gəldi (105).

Übeyd xan Herat şəhərinə doğru hərəkəti zamanı yolu üzərində olan məntəqələri də qarət edib var-yoxdan çıxardı. Onun qarşısına çıxan, eləcə də ətrafda yerləşən heç bur məntəqə özbək talanlarından nicat tapa bilmədi. Lakin Übeyd xanın əsas məqsədi Xorasan vilayətinin mərkəzi olan Heratın ələ keçirilməsi idi. Ona məlum idi ki, bu şəhəri asanlıqla ələ keçirə bilməyəcəkdir. Bu

məqsədə çatmağın əsas yolu isə Heratın mühasirəyə alınması idi. Bu məsələdə onun artıq müəyyən təcrübəsi də var idi və Herat şəhərini o, mühasirə yolu ilə ələ keçirə bilmişdi. Öz təcrübəsinə əsaslanaraq Übeyd xan ilkin olaraq Herat daxilinə gedən içməli suyun qarşısını kəsdi. Sonra isə şəhərin giriş-çıxış darvazaları nəzarət altına götürdü ki, şəhər daxilinə ərzaq əşyaları aparmaq mümkün olmasın. Şəhərin mühasirəsinin gücləndirilməsinə Übeyd xan xüsusi diqqət yetirirdi. Hətta bu məsələdə zəiflik və biganəlik göstərən bəzi döyüşçülərini qətlə yetirmişdi ki, şəhər daxilinə heç nə keçirmək mümkün olmasın (106). Bir sözlə, Übeyd xan bütün qüvvələrini sərf etməklə Herat şəhər-qalasını çox ciddi mühasirəyə aldı və bu mühasirəni davam etdirməklə şəhər rəhbərliyinə və əhalisinə təzyiqlərini artırdı.

Şah Təhmasibin Übeyd xanın bu hücumundan xəbəri var idi. Lakin mənbələrin bildirdiyi kimi, həmin vaxt Ülamə Təkəlinin Osmanlı tərəfinə qaçması və osmanlılarla sövdələşərək Səfəvi dövləti əleyhinə təxribatlara başlaması onun bütün diqqətini özünə cəlb etmişdi. Ülamə Təkəlinin osmanlılarla sövdələşməsi Səfəvi hüdudlarına Osmanlı qoşunlarının çıxarılması təhlükəsini yaratmışdı. Səfəvi qoşunları da bütünlüklə bu təhlükənin qarşısının alınmasına səfərbər edilmişdi. Ona görə idi ki, Übeyd xana qarşı qoşun göndərmək imkanı yox idi. Übeyd xan da bundan məlumatlı idi və buna görə idi ki, o da arxayın və rahat şəkildə Heratın mühasirəsini davam etdirirdi. Bəhram Mirzə və Qazi xan isə bütün güc və imkanlarını səfərbər etməklə mühasirənin məşəqqətlərinə dözməkdə idilər. Elə ona görə idi ki, Übeyd xan tərəfindən Heratın mühasirəsi bir il yarım davam etməli oldu (107). Heratın mühasirəsi şəhər əhalisi üçün elə bir ciddi hal almışdı ki, hətta qoşun döyüşçülərindən də bəziləri öz mövqelərini tərk edərək özbək qoşunlarına qoşulur və bu yolla aclığın qarşısını almağa çalışırdılar. O da bildirilir ki, Übeyd xan qızılbaş qoşunlarını tərk etmiş döyüşçüləri mehribanlıqla qarşılayır, onların ehtiyaclarını aradan qaldırır və sonra da onlardan öz xeyrinə kəşfiyyat işlərində istifadə edirdi (108).

“Əhsənüt-təvarix” əsərində Heratın növbəti dəfə özbək qoşunları tərəfindən mühasirə edilməsi belə təsvir edilmişdir: “Bu ilin 29 ramazanında (05.05.1532) Übeyd xan dövran hadisələrindən daha artıq sayda qoşunlarla Heratın ətrafını əhatəyə aldı. O, Şaymaneyi-Şamyanə kəndində özünə bargah qurdu. İzzətliləri zillət torpağına oturtdu. İlk öncə dodağı qurumuş fəqirləri və ümumən sakinləri su mənbəyindən məhrum etdi. Zalım özbəkləri yollarda növbə çəkməyə təyin etdi ki, yemək cinsindən heç bir şey qalaya getməsin. Bu səbəbdən Heratda mühasirədə qalmışların ruh düşkünlüyü və təşvişi günbəgün artdı. O əsnada Qazi xan möhtac adamların [şəhərdən] çıxarılmasına hökm verdi. O, [şəhəri tərk edən] sakinlərin mallarının təhqiqi üçün darvazaları və keçiş yollarını hər biri Nəmrud və Şəddada tay olan sərt və güclü türklərə tapşırdı. Onlar şəhəri tərk edən sakinlərin köhnə balışlarını və yorğanlarını cırıb içini axtarırdılar ki, məbada bunların içində nağd [pul] və cins [mal] kimi nə isə ola bilər. Bu təhqiqatdan sonra bir qadın və bir kişidən ibarət hər ailədən üç yüz Təbriz dinarı alıb onları [şəhərdən] çıxarırdılar. Şəhər o dərəcədə boşalmışdı ki, bazarlarda heç bir kəs gözə dəymirdi. Buna baxmayaraq, qazilərin bir çoxları Qazi xandan üz döndərib Übeyd xanın yanına getdilər. Übeyd xan qazilərin Qazi xandan fərar edib onun yanına gəlmələrini təmin etmək məqsədilə onlara nəvaziş göstərib xələt verirdi.

... Bu əsnada Qazi xan hökm etdi ki, qızılbaşlar şəhərdən çıxarılmış adamların evlərinə getsinlər və hər nə tapsalar, ələ keçirsinlər. Mühasirədəki qazilər və insafdan, mürüvvətdən uzaq türkmanlar hakimdən bu sözü eşidən kimi rəiyyətin mənzillərinə soxuldular və axtarışa başladılar. Adamların dəfn etdikləri (gizlətdikləri) şeyləri ələ keçirdilər. O əsnada aclıq atəşi yayıldı və neçə ay ərzində, hər gecə və sübh çağı fələklərin təndirindən çıxan günəşlə ayın dəyirmi görünüşündən savayı, qazilərin və şəhərlilərin gözü girdə heç nə görmədi

… Ət və yağ, gecəni işıqlandıran gövhər kimi və ənqa quşu kimi nadir və tapılmaz olmuşdu. Möhtac adamların bəziləri ət əvəzinə pişik və it əti ilə qidalanırdılar. Bəziləri isə köhnə dərini

çeynəyib yeyirdilər. [Bəhram] mirzə və əsilzadələr ağac yarpaqlarını, ulaq yemini yeyirdilər. Bəzi özbəklər Übeyd xandan gizlicə darvazanın yanına gələrək, arıq atlarını oraya gətirib onları tam baha qiymətə [qızılbaşlara] satırdılar və əgər bu alqı-satqı olmasaydı, qazilərin işi çətin olardı. Mühasirə müddətinin axırında qazilər elə qüvvətsiz olmuşdular ki, əsa ilə yeriyirdilər. Bəhram mirzənin bavərçisi (aşpazı) həqir bir tabağa düyü və ət töküb həmin tabağı neçə-neçə boş tabaqlarla birlikdə o həzrətin yanına gətirirdi. [Bəhram] mirzə lütf etdiyi kəslərin tabağına bir qaşıq düyü tökürdü. Halbuki bu tabaqların hər birinin həcmi üç-dörd batman düyü və ət tutardı. İş o yerə çatmışdı ki, [Bəhram] mirzənin məclisində bir qaşıq düyüdən ötrü dava düşürdü. Bəhram mirzədən nəql edirlər ki, bir gün Qazi xanla oturduqları zaman iki nəfər mötəbər ağa divana gəldi. Onların biri tuğaçı idi, digəri isə tərxan (əmir) idi. Onlardan biri dedi:

- Neçə gün əvvəl bir köpəyi qılıncla vurmuşam və o it bu kişinin evinə gedib. Lakin o indi bu iti mənə vermir.

Digəri isə cavabında dedi:

- Evimə gəldiyi vaxt bu it yaralı idi, amma ölməmişdi. O, məhz mənim zərbəmdən sonra düşüb öldü. Qazi xan ayağa qalxdı və mübahisəyə son qoymaq üçün iti iki parça edib hər parasını onlardan birinə verdi. Bu zaman Übeyd xanın yardımına Bəlx valisi Kəskən Qara sultan ibn Canibəy sultan gəldi. Lakin o, Herat ətrafında mövqe tutub qızılbaşlarla dostluq münasibəti yaratdı və Bəhram mirzə üçün bir südəmər quzu və at [südündən hazırlanmış] kərə yağı göndərdi. Onun mülazimləri atlar gətirib qazilərə satdılar. Übeyd xanın tərəfindən elçilər gəlib sülhdən söz saldılar. [Bəhram] mirzə və Qazi xan dedilər:

- Übeyd xan iki mənzil köç edib geri çəkilsin ki, biz şəhəri tərk edib İraqa yollanaq.

Übeyd xan dedi:

- Onlar gəlib mənim çadırımın kəndiri altından keçsinlər və salamatlıqla çıxıb getsinlər.

Lakin Qazi xan [bunu] qəbul etmədi. Bir neçə gün sonra Səmərqənd padşahı Əbu-Səid xanın atalığı gəldi və sülh haqqın-

da söz açdı. Amma bunun da bir faydası olmadı. Təhlükəli mühasirə müddəti il yarım idi ki davam edirdi. Aclıq və qəhətlik qafiləsi Herat şəhərində məskən salmışdı, şənlik qeybə çəkilmişdi. Həyatdan zövq alan insanların yaşayış imkanları gözəllərin ağızları kimi daralmışdı və firavanlığın olmaması səbəbindən yaraşıqlı nazəninlərin şirin dodaqları təbəssümdən məhrum olmuşdu. Herat əhalisinin daxilindən çıxan fəryad səmanın təbəqələrini yarıb keçirdi" (109).

Məlumatdan da göründüyü kimi, şəhər daxilində vəziyyətin ağır olmasına baxmayaraq, Bərham Mirzə ilə Qazi xan təhqiramiz sülhü qəbul etmədilər və qala daxilində öz mübarizələrini davam etdirməyi qərarlaşdırdılar. Onların bu əzmkarlığı sonda öz nəticəsini verdi və Şah Təhmasibin öz üzünü yenidən Xorasana tərəf döndərməsi Heratın nicatına yol açdı. Yəni Ülamə Təkəli ilə bağlı olan narahatçılıqlar müəyyən qədər səngidikdən sonra Şah Təhmasib yenidən qoşunla Xorasan istiqamətinə yollanmaq qərarına gəldi. Əslində, başqa çıxış yolu da yox idi. Çünki kömək göstərilməyəcəyi təqdirdə Xorasan daxilində mövcud olan qüvvələrlə özbək qoşunlarının təcavüzünün qarşısını almaq mümkün deyildi.

Şah Təhmasib özü hərəkətə başlamazdan əvvəl bölgə istiqamətinə qoşun dəstələri göndərdi. Belə dəstələrdən birini Şah Təhmasib kiçik qardaşı Əlqas Mirzənin və Bədr xan Ustaclının rəhbərliyi altında Astrabad istiqamətinə göndərdi ki, həmin dəstə bu şəhəri və onun ətrafını özbək qoşunlarından təmizləsin. Bu qoşun dəstəsi Bistama çatanda Bədr xan qoşun rəhbərlərinin müşavirəsini keçirdi və bu müşavirədə qərara alındı ki, qarşıya qoyulan məqsədə nail olmaq üçün Astrabad üzərinə gözlənilməz və sürətli bir hücum təşkil edilsin və orada Qəmiş-oğlanın rəhbərliyi altında olan özbək qoşun dəstəsi qəfil şəkildə haqlansın. Bu müşavirədə hətta belə bir fikir də işlədildi ki, "müharibə hiyləgərlikdir" və bu deyimə əməl olunması yaxşı olar. Ona görə də müşavirədə sürətli hücum taktikası seçildi və bu taktikanın həyata keçirilməsi üçün 1500 nəfərlik atlı dəstəsi seçildi. Bu dəstə səhər erkən vaxtı böyük sürətlə Astrabada daxil oldu və qarşıya

çıxan özbək döyüşçüsünü qətlə yetirdi. Qətlə yetirilən bir çox özbəklər hətta libaslarını belə geyinə bilməmişdilər. Bu yolla çoxlu sayda özbək döyüşçüsü qətlə yetirildi. Elə bir vəziyyət yarandı ki, hətta Qəmiş-oğlan da həyatı üçün təhlükə hiss etdi və canını qurtarmağı şəhərdən qamaqda gördü. Mənbədə olan məlumata görə, Qəmiş-oğlanın dörd qardaşı beş yüz özbək döyüşçüsü ilə birlikdə qətlə yetirildi. Qəmiş-oğlan özü isə bir neçə nəfərin əhatəsində şəhərdən çıxıb qaça bildi (110).

Başqa bir qoşun dəstəsi isə Sufiyan xəlifə Rumlunun rəhbərliyi altında Səbzəvara göndərilmişdi. Bu dəstənin say tərkibi Səbzəvarda olan 4 min nəfərlik qoşun dəstəsinin sayından xeyli az idi. Buna baxmayaraq qızılbaş dəstəsi şücaət və fədakarlıq göstərdi və nəticədə Səbzəvarda olan özbək dəstəsinin də Nişapura tərəf qaçmaqdan başqa çarəsi qalmadı. Sufiyan xəlifə Rumlu özbək qoşunlarını təqib etmək qərarına gəldi. Görünür, Nişapurda başqa bir özbək dəstəsi də mövcud imiş. Çünki Nişapurun da özbək qoşunlarından təmizlənməsi üçün Şah Təhmasib tərəfindən Sufiyan xəlifənin köməyinə əlavə qoşun dəstəsi göndərildi. Həmin qoşun dəstəsinə Hüseyn xan Şamlı, Ağzıvar xan Şamlı, Əmir sultan Rumlu rəhbərlik edirdilər. Adları çəkilən əmirlərin rəhbərliyi altında olan qüvvələr Nişapur yaxınlığında Sufiyan xəlifənin dəstəsi ilə birləşdilər və birləşmiş qüvvələr özbək qoşunları üzərinə hücum etdilər. Nəticədə Nişapur da özbək qoşunlarından azad edildi və orada salamat qalan özbək döyüşçüləri Məşhədə qaçmağa məcbur oldular. Məşhəddə isə Übeyd xanın oğlu Əbdüləziz xan və onun rəhbərliyi altında olan 7 min nəfərlik özbək dəstəsi dayanmışdı. Qızılbaş dəstəsi Nişapurdan Məşhədə doğru irəliləyəndə artıq Şah Təhmasib də qoşun dəstəsi ilə Xorasana doğru hərəkətə başlamışdı. Əbdüləziz xan həm Sufiyan xəlifənin və ona qoşulan əmirlərin rəhbərliyi altında olan qoşun dəstəsinin Məşhədə tərəf gəlməsindən, həm də Şah Təhmasibin Xorasana doğru irəliləməsindən xəbət tutanda orada dayanmağı mümkün saymayaraq Herata tərəf çəkildi və Herat ətrafında dayanmış atasına qoşuldu (111).

Bu hadisələrin ardınca Şah Təhmasib də qoşun dəstəsi ilə Xorasan vilayətinə daxil oldu. Onun gəlişi ilə vilayət daxilindəki Səfəvi qoşunlarının gücü xeyli artdı. Übeyd xan yenidən öz gücsüzlüyünü hiss etdi və çarəsizlik məngənəsində qalıb Heratı tərk etməklə öz vilayətinə tərəf geri çəkildi. "Tarix-i aləmara-yi Abbasi" əsərində Şah Təhmasibin Xorasan vilayətinə növbəti gəlişi və onun gəlməsindən sonra bu vilayətdə hansı proseslərin baş verməsi aşağıdakı kimi təsvir edilmişdir: "Übeyd xan üfüqlər hökmdarının günəş kimi nur saçan bayraqlarının və onun qoşunlarının gəlişinin yaxın olmasından agah olub, hər dəfə olduğu kimi, bu dəfə də fərar etməyə qərar verib, Buxara yoluna çıxdı və özbək sultanlarının hər biri öz vilayətlərinə tələsdilər. Şahın zərnigar çətirinin günəşi Herat üfüqündən doğub, 939-cu ilin cəmadiüs-sani ayının 22-də (19.01.1533) şəhər bağında yerləşdi. [Şah Təhmasib] orada hökmdarlıq taxtı üzərində əyləşdi. Pərişanlıq diyarının pərakəndələri olan böyüklər və əyan-əşrəflər onun mübarək kölgəsi altında daldalanacaq axtarıb, ondan hüsnrəğbət vədi aldılar. Qazi xan məzlumların mallarını müsadirə etmək üstündə danlanıldı. Fəqirlərə və zəiflərə dövlət xəzinəsindən («xəzaneyi-amirə») külli miqdarda bəxşişlər verildi. O ildə [şah] Heratda qışlaq etdi. Bir müddət sonra isə Məvəraünnəhrə yürüş etmək, Übeyd xanı cəzalandırmaq və özbəklərə qulaqburması vermək üçün şəhərdən çıxdı. Üləngneşin ədalətli və dindar hökmdarın ordugah yeri oldu. Xorasanda Məvəraünnəhrə yürüşlə bağlı səs-səda yayıldı. Hüseyn xan və Məntəşa sultan bəzi əmirlərlə birlikdə Qərcistanın zəbt olunmasına məmur edildilər və onlar o vilayəti fəth edib, geri qayıtdılar. Adlı-sanlı əmirlər Məvəraünnəhr yürüşünə hazırlıq görüb, topxana ləvazimatlarının və yaraqların sərəncam edilməsinə məşğul oldular. Lakin bu vaxt orduda Azərbaycandan və İraqdan gələn qorxulu xəbərlər yayıldı. Rum qoşununun yürüşü və Sultan Süleymanın o sərhədə və ölkəyə gəlişi haqqında olan bu xəbərlər həmin layiqli işə (Məvəraünnəhr yürüşünə) əngəl yaratdı. Şah məiyyətinin İraq tərəfə qayıtması lazım gəldi. Təkəlü camaatında qalanı müdafiə etmək qüdrəti qalmadığından, həm də rəiyyət və acizlər Qazi xanın və

onun adamlarının yöndəmsiz hərəkətlərindən şikayətçi olduqlarından darüssəltənə Heratın hökuməti kama yetmiş şahzadə Sam mirzəyə tapşırıldı, Ağzıvar xan Şamlu isə [Sam] mirzənin lələsi, atalığı və Xorasanın əmirülümərası təyin edildi. Bundan sonra [Şah Təhmasib] hərəkət yüyənini İraqa tərəf döndərib, sürətli və təcili bir şəkildə Allahın köməyi ilə yola düşdü" (112).

Bu məlumatdan göründüyü kimi, Şah Təhmasib təkcə Xorasana gəlməklə və Übeyd xanın oradan qovulmasına nail olmaqla kifayətlənmədi. O eyni zamanda özbəklərin hakim olduğu vilayətlərə də qoşun dəstələri göndərdi ki, həmin vilayətlərdə özbək qüvvələrinə ağır zərbə vurulsun, özbəklərin qüvvələri zəiflədilməklə onların Xorasan vilayəti üzərinə hücum istəklərinin üstündən xətt çəkilsin. Xorasan vilayətinə yürüşünü Şah Təhmasib özü isə belə xatırlayırdı: "...Xorasana tərəf hərəkət etdik. Məlun Übeyd bizim gəlməyimizi eşidən kimi qoyub qaçmışdı. O il qış fəslini Heratda keçirdik. Əmirləri və qoşun hissələrini mahallara göndərdik ki, o yerlərdə qışlaq etsinlər. Bu zaman xəbər gəldi ki, Üləmə öz qoşunu ilə Şərəf bəyin, Səraçə sultanın və onlar ilə birlikdə olan başqa əmirlərin üzərinə hücum edib. Onlar arasında gedən müharibə nəticəsində Şərəf bəy həlak olmuş, biz bu hadisəyə o qədər də əhəmiyyət vermədik və Heratda qışladıq. Biz elə düşünürdük ki, Üləmə hər iş görsə də Xandigar bizə basqın etməz. Biz qışlaqda oturduq ki, görək Allah nə qismət edəcəkdir.

Yaz açılanda Əlqası bəzi əmirlərlə birlikdə Mərvə, Müntəşa sultan, Hüseyn xan Rumlu və Əmir bəyi bir dəstə qorçi ilə birlikdə Ğərcistana göndərdik. Özüm isə Xorasana ziyarətə getdim. Onlar Ğərcistanı fəth edib Herata qayıtdılar. Mən də ziyarətdən sonra Herata qayıtdım. Bir ay Heratda qaldıq. Zülhiccə ayının 11-də Heratdan çıxdıq ki, 40 gün ələngişində (otlaqlarda) dayanaq və qoşun toplandıqdan sonra Bəlx şəhəri üzərinə gedək. Lakin Heratdan çıxan günün sabahı qızdırma xəstəliyinə tutuldum. Bir neçə gün xəstə yatdım. Təsadüfən zülhəccə ayının 14-cü gecəsi divanxanada yatmışdım, İmam Əlini yuxuda gördüm. Gördüm ki, guya Əli o zaman Qəzvində Dövlətxana olan Zeynal

xanın evində oturubdur. Yanında iki nəfər qarasaqqallı gənc oğlan vardır. Onların təxminən 25 yaşı olardı və Əlinin arxa tərəfində dayanmışdılar. Mən irəli gedib Əlinin qarşısında yeri öpdüm və diz çökərək dedim:

-Mən bu çayın o tərəfinə gedirəm. Mənimlə özbəklər arasında müharibə olacaq, ya yox?

O dedi:

-Sənin hansı bir mühüm işin müharibə vasitəsilə düzəlmişdir ki, bu işin də onun vasitəsilə düzələ?

Mən yenə soruşaraq dedim:

-Ya Əmirəlmöminin, çayın o biri tərəfində bizim vəziyyətimiz necə olacaqdır?

Əli dedi:

-Çayın o tərəfində sizin üçün faydalı bir şey yoxdur. Hər nə varsa, ancaq çayın bu biri tərəfindədir.

Mən bu sualı üç dəfə təkrar soruşdumsa da, o mənə eyni cavabı verdi.

Sonra Əli mənə üç kəlmə söz tapşırdı:

1. Əlqəm çayını unutma, onu gözdən qoyma.

2. Nəzir elə ki, Səmərqənd şəhərini ələ keçirdikdən sonra mənim məqbərəmi də İmam Rzanın məqbərəsi kimi təmir edərsən.

3. Əvvəllər Şah [İsmayılın] qasidi olan, sonralar isə İmam Rzanın məqbərəsinə mütəvəlli təyin etdiyim Fəthi bəyi mənə tapşırdı.

Bu zaman mən yuxudan ayıldım. Bizim əqidəmizə görə imam və peyğəmbərləri hər kəs yuxuda görsə, elə bil ki, onları ayıqlıqda görmüş və onların dedikləri də həqiqətdir. Buna heç şübhə də ola bilməz. Bu yuxudan mən çox ümidvar oldum. Sabahısı gün mən yuxumu yoldaşlarıma danışdım. Yoldaşlarımdan bəziləri dedilər ki, çayın bu tərəfində özbəklər ilə toqquşma olacaqdır" (113).

Məlumdur ki, Şah Təhmasib yürüşlərini davam etdirə bilmədi və eşidəndə ki, Osmanlı qoşunlarının təhlükəsi yenidən artıb onda Xorasanla vidalaşıb geri qayıtmalı oldu. Ancaq geri qayıt-

mazdan əvvəl o, bir daha Xorasanın idarəçiliyinin sahmana salınması ilə də məşğul oldu. Şah Təhmasib görünür, Qazi xanın Xorasan vilayətindəki fəaliyyəti ilə lazımınca razı deyildi. Ona görə də o, Qazi xandan Xorasanda qalıb-qala bilməyəcəyi ilə maraqlandı. Qazi xan isə Xorasandakı fəaliyyətini davam etdirmək istəyində olmadığına işarə etdi. Şah Təhmasib də bununla razılaşdı və onun vilayət idarəçiliyindən azad edilməsini məqsədəuyğun saydı. Səfəvi şahı özü bu hadisəni belə xatırlayırdı: "Mən Bəhram mirzə ilə Qazi xana dedim:

-Siz Heratda qalırsınızmı?

Qazi xan dedi:

-Xalqın (qoşunun) vəziyyəti çox ağırdır. Onlar uzun müddət aclıq və korluq çəkiblər, qaramal gönü yeməyə məcbur olublar. Onlar qalanı saxlaya bilməzlər.

Ağzıvar xan Heratda qalmağa razı olaraq dedi:

-Sam mirzəni mənə köməkçi versəniz, mən Heratı qoruyub saxlaram.

Müntəşa sultan, Əmir bəy Rumlu, Şiraz hakimi Qazi xan Zülqədər və Süleyman xan Rumlu xəlvətcə mənə dedilər ki, Sam mirzəni Ağzıvar xanla birlikdə Heratda qoymaq ağıla uyğun deyildir.

Mən onlara dedim:

-Əgər ziyanverici bir qurd ağacın içərisində olarsa, o ağaca ziyan verər. Lakin əgər ağacın kənarında olsa, ağaca ziyan vura bilməz. Yaxşısı budur ki, şübhəli və etibarsız adamları Heratda qoyaq qalsın, qoşunun içərisində olmasınlar. Rəvayətə görə Dara İsgəndər ilə müharibə edərkən özünün iki sərkərdəsini əli ilə öldürdü. Ona görə də şübhəli və etibarsız adamları Heratda qoyub getməyimiz yaxşıdır. Ancaq Hüseyn xanı özümüzlə birlikdə aparmalıyıq. Zülqədəroğlu ilə Qazi xanı inandırdıq"(114).

Şah Təhmasibin sonrakı xatirələrindən aydın olur ki, o, şübhəli və etibarsız adamlar deyəndə başqaları ilə birlikdə həm də Sam Mirzəni və Qazi xanı nəzərdə tuturdu. Çünki onların hər ikisi sonradan Şah Təhmasibə qarşı mövqe tutmuşdular (115).

## 8. Özbək qoşunlarının altıncı hücumu

Növbəti ciddi uğursuzluğuna düçar olan Übeyd xan aldığı zərbənin miqyasına baxmayaraq, yenə də Xorasan vilayətinə iddilarından və Şah Təhmasibə üstün gəlmək məkrlərindən əl çəkmədi. Münasib an yetişəndə Übeyd xan bir daha öz niyyətlərinin həyata keçirilməsinə cəhd göstərdi. Bu münasib an isə Səfəvi dövləti daxilində cərəyan edən hərbi-siyasi hadisələrlə bağlı idi. Bir tərəfdən Osmanlı qoşunlarının Səfəvi hüdudlarına hücumu, bir tərəfdən də səltənət daxilində hələ də səngiməyən daxili çəkişmələr Übeyd xanda Səfəvi dövlətinin zəifləməsi təəssüratı yaratdı. O güman edirdi ki, Səfəvi dövləti bu dəfə qərar tutduğu vəziyyətdə artıq özbək qoşunlarının hücumunun qarşısını ala bilməyəcəkdir. Səltənət daxilində cərəyan edən proseslərin Heratda da özünəməxsus şəkildə əks-səda verməsi, Xorasanın idarəçiliyini öz üzərinə götürmüş əmir və əyanların mərkəzi hakimiyyətə qarşı etibarsız mövqeyi də Übeyd xanın uğuruna ehtimalları gücləndirməkdə idi. Bir sözlə mövcud durumu dəyərləndirdikdən sonra Übeyd xan münasib anın yetişdiyi qənaətinə gəldi.

Sam Mirzə ilə onun lələsi Ağzıvar xan böyük məsuliyyətlə vilayət idarəçiliyini öz üzərlərinə götürdülər və bu işə əzmkarlıqla başladılar. İlk vaxtlar onlar doğrudan da vilayət daxilində vəziyyətin düzəldilməsi, yaşayışın yaxşılaşdırılması, insanların gün-güzəranının qaldırılması ilə ciddi şəkildə məşğul olmağa başladılar. Onların əldə etdikləri nəticələr də gördükləri və planlaşdırdıqları işə uyğun idi. Bu da istər-istəməz vilayət əhalisinin razılığı ilə qarşılaşmaqda idi. Belə bir vəziyyət Şah Təhmasibin də rəğbəti ilə qarşılanırdı. Mənbə məlumatlarından aydın olur ki, altı ay müddətində Sam Mirzə ilə Ağzıvar xan vilayət işlərinin düzgün yola qoyulması ilə əzmkarlıqla məşğul oldular (116).

“Dinin pənahı olan şahın Heratdan getməsindən sonra Sam mirzə və Ağzıvar xan hökumət kürsüsünə əyləşdilər. Ağzıvar bütün səylərini ordunun və rəiyyətin əhvalının yaxşılaşmasına sərf etdi, seyidlərə, məvalilərə, orta və aşağı təbəqədən olan adamlara hörmət və ehtiram etməyə tam diqqət yetirib mərhəmət

bayrağını qaldırdı. Herat şəhərində altı aydan artıq müddətdə hökm sürdükdən sonra Hüseyn xanın qətli və şamluların əhvalının pərişanlığı haqqında xəbər Herata çatdı. Ağzıvar xan vahiməyə düşdü ki, Hüseyn xanın başına gələn [iş] onun [da] başına gələcəkdir. O əsnada üzüqara Başdan Qara Mavəraünnəhrdən qaçıb, Ağzıvarın və Sam mirzənin yanına gələrək onları [şaha qarşı] müxalif olmağa təhrik etdi. Onlar həmin nadan cahilin sözünə aldanıb başlarını itaət boyunduruğundan və ayaqlarını tabeçilik caddəsindən kənara çıxardılar, cəhalət və zəlalət atına süvar olub, nankorluq yolunun yolçusuna çevrilərək əmin-amanlıq mərhələlərini geridə qoydular. O əsnada [Sam] mirzənin və [Ağzıvar] xanın mülazimləri Herat sakinlərinin evlərinə daxil olaraq mal-dövlət sahibi olduğunu güman etdikləri kimsələrin zahiri sərvətlərini xanın rüxsəti ilə ələ keçirmiş, gizlədilmiş mal-dövləti tələb etmək üçün ev sahiblərinə işgəncə vermişdilər” (117).

Hüseyn xanın qətlə yetirilməsi Heratda vəziyyəti xüsusi ilə mürəkkəbləşdirdi. Həm Sam Mirzə, həm də Ağzıvar xan bu hadisədən təşvişə düşdülər. Sam Mirzə ona görə təşvişə düşdü ki, Hüseyn xan bir müddət onun ləfləsi olmuşdu və Hüseyn xanla bağlı olan şübhələr ona da aid edilə bilərdi. Sam Mirzənin şübhə altına düşməsi isə öz növbəsində Ağzıvar xanın vəziyyətini mürəkkəbləşdirə bilərdi. Ağzıvar xanın eyni zamanda Hüseyn xanla yaxınlığı var idi və onun Hüseyn xanla eyni oymaqdan olduğu bildirilir. Ona görə də həm Sam Mirzə, həm də Ağzıvar xan kənardan olan təhriklərə tez boyun əydilər və mərkəzi hakimiyyətdən uzaqlaşmağı qərarlaşdırdılar. Bu işdə Başdan Qaranın da xüsusi təsiri var idi. Nəticədə vilayət idarəçiliyinə təyin olunmalarından cəmi altı ay sonra Sam Mirzə ilə Ağzıvar xan mərkəzi hakimiyyətə müxalifətçiliyə başladılar.

Sam Mirzə ilə Ağzıvar xan yalnız Xorasanın mərkəzi hakimiyyətdən ayrılması ilə kifayətlənmədilər. Onlar hətta nəzarət altında olan ərazilərin genişləndirilməsinə də cəhd göstərdilər. Bu məqsədlə onlar Qəndəhar üzərinə yürüş etməyə qərar verdilər. Bu yürüşə başlamazdan əvvəl Heratın mühafizəsinin gücləndirilməsi üçün lazımi tədbirlər də həyata keçirildi və şəhərin mühafizəsi

Xəlifə sultan Miraxura, Mahmud bəyə və Ümmət bəyə tapşırıldı. Sam Mirzə ilə Ağzıvar xanın qoşun dəstəsi Fərahdan keçərkən bu vilayətə Şah Təhmasib tərəfindən hakim təyin edilmiş Murad sultan Əfşarı təzyiqlə özlərinə tabe etdilər və Murad sultanın rəhbərliyi altında olan qoşun dəstəsi də Qəndəhar üzərinə hücuma cəlb edildi.

Həmin vaxt Qəndəhar hakimi Baburlar nəslindən olan Humayun padşahın qardaşı Mirzə Kamran tərəfindən müəyyən edilmiş Xoca Kəlan Cağatay idi. Xorasan qoşununun hücum xəbərini eşidəndə Xoca Kəlan da Qəndəharın möhkəmləndirilməsinə başladı və qızılbaş qoşun dəstəsinin hücumunun qarşısını almaq üçün lazımi tədbirlərin görülməsinə çalışdıı. Qəndəhar qalasının yaxşı müdafiə imkanlarına malik olması bu istiqamətdə görülən işlərin səmərəliliyinə də bir zəmin yaratdı. Bunun nəticəsi idi ki, Xorasan qoşunu tərəfindən Qəndəhar qalası bir neçə ay mühasirədə saxlansa da gözlənilən nəticə əldə edilmədi. Mənbələrdə olan məlumata görə, Səfəvi dövlətinə asiliyə başlamış Ağzıvar xan və eləcə də Sam Mirzə Qəndəhar şəhərinin alınmasının elə də asan olmayacağını gördükdə Qəndəhar ətrafının dağıdılmasına və viran edilməsinə başladılar. Güman edilirdi ki, bu yolla Qəndəharın alınması asanlaşdırıla bilər. Lakin bu əməllər də gözlənilən nəticəni vermədi (118).

“Əhsənüt-təvarix” əsərində Xorasan qoşununun Qəndəhar üzərinə yürüşü aşıdakı kimi təsvir edilmişdir: “Ağzıvar xanın məsləhəti ilə ali mənşəli şahzadə əldən düşmüş şamlulardan və yaşlı sipahilərdən Xəlifə sultan Miraxuru, Mahmud bəyi və Ümmət bəyi Heratda qoyub, qeyd olunan ilin 15 şabanında (19.02.1535) Qəndəhar səmtinə hərəkət bayrağını qaldırdı. Fərah əyalətində Murad sultan Əfşar məcburiyyət üzündən Ağzıvara qoşuldu və [axırda] öldürüldü. Sam mirzə və Ağzıvar xan xeyli qoşunla Qəndəhara çatdılar. O vaxt Mirzə Kamran tərəfindən Xoca Kəlan o diyarın hakimi idi. O, hadisədən agah olduqda, ətraf nahiyələrin əhalisini qalaya daxil edib, bürcü və hasarı möhkəmləndirərək müdafiə olunmaq qərarına gəldi. Sam mirzə və Ağzıvar qalanı bir dairə kimi əhatəyə aldılar. Xoca Kəlan bir

dəstə dilavərlə intiqam qılıncını igidlik qınından sıyırıb, müxaliflik qalxanını üzünə tutaraq qaladan çıxdı. Qılınca və mizrağa əl atdılar. Ağzıvar da özünü onlara vurub, bir çoxlarına qılınc sərpəncəsindən fəna şərbəti içirərək düşmənləri qalayadək qovdu. Neçə ay ərzində yolunu azmış Ağzıvar məiyyəti və ordusu ilə qala hasarının yanına gedib döyüş alətlərindən istifadəyə əl atdı. Mühasirə işi uzun müddət uzandı. Sam mirzə dövlətə qarşı qüsur işlədiyi üçün onun səy kəməndi məqsəd bürcünün zirvəsinə çatmadı və Ağzıvar xanın qan yağdıran qılıncının güzgüsü kama yetmiş şaha qarşı ədavət tozuna bulaşdığına görə fəth və zəfər surətinin məzhərinə çevrilmədi. Xoca Kəlan o zaman Lahorda olan Mirzə Kamranın yanına təcrübəli qasidlər göndərdi və yardım istədi. Mirzə Kamran dərgah yaxınlarının və saray adamlarının məsləhəti ilə o zaman Aqrada olan Hümayun padşahın yanına adam göndərdi və qoşun istədi. Padşahın fərmanı ilə Hindistan məmləkətlərindən fələk qüdrətli ordu Mirzə Kamranın hüzuruna cəmləşdi. Ondan sonra [Mirzə Kamran] Qəndəhar istiqamətində hərəkətə keçdi və Qaraca bəyi mənqəlay təyin edib köçhaköçlə Kabilə gəldi. Tərtib edilmiş ordu ilə oradan Sam mirzənin və Ağzıvarın [üzərinə] yeridi. Qızılbaş qoşunu bir mənzil geri çəkildi. Mirzə Kamran və sərdarlar məşvərət üçün toplandılar. Xoca Kəlan döyüşməyi məsləhət gördü və digər sərdarlar da onun sözünə şərik oldular. Buna görə də Mirzə Kamran Qəndəhar ətrafından köç edib, Qəndəhardan yeddi fərsəx aralıda yerləşən Sam mirzənin düşərgəsi üzərinə hərəkət etdi.

[Mirzə Kamran] onların yaxınlığına çatdıqda səflərin qurulması işi ilə məşğul oldu. Sam mirzə sağ cinahı Ağzıvara tapşırdı, sol cinahı Bilal sultan Əfşara həvalə etdi və özü şəxsən mərkəzdə qərar tutdu. Digər tərəfdən Mirzə Kamran iyirmi min cavanla Sam Mirzənin iki min adamının qarşısında səf bağladı. Ağzıvar bir dəstə dilavərlə birlikdə sol cinahın sərdarı olan Xoca Kəlanın üzərinə qızğın şir kimi həmlə etdi” (119).

Sam Mirzə kiçik yaşında olmasına baxmayaraq döyüş meydanının mərkəzində qərar tutdu. Mirzə Kamranın qoşun dəstəsinin Qəndəhar ətrafına yetişməsindən əvvəl Sam Mirzə qala divar-

ları üzərinə həmlələrdə iştirak edir, qala darvazalarının mühafizəçiləri ilə döyüşlərə girirdi. Həmin vaxt Ağzıvar xan özü də qala üzərinə həmlələrdə iştirak edirdi. Lakin mənbə məlumatlarına görə, Ağzıvar xanın və onun ətrafında olan döyüşçülərin əzmkarlıq göstərməməsi və səhvlərə yol verməsi üzündən şəhəri ələ keçirmək mümkün olmurdu. Mirzə Kamranın rəhbərliyi altında qoşun dəstəsinin gəlməsi xəbərini eşidəndə isə Ağzıvar xan Sam Mirzə ilə məsləhətləşərək qala ətəklərindən geri çəkilməsini məsləhət bildi (120). Çünki qala ətrafında böyük sayda olan qoşunların döyüşməsi münasib sayılmırdı. Çox güman ki, həm qala ətrafında hind qoşunlarına müqavimət göstərmək üçün əlverişli şərait yox idi. Digər tərəfdən də qala ətrafında aparılan döyüş zamanı qala mühafizəçilərinin də döyüşə qoşulması Xorasan dəstəsini ikitərəfli zərbə qarşında qoya bilərdi. Sam Mirzə də bu təkliflə razılaşdı və ona görə də Xorasan qoşunları qaladan uzaqlaşdılar.

Yuxarıdakı məlumatdan göründüyü kimi, qala ətrafından geri çəkilməklə Ağzıvar xanla Sam Mirzənin məqsədi heç də bölgəni tərk etmək deyildi. Onlar Mirzə Kamranın qoşun dəstəsi ilə döyüşü qəbul etdilər və bu döyüşün uğurla başa çatdırılması üçün qoşun dəstəsini lazım bilinən şəkildə qruplaşdırdılar. Qoşunların sağ və sol cinahı müəyyənləşdirildi, mərkəzə qüvvələr yerləşdirildi. Döyüşün əvvəlində Xorasan dəstəsi hətta hərbi təşəbbüsü də ələ ala bildi. Xüsusilə Ağzıvar xan çox fəal şəkildə döyüşə qoşuldu və onun rəhbərliyi altında olan cinah hind qoşunlarının sol cinahına güclü zərbə vura bildi. Həmin cinahın rəhbəri Xoca Kəlan idi. Onun rəhbərliyi altında olan atlıların çoxu Ağzıvar xanın təzyiqinə davam gətirməyərək qaçmaq yolunu tutdular. Döyüşün gedişində hətta Xoca Kəlan da şamlı atlılarının zərbəsinə tuş gəldi və atdan yerə yıxıldı. Xoca Kəlana ciddi bir ziyan yetişməsə də, onu və onun ətrafındakıları Mirzə Kamranın dəstəsindən gələn kömək xilas etdi. Sam Mirzə özü də çox böyük əzmkarlıqla döyüşə qoşuldu və mərkəzdə yerləşməsinə baxmayaraq hind qoşunlarının sağ cinahı üzərinə atıldı. Bu cinahda sərdarlıq edən Qaraca bəy bu hücumun qarşısında duruş gətirə

bilmədi və o geri çəkilərək hind qoşunlarının mərkəzinə tərəf meyllənməyə başladı. Çox güman ki, mərkəzdə hələ kifayət qədər hind qüvvəsi qalmışdı. Ona görə də Qaraca bəy bu mövqeyə yetişəndən sonra cəsarətlənib özünü Sam Mirzənin üstünə atdı. Sam Mirzə bu zaman ciddi bir təhlükə ilə üzləşdi və bunu görəndə Ağzıvar xan sürətlə onun köməyinə yetməyə çalışdı. Bu zaman onun atının ayağının biri yerdə olan dəliyə batdı və Ağzıvar xan nə qədər çalışdısa atın ayağının bu dəlikdən çıxarmağa nail ola bilmədi. Elə bu vaxt qarşı tərəfin döyüşçülərindən biri özünü yetirib Ağzıvar xanı əsir götürə bildi. Sonra isə Mirzə Kamranın fərmanı əsasında Ağzıvar xan qətlə yetirildi (121).

Ağzıvar xanın öldürülməsi sözsüz ki, onun və Sam Mirzənin rəhbərliyi altında olan qoşun dəstəsinin idarə edilməsinə və qüvvələrin səfərbər edilməsinə əks təsir göstərdi. Çünki istənilən halda Azğıvar xan qızılbaş qoşununun əsas vuran əli idi və qoşun da onun rəhbərliyi altında fəaliyyət göstərirdi. Onun qətlə yetirilməsiqızılbaşların döyüşünə və Mirzə Kamranın rəhbərliyi altına olan üstün qüvvələrinə müqavimət göstərilməsinə mənfi təsir göstərəcəyini bildiyi üçün Sam Mirzə döyüşdən çıxmağı məqsədəuyğun saydı. “Ağzıvarın öldürülməsindən sonra Sam mirzənin ruzigarında zəiflik və sınıqlıq nişanələri zahir oldu. O, Gərmsir tərəfə qaçdı. Mirzə Kamran belə bir qələbənin ardından Lahora qayıtdı. Sam mirzə anladı ki, bu məğlubiyyət dinin pənahı olan şaha müxaliflik etdiyi üçün baş vermişdir. Buna görə də onu xilaf işlərə bulaşmağa təhrik etmiş Başdan Qaranı və üzüqara bədbəxtlərdən bəzilərini öldürdü və başlarını ərizə ilə birlikdə ərşə bənzər dərgaha göndərdi. Ərizənin məzmunu belə idi: “Dövranın yaramaz münafiqlərindən bəziləri məni dinin pənahı olan şaha qarşı müxalif olmağa təhrik etdilər. Bu üzdən belə pis vəziyyətə düşdüm və çətinliyə giriftar oldum. Cəhalətimin və qürurumun bais olduğu bu xoşagəlməz müxalifliyimə görə peşman olub peşmançılıq barmağımı təəssüf ağzıma qoymuşam. Əgər dinin pənahı olan şahın mərhəməti bu müxlisin əhvalına şamil edilərsə və günahlarım əfv suyu ilə yuyularsa, ayağımın əvəzinə başımı yerə qoyaraq ali taxtın ətəyinə gələrəm” (122).

Sam Mirzənin qarşılaşdığı bu uğursuzluq adi bir uğursuzluq deyildi. Alınan bu zərbə ilə Xorasan vilayətindəki vəziyyət daha da mürəkkəbləşdirdi, vilayətin müdafiə imkanları zəiflətdi. Bu uğursuzluq həm də Şah Təhmasibə qarşı göstərilən sədaqətsizliyin acı nəticəsi idi. Sam Mirzəyə aydın idi ki, Şah Təhmasib onun bu hərəkətini bağışlamaya bilər. Şah Təhmasibin sonsuz qəzəbini soyutmaq üçün Sam Mirzə Yuxarıda qeyd edildiyi kimi, əvvəlcə onu Qəndəhar üzərinə hücuma təhrik etmiş Başdan Qaranı və bir sıra digər əmirləri qətlə yetirdi, onların başlarını Şah Təhmasibə göndərdi. Eyni zamanda bəzi əmirlərin təhriki ilə Şah Təhmasibə qarşı müxalifətə başlamağından peşman olması barəsində qardaşına məktub da yazdı (123).

"Rövzətüs səfəviyye" əsərindəki məlumata görə isə Sam Mirzə bildirirdi ki, başlarını göndərdiyim bəzi müxalifətçilər onu zəmanənin padşahına xidmət yolundan müxalifətə çəkə bildilər. Sam Mirzə bunun nəticəsində anlaşılmazlıq baş verdiyini və onu bu yola təhrik edənlərin artıq haqlı cəzalarına çatdırdığını bəyan edirdi. Sam Mirzə bu yolda başına çox işlər gəldiyini bildirməklə, Şah Təhmasibdən bağışlanmasını xahiş edirdi. Şah Təhmasib bu məktubu və Sam Mirzənin peşmançılığını qəbul etdi və qorçularından birini qiymətli hədiyyə ilə Herata göndərdi ki, Sam Mirzənin bağışlandığını bildirsin, sonra həmin qiymətli hədiyyəni ona təqdim etsin və onu saraya gətirsin (124).

Sam Mirzə Qəndəhar ətrafında uğursuzluğa düçar olduqdan sonra Herata deyil, Kermana yollandı. Lakin orada lazımi ehtiramla qarşılanmadığı üçün Təbəsə üz tutdu. O zaman Təbəs hakimi Qaraeşik kimi tanınan Qara sultan Şamlı idi. Qara sultan Şamlı tərəfindən Sam Mirzəyə onun adına və mövqeyinə uyğun olan ehtiram göstərildi və bəllidir ki, Şah Təhmasib bölgəyə gələnə kimi Sam Mirzə də orada qalmalı oldu (125).

Digər bir mənbədə olan məlumata görə isə, Qəndəhar ətrafındakı döyüş uğursuzluqla başa çatan vaxt Herat şəhəri Məşhəd hakimi Sufiyan xəlifə tərəfindən nəzarət altına alınmışdı. Sam Mirzə əmin deyildi ki, Sufiyan xəlifə onu şəhərə buraxacaqdır. Ona görə də Sam Mirzə Təbəsə yollanmaq məcburiyyətində qaldı

və orada olarkən də Şah Təhmasibə tutduğu əməlindən peşmançılığı haqqında məktub yazıb göndərdi. Təhmasib Mirzə məktubu oxuyub onun günahından keçdi, ona qiymətli hədiyyə ilə birlikdə bir baş cins at göndərdi. Sonra da Şah Təhmasib təcrübəli əmir Məhəmməd xan Şərəfəddinoğlu Təkəliyə göstəriş verdi ki, Şah Təhmasibin oğlu Sultan Məhəmməd Xudabəndə ilə birlikdə Təbəsə yollansın və orada Sam Mirzə ilə onun ətrafındakıların təhlükəsizliyini təmin etsin (126).

Sam Mirzə ilə Ağzıvar xanın Qəndəhar üzərinə qoşun çəkməsi və Herat ətrafında cərəyan edən hadisələr haqqında məlumat Übeyd xana çatdıqda o, Xorasan vilayətinin ələ keçirilməsi və Səfəvi dövlətinə zərbə vurulması üçün daha münasib bir anın yetişdiyini güman etdi. Übeyd xan əvvəlcə öz əmirlərindən biri olan Seydim Mirzəni 4-5 min nəfərlik bir qoşunla Xorasan vilayəti üzərinə basqına göndərdi. “Tarix-i aləmara-yi Abbasi”nin məlumatına görə, dəstəyə tapşırıq verilmişdi ki, vilayət məntəqələrini soyub-talasınlar. Bu dəstə Cam istiqamətinə hərəkət etməli idi. Başqa bir özbək dəstəsi isə Xəvaf istiqamətinə göndərildi. Heç şübhəsiz ki, Übeyd xan bu dəstələri soyğunçuluğa göndərməklə, həm də Xorasanda yerləşən Səfəvi qüvvələrinin imkanlarını və vilayət daxilində mövcud olan hərbi-siyasi vəziyyəti müəyyənləşdirmək istəyirdi. Amma bu dəstələrin heç biri onların qarşısına qoyulmuş tapşırığı yerinə yetirə bilmədi və Şah Təhmasib tərəfindən Məşhəd hakimi təyin edilmiş Sufiyan xəlifə Rumlu qarşısında məğlubiyyətə düçar olaraq geri qayıtdılar. Sufiyan xəlifə rəhbərliyi altında olan daha azsaylı qoşun dəstəsi ilə əvvəlcə Cam ətrafında Seydim Mirzənin dəstəsinə ağır zərbə vurdu. Sonra isə Sufiyan xəlifə Xəvaf ətrafına yollandı və ora basqın etmiş özbək dəstəsini də məğlubiyyətə uğradaraq bölgəni tərk etməyə məcbur etdi. Adı çəklən mənbədə olan məlumata görə, Cam ətrafında özbək döyüşçülərindən 250 nəfər, Xəvaf ətrafında isə 200 nəfər qətlə yetirildilər (127).

Yuxarıda qeyd edildiyi kimi, Qəndəhar döyüşünün baş verdiyi vaxt Herat şəhəri artıq Məşhəd hakimi Sufiyan xəlifənin nəzarəti altına alınmışdı. Bu da təsadüfi deyildi. “Rövzətüs səfə-

viyye"nin məlumatına görə, bir tərəfdən Heratın idarəçiliyinin həvalə olunduğu Xəlifə sultanın yarıtmaz fəaliyyəti, bir tərəfdən də özbək qoşunlarının təhlükəsi elə bir vəziyyət yaratmışdı ki, Sufiyan xəlifə Herata doğru hərəkət etməli oldu. Ağzıvar xan tərəfindən Heratın idarəçiliyinin həvalə edildiyi Xəlifə sultan təxminən 80 yaşlarında olan ahıl bir insan idi. O, xeyli yaşlı olmaqla bərabər, öz hərəkətlərini də lazımi şəkildə idarə edə bilmirdi. Adı çəkilən mənbənin məlumatına görə, hətta onun ağlında çaşqınlıqlar özünü göstərməyə başlamışdı. Onunla birlikdə şəhər idarəçiliyinin tapşırıldığı Mahmud bəylə Ümmət bəy də yüksək məqamlara sahib olmuşdular. Lakin bu insanların idarəçilik işləri daha çox şəxsi maraqların təmin edilməsinə yönəlmişdi. Ona görə də Herat daxilində narazılıqlar artdı, sabitlik pozuldu. Elə bir vəziyyət yarandı ki, hətta şəhər üləması da adları çəkilən adamlara tabe olmaqdan boyun qaçırdı. Bir tərəfdən Ağzıvar xanla Sam Mirzənin Heratı tərk edib Qəndəhar ətrafına yollanması, bir tərəfdən də Herat daxilində idarəçiliyin yarıtmazlığı, insanların narazılıqlarının artmaşı haqqında məlumatlar ətrafa yayılaraq özbək xanlarının da qulaqlarına yetişdi. Özbək xanları da yaranmış vəziyyəti öz niyyətlərinin həyata keçirilməsi üçün münasib bir fürsət kimi qəbul etdilər. Bunun nəticəsi idi ki, Qərcistan hakimi Bayram-oğlan bu vilayətdən topladığı qoşunla Herat üzərinə hücum çəkdi. Özbək qoşunları hərəkət marşrutu üzərində olan yaşayış məskənlərinin hamısını qarət etdilər, soyğunçuluqla məşğul oldular. Bu yolla onlar böyük miqdarda var-dövlət ələ keçirdilər. Özbək qoşunu qarət etdiyi bütün əşyalarla və mal-mülklə birlikdə Heratın kəndlərindən sayılan Tuniyan adlı bir kənddə məskən saldı. Bundan sonra isə onlar Herat ətrafında olan yaşayış məskənlərinin qarət edilməsinə başladılar. (128).

"Əhsənüt-təvarix" müəllifi yazırdı: "Sam mirzə ilə Ağzıvar xanın Qəndəhar tərəfə getməsindən sonra ömrünün əyyamı səksən yaşı keçmiş Xəlifə sultan Şamlu [Heratda] hökumət kürsüsünə əyləşdi. Mahmud bəylə Ümmət bəy də münasib mənzillərdə qərar tutdular. Beləliklə, çərxi-fələyin gərdişi ucbatından, bu əl-

dən düşmüş qocalar iş başına keçdilər və Xəlifə sultanın zəifliyi, digər iki sərdarın zəbunluğu [haqqında xəbərlər] ətrafa və yan-yörəyə yayıldı. Canibəy sultanın oğlu Kəskən Qara sultanın tərəfindən Qərcistan vilayətinin hakimi olan Bayram-oğlan Özbək qoşun toplayıb Heratrud vilayətinə basqın üçün hərəkətə gəldi. Elə ki adı çəkilən vilayətə çatdı, çoxlu mallar ələ keçirdi. Bu xəbər Xorasan hakimlərinə çatdıqda tədbirsiz kələntərlər, vəzirlər və əmirlər məşvərət büsatı üzərində əyləşdilər. Mahmud bəy məsləhət gördü ki, şəhərdən kənara çıxmasınlar. Amma mərhum cənab Əmir Sultan İbrahim Əmini və müdriklikdən bir nəsibi olmayan bir sıra şəxslər Mahmud bəyin doğru fikri ilə razılaşmadılar və dedilər:

- Qəlbimizə qorxu-hürkü salmamalıyıq, savaşa və döyüşə könül verməliyik.

[Xəlifə] sultan cənabları Əmir Sultan İbrahim Əmininin tövsiyyəsinə əməl edib hökm verdi ki, şəhərin və şəhərətrafı bölgələrin ("bölükat") kələntərləri atı və əsləhəsi olan hər kəslə şəhərdən çıxsınlar və müharibədə qazilərə yoldaş olsunlar. Böyüklərdən Əmir Sultan İbrahim Əmini və əyanlardan Şahməhəmməd Camebafla Şadi Məhəmməd Əsəs döyüş əsləhəsinə qurşanıb Xəlifə sultanın bayrağı altında özbəklərlə savaşmaq üçün qeyd olunan ilin zilqədə ayının 19-da (22.05.1535) şəhərdən çıxdılar və Mahmud bəyi məhdud bir dəstə ilə mühafizə üçün şəhərdə qoydular. Herat şəhərindən on fərsəx məsafədə yerləşən Heratrud vilayətinin İsfizar kəndinə çatdıqda düşmən ordusunun qaraltısını müşahidə etdilər. Xəlifə sultanı [şəhərdən] çıxmağa və hərb etməyə rəğbətləndirmiş şəxslər öz dediklərindən peşman və pərişan oldular və onların ürəklərinə müqayisəyəgəlməz xof və qorxu yol tapdı. Qəzavü-qədər Bayram-oğlanı döyüş meydanına tərəf hərəkətə gətirdi və o öz hərəkət yüyənini başsız qazilər səmtinə çevirdi. Döyüş meydanı qızışdı. Amma Xəlifə sultanın əsgərləri hərcayi, müftəxor və öz sərdarlarına sədaqətsiz adamlar olduqlarından, müharibədən qaçıb dağılışdılar. Bayram-oğlan onlara qalib gəldi. Xəlifə sultan və Əmir Sultan İbrahim Əmini mülazimlərdən və şəhərlilərdən doqquz yüz nəfərlə birlikdə qətlə ye-

tirildilər. Bayram-oğlan öldürülənlərin başlarını bədənlərindən ayırıb oradan Qərcistana yollandı" (129).

Bu döyüşdə iştirak edən Ümmət bəy və digər əmirlər salamat qalmış döyüşçülərlə Herata qayıdıb bu şəhərin qala divarlarına sığındılar. Bayram-oğlan isə yeni qənimətlər ələ keçirərək Herat ətrafını tərk etdi. Amma şəhər idarəçiliyini öz üzərinə götürmüş Ümmət bəylə Mahmud bəy yaxşı anlayırdılar ki, onların başı üzərindən təhlükə heç də sovuşmayıb və özbək xanları onların gücsüzlüyünü gördükləri üçün yenidən geri qayıda bilərlər. Herat daxilində isə özbək qoşunlarının yeni hücumunun qarşısını ala biləcək yetərli sayda qüvvə yox idi. Ona görə Şəhər hakimləri və əyanları Məşhəd hakimi Sufiyan xəlifə Rumlunun yanına elçilər göndərdilər, Herat ətrafında yaranmış vəziyyət haqqında məlumat çatdırmaqla onu şəhərin müdafiəsinə çağırdılar. Sufiyan xəlifə bu dəvəti çox böyük məmnunluqla qarşıladı. Çünki bununla, Sufiyan xəlifə Herat kimi böyük bir şəhərin və onun ətrafının da idarəçiliyini ələ keçirmiş olurdu. Heratın idarəçiliyinin ələ keçirilməsi isə, əslində, Xorasan vilayətinin idarəçiliyinin ələ keçirilməsi idi. Ona görə də Sufiyan xəlifə bu fürsəti əldən buraxmadı və Herata yollanmaq hazırlıqlarına başladı. Sufiyan xəlifə böyük övladlarından birini Məşhədin hakimliyində saxladı. Özü isə Məşhəddə toplanmış olan qoşunun böyük hissəsi ilə Herata yollandı. O, 1535-ci il iyul ayının 5-də ( h.q. tarixi ilə 942-ci il məhərrəm ayının 4-də) Herat ətrafına yetişdi. Mahmud bəylə Ümmət bəy, habelə şəhərin digər əyanları onu qarşılamağa yollandılar və ona vilayət hakimlərinin iqamətgahının yerləşdiyi Darülümara bağında yer ayırdılar. Qısa müddətdən sonra Sufiyan xəlifə Heratın idarəçiliyini tamamilə ələ keçirdi.

Çox tezliklə də Sufiyan xəlifə şəhər əhalisinin intizarında olmadığı bir yolu seçdi. Yeni səlahiyyətlər əldə edəndən sonra Sufiyan xəlifə də qanunsuz hərəkətlərə rəvac verdi, əhalinin var-yoxunun və sərvətlərinin talanması yolunu tutdu. Bu işdə elə ifratlıqlara yol verdi ki, onun zalımlığı, insafsızlığı insanların narazılığına səbəb olması haqqında ətrafa yayılan məlumatlar Şah Təhmasibin qulağına çatdırıldı (131).

Bununla belə, Sufiyan xəlifə mənbələrdə şücaətli və igid bir sərkərdə və döyüşçü kimi təsvir edilmişdir. Mənbələrdə hətta onun xanımı da igid və bacarıqlı bir xanım kimi təqdim olunmuşdur. Onun bu igidliyi və bacarığı Məşhəd şəhərinin özbək qoşunlarından müdafiəsi zamanı özünü göstərmişdi. Belə ki, Sam Mirzə ilə Ağzıvar xanın Qəndəhar istiqamətinə yollanması xəbərini eşidəndə Übeyd xan da növbəti dəfə Xorasan vilayəti üzərinə qoşun çəkməyi qərarlaşdırdı. Amma Übeyd xan Herat üzərinə deyil, Məşhəd şəhəri üzərinə hərəkət etdi. Çox güman ki, o, Sufiyan xəlifənin Məşhəddən uzaqlaşması barəsində də məlumat almışdı. Ona görə də Übeyd xan Xorasan ərazisində ilk zərbəni Məşhəd üzərinə istiqamətləndirməyi məqsədəuyğun saydı. Özbək qoşunları Məşhədə yaxınlaşdıqda şəhərin bütün əhalisi müdafiəyə qalxdı. Qalanın müdafiəsinin təşkili işini isə Sufiyan xəlifənin xanımı öz üzərinə götürdü. Onun rəhbərliyi altında Məşhədin müdafiəsi ciddi və etibarlı şəkildə təşkil olunmuşdu. Sufiyan xəlifənin mənbədə adı çəkilməyən xanımı şəhərin müdafiəsi ilə bağlı olaraq gecə-gündüz müdafiə bürclərini və qala divarlarını gəzib dolaşır və müdafiənin necə təşkil eidldiyini nəzarət altında saxlayırdı. Mənbələrdəki məlumatlara görə, Übeyd xanın rəhbərliyi altında olan qoşun dəstələri dəfələrlə Məşhəd divarları üzərinə hücum çəkmişdilər. Lakin Sufiyan xəlifənin xanımının rəhbərliyi altında olan şəhər müdafiəçiləri özbək qoşunlarının hücumlarının qarşısını qətiyyətlə almaqla qarşı tərəfə ciddi itkilər də yetirirdilər. Özbək qoşunları qalanın ələ keçirilməsi üçün hər cürə mümkün vasitələrdən istifadə edirdilər. O cümlədən divarlar altından lağım qazılmasına da cəhd göstərilmişdi. Lakin onlar öz məqsədlərinə nail ola bilmirdilər. Çox tezliklə özbək qoşunlarının hücum xəbəri haqqında Sufiyan xəlifə də məlumat aldı və həmin xəbəri alan kimi də Məşhəd şəhərinin köməyinə yollandı. “Əhsənüt-təvarix”in məlumatlarına görə, Sufiyan xəlifə Heratdan yola düşməzdən əvvəl vəziri Xızır Çələbiyə Heratın idarəçiliyini tapşırdı. Ona verdiyi tapşırıqlardan biri də bu oldu ki, geri qayıdana qədər Herat əhalisindən 4 min

Təbriz tüməni məbləğində vergi toplasın və onu qoruyub saxlasın (132).

“Sufiyan xəlifə Məşhədin mühasirəsindən agah olduqda öz adamlarına yazdı ki: «Mərdanə olun! Mən də özümü oraya yetirəcəyəm, Übeyd xanı tutacağam və onun dərisinə saman təpib, şaha göndərəcəyəm». Nə isə, o, tamahkarlıqda özündən də öndə olan Xızır Çələbi adlı vəkilini Heratda qoyub, orada qalan adamlarına məlum məbləğdə cərimələr və vergilər yazıb verərək əmr etdi ki, onları əhalidən toplasınlar. Daha sonra o, divanəliklə özü ilə üç min nəfər götürüb, özbək padşahı ilə döyüşmək əzmi ilə müqəddəs Məşhədə yollandı. Yolda ikən onun gözünə uzaqdan bir saman xırmanı sataşdı və özü gedib, oradan bir çuval saman toplayıb dedi ki, «bunu Übeyd xanın dərisinə təpmək üçün yığıram; çünki özbəklərin basqını üzündən Məşhəd yaxınlığında saman qalmamışdır».

Übeyd xan [Sufiyan] xəlifənin gəlişindən agah olub, təfəkkür dənizinə daldı. Çünki ona ar gəlirdi ki, özü padşahlıq əzəmətinə malik olduğu halda, şahın əmirlərindən birinin qarşısına çıxıb, onunla vuruşsun. Həm də onun qulağına söz çatmışdı ki, [Sufiyan] xəlifədə hərb vaxtı elə bir dəlilik baş qaldırır ki, o, düşmən qoşununun çoxluğundan əndişə etmir və neçə dəfə belə olub ki, o, kiçik qızılbaş dəstəsi ilə özbəklərin çoxsaylı qoşunu üzərinə həmlə edərək qalib gəlib və özbəklərlə döyüşlərdə cəsarətlənib. Übeyd xan qorxurdu ki, yenə də elə bir hadisə baş verə bilər. Özbək əmirlərinin isə heç birisi [Übeyd] xanın iştirakı olmadan onunla döyüşməyi öhdələrinə götürmürdülər. Zərurət üzündən Übeyd xan müharibə Kəmərini bağlayıb, bir dəstəni qaravul kimi qabaqcadan göndərdi, öz oğlu Əbdüləziz sultanı isə Xarəzm valisi Əli sultanla və Sevincək Məhəmməd sultanla birlikdə ordunun mənqəlayı təyin etdi. Özü də onların ardınca hərəkətə gəldi. Sufiyan xəlifə özbəklərin ən öndə gələn dəstəsi ilə üzləşib döyüşdü və qalib gəldi. Həmin özbək dəstəsinin sərdarı qazilərin əlinə düşdü. O, [Sufiyan] xəlifəyə dedi:

- Nə ağılla sən üç min nəfərlə birlikdə, yanında ən azından otuz min nəfər olan özbək padşahına qarşı döyüşə gedirsən? Mütləq, indi geri qayıdıb, özünü Herat qalasına yetir!

Lakin [Sufiyan] xəlifə qürurunun çoxluğu və dəliliyin ona üstün gəlməsi səbəbindən döyüşməkdə israr etdi və o gecə döyüşə hazırlaşdı. Sübh çağı özbək ordusunun mənqəlayı göründü. Sufiyan xəlifə döyüş səfi tərtib etdi. Hər iki tərəf silaha əl atdı. Həqiqətən də, qızılbaş qaziləri özlərini o qoşun dəryasına vurub, o mərəkədə elə vuruşdular ki, fələklər təəccüb və heyrət gözləri ilə onlara baxdılar. Qızılbaş ordusunun qələbə çalacağından ehtiyatlanan Übeyd xan mərkəzdən hərəkətə gələrək, çoxsaylı qoşunla özünü [qızılbaş] ordusunun səflərinə vurdu. Qazilər qüvvətləri və qüdrətləri yetdiyi qədər özbək bahadırlarının həmləsini dəf etsələr də, axırda müqavimət göstərməyə aciz qalıb, fərar yolunu tutdular. Divanəliyi ucbatından özünü işə salan Sufiyan xəlifə yanındakı qazilərdən bir neçə nəfərlə birlikdə döyüş meydanı yaxınlığında yerləşən viranə bir hasarın daxilinə sığındı, azuqəsiz və sursatsız bir şəraitdə özünü düşmənin mühasirəsinə saldı" (133).

Sufiyan xəlifənin şücaətli bir əmir olmasını eşidəndən sonra Übeyd xan, ümumiyyətlə, onunla döyüşə girməkdən ehtiyatlanmağa başladı. Ona görə də Übeyd xan öz əmirlərini toplayıb onlarla məşvərət etdi və geri qayıtmaq niyyətini onlara da açıqladı. Übeyd xan bilirdi ki, qızılbaş dəstələri az sayda olduqları halda da çoxsaylı qoşun dəstələrinin üzərinə uğurlu hücum təşkil etmək imkanına malik idilər. Özbək əmirləri isə Übeyd xanın ehtiyatlanması ilə razı olmadılar. Onların fikrincə, Şah Təhmasibin bir əmirindən belə ehtiyat edilirdisə, onda böyük sayda qoşunla Xorasana doğru hərəkət etməyin nə mənası var idi? Übeyd xan da bu iradı eşitdikdən sonra geri qayıtmağı özünə ar bildi və qızılbaşlar üzərinə hücuma keçməyi əmr etdi (134).

Beləliklə, Übeyd xan qərara aldı ki, Sufiyan xəlifənin dəstəsi ilə qarşılşasın və bu qarşılaşma Məşhəddən kənarda baş versin. Ona görə də Übeyd xan 20 min nəfərlik bir qoşun dəstəsi ilə Sufiyan xəlifə istiqamətində hərəkətə başladı. Hicri tarixi ilə 942-ci

il rəcəb ayının 20-də (14.01.1536) Übeyd xanın qoşun dəstəsi Nişapurun Əbdülabad adlanan kəndində Sufiyan xəlifənin dəstəsi ilə üz-üzə gəldi. Özbək qoşunlarının avanqardına (mənqəlay) Übeyd xanın oğlu Əbdüləziz sultan rəhbərlik edirdi. Xarəzm sultanlarından olan Əli sultanla Əqəş sultan da avanqardda yer almışdılar. Göstərilən tarixdə Sevincək Məhəmməd sultanın rəhbərliyi altında olan qoşun dəstəsi Sufiyan xəlifənin dəstəsi ilə döyüşmək üçün irəli hərəkət etdi. Sufiyan xəlifənin dəstəsində cəmi 4 min nəfər döyüşçü var idi. Say azlığına baxmayaraq qızılbaş döyüşçüləri yenə sonsuz qətiyyətlə özbək qoşunları üzərinə atıldılar və onlarla döyüşə girişdilər. Bildirilir ki, hələ döyüşün başlanğıcında Sufiyan xəlifə bir neçə atlı ilə irəli gedərək özbək qoşunlarını müşahidə etmək istədi. Lakin Əli sultan Xarəzminin atdığı ox onun atına dəydikdən sonra geri çəkilməli oldu. Bununla belə, tərəflər arasında çox gərgin bir döyüş baş verdi. Sufiyan xəlifənin və onun qızılbaş döyüşçülərinin bütün cəhdlərinə və göstərdikləri məharətə baxmayaraq, bu dəfə Übeyd xanın sayı xeyli üstün olan qoşununun müqavimətini qırmaq mümkün olmadı. Ona görə də, qızılbaş döyüşçüləri tədricən öz güclərini itirdilər və sonda döyüş meydanını tərk etmək məcburiyyəti qarşısında qaldılar. Sufiyan xəlifə ətrafındakı döyüşçülərlə Əbdülabad kəndinin viranə qalmış qalasında özünə sığınacaq tapdı. Döyüşçülərin bütün gücünü səfərbər etməklə Sufiyan xəlifə 35 gün bu viranəliklərdə müdafiə oluna bildi. Bu müddət ərzində onların ərzağı olmadığı üçün döyüşçülər atlarının ətini yeməklə həyatlarını qoruya bildilər. Atların yəhərlərindən isə oduncaq kimi istifadə etdilər. 35 günlük müqavimətdən sonra özbək qoşunları qızılbaşların müqavimətini qıra bildilər və Sufiyan xəlifəni əsir götürüb Übeyd xanın yanına apardılar. Mənbədə olan məlumatlarda deyilir ki, Übeyd xan onun əsir edilməsindən çox sevindi və əmr etdi ki, onu salamat şəkildə yanına gətirsinlər. Übeyd xan bu qızılbaş əmiri haqqında çox sözlər eşitmişdi və indi eşitdiklərinin doğru olduğunu görmək üçün Sufiyan xəlifə ilə görüşmək istəyirdi. Sufiyan xəlifə isə əksinə, Übeyd xanla görüşmək istəmirdi. O, uca səslə bəyan

edirdi ki, "Əmirəlmöminin Əli ibn Əbu Talib salavatulla əleyhin oğlunun camalını görən gözlər Yəzid övladlarının üzünə nəzər salmaz". Yerindən tərpənmədikdə özbək döyüşçülərindən biri onu çiyninə alıb Übeyd xanın yanına apardı. Mənbədəki məlumatlara görə, Sufiyan xəlifə başını onu aparan döyüşçünün arxasında gizlədərək ondan qopmaq istəmirdi ki, nəzərləri Übeyd xanla qarşılaşmasın. Məlumata görə, bu zaman o, dişləri ilə onu aparan döyüşçünün kürəyini parçalamağa başladı. Sufiyan xəlifə onu gətirən özbək döyüşçüsünü elə qucaqlamışdı ki, onları qoparmaq çətin oldu və elə özbək döyüşçüsünün çiynində olarkən onun başını bədənindən ayırdılar. Sufiyan xəlifə isə onu gətirən döyüşçünün kürəyini dişləri ilə elə parçalamışdı ki, həmin döyüşçü də qanaxmadan həyatını itirməli oldu. Bir məlumata görə isə, Sufiyan xəlifəni adi qaydada Übeyd xanın yanına gətirdilər. Übeyd xan da onu Təniş adlı birisinə təhvil verdi. Bildirilir ki, həmin Tənişin oğlu Sufiyan xəlifə ilə döyüşdə qətlə yetirilmişdi və Təniş də oğlunun qisasını almaq üçün Sufiyan xəlifəni qətlə yetirdi (135).

Sufiyan xəlifəyə üstün gəldikdən sonra Übeyd xan üzünü Herata tərəf çevirdi. Bəzi mənbələrdə və tarixi ədəbiyyatda olan məlumata görə, Sufiyan xəlifə üzərində qələbə əldə etdikdən sonra Übeyd xan qoşunu ilə Məşhədə yollandı, bu şəhəri ələ keçirdi və sonra Herata istiqamət götürdü (136). İstənilən halda Sufiyan xəlifə uğursuzluğa düçar olanda Herat daxilində də mürəkkəb bir vəziyyət yaranmışdı. Bu mürəkkəb vəziyyətin səbəb karı isə başlıca olaraq onun tərəfindən şəhər idarəçiliyinə təyin edilmiş əyanlar idilər. Məlum olduğu kimi, Sufiyan xəlifə Herat şəhərini tərk edəndə Xızır Çələbini öz yerinə təyin etmişdi. O və eyni zamanda Sufiyan xəlifənin vəziri Nürəddin Əhməd, Heratın idarəçiliyini davam etdirməi idilər. Yuxarıda qeyd edildiyi kimi, Sufiyan xəlifə Heratı tərk edəndə Nürəddin Əhmədin üzərinə belə bir tapşırıq qoydu ki, onun geri qayıtmasına qədər əhalidən 4 min Təbriz tüməni miqdarında maliyyə vəsaiti toplasın. Xızır Çələbi və Nürəddin Əhməd də bu tapşırığın icrasına başladılar və bununla bağlı insanlara yenidən zülm və işgəncələr göstərildi. İm-

kanı olan və olmayanlardan böyük sayda maliyyə vəsaiti tələb edilməsi əhalinin narazılığını son dərəcədə artırdı. Bu narazılıqlar o dərəcədə artdı ki, Sufiyan xəlifənin təyin etdiyi əyanlara qarşı kəskin addımlar atılması da yerli əhalinin seçimlərindən birinə çevrildi. Hətta Herat əyanları tərəfindən Übeyd xanın Herata dəvət edilməsi və bununla adları çəkilən əyanların zülmlərinə son qoyulması barəsində də fikirlər səslənməkdə idi. Nəhayət, əhalinin narazılıqları üsyana çevrildi və narazı insanlar ayağa qalxaraq Nurəddin Əhmədin həyatına son qoydular (137).

Bu hadisədən sonra Xızır Çələbi insanlara qarşı münasibətini dəyişməyə çalışdı. O zaman şəhər Qazi sı olan Əmir Həsən Astrabadi ilə birlikdə Xızır Çələbi Heratın möhkəmləndirilməsi üçün müəyyən tədbirləri həyata keçirməyə başladı. Şəhər divarları mümkün qədər möhkəmləndirildi, qala bürcləri, divarları təmir edildi, divar ətrafı xəndəklər daha da təkmilləşdirildi, divarların mühafizəsi gücləndirildi. Onların şəhər əhalisini köməyə çağırması isə əhali tərəfindən narazılıqla qarşılandı. Çünki Herat rəhbərliyindən əvvəllər görülmüş olan çətinliklər və haqsızlıqlar onlara qarşı etimadı aradan qaldırmışdı. "Əhsənüt-təvarix" əsərində Übeyd xanın yeni hücumu ərəfəsində Heratda yaranmış olan vəziyyət belə təsvir edilmişdir: "Sufiyan xəlifənin məğlubiyyəti xəbəri Herata çatdıqda Xızır Çələbi və Əmir Həsən Qazi şəhərin [müdafiəsinin] möhkəmləndirilməsinə çalışdılar. Onlar şəhərin və şəhərətrafı bölgələrin ("bölükat") əhalisini çağırdılar ki, onlarla ittifaqda şəhəri mühafizə etsinlər. [Lakin əhalinin] əksəriyyəti, xüsusən də Xoca Əhməd Ziyarətgahi, onun qardaşı Xoca Mübarək və Xoca Qasım [bu çağırışa] qarşı çıxdılar. Onların müxaliflik etmələrinin səbəbi o idi ki, Sufiyan xəlifə onları asdırmaq üçün Herat çarşısında bir dar ağacı qurdurmuşdu, amma [bu işi icra etməyə] fürsət tapmamışdı. Xoca Mübarək, Xızır Çələbi və Əmir Həsən Qazi  ilə kobudluqla söhbət etdi. O zaman şəhər kələntəri olan Mühib Mikal bir gün gizlicə Xoca Əhmədin yanına adam yolladı və xəbər verdi: "Bizə kömək üçün saysız yaraqlarla çoxlu piyadalar göndər ki, Xızır Çələbi ilə Əmir Həsən Qazi nı ortadan qaldıraq və Übeyd xanı dəvət edib Heratı ona

verək”. Bu asilik düşüncəsi neçə gün davam etdi. Axırda peyğəmbərin – ona salam olsun – “İki adamın bildiyi şey sirr deyildir” hədisinə uyğun olaraq, az adamın bildiyi bu sirr kiçikli-böyüklü bir çoxlarına çatdı. Əmir Sultan İbrahim Əmininin oğlu Əmir Əbu-Tahir onların bu iddiasından xəbər tutub, Xızır Çələbinin yanına gedərək əhvalatı ona danışdı. Xızır Çələbi nifaq sahiblərini tələb etmək (çağırmaq) üçün adam göndərdi. Xoca Mübarək fərar etdi, Mühib Mikal isə ələ keçib ən qəbahətli bir şəkildə qətlə yetirildi. Herat əyanları onlarla ittifaqda olmamalarına baxmayaraq, İxtiyarəddin qalasında məhbus və ixtiyarsız edildilər. Herat ətrafındakı bölgələrin rəiyyətləri Ziyarətgah sakinləri ilə ittifaqda qiyam qaldırıb, dava-dalaş etməyə hazırlaşaraq Firuzabad darvazasına yönəldilər. Hərçənd Xızır Çələbi elçi göndərib nəsihət etsə də, müxaliflər sülhə razı olmadılar. Şəhərətrafı bölgələrin camaatı zor göstərdi. Bir dəyirmançı darvazaya yaxınlaşıb darvazaya qılınc vurdu. Qazilərdən biri oxla onu yerə sərdi. Dilavərlər qaladan çıxıb iti qılınclarla o fitnənin tozanağını yatırdılar. Nifaq əhli yəqin bildi ki, bu iş onların könlünün istədiyi kimi baş tutmayacaqdır. Onlar arxa çevirib öz məskənlərinə getdilər və Übeyd xanın yanına şirin dilli elçilər göndərib onu dəvət etdilər. Übeyd xanın gəlişinə qədər həddini bilməz bədbəxtlər və məchul basqınçılar darvazanın yaxınlığına gəlib döyüşdülər və qazilərin həmləsi ilə məğlub olaraq məyus və uğursuz bir şəkildə geri çəkildilər” (138).

Übeyd xan da belə bir vəziyyətdə Herata doğru istiqamət götürdü və 1536-cı il mart ayının 3-də rəhbərlik etdiyi çox böyük sayda olan qoşun dəstəsi ilə Herat ətrafına yetişərək Murad bağı adlanan yerdə düşərgə saldı. Özbək qoşununun şəhərə yaxınlaşması qala divarlarının müdafiəsini daha da gücləndirməyi tələb edirdi. Xızır Çələbi bu məqsədlə Ümmət bəyi İraq darvazasının mühafizəsinə təyin etdi. O özü də müdafiənin təşkilində fəal şəkildə iştirak edirdi və rəhbərliyi altında olan xüsusi atlı dəstəsi ilə qala divarlarının müdafiəsini daim nəzarət altında saxlayırdı. Nəzərdə tutulmuşdu ki, şəhər divarlarının zəif olduğu nöqtəyə Xızır Çələbi tərəfindən dərhal kömək yetirilsin. Özbək qoşunları

tərəfindən şəhərə giriş-çıxış yolları bağlandığından Heratın ətraf aləmlə əlaqələri də kəsildi. Bu isə sözsüz, şəhərin müdafiəsinin səmərəliliyinə əks-təsir göstərirdi. Özbəklər yalnız qalanı mühasirə etməklə kifayətlənmədilər. Onlar eyni zamanda vaxtaşırı qala üzərinə hücumlar təşkil edirdilər. Mənbə məlumatlarına görə, qalanın müdafiəsində Xızır Çələbi ilə Əmir Həsən Qazi da yorulmadan fəaliyyət göstərirdilər. Səhərdən axşama kimi bu insanlar da qala divarları boyunca müdafiənin təşkili işləri ilə məşğul idilər. Bu minvalla Heratın mühasirəsi üç aya kimi davam etdi. Lakin şəhərin Xoş darvazasının bürclərinə məsuliyyət daşıyan Əmir Əbu-Tahirin özbəklərlə sövdələşməyə getməsi Heratın təslim edilməsinə yol açdı (139).

Mənbələrdən birində olan məlumata görə, Əmir Əbu-Tahir Heratın qala divarlarının bir neçə bürcünün müdafiəsinə və mühafizəsinə məsuliyyət daşıyırdı. Bildirilir ki, onun Əmir Həsən Qazi ilə münasibətləri yaxşı deyildi və Xızır Çələbinin də çox vaxt Əmir Həsən Qazini dəstəkləməsi Əmir Əbu-Tahirin heç də xoşuna gəlmirdi. Onlar arasında olan nifaq güclənərək düşmənçiliyə çevrildi və bu da Əmir Əbu-Tahirin qisasçılığına yol açdı. Bunun nəticəsi kimi, Əmir Əbu-Tahir gizli şəkildə öz nümayəndəsini yazdığı məktubla birlikdə Übeyd xanın yanına göndərdi. Əbu-Tahir həmin məktubda belə yazmışdı: "Əgər bizim canımıza, malımıza və adamlarımıza xan tərəfindən zəmanət verilsə, tutduğumuz vəzifə kimi vəzifələr verilsə hər zaman bizim öhdəmizdə olan bürclərdən sizin döyüşçülərinizi şəhər daxilinə buraxarıq". Übeyd xan bu məktubu aldıqdan sonra öz əmir və əyanlarının toplantısını keçirdi və Əbu-Tahirin irəli sürdüyü şərtləri onlarla müzakirə etdi. Müşavirədə Əbu-Tahirlə sövdələşməyə razılıq verildi. Übeyd xan da elə oradaca Əbu-Tahirə, onun yaxınlarına canlarına və mallarına toxunulmayacağı barəsində zəmanət sənədi yazıb verdi. Əmir Əbu-Tahirə xəbər göndərildi ki, onun arzuladığı istənilən vəzifəyə təyin olunacaqdır. Zəmanət məktubu Əmir Əbu-Tahirin elçisinə verildi və həmin elçi çoxlu ümidlərlə yola salındı. Elçi də Əmir Əbu-Tahirin yanına gəlib onun istədiyi vəzifəyə təyin olunacağı haqda Übeyd xanın zə-

manət məktubunu təhvil verdi. Bildirilir ki, Əmir Əbu-Tahir bu məktubu sevinclə qəbul etdi və Übeyd xan tərəfindən zəmanət almasından cəsarətlənərək həmfikir olmadığı bəzi adamları qətlə yetirib, bəzilərini isə incitməyə başladı. Münasib bildiyi gecələrin birində gecə yarısı, qala mühafizəçilərinin çoxunun yuxuya getdiyi bir vaxtda özünün dayandığı bürcün divarlarına nərdivanlar dayayaraq üç yüz özbək döyüşçüsünün bürcün yuxarısına qalxmasına şərait yaratdı. Sonra da bu özbəklərin hücuma keçməsi barəsində işarə verildi. Özbəklər də şeypurları səsləndirməklə yarımyuxulu olan qala müdafiəçilərinin üstünə atıldılar. Əvvəlcə özbəklərin qalxdığı bürc üzərində ciddi döyüş getdi. Qala müdafiəçilərinin yarıyuxulu və qəfil döyüşə hazır olmamalarından istifadə etməklə özbəklər hərbi təşəbbüsü əllərinə ala bildilər. Müqavimət üçün müəyyən cəhdlər göstərilsə də özbək dəstəsi bu ilkin döyüşdə üstün gəldi. Sonra isə özbək dəstəsi Ümmət bəyin mövqe tutduğu darvazaya doğru irəlilədi (140).

Ümmət bəyin mövqe tutduğu darvaza ətrafında da gərgin döyüş getdi. Burada mövqe tutmuş qala müdafiəçilərinə ağır zərbə vurmaqla özbəklər qala darvazasını açmaq və özbək dəstələrini qala daxilinə buraxmaq istəyirdilər. Döyüşün gedişində Ümmət bəy özbəklərin atdığı bir oxa ona dəydi və o, qala divarı üzərindən yerə yıxıldı. Bəzi məlumatlara görə, Ümmət bəy orada deyil, özbəklərlə aparılan sonrakı döyüşlərdə həyatını itirdi. Onun ətrafında dayanmış bir neçə döyüşçü də burada öz həyatlarını itirməli oldular. Bürcün müdafiəsində dayanan qızılbaş döyüşçülərinin bir çoxu isə özbək döyüşçülərinin təzyiqi qarşısında geri çəkildi. Bundan sonra özbəklər qala darvazasını açmağa müvəffəq oldular və qala kənarında olan özbək dəstələri də şəhər daxilinə axışdılar. Bununla da, Heratın faciələrlə və dağıntılarla dolu ağır günləri başladı. Özbəklər Herata daxil olan kimi şəhərin talan edilməsinə, qətl və qarətə başladılar. Qarətçilər evlərə daxil olur, gördükləri hər şeyi talayır və onlara mane olmaq istəyənləri amansızcasına qətlə yetirirdilər (141).

Sonra Heratda baş verənlər "Əhsənüt-təvarix" əsərində belə təsvir edilmişdir: "Xızır Çələbi öz adamları ilə İxtiyarəddin qa-

lasına çəkildi. Qiyamət əlamətli özbək qoşunu məhəllələri qarət etməyə başladı. Şəhərətrafı bölgələrin (bölükat) sakinlərinin işarəsi ilə [özbəklər] şəhərlilərin evlərinə daxil olub onların zahiri sərvətlərini mənimsədilər və gizlədilmiş sərvətləri əldə etmək üçün insanlara işgəncə verərək son dərəcə sitəm və zülm nümayiş etdirdilər. Kiçiklərin və böyüklərin naləsi asimana ucaldı. İsmət pərdəsinin Zöhrə alınlıları qulyabanı görünüşlü moğolların əlində giriftar olub bir saat belə rahatlıq tapmadılar. “Bəsrə xarab olduqdan sonra” (iş-işdən keçəndən sonra) Übeyd xan nəsihətamiz sözlərlə Təniş bəyi şəhərin içinə göndərdi ki, türkləri müsəlmanları tarac etməkdən çəkindirsin. O, şəhərə daxil olub car çəkdirdi ki, heç kəs tarac etmək və sərvət ələ keçirmək üçün sakinlərin evlərinə girməsin. Buna görə də o şiddət sakitləşdi. Şəhərətrafı bölgələrin sakinləri Əmir Həsən Qazini tutub atəşə atdılar.

Beləliklə, Übeyd xan ali şanlı sultanların əyləşdiyi bir məkan olan Xorasan məmləkətini işğal etdi, qazilərdən və təbərrayilərdən əlinə keçəni qətlə yetirdi. Daha sonra o, İxtiyarəddin qalasının fəthi ilə məşğul oldu və Xızır Çələbi ilə Ümmət bəyin yanına yaxşı nitq qabiliyyətinə malik elçilər göndərdi ki, onları cəza almayacaqlarına əmin edib oradan endirsin. Elçilər xanın adından and içdilər ki, qalanı və Sufiyan xəlifənin mallarını təslim edəcəyiniz təqdirdə heç kəs sizin mallarınıza və ailənizə əl uzatmayacaqdır. Bu səbəbdən İxtiyarəddin qalasında yerləşənlərin bəzisi öz ixtiyarı ilə, bəzisi isə əlacsızlıqdan qala darısqallığını tərk etdilər. O əsnada Übeyd xanın oğlu Məhəmməd Rəhim bir şər dəstəsi ilə özünü qala əhlinə yetirib qala adamlarının mallarına əl uzatdı. Dərhal Übeyd xan qəfil bir bəla kimi özünü oraya çatdırıb ox yarası ilə [Məhəmməd Rəhimin] adamlarından birini yoxluq yoluna göndərdi (öldürdü). Xızır Çələbi və Ümmət bəy uşaqları və arvadları ilə çılpaq və üryan şəkildə Sultan Hüseyn mirzə mədrəsəsinə gəldilər. Übeyd xan, Xızır Çələbini uşaqları ilə birlikdə Buxara tərəfə göndərdi. Bir müddət sonra isə onları kiçikli-böyüklü qətlə yetirdi. Hər gün cahillərin sözləri əsasında o imansız xanın hökmü ilə beş-altı nəfər şiəlikdə ittiham edilib Herat çarşısında öldürülürdü. Dinsiz kəndlilər və xəyanətkar şəhərlilər

ədavətə malik olduqları adamı tutub Qazi nın yanına aparırdılar ki, bu kişi qızılbaş zamanında Əbu-Bəkri, Öməri və Osmanı lənətləmişdir. Həmin iki cahil şahidin sözü ilə Qazi məzlumun qətlinə hökm verirdi. Onu çəkə-çəkə Herat çarşısına aparırdılar və qətlə yetirirdilər. Onların bədşükürlülüyü üzündən möhnət dalğaları və fitnə ləpələri ən yüksək səviyyəyə çatdı, zorakılıq və qarət Xorasanın ətrafına yayıldı “(142).

“Əhsənüt-təvarix” və “Tarix-i aləmara-yi Abbasi” əsərlərində Übeyd xanın 14 ay müddətində Heratda hakimlik etdiyi göstərilmişdir (143). “Rövzətüs səfəviyye” əsərində isə Übeyd xanın Heratda 4 ay hakimlik etməsi qeyd olunmuşdur (144). Tarixi faktların tutuşdurulması ikinci rəqəmin tarixi həqiqətə daha yaxın olduğunu göstərir. Amma Übeyd xan və onun rəhbərliyi altında olan qoşunlar dörd ay ərzində on dörd ayda ediləbiləcəyindən daha artıq talanlar etmişdilər. Dörd ay ərzində özbəklər istər Heratda, istərsə də onun ətrafında çox tez-tez ən müxtəlif bəhanələr altında insanları qətlə çatdırırdılar və bu işgəncələrin sorağı Heratdan çox-çox uzaqlara da yayılmışdı. Übeyd xan Heratı nəzarət altına alandan və bu şəhəri talan edəndən sonra Xorasan vilayətinin digər məntəqələrinin də işğal edilməsinə qərar verdi. Bu məqsədlə Übeyd xan Heratın idarəçiliyini öz əmirlərindən birinə tapşırdı və digər məntəqələrin işğalı üçün şəhəri tərk etdi. Übeyd xan Xorasanın Baxərz bölgəsini də öz nəzarəti altına aldı və burada olarkən Səfəvi şahının bölgəyə gəlməsi ehtimalları haqqında məlumatlar aldı. Bu məlumatların yayılması Übeyd xanın çox ciddi təşviş və narahatçılığı ilə qarşılaşdı. Şah Təhmasibin Xorasana gəlməsi xəbəri Übeyd xanda elə bir qorxu yaratdı ki, dərhal bu xəbərin doğruluğunun yoxlanılmasına qərar verdi. Bununla bağlı o, ətrafa adamlar göndərdi ki, Şah Təhmasibin Xorasana gəlməsi xəbərinin doğruluğu yoxlanılsın. Şah Təhmasibin bölgəyə gəlişi barəsində yeni xəbərin çatdırılacağı vaxta qədər Übeyd xan təşviş dolu günlər keçirməli oldu. Aldığı yeni xəbər isə Şah Təhmasibin bölgəyə gəlişi barəsində yayılan xəbərlərin şayiə olmadığını təsdiq etdi. Übeyd xanın adamları Məşhəd əyanlarından birinin Heratda yaşayan tanışlarından bi-

rinə yazdığı məktubu ələ keçirə bilmişdilər. Məşhədli əyan yazırdı ki, Şah Təhmasib bir qədər əvvəl Osmanlı qoşunlarının Azərbaycan üzərinə hücumunun qarşısını almış və bu vilayəti yaxın əmirlərindən birinə tapşıraraq özü qoşunla Xorasanın sərhədinə çatmışdır. Məktubda bildirilirdi ki, Şah Təhmasib qoşunla Herata doğru yönələcək və Heratı özbək qoşunlarından azad edəcəkdir. Əldə etdiyi yeni məlumat Səfəvi qoşunlarının bölgəyə gəlməsi haqqında Übeyd xanda şübhə yeri qoymadı. Übeyd xan bir daha anladı ki, onun Şah Təhmasib qarşısında dayanmaq qüdrəti yoxdur və ona görə də Xorasan vilayətinin digər məntəqələrinin işğal altına gətirilməsi niyyətindən əl çəkib yenidən Herata döndü. Bununla belə, Übeyd xan daha etibarlı məlumatların əldə edilməsi üçün də yollar aramağa başladı. Mənbələrdəki məlumata görə, 1537-ci il yanvar ayının sonlarına yaxın Mərv-Şahican vilayətinin valisi Sevincək Məhəmməd sultanın adamları daha inandırıcı bir xəbər gətirə bildilər. Həmin adamlar Xorasan vilayətinin şimalında yerləşən Dərəgəzdə ələ keçirdikləri bir qızılbaş döyüşçüsünü özləri ilə Herata gətirdilər və Übeyd xan da ondan daha dəqiq məlumatı əldə edə bildi. Qızılbaş döyüşçüsü də təsdiqlədi ki, Şah Təhmasib doğrudan da Səfəvi qoşunları ilə Xorasan vilayətinə daxil olub və hazırda Tus yaxınlığında düşərgə salmışdır. Qızılbaş döyüşçüsünün verdiyi məlumata görə, Şah Təhmasib əvvəlcə Mərv-Şahicanı özbək qoşunlarının nəzarətindən azad etmək istəyirdi (145).

Übeyd xan heç olmasa bu dəfə işğal altına aldığı şəhərləri buraxaraq yenidən geri çəkilmək istəmirdi və güman edirdi ki, bölgənin özbək hakimlərinin ona lazımi kömək edəcəyi halda Səfəvi qoşunlarına qarşı müqavimət göstərmək mümkün olacaqdır. Ona görə Übeyd xan özbək əmirlərini və əyanlarını yanına topladı və onlarla məsləhətləşmə apardı. Übeyd xan onlara bildirdi ki, əgər özbək əmirləri və əyanları öz qoşunları və camaatları ilə toplaşıb ona kömək etsələr qızılbaşlara qarşı müharibə aparmaq mümkündür. Übeyd xana görə, özbək qoşunları ilə Səfəvi qoşunlarının sayı təxminən bərabər idi və keyfiyyət baxımından da bu qoşunlar arasında böyük bir fərq yox idi. Əksinə,

Übeyd xana görə indiki şəraitdə özbək qoşunları müəyyən üstünlüklərə malik idilər. Belə ki, Səfəvi qoşunları Osmanlı qoşunları ilə ağır döyüşlərdən yenicə çıxmışdılar və ona görə də bu qoşunların müəyyən çətinliklərlə üzləşdiyi aydın idi. Digər tərəfdən Səfəvi qoşunları qış mövsümündə Xorasana doğru uzun bir yol gəlməli olmuşdular. Bu da bir tərəfdən qoşunları yormuş, digər tərəfdən qoşundakı atların çoxunu əldən salmışdı. Übeyd xana görə, belə bir şəraitdə özbək qoşunları hünər göstərib Səfəvi qoşunlarına üstün gələ bilərdilər. Özbək əmirləri Übeyd xan tərəfindən səsləndirilən bu fikirlərin bəziləri ilə razılaşdılar. Onlar da qeyd etdilər ki, güclü Osmanlı qoşunlarına qarşı döyüşlərdə iştirak etməsi və qış mövsümündə Xorasana doğru uzun yol gəlməsi özsüz ki, Səfəvi qoşunlarını yormuşdu. Amma özbək əmirlərinin fikrincə, Səfəvi döyüşçülərinin bir yox, bir neçə atı var idi və ona görə onların atlarının əldən düşməsini güman etmək doğru olmazdı. Özbək əmirlərinə görə, Osmanlı qoşunlarına üstün gəlməklə xeyli sərvət və hərbi əmlak da ələ keçirmişdilər. Bu da bütünlükdə Səfəvi qoşunlarının gücünü artıra bilərdi. Ona görə özbək əmirləri Səfəvi qoşunlarına qarşı döyüşə girməyi məqsədəuyğun saymadılar. Onlar açıq şəkildə bildirdilər ki, bu ölkə daxilində biz Səfəvi padşahına qarşı müharibə apara bilmərik. Yalnız Səfəvi qoşunları Amudərya çayının şimalına adlayıb özbək hakimlərinin torpaqlarını tutmaq istəsə, onda Səfəvi qoşunlarına qarşı müharibə aparmaq labüd olacaqdır. Əvvəlki qarşılaşmaların nəticələrini xatırlatmaqla özbək əmirləri birmənalı şəkildə Səfəvi qoşunları ilə döyüşə girməyin əleyhinə olduqlarını bildirdilər. Übeyd xan əvvəlcə bu təkliflə razılaşmadı və Xorasanda dayanmaq niyyətində olduğunu bəyan etdi. Digər əmirlər isə onun bu fikrini qəbul etmədilər və hətta təkid etdilər ki, Xorasan vilayəti tərk edilsin. Übeyd xan yenə razı olmadıqda qətiyyətli şəkildə ona bildirdilər ki, ya sözümüzü qəbul etməlisən, ya da səni ata bağlayıb Mavəraünnəhr tərəfə aparacağıq. Übeyd xan bildi ki, özbək əmirləri zarafat etmirlər və onlar bu sözü deyiblərsə, mütləq onu icra edəcəklər. Ona görə də Übeyd xanın bu təklifi qəbul etməkdən başqa çarəsi qalmadı və 1537-ci il

yanvar ayının 29-da (şaban ayının 17-də) o, Heratı tərk edib qoşunları ilə birlikdə Buxaraya doğru istiqamət götürdü (146).

Şah Təhmasib hələ Osmanlı qoşunlarına qarşı mübarizə apardığı zaman Übeyd xanın Xorasana yürüş etməsi və bu vilayətdə talan və qarətlərin artması haqqında məlumat almışdı. Osmanlı qoşunlarının Azərbaycan (Cənubi) üzərinə hücumunun qarşısını alandan sonra Şah Təhmasib Xorasana doğru yürüş etmək barəsində də qərar qəbul etdi. Bildirilir ki, Şah Təhmasib həm böyük sayda qoşunla, həm də böyük sürətlə Xorasan vilayətinə doğru hərəkətə başladı. Bir müddətdən sonra o, Qəzvinə yetişdi və bir neçə günlük istirahətə dayandı. Burada olarkən Şah Təhmasib qardaşı Bəhram Mirzəni Gilan vilayətinin hakimi vəzifəsinə təyin etdi. Mənbə məlumatlarına görə, elə burada olarkən Şah Təhmasib həm də Sam Mirzənin Ağzıvar xanın təhriki ilə müxalifət yoluna düşməsi haqqında məlumat aldı. Sonra o hərəkətini davam etdirdi və Reydə olarkən Sam Mirzənin məktubu da ona çatdı. Məlumdur ki, Şah Təhmasib əməlinə görə peşimançılıq çəkən Sam Mirzənin günahını bağışladı və öz qorçularından birini qiymətli hədiyyələrlə Sam Mirzənin yanına göndərdi. Xorasana doğru irəlilədiyi zaman Şah Təhmasib həm də Heratın yeni hakimi məsələsini həll etdi. O bu vəzifədə Sam Mirzənin qalmasını məqsədəuyğun saymadı və öz kiçik yaşlı oğlu Sultan Məhəmməd Mirzəni Herat hakimi təyin etdi. Onun lələsi vəzifəsinə isə Məhəmməd xan Şərəfəddinoğlu Təkəli təyin olundu. Məhəmməd xan Şərəfəddinoğlu səltənətin təcrübəli və sədaqətli əmirlərindən biri idi və Bağdad üzərinə yürüş zamanı da o özünün ən yaxşı keyfiyyətlərini nümayiş etdirmişdi. Bağdad şəhəri nəzarət altına alındıqdan sonra bu şəhər ətrafında yaşayan təkəlilər məsələ qaldırdılar ki, Məhəmməd xan Şərəfəddinoğlu təkəli tayfasının rəhbəri təyin edilsin. Təkəlilər həm Məhəmməd xanın təcrübəsini qiymətləndirirdilər, həm də işgüzarlığını. Təkəlilər şübhə etmirdilər ki, Məhəmməd xanın bu vəzifəyə təyin edilməsi ilə onların həyatında və yaşayışında da bir əmin-amanlıq yarana bilər. Bu təklif Şah Təhmasib tərəfindən də rəğbətlə qarşılandı. Şah Təhmasib onu eyni zamanda öz oğlunun lələsi

təyin etdi və Xorasan vilayətinin idarəçiliyini, əslində, Məhəmməd xan Şərəfəddinoğluna həvalə etdi. Bu təyinat eyni zamanda Məhəmməd xanın xidmətlərinə verilən qiymət idi. Bu təyinatlarla bağlı Şah Təhmasib Xorasan vilayətinə öz fərmanını da göndərdi. Xorasan vilayətinin əmirlərinə, vəzirlərinə, ağalarına və əyanlarına ünvanlanmış həmin fərmanda deyilirdi ki, onlar Məhəmməd xanın bütün əmr və göstərişlərini yerinə yetirsinlər, onun göstərişlərindən kənara çıxmasınlar, onun xidmətində dayansınlar və onun fərmanlarını şah fərmanları kimi qəbul etsinlər. Bu fərmanla Xorasan əhalisi Məhəmməd xana itaət etməyə çağırılırdı. Məhəmməd xan isə bu fərmanın imzalanmasından sonra yaxınlarından saydığı Cəfər sultan adlı birisini özünə müavin təyin etdi və Xorasan vilayətinin mühafizəsi işlərinə kömək göstərilməsi məqsədi ilə onu əvvəlcədən Herata yola saldı (147).

Cəfər sultan dərhal Xorasan vilayətinə yollandı və burada bir daha əmin oldu ki, Übeyd xan Heratı işğal altına alıb. O, vilayətin sərhədətrafı bəzi məntəqələrində dayandı və özbək qoşunlarının əməlləri barəsində məlumatlar toplayaraq Şah Təhmasibə göndərdi. Şah Təhmasib isə mənbə məlumatlarına görə, Xorasana yürüş etmək üçün əlavə qoşunların da toplanmasına göstəriş verdi. Onun göstərişi əsasında Şirazdan Qazi xan Zülqədər, Kermandan Şahqulu sultan Əfşar və digər vilayətlərin sərdarları topladıqları qoşunlarla Şah Təhmasibə qoşuldular. Onlardan başqa Abdulla xanla Şahverdi xan Qarabağlı və digər bir sıra əmirlər öz qoşun dəstələri ilə Şah Təhmasibə qoşulmaq üçün Nisa və Əbivərdə doğru istiqamət götürdülər. Əmir sultan Rumlu və Şahqulu xəlifə isə şah qoşunlarına birləşmək üçün Təbəsə doğru hərəkətə başladılar (148).

Übeyd xan Heratı tərk edən kimi Cəfər sultan bu şəhərə tərəf istiqamət götürdü. Özbək qoşunlarının şəhəri tərk etməsi və Şah Təhmasibin qoşunla Herata tərəf yaxınlaşması vilayət əhalisini o dərəcədə sevindirmişdi ki, heratlılar Cəfər sultanı şəhər divarlarından kənarda qarşıladılar, ona çoxlu hədiyyələr bağışladılar və sonra da böyük sevinclə şəhərə daxil oldular. Cəfər sultan şəhərin vəziyyəti ilə tanış olduqdan sonra sabitliyin yenidən yaradılması

üçün mümkün tədbirlərin həyata keçirilməsinə başladı.Bu məqsədlə Cəfər sultan şəhər daxilində əmin-amanlığın yaradılmasına öz əməlləri ilə mane olan bəzi adamları qətlə yetirdi, sonra da lütf və insafla ədalət qapılarını şəhər sakinlərinin üzünə açdı. Bildirilir ki, şəhər əhalisi də Cəfər sultanın fəaliyyətini razılqla qarşıladı. Çünki onun şəhərə gəlişi ilə burada sabit həyat öz axarına düşməyə başladı. Mənbə məlumatlarından aydın olur ki, Sultan Məhəmməd Mirzə də (Xudabəndə) lələsi Məhəmməd xan Şərəfəddinoğlu ilə birlikdə Şah Təhmasibdən daha əvvəl Herata gəldilər. Yəni Übeyd xanın Heratdan qaçması xəbəri aydın olanda, məlum idi ki, Xorasandakı təhlükəli vəziyyət artıq aradan qalxıb. Ona görə də Sultan Məhəmməd Mirzə vilayət hakimi kimi dərhal Herata yola salındı. Yeni vilayət hakimi olan Sultan Məhəmməd Mirzə həm də Şah Təhmasibin oğlu kimi Herat əhalisi tərəfindən sonsuz sevinclə qarşılandı. Onun qarşılanma mərasimi də şəhər divarlarından kənarda keçirildi. Sonra da izdiham şəhərə daxil oldu və Sultan Məhəmməd Mirzə vaxtilə Əmir Teymurun oğlu Mirzə Şahrux tərəfindən tikilmiş İxtiyarəddin qalasında yerləşdi və vilayətin idarəçilik işlərini Sultan Məhəmməd Mirzənin lələsi olan Məhəmməd xan Şərəfəddinoğlu öz üzərinə götürdü (149).

Sultan Məhəmməd Mirzə, onun lələsi və onları müşayiət edən dəstə yola salındıqdan sonra Şah Təhmasib özü də Xorasana doğru hərəkətə başladı. O, Xorasan vilayətinin hüdudlarına daxil olduqdan sonra Məşhəd ziyarətinə yollandı, İmam Rzanın məqbərəsində çoxlu nəzir-niyaz payladı və ziyarət mərasimini başa vurduqdan sonra bir neçə gün də həmin şəhərdə qaldı. Şah Təhmasib Herata yollanmazdan əvvəl Məvr-Şahican məntəqəsini ələ keçirməyi qərarlaşdırdı. Səfəvi qoşunlarının Mərv-Şahican istiqamətinə hərəkət etməsi havaların hələ çox soyuq olduğu bir vaxtda həyata keçirilirdi. Ona görə bu hərəkət müəyyən çətinliklərlə müşayiət olunurdu. Mərv-Şahicanın hakimi Məhəmməd sultan eşidəndə ki, Şah Təhmasib qoşun dəstəsi ilə yaxınlaşmaqdadır, onda həyatını xilas etməyi Buxaraya qaçmaqda gördü. Məhəmməd sultanın qaçmasından sonra Səfəvi qoşunlarına kim-

sə müqavimət göstərmədi. Nəticədə Mərv-Şahicahan müqavimətsiz nəzarət altına alındı. Şah Təhmasib tanınmış əmirlərindən birini bu şəhərin hakimi təyin etdi və özü isə qoşun dəstəsi ilə birlikdə Herata doğru hərəkətini davam etdirdi və hicri qəməri tarixi ilə 943-cü il şəvval ayının 7-də (19 mart 1537-ci ildə) Herata daxil oldu (150).

Səfər və yürüş yorğunluqlarını aradan qaldırmaq üçün bir neçə günlük istirahətdən sonra Şah Təhmasib vilayət idarəçiliyinin nizamlanması ilə də məşğul oldu. O, əvvəlcə özbək qoşunlarının işğalı zamanı əqidəsindən dönməyən, Səfəvi səltənətinə sədaqətli qalan və bunun üçün özbəklərdən məhrumiyyətlər görən adamları tapıb onları qiymətli hədiyyələrlə mükafatlandırdı. Onların arasında Seyid Zeynalabdin Xətib və onun övladları, Əmir Həsən Xətib, Əmir Hüseyn, Əmir Qasım, Əmir Əbdülhey Razi də var idi. Bu adamlara qiymətli hədiyyələrlə bərabər suyurqallar da bəxş olundu. Eyni zamanda özbəklərin vilayətdə olmasından istifadə edərək insanları məzhəb inanclarına, əmlakına və sərvətinə görə məhrumiyyətlərə düçar edənlər də tapıldı və çək-çevirə cəlb olundu. Belələrinin sayı az deyildi və onlar hamısı törətdiyi əməllərə görə şah tərəfindən bağışlanmalarını iltimas etdilər. Şah Təhmasib də mərhəmət nümayiş etdirdi və fərman verdi ki, keçmiş əməllərə görə insanlar cəzalandırılmasınlar. Bildirilir ki, Şah Təhmasibin bu qərarı insanlar tərəfindən böyük rəğbətlə qarşılandı və bu fərman səltənət tərəfdarlarını daha yaxşı xidmətə, pis əməl törədənləri isə səltənət xidmətinə rəğbətlə yanaşmağa sövq etdi (151).

Şah Təhmasib eyni zamanda Xorasanın hakimliyinə təyin etdiyi oğlu Sultan Məhəmməd Mirzənin təlim-tərbiyəsinin davam etdirilməsi məsələləri ilə də məşğul oldu. Əmir Seyid Şərif Corcaninin nəslindən olan Əmir Murtuza, Sultan Məhəmməd Mirzənin təlim-tərbiyəsini öz üzərinə götürməli idi. Əmir Murtuza eyni zamanda Şah Təhmasib tərəfindən Xorasan vilayətinin sədri (dini işlər üzrə rəhbəri) təyin edildi (152).

Vilayət daxili idarəçiliyin nizamlanmasından sonra Şah Təhmasib Qəndəhar üzərinə qoşun çəkdi. Mənbələrdə Şah Təhma-

sibin Qəndəhar üzərinə hücum etməsi daha çox bu şəhərin hakimi olan Xoca Kəlandan Sam Mirzənin qisasının alınması istəyi ilə bağlanılır. Bildirilir ki, Sam Mirzə müxalifətçilik yolunu tutsa da, onun Qəndəhar ətrafında uğursuzluğa düçar olması və hind qoşunlarından zərbə alması Şah Təhmasibin narahatçılığına səbəb olmuşdu. Ona görə də havaların istiləşməsi ilə Şah Təhmasib Qəndəhar hakiminin cəzalandırılması üçün əməli hərəkətə keçdi. Mənbələrdə mövcud olan məlumata görə, Şah Təhmasibin bəzi əmir və əyanları onun Qəndəhar üzərinə hücumda iştirak etməsini istəmirdilər. Həmin əmir və əyanlar bildirirdilər ki, Qəndəhar hakimi Şah Təhmasibin xüsusi diqqətinə layiq olan birisi deyildir. Onlar deyirdilər ki, lazım gələrsə Şah Təhmasibin iştirakı olmadan da qoşun dəstəsi ilə Qəndəhar üzərinə hücum edə və Xoca Kəlanı cəzalandıra bilərdilər. Amma Şah Təhmasib bu fikirlə razılaşmadı və Qəndəhar üzərinə yürüşdə özü şəxsən iştirak etməyi məqsədəuyğun saydı (153).

"Tarix-i aləmara-yi Abbasi" əsərində Şah Təhmasibin Qəndəhar üzərinə hücumu belə təsvir edilmişdir: "Qış fəsli sona yetdi və ürəyaçan bahar təravət və sevinclə zühur etdi. Hərçənd Sam mirzə müxaliflik çölünə çıxaraq, özbaşına Qəndəhar üzərinə gedib bir iş görə bilməmişdi, buna baxmayaraq, həmin vaxt qardaşlıq münasibəti səbəbindən o həzrətin (Şah Təhmasibin) qeyrət damarı hərəkətə gəldi və o, qızılbaşlarla döyüşdə igidlik etmiş cağatay camaatından intiqam almaq istədi. Bu məqsədlə [Şah Təhmasib] Qəndəharı və Zəmindavəri tutmağa yollandı. Hirmənd çayı kənarında o, Əmir sultan Rumlunu çoxlu qoşunla qabaqcadan göndərdi. Qəndəhar hakimi Xoca Kəlan kama yetmiş şəhriyarın səadətli gəlişindən xəbərdar olduqda onun sabitlik və qərarlılığının təməli sarsıldı. O, öz əqrəbalarından Gənci Xoca adlı birisini qalada qoyub, özü Sind tərəfə getdi. Şahın fələyi bürüyən mübarək çətirinin günəşi Qəndəhar diyarının üfüqündən doğduqda Gənci Xoca şahənşahın təzyiqinin və hücumunun qorxusundan itaət və tabeçilikdən savayı bir çarə tapmayıb, cahanın pənahı olan dərgaha tələsdi, şəhərin və qalanın açarlarını uca sarayın xadimlərinə təslim etdi. Mələklər ordusuna malik olan

şah həzrətləri o vilayətin hakimliyini Budaq xan Qacara verdi, daha sonra isə müzəffər və qalib şəkildə hərəkət yüyənini Herat tərəfə döndərdi. Elə ki o həzrətin Qəndəhar yürüşündən qayıdışı xəbəri Buxaraya çatdı, Übeyd xanın və özbək sultanlarının canına böyük bir vahimə düşdü. Onlar Bəlxdən, Səmərqənddən və Buxaradan yaxşı nitq qabiliyyətinə malik elçilərini töhfə və hədiyyələrlə aliməkan şahın səltənət dərgahına göndərib, Qəndəharın fəthi barədə təbriklərini çatdırdılar. O həzrət bir neçə gün ehtiyac sahiblərinin mətləblərinin və məramlarının yerinə yetirilməsi ilə məşğul olub, o vilayətin zəruri məsələlərini qüdrətli dövlətin mənafeyinə uyğun şəkildə nizam-intizama salaraq, 944-cü il aylarında (10.06.1537 - 29.05.1538) ilahi yardımın yol göstərməsi ilə birbaşa İraq tərəfə yollandı. Məhəmməd xan Şərəfəddinoğlu kama yetmiş adlı-sanlı şahzadənin xidmətində Xorasan hüznlülərinin əhvalındakı pərişanlığı aradan qaldırmaqla və qəlbi qırıq olanların vəziyyətini yaxşılaşdırmaqla məşğul oldu, rəiyyətlərin və təbəələrin rifah halının yüksəldilməsinə çalışdı” (154).

Şah Təhmasib Qəndəharı fəth etmək münasibətilə fəthnamələr hazırladıb Xorasan ətrafı hakimlərə və İraqa göndərdi. Bu vilayətin fəth edilməsi Şah Təhmasibin əldə etdiyi hərbi uğurların yeni bir səhifəsi idi. Bu uğur həm də Səfəvi dövlətinin qüdrətinin əyani nümayişi idi. İstər səltənətin qərb sərhədlərində, istərsə də şərq sərhədlərində olsun Şah Təhmasib hakimiyyətinin gücünü ortaya qoymaqla bölgənin güclü dövləti olmasını bir daha təsdiq etdi.

Qəndəhar əhalisi də Şah Təhmasibin lütfi ilə qarşılaşdı. Vilayət əhalisi 3 min tümən toplayaraq şah xəzinəsinə hədiyyə etdi və eyni zamanda onlar vəd etdilər ki, vaxtlı-vaxtında bac-xəracları toplayıb səltənət xəzinəsinə təhvil verəcəklər. Bundan başqa ətraf məntəqələrin sakinləri də böyük sayda hədiyyə və töhfələr toplayaraq Şah Təhmasibin hüzuruna yolladılar. Səfəvi hakimiyyətinə tabe olmaq istəməyənlər isə qətiyyətlə dəf edildilər və bununla daxili sabitlik üçün bir zəmin də yaradıldı. Qəndəharın idarəçiliyi nizamlandıqdan sonra Budaq xan Qacar bu vilayətin hakimi təyin edildi. Bundan sonra Şah Təhmasib Herata doğru

hərəkətə başladı. Herat hakimi Məhəmməd xan eşidəndə ki, Şah Təhmasib geri qayıdır, onun qarşılanması üçün lazımi tədbirlər həyata keçirməyə başladı. Onun göstərişi əsasında, Şah Təhmasibin keçməli olduğu küçələr başdan-başa bəzədildi. Məhəmməd xan istəyirdi ki, Şah Təhmasib hərəkət etdiyi küçələrin hər nöqtəsində tamamilə yeni və maraqlı səhnələrlə qarşılaşsın, şəhər əhalisinin sevincinin və şadyanalığının şahidi olsun. Mənbələrdə mövcud olan bir-sıra məlumatlara görə, Məhəmməd xan şəhər küçələrini elə bəzəmişdi ki, doğrudan da insan valeh olurdu, gül-çiçəklərlə zəngin olan şəhər məkanları cənnəti xatırladırdı, xoşavazlı oxuyanlar isə müxtəlif dillərdə ifa etdikləri və səsləndirdikləri nəğmələrlə sevincli bir əhval- ruhiyyə yaradırdılar. Bildirilir ki, Şah Təhmasib Herat yaxınlığındakı Hezarcirib adlanan məntəqədə dayandı. Məhəmməd xan da öz əyanları və əmirləri, habelə Sultan Məhəmməd Mirzə ilə birlikdə orada Şah Təhmasibi qarşıladı (155).

Bir gün sonra bütün şəhər əhli Şah Təhmasiblə görüş üçün həmin məntəqəyə axışdılar. Burada bir insan seli yarandı və bu insan seli böyük intizarla Səfəvi şahının və mürşidi-kamilin onların qarşısına çıxmasını gözlədi. Həmin mərasimə xeyli sayda musiqiçilər də təşrif gətimişdilər və Şah Təhmasibin bu insan selinin qarşısına çıxmasından əvvəl musiqi sədaları ətrafı bürüdü. Mənbələrdə olan məlumata görə, Şah Təhmasib özü də bu insan selini görüncə sevincli hisslər keçirdi. Səfəvi şahı bu görüşə toplaşan insanların arasına çıxdı, insanlarla söhbət etdi. O, ağsaqqalları və ehtiram sahibi olan insanları ətrafına dəvət etdi, onlara nəvaziş göstrədi və onlara qarşı şah lütfkarlığı nümayiş etdirdi. Görüşdə xüsusi bir ab-hava yaradan musiqiçilər və müğənnilər səxavətlə mükafatlandırıldı. Həmin gün istər Şah Təhmasib üçün, istərsə də Herat əhli üçün yaddaqalan bir günə çevrildi (156).

Şah Təhmasib Xorasanda olduğu zaman Gilanda Bəhram Mirzənin ətrafında xoşa gəlməyən bir vəziyyət yarandı. Yuxarıda qeyd edildiyi kimi, Şah Təhmasib Xorasana doğru hərəkət edərkən Bəhram Mirzəni Gilan hakimi təyin etmişdi. Amma onunla

yerli əyanlar arasında yaranmış olan münaqişə son nəticədə Bəhram Mirzənin vilayəti tərk etməsinə gətirib çıxardı. "Əhsənüt-təvarix" müəllifi Həsən Rumlu bu hadisələrin şahidi olmuşdu və həmin hadisələri əsərində belə təsvir edirdi: "Yenə bu il dinin pənahı olan şahın Herata və Xorasana getməsindən öncə Bəhram mirzəyə Gilan hakimliyini [verib onu oraya] göndərdilər. Mirzənin Gilana getməsinin səbəbi odur ki, Gilan valisi Karkiya Sultan Həsən Tanrının rəhmətinə qovuşduqdan sonra Sultan Həsənin vəkili Kiya Xurkiya Talqani aləmin pənahı olan dərgaha gəldi və Gilan vilayətinə bir hakim təyin edilməsini xahiş etdi. Dinin pənahı olan şah, Bəhram mirzəni çoxlu qoşunla Gilana göndərdi. Mirzə əbləhlərin məsləhəti ilə altı ay Deyləmanda qaldı və o vaxt Kiya Xurkiya igidlik əlamətli bahadırlardan beş yüz nəfərlə Əşkur yolundan qəflətən özünü Lahicana saldı. Bəhram mirzə aləmi yandıran qoşunla elə həmin gün Lahicana daxil oldu. Gilan əmirlərindən on səkkiz nəfər şahzadənin dərgahına gəldi. Mirzə o diyara gəldikdən sonra həmin vilayətin əksəriyyəti onun hakimiyyəti altına keçdi. O əsnada mirzə cənabları gilanlılar arasında tam etibar sahibi olan Kiya Xurkiya Talqanini hərcayi adamların sözü ilə həbs etdirdi və bu səbəbdən gilanlılar qazilərə qarşı müxaliflik etməyə başladılar. Bəhram mirzə məğlub olub Dəryarək yaylağına gəldi. Neçə gündən sonra o, Qəzvinə gəldi. Bu sətirlərin müəllifi Həsən Rumlu o vaxt Qəzvində idi və həmin şəhər tiyul kimi onun babası Əmir sultana məxsus idi. Anamla birlikdə [Bəhram mirzəni] qarşılamaq mərasimini və təzim etmək şərtini yerinə yetirdik, peşkəş kimi xeymə, alaçıq, saray pərdəsi, bargah çadırı, nağd pul, yaxşı atlar, qumaşlar və dəyərli mallar təqdim etdik. Böyüklər və əyan-əşrəflər dua etmək və bəxşiş vermək vəzifəsini icra etdilər" (157).

Şah Təhmasib 6 ay Xorasan vilayətində qaldı. Bu vilayətdə qaldığı müddət ərzində Şah Təhmasib Xorasan vilayətinin möhkəmləndirilməsi və vilayət daxili idarəçiliyin nizamlanması üçün zəruri olan işləri gördü. Nəhayət 1537-ci il avqust ayının 15-də (h.q. 9 rəbiül sani 944) Heratdan Təbrizə doğru hərəkətə başladı. Görünür, Şah Təhmasib bu hərəkət zamanı bir çox məntəqələrdə

dayanmalı olmuşdu. Bu dayanmalar istirahətlə və ya vilayətlərdə dövlətçilik işlərinin nizama salınması ilə də bağlı ola bilərdi. Çünki o, Qəzvinə 1537-ci ilin sonlarında (dekabr ayının əvvəllərində) çatdı və bir neçə gün də orada qaldıqdan sonra 1538-ci il yanvar ayının ortalarında Təbrizə yetişdi (158).

### 9. Özbək qoşunlarının sonrakı hücumları

Şah Təhmasibin 1537-ci ildə Xorasana etdiyi hərbi yürüş və sonra bu yürüşün Qəndəhara kimi davam etməsi Səfəvi-özbək münasibətlərində yeni bir səhifənin başlanğıcı kimi qəbul edilə bilər. Çünki bu yürüşdən sonra qarşılıqlı münasibətlərdə gərginliyin səngiməsi hiss edilməyə başladı. Ona görə ki, Şah Təhmasib növbəti dəfə özbək xanlarının təcavüzkar planlarının qarşısını aldı və Səfəvi dövlətinin qüdrətini bir daha nümayiş etdirdi. Dövrə aid olan mənbələrdəki məlumatlar onu deməyə əsas verir ki, Übeyd xan özünün Səfəvi hüdudlarına sonuncu yürüşünü uğursuzluqla başa çatdırdıqdan sonra öz nüfuzunu daha çox Məvəraünnəhrdə möhkəmləndirməyə cəhd göstərdi. Əslində, o da bir dəfəlik anladı ki, Şah Təhmasibin hakimiyyəti dövründə onun Xorasan vilayətinə yiyələnmək niyyəti heç bir halda baş tutmayacaqdır. Übeyd xanın Xorasandan geri çəkilməsinin sonrakı ili Xarəzm sultanı daxili çəkişmələrin qurbanı oldu və bu da Xarəzmdə hərc-mərcliyə yol açdı. Yəni elə bir hərc-mərclik və xaos yarandı ki, az qala əlində silahı olan hər bir adam böyük iddialarla yaşamağa başladı. Nəticədə, sadə insanların həyatı və güzəranı üçün ağır günlər ortaya çıxdı. Übeyd xan da bölgədə baş verən proseslərdən kənarda qalmadı. Həmin proseslər "Əhsənüt-təvarix"də belə təsvir olunmuşdur:

"Rəiyyətin əhvalına çeşidli fəlakətlər yol tapdı. Sufiyan xanın övladları – Yusif sultan, Əli sultan, Ələş sultan, Pəhləvanqulu sultan və Əqəş sultan Xarəzm vilayətini istila etdilər. Sultan Qazinin oğlu Ömər Qazi, Büraq xanın bacısı oğlu idi. O, fərar edib Daşkəndə getdi və Büraq xandan kömək dilədi. Büraq xan Übeyd xanla ittifaqda Məvəraünnəhr qoşunları ilə hiddətlə Xa-

rəzmə gəldi. Yusif xanın ürəyinə çoxlu qorxu yol tapdı və o, Xorasan tərəfə qaçdı. Übeyd xan əğyarın məşəqqəti olmadan Xarəzmin məmləkət gəlinini ələ keçirdi. Yusif sultan getdiyi yerə çatdı, [orada] qardaşları böyük qoşunla ona qoşuldular və birlikdə Ürgəncə yollandılar. Amudərya çayı kənarında Übeyd xanın və Büraq xanın əmirləri onlarla qarşılaşdılar və onlar arasında gərgin bir müharibə baş verdi. Mavəraünnəhr əmirləri fərar etdilər. Bu igidlik qarşısında rəqibin ayağı yerdən üzülsə də, onlar silahlarını savaşa hazır etməkdən əl çəkmədilər. Übeyd xan öz oğlu Əbdüləziz sultanı Ürgəncdə qoyub Büraq xanla və Əbdüllətif sultanla birgə Mavəraünnəhrə yola düşdü. Eyni zamanda, dinin pənahı olan şah tərəfindən Nisa və Əbivərddə hakim olan Din Məhəmməd ibn Əluş xan, Yusif sultanın köməyinə gələrək özbəklərə tac geyindirdi və xəbər yaydı ki, qızılbaş qoşunu [gəlib] çatmışdır. Onlar birləşərək [Ürgənc] şəhərini mühasirəyə aldılar. Əbdüləziz sultan bu xəbəri bildirmək üçün Übeyd xanın yanına qasid göndərdi və yardım istədi. Übeyd xan Amudərya çayından keçdi. Xarəzm sultanları Ürgəncin üstündən qalxdılar və pərən-pərən oldular. Übeyd xan Vəzir şəhərinə gəlib oranı ələ keçirdi və o şəhərin idarəçiliyini öz əmirlərindən birinə tapşırıb Buxara tərəfə geri qayıtdı. Həzarəsbə çatdıqda eşitdi ki, Din Məhəmməd sultan Xivəq qəsəbəsinə basqın edib və üsyan bayrağını qaldırıb. Onun qəzəb atəşi şöləlləndi və böyük əmirlərdən olan Dərviş bəyi qoşunun və gərənayların əksəriyyəti ilə Xivəq səmtinə göndərdi. Bu tərəfdən Din Məhəmməd sultan yaka türkmənləri və Əli-eli camaatı ilə ittifaqda düşmən üzərinə hərəkətə gəldi. Həzarəsbin dörd fərsəxliyində, əl içi kimi hamar olan və ortasında nəhr olan bir yerdə iki firqənin yaxınlaşması qarşılaşma ilə nəticələndi. Din Məhəmmədin ordusunun mənqəlayı olan Yusif sultan vuruşmadan xəbərsiz olan Qaraca Bahadıra həmlə etdi, onu çox adamla birgə əsir tutdu, [digər] bir dəstəni isə təqib edib nəhrin sonuna yönəldi. Übeyd xanın əmirləri körpünün üstünü tutub ox yağdırdılar və gərənay çaldılar. Onlar öz imkan xurcunlarında olan bütün oxları Din Məhəmmədin qoşununa atdılar. …Yaka türkmənlərini müqayisəyəgəlməz qorxu bürüdü və onlar Din Məhəm-

mədin bayrağını götürüb fərar etdilər. Əqəş sultan at çapıb onları qılınc zərbəsi ilə geri qaytardı. Eyni zamanda, qaçanların arxasından getmiş Yusif sultan döyüşə girdi və Übeyd xanın əmirlərinin üzərinə birdən hücuma keçdi. Düşmənlərin iqbal günəşi zavala uğradı və onlar idbar üzlərini fərar vadisinə tutdular. Übeyd xanın böyük əmirlərindən Lətif Mirək, Şeyx Nəzər bəy, Taci Bahadır Təvaçıbaşı, Qaraca Bahadır Vəkil və Hafiz Qünqürat əsir oldular. Dərviş bəylə Köpək bəy aradan çıxdılar. Həzarəsbdə bu xəbəri eşidən Übeyd xan bir dəvəyə minib Buxara tərəfə qaçdı. Belə bir qələbə müzəffər padşahın dövlətinin sayəsində Din Məhəmmədə müyəssər olduğundan, o, bu xəbəri dinin pənahı olan şaha göndərdi. Onun qasidi Təbrizdə aləmin pənahı olan şahın sarayına gəldi və əhvalatın şərhini bəyan etdi. O həzrət həddən ziyadə sevindi, Din Məhəmməd xan üçün dəyərli xələtlər göndərdi və hər il Səbzəvardan alınan üç yüz Təbriz tüməninin pərvanəçəsini (fərmanını) ona bağışladı “ (159).

Göründüyü kimi, Übeyd xan hətta bölgədəki daxili çəkişmələrdə də uğur qazana bilmədi. Sonrakı il, yəni 1539-cu ildə isə o, dünyasını dəyişdi. Farsdilli mənbələrdə Übeyd xan daha çox zülmkar, çox qəddar, hakimiyyət iddialı və eyni zamanda ədəbi ilhama malik bir hakim kimi təqdim olunmuşdur. Bəzi məlumatlara görə, 1539-cu ildə Übeyd xan yenidən Xorasan vilayəti üzərinə hücum etməyə və bu vilayəti nəzarət altına almağa cəhd göstərmək istəyirdi. Lakin bu ərəfədə Übeyd xan xəstəliyə mübtəla oldu və vaxt ötdükcə onun xəstəliyi daha da şıddətləndi. Nəticədə o, elə bu xəstəlikdən də dünyasını dəyişdi. Übeyd xanın dünyasını dəyişməsi barəsindəki xəbərlər dərhal Herat hakimi Sultan Məhəmməd Mirzəyə və onun lələsi Məhəmməd xan Şərəfəddinoğluna çatdırıldı. Məhəmməd xan bu xəbərdən çox sevindi. Çünki Übeyd xan kimi bir təcavüzkar xislətli hakimin dünyasını dəyişməsi Xorasan vilayətini də özbək qoşunlarının davamlı basqınlarından xilas edə bilərdi. Ona görə də Məhəmməd xan həm bu xəbəri gətirən elçiyə qiymətli hədiyyələr verdi, həm də bu barədə Şah Təhmasibə xəbər göndərdi (160).

Übeyd xanın dünyasını dəyişməsi doğrudan da, Xorasan vilayəti ətrafında müəyyən bir dövr üçün sakitlik və sabitlik yaranmasına yol açdı. Hətta Übeyd xanın xələfləri Səfəvi şahı ilə xoş münasibətlər qurmağa da cəhd göstərdilər. Belə ki, 1541-ci ildə Übeyd xanın yerinə Buxara hakimi olan oğlu Əbdüləziz sultan tərəfindən Xudaverdi bəy adlı bir elçi, Bəlx hakimi Kəskin Qara sultan tərəfindən isə Cahan Çərə adlı elçi Təbrizə yollanaraq Şah Təhmasiblə görüşdülər. Onlar öz hakimlərinin sözlərini Şah Təhmasibə çatdırdılar. Həmin elçilər geri qayıdanda Şah Təhmasib Hacı Ağa Mehmandar adlı elçisini onlarla birlikdə yola saldı (161). Səfəvi şahının da öz elçisini Buxaraya göndərməsi, heç şübhəsiz ki, onun da özbək hakimləri ilə dinc və yanaşı yaşamaq istəyindən xəbər verirdi.

Bununla belə, 1543-cü ildə digər özbək hakimlərinin Xorasan vilayəti üzərinə hücum cəhdi haqqında mənbələrdə məlumatlar vardır. Bildirilir ki, 1543-ci ilin yazının əvvəllərində Şah Təhmasib Qumdan Sərəbənd yaylağına tərəf hərəkətə başladı. Bura gəlməkdə Şah Təhmasibin məqsədi istirahət etmək idi. Amma oradakı istirahət günlərində Şah Təhmasib qəfildən xəstəliyə tutuldu. Həmin günlərdə Şah Təhmasib səhhətinin pisləşməsindən əlavə, həm də Mavəraünnəhrdən bir qoşun dəstəsinin Amudərya çayını adlayaraq Səfəvi hüdudlarına hücum etmək niyyəti barəsində məlumat da alındı. Bu təhlükənin qarşısının alınması üçün Bəhram Mirzə, Bədr xan Ustaclı, Hüseyncan sultan Rumlu, Budaq xan Qacar, Məhəmməd xan Təkəlinin oğlu Qazaq bəy qoşun dəstələri ilə birlikdə Lar yaylağı istiqamətinə göndərildilər. Bəhram Mirzə isə vəziri Xoca İnayəti bir qoşun dəstəsi ilə Rüstəmdar üzərinə göndərdi. Xoca İnayət də qarşıya qoyulan tapşırığı uğurla yerinə yetirdi. Şah Təhmasibin xəstələnməsi xəbərini alan kimi, Xarəzm hakimi Din Məhəmməd xan da Səfəvi hüdudlarına qoşun çəkməyi qərarlaşdırdı. Din Məhəmməd xan qoşun dəstəsi ilə Astrabada doğru istiqamət götürdü. Astrabad hakimi Sədrəddin xan özbək qoşunlarının hücumunun qarşısını almaq üçün əvvəlcə bir dəstəni qaladan kənara çıxardı. Lakin bu dəstənin say tərkibi az olduğu üçün özbəklərə lazımi müqavimət göstərə bilmədi. Din

Məhəmməd xanın Astrabad üzərinə hücum xəbəri alınan kimi Bəhram Mirzə, Bədr xan, Hüseyncan sultan və Budaq xan Qacar köməyə yollandılar. Adları çəkilən əmirlərin rəhbərliyi altında olan qoşunlara müqavimət göstərməyin çətin olduğunu görəndə Din Məhəmməd xan orada dayanmağı təhlükəli bilib öz vətəninə çəkildi. Onun geri çəkilməsindən sonra adları çəkilən əmirlər də öz dəstələri ilə yenidən Lar yaylağına qayıtdılar (162).

Amma Din Məhəmməd xan bununla heç də sakitləşmədi və 1545-ci ildə yenidən Səfəvi hüdudlarına hücum etdi. Bu dəfə o, Məşhəd üzərinə getməyi məqsədəuyğun saydı. Özbək qoşunlarının bu yürüşü zamanı Məşhəd hakimi Şahqulu sultan Ustaclı bir dəstə döyüşçünün müşayiəti ilə şəhərdən çıxaraq Türüq adlanan məntəqədə gəzirdi. Bu dəstə qəfildən özbək dəstəsinin hücumuna məruz qaldılar və baş verən qeyri-bərabər döyüşdə Şahqulu sultanla birlikdə daha 60 döyüşçü qətlə yetirildi. Sonra Din Məhəmməd xanın dəstəsi Nişapura yollandı. Özbəklər bu şəhərin əhalisini talan etməklə çoxlu dağıntılara yol açdılar. İyirmi gün talan və soyğunçuluqla məşğul olduqdan sonra özbək dəstəsi Səfəvi hüdudlarını tərk etdi (163).

1548-ci ildə özbək qoşunlarının Səfəvi hüdudlarına hücum cəhdi bir də təkrar olundu. Həmin il Qərcistan hakimi olan Bayramoğlan ətrafına çoxlu sayda qoşun toplaya bildi. Bu qoşunun əsasını qıpçaq tayfaları və silahlı özbəklər təşkil edirdi. Həmin qoşun dəstəsi Heratrud bölgəsinə basqın etdi. Bayramoğlan bu bölgədə talan və soyğunçuluqlar etməklə bərabər, həm də bölgənin əhalisinin böyük bir hissəsini köçürüb özü ilə apardı. 1548-ci ilin sentyabr ayında Xorasanın idarəçiliyini həyata keçirən Məhəmməd xan Şərəfəddinoğlu qoşun dəstəsi ilə Bayramoğlanın üzərinə hərəkətə başladı. O, qoşun dəstəsi ilə Qərcistan vilayətinin Ağgünbəd yaylağında Bayramoğlanın qoşun dəstəsinə yetişdi. Bayramoğlan vəziyyətdən hali olan kimi, qoşununa döyüş mövqeyi tutmağı əmr etdi. Özbəklər və qıpçaqlar dağların yüksəkliklərində əlverişli mövqelər tutdular. Həmin əlverişli mövqelərdən istifadə etməklə Bayramoğlan ciddi müqavimət göstərdi və Məhəmməd xanın dəstəsini geri çəkilməyə məcbur etdi. Lakin

onun qələbə sevinci çox da uzun sürmədi. Məhəmməd xanın oğlu Qazaq atasının uğursuzluğu xəbərini eşidəndə başqa bir dəstə ilə onun köməyinə gəldi. Onların birləşmiş qüvvələri yenidən Bayramoğlanın dəstəsi üzərinə hücuma keçdi. Bu dəfə Bayramoğlan müqavimət göstərə bilmədi. Onun dəsətəsinin döyüşçüləri qaçıb dağıldılar və bir çoxu da qızılbaşların əsirinə çevrildilər. Bayram-oğlanın yaxın ətrafı Əşbar qalasında gizləndi. Məhəmməd xan bu qalanı tutmağa cəhd göstərsə də, bir nəticə hasil olmadı və dəstəsi ilə dönüb Herata qayıtdı (164).

1548-ci ildə özbək dəstələrinin Xorasan vilayəti üzərinə növbəti hücumu baş verdi. Bu dəfə tərəflərin qoşun dəstələri Baxərz ətrafında qarşılaşmalı oldular. Həmin məntəqə üzərinə basqın edən özbəklərin əsas məqsədi soyğunçuluq və qarətlər hesabına var-dövlət əldə etmək idi. Baxərz üzərinə hücum edən özbək dəstəsinə Haqnəzəroğlan adlı tanınmış bir özbək həramisi rəhbərlik edirdi. Məhəmməd xan Şərəfəddinoğlu bu basqından xəbər tutanda Veys sultan adlı əmirlərindən birini bir dəstə döyüşçü ilə o zaman Baxərzdə olan oğlu Qazaq sultanın köməyinə göndərdi. Veys sultan Baxərzə yetişəndən sonra Qazaq sultanla görüşüb birlikdə Haqnəzəroğlanın dəstəsi üzərinə hərəkət etdilər. Onların birləşmiş qüvvəsi Xatun körpüsü adlanan yerdə özbək dəstəsi ilə qarşılaşmalı oldu. Haqnəzəroğlan belə güman etdi ki, malik olduğu qüvvə ilə qızılbaşlara üstün gələ biləcəkdir. Lakin o öz niyyətinə nail olmadı. Qazaq sultan dəstəsindəki tüfəngçiləri döyüş sırasının önündə yerləşdirdi və onların açdığı atəşlər özbəklərə ciddi itki verdi. Sonra da Qazaq sultan özü atlıları ilə özbəklərin üzərinə şığıdı və onların müqavimətini qıraraq qaçmağa məcbur etdi (165). Bununla özbək və qıpçaqlardan ibarət olan dəstə uğursuzluğa düçar olub Xorasan ərazilərini tərk etdilər.

Özbək qoşunlarının Xorasan vilayəti üzərinə daha böyük hücumu isə 1550-ci ildə baş verdi. Həmin il Səmərqənd hakimi Əbdüllətif xan ilə Daşkənt hakimi Büraq xan böyük qoşun dəstəsi ilə Xorasan vilayətinin hüdudlarını aşdılar. Birləşmiş özbək qoşunlarının 40 min nəfər olduğu bildirilirdi (166). Bu hücumda başlıca məqsəd əvvəl Herat şəhərini işğal etmək və sonra da öz-

bək işğalını bütün Xorasan vilayətinə yaymaq idi. Übeyd xanın dünyasını dəyişməsindən sonra özbək qoşunları ilk dəfə idi ki, belə böyük bir hücumu həyata keçirirdilər. Çoxsaylı özbək qoşunlarının gəlişi heç şübhəsiz ki, Herat üçün böyük təhlükə yaradırdı. Məhəmməd xan Sərəfəddinoğlu bu təhlükənin qarşısını almaq üçün bütün imkanları səfərbərliyə aldı, mövcud olan qoşun dəstələrini qruplaşdırdı, şəhər darvazalarının və divarlarının müdafiəsini gücləndirdi. "Əhsənüt-təvarix" əsərinin müəllifi Həsən Rumlu bu hücumu və onun nəticələrini belə təsvir edirdi: "Bu il Büraq xan və Əbdüllətif sultan böyük qoşunla Amudərya çayından keçib Herata hərəkət etdilər. Onların gəlişi xəbəri Məhəmməd xanın qulağına çatdıqda hökm etdi ki, şəhərin bayırını küçəbənd etsinlər. Bu işlərin sərəncamından və istehkam ləvazimatının tamamlanmasından sonra hər küçəbəndi və yolu şücaətlilərdən və etimadlılardan birinə tapşırdı. Firuzabad darvazasının küçəbəndini Veys sultana həvalə etdi. Xoş darvazasını qorumağa Sincab sultan Əfşarı təyin etdi. Quticaq darvazasının bayırındakı yolları Qazaq sultanın öhdəsinə verdi. Məlik darvazasının küçəbəndlərində Tatar bəy və Əmir Hüseyn Xətib mühafizə bayrağını qaldırdılar. Məhəmməd xan bir dəstə igidlə Sultan Məhəmməd mirzənin xidmətində qaldı. Pəncşənbə günü, cəmadiyüləvvəl [ayının] 5-də (22.05.1550) Büraq xan və b. sultanlar Herata gəldilər, bəzi nahiyələrdə və bölükatda düşərgə saldılar. Turan sultanlarının ən cəsuru Şah Məhəmməd sultanı cavanlıq hərarəti bürüdüyündən və igidlik, pəhləvanlıq izhar etmək istəməsi səbəbindən öz adamları ilə Xoş darvazası küçəbəndinin yanına gəldi və orduya döyüş atəşini alovlandırmağı əmr etdi. Sincab sultan Əfşar o sitəmkar zalımı dəf etmək və ona mane olmaq üçün küçəbənddən çıxıb, ürək deşən oxun və can odlayan tüfəngin yarası ilə qaragün özbəkləri gedər-gəlməzə yolladı. Axırda özbək ordusu əfşar camaatına qələbə çalıb onun mülazimlərindən beş nəfəri qətlə yetirdi. Sincab sultan özünü küçəbəndin içinə çatdırdı. Qızılbaş qoşununun topçuları Şah Məhəmməd sultanı tüfəng atəşi ilə küçəbənddən uzaqlaşdırdılar. Səbatsız sultanların fərarından sonra Herat bölükatında Şah Məhəmməd sultanı adlı-sanlı öz-

bəklərin və hərami türklərin əksəriyyəti ilə birlikdə Sistan və Fərah vilayətinə göndərdilər. Həmin vilayətin nahiyələrinə gəldikdən sonra o, malların, əşyaların talanması, acizlərin və fəqirlərin namusunun sındırılması və həyatlarının qırılması haqqında hökm verdi. O bölgəni xaraba qoyduqdan, varlılara və yoxsullara əzab verdikdən sonra o, sultanların ordugahına tərəf qayıtdı. Görüş əsnasında təsadüfən Büraq xana etiraz etdi:

- Mənim [burada] olmadığım müddətdə nə üçün səhlənkarlıq göstərib küçəbəndləri tutmamışsınız? Sabah mən səf yaran igidlərlə birlikdə atlanıb [şəhərə giriş] yollarını qızılbaşlardan almayınca atdan enməyəcəyəm.

Ertəsi gün Şah Məhəmməd sultan özbəklərin çoxsaylı bir dəstəsi ilə həmin iddianı sübut etməkdən ötrü Şahzənd məzarı yaxınlığındakı küçəbəndə doğru hərəkətə gəldi. Oraya çatdıqda hərb bayrağını qaldırdı. Üç min nəfər igidlə gözlənilməz bəla kimi o küçəbəndin mühafizlərindən olan Söhrab bəyə basqın etdi. Söhrab bəy müqavimət göstərməyə tab gətirməyib fərar etdi. Şah Məhəmməd sultan onu təqib edib, cəsurluğunun və qorxmazlığının bolluğundan, ehtiyatsızlığının və tələskənliyinin çoxluğundan küçəbəndin ağzına kimi getdi. Geri qayıdarkən başına yekə bir daş dəydi. O çevik cavan yəhər üstündən torpaq üzərinə düşdü. O halda zavalsız Kərimin (Allahın) köməyi ilə Məhəmməd xanın mülazimlərindən biri özünü ona yetirib şərlə dolu başını bədənindən ayırdı.

...Və həmin başı xanın yanına gətirdi. Onun köməksiz yoldaşlarından beş-altı nəfəri əsir tutdular. Ona görə də Büraq sultanın ürəyini tamamilə xof bürüdü. Şənbə günü, həmin ayın 27-də (13.06.1550) o, Herat ətrafından köçüb Buxaranı fəth etmək tamahı ilə yola düşdü. Çünki o diyarın (Buxaranın) valisi Əbdüləziz sultan ibn Übeyd xan vəfat etmişdi” (167).

Übeyd xanın oğlu və Buxara hakimi Əbdüləziz xanın ölümü Büraq sultanda Buxaranı da ələ keçirmək həvəsi yaratdı. Ona görə də Büraq xan Herat ətrafından uzaqlaşmağı özü üçün daha məqsəduyğun saydı və bununla Heratın mühasirəsinə son qoyuldu. Eyni zamanda Xorasan vilayəti də növbəti özbək talanla-

rından nicat tapdı. Bununla belə, mənbə məlumatlarından aydındır ki, Büraq xanın Buxara sövdaları da baş tutmadı. Ondan başqa Bəlx hakimi Pir Məhəmməd xan da Buxaranı ələ keçirmək üçün əməli fəaliyyətə başladı və öz qoşun dəstəsi ilə bu şəhəri nəzarət altına aldı. Büraq xan Buxaraya yaxınlaşanda bu şəhər artıq Pir Məhəmməd xanın nəzarəti altında idi. Büraq xan çox cəhd göstərsə də, Pir Məhəmməd xanın müqavimətini qıra bilmədi və məcburiyyət qarşısında qalaraq geri çəkilməli oldu. Büraq xanın gücü ona çatdı ki, Buxara ətrafındakı məntəqələri qarət etsin və sonra da Daşkəndə yollansın (168).

Özbək qoşunlarının Herat ətrafından uzaqlaşmasından sonra Xorasanın əmirül-ümərası, Sultan Məhəmməd Mirzənin lələsi Məhəmməd xan Şərəfəddinoğlu Qərcistan vilayətini nəzarət altına almaq və bununla həm də Xorasan vilayətinin təhlükəsizliyini daha da möhkəmləndirmək qərarına gəldi. Bu planın həyata keçirilməsi üçün o, oğlu Qazaq sultanın rəhbərliyi altında qoşun dəstəsi formalaşdırdı və bu dəstəni Qərcistandakı Əşbar qalasını tutmağa göndərdi. Qərcistan valisi Bayramoğlan da öz qoşun dəstəsi ilə həmin qalada idi. Qazaq sultanın qətiyyəti qarşısında Bayramoğlan vəziyyətinin çox mürəkkəbləşdiyini gördü və bu vəziyyəti aradan qaldırmaq üçün o, ciddi bir addım ata bilmədi. Çıxış yolunu yalnız onda gördü ki, Qazaq sultanla barışıq etsin. Qazaq sultan əvvəlcə onun yanına göndərilmiş elçiyə Bayramoğlanla barışıq etməyə razı olduğunu bildirdi. Bu məlumatı alandan sonra Bayramoğlan qalanı tərk edib barışıq üçün Qazaq sultanın yanına yollandı. Amma Qazaq sultan onunla barşıqda olmağı məqsədəuyğun bilmədi və Bayramoğlanı qətlə yetirməklə Qərcistan vilayətini nəzarət altına ala bildi (169).

Səfəvi dövləti ilə özbək hakimləri arasındakı gərginliklər sonrakı illərdə də davam etdi. Bu gərginliyi qismən səngitmək üçün 1551-ci ildə Xarəzm hakimi Din Məhəmməd xan bir elçilik heyəti təşkil edib onu yaxın əyanlarından olan Gül Məhəmməd Mirzə adlı birisinin rəhbərliyi altında Səfəvi sarayına göndərdi. Mövcud olan narazılıqlara baxmayaraq, Şah Təhmasib bu heyəti mehribanlıqla qarşıladı və həmin heyətə qarşı sarayda qonaqpər-

vərlik nümayiş etdirdi. Geri qayıtmaq əsnasında Xarəzm elçisinə çoxlu sayda qiymətli hədiyyələr verildi. Eyni zamanda Məşhədin o zamankı hakiminin qardaşı Dindar bəy də özbək elçisi ilə birlikdə Xarəzmə yola salındı. Dindar bəy  Səfəvi şahının qarşılıqlı münasibətlər qurulmasına tərəfdar olması haqqında fikirlərini Din Məhəmməd xana çatdırmalı idi. Şah Təhmasib tərəfindən göstəriş verilmişdi ki, Xarəzm elçisinin keçdiyi bütün şəhərlərdə ona xüsusi qonaqpərvərlik göstərilsin. Elçilər Səbzəvarda olarkən Xarəzm hakimi Din Məhəmmədin vəfat etməsi barəsində şayiə yayılmışdı. Ona görə Səbzəvar darğası Əhməd bəy Şüküroğlu bu şayiəni eşidincə Xarəzm elçisini həbs etmək istədi. Gül Məhəmməd Mirzə də bu xəbəri eşidəndən sonra gizlicə şəhərdən qaçdı. Bu xəbər Səfəvi sarayında qəzəblə qarşılandı. Elçiyə qarşı göstərilmiş hörmətsizliyin yüngülləşdirilməsi məqsədilə Dindar bəy Xarəzmə göndərildi. Lakin elçinin incidilməsi Din Məhəmməd xanın qəzəbinə səbəb olmuşdu və Dindar bəyin gəlişi bu qəzəbi heç də aradan qaldırmadı (170).

Din Məhəmməd xanın dünyasını dəyişməsindən sonra onun yerinə Xarəzm hakimi olmuş qardaşı Əli sultanın (xanın) da Xorasan vilayəti üzərinə bir neçə hücumu həyata keçirilmişdi. Bu hücumlardan biri 1559-cu ildə olmuşdu. Əli sultan öz qoşun dəstəsi ilə Əsfəreyn üzərinə basqın etdi. Həmin məntəqənin hakimi olan Qənbər sultan Asayişoğlu özbək qoşunlarının basqınının qarşısının alınması üçün bütün imkanlarını səfərbər etdi. Lakin qeyri-bərabər döyüşdə qızılbaş dəstəsi uğursuzluğa düçar oldu. Qənbər sultanın oğlu və qardaşı oğlu tutularaq qətlə yetirildilər. Özü isə əsir götürüldü və Xarəzmə aparıldı. Əsfəreyndə ələ keçirilmiş çoxlu sayda əsirlər sonradan pul ödəncləri əvəzində azadlığa buraxıldılar. Qənbər sultan isə Xarəzmdə öz əcəli ilə dünyasını dəyişdi. Onun nəşini də özbəklərdən böyük maliyyə ödənci əvəzində almaq mümkün oldu. Elə həmin Əli sultan öz əmirlərinin rəhbərliyi altında bir qoşun dəstəsini Nişapura göndərdi ki, bu şəhəri qarət etsin. Lakin Nişapur hakimi Budağ xan Qacar özbək qoşunlarına ciddi müqavimət göstərdi və onları geri qayıtmağa məcbur etdi. 1561-ci ildə Əli sultan özü yenidən qoşun

dəstəsi ilə Əsfəreyn və Nişapur üzərinə basqın etdi və həmin məntəqələri qarət edərək böyük həcmdə var-dövlətlə geri qayıtdı. 1563-cü ildə isə özbək qoşunları daha böyük sayda növbəti hücuma başladılar. Həmin il Bəlx vilayətinin hakimi Pir Məhəmməd xan 20 min nəfərlik bir qoşunla Məşhəd ətrafına qədər irəliləyə bildi. Özbək qoşunları Məşhəd şəhərini mühasirə etsələr də Pir Məhəmməd xan onu almağa qətiyyət göstərmədi və Səfəvi şahının cavab zərbəsindən ehtiyat etdi. Bəzi məlumatlara görə, şəhər mühasirəyə alınandan sonra Məşhədin ağsaqqalları və əyanları Pir Məhəmmədin yanına yollandılar və onu şəhər üzərinə hücumdan çəkindirməyə çalışdılar. Pir Məhəmməd də həm Səfəvi dövlətinin qüdrətini, həm də Xarəzmlə Səfəvi sarayı arasında mövcud olan bəzi əlaqələri nəzərə alaraq Məşhədi tutmaqdan imtina etdi. Hətta bu yürüşlə bağlı Səfəvi sarayının qəzəbini soyutmaq üçün dayısı Tülək bahadırı üzrxahlıq üçün Səfəvi şahının sarayına göndərdi. Şah Təhmasib bu elçini mehribanlıqla qarşıladı və Xarəzmlə xoş münasibətlər qurmağa tərəfdar olduğunu nümayiş etdirmək məqsədilə o da öz elçisini Bəlxə göndərdi (171).

Bununla da özbək qoşunlarının Səfəvi hüdudlarına basqınlarına son qoyulmadı. 1563-cü ildə Əli sultan yenidən Xorasan vilayətinə daxil odu və qoşun dəstəsi ilə qarət və talanlara başladı. Onun və qardaşı oğlu Əbu Elxanın rəhbərliyi altında 8 min nəfərlik atlı dəstəsi var idi. Həmin dəstə Məşhəddən başqa Nişapur, Tərşiz, Zavə və digər məntəqələr üzərinə basqınlar etdilər. Lakin qızılbaş dəstələrindən ciddi zərbə aldığı üçün bu dəstə yenidən geri qayıtmaq məcburiyyətində qaldı.

1564-cü ilin sonlarında Şah Təhmasibin oğlu Sultan Məhəmməd Mirzənin lələsi olan Məhəmməd xan Şərəfəddinoğlunun oğlu Qazaq sultan mərkəzi hakimiyyətə qarşı asilik yolu tutdu. Bu da öz növbəsində Xorasan vilayətində hərbi-siyasi vəziyyətin mürəkkəbləşməsinə yol açdı. Həmin vaxt Şah Təhmasib səltənət vəziri Məsum bəy Şixavəndin rəhbərliyi altında 20 min nəfərlik bir qoşun dəstəsi göndərmişdi ki, Nisa və Əbivərd şəhərlərini özbək qoşunlarının nəzarətindən azad etsin. Amma bu qoşunlar

Qazaq sultanın qiyamının qarşısının alınmasına istiqamətləndirildi və ona görə Nisa ilə Əbivərdin azad edilməsi məsələsi təxirə salınmalı oldu. 1565-ci ilin yanvar ayında Qazaq sultan qiyamı yatırıldı. Yalnız bundan sonra bölgəyə göndərilmiş qoşunları özbək qoşunlarının nəzarəti altında olan şəhərilərin azad edilməsinə cəlb etmək mümkün oldu. Səfəvi qoşunları dərhal Xəbuşan istiqamətinə göndərildi və tezkiklə bu şəhər nəzarət altına alındı. Həmin ilin payızında isə Nisa və Əbivərdin nəzarət altına alınması məsələsi yenidən gündəmə gəldi. Şah Təhmasibin göstərişi ilə bu məqsədlə o zaman Məşhəd hakimi olan qardaşı oğlu Sultan İbrahim Mirzənin rəhbərliyi altındakı qoşun dəstəsi Nisa və Əbivərd istiqamətinə göndərildi. Bu qoşunun tərkibində Şah Təhmasibin digər yaxınları, habelə Səfəvi əmirləri və sərkərdələri də var idi. Həmin şəhərlərin nəzarət altına alınmasına Şah Təhmasib də böyük diqqət yetirirdi. Çünki bu şəhərlər Səfəvi sərhədləri yaxınlığında strateji əhəmiyyət kəsb edən məntəqələr idilər. Həmin şəhərlərin nəzarət altına alınması ilə Xorasanın daxili hərbi-siyasi vəziyyətini sabitləşdirmək və müdafiəsini də kifayət qədər gücləndirmək mümkün idi.

Səfəvi qoşunları Əbivərd şəhərini mühasirəyə aldılar. Bu şəhərə hakimlik edən Əbu Elxan, Səfəvi qoşunlarının gücünü gördükdə müqavimət göstərməyin heç də asan olmayacağını anladı. Ona görə də o, Əbivərdi təhvil vermək məcburiyyətində qaldı. Əbu Elxan şəhəri tərk etməzdən əvvəl vəd verdi ki, bir də heç vaxt Xorasan vilayəti üzərinə basqın etməyəcək və hər il Səfəvi sarayına layiq olan hədiyə və töhfə göndərəcəkdir. Bu vəddən sonra Əbu Elxan da sağ-salamat buraxıldı, onun yanında olan qoşun dəstəsi də (172).

Həsən bəy Rumlu bu hadisəni belə qələmə almışdı: “Qızılbaş əmirləri Əmir Qeyb bəyi Heratda qoyub hərəkət bayrağını Nisa və Əbivərd tərəfə yüksəltdilər. Əbülxan zəfər nişanlı qoşunların yaxınlaşmasından xəbər tutdu və bildi ki, müqavimət [göstərməyə] taqəti yoxdur. Bu səbəbdən o, öz abır-həyasını qoruyub, sel güzərgahından (sel kimi gələn qoşunun qarşısından) qalxdı və Əbivərd qalasına sığındı. Ali məqamlı əmirlər qalanı fəth etməyi

qarşıya məqsəd qoydular. Onlar qala ətrafına gəldikdən sonra mühasirəyə və müharibəyə başladılar. Özbək ordusu da müdafiə olunurdu. Əbülxan öz əhval səhifələri üzərində acizlik və əlacsızlıq əlamətlərini müşahidə etdi. Onun qəlbini böyük bir xof və tam dəhşət bürüdü. O, Xorasana basqın etməsindən peşman olub, bəyan sehri ilə ürəklərdən vəhşət düyününü açan, lətif hiylələrlə razılıq quşunu havadan aşağı endirib tora salan, yaxşı nitq qabiliyyətinə malik olan elçiləri əmirlərin yanına göndərərək aman dilədi və and içdi ki, bundan sonra basqınçılığı tərk edib hər il aləmin pənahı olan dərgaha peşkəş göndərəcəkdir. Ona görə də əmirlər qala ətrafından köç edib aləmin pənahı olan dərgaha yollandılar" (173).

Amma bununla da özbək qoşunlarının Xorasan vilayəti üzərinə hücumları dayandırılmadı. 1566-cı ilin əvvəllərində Xarəzm qoşunları yenidən Xorasan vilayəti üzərinə hücuma hazırlığa başladılar. Lakin Xarəzm hakiminin dünyasını dəyişməsi ilə bu hücum baş tutmadı. "Əhsənüt-təvarix" müəllifi Xarəzm hakimi olmuş Əli sultanı "alçaqların hamisi, oğru və quldurun sərdarı olan bir padşah" kimi xarakterizə edirdi. Onun fikrincə, Əli sultanın zülm və tüğyanı günbəgün daha aydın şəkildə özünü göstərməkdə idi. Əli sultanın acgözlüyü, zülmkarlığı, qarət və talanları bütün Xarəzmi bürümüş, insanların fəlakətli günlərinə yol açmışdı. Varlanmaq, sərvət toplamaq ehtirası onun gözünü də örtmüşdü. Elə bu məqsədlə o, bir də səltənət hüdudlarına hücum etmək istəyirdi. Hətta Astarabada yollanmaq üçün Xarəzmi də tərk etmişdi. Ancaq yolda ikən dünyasını dəyişmiş və buna görə də niyyətləri baş tutmamışdı. "Əhsənüt-təvarix" müəllifi onu da əlavə edirdi ki, Əli sultanın ölümündən sonra Xarəzmin hakimi Hacım xan oldu. Məhz bu insanın daha təmkinli siyasəti nəticəsində Xarəzm vilayəti də behest kimi rövnəqlənməyə başladı (174). Bu da Xorasan vilayətinə Xarəzm tərəfdən bir asudəlik gətirdi.

Həmin ilin sonlarına yaxın Buxara hakimi İsgəndər bəyin oğlu Abdulla sultan 12 min nəfərlik qoşun dəstəsi ilə Xorasan vilayəti üzərinə hərəkətə başladı. Mövcud olan bir məlumata

görə, Buxara hakimi öz qoşun dəstəsini Xorasana göndərməkdə məqsədi bu vilayəti qarət etməklə bərabər, həm də Sultan Məhəmməd Mirzəni (Şah Təhmasibin oğlu) əsir götürmək idi. Həmin il Sultan Məhəmməd Mirzənin lələsi Məhəmməd xan Şərəfəddinoğlu da dünyasını dəyişmişdi. Bu hadisə ilə bağlı Sultan Məhəmməd Mirzə vilayəti tərk edərək Səfəvi sarayına yollanmışdı. Şah Təhmasib onu yenidən Xorasan vilayətinin hakimi vəzifəsinə təyin etdi və ona lələlik Şahqulu sultan Yegan Ustaclıya həvalə olundu. Bir müddətdən sonra Sultan Məhəmməd Mirzə öz lələsi ilə Xorasana doğru hərəkətə başladı. Görünür, onları müşayiət edən qoşun dəstəsi elə də böyük deyilmiş və Buxara hakimi də bundan xəbər tutubmuş. Ona görə Buxara hakimi Sultan Məhəmməd Mirzəni də əsir götürmək istəyirmiş. "Əhsənüt-təvarix" əsərində bu hadisə belə təsvir edilmişdir: "Bu il dinin pənahı olan şah Herat hakimliyini Sultan Məhəmməd mirzəyə verdi və Yegan Şahqulu Ustaclunu o cənabın lələsi [təyin] etdi. Onlar Qəzvindən çıxıb Xorasana tərəf yönəldilər. Bu xəbər Mavəraünnəhrə çatdıqda, Buxara padşahı İsgəndər xan öz oğullarını və əmirlərini toplayıb Xorasan vilayətinə basqın barəsində onlarla məşvərət etdi. O səadətsizin əmirləri və dövlət ərkanı ərz etdiər ki, "səfər məşəqqətinə qatlaşaq və Sultan Məhəmməd mirzəyə həmlə edək". Onun övladlarının ən böyüyü və ən şücaətlisi Abdulla xan idi.

…İsgəndər xanın fərmanına əsasən, o, sel kimi qorxunc, dərya kimi şövkətli olan çoxsaylı bir ordu ilə Amudərya çayını keçib Xorasan vilayətinə gəldi. Həmin ordunun hərəkəti [haqqında xəbər] ali məqamlı şahzadəyə çatdıqda əsgərlərin əksəriyyəti dağınıq vəziyyətdə olduğu üçün Türbət qalasına pənah apardı. Özbək qoşunları qala ətrafına gəldilər və qalanın giriş-çıxış yollarını bağladılar. Neçə gündən sonra mühasiblərin fəhminin və katiblərin düşüncəsinin hesablamaqda aciz olduğu qədər ucsuz-bucaqsız qoşunlarla Xorasan əmirləri döyüş və vuruş meydanına yollandılar ki, iti qılıncın köməyi ilə qürur küləyini Abdulla xanın beynindən çıxarsınlar. O əsnada Mustafa bəy Varsağın oğlu Şüca bəy və mülazimi Murad bəy döyüş günü dila-

vərlərindən iyirmi nəfərlə birlikdə vuruşa-vuruşa özlərini qalaya saldılar. Özbəklər qorxaq və hürkək olub, qalanı fəth etməkdən ümidlərini üzdülər. İlk öncə Xosrov sultan köç edib öz diyarına yola düşdü. Ertəsi gün Abdulla xan geri qayıdış təbilini döyəcləyib, hərəkət, bəlkə də, qaçış bayrağını Buxaraya tərəf yüksəltdi. Mürğab çayının kənarına çatdıqda, [onun üzərindəki] körpünü xarab edib köçhaköçlə Buxaraya getdi. Mirzə həzrətləri mühasirə darısqallığından xilas olub Herata yollandı" (175).

Digər mənbələrdə olan məlumatlardan aydın olur ki, Türbət qalasında olan şahzadə Sultan Məhəmməd Mirzənin və onun ətrafında olan qoşun dəstəsinin mühasirədən azad edilməsi üçün Şah Təhmasib tərəfindən də əməli addımlar atılmasına başlandı. Hətta onun özünün də qoşun dəstəsi ilə Türbətə doğru irəliləmək niyyəti var idi və bununla bağlı artıq hazırlıq işlərinə də başlamışdı. Amma Səfəvi şahı özü hərəkətə başlamazdan əvvəl Şüca bəylə Murad bəyi 20 nəfərlik bir dəstə ilə göndərdi ki, onun sözlərini və tapşırıqlarını Türbət qalasında mühasirədə olanlara çatdırsınlar. Şah Təhmasibin tapşırığı belə idi ki, əgər özbək qoşunları üstün gəlsələr Sultan Məhəmməd Mirzənin və onunla olan digər şahzadələrin özbəklərin əlinə düşməsinə imkan verilməsin. Bunun üçün Şah Təhmasib hətta şahzadələrin həyatına qəsd edilməsinə belə razı idi. Şüca bəylə Murad bəy də çox böyük sürətlə özlərini Türbət qalasına yetirdilər. Onların gəlişi ərəfəsində Şahqulu sultan Ustaclı böyük bir intizarla qalaya kömək gəlməsi ümidləri ilə qala divarları üzərindən ətrafı seyr edirdi. Şüca bəylə Murad bəyin dəstəsi yaxınlaşanda Şahqulu sultan şah tərəfindən ona böyük sayda kömək göndərildiyini ehtimal etdi. Özbək qoşunlarının əmirləri də belə ehtimal etdilər ki, qalada olanların köməyinə Şah Təhmasib tərəfindən böyük kömək gəlməkdədir. Mövcud olan məlumatlara görə, Şüca bəylə Murad bəy və onun ətrafında olan döyüşçülər özbək qoşunlarını yarıb qalaya girmək üçün çox böyük fədakarlıq göstərdilər. Onların gəlişi, sözsüz ki, qala daxilində əhval-ruhiyyəni xeyli yaxşılaşdırdı. Mənbə məlumatlarına görə, şahzadənin Türbət qalasında mühasirəyə düşməsi xəbəri eşidilən kimi Xorasanın müxtəlif məntə-

qələrindən, o cümlədən Xəvafdan, Camdan, Baxərzdən, Astrabaddan və digər məntəqələrdən qoşun dəstələri toplanaraq həmin qalaya doğru istiqamət götürdülər. Nəticədə Buxara qoşunları 15 günlük mühasirədən sonra Türbət qalası ətrafında dayanmağı mənasız bilib geri çəkilməyə başladılar (176).

"Əhsənüt-təvarix" əsərində olan məlumata görə, 1570-ci ildə "Özbək sultan ibn Rüstəm sultan ibn Canibəy sultan çoxlu qoşunlarla Xorasan şəhərlərinə basqın etməyə gəlib Cam qəsəbəsində dayandı. O diyarın valisi Zeynal bəy İbrahim xan oğlu Zülqədər cövşən geyən bahadırlardan [ibarət] bir dəstəni onlarla savaşmağa göndərdi. Qazilər imkan qədərincə döyüşdülər. Amma Zeynal bəyin vəkili Həmzə bəy Səncəroğlu qətlə yetirildi. Özbəklər bol mallarla vətənlərinə qayıtdılar. Zeynal bəy Xorasan hakimlərinin yanına yaxşı nitq qabiliyyəti olan adamlar göndərib yardım istədi. O vaxt Əmir Hüseyn və Hacı sultan Kutval təxminən min doqquz yüz nəfərlik yaxşı silahlanmış süvari dəstəsi ilə köməyə gəldilər. Zeynal bəy onların gəlişindən sonra arxayınlaşıb özbək sultanlarının ardınca sürətli yürüş etdi. Hərçənd Əmir Hüseyn və Hacı Kutval dedilər:

- Dövlətin faydası ondadır ki, bu yerdə qalıb öz diyarımızı mühafizə edək.

[Lakin] Zeynal bəy lovğalıq və qürur ucbatından dedi:

- Sizin ürəyinizi tamam qorxu bürümüşdür. Mən bəndə onları qolu bağlı gətirib gələcəyəm.

Ona görə də qazilər o nadan cahilin sözünə aldanıb yola düşdülər. Xatun körpüsündə alçaq özbəklərə çatdılar. Özbək sultan yeddi min cavanla pusquda durub məhdud bir dəstəni [Zeynal bəyin] qarşısına göndərdi. Qazilər onlara həmlə etdilər. Özbəklər yalandan qaçış yolunu tutdular. Özbək sultan qəflətən pusqu yerindən çıxıb qaziləri dövrəyə aldı. Döyüş və vuruşdan sonra yaramaz özbəklər ali mənşəli əmirlərə qalib gəldilər. Zeynal bəy və Əmir Hüseyn cəsarətli igidlərdən min nəfərlə birlikdə ölüm şərbətini içdilər. Hacı Kutval özünü coşqun dənizin təlatümündən nicat sahilinə çatdırdı. Özbək sultan öldürülənlərin başlarını bədəndən ayırıb Əndixud və Şibirğan tərəfə yollandı" (177).

Bununla da özbək və Mavəraünnəh qoşunlarının Səfəvi hüdudlarına, başlıca olaraq Xorasan vilayəti üzərinə hücum və basqınları sona yetdi. Doğrudur, bu hücumlar və basqınlar Xorasan vilayətinə çoxlu dağıntılar gətirdilər, vilayət daxilində hərbi-siyasi vəziyyətin mürəkkəbləşməsinə yol açdılar. Lakin qeyd edilməlidir ki, uzun müddət davam edən bu müdaxilələr dövründə özbək hakimləri onlara tabe olan qoşunlarla birlikdə bölgədə hərbi təşəbbüsü öz əllərinə ala bilmədilər və öz niyyətlərinə də çatmadılar. Şah Təhmasib gördüyü qətiyyətli tədbirlər nəticəsində səltənət sərhədlərini uğurla mühafizə edə bildi. Özbək hakimləri o zaman Xorasan vilayətinə ayaq açdılar ki, ya Şah Təhmasib vilayətdən uzaqda idi, ya da Şah Təhmasibin başı səltənətin digər sərhədlərinin mühafizəsinin təmin edilməsi ilə məşğul idi. Özbək qoşunlarına qarşı apardığı döyüşlərin hamısını Şah Təhmasib qələbə ilə başa vurdu. Bununla Şah Təhmasib özünü həm bir sərkərdə kimi təsdiqlədi, həm də rəhbərlik etdiyi dövlətin qüdrətini ortaya qoydu. Məhz Səfəvi dövlətinin gücü və qüdrəti özbək hakimlərini də Səfəvi dövlətinə qarşı daha təmkinli siyasət yeritməyə sövq etdi.

## 10. İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Rumlu H. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Tərcümə edənlər: Oqtay Əfəndiyev, Namiq Musalı. Kastamonı, 2017, s.447-448
2. Şah Təhmasib Səfəvi. Tarixi sənədlər və məktublar məcmuəsi. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 27
3. Хосейнширази Сейедалиакпер. Военно-политические отношения Маверен нахра и Ирана в XVI в. Диссертация на соискание ученой степени кандидата исторических наук. Душанбе, 2014, с.84
4. Ramazani A. Cəngha-ye tarix-e İran. Tehran, 1391, s. 62
5. Rumlu H. Əhsənüt-təvarix, s.448-449
6. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi.

Tərcümə edənlər – Oqtay Əfəndiyev və Namiq Musalı. I cild. Bakı,2009, s.109
7. Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.60-61
8. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.110
9. Yenə orada
10. Rumlu H. Əhsənüt-təvarix, s.454-455
11. Rumlu H. Əhsənüt-təvarix, s.457
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.110
12. Rumlu H. Əhsənüt-təvarix, s.458
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.111
Rzaqulu xan Hidayət. Tarix-e rövzətüs səfa-ye Naseri. Cild VIII, Tehran, 1380, s.6396
13. Rumlu H. Əhsənüt-təvarix, s.458
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.111
Rzaqulu xan Hidayət. Tarix-e rövzətüs səfa-ye Naseri. Cild VIII, Tehran, 1380, s.6396
İsfahani, Məhəmməd Yusif. Xolde bərin. Tehran, 1378, s.343
14. Rumlu H. Əhsənüt-təvarix, s.458
15.İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.111
16. Aləmara-ye Şah Təhmasib, s.27
Karadağ Çinar, Şülay. Safevi-özbek siyasi ilişkileri ve Osmanlının tesiri (1524-1630). Doktora tezi. Afyon–Karahisar, 2011, s. 60
17. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.111
Karadağ Çinar, Şülay. Safevi-özbek siyasi ilişkileri ve Osmanlının tesiri (1524-1630). Doktora tezi. Afyon-Karahisar, 2011, s. 60

Хосейнширази Сейедалиакпер. Военно-политические отношения Мавереннахра и Ирана в XVI в. Диссертация на соискание ученой степени кандидата исторических наук. Душанбе, 2014, с.87
18. Rumlu H. Əhsənüt-təvarix, s.460-461
19. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 392
20. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.112
Rumlu H. Əhsənüt-təvarix, s.461-462
21. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.112
İsfahani, Məhəmməd Yusif. Xolde bərin. Tehran, 1378, s.345
22. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 390-391
23. Şah Təhmasibin təzkirəsi, s. 21
24. Rumlu H. Əhsənüt-təvarix, s.463-464
25. Əbdi bəy Şirazi. Təkmilətül-əxbar. Bakı, 1996, s. 43
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 394
26. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.113
27. Aləmara-ye Şah Təhmasib, s.38
28. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 394
29. Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.67
30. Rumlu H. Əhsənüt-təvarix, s.465
31. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.114
32. Bax: Cavanşir B. İrandakı türk boyları və boy mənsubu kişiler (Safevi dönemi – I Şah Tehmasb hakimiyyetinin sonuna kadar/1576). (Doktora tezi). İstanbul, 2007, s.217
33. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.114
34. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix-e elçi-ye Nizam şah. Tehran, 1379, s. 102
35. Rumlu H. Əhsənüt-təvarix, s.465
36. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 395

37. Rumlu H. Əhsənüt-təvarix, s.466
38. Yenə orada, s. 465
39. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.115
40. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.395
41. Rumlu H. Əhsənüt-təvarix, s.467
42. Rumlu H. Əhsənüt-təvarix, s.467
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.115
43. Rumlu H. Əhsənüt-təvarix, s.467
44. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.396-397
Qazi Əhməd Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1383, s.182
45. Rumlu H. Əhsənüt-təvarix, s.468
46. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.116
47. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.397
Qazi Əhməd Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1383, s.182
48. Şah Təhmasibin təzkirəsi, s. 22
49. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.116
50. Qazi Əhməd Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1383, s. 183
51. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.397-398
Qazi Əhməd Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1383, s. 183
52. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.117-118
53. Yenə orada, s. 118
54. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.399
Qazi Əhməd Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1383, s.186
55. Şah Təhmasibin təzkirəsi, s. 22
56. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.118
57. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.399-400
58. Rumlu H. Əhsənüt-təvarix, s.469
59. Qazi Əhməd Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1383, s.187-188

60. Yenə orada, s. 150
61. Rumlu H. Əhsənüt-təvarix, s.470
62. Rumlu H. Əhsənüt-təvarix, s.470
Qazi Əhməd Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1383, s.191
63. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.405
64. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.119-120
65. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.404
Xurşah ibn Qubad əl-Hüseyni. Tarix-e elçi-ye Nizam şah. Tehran, 1379, s. 106
Qazi Əhməd Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1383, s.191
Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.73
Хосейнширази Сейедалиакпер. Военно-политические отношения Мавереннахра и Ирана в XVI в. Диссертация на соискание ученой степени кандидата исторических наук. Душанбе, 2014, с.95
66. Хосейнширази Сейедалиакпер. Военно-политические отношения Мавереннахра и Ирана в XVI в. Диссертация на соискание ученой степени кандидата исторических наук. Душанбе, 2014, с.94
67. Şah Təhmasibin təzkirəsi, s. 28
68. Rumlu H. Əhsənüt-təvarix, s.470
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.405
Xurşah ibn Qubad əl-Hüseyni. Tarix-e elçi-ye Nizam şah. Tehran, 1379, s. 106
Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.74
69. Rumlu H. Əhsənüt-təvarix, s.471
70. Rumlu H. Əhsənüt-təvarix, s.472
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.407
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.121
71. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.121
72. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.409

Şah Təhmasib Səfəvi. Tarixi sənədlər və məktublar məcmuəsi. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s.27
73. Rumlu H. Əhsənüt-təvarix, s.472
74. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.122
75. Şah Təhmasib Səfəvi. Tarixi sənədlər və məktublar məcmuəsi. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 28-44
76. Rumlu H. Əhsənüt-təvarix, s.473
Şah Təhmasib Səfəvi. Tarixi sənədlər və məktublar məcmuəsi, s.28
77. Rumlu H. Əhsənüt-təvarix, s.474
Şah Təhmasib Səfəvi. Tarixi sənədlər və məktublar məcmuəsi, s.29
78. Rumlu H. Əhsənüt-təvarix, s.474
Şah Təhmasib Səfəvi. Tarixi sənədlər və məktublar məcmuəsi, s.29
79. Rumlu H. Əhsənüt-təvarix, s.474-475
Şah Təhmasib Səfəvi. Tarixi sənədlər və məktublar məcmuəsi, s.30-31
80. Rumlu H. Əhsənüt-təvarix, s.475
Şah Təhmasib Səfəvi. Tarixi sənədlər və məktublar məcmuəsi, s.31
81. Rumlu H. Əhsənüt-təvarix, s.475-476
Şah Təhmasib Səfəvi. Tarixi sənədlər və məktublar məcmuəsi, s.32-33
82. Rumlu H. Əhsənüt-təvarix, s.476-477
Şah Təhmasib Səfəvi. Tarixi sənədlər və məktublar məcmuəsi, s.33-34
83. Rumlu H. Əhsənüt-təvarix, s.477
Şah Təhmasib Səfəvi. Tarixi sənədlər və məktublar məcmuəsi, s.35-36
84. Rumlu H. Əhsənüt-təvarix, s.478

Şah Təhmasib Səfəvi. Tarixi sənədlər və məktublar məcmuəsi, s.36
85. Rumlu H. Əhsənüt-təvarix, s.479
Şah Təhmasib Səfəvi. Tarixi sənədlər və məktublar məcmuəsi, s.36-37
86. Rumlu H. Əhsənüt-təvarix, s.480-481
Şah Təhmasib Səfəvi. Tarixi sənədlər və məktublar məcmuəsi, s.38-39
87. Rumlu H. Əhsənüt-təvarix, s.481-482
Şah Təhmasib Səfəvi. Tarixi sənədlər və məktublar məcmuəsi, s.40-41
88. Rumlu H. Əhsənüt-təvarix, s.482-484
Şah Təhmasib Səfəvi. Tarixi sənədlər və məktublar məcmuəsi, s.42-44
89. Qazi Əhməd Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1383, s.196-197
Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.80
90. Qazi Əhməd Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1383, s. 197
91. Qazi Əhməd Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1383, s.198-199
92. Yenə orada, s. 200
93. Yenə orada, s. 201-202
94. Yenə orada, s. 204-205
95. Yenə orada, s. 205-207
96. Yenə orada, s. 210
97. Yenə orada, s. 211-212
98. Yenə orada, s. 212
99. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.122
100. Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.85-86
101.Qazi Əhməd Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1383, s.212
102. Rumlu H. Əhsənüt-təvarix, s.487
Rzaqulu xan Hidayət. Tarix-e rövzətüs səfa-ye Naseri. Cild VIII, Tehran, 1380, s.6405
103.Qazi Əhməd Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1383, s.219

104. Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.86
105. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.123
106. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 417
107. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.124
Rzaqulu xan Hidayət. Tarix-e rövzətüs səfa-ye Naseri. Cild VIII, Tehran, 1380, s.6406
Хосейнширази Сейедалиакпер. Военно-политические отношения Мавереннахра и Ирана в XVI в. Диссертация на соискание ученой степени кандидата исторических наук. Душанбе, 2014, s.94
108. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 417
109 Rumlu H. Əhsənüt-təvarix, s.489-491
110. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.126
111. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.126
Rumlu H. Əhsənüt-təvarix, s.492
112. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.126-127
113. Şah Təhmasibin təzkirəsi, s. 86-87
114. Şah Təhmasibin təzkirəsi, s. 88-89
115. Yenə orada, s. 40
116. Rumlu H. Əhsənüt-təvarix, s.500
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 438
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.127
117. Rumlu H. Əhsənüt-təvarix, s.501
118. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 449
119. Rumlu H. Əhsənüt-təvarix, s.501
120. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 449
121. Rumlu H. Əhsənüt-təvarix, s.502
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 441

İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.128
122. Rumlu H. Əhsənüt-təvarix, s.502
123. Yenə orada
124. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 442
125. Qəzvini, Budaq Münşi. Cəvahürül əxbar. Tehran, 1387, s.168
126. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix-e elçi-ye Nizam şah. Tehran, 1379, s. 136
127. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.128
Rumlu H. Əhsənüt-təvarix, s.502
128. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 442-443
129. Rumlu H. Əhsənüt-təvarix, s.502-503
130. Yenə orada, s. 503
131. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.129
132. Rumlu H. Əhsənüt-təvarix, s.504
133. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.129-130
134. Rumlu H. Əhsənüt-təvarix, s.504
Aləmara-ye Şah Təhmasib, s.64-65
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.446
135. Rumlu H. Əhsənüt-təvarix, s.505
Aləmara-ye Şah Təhmasib, s.65-66
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.447-448
136. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.448
Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.96
137. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.449
Хосейнширази Сейедалиакпер. Военно-политические отношения Мавереннахра и Ирана в XVI в. Диссертация на соискание ученой степени кандидата исторических наук. Душанбе, 2014, с.99
138. Rumlu H. Əhsənüt-təvarix, s.505-506
139. Yenə orada, s.506

140. Rumlu H. Əhsənüt-təvarix, s.506
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.451-452
141. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.452
142. Rumlu H. Əhsənüt-təvarix, s.506-507
143. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.131
Rumlu H. Əhsənüt-təvarix, s.509
144. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.453
145. Rumlu H. Əhsənüt-təvarix, s.509
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.454-455
146. Xandəmir. Tarix-e Şah İsmayıl və Şah Təhmasib. Tehran, 1370, s. 183
Rumlu H. Əhsənüt-təvarix, s.509-510
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.456-457
147. Xandəmir. Tarix-e Şah İsmayıl və Şah Təhmasib. Tehran, 1370, s. 183
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.456-457
148. Xandəmir. Tarix-e Şah İsmayıl və Şah Təhmasib. Tehran, 1370, s. 186
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.456-457
Aləmara-ye Şah Təhmasib, s.72
149. Xandəmir. Tarix-e Şah İsmayıl və Şah Təhmasib. Tehran, 1370, s. 187
150. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.458
151. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.460-461
152. Yenə orada, s. 461
153. Yenə orada, s.462-463
154. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.132-133
155. Xandəmir. Tarix-e Şah İsmayıl və Şah Təhmasib. Tehran, 1370, s. 193
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.464
156. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.465
157. Rumlu H. Əhsənüt-təvarix, s.511
158. Rumlu H. Əhsənüt-təvarix, s.512

Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.100
159. Rumlu H. Əhsənüt-təvarix, s.518-519
160. Rumlu H. Əhsənüt-təvarix, s.521
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.479-480
Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.101
161. Rumlu H. Əhsənüt-təvarix, s.526
Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.102
162. Rumlu H. Əhsənüt-təvarix, s.528
Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.102
163. Rumlu H. Əhsənüt-təvarix, s.532
164. Yenə orada, s. 546
165. Yenə orada
166. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər ərse-ye Səfəviyye. Tehran, 1392, s.261
167. Rumlu H. Əhsənüt-təvarix, s.549-550
168. Yenə orada, s. 551
169. Yenə orada
170. Qəzvini, Budaq Münşi. Cəvahürül əxbar. Tehran, 1387, s.206
Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər ərse-ye Səfəviyye. Tehran, 1392, s.262
171. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər ərse-ye Səfəviyye. Tehran, 1392, s.263-264
Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.104-105
172. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər ərse-ye Səfəviyye. Tehran, 1392, s.265
Parsadust M. Şah Təhmasib-e əvvəl. Tehran, 1381, s.105-106
173. Rumlu H. Əhsənüt-təvarix, s.600
174.Yenə orada, s. 601
175. Yenə orada
176.Qazi Əhməd Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1383, s.457
177. Rumlu H. Əhsənüt-təvarix, s.610-611

# III FƏSİL

# SƏFƏVİ-OSMANLI MÜHARİBƏLƏRİ

## 1. Şah Təhmasibin hakimiyyəti dövründə Səfəvi-Osmanlı münasibətlərinin xarakteri

Şah Təhmasibin hakimiyyətə gəlişi Osmanlı taxt-tacında da dəyişikliyin olmasından az sonra baş vermişdi. Bu dəyişikliklər hər iki dövlətin tarixində yeni bir səhifənin açılması demək idi. Ona görə hər iki dövlətin daxili və xarici siyasətində müəyyən dəyişikliklərin baş verməsi gözlənilən idi. Bununla belə, Şah Təhmasibin hakimiyyətə gəlməsindən sonra Səfəvi-Osmanlı dövlətlərinin qarşılıqlı siyasətində nəzərəçarpacaq bir dəyişiklik gözə çarpmadı, Şah İsmayıl və Sultan Səlim dövründə bu dövlətlər arasında mövcud olan gərginlik yeni şəraitdə də qalmaqda davam edirdi.

Şah Təhmasibin hakimiyyətə gəldiyi zaman Osmanlı sultanı Qanuni Sultan Süleyman idi və onun taxta çıxması Şah İsmayılın hakimiyyəti illərinə təsadüf edirdi. Doğrudur, Şah İsmayılın hakimiyyəti illərində iki dövlət arasında silahlı qarşıdurma baş vermədi. Sultan Süleyman tərəfindən ilk növbədə Osmanlı dövlətinin maraqlarına cavab verən bir sıra siyasi-iqtisadi xarakterli addımlar atıldı ki, bu addımlar da iki dövlət arasında münasibətlərin mülayimləşməsinə yol aça bilərdi. Lakin həmin addımlar dövlətlər arasında siyasi münasibətlərin yenidən formalaşmasına zəmin yaratmadı.

Qanuni Sultan Süleyman atası Sultan Səlimdən fərqli olaraq ciddi bir rəqabətlə rastlaşmadan Osmanlı taxtına sahib olmuşdu. 1494-cü ildə Trabzonda anadan olmuş Sultan Süleyman atasının yeganə oğlan övladı idi və ona görə də Sultan Səlim 1520-ci ildə dünyasını dəyişəndə taxt-tacın yeganə varisi idi. Hələ taxta çıxmazdan əvvəl Sultan Süleyman müəyyən idarəçilik təcrübəsinə malik idi. On beş yaşında ikən o, Şəbinqarahisar sancağının hakimi təyin edilmişdi. Sonradan isə Sultan Süleyman Bolu və Küfə

sancaqlarının hakimi vəzifəsinə də təyinat almışdı. Sultan Səlimin dünyasını dəyişdiyi zaman Sultan Süleyman artıq Manisa sancaq hakimi (bəyi) olmuşdu və 8 il bu vəzifəni icra etmişdi (1).

Qanuni Sultan Süleyman Osmanlı tarixinin uğurlu hakimlərindən biri idi və onun hakimiyyətinin uğurlarının əsası, əslində, atası Sultan Səlim zamanında qoyulmuşdu. O, Osmanlı sultanlarının fatehlik tarixini davam etdirməklə dövlətin sərhədlərini böyük miqyasda genişləndirə bilmişdi. Sultan Səlim özündən sonra böyük ərazilərə malik olan bir dövləti və bu dövlətin sütununu təşkil edən çox güclü bir qoşunu Sultan Süleyman üçün miras qoymuşdu. Sultan Süleymana qalan miraslardan biri də Səfəvi dövləti ilə gərgin münasibətlər idi. Məlum idi ki, Səfəvi dövləti tərəfindən fərqli məzhəbin rəsmi səviyyəyə qaldırılması və bu məzhəbin tərəfdarlarının yalnız Səfəvi hüdudlarında deyil, elə Osmanlı hüdudlarında və çevrəsində də artması Osmanlı dövlətinin mövcudluğu üçün səssiz və tüstüsüz yayılan bir təhdid idi. Ona görə də Sultan Süleyman taxta çıxanda Səfəvi dövlətinə qarşı atası tərəfindən hazırlığına başlanmış müharibəni davam etdirməsə də, bu müharibənin aparılması zəruriliyini də yaddan çıxarmadı.

1520-ci ilin sentyabrında taxta çıxan 26 yaşlı Sultan Süleymana Şah İsmayıl tərəfindən dərhal təbrik məktubunun göndərilməməsi də Səfəvi-Osmanlı münasibətlərinin gərginləşməsinin göstəricisi idi. Şah İsmayıl tərəfindən təbrik məktubu məlum olduğu kimi, bir də 1522-ci ildə göndərildi. Həmin il Sultan Süleyman Avropa istiqamətində başladığı hərbi yürüşü uğurla başa vuraraq geri qayıtmışdı. Şah İsmayıl təbrik məktubunu çatdırmaq üçün İstanbula xüsusi bir elçilik də göndərmişdi (2).

Sultan Süleyman bu məktuba gec də olsa cavab yazdı və həmin məktubu elə Səfəvi elçisi vasitəsi ilə Şah İsmayıla göndərdi. Atasından fərqli olaraq Sultan Süleyman ona məktub gətirmiş Səfəvi elçisini həbs etdirmədi və ona statusuna uyğun olan hörmət göstərildi. Məktubunda da Osmanlı sultanı Şah İsmayıla qarşı xüsusi narazılıq doğura biləcək ifadələrdən istifadə etmədi. Ancaq Sultan Süleyman Səfəvi dövlətinə qarşı dostluq yolunu da

tutmadı. Şah İsmayılın vəfatından sonra onun Gilan hakiminə yazdığı məktubun məzmunu da göstərirdi ki, Sultan Süleyman şərq sərhədləri boyunca fərqli məzhəbə mənsub olan bir dövlətin mövcudluğu ilə barışmaq niyyətində deyil (3).

Mütəxəssislərin fikrincə, Səfəvi-Osmanlı münasibətlərinin gərgin vəziyyətdə olmasını şərtləndirən bir sıra məqamlar var idi ki, onlar qalmaqda davam edirdi. Həmin məqamlar bunlardan ibarət idi: ərazi iddiaları və ya sərhədlərin genişləndirilməsi istəyi; hər iki dövlətin daxili səbatsızlığı; müəyyən qüvvələrin dövlətə sədaqətsizliyi və onların qarşı tərəflə əməkdaşlığı; məzhəb ayrılığı; Avropa dövlətlərinin müdaxilələri, iqtisadi maraqlar və s. (4).

Səfəvi sarayı ilə Osmanlı dövləti arasında başlıca gərginlik mənbəyi isə sözsüz ki, siyasi maraqlar olaraq qalmaqda idi. Osmanlı dövləti ilə Səfəvi dövləti şərqin iki böyük dövləti kimi dünya səhnəsində yer almışdılar. Bu dövlətlərin hər ikisinin mövcudluğu güc üzərində bərqərar olmuşdu. Sultan Süleymanın dövründə də Sultan Səlimin dövründə olduğu kimi, dövlət sərhədlərinin genişləndirilməsi və fatehllik yürüşlərinin davam etdirilməsi dövlət siyasətinin mərkəzində dayanırdı. Osmanlı dövlətinin qərb və şimal sərhədləri Avropada Vyana qapılarına qədər genişlənmişdi. Cənubda isə onun sərhədləri Qırmızı dənizə qədər uzanırdı. Osmanlı dövləti bununla da kifayətlənmirdi. Sultan Süleyman Bəsrə körfəzindən keçməklə Hind okeanına çıxmaq və Yaxın Şərqin ən böyük gücünə və dövlətinə çevrilmək istəyirdi. Bu böyük coğrafiyada Osmanlı dövlətinin daha çox ehtiyatlandığı dövlət məhz Səfəvi dövləti idi. Həmin dövlətin Osmanlı qoşunları ilə apardığı döyüşlər zamanı itirdiyi əraziləri qaytarmağa çalışması, habelə bölgənin qüdrətli dövlətinə çevrilmək istəyi Osmanlı maraqlarına heç də cavab vermirdi. Sultan Süleyman üçün gizli deyildi ki, Səfəvi dövlətinin güclənməsi və onun fərqli məzhəbə dayaqlanan siyasi-ideologiyasının əhatə dairəsinin genişlənməsi Osmanlı dövlətinin bölgədəki üstün mövqeyinə ciddi zərbə vura bilər. Kifayət qədər geniş sərhədlərə malik olan Osmanlı dövləti üçün Səfəvi dövlətinin mövcudluğu həssas bir mə-

sələ idi və ona ciddi zərbə vurulması ilə Osmanlı üçün mövcud olan təhlükəni də məhdudlaşdırmaq olardı.

Bununla belə, Sultan Süleyman, qeyd edildiyi kimi, iki dövlət arasında mövcud olan bəzi narazılıqların aradan qaldırılamsı üçün müəyyən addımlar da atdı. Belə addımlardan biri atası Sultan Səlimin Təbrizdən gətirdiyi 600 evlik əsirlərə onun azadlıq verməsi oldu. Həmin əsirlərə bildirildi ki, arzu etdikləri təqdirdə  öz yurdlarına qayıda biləlVər. Geri dönmək istəməyənlərə isə Osmanlı ərazisində sərbəst yaşamaq hüququ verildi. Bundan başqa Səfəvi ərazilərində istehsal olunan ipəyin Osmanlı ərazisindən daşınmasına qoyulan qadağa da Sultan Süleyman tərəfindən aradan qaldırıldı. Səfəvi xəzinəsinə ipək ticarətindən daxil olmaların məhdudlaşdırılması üçün ipək ticarətinə qoyulan qadağalar elə Osmanlı tacirlərinin özlərinə də ziyanlar gətirirdi. Mövcud qadağalara baxmayaraq Səfəvi ipəyi ilə ticarət etdiklərinə görə bir çox tacirlər həbs edilmişdi ki, Sultan Süleymanın əmrinə əsasən, onlar da həbsdən azad edildilər. Bununla bağlı ziyan görən tacirlərə hətta ziyanları da geri qaytarıldı. Səfəvi dövləti ərazisinə qiymətli metalların, odlu silahların satılmasına qoyulmuş qadağa da Sultan Süleyman tərəfindən aradan qaldırıldı. Səfəvi elçilərinin öldürülməsi və həbs edilməsi, Səfəvi tacirlərinə Osmanlı ilə ticarətə qadağalar tətbiq edilməsi də Sultan Süleymanın taxta çıxması ilə ləğv edildi (5).

Sultan Süleyman görünür ki, Şah Təhmasibin taxta çıxmasından sonra ona məktub göndərəcəyini gözləyirmiş. Bu məktubla Şah Təhmasib Səfəvi taxtına çıxmasını bəyan etməli və Osmanlı sarayına öz münasibətini ifadə etməli idi. Amma Şah Təhmasib bunu etmədi və taxta çıxması haqqında Osmanlı sarayına məktub və elçilik heyəti göndərmədi. Ehtimal olunur ki, Şah Təhmasibin Osmanlı sarayına elçilik göndərməməsi Osmanlı sarayının Səfəvi dövlətinə qarşı yürütdüyü kəskin siyasətlə bağlı idi. Yəni Osmanlı sarayı Səfəvi dövlətinə düşmən gözlə baxmaq siyasətindən əl çəkməmişdi və həmin siyasətin ciddi dəyişikliyə uğraması haqqında da lazımi addımlar atılmırdı. Şah Təhmasibin taxta çıxması haqqında Osmanlı sarayına məktub göndərmədə-

sinə görə Sultan Süleyman da ona təbrik məktubu göndərməmişdi. Şah Təhmasibin Osmanlı sarayına qarşı təmkinli münasibətdə olduğunu görəndə Sultan Süleyman 1525-ci ildə, yəni Şah Təhmasibin taxta çıxmasından bir il sonra ona məktub göndərdi. Təhdid və qəzəb dolu məzmuna malik olan həmin məktubla Sultan Süleyman Səfəvi dövlətinə qarşı Osmanlı sarayının hansı siyasət yeridəcəyinin istiqamətlərini açıqladı. Həmin məktubdan məlum olurdu ki, Osmanlı sarayı yenə də Səfəvi dövlətinin mövcudluğuna barışmaz münasibət bəsləməkdədir. Sultan Süleyman atası Sultan Səlimin Şah İsmayıl hakimiyyətinə qarşı barışmaz münasibətdə olduğunu xatırlatmaqla Şah Təhmasibə qarşı da həmin münasibətin davam edəcəyini və bu münasibətin davamı kimi Səfəvi dövlətinə qarşı müharibə aparılmasına hazırlaşmaqda olduğunu bəyan edirdi: “Təhmasib bahadır ərşədüllah-ül mülk əlqadir misal bimisal vacibül əmsala vasil olacaq. Məlum ola ki, bundan əqdəm səidül həyat və şəhidül mümmat mərhum babam Sultan Səlim əleyhül rəhmətə vəl rizvani nəşiman fanidən sarayi baqiyə intiqali irtiğal edib. ...Padşahane Dara ayin və xosrovane sahibe təmkine sədeye gərdun nişani turabənə yüz sürüb dərqahi cəhan pənahimə izhari übudiyyət və imtisal qılmışdır. İmdi sən dəxi sədəmati-sərsər qəhrəmani və sotut və dəhşət ayat-i itabımdan şəme müşahidə eyləyib morği ruhi bifotuhun cəngəl şahin əcəl pərvazdan xilas və münqari şahbazi bülənd pərvazdan mənas bulmuş oğlu şikari məzayidin ərseye aşub cəngdə fəzayi vəsi cahan başına təng görünüb mərdani ədüvköş və səfşekən və lüleyi tüfəng və zərbzəni xoruşəfkən vücudi bisudəni sərasimə edib ləşgəri şəyatin rəhbərin “yövmi firəlmərə min axiye” ayətin müşahidə eyləmişlərdi. Lakin əba və əcdadi ali nejadımın təbayi mühümmüdət bədayelərində kəmali mürmət və nəhayət atifət və vüfuri şəfqət və rafət rakəz və müqərrər olub qaçanı qovmağ və zəbunu öldürmək adəti mərziyə və qaideyi məlufələri olmağımın nöqteyi vücudi xəbasət aludəgi tiğbəran əsagər zəfər müəssərlə səfheye ruzgardan izalə ... mümkün və müyəssər ikən... İmdi habir və ona olasız ki, inami əzimət zəfərqıranım sənin üzərinə münatif olub əsgəri zəfər rəhbərin hücum nüsrət mərsumları

vilayətindədir. Müqəddimeyi tənbihi əhval karzar şemie mərdiyyeyi dilavərani namdaran olmağın sənə dəxi elan olundu. Belə bil ki, güruhi ənbuh kuhi şekuh vilayətinə daxil olub xaniman və məmləkətin tarac etmədən taci ilhad rəvacın başından çıxarıb təriqeyi əcdadına salik olub ibdalvar nəmud geyib zaviyeyi dərvişi və məskənəttə və təkyeyi məzəllətdə münzəvi olub... Əgər təbiəti zəlalət sərşekəndeyi zərreye qədre cəladət və qeyrət olaydı çoxdan həlak olurdun. Pəs bunun kimi inayətimizə məzhər düşüb qılıncımız altında can hərasinə aman verildi. Nə üçün dərgahi cəhanpənah və bargahi fələk iştibahimizə adam göndərib ərzi übudət və cansepari və izhari riqqət və xaksepari etmədin. Bu nöqsan ağıl ilə tamam qürurun daireyi zəlalətdən ədəm ödülün olmağın inşaallahülizze və vəlikram, bənim dəxiənqərib diyari şərqə təvəccühü hümayun və əziməti meymunimə vacib və bais oldu. Otaqi gərdun nitaq əraziye Təbriz və Azərbaycan, bəlkə məmaliki İran və Turan və sair vilayəti Səmərqənd və Xorasan səhralarında qurulmaq müqərrər oldu. Bu zamana kimi təxirə səbəb əqsayi məmaliki məhmiyyədə küffari Engürüs və Əfrəncdə vaqe olan Belqrad və Rodos ki, müəzzimati qələ rəb məskun olub hər biri əcubeye dəhri büqələmun idi" (6).

Bu yazılanlardan göründüyü kimi, Sultan Süleyman çox böyük hikkə və iddia ilə Şah Təhmasibə müraciət edirdi. Osmanlı sultanı taxta yenicə çıxmış azyaşlı Səfəvi şahını təhqir etməkdən və aşağılamaqdan belə çəkinmirdi. Onun iddiasına görə, Şah Təhmasib onun bölgədəki üstün mövqeyi ilə razılaşmalı və onunla hesablaşmalı idi. Sultan Süleyman məktubunda Şah Təhmasibin hələ sağ qalmasını da az qala öz lütfi kimi dəyərləndirirdi. Sultan Süleymanın yazdığına görə o, nəinki Səfəvi torpaqlarını, hətta Turanı, Səmərqəndi də ala bilərdi və belə bir niyyətdə olmasını da heç gizlətmirdi. Lakin üzünü Avropaya çevirməsi onun Səfəvi torpaqlarını fəth etməklə Turana doğru irəliləməsini təxirə salmışdı.

Dövrün yazışma ənənələrinə uyğun olaraq kifayət qədər mürəkkəb bir dildə olan məktubunda Sultan Süleyman daha sonra yazırdı: "İndi xəbir və agah olasız ki, ənani əzimət zəfərqəranım

sənin üzərinə münətif olub. Əsgəri zəfər rəhbərin hücumi nüsrət mərsumları vilayətinə... olmağın sənə dəxi elan olundu". Sultan Süleyman sonra da bəyan edirdi ki, müharibə başlanmasının əvvəldən elan olunması adət olduğu üçün bu barədə Şah Təhmasibə məlumat verir və sonra da onu başlayacağı müharibəyə hazır olmağa çağırırdı. O öz qələbəsinə şübhə etmədiyi üçün Şah Təhmasibə də çatdırırdı ki, bu reallıqla barışsın. Şah Təhmasibə məsləhət bilinirdi ki, döyüşmək əvəzinə atalarının dərviş paltarını geyinsin və başındakı tacını kənara qoyaraq dərvişlərlə birlikdə zaviyəyə çəkilsin. Əks təqdirdə Sultan Süleyman saysız qarışqanı xatırladan Osmanlı qoşunu ilə Səfəvi ərazilərinə böyük bir hücum təşkil edəcəyini bildirirdi. Onun sözlərinə görə, bu qoşunların, ildırım kimi od saçacaq topların gurultusu qarşısında Şah Təhmasib bir iş görə bilməyəcək və Firon və Nəmrud kimi ağır bir nəticə ilə qarşılaşacqdı. Sultan Süleyman məktubunun sonunda ona cavab verilməsini tələb etməklə yanaşı bir daha Şah Təhmasibi təhdid edirdi: "Ərsən vaxtına hazır olasan" (87.

Sultan Süleymanın özü də qeyd etdiyi kimi, bu məktubu göndərməklə, əslində, Səfəvi dövlətinə qarşı müharibə elan edirdi. Şah Təhmasibdən tələb olunurdu ki, o ya dərviş paltarını geyinib taxtdan imtina etsin və bununla da öz həyatını salamat saxlasın, ya da müharibəyə başlasın. Bu müharibənin necə başa çatacağını da Sultan Süleyman öz məktubunda proqnozlaşdırmışdı. Yəni Səfəvi dövləti süquta uğradılmaqla Osmanlı qoşunları Turana çıxacaq, Səmərqənddə və Xorasanda Osmanlı qoşunlarının düşərgəsi salınacaqdı. Heç şübhəsiz ki, belə iddialı olmağın arxasında yalnız Sultan Süleymanın güclü Osmanlı qoşunlarına dayaqlanması dayanmırdı. Yəqin ki, Şah Təhmasibin kifayət dər kiçik yaşda olması, onun hakimiyyət təcrübəsizliyi, eləcə də qızılbaş əyanları arasında şiddətlənməkdə olan çəkişmələr Şultan Süleymanın uğur qazanmağa olan əminliyini daha da artırırdı. Ona görə də 1525-ci ildə Osmanlı qoşunlarının Səfəvi hüdudlarına hücumu gözlənilən idi. Həmin hücumla həm də Sultan Səlimin ölüm qabağı Səfəvi dövləti üzərinə hücum etmək arzularını həyata keçirmək olardı.

Mənbələrdə olan bəzi məlumatlar da Sultan Süleymanın ciddi şəkildə Səfəvi dövləti üzərinə hücuma başlamaq barəsində düşündüyündən xəbər verir. Belə ki, Sultan Süleyman 1525-ci ilin iyul ayında Diyarbəkr bəylərbəyi Xosrov paşaya məktub yazmış və onun da bu hücuma hazırlaşmasını tapşırmışdı. Həmin məktubda deyilirdi: "...Əl Məlikül-Əlləm Diyarbəkr bəylərbəyisi Xosrov idamullahi təala iqbalını tərki rəfiə hümayun vasil olacaq məlum ola ki, haliya dərgahi gərdun iktidar və barəkə aləm mədarıma məktub göndərib Sərdari zenadika zamanı Şah məkhurun püsərna xələfi ələn Təbrizdə olduğunu və canibi Xorasan və Bağdada mütəaliq olan əhbarını və s. sərhədlərdə olan müahidə dəxi yerli yerində mütəməkkin olub bu canibə hərəkətləri və cünbüşləri yok idügün və üləmayi Təbriz canibindən dəxi varid olan məktubunu eyni ilə irsal eylədügün və məhzulü məzburun... Dəhi ətəbəyi üləma gəlib ümərayi əkradın istinayi səadət aşıyanıma tamam məhəbbət və ixlas və kəmali übudiyyət və ixtisasların təcdid və təmkid qılıb din və dövlət babında mərdi mərdanə olub taifeyi qızılbaş bəd məaşın qala və qəy xüsusunda bu dəfə vilayəti şərqə varıldıqda taifeyi məqhurəyi məzburanın bilkülliyə umurları tamam olub vücudu mərdudlarından ol diyar bittamam təthir qılınmadıqca övdət olunmaya" (8).

Osmanlı qoşunlarının odlu silaha malik olması, habelə özbək hakimlərinin şərqdən səltənət hüdudlarına hücuma başlaması Osmanlı dövlətinin planlarının uğurla tamamlana biləcəyinə əlverişli zəmin yarada bilərdi.

Bu məqsədlə Osmanlı dövləti Səfəvi dövlətinin şərqində yerləşən özbək xanları ilə də sövdələşməyə getməyi məqsədəuyğun hesab edirdi. Özbəklərlə Səfəvi dövlətinə qarşı ittifaq yaradılması, əslində, Sultan Səlimin dövründən başlamış bir siyasət idi. Sultan Süleyman da bu siyasətin məqsədəuyğun olduğunu qəbul edirdi. Çünki sünni məzhəbinə mənsub olmaqla həm Osmanlı sarayı, həm də özbək xanları və hakimləri onların arasında şiəməzhəb bir dövlətin mövcudluğunu istəmirdilər. Səfəvi dövlətinin mövcudluğu Osmanlı dövləti və özbək hakimləri üçün yalnız siyasi təhlükə deyildi. Səfəvi dövləti həm də şiəliyin daşıyıcısı

kimi həm Osmanlı sarayı tərəfindən, həm də özbək hakimləri tərəfindən qəbul edilmirdi. Ona görə Sultan Süleyman çalışırdı ki, özbək xanlarının və hakimlərinin imkanlarını müəyyənləşdirsin. Bu məqsədlə özbək hakimlərinin yanına Osmanlı elçiləri göndərilmişdi (9).

Amma bu hücum baş tutmadı. Çünki Sultan Süleyman yenidən diqqətini Avropa cəbhəsinə yönəltməli oldu. Şah Təhmasiblə münasibətlərin gərginləşdiyi vaxt Osmanlı qoşunları artıq Avropaya doğru istiqamət götürmüşdü. Belqrad qalasının və Rodos adasının fəthinin ardınca Sultan Süleyman Avropadakı fəthlərini davam etdirmək və Macarıstanı da ələ keçirmək niyyətində idi. Bu məqsədə nail olunması üçün əvvəlcə Osmanlı vəziri-əzəmi İbrahim Paşa Avropaya doğru hərəkətə başladı. Sonradan 100 min nəfərlik Osmanlı qoşunu Avropaya doğru yola düşdü. Mövcud olan məlumatlara görə, Osmanlı qoşunları Sultan Süleymandan daha əvvəl Avropaya doğru hərəkətə başlamışdı və 1525-ci il avqust ayının 29-da Mohaç ovasında Osmanlı qoşunlarının növbəti uğurlu döyüşü baş verdi. Osmanlı qoşunlarının hücumunun qarşısını almaq üçün Macar kralı II Lui Avropa ölkələrinin başçılarına müraciət etdi və onlardan kömək istədi. Bu müraciətdən sonra Almaniyadan, Polşadan, Çexdən, İtaliyadan və İspaniyadan toplanan 70 min nəfərlik qoşun dəstəsi Osmanlı qoşunları qarşısında müqavimət göstərə bilmədi və Sultan Süleyman fateh kimi növbəti böyük zəfərini yaşadı (10).

"Əhsənüt-təvarix" əsərində də Osmanlı qoşunlarının Budapeştdən 190 km cənubda, Dunay çayının sahillərində yerləşən Mohaç ovasındakı döyüşü barəsində müxtəsər məlumat vardır. Həmin əsərdə deyilir: "Bu il Rum padşahı Sultan Süleyman o hüdudun və o ölkənin qoşununu cəmləyib Engirüs diyarına yollandı. Rumilər dəstə-dəstə yola çıxdılar. Tuna (Dunay) çayının kənarına çatdıqda xondgar hökm etdi ki, çayın üstündən körpü salsınlar. Tabeçilər dərhal məharətli əllərini işə saldılar və mötəbər bir körpü hazırladılar. Rumilər [onun üzərindən] keçdilər. Afrendiş Kral[Macar kralı II Lui] və Erdel Ban[Erdel vilayətinin hakimi Yanoş Zapolyo-Macar kralı II Luinin oğlu] Tuna çayının

kənarında, Mohaç mövqeyində öz ordularını toplamışdılar. Bütün topları və arabaları öndə yerləşdirmiş, öz yerlərini möhkəmlətmiş, müharibəyə və vuruşmaya hazır vəziyyətə gəlmişdilər. Xondgar əksəriyyəti qaniçən olan çoxlu ordu ilə səf bağlayıb [onların] yaxınlığına çatdıqda, kafirlərin qoşunları süvar olub döyüşə üz tutdular. Tüfəngçilər həmin üzüqaranın (kralın) ordusunun önündə durub savaşa və vuruşa hazır idilər. Bu tərəfdən isə xondgar iltifat şəfəqini ordunun tərtibi üzərinə saldı. Onun işarəsi ilə İbrahim paşa sağ cinahda ("meymənə"də) qərar tutdu. Sol cinahda ("meysərə"də) Qasım paşa, Fərhad paşa və Əli paşa dayandılar. Yerin sütunları silahların və minik heyvanlarının yükündən laxladı və atların nallarının zərbəsindən asimanın tavanı silkələnməyə başladı. [Yerdən qalxan] toz-torpaq fələklərin qübbəsinə çatdı. Sıx tozanaqdan havanın üzündə tutqun bir bulud, bəlkə də, digər bir zəmin peyda oldu

...Afrendiş öz qoşunu ilə Rum ordusunun sol cinahına ("cəvanğar"ına) həmlə edib, onları yerlərindən dəbərdərək xondgarın mərkəzinə çatdı. Erdel Ban iti qılınc zərbəsi və atəş yağdıran nizə həmləsi ilə İbrahim paşanı məğlub etdikdən sonra o da xondgarın mərkəzinə çatdı. Yeniçərilər və topçular hamısı birdən Firəng qoşununa top və tüfəng atdılar.

…Gözə tikiş vura bilən oxlar zirehin halqasını cövşənin kisəsinə tikirdi. Ölüm tüfəngi güc-qüvvət ildırımının yara atəşi ilə savaş ərlərinin və adlı-sanlı igidlərin ciyərini yandırırdı. Döyüş meydanındakı yeniçərilərin zərbzəngləri ruh quşunu bədən qəfəsindən ruhlar aləminin fəzasına pərvazlandırırdı. Sultan Süleyman kəskin xəncəri qınından sıyırıb mərkəz qoşunu ilə düşmənə həmlə etdi.

…Firəng dilavərləri və döyüş meydanının şöhrətliləri sabitqədəmlik edib ox və kamana, qılınc və nizəyə əl atdılar və həmlə etdilər. Kəskin qılınc dəbilqənin başından ta zirehin ətəyinə qədər qəbanı və xəftanı qızılgül və lalə kimi [qırmızı qana] boyayaraq yarıb keçirdi. [Tökülən] qan nilufərin çöhrəsinə qırmızı söyüd rəngi verirdi və zəminin xalçasını səndəl ağacının suyundan daha əlvan edirdi.

…Çoxlu qırğından və savaşdan sonra küfr və zəlalət qoşunları döyüş və vuruş səfindən geri çəkilməyə başladılar, Rum ordusunun gücü və dəhşəti səbəbindən hərb meydanından qaçış biyabanına çıxdılar və yetərincə sürətlə, son dərəcə tələskənliklə qaçaraq yoxuşda və enişdə bir an belə yüyəni dartmadılar.

…O əsnada Fərhad paşa Anadolu qoşunu ilə [düşməni] təqib edib onlara qılınc vururdu və onların damarını qoparırdı. Elə bu zaman kafirlərin sultanlarından olan birisi arxadan köməyə gəlirdi. Kafirlər zənn etdilər ki, bu, onların arxasına keçmiş Rum ordusudur və hamısı birdən pərakəndə şəkildə qaçıb dağılışdılar. Rum ordusu onları izləyib kafirlərdən bir çoxlarını qətlə yetirdi. Rumilərin əlinə çoxlu qənimət keçdi və onlar Engirüs vilayətinin paytaxtı olan Budin şəhərinə yola düşdülər. Afrendişin oğlu bol peşkəşlərlə xondgarın yanına gəldi və şəhərlə qalanı təslim etdi. Xondgar o diyarın idarəçiliyini ona tapşırıb İslambola geri qayıtdı" (11).

Başqa sözlə Sultan Süleyman tətbiq etdiyi çevik taktika ilə Macar kralının ətrafında toplaşmış olan qüvvələrə ağır zərbə vurdu. Mövcud məlumatlara görə, bu ağır döyüşdən canını qurtarmağa çalışarkən Macar kralı bataqlıqla qarşılaşmış və burada öz atının altında qalaraq dünyasını dəyişmişdi. Bu döyüşün nəticələri barəsində etdiyi qeydlərində Sultan Süleyman yazırdı ki, Osmanlı qoşunlarının əldə etdiyi uğur zamanı qarşı tərəfin qoşunlarından 20 min nəfər piyada və 4 min nəfər atlı məhv edilmiş və 10 min nəfərlik bir qoşun dəstəsi isə əsir edilərək İstanbula göndərilmişdi. Bu döyüşdən sonra Sultan Süleymanın qərarı ilə Macarıstanın krallığı II Luinin oğlu Yaoş Zapolyaya həvalə edildi (12).

Məhz bu döyüşə yollanması Sultan Süleymanın Səfəvi dövləti üzərinə hücumunu təxirə salmalı oldu. Səfəvi dövləti üzərinə hücumla bağlı növbəti fatehlik planlarına nail olmaq üçün Sultan Süleyman yaxın vəzifə kimi Osmanlı-Səfəvi sərhədini Fərat çayı üzərinə gətirməyi və Anadoluda Səfəvi təriqət təbliğatının güclənməsinin qarşısını almağı müəyyənləşdirmişdi. Qeyd edilməlidir ki, hakimiyyətinin elə ilk illərində Sultan Süleyman bu təh-

lükə ilə qarşılaşmalı olmuşdu. Mövcud olan məlumatlara görə, Osmanlı qoşunlarının Avropada müharibələr etdiyi zamanda belə Səfəvi təriqət tərəfdarları Anadolu daxilində şiəliyin yayılması üçün fəaliyyət göstərirdilər. Başqa sözlə, Osmanlı dövlətinin daxildən zəiflədilməsi istiqamətində Səfəvi təriqət tərəfdarları tərəfindən məqsədyönlü fəaliyyət davam edirdi (13).

Əslində, bu fəaliyyətin Səfəvi sarayı tərəfindən idarə olunmasını da istisna etmək olmazdı. Yəni həm Şah Təhmasibə, həm də Səfəvi təriqət xanəgahına məlum idi ki, qüdrətinin ən yüksək mərtəbəsində olan Sultan Süleymanın Səfəvi hüdudlarına hücum etmək və hətta Səfəvi dövlətini süquta yetirmək planları vardır. Ona görə Səfəvi sarayının da öz maraqlarının müdafiəsi üçün müəyyən vasitələrə əl atacağı təbii idi. Bu vasitələrdən biri müttəqfiq axtarışı oldusa, digəri də Osmanlı daxilində müxalifətçiliyin gücləndiriməsi cəhdi oldu. Osmanlı dövlətinə qarşı birgə mübarizə aparılması məqsədi ilə Şah Təhmasibin Almaniya imperatoru və İspaniya kralı V Karl ilə, Macar kralı II Lui ilə, Portuqaliya kralı III Joao ilə, Avstriya dukatı Ferdinand ilə əlaqələr yaratmağa cəhd göstərməsi barəsində məlumatlar mövcuddur (14).

Avropa dövlətləri də onların başı üzərinə kəsdirmiş Osmanlı dövlətinə qarşı yeni müttəfiq tapılmasında maraqlı idilər. Amma bu cəhdlər gözlənilən nəticəni vermədi və Osmanlı dövlətinə qarşı ciddi bir müqavimət təşkil etmək mümkün olmadı.

1526-cı ildə Şah Təhmasibin Osmanlı sarayına elçi göndərmək ehtimalı haqqında mənbələrdə bəzi məlumatlar vardır. O özü də təzkirəsində bu məsələyə işarə etmişdi. Şah Təhmasib yazırdı: “932-ci ilin şəvval ayının 5-də (15 iyul 1526) cümə axşamı məzkur Mir Şahiyə xanlıq ləqəbi verib qiymətli xələtlərlə Əlixan bəy Təkəlu ilə birlikdə o tərəfə göndərdim. 14 aydan sonra [Mir Abdullahın] əməlləri yaxşı olmadığına görə [vəzifədən] çıxarıldı. ...Çoxlu şərab içən və qantökən adam idi. Ancaq qardaşı Seyid Zeynalabdin pis əməllərdən çəkinən mömin və alim adamdır. Ehtiram və ziyarəti vacib olan İmamzadə Hüseyn ibn Sultanəli ibn Musa əl-Rzanın – ona salam olsun – məqbərəsinin idarə

edilməsini ona tapşırdım. İndi fikrim budur ki, alim, dindar olduğuna görə onu elçi kimi həzrət Xandigarın yanına İstanbula yola salım" (15). Amma həmin ildə Səfəvi elçisinin Osmanlı sarayına göndərilməsi haqqında mənbələrdə aydın bir fakt yoxdur. Ola bilsin ki, tarixi şərait üzündən Şah Təhmasib öz elçisini Osmanlı sarayına göndərməyi təxirə salmışdı.

Sultan Süleymanın Avropadakı fəthlərinin ardınca Osmanlı daxilində ələvilərin və şiə qızılbaşların qiyamları alovlanmağa başladı. 1526-28-ci illər arasında Osmanlı daxilində bir neçə belə qiyam baş verdi ki, onların yatırılması Osmanlı dövlətini müəyyən qədər qayğılandıra bildi. Məlumdur ki, hələ Şah Təhmasibin əcdadları dövründən Anadoluda böyük sayda Səfəvi təriqət tərəfdarları və ələvilər yaşayırdılar. Xüsusi ilə Şeyx Cüneydin dövründən Anadoluda yaşayan ələvilərin Səfəvi təriqəti ətrafında birləşdirilməsi özünü göstərirdi. Ələvilər Şeyx Cüneydin simasında Səfəvi təriqət şeyxinə böyük inamları var idi və Səfəvi təriqətinin hərbi-dini ideologiya kimi formalaşmasında onların önəmli fəaliyyəti var idi. Elə Şeyx Cüneyd dövründən də başlayaraq ələvilərin Osmanlı sarayına qarşı müxalifətçiliyinin güclənməsi başlamışdı. Onlar Səfəvi təriqət ideyalarının daşıyıcıları olmaqla, həm də Səfəvi sarayının mövqelərinin daha geniş ərazilərə yayılmasına və dəstəklənməsinə çalışırdılar. Səfəvi təriqət xəlifələrinin rəhbərliyi altında ələvilərin və Anadoludakı qızılbaş tayfalarının təşkilatlanması, öz ideyalarının həyata keçirilməsi üçün silahlanmaları və güclü müxalifətçiliyi hələ Şah İsmayılın hakimiyyəti illərində də Osmanlı sarayı üçün ciddi baş ağırısına çevrilmişdi. Doğrudur, Osmanlı daxilindəki qızılbaş şiələrin və ələvilərin təşkilatanması və bəzi vaxtlar onların müxalifətçiliyinin hakimiyyət üçün ciddi xarakter alması həm də bu kateqoriya insanlara qarşı sünniliyin ifrat münasibətdə olması ilə bağlı idi. İstər Osmanlı sarayı, istərsə də sünni üləmaları şiə məzhəbinin mövcudluğunu, xüsusi ilə onun əhatəsinin genişlənməsini birmənalı şəkildə qəbul etmək istəmirdi. Bu da şiələrin və ələvilərin özünümüdafiə instinktini gücləndirirdi. Digər tərəfdən isə Səfəvi təriqət xəlifələrinin Anadolu ərazisindəki şiəməzhəb təbliğatının

təsirləri Osmanlı daxilində məzhəb müxalifətçiliyinə geniş rəvac verirdi. Bəzi tədqiqatçılar tərəfindən Osmanlı daxilində məzhəblə bağlı müxalifətçiliyin Səfəvi sarayı tərəfindən dəstəkləndiyini iddia etsələr də (16), Səfəvi sarayının bu məsələ ilə bağlılığı haqqında konkret faktlar ortaya qoyulmur. Çünki doğrudan da, Şah Təhmasibin hakimiyyətinin ilk illərində Səfəvi sarayı daha çox daxili çəkişmələrin həlli ilə məşğul idi. Eyni zamanda iki dövlət arasında münasibətlərin kifayət qədər gərgin və həssas olduğu bir vaxtda Səfəvi sarayının açıq şəkildə Osmanlı daxilindəki müxalifətçiliyi dəstəkləyəcəyi də inandırıcı görünmür. Bəzi qiyamların daha çox məişət xarakterli, ağır dolanışıq çətinlikləri ilə bağlılığı da onların baş verməsində Səfəvi müdaxiləsini istisna edə bilərdi. Bununla belə, Səfəvi sarayının həmin hadisələrə tamamilə biganə olduğunu da iddia etmək yəqin ki doğru olmazdı. Çünki Şah Təhmasib şah olmaqdan əlavə, həm də Səfəvi təriqətinin mürşidi-kamili idi və Osmanlı ərazisindəki qızılbaş tayfaları da mürşidi-kamilin dini-ideoloji xəttini özlərinə rəhbər tuturdular. Osmanlı ələviləri Səfəvi sarayını və xanəgahını özlərinə arxa-dayaq bilirdilər və şübhə etmirdilər ki, lazım gəldiyi anda Səfəvi sarayının və xanəgahının əməli köməyi ilə qarşılaşa bilərlər. Bu sahədə artıq tarixi təcrübə də mövcud idi. Səfəvi sarayının xəlifətül-xüləfası tərəfindən Anadolu bölgəsinə xəlifələr ezam olunması da Səfəvi sarayının və xanəgahının Anadolu ilə bağlı maraqlarının saxlanmasının bir nümayişi idi. Həmin xəlifələr apardıqları təbliğatları ilə insanları Səfəvi xanəgahı ilə daha sıx bağlamağa çalışırdılar. Anadoluda sayı gündən-günə çoxalmaqda olan təriqət tərəfdarlarının Ərdəbil ilə sıx bağlılığı, ziyarət üçün vaxtaşırı Ərdəbilə yollanmaları, təriqət tərəfdarlarının Ərdəbilə və bölgəyə köçürülməsinə təşviq edilməsi, Anadoluda Ərdəbil xanəgahı xeyrinə nəzir-niyaz toplanması Osmanlı sarayı tərəfindən bu dövlətin daxili işlərinə Səfəvi təsirlərinin artması kimi qiymətləndirilirdi. Həmin təsirlərin qarşısının alınması üçün Osmanlı sarayı tərəfindən təzyiqlərin artması isə Anadolu ələvilərinin və şıə qızılbaşlarının etirazlarının güclənməsinə yol açırdı (17).

Bəzi tədqiqatçılar isə Anadoluda özünü göstərmiş qiyamların baş verməsində Səfəvi sarayının birbaşa iştirakı haqqında daha konkret səbəblər ortaya qoymağa çalışmışlar. Məsələn bildirilir ki, Sultan Süleyman dövründə Anadoluda qızılbaş-türk qiyamlarının baş verməsinin başlıca səbəblərindən biri həmin bölgədə şiə-Səfəvi təbliğatının davam etməsi idi. Ehtimal edilir ki, Şah İsmayıl Çaldıran düzündə Osmanlı qoşunları qarşısında ciddi uğursuzluğa düçar olsa da, öz xəlifələri vasitəsi ilə Anadolu daxilində şiə-Səfəvi təbliğatının aparılmasından heç də əl çəkməmişdi. Şah Təhmasibin hakimiyyəti illərində isə bu siyasət davam etdirilirdi. Hətta iddia edilir ki, Şah Təhmasib bəzi Avropa ölkələri ilə ittifaq yaratmaqla Osmanlı dövlətini zəiflətmək, sonra da Səfəvi casusları olan təriqət xəlifələrinin fəaliyyəti ilə Anadolunu Osmanlı dövlətindən qoparmaq və bu bölgəni şiə-Səfəvi dövlətinin tərkibinə qatmaq istəyirdi. Qeyd olunur ki, aparılan təbliğat vasitəsilə Anadoluda türk tayfalarının istər dünyəvi həyatının, istərsə də axirət həyatının məhz Səfəvi xanəgahı və sarayı ilə bağlı olmasına inandırılmasına cəhd göstərilirdi. Bununla belə, türkdilli tədqiqatçılar Anadoluda Osmanlı sarayına qarşı qiyamların baş verməsində məmur özbaşınalığını, vergilərin artırılması ilə həyat şəraitinin son dərəcə çətinləşməsini, bütünlükdə məişət problemlərinin mövcudluğunu da inkar etmirdilər (18).

Qeyd olunan dövrdə Osmanlı sarayının təşvişinə səbəb olmuş qiyamlardan biri 1526-27-ci illərdə Bozok bölgəsində baş verdi. Bildirilir ki, bu qiyamın səbəbi sancaqbəyi Mustafa bəyin insanlara qarşı haqsızlıqları olmuşdu. Belə ki, sancaq əhlindən biri olan Süglün Qocaya tarla işlərinə görə 200 ağca vergi kəsilmişdi. Süglün Qoca da bu verginin çoxluğundan, onun düzgün təyin edilməməsindən şikayətlənəndə sancaq bəyinin məmurlarının fiziki təzyiqlərinə məruz qalmışdı. Yaranmış ağır vəziyyəti Süglən Qoca və onun oğlu bölgədə Səfəvi təriqət xəlifəliyini edən Baba Zünnün adlı birisinə çatdırdılar. Çox güman ki, sancaq məmurlarının özbaşınalıqları yerli əhalidə kütləvi narazılıqlara yol açmışdı. Ona görə idi ki, Baba Zünnünün işə qarışması ilə sancaq məmurlarından narazı olanlar təşkilatlanmağa başladılar və bu da

Bozok sancaq bəyinin, Qazi sının, sancaq katibinin qətlinə gətirib çıxardı. Bozokda başlanan qiyam geniş miqyas alanda məsələ barəsində Sultan Süleymana məlumat verildi. O da Qaraman bəylərbəyi Xürrəm paşaya göstəriş verdi ki, əyalət qoşun dəstəsini səfərbər edərək Baba Zünnün qiyamının yatırılmasına yollansın. Qurşunlu adlanan bir məntəqədə əyalət qoşun dəstəsi ilə Baba Zünnün ətrafına toplaşmış qiyamçı qoşun dəstəsi arasında silahlı qarşıdurma baş verdi. Həmin qarşıdurmanın gedişi göstərdi ki, qiyamçılar Osmanlı dövlətinə qarşı çıxmaq üçün kifayət qədər böyük qüvvəyə malikdir. Çünki Qurşunluda baş verən döyüşdə qiyamçılar tərəfində sayı 10 minlərlə olan qoşun dəstəsinin olmasından xəbər verilir. Bu qoşun dəstəsi Xürrəm paşanın, habelə İşel və Qeysəri əmirlərinin tabeliyində olan silahlıların çoxu qətlə yetirildi. Bundan sonra Baba Zünnün ətrafında toplaşmış olan qoşun dəstəsi Tokata qədər irəliləyə bildi. Zülqədər tayfasının qiyamçılara qoşulması isə bu hərəkatın miqyasını daha da genişləndirdi. Eyni zamanda Baba Zünnün ətrafında toplanmış silahlı dəstənin sayını artırdı. Bu qiyamın qarşısının alınması üçün Osmanlı sarayı daha ciddi tədbirlərin həyata keçirilməsinə başladı. Əvvəlcə, Sivas bəylərbəyi Hüseyn paşa Malatiya valisi İsgəndər bəyi bir min atlı ilə qiyam bölgəsinə göndərdi ki, qiyamçıların imkanları barəsində məlumat gətirsin. İsgəndər bəy isə qiyamçılara qarşı qeyri-ciddi münasibət göstərdi və tabeliyində olan dəstə ilə birbaşa qiyamçıların üstünə hərəkət etdi. Nəticədə o, güclü zərbə aldı və ona verilmiş dəstədən çox az adamla bir təhər canını qurtarıb geri qaça bildi. Belə olanda Sivas bəylərbəyi Hüseyn paşa ətrafına böyük qüvvə toplayaraq qiyamçılar üzərinə yollandı. Höyüglü adlanan məntəqədə tərəflər arasında gərgin bir döyüş baş verdi. Baba Zünnün və onun ətrafına toplaşmış olan çoxlu sayda silahlı bu qarşılşamada canlarını itirdilər. Amma bundan sonra qiyamçılar heç də təslim olmadılar və onlar döyüş meydanından çəkilərək yaxınlıqdakı dağa sığındılar. Hüseyn paşanın qiyamçılara burada da zərbə vurmaq niyyəti isə yarımçıq qaldı. Döyüşün gedişində Hüseyn paşanın özü ağır yara aldı və onun dəstəsinin silahlılarının çoxu isə həyatlarını itirdilər. Yaralı

vəziyyətdə olan Hüseyn paşa döyüş meydanından çıxarılaraq Sivasa aparıldı. Lakin onun da həyatını xilas etmək mümkün olmadı (19).

Qiyamçıların dövlət qoşunlarına qarşı belə ciddi döyüşlər aparması Osmanlı sarayından əlavə tədbirlərin həyata keçirilməsini tələb etdi. Sultan Süleyman bu qiyamın tezliklə yatırılmasına nail olunması üçün Diyarbəkr bəylərbəyi Xosrov paşanı, habelə kürd bəylərini onların dəstələri ilə birlikdə bölgəyə göndərdi. Yalnız bu qüvvələrin bölgəyə gəlişi ilə Baba Zünnünün rəhbərliyi altında geniş miqyas almış qiyamı yatırmaq mümkün oldu. Bu qiyam yatırılsa da, onun baş verməsi yaxın bölgələrdə çox da böyük olmayan miqyasda bir neçə digər qiyamın da alovlanmasına yol açdı. Tarixi ədəbiyyatda olan məlumata görə, Baba Zünnün qiyamının ardınca və bu qiyamın təsiri ilə Adanada, Tarsusda, Tokatda da qiyamlar baş qaldırdı. Adana sancağının Bərəndi məntəqəsində Domuz oğlan adlı birisinin rəhbərliyi altında, Tarsus sancağının Ulaş nahiyyəsində Yenicə bəy adlı birisinin rəhbərliyi altında təxminən 500-600 adamın iştirakı ilə baş verən qiyam hakimiyyət qüvvələri tərəfindən tezliklə yatırıldı. Bu hadisələr də 1526-cı ildə baş vermişdi. Adana sancağında baş verən digər bir qiyamın rəhbəri olan Vəli xəlifə özünü hətta Səfəvi şahının xəlifəsi kimi qələmə verərək ətrafına müəyyən dəstə toplaya bilmişdi. Amma bu qiyam da tezlikə vilayət qüvvələri tərəfindən yatırıldı (20).

1526-28-ci illərdə Anadolunu bürümüş olan qiyamlardan biri də Qələndəroğlu qiyamı adlanan qiyam idi. Bu qiyam da kütləviliyi ilə seçilirdi və onun da şiə-Səfəvi təbliğatı və təhriki ilə baş verdiyi iddia edilirdi. Tədqiqatçıların fikrincə, bu qiyam da Osmanlı dövlətini daxildən çökdürməyə istiqamətlənmiş bir qiyam olmaqla məqsəd şiə-Səfəvi maraqlarının bölgədə həyata keçirilməsi idi. Bu qiyamın təşkilatçısı və rəhbəri olan Qələndəroğlu adlı birisi bölgədə təriqət təbliğatını genişləndirməklə ətrafına xeyli sayda tərəfdar yığa bilmişdi. Tərəfdarlarınını sayının günü-gündən artığını görüncə isə o özünü dövrünün Mehdisi adlandırdı və onun bu iddiası, ətrafına toplananlar tərəfindən də

qəbul olundu. Sözsüz ki, bu iddialara olan inanclar da daha çox pisləşməkdə olan həyat şəraitinə, yerli məmurların özbaşınalıqlarına olan narazılıqlardan doğurdu. Qələndəroğlu da insanların bu narazılıqlarından istifadə etməyi bacarırdı. Bektaşiliklə bağlı olan Qələndəroğlu apardığı təbliğat nəticəsində ətrafına çox böyük sayda insanları toplamaqla Qaramandan başlayaraq Mərəşə qədər olan ərazilərdə nüfuz sahibinə çevrilmişdi. Güman edilir ki, Qələndəroğlu başladığı qiyamın kütləviliynə nail olmaqla Səfəvi sarayı və xanəgahı ilə də müəyyən əlaqələrə malik idi. Qələndəroğlunun Osmanlı dövləti əleyhinə yönəlmiş qiyamı elə bir miqyas və məzmun almışdı ki, yalnız şiəməzhəblilər deyil, dövlət mənsublarnın haqsızlıqlarından zülmlər görən sünni məzhəblər də onun ətrafında birləşmişdilər. Bundan başqa, Qələndəroğlu yatırılmış olan Baba Zünnun qiyamının ətrafa dağılmış iştirakçılarını da öz yanına səfərbər edə bilmişdi. Bütünlükdə, bölgədə Osmanlı idarəçiliyindən narazı olan insanlarda Qələndəroğlu qiyamına qatılmaq meyli özünü göstərməkdə idi. Bu baxımdan Qələndəroğlu qiyamı Osmanlı sarayı üçün Baba Zünnun qiyamından da təhlükəli bir hərəkata çevrilmişdi. Qələndəroğlu qiyamı barəsində məlumat Sultan Süleymana Macarıstan yürüşündə olduğu zaman çatdırıldı. Bu qiyamın miqyası onda böyük təşviş yaratdı və ona görə də dərhal bu qiyamın yatırılması ilə bağlı lazımi göstərişlər verdi. Hələ Macarıstan yürüşündə olduğu vaxt o, Anadolu bəylərbəyi Bəhram paşanı qiyamın yatırılmasına vəzifələndirdi. İstanbula qayıtdıqdan sonra isə Sultan Süleyman baş vəzir İbrahim paşanı Anadoluya göndərdi. Qiyamı yatırmaq tapşırığı almış İbrahim paşanı üç min nəfərlik yeniçəri dəstəsi və iki min nəfərlik də qapıqulu döyüşçüləri müşayiət edirdi. Bölgəyə yetişincə İbrahim paşa vəziyyəti dərindən təhlil etdi və hakimiyyət qüvvələrinə konkret tapşırıqlar müəyyənləşdirdi. Başlıcası isə İbrahim paşa çevik və sürətli hərəkət etməklə qiyam iştirakçılarını ağır vəziyyətə salmaq qərarına gəldi. Bununla əlaqədar Anadolu bəylərbəyi Bəhram paşa, Qaraman bəylərbəyi Mahmud paşa, əyalətlərdəki qoşun başçıları sürətlə qiyamçı dəstələr üzərinə hücuma keçməli idilər. Belə də oldu və Sivasın cənubundakı

Qara Çayır adlanan məntəqədə tərəflər arasında gərgin bir döyüş baş verdi. Göstərilən bütün cəhdlərə baxmayaraq hakimiyyət qüvvələri nəinki qiyamçıların müqavimətini qıra bilmədilər, əksinə özləri ciddi zərbə alaraq uğursuzluğa düçar oldular. Hakimiyyət qüvvələrinə rəhbərlik edən bir çox əmirlər və paşalar bu döyüşdə qiyamçılar tərəfindən qətlə yetirildilər. Hakimiyyət qüvvələrinə ciddi itki yetirildi və bu qüvvələrdən salamat qalanlar döyüş meydanından qaçaraq həyatlarını xilas etdilər. Bu döyüşün nəticələri Qələndəroğlunun nüfuzunu daha da artırdı və onun yanına axışanların sayı daha da artdı. O da məlumdur ki, Qələndəroğunun ətrafında 30 min nəfərlik bir silahlı dəstə formalaşmışdı. Bu dəstə ilə Qələndəroğlu hakimiyyətin nəzarəti altında olan məntəqələr üzərinə hücumlar edir və bununla həmin məntəqələri də hakimiyyətin nəzarətindən çıxarırdı. Baş vəzir İbrahim paşa isə biləndə ki, onun tərəfindən göndərilmiş qoşun dəstəsi uğursuzluğa düçar olub, onda həmin qoşun dəstəsinin özünün və ətrafındakı qüvvələrin qərar tutduğu düşərgəyə gəlməsinə icazə vermədi. O ehtiyat edirdi ki, qiyamçılardan ağır zərbə almış döyüşçülər öz qırıq mənəviyyatları ilə düşərgədə olan digər döyüşçülərinin də mənəvi-psixoloji əhval-ruhiyyəsinə pis təsir edə bilərlər. Bir sözlə, İbrahim paşa qiyamçıların döyüş qüdrəti barəsində məlumatların onun yanında olan qoşun dəstəsinə yayılmasına imkan vermədi. Növbəti hücumu həyata keçirməzdən əvvəl isə İbrahim paşa başqa vasitələrdən də istifadə etməyi məqsədəuyğun saydı. Onun göstərişləri əsasında Qələndəroğlu qiyamına qatılmış tayfaların, oymaqların rəhbərləri ilə söhbətlər aparıldı və müxtəlif vədlərlə onların qiyamdan ayrılmasına nail olundu. Bu yolla qiyamçıların sayını xeyli azaltmaq mümkün oldu. Qələndəroğlu qüvvələri zəiflədikdən sonra 1527-ci ildə Başsaz yaylağında qiyamçılar üzərinə qətiyyətli hücum təşkil edildi. Nəticədə qiyam yatırılmaqla Qələndəroğlu da qətlə yetirildi (21).

"Əhsənüt-təxarix" müəllifi Həsən bəy Rumlu Qələndəroğlu qiyamının baş verməsi və necə yatırılması haqqında belə yazırdı: "Bu il Sultan Hacı Bektaş övladlarından olan bir qələndər qiyam

qaldırdı. Səbəbi bu idi ki, Rum padşahı Sultan Süleyman onu tələb etmək üçün bir çavuş göndərmişdi. Bəng aləmində olan qələndərlər o biçarəni qətlə yetirdilər. Buna görə də Şah Qələndər naçar müxaliflik etməyə başlayıb, aşağı səviyyəli qələndərlərlə Qeysəriyyə şəhərinə basqın edərək orada öz istila bayrağını yüksəltdi. Həmin vaxt Anadolu əmirülümərası Bəhram paşa, Qaraman paşası və Sivas paşası müqayisəyəgəlməz qoşunlarla xofsuz və qorxusuz bir şəkildə Şah Qələndərlə savaşa gəldilər. Əksəriyyəti üryan olan qələndərlər Rum ordusu bərabərində səf çəkdilər. [Qələndərlər] hiddət və kinlə o böyük qoşunlara həmlə etdilər. Bəhram paşa və digər rumilər bahadırlıqdan dəm vurmalarına baxmayaraq, qaçmağa üz qoydular. Qələndərlər onları təqib edib bir çoxlarını qətlə yetirdilər. Bəhram paşa xeyli məşəqqətlə öz bayrağını aradan çıxara bildi. Elə ki bu möhnətli xəbər Sultan Süleymana çatdı, Bəhram paşa istisna olmaqla [döyüşdə iştirak etmiş] digər əmirləri [cəzalandırmaq üçün onlara] qadın ləçəyi geydirdi. Daha sonra o, vəziri-əzəm olan İbrahim paşanı "qapı xalqı"ndan ibarət çoxsaylı ordu ilə [qələndəri] dəf etməyə göndərdi. Adı çəkilən paşa müzəffər qoşunlarla gözlənilməz bir bəla kimi qələndərlərin üstünə gəldi. Onların müqavimət göstərməyə qüvvəti, mətanət nümayiş etdirməyə qüdrəti çatmadı və öz bəxtsizlik üzlərini fərar vadisinə sarı çevirdilər. Dəli Pərvanə onların sərdarı olan Şah Qələndəri qətlə yetirdi. Onun başını dərgaha gətirdilər" (22).

Osmanlı daxilində Səfəvi təsiri ilə alovlandığı iddia edilən qiyamlar və hərəkatlar yalnız bunlardan ibarət deyildi. Onların sayı çox idi və bu kütləvilik Osmanlı sarayını narahat etməyə bilməzdi. Belə qiyamların və kütləvi etiraz hərəkatların baş verməsində də hər zaman Səfəvi izi axtarılırdı. Əslində, şübhə edilmirdi ki, Anadolu daxilində ələvilərin və şiə məzhəblərin dövlətə qarşı istiqamətlənmiş hərəkatlarının Səfəvi xanəgahı və sarayı ilə bu və ya digər əlaqəsi vardır. Ona görə Osmanlı daxilində Səfəvi təriqətini təbliğ edən xəlifələr ciddi təqiblərə məruz qalırdılar və belələrinin təriqət təbliğatının qarşısının alınması üçün çox ciddi cəza tədbirlərinə də əl atılırdı. Osmanlı sarayı tərəfindən yerli

hakimlərə də göstəriş verilmişdi ki, Səfəvi təriqət təbliğatçılığı nəzarət altında saxlansın, təriqət xəlifələrinin fəaliyyəti izlənilsin və onların dövlətə qarşı qiyamçılığına yol verilməsin. Bütün bunlara görə, Osmanlı daxilində şiə-Səfəvi təriqət təbliğatçılığı Osmanlı dövlətinin əsasının zəifldədilməsinə yönəldilmiş bir təhdid olmaqla yanaşı, elə şiəlik dini ideologiyası üzərində qurulmuş Səfəvi dövlətinin şərq sərhədi boyunca yerləşməsi də Osmanlı dövləti üçün təhlükə kimi qəbul edilirdi. Osmanlı daxilində müxalifət kimi formalaşan və qarşısı alınmayan şiə-Səfəvi meylli qüvvələrin güclənərək Səfəvi dövləti ilə birləşməsi və onların Osmanlı dövlətinə qarşı cəbhə təşkil edə bilməsi ehtimalı isə Osmanlı sarayı üçün reallıq kimi görünürdü (23). Bunlar isə öz növbəsində Osmanlı-Səfəvi münasibətlərinin müəyyənləşməsinə ciddi təsir göstərirdi. Osmanlı sultanı malik olduğu imkanlardan istifadə etməklə Səfəvi dövlətinə güclü zərbə vurmaq və Səfəvi dövlətinin yaratdığı təhlükəni birdəfəlik aradan qaldırmaq istəyirdi. Sultan Süleymanın Şah Təhmasibə göndərdiyi məktubun məzmunundan da hiss olunur ki, bu istiqamətdə çox tezliklə ciddi fəaliyyətə başlanacağını gözləmək olardı. Səfəvi dövlətinə ciddi zərbə vurmaqla Osmanlı dövləti üçün mövcud olan daxili təhlükəni də əsaslı şəkildə aradan qaldırmaq olardı. Osmanlı tarixinin tədqiqatçılarının fikrincə, Macarıstanla başlanan müharibə Osmanlı qoşunlarının Səfəvi hüdudlarına hücumunun qarşısını aldı. Eyni zamanda belə bir fikir də irəli sürülür ki, Macarıstan kralının Osmanlı dövlətinə qarşı müharibəyə başlaması isə Şah Təhmasibin təhriki ilə baş vermişdi və Şah Təhmasib Macarıstan kralı ilə vaxtında əlaqə yaradaraq Osmanlı qoşunlarının hücum təhlükəsini sovuşdura bilmişdi (24).

Osmanlı ərazisində alovlanan qiyamların ardınca Osmanlı-Səfəvi sərhədində baş verən bəzi hadisələr də bu iki dövlət arasındakı münasibətlərin daha da gərginləşməsinə və müharibə təhlükəsinin daha da yaxınlaşmasına səbəb oldu. Qeyd etmək lazımdır ki, Şah Təhmasibin hakimiyyətə gəldiyi vaxt Cənubi Anadolunun böyük bir hissəsi, Qara dənizdən başlayaraq Mosula qədər uzanan hüdudlar Osmanlı dövlətinin tərkibinə daxil idi.

Bağdad daxil olmaqla İraqın bir hissəsi, habelə Qars, Ərzrum, Ağrı, Van və Həkəri çevrəsi isə Səfəvi dövlətinin sərhədləri daxilində idi (25). Qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi üçün bu dövlətlərin hər ikisi sərhəd bölgəsinin gücləndirilməsinə xüsusi diqqət yetirirdilər. Bu bölgənin geostrateji əhəmiyyəti də hər iki dövlət üçün xüsusi maraq kəsb edirdi. Ona görə də bu bölgə ilə bağlı məsələlər hər iki dövlətin siyasətində mühüm yer tuturdu.

1528-ci ilin yazında Kəlhur hakimi olan Zülfüqar bəy daha böyük iddiaları həyata keçirmək üçün Səfəvi hakimiyyətinə qarşı sədaqətsizlik nümayiş etdirdi və silahlı basqın yolu ilə Bağdadı öz hakimiyyəti altına gətirdi. Bu zaman Bağdadda onun əmisi İbrahim xan hakim idi. Zülfüqar bəy öz əmisini, onun bütün ailə üzvlərini qətlə yetirməklə öz planını yerinə yetirdi və Bağdadı ələ keçirməklə bu şəhəri və onun ətrafını Səfəvi tabeçiliyindən çıxarıb Osmanlı sarayına bağlamağı məqsədəuyğun saydı. "Əhsənüt-təvarix" əsərində bu barədə aşağıdakı qeydlər vardır: "İsgəndər şanlı xaqan tərəfindən Kəlhur hakimi [təyin] edilmiş olan Zülfüqar ibn Noxud bəy ibn Gülabi bəy Mosullu Türkman bu il içində dəliliyi və cahilliyi səbəbindən dövlətsiz adamlardan ibarət bir dəstə ilə Bağdad hakimi olan əmisi İbrahim xan Mosullunun üzərinə getdi. İttifaqən, İbrahim xan Mahidəşt yaylağında idi. Hərçənd mülazimlər Zülfüqarın xeyli qoşunla oraya doğru sürətlə yürüməkdə olduğunu xana ərz etsələr də, [xan bu fikri] qəbul etmədi. [İbrahim xan] mülazimlərdən beş-altı nəfərlə birlikdə divanxanada oturmuşdu ki, o əsnada avara Zülfüqar hərəsi bir yerdən gəlib başına toplanmış olan iki yüz nəfər şər adamla xanın ordugahına çatdı. Hamısı birdən at çapdılar (basqın etdilər). İbrahim xan canının qorxusundan özünü hərəmxanaya saldı. Zülfüqar piyada olub alaçığın kəndirini qılıncla kəsdi. Alaçıq İbrahim xanın başına yıxıldı. Zülfüqar kəskin qılınc zərbəsi ilə İbrahim xanı və onun beş-altı mülazimini parça-parça etdi. Xanın əksər nökərləri Zülfüqara tabe oldular. Həmin zaman Seyid Məhəmməd Kəmunənin oğlu Seyid bəy dörd yüz süvari ilə gəlib çatdı və məcburiyyət üzündən Zülfüqara qoşularaq o bədbəxtin

nəzər-diqqətini özünə cəlb etdi. Zülfüqar öz mülazimlərindən bir çoxlarına buyurdu ki, qaşlarını və saqqallarını qırxsınlar. [Daha sonra] oradan Bağdada gəldi. Mühasirə nəticəsində oranı ələ keçirdi, özünün bütün qohumlarını öldürdü və tamam İraqi-Ərəbin valisinə çevrildi" (26).

Şah Təhmasibin təzkirəsində də bu barədə müxtəsər məlumat vardır. O yazırdı: "Mən lazım olan bütün hazırlıqları gördüm və təchiz olunmuş ordu ilə siçan ilinin başlanğıcında 934-cü (mart 1528) ildə Xorasana yola düşdüm. Tehranda mənə xəbər çatdı ki, o vaxt Gülhəran hakimi olan Noxud sultan [adı ilə] tanınan Zülfüqar bəy ibn Əli bəy öz əmisi İbrahim xan Mosullu Əmirxanın vəzifəsi də ona verilməklə Bağdad və ərəb İraqı hökumətini idarə edirdi – Mahi-dəşt yaylağında olan zaman üstünə hücum edib öz əmisini, əksər əmisi oğlanları ilə birlikdə Bağdadda öldürübdür. O cümlədən Mərcümək sultan ibn Əmirxanı öldürüb və bütün Ərəb İraqının valisi olub.

Dedim: - indi onun İraq hadisələrilə məşğul olmağının vaxtı deyil, Allah nə istəsə o olacaqdır. ...Başqa işlərə baş qoşmayıb özbəkləri dəf etmək üçün yola düşdüm" (27).

Qeyd edilməlidir ki, farsdilli mənbələrdə iki dövlət arasında yüksəlməkdə olan gərginliyə görə Şah Təhmasibin və onun ətrafındakıların xüsusi bir həyəcan və təşviş keçirməsi hiss olunmur. Elə Şah Təhmasibin təzkirəsində də onun baş verən proseslərlə bağlı gərginliyə qapılmasını görmək mümkün deyildir. Yəni Şah Təhmasib kifayət qədər cavan və dövlət idarəçiliyində təcrübəsiz olmasına baxmayaraq, Sultan Səlimin nüfuzu heç də onu xüsusi olaraq qayğılandırmırdı. Bağdadın Zülfüqar bəy tərəfindən ələ keçirilməsi və sonra da onun Osmanlı sarayına pənah aparması Şah Təhmasibi həm qorxutmadı, həm də Osmanlı sarayı ilə qarşı-qarşıya gəlməkdən təşvişləndirmədi.

Səfəvi sarayı tərəfindən Bağdad hakimi təyin edilmiş İbrahim xanın ətrafında güclü hərbi qüvvə var idi. İbrahim xanın yaylağa az qüvvə ilə çıxmasından istifadə etməklə Zülfüqar bəy ona üstün gələ bilmişdi. İbrahim xan qətlə yetiriləndən sonra Zülfüqar bəy ətrafında olan qoşun dəstəsi ilə Bağdadı mühasirəyə

aldı. İbrahim xanın övladları baş verən hadisədən sonra heç də şəhər qapılarını Zülfüqar bəyin üzünə açmadılar. Belə olanda Zülfüqar bəy Bağdad şəhərini 40 gün mühasirədə saxladı. 40 günlük mühasirədən sonra Zülfüqar bəy şəhəri ələ keçirə bildi və bu şəhərin idarəçiliyinə məsul olan yaxın qohumlarının demək olar ki, hamısını qılıncdan keçirdi, onları qətlə yetirdi. Səfəvi şahının güclü qəzəbindən qorunmaq üçün isə Zülfüqar xan yaxın adamlarından birinin vasitəsi ilə Bağdad darvazalarının açarlarını Sultan Süleymana göndərdi. Bundan əlavə, Zülfüqar bəy şəhər məscidlərində Sultan Süleymanın adına xütbə oxutdurdu və onun adına pul zərb etdirdi. Bununla da özünün Osmanlı sarayına bağlılığını göstərdi. Hətta Osmanlı sarayına da xəbər göndərdi ki, Sultan Süleyman Avropa yürüşündən qayıdana qədər Bağdadı Səfəvi qoşunlarından qoruyub saxlaya biləcəkdir. Əslində, Osmanlı sarayının ona heç kömək göstərmək imkanı da yox idi. Çünki Osmanlı qoşunları Sultan Süleymanın rəhbərliyi altında Avropada dolaşmaqda idi (28).

Bağdadın itaət altına gəlməsi, sözsüz ki, Sultan Süleymanın da böyük məmnunluğu ilə qarşılaşdı. Heç bir çətinlik çəkmədən bölgənin bu böyük şəhərinin ələ keçirilməsi Osmanlı sultanının cənuba doğru böyük fatehlik planlarına daxil idi. Lakin Zülfüqar xan Bağdadı uzun müddət əlində saxlaya bilmədi və bunun üçün Osmanlı sarayından da lazımi kömək ala bilmədi.

Şah Təhmasib özbək qoşunlarının Xorasan vilayəti üzərinə üçüncü yürüşünün qarşısını alandan sonra Bağdada doğru istiqamət götürdü. İlk baxışda belə güman etmək olar ki, Şah Təhmasib də Osmanlı qoşunlarının Avropada olmasından istifadə edərək Bağdada qoşun çıxardı. Lakin onun yuxarıdakı qeydlərindən aydın olur ki, konkret tarixi şəraitdə Xorasanın müdafiəsi onun üçün daha böyük əhəmiyyət kəsb edirdi. Buna görədir ki, o, Qəzvindən Bağdad istiqamətinə deyil, Herat istiqamətinə yola düşdü və Xorasan vilayətini bütünlüklə özbək qoşunlarından təmizlədikdən sonra Bağdada yollanmağı qərara aldı. 1529-cu ilin yazında Səfəvi qoşunları artıq Bağdad ətrafında idi. "Bu il [1529-cu il] dinin pənahı olan şah, ağıl mühəndisinin miqdarını

bilməkdən aciz qaldığı və fəhm müstövfisini hesablamaqdan heyran olduğu qədər qeyri-məhdud bir qoşunla və saysız ordu ilə Bağdada yola düşdü və Cürbadəqan yaylağından keçib Bağdad tərəfə hərəkət etdi. Hər [köç] mənzilində dəniz kimi coşan və ildırım kimi gurlayan bir dəstə qoşun onun xidmətinə çatırdı, niyaz və ehsan şərtlərini yerinə yetirirdi. O vaxt aləmi işıqlandıran günəş Xərçəng bürcündə qərarlaşmışdı və hərarətin şiddətindən zəmanə atəşli büsat qurmuşdu. Havanın istisindən yaqut kanın içində əriyirdi və ləl kimi [parlayan] günəşin şəfəqləri suyun dibindəki çınqılı mayeyə çevirirdi.

...Elə ki ali mənşəli şah Pərvərdigarın yardımı ilə Bağdadın yaxınlığına cah-calalla nazil oldu, fələk qüdrətli əsgərlər qalanın ətrafını dövrəyə aldılar. Zülfüqar etibarsız fırıldaqçıların himayəsindən məğrur olub bu xanədanın (Səfəvilərin) nemətinə nankorluq göstərdi, qeyri-mümkün xəyallara düşdü, savaşmaq və vuruşmaq qərarına gəldi. Düşməni yandıran ordu qaragün üsyançılarla hər gün hərb etdi. Zülfüqara mülazimlik edən və Sufi Xəlil Mosullunun nəvəsi olan Əli bəy və onun qardaşı Əhməd bəy bir neçə gündən sonra, pəncşənbə günü, şəvval ayının 3-də (10.06.1529) Pərvərdigarın yardımı ilə o mərdimazarın üstünə gedib, iti qılınc zərbəsi ilə Zülfüqarın başını bədənindən ayıraraq ali taxtın ətəyinə gətirdilər və Bağdad fəth olundu. Zülfüqarın mülazimləri tam çarəsizlikdən özlərini Dəcləyə vurub su keçidindən cəhənnəm atəşinə vasil oldular. Bəziləri isə qəzavü-qədər pəncəsinin əsirinə çevrildilər. Dinin pənahı olan şah, Əli bəyə əmirlik verib Cürbadəqanı ona tiyul təyin etdi və Bağdad əyalətini xanlıq ləqəbi ilə birgə Məhəmməd sultan Şərəfəddinoğluya verdi. [Daha sonra] o həzrət tamam-kamal əzəmətlə şəhərə tərəf yollandı. Qələbə şüarlı bayraq Pəvərdigarın hüsn-rəğbətinin zəmanəti ilə xilafət mərkəzi (darülxilafət) Bağdada daxil oldu. Şahın ədalət nurları o vilayətin ətrafını işıqlandırdı. Onun qayğıkeşlik günəşi mərhəmət kölgəsini o məmləkətin əhalisinin başına saldı" (29).

Şah Təhmasibin öz təzkərəsində etdiyi qeydlərə görə, Bağdadın itaət altına gətirilməsi üçün vəzifələndirilmiş qoşun dəs-

təsinə elə onun özü rəhbərlik edirdi. Çox güman ki, bu da Bağdadın əhəmiyyətindən irəli gəlirdi. Səfəvi şahının yazdığına görə Bağdad istiqamətində hərəkətə Qəzvindən başlanmışdı. Qoşunlar təyinat yerinə çatandan sonra Bağdad şəhəri mühasirəyə alındı. Şah Təhmasibin yazdığına görə, Bağdadın mühasirəsi xeyli uzun çəkdi. Havaların isə xeyli isti olması Bağdadın mühasirəsi işini kifayət qədər çətinləşdirdi. Mühasirənin davam etdiyi günlərdə Şah Təhmasibin qoşun dəstəsinə digər türk tayfalarından əlavə kömək də gəldi və bu da ümumən, Züfüqar bəyin müqavimətini müəyyən qədər zəiflətdi. Bundan başqa şəhər daxilində Şah Təhmasibin yanına elçilər gəldilər və onlar bildirdilər ki, qala daxilində olan bəzi əmirlər, o cümlədən Əli bəy və Əhməd bəy yenidən Səfəvi sarayına xidmət etməyə hazırdırlar. Adları çəkilən bəylərin Bağdad daxilindəki qüvvələrin müqavimətinin qırılmasında müəyyən təsiri var idi və asilik yolu tutmuş Zülfüqar bəyin də başını elə onlar bədənindən ayırdılar. Bundan sonra Bağdaddakı qüvvələr müqaviməti dayandırdılar və bu şəhər yenidən Səfəvi hakimiyyəti altına gətirildi. Bağdad yenidən fəth olunduqdan sonra Şah Təhmasib tərəfindən Məhəmməd sultan Şərəfəddinoğlu Bağdad hakimi təyin edildi. Şah Təhmasib bir müddət orada qaldı və şəhərin idarəçiliyini tənzimlədikdən sonra geri döndü (30).

Bağdadın şəhərinib yenidən Səfəvi hakimiyyəti altına gətirilməsi haqqında xəbəri Sultan Süleyman hələ Avropada olarkən almışdı. Onun Bağdadın Osmanlı hüdudları daxilində saxlanması üçün hərbi kömək göndərmək imkanları olmasa da Şah Təhmasibdən qisas almaq şansını da əldən buraxmadı. O, baş vəzir İbrahim paşaya göstəriş verdi ki, Gelibolu zindanlarında saxlanılan Səfəvi əsirlərini qətl etdirsin. İbrahim paşa da bu göstərişi yerinə yetirdi (31).

Səfəvi-Osmanlı münasibətlərinin gərginliyini yüksəldən səbəblərdən biri də 1531-ci ildə Azərbaycan əmirül-ümərası Ülamə Təkəlinin Osmanlı sarayına sığınması oldu. Bu hadisə qızılbaş tayfaları arasında baş verən münaqişənin və çəkişmələrin nətcələrindən biri kimi mənbələrdə öz ifadəsini tapmışdır. Məlumdur

ki, səltənət vəkili təyin edilmiş Çuxa sultan Təkəlinin qətlə yetirilməsindən sonra təkəlilər səltənət idarəçiliyində əvvəlki üstün mövqelərini itirmişdilər. Təkəli əmirləri isə bundan razı deyildilər. Təkəli əmirlərinin və əyanlarının nümayəndəsi Şah Təhmasib tərəfindən 1529-cu ildə Azərbaycan əmirül-ümərası təyin edilmiş Ülamə Təkəli də yeni vəziyyətlə razı deyildi və əvvəlki mövqelərin bərpa edilməsi üçün o da tayfalararası çəkişmələrə qoşuldu. Üləma Təkəli bu mübarizədə qalib gəlməklə Çuxa sultanın yerinə səltənət vəkili vəzifəsinə də yiyələnmək istəyirdi. Həmin vəzifənin ələ keçirilməsi isə təkəli əmirlərinin əvvəlki mövqelərinin bərpa edilməsinə real zəmin yarada bilərdi. Bu planını həyata keçirmək üçün Ülamə Təkəli ətrafına 7 min nəfər atlıdan ibarət bir dəstə topladı və əməli fəaliyyətə başladı (32).

"Dinin pənahı olan şahın himayəsinin səadəti altında Azərbaycan vilayətinin hakimiyyətini əlində tutan Ülamə qeyri-mümkün bir sevdaya düşüb, özündə səltənət və istiqlal xəyalına yol verərək Çuxa sultanın yerinə vəkil olmaq istədi. O, təxminən yeddi min süvari toplayıb dinin pənahı olan şahın dərgahına üz tutdu və Qidar Nəbi yaxınlığına gəlib dayandı. Onun nankorluğu və üsyanı [haqqında xəbərlərin] bir qismi [Şah Təhmasibin] izzət və calal qulağına çatdıqda, dinin pənahı olan şah onun üstünə sürətlə yürüdü. Ülamə döyüşdən və qırğından üz çevirdi və cahangir hökmdarın qorxusundan, oxun kamandan uçduğu kimi qaçıb aradan çıxdı, günəş misallı çətirin əzəməti qarşısında kölgə kimi yerə düşdü, göy üzünə ucalan bayrağın ayparasının şövkətindən hilal kimi [rəngi] ağardı və [qəddi] əyildi. O, suya qərq olmuş gözlə və atəşə düşmüş ürəklə özünü Van qalasına saldı. Orada öz yaxınları və qohumları ilə məşvərət etdi. Hamısı belə dedi:

- Çıxış yolu budur ki, hər nə cür olursa olsun, o həzrətin [Şah Təhmasibin] razılığını və könlünü almağa çalışmalıyıq. Çünki padşaha qarşı müxaliflik etməyin axırı əzab və iztirab olacaqdır. Müdriklər demişlər ki, hökmdarlara qarşı çıxmağın sonu bu dünyada rəzil olmaq və axirətdə atəşə düşməkdir. Bu söz Üləmənin ürəyincə oldu. O, Ürkməz Zülqədəri layiqli peşkəşlərlə və

müvafiq töhfələrlə ərşə bənzər dərgaha göndərdi. Amma onu yola saldıqdan sonra başqa bir fikrə düşüb öz-özünə dedi ki, axı mən cəfa toxumu səpdiyim yerdə vəfa xırmanını necə biçə bilərəm və düşmənçilik ağacı əkdiyim halda dostluq meyvəsini nə cür təvəqqe edə bilərəm?!

... [Buna görə də] dinin pənahı olan şahın yanına getmək barədə tərəddüd etdi. O əsnada [Ülamə üçün] Rum padşahı Xondgar Süleyman tərəfindən zərlə tikilmiş bir paltar və qızılla işlənmiş bir çalma (mücəvvəzə) gətirdilər. O, xondgarın xələtini geyib Ruma yollandı" (33).

Bu məlumatdan belə bir qənaət hasil olur ki, Ülamə Təkəlinin Osmanlı sarayına sığınması haqqında son qərar Osmanlı sultanının ona hədiyyələr göndərilməsindən, yəni onu özünə cəlb etməyə çalışmasından sonra verilmişdi. Mövcud olan başqa bir məlumata görə, şah qoşunları ilə qarşılaşmadan qorxub geri çəkildikdən sonra Ülamə Təkəli səltənəti tərk edərək Göyərçinlik qalasına gəlmiş və oradan Vəlican bəy adlı birisini Diyarbəkr bəylərbəyi Xosrov paşanın yanına göndərərək Osmanlı tərəfinə keçmək niyyətində olmasını açıqlamışdı. Osmanlı sarayı da bu xahişi qəbul edərək ona sığınacaq vermiş və Ülamə Təkəli də Osmanlı sarayına yollanmışdı (34).

Ülamə Təkəli Təbrizdən qaçıb əvvəlcə Van qalasına sığındı və Van qalasında olarkən bu qalanın hakimi Zülqədər Ürkməzi qiymətli hədiyyələrlə əfv olunması üçün Şah Təhmasibin yanına göndərdi. Amma hələ Şah Təhmasibdən xəbər almamış Sultan Süleyman qiymətli hədiyyələr və geyimlər göndərib onu yanına dəvət etdi. Ülamə Təkəli də həmin paltarları geyinərək Osmanlı sarayına yollandı. Zülqədər Ürkməz isə Ülamə Təkəlinin xahişini çatdırmaq üçün Şah Təhmasibin yanına yetişəndə Səfəvi şahı artıq Ülamənin Osmanlı sarayına yollanması haqqında məlumat almışdı. Bu xəbər Şah Təhmasibi yenidən xeyli qəzəbləndirdi və bu qəzəbin nəticəsi kimi Ülaməyə elçilik edən Zülqədər Ürkməzin diri-diri yandırılması haqqında göstəriş verdi. Sultan Süleyman isə Səfəvi sarayının yüksək mənsəbli əmirlərindən birinin ona sığınmasından çox sevindi. Bəzi məlumatlara görə,

Sultan Süleyman hətta ona paşa məqamı da lütf elədi. Səfəvi dövləti üzərinə hücum niyyətindən əl çəkməmiş Sultan Süleyman üçün yüksək məqamlı bir Səfəvi əmirinin onun yanında olması gələcək planların həyata keçirilməsi üçün çox faydalı ola bilərdi. Buna görə də Ülamə Təkəliyə Osmanlı sarayında çox isti münasibət göstərildi. Ülamə Təkəli də öz növbəsində ona göstərilən ehtiramın təsadüf olmadığını nümayiş etdirmək üçün bütün təcrübə və bacarığını ortaya qoymağa çalışdı. O, hətta Osmanlı qoşunlarının Avstriya kralı Ferdinanda qarşı hərbi yürüşündə iştirak etmiş və fəaliyyəti ilə Osmanlı sarayına sədaqətli olduğunu göstərməyə çalışmışdı (35).

Öz təzkirəsində etdiyi qeydlərdən görmək mümkündür ki, Şah Təhmasib bu hadisəni təəssüflə xatırlayırdı. Ülamə Təkəlinin Şah İsmayıl dövründə tutduğu yasavul vəzifəsindən Azərbaycan əmirül-ümərası vəzifəsinə kimi yüksəlməsi Səfəvi sarayının ona qarşı göstərdiyi lütfün nəticəsi idi. Ülamə Təkəli isə bu lütfün qarşılığı olaraq itaətsizlik yolunu tutmuşdu. Ülamə Təkəlinin asiliyini və onun səltənətdən üz döndərməsini Şah Təhmasib belə xatırlayırdı: “Bu xəbər bir neçə gündən sonra tam müəyyən və aydın olanda vəzirlər mənə dedilər. İgid döyüşçülərdən bir qədər adamı onun üstünə göndərdim. Bu döyüşçülər yolda məsləhətləşirlər ki, gecə xəbərsiz Ülamənin ordusunun üstünə tökülsünlər. Zülm və azğınlıqla əldə etdikləri bütün mal və silahları geri alsınlar. O haramzadənin özü bu işdən xəbərdar olub, gecə ordunu buraxaraq Vana tərəf qaçır. Döyüşçülər onun ordusunun üstünə tökülən gecə əlsiz-ayaqsızlardan, kəniz və xidmətçilərdən başqa heç kim yox idi. Həyat peymanəsi hələ dolmadığı (ömrü tamam olmadığı) üçün aradan çıxmışdı. Onun yerdə qalmış mal və silahları bütünlüklə ələ keçirildi. Döyüşçülərdən bir hissəsi onu tutmaq üçün yola düşdü. Lakin o, fitnəkar, ikiüzlü və hiyləgər bir adam idi. Günahsız imamlardan – onların hamısına allahın xeyir-duası olsun – başqa hamını aldadıb oynadardı. Vandan qaçıb Ruma (Türkiyəyə) getdi” (36).

Ülamə Təkəli təkcə Osmanlı sarayına sədaqət nümayiş etdirmədi. O eyni zamanda Sultan Süleymanı və Osmanlı əyanla-

rını Səfəvi sarayı üzərinə hücuma təşviqləndirdi və sonda buna nail oldu. Səfəvilərə qarşı hərbi yürüşlər Bitlisdən başladı. Bitlis və onun ətrafı Sultan Səlim dövründən Osmanlı hüdudları daxilinə gətirilmişdi. Amma bu şəhərdə və ətrafında yaşayan kürd əmirlərinin və əyanlarının heç də hamısı Osmanlı sarayının siyasəti ilə razı deyildi. Onlardan biri də Bitlis hakimi Şərəf xan idi. Osmanlı sarayının siyasətindən narazılıqlar axırda ona gətirdi ki, Şərəf xan yenidən Səfəvi hakimiyyətini qəbul etdi və bu da Osmanlı sarayının qəzəbinə səbəb oldu. Ülamə Təkəlinin təhriklərindən sonra nəhayət ki, 1531-ci ildə Sultan Süleyman Bitlis üzərinə hərbi yürüş üçün qərar verdi. Bu zaman o hələ Avropa yürüşünü başa çatdırmamışdı. Elə orada o, Ülamə Təkəlini Bitlis hakimi təyin etdi və onu Fil Yaqub paşa ilə birlikdə Bitlis üzərinə göndərdi. "Ülamə Ruma getdikdə Sultan Süleymanı təşviq etdi ki, dinin pənahı olan şahla düşmənçilik etsin. Buna görə də [Sultan Süleyman] Fil paşanı əlli min süvari ilə Ülaməyə yoldaş edib onları Bitlis hakimi Şərəf xan Kürdün üzərinə göndərdi ki, o diyarı onun əlindən alsın. Bu xəbər o vilayətdə yayıldı. Şərəf xan öz oğlu Şəmsəddin xanı Bitlisdə qoyub aləmin pənahı olan dərgaha yollandı. Bu tərəfdən dinin pənahı olan şah tərtibə salınmış ordu ilə və növrəstə cavanlarla birlikdə qəzəbli aslan və qorxunc bəbir kimi onların üzərinə hərəkətə gəldi. Elə ki o həzrətin irəliləməsinin avazı rumilərin qulaqlarına çatdı, onları dəhşət və heyrət bürüdü. Onların bəxtlərinin ulduzu söndü, səadətlərinin kosu isə başı aşağı düşdü. Onlar Bitlisi zəbt etməkdən ümidlərini üzdülər. Toplarını orada qoyub qaçış yolunu tutdular. Dəli Yadigar Ruzəki rumilərin fərarının xəbərini Qaranqu-dərədə şahın ərzinə çatdırdı. O həzrət geri qayıdıb o il Təbrizdə qışlaq etdi" (37).

Ülamə Təkəlinin təhriki ilə Osmanlı qoşunlarının Səfəvi hüdudlarına hücum cəhdi barəsində Şah Təhmasibin təzkirəsində də maraqlı qeydlər vardır. Onun fikrincə, Ülamə Təkəli Osmanlı sarayında baş vəzir İbrahim paşa ilə daha yaxın münasibətlər qura və İbrahim paşanın vasitəsi ilə o, Osmanlı sultanını da Səfəvi üzərinə hücuma təhrik edə bilmişdi. Şah Təhmasibin qeydlərindən o da aydın olur ki, Ülamə Təkəli Osmanlı sarayına sığındığı

vaxt Şah Təhmasib artıq öz elçisini Sultan Süleymanın sarayına göndərmişdi. Eləcə də o da aydın olur ki, Şah Təhmasib iki dövlət arasında münasibətlərin gərginləşməsini təqdir etmirdi və iki müsəlman dövlətin daha etibarlı münasibət qurmasının tərəfdarı idi. Osmanlı sarayına Şah Təhmasibin elçisinin göndərilməsi Osmanlı mənbələrində də təsdiqlənmişdir. Bildirilir ki, Ferdinanda qarşı müharibəyə yollanmazdan əvvəl Səfəvi elçisi Osmanlı sarayına yetişmişdi. Bu elçini göndərməkdə məqsəd də iki dövlət arasında münasibətləri tənzimləmək və bu münasibətlərin müharibəyə yol açmasının qarşısını almaq idi. Amma Səfəvi elçisi "inayətlə vilayətinə" göndərilmiş və Sultan Süleyman da bundan sonra Avropaya doğru hərəkətə başlamışdı (37).

Şah Təhmasib öz təzkirəsində Ülamə Təkəli haqqında və onun təhriki ilə baş verən hadisələr haqqında belə yazırdı: "Deyilənə görə İbrahim paşa ilə bərk dost olub. Belə ki, İbrahim paşa onunla dərdləşərkən deyir ki, Sultan Mustafadan çox qorxuram. Ülamə cavabında deyir:

-Şərq ölkəsi boşdur və Qızılbaşların əksəriyyəti mənimlə müttəfiqdirlər. Əgər paşa o tərəf getsə, o ölkəni ələ keçirməyi öhdəmə götürürəm. Paşa Azərbaycan, İraq və fars mülkündə padşahlıq edər və hər il Xandigar üçün hədiyyə göndərər. Hələlik siz Bitlisi mənə verin ki, mən qabaqca gedib müttəfiqlərimlə əlaqə saxlaya bilim. Siz ardımca gəlin, həzrət Xandigar İbrahim paşanın sözündən çıxa bilmədiyi üçün onun sözünün birini qəbul etməsə də, digərini qəbul edirdi. İbrahim paşa Ülamənin sözlərinə aldanaraq Bitlisi ona verir, qoşunla Şərif bəyin üstünə göndərir. Şərif bəy müqavimət göstərə bilməyərək bizim yanmıza gəldi.

Mehmandar Habil bəyin bizim yanımızdan elçiliyə gedib Xandigarın xidmətində olmasına baxmayaraq, Ülaməyə qoşun verib [üstümüzə] göndərdilər. Xandigar firəng tərəfə üç mənzil getdikdən sonra Habil bəyi yola saldılar və bizə yazdılar ki, Şərəf bəyi tutub göndərək. Əmirlər dedilər:

-Həzrət Xandigarın bizə qarşı münasibəti yaxşı olsaydı, Ülaməyə o tərəflərdə vilayət [hakimliyi] verib üstümüzə göndər-

məzdi. Bizim nökərimizi himayə edib, yanında saxlamaqdan düşmənçilik iyi gəlir.

Hüseyn xan Şamlu, Müntəşa sultan, Abdulla xan, Əbülaldı ağa məsləhət gördülər ki, başqa bir elçi göndərək, öyrənib görsünlər ki, Həzrət Xandigarın bizə [münasibəti] yaxşıdır, ya yox. Əvvəl Verdik sultanın vəkili, sonra isə İsmayıl Mirzənin dədəliyi (lələsi) olan Hacıları göndərdim. Yazdım ki, Ülamə bizim yanımızdan qaçıb sizin yanınıza gəlib, siz Ülaməni göndərin, biz də Şərəf bəyi göndərək. Nə üçün Ülamə və Şərəf bəyə görə iki islam padşahı arasında çəkişmə olsun? Onlar qəbul etmədilər. Və cavabında yazdılar ki, Ülamə bizə pənah gətirib, onu vermək olmaz, siz Şərəf bəyi bizə verin. Əgər bundan sonra sizin yanınızdan bir nəfər gəlsə, biz də geri göndərərik.

Bu xəbərdən məlum oldu ki, Xandigar bizə qarşı bərk qəzəblənmişdir. Axır ya özü bizim üstümüzə gələcək, ya da üstümüzə qoşun göndərəcək" (38).

Bu qeydlərdən o da aydın olur ki, Səfəvi sarayı Osmanlı sarayı ilə münasibətlərin normal məcrada olacağını güman edirmiş. Yəni Sultan Süleymanın 1525-ci ildə Şah Təhmasibə göndərdiyi məktubda olan qəzəb və kin Şah Təhmasibin və onun əyanlarının münasibətində hiss olunmurdu. Şah Təhmasib hətta növbəti dəfə öz elçilərini Osmanlı sarayına göndərmiş və Osmanlı sarayı ilə mövcud olan anlaşılmazlıqların aradan qaldırılmasına çalışıbmış. Amma Osmanlı sarayında artıq Səfəvi dövlətinə qarşı konkret münasibət formalaşmışdı və bu münasibət heç də qarşılıqlı maraqlara cavab vermirdi. Şah Təhmasib öz təzkirəsində daha sonra belə yazırdı: "Xüddam Müntəşa sultan dedi:

-Bizim rumlularla (osmanlılarla) müharibə etməyimizə ehtiyac yoxdur. Ərciş yaxınlığına qədər getsək, onlar bizim gəlmək xəbərimizi eşitcək, özləri qaçıb gedəcəklər.

Biz Müntəşa sultanın bu sözlərinə əsasən köç edib o tərəfə yola düşdük. Xoyun Qarunqudərə [adlı] yerinə çatdıqda, Dəli Yadigar Pujəki Bitlis qalasından gəlib xəbər gətirdi ki, Fil paşa atın yəhər qayışlarını bərkidib qaçmışdır. Əmirlər, qorçilər və ağıllı adamları çağırıb məsləhətləşdik ki, indi biz nə etməliyik.

Camaat danışıb dedi ki, Xandigar Firəngə gedib, biz onun ölkəsinə gedək. Fil paşa qaçıb Diyarbəkrdədir, bis Sivasa gedək. O mahalın əksər əhalisi çal-çap məqsədilə bizim ətrafımıza toplaşacaq. O mahalı qarət edib Mərəşdə dayanaq və camaatı ətrafımıza toplayaq. Xandigar İstanbula getdikdə, oranı tamamilə yandırıb, quru çölə döndərərik, bizə qoşulmaq istəməyənləri isə qətl və qarət edərik. Diyarbəkrdə o qədər dayanarıq ki, Xandigar Xurəm və Amasiyaya gələr, onda biz Diyarbəkri də yandırar və qarət edib Bağdada gedərik. Mosul çayından keçərək qışı Bağdad ətrafında qalarıq. Əgər Xandigar yaz fəslində üstümüzə gəlsə, onda Şəhriruzbeh yolu ilə Təbrizə gələrik. Əgər Xandigar Təbrizə getsə, biz Diyarbəkrdən Sivas tərəfə gedərik.

Onların sözü tamam olduqda mən cavabında dedim ki, həzrət Xandigarın adamları Firəng tərəfə din uğrunda döyüşə getmişdir. Biz onun ölkəsinə getsək, işimiz irəli getməyəcəkdir. Əgər o mənim qardaşımı və uşağımı öldürsə belə, kafirlərlə din uğrunda döyüşə getdiyi üçün onun ölkəsinə getmərəm. Dinimi dünyaya satmaram" (39).

Bu qeydlərində Şah Təhmasib az qala Sultan Süleymanın müdafiəçisi kimi çıxış etmişdir. Yuxarıda ifadə olunmuş fikir, əslində, Şah Təhmasibin Osmanlı dövlətinə qarşı yürütmək istədiyi siyasətin mahiyyətini təşkil edə bilər. Şah Təhmasib Osmanlı dövləti ilə müharibə etmək istəmədiyi kimi, Osmanlı sultanının ölkə daxilində olmadığı bir vaxtda onun üstünə qoşun çəkməyi də qəbul etmirdi. Ona görə də Şah Təhmasib çalışırdı ki, Ülamə Təkəli ətrafında baş verən hadisələr də daha sakit şəkildə çözülsün. O zaman 17 yaşında olan Şah Təhmasib yaşına uyğun olmayan bir müdriklik nümayiş etdirdi və Səfəvi-Osmanlı münasibətlərində qarşılıqlı anlaşmanın bərqərar edilməsinə üstünlük verdi. Bütünlükdə isə, Şah Təhmasib Osmanlı ilə aparılan müharibələrin təşəbbüsçüsü olmamışdı.

Şah Təhmasib öz təzkirəsində daha sonra belə yazırdı: "Bəziləri dedilər:

-Əgər o üstümüzə gəlsə, bizim halımız necə olar?

Müntəşa sultan əlindəki almanı göyə ataraq dedi:

-[Bu alma göydən] yerə düşənə qədər min şəkil alar.

Məsləhət budur ki, biz öz ölkəmizə gedək və qışı orada qalaq. Bəlkə Xandigar baharda gəlmədi, oradan qayıdıb Çuxursəəd yolu ilə Təbrizə gəldik" (40).

Bəzi mənbələrə əsaslanan tədqiqatçılar Şərəf xana kömək etmək üçün Şah Təhmasibin qoşun dəstəsi ilə Bitlisə qədər hərəkət etdiyini xəbər verirlər. Bildirilir ki, Bitlis qalası üç ay müddətində Ülamə Təkəli ilə Fil paşanın qoşun dəstəsinin mühasirəsində qaldı. Yalnız Şah Təhmasib yetişəndən sonra Osmanlı qoşunları oradan uzaqlaşmalı oldu. O da bildirilir ki, Şah Təhmasib burada Şərəf xana çoxlu qiymətli hədiyyələr verməklə onu Kürdüstan bəylərbəyi vəzifəsinə təyin etdi. Bitlislə bərabər, Əxlət, Muş, Hınıs və onlara aid olan bölgələr də Şərəf xanın idarəçiliyi altına verildi (41).

Osmanlı mənbələrinə görə, Osmanlı qoşunlarının Bitlis ətrafından geri çəkilməsi xəbərini Dəli Yadigar adlı birisi Qarunqudərədə Şah Təhmasibə çatdırdı və onu muştuluqladı. Şah Təhmasib bu xəbəri alandan sonra çəkilib Təbrizə getdi. Bildirilir ki, Şərəf xan da Osmanlı qoşunlarının geri çəkilməsindən sonra onun tabeliyində olan ərazilərdən toplanmalı olan vergilərin beşdə birini üç gün ərzində toplayaraq Şah Təhmasibin dərgahına yollandı. Şah Təhmasib bu görüşdən xoşlanaraq Əxlət, Muş və Hınısın idarəçiliyni də Şərəf xana həvalə etdi (42). Ülamə Təkəli də, Osmanlı sarayının əyanları da, elə Sultan Süleyman da Bitlisin Səfəvi idarəçiliyində qalmasından heç də məmnun olmadılar və Bitlisin geri qaytarılması üçün yollar aranmasına başladılar. Bitlis ətrafında cərəyan edən hadisələr eyni zamanda Osmanlı sarayının Səfəvi dövləti üzərinə hücum meylini daha da gücləndirdi.

Öz məqamına bərpa olunmaqdan sevinən Şərəf xan o zaman Ağdamar qalasında olan oğlu Şəmsəddin bəyi də Şah Təhmasibin xidmətinə göndərdi. Məlumdur ki, Bitlis kampaniyası başa çatandan sonra Şah Təhmasib yenidən Xorasana üz tutmalı oldu. Çünki Übeyd xanın növbəti dəfə Xorasan üzərinə olan hücumu yenidən qətiyyətli tədbirlərin həyata keçirilməsini tələb edirdi.

Təbrizdən Xorasana doğru hərəkətə başlamazdan əvvəl Şah Təhmasib Şərəf xanın oğlu Şəmsəddin bəyi yanına çağırdı və təkliflərini Şərəf xana çatdırmaq üçün onu Bitlisə göndərdi. Şah Təhmasib təkidlə Şərəf xandan tələb edirdi ki, onun Xorasandan geri dönməsinə qədər osmanlılarla münaqişəyə getməsin və onlarla yaxşı dolanmağa çalışsın. Şah Təhmasib şübhə etmirdi ki, Ülamə Təkəli Osmanlı sarayını yenidən Bitlis üzərinə hücuma təhrik edəcəkdir. Şərəf xan çalışmalı idi ki, Osmanlılarla yenidən döyüşə girməsin. Bundan əlavə, Osmanlı mənbələrinə görə, Şərəf xan həm də Şah Təhmasib tərəfindən Təbriz şəhərinin mühafizəsinə məsul təyin edildi. Ələşgertdən olan Ərəbkirli Helhel sultan, Hınısdan olan Pazukili Üveys sultan, Vandakı Əcəl sultan Qacar, Saraydakı Mahmudlu Əmirə bəy, Təbriz hakimi Musa sultan da Təbirizin mühafizəsi üçün ona kömək göstərməli idilər (43).

Bu ehtiyat tədbirlərinin nəzərdə tutulmasına baxmayaraq, Osmanlı qoşunlarının Bitlis üzərinə növbəti hücumunun qarşısını almaq mümkün olmadı. Bir tərəfdən Ülamə Təkəli öz təhriklərindən əl çəkmədi və təkidlə Osmanlı qoşunlarının Bitlis üzərinə hücumuna çalışdı. İbrahim paşa da bu təkliflərdən kənarda qalmadı. Sözsüz ki, Bitlis üzərinə ilk hücumun uğursuzluğa düçar olması İbrahim paşada, eləcə də Osmanlı sarayının digər mənsublarında qisasçılıq hisslərini də gücləndirirdi. Digər tərəfdən Sultan Süleymanın özü də Səfəvi sarayına qarşı ciddi mövqeyindən heç də əl çəkməmişdi. Sultan Süleyman Səfəvi hüdudlarına hərbi yürüşü ərəfəsində Bitlisdəki Osmanlı müxalifətçiliyini aradan qaldırmaq istəyirdi. O həm də Şərəf xanı cəzalandırmaqla digər kürd əmir və əyanlarına dərs vermək və onları Səfəvi dövlətinə meyllilikdən çəkindirməyə çalışırdı. Ona görə idi ki, Sultan Süleyman Bitlis üzərinə yeni qoşun dəstəsinin göndərilməsi barəsində əmr verdi. Bu qoşun dəstəsinə Ülamə Təkəli ilə Fil paşa rəhbərlik etməli idi (44).

Ülamə Təkəli və eləcə də Osmanlı sarayı Şah Təhmasibin qoşunu ilə Xorasan istiqamətinə yollanmasından da xəbərdar idilər. Bu isə Bitlis üzərinə hücum üçün münasib şərait kimi dəyərləndirlirdi. Çünki Osmanlı qoşunlarının hücumu qarşısında

Şərəf xan ağır vəziyyətə düşməklə Səfəvi sarayından kömək ala bilməyəcəkdi.

Fil Yaqub paşa ilə Ülamə Təkəlinin növbəti yürüşü ərəfəsində Şərəf xan qərar tutduğu bölgədə öz mövqeyinin möhkəmləndirilməsi üçün müəyyən tədbirlər həyata keçirdi. O, Osmanlı qoşunları ilə əvvəlki döyüş zamanı osmanlıların tərəfinə keçmiş Kızan hakimi Davud bəylə haqq-hesab çəkməyi məqsədəuyğun saydı. Bu məqsədlə Şərəf xan qoşun dəstəsi ilə Kızan qalasını mühasirə etdi və bir neçə gün bu qalanı mühasirədə saxladı. Elə həmin günlərdə Fil paşa ilə Ülamə Təkəli də Şərəf xan üzərinə hərəkətə başladılar. Bildirilir ki, Bitlisə doğru irəliləyən Osmanlı qoşunlarının sayı on min nəfərdən ibarət idi. Bu qoşun dəstəsinə həm soyuq silahla, həm də odlu silahla silahlanan döyüşçülər daxil idilər. Qoşun dəstəsinə Diyarbəkrdən topların da verildiyi haqqında məlumat vardır. Osmanlı qoşun dəstəsi Kızan yolu ilə Tətik məntəqəsinə doğru hərəkət edirdi. Bu marşrutun seçilməsində məqsəd Kızanda Davud bəyə kömək göstərilməsi idi. Ülamə Təkəlinin Bitlisə doğru irəliləməsi xəbəri alınınca Şərəf xan Kızanın mühasirəsini dayandıraraq geriyə döndü. Osmanlı qoşun dəstəsinin bölgəyə gəlməsi xəbərini eşidəndə Şərəf xanın ətrafında olan bəzi kürd bəyləri ondan uzaqlaşmağı və Ülamə Təkəliyə birləşməyi qərara aldılar. Onların arasında Kisanili Budaq bəy, Bilbaslı Şeyx Əmir oğlu İbrahim ağa, Kəlhuqlu Məhəmməd ağa oğlu Qələndər ağa, Kəlləçirli Dərviş Mahmud və başqaları var idi. Amma kürd bəyləri arasında ona və eləcə də Səfəvi sarayına sədaqətli qalanları da var idi. Mənbələrdə onlardan Çötəli Həsən bəyin, Pazukili Qılıc bəyin adları çəkilmişdir. Şərəf xan onun üzərinə qoşun gəlməsindən heç də qorxmadı və ona sədaqətli olan qoşunları toplayaraq Osmanlı dəstəsinin qarşısına çıxdı. 1533-cü il sentyabr ayının 27-də (h.q. 8 rəbiyeləvvəl 940-cı ildə) Tətik qalasının cənubundakı ərazidə tərəflər arasında döyüş baş verdi. Bu döyüşdə Osmanlı qoşun dəstəsi daha əlverişli mövqe seçə bildi və bu da döyüşün gedişinə təsir göstərdi. Osmanlı qoşun dəstəsi dağ ətəklərində qərar tutdu ki, arxadan Sərəf xan döyüşçülərinin dağdan aşıb gəlməsi

mümkün olmasın. Səfili və Rojekili döyüşçüləri böyük bir əzmkarlıqla Osmanlı qoşunu üzərinə yerisə də, Şərəf xanın dəstəsinin sağ cinahında mövqe tutmuş Mahmudlu Əmir bəyin öz dəstəsi ilə döyüş mövqeyini tərk edərək Ülamə Təkəliyə birləşməsi döyüş meydanında vəziyyətin Osmanlı dəstəsini xeyrinə dəyişməsinə yol açdı. Döyüşün gedişində Şərəf xan sol çiyindən tüfəng yarası aldı və bu da, əslində, onun ölümünə yol açdı. Bildirilir ki, Şərəf xanın dəstəsindən 700 nəfər döyüşdə həyatlarını itirdilər. Elə Şərəf xanın özü də bu döyüşdə qətlə yetirildi və dərhal da onun başı bədənindən ayrıldı. Şərəf xanın ölümündən sonra onun əmir və əyanları Şərəf xanın başına toplaşaraq müqavimət göstərməyin bir nəticə verməyəcəyi qənaətinə gəldilər. Belə olanda onlar öz nümayəndələrini Ülamə Təkəlinin yanına göndərərək onun şərtlətini qəbul etməyə hazır olduqlarını bəyan etdilər. Ülamə Təkəli də bununla razı oldu. Sonra o, məktub yazaraq bu barədə İbrahim paşaya məlumat çatdırdı və Şərəf xanın başını da həmin məktubla birlikdə yolladı. 1533-cü il noyabr ayının 5-də İbrahim paşa Konyanın Çinarlı məntəqəsində olarkən Şərəf xanın kəsik başı ilə Ülamə Təkəlinin məktubu ona çatdırıldı. İbrahim bəy Bitlisin nəzarət altına alınması xəbərini eşidəndən sonra bu şəhərin idarəçiliyi ilə bağlı özünəməxsus bir qərar qəbul etdi. O bu şəhərin hakimiliyini Şərəf xanın oğlu Şəmsəddin bəyə həvalə etdi və bu barədə Osmanlı sultanına da məlumat göndərdi. Bu qərar sözsüz ki, Şərəf xanın ətrafında toplanmış olan əmir və əyanları, eləcə də bölgənin digər bəylərini Osmanlı tərəfinə cəlb etmək planı ilə bağlı idi və bu planın doğruluğuna Osmanlı sultanı da inandırılmışdı. Ülamə Təkəli Bitlisə daxil olmadan Hələbə doğru istiqamət götürdü və 1533-cü ilin sonlarında Hələbə yetişərək qışlaq üçün orada dayandı. Bununla Şərəf xanın müqavimətinə son qoyuldu və Bitlis yenidən Osmanlı idarəçiliyi altına gətirildi (45).

Bəzi mənbələrdə olan məlumata görə, Ülamə Təkəlinin rəhbərlik etdiyi Osmanlı qoşun dəstəsi ilə Şərəf xan arasındakı qarşıdurma Bitlis qalası ətrafında oldu. Şərəf xan qalanı tərk etmədi. Əksinə, bütün imkanlarını səfərbər edərək qala divarlarının

möhkəmləndirilməsinə çalışdı. Nəticədə günlərlə qalanı müdafiə etmək mümkün oldu. Şərəf xan hər gün qala divarları boyunca olan müdafiə mövqelərini gəzir və döyüşçüləri qalanın müdafiəsinə ruhlandırırdı. Ülamə Təkəlinin səyləri isə o zaman nəticə verdi ki, ixtiyarında olan toplardan daha yaxşı istifadə edə bildi. Nəticədə top atəşlərindən sonra dağılmış qala divarlarından şəhərə daxil olmaq və onu ələ keçirmək mümkün oldu. İstinad olunan mənbə məlumatına görə, Bitlis şəhəri ələ keçiriləndən sonra Ülamə Təkəli Təbriz üzərinə hərəkət etdi (46).

Ülamə Təkəlinin ikinci dəfə Bitlis üzərinə qoşun çəkməsi barəsində Şah Təhmasibin təzkirəsində də müəyyən məlumat vardır. Şah Təhmasib şübhə etmirdi ki, Ülamə Təkəli yenidən Səfəvi maraqlarına qarşı çıxacaqdır. Çünki yalnız bu yolla o, öz məqsədlərinə nail ola və Səfəvi qorxusundan canını qurtara bilərdi. Şah Təhmasib hələ Xorasanda olarkən Bitlisin Osmanlı qoşunlarının nəzarəti altına keçməsi haqqında məlumat almışdı: "Xəbər gətirdilər ki, Ülamə ilə Şərəf bəy və Uca sultan və onunla olan əmirlərin arasında vuruşma olub, Şərəf bəy vuruşmada öldürülüb. Biz, vaxt əlverişli olmadığı üçün bu hadisəyə baş qoşmayıb Heratda qışı keçirməkdə idik. Deyirdik ki, Allah necə istəsə, elə olacaqdır. Ülamə yol kəsən, quldur olub oğurluq etsə də, bizi yerimizdən tərpədə bilməyəcəkdir. Bu basqın Xandigar tərəfindən olmamış və o, bizim üstümüzə gəlməmişdir" (47).

Bu qeydlərdən aydın olur ki, Şərəf xanın öldürülməsi haqqında xəbər Şah Təhmasibə havaların soyumağa doğru getdiyi bir vaxtda çatdırılmışdı və Şah Təhmasib bilirdi ki, çevik şəkildə Bitlis ətrafına qoşun çatdırmaq mümkün olmayacaqdır. Digər tərəfdən, Şah Təhmasib ümid edirdi ki, Bitlis üzərinə qoşun dəstəsi göndərilməsi Osmanlı sultanının təkidli tələbi olmayıb və Osmanlı sultanının Səfəvi hüdudlarına qoşunla gəlmək istəyi yoxdur. Əslində, isə Osmanlı sultanından xəbərsiz Bitlis istiqamətində qoşun göndərilməsi mümkün deyildi və bununla bağlı olan fəaliyyət Osmanlı sarayı üçün Səfəvi dövlətinə qarşı planlaşdırılan müharibənin ərəfəsi idi.

## 2. Şah Təhmasib dövrünün Osmanlı qoşunları

Osmanlı-Səfəvi müharibələrinin başlanmasında təşəbbüskarlığın kimin tərəfində olması haqqında tədqiqatçılar arasında yekdil bir mövqe mövcud deyildir. Mövzu çərçivəsində isə Şah Təhmasibin bu məsələyə nə dərəcədə meylli olması maraq kəsb edən bir məqamdır. Yuxarıda istinad edilən bir sıra faktlardan göründüyü kimi, iki dövlət arasında münasibətlərin gərginləşməsində və müharibəyə zəmin yaradılmasında Səfəvi təriqət təbliğatçılığının Anadoluda güclənməsi reallıq idi və bu təbliğatçılığın genişlənməsində Səfəvi xanəgahı ilə Səfəvi sarayının maraqlı olması ehtimal edilirdi. Şübhəsiz ki, Səfəvi təriqət təbliğatçılığının Anadoluda mövcudluğu istisna edilməməlidir. Hətta bəzi tədqiqatçılar bəyan edirlər ki, Səfəvi dövləti Osmanlıya qarşı davamlı düşmənçilik nümayiş etdirməsəydi, Osmanlı sarayı bütün diqqətini qərb cəbhəsinə yönəldər və Avropanın mənzərəsini tamamilə dəyişmiş olardı. O da iddia olunur ki, əslində, Avropa cəbhəsində Osmanlı dövlətinin fatehliyinin qarşısını alan Avropa dövlətləri deyil, Şah Təhmasibin Osmanlı dövlətinə qarşı düşmənçiliyinin davam etməsi idi (48). Bu fikrə görə, Şah Təhmasibin Osmanlı dövlətinə qarşı düşmənçililiyi o dərəcədə təhlükəli idi ki, Sultan Süleyman Avropa ilə bağlı planlarının icrasını dayandıraraq Səfəvi dövlətinə qarşı müharibəyə başlamalı olmuşdu.

Lakin elə Şah Təhmasibin özünün ifadə etdiyi fikirlər onun Osmanlı dövlətinə qarşı ifrat düşmənçilik mövqeyində olmasını birmənalı şəkildə təsdiqləmir. Əksinə, Şah Təhmasib iki böyük müsəlman dövləti arasında xoş münasibətlərin bərqərar olmasına maraq göstərirdi. Doğrudur, Şah Təhmasib onun hakimiyyətə gəlişi zamanı artıq Osmanlı hüdudları daxilində olan Bitlis məsələsinin həllinə təşəbbüs göstərmişdi. Amma tərəflər arasında həyata keçirilən elçilik mübadiləsi zamanı onu da bildirmişdi ki, Osmanlı tərəfinə sığınmış keçmiş Azərbaycan əmirül-ümərası Ülamə Təkəli geri qaytarılarsa, o da Bitlis hakimi Şərəf xanı Osmanlı sarayına təhvil verməyə hazırdır. Yəni o bununla Bitlisin Osmanlı hüdudlarında qalmasını tanıyırdı. Osmanlı sarayı isə

buna razı olmadı. Bitlisin yenidən Osmanlı idarəçiliyinə gətirilməsini isə Şah Təhmasib təmkinlə qarşıladı.

Məlumdur ki, Bitlis yenidən Osmanlı hüdudlarına qatıldıqdan sonra Ülamə Təkəlinin təhriki ilə Osmanlı qoşunları Van gölü ətrafında yerləşən bir çox qalalar üzərinə də hücum etdi və bu qalalar da Osmanlı nəzarəti altına gətirildi. Hətta bu zaman da Şah Təhmasib səbirli bir mövqedə oldu. Bu isə Osmanlı mənbələrinə görə, Osmanlı sarayında Şah Təhmasibin müharibədən uzaq qaçması təsəvvürü də yaratmışdı. Yəni Osmanlı sarayı da təəccüb edirdi ki, Səfəvi dövlətinin qərb sərhədlərinə olan müdaxilələrə qarşı Şah Təhmasib hərəkətə keçmir (49). Doğrudan da, Şah Təhmasib qərb sərhədlərində baş verənlərə qarşı təsirli tədbirlər görülməsinə tələsmirdi. Yuxarıda qeyd edildiyi kimi, o, Bitlisdə, o cümlədən də qərb sərhədi boyunca baş verənləri Sultan Süleymanın Səfəvi dövlətinə qarşı düşmənçilik siyasətinin nəticəsi deyil, Ülamə Təkəlinin Səfəvi dövlətinə qarşı qisasçılıq fitnələrinin nəticəsi kimi qəbul edirdi. Yəni Şah Təhmasibdə belə bir ümid var idi ki, iki dövlətin sərhədində yaşananlar son nəticədə iki dövlət arasında böyük müharibəyə gətirib çıxarmayacaqdır. Ona görə də Şah Təhmasib Xorasan vilayətinin özbək qoşunlarından təmizlənməsi üçün başladığı kampaniyanı təxirə salmadı. Şah Təhmasib Xorasanı özbək qoşunlarından təmizlədikdən sonra Bəlx üzərinə hücum həyata keçirmək istəyirdi. Yalnız Sultan Süleymanın çox böyük sayda qoşunla Səfəvi hüdudları üzərinə hücuma başlaması xəbərini eşidəndən sonra Şah Təhmasib səltənət hüdudlarının daha yaxşı müdafiəsinin təşkil edilməsi məqsədi ilə geri qayıtmaq haqqında qərar qəbul etdi.

Sultan Süleyman Avropa yürüşünü başa vuran kimi, dərhal şərqə doğru istiqamət götürdü. Mənbələrdə və tarixi ədəbiyyatda olan məlumatlardan belə aydın olur ki, Avropa yürüşündə olarkən də Sultan Süleyman şərqə doğru yürüş, Bağdaddan keçməklə Bəsrə körfəzinə çıxış barəsində konkret planlara malik idi. Bu fatehlik planının həyata keçirilməsi isə Səfəvi dövləti üzərinə hücumdan başlamalı idi. Həmin hücuma başlamaq üçün Sultan Süleyman hələ 1533-cü ilin əvvəllərindən Ferdinandla sərfəli

şərtlərlə müqavilə imzalanması barəsində danışıqlara başladı. Həmin ilin yayında bu danışıqlar yekunlaşdı və 1533-cü ilin iyul ayında Ferdinandla sülh müqaviləsi imzalandı (50). Osmanlı sarayının maraqlarına cavab verən bu müqavilənin imzalanması Səfəvi dövləti üzərinə müharibə hazırlığının həlledici mərhələyə qədəm qoymasına yol açdı.

Osmanlı-Səfəvi müharibələri başlayanda Sultan Süleyman və onun rəhbərliyi altında olan Osmanlı qoşunları qüdrətinin zirvəsində idi. Az qala Avropanın yarısı Osmanlı qoşunları qarşısında diz çökmüşdü və Şah Təhmasib də gənc yaşlarında olmasına baxmayaraq Şah İsmayıldan ona miras qalmış Səfəvi dövlətini belə qüdrətli qoşunlardan qorumalı idi. Osmanlı qoşunları həm döyüşgənliyi ilə seçilirdi, həm də təşkilatçılığı ilə. Öz təcrübəsinə və imkanlarına görə bu qoşunlar dövrünün və zəmanəsinin ən güclü qoşunlarından biri idi. Tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, XVI əsrdə inkişafının ən yüksək nöqtəsində olan Osmanlı qoşunlarının formalaşmasında Anadolu səlcuqlarının, Elxanilər və Məmlüklər dövlətlərinin hərbi təcrübəsinin və ənənələrinin özünəməxsus təsiri var idi (51). Yəni XVI əsrdəki zirvəsinə Osmanlı qoşunları tarixi ənənələrin və təcrübənin üzərində gəlib çata bilmişdi.

Osmanlı dövlətinin tarixi, orta əsrlər Yaxın Şərqinin digər dövlətləri kimi, əslində, cəngavərlik tarixi idi və bu dövlətin mövcudluğu da döyüş və cəngavərlik üzərində bərqərar olmuşdu. Bu dövlətin güclü qoşunları və döyüşkənlik qüdrəti olmasaydı kiçik bir bəylikdən Osmanlı dövləti kimi böyük dünya dövlətinə çevrilə bilməzdi. Osmanlı qaynaqlarında deyildiyi kimi, Osmanlı qoşunları Osmanlı sultanlarının qılıncı idi (52) və Osmanlı sultanları məhz bu qılınc vasitəsi ilə dünya fəthini aparırdılar. Şah Təhmasib də məhz belə bir dövlətlə və onun qüdrətli qoşunları ilə mübarizədə Səfəvi dövlətinin mövcudluğunu qorumalı idi.

Məlumdur ki, ən qədim zamanlardan türklərin həyatı at belində keçərdi və həyatları at belində keçən köçəri türklər də türk qoşunlarının əsasını təşkil edirdi. Osmanlı bəyliyini təşkil edən tayfaların həyatı da türklüyə xas olan bir həyat idi və Osmanlı

bəyliyinin qurumlandığı dövrdə təşkilatlanmış, nizamlı idarəçiliyi olan qoşunlar da mövcud deyildi. Zərurət yarandığı anda tayfa başçılarının işarəsi əsasında xüsusi carcılar vasitəsilə tayfa üzvlərinə car çəkilir və bu yolla qoşun dəstələri toplanırdı. Atlılardan toplanan qoşunlar böyük sürəti ilə seçilirdi. Bu sürətin döyüş məharəti ilə birləşməsi isə Osmanlıların zərbə qüdrətini yüksəldir və qarşıya qoyulan hərbi vəzifələrin icrasını mümkün edirdi. Xüsusilə, düzənlik ərazilərdə icra edilən hərbi yürüşlər üçün atlı qoşunların faydası daha çox idi. Belə qoşunların toplanması müvəqqəti xarakter daşıyırdı və hərbi yürüşlər icra edildikdən sonra atlılar da öz evlərinə buraxılırdı (53).

Osmanlı bəylərinin və sultanlarının fatehlik yürüşləri genişləndikcə yalnız atlı qoşunlara istinad etməyin heç də yetərli olmadığı anlaşıldı. Bir tərəfdən Osmanlı hakimləri hərbi xarakterli vəzifələrin icrası üçün daimi qoşun dəstələrinin mövcudluğuna ehtiyac duyurdular. Digər tərəfdən də qala döyüşlərində yalnız atlı qoşunlardan istifadə edilməsi qarşıya qoyulan məqsədlərin əldə edilməsini ləngidirdi. Yerüstü istehkam və müdafiə döyüşlərində piyada döyüşçülərin istifadəsi ehtiyacı Osmanlı hakimlərində belə qüvvələrin formalaşdırılmasına bir maraq yaradırdı. Məsələn, tarixdən məlumdur ki, XIV əsrdə Bursa qalasının fəth edilməsi üçün Osmanlı hakimləri 10 il vaxt sərf etməli olmuşdular. Məhz Bursa ətrafında aparılan uzunmüddətli döyüşlər daha çevik və düzənli hərbi strukturların təşkilinə bir ehtiyac yaratmışdı. Bu ehtiyacın aradan qaldırılması üçün Bursa qazisi Çandarlı Qara Xəlilin təklifi ilə piyada və atlı dəstələrinin təşkilinə başlandı. Həmin qüvvələr ilk vaxtlar qeyri-daimi qüvvələr kimi təşkilatlandırıldılar. Hərbi yürüşlər mövsümü başlayanda bu qüvvələr toplanmalı və hərbi yürüşlərdə iştirak etdikləri zaman onlara məvacib verilməli idi. Hərbi yürüşlər mövsümü başa çatanda, başqa sözlə havalar soyuqlaşanda bu qüvvələr evlərinə buraxılırdı ki, onlar öz təsərrüfat işləri ilə məşğul olsunlar.

Osmanlı fəthləri və əraziləri genişləndikcə qoşunların da sayının və gücünün artırılması zərurəti meydana çıxırdı. Bunun üçün də dövlətin hərbi qüdrətinin artırılması üçün qoşunların

təşkilinin və idarə edilməsinin davamlı olaraq təkmilləşdirilməsi aparılırdı. Yəni Sultan Süleymana qədər qoşunların təşkili inkişafda olan bir yol keçmişdi və XVI əsrdə bu qoşunlar güclü piyada qüvvələrindən və dəniz qüvvələrindən təşkil olunmuşdu. Səfəvi cəbhəsində məlumdur ki, yalnız piyada qüvvələrinin gücündən istifadə olunurdu. Piyada qüvvələrinin əsasını isə qapıqulu əsgərləri, əyalət əsgərləri və Osmanlı sarayından asılı olan vilayətlərin və dövlətlərin Osmanlı sultanının tələbi əsasında göndərdikləri hərbi qüvvələr təşkil edirdilər (54). Bu strukturların hər birinin Osmanlı gücünün formalaşdırılmasında öz yeri var idi və onlar da öz növbəsində müxtəlif qüvvələrdən təşkil olunmuşdular.

Qapıqulu qüvvələrinin formalaşdırılması Osmanlı qoşunlarının təşkilinin təkmilləşdirilməsi və inkişaf etdirilməsi istiqamətində əldə edilmiş tarixi islahatlardan biri idi. Bu qüvvələrin meydana gəlməsi ilk növbədə davamlı olaraq hərbi vəzifələrin icrasına hazır olan qoşun dəstələrinin yaradılması ehtiyacı ilə bağlı idi. Bu qüvvələr mərkəzi hakimiyyətə tabe olmaqla həm birbaşa sultana tabe idi, həm də sultan sarayını, habelə səltənət paytaxtını qorumaq vəzifəsinə malik idi. Mərkəzə bağlı olduğu üçün də qapıqulu qüvvələri mərkəz qoşunları kimi də tanınırdı. Bu qüvvələr xəzinədən ayrılan vəsaitlə maliyyələşir və daimi qaydada silah altında olurdular. Qapıqulu qüvvələri Avropa məkanında təşkil edilmiş ilk daimi qüvvələrdən biri kimi də xarakterizə edilməkdədir (55).

Qapıqulu qüvvələri uzun müddət Osmanlı hərbi gücünün əsasını təşkil etdilər. Sultan Süleyman zamanında isə bu qüvvələr kifayət qədər inkişaf etmiş və güclü bir struktur idi. Bu qüvvələrin formalaşdırılmasının əsas canlı ehtiyatları qeyri-müsəlman əhali idi. Beləsləri həm Osmanlı daxilində var idi, həm də fəth edilmiş Avropa ölkələri ərazisindən alınırdı. İlk vaxtlar qapıqulu qüvvələrinin canlı qüvvəsinin əsasını hərbi yürüşlər zamanı əsir götürülmüş insanlar təşkil edirdilər. Əvvəllər Osmanlı fəthləri zamanı əsir götürülmüş insanlardan hərbi məqsədlər üçün istifadə olunmurdu. 1363-cü ildə Osmanlı sarayı tərəfindən Pençik qa-

nunu adlı bir qanun qəbul edildi və həmin qanuna əsasən əsir götürülmüş kişi əhalinin beşdə biri vergi qarşılğı kimi Osmanlı sarayına təhvil verilməli idi. Pençik qanununa əsasən Osmanlı qoşunlarında xidmət üçün seçilən əcəm (xarici) gənclər bir çox hallarda elə Pençik oğlanlar kimi tanınırdı. Fəth edilən ölkələrin əhalisi arasından götürülmüş əsirlər pençikçi məmur tərəfindən yoxlanılır və qoşunlarda xidmət üçün yararlı olanlar seçilib ayrılırdı. Bu gənclərin hər biri 300 acğa qarşılığında satın alınıb Əcəm ocağına göndərilirdi ki, orada döyüş təlimi və tərbiyəsi alsın və döyüşçü kimi yetişsin. Seçim bir qayda olaraq 10-17 yaşlarında olan gənclər arasında aparılırdı. Böyük yaşda olan sağlam gənclər də Əcəmi ocağına cəlb oluna bilərdilər. Bu yolla seçilmiş xarici təbəələrin döyüş təlim və tərbiyəsi üçün ilk Əcəmi ocağı (mərkəzi) Geliboluda təşkil edilmişdi. Osmanlı daxilindəki xristian əhalinin uşaqları arasında da Əcəmi ocağı üçün seçimlər aparıla bilərdi. Səltənət daxilində yaşayan xristian əhali də qapıqulu əsgərlərinin toplanması mənbələrindən biri idi. Əcəmi ocaqlarının sayı sonradan Osmanlı ərazisində artdı və onlar, əslində, hərbi məktəb funksiyasını yerinə yetirməli oldular. Əcəmi ocaqlarına göndərilməzdən əvvəl qeyri-müsəlman gənclər Anadolu türklərinin ailələrinə verilirdi. Bu ailələrdə qeyri-müsəlmanlar həm türk dilini öyrənir, həm də yerli adət və ənənələrlə tanış olurdular. Sonralar Osmanlı qoşunlarının genişləndirilməsinə olan ehtiyacla əlaqədar olaraq Pençik qanunu ilə bağlı fəaliyyət daha da təkmilləşdirildi və bu istiqamətdə aparılan işlərin səmərəliliyi artırıldı. O cümlədən Əcəmi ocaqlarının şəbəkəsi genişləndirildi (56).

Əcəmi ocaqların şəbəkəsinin genişləndirilməsi onlarda təlim-tərbiyə alacaq gənclərinin sayının artırılmasına da ehtiyacı artırdı. Bunun üçün isə Devşirmə qanunu adlanan bir qanun qəbul edildi. Həmin qanunun mahiyyəti ondan ibarət idi ki, fəth edilmiş xristian ölkələrinin uşaqları toplanaraq islama qəbul etdirilməli və sonra da yüksək döyüş təlimi verməklə onlar hərbə hazırlaşdırılmalı idilər. Avropada yeni ölkələrin fəth edilməsi dayandırıldıqdan sonra əsirlərin götürülməsi də məhdudlaşdı. Ona görə

qərara alndı ki, artıq fəth edilmiş xristian ölkələrin ailələrinin uşaqları döyüş təlimi keçmək üçün seçilsin və Əcəmi ocaqlarına cəlb edilsin. Sultan II Mahmudun hakimiyyəti illərində Devşirmə qanunu qüvvəyə mindi və onun tətbiqi qanuni hal aldı. Həmin qanuna görə, hər 5-6 ildən bir xüsusi seçilmiş məmurlar tərəfindən xristian ailələrinin hər birindən bir uşaq Əcəmi ocağı üçün alınmalı idi. Bu işlə ilk vaxtlar yerlərdə təyin olunmuş məmurlar məşğul olurdular. Məlum olanda ki, yerli məmurlar uşaqların toplanmasında sui-istifadə hallarına yol verirlər, onda bu işin icrası mərkəzdən göndərilmiş məmurlara tapşırıldı. Əvvəlcə, Avropadakı Osmanlı idarəçiliyi altında olan ölkələrdə Devşirmə qanununun tətbiqinə başlandı. O cümlədən, Yunanıstanda, Bolqarıstanda, Arnavutda, sonradan isə Serbiyada, Bosniya-Herseqovinada və Macarıstanda həmin qanuna əsasən uşaqlar toplanırdı. XV əsrin sonu və XVI əsrdə isə bu qanuna əsasən Anadoluda yaşayan xristian əhalidən də uşaqlar toplanmasına başlandı. Əcəmi ocaqları üçün uşaqlar bir qayda olaraq çoxuşaqlı ailələrdən alınırdı. Ailədə tək oğlan uşağı olardısa, bu uşaq Əcəmi ocağına alınmırdı. Seçim zamanı həm yaş, həm fiziki göstəricilər, həm də sağlamlıq nəzərə alınırdı. Daha çox 14-18 yaşlarında olan uşaqların seçiminə üstünlük verilirdi. Bu uşaqlar seçildikdən sonra həm ciddi qeydiyyata alınır, həm də yenidən nəzarətdən keçirilirdi. Seçilmiş gənclər xüsusi nəzarət altında əcəmi ocaqlarına aparılırdı. Burada bu uşaqlara əvvəlcə islam dini qəbul etdirilir və sonra da onların təlim-tərbiyəsi aparılırdı. Boyları hündür olanlar bir qayda olaraq saray daxilində xidmət üçün seçilirdi. Devşirmə qanununa əsasən seçilmiş gənclər də Əcəmi ocaqlarına göndərilməzdən əvvəl türk ailələrinin ixtiyarına verilirdi. Türk ailələrində 4-8 il qalmaqla bu gənclər həm türk dilini öyrənir, həm də türk həyatına alışırdılar. Əcəmi oğlanların türk ailələrində fərqli müddətdə qalması da mümkün idi. Əcəmi ocağına cəlb edilmiş gənclərə müəyyən olunmuş məbləğdə məvacib və ildə iki dəfə geyim dəsti verilirdi. Əcəmi ocağındakı təlim və tərbiyə başa çatdıqdan sonra Əcəmi oğlanları xüsusi mərasimlə bu ocağı tərk edirdi. Bu gənclər Əcəmi oca-

ğından sonra əsasən, qapıqulu qüvvələrinin müəyyən strukturlarına göndərilirdi ki, orada öz xidmətini davam etdirsinlər (57).

Ümumiyyətlə, Devşirmə qanunun tətbiqi müəyyən qəbul edilmiş qaydalar çərçivəsində aparılırdı ki, həmin qaydalara da aşağıdakıları aid etmək olar:

- Devşirmə qanununa əsasən gənclərin toplanacağı bölgələr əvvəldən müəyyənləşdirilidri və sonra da həmin bölgəyə bəlli sayda məmurlar göndərilirdi;
- bölgənin qazisi, sancaq bəyi və rahibləri gənclərin toplanması üçün saray məmurlarına lazımi köməyi göstərməli idilər;
- qanuna əsasən gənclərin toplanması hər zaman deyil, zərurət yarandığı vaxt aparılırdı;
- bir qayda olaraq Devşirmə qanununa əsasən, gənclərin toplanması 3-5 ildən bir aparılır və seçilmiş məntəqənin hər 40 evindən bir gənc alınırdı;
- cinayət əməllərinin və əxlaqsızlığın törədilməsində günahkar bilinən ailələrin uşaqları seçimə cəlb edilməzdilər;
- seçilmiş ərazilərin kəndxudasının övladları seçimə cəlb edilməzdilər;
- bir ailədən bir uşaq alına bilərdi;
- evli olanlar və müsəlmanlar Devşirmə qanunun icrasından kənar idilər;
- oğlan uşaqlarının bu qanunun tətbiqindən gizlədilməsi ciddi cəzaya səbəb ola bilərdi (58).

Devşirmə qanununa əsasən toplanmış olan gənclərin istər türk ailələrində olan həyatı, istərsə də Əcəmi ocaqlarındakı həyatı və təlim-tərbiyəsi xüsusi nəzarət altında aparılırdı. Əcəmi ocaqlarında təlim-tərbiyənin formalaşmış bir təcrübəsi də mövcud idi. Bu kontingent üçün müəyyən normalar da müəyyənləşdirilmişdi və həmin normalara riayət etməyənlərə müvafiq cəzalar verilirdi. Əcəmi ocaqlarında cəzalandırılmışlar üçün həbsxanalar var idi. Bütün bunlar Əcəmi oğlanlarında xidmət həyatı üçün zəruri vərdişlər, nizam və intizam yaradırdı (59).

Qeyd edilməlidir ki, Devşirmə qanununun qüvvəyə minməsi ilə Pençik qanunu öz aktuallığını itirdi. Əcəmi ocaqları isə daha

aktual bir əhəmiyyət kəsb etdi və bu ocaqların Osmanlı qoşunlarının yaradılmasında və formalaşdırılmasındakı əhəmiyyəti daha da artdı. Əslində, bu qanun elə Sultan Süleymanın hakimiyyəti illərində də Osmanlı qoşunlarının təşkilatlandırılmasının əsas mexanizmini təşkil edirdi və bu mexanizmim işlək vəziyyətdə saxlanması ilə güclü bir qoşun yaradılmışdı.

Qapıqulu qüvvələri iki qoşun növündən təşkil edilmişdi: qapıqulu piyadaları və qapıqulu atlı qoşunları. Qapıqulu piyadalarına - yeniçərilər, cəbəçilər, topçular, top arabaçılar, lağımçılar, qumbaraçılar, bostançılar daxil idilər. Yeniçəri qüvvələri Osmanlı qoşunlarının strukturunda, onun gücünün müəyyənləşməsində və bütünlükdə Osmanlı qoşunlarının tarixində xüsusi yerə malik olan bir qüvvə idi. Bu qüvvə dövrünün ən intizamlı, ən çevik, ən sədaqətli, ən döyüşkən qüvvəsi kimi formalaşa bilmişdi və Osmanlı dövlətinin mövcudluğunun qorunmasında bu qüvvələrin xüsusi yeri var idi. Nizam-intizamı, gücü, döyüşgənliyi, saraya sədaqəti ilə bu qüvvələr Osmanlı qoşunlarının simvoluna çevrilmişdi. Bu qüvvələr xüsusi nüfuza malik idilər və tutduqları mövqe etibarilə Osmanlı siyasətinə və sarayına da müəyyən təsir imkanlarına malik idilər. Yeniçərilər xüsusi təlim və tərbiyə almış kontingent idi və ona görə də onlar döyüş keyfiyyətlərinə görə digər döyüşçülərdən fərqlənirdilər.

Yeniçərilər geyimlərinə görə də digər döyüşçülərdən seçilirdilər. Onlar başlarına ağ bəyazdan başlıq geyirdilər. Bu başlıqların arxasından dizlərə qədər “yatırtma” adlanan bir parça sallanırdı. Həmin başlıqlar yeniçəriləri fərqləndirən geyimin əsas elementlərindən biri idi. Yeniçəri qüvvələrinin ilkin sayı elə də böyük deyildi. Sonradan onların təşkili təcrübəsinin faydası nəzərə alınaraq say tərkibi daha da artırılmışdı.

Döyüş meydanlarında yeniçərilər Osmanlı sultanı ilə birlikdə mərkəzdə qərar tutardılar. Sultanın özünün mühafizəsi də yeniçərilərə həvalə olunardı. Osmanlı sarayının və sultan ailəsinin mühafizəsi də yeniçərilərin üzərində idi. İlk vaxtlar yeniçərilər yaya bölüklərində birləşdirilmişdi. Yaya bölükləri piyada yeniçərilərdən ibarət idi və bu bölmələrin şəxsi heyəti bəzən camaat

da adlandırılırdı. Təxminən XV əsrin birinci yarısında səgban bölüklərinin də təşkilinə başlandı. Bu bölüklər sultanların ov heyvanlarının bəsləniməsi ilə məşğul olurdular. Bu bölüklər əvvəlcə müstəqil şəkildə idarə olunurdu. Lakin XV əsrin ikinci yarısından etibarən səgban bölükləri də yeniçərilərin tərkibinə verildi. II Bəyazidin hakimiyyəti illərində, yəni XV əsrin sonu və XVI əsrin əvvəllərində ağa bölükləri adlanan yeni bölüklər təşkil edildi. Bu bölüklərin yaradılmasında məqsəd Osmanlı sultanına bağlı və daha sədaqətli olan bölmələrin formalaşdırılması idi. Sultan Süleymanın dövründən başlayaraq Osmanlı sultanlarının adı da birinci ağa bölüyünün sırasına salınırdı. Bununla bir növ Osmanlı sarayının ağa bölüklərinin mövcudluğuna verdiyi diqqət qabarıqlaşdırılırdı. Hətta ağa bölüyünün üzvü olduğuna görə Osmanlı sultanına məvacib də ayrılırdı. Məvaciblər paylanan vaxt Osmanlı sultanı da ağa bölüklərinin qışlasına gəlir, ona yazılmış olan məvacibi alır və sonra da həmin məvacibi hədiyyə olaraq ağa bölüyünün üzvlərinə paylayırdı. Bu zaman sultan yalnız aid olduğu birinci bölüyün qışlasına deyil, digər qışlalara da baş çəkməyə çalışardı (60).

Sultan Süleymanın dövründə yeniçərilər daha yüksək döyüş hazırlığına malik olan hərbi qüvvə idi. Bəzi məlumatlara görə, Sultan Süleymanın dövründə onların sayı 12 min nəfər, bəzi məlumatlara görə isə 15 min nəfər idi (61).

Yeniçərilərin döyüş hazırlığına xüsusi diqqət yetirilirdi. Döyüş hazırlığının təşkili üçün yeniçəri ocaqlarının təlim mərkəzləri var idi. Məsələn, ox atmaq üçün və tüfəngdən istifadənin öyrənilməsi üçün belə mərkəzlər mövcud idi. Hərbi yürüşlər zamanı yeniçərilər sultan ətrafında mövqe tutmaqdan əlavə, həm də müstəqil şəkildə döyüş tapşırıqları icra edə bilərdilər. Döyüş meydanında yeniçərilər toplardan sonra mövqe tutardılar. Onların arxasında isə yüngül piyadalar olan azablar sıralanardılar (62).

Yeniçəri qüvvələrində ən işlək struktur orta adlanırdı. Ortaların sabit say tərkibi mövcud deyildi. Bu say tərkibi 60-70-dən başlamaqla bir min nəfərə qədər dəyişirdi. Hər yüz nəfər yeniçəriyə bir yayabaşı rəhbərlik edirdi. Ortalara rəhbərlik isə çorba-

çılara həvalə olunmuşdu. "Çorbaçı" sözü şorba bişirən mənasında idi. Yeniçərilərin həyatında mətbəxin xüsusi yeri var idi. Düzgün və vaxtında qidalanma yeniçərilərin həyat tərzinin xüsusi məqamlarından biri idi. Bu məsələnin əhəmiyyətinin qabardılması üçün çorbaçıların bellərində taxtadan böyük bir şorba qaşığı asılmış olurdu. Ortaların şəxsi heyəti mənsəbinə və dərəcəsinə görə aşağıdan-yuxarı belə sıralanırdı:

- heç bir məqamı və dərəcəsi olmayan sıravi əcəm yeniçəriləri;
- sıravi heyətdən öz dərəcəsinə görə üstün olan qaraqulluqçular;
- orta aşpazının köməkçisi olan baş qaraqulluqçu;
- orta aşpazı olan usta;
- ortanın sıravi heyəti içərisində ən qədəmlisi olan başeski;
- həm sıravi heyətə, həm də rəhbər heyətə xidmət edən imam;
- ortanın bayrağını daşıyan bayraqdar;
- ortanın qərargah məmuru olan vəkilixərc;
- orta komandanının müavini, vəznədar-odabaşı;
- orta komandan-rəhbəri, çorbaçı (63).

Yeniçəri qüvvələrinə ümumi rəhbərlik üçün də idarəçilik strukturu formalaşmışdı. Həmin idarəçilik strukturuna daxil olan vəzifə sahiblərinin hər birinin konkret vəzifəsi və idarəçilik sıralanmasında özünəməxsus yerləri var idi. Bu struktur həm çevikliyi, həm də səmərəliliyi ilə fərqlənməklə mövcudluğu dövründə bir ənənə də formalaşdırmışdı. Bəzi məlumatlara görə, yeniçəri qüvvələrinin idarəçilik zəncirində yuxarıdan aşağı 16 vəzifə sahibi var idi (64). Yəni yeniçəri qüvvələrinin idarəçiliyində 16 instansiya var idi. Amma tarixi inkişaf zamanı bu instansiyaların sayının dəyişdiyini də istisna etmək olmaz.

Elmi-tarixi ədəbiyyatda yeniçəri qüvvələrinin idarəçilik zəncirində yer tutmuş vəzifə sahibləri yuxarıdan aşağı olmaqla aşağıdakı kimi verilmişdir (65):

-Yeniçəri ağası. Yeniçəri ağası bütün yeniçəri qüvvələrinin rəhbəri idi. O, yeniçəri qüvvələrinin təşkilinə, onların fəaliyyətinə, yeniçərilər üçün müəyyənləşdirilmiş vəzifələrin icrasına

məsuliyyət daşıyırdı. Yeniçəri qüvvələri Osmanlı sultanın sədaqətli qüvvələrdən təşkil edildiyi üçün bu qüvvələrin rəhbərinin də sultan yanında və eləcə də sarayda böyük nüfuzu var idi. Yeniçəri ağası Osmanlı sultanının, onun ailəsinin, bütünlükdə Osmanlı sarayının və eləcə də Osmanlı sarayının yerləşdiyi İstanbulun mühafizəsi məsuliyyətinə də malik idi. Döyüş meydanlarında verilmiş tapşırıqların icrasının təşkili də yeniçəri ağasının üzərində idi. Ona görə yeniçəri ağasının təyinatı Osmanlı sultanının xüsusi nəzarəti altında idi.

- Səgbanbaşı. Yeniçəri ağasından sonra yeniçəri qüvvələrinin idarəçiliyində ikinci adam idi. O, birbaşa səgban bölmələrinin təşkilinə, təchizinə və fəaliyyətinin nizamlanmasına məsuliyyət daşıyır və yeniçəri ağasının müavini hesab edilirdi. Yeniçəri ağası İstanbulda olmayanda yeniçərilərin idarəçiliyi ilə bağlı məsuliyyət onun üzərinə düşürdü. Saray divanının iclaslarında səgbanbaşı yeniçəri ağasının sağ tərəfində qərar tutardı.

- Kətxuda bəy. Kətxuda bəy də yeniçəri ağasının müavini sayılırdı. O, yeniçəri ocağının, yeniçəri qüvvələrinin fəaliyyətinin təşkili üçün yeniçəri ağasına kömək edirdi və onun qarşısında məsuliyyət daşıyırdı. Səgbanbaşından sonra yeniçəri idarəçilik zəncirində 3-cü məqama malik idi. Döyüş tapşırıqlarının icrası zamanı da kətxuda bəyin üzərinə böyük məsuliyyət düşürdü. Yeniçəri qüvvələrinin bütün rəhbər heyəti kimi, kətxuda bəyin geyiminin də yalnız ona məxsus olan elementləri var idi və bununla o, xarici görkəminə görə də digərlərindən fərqlənirdi.

- Zağarçıbaşı. Zağarçıbaşı səgban dəstələrinə aid olan ortalardan birinin çorbaçısı (rəhbəri) idi. O, səgban dəstələrinin fəaliyyətinin tənzimlənməsi ilə məşğul idi. Konkret şəkildə isə o, sultanın ov proqramının təşkilinə və ov köpəklərinin yetişdirilməsinə, bəslənilməsinə məsuliyyət daşıyırdı.

- Səgsonçubaşı. Bu vəzifə sahibi də səgban dəstələrinə aid idi və bu dəstələrə aid olan ortalardan birinin çorbaçısı idi. Konkret olaraq isə Samson adlanan ov itlərinin yetişdirilməsi, bəslənməsi və onların sultanın ov mərasimində istifadəsinin təşkilinə məsuliyyət daşıyırdı.

- Turnaçıbaşı. Turnaçıbaşı da sultanın ov mərasiminin təşkilində iştirak edən vəzifəli məqamlardan biri idi. Onun rəhbərliyi altında xüsusi ov tazıları bəslənilir və sultan ova çıxanda həmin tazılar da ova aparılırdı. Bəzi məlumatlara görə isə turnaçıbaşı devşirmə oğlanlarının seçilməsinə də məsuliyyət daşıyırdı.

- Hasekilər. Bir məlumata görə hasekilər də sultanın ov mərasimlərinin təşkilində bəslədikləri ov itləri ilə iştirak edirdilər. Bir məlumata görə isə, bu vəzifə sahibləri sultan fərmanlarının və hədiyyələrinin aidiyyatı olan adamlara çatdırılmasına məsuliyyət daşıyırdılar.

- Çavuşbaşı. Çavuşbaşılar sultan sarayında keçirilən mərasimlərin təşkilində iştirak edən təşrifat (protokol) məqamı idi. Onlar mərasimə dəvət olunanların onlar üçün ayrılmış yerləri tutmalarını nizamlayardılar. Çavuşbaşıların baş geyimində uzun lələklər olurdu və onlar əllərində mizraq tutardılar. Saray divanlarının iclası keçiriləndə baş çavuşun əlində gümüş əsa olardı və divana gələnlərin ərizələrini toplayaraq divan əhlinə çatdırardı. Çavuşbaşı həm də yeniçəri ağasının əmr və göstərişlərini lazım olan yerlərə çatdırardı.

- Muhzir. Bu vəzifə sahibi baş vəzirin həyatının qorunmasını öz üzərinə götürmüşdü. Baş vəzir döyüş meydanlarına yollananda muhzir öz şəxsi heyəti ilə onu müşayiət edər və onun mühafizəsinə məsuliyyət daşıyardı.

- Kətxudayeri. Kətxuda bəyi tərəfindən seçilir və onun müavini vəzifəsini icra edirdi. Kətxuda yeri vəzifəsinə təyinat alanlar yeniçəri ocağına aid olan bütün emalatxanaların fəaliyyətinin təşkilinə məsuliyyət daşıyırdılar.

- Baş yayabaşı. Piyada yeniçəri bölüklərinin rəhbərləri yayabaşı, yayabaşıların arasında olan ən qədəmlisi isə baş yayabaşı adlanırdı. Onların üzərinə düşən başlıca vəzifə şəhərlərdə və sərhəd xəttində asayişi qorumaq idi. Dövlət xəzinəsinin qorunması vəzifəsi də baş yayabaşının üzərində idi.

- Bölükbaşı. Yeniçəri bölüklərinin rəhbəri idi. O, yeniçəri bölüklərinin fəaliyyətinin təşkilinə məsuliyyət daşıyırdı.



Qanuni Sultan Süleyman




Sultan Süleyman dövründə Osmanlı qoşunlarının strukturu




Osmanlı qoşunları hərbi yürüş zamanı



Osmanlı qoşunları döyüşdə



Qanuni Sultan Süleyman



Azərbaycan üzərinə hücumdan əvvəl Sultan Süleymanla oğlu şahzadə Səlimin Hələb yaxınlığında (1553-cü il) ovda olmasını əks etdirən minüatür




İraqeyn səfərinin nəticələrini əks etdirən xəritə





Qapıqulu əsgərləri



Ein Ianitſchar.

Yeniçəri






Yeniçərilər



Qapıqulu sipahisi

- Solakbaşılar. Onlar solak bölüklərinin rəhbəri idilər. Bu bölüklər dörd idi. Həmin bölüklərin şəxsi heyəti sultanın şəxsi mühafizəçiləri idilər. Sultanın şəxsi mühafizəsinə vəzifələndirilmiş bu bölüklərə bir qayda olaraq ən yaxşı silah işlədənlər cəlb edilirdilər.

- Yeniçəri ocağı imamı. Bu vəzifə sahibi yeniçərilər daxilində dini işlərə aid məsələlərin həllinə və dini mərasimlərin aparılmasına rəhbərlik edərdi. O, yeniçəri ağasının iştirak etdiyi namazlarda imamlıq edər və yeniçəri ağasını sarayda keçirdiyi bir çox görüşlərdə müşayiət edərdi.

- Yeniçəri katibi. Bu vəzifə sahibi yeniçərilərin qeydiyyatının aparılması üçün zəruri olan işləri həyata keçirərdi. Yeniçərilərin maaş dəftəri də onun tərəfindən tərtib edilərdi.

Yeniçərilər dövrünün ən yaxşı silahları ilə silahlanmışdılar. Bu silahlara həm soyuq, həm də odlu silahlar aid idilər. Soyuq silah kimi yeniçərilər tərəfindən istifadə olunan silahlar bunlar idi: ox, yay, qılınc, xəncər, balta və digərləri. Odlu silahlardan isə fitilli və çaxmaqlı tüfənglər yeniçərilərin istifadəsində var idi. Bu isə yeniçəri dəstələrinin döyüş qüdrətini daha da artırırdı.

Qapıqulu qüvvələrinin tərkibinə daxil olan digər bir qoşun dəstəsi **cəbəçilər** idilər. Cəbəçilər yeniçəri qüvvələrinin silah və sursat təminatına məsuliyyət daşıyan dəstələrin şəxsi heyəti idi. İstər soyuq silahların, istər odlu silahların, o cümlədən mühafizə vasitələrinin toplanması, hazırlanması, anbarlaşdırılması, onların döyüş meydanlarına daşınması və döyüş tapşırığı almış yeniçərilərə çatdırılması cəbəçilərin məsuliyyət sahəsinə aid idi. Cəbəçilər bir qayda olaraq devrişmə qanununa əsasən seçilmiş piyadalar arasından toplanırdı. Anadoluda yaşayan xristian əhali arasından da cəbəçilərin seçilməsi mümkün idi. Cəbəçilər öz fəaliyyətlərini yeniçəri ocağının rəhbərləri ilə əlaqədə qururdular. Çünki onlar öz xidmətlərini belə qurmaqla yeniçərilərin silah və sursata, mühafizə əşyalarına olan ehtiyaclarını müəyyənləşdirə bilərdilər. Lazım olan silah və sursatın döyüş meydanlarına yetərincə çatdırılması və ehtiyacı olan yeniçərilərə onların vaxtında çatdırılması bu sahədə görülməli olan işlərin ciddi planlaşdırıl-

masını tələb edirdi. Döyüşlərin getmədiyi zaman cəbəçilər İstanbulun mərkəzi məhəllələrinin mühafizəsinə vəzifələndirilirdilər (66).

Qapıqulu qüvvələrinin digər mühüm dəstələrindən biri **topçular** idi. Osmanlı qoşunlarında toplardan hələ XIV əsrin sonlarında istifadə olunması haqqında məlumatlar vardır. XV əsrdə toplardan istifadə genişlənmiş və XVI əsrdə, o cümlədən Sultan Süleymanın hakimiyyəti illərində toplardan istifadə sahəsində çox zəngin bir təcrübə əldə edilmişdi. Toplar Sultan Süleymanın da qoşunlarının zərbə gücünün əsasını təşkil edirdi. Topçu ocağı formalaşdıqdan sonra onun da fəaliyyətinin tənzimlənməsi işinə əcəmi oğlanlarının cəlb edilməsi başlandı. Sultan Süleymanın hakimiyyəti illərində topçuların sayının təxminən 1100 nəfər olması haqqında məlumat vardır. Topların tökülməsi işi də topçulara aid idi. Topçular üçün ayrıca qışlalar da tikilmişdi. Bu qışlalar top tökülən emalatxanalara yaxın bir ərazidə yerləşirdi. Topçu qışlalarının tikilməsi də Sultan Süleymanın hakimiyyəti illərinə aiddir. Sultan Süleymanın hakimiyyəti illərində topçular üçün təlimxana da tikilmişdi. Bu təlimxanalarda həftədə iki dəfə toplardan atışlar həyata keçirilərdi. Topçuların rəhbəri topçubaşı adlanırdı (67).

**Top arabaçıları** da qapıqulu qüvvələrində ayrıca bir dəstə kimi təşkilatlanmışdı. Osmanlı qoşunlarında istifadə edilən ilk toplar yüngül çəkili idilər. Ona görə də hərbi yürüşlərdə onları atlarla, öküzlərlə daşımaq mümkün idi. Sonradan isə daha ağır və uzaqvuran topların tökülməsi ilə onların heyvanlar vasitəsi ilə daşınması da çətinləşdi. Belə olanda top arabalarının və onlara xidmət edən arabaçıların formalaşdırılmasına başlandı. Toplar aparılan döyüşlərdə böyük əhəmiyyət kəsb etdiyi üçün, onların daşınması məsələsinə də xüsusi diqqət yetirilirdi. Vaxt ötdükcə top arabaçıları da ayrıca bir dəstə kimi təşkilatlana bildi. Top arabaçıları dəstəsinin şəxsi heyəti də əcəmi oğlanlarından seçilirdi. Sultan Süleyman dövründə top arabaçıları üçün də ayrıca qışlaların tikilməsinə başlandı. Bu dəstənin rəhbəri arabaçıbaşı adlanırdı (68).

Dövrün döyüş təcrübəsində qala ətrafında aparılan döyüşlər xüsusi yer tuturdu. Məlumdur ki, şəhərlərin ətrafında bir qayda olaraq qala divarları tikilirdi və bu divarlar da şəhərlərin müdafiəsində ciddi əhəmiyyət kəsb edirdi. Bir çox hallarda tərəflər arasındakı əsas döyüş də qalalar ətrafında baş verirdi. Bu zaman soyuq silahlarla, o cümlədən də odlu silahlarla qalaların alınması çətin olurdu. Qala divarlarını aşıb şəhərə daxil olmaq üçün hücum edən tərəf lağımçıların xidmətindən geniş istifadə edirdi. Lağımçılar qala divarları altında şəhərə tunel və ya keçidlər açır, lazım gələndə qala altında açılan keçidlərə barıt qoymaqla divarı partladıb dağıdır və bununla da şəhər daxilinə girmək üçün yol açılırdı. Bu işlərin görülməsi üçün təcrübəli insanlara ehtiyac var idi və bunun üçün idi ki, **lağımçılar** dəstəsi də qapıqulu qüvvələri arasında ayrıca bir dəstə kimi təşkilatlamışdı. Lağımçılar da iki struktur dəstəsinə malik idilər. Bir dəstə cəbəçi otağına bağlı idi və onlar öz xidmətlərinə görə maaş da alırdılar. Digər dəstə isə timarlı lağımçılar idi. Yəni onlar zərurət yarananda xidmətə cəlb edilirdilər. Sonra isə lağımçılar onlar üçün ayrılmış torpaq sahələrində təsərrüfat işləri ilə məşğul olmağa buraxılırdılar. Timarlı lağımçılar dəstəsinə lağımçıbaşı rəhbərlik edirdi (69).

Qapıqulu qüvvələrinin digər dəstələri **qumbaraçılar** və **bostançılar** idi. Osmanlı qoşunlarında qumbaralardan da istifadə olunurdu və vaxt keçdikcə onları işlədən döyüşçülər də ayrıca bir dəstə kimi formalaşdı. Qumbaralar içərisi partladıcı maddə ilə doldurulmuş dəmirdən və ya çuqundan hazırlanırdı. Qumbaraçılar da iki yerə bölünürdü: biri qumbaranı hazırlayan, digəri isə qumbaranı qarşı tərəfə atmaqla ondan istifadə edənlər. Onlar da, əsasən, əcəmi oğlanlarından komplektləşdirilirdi. Bostançılar isə saray bağçalarının, sultanların istirahət məkanlarının abadlaşdırılmasına, sultanların istirahətinin təşkilinə məsuliyyət daşıyırdılar. Sultanların dəniz səyahətləri üçün gərəkli olan qayıqların qorunması, istifadəsi kimi məsələlər də bostançılara aid olan məsələlər idi. Bostançılar əcəmi oğlanlar arasından seçilirdi və diqqət yetirilirdi ki, onlar da kifayət qədər intizamlı və sultana sədaqətli olsunlar. (70).

Qapıqulu qüvvələrinin ikinci qoşun növünü **qapıqulu atlı qoşunları** təşkil edirdilər. Osmanlı hərbi gücünün formalaşdırılmasında atlı qüvvələrin böyük rolu var idi. Xüsusi ilə sürətli və çevik hücumların həyata keçirilməsində, çevik manevrlərin icrasında, qoşunların qısa zaman ərzində bir məntəqədən başqa bir məntəqəyə çatdırılmasında atlı qoşunlar böyük əhəmiyyət kəsb edirdi. Sürətin və döyüş məharətinin üzvü şəkildə birləşdirilməsi atlı qoşunların gücünü daha da artırmaqla onları qarşı tərəf üçün ciddi bir təhlükəyə çevirirdi. Döyüşün düzgün planlaşdırıldığı və icra edildiyi zaman atlı qoşunların hücumunun qarşısının alınması bir çox hallarda qarşı tərəf üçün həlli müşgül olan bir məsələyə çevrilirdi və bunun üçün idi ki, Osmanlı fəthləri tarixində atlı qüvvələrin də xüsusi yeri var idi.

Sultan Süleymanın hakimiyyəti dövründə də atlı qoşunlar öz əhəmiyyətini saxlamaqda idilər. Hətta odlu silahların tətbiqinin genişlənməsi də atlı qoşunların əhəmiyyətini hələ heç də azaltmamışdı. Qapıqulu atlıları sipah bölüyündən, silahdar bölüyündən, ülufəçi bölüklərindən və qürəba (qərib) bölüklərindən təşkil edilmişdi. Ülufəçi və qürəba bölükləri sağ və sol bölüklərdən ibarət idi. Bütünlükdə isə qapıqulu atlılarının tərkibində altı bölük var idi. Ona görə qapıqulu atlı qoşunları altı bölük adı altında da tanınırdı. Nüfuz baxımından yeniçərilər Osmanlı sarayında və Osmanlı sultanı yanında daha böyük nüfuza malik idilər. Məlumdur ki, yeniçərilər bütünlüklə əcəmi oğlanlarından təşkil edilirdi. Qapıqulu atlıları isə qarışıq komplektləşdirmə şəklində təşkilatlandırılırdı. Bu qüvvələrin tərkibinə həm yeniçərilər, həm cəbəçilər, həm əyanların uşaqları, həm də saray daxilində yaxşı xidmətlərinə görə fərqlənənlər daxil idilər. Başqa sözlə, qapıqulu atlıları əcəmi oğlanları ilə türk gənclərindən təşkil edilirdi (71).

Məlumdur ki, əyalət qoşunlarının tərkibində də atlı dəstələri var idi. Əyalət qoşunları tərkibində olan atlı dəstələrdən fərqləndirmək üçün qapıqulu atlı qoşunları qapıqulu atlıları, bölük xalqı və ya sadəcə sipah kimi də təqdim olunmuşdur. Təşkilatlanma baxımından da bu atlı qüvvələr arasında fərq var idi. Qapıqulu atlıları daimi və maaşla təmin olunan qoşunlar olduğu halda,

əyalət qüvvələrinin atlı qoşunları daha çox timarlı dəstələr idi. Yəni xidmət haqqı kimi onlara torpaq sahələri ayrılmışdı. Həmin torpaq sahələrindən əldə edilən qazancla atlılar öz ailələrini dolandırırdılar. Onlar zərurət yarananda xidmətə cəlb edilir və döyüş tapşırığı başa çatandan sonra onlar geri qayıdır və öz təsərrüfat həyatı ilə məşğul olurdular.

Qapıqulu atlı qoşunları ilkin olaraq sipah bölüyündən və silahdar bölüyündən təşkil olunmuşdu. **Sipah bölüyü** əsasən, saray əyanlarının övladlarından təşkil olunurdu və bu bölüyün qırmızı bayrağı var idi. Dinc dövrdə sipah bölüyünün şəxsi heyəti vergilərin toplanması, şəhər daxilində asayişin qorunması və buna oxşar vəzifələrin icrası ilə məşğul olurdu. Sipahi bölüyü sədaqəti ilə seçilirdi və ona görə də döyüş zamanı sultanın mühafizəsi bu bölüyə tapşırılırdı. Sultanlar cümə məscidinə və ya səfərlərə yollanarkən sipahi bölüyü sağ tərəfdə hərəkət edərdi. Döyüş meydanlarında sipahilər mərkəzin sağında yerləşdirilmiş səltənət bayraqlarının yanında, ya da sultanın qərar tutduğu mövqeyin arxasında yerləşərdilər. Onların çadırları da sultan çadırları yanında olmaqla silahdarlarla birlikdə sultanın mühafizəsinə də cəlb edilərdilər. Bu strukturun bölük adlandırılması şərti xarakter daşıyırdı. Əslində, bu struktur say etibari ilə bölükdən çox böyük olan bir struktur vahidi idi. Sipahi bölüyü özü də müxtəlif strukturlardan ibarət idi və həmin strukturların sayı 300-ə çatırdı. Sipah bölüyünə sipahağası rəhbərlik edirdi. **Silahdar bölüyü** də Osmanlı sultanına etbarlı və sədaqətli olan əyanların övladlarından dəstləşdirilirdi. Bu bölüyün atlıları səfər zamanı əsas qüvvələrdən öncə hərəkətə başlayar, səfər marşrutu üzərində olan körpülərin təmiri, yolların təmizlənməsi ilə məşğul olur, sultan çadırlarının qurulacağı ərazini yaşayışa hazırlayardılar. Səfər zamanı sultan tuğlarının daşınması, sultanın yedək atlarının aparılması kimi işlər də silahdarlara həvalə olunmuşdu. Silahdarlar həm də döyüş meydanlarında sultan çadırının mühafizəsinə cəlb edilərdilər (72).

Qapıqulu atlı qoşunlarına daxil olan digər bölüklər isə **ülufəçi bölüyü** ilə **qürəba (qərib) bölüyü** idi. Yuxarıda qeyd edildiyi

kimi, bu bölüklər də sağ və sol bölüklərdən təşkil olunmuşdu. Bu bölüklər də, əslində, mühafizə işləri ilə məşğul idilər. Mövcud məlumatlara görə, sağ qərib bölüyü ilə sağ ülufəçi bölüyü hərbi yürüşlər zamanı qoşunların maddi, texniki, ərzaq, mənzil və s. təchizatı və qoşunların xərci üçün nəzərdə tutulmuş xəzinə vəsaitlərini mühafizə edirdilər. Sol qəriblərlə sol ülufəçilər isə qoşun bayraqları ilə sultan bayrağının mühafizəsini təmin edirdilər.

Osmanlı qoşunlarının piyada qüvvələrini təşkil edən strukturlardan biri də əyalət qoşunları idi. Osmanlı dövləti hüdudlarında qapıqulu qüvvələrinə aid olmayan bütün digər qoşun dəstələri əyalət qoşunlarına mənsub idilər. Əyalət qoşunları türklərdən toplanırdı. Bu qoşunlar həm sayca üstünlük təşkil edirdilər, həm də bu qoşunların saxlanması üçün dövlət xəzinəsindən vəsait ayrılmırdı. İlkin təşkilatlanmasında əyalət qoşunları başlıca olaraq **timarlı sipahilərdən**, habelə **akınçılardan və əzaplardan** ibarət idi. Sultan Süleymanın hakimiyyəti illərində əyalət qoşunlarına əlavə olaraq **dəlilər, könüllülər, beşlilər, yaya, müsəlləm, cerahor, canbaz, tatar akınçılar və yürüklər** bölükləri də verildi.

Əyalət qoşunlarının əsasını, sözsüz ki, timarlı sipahiləri təşkil edirdilər. Bu qüvvələr kütləviliyi ilə seçilirdi və həmin qüvvələrin döyüşçüləri timar adlanan torpaq sahələrindən ələ edilmiş gəlirlər hesabına formalaşdırılırdı. Belə ki, xüsusi ilə əyalətlərdə yaşayan müəyyən kateqoriya insanlara dövlət tərəfindən timar torpaq sahələri ayrılırdı. Timar sahibi bu torpaq sahələrindən əldə etdikləri gəlirlərdən dövlətə vergi vermirdilər. Əvəzində isə onlar əldə etdikləri qazanclardan cəbəlü adlanan əsgərlər hazırlamalı idilər. Dinc şəraitdə cəbəlü adlanan əsgərlər timar sahiblərinin torpaqlarında təsərrüfat işləri ilə də məşğul ola bilərdilər. Müharibə hazırlığı elan olunanda isə cəbəlülər ən yaxın sancaq bəyinin sərəncamına yollanırdılar. Sancaq bəyi də sancaqdan gələn əsgərləri toplayaraq vilayət bəylərbəyinin sərəncamına yollanırdı və beləliklə, qoşun dəstəsi formalaşdırılırdı. Timar sipahiləri müharibə hazırlığı elan olunduğu vaxt xidmətə yollanmaqdan boyun qaçıra bilməzdilər. Əgər bu, üzürsüz səbəbdən olsaydı, onda ti-

mar sahibi və sipahisi müəyyən cəza tədbirləri ilə qarşılaşa bilərdi (73).

Akınçılar və azaplar əyalət qoşunları içərisində əhəmiyyət kəsb edən dəstələrdən idilər. Akınçılar, bir qayda olaraq, döyüş zamanı qoşunların ön sırasında yerləşirdilər və döyüşü də onlar başlayırdılar. Bununla, qarşı tərəfə həm ilkin zərbə vurular, həm də qarşı tərəfin gücünün müəyyənləşdirilməsinə cəhd göstərilərdi. Akınçılar kəşfiyyat vəzifələrini də yerinə yetirir və düşmən ərazilərinə yol açırdılar. Onlar eyni zamanda qoşunların hərəkət marşrutu üzərindəki keçidlərin, ərzaq ehtiyatlarının mühafizəsinə də məsuliyyət daşıyırdılar. Akınçılar əsas döyüş ərəfəsində düşmən ərazilərinə də sürətli basqınlar edir, bu ərazilərdəki ərzaq ehtiyatlarını təxrib edir və qarşı tərəfin mənəvi-psixoloji durumuna zərbə vururdılar. Akınçılar yüngül silahlarla silahlanardılar. Onların iaşəsi də yüngül olardı ki, bu da onların çevikliyini xeyli artırardı. Bunun nəticəsi kimi, akınçılar qarşı tərəfin ərazilərinin dərinliklərinə qədər hərəkət edər və döyüş tapşırıqlarını yerinə yetirərək tez də geri qayıda bilərdilər. Səfəvi hüdudlarına hücum ərəfəsində Sultan Süleymanın Avropaya etdiyi hərbi yürüş zamanı onun qoşunlarında olan akınçıların sayı 50 min nəfərə çatmışdı (74).

Əyalət qoşunlarının digər böyük dəstəsini əzaplar təşkil edirdilər. Bu qüvvələr subay olan gənclərdən dəstləşdirilirdi və bir sıra ciddi vəzifələrin icrasına məsuliyyət daşıyırdılar. Onlar piyadaların daha böyük bir hissəsini təşkil edirdilər. Əzaplar eyni zamanda döyüşlərin təşkilində və aparılmasında önəmli rola malik idilər. Bu dəstələr bir qayda olaraq döyüş meydanının mərkəzində yeniçərilərdən qabaqda yerləşərdilər. Əzaplar da ilkin olaraq döyüşə atılmaqla qarşı tərəfi özlərinə cəlb etməyə çalışardılar. Əzaplar yüngül silahlandığı üçün qarşı tərəfdə Osmanlı qoşunlarının zəif olması təsəvvürü yaranardı. Bununla onlar qarşı tərəfin döyüşçülərini öz qoşunlarının mərkəzi hissəsinə cəlb etməyə çalışardılar. Əzaplardan arxada dayanmış qoşunlar isə qarşı tərəfə güclü zərbə vurardı. Əzaplar elə bir şəkildə geri çəkilirdilər ki, arxada dayanmış topların fəaliyyətinə və yeniçərilərin daha

yaxşı döyüşə atılmasına maneçilik törənməsin. Əzapların geri çəkilməsindən şirniklənən qarşı tərəf hücum üçün irəli atıldıqda eyni zamanda cinahlarda yerləşmiş timarlı sipahilərlə də üzbəüz gəlir və onlardan da ağır zərbə alırdılar. Əzapların təhriki ilə qarşı tərəfin qoşunları Osmanlı qoşunlarının dərinliklərinə doğru irəlilədikdən sonra onların geri çəkilmə yolları Osmanlı qüvvələri tərəfindən qapanır və bununla onlara ağır zərbə vurulurdu. Əzaplar əsasən ox, yay, əyri qılınc və qalxanla silahlanırdılar. Onlar çox vaxt zirehli mühafizə vasitələrindən də istifadə etməzdilər ki, bu da onların çevikliyini təmin edirdi (75).

Dəlilər bölüyü də təchizat və icra etdiyi vəzifələr baxımından əzaplara oxşar idi. Bu dəstələr sərhəd bölgələrində və ya sərhədə yaxın bölgələrdə təşkil edilirdilər. Onlar yüngül silahlanmış atlılar idilər və adətən bu dəstələr qorxmaz və igid döyüşçülərdən dəstləşdirilirdi. Bu dəstələrin "dəlilər" adlandırılması həmin dəstələrdə birləşən döyüşçülərin enerjili, çevik, dəliqanlı xarakterə malik olmaları ilə bağlı idi. Dəlilər əsasən, türklərdən təşkil olunardı. Amma Avropa fəthlərindən sonra avropalılardan da dəlilər dəstələrinin təşkilatlandırılması haqqında məlumatlar vardır. Onlar əyinlərinə qurd və ya ayı dərisindən hazırlanmış şalvarlar geyər, baş geyimlərinə qartal ləlləkləri sancardılar. Dəlilərin də vəzifəsi düşmən üzərinə sürətli hücumlar təşkil etmək, ilk zərbə vurmaqla qarşı tərəfdə mənəvi-psixoloji sarsıntı yaratmaq idi. Könüllülər və beşlilər dəstələrinin vəzifəsi isə sərhəd bölgələrindəki şəhərlərin, ərazilərin, qalaların və məntəqələrin mühafizəsi idi. Həmin dəstələr də əsasən, sərhəd bölgələrinin əhalisi hesabına komplektləşdirilirdi (76).

Əyalət qoşunlarına daxil olan bəzi bölüklər arxa xidməti, təminat və təchizat məsələləri ilə məşğul olurdular. Yaya, yürük, müsəlləm, cerahor və canbaz bölükləri belə dəstələrdən idi. Hərbi yürüşlərə cəlb edilmiş yayaların (piyadaların) başlıca vəzifəsi qoşunların hərəkət marşrutu üzrə yolları yararlı hala gətirmək, döyüş meydanlarında xəndəklər və səngərlər qazmaq, top və gülləri döyüş meydanına nəql etmək və buna oxşar vəzifələri yerinə yetirmək idi. Müharibəsiz vaxtlarda isə yayalar qalaların

təmiri ilə, hərbi baxımdan maraq kəsb edən digər fiziki işlərlə məşğul olurdular. Müsəlləmlər də oxşar vəzifələri yerinə yetirirdilər. Onlar atlı olduqları üçün qoşunların hərəkətindən əvvəl sürətlə təxmin edilən döyüş meydanlarına atılır və onlar bu meydanların döyüşə hazırlanması ilə məşğul olurdular. Yürüklər də bu vəzifələri yerinə yetirirdilər. Ancaq onlar daha çox Avropa qitəsində bu fəaliyyətlə məşğul idilər (77).

Bir sözlə, aparılan döyüşlərin uğuruna təminat verəcək qoşunların formalaşdırılması üçün Osmanlı dövlətində mükəmməl bir sistem yaradılmışdı və bu sistem Sultan Süleymanın hakimiyyəti illərində özünün ən işlək və səmərəli dövrünü yaşayırdı. Məhz bu sistemin mövcudluğu Sultan Süleymanın da fatehlik yürüşlərinin uğurlarını təmin edirdi.

Sultan Süleyman dövründə Osmanlı qoşunlarının sayı barəsində dəqiq məlumatın söylənməsi çətindir. Mövcud olan bəzi müxtəsər məlumatlara görə isə 1527-ci ildə Osmanlı qoşunlarındakı yeniçərilərin sayı 7886 nəfər, cəbəçilərin sayı 524 nəfər, topçuların sayı 695 nəfər, top arabaçılarının sayı 943 nəfər, qapıqulu atlıları 5088 nəfər, timarlı sipahiləri 1993 nəfər, silahdarlar 1593 nəfər, sağ ülufəçilər 589 nəfər, sol ülufəçilər 498 nəfər, sağ qəriblər 211 nəfər, sol qəriblər 2014 nəfər idi. 1568-ci ildə, yəni Sultan Süleymanın vəfatından cəmi iki il sonra yeniçərilər 12789 nəfər, əcəmilər 7745 nəfər, cəbəçilər 789 nəfər, topçular 1204 nəfər, top arabaçıları 678 nəfər idi. 1574-cü ilə aid olan bəzi məlumatlar da mövcuddur. Həmin məlumatlara əsasən, Sultan Süleymanın hakimiyyətinin sonlarına yaxın haqqında danışılan qüvvələrin ümumi sayı haqqında müəyyən təsəvvür əldə etmək mümkündür. Beləliklə, 1574-cü ilə aid olan məlumata görə timarlı sipahilərinin sayı 2210 nəfər, silahdarlar 2217 nəfər, sağ ülufəçilər 400 nəfər, sol ülufəçilər 407 nəfər, sağ qəriblər 406 nəfər, sol qəriblər 407 nəfər idilər. Bir məlumata görə isə XVI əsrin sonlarına yaxın yalnız timarlı sipahilərin sayı 100 mindən artıq idi (78).

Sözsüz ki, Osmanlı hərbi qüdrətinin formalaşmasında qoşunların düzgün təşkilatlanması, qoşun qisimlərinin yaradılması,

qoşunların ixtisaslar üzrə komplektləşdirilməsi, onların idarəçiliyinin dövrün tələblərinə uyğun qurulması, döyüşçülərin və onların rəhbərlərinin döyüş məharətinin daimi nəzarət altında saxlanması, say tərkibi kimi məsələlər böyük əhəmiyyət kəsb edirdi. Osmanlı hərb tarixinin araşdırılması ilə məşğul olan tədqiqatçıların fikrincə, dövrün tələblərinə uyğun olaraq təşkilatlandırılmış Osmanlı qoşunlarının döyüş gücünün formalaşmasında iki mühüm amili nəzərə alınmalı idi. Bunlardan biri Osmanlı qoşunlarını maddi-texniki təchizatı, digəri isə Osmanlı qoşunlarında mənəvi-psixoliji döyüşgənliyin mövcudluğu idi (79).

Bəllidir ki, döyüş qüdrətinin və hərbi gücün formalaşmasında həm maddi-texniki təchizat, həm mənəvi-psixoloji durum aparıcı əhəmiyyət kəsb edir. Lakin bu amillər o zaman bütün səmərəliliyi ilə döyüşdə öz nəticələrini göstərir ki, onlar hərbin digər amilləri və məsələləri ilə düzgün əlaqələndirilmiş olsun. Sultan Süleymanın hakimiyyəti illərində Osmanlı dövlətinin və qoşunlarının qüdrət zirvəsində olmasının başlıca səbəblərindən biri də məhz bütün bu amillərin düzgün və qarşılıqlı əlaqədə nəzərə alınması və onların tələblərinə yüksək səviyyədə əməl edilməsi idi. Belə olmasaydı Osmanlı qoşunları əzəmətli fəthlərə imza ata bilməzdi. Bir sözlə, Şah Təhmasibin hakimiyyəti illərində Osmanlı qoşunları öz gücünün və qüdrətinin zirvəsində idi.

Osmanlı qoşunlarında həm soyuq silahlara, həm mühafizə silahlarına və təchizatına, həm də odlu silahlara rast gəlmək mümkün idi. Soyuq silahlar arasında dövrün bütün silahlarının nümunələri mövcud idi. Onların arasında ox, kaman, qılınc, xəncər, qəmə, balta, mızraq, gürz, toppuz, şişpər və s. (80) var idi. Bu soyuq silahların xüsusiyyəti ondan ibarət idi ki, bir tərəfdən onlar Osmanlı sənətkarları tərəfindən Osmanlı ərazisində istehsal olunurdular. Digər tərəfdən bu silahların istehsalı zamanı onların təkmilləşdirilməsi hər zaman diqqət mərkəzində saxlanılırdı. Məsələn, Osmanlı sənətkarları qılınc istehsalı zamanı Osmanlı ənənələrini saxlamaqla bərabər, Bizans və Avropa ənənələrindən də yaradıcı şəkildə bəhrələnmiş və nəticədə onların istehsal etdikləri qılınclar uca doğru həm sivri, həm də iti bir forma almış-

dılar. Bu da həmin qılıncların möhkəmliyinə və səmərəliliyinə zəmanət verirdi (81).

Müdafiə silahları və təchizatından isə Osmanlı qoşunlarında zirehli geyimdən, qalxandan və miğfərdən istifadə olunurdu. Miğfərlər döyüşçünün baş nahiyyəsini mühafizə etmək üçün istifadə olunan baş geyimi idi. Bu geyimlər də Osmanlı sənətkarları tərəfindən istehsal olunurdu və vaxt ötdükcə onların da təkmilləşdirilməsi ilə rastlaşmaq mümkün idi (82).

Nəhayət, Osmanlı qoşunlarının zərbə gücünün əsasını odlu silahlar təşkil edirdilər. Yuxarıda qeyd edildiyi kimi, Sultan Süleyman dövrünə qədər Osmanlı qoşunlarında odlu silahlardan istifadə edilməsinin artıq böyük bir təcrübəsi formalaşmışdı. Bu odlu silahlar sırasına tüfənglər, zərbzənlər, toplar və havanlar daxil idi. Sultan Süleyman dönəmində bu silahların da kifayət qədər təkmilləşmiş nümunələrindən istifadə olunurdu. Məsələn, topların vurma məsafəsi artmış, təsir yetirmə qabiliyyəti genişlənmişdi. Xeyli ağır olan topların daşınması üçün ayrıca top arabaçıları dəstələri yaradılmışdı. Sultan Süleymanın hakimiyyəti illərində həm də istifadə olunan odlu silahların Osmanlı ərazisində istehsalını nizama salmaq mümkün olmuşdu. Yuxarıda qeyd edildiyi kimi, istehsal olunan toplardan sınaq atəşləri açmaq üçün təlimxanalar da tikilmişdi. Yalnız odlu silahların deyil, odlu silahların işlədilməsi üçün barıt istehsalı, metal emalı fabrikləri Osmanlı ərazisində yaradılmışdı. Odlu silahların istehsalı, əsasən dövlət müəssisələrində həyata keçirilirdi və bu işlər sarayın nəzarəti altında aparılırdı (83).

Silah və təchizat istehsalı eyni zamanda həm oxşar istehsalat sahələrinin mövcudluğunu, həm tədarük xidmətinin işləkliyini, həm də zəruri xidmət sahələrinin təşkilini tələb edirdi. Başlıcası isə bu sahələrin işləkliyinin səmərəliliyinə nail olunması yetərli maliyyə təminatının olmasını da tələb edirdi. Qoşunların saxlanması, hərbi yürüşlərin həyata keçirilməsi çox böyük xərclər tələb edirdi. Məlumdur ki, Sultan Süleyman dönəmində qoşunların böyük bir hissəsini daimi qoşunlar təşkil edirdilər və onların maliyyələşdirilməsi xəzinə hesabına aparılırdı. Doğrudur, əyalət

qoşunlarının maliyyə xərcləri yerli gəlirlər hesabına, o cümlədən timar torpaqları hesabına ödənilirdi. Bununla belə, hərbi xərclərin ödənməsində dövlət xəzinəsinin üzərinə böyük yük düşürdü ki, bu məsələ də Osmanlı sarayı tərəfindən həll edilirdi.

Qoşunların təşkili və döyüşə hazır vəziyyətdə saxlanması sultanın və onun təyin etdiyi məsul şəxslərin daimi nəzarəti altında idi. Yuxarıda qeyd edildiyi kimi, bütün qoşun strukturlarının öz rəhbərləri var idi və onlar rəhbərlik etdikləri strukturların daimi hazırlığına məsuliyyət daşıyırdılar. Daimi qoşun dəstələri müharibə olmadığı vaxtlarda onlar üçün müəyyənləşdirilmiş konkret vəzifələrin icrası ilə məşğul olurdular. Bu vəzifələr daha çox saray daxilində və xaricində, ölkə ərazisində nizam-intizamın və asayişin qorunması, vergilərin toplanması, sərhəd xəttinin mühafizəsi və bu kimi oxşar işlər idi.

Hər hansı bir dövlətə qarşı müharibə elan etməzdən əvvəl müəyyən hazırlıq işləri görülürdü, müharibənin aparılmasının məqsədəuyğunluğu uzun müddət araşdırılırdı. Müharibələrin aparılması, əslində, dövrün dövlətlərinin cığırdaşına çevrilmişdi. Orta əsrlər dövlətlərinin beynəlxalq münasibətlərində müharibələrin aparılması xüsusi yer tuturdu. Bu münasibətlərin daha çox güc üstünlüyü prinsipinə əsaslanması da müharibələrin aktuallığını artırırdı. Fəal hərbi siyasət orta əsr dövlətlərinin demək olar ki, hamısı üçün xarakterik idi. Sultan Süleymanın hakimiyyət illəri də Osmanlı sarayının fəal hərbi siyasət yürütməsi dövrü kimi yadda qalmışdır. Məhz bunun nəticəsi idi ki, onun dövründə səltənət hüdudları xeyli genişlənmişdi.

Hər hansı bir dövlətə qarşı müharibə elan edilməzdən və ya ölkə daxilində qoşunların kütləvi şəkildə istifadəsinə qərar verilməzdən əvvəl Osmanlı sultanının yanında bir məşvərətçi iclas çağırılardı. Baxmayaraq ki, Osmanlı sultanı bütün məsələlərdə hüdudsuz səlahiyyətlərə malik idi, bununla belə sarayın yüksək vəzifəli məqamları da müharibə elan edilməsi ilə bağlı öz fikirlərini sultana çatdırardılar. Bu məşvərətçi iclasda baş vəzir olmaqla digər vəzirlər və o cümlədən də şeyxülislam iştirak edirdi. Son qərarın qəbul edilməsi sultanın səlahiyyətində idi.

Lakin sultan digər şəxslərin irəli sürdüyü fikir və təklifləri də diqqətdən kənarda qoymurdu. Başlıcası isə müharibə qərarı veriləndən sonra şeyxülislam da bu müharibənin aparılmasına fitva verirdi (84). Bununla aparılacaq müharibənin islam tələblərinə uyğunluğu və onun məzhəb baxımından doğru olması təsdiqlənirdi.

Müharibə aparılması haqqında qərar və fitva verildikdən dərhal sonra da onun aparılması üçün əməli hazırlıq işlərinə başlanardı. Bu hazırlıq həm mərkəzdə, həm də əyalətlərdə aparılardı. Müharibə qərarının çıxarılması xəbəri məktublar vasitəsi ilə Osmanlı sarayı adından ölkə daxilindəki bütün əyalət, sancaq və qəza hakimlərinə göndərilər və həmin məntəqələrdə uyğun hazırlıqların başlanmasına tapşırıq verilərdi. Yerlərə göndərilmiş məktublar vasitəsi ilə tələb olunurdu ki, ən qısa zaman ərzində kənd, qəsəbə, qəzalar üzrə qoşun dəstələrinin toplanması başa çatdırılsın və sonra da bu dəstələr bəylərbəylik qoşunlarına qoşulmalı və bunun üçün də elan edilmiş toplanış məntəqələrinə yollanmalı idilər. Belə məktublar adətən hələ qış aylarında göndərilərdi. Çünki müharibələr bir qayda olaraq yaz-yay aylarında aparılırdı və bu müharibələrə hazırlıq işlərinə isə vaxtından tez başlanardı. Əyalətlərdə toplanan qüvvələrin lazım olan toplanış məntəqələrinə atılması da xeyli vaxt apara bilərdi. Ona görə də əyalət qüvvələri müharibə hazırlıqları ilə bağlı mümkün qədər tez xəbərdar edilirdilər. Müəyyən hallarda yerlərə göndərilən məktublarda planlaşdırılan müharibənin hansı dövlət üzərinə həyata keçiriləcəyi barəsində məlumat verilmirdi və qoşunlar sadəcə toplanış məntəqəsinə çağırılırdı. Məsələn, məlumdur ki, Sultan Süleyman 1538-ci ildə Buğdan üzərinə yürüşə hazırlaşanda bu barədə qoşun göndərməli olan yerli hakimlərə məlumat verməmişdi. O, Ədirnədə qurdurduğu düşərgədən yola düşmək ərəfəsində bu barədə qoşunlara məlumat yaymışdı (85).

Mərkəzə bağlı qoşun dəstələri, əsasən, daimi dəstələr olduğu üçün onların toplanması elə də böyük bir vaxt tələb etmirdi. Əyalət qoşunları daimi olmasa da, əslində, bu qoşunlar məlum bir kontingent əsasında formalaşdırılırdı. Ona görə də müharibə

başlanan kimi həmin kontingent qoşuna qatılmaq barəsində xəbərdarlıq alırdı. Amma qoşunların toplanması yalnız bununla bitmirdi. Eyni zamanda xidmət sahələri üçün lazım olan ixtisaslar üzrə könüllülərin də toplanmasına başlanırdı. Bu könüllülər, əsasən, sənətkarlardan ibarət idi ki, yürüş zamanı onların xidmətinə ehtiyac yaranırdı. Həmin kontingent qoşunların tərkibində olduğu günlər üçün müəyyən edilmiş məvacib alırdı (86).

Bir qayda olaraq müharibə başlanması ərəfəsində bu müharibədə iştirak etməli olan qoşunlar əvvəlcədən düşərgələrə toplanırdılar. Düşərgədən döyüş bölgəsinə qoşunların hərəkəti xüsusi bir mərasimlə həyata keçirilirdi. Səfərə başlamazdan əvvəl Osmanlı sultanının tuğları qaldırılardı və bu tuğların qaldırılması ilə bəlli olardı ki, qoşunlar yaxın günlərdə hərəkətə başlayacaqlar. Tuğların ardınca qoşun çadırları və onların ardınca da Osmanlı sultanının çadırları hazır vəziyyətə gətirilərdi. Düşərgəyə toplanmış olan qoşun dəstələrinə baxış da həyata keçirilərdi. Osmanlı sultanının tuğlarının qaldırılmasının ardınca yeniçərilərin, topçuların və cəbəçilərin də tuğları qaldırılar, sədrəzəm darvazasına gətirilər və oradan da dualar səsləndirməklə səfərə yola salınardı. Sultanın və onu müşayiət edən dəstənin hərbi səfərə yollanması çox təntənəli şəkildə həyata keçirilirdi. Bu mərasim elə bir görünüş alırdı ki, hətta insanlar da küçələrə çıxaraq sultanın və qoşunların səfərə yollanmasını böyük maraqla izləyirdilər (87).

Omanlı qoşunlarının yürüş zamanı xüsusi düzülüş tərtibatı var idi. Bu düzülüş tərtibatına riayət edilməklə həm qoşunların aramsız hərəkəti təmin edilər, həm də qoşunların təhlükəsizliyi nəzarət altında saxlanardı. Yürüş zamanı qoşunların önündə akınçı dəstələri hərəkət edərdilər. Bu dəstələr əsas qoşunlardan iki günlük məsafədə irəlidə olardılar. Akıncı dəstələri hərəkət zamanı geniş bir ərazi ilə irəliləyərdilər. Bu zaman onlar bir tərəfdən əsas qoşunları qarşı tərəfin qəfil hücumlarından qoruyar, həm də qarşı tərəf barəsində lazımi məlumatlar toplayaraq əsas qoşunlara ötürərdilər. Akınçılardan sonra, əsas qoşunlardan bir günlük məsafə irəlidə xidmət və təminat dəstələri irəliləyərdilər. Bu dəstələr əsas qoşunların irəliləməsi üçün yolları rahatlayar,

lazım gələrdisə körpülər qurar və ya təmir edər, qoşunların düşərgəsi üçün yerlər müəyyənləşdirərdilər. Xidmət və təminat dəstələrinin arxasınca əzap dəstələri, onların da arxasınca əsas qoşun dəstələri hərəkətlərini davam etdirərdilər. Əsas qoşunlar hilal şəkilli düzülüşlə, döyüşə hazır vəziyytətdə hərəkət edərdilər. Bu hilalın cinahlarında Anadoludan və Rumelidən toplanmış timarlı sipahi dəstələri yer alardılar. Həmin dəstələr cinahlardan olan basqınların qarşısını almaqla hücum üçün əlverişli şərait yaratmaq vəzifəsinə malik idilər. Osmanlı sultanı qoşunların hilal şəkilli düzülüşünün mərkəzində qərar tutardı. Yeniçəri dəstələri də mərkəzdə olmaqla sultandan irəlidə hərəkət edirdilər. Yeniçərlərlə sultan arasında isə səltənət bayraqları daşınardı (88).

Döyüşün aparılması üçün də Osmanlı qoşunlarının qruplaşdırılması təcrübəsi formalaşmışdı. Qoşunların ali baş komandanı kimi, Osmanlı sultanı, bir qayda olaraq, cəbhənin mərkəzində qərar tutardı. Sultanın ətrafında, adətən, qapıqulu qüvvələri yerləşirdilər. Sultandan arxada altı bölük qapıqulu sipahiləri, sağında vəzirlər, solunda isə Anadolu və Rumeli kəzəsgərləri qərar tuturdular. Səltənət bayraqları da sultanın dayandığı mövqedə olardı. Qoşunların sağ cinahında Anadolu bəylərbəyinin və şərq əlayətlərinin bəylərbəylərinin, sol cinahda isə Rumeli qoşunları və qərb əyalətlərinin bəylərbəylərinin qoşunları döyüşə atılardlar. Ön sırada bir-birinə bağlanmış toplar qərar tutardı. Qoşunların döyüş düzülüşünün arxasında isə təminat-təchizat dəstələri, anbarlar yerləşərdi.

Yuxarıda qeyd edildiyi kimi, Osmanlı qoşunlarının döyüş qüdrətinin xarakterik cəhətlərindən biri bu qoşunların yüksək və döyüşkən mənəvi-psixoloji əhval-ruhiyyəyə malik olması idi. Sözsüz ki, döyüş hazırlıqları, döyüşçülərin təminat və təchizatı, onların maliyyə təminatı, bütünlükdə qoşunların dövlət həyatındakı yeri və rolu hər bir döyüşçünün mənəvi-psixoloji əhval-ruhiyyəsinin formalaşmasını şərtləndirirdi. İdarəçilik sisteminin təkmil olması isə nizam və intizamın möhkəmlənməsinin mühüm şərtlərindən biri idi. Döyüşlərdə göstərilən şücaət hər zaman qiymətləndirilirdi. Ona görə döyüşlərdə şücaət göstərmək yalnız

hazırlıq səviyyəsinin ifadəsi deyil, həm də qiymətləndirilmə üçün bir stimul idi (89).

Osmanlı qoşunlarında mənəvi-psixoloji durumun formalaşmasında islam dininin dəyərlərindən və təsirlərindən geniş istifadə edilirdi. Osmanlı sultanları tərəfindən başlanılan müharibələri hər zaman məzhəb görüntüsü verilir və müqəddəs islam dəyərləri uğrunda müharibə aparıldığı, cihad edildiyi ciddi şəkildə qabardılırdı. Döyüşçülərin şüuruna yeridilirdi ki, aparılan müharibələr müqəddəs müharibələrdir və bu müharibələrdə iştirak etmək məzhəb vəzifəsidir . Müharibə qərarı verilməzdən əvvəl fitva qərarının olması da müharibələrin məzhəb borcu ilə əlaqələndirilməsi baxımından əhəmiyyət kəsb edirdi. Döyüşçülərin dini inanclarının səfərbərliyə alınması və onların qarşıdakı müharibəyə daha yaxşı köklənməsi üçün həm qoşunlar arasında, həm də bütün cəmiyyət miqyasında xüsusi dua mərasimləri təşkil edilərdi. Bu mərasimlərdə sultanın və qoşunların uğur əldə etmələri üçün dualar edilərdi. Belə mərasimlərdə cəmiyyətin bütün təbəqələri iştirak edərlərdi. Hərbi yürüşlərin bitməsindən sonra da yenidən dua mərasimləri təşkil edilər, əldə edilmiş uğurlar üçün yaradana şükürlər göndərilərdi. Eyni zamanda döyüşlərdə şəhid olanların dəfn mərasimlərinin islam normaları üzərində həyata keçirilməsi aparılan müharibənin həm müqəddəsliyini, həm də döyüşçülərə islami dəyər verilməsinin ifadəsi idi (90).

Hərbi yürüşlərə çıxan qoşunlarda döyüşkən əhval-ruhiyyənin formalaşdıırlmasına kömək göstərilməsi üçün qoşunlar daxilində şeyx vəzifəsi təsis edilmişdi. Bu şeyxin köməkçiləri də var idi və onlar qoşunlar daxilində dini etiqadların möhkəmlənməsinə məsuliyyət daşıyırdılar. Mübariz əhval-ruhiyyə üçün dini dəyərlərin və təsirlərin qoşunlar daxilində möhkəmləndirilməsi üçün hərbi yürüşlərə qoşundan kənar olan din xadimlərinin, xüsusi ilə tanınmış din xadimlərinin cəlb edilməsi təcrübəsi də mövcud idi. Dövrünün nüfuzlu din və təriqət xadimlərinin hərbi yürüşlərə cəlb edilməsi həm uğurun əldə edilməsi üçün dua mərasimlərinin təşkil edilməsi, həm də qoşun əhlinə dini təsirlərin gücləndirilməsi istəyi ilə bağlı idi (91).

Osmanlı sultanı hərbi yürüşlərdə iştirak etmirdisə, onda onun iştirakı ilə qoşunların uğuru üçün dua mərasimləri təşkil edilirdi. Qoşun əhli də sultanın özünün və eləcə də onun ətrafına toplaşmış olan insanların bu dua mərasimlərindən xeyli dərəcədə ruhlanırdılar. Qoşun əhlində eyni zamanda belə bir inam da yaranırdı ki, onların uğuru üçün səslənən dualar hər bir döyüşçünün üzərində əlavə məsuliyyətlər qoyur və hər bir döyüşçü də bu məsuliyyətlərə ehtiramla yanaşmalıdır. Qoşunların səfərə yola salınmasına çıxan insanların "Quran" ayələri səsləndiriməsi də döyüşçülərin ruhlandırılması üçün istifadə olunan təsirli məqamlardan biri idi. Döyüşün başlanmasından əvvəl dərvişlər döyüşçülər qarşısında uca səslə dualar oxuyardılar və müəyyən hallarda onların oxuduqları dualar döyüşçülər tərəfindən də təkrarlanardı. Döyüşlərdə iştirak edən Osmanlı sultanları da döyüşdən qabaq özləri dua mərasimləri təşkil edər və həmin mərasimlərdə qoşunlara və döyüşçülərə uğur lütf edilməsini yaradandan diləyərdilər. Məlumdur ki, Sultan Süleyman da döyüşlərdən qabaq qoşunların iştirakı ilə dua mərasimləri təşkil edərdi. Onun yalnız özünə deyil, bütün qoşunlara uğur arzulaması və bunu bəzən səhərədək uzanan dua mərasimlərində yaradandan diləməsi hər bir döyüşçünü ehtizaza gətirirdi, onlarda döyüş üçün bir əzmkarlıq yaradırdı. Belə dua mərasimlərindən sonra döyüşçülər də öz-özlüyündə vəd edirdilər ki, bütün gücləri ilə döyüşə atılsınlar, səltənət bayrağını enməyə qoymasınlar, onlara bağlanan ümidləri bütünlüklə doğrultsunlar. Məsələn, bəllidir ki, Macarıstan cəbhəsində olarkən Sultan Süleyman böyük və məsuliyyətli döyüşdən əvvəl qoşun əhli ilə birlikdə dua mərasimi təşkil etdi. Həmin dua mərasimində gözlərindən yaş axıdan Sultan Süleyman əllərini göylərə qaldıraraq dedi: "Ey mənim Allahım! Qüdrət və qüvvət sənə məxsusdur, mədəd və kömək də səndən yetişir. Qüdrət və bacarıq qollarının kölgəsini Məhəmməd ümmətindən əsirgəmə". Bu sözləri qoşun əhli də eşitdi və həmin sözlər onlarda yeni və qətiyyətli bir əhval-ruhiyyəyə rəvac verdi (92).

Osmanlı qoşunlarının döyüş ruhunun qaldırılması üçün islam adına bağlı olan müqəddəs əşyalardan da istifadə olunurdu. On-

ların arasında islam peyğəmbərinin bayrağı xüsusi yer tuturdu. Ümumiyyətlə, qoşunların döyüş ruhunun yüksəldilməsi üçün islam peyğəmbərinin adı islami əməllərə bir örnək kimi hər zaman qoşun əhlinə çatdırılırdı. Hər zaman döyüşçülərə təlqin edilirdi ki, islam peyğəmbəri onların döyüşlərini müşahidə edir, islam qoşunlarını himayə edir və əldə edilən uğurlarda onun şəfaəti də az deyil. Qoşun rəhbərləri də islam peyğəmbərinin onları himayə etdiyinə şübhə etmədikləri üçün hər uğurdan sonda əldə edilmiş qələbənin islam peyğəmbərinin möcüzələrindən biri kimi dəyərləndirirdilər. Tarixdən məlumdur ki, Dəməşq şəhəri fəth ediləndən sonra islam peyğəmbərinin həmin şəhərdə mühafizə olunan xirqəsi və bayrağı Sultan Səlimə hədiyyə edildi. Bu bayraq islam yolunda mübarizə aparan Osmanlı döyüşçülərinin ittifaqının və birliyinin simvoluna çevrilmişdi. Həmin bayraq Osmanlı qoşunlarının apardığı müharibələrdə qələbə müjdəçisi kimi Osmanlı sultanının qərargahının yanında saxlanılardı və şübhə edilmirdi ki, islamın bu müqəddəs bayrağı döyüş meydanında növbəti uğurun təminatçısı olacaqdır. Buna bütün qoşun əhli də əmin olardı. Bəzi hallarda islam peyğəmbərinin döyüş meydanında ucaldılmış bayrağı kənarında dua mərasimləri də təşkil edilərdi və bu bayrağın havada dalğalanması döyüşçülərin qətiyyətlə irəli atılmasına bir ilham və güc verərdi. Osmanlı sultanı döyüş meydanında olmadığı vaxtlar belə islam peyğəmbərinin bayrağı qoşunla birlikdə olardı. Bu zaman peyğəmbər bayrağı çoxlu insanın müşayiəti ilə şəhər divarlarından kənarda müəyyən bir məntəqəyə kimi müşayiət olunar və oradan döyüş meydanına yola salınardı. Döyüşün bitməsi ilə qoşunlara rəhbərlik etmiş baş vəzir geri qayıtdıqdan sonra sultan sarayının darvazası qarşısında səcdə edər və sonra bayraq təhvil verilərdi (93).

Osmanlı qoşun əhlinin təkbir oxuyaraq döyüşə atılması qarşı tərəfdə dəhşətli və qorxunc hisslər və təlaş yaradırdı. "Allah, Allah" kəlmələrinin çox uca səslə ətrafa yayılması həm də Osmanlı döyüşçülərinin qətiyyətinin və əzminin ifadəsi idi. Osmanlı döyüşçüləri yaradanın adının uca səslə döyüş meydanında səsləndirilməsini islam peyğəmbərindən gələn bir tövsiyə və və-

siyyət kimi də qəbul edirdilər. İslam peyğəmbərindən belə bir hədis var imiş ki, İstanbul şəhəri müsəlmanlar tərəfindən "la ilahə illəlah" və "Allah əkbər" sədaları altında fəth olunacaqdır. Osmanlı döyüşçüləri də yalnız İstanbul şəhərini bu sədalar altında fəth etmədilər. Onlar bütün fatehlik yürüşlərinə bu sədaların altında qoşulurdular. Bu sədalar Osmanlı döyüşçülərində bir mübarizlik əhval-ruhiyyəsi yaratdığı kimi, eyni zamanda onlarda Allahdan kömək alacaqlarına dərin bir inam da yaradırdı (94).

Döyüş meydanlarında döyüşçülərin əhval-ruhiyyəsinin qaldırılması, mübarizlik əzminin gücləndirilməsi üçün "Quran" ayələrinin uca səslə oxunması həyata keçirilərdi. Bunun üçün qoşunlarda xüsusi dərvişlər var idi və onlar da müəyyən edilmiş anlarda bu işi icra edirdilər. "Quran"dan oxunan ayələrin məzmunu da görülən işin mahiyyəti ilə səsləşən ayələr idi. Həmin ayələrdə Allah yolunda fədakarlıq, islam dəyərlərinin yüksək tutulması, möminlərin kafirlər üzərində qələbəsi, azlıqda olan mömünlərin çoxluq təşkil edən kafirlər üzərində qələbəsi kimi məsələlərdən söhbət açılırdı. Mənbələrdə və tarixi ədəbiyyatda olan məlumatlara görə, dərvişlər tərəfindən əsasən, "Quran"ın Bəqərə surəsinin 25, 207, 247 və 249-cu ayələri, Al-imran surəsinin 126 və 127-ci ayələri, Maidə surəsinin 56-cı ayəsi, Nəməl surəsinin 17 və 18-ci ayələri, Tövbə surəsinin 5 və 72-ci ayələri, habelə İxlas surəsi oxunarmış. Mövcud məlumatlara görə, Osmanlı qoşunları tərəfindən düşmən qalalarının mühasirəsi zamanı daha çox İxlas surəsi dərvişlər tərəfindən təkrar-təkrar oxunarmış. Bidirilir ki, Avropa cəbhəsində qalalardan birinin dörd həftə sürən mühasirəsi zamanı dərvişlər tərəfindən İxlas surəsi 70 min dəfə təkrar olunmuşdu. İxlas surəsindən başqa Osmanlı qoşunları qarşısında daha çox təkrarlanan ayələrdən biri də Bəqərə surəsinin 249-cu ayəsidir. Bu ayələrin oxunması qoşunlar tərəfindən coşqu və uğura inam hissi ilə qarşılanardı və döyüşkən əhval-ruhiyyənin yüksəldilməsinə təsirli bir zəmin yaradardı (95). Onun nəticəsi isə döyüşün gedişində özünü göstərirdi.

Osmanlı qoşunlarının döyüş ruhunun qaldırılması üçün istər islam dininin dəyərləri ilə bağlı olan, istərsə də bəşəri dəyərlə və

həvəsləndirmə ilə bağlı olan tədbirlər ənənəsi və təcrübəsi formalaşmışdı. Bu tədbirlər kompleksindən düzgün istifadə edilməsi və onların qoşunların hazırlığı üçün zəruri olan digər məqamlarla səmərəli uzlaşdırılması Osmanlı qoşunlarının döyüş qüdrətini daha da artırırdı. Şah Təhmasib də Səfəvi hüdudlarına hücum çəkmiş belə bir qüdrətli qoşunlarla qarşılaşmalı idi.

## 3.Osmanlı qoşunlarının Səfəvi hüdudlarına ilk hücumu

Bitlis üzərinə hərbi yürüşü uğurla başa çatdırandan sonra 1529-cu ildə rəsmi olaraq "sərəsgər" məqamına yiyələnmiş olan Osmanlı baş vəziri İbrahim paşa Səfəvi hüdudlarına hücuma hazırlıqları davam etdirmək üçün 1533-34-cü ilin qışını Hələbdə keçirdi. Bu zaman Şah Təhmasib hələ Xorasanda idi və yuxarıda qeyd edildiyi kimi, o, bu bölgədə özbək hakimlərinə ciddi zərbə vurmaq üçün Bəlx üzərinə hücum hazırlıqları da aparırdı. Hələbdə isə İbrahim paşa öz hazırlıqlarını davam etdirirdi. Yəni, Səfəvi hüdudlarına hücum qərarı artıq bəlli idi və bu qərarın yerinə yetirilməsi üçün konkret tədbirlərin icrasına başlanmışdı. İbrahim paşa ilk növbədə Səfəvi qoşunlarının imkanları haqqında məlumat toplayırdı. O cümlədən, İbrahim paşa Bağdad və onun qarnizonu haqqında zəruri məlumatlar toplamağa çalışırdı. Bununla bağlı Bağdada xüsusi adamlar göndərilir və onların gətirdiyi məlumatlar toplanaraq İbrahim paşaya çatdırılırdı. Eyni zamanda ətraf ərazilərin və məntəqələrin müşahidəsi də aparılırdı. İki dövlətin sərhəd bölgəsində Səfəvi hakimiyyəti altında olan məntəqələrin hakimləri ilə müxtəlif əlaqələr saxlanılır, gizli danışıqlar aparılır və bu yolla onlar Osmanlı hakimiyyətinin qəbul edilməsinə təşviq olunurdu. Bununla bağlı, onlara səxavətli vədlər də verilirdi. Konkret olaraq Adilcəvaz, Ərciş, Əhlət kimi qalaların hakimləri bu sövdələşməyə razı olmuşdular (96).

Sözsüz ki, böyük və ağır bir hərbi yürüşü həyata keçirmək üçün digər hazırlıqlar da görülürdü. Bunun üçün Osmanlı qoşunlarında təcrübədən keçmiş səmərəli bir sistem və təcrübə də mövcud idi. Havaların qızması ilə, yəni 1534-cü il aprel ayının

7-də sərəsgər İbrahim paşa Bağdad üzərinə hücum məqsədi ilə qoşunları hərəkətə gətirdi və Hələbdən Diyarbəkrə doğru yola düşdü. Onun tərəfindən ətraf bölgələrin hakimlərinə də göstəriş verilmişdi ki, tabeliklərində olan qoşun dəstələri ilə birlikdə Diyarbəkrə gəlsinlər və orada İbrahim paşanın rəhbərliyi altında olan qoşun dəstəsinə qoşulsunlar. Hərəkətə başlamaq ərəfəsində İbrahim paşa həm də Sultan Süleymana məktub göndərdi. Həmin məktubla İbrahim paşa həm hərəkətə başlaması haqqında, həm Səfəvi şahının harada olması haqqında məlumat verdi, həm də Osmanlı sultanının Bağdad hücumuna nə vaxt qoşulması haqqında təklifini bəyan etdi. Elmi-tarixi ədəbiyyatda öz əksini tapmış həmin məktubun müxtəsər məzmunu belə idi: “Sultani Cahangir və həzrət Sahib Qıran... əmr-i istila buyurlur isə bu ramazani mübarəkin iyirmi ikinci günü məhruseyi Hələbdən qalxılıb Diyarbəkr caniblərinə təvəccüh olundu. Qızılbaş evbaş tayfası bu qış Xorasan tərəflərində olduğu xəbərləri alınıb diyari şərq haliya halidir derlər. Ətraf və cəvanibdə olan ümərayi Kürdüstan ki, qədimdən ol tərəf tabilər idi. Bu bəndələrinə adamları və xəbərləri varid olub küllüyən Sahib Qıranı aləm pənah həzrətlərinin ətəbəyi ülyalarına izhari sədaqət və ixlas edib tabe olmuşlardır. ...Həzrət Sahib Qıranı aləm pənah dəxi səadət və iqbal ilə inşallahül-əzzə mübarək Zülqəddə gürrəsində Anadolu caniblərinə təvəccühü hümayun buyursalar münasibdür...” (97).

Məktubdan göründüyü kimi, İbrahim paşa da Şah Təhmasibin Təbrizdə olmamasını Osmanlı qoşunlarının Səfəvi hüdudlarına hücumu üçün münasib bir şərait kimi qiymətlədirirdi. Osmanlı qoşunlarının Diyarbəkrə doğru hərəkətə başlaması ilə sərhəd bölgələrinin bəzi Səfəvi qalalarının hakimləri doğrudan da Osmanlı hakimiyyətini qəbul etdilər. Onların Osmanlı hakimiyyətini qəbul etməsi və bununla Səfəvi dövlətinə qarşı əlverişli mövqelərin ələ keçirilməsi İbrahim paşa tərəfindən də böyük məmnunluqla qarşılandı. Osmanlı baş vəziri Diyarbəkrdə olarkən Osmanlı vilayətlərindən toplanmış qoşun dəstələri, o cümlədən mərkəzə tabe olan altı bölük qapıqulu və yeniçəri qüvvələri, Kutahya, Qaraman, Sivas, Zülqədir və Diyarbəkr vilayətlərindən,

daha sonra Hələb və Şam vilayətlərindən toplanan qoşun dəstələri İbrahim paşaya qoşuldular. Məlumata görə, İbrahim paşa təxminən iki aya yaxın Diyarbəkrdə qalmalı oldu və həmin müddət ərzində onun ətrafında olan qoşunların sayı da çoxaldı. İbrahim paşanın qoşun dəstəsinə qoşulan başqa əyalət qüvvələri də var idi. Mövcud olan məlumatlara görə, İbrahim paşanın Diyarbəkrdə dayandığı vaxt Ülamə Təkəli də Van gölü ətrafı qalaları və məntəqələri ələ keçirərək Osmanlı hakimiyyəti altına gətirmişdi. Bununla, Ülamə Təkəli Osmanlı sarayı qarşısında sədaqətli olduğunu bir daha nümayiş etdirməklə yanaşı, həm də bir sıra əlverişli mövqeləri ələ keçirmişdi (98).

Osmanlı qoşunları İbrahim paşanın rəhbərliyi altında Diyarbəkrdən sonra Bağdad üzərinə hücuma hazırlaşdığı bir vaxtda, birdən-birə bu plan dəyişdi və Osmanlı qoşunlarının Təbriz üzərinə hücuma yollanması qərara alındı. İbrahim paşa özlüyündə şübhə etmirdi ki, Bağdad şəhərinin ələ keçirilməsi həmin vaxtlar üçün Osmanlı maraqlarına daha çox cavab verir. Belə ki, bu şəhərin Osmanlı hüdudlarına salınması ilə bölgədə Osmanlı hakimiyyəti möhkəmlənmiş olardı və bundan sonra Osmanlı hüdudlarının cənuba doğru genişləndirilməsi üçün də əlverişli imkanlar yaranardı. Amma Osmanlı sarayından İbrahim paşa yanına ezam edilmiş baş dəftərdar İsgəndər Çələbi isə İbrahim paşanı bu fikrindən döndərə bildi. İsgəndər Çələbi belə ehtimal edirdi ki, Səfəvi dövlətinə qarşı başlanmış hərbi yürüşün əsas məqsədi Bağdadın alınması deyil, Səfəvi qoşunlarının məhv edilməsi olmalıdır. Güman edilirdi ki, bundan sonra Səfəvi hüdudlarını da ələ keçirmək mümkün ola bilər. İsgəndər Çələbinin fikrincə, Osmanlı qoşunlarının hücum xəbərini alandan sonra Şah Təhmasibin əsas diqqəti Təbrizin müdafiəsinə yönəldiləcəkdi. Yəni Səfəvi qoşunları Təbriz ətrafında cəmləşəcəkdi və Təbriz üzərinə hücum etməklə burada Səfəvi qoşunlarına da güclü bir zərbə vurmaq mümkün olacaqdı. İsgəndər Çələbini göndərərkən Osmanlı sultanı İbrahim paşaya çatdırmışdı ki, onun sözlərindən çıxmasın. Ona görə İbrahim paşa da məcbur idi ki, İsgəndər Çələbinin fikirləri ilə hesablaşsın (99).

İsgəndər Çələbini Təbriz üzərinə hərəkət etməyə sövq edən Ülamə Təkəli idi. Ülamə Təkəli yaxşı bilirdi ki, Şah Təhmasib bütün qoşunla Xorasandadır və Səfəvi qoşunlarının Xorasandan Təbriz ətrafına gəlib çatması üçün xeyli vaxt lazımdır. Ona görə də Təbrizin müdafiəsiz qalması fürsətindən faydalanmaqla bu şəhəri, yəni Səfəvi dövlətinin paytaxt şəhərini daha asan şəraitdə ələ keçirmək mümkün idi. İsgəndər Çələbi onun bu fikri ilə razılaşdı və İbrahim paşanı öz fikrindən döndərməyə müvəffəq oldu. İbrahim paşa da belə bir qərar qəbul etdikdən sonra 1534-cü il iyun ayının 22-də Təbrizə doğru hərəkətə başlamaq işarəsi verdi (100).

Osmanlı mənbələrindən biri İbrahim paşanın rəhbərliyi altında Osmanlı qoşunlarının Diyarbəkr ətrafından Təbrizə doğru hərəkət etməsi haqqında belə yazırdı: "Diyari Əcəm hüdudunda vaqe olan Bingöl deməklə məruf yaylaqda durub ol mahalda; Anadolu və Diyari Qaraman və Rum və məmaliki ərəb (Şam və Hələb əyalətləri) əsakiri küllüyən müşarün-əleyhün yanında cəm olub ol məqamati nüzhət-aram, neçə günlük mənzili sərapərdəyi hiyam olmuş idi. Və (Təbriz bəylərbəyinə bağlı) Azərbaycan vilayətindən neçə məmləkətin əhalisi ki, qızılbaş bəd-quşun zülmündən bican olmuşlardı, zilli ədaləti padşahiyə iltica edib, təzə həyat bulub, hökumət və əyani qədəmi ittiba ilə gəlib, ol vilayətdə olan qalaların miftahların gətürüb təslim edib (Pasınlar və Qarsın Yahnı dağları batısındakı kəsiminin mərkəzi) Evnik və (Ələşgerd ilə Doğu-Bayazid-şimdiki Ağrı elinin mərkəzi) Bəyazid və Erciş və Adilcevaz və (Van gölündəki ən böyük ada üzərindəki) Ağdamar qalaları və bunun əmsalı neçə qalalar daha təhti-təhsirə alınıb azim fütuh oldu" (101).

Bingöl yaylaqlarına yetişəndən sonra 1534-cü il iyul ayının 4-də İbrahim paşa Təbrizə doğru hərəkətə başlaması bu hərəkət zamanı bir sıra qalaları ələ keçirməsi və Osmanlı hakimiyyəti altına gətirməsi haqqında Sultan Süleymana məktub göndərdi. İbrahim paşa bu hərəkət zamanı bir sıra qalaları və məntəqələri ələ keçirib Bingöldə müəyyən müddət dayanmağı və Təbirzə doğru hərəkət edən qoşunların təşkilatlanmasının başa çatdırıl-

masını lazım bilmişdi. Onun buradan Osmanlı sultanına göndərdiyi məktub belə idi: “...Müqəddəmə Əmri Cəlilül qədri gitistani birlə Diyarbəkrə gəlinib, o zamandan sonra qalayi Bitlis təvabi və ləvahiki ilə muzafatı Ekəəlimi Məhmiyeyi Padişahidən olduğu ərz edilmişdi. Diyari Xorasana varmış olan Şah, hüdudumuza yaxın sağlam qalalarə, güvəndiklərini qoruyucu qoymuşkən Diyari Şərq istihlasına əzimət olunduqda Azərbaycan (Təbriz) əyaləti bəylərbəylik təriqi ilə Həzrət Sahib Qırani aləm-pənahın qullarından birisinə ehsan olunmaq vəcih və münasib görüldüyü binaən Azərbaycan bəylərbəyi Ülamə paşa bəndələrinə tövcih olunub. Ümumən ümərayi Kürdüstan ilə və bir miqdar bəndəqani dərgahi fəth-aşiyan ilə Təbriz caniblərinə irsal olunub. Bu qulları dəxi geri əcnadi nüsrət-mütad ilə Amiddən çıxıb Diyari Şərq ilə məmaliki Mahmiyyeyi Hakan hüduduna qərib olan bəzi hisarların da qızılbaşlardan qurtarılması üçün daha Hələbə varışımızdan bəri əhsən vəchlə fəth olunmaları babında ənvayi tədarüklər olumuş bulunduğundan düşmən əllərində olan qıladan Adilcevaz hücumla qoruçuları qaçırılaraq və qədimdən əhli-sünnət və cəmaətdən olan əhaliyi müslimin ilə rəayayi miftahi qulunuza gəlib vasil oldu. (Ülamə paşa ilə irəliləyən Osmanlı qolu burasını alaraq itaət etdirdi).

Və ana tabe olan qələyi Bəyazid (Doğubəyazid) və Erciş nam qalalar fəth olunub. Cümleyi müzafatü mülhəqaatı və təvabiyi levahiki ilə əlimizə geçdi. Məlahidənin fəsadı yüzündən müəttəl və hali olan cəvamiyi məsaciddə əhli sünnət və cəmaət ayini üzrə əzan oxunub iqaaməti səlati məfruzə və məsnunə olunub və cəvamiində Cümə günü padşahımızın adına xütbə oxunur, çaryarın və ulu səhabənin adları anıldığında oradakı (yerli) sünnülər Tanrıya şükürlər və padşaha dualar eylədilər. Bu qalalar da Osmanlı ölkəsindən oldu. Əsgər bu qalaların içində şənliklər və şadlıqlar eyləyib növbəti Nüsrəvanı (ordu mehtəri) çalınıb bütün əsgər padşaha duaçı oldu.

Mahi-mübariəki Zilhiccənin on birinci (23 iyun 1534) günü Xani Süvarik deməklə məruf məhəllə gəlindikdə taifeyi evbaşı fitnə-faş zəbtində olan müəzzimati qəlayi səmairtifadan Van qa-

ları ki, məşahiri hüsuni əcəmdən olub pək sərpliyi və sağlamlığı ilə tanınmışdır. Buranın fətih və qurtarılması üçün qala hakiminə ənvayi məvaid və istimalat ilə bu canibdən məktublar göndərilib hüsnü tədbir olunmuşdu. Tanrının yardımı ilə Osmanlılar tərəfinə meyli-küllü eyləyib qalayi-məzbureyi və ona tabe olan Van mərkəz ilçəsinin quzeyindəki Timar bucağında və Adır köyü batısındakı yarımadada şimdi Böyük Amik denilən nam qalayı ətəbayi ülyaya təslim eyləyib miftahların (Bingöldəki ordugaha) göndərmiş, gəlib bu qullarına vasil olub. Vəchi-mefsur üzərə zikr olunan qəlaların əhvalı görülüb zəbt olunmaq üçün Şah bəylərbəyi Xosrov paşa bəndələri göndərilib. Hakimi məzbur (Səfili sancaqbəyi) qaladan çıxıb həzrəti Sahib Qırani aləmpənahın qulları qirib zəbt eylədilər. Burada da sünnü üsulunca beş vaxt namazda əzan oxunub və camiində cümə namazı qılınıb, padşah adına xütbə oxunub, bu ulu fəth üçün Tanrıya şükranlar sunulmuşdur. Ayın (Zilhiccənin) on ikinci (24 iyun) günü (Van mərkəz ilçəsinin Ercək bucağında və 2890 m.lik Qazandağı quzeyində bu gün də eyni adla anılan köydəki) Siyavan (indi rəsmən Ortanca) deməklə məşhur Hisari səng-binayan və Qızılbaşın sağlam qalalarından ikən əsgərimizin hücumundan məhsur olan güruhi həzimət-sükunu tərki əvtan və məkan eyləyib pərakəndə olmuşlar. Qala hakimi Əmir bəy Mahmudi haqqı asitani səadət nişana üz sürmək ümidi ilə qalasının miftahını gətirib hisari-məzbur ilə (indi Vanın Gurpinar ilçəsinin Xoşab bucağı mərkəzi və yeni adıyla Gözəlsudakı) Xoşab nam ölkə dəxi osmanlılar əlinə keçdi. Bu qaladan başqa qızılbaşın hüsuni-aliyyəsindən (indi Ağrı elinin Ələşgerd ilçəsindəki əski Ələşgerd –Torpaqqalasından ibarət olub 1664 dəprəmində yıxılan) Torpaqqalanın Hisar ki, ol dəxi məşhuri-afaq olan hüsuni mütəbərəsindən idi, onda mütəhəssin olan güruhi şəqavət-şükuhu, bəzi əsagir-müslümün məhsur etmişlər idi. Tanrının yardımı ilə burası da alındı.

Mahi-məsfurun (Zilhiccənin) iyirmi ikinci (4 iyul 1534) günü Bingöl nam mövzüdə miftahi gəlib məftuhi müsəhhər vaqe oldu. Bütün bunların hər birinin fəthi uzun zamana bağlı ikən padşahın da sayəsində qolayca zəbt edildi. Və bunlardan qeyri indiyə dəkin

qızılbaşi-evbaşa mütabiət edən Kürdüstan qalalarından Cərəm, Bidkar, Rövşəni, Hell və Tənizə nam qalaların sahibi olan Nurəli bəy də padşahın qulları arasına qatıldı” (102).

Səfəvi dövlətinin qərb sərhədi boyunca yerləşən bir sıra qalaların Osmanlı hakimiyyəti altına keçməsi, heç şübhəsiz ki, bu qalaların çox böyük sayda olan Osmanlı qoşunları qarşısında müdafiəsiz və köməksiz qalması ilə bağlı idi. Bu qala hakimləri Səfəvi qoşunlarının yaxın günlər ərzində köməyə yetə bilməyəcəyi görüncə qalaları təhvil vermək məcburiyyətində qalmışdılar. Osmanlı qoşunları isə bununla əlverişli mövqelər əldə etdilər və səltənət sərhədlərini də müəyyən qədər şərqə tərəf genişləndirə bildilər. İbrahim paşa 20 gün Bingöldə qaldı və bu müddət ərzində də ətrafdakı kürd məntəqələrinin və qalalarının hakimlərinə Osmanlı hakimiyyəti qəbul etdirildi. Bu kürd hakimləri eyni zamanda tabeliklərində olan qoşun dəstələri ilə Osmanlı qoşunlarına qatıldılar və Təbriz üzərinə yürüşdə iştirak etdilər. İbrahim paşa uzun və ağır səfər üçün son hazırlıqlarını da Bingöldə başa çatdırdıqdan sonra Təbrizə doğru hərəkərə başladı. Bu hərəkətə başlamazdan əvvəl isə o, Şam bəylərbəyi Xosrov paşanı yeni işğal olunmuş ərazilərdə və sərhəd bölgəsində asayişin təmin edilməsinə məsul təyin edildi (103).

Farsdilli mənbələrdə Osmanlı sultanının Səfəvi dövləti üzərinə hücuma başlamasının Ülamə Təkəlinin təkidli təhriklərindən sonra baş verməsi bildirilir. Məsələn, “Əhsənüt-təvarix” əsərində bu barədə belə deyilir: “Bu il Rum padşahı Sultan Süleyman Azərbaycana hərəkət etdi. Onun bu tərəfə qoşun çəkməyinin səbəbi o idi ki, Ülamə Rum hökmdarının dərgahına bir-birinin ardınca elçilər göndərib [bu məzmunda] xəbər çatdırmışdı: “Dinin pənahı olan şah (Təhmasib) Mavəraünnəhrə yürüş etmək məqsədi ilə Heratdan çıxmışdır və Azərbaycandan uzaq düşmüşdür. Əgər padşah (Sultan Süleyman) bu səmtə gələrsə, onun bu diyarı ələ keçirməsi mümkündür”. Xondgar, Ülamənin sözünü qəbul edib savaş əşyalarının tərtib olunmasına və döyüş ləvazimatının təkmil edilməsinə dair göstəriş verdi və qantökən bir ordu ilə Təbriz istiqamətində hərəkətə gəldi. O, vəziri-əzəm İbrahim

paşanı doxsan min süvari ilə mənqəlay [təyin] etdi. İbrahim paşa isə Ülaməni on min nəfərlə irəli göndərdi. O vaxt Musa sultanın vəziri olan Xoca Şahqulu, Mövlana Əhməd Təbəsi ilə birlikdə rumilərin yanına elçilər göndərdi və onları Təbrizə gəlməyə dəvət etdi" (104).

"Tarix-i aləmara-yi Abbasi" əsərində isə İbrahim paşanın rəhbərliyi altında olan Osmanlı qoşunlarının sayı 80 min nəfər göstərilmişdir (105). Amma sözsüz ki, Təbriz üzərinə hücum edən qoşunlar yalnız bundan ibarət deyildi. Qeyd edildiyi kimi, həm işğal edilmiş ərazilərin qoşunları İbrahim paşanın dəstəsinə qoşuldular. Həm də sonradan Osmanlı sultanı özü bir qoşun dəstəsi ilə Təbrizə doğru hərəkətə başladı.

Məlumdur ki, Sultan Süleyman Səfəvi dövləti üzərinə başlanan hücum kampaniyasına sonradan qoşuldu. Bu, bir tərəfdən havaların qızması ilə əlaqədar idi ki, qoşunların hərəkətinin yazda başlanması məqsədəuyğun bilinirdi. Amma digər tərəfdən Səfəvi kampaniyasının başlanması ərəfəsində iki hadisə baş verdi ki, onlar da Sultan Süleymanın hərəkətə başlamasını ləngitməyə səbəb oldu. Bunlardan birincisi onun anası Hafsa xanımın 1534-cü il mart ayının 19-da dünyasını dəyişməsi idi. Elə həmin vaxtlarda da dövrünün böyük və nüfuzlu din xadimi olan Şeyxülislam Kamal Paşazadə Əhməd Şəmsəddin əfəndi də vəfat etdi ki, bu da Sultan Süleymanın səfərinin ləngiməsinə səbəb oldu. Mənbələrdə və tarixi ədəbiyyatda Osmanlı qoşunlarının Səfəvi dövləti üzərinə 1533-cü ildən başlanan hücum kampaniyası "İraqeyn səfəri" kimi yadda qalmışdır. "İraqeyn" sözü ərəb dilindən tərcümədə "iki İraq" mənasını verir. İki İraq deyiləndə isə İraqi-ərəblə, İraqi-Əcəm nəzərdə tutulur. İraqi-ərəb – Bağdad şəhərini və onun ətrafını əhatə edirdsə, İraqi-Əcəm isə Bağdadın şimal-şərq istiqamətlərində olan əraziləri, o cümlədən Təbriz-Həmədan arasındakı coğrafiyanı əhatə edən əraziləri nəzərdə tuturdu (106).

İbrahim paşanın yuxarıdakı məktubundan göründüyü kimi, o, Osmanlı sultanına 1534-cü ilin may ayında hərəkətə başlamasını təklif etmişdi. Osmanlı sultanı isə may ayında deyil, həmin ilin iyun ayının 11-də Üsküdara gəldi. Hərəkətə başlamazdan əvvəl

Sultan Süleyman kiçik yaşlı oğlu Mustafanı öz yerinə qayməqam təyin etdi və dəftərdar Mahmud Çələbini də onun hamisi elan etdi. Sultan Süleymanı Rumelidən toplanmış qoşunların bir hissəsi müşayiət edirdi. Tarixi ədəbiyyatda mövcud olan məlumata görə, Sultan Süleyman bununla altıncı hərbi yürüşünə başlamış oldu. O öz hərəkətini Üsküdar, Maltəpə, Qışsahan körpüsü, Gəbzə, Qalayi-Hərəkə, Çinarlı, İzmit, Sitarə körpüsü, Dərbəndi-Qazi klı, Dikilidaş, Qalayi-iznik, Yenişəhir, Ağbıyıq, Zincirli quyu, Dərbəndi-ərməni, Bozüyük, İnönü, İlica, Qalayi-Kutahya, Altuntaş ovası Çakırsaz marşrutu ilə davam etdirərək Almadağa yetişdi. Sultan bir neçə günlük istirahət üçün burada düşərgə saldı və sonra yenidən hərəkətini davam etdirdi. O, 1534-cü il iyul ayının 12-də Ağşəhərə gəlib çatdı və bu şəhərə yetişəndən sonra İbrahim paşanın ona ünvünlanmış olan məktubunu aldı. Həmin məktubda, yuxarıda qeyd edildiyi kimi, bölgənin bir sıra qalalarının fəth edilməsi və bir sıra qalaların da könüllü şəkildə Osmanlı hakimiyyətini qəbul etməsi haqqında məlumat verilmişdi (107).

Elmi-tarixi ədəbiyyatda İraqeyn səfərinin başlaması ilə bağlı Sultan Süleymanın bir şeri verilmişdir. Mühübbi təxəllüsü ilə yazılmış həmin nəzm parçasında Sultan Süleyman bir daha bu səfərin başlanmasını islamda yol verilən yanlışlıqların qarşısının alınması ilə əlaqələndirirdi. Həmin nəzm parçası belə idi:

Allah, Allah deyəlim, sancağı-şahi çəkəlim
Yüyürüb hər yandan şərqə sipahi çəkəlim
İki yerdən kuşanalım yenə qeyrət kuşağın
Bulaşıb toz ilə torpağa, bu rahı çəkəlim
Payimal eyləyəlim kişvərini Sorxsərin
Gözünə sürmə deyu, dudi-siyahi çəkəlim
Bizə fərz olmuş ikən, olmamız İslama zahir
Necə bir oturalım, bunca günahı çəkəlim
Umarım rəhbər ola bizə Əbubəkirü Ömər
Ey Mühübbi, yürüyüb Şərqə sipahi çəkəlim (108).

Sultan Süleyman və onu müşayiət edən qoşunlar ağır səfər yürüşünü davam etdirərək 1534-cü il avqust ayının 8-də Sivasa yetişdi. Mövcud olan məlumata görə, həmin vaxtlarda özbək xanı Übeyd xandan Sultan Süleymana məktub gətirildi. Güman edilir ki, Übeyd xanın elçisi Krımdan keçməklə Osmanlı sultanının yanına gələ bilmişdi. Elçinin gətirdiyi məktubda Übeyd xan istəyirdi ki, Osmanlı sultanını Səfəvi dövləti üzərinə hücuma təşviq etsin. Übeyd xanın fikrincə, belə bir hücum onun Səfəvi qoşunlarına qarşı mövqeyini xeyli yaxşılaşdırmış olardı. Sultan Süleyman da özbək hakimindən belə bir məktub almağa məmnun oldu və Səfəvi hüdudları üzərinə hücum edəcəyini bəyan etdi. 1534-cü il avqust ayının 20-də Ərzincana yetişdikdən sonra Şirvan hakimi II Şirvanşah Xəlilullahdan da Sultan Süleymana məktub gətirildiyi məlumdur. Amma tarixi ədəbiyyatda bu məktubun məzmunu haqqında məlumat verilməmişdir (109).

Yuxarıda qeyd edildiyi kimi, Osmanlı sərəsgəri İbrahim paşa artıq Təbrizə doğru hərəkət etməkdəydi. Ondan əvvəl isə Ülamə Təkəli Təbriz üzərinə yürüşə başlamışdı. Ülamə Təkəlinin sərəncamında 10 min nəfərlik bir qoşun dəstəsi var idi. Bu dəstə İbrahim paşanın qoşun dəstəsinin avanqardı kimi irəli göndərilmişdi. Səfəvi qüvvələri müqavimət göstərəcəyi təqdirdə Ülamə Təkəli onlarla ilkin döyüşə girməli, müqavimət olmayacağı təqdirdə isə Təbrizə doğru hərəkətini davam etdirməli idi. Təbriz ətrafında güclü bir Səfəvi qüvvəsi yox idi. Səfəvi qoşunları Şah Təhmasibin rəhbərliyi altında Xorasan yürüşündə idi. Bu zaman Təbrizdə qalan az saylı Səfəvi qüvvəsi istər Ülamə Təkəlinin dəstəsinə, istərsə də İbrahim paşanın dəstəsinə müqavimət göstərmək iqtidarında deyildi. Bu zaman Musa sultan Təbriz hakimi idi. Qeyd edildiyi kimi, onun vəziri olan Xoca Şahqulu, habelə Mövlana Əhməd Təbəsi öz elçilərini Ülamə Təkəlinin yanına göndərdilər və onlar Təbrizi təslim etməyə hazır olduqlarını bildirdilər. Ülamə Təkəli də bu xəbəri məmnunluqla qarşıladı və ciddi bir müqavimətlə rastlaşmadan Qurban bayramı günü Təbrizə daxil oldu. Mövcud olan məlumata görə, Ülamə Təkəli Təbrizə daxil olanda şəhərin bir sıra əyanları da onu qarşılamağa

çıxmışdılar. Ülamə Təkəli Təbrizə yiyələndikdən sonra bu şəhərin ən böyük məscidi olan Uzun Həsən məscidinə yollandı, orada Sultan Süleymanın adına xütbə oxutdurdu və sonra da Təbriz darvazasının açarlarını Osmanlı sultanına göndərdi. O, Sultan Süleymana Təbrizin alınması haqqında məktub da göndərdi. Həmin məktubda deyilirdi: "İranı istərsiniz yanıma gəlin, siz gəlincəyə qədər tamamını əlimdə tutacağam. Şah Təhmasib ki, şimdi Türküstan ilə Xorasanda tatarlar ilə uğraşır, savaşacaq qüvvətə sahib deyildir. İraq ilə Azərbaycan sizi bomboş bəkləməkdədir" (110).

Ülamə Təkəlinin ardınca İbrahim paşa da qoşunların əsas dəstəsi ilə birlikdə Təbrizə doğru hərəkət etdi. Təbriz şəhəri artıq Osmanlı qoşunlarının nəzarəti altında olduğundan İbrahim paşaya yalnız sakit şəkildə Təbrizə daxil olmaq qalırdı. 1534-cü il iyul ayının 11-də İbrahim paşa qoşunu ilə birlikdə Təbriz yaxınlığındakı Səədabada gəldi və orada qısa müddətli istirahətə dayandı. Burada olarkən onun yanına Təbriz şəhərinin nümayəndələri gəldilər və şəhəri Osmanlı qoşunlarının talanlarından və dağıntılarından qurtarmaq üçün dinc şəkildə təslim etməyə hazır olduqlarını bildirdilər. İbrahim paşa da Təbriz elçilərinin xahişini qəbul etdi və 1534-cü il iyul ayının 13-də İbrahim paşa qoşun dəstəsinin müşayiəti ilə Təbriz şəhərinə daxil oldu. Tarixi ədəbiyyatda olan məlumatlarda deyildiyi kimi, Osmanlı qoşunları Sultan Səlimdən sonra (1514) ikinci dəfə Təbriz şəhərinə daxil oldular və bu şəhəri nəzarət altına aldılar. İbrahim paşanın yazdığına görə, hələ Səədabadda olarkən Gilan hakimi Məlik Müzəffər xan da 5 min nəfərlik qoşun dəstəsi ilə Osmanlı qoşunlarının qarşılanmasına gəlmişdi. Məlik Müzəffər xan və bölgənin bir sıra nüfuzlu adamları Osmanlı hakimiyyətinə tabe olduqlarını bəyan etdilər (111). Yəni bu o deməkdi ki, Gilan hakimi Səfəvi hakimiyyətinə tabe olmaqdan imtina edirdi. İbrahim paşanın Osmanlı sarayına göndərdiyi məktubda bu barədə belə yazılmışdı: "Əsagiri nüsrət şiar şəhri Təbrizdən Səədabad nam yaylağa gəlib ol məhəldə qərar göstərib və ol əsnada vilayəti-Gilan məliki Müzəffər xan dəxi beş min miqdarı adam ilə əsagiri-islamı

istiqbal eyləyib və diyari-Əcəmdə olan məmalik məliklərindən və bəylərindən dəxi yarar adamlar və elçilərdən gəlib kəmali-itaət və inqiyad göstərdilər" (112).

Təbrizə daxil olduqdan sonra İbrahim paşa bir müddət bu şəhərin və onun ətrafının idarəçiliyinin təşkilatlandırılması ilə məşğul oldu. Şah Təhmasibin rəhbərliyi altında olan Səfəvi qoşunlarının uzaqda olduğu və bu qoşunlar tərəfindən hələlik təhlükə gözlənilmədiyi üçün İbrahim paşa sakit şəkildə Təbrizdə öz işlərini görə bildi. İbrahim paşa əvvəldən Təbrizdə mövcud olan idarəçilik sistemini dəyişdirmədi. Amma şəhər idarəçiliyinə məsul olan vəzifələrə Osmanlı hakimiyyətinə etibarlı olan adamları təyin etdi. Başlıcası isə Ülamə Təkəli Azərbaycanın bəylərbəyi təyin edildi. Təbrizə daxil olmasından bir gün sonra, yəni iyulun 14-də İbrahim paşa şəhərin Uzun Həsən məscidində cümə namazında iştirak etdi. Bu barədə o, Osmanlı sultanına yazdığı məktubunda da məlumat verdi. Həmin məktubda olan məlumata görə, Sirvan hakimi II Xəlilullah da İbrahim paşanın yanına adam göndərərək Osmanlı hakimiyyətini qəbul etdi. Gilan hakimi Məlik Müzəffər xan isə yalnız Osmanlı sarayına itaətini bəyan etmədi. O, eyni zamanda Osmanlı qoşunlarının Təbrizə daxil olmasından və Səfəvi qoşunlarının da Xorasanda olmasından istifadə edərək Qəzvin, Sultaniyyə, Xalxal və Taromu və onlara yaxın əraziləri öz nəzarəti altına aldı. Görünür, onda belə bir inam var idi ki, Osmanlı qoşunlarının Təbrizə gəlməsi Səfəvi dövlətinin süqutuna yol açacaqdır. Ona görə də fürsətdən istifadə edərək daha geniş ərazilərə sahib olmaq şansını buraxmaq istəmişdi. Ümumiyyətlə, İbrahim paşa Təbrizi ələ keçirməsi və ilk vaxtlarda bu şəhərdə gördüyü işlər barəsində 1534-cü il avqustun 21-də müfəssəl bir məktub yazdı və onu Mustafa və Məhəmməd adlı elçiləri vasitəsi ilə Osmanlı sultanına göndərdi. Həmin məktubun mətni belə idi: "Diyari-Xorasanı məqərr və güzərgah edinmiş olan Şah, başkəndi Təbrizə (Bayandurlu ulu bəylərindən qaynı Muslu (Musullu-Türkman) Musa-Sultanı bir neçə min əsgərlə mühafiz qoymuş. Azərbaycan bəylərbəyi Ülamə paşa ilə Zülqədərli (Maraş) bəylərbəyi Əhməd paşa öncədən qaravul

təriqi ilə Təbriz caniblərinə göndərilib, arxadan da mən ordu ilə vardım. Bu sırada Qızılbaşın bəzi ümərası və bəyləri gəlib mütabiət eyləyib və bəzi qalaların dəxi sahibləri itaət eyləyib Osmanlı xidmətinə girdilər. 25 məhərrəm (13 iyul) günü cümlə əsakiri zəfər-məasir ilə mahmiyyeyi Təbrizə girildi. Bu sırada Şahın qayimməqamı Musa Sultan Təbiz şəhərində Ülamə paşa qolu ilə cəngə giriştiysə də bozulub qaçdı. Təbriz təvabı və ləvahiqi və cümlə muzafat və mülhəqəatı ilə məftuhü müsəhhər olub zəbt olundu. 26 Məhərrəm cümə günü iyirmi-otuz ildən bəri cümə namazı qılınmayıb, müəttəl və məsdud olan camilər açdırılıb, bunlarda və (Ağqoyunlu) Sultan Həsən Camiində cümə namazı qılındı.

Cibillət və xilqətlərində sünnilik bulunan və əskidən məktubları gəlmiş olan Gilan və Şirvan padşahları və Şahdan üz çevirib Osmanlılara könüldən dost olub. Bunlardan Şah ilə nevan qarabəti bulunan Gilan padşahı Müzəffər Sultan osmanlıların gəlişini fürsət bilərək kəndi səmtlərində İraqi-Əcəmdən Qəzvin və Sultaniyyə və Tarım və Xalxal nam bilad və məvazini zəbt edib qızılbaşları oralardan təmizləmişdir. Kəndisinə elçi göndərdiyimiz Xeyrəddin Çavuşla osmanlılara itaətini və Təbrizdə bizimlə görüşməyə gələcəyini ərz eyləmiş olub bu xüsusda elçilərini göndərmişdir. Biddəfəat nameyi-ixlas-ayat göndərib osmanlılardan istimdad və istianət eyləmiş bulunan dostumuz (Özbəkli) Übeyd xan da ləşgəri-tatar ilə Xorasanda Şahın qarşısındadır. Gilan padşahının aldığı xəbərə görə, bütün Mavəraünnəhrə xan olan bu Übeyd xan həzrətləri Amudərya üzərində ordusunu toplayıb qızılbaşlara hücum üçün bu canibdən sipahi-İslamın əzimətinə intizarda imişlər.

Bu qulları dəxi Mədineyi-Təbrizə gəldikdən sonra vilayəti-Azərbaycana mütəəlliq olan məvazinin hifzi-hirasəti üçün dərgahi-müəlla canibindən sancaqbəyliyi qonulmaq lazım və mühim olduğuna binaən: Naxçıvan sancağı fərmani-şərifləri müqtəzasınca, yeddi kərə yüz min (ağca illik xas) ilə müşarün-əleyh Ülamə paşa qullarının qarındaşı (təkəli) Vəli bəndələrinə" (113).

İbrahim paşanın məktubunda sonra Osmanlı nəzarəti altına düşmüş yeni ərazilərə kimlərin və hansı illik vergi ilə təyin edilməsi haqqında məlumat verilirdi. Həmin məlumata əsasən, Marağa sancağına 600 minlik ağca illik vergi ilə Vəlican, Misgin, Sərab və Ərdəbil sancaqlarına 600 min ağca ilə Şahəli, Həmədan sancağına 900 min ağca ilə Uluğ bəy, Kaşan sancağına 600 min ağca ilə bayandurlu Murad bəy, Qum sancağına 500 min ağca ilə bayandurlu Süleyman bəy oğlu Fərruxşad bəy, Şavə sancağına (Nəhavəndlə Qum arasında) 500 min ağca ilə Qabil bəy, Rey və Şəhriyar sancağına 500 min ağca ilə Zeynal bəy təyin edilmişdilər. Məktubda Azərbaycanın (Cənubi) və ona qonşu olan Səfəvi ərazilərinin məntəqələrinə də yeni hakimlərin təyin edildiyi bildirilirdi (114).

İbrahim paşanın məktubundan belə görünür ki, o, bütün Azərbaycanı, Səfəvi dövlətinin qərb ərazilərini və Tehrana qədər olan əraziləri artıq Osmanlı əraziləri sayırdı və ona görə də bu ərazilərə yeni hakimlər təyin edilmişdi. İbrahim paşa daha sonra məktubunda belə yazırdı: “Elan zikr olunan bəylər sancaqlarında olub Məmləkəti-Azərbaycan (Evnikdən Ərdəbilə və Gümrüdən Dərbasa dəkin) Həzrəti Sahib-Qırani aləm-pənahın yümni-himməti həmtaları ilə əmnüəman üzrə olub nəfsi Mədineyi-Təbriz ilə məftuh olan qalalar ki, Atabəyi-Ülyaya ərz olunmuşdu, nəvahisi ilə Hasseyi-Humayun üçün zəbt olundu. Və Üləmə paşa qullarına dəxi Azərbaycan (Təbriz) bəylərbəyliyi altmış kərə yüz min ilə vəch görülüb tövcih olundu.

Və Mədayini-Təbrizə qərib olan qalalardan (Naxçıvan doğusunda soldan Araza qarışan Əlincə çayı üzərindəki pək sərp və alınmazlığı ilə tanınan) Əlincə qalasında və (Urmiyə gölü qıyısında iskələ yeri olan çox sərp) Göyərçinlik nam Hisarda bəzi müfsidlər pənah edinüb, təhəssün eyləmişlər idi. (Şam bəylərbəyi) Xosrov paşa bədələrini bir miqdar əsgər ilə Əlincə qalasına göndərib və (Urmiyə sancağbəyi biradostlu) Qaziqıran bəy qulları dəxi bir miqdar əsgər ilə Göyərçinlik qalası üzərindədir. İnşaüllahül-əəzz anqərib zikr olunan qalalar dəxi fəthü təshir olunur. Və Marağa sancağına tabe Sarıqorqan nam qala ki, Azər-

baycanın hüsuni-namdarındandır. Əskidən Səfili Şahına da bu qala illərcə qarşı qoymuşkən, burası dəxi əhsən vəchilə fəth olunub alındı. Haliya müftahi Atabəyi-Ülyaya göndərildi. Və müqəddəmə Şahi-gümrah canibindən vilayəti-azərbaycanda qayimməqam olan Muslu Türkman boyundan (qaynı) Musa Sultan ki, əhvali zikr olunmuşdu, haliya ol dəxi Atabəyi-Ülyaya itaəti inqiyad eyləyib, adəmisi gəldikdə istimalətnamə göndərildi. Hüdudi-Azərbaycan bil-küllüylə dairəyi-zəbtə gətirilib. İraqi-Əcəm caniblərində dəxi əsgəri zəfər-rəhbərdən irsal olunmaq mühüm və lazım olmağın İraq (Həmədan) bəylərbəyliyi, Bayandurludan Murad bəy qullarına müansib görülüb, tövcih olundu” (115).

İbrahim paşanın yuxarıda istinad olunan məktubundan göründüyü kimi, Azərbaycanın nəzarət altına alınması heç də müqavimətsiz baş vermədi. Qızılcadağ yaylağından əlavə, Osmanlı qoşunları Əlincə, Göyərçinlik və Sarıqorqan qalalarında da belə bir müqavimətlə rastlaşdılar və İbrahim paşa ümid ediridi ki, həmin qalaların işğalı yaxın zamanlarda başa çatacaqdır.

İbrahim paşa onu da bildirirdi ki, onun tapşırığına əsasən, Ülamə Təkəli xüsusi bir qoşun dəstəsi ilə Ərdəbilin işğal edilməsinə göndərilmişdir. Onun sözlərinə görə, Ərdəbil ətrafında Osmanlı işğalına qarşı bir müqavimət mövcud idi. Osmanlı işğalını qəbul etməyən qüvvələr dağlara çəkilərək öz mübarizələrini davam etdirirdilər. Həmin dağın Savalan dağı olduğu ehtimal edilirdi. İbrahim paşanın sözlərinə görə, Ülamə Təkəli Ərdəbilin işğalını başa çatdırdıqdan sonra İraq istiqamətinə yollanmalı idi (116).

İbrahim paşa Osmanlı sultanına göndərdiyi məktubunda onun qışı Diyarbəkrdə keçirməsi təklif olunurdu. Verilən məlumatın məzmunundan belə bir qənaətə gəlmək olar ki, İbrahim paşanın Osmanlı sultanına Təbrizə gəlməkdə tələsməməyi və qışı Diyarbəkrdə keçirməyi təklif etməsi Ərdəbil istiqamətində baş verən döyüşün nəticələrinin bəlli olmasından əvvəl baş vermişdi. İbrahim paşanın məktubunda deyilirdi: “...Təbrizdə qala bina olunmasını fikir edib bəzi münasib məhəl tədarük olunub binasına mübaşirət olundu. Mədineyi-Təbriz Həzrət Sahib Qırani aləm-

pənahın təhti-alibəxtləri olmuşdur. ...Dövlət və iqbal və səadət və iclal ilə yüyürüb Azərbaycana mütəəlliq olan Erciş nam məhəllə dəkin gəlmək babında yümni-himməti-Həzrəti-Sahib-Qıranı məbzul buyurula inşaallahül-əəzzə səadət ilə gəlindikdə geri bəndələri tərəfinə işarəti-aliyə buyurula ki, Bağdad hakimi olan Məhəmməd xan, belə ki, bu qış dərgahi-səadət dəstgah qabilinə itaət etməyə qulları onun üzərinə əzimət eyləmək niyyət olunmuşdur. Həzrət Sahib-Qırani rübi məskun dəxi əadət ilə qışı Diyarbəkrdə qışlamaq münasibdir, ona görə tədarük buyurula” (117).

Amma məlumdur ki, Ərdəbil istiqamətinə göndərilmiş qoşun dəstəsi ciddi uğursuzluğa düçar oldu. Bu istiqamətdə baş verən döyüş Qızılcadağ yaylağında olmuşdu. Osmanlı qoşunları Azərbaycan hüdudlarına daxil olduqdan sonra ilk dəfə Qızılcadağ yaylağında ciddi müqavimətlə rastlaşdılar və həm də ciddi itkilər verdilər. Məlumdur ki, həmim döyüş də Ülamə Təkəlinin təhriki ilə baş vermişdi. Çox güman ki, Ülamə Təkəli bununla Osmanlı sarayı qarşısında öz mövqeyini daha da möhkəmləndirmək, habelə özünü məğlubedilməz bir əmir kimi göstərmək istəyirdi. Bildirilir ki, Ülamə Təkəli və onunla həmfikir olan Osmanlı saray dəftərdarı İsgəndər Çələbi belə bir döyüş keçirmək təşəbbüsü ilə İbrahim paşaya müraciət etdilər. Onların fikrincə, Qızılcadağ yaylağında güclü bir müqavimət mərkəzi mövcud idi və bölgə üzərində tam nəzarətin təmin edilməsi üçün həmin yaylaqdakı Səfəvi qüvvələrinə zərbə vurulması məqsədəuyğun idi. İbrahim paşa da onların təklifinin məqsədəuyğunluğunu qəbul etdi və Ülamə Təkəlinin rəhbərliyi altına 10 min nəfərlik seçmə qoşun dəstəsi verərək Qızılcadağ yaylağına göndərdi. Həmin qoşun dəstəsinin sayı 25 min nəfər idi və Qızılcadağ yaylağına göndərilən qoşun dəstəsi Anadolu və kürd döyüşçülərindən təşkil olunmuşdu. Qızılcadağ yaylağı isə dağlıq və dərəlik ərazidə yerləşirdi və bu dərələrin müdafiə imkanlarından istifadə etməklə güclü qoşun dəstələrinə qarşı uğurla müdafiə olunmaq mümkün idi. Osmanlı mənbələrində Qızılcadağda yerləşən Səfəvi qüvvələri və onların rəhbərləri haqqında ətraflı məlumat verilməmişdir.

Ancaq məlumdur ki, bu yaylaqdakı Səfəvi qüvvələri Osmanlı təhlükəsini və döyüş şəraitini düzgün qiymətləndirdilər, əlverişli müdafiə mövqeləri tutdular və uğurla təşkil edilmiş müdafiə döyüşlərindən sonra yaylağa hücum çəkmiş çoxsaylı Osmanlı qoşun dəstəsinə ağır zərbə vurdular. Nəticədə Qızılcadağ yaylağına hücum çəkmiş olan Osmanlı qoşun dəstəsi bütünlüklə məhv edildi. Amma Ülamə Təkəli bu döyüşdən canını salamat qurtara bildi. Bəzi məlumatlara görə, Ülamə Təkəli ilə İsgəndər Çələbi bu uğursuz döyüşü keçirməklə İbrahim paşanın nüfuzunu aşağı salmağa çalışırdılar. Sözsüz ki, İbrahim paşa Qızılcadağ döyüşünün nəticələrindən heç də məmnun olmadı. Bununla belə, o, Ülamə Təkəlinin növbəti təhriklərindən də üz döndərmədi. Qızılcadağ yaylağında ciddi uğursuzluq baş versə də, Ülamə Təkəli sonradan İbrahim paşanı inandıra bildi ki, Ərdəbil üzərinə qoşun dəstəsi göndərilsin və Ərdəbil bölgəsi talanlara məruz qoyulsun. İbrahim paşa da bu təkliflə razılaşaraq Ərdəbil istiqamətinə qoşun dəstəsi göndərdi. Lakin məlumdur ki, Səfəvi qoşunlarının Xorasandan geri qayıtmaq xəbəri alınanda, Osmanlı qoşunlarının Ərdəbil yürüşü də dayandırılmalı oldu (118).

Görünür Sultan Süleyman da İbrahim paşanın təklifini məqsədəuyğun hesab etmişdi və o da qarşıdan gələn qışı Diyarbəkrdə keçirməyi məqsədəuyğun saymışdı. Ona görə də, o, Təbrizə aparan yolu tərk edərək Ərciş yolunu tutmuş və Ərcişə gəlmişdi. Sultan Süleyman həm də qoşun toplarının gətirilib çatdırılmasını gözləmək istəyirdi. Amma Qızılcadağ yaylağında baş verən ciddi uğursuzluq Osmanlı sultanının öz qərarına yenidən baxmasına səbəb oldu. Həmin uğursuzluq Osmanlı qoşunları daxilində də müəyyən narazılıqların baş qaldırmasına yol açdı. Belə uğursuzluğun bir daha təkrarlanmaması üçün Osmanlı döyüşçüləri Osmanlı sultanının özünün bölgəyə gəlməsini və vəziyyəti öz nəzarəti altına almasını istəyirdilər. Ona görə Osmanlı qoşunları arasında hətta belə bir ifadə də tez-tez səslənməyə başlamışdı ki, “Şaha şah gərəkdir”. Yəni Səfəvi şahının qarşısına Osmanlı şahı özü çıxmalıdır. Digər tərəfdən Təbrizin işğalından xəbər tutan Şah Təhmasibin qoşunlarının Təbrizə doğru hərəkəti barəsində

məlumat alınmışdı. Bu məlumat İbrahim paşanı ciddi şəkildə narahat etmiş və bu barədə dərhal Osmanlı sultanına məktub göndərmişdi. 1534-cü il sentyabr ayının 21-də yazılmış həmin məktubda deyilirdi: "Bundan əqdəm Şahın Xorasandan bəri gəlib çıxdığı, Dərgahi-müəlla çavuşlardan (Alaşəhrli) Mehmet çavuş və bədehi Fərrux çavuş bəndələri ilə Atabəyi-Ülyaya ərz olunduqdan sonra, məqhuri-məzkurun bəyləri kəndidən müqəddəm bəriyə qərib məhəllə gəlib, kəndisi əqəblərincə bilə idigü məlum olmağın, Tanrıya sığınaraq Təbriz yanındakı Səadətabaddan 11 Rəbiüləvvəl (20 sentyabr) bazar günü köçülüb bir qonaq irəli Ucan nam məhəllə ertəsi gün konulduğu sırada düşmən tərəfindən dil alınıb. Aduyi-məqhurun irəli gələn bəyləri əsgəri ilə Ucana qərib Miyanə nam məhəllə gəldikləri mühəqqəq olduğu əcildən əsgəri-mənsurdan on min miqdarı kimsənə çıxarılıb qaravul təriqiylə göndərilib, bilcümlə ədayi-məkruhla gərəgi kimi ulaşılmışdır. Bunca zamandan bəri qaçıb uzaq məntəqələrə getmiş olduğu halda, Tanrıya çox şükür ki, Padişahımızın uğuru ilə kəndi ayağı ilə gəlmişdir. Böyləcə düşmən ziyadə qərib olmuşdur. Atabəyi-aləm-pənahın gübari teyyibələrindən ümmidir ki, səadət və iqbal ilə yürüməklə istical olunub, dörd-beş gün içində erişmək babında üluvvi-inayəti Həzrəti Sahib Qıranı məbzulü mətuf buyurula. Və həm (Padşahın yanındakı) Rumeli əsgəri qullarına irəli təcillə erişməyə icazəti-ali inayət oluna. Bu xüsus üçün Dərgahi-müəlla çavuşlarından Əhməd çavuş bəndələri irsal olundu" (119).

İbrahim paşa bu məktubunda Şah Təhmasibi lənətlənmiş biri adlandırır və az qala sevinclə xəbər verirdi ki, uzaq məmləkətlərə qaçıb getmiş bu adam indi öz ayağı ilə Osmanlı sultanının görüşünə gəlməkdədir. Baxmayaraq ki, tabeliyində çox böyük qoşun dəstəsi var idi, bununla belə, məktubdan göründüyü kimi, İbrahim paşa Şah Təhmasibin Xorasandan geri dönməsini böyük narahatçılıqla qarşılayır və az qala sultana yalvarırdı ki, onun köməyinə gəlsin. O, sultandan xahiş edirdi ki, 4-5 gün ərzində özünü yetirsin və sultan Rumeli əsgərlərinə də irəli hərəkət etmək barəsində göstəriş versin.

Sultan Süleyman bu xəbəri alandan sonra ətrafındakı vəzirləri və əyanları toplayıb onlarla məşvərət etdi. Burada qərara alındı ki, Sultan Süleyman qışlağa dayanmayıb Təbriz şəhərinə doğru istiqamət götürsün və dərhal da Təbrizə doğru hərəkət başlandı. Sultan Süleyman eyni zamanda İbrahim paşaya məktub göndərdi və ona Səfəvi qoşunlarını qarşılamağı tapşırdı. İbrahim paşa da bütün qoşunları Təbrizin şərqində olan Ucan yaylasına çıxardı və Səfəvi qoşunlarını orada gözləməyə başladı. Amma artıq qoşunlara məlum olmuşdu ki, Təbrizin müqavimətsiz təhvil verilməsi heç də Səfəvi dövlətinin gücsüzlüyü və acizliyi demək deyildir və bu dövlətin kifayət qədər gücü vardır. Xüsusi ilə, Qızılcadağ yaylağında baş vermiş ağır uğursuzluq Osmanlı qoşunları daxilində narazılıqları, habelə İbrahim paşaya qarşı etimadsızlığı artırmaqda idi. Ona görə İbrahim paşa yeni şəraitdə Osmanlı sultanının bölgəyə daha tez yetişməsini arzulayırdı. Sultan Süleymanın Xoyda olduğu vaxt İbrahim paşa ona yeni bir məktub göndərdi və vəziyyətin mürəkkəbləşməyə doğru getdiyini onun nəzərinə çatdırdı. Bununla o, həm də Osmanlı sultanının tezliklə gəlməsini arzuladığını bəyan etdi. İbrahim paşa onu da təklif etdi ki, Sultan Süleyman qoşunlarla Təbrizə daxil olmadan birbaşa Ucana gəlsin və orada Osmanlı qoşunları birləşsinlər. Sultan Süleyman da vəziyyətin onun xeyrinə olmadığı barəsində məlumatlı olduğu üçün özünü tezliklə Təbrizə çatdırmağa çalışdı. Həmin məktubunda İbrahim paşa yazırdı: "Kızılbaş, ... bəndəniz ki, yörüdüm, xəbər almış dönmüş. Qaravul göndərdim ki, Şahdan qeyri kim var isə buluşsunlar, əgər Şah kəndi isə, bəndənz buluşum... həman Sultanım, inayət eylən, Təbrizə konmayın, geçin bəndəniz qonağına konun, əsili vardır. Və həm Təbrizabad (Şenbi-Qazan) hisari tamam oldu, Sultanımın himmətiylə"(120).

Osmanlı qoşunlarının Təbrizə yürüş etməsi və bu yürüşün necə baş verməsi haqqında Şah Təhmasibin təzkirəsində də müəyyən qeydlər vardır. Bu xəbəri nə zaman və necə eşitməsi haqqında Şah Təhmasib belə yazırdı: "21 gündən sonra vəzir Əhməd bəy pərişan və ürəyi incimiş halda gəldi. Ondan soşruşdum:

-Sən şərab içmirsən ki, sərxoş olasan, nə üçün kədərlisən?

Dedi:

-Kaş öləydim, bu günü görməyəydim. Nankor Ülamə Təbrizə gəlib qızılbaşların ailəsini tamam əsir edib.

Soruşdum ki, İbrahim paşa onunladır?

Dedi: - Yox.

Xandigarı soruşdum, dedi: - İstanbuldadır.

Dedim:

-Şəni yüksək olan Allah Ülamə və İbrahim paşanın cəzasını verəcəkdir. Öz vəlinemətinə (hamisinə) qarğış və lənət yağdırılmasına səbəb olduqları üçün cəzalarına çatacaqlar.

...Ülamənin xəbərindən sonra daha 27 gün Heratda qaldım. Ondan sonra Xəlifə Məhəmməd qorçubaşını, qorçuların bir hissəsini və Müntəşa sultanı qabaqca göndərdim və özüm onların ardınca hərəkət etdim" (121).

Müntəşa sultan və onun rəhbərliyi altında olan dəstə Əsfəreynə çatanda İbrahim paşanın qoşun dəstəsi ilə Təbrizə daxil olması haqqında dəqiqləşdirilmiş məlumat əldə etdi. Bu məlumatı ona Təbrizə göndərilmiş casuslar çatdırdılar. Müntəşa sultan da eşitdiyi xəbərin doğruluğunu Şah Təhmasibə çatdırmaq üçün Təbrizdən gələn casusu öz adamlarından biri ilə Şah Təhmasibin hüzuruna göndərdi. Şah Təhmasibə eyni zamanda İbrahim paşanın Taclı bəyimə yazdığı məktub da göndərildi. Çox güman ki, Təbrizə göndərilmiş Səfəvi casusu Taclı bəyimlə görüşə bilmiş və İbrahim xanın yazdığı məktubu ondan ala bilmişdi. Həmin məktubun məzmunundan belə bir qənaət hasil olur ki, İbrahim paşa onu hələ Təbrizə daxil olmazdan əvvəl yazmışdı və Taclı bəyimə təklif edirdi ki, Şah İsmayılın xəzinəsindən qalmış qiymətli əşyaların bir qismini ona göndərsin: "Rəhmətlik və cənnətlik həzrət Şah İsmayıldan qalmış daş-qaşa tutulmuş silah və qızıl əşyalardan bir qismini hədiyyə göndərin. Mən onları Həzrət Xandigarın xidmətinə göndərim, sizinlə barışmasını xahiş edim. Özü də bu ölkəyə gəlməsin və həmin diyarı sizin ixtiyarınıza versin, biz də qayıdıb gedək öz yerimizə" (122).

Şah Təhmasibin yazdığına görə, Ülamə Təkəli də belə bir məzmunda Taclı bəyimə məktub yazmışdı. Heç şübhəsiz ki, istər

İbrahim paşanın, istərsə də Ülamə Təkəlinin Taclı bəyimə yazdığı məktub aldadıcı xarakter daşıyırdı. Belə güman etmək olmazdı ki, Taclı bəyim ona edilən təkliflə razılaşacağı halda Sultan Süleyman İraqeyn səfərindən imtina edəcəkdi. Bununla belə, Şah Təhmasib Osmanlı qoşunlarının hücumu haqqında məlumatları dəqiqləşdirəndən sonra, məlum olduğu kimi, Bəlx səfərindən imtina edib Təbrizə doğru üz tutdu. Amma üzücü Xorasan yürüşündən sonra qısa müddət ərzində geri qayıtmaq əzmi həm qoşunları, həm də qoşun atlarını xeyli əldən saldı. Şah Təhmasib yazırdı ki, Rey yaxınlığındakı Günbədi-Kəbuda çatanda atlar və dəvələr tamamilə əldən düşmüşdülər. Bu heyvanların bir hissəsi hətta əldən düşərək yolda qalmışdılar. Qoşunların bir hissəsi isə dağılaraq ətrafa səpələnmişdilər. Mövcud məlumatlara görə, bölgəyə yetişəndə Şah Təhmasibin yanında cəmi yeddi min nəfərlik bir qoşun dəstəsi var idi. Belə bir vəziyyətdə təcrübəli qızılbaş əyanları və əmirləri  nə edilməsi haqqında müxtəlif fikirlər irəli sürdülər. Çünki Səfəvi qoşunları ilə müqayisədə Osmanlı qoşunlarının sayı o qədər çox idi ki, onlara qarşı mövqe tutulmasının məqsədəuyğun olmaması haqqında müəyyən fikirlər də ortaya çıxdı. Bununla belə, mənbələrdə olan məlumatlara görə, qızılbaş əyanları ən mürəkkəb vəziyyətdə də uğurlu nəticələrin əldə edilməsinin mümkünlüyünə inanaraq ciddi bir təşvişə düşmədilər və onlar Osmanlı qoşunlarına qarşı müqavimət göstərilməsini zəruri saydılar. Əsfəreyndə olanda Şah Təhmasib bir daha öz adamlarını irəli göndərdi ki, Osmanlı qoşunları, o cümlədən İbrahim paşanın fəaliyyəti haqqında yeni xəbərlər gətirsinlər. Onun göndərdiyi adamlar Marağa yaxınlığında Osmanlı dəstələri ilə rastlaşdılar və tərəflər arasında kiçik bir toqquşma da baş verdi. Nəticədə bir daha aydın oldu ki, Osmanlı qoşunları çox yaxındadırlar və onlar Azərbaycan ərazilərində öz mövqelərini möhkəmləndirməyə çalışırlar (123).

1534-cü il sentyabr ayının sonlarına yaxın Sultan Süleyman da onu müşayiət edən qoşun dəstəsi ilə Təbriz şəhərinin həndəvərinə gəlib çıxdı. Osmanlı mənbələrinə görə, Təbriz yaxınlığında düşərgə salan Osmanlı sultanının qarşılanmasına Təbriz sa-

kinlərinin çoxu çıxmış və onlar sultanın keçəcəyi yolu qumaşlarla bəzəmişdilər. Amma Sultan Süleyman Təbriz ətrafında dayanmayıb Ucana yollandı və sentyabr ayının 30-da Sultan Süleymanın Ucan yaylağına yetişdiyi bildirilir. Bununla da Sultan Süleymanın rəhbərliyi altında olan qoşun dəstəsi ilə İbrahim paşanın rəhbərliyi altında olan qoşun dəstəsi birləşdi və nəticədə Ucan ətrafında 150 min nəfərlik güclü bir Osmanlı qoşun qruplaşması yaradıldı. Dərhal da Şah Təhmasib qoşunları ilə qarşılaşmaq üçün lazımi hazırlıqların görülməsinə başlandı. Bu hazırlıq tədbirlərindən biri də Təbriz şəhərinin müdafiəsinin möhkəmləndirilməsi ilə bağlı oldu. Osmanlı qoşunlarının irəli hərəkət edəcəyi halda arxada qalan Təbrizin əldən verilməməsi üçün bu şəhərdəki qarnizon gücləndirildi və bir sıra tanınmış əmirlər Təbrizin müdafiəsinə vəzifələndirildilər. Bu əmirlər arasında Osmanlı hakimiyyətinə itaətini bəyan etmiş Şirvanşah II Xəlilullahın oğlu Məhəmməd Mirzə də var idi. Təbrizin belə möhkəmləndirilməsi və osmanlıların nəzarəti altında olması ilə əlaqədar Şah Təhmasib dövlətin paytaxtı kimi Qəzvin şəhərini seçdi. Mövcud olan məlumata görə, Sultan Süleyman Ucanda olarkən hələ əvvəldən ona itaətini bildirmiş Gilan hakimi Mirzə Müzəffər sultan onun yanına gəldi, qiymətli hədiyyələr bağışlamaqla bir daha Səfəvi hakimiyyətindən qopduğunu bəyan etdi (124).

Səfəvi dövlətinin paytaxtının Qəzvinə köçürülməsi ilə bağlı Şah Təhmasibin təzkirəsində də müxtəsər qeyd vardır. O yazırdı: "Sevindik bəyə dedim ki, gedib Qumda olan köç evini (hərəmxananı) Qəzvinə gətirsin. Çünki Xandigar [İbrahim paşa ilə] birlikdə olmadığına və İbrahim paşanın ətrafında az adam olduğuna görə onlardan nə desən gözlənilə bilər" (125)

Şah Təhmasibin qeydlərindən belə bir qənaətə gəlmək olar ki, Sultan Süleymanın Təbrizə gəlməsi İbrahim paşanın hiyləsinin nəticəsi idi. Bu fikrin doğruluğu qəbul edilə bilər. İbrahim paşa hiylə işlətmişdisə də, bu hiylə onun Şah Təhmasib qoşunlarından və qüdrətindən qorxması ilə bağlı idi. İbrahim paşa əmin idi ki, təklikdə Şah Təhmasibə qarşı çıxa bilməyəcək və ona görə də Sultan Süleymanın daha tez Təbriz ətrafına gəlməsinə nail oldu.

Hələ Qəzvinə gəlməzdən əvvəl Şah Təhmasib Osmanlı qoşunlarına zərbə vurmaq qərarına gəldi. “[Şah Təhmasib] Kərə [adlı] mənzildən Bəhram mirzəni, Əlqas mirzəni, Hüseyn xan Şamlunu, Əmir sultan Rumlunu, Qazi xan Təkəlünü və Süleyman sultan Rumlunu mənqəlay şəklində Təbriz üzərinə yolladı və fələk şövkətli ordu Qəzvinə gəldi. Qəzvindən isə Əbhərə yola düşdülər. Orada əmirlərdən xəbər gəldi ki, xondgar dəqiq şəkildə [bu tərəfə] gəlməkdədir. Əmirlər xondgar ordusuna qarşı üz qoydular. Onlar Qaraağaca çatdıqda İbrahim paşa ilə qarşılaşdılar. Döyüş başladı. Rumilərin sayı həddən və hüduddan artıq olduğundan əmirlərin bəziləri, məsələn, Hüseyn xan, Qazi xan və Məlik bəy Xoyi, dönük çıxmaq fikrinə düşmüşdülər. Buna görə də şiddətli bir döyüş baş vermədi. Bəhram mirzə, Əmir sultan və Süleyman sultan gecəyə qədər [rumilərə] müqavimət göstərdilər” (126).

Şah Təhmasib Qəzvinə yetişdikdən sonra onun qoşun dəstəsi ilə Osmanlı qoşunları arasında bir döyüşün olmasından xəbər verirdi: “Bir gün Qəzvində Cəfərabad məhəlləsinin baş tərəfində tikdirdiyim hamamdan çıxıb Zeynal xanın evinin bağçasında oturmuşdum. Qəzvin kəndxudaları yemək bişirib gətirmişdilər. Xörəyi yedikdən sonra Zəncan çayı [kənarında] olan Əlqasib və Bəhram mirzənin yanından bir nəfər gəldi ki, İbrahim paşa getmək fikrindədir. O saat Müntəşa sultanı  başqa 100 nəfərlə göndərdim ki, Əlqasib, Bəhram mirzə və Çərxəbənddə olan başqa qoşunla birləşib İbrahim paşa və Ülamənin ardınca getsinlər. Və dedim ki, mən özüm də tezliklə sizin arxanızca gəlirəm.

Qoşunlar Nikpey karvansarasında bir-birilə birləşir və bir mənzil yürüş edirlər. Təsadüfən rumluların bir dəstəsinə rast gəlirlər. Bəzilərini öldürür bir neçəsini isə diri tutub onlardan vəziyyəti soruşub öyrənirlər. Deyirlər ki, İbrahim paşa hiylə işlədib. Budur, həzrət Xandigar özü Təbrizə daxil olub, şənbə günü Təbrizdən çıxıb bu tərəfə gəlməkdədir ” (127).

Mənbələrdə bu döyüşlərin baş verməsi tarixi göstərilməmişdir. Lakin eyni adamların adları çəkildiyi üçün burada eyni döyüşdən söhbət getdiyini də güman etmək olar. Şah Təhmasib yu-

xarıdakı qeydlərində özünün də döyüşə qoşulmaq fikrində olmasından söz açırdı. “Əhsənüt-təvarix” müəllifinin verdiyi məlumata görə də Şah Təhmasib qardaşları Əlqas Mirzə ilə Bəhram Mirzənin qatıldığı döyüşə özü də yollanmışdı. Lakin bu zaman baş verən bir hadisə Şah Təhmasibin və eləcə də ona sədaqətli olan insanların ciddi narahatçılığı ilə qarşılandı: “Cənnətməkan şah istədi ki, Bəhram mirzənin və [onunla birlikdə olan] əmirlərin köməyinə getsin. Amma [bu arada] xəbər gəldi ki, Sultan Süleyman hədsiz qoşunla Miyanəci keçib, Sultaniyyəyə çatmışdır. Bəhram mirzə və əmirlər qayıdaraq, şah ordusuna qoşuldular. Bu əsnada Əlaüddövlə Zülqədərin oğlu Kor Şahruxun oğlu Məhəmməd xan Zülqədər əşrəfin xidmətində böyüdüyünə və oğul kimi sayıldığına baxmayaraq, batinindəki inadını zahirə çıxarıb, atasının qızılbaşlarla baş vermiş əhvalatına görə Burun sultan Təkəlünün oğlu Hüseyn xan və bir sıra digər şəxslərlə birlikdə dönük çıxaraq, düşmənlərə qoşuldu. Cənnətməkan şah dəfələrlə çirkin işlər görmüş Hüseyn xan Şamlu, Qazi xan Təkəlü və Məlik bəy Xoyi kimi digər nifaq təbiətli əmirlərə də güvənmirdi. Buna görə də o, candan keçən mübarizlərin toplanmasına kimi bir neçə gün döyüşü təxirə saldı” (128).

Məhəmməd xan Zülqədər tabeliyində olan bir min atlı ilə Osmanlı qoşunlarına qoşuldu. Osmanlı mənbələrində olan məlumata görə, Məhəmməd xan Zülqədər və digər əmirlər 1534-cü il oktyabr ayının əvvəllərində, Osmanlı qoşunları Sultan Süleymanın rəhbərliyi altında Sultaniyyədə olanda həmin qoşunlara qoşulmuşdular. Səfəvi qoşunlarını taparaq onunla döyüşə girmək niyyətində olan Sultan Süleyman da 1534-cü il oktyabr ayının ilk günlərində Ucanı tərk edərək Zəncana üz tutdu. Sonra isə o hərəkətini davam etdirərək oktyabr ayının 13-də Sultaniyyəyə çatdı. Sözsüz ki, bəzi təcrübəli və nüfuzlu əmirlərin Osmanlı qoşunlarına qoşulması Sultan Süleymanın böyük məmnunluğu ilə qarşılandı. Çünki bu əmirlərin gəlməsi Səfəvi döyüşçülərinin döyüş əhval- ruhiyyəsinə də əks təsir göstərə bilərdi. Məhəmməd xan Zülqədər bu hərəkətinə görə, Osmanlı xəzinəsindən 100 min ağca nağd mükafat aldı. Ona başqa qiymətli hədiyyələr də verildi.

Səfəvi sarayına xəyanət edərək Osmanlı qoşunlarına qoşulmuş digər əmirlər də qiymətli hədiyyələr qazandılar. Onlar Osmanlı qoşunları tərkibində Səfəvi qoşunlarına qarşı döyüşlərə qoşuldular. (129).

Məhəmməd xan Zülqədərin və digər əmirlərin Səfəvi sarayına xəyanət etməsi haqqında Şah Təhmasib də öz təzkirəsində qısa qeydlər etmişdir. Bu qeydlərdən aydın olur ki, Şah Təhmasib Osmanlı qoşunlarına qarşı müqavimətin gücləndirilməsi üçün Qəzvindən Əbhərə yollanmışdı. Bu zaman Səfəvi qoşunlarının əsas hissəsi artıq Sultaniyyədə idi və Şah Təhmasib çalışırdı ki, burada Osmanlı qoşunlarına qarşı müqaviməti güclənsin. Məhəmməd xan Zülqədər də məhz bu vaxt Səfəvi qoşunlarını tərk etmək qərarına gəlmişdi.  Şah Təhmasib yazırdı: "Həzrət Xandigarın gəlmək xəbəri günü-gündən geniş yayılırdı. Qəzvindən köçüb Əbhər tərəfə getdim. Əmirlər və ordu Xandigarın qoşununun qabağını saxlayıb əhalini ətraflara köçürdülər. Ətraf yerləri xarab edib, Zəncana qədər gəldilər. Əbhərdə xəbər çatdı ki, həzrət Xandigar Zəncana daxil oldu. Bizim qoşunumuz Sultaniyyədə idi. Hərəm[xananı] Əbhər yolu ilə Quma göndərdim. Özüm Əbhərdən Qaraağac deyilən yerə gəldim. Əmirlərin yanına adam göndərdim ki, mən Sultaniyyəyə gəlirəm, siz də orada olun. Əmir bəy, Çıraq sultan və Zülqədəroğlunu göndərdim ki, Hüseyn xan, Müntəşa sultan və Şiraz hakimi Qazi  xan Zülqədər hər biri 10 nəfər təcrübəli işbilənlə müşavirəyə gəlsinlər, görək nə etməliyik. Xəlil ağa onları gətirdikdə Hüseyn xan dedi:

-Bizim atlarımız arıqdır, rumluların qoşununun qarşısına çıxa bilmərik.

Mən dedim:

-Məgər biz rumlularla üzbəüz müharibə edəcəyik ki, sən belə deyir və atların arıq olması barədə fikirləşib narahat olursan?

Belə qərara gəldik ki, ordunu bir neçə hissəyə ayırıb, rumluların keçəcəyi yerləri xarab edib quru çölə döndərək. Mən 30 qorçi ilə birlikdə təpənin üstünə çıxdım ki, görüm Xandigarın ordusu Zəncandan köçüb, ya yox. Bir saat müşahidə etdim, gördüm ki, qoşunun çadırları tamamilə yığıldı. Özlərini Sultaniyyədən dağa

tərəf verirlər. Başa düşdüm ki, rumlular gəldi və onlara yaxınlaşdı. Oradan aşağıya düşüb ordumuzun içərisinə qayıtdım. Qənbəroğlunu göndərdim ki, Əlqasibi, Bəhram mirzəni və əmirləri yanıma gətirsin. Bundan sonra bir-birimizdən ayrılmalıyıq. Qənbəroğlu o gecə getdi, sabahısı onları gətirdi. Dedilər ki, Zülqədəroğlu 1000 nəfərlə qaçıb rumluların ordusuna daxil olub.

Həzrət Xandigar hələ Ucana çatmamış Müntəşa sultan və ordusu Çərxbənddə olan zaman Zülqədəroğlunu qarovula göndərmişdi. Çərxəbənd ətrafında 500 nəfər rumlu qaravula rast gəlirlər. Sədrəddin vuruşmaq istəyir və qorçilər toplaşırlar. Bu haramzadə əvvəldən alçaq olduğuna görə qoymur ki, guya arxada olan rumlu camaatı çoxdur, bizi tutarlar" (130).

Yuxarıda adları çəkilən əmirlərin Səfəvi hakimiyyətinə xəyanət etməsi və Osmanlı qoşunlarına qatılması doğrudan da, Səfəvi döyüşçülərinin bir qisminə ağır təsir etdi. Məlum idi ki, Osmanlı qoşunlarının sayı çox böyükdür və bu qoşunlara qarşı müqavimət göstərmək elə də asan deyildir. Hətta yuxarıda qeyd edildiyi kimi, Şah Təhmasib də bu hadisəyə görə Osmanlı qoşunları üzərinə planlaşdırılan hücumu təxirə salmalı oldu. Lakin istər Şah Təhmasib, istərsə də ona sədaqətli olan əmirlər, əyanlar və qoşunlar öz döyüş ruhlarını itirmədilər və onlar qətiyyətli şəkildə Osmanlı qoşunlarına mümkün müqavimətin göstərilməsini lazım bildilər. Güclü qoşun qarşısında açıq döyüşə girməyin səmərəli bir nəticə verməyəcəyi üçün Şah Təhmasib də, onun ətrafındakılar da başqa bir taktikanı seçdilər. Şah Təhmasib çevik döyüşlərlə Osmanlı qüvvələrinə itki yetirməklə bərabər, həm də iqtisadi və ərazi müqaviməti yolunu seçdi. Yəni Osmanlı qoşunlarının hərəkət edə biləcəyi marşrutlar üzərindəki körpülər, keçidlər, yollar dağıdıldı, su mənbələri, ərzaq ehtiyatları məhv edildi və bununla Osmanlı qoşunlarının irəli hərəkət etməsi üçün mümkün çətinliklərin yaradılmasına başlandı. Yəni Şah Təhmasib güclü Osmanlı qüvvələri qarşısında öz mübariz əzmi ilə dayandı və ona sədaqətli olan qüvvələri də dünyanın ən qüdrətli sərkərdələrindən biri olan Sultan Süleymana qarşı mübarizəyə səfərbər edə bildi.

Şah Təhmasibin təzkirəsində tərəflərin Sultaniyyə ətrafında olduğu zaman Səfəvi şahı ilə Osmanlı sultanı arasında məktub mübadiləsinin olması haqqında məlumat vardır. Səfəvi şahının yazdığına görə, Sultan Süleyman əsir düşmüş Səfəvi döyüşçüsü vasitəsilə ona məktub göndərmiş və o da həmin məktuba cavab yazmışdı. Təzkirədə Sultan Süleymanın məktubunun məzmunu haqqında qısa məlumat verilirdiyi halda, Şah Təhmasibin məktubunun mətni geniş şəkildə öz əksini tapmışdır. Bu məktubda Şah Təhmasib təriqət rəhbəri olan bir şah kimi baş verənlərə münasibətini açıqlamışdır: "Xandigar ...mənə bir məktub yazıb göndərir. Məzmunu belədir: Sənin rəhmətlik və cənnətlik atan Şah İsmayıl mənim atamla müharibə etdi. Sən də şücaət iddiası edirsənsə, gəl vuruşaq. Əgər müharibə istəmirsənsə, daha şücaət iddiası etmə. Onun məktubundakı "şücaətin" cavabında yazdım:

Bütün varlılardan yüksək olan şəni uca böyük Allah Quranında buyurur ki, kafirlərlə cihad və qəzada (din uğrunda vuruşmada) özünüzü ölümə verməyin: Təhlükə yaradan əli qarşılamayın [*Bəqərə surəsi, 195-ci ayə*].

Bir halda ki, Allah bizə kafirlərlə müharibədə belə təhlükəyə düşməyi qadağan edir, mən iki müsəlman ordusu arasında müharibəyə necə fitva verim və sayca on adam bərabərində bir adam olmayan ordumu döyüşə apararaq bu müsəlmanları təhlükəyə salım. Mənim atam sənin atanla müharibə edən gün Durmuş xan və başqa əmirlər, bəlkə də onun bütün qoşunu sərxoş idilər. Onlar gecəni səhərə qədər şərab içmiş, səhər tezdən isə vuruşmağa başlamışdılar. Bu çox ağılsız və yaramaz bir hərəkət idi. O vaxtdan indiyə qədər Çaldıran müharibəsindən söhbət düşəndə mən həmişə Durmuş xana pis dua (lənət) edirəm ki, atam həzrət Şah İsmayılı aldadıb, müharibəyə sövq etdi.

Bir də adı böyük olan Allah buyurmuşdur ki, bir müsəlman iki kafirlə vuruşmasın. Bəs biz, təxmini hesabla, bir nəfərimizin müqabilində 10 nəfərdən artıq qüvvə olduğu halda nə edək? Şəni uca olan böyük Allahın əmrinin əksinə hərəkət etmək özünü bilə-bilə oda vurmaqdır. Ancaq divanə və məst adamlar sərfəsiz müharibəyə əl atar, ağılsızlıq və cəhalət qüruruna qapılaraq öz-

lərini ölüm və fəlakət uçurumuna salarlar. Allaha şükr olsun ki, mənim ixtiyarımda olan qoşun şərab və bütün başqa haram işlərdən tövbə etmişdir. Mənim məmləkətimdə qumarxana, fahişəxana və s. şəriətcə icazə verilməyən fitnə-fəsad ocaqları ləğv edilmişdir. Mən özüm Heratdan köç edən vaxt İmam Rzanın – ona salam və dua olsun – mələklər yuvası olan müqəddəs məşhədini (məqbərəsini) ziyarətə getmişdim. Gecə Allahın elçisi həzrət Məhəmmədin – ona və ailəsinə Allahın salamı olsun – mübarək Mədinəsinin pişnamazı Mir Seyid Məhəmmədi yuxuda gördüm. Mənə buyurdu ki, yaramaz işlərdən uzaq ol ki, fəthlər edəsən. Səhər Əhməd bəyə, orada olan əmirlərə bu yuxunu söyləyəndə, onlardan bəziləri dedilər:

-Bəzi haram işlərdən əl çəkək, lakin səltənət üçün zəruri olan şərab kimi elələri də vardır ki, onlarsız keçinmək olmaz.

Bu haqda hərə bir söz dedi. Mən dedim ki, bu gecə bu niyyətlə yataram, [yuxuda] hər nə görsəm, ona əməl edəcəyəm. Həzrət peyğəmbərdən – Allahın ona və ailəsinə salamı olsun – hədisdir ki, “Saleh mömin adam dindar yuxu görəndə: “Səni şadxəbər olasan!” – deyər.

Yenə həmin gecə yuxuda gördüm ki, həzrət İmam Rzanın – ona min-min tərif və salam olsun – ayağı altındakı pəncərənin bayır tərəfində seyidlərin pənahı möhtəsib Mir Hadinin əlindən tutaraq şərab içmək, zina və bütün qadağan edilmiş işlərdən tövbə etdim.

Səhəri bu yuxunu da camaata danışdım. Şəni yüksək olan böyük Allahın qüdrəti və yardımı ilə o cür ki, yuxuda görmüşdüm, o cür də məzkur Seyid [Mir Hadi] hazır oldu. Əlini tutdum və bütün qadağan olunmuş şeylərdən tövbə etdim. 20 yaşında ikən bu səadət mənə nəsib olduqda bu rübaini yazdım:

Bir qədər cilalanmış zümrüd ardınca getdim,
Bir qədər tər yaquta aludə oldum.
Hər cür şeyə aludəliyim vardı,
Tövbə suyu ilə yudum, asudə oldum.

Allaha şükr olsun ki, səadətin nəsib olduğu o tarixdən mənim bütün məmləkətimdə çirkin və pis əməllər yox olmuş və böyük Allahın yardımı ilə gündən-günə cüzi bir hissəsi belə ağlıma gəlməyən cürbəcür qələbələr üz verib. Bütün ağıllı adamlar bu işə heyran qalıblar. Mən nə qədər mərdanə, bacarıqlı olsam [Allahın mənə nəsib etdiyi] bu qələbələrin azacıq bir hissəsinin belə şükür duasını bütün ömrüm boyu yerinə yetirə bilmərəm.

Əgər hər bir tüküm bir dil olsa,
Hər biri sənin şükrünü söyləsə,
Yenə də nitqim çatmaz ki,
Yüz şükründən birini deyim" (131).

Şah Təhmasib Osmanlı qoşunlarına qarşı mübarizə aparmaq üçün təkcə özünəməxsus bir taktika seçmədi. O eyni zamanda bir təriqət rəhbəri kimi, əmin idi ki, inandığı müqəddəslər ona rastlaşdığı növbəti sınaqdan da çıxmağa yardımçı olacaqlar. Məktubunda da o buna işarə edirdi. Ümumiyyətlə, Şah Təhmasib Xorasan yürüşündə olarkən Osmanlı sultanının onun üzərinə qoşun çəkməsini namərdlik kimi dəyərləndirirdi. Onun fikrincə, Osmanlı sultanı onu çətin məqamda haqlamalı deyildi. Şah Təhmasib yazırdı ki, Osmanlı sultanının "bu əməli ancaq namərd adamlara yaraşan bir işdir". Bu fikrinin ifadəsindən sonra Şah Təhmasib onu da yazırdı ki, böyük Allah bizə kömək edər (132).

Sultan Süleymana məktub yazdığı günlərdə də Şah Təhmasib bəzi əyanlarının və əmirlərinin ona sədaqətsizlik göstərməsinin və Osmanlı qoşunlarına qoşulmasının ağır təəssüratını yaşayırdı. Çünki bu hadisə çoxsaylı Osmanlı qoşunlarının qarşısında onun vəziyyətini daha da mürəkkəbləşdirirdi. Belə anlarda Şah Təhmasib yenə də yaradana tapınırdı və onun iradəsinin olacağı təqdirdə ən ağır sınaqdan belə çıxacağına şübhə etmirdi.

Elə həmin günlərdə baş verən təbiət hadisəsi Osmanlı qoşunlarını çox ağır bir duruma saldı. İstər Şah Təhmasib, istərsə də farsdilli mənbələr şübhə etmirdilər ki, baş verən bu təbiət hadisəsi yaradanın Səfəvi qoşunlarına, Şah Təhmasibə olan lütfünin və

köməyinin ifadəsi idi. Belə ki, 1534-cü ilin noyabr ayının ilk günlərində, heç kəsin gözləmədiyi halda Sultaniyyədə əvvəlcə çox güclü külək əsdi və ardınca da güclü qar yağmağa başladı. Bu külək o dərəcədə güclü və soyuq idi ki, həm onun gücünün, həm də onun soyuğunun qarşısında dayanmaq son dərəcə çətin idi. Sultaniyyə təbiəti üçün oktyabr ayının sonu və noyabr ayının əvvəllərində qar yağması gözlənilən bir hadisə deyildi. Belə bir təbiət hadisəsinin baş verməsi sonsuz bir təəccübə səbəb olmaqla Osmanlı qoşunlarını da çıxılmaz vəziyyətə saldı. Səfəvi ocağının kəramətindən idi ki, Şah Təhmasibin Sultaniyyədən bir mənzillik məsafədə yerləşdiyi Əbhərdə havanın dəyişməsi heç hiss edilmədi. O da bəllidir ki, Sultaniyyədə havanın kəskin şəkildə dəyişməsi çox qısa zaman ərzində baş verdi və bir az müddətdən sonra hava kifayət qədər sakitləşdi. Bu məsələ də Səfəvi ocağının kəraməti ilə əlaqələndirilirdi. Amma havalar elə bir şəkildə soyudu ki, elə bir miqdarda qar yağdı ki, nəticəsi Osmanlı qoşunları üçün çox böyük faciələrə yol açdı. Güclü qar çovğunu xeyli sayda Osmanlı döyüşçüsünün, qoşun atlarının və heyvanlarının məhvinə yol açdı (133).

Farsdilli mənbələrin çoxunda bu təbiət hadisəsinin Osmanlı qoşunlarına gətirdiyi nəticələri ifadə edən bir şer parçası verilmişdir. Həmin şer parçası belədir:

“Sultaniyyəyə gedib o qəribə çəmənə baxdıqda,
İki min gorsuz-kəfənsiz ölü gördüm.
Dedim: Bu qədər Osmanlını kim öldürüb?
Səhər küləyi aralıqdan qalxıb dedi: Mən” (134).

Mövzunun türk tədqiqatçıları yazırdılar ki, əsrin ən məğrur hökmdarı olan Sultan Süleyman Kuhi-Əlvənd dağında bir neçə günü ac və susuz qalmaq məcburiyyəti ilə qarşılaşmışdı. Onun gözləri qarşısında hər gün yüzlərcə insan və heyvan dünyasını dəyişməli olurdu. Noyabr ayının 10-da 100 ədəd topun qundaqları ovularaq yerdə qalmışdı. Soyuq və tufandan qurtaran qoşun dəstələrində olan təşkilatsızlıq üzündən minlərcə insan və heyvan

noyabr ayının 19-da Şimran-Doqquzölüm çayında boğularaq həyatlarını itirmişdilər. Mövcud olan bir məlumata görə isə Qaraxan adlanan yaylaqdan keçərkən Osmanlı qoşunları çox böyük itki ilə rastlaşmışdı (135).

Dövrün xarici səfirləri bu hadisə ilə bağlı eşitdiklərini ağır bir təəssüratla qələmə almışdılar. Məsələn onlardan biri bu hadisə barəsində belə yazmışdı: “Bir dağın arxasında qonaqlanmış olan ordu, məruz qaldığı vəziyyətlərdən şaşqına döndü. Göy üzü birdən birə qaralmış və buz kimi soyuq bir ruzigar ulurcasına əsməyə başlamışdı. Fırtınalar türk çadırlarını allaq-bullaq edir, sökür, qoparır, insanlar lənətlər savurur, küfürlər edir və heyvanlar isə qorxularından bağrışırdılar. İşgəncə, əsgərlərin nəfəsini kəsərcəsinə düşməyə başlayan şiddətli və dondurucu bir yağmurlar başladı. Dəvələr oraya-buraya qaçır, əsgərlərdən bir qismi bir ağaca, bir qayaya, bir çadıra tutunmağa çalışır, ümidsizlik yükü altında qımıldamırlar, hər tərəfi alt-üst edən fırtınadan sürüklənən qasırğadan dolayı önlərini görəməyən, soyuqdan donan digərləri isə, heyvanları ilə birlikdə bir daha qalxmamaq üzrə qarın bəyaz mantosu altına düşürlərdi. Süleyman sönən atəşlər üzərinə çökən gecənin qaranlığında, həyatını qurtarmış olan bəzi yeniçərilərlə çevrili olduğu halda otağın içində sıxışıb qalmışdı... Allaha yönəlməsini bildi və rəhim və qadiri-mütləq olan Allaha... Bu qəhrəmanların ordugahını aydınlatması üçün hazır bulunanları da dəvət edərək dua etmişdi” (136).

Başqa bir xarici səfir isə Qanuni Sultan Süleymanın düşdüyü vəziyyətin ağırlığını belə təsvir edirdi: “Bir axşam ortalıq qaraldığı vaxt Süleyman ilə ordusu bir dağ silsiləsi arasında qərargah qurdu. Heyrətlə gördü ki, göy üzündə fırtına buludları toplanır. Birdən birə qaftanının kürkündən bir qar tipisinin buzlu nəfəslərinin işlədiyini hiss etdi derkən incə sivri dənələrlə kəskin bir dolu uğuldayan bir borayla boşandı. Xunxar nə irəli, nə də geri gedə bilirdi. Adamlarına olduqları yerdə duraraq mətanətlə iztiraba təhəmmül etmələrini tövsiyə edən başqa bir şey yapamazdı. Qar çığları dağların yamaclarından aşağıya yuvarlanırdı. Süleyman, o qoca xortum ruzgarlarının alaylarla əsgərlərini və süvari

bölüklərini tamamiylə altına alıb əzdiyini gördü. Çadırları sökərək şiddətli qasırğalarla alıb götürən tayfunun savlətləri altında kəndisi də pək güclüklə ayaqda dura bilirdi. Əcz içində bir ümidsizliyə düşərək hökmdar tək başına yerə sağlamca bağlı qalan çadırına sığındı. Dışarıdakı buzlu qarğaşalıqdan ölümlə uğraşanların fəryadları yüksəlirdi və can çəkişən dəvələrin kəskin haykırışları yüksəlirdi. Pərişan bir halda əsgərlər əlləri, ayaqları donaraq bir-birlərinə soxulub sıxışırlardı. Süleyman onlara Əcəm sehirbazlarının ayaqlandıqları dağ ifritlərindən xilas olmaları üçün Allaha dua etmələrini əmr etdi" (137).

Bu təbiət hadisəsinin gətirdiyi faciələr o dərəcədə böyük idi ki, Sultan Süleyman qoşunları geri çəkmək qərarına gəldi. Mənbələrə görə, bu təbiət hadisəsi peyğəmbərlərə və övliyalara aid ola biləcək bir möcüzə idi. Yəni müdafiədə dayanan Səfəvi qoşunları hər hansı bir döyüşə girmədən və çətinlik çəkmədən Osmanlı qoşunlarına belə böyük bir itki yetirmişdi. Yəni təbiət hadisəsinin Osmanlı qoşunlarına yetirdiyi itki, döyüş meydanında onlara yetirilə biləcək itkidən də böyük idi. Sultan Süleyman bu ağır təbiət hadisəsinin onu müşayiət edə biləcəyindən ehtiyatlanaraq gəldiyi marşrutla deyil, İsfahana doğru hərəkət etməklə Bağdad istiqamətinə çəkilməyi və qışı Mosulda keçirməyi qərarlaşdırdı. Görünür, Sultan Süleymanın öz qoşunu ilə geri çəkilməkdə nə məqsəd güdməsi barəsində Şah Təhmasibin məlumatı yox idi və ona görə də kəşfiyyatçılar vasitəsi ilə bu məsələni dəqiqləşdirməyə çalışdı. Bütünlükdə Sultaniyyədə baş verən hadisə barəsində Şah Təhmasib - təzkərəsində də qısa qeydlər etmişdi. Onun qeydlərinə görə, qar yağması hadisəsi səfər aynın 13-də, həftənin ikinci günü baş vermişdi. O da təsdiq edirdi ki, bu təbiət hadisəsinin sonsuz çətinlikləri ilə qarşılaşdıqdan sonra Sultan Süleyman Dərgəzin tərəfə çəkilməyi qərara aldı. Osmanlı qoşunlarının Dərgəzindən sonra hara çəkiləcəyini dəqiqləşdirmək üçün Şah Təhmasib ovçubaşı Qara Mahmudun rəhbərliyi altında 50 nəfər qorçunu Osmanlı döyüşçülərindən əsir tutub gətirməyi tapşırdı. Bu dəstə Xərrəqan yaxınlığında bir Osmanlı qoşun dəstəsi ilə rastlaşır və bu dəstələr arasında döyüş baş verir.

Şah Təhmasibin yazdığına görə, onun qorçuları bu döyüşdə şücaətlə vuruşdular, 70 nəfər Osmanlı döyüşçüsünü qətlə yetirib başlarını kəsdilər, 35 nəfərini isə əsir götürərək onun yanına gətirdilər. Şah Təhmasib Osmanlı əsirləri ilə danışdıqdan sonra Sultan Süleymanın nə etmək niyyətində olmasından xəbər tutdu. Alınan məlumata görə, Sultan Süleyman Sultaniyyədə güclü qar yağmasının gətirdiyi ağır nəticələrdən sonra öz vəzirlərini və yaxınlarını toplayaraq onlarla məşvərət iclası keçirdi və bu iclasda qərara alındı ki, daha böyük faciələrlə qarşılaşmamaq üçün Bağdada doğru istiqamət götürülsün. Bununla belə, Sultan Süleyman Təbrizi öz nəzarətindən çıxarmaq istəmədi. Ona görə Ülamə Təkəliyə və Səfəvi ocağına xəyanət etmiş Məhəmməd xan Zülqədərə tapşırıq verdi ki, onlar sərəncamlarında olan qoşun dəstəsi ilə Təbrizə yollansınlar və bu şəhərə Səfəvi qoşunlarının daxil olmasına yol verməsinlər (138).

Qeyd etmək lazımdır ki, farsdilli mənbələrdə Mahmud ovçubaşı tərəfindən 5 nəfər Osmanlı döyüşçüsünün əsir götürülərək Səfəvi düşərgəsinə gətirildiyi bildirilir (139).

Sultaniyyədə ağır təbiət hadisəsi baş verdiyi günlərdə Kuhkələviyyə hakimi Əlvənd xan Əfşar bir min nəfərlik dəstə ilə Şah Təhmasibin yanına gəldi və ona sədaqətini bildirdi. Onun gəlişi və sədaqət nümayiş etdirməsi həm Şah Təhmasib tərəfindən məmnunluqla qarşılanmış, həm də farsdilli mənbələrin əksəriyyətində bu hadisə diqqət cəlb edən bir hadisə kimi xatırlanmışdır. Əlvənd xan Əfşar özü ilə bir dəstə gümrah at da gətirmişdi və bu məqam da Şah Təhmasibin razılığına səbəb olmuşdu. Çünki bu atlar yorulub əldən düşmüş atları əvəz edə bilərdi. Şah Təhmasib kəşfiyyata göndərdiyi Mahmud ovçubaşına da bu yeni gətirilmiş atlardan birini vermişdi. Onun gətirdiyi əsirlərin verdiyi məlumatdan o da aydın oldu ki, yalnız Təbrizin deyil, eyni zamanda bütün Azərbaycanın qorunması Ülamə Təkəliyə tapşırılmışdı. Məhəmməd xan Zülqədər (Zülqədəroğlu) isə onun müavini təyin edilmişdi. Azərbaycanla Osmanlı sərhədində yerləşən bölgələrin hakimlərinə də tapşırılmışdı ki, onlar Səfəvi qoşunlarına müqavimət göstərilməsi üçün Ülamə Təkəlinin bütün əmrlərini icra

etsinlər. Bundan başqa, Ülamə Təkəlinin özünə də bir qoşun dəstəsi verilmişdi (140).

Sultan Süleymanın geri çəkilməsi xəbəri alınanda Səfəvi əmir və əyanları Şah Təhmasibə Osmanlı qoşunlarının təqib edilməsini və bu qoşunlara ağır zərbə vurulmasını təklif etdilər. Amma Şah Təhmasib bu təkliflə razılaşmadı və bəyan etdi ki, Ülamə Təklinin ələ keçirilməsi və cəzalandırılması daha aktual bir məsələdir. Onun fikrincə, Ülamə Təkəli satqınlıq etməklə həm Səfəvi dövlətinə müəyyən ziyan vurmuşdu, həm də Sultan Süleymanı hücuma təhrik etməklə Osmanlı dövlətinə ziyan vurmuşdu. Ona görə Şah Təhmasib qərara aldı ki, dərhal Təbrizə doğru hərəkətə başlasın, bu şəhəri Osmanlı nəzarətindən azad etməklə Ülamə Təkəlini də ələ keçirsin. Elə bu vaxtlar başqa bir nüfuzlu qızılbaş əmiri, vaxtilə Xorasanın əmirül-ümərası olmuş və Heratın Übeyd xan tərəfindən mühasirəsi zamanı təpər göstərmiş Qazi xan da Səfəvi ocağına xəyanət etdi və ətrafındakı qoşun dəstəsini götürərək Təbrizə doğru istiqamət götürdü. Şah Təhmasibin ətrafında olan əmir və əyanlar eyni zamanda Qazi xanın da tapılıb cəzalandırılması təklifini irəli sürdülər. Şah Təhmasibin qeydlərinə görə, Qazi xan Təkəli haqqında narazılıqlar, əslində, əvvəldən də mövcud idi. Lakin Şah Təhmasib onun cəzalandırılmasını təxirə salmışdı. Amma onun da xəyanət yolunu tutması məlum olandan sonra qərara alındı ki, ələ keçərsə, Qazi xan da qətlə yetirilsin (141).

Qazi xan onu müşayiət edən dəstə ilə Şah Təhmasibin dəstəsindən bir gün əvvəl özünü Təbrizə yetirdi və Ülamə Təkəlini xəbərdar etdi ki, Şah Təhmasib Təbrizə yaxınlaşmaqdadır. Qazi xanla bağlı necə qərar qəbul edildiyini Şah Təhmasib öz təzkirəsində belə təsvir edirdi: "Qara Qənbər və Müntəşa sultan dedilər ki, indi ürəyimiz Xandigardan xatircəm oldu. Dildə şiəşüar, ürəyində isə Mərvanilər tərəfdarı olan Qazi xanı öldürmək lazımdır.

Mən Heratda and içərək Qazi xana söz vermişdim ki, ta düşmən ordusu – Qazi xan [vaxtilə] bizim qoşun içərisində olduğu səbəbə üzərimizə yürüş etsə, onu öldürməyimi tələb et-

məsələr – bizə qarşı müharibə edəcəklərini bildirməsə mən onu öldürməyəcəyəm. Ona görə də Qazi xanın ölümünə razılıq vermədim. İki-üç gün bundan keçdi. Bir gecə Qazi xan öz keçmiş mülazimlərindən bir neçə nəfərlə qaçdı. Əgər onun arxasınca yürüş etsəydik, ələ gətirərdik. Camaat dedi ki, Xandigarın yanına gedəcəkdir. Onu tərk edib Ülamənin arxasınca yürüş etdik. Təsadüfən Qazi xan da onun qabağıycan gedirmiş. O, rəbiüs-sani ayının 8-ci günü Təbrizə daxil olub Ülaməni xəbərdar edir ki, biz onun üstünə gələcəyik" (142).

Ülamə vaxtından əvvəl Şah Təhmasibin gəlməsi haqqında məlumat alsa da, Təbrizin qorunub saxlanması üçün səmərəli bir tədbir həyata keçirə bilmədi. Onun gücü ona çatdı ki, tezliklə yığışsın və Təbriz şəhərini tərk etsin. Şah Təhmasib də hər hansı bir müqavimətlə rastlaşmadan yenidən Təbriz şəhərinə daxil oldu. 20 gün Təbriz şəhərində qalmaqla Şah Təhmasib bu şəhərin və bütünlükdə Azərbaycanın idarəçiliyini təşkilatlandırdı. Sonra isə qərara alındı ki, Təbrizdən qaçmış olan Ülamə Təkəli ilə Qazi xan təqib olunsun. Bu əmirlər Təbrizi tərk etdikdən sonra Van qalasına sığınmışdılar (143).

"[Qazi xan] nifaq əhlinin sərdarı (Ülamə) ilə ittifaqda Van qalasına sığındı. Kama yetmiş padşah qazilərin bir dəstəsi ilə Van qalasına hərəkət etdi. Qala ətrafında müzəffər qoşunların çadırları quruldu. Qızılbaş sərdarları gözlərini açdıqda elə bir hasar gördülər ki, fələklərin qalası kimi yer aləminin sakinlərindən qorunur və elə bir bürc müşahidə etdilər ki, tayı-bərabəri ağıl dairəsindən kənardır. [Bu qalanın] hasarı [hündürlükdə] fələyin bürclərinə tən gəlirdi və dərin xəndəyi yer üzünü saxlayan öküzə qədər gedib çatırdı. Qalanın ətrafını əmirlər arasında bölüşdürdülər. Ölkə tutan alay basçıları və döyüşkən qorçular savaşa başladılar. Şeypur və zurna səsləri dairəvi bürclərin mühafizəçilərini təngə gətirdilər və sərsəm etdilər. Ülamə də bürc və hasarların başlarında şeypur və nağara çalınmasına göstəriş verdi. Rum qoşunları ox və tüfəng atmaqla məşğul oldular. Qızılbaş igidləri də top və tüfəngdən atəş açmağa başladılar. Tüfəng qaçılmaz qəzadan və ani ölümdən xəbər verirdi. Düşmən qıran zərbzən bədənlərdə

dəliklər açırdı. Bir gün rumilər tərəfdən Dəli Mustafa qaladan çıxıb qızılbaş qoşununun qarşısında dayandı. ... Bu tərəfdən Dəli Tuğaçı qoşundan [irəli] çıxıb onunla vuruşdu. Dəli Mustafa ona həmlə edib qalxanının ətəyinə bir nizə zərbəsi vurdu. Nizə onun böyründən keçdi və bu zərbə nəticəsində nizənin ucu qırıldı. Belə olduqda [Dəli Mustafa] qılıncını çəkib yenidən Dəli Tuğaçı[nın üzərinə] at çapdı və ona qılınc vurub dörd barmağını kəsdi. Bu tərəfdən Dəli Tərxan [oraya] at çapdı. Dəli Mustafa başqa adamın [Dəli Tuğaçıya] yardıma gəldiyini görüb qalanın içinə qaçdı" (144).

Şah Təhmasib bu yürüşə 5600 nəfərlik bir dəstə ilə yollandığını bildirirdi. Onun yazığından belə məlum olur ki, Van qalasının mühasirəsi bir müddət çəkdi və bu müddət ərzində qala sakinləri mühasirə çətinliklərindən cana gələrək müqaviməti dayandırmaq qərarına da gəldi. Amma sonradan bu, baş tutmadı. Şah Təhmasib bu barədə öz təzkirəsində ürək ağrısı ilə yazırdı. Xüsusi ilə, elə mühasirə günlərində qardaşı Sam Mirzənin də xəyanət yolunu tutaraq Osmanlı sarayına sığınması xəbərini o çox böyük bir təəssüflə qeyd edirdi. "...Van qalasını mühasirə etdik. Az qalmışdı ki, [qalanı] fəth edək, bu zaman Təbrizin darğası Hüseyn bəy yüzbaşının mülazimi Qiya ağa mən hamamda olarkən gəldi. Müntəşa sultan və Əmir bəy onu mənim yanıma hamama gətirdilər. Mən əhvalatı soruşdum, dedi:

-Sam mirzə xain çıxıb, Xandigar ona "öz oğlu" deyib ( yəni "oğlum" deyə müraciət edib), ölkənin işi sarsılıb.

Dedim:

-Zülqədəroğluna da mən "oğlum" demişdim. O mənimlə nə etdisə, Sam mirzə də Xandigarla elə edəcəkdir.

Mən onunla (Sam mirə ilə ) pis münasibətdə deyildim. Həmişə yaxşılıq etmişdim. O, əvəzində qohum-qardaşdan uzaqlaşıb, mənə pis münasibət bəslədi. Onu ağam həzrət şahi-vilayətpənah həzrət Əmirəlmöminin [Əliyə] – ona salam olsun – tapşırıram.

Van qalasının əhalisi bu əhvalatdan xəbərdar oldu, qalanın sakinləri [mühasirədən] təngə gəlib, qalanı təslim etməyə razı

olduqları halda, birdən peşman oldular. Vəziyyət belə gətirdiyi üçün labüd olaraq qalanın ətrafından yığışıb köç etdim “ (145).

Amma mənbələrdə olan məlumatlar onu deməyə əsas verir ki, Şah Təhmasib Van qalasını almaqda israrlı idi və ona görə onun qala ətrafından geri çəkilməsi heç də mühasirənin uzanması ilə bağlı deyildi. Mövcud olan faktlara görə, Şah Təhmasib eşidəndə ki, Sultan Süleyman yenidən Təbriz üzərinə qoşun çəkmək istəyir, onda Van qalası ətrafında ləngiməyi heç də məqsədəuyğun saymadı (146)

Sultan Süleyman isə Bağdad şəhərini ələ keçirə bildi və bu şəhərin müdafiəsi üçün Şah Təhmasib əməli yardım göstərə bilmədi. Yəni mövcud şəraitdə Şah Təhmasib Bağdadın işğalı ilə barışmalı oldu. Amma bölgənin digər bir sıra qalalarının hakimlərindən fərqli olaraq Bağdad hakimi Məhəmməd xan Şərəfəddinoğlu Səfəvi sarayına sadiq qaldı.

Azərbaycan ərazisini tərk etdikdən sonra Sultan Süleyman bütün qoşunu ilə Mosula gəldi və nəzərdə tutmuşdu ki, havasının münasib olmasına görə qışı burada keçirsin. O, hətta onu da planlaşdırmışdı ki, havalar istiləşəndən sonra Bağdad üzərinə hücuma keçsin və İraqeyn səfərindən qarşıya qoyulan məqsədi tamamlasın. Amma İbrahim paşa yazın gəlməsini gözləmədi və öz elçilərini Məhəmməd xan Şərəfəddinoğlunun yanına göndərdi ki, o, şəhəri təslim etsin. Məhəmməd xan Şərəfəddinoğlu bu təkliflə razılaşmadı və İbrahim paşaya ağır bir cavab yazıb göndərdi. Bunun ardınca Qəzaloğlu Təkəli Bağdada gəldi və Məhəmməd xan Şərəfəddinoğluna çatdırdı ki, Osmanlı sultanı Bağdada gəlməyi və qışı burada keçirməyi planlaşdırır. Başqa sözlə, belə məlum oldu ki, Sultan Süleyman dərhal Bağdadı ələ keçirmək niyyətindədir. Bağdad hakimi məsələ ilə bağlı şəhər əyanlarının və əmirlərinin məşvərət iclasını çağırdı. Bu iclasda təkəli əmir və əyanları Məhəmməd xanın qətiyyətli mövqeyi ilə razılaşmadılar. Onların iradı bunda idi ki, Şah Təhmasib təkəli tayfası üzvlərinə qarşı təqib siyasəti həyata keçirir və onların mövqelərini zəiflətməyə çalışır. Bu əmir və əyanlar Üləmə Təkəli və Qazi xanın hərəkətinə rəğbətlə yanaşırdılar və onlar da Şah Təhmasibə na-

razılığın ifadəsi kimi, Osmanlı hakimiyyətini qəbul etməyi lazım bilirdilər. Bağdad hakimi Məhəmməd xan Şərəfəddinoğlu özü də təkəli tayfasının nümayəndəsi idi. Bununla belə, o öz mövqeyindən əl çəkmədi. Məhəmməd xan Şərəfəddinoğlunun bu qətiyyətli mövqeyinə etiraz əlaməti olaraq Bağdadda olan bir sıra təkəli ailələri şəhəri tərk edib Osmanlı hakimiyyəti altında olan ərazilərə yollandılar. Bu şəhərdən 700 təkəli ailəsi Osmanlı hakimiyyətini qəbul etdi və şəhəri tərk etdi. Məhəmməd xan Şərəfəddinoğlu belə bir vəziyyətdə Bağdadı tərk etmək məcburiyyətində qaldı və cənuba doğru üz tutdu. Çünki onun Səfəvi şahı ilə birləşməsi üçün şimala doğru hərəkət etməsi təhlükəli idi və Osmanlı qoşunlarının əlinə keçə bilərdi. Ona görə də, Məhəmməd xan Şərəfəddinoğlu Bəsrədən və körfəzdən keçməklə Səfəvi düşərgəsinə yollanmağı məqsədəuyğun saydı. Amma bu uzaq və ağır səfər zamanı Məhəmməd xan Bəsrənin hakiminin düşmən mövqeyi ilə qarşılaşdı və onun təqibindən qurtarmaq üçün yolunu da dəyişməli oldu. Sonra yolunu Cəzirədən salan Məhəmməd xan Şərəfəddinoğlu çox böyük çətinliklərə və məhrumiyyətlərə qatlaşaraq Sultaniyyədəki şah düşərgəsinə qədər 8 aylıq bir yol keçməli oldu (147).

"Əhsənüt-təvarix" əsərinin müəllifi Bağdad şəhərinin təslim edilməsini belə təsvir edirdi: "Bu əhvalatın təfərrüatı belədir ki, İbrahim paşa Mosuldan Məhəmməd xanın yanına təcrübəli elçilər göndərdi və sülhdən söz [salıb] dedi ki, qalanı təslim edin! Xan qəbul etmədi. O, təkəlü rəislərini çağırdı və məşvərət etdi. Onlar dinin pənahı olan şahın yanına getməyi qəbul etmədilər və mədrəsəni zəbt edib müxaliflik bayrağını qaldırdılar. Məhəmməd xan istədi ki, qiyamçıların üstünə getsin və onları cəzalandırsın. Seyid bəy Kəmunə mane oldu. Amma Məhəmməd xanın ürəyinə tam vahimə düşmüşdü. O, Qaravul adlı tir-kaman qorçusunu və Budaq bəy Köpəkalanı Bağdadın açarları ilə birlikdə Sultan Süleymanın yanına göndərdi. Buna baxmayaraq, eyni zamanda bərə körpünün ipini kəsib aləmin pənahı olan dərgaha yollandı və xeyli məşəqqətlə Bəsrəyə çatdı. O diyarın valisi Məqasim, xanın əziyyətini çox çəkib onu salamatlıqla İraqa yola saldı. Məhəm-

məd xan Dizfula gəldi. Sultan Süleyman Mosulda qışlaq etmək istəyirdi. Lakin Bağdadın açarını aparmış olan Məhəmməd xanın mülazimləri onu Bağdada gətirdilər və xondgar orada qışlaq etdi" (148).

"Rövzətüs səfəviyye" müəllifi isə yazırdı ki, Osmanlı sultanının bölgəyə gəlməsi xəbərini alandan sonra Məhəmməd xan Şərəfəddinoğlu Şah Təhmasibə məktub göndərdi və Bağdadın müdafiəsi üçün ondan kömək istədi. Həmin məktubda deyilirdi: "Əgər Bağdadın qorunması üçün şahın iradəsi olarsa tanınmış əmirlərdən birini dağ vüqarlı qazilərin bir hissəsi ilə birlikdə mənim köməyimə yollasın və biz birlikdə Darüssəlamın və təkəli oymağının heysiyyatını qoruya bilək". Məhəmməd xan Şərəfəddinoğlu bu məktubu Şah Təhmasibə göndərdi və bir müddət məktubunun cavabının intizarında oldu. Şah Təhmasib bu məktubu alandan sonra ona kömək göndərmək əvəzinə, Osmanlı qoşunlarının hücum edəcəyi təqdirdə şəhəri təhvil verməyi tapşırdı. Şah Təhmasib ona göndərdiyi məktubunda yazırdı: "İndi o xahişin vaxtı deyil ki, tanınmış əmirlərdən birini qoşun dəstəsi ilə birlikdə o tərəfə göndərim. Əgər Qeysər o tərəflərə gəlsə, Bağdadı onun adamlarına buraxıb bura yollanın". Bu əmrin icrasının ifadəsi kimi, Məhəmməd xan Şərəfəddinoğlu da Osmanlı qoşunlarının yaxınlaşması zamanı Bağdadı tərk etdi və Şah Təhmasibin yanına yollandı. Beləliklə, Bağdadın işğalı ilə bütün İraqi-Ərəbin Osmanlı qoşunları tərəfindən fəthi başa çatdırıldı (149).

Bağdadın döyüşsüz təhvil verilməsinə göstəriş verdiyini Şah Təhmasib də etiraf edirdi. O yazırdı: "Rəcəb Abdal və Həmzə bəy Qəzaloğlunu Məhəmməd xan Şərəfəddinoğlunun yanına göndərdim ki, o ətrafda olan azuqənin hamısını suya töküb çaydan keçsinlər. Cəzirə (ada) yoluynan öz camaatı ilə [yanıma] gəlsinlər" (150).

Bağdadın təhvil verilməsinin şahidi olan Budaq Qəzvini öz əsərində bu hadisənin bir sıra fərqli detallarını da əks etdirmişdir. O yazırdı ki, Osmanlı qoşunları tərəfindən Bağdadın təhvil verilməsi təklifi gələndə Məhəmməd xan öz əyanlarını yanına topladı və onlarla şəhərin təhvil verilib-verilməməsi barəsində məs-

ləhətləşdi. Bu zaman Bağdadda 3 min nəfər təkəli yaşayırdı. Təkəlilər şəhərin təhvil verilməsi təklifini qəbul etmədilər. Onlar bildirdilər ki, həm şəhəri təhvil vermirik, həm də şəhəri tərk edib Şah Təhmasib düşərgəsinə yollanmırıq. Təkəlilər Bağdadda qalaraq şəhəri qoruyacaqlrını bəyan etdilər. Budaq Qəzvininin yazdığına görə, şəhərdə ağacəri və digər tayfalardan olan daha bir min nəfər yaşayırdı. Bu adamlar isə elə Məhəmməd xan Şərəfəddinoğlunun özü kimi, Bağdadın təhvil verilməsinə tərəfdar idilər. Müəllif yazırdı ki, Rəcəb Dədə adlı hörmətli əyanlardan biri də Bağdadın təhvil verilməsinin əleyhinə oldu. Bildirilir ki, Rəcəb Dədə uzun müddət idi ki, Məhəmməd xan Şərəfəddinoğlnun yanında xidmət edirdi və onun oğlunun tərbiyəsi ilə məşğul olurdu. Yəni onun Məhəmməd xan Şərəfəddinoğlunun yanında xüsusi nüfuzu var idi. Amma onun da müdafiə olunmaq təklifi qəbul olunmadı. Elə bu vaxtlar yenidən Osmanlı sultanının elçiləri gəldilər və bir daha şəhərin təhvil verilməsini tələb etdilər. Onda belə bir qərar qəbul edildi ki, kim Osmanlı qoşunlarına sığınmaq istəyirsə, onda şəhəri tərk edə bilər. Yəni belə güman edilirdi ki, Osmanlı hakimiyyətini qəbul etmək istəyənlər heç bir qadağa və məhdudiyyət olmadan şəhəri tərk eləsinlər. Yerdə qalanlar isə şəhərin müdafiəsini təşkil etsinlər. Budaq Qəzvininin verdiyi məlumata görə, onun iştirakı ilə şəhəri tərk edən 700 ailə qeydiyyata alınmışdı. Şəhərin müdafiəsini təşkil etmək istəyənlər hətta toplantı keçirib Çuxa sultanın oğlu Əli sultanı özlərinə rəhbər də seçdilər. Amma Əli sultan bununla razılaşmadı və məsələni Məhəmməd xana çatdırdı. Bununla belə, Məhəmməd xan qalanın təhvil verilməsi üzərində dayandı. O, əvvəlcə bir neçə tanınmış adamları Bağdad darvazalarının açarları ilə birlikdə Osmanlı sultanının yanına göndərdi. Özü isə onu dəstəkləyən insanlarla birlikdə sallar vasitəsi ilə Dəclə çayını keçərək Azərbaycana doğru istiqamət götürdü. Məhəmməd xan Şərəfəddinoğlu onun müşayiət edən dəstə ilə birlikdə çox ağır sınaqlarla qarşılşamalı oldu. Əvvəlcə Bəsrə hakimi onu həbs etməyə çalışdı. Bu çətinlikdən baş qurtaran Məhəmməd xan Cəzirəyə gəlib oradan Dizfula yollandı. Həm minik heyvanlarının azlığı, həm də

azuqə çatışmazlığı dəstə üzvlərinə əlavə çətinliklər yaratdı. Xüsusilə, azuqə çatışmazlığına görə, Məhəmməd xanın dəstəsində olan adamlar ölü heyvanların ətini də yeməyə məcbur olurdular. Dizfuldan sonra Məhəmməd xan İsfahandan keçməklə Sultaniyyəyə yollandı ki, orada Şah Təhmasibin hüzuruna qovuşsun. Şah Təhmasib Səfəvi sarayına olan sədaqətinə və bunun üçün əziyyətlərə qatlaşmalı olmasına görə Məhəmməd xan Şərəfəddinoğlunu və onun dəstəsini hörmət-izzətlə qarşıladı. O, qardaşları Əlqas Mirzəni, Bəhram Mirzəni, habelə bir sıra tanınmış əmir və əyanları Məhəmməd xan Şərəfəddinoğlunu Sultaniyyədən iki fərsəng aralıda qarşılamağa göndərdi (151).

Osmanlı mənbələri əsasında aparılan tədqiqatlarda isə göstərilirdi ki, guya Bağdad hakimi Məhəmməd xan Şərəfəddinoğlu Osmanlı qoşunlarının yaxınlaşması xəbərini alınca dərhal şəhəri təhvil verməyə hazır olduğunu bildirdi. Məhəmməd xan isə öz itaətini bildirməklə Osmanlı sultanından şəhəri tərk etmək üçün iki gün möhlət istədi. Bu iki gün ərzində o, ailə üzvlərini, var- yoxunu toplayaraq şəhərdən çıxmalı idi. Məlumdur ki, Məhəmməd xan yalnız Şah Təhmasibin göstərişindən sonra Bağdadı tərk etdi və Səfəvi sarayına sədaqətini də itirmədi. Məhəmməd xanın Bağdadı tərk etməsi xəbəri alınandan sonra Osmanlı qoşunları bu şəhərə doğru istiqamət götürdülər. 1534-cü il noyabr ayının 28-də İbrahim paşa onu müşayiət edən qoşun dəstəsi ilə Bağdada daxil oldu. İbrahim paşa əvvəlcə gələrək şəhərin doğrudan da Səfəvi qoşunlarından təmizlənməsinə əmin olmalı, asayişi təmin etməli və şəhəri Sultan Süleymanın gəlişinə hazırlamalı idi. O, şəhərə daxil olan kimi, dərhal lazım olan işləri gördü, şəhərin mühafizəsi Osmanlı qoşunlarına tapşırıldı, qala bürcləri üzərində Osmanlı bayraqları qaldırıldı. Noyabr ayının 29-da Bağdadın açarlarını Cəfər bəydən təhvil aldıqdan sonra Sultan Süleyman da Bağdada doğru irəlilədi və noyabr ayının 30-da Bağdad şəhərinə daxil oldu (152).

Bəzi məlumatlara görə isə, Sultan Süleyman heç bir döyüş keçirmədən 1534-cü il dekabr ayının 1-də Bağdad şəhərinə daxil olmuşdu (153).

Beləliklə, Bağdad şəhəri Osmanlı sultanı tərəfindən fəth edildi. Başladığı hərbi yürüş ərzində Sultan Süleyman İraqi-Əcəmi əlində saxlaya bilməsə də İraqi-Ərəbdə və onun mərkəzi şəhəri olan Bağdadda möhkəmlənə bildi. Sultan Süleyman hələ Bağdada daxil olmamışdan əvvəl (bəzi məlumata görə isə şəhərə daxil olandan dərhal sonra) Hənəfi məzhəbinin yaradıcısı olan İmam Hənifənin məzarının ziyarətinə yollandı və bu məzar üzərində türbə ucaldılması barəsində göstəriş verdi. Bildirilir ki, onun bu ziyarəti sünni məzhəb müsəlman əhali tərəfindən məmnunluqla qarşılandı. Bu ziyarətdən sonra Sultan Süleyman şiə müqəddəslərindən olan İmam Musa Kazımın və Əbdülqədir Ceylaninin türbələrini də ziyarət etdi və bu türbələrin də təmiri üçün vəsait ayırdı. Türkdilli mənbələrə istinadən bəzi müəlliflər Şah İsmayılın Bağdadı fəth edərkən imam Əbu Hənifənin cəsədinin yandırılmasına göstəriş verdiyini və təsadüf nəticəsində onun cəsədinin yandırılmadığını bildirirlər və bununla bir daha Şah İsmayılın sünnilərə qarşı barışmazlığını qabartmağa çalışırlar (154). Amma araşdırmalar onu göstərir ki, Şah İsmayılın vəfat edənlərin cəsədlərinin yandırılması haqqında söylənilənlər bir çox hallarda ona qarşı ifrat münasibətin ifadəsindən başqa bir şey deyildir (155).

Sultan Süleymanı Bağdadda qarşılayanlar arasında Azərbaycanın böyük şairi Məhəmməd Füzuli də olmuşdu. Füzuli onun şərəfinə bir neçə şer də həsr etmişdi. Həmin əsərlərdə Füzulinin Sultan Süleymana rəğbətli münasibəti duyulmaqdadır. Sultan Süleymana həsr olunmuş qəsidələrinin birində Məhəmməd Füzuli onu belə vəsf edirdi:

Binayi-rifətin ta dövri-gərdun var, var olsun!
Mədar etdikcə aləm, dövlətin aləmmədar olsun!
Məqami-irtifai-qədrinə bimi-həvadisdən,
Həmişə dövləti-tövfiqi-həqq hüsnü-hisar olsun!
Sərayi-himməti kim, xəlqə salmış sayeyi-rəhmət,
Əsasi-nüsrətü fəth ilə daim üstüvar olsun!
Təmamiyi-ümurin hər cəhətdən mucibi-təhsin,

Cəmii-xidmətin mənzuri-eyni-etibar olsun!
Sən olğıl ərcüməndi-mülk, düşmən qeydi-ğəm çəksin,
Sən olğıl sərbüləndi-dəhr, hasid xarü zar olsun!
Fəzayi-büqeyi-Bağdad ədlindən olun rövşən,
Mizaci-pakinə abü həvəsi sazigar olsun!
Sərihi-hökmi-bürci-övliya səndən bulub ziyvər"
Səfadən hər günü növruzü hər fəsli bahar olsun!
Sənin vəsfinlə gün-gündən tapub rövnəq mənim nəzmim,
Mənim nəzmimlə vəsfin birdi-əhli-ruzigar olsun!
Zəban olduqca bir dəm getməsin zikrin zəbanimdən,
Xəyali-xidmətin məhv etməsin həq lövhi-canimdən (156).

### 4. Sultan Süleymanın fəthnaməsi

Sultan Süleyman dörd ay Bağdadda qaldı. Bu müddət ərzində o, həm Bağdadın idarəçiliiynin təşkilatlandırılması, həm də Bağdad ətrafı ərazilərin hakimiyyət altına gətirilməsi ilə məşğul oldu. O, İraqeyn səfərinin həyata keçirilməsində böyük zəhmətləri olmuş əmirləri və döyüşçüləri səxavətlə mükafatlandırdı. O cümlədən, İbrahim paşa bu yürüşdə iştirakına görə 20 min altuna və qiymətli daşlarla bəzədilmiş bir qılınca layiq görüldü. Bundan başqa İbrahim paşaya ildə 20 min altun təqaüd də kəsildi. Sultan Süleyman Bağdadın fəth edilməsi münasibətilə Macarıstan və Venesiya krallarına fəthnamələr göndərdi. Bağdadın fəth edilməsinə görə təbrik üçün Fransa kralı isə Bağdada öz elçisini göndərdi. Sultan Süleyman eyni zamanda Krım xanı Məngli Gəray xana bir fəthnamə göndərdi. Bu fəthnamə kifayət qədər müfəssəl bir sənəddir və bu sənəddə Sultan Süleyman İraqeyn səfərinin səbəbləri, gedişi və nəticələri barəsində qarşı tərəfə məlumat verirdi. Fəthnamənin əvvəlində Sultan Süleyman bəyan edirdi ki, qızılbaş tayfası küfr yaymaqla Əhmədi dininin mərasimlərini dəyişdirməklə məşğul idilər, bu tayfa üzvləri zülm və fəsad yaymaqla Firon əməlləri görür və bu işlərdə onlar Nəmrud yolunu gedirdilər. Osmanlı sultanı sonra da bildirirdi ki, bu əməllərə son qoymaq üçün o, şərq diyarına qoşun çıxarmaq qərarına gəldi

və əvvəlcə baş vəzir İbrahim paşanın rəhbərliyi altında olan qoşun dəstəsini həmin istiqamətə göndərdi. Fəthnamədə İrbahim paşanın rəhbərliyi altında olan qoşun dəstəsinin Bitlis ətrafına yollanması, Bitlis hakimi Şərəf xanla döyüşləri, Bitlisin, habelə bölgədə yerləşən digər qalaların ələ keçirilməsi barəsində də söhbət açılmışdır. Bundan sonra isə Osmanlı qoşunlarının Azərbaycan ərazisinə daxil olması, burada Van, Vəstan, Adilcəvaz, Ərciş və digər qalaların da fəth edildiyi bildirilirdi. Sultan Süleymanın yazdığından belə bir qənaət hasil olur ki, guya Osmanlı qoşunlarının Azərbaycan hüdudlarına hücum etməsi Şah Təhmasibi məcbur etmişdi ki, qaçaraq Xorasan tərəfə getsin: "Bu əsnada taifeyi-obaş qızılbaş zəlalət məaşın müqtədası zümreyi-ərbab fəsad və pişbayi qruh elhad və ənadları olan Təhmasib fəsad əla-etiqadları mənim diyari-şərqə cühur-müslümin ilə əziməti fütuh qərin padşahanım istimaindən qəlb qərinül-vəsvasinə istilayi rəəb qələbə edib xof səham qəzah incamdan Xorasan tərəflərinə qorizan olduqda mədineyi-Təbrizin hifz və hərasəti üçün tayifeyi-obaş xəraşdan cəm kəsirlə Musa sultan nam müfsid zəlalət məaşı təyin edib mərz-bumi Azərbaycanın rəy-həzimət səzasına təfviz etmiş imiş. Əsgər şir surət ilə ləşgəri-islam üzərinə hücum edəcək ləin məzburdə qərara taət qalmayıb Təbrizdən çıxıb qoruhi zəlalət şükuh ilə qaçağda təqib edən qəzati zəfər nəsib ərişib tayifeyi mülahidə əhl qorizi əsvaq və məhəlat Təbrizdə qırıb təəməeyi şəmşir eləmişlər, mahi məhərrəmülhəramın iyirmi beşinci günü müşariləleyh riayət-i islam ilə məhmiyyeyi məzburəyə daxil olub ələvi inayəti Allahi və səmu möcüzati həzrət risalət pənahi ilə əvvəl diyarları fəth eyləyib arayi-batileyi mülahidə səbəbi ilə səvalif-əzman və sinnindən ila həzəilheyn məəttəl və məsdud olan cami və məsaced və səvame və məabedək əbvabını məftuh qılıb, ayini-dini-mübin üzrə cümə namazını qıldırıb" (157).

Sultan Süleyman sonra bildirirdi ki, Təbriz məscidlərinin minbərlərindən islam xəlifələrinin adları çəkilib, Osmanlı sultanının adına xütbə oxunub və sikkə kəsdirilib və islam ənənələrinə uyğun mərasimlər həyata keçirilib. O, Şəm-Qazan qalasının

əsasının qoyulması barəsində də məlumat verirdi. Sultan Süleyman öz fəthnaməsində daha sonra Osmanlı qoşunlarının Azərbaycanın daxilinə doğru irəliləməsindən, Qəzvin yaxınlığında Şah Təhmasibin qardaşları olan Bəhram Mirzə ilə Əlqas Mirzənin də iştirakı ilə Səfəvi qoşunlarının Osmanlı qoşunları üzərinə hücum etməsindən danışırdı. Məlumdur ki, bu hücumla Səfəvi qoşunları Osmanlı qoşunlarını geri çəkilməyə məcbur edə bilmədilər. Bunun üçün onların heç yetərli gücü də yox idi. Amma Səfəvi qoşunlarının fəallığı Osmanlı sultanının diqqətindən kənarda qalmamışdı. Sultan Süleyman Səfəvi qoşunlarının digər hücumlarından da danışırdı. Bununla, əslində, o özü də etiraf edirdi ki, Səfəvi şahı və qoşunları heç də Osmanlı qoşunlarının hücumundan qorxub Xorasana çəkilməmişdi. Səfəvi qoşunları, yuxarıda qeyd edildiyi kimi, çevik dəstələrlə Osmanlı qoşunlarına zərbə vurmaqda davam edirdi. Sultan Süleyman Sultaniyyədə baş verənlər haqqında da öz fəthnaməsində xatırlama edirdi. Burada da Osmanlı sultanı rəhbərliyi altında olan qoşunların Səfəvi qoşunlarına qarşı şücaətlə döyüşməsini vəsf edirdi. Onun yazdığına görə, Qəzvindən Əbhərə gəlmiş Səfəvi qoşunlarına qarşı döyüşdə də Osmanlı qoşunları bütün gücünü və qüdrətini ortaya qoymuşdu. Osmanlı sultanı Rumeli sərəsgərinin, Anadolu, Diyarbəkr və Zülqədəriyyə bəylərbəylərinin fəaliyyətini xüsusi ilə qeyd edirdi. Bildirilir ki, bu məqam sahiblərinin döyüşgənliyi nəticəsində Səfəvi qoşunlarına göz açmağa imkan verilmədi. Hətta o da bildirilir ki, bu döyüşdə Səfəvi qoşunları təzyiqə davam gətirməyib geri çəkilmək məcburiyyətində qaldı. Fəthnamədə yazılandan belə bir qənaət hasil olur ki, bu döyüşdən sonra Tarom və Xalxal xanı Məhəmməd xan Zülqədəroğlu da Səfəvi qoşunlarından ayrılıb Osmanlı qoşunlarına qoşuldu. Osmanlı sultanı rəhbərliyi altında qoşunların tam üstünlüyünü qeyd edirdi. Amma Sultan Süleyman Sultaniyyədə rastlaşdığı sınaqlar haqqında öz fəthnaməsində məlumat vermirdi. O, məsələni belə şərh edirdi ki, Əbhər ətrafında baş verən döyüşdən sonra yolunu İraqi-Ərəbə saldı ki, Bağdadı ələ keçirsin. Bu şəhərin Osmanlı qoşunlarının nəzarəti altına necə keçməsinin detalları haqqında

Sultan Süleyman tərəfindən məlumat verilməmişdir. Osmanlı sultani Bağdadın ələ keçirilməsindən sonra imam Əbu Hənifənin məzarının abadlaşdırılması, İmam Əlinin, İmam Hüseynin və digər müqəddəslərin məzarlarının və türbələrinin qayğı altına alınması üçün gördüyü içlər haqqında da məlumat verirdi. Fəthnamənin sonunda Sultan Süleyman Bağdadın fəth olunması tarixini də göstərmişdi (158).

## 5.Osmanlı qoşunlarının Azərbaycan üzərinə təkrar hücumu

Bir daha qeyd edilməlidir ki, Bağdadın fəth edilməsi heç də İraqeyn səfəri ilə qarşıya qoyulan bütün məqsədlərə nail olunması demək deyildi. Osmanlı qoşunlarının ələ keçirmiş olduğu İraqi-Əcəm yenidən Səfəvi hakimiyyəti altına qayıtmışdı. Sultan Süleyman isə həm Azərbaycanı geri qaytarmaq, həm də Səfəvi qoşunlarına ciddi zərbə vurmaqla Şah Təhmasibi gücsüz bir vəziyyətə gətirmək niyyətindən heç də əl çəkməmişdi. Ona görə də, Sultan Süleyman Bağdadı tərk edib İstanbula geri qayıtmadı. O, 1534-35-ci ilin qışını Bağdadda keçirib yenidən Azərbaycan üzərinə hücum etmək niyyətində idi və 1535-ci ilin yazının gəlişi ilə bu niyyətinin icrasına başladı.

Elmi-tarixi ədəbiyyatda Osmanlı Sultanının yenidən Azərbaycan üzərinə qoşun çəkməsinin başqa səbəblərlə də bağlı olması haqqında məlumatlar irəli sürülməkdədir. Məsələn, bildirilir ki, Van qalası Səfəvi qoşunlarının mühasirəsində olduğu zaman Ülamə Təkəlinin elçisi Sultan Süleymanın yanına gəldi və Osmanlı sultanı tərəfindən kömək göstərilməsi xahiş olundu. Yəni Şah Təhmasib hələ Van qalasını mühasirədə saxladığı zaman Ülamə Təkəli bu mühasirədən çıxmaq üçün Sultan Süleymandan kömək istədi. Sultan Süleyman da bu müraciətdən sonra Vanda olan qüvvələrə kömək etmək qərarına gəldi və öz qoşunları ilə Azərbaycan istiqamətinə yola düşdü. Amma hərəkətə başlamazdan əvvəl Sultan Süleymanın qərarı ilə Ramazanoğlu Uzun Süleyman paşa Bağdad valisi təyin edildi və Bağdadın idarəçiliyi ona tapşırıldı. Onun sərəncamına iki min nəfərlik qoşun dəstəsi

verildi ki, onlardan da bir mini tüfəngçi, digər bir mini də ox və kamanla silahlanmış döyüşçü idi. Osmanlı mənbələrindən birində Sultan Süleymanın bu səfəri haqqında belə yazılmışdı: "Ülamə paşa Van qalasına vardıqdan sonra Azərbaycan vilayətindən fəth olunan qalaların və bəkaın gərəgi hifzi-hirasında olub və ol qış Qızılbaşi bədgirdən dəxi Təbrizdə qışlayıb bahar qərib olacaq hizbi mülahidəsiylə Van üzərinə gəlib qələyi-Vanı mühasirə qılmışdı. Xüsusi qəziyyənin xəbəri möqifi ərzə yetişdikdə... hısmı padşahı istiqal bulub fərmanı qəza cərəyanı sudur nefaz buldu ki, dəfəyi-saniyyədə bir dəxi Azərbaycan və İraq vilayətlərinə səfər edib qızılbaşi-bədkirdarın cihan dariyi başına təngü tərk eyləyələr. İşarətü aliyyə mucibincə ərkani-dövlət və ayai-səltənət təhyeyi-əsbab... Məmaliki mahsurə bəylərinə şihabi-şitab ulaqlar göndərdi" (159).

Başqa bir məlumata görə isə, Səfəvi ocağına xəyanət edərək Osmanlı sarayına sığınmış Qazi xan Təkəli Osmanlı sultanının yenidən Səfəvi hüdudlarına qoşun çəkməyə təhrik etmişdi. Bildirilir ki, Qazi xan Van qalasından Bağdada yollandı və burada İbrahim paşa ilə bu barədə söhbətlər apardı. Qazi xan guya əvvəlcə İbrahim paşanı Səfəvi hüdudlarına yeni hücum üçün inandıra bildi. İbrahim paşa da Osmanlı sultanına olan təsir imkanlarından istifadə etməklə onu Səfəvi dövlətinə qarşı yeni hücuma başlamağa təhrik edə bildi. Qazi xan təklif etdi ki, Səfəvi üzərinə yeni hücum üçün Şah Təhmasibin qardaşı Sam Mirzənin ona sədaqətsizliyi məsələsindən istifadə edilsin. Yəni xəbər yayılsın ki, Osmanlı sultanı da Sam Mirzəni öz himayəsi altına qəbul edib və Şah İsmayıldan qalmış məmləkəti onun idarəçiliyinə verməyə hazırlaşır. Bununla Səfəvi dövləti daxilində Şah Təhmasibə qarşı yeni bir etimadsızlıq dalğası yaradılsın. Qazi xan söz vermişdi ki, hadisələrin belə cərəyan edəcəyi təqdirdə Sam Mirzəni də Osmanlı sultanının yanına gətirə bilər (160).

Şah Təhmasib bu fikrin doğruluğuna daha çox meylli idi. Öz təzkirəsində o bu barədə belə yazırdı: "Qazi xan bic şeytansifət, hiyləgər və yalançı bir kişiciyəz idi. ...[Qazi xan] Ülamə ilə Təbrizdən qaçıb Bağdada tərəf gedir və İbrahim paşaya deyir ki,

Sam mirzə [Təhmasibdən üz döndərib ona] düşmən olmuşdur. İndi məsləhət budur ki, Siz yenə Qızılbaş ölkəsinə gedib, o məmləkətdə car çəkdiriniz ki, həzrət Xandigar Sam mirzəni "oğlum" adlandırıb və həzrət Şah İsmayılın mülkünü ona verib. Mən onu Xandigarın xidmətinə gətirərəm. İbrahim paşanı aldadır ki, həzrət Xandigarın Bağdadı tutmasına baxmayaraq, bu vilayəti tərk edib yenidən tezliklə bizim ölkəyə (Türkiyəyə) gələcəkdir.

...Təbrizə xəbər gəldi ki, həzrət Xandigar qayıdıb gəlir. Mən şəni uca olan Allaha şükür etdim. Buyurdum ki, seyidlərin pənahı lələ Seyid Abdulla, Bəyim xanım tərəfindən və Mir Şahsuvar Kürd Müntəşa sultan tərəfindən elçi kimi İbrahim paşanın yanına getsinlər. Bəlkə Allahın [bizə tapşırdığı] əmanətləri olan acizlərin, zəiflərin, yoxsulların və rəiyyətin asayişi xatirinə fitnə və çaxnaşma aradan qalxa, aralıqda barışıq ola.

İbrahim paşanın yanına gedib məktubu verirlər. İbrahim paşa tiryəki bir adam idi. O, tiryək çəkib nəşəli olduğu vaxtda deyərdi ki, Həzrət Xandigarın işləri mənim əlimdədir, necə istəsəm, elə də edrəm, istəsəm düyünləri açaram, istəməsəm yox. Lakin nəşəli olmayan vaxtda deyərdi: - mən aciz, yoxsul bir nökərəm, mənim əlimdən nə gələr. Mən nəkarəyəm ki, əmr həzrəti Xandigarın əmridir. Axırı, bu murdar [İbrahim paşa] sülhə razı olmadı. Tamamilə təhdidedici bir məktub yazıb göndərmişdi. [Məktub] Ucanda mənə çatdı" (161).

Sultan Süleymanın Səfəvi dövləti üzərinə yeni yürüşünün yalnız Qazi xanın təhriki ilə baş verməsini iddia etmək, yəqin ki, Osmanlı-Səfəvi münasibətlərinin qiymətləndirilməsi üçün yetərli olmazdı. Osmanlı sultanının Şah Təhmasibi gücsüz bir duruma salmaq üçün israrlı bir siyasət yeridirdi və elə buna görə idi ki, sonrakı illərdə də o, Səfəvi hüdudlarına hücumlar etdi. Qazi xanın təhrikləri əgər olmuşdusa da, onlar hücum üçün münasib şəraitin dəyərləndirilməsi baxımından qəbul edilə bilərdi.

Amma Şah Təhmasib iki dövlət arasında yeni müharibənin başlamasının tərəfdarı deyildi. Çünki bu müharibənin insanlar üçün yeni fəlakətlər gətirəcəyi şübhəsiz idi. Sözsüz ki, Osmanlı qoşunlarının qüdrəti də Şah Təhmasibi iki dövlət arasında baş

verə biləcək müharibədən çəkinməyə sövq edirdi. Ona görə idi ki, Şah Təhmasib iki dövlət arasında barışıq əldə edilməsi məqsədilə Osmanlı sarayına elçiliklər göndərilməsinin əleyhinə olmadı. Yuxarıdakı qeydlərdən də göründüyü kimi, həm Taclı bəyim tərəfindən, həm də Müntəşa sultan tərəfindən iki elçilik heyəti İbrahim paşanın yanına göndərildi.

Barışıq əldə edilməsi üçün Səfəvi sarayından elçilik heyətlərinin gəlməsi Osmanlı mənbələrində də təsdiq olunur. İbrahim paşa da məlum olduğu kimi, bu elçilik heyəti ilə çatdırılmış barışıq təklifini qəbul etmədi. İbrahim paşa doğrudan da Müntəşa sultana cavab göndərdi və bu cavab xeyli təhdidedici bir cavab idi. Bu cavabın Osmanlı sultanı ilə razılaşdırılıb-razılaşdırılmadığını söyləmək çətindir. Amma həmin cavabda Osmanlı sarayının Səfəvi dövlətinə qarşı izlədiyi siyasətin mahiyyəti bir daha özünü göstərirdi. İbrahim paşa Səfəvi sarayını bir daha islam dinindən yayınmaqda, Şah Təhmasibi isə Osmanlı qoşunlarının Azərbaycandan geri çəkilməsindən sonra Van qalası üzərinə hücuma cəsarət etməkdə ittihamlandırırdı. Həmin məktubun mətni elmi-tarixi dövriyyəyə də çıxarılmışdır.

İbrahim paşa cavab məktubunda yazırdı:

“1. Rəayanın adəmi-hüzuruna bais olur bizdən bir vəz olmamışdır.

2. İndiyə dəkin vaqe olan əhval dəxi, həqiqətən, sizin nəqzi-əhdiniz ilə olmuşdur. Zira, bundan əvvəl Sahibi Qırani-aləmpənah həzrətlərinin astaneyi-səadət-bəhslərinə, Şah həzrətləri tərəfindən varid olan elçilərin təqriri ilə (konuşması ilə) mabeyndə müvalatü müsafat olub mühidə olunmuş ikən Şahı bitlisli Şərəf bəyin bir miqdar malına təməh etdirmək və əhdə müxalif əsgər çəkib Bitlis üzərində olan islam (Osmanlı) əsgərinə qəsd eyləmək, zahir budur ki, Şah həzrətlərinə yaxın olanların təhriki və iğvasi ilə olmuşdur. Padşahların kəndi təbiətlərində əhd pozmağa cəvaz yox idigi zahirdir; mücərrəd, yanlarında olanların vasitəsilə olduğu rövşəndir.

3. Bu təqdirdə, rəayanın bihüzur olduqlarını, bu canibə isnad etmənin vəchi yox idigi zahirdir.

4. Sahib-Qıranın diyari-şərqə təvəccühü Hümayunların bais-i-külli məhz qeyrəti-din və həmiyyeyi əshabi-güzindir. Zira ki, taifeyi-qızılbaş bünyani-şəri-nəbəvinin inhidamına səy və qəsd eyləyib məhzi dəlalətü təəssübündən məmləkətinizdə olan təbər-railər: cıvami və esvaqda əlәniyyən əshabi-güzünə haşa lənü səbb edər.

5. Həzrəti peyğəmbərdən bu yana dünyada necə zalım və adil xəlifələr və padşahlar gəlib. Heç birinin dövründə bu vəchilə şəayiri-islam təbdil olmayıb, məsacid və mədaris təxrib və tətil olmayıb.

6. Binaən əla həzə sənəyi-sabiqdə səadət və iqbal ilə məh-surəyi- Təbrizə gəlinib ol əsnada Şah həzrətləri dəxi Diyari-Xo-rasandan bəriyə gəlib çıxdıqlarında mülaqat olunmaq üçün İra-qi-Əcəm hüduduna dəkin varılıb, əknaf və ətrafi-aləm gülgüləyi hücumi-qaziyanii-zəfər rüsum ilə məmlu olub müqabiləyə iğdam edəmədiər.

7. Padişah, həzrət Əli və Kərbəla şəhidləri ilə İmami-Əzəmin türbəsini ziyarətə varmışkən, Şah həzrətləri Təbrizə gəlib anda varmağa dəxi qənaət etməyib padşahımızın qılınc gücüylə aldığı Van qalasının üzərinə vararaq ənvayi-hilə və hüdaya ietiqab edib süddeyi-səadət-bəhsləri ilə müsalihə surətində (Osmanlılarla ba-rış yapılmayınca) qaladan bəzi ədəm çıxarıb kəlami-qədimə yə-mini-billah etmişkən, ol müslümanları nahaq yerə qətl edir, mə-zalim və məkhayifə bədi və bais oldular. Müqəddimə Bitlis xü-susu üçün vaqe olan təhrik səhvilə olduğuna həml olunsa caiz idi; bu dəfə vaqe olan hiylə və hüda ki, Şah həzrətləri bizzat kəla-mi-qədimə yəmini-billah etdirdikdən sonra, yəmin pozdurub na-haq yerə qan etdirmək, yaxın olanların ilqasi ilə olduğuna iştibah qalmamışdır.

8. Müahidə əhvalı böylə və yəmin xüsusi dəxi bu üzdən alacaq, maddeyi-etimad nə təriqlə müyəssər olur?” (162).

Beləliklə, Osmanlı sarayı Səfəvi dövlətinin barışıq təklifini rədd etdi. Şah Təhmasib yeni müharibə təhlükəsi haqqında xəbəri belə qarşıladı: “Camaat deyirid ki, bir tərfdən Sam Mirzə düşmən

olub, qiyam edibdir, o tərəfdən də Xandigar gəlməkdədir. Bu vurhavurda [bizim işimiz] necə olacaqdır?

...Mən Allahdan başqa kimsədən kömək ummadan şəni yüksək olan Allaha təvəkkül edib, Ucandan Sultaniyyəyə yollandım. Zəncana çatdıqda Keçəl Piroğlu Hacılara yenidən öz yaxşılığımı göstərib – töhfə, hədiyyə və peşkəşlər verib elçi sifəti ilə Xandigarın yanına göndərdim ki, bəlkə vuruşma olmaya – xeyir sülhdədir. Ülamə ilə Zülqədəroğlu onu yenidən qəzəbləndirdi" (163).

Göründüyü kimi, Şah Təhmasib iki dövlət arasında barışıq olması və müharibə təhlükəsinin aradan qaldırılması üçün növbəti dəfə cəhd göstərdi. Osmanlı mənbələrindəki məlumata əsasən demək olar ki, bu elçilik 1535-ci ilin iyun ayında Osmanlı sultanının dərgahına gələ bilmişdi. Osmanlı əyan və əmirləri bu elçilik missiyasını Şah Təhmasib tərəfindən kəşfiyyat məlumatlarının toplanması məqsədi ilə göndərildiyini iddia edirdilər. Sultan Süleyman isə Şah Təhmasibin qoşunlarına ciddi bir zərbə vurmaq əzmində olduğundan bu elçiliyin gətirdiyi təklifi qəbul etmədi və Səfəvi hüdudları üzərinə hücum niyyətindən əl çəkmədi (164).

Qeyd edildiyi kimi Sultan Süleyman 1535-ci il mart ayının 31-də Bağdadı tərk edərək Təbrizə doğru hərəkətə başladı. Amma Bağdadı tərk etməzdən əvvəl Sultan Süleyman Kərbəla və Nəcəf ziyarətlərinə yollandı, bu şəhərlərdə dəfn olunmuş imamların türbələrini ziyarət etdi. Sultan Süleyman bu yeni yürüşünü yalnız ətrafında olan qoşun dəstəsi ilə həyata keçirmək istəmirdi. Ona görə, yuxarıda da qeyd edildiyi kimi, Osmanlı sultanı ətraf bölgələrin hakimlərinə xəbər göndərdi ki, onların sərəncamında olan əyalət qoşunlarını toplasınlar və sultan qoşunlarının tərkibinə göndərsinlər. Həmin qoşunlar Altunkörpü yaxınlığındakı Göytəpə adlanan məntəqədə sultan qoşunlarına qoşulmalı idilər. Sultan Süleyman da Bağdaddan hərəkət etməklə Göytəpəyə gəlməli və orada Azərbaycan üzərinə son hazırlıqlarını başa çatdırmalı idi. Sultan Süleyman bu marşrut üzrə hərəkət edib nəhayət Göytəpəyə yetişdi: Ağyolum - Dəhlə-Həddi- Saleb-Bəndi-Batt-

Şeyx Məzid-Gəlineyvanı-Türbəyi-Leyla -Şeyx Möhsün-İfti-xarlı-Qəsəbəyi- Tovuq- Arpa təpəsi-Sülükan-Leylan-Qızılköşk-Göytəpə. Göytəpə məntəqəsinə Osmanlı sultanı və onun müşayiət edən dəstə 1535-ci il aprel ayının 26-da çatdı. Osmanlı mənbələrindən birində Sultan Süleymanın Göytəpəyə gəlməsi və orada Səfəvi dövləti üzərinə növbəti hərbi yürüşə hazırlıq işlərinin aparılması haqqında belə yazırdı: “Necə qədim şəhərlərdən və köhnə xanələrdən mürur edib mahi-şəvval əvasitində Altun-körpü deməklə məruf məhəllə nüzul salıb məmaliki-ərəbdən və Rumdan gələcək əsakiri-nüsrət məasirə təvəqqüf məsləhəti üçün bir ay miqdarı anda qərar olundu və ol məhəlli məmalik Anadolu və Rum ilə və s. ərəb və əcəm bəyləri mükəmməl düşmən... Və ol səhrayi-xürrəm fəzada əsakiri-mənsurə xalqı cəm olub məvaqibi kəvakibi ədədin... Və cəbhaneyi əmirə və məhsurəyi Amiddən göndərilən top arabaları daha gəlib ol vilayətin hüdudi-həvalisi haylı ricalından maləməl olmuşdu” (165).

Barış əldə edilməsi cəhdləri bir nəticə verməyəndə Şah Təhmasib də Osmanlı qoşunlarının qarşılanması üçün öz hazırlıqlarını tamamlamağa başladı. Mənbələrdə olan məlumatlara görə, o, dövlətin idarəçiliyini möhkəmləndirmək üçün bəzi yeni təyinatların aparılmasını da məqsədəuyğun bildi. Məsələn, səltənət vəziri olan Əhməd bəy Nurkamal öz işində təqsirli bilinərək həbs edildi və onun yerinə Mirzə Əhməd Xuzani ilə Xoca Müiddin təyinat aldılar. Onlardan əlavə Seyfi Qəzvini də ali divan vəziri vəzifəsinə irəli çəkildi. Bildirilir ki, Seyfi Qəzvini vaxtilə Div sultan Rumlunun qəzəbinə gəlmiş və həbs etdirilmişdi. Div sultanın dünyasını dəyişməsindən sonra isə o, həbsdən azad olaraq Gilana yollanmışdı və orada həyat sürürdü. Osmanlı qoşunlarının yeni hücumu ərəfəsində o, Şah qoşunlarına dəvət olunmuş və ona ehtiram göstərilərək yüksək vəzifə verilmişdi (166).

Osmanlı qoşunlarına müqavimət göstərilməsi məsələsinə gəlincə isə Şah Təhmasib mövcud qüvvələr nisbətini təhlil etdikdən sonra açıq döyüşə girməyin faydalı olmayacağı qənaətində qaldı. Yuxarıda qeyd edildiyi kimi, Şah Təhmasib “Qurani-Kərim”də olan ayələrin buyuruqlarına dayaqlanaraq mənasız yerə itkilər

verilməsinin tərəfdarı olmadığını bildirirdi. Şah Təhmasibə yaxşı məlum idi ki, Osmanlı qoşunları yalnız say etibari ilə Səfəvi qoşunlarından üstün deyildilər. Osmanlı qoşunlarının sərəncamında çoxlu sayda toplar da var idi. Çox hallarda Osmanlı qoşunlarında top əhatəsinə alınmaqla qarşı tərəflə mübarizə aparmaq taktikasından istifadə olunurdu ki, bu da Osmanlı qoşunlarını qorumaqla qarşı tərəfə böyük itkilər yetirirdi. Ona görə Şah Təhmasib qərara aldı ki, açıq döyüşdən qaçmaqla çevik yürüşlər vasitəsilə Osmanlı qoşunları üzərinə hücumlar təşkil edilsin və Osmanlı qoşunlarının fəal döyüşlərinin qarşısı alınsın. Eyni zamanda o da qərara alındı ki, Osmanlı qoşunlarının hərəkət marşrutu üzərində mövcud olan ərzaq və atlar üçün yem ehtiyatları məhv edilsin. Yəni Osmanlı qoşunlarının ordubazarı qoşunların təmin edilməsi üçün ətraf məntəqələrdən bir ehtiyat tapa bilməsinlər və ehtiyac içində qalan qoşunlar geri qayıtmaq məcburiyyəti ilə üzləşsinlər (167).

Osmanlı qoşunlarına qarşı müqavimətin daha arxayın şəkildə təşkil edilməsi məqsədilə Şah Təhmasib hərəmxananın da İsfahana göndərilməsi haqqında göstəriş verdi (168).

Beləliklə, Şah Təhmasib Osmanlı qoşunları ilə açıq döyüşə girməkdən imtina etdiyi üçün Vandan geri çəkilərkən Ucandan, Sultaniyyədən keçməklə Dərgəzinə yollandı. Osmanlı sultanı isə Səfəvi qoşunlarına ciddi zərbə vurmaq üçün onun ardınca irəliləməli oldu. Mövcud olan məlumatlara görə, Sultan Süleyman 1535-ci il iyun ayının 24-də Marağaya daxil oldu. Burada düşərgə salaraq bir neçə gün istirahət etdi. Marağada olarkən Sultan Süleyman divanın toplantısını keçirdi və qərara alındı ki, Təbrizdən keçməklə qoşunlar Ucan yaylağına doğru irəliləsin. İyun ayının 30-da Osmanlı qoşunları Təbrizə yetişdi və Sultan Süleyman şəhərdə dayanmayıb Səədabad düzündə düşərgə saldı. İyul ayının 5-də (bəzi məlumatlara görə isə iyul ayının 3-də) Sultan Süleyman baş vəzir İbrahim paşanın müşayiəti ilə Təbriz şəhərinə gəldi və Səfəvi sarayında yerləşdi. O, 18 gün Təbriz şəhərində qaldı. Bu günlər ərzində Sultan Süleyman şəhərdəki Uzun Həsən məscidini təmizlətdirib orada icra olunan cümə na-

mazlarından birində iştirak etdi. Onun tapşırığı ilə məsciddə islam xəlifələrinə dualar edildi, Osmanlı sultanının adına xütbə oxundu. Osmanlı sultanın tapşırığı ilə Ülamə Təkəli də həmin günlərdə Ucan yaylağını bütünlüklə nəzarət altına aldı (169).

Şah Təhmasib Osmanlı sultanının yenidən Təbrizə gəlməsini belə xatırlayırdı: "Biz Ucan mahalından köçüb İraqa gedərkən Dərgəzinə çatanda Pirəli gəlib xəbər verdi ki, budur, Xandigar yetişdi və arada barışıq məsələsi vardır.

Mən dedim:

-Barışıq məsələsi olsaydı, Xandigar şəxsən özü gəlməz idi. Ona görə də Dərgəzin mahalında mövcud olan taxılları yandırdıq. Qoşunu İsfahan şəhərinə göndərdik, özümüz isə Həmədan şəhərinə yola düşdük" (170).

Sultan Süleyman Təbrizdə olduğu günlərdə Fransa kralının elçisi ilə görüşmüş və Şah Təhmasibin qardaşı Sam Mirzənin Təbrizə gələrək onun qoşunlarına qatılması haqqında məlumat almışdı. Sam Mirzənin Təbrizə yetişməsi 1535-ci il iyul ayının 21-nə təsadüf edir. Təbrizdə olarkən Osmanlı sultanı Şah Təhmasibin də harada olması haqqında məlumatlar aramağa başladı. Onun ətrafa göndərdiyi adamların gətirdiyi xəbərlərə görə, Şah Təhmasib Sultaniyyədən keçməklə Dərgəzinə gəlmişdi. Bu xəbəri alandan sonra Sultan Süleyman da onun ardınca hərəkət etmək, onu haqlayaraq ona güclü zərbə vurmaq qərarına gəldi. Ona görə də Osmanlı sultanı öz qoşunu ilə birlikdə iyul ayının 20-də Təbriz şəhərini tərk edərək Ucan-Miyanə-Qızılüzən-Sultaniyyə-Təxti-Süleyman marşrutu ilə irəlilədi və avqust ayının 3-də Dərgəzinə yetişdi. Türkdilli mənbələrdə mövcud olan məlumatlara görə, Sultan Süleyman Dərgəzində olarkən Səfəvi elçiləri yenidən onun yanına gəldilər və böyük güzəştə gedilməsi ilə Osmanlı sarayına barışıq təklif etdilər. Bildirilir ki, guya Səfəvi şahı təklif etmişdi ki, İraq-Ərəb Osmanlı hüdudlarına daxil edilsin, İraqi-Əcəm isə Səfəvi hüdudlarında qalsın. Başqa bir məlumata görə isə, Səfəvi sarayı hətta həm İraqi-Ərəbin, həm İraqi-Əcəmin, həm də Van ətrafının Osmanlı hakimiyyəti altına keçməsi ilə razılaşmışdı. Guya Osmanlı sultanı bu təkliflərin səmimi olmadı-

ğını, Osmanlı qoşunları geri çəkiləndən sonra həmin bölgələrin Səfəvi qoşunlarının hücumuna məruz qala biləcəyini gördüyü üçün bu təkliflə razılaşmadı və elçilərə rədd cavabı verildi (171).

Qeyd edilməlidir ki, istər Şah Təhmasibin təzkirəsində, istərsə də hazırkı tədqiqat üçün istifadə olunmuş farsdilli mənbələrdə Şah Təhmasibin belə şərtlərlə Osmanlı sultanının yanına elçilik göndərməsi haqqında məlumat yoxdur. Əslində isə, bu məlumatın düzgünlüyü şübhə doğurur. Çünki belə böyük bir ərazini ələ keçirmək istəyən Osmanlı sultanının bu təklifdən imtina etməsi məntiqi baxımdan inandırıcı görünmür.

Sultan Süleyman isə Dərgəzinə qədər hərəkəti zamanı silahlı müqavimətlə rastlaşmasa da təminat və təchizat məhrumiyyətləri ilə rastlaşmalı oldu. Şah Təhmasibin də qeyd etdiyi kimi, mövcud taxıl zəmilərinə və ehtiyatlarına od vurulur və bununla Osmanlı qoşunlarının ərzaq təminatı üçün həlli müşgül çətinliklər yaradılırdı. Digər tərəfdən də Şah Təhmasib öz taktikasına uyğun olaraq çevik dəstələrlə Osmanlı ordusuna rahatlıq vermirdi. “Dinin pənahı olan şah Sultaniyyəyə yollanıb Dərcəzinə gəldi. Oradan Əmir sultan Rumlu ilə Çıraq sultan Ustaclunu qaravul kimi xondgarın qoşunları tərəfə yolladı. Onlar Dərcəzinin Dəmə kəndində xondgar ordusuna çatdılar. Rumilər xeyli qürurlu bir şəkildə onlara həmlə etdilər. Çıraq sultanın mülazimlərinin əksəri fərar edərək arxalarına belə baxmadılar. Əmir sultanın təxminən iki yüz nəfərlik mülazimləri isə mərdanə döyüş apardılar. Əmirlər rumilərin üzərinə at çaparaq çoxlarını qırıb yerə tökdülər və onların başlarını bədənlərindən ayırıb dinin pənahı olan şahın yanına gətirdilər. Lakin dostlarının namərdlikləri səbəbindən, qaçan rumiləri təqib etmədilər. Elə ki qızılbaş ordusunun kiçik bir dəstəsinin bu tərzdə döyüşməsi Sultan Süleymana agah oldu, bu, onun xatirinə ağır gəldi, həyəcanlandı və [bu hadisəni] öz əmirlərinin başına qaxınc edərək [dedi]:

- Bir halda ki, iki yüz nəfər qızılbaşı giriftar edə bilmədiniz, bəs, o həzrətin (Şah Təhmasibin) cavabını necə verəcəksiniz?” (172).

Bu ilk qarşılaşma və onun nəticəsi Sultan Süleymanı başladığı hərbi yürüşün davam etdirilməsinin nə dərəcədə məqsədəuyğun olması barəsində fikirləşməyə məcbur etdi. Farsdilli mənbələrdə göstərilirdi ki, Şah Təhmasibin seçdiyi taktika öz bəhrəsini verməyə başladı və bunun nəticəsində Sultan Süleyman da anladı ki, belə bir şəraitdə hücumu davam etdirmək ona çox ağır başa gələ bilər. Ona görə də Sultan Süleyman Dərcəzindəki ilk qarşılaşmadan sonra qoşunlarına geri qayıtmaq əmri verdi. Bununla, Şah Təhmasib qarşıya qoyduğu vəzifələrdən birinin icrasına nail oldu. Amma o, Osmanlı qoşunlarının geri çəkilməsinin müşahidəçisi olmaq da istəmirdi. Şah Təhmasib geri çəkilən Osmanlı qoşunlarının təqib edilməsi haqqında göstəriş verdi (173).

Şah Təhmasib özü də Osmanlı qoşunlarının təqibində iştirak etdi. "Əhsənüt-təvarix" və "Tarix-i aləmara-yi Abbasi" müəllifləri Osmanlı qoşunlarının Dərcəzindən geri çəkilməsini Sultan Süleymanın məğlubiyyəti kimi dəyərləndirirdilər. "Əhsənüt-təvarix" əsərində yazılmışdı ki, Sultan Süleyman "Dərcəzindən geri dönüb, hərəkət, bəlkə də, məğlubiyyət bayrağını Rum tərəfə qaldırdı" (174). "Tarix-i aləmara-yi Abbasi"də olan məlumata görə isə, Sultan Süleyman "vuruşmaqdan və qarşıdurmadan əl çəkib, Dərcəzindən köç etdi və Ruma tərəf getdi, bəlkə də, qaçdı" (175).

Dərcəzindən geri çəkilən Sultan Süleyman yenidən Təbrizə daxil oldu və bir neçə gün burada dayanmalı oldu. Onun məqsədi heç də Təbrizdə dayanmaq olmayıb Osmanlı hüdudlarına doğru geri çəkilmək idi. Təbrizdə dayandığı günlərdə Sultan Süleyman bir daha Səfəvi hüdudlarında qalmağın təhlükəli olması qənaətinə gəldi və burada geri çəkilmək üçün lazımi hazırlıq işlərinin aparılmasını da nəzarət altına aldı.

Şah Təhmasib isə Osmanlı sultanının Təbrizdə dayandığı günlərdə Ərdəbilə yollandı və öz əcdadlarının məzarlarını ziyarət etdi. Əslində, Şah Təhmasib əvvəldən də Şeyx Səfi türbəsini ziyarətə yollanmaq istəyirdi. Lakin münasib imkanın yaranmaması üzündən həmin ziyarəti təxirə salmışdı. Əcdadlarının məzarlarını ziyarətə yollanması barədə Şah Təhmasib öz təzkirəsində belə ya-

zırdı: “Ülaməni tutmaq məqsədi ilə Təbrizə getdiyimiz, Qazi xanın qaçdığı həmin il bir nəfər şəxs həzrəti sultan Şeyx Sədrəddini – Allah onun ruhunu pak və şad eləsin – yuxuda görmüşdü. Mərhum demişdi:

-Şaha deyin mənim qəbrimin ziyarətinə gəlsin və özü ilə də 12 çıraq gətirsin. Səfəviyyə şeyxlərini ziyarət etsin. Sonra isə istədiyi yerə gedə bilər.

O dəfə (o il) ziyarət mümkün olmadı. Buna görə də işimiz qabağa getmədi. Ülaməni tuta bilmədik, qələbə qazanılmadı. Bu dəfə həzrəti Xandigar Təbrizə getdiyi üçün biz Abbas karvansarası yolu ilə Ərdəbilə getdik. Nəzir etdiyim 12 ədəd şamdanı apardım və gecəni də məqbərədə yatdım. Yuxuda həzrəti Şeyx Sədrəddini gördüm. O, mənə dedi ki, 20 gündən sonra zühur, yaxud xüruc edəcək. Bu iki kəlmədən birini buyurdular. Elə ki, yuxudan ayıldım, öz-özümə dedim ki, zühur etmək həzrəti Sahib-əzzamana məxsusdur – ona salavat olsun – görəsən xürucun nə mənası vardır. Bundan sonra Ərdəbildən köç edib Saraba gəldik. Ordu ilə birləşdik. Həzrəti Xandigar Təbrizdən köç edib qayıtdı. Biz oradan Mərəndə yola düşdük. Elə ki Mərəndə çatdıq, xəbər gətridilər ki, həzrəti Xandigar Əxlata gedib. Biz Xoyun Qaranqudərəsinə yola düşdük” (176).

Beləliklə, Şah Təhmasiblə əsas döyüşə girmədən geri çəkilən Sultan Süleyman 1535-ci il avqust ayının 20-də yenidən Təbrizə daxil oldu. Şah Təhmasib isə fəal təqib taktikasını izləməklə Osmanlı qoşunlarına zərbə vurulması imkanlarını əldən buraxmırdı. Osmanlı mənbələrindəki məlumatlardan aydın olur ki Osmanlı qoşunlarının Təbrizə daxil olması ərəfəsində Səfəvi qoşun dəstələrinin belə bir fəallığı müşahidə olundu. Şah Təhmasib tərəfindən göndərilən bir çevik dəstə elə Təbriz həndəvərində Osmanlı qoşunlarını haqlaya bildi. Görünür, Səfəvi qoşun dəstəsinin bu sürətli hücumu elə təhlükəli imiş ki, İbrahim paşa özü şəxsən bu dəstənin qarşısını almağa çıxmalı olubmuş (177).

Sultan Süleyman Təbriz şəhərində cəmi bir həftə qaldı. O, 1535-ci il avqust ayının 27-də Təbrizi tərk etdi və Osmanlı hüdudlarına doğru istiqamət götürdü. Geri dönərkən Sultan Süley-

man Təbrizdə və ətrafında yaşayan bir sıra sünni ailələrini də özü ilə aparmağa qərar verdi. Həmin sünni əhali Ərzrum ətrafında yerləşdirildi. Geri dönərkən Sultan Süleyman Xoy-Ərciş istiqamətində hərəkət etdi və 1535-ci il sentyabr ayının 10-da Ərciş qalasına daxil oldu. Osmanlı mənbələrində Sultan Süleymanın Təbrizdən hərəkətə başlaması və Osmanlı hüdudlarına doğru irəliləməsi haqqında belə yazılmışdır: "...Ərciş vilayətinə sayei-vüsal olub, ondan dəxi mürur eyləyib Bitlis hüduduna vüsal saldıqda fərmani-padşahi-müqtəzasınca Diyarbəkr bəylərbəyi Məhəmməd paşa və Ülamə paşa Diyarbəkr ləşgəri və min nəfər yeniçəri ilə qalayi-Vanın mühimmatı üçün ol canibə mütəvəccih olduqdan sonra, məgərki şahi bədruh necə zaman məstur və müftəh (gizli) olmuş ikən, ləşgəri-nüsrət... Mahrusə səmtinə övdət eylədiyi xəbərini eşidib ...Səmtə müxalif yerlərdən mürur eyləyib Azərbaycan vilayətinə gəlib qalayi-Van tərəfinə mütəvəccih olmuşlar imiş. Diyarbəkr ləşgərinin xəbərin alıb gecə ələl-qəflət üzərlərinə ilqar edib vaxtı-səhər gərəgi kimi cəng olub, tüfəngi-tir neçə şəmşir ilə canibeyndən xeyli adam həlak olub. Amma ki, həzrət Sahibi-Qırani-Cahanistanın orduyu-Hümayununda olan əsgəri-nüsrət məasirin həyəcanından həvfü-hazir edib qızılbaş ləşgəri məhsur... Amma zikr olunan savaşda Ülamə paşa candan yoldaşlıq etməyib bəzi təqsir eylədiyi səbəbiylə məzul olub vilayəti-Bitlis ümərayi-dövlətdən Hacı bəyə ehsan olmuşdur" (178).

Məlumdur ki, Şah Təhmasib geri çəkilməkdə olan Osmanlı qoşunlarını təqib edirdi və bunu çox fəal bir şəkildə həyata keçirirdi. Onun bu taktikası Osmanlı qoşunları üçün də ciddi bir təhlükə təşkil edirdi. Osmanlı qoşunlarının geri çəkilməsi zamanı onların Səfəvi qoşunları tərəfindən təqib edilməsi və bu zaman Osmanlı qoşunlarının müəyyən itkilərlə qarşılaşması həm Osmanlı, həm də farsdilli mənbələrdə öz əksini tapmışdır. Şah Təhmasib özü də təzkirəsində bu məsələyə toxunurdu.

O, Qaranqu dərəsində olarkən fəal hücumlar barəsində qərarlar verdi. Şah Təhmasib yazırdı ki, bir gün çayda balıq tutmaqla məşğul idi və əyin-başı da tamam yaş olmuşdu. Bu zaman

iki nəfər onun yanına gəlir və Ülamə Təkəlinin Vanda olduğunu bildirir. Yəni Osmanlı qoşunları geri çəkilərkən Vanın hakimliyi və mühafizəsi Osmanlı sultanı tərəfindən Ülamə Təkəliyə tapşırılmışdı. Şah Təhmasib yazırdı ki, bu xəbəri eşidən kimi sudan çıxıb yuyundu və Mövlanə Həsən zaviyəsinə doğru istiqamət götürdü. Soyuq suda balıq tutması ilə məşğul olması onun səhhətinə təsir edir və onda hərarət yaranır. Buna görə Şah Təhmasib çadır qurdurub istirahətə dayanmalı olur. Amma 30 nəfərlik bir qorçu dəstəsini kəşfiyyata yollayır ki, Ülamənin Vanda olub-olmamasını dəqiqləşdirsin. Axşam üstü kəşfiyyata göndərilən qorçulardan iki nəfər Şah Təhmasibin hüzuruna gəlir və xəbər çatdırır ki, Ülamə Təkəli Vanda da dayanmayıb geri çəkilib və Osmanlı hüdudlarının dərinliklərinə doğru qaçıb. Bu xəbəri eşidən kimi, Şah Təhmasib Vana doğru hərəkət etmək göstərişi verir və Van şəhəri nəzarət altına alınır (179).

Şah Təhmasib Van qalasının ələ keçirilməsi ilə də kifayətlənmədi və bundan sonra öz dəstələrini Osmanlı qoşunlarını Ərciş qalasına qədər təqib etməyə göndərdi. "Əhsənüt-təvarix" əsərində Osmanlı qoşunlarının təqib edilməsi zamanı Səfəvi qoşunlarının döyüşgənliyi, Şah Təhmasibin tədbirliliyi və düzgün taktika tətbiq etməsi daha müfəssəl şəkildə təsvir edilmişdir. Həmin əsərdə deyilir ki, Şah Təhmasib "Bəhram mirzəni, Məntəşa sultanı, Əmir sultanı, Şahqulu bəy Möhürdarı, Məhəmməd Əmin bəy Süfrəçini, yasavullardan və qapıçılardan ibarət bir camaatı basqın etmək üçün İbrahim paşanın arxasınca göndərdi. [Şah Təhmasib] öz nəfis vücudu ilə köhlən [atına minib] yüyənini Van qalası səmtinə çevirdi. O zaman Sultan Süleyman tərəfindən rumilərin bir dəstəsi [həmin] qalada qoyulmuşdu. Onlar müzəffər qoşunun hərəkətindən xəbərdar olduqda, qalanı yiyəsiz buraxıb fərar etdilər. Həmin ilin 20 rəbiüləvvəlində (29.09.1534) cahan padşahı cah-calalla Van çəməninə təşrif gətirdi və qalanı ələ keçirdi. Dinin pənahı olan şahın qalaya yiyələnməsindən öncə xondgar qazilərin qalanı tuta biləcəyi qorxusuna qapılaraq batil bir niyyətlə Diyarbəkr əmirülümərası Məhəmməd paşanı Ülamə Təkəlü, Dəli Pərvanə, Əhməd bəy, Mustafa bəy, Bədir bəy, İdris

paşa, Meyzədə hakimi Məlik Süleyman və Məlik Veys sultanla bərabər iki min yeniçəri və on min süvari ilə Van qalası qarnizonunun yardımına göndərmişdi və o bədbəxtlər Vostan hüduduna gəlmişdilər. Eyni zamanda, türkman qorçularından bəziləri çaharşənbə günü, 24 rəbiüləvvəldə (03.10.1534), əsr vaxtı xəbər almaq məqsədi ilə Vostan tərəfə getmişdilər. Onlar qürub çağında [rumilərə] çatdılar, neçə nəfəri qətlə yetirdilər və üç şəxsi tutub hökmdarın dərgahına göndərdilər. Beləliklə, rumilərin gəlişi məlum oldu. Elə həmin an dinin pənahı olan şah dağ görkəmli, bulud şəkilli atına süvar oldu. Bu at elə bir at idi ki, su kimi yuxarıdan aşağıya enirdi və atəş kimi aşağıdan yuxarıya çıxırdı.

... [Şah Təhmasib] dərgah məxsuslarından və döyüşkən qorçulardan ibarət bir dəstə ilə hərəkət yüyənini onlara tərəf çevirdi. Cahan padşahının məiyyəti Vostan hüduduna çatdıqda aydın oldu ki, o bədbəxtlər qaravullarla qarşılaşmadan sonra işin çarəsini fərar etməkdə görüb tam sürətlə Gevaşa getmişlər.

... Şahın qələbə ayətli bayraqları Allahın himayəsi sayəsində o çətin yoldan keçib bir dağ başında həmin şövkətli güruha çatdılar. O zaman ali mənşəli şahın yanında iki min süvari vardı. Çünki ordunun digər hissəsi yolda yatıb qalmışdı. Üləmə hərçənd Məhəmməd paşaya ərz edib dedi:

- Dinin pənahı olan padşahla qarşı-qarşıya gəlməyi məsləhət görmürəm. Çünki ordumuz o həzrətin həmləsinə və şiddətinə taqət gətirmək gücündə deyildir.

...[Amma Məhəmməd paşa] qəbul etməyib, zəfər nişanlı əsgərlərin qorxusundan yeniçəriləri səfin önündə saxladı və səf bağlayaraq döyüş və vuruş niyyətinə düşdü. O əsnada Yaraq bəy Vəkil Zülqədər Tanrının yardımının yol göstərməyi ilə o çoxsaylı qövmün arasından fərar edib [şahın] büsatını öpmək izzətinə müşərrəf oldu və nicat şərəfi tapdı. Onların qaraltısı şah qoşununa məlum olduqda əyalət hakimlərindən Qazi xan Zülqədər türkman və zülqədər qorçularından ibarət bir dəstə ilə [şahın] qələbə əlamətli məiyyətindən öncə o qövmü dəf etməyə yeridi. Döyüş mərəkəsinin şirləri və savaş meydanının səf yaranları qaniçən aslanlar kimi idbar əhlinə həmlə etdilər, ürək deşən oxlardan, ildı-

rım kimi çaxan tüfənglərdən qətiyyən qorxmadılar və elə ilk həmlədə Allahın yardımı ilə onların varlıq xırmanına yoxluq atəşi saldılar. Bir göz qırpımında o mənfur qövmdən dörd yüz nəfəri iti qılınca yem etdilər və onların başlarını bədənlərindən ayırıb şahın gözəl yerişli atının ayaqları altına atdılar. Bir sıra digərlərini, məsələn, Dəli Pərvanəni, xondgarın qorçubaşısı Mühyi Çələbini əsir tutub əşrəfin nəzərləri qarşısına gətirdilər. Qalib əsgərlər o məğrur güruhun qılıncdan qurtulanlarını Bitlis hüduduna kimi təqib etdilər. Onların bütün yükləri və malları qazilərin əlinə düşdü. Eyni zamanda, Bəhram mirzə və b. əmirlər Ərcişə yollanmışdılar. Sözügedən qalanın ətrafında [oradakı] qalaların mühafizləri qələbə şüarlı qoşunlarla qarşı-qarşıya gəldilər. Müzəffər qazilər onlardan təxminən iyirmi nəfəri qətlə yetirdilər. Qılıncdan qurtulanlar yüz hiylə ilə özlərini qalaya saldılar, xondgarın yanına adam göndərib yardım istədilər. Xondgar, Sinan paşanı, Dərzi Əlini, Hacı paşanı və sancaq əmiri Yəhya bəyi çoxsaylı bir dəstə ilə onların yardımına göndərdi. Budaq xan Qacar xeyli dilavərlərdən ibarət bir dəstə ilə həmin çoxsaylı ordunun qarşısına çıxıb qüdrətli dövlətin gücü ilə onlara qalib gəldi. Sinan paşanı yüz nəfərlə birlikdə qətlə yetirdilər, Hacı paşa ilə Yəhya paşanı isə ölümcül hala saldılar. Sinan paşanın başını digər öldürülənlərin [başları] ilə bərabər Van çəmənində hökmdar ordusuna gətirdilər. Sinan paşanın qətl xəbəri xondgara çatdıqda, öz qoşununun bir hissəsini İbrahim paşaya yoldaş edib [Ərciş] qalasında yerləşənlərin köməyinə göndərdi. Adı çəkilən paşa özünün işə yarayan adamlarının bir dəstəsini mənqəlay təyin edib Bəhram mirzə ilə savaşmağa göndərdi. Qazilər və dilavərlər onları məğlub etdilər və çavuşlardan, mötəbərlərdən neçəsini əsir tutub Bəhram mirzənin yanına apardılar. Elə ki İbrahim paşa bu hadisənin baş verməsindən xəbər tutdu, qala adamlarını oradan çıxarıb tam sürətlə öz məqamına yollandı. Qüdrətli dövlətin gücü ilə Van və Ərciş ölkəsi fəth edildi. O diyarın əyalət hakimliyi və o qalanın kutvallığı Əhməd sultan Sufioğluya verildi" (180).

Maraqlıdır ki, Osmanlı sultanı Səfəvi qoşunlarının bu fəallıqlarının qarşısının alınması üçün səmərəli bir tədbir həyata ke-

çirmədi və bu yürüşünü də bir ciddi nəticə əldə etmədən başa çatdırmalı oldu. Şah Təhmasibin işlətdiyi taktika nəticəsində Səfəvi qoşunlarının qətiyyəti və əzmkarlığı o zamanlar Osmanlı sarayı nəzdində olan bəzi xarici səfirlərin də diqqətini cəlb etmişdi. Onlardan biri baş verənləri belə təsvir edirdi: "Türk ordusunun arxasında Əcəm qitələri hücum saatını bəkliyirlərdi. Əgər İbrahim paşa, o mahir dümdar komandanı vəzifə başında bulunmuş olsaydı, iranlılar öz almaya əsla müvəffəq olamazlardı. Fəqət, komanda suriyalılara və qahirəli paşalara tövdi olunmuşdu ki, bunlar qitələrinə az əmniyyətli bir vadidə qərargah qurmuşlardı. Gecənin issızlığında uyxuya dalmış düşmənləri üzərinə Əcəmilər hücum etdilər. Orduda mövcud beş sancaqbəyindən üçünü qılıncdan keçirib, birini də əsir aldılar. Və səkkiz yüz yeniçəri silahlarını təslim etdilər" (181).

Başqa bir səfir isə belə yazırdı: " İgid bir iranlı şahın süvarilərindən üçdə biri ilə türklərin izini təqibə qoyuldu və məhəlli xalqın da yardımıyla Bitlisdə aşağı-yuxarı İran-Türkiyə sınırı arasında bulunan düşmən ordugahına gecənin səssizliyi içində atəş açmağa müvəffəq oldu. Türklər üçün talehsizlik əsiri olaraq dinmək bilməyən yağmurdan dolayı, hər tərəfdən çevrilmiş olan yeniçərilər tüfənglərinin fitillərini açamadılar, qətliam bir savaşdan fazla oldu. ...Ülamə paşa qaçmışdı, beş sancaqbəyindən üçü qətl edilib, biri əsir edilmişdi. Səkkiz yüz yeniçəri təslim olmuşdu" (182).

"Rövzətüs səfəviyye" əsərində Bəhram Mirzənin rəhbərliyi altında olan dəstənin apardığı döyüşlər barəsində bəzi fərqli və maraqlı məlumatlar da mövcuddur. Bu əsərdə olan bəzi detallar Şah Təhmasibin təzkirəsində də təkrar olunmuşdur. Həmin detallardan biri ondan ibarətdir ki, Sultan Süleyman qoşunlarının təqibinə göndərilən Bəhram Mirzənin dəstəsi 7 min nəfərdən ibarət idi. Bəhram Mirzə də, yuxarıda, qeyd edildiyi kimi, bu tapşırığı yerinə yetirərkən ciddi bir döyüşə girmiş və həmin döyüşü uğurla başa çatdırmışdı. Şah Təhmasib yazırdı ki, bütün yasovul və qapıçıları da Bəhram Mirzənin dəstəsinə qoşmuşdu ki, həmin dəstə verilən tapşırığı uğurla yerinə yetirə bilsin. Bəhram

Mirzə Osmanlı qoşunlarının yerini müəyyənləşdirmək üçün Budaq xanla Sədrəddin xanı müəyyən məsafədə irəli göndərir və onlar da öz dəstələri ilə Osmanlı əmirlərindən olan Hacı bəyin dəstəsi ilə üzbəüz gəlməli olurlar. Bəhram Mirzə bu Osmanlı dəstəsi ilə döyüşə girir və onun dəstəsinin əzmkarlığı Hacı bəyin dəstəsinin məhvi ilə nəticələnir. Hacı bəyin dəstəsindən 250 nəfər əsir götürülür və məhv edilənlərin kəsilmiş başları ilə birlikdə onlar Şah Təhmasibin düşərgəsinə göndərilir. Osmanlı qoşun dəstəsinin məğlubiyyətə düçar olması xəbəri alınanda Osmanlı sultanı baş vəzir İbrahim paşanın rəhbərliyi altında olan daha böyük bir dəstəni Bəhram Mirzənin üstünə göndərdi. Bu dəstə o qədər böyük bir dəstə imiş ki, hərəkət zamanı bu dəstənin qaldırdığı toz-duman xeyli uzaqdan belə müşahidə olunurmuş. Şah Təhmasibin sözlərinə görə, bu dəstə 30 min nəfərlik bir qoşun dəstəsi idi. Bəhram Mirzənin dəstəsi isə, məlum olduğu kimi, bundan çox-çox az idi. Şah Təhmasibin yazdığına görə, tanınmış qızılbaş əmirlərindən olan Süleyman sultan Rumlu bir gün açıq havada namaz qılarkən, uzaqdan Bəhram Mirzənin üstünə göndərilən Osmanlı qoşunlarının toz-dumanını müşahidə edir. Bəhram Mirzəyə qarşı təhlükənin formalaşmaqda olmasını xəbər etmək üçün o, Şah Təhmasibi də həmin gün yaşıl çəməndə gəzmək adı ilə Osmanlı qoşunlarının toz-dumanını müşahidə etdiyi yerə aparır və həmin toz-dumanı göstərməklə Bəhram Mirzə üzərində bir təhlükənin olması barəsində öz narahatçılığını ona çatdırır. Həmin toz-duman Ərciş qalası ilə Adilcəvaz qalaları arasında müşahidə olunubmuş. Bu məsələdən hali olandan dərhal sonra Şah Təhmasib yaxınlaşmaqda olan təhlükədən xəbər vermək üçün Şahverdi xəlifə adlı birisini Bəhram Mirzənin yanına göndərir. Bəhram Mirzəyə xəbər çatdırılmalı idi ki, yaxınlaşmaqda olan toz-dumanın Osmanlı qoşunları olub-olmamasını dəqiqləşdirsin və doğrudan da Osmanlı qoşunları onun üzərinə hərəkət edirdisə, onda Şah Təhmasib də kömək üçün özünü ora yetirə bilərdi. Bəhram Mirzənin yanına göndərilən Şahverdi xəlifə lazımi məlumat aldıqdan sonra dərhal geri qayıtmalı və nə baş

verdiyini Şah Təhmasibə çatdırmalı idi. Şah Təhmasib də aldığı məlumata uyğun öz işlərini qurmalı idi (183).

Şah Təhmasib daha sonra yazırdı: "Sonra mən mənzilə gəlib xəbər gözləyirdim. Sabahı gün mən Vəstan [Voston] qalasına getmək istəyirdim. Ancaq hələ də bir dəqiq xəbər almadığım üçün oraya getməkdən vaz keçdim. İkindi çağı idi. Fil Bahadır Ərəbgirli ilə Kor Şeyxi qorçu dərya kənarına gəzməyə getmişdilər. Onlar bir nəfər rumlu tutub özləri ilə gətirdilər ki, bu adam Ülamənin yanından qaçmış idi. O deyirdi:

-Ülamə ilə Diyarbəkr paşası Vəstan qalasına gəlmişdilər. Onlar Əlqasın bir nəfər yasavulunu tutdular.Yasavul isə şahın Van qalasında olmasını onlara xəbər verdi. Onlar isə bu xəbəri eşidən kimi qaçdılar.

Mən o gün Vəstan qalasına getməməyə çox təəssüfləndim. Əgər mən o gün oraya getmiş olsaydım, Ülamə əlimə keçəcəkdi. Nəhayət, türkman qorçularından 80 nəfər Vəstan qalasına göndərdik ki, düz xəbər gətirsinlər. Bir saatdan sonra Qazi xan ilə əmirlər yürüşdən qayıdıb gəldilər. Onlara dedim:

-Ülamə bizim yaxınlığımıza gəlmişdi, təəssüf ki, o, bizim əlimizdən çıxdı.

Süleyman sultan dedi:

-Gəlin dərya kənarına gedib görək ki, dünən gördüyümüz doğrudan da toz idimi.

Biz çölə gedib diqqətlə baxdıq. Məlum oldu ki, doğrudan da toz imiş ki, keçib gedibdir. Türkman qorçularının yanına adam göndərib dedim ki, Ərciş tərəfə Bəhram mirzənin köməyinə gedək. Mən hələ çadırıma gəlib çatmamışdım ki, Qara İsmayıl qorçu ilə Kor Şahsuvar gəlib çıxdılar. Onlardan birisi bir nəfər adamın başını kəsib gətirmiş, digəri isə diri adam tutub gətirmişdi. Məlum oldu ki, diri adam Xandigarın nökərlərindəndir. Biz ondan Xandigarın harda olduğunu soruşduqda, o dedi ki, Xandigar Əxlat qalasındadır. Mən onun Vəstan qalasına nə məqsədlə gəlməsini soruşduqda, o dedi ki, Xandigar Ülaməni Van qalasına göndərmişdir. Ülamənin adını eşidən kimi mən narahat olub, evə gedərək əynimə zireh geyib silahlandım və əmr etdim 7 məşəl

yandırdılar. Biz yola düşdük. Türkman qorçuları 17 nəfər rumlu tutub gətirdilər. Ülamə məşəllərin işığını görüb qaçmışdı. Biz 3 yüzə yaxın Türkman qorçusu ilə Zülqədəri çərxçi etdik, özümüz də onların ardınca getdik. Camaatın bir hissəsi körpüdən, başqa bir hissəsi də keçiddən keçdi. Bu əsnada Abdulla xan, Göyçə sultan, Yadigar sultan, Yaqub sultan, Həsən bəy yüzbaşı öz qoşunları və 6-7 min qorçu ilə Seyid Məhəmmədin ölkəsindən qayıdıb gəldilər. Abdulla xan və əmirlərin qoşunları körpüyə çatdıqda, məşəllərin işığını görür və bununla da bizim orada gecələdiyimizi düşünərək belə güman edirlər ki, guya biz orada dayanıb atlara arpa veririk. Onlar da körpünün yanında düşərgə edib gecəni orada yatırlar. Biz isə onlardan xəbərsiz halda atları çaparaq keçib gedirik. Ülamə qaçır, qorçular rumlulardan çoxlu əsir tuturlar. İki min nəfərlə Ülaməni izlədik. Nəticədə Dəli Pərvanəni diri tutub gətirdilər. O xəbər verdi ki, İbrahim paşa Bəhram Mirzə üzərinə hücum etməyə getmişdir. Mən bu xəbəri eşitcək qayıtdım. İkindi çağı idi ki, Kivaş çayına gəlib çıxdıq. Gecəni orada düşərgə etdik. Sabahısı gün Vəstan qalasına çatdıq. Bəhram mirzə və əmirlərin yanından adam gəlib xəbər verdi ki, İbrahim paşa geriyə qaytarılıb. Onun adamlarından 7 nəfəri də əsir tutublar. O gün Ərdəbildə yuxu gördüyüm vaxtdan 20 gün keçmişdi. Yuxuda görmüşdüm ki, Ülaməni məğlub etmişəm. Allahın mərhəməti ilə Van və Ərciş vilayətləri əlimizə keçmiş idi” (184).

Beləliklə, Ərciş və Van qalaları və bu qalaların ətrafındakı ərazilər yenidən Səfəvi hakimiyyəti altına gətirildi. Bəzi mənbələr isə Əxlat və Vostan qalalarının da Səfəvi nəzarəti altına düşdüyünü qeyd edirlər. Bildirilir ki, Osmanlı qoşunları Adilcəvaza kimi təqib edildi və bu zaman çoxlu sayda Osmanlı döyüşçüsü həm qətl edildi, həm də əsir götürüldü. Şah Təhmasib də baş verən bəzi döyüşlərdə iştirak etdi və o, Van gölünün cənub tərəfindən kürdlər yaşayan ərazilərə gəldi. Bu ərazilərdə Osmanlı hakimiyyətinə sədaqət göstərən və Səfəvi hakimiyyətinə xəyanət edən bəzi kürd hakimlərini cəzalandırmaqla bu ərazilərdə Səfəvi idarəçiliyini yenidən təşkilatlandırdı. Məsələn, Kəvaşda Səfəvi hakimiyyətinə qarşı sədaqətlislik göstərmiş Əlvənd xan Əfşar

qətlə yetirildi və onun vəzifəsi Məhəmməd bəy Əfşar adlı birisinə tapşırıldı. Sonra da o, Kəvaş və Vostan yolu ilə Vana və oradan da Təbrizə yola düşdü. Təbrizə qayıtdıqdan sonra Şah Təhmasib ona sədaqətsizlik etmiş daha bir hakimə, Gilan hakimi Müzəffər sultana layiqli cəza verdi. Yuxarıda qeyd edildiyi kimi, Müzəffər sultan Səfəvi hakimiyyətinə sədaqətsizlik edərək Osmanlı sarayına itaəti qəbul etmişdi. Lakin onun Osmanlı himayəsi altında öz hakimiyyətini möhkəmləndirmək sövdası baş tutmayanda Şirvan ərazisinə qaçmışdı. Şirvan hakimi Şahrux onun Şirvan ərazisinə gəlməsindən xəbər tutan kimi həbsi və sonra da Şah Təhmasibin sərəncamına göndərilməsi haqqında göstəriş verdi. Şirvan hakiminin bu qərarı Şah Təhmasib tərəfindən rəğbətlə qarşılandı. Bu hadisə Şah Təhmasibin Təbrizə döndüyü günlərdə baş vermişdi. Şah Təhmasib ona xəyanət etmiş Müzəffər sultanın (Əmirə Dibacın) cəzalandırılmasını onun əhali qarşısında məsxərəyə qoyulması ilə başladı. O göstəriş verdi ki, Təbrizin küçələri Müzəffər sultanın məsxərəyə qoyulması üçün uyğun şəkildə bəzədilsin və insanlar bilsinlər ki, Gilan hakimi məsxərə və istehza obyektidir. Təbriz şəhərinə gətirildikdən sonra Müzəffər sultan və onunla əlbir olmuş başqa bir neçə əyana dəri paltarlar geyindirildi və sonra da onlar qəfəslərə salındı. Əyanlara dəri paltar geyindirilməsi və qəfəsə salınması təhqir və istehza əlaməti kimi dəyərləndirilirdi. Sonra da Müzəffər sultan və onunla birlikdə qəfəsə salınanlar şəhərin küçələrində gəzdirildi. Bir neçə gündən sonra isə onlar qətlə yetirildilər (185).

Beləliklə, 1533-35-ci illəri əhatə edən İraqeyn səfəri başa çatdı və bu səfərin başlanğıcında Osmanlı sultanı qarşıya qoyduğu məqsədlərə qismən nail ola bildi. Yuxarıda qeyd edildiyi kimi, bu səfəri şərti olaraq iki dövrə bölmək olar. Birinci dövr 1533-34-cü illəri, ikinci dövr isə 1535-ci ili əhatə edir. Məlumdur ki, bu dövrlərin hər ikisində Sultan Süleyman Təbriz şəhərinə daxil olmağa müvəffəq oldu. Lakin Sultan Süleyman Təbrizdə möhkəmlənə bilməyərək geri çəkilmək məcburiyyətində qaldı. Birinci dövrdə Sultan Süleyman qarşıya qoyduğu vəzifənin icrasını demək olar ki, başa çatdırmış və həm İraqi-Ərəbi, həm də

İraqi- Əcəmi ələ keçirmişdi. Lakin Şah Təhmasibin izlədiyi taktikanın nəticəsində Osmanlı qoşunları İraqi-Əcəmdən geri çəkilərək İraqi-Ərəbi öz əlində saxlaya bildi. İkinci dövrdə, yəni 1535-ci ildə göstərilən ikinci cəhd də İraqi-Əcəmin ələ keçirilməsi məqsədi daşıyırdı. Amma Sultan Süleyman yenə də Şah Təhmasibin səmərəli taktikası ilə qarşılaşdı və Azərbaycan ərazisində çox ağır itkilər verərək geri çəkildi. 1535-ci ildə icrasına cəhd göstərilən ikinci cəhd zamanı Osmanlı sultanı hətta İraqi-Ərəbdə və Van gölü hövzəsində ələ keçirdiyi bir sıra məntəqələri, o cümlədən Van və Ərciş qalaları kimi strateji məntəqələri də əldən verdi. Bu məntəqələr yenidən Səfəvi hakimiyyəti altına gətirildi.

İbrahim paşanın hərəkəti ilə başlanan İraqeyn səfəri iki il iki ay və 18 gün davam etdi. Sultan Süleyman isə bu səfərdə bir il altı ay 27 gün iştirak etmişdi. Osmanlı sultanı qarşısına yalnız Səfəvi ərazilərini ələ keçirmək yox, eyni zamanda Səfəvi qoşunlarını süquta uğratmaqla Şah Təhmasibi və onun hakimlik etdiyi dövləti aradan qaldırmaq istəyirdi. Bununla Osmanlı sarayı səltənətin şərq sərhədlərində mövcud olan Səfəvi təhlükəsini də ləğv etməyi planlaşdırırdı. Sultan Süleyman bu vəzifələrə nail ola bilmədi. O, Şah Təhmasibi böyük döyüşə sövq edə bilmədi və ya onu çətin vəziyyətdə yaxalaya bilmədi. İraqeyn səfəri Osmanlı sarayı üçün uğursuz bir kampaniya adlandırıla bilmədiyi kimi, uğurlu bir səfər kimi də qəbul edilməsi yalnız şərti ola bilər. Bağdad və Bağdad ətrafı ərazilərin ələ keçirilməsi bu səfər zamanı Osmanlı sarayının əsas nəticəsi oldu. Əvəzində isə zəmanəsinin ən qüdrətli qoşunlarından biri sayılan Osmanlı qoşunları həm böyük itkilərlə qarşılaşdı, həm də bu qoşunların iki ildən də artıq bir müddətdə Səfəvi cəbhəsində ilişib qalması, bəzi hallarda isə çarəsiz duruma düşməsi Avropa və Afrika cəbhəsində Osmanlı dövlətinə qarşı rəğbətli olmayan dövlətlərin çox gərəkli fürsət və vaxt əldə etməsinə, onların bu fürsətdən yararlanaraq daha da güclənməsinə yol açdı. Türkdilli elmi-tarixi ədəbiyyatda olan məlumatlara görə, bu kampaniyanın gedişində Osmanlı qoşunları 30 min nəfər canlı itki vermiş, 22 min heyvan və 100 ədəd böyük top itirmişdi

(186). Bu itki Səfəvi qoşunlarının ümumi sayından artıq idi. Sözsüz ki, belə bir itkinin verilməsi Osmanlı qoşunlarının zəifləməsinə də yol açdı və fatehlik yürüşlərinin davam etdirilməsi üçün Osmanlı qoşunlarının bərpasına xeyli vaxt lazım oldu.

İraqeyn səfərini başa vuran Sultan Süleyman 1536-cı il yanvar ayının 8-də İstanbula döndü. Onun geri qayıtması İstanbul əhalisi tərəfindən şadyanalıq və sevinclə qarşılanmış və Sultan Süleyman Bağdad fatehi kimi qəbul olunmuşdu. Bununla belə, İraqeyn səfəri ilə qarşıya qoyulan vəzifələr tam əldə edilmədiyi üçün Sultan Süleymanın gələcəkdə yenidən Səfəvi dövləti üzərinə hücum niyyətinə də son qoymadı.

Şah Təhmasibin hakimiyyəti illərində Osmanlı və Səfəvi dövlətləri arasında baş vermiş müharibənin Səfəvi dövləti üçün də özünəməxsus nəticələri var idi. Səfəvi dövləti üçün bu nəticəni sözsüz ki, mütləq uğur kimi qəbul etmək olmazdı. Amma onu da diqqətdən qaçırmaq lazım deyil ki, Şah Təhmasib dünyanın ən qüdrətli qoşunlarından və hökmdarlarından birinə qarşı cəbhə tutmaqla kifayət qədər mürəkkəb bir vəziyyətə düşmüşdü. Qeyd edildiyi kimi, Səfəvi qoşunlarının ümumi sayı heç Osmanlı qoşunlarınını verdiyi itki qədər deyildi. Osmanlı qoşunlarının sınaqlardan keçmiş təşkilatlanma və idarəçilik təcrübəsi, sayının çoxluğu və odlu silahlarla yüksək səviyyədə təchizatı Şah Təhmasibin bu müharibədəki durumunu daha da həssas etmişdi. Qüvvələr nisbəti çox böyük fərqlə Sultan Süleymanın tərəfində idi və bu üstünlük də Səfəvi qoşunlarının qarşılaşdığı vəziyyətin mürəkkəbliyinin daha bir təsdiqi idi.

Osmanlı-Səfəvi müharibəsi yalnız iki dövlətin, iki qoşunun qarşıdurması deyil, həm də iki hökmdarın qarşıdurması idi. İraqeyn səfəri zamanı Sultan Süleymanın 40 yaşı var idi və qüdrətinin zirvəsində idi. Şah Təhmasib isə bu zaman 20 yaşında idi və Osmanlı dövləti kimi qüdrətli bir dövlətə qarşı müharibə aparmaq təcrübəsinə də malik deyildi. Amma bu durum heç də Şah Təhmasibi atasından qalmış səltənətin müdafiəsi üçün qətiyyətli mübarizə aparmaqdan çəkindirmədi. Şah Təhmasib yaşına uyğun gəlməyən bir müdriklik və tədbirlilik nümayiş etdirdi. Hətta bir

sıra nüfuzlu Səfəvi əmirləri Səfəvi ocağına xəyanət edib Osmanlı hakimiyyətini qəbul etdiyi bir vaxtda belə Şah Təhmasib sarsılmadı və ona sədaqətli olan qüvvələri ətrafında səfərbər etməklə, şəraitdən irəli gələn taktikanı işə salmaqla Səfəvi dövlətinin qüdrətini qoruya bildi. Onun işlətdiyi taktika səmərəliliyi ilə fərqlənməklə bərabər, həm də çox qısa zamanda öz nəticələrini verməyə başladı. Şah Təhmasib açıq meydan müharibəsinə girməsə də, sadəcə olaraq müdafiəyə çəkilmədi. O, Osmanlı qoşunlarına qarşı yorucu, üzücü bir taktika həyata keçirməklə bu qoşunların hərəkət marşrutu üzrə olan ərzaq və yem ehtiyatlarını məhv etdi, bu qoşunları çox ciddi və təhlükəli təchizat ehtiyacları qarşısında qoydu. Eyni zamanda çevik və qəfil hücumlar həyata keçirməklə osmanlı qoşunlarının təşəbbüskarlığını əlindən aldı. Bununla, Şah Təhmasib dərin hərbi təfəkkürə malik olduğunu nümayiş etdirdi. Şah Təhmasib Bağdadı, Bağdad ətrafı və Van gölü hövzəsi əraziləri itirməli oldu. Lakin sonrakı əks-hücumlar nəticəsində itirmiş olduğu bir sıra məntəqələri geri qaytarmağa müvəffəq oldu. Başlıcası isə Şah Təhmasib Səfəvi dövlətinin qüdrətini təsdiq etdi, Səfəvi dövlətinin Osmanlı qoşunlarının bir hücumu ilə süquta uğramayacaq bir dövlət olduğunu nümayiş etdirdi.

İraqeyn səfərinin nəticələrindən biri də bu oldu ki, İbrahim paşa tezliklə qətlə yetirildi. Onun qətli barəsində elmi-tarixi ədəbiyyatda müxtəlif fərziyyələr irəli sürülməkdədir. İbrahim paşanın İraqeyn kampaniyası zamanı böyük xərclərə yol verməsi, bu səfər əsnasında onun Osmanlı sultanından daha tez Təbrizə girməsi, saray dəftərdarı İsgəndər Çələbi ilə münaqişə aparması və onun qətlinə nail olması və nəhayət onun sultanın xanımı Xürrəm sultanla anlaşa bilməməsi bu qətlin səbəbləri kimi göstərilməkdədir. Xürrəm sultanla olan anlaşılmazlıq bu səbəblər arasında daha real olan səbəblərdən biridir. Xürrəm sultan çalışırdı ki, sultanın ondan olan oğlu varis olsun. İbrahim paşa isə saray ənənəsinə uyğun olaraq sultanın başqa xanımdan olan böyük oğlunun varisliyini dəstəkləyirdi. Bu məsələ üstündə Xürrəm sultanla

olan anlaşılmazlıq isə deyildiyi kimi, sonradan İbrahim paşanın qətlinə yol açdı.

Şah Təhmasib də öz təzkirəsində İbrahim paşanın qətlinə qısaca münasibət bildirmişdi. O, İbrahim paşanın Diyarbəkrdə olarkən qətl edildiyini bildirirdi. Əslində isə İbrahim paşa İstanbulda sultan sarayında boğularaq qətlə yetirilmişdi. Şah Təhmasib yazırdı: "İbrahim paşa Diyarbəkrdə olarkən həzrət xandigar [tərəfindən] bir çavuş gəlib onu öldürdü. Fitnə-fəsad tamamilə yox oldu. Atəş və vuruşma dayandırıldı. Bir müddət aralıqda dostluq olmasa da qovğa və vuruşma da yox idi. Əlqasib mirzə cəhaləti üzündən bizimlə düşmən olana qədər müsəlmanlar asudə və əmniyyətdə idilər" (187).

## 6. Osmanlı qoşunlarının Səfəvi dövləti üzərinə ikinci yürüşü

Osmanlı qoşunlarının Səfəvi hüdudlarına ikinci hərbi yürüşü 1548-ci ildə baş verdi. İraqeyn kampaniyası ilə Səfəvi dövləti üzərinə növbəti hücum arasında 13 illik bir fasilə vardır. Bu müddət ərzində iki dövlət arasında qanlı qarşıdurmanın baş verməməsini Şah Təhmasib məmnunluqla xatırlayırdı. Yuxarıda qeyd edildiyi kimi, Şah Təhmasibə fikrincə, həmin müddət ərzində iki dövlət arasında dostluq münasibətləri yaranmasa da, dava-dalaş da yox idi. Bu da ölkə daxilində əmin-amanlığın mövcudluğu üçün bir zəmin yaradırdı.

Şah Təhmasibin yuxarıda istinad olunan qeydində o da göstərilir ki, Əlqas Mirzənin (Əlqasib) qiyama başlaması həm də növbəti Osmanlı-Səfəvi müharibəsinə gətirib çıxardı. Əlqas Mirzənin öz qardaşı Şah Təhmasibə qarşı qiyam qaldırması və itaətsizlik göstərməsi sözsüz ki, iki dövlət arasında yeni müharibənin başlamasına bir təkan verdi. Amma sözsüz ki, bu müharibənin başlamasının yalnız Əlqas Mirzənin itaətsizliyi ilə məhdudlaşdırılması doğru olmazdı. Bu müharibənin Əlqas Mirzənin itaətsizliyi ilə bir vaxta düşməsi isə yeni müharibə başlanması üçün

münasib şərait yaratdı və Sultan Süleyman da yaranmış münasib şəraiti əldən vermək istəmədi.

Mənbələrdən birində isə bildirilir ki, əslində, Azərbaycanın (Cənubi) ələ keçirilməsi heç vaxt Sultan Süleymanın fikrindən çıxmamışdı. Onu bu fikirdə olmağa təhrik edən isə Ülamə Təkəli idi. Bildirilir ki, Ülamə Təkəlinin təhriklərindən sonra Sultan Süleyman hətta hər gecə bu barədə fikirləşirdi və Əlqas Mirzənin Osmanlı sarayına sığınması ilə Azərbaycan üzərinə növbəti hücum üçün yeni bir şərait yarandı. Bu şəraitdə Osmanlı sultanı Əlqas Mirzənin boş sözlərinə uyub Əcəm məmləktinə hücum etdi (188).

Əlqas Mirzə Şah İsmayılın ikinci oğlu idi və o, 1515-ci il mart ayının 16-da anadan olmuşdu. Ondan başqa Şah Təhmasibin məlum olduğu kimi, daha iki qardaşı var idi – Sam Mirzə ( 8 sentyabr 1517-ci il) və Bəhram Mirzə (17 sentyabr 1517-ci il). Şah Təhmasiblə Bəhram Mirzə bir anadan, Əlqas Mirzə ilə Sam Mirzə isə başqa anadan anadan olmuşdular. Bununla belə Şah Təhmasibin Əlqas Mirzəyə çox böyük sevgi və məhəbbəti var idi (189).

Şah Təhmasib öz təzkirəsində bu məqama xüsusi olaraq toxunmuşdu. O yazırırdı:

“Hər vaxt Teymurun tarixini oxuyarkən bu beytə:

> “Şahrux müharibə meydanında yol yoldaşı oldu,
> İki qılınc bir qında [birləşdiyi] kimi”

-çatanda deyərdim: - Mənimlə Əlqasib [arasında] münasibət belədir. Mən onu bütün qardaşlarımdan və övladlarımdan çox sevirdim. Buyurmuşdum ki, İmam Rzanın – ona salam olsun – müqəddəs məqbərəsində seyidlərə və möminlərə 250 tümən borc pul versinlər. Nə qədər ki, Əlqas sağdır, onlardan [pulu] almasınlar. Onlar həmişə o müqəddəs məqbərədə onun sağ və salamat olması və uzun ömür sürməsi üçün dua etsinlər. O özü ağılsız idi, nahaq yerə mənə düşmən oldu. Onun mənə düşmən olmasının səbəbi barədə düşünəndə xatirimə iki şey gəlir. Əvvəlinci budur

ki, indi Rumda yaşayan Uğurlu adlı birisi ilə pis əlaqədə imiş. Qorxurdu ki, mən eşidib onu cəzalandırım. Neçə dəfə Ülamənin nökərləri ilə şərab içmişdi. Əlqasibə pis əməllər öyrətdilər və mənim cəzamdan yaxa qurtarmaq məqsədilə onu başdan çıxarıb bədnam və düşmən etdilər" (190).

Əlqas Mirzəyə olan hörmət və ehtiramının nəticəsi idi ki, 1538-ci ildə Şirvan tamamilə fəth edildikdən sonra Şah Təhmasib onu Şirvan hakimi təyin etmişdi. Əlqas Mirzə 1545-ci ilə qədər ona tapşırılan vəzifəsini sədaqətlə yerinə yetirdi və Şah Təhmasibə qarşı hər hansı bir şübhəli əmələ yol vermədi. 1545-ci ildə isə onun müstəqilləşmək və Səfəvi dövlətindən qopmaq istəyi haqqında məlumatlar alınmışdı. Belə bir məlumat alanda Şah Təhmasib Qəzvində qışlağa dayanmışdı. Qardaşının itaətsizlik göstərməsi xəbərini narahatçılıqla qarşılayan Şah Təhmasib bu hadisənin böyüməsini və təhlükəli məzmun almasını heç də istəmirdi. Ona görə də Şah Təhmasib Əliağa Qapıçıbaşını Əlqas Mirzənin yanına göndərdi ki, ona öyüd-nəsihət versin və mərkəzi hakimiyyətə qarşı olan itaətsizlik məsələsi dinc şəkildə aradan qaldırılsın. Əliağa Qapıçıbaşı da onunla görüşərək Şah Təhmasibin sözlərini ona çatdırdı. O eyni zamanda öz nəsihətlərini də ona açıqladı. Şah Təhmasib onu da bəyan etdi k, əgər müxalifətçilik yolunun tərk etsə Əlqas Mirzə hər hansı bir cəza ilə qarşılaşmayacaqdır (191).

"Əlqas bir müddət Şirvanda hakimiyyət sürdükdən sonra beynində xudbinlik və qürur buxarına yol verib, bu qürur oturacağında bir neçə günlük nursuz hakimiyyət ucbatından tüğyan silkində məğrur oldu və qara ürəklilər kimi hidayət nurundan uzaq düşdü. O, köhnə hüququ unudaraq və özünə bir dəstə adam qoşaraq tüğyanın təməlini qoydu, tam cidd-cəhdlə və sözlə ifadəsi mümkün olmayan bir səylə inadkarlıq və qiyamçılıq alətlərini hazırladı, öz vəlinemətinin (Şah Təhmasibin) haqqını aradan qaldırmaq üçün çalışdı və "nankorluq küfrdən daha betərdir" [kəlamının] mənasından qafil oldu. Onun çöhrəsində nəhs üsyan xalı zahir oldu və onun işinin üzərinə qiyam tikişi düşdü. Bu məna hamıya aydın və məlum oldu. Dinin pənahı olan şah məiy-

yət və ordu ilə Təbrizə yollanıb Ürgəncoğlunu Əlqasın yanına göndərdi. Sözügedən şəxs ona [şahdan] sərt cavablar söylədi. Əlqas mirzə dinin pənahı olan şahın hərəkətindən narahatçılıq ənginliyinə daldı. O, öz anası Xanbəyi xanımı və oğlu Sultan Əhmədi yalvar-yaxar etmək üçün dərgaha göndərdi.

...Xanbəyi xanım Əlqasın sözlərini [şaha] ərz etdi. Məğzi belə idi: "Həzrət [şah] mənim vəlinemətimdir. Qaragün bəxtimin vasitəsi və [məni] pis öyrədən yaramaz adamların fəsadı ilə bulaşdığım puç əməldən və yersiz müxaliflikdən xəcalətli və peşmanam. Mükəmməl şahanə hüsn-rəğbətə ümidvaram. Əgər hökmdarın mərhəməti bəndənin günahını əfv edərsə, öz həddimi bilib, bundan sonra ayağımı tabeçilik yolundan kənara qoymaram, xidmətkarlıq və fədakarlığa riayətdən heç bir dəqiqə də əl çəkmərəm". Dinin pənahı olan şah da onun təqsirlərindən keçib, yüksək səviyyəli əmirlərdən Seyid bəy [ibn] Məhəmməd Kəmunəni, Sevindik bəy Qorçubaşını, Şahqulu bəy Möhürdarı, Bədir xanı və Ərdəbil mütəvəllisi Məsum bəyi Əlqasın anası ilə Şirvana yolladı. Onlar Cavadda Əlqasla görüşdülər və ona and içdirdilər ki, bir daha tabeçilik yolundan addımını kənara qoymasın, hər il xəzinəyə min Təbriz tüməni çatdırsın və səfərbərlik (yasaq) üçün min süvari göndərsin" (192).

Şah Təhmasib şübhə etmirdi ki, Əlqas Mirzənin başladığı bu işin bir sonu yoxdur və bu itaətsizlik heç də onun xeyrinə qurtarmaya bilər. Səfəvi şahının təzkirəsində Əlqas Mirzənin anasının və oğlunun üzrxahlıq üçün onun yanına gəlməsi haqqında məlumat yoxdur. Ancaq həmin qeydlərdən görmək mümkündür ki, Şah Təhmasib qardaşının itaətsizlik yolu tutmasını çox böyük təəssüflə xatırlayır və onun bu yola düşməsini ürək ağrısı ilə qarşılayırdı. O yazırdı ki, Əlqas Mirzənin "başladığı bu işin yaxşı nəticəsi yoxdur, dünya və axirətə ziyandır. Bəlkə tövbə edib bu cəhalətdən qayıtsın. Mən də and içərəm ki, yaramaz əməllərinə görə onu incitmərəm, ona əziyyət vermərəm və intiqam almaram. Qəbul etsə, onu lap yaxşıca bağışlayacağam, əgər qəbul etməsə, onu şəni uca olan Allaha tapşıracağam. Əli ağa ona nə qədər nəsihət edirsə, o, heç bir cavab vermir. İkinci dəfə mötəbər əmir-

lərdən neçə nəfər göndərdim və xəbər yetirdim ki, mən heç vaxt sənə pislik etməmişəm. Bu yaramaz hərəkətlərində öz ata-babalarından bir utan. Sənin bu bəd əməllərin kənardan baxanların nəzərində rüsvayçılıqdır. Bu bədnamlığın qiyamətə qədər qalacaq. Əgər bu iş və bihudə xəyaldan əl çəkməsən, mənim ağam [Əli] Xeybər qalasının qapısını qoparan Allahın verdiyi qüdrətli əlləri sənin başını bədənindən qoparacaqdır" (193).

Şah Təhmasib yazırdı ki, Əlqas Mirzənin yanına göndərdiyi adamlar arasında nüfuzlu əmirlər, qoşunların qaziyi-əsgəri, Səfəvilərin Ərdəbildəki məqbərəsinin mütəvəllisi Mir İbrahim də var idi. Əlqas Mirzə bu insanların yanında and içərək asilik yolunu tərk edəcəyini, günahlarını yuyacağnı və özünü doğruldacağını bildirdi. Lakin həmin hörmətli adamlar geri qayıdandan sonra Əlqas Mirzə yenidən asilik yolunu tutdu, məcsidlərdə adına xütbə oxutdurdu və pul kəsdirməyə başlamışdı (194). Yəni Şah Təhmasibdə belə bir əminlik yarandı ki, Əlqas Mirzənin asiliyini silah tətbiq etmədən aradan qaldırmaq mümkün deyildir.

"Rövzətüs səfəviyye" əsərində olan məlumata görə, Şah Təhmasiblə Əlqas Mirzə arasında anlaşılmazlığın və narazılığın yaranmasına səbəb Əlqas Mirzə tərəfindən Şah Təhmasib əmrinin icrasına hörmətsizlik göstərilməsi ilə başlamışdı. Bu zaman hətta şah himayəsində olan əmirlərdən birinin Əlqas Mirzə tərəfindən qətlə yetirilməsi son nəticədə iki qardaş arasında münaqişə yaranmasına yol açmışdı. Adı çəkilən əsərdə sonra bildirilir ki, Şah Təhmasib müdriklik və tədbirlilik nümayiş etdirdi və bununla, Əlqas Mirzə ilə münasibətlərin kəskinləşməsinə yol verməк istəmədi. Bu əsərdəki məlumata görə, Şah Təhmasib nəhayət bir qoşun dəstəsini Şirvana göndərdi ki, Əlqas Mirzəni tutub saraya gətirsinlər. Özü isə Təbrizə qayıtdı ki, vəziyyəti nəzarət altında saxlasın və mərkəzi hakimiyyətə qarşı hər hansı bir hərəkət baş verərsə, dərhal lazımı tədbirlər həyat keçirməklə, onun qarşısını almağa çalışsın. Bəhram Mirzə isə görəndə ki, ona qarşı konkret tədbirlər həyata keçirilə bilər, onda yaranmış vəziyyətdən çıxış yolu tapmağa çalışdı. Bu məqsədlə anasını və oğlunu günahlarının bağışlanması üçün Şah Təhmasibin yanına gön-

dərdi. Bəhram Mirzə onlar vasitəsi ilə Şah Təhmasibə çatdırmağa çalışdı ki, baş verənlər yaradanın qəziyyəsidir. Yoxsa o belə bir hərəkət etməzdi. Əlqas Mirzə sonra öz üzrxahlığını belə bəyan edirdi ki, xəta eləmək insan övladına xas olan bir əməldir və insan xətasız deyil. Belə bir xətaya yol verilsə də Əlqas Mirzə xahiş edirdi ki, onun bu xətası bağışlansın və onun günahlarından keçilsin. Əlqas Mirzənin anası və oğlu onun bu xahişini Təbrizdəki şah sarayında Təhmasib Mirzəyə yetirdilər. Əlavə olaraq onlar da Şah Təhmasibdən Əlqas Mirzənin günahlarının bağışlanmasını xahiş etdilər. Şah Təhmasib həmin xahiş və iltimasdan sonra Əlqas Mirzənin günahlarını bağışladı. Bundan sonra o, Şirvana göndərdiyi dəstənin geri qaytarılması haqqında göstəriş verdi. Həmin dəstənin əvəzində isə Şah Təhmasib Şirvana bir sıra əmir və əyanları göndərdi. Əlqas Mirzənin anası və oğlu da həmin əmir və əyanlarla birlikdə Şirvana yola düşdülər. Adı çəkilən mənbənin müəllifi də bildirir ki, Şah Təhmasibin göndərdiyi adamlar Əlqas Mirzə ilə görüşdülər və o da məlum olduğu kimi, bir daha asilik yolunu tutmayacağına söz verdi (195).

Elə bu vaxtlarda Şah Təhmasibin Gürcüstan tərəfə yolu düşdü. Çünki gürcü hakimlərindən olan Ləvənd xanın da müstəqilləşmək iddialarına düşməsi ona layiqli cavab verilməsini tələb edirdi. Şah Təhmasib güman edirdi ki, onun Gürcüstan yürüşü Əlqas Mirzə tərəfindən də dəstəklənəcək və söz verdiyi kimi, ən azı bir min nəfərlik qoşun dəstəsini Şah Təhmasibin qoşunlarına qatacaqdır. Amma Əlqas Mirzə yenidən asilik və müstəqilləşmək yolunu tutduğundan Şah Təhmasibin Gürcüstan yürüşündə iştirak etmədi. Əvəzində özü qoşun dəstəsi ilə Dağıstana tərəf üz tutdu ki, orada çərkəslərlə müharibə aparsın. Əlqas Mirzə mərkəzi hakimiyyətin icazəsi olmadan qoşulduğu bu hərbi yürüşdə bir nəticə əldə edə bilmədi və Şah Təhmasiblə olan münasibətlərini daha da mürəkkəbləşdirdi. Şah Təhmasibin yazdığına görə, çərkəs əhalisi də Əlqas Mirzənin Şah Təhmasibə qarşı asiliyindən xəbər tutmuşdu və hətta onlar istəyirdilər ki, Əlqas Mirzəni tutaraq Şah Təhmasibin hüzuruna gətirsinlər (196).

“Rövzətüs səfəviyye” müəllifi isə Şah Təhmasibin Gürcüstan istiqamətində yola düşməsindən sonra baş verənləri bir qədər fərqli şəkildə təsvir etmişdir. Bu əsərdəki məlumata görə, Şah Təhmasib bu səfəri zamanı onun hakimiyyətinə asilik yolunu tutmuş qüvvələrə qarşı mübarizə və döyüşlər apardı və bir sıra məntəqələri tutdu. O da əlavə olunur ki, Şah Təhmasib həmin ilin qışını Gürcüstan istiqamətində keçirdi və havaların qızması ilə “Qoyunalami” keçidindən Kür çayını adlayaraq Şirvan ərazisinə gəldi. Şah Təhmasib xəbər göndəribmiş ki, onun Şirvana səfəri gəzinti məqsədi daşıyır və bu vilayətin ab-havasının xoş olduğu günlərdə müəyyən müddət orada qalmaq istəyir. Amma onun Şirvana gəlişi Əlqas Mirzə üçün şübhəli göründü və ehtimal etdi ki, Səfəvi şahının bölgəyə gəlişində məqsəd onu cəzalandırmaqdır. Ona görə Əlqas Mirzə sərəncamında olan qoşunlarla Şah Təhmasibə qarşı mövqe tutmaq qərarına gəldi. Bu məqsədlə o öz qoşunlarını hərəkətə gətirib şah qoşunlarının qarşısına çıxardı. Görünür, Əlqas Mirzə baş verəcək döyüşdən qalib çıxa bilmək imkanına malik olduğunu düşünürdü və ona görə də Şah qoşunları ilə döyüşə atılmışdı. Amma göstərilən cəhdə baxmayaraq, Əlqas Mirzə bu döyüşdə uğuruzluğa düçar oldu. Bu döyüşdə Şirvan qoşunlarının qorçubaşısı Əhməd bəy Ustaclı və Şirvanın tanınmış əyanlarından olan Şahnəzər bəy qətlə yetirildilər. Belə olanda Əlqas Mirzə döyüş meydanını tərk edərək Dərbəndə çəkildi və bu qala daxilində müdafiə mövqeləri tutdu. Onun istəyi əsasında əmlakı da Dərbənd qalasına köçürüldü. “Rövzətüs səfəviyye” müəllifinin yazdığına görə, Əlqas Mirzə Dərbənd qalasında öz adına xütbə oxutdurdu, adına sikkə kəsdirdi və Şah Təhmasibin qəzəbindən qurtarmaq üçün Dərbənd qalasının divarlarının daha da möhkəmləndirilməsi barədə bəzi tədbirlər həyata keçirdi. O eyni zamanda Şamaxı yaxınlığındakı Gülüstan qalasının möhkəmləndirilməsi haqqında da göstəriş verdi. Əlqas Mirzə öz əmirlərindən birini bu qalanın hakimi təyin etdi və ona tapşırdı ki, nə qədər ki, salamatdır qalanı kimsəyə təslim etməsin (197).

“Əhsənüt-təvarix” əsərində Gürcüstan hadisələrindən sonra Şah Təhmasibin Gəncəyə gəldiyi bildirilirdi. “Dinin pənahı olan şah köçhaköçlə Gəncəyə gəldi və Gəncədən köç edib Bulaq mövqeyində dayandı. O mənzildən [Şah Təhmasib] İbrahim xan Zülqədəri, Hüseyncan sultan Rumlunu, Gögcə sultan Qacarı, Şahverdi sultan Ziyadoğlu Qacarı və Xoca Basanı yaxşı silahlanmış beş min süvari ilə Əlqasın ailəsinin və köçünün yerləşdiyi Şamaxıya sürətli yürüş etmək üçün yolladı. Çoxsaylı qazilər Həzrət Pərvərdigara təvəkkül edib, Kür çayını keçərək Şamaxıya yönəldilər. Əlqasın ordusunun əmiri olan Mehtər Dövlətyar [bundan] xəbərdar oldu. O, Əlqasın ailəsini və köçünü götürüb Gülüstan qalasına getdi. Əmirlər, dövlər ərkanı və Bəhram şövkətli əsgərlər Şamaxını çalıb-çapdılar və Gülüstan qalasını araya aldılar. Əmirlərin getməsindən sonra dinin pənahı olan şah, [atdıqları] parlaq oxların yarası ilə uçan qartala qanad saldıran və [vurduqları] toppuzların zərbəsi ilə möhkəm dağı başı üstə aşıran qaniçən qazilərdən və zəmanə igidlərindən ibarət bir dəstə ilə, Qoyun-ölümündən keçib Ərəşə yollandı.

... [Şah] köçhaköçlə Əli-Şəbana yola düşdü. O məkandan Gülüstan qalası ətəyində olan Süleyman Çələbini cövşən geymiş altı yüz nəfər igidlə Dərbənd qalası tərəfə göndərdi. Onlar sözügedən qalanın bir fərsəxliyində Əlqasın yanından gələn Qəbələ kələntərinə çatdılar. Qazilər onları məğlub etdilər və o bədbəxt qövmdən təxminən otuz nəfəri qətlə yetirdilər. Daha sonra qala istiqamətində hərəkət bayrağını qaldırdılar. Sarı Qiymasib və Dəli Qiymasib Dərbənddən [onlarla] savaşmağa gəlsələr də, döyüşdən və vuruşdan sonra qaçış yolunu tutub qalaya sığındılar. Süleyman Çələbi geri qayıdıb Samur çayına gəldi” (198).

“Rövzətüs səfəviyye” müəllifininn verdiyi məlumata görə, Əlqas Mirzə Dərbənd qalasında olarkən onun tərəfdarları tutduqları yoldan üz döndərərək dəstə-dəstə Şah Təhmasibin düşərgəsinə yollandılar və ona öz sədaqətlərini bəyan etdilər. Yəni Əlqas Mirzənin ətrafında olan insanların heç də hamısı onun separatçılıq meylini dəstəkləmirdilər. Bununla belə, Əlqas Mirzə yenə də öz mövqeyindən əl çəkmədi və Şah Təhmasibə qarşı

müxalifətçiliyini davam etdirdi. Belə olanda ona qarşı yenidən bir qoşun dəstəsi göndərildi. Bu qoşun dəstəsinin fədakarlığından sonda Əlqas Mirzə Dərbənd qalasını da tərk edib İstanbula üz tutdu (199).

Əlqas Mirzə müxalifətçiliyinin aradan qaldırılması üçün Şirvan ərazisində baş verən proseslər "Əhsənüt-təvarix" əsərində daha ətraflı şəkildə təsvir edilmişdir. Bu əsərin müəllifi belə yazırdı: "Əlqas əmirlərlə görüşdükdən sonra altı min süvari və piyada ilə Çərkəz tərəfə yönəldi. O, ailəsini və köçünü Şamaxıda qoyub, təcili surətdə hazırlaşaraq Dərbəndə yollandı. Qalada qoyduğu anası Xanbəyi xanım [onun ardınca] Çərkəz diyarına üz tutsa da, havanın şaxtalı olması səbəbindən bir iş görə bilməyib geri qayıtdı. [Əlqas] Şəki hakimi Dərviş Məhəmməd xanın qardaşı Şahnəzəri bir dəstə mülazimlə qicdavul [təyin] etdi. Çərkəz camaatından bir dəstə ona rast gəldi. Şahnəzər ayağını möhkəm tutub şiddətli döyüş etdi. [Lakin] axırda çərkəzlərin nizə zərbəsi ilə atdan yıxılıb öldürüldü. O mərəkədə Birvəndi ağa Rumlu və Əlqas mirzənin mülazimlərindən bir çoxları qətlə yetirildilər. Elə ki çərkəz qoşunları Əlqasın qoşunlarına qalib gəldilər, onlar piyadalardan və süvarilərdən ibarət çoxlu qoşun toplayıb qorxusuz-hürküsüz bir şəkildə Əlqasın qarşısında döyüş səfi bağladılar. Əlqas da səf tərtib etməklə, mizraqların və qılıncların hazırlanması ilə məşğul oldu. [Qızılbaşların] hamısı birdən onlara həmlə etdilər. Çərkəzlər qaçmağı qənimət bildilər. Əlqasın mülazimləri onları təqib edib o bədbəxt qövmdən təxminən üç yüz nəfəri qətlə yetirdilər və hərəkət yüyənlərini Dərbəndə doğru çevirdilər. O hüduda çatdıqdan sonra xəbər yetişdi ki, dinin pənahı olan şah gəlmiş, [Əlqasın] hərbçilərinin ailə və köçünü ələ keçirmiş və indi də yaxşı silahlanmış otuz min süvari ilə birlikdə döyüşə və vuruşa hazırdır. Elə ki Əlqas bu xəbəri eşitdi, öz yaxın adamlarından olan Sarı Qiymasiblə Dəli Qiymasibi çoxsaylı bir dəstə ilə Şahverdi sultan Ziyadoğlu Qacarın, Məhəmmədi bəy Türkmanın, Süleyman bəy Çələbi Çepninin və Məhəmməd bəy Şirbəxt oğlu Talışın üzərinə göndərdi. Əmirlər bu ordu ilə Samur çayı kənarında savaşıb qalib gəldilər. Bu xəbər haqtanımaz Əlqasa çatdıq-

da Məhəmməd bəy Əfşarı bir dəstə yaramazla birlikdə Rüstəm bəyə və Peykər bəyə qarşı döyüşə göndərdi. Əmirlər Qəbələ ətrafında onlarla vuruşub [onları]məğlub etdilər və o bədbəxt qövmdən yüz altmış nəfəri qətlə yetirdilər. Məhəmməd bəy çoxlu məşəqqətlə aradan çıxdı. Həmçinin o günlərdə [Əlqas mirzə] Çoban bəy Ayçəkoğlunu dil tutmağa göndərdi. Sözügedən şəxs əmirlərin ordusunun ətrafına çatdıqda, təsadüfən Şahverdi sultan Ziyadoğlu seyrə çıxmışdı. [Şahverdi bəy] ona rast gəldi və onu tutub aləmin pənahı olan dərgaha yolladı. O həzrətin fərmanı ilə onu öldürdülər. Eyni zamanda Kor Söhrab Zülqədər ələ keçirilib cəzalandırıldı (öldürüldü). Əlqasın Dərbəndə gəlişi xəbəri dinin pənahı olan şaha çatdıqda Şahqulu bəy Möhürdarı, Bədir xan Ustaclunu, Hüseyncan sultan Rumlunu və Çıraq sultan Ustaclunu müxaliflərin qarşısında durmuş əmirlərin yardımına göndərdi. Əlqas müzəffər əsgərlərin hərəkətindən xəbərdar olduqda onu müqayisəyəgəlməz qorxu bürüdü və Xınalıq tərəfə fərar etdi. Onun qoşunu sədaqət və dövlətsevərlik qədəmi ilə dəstə-dəstə şahın əmirlərinə birləşdi. Əlqas Xınalıqdan köç edib Samur çayı kənarında dayandı. Əmirlər sürətlə onun üzərinə yürüdülər. Şahverdi bəy Ziyadoğlu və Məhəmməd bəy Türkman əmirlərin mülazimlərindən təxminən iyirmi nəfərlə Samur çayı kənarında qəflətən Əlqasa yetişdilər. Əlqas çəkməsiz atlanıb fərar vadisinə tələsdi. Sayları qar qədər olan qazilər ildırım kimi sudan keçdilər və qılınca, oxa və kamana əl atıb döyüşə başladılar. Şahqulu bəy Möhürdarın mülazimi Satılmış ox zərbəsi ilə Əlqası yaraladı. Əlqasın qürur və xəyal küləyindən yüksəlmiş lovğalıq və təkəbbür atəşi yatdı və o, məğlub olub tam məşəqqətlə özünü qalaya çatdırdı. Onun nökərlərinin çoxu qazilərin əlində giriftar oldular. O, xidmətində qırx nəfər olduğu halda şamxal qövmünün yanına gedib, Azaq yolundan dənizə (gəmiyə) oturaraq Kəfəyə yollandı. Oradan da İstanbula getdi" (200).

Buradakı məlumata görə, Əlqas Mirzə ona qarşı göndərilmiş qoşun dəstəsi ilə döyüşərkən ox yarası aldı. Qarşıya qoyduğu məqsədinə çata bilmədiyi üçün Əlqas Mirzə geri çəkilmək məcburiyyətində qaldı və o, Şimalı Qafqazdan keçməklə Qara dənizi

kənarındakı Kəfəyə (Feodesiya olması ehtimal edilir) gəldi və oradan da dəniz yolu ilə İstanbula yollandı. Bu hadisələrin baş verməsi və Əlqas Mirzənin İstanbula yollanması 1547-ci ilə təsadüf edirdi.

Əlqas Mirzənin İstanbula yollanmasından sonra Şah Təhmasib diqqətini Gülüstan qalasına tərəf yönəltdi və onun ələ keçirlməsi barəsində göstəriş verdi. Gülüstan qalası da fəth edildi və bununla Şirvan bütünlüklə nəzarət altına alındı. Mövcud olan məlumata görə, Əlqas Mirzə Gülüstan qalasının qorunmasını Mehtər Dövlətyar adlı əmirinə tapşırmışdı. Bu zaman Gülüstan qalasında müəyyən miqdarda ərzaq ehtiyatları, habelə müəyyən sayda döyüşçülər toplanmışdı. Mehtər Dövlətyar da belə güman edirdi ki, malik olduğu ehtiyatlara dayaqlanmaqla qalanı uzun müddət qoruya biləcəkdir. Şah Təhmasib göstəriş verdi ki, qoşunlar tərəfindən bu qala mühasirəyə alınsın və qala divarlarını fəth etmək üçün toplar, zərbzən və digər silahlar döyüşə hazır vəziyyətə gətirilsin. Lakin qala üzərinə hücuma başlamazdan əvvəl Şah Təhmasib dinc yolla qalanın təhvil alınması imkanını nəzərdən keçirdi. Bununla bağlı o, Həmzə bəy Kaşanə Bicənoğlunu qala daxilinə göndərdi ki, Mehtər Dövlətyarla danışıq aparsın. Mehtər Dövlətyar nəinki qalanı təhvil verməyə razı olmadı, hətta Şah Təhmasibi elçisini qala divarları üzərinə qaldıraraq şah döyüşçülərinin gözləri qarşısında qılıncdan keçirtdi. Bununla Mehtər Dövlətyar bir növ Şah Təhmasibə meydan oxuduğunu nümayiş etdirdi. Şah Təhmasib çıxış yolunun qalmadığını görüncə Gülüstan qalasını mühasirəyə aldı. Bu qalanın daxilində ehtiyatların mövcudluğu və qala divarlarının möhkəmliyi mühasirənin üç ay davam etməsinə səbəb oldu. Bu müddət ərzində tərəflər arasında toqquşmalar da baş verdi və hər iki tərəfdən xeyli ölənlər və yaralananlar oldu. Bununla belə, Səfəvi döyüşçülərinin əzmkarlığı və bir də baş vermiş bir təsadüf Gülüstan qalasının fəth edilməsinə yol açdı. Gülüstan qalası daxilində olan qadınların bir hissəsi Mehtər Dövlətyarın mövqeyi ilə razı deyildi. Ona görə də bu qadınlar fürsət yaranan kimi çadır kəndirlərini qala divarlarından aşağı atmaqla bir dəstə şamlı

qorçusunun yuxarı qalxmasına kömək etdilər. Həmin qorçular qılınclarını sıyırıb qaladakıların üstünə düşdülər. Onların göstərdiyi şücaət nəticəsində Mehtər Dövlətyar daxil olmaqla qala daxilindəki silahlıların əksəri əsir götürüldülər və Şah Təhmasibin hüzuruna gətirildilər. Bundan sonra Şah Təhmasib tərəfindən Gülüstan qalasının dağıdılıb xarab edilməsi barəsində göstəriş verildi (201).

Əlqas Mirzə İstanbula doğru yola düşəndən sonra da Dərbənd qalası bir müddət onun adamlarının nəzarəti altında qaldı. Gülüstan qalası fəth ediləndən sonra Şah Təhmasib Dərbənd qalasının alınması üçün də bir dəstə göndərdi. Bəhram Mirzə ilə Abdulla xan həmin dəstəyə rəhbərlik edirdilər. Şah Təhmasib tərəfindən göndərilmiş dəstə yetişən kimi Dərbənd qalasını mühasirəyə aldı. Bu zaman qalanın qorunmasına Köhnə Şahverdi adlı birisi rəhbərlik edirdi. Köhnə Şahverdi Dərbənd qalasını təhvil verməkdən imtina edib onun divarlarının möhkəmləndirilməsi üçün mümkün işləri görməyə başladı. Şah qoşunları görəndə ki, Əlqas Mirzənin adamları qalanı təhvil vermək niyyətində deyildirlər, onda lağımçılara göstəriş verildi ki, qala divarları altından lağım atılsın. Eyni zamanda topçular və tüfəngçilər də qala mühafizəçilərini atəşə tutmalı idilər. Bu yolla iki-üç ay ərzində qalanın ələ keçirilməsi üçün cəhdlər göstərildi. Bildirilir ki, qala bürcləri top atəşləri ilə dağıdıldı, qala divarları isə deşik-deşik edildi. Yəni Köhnə Şahverdi anladı ki, qalanı qoruyub saxlamaq onun üçün mümkün olmayacaqdır. Ona görə də Köhnə Şahverdi öz adamlarını Şah Təhmasibin hüzuruna göndərdi və ondan aman istədi. Şah Təhmasib də onu bağışladı və ona sağ-salamat qalanı tərk etməyə icazə verdi. Bununla da Şirvan ərazisi bütünlüklə yenidən Şah Təhmasibin nəzarəti altına gətirildi. Şah Təhmasib bu bölgədə sabitliyin təmin edilməsi məqsədilə öz oğlu İsmayıl Mirzəni Şirvan hakimi təyin etdi və ona lələliyi də Göyçə sultan Qacara həvalə etdi (202).

Əlqas Mirzə beləliklə, Səfəvi hüdudlarını tərk edib Osmanlı sarayında özünə sığınacaq tapmaq qərarına gəldi və bunun üçün də Osmanlı hüdudlarına yola düşməzdən əvvəl Osmanlı sultanına

bir məktub yazıb göndərdi. Elə ilk sətrində Əlqas Mirzə özünü aciz bəndə kimi təqdim edirdi. Onun yazdığı məktubun çox böyük bir hissəsi Osmanlı sultanının mədhinə, ona aid edilən ləqəblərin sadalanmasına həsr edilmişdi. Məsələn, Əlqas Mirzə onu Süleyman şanlı, İsgəndər qüdrətli, xilafət meydanının şahsuvarı, Süleyman mülkünün sahibi, dünya fatehi, Osmanlı sultanlarının varisi, aləm səltənətinin şahənşahlığına seçilmiş adam və s. kimi vəsf edirdi. Nəhayət bu uzun-uzadı vəsfdən sonra Əlqas Mirzə məktub yazmasının səbəblərini də açıqlayırdı. Əlqas Mirzə bu məktubda özünü Şah Təhmasib məkrinin qurbanı kimi təqdim edirdi. Onun yazdığına görə, Əlqas Mirzə qardaşının təqibi ilə rastlaşmış və ona qarşı haqsızlıqların göstərilməsilə qarşılaşmışdı. Yəni Əlqas Mirzə günahsız yerə Şah Təhmasibin qəzəbinə gəldiyini bildirirdi. Əlqas Mirzənin yazdığına görə o, özünü müdafiə etmək məcburiyyətində qalmışdı. Əlqas Mirzə onu da əlavə edirdi ki, Şah Təhmasib onun üzərinə çox böyük sayda qoşun çəkib. Onun sözlərinə görə, Əlqas Mirzə qardaşının hiylə və məkrlərindən xəbərdar olanda Şah Təhmasib özünü sülh tərəfdarı kimi göstərməyə çalışdı və sarayının bir neçə hörmətli adamını onun yanına göndərdi. Bildirilir ki, Şah Təhmasib göndərdiyi elçiləri vasitəsilə qardaşına qarşı hiylə və məkrdən əl çəkəcəyi barəsində vədlərini və andlarını ona çatdırdı. Əlqas Mirzə də guya bundan sonra Şah Təhmasibə sadiq qalacağı barədə göndərilən elçilərin yanında and qəbul etdi. Məktubda göstərilir ki, bu and qəbul edildikdən sonra Əlqas Mirzə arxayınlaşıb kafir çərkəslər üzərinə hücum etdi. Onun Şirvanda olmamasından istifadə edərək Şah Təhmasib də Şirvan üzərinə qoşun çəkdi, Şirvan əhalisini qırıb-çatdı, insanların var yoxu bütünlüklə talandı. Əlqas Mirzə isə görəndə ki, onun hakim olduğu vilayətdə vəziyyət xeyli mürəkkəbdir, onda geri qayıtmayıb Osmanlıya tərəf üz tutdu. Əlqas Mirzə məktubunda əhd-peymana sadiq qalmayan Şah Təhmasibin Osmanlı sultanı tərəfindən layiqincə cəzalandırılacağına, Əlqas Mirzəyə aid olmalı olan mülkün ona qaytarılacağına ümid etdiyini bildirirdi. Bununla, Əlqas Mirzə həm də Səfəvi hakimliyinə öz haqqını da irəli sürürdü.

Osmanlı sultanının onun ümidlərini doğruldacağı təqdirdə isə Əlqas Mirzə vəd edirdi ki, onun adına sikkələr kəsdirəcək, onun adına minbərlərdən xütbələr oxudacaqdır. O ümid edirdi ki, Osmanlı sultanının Şah Təhmasibi hakimiyyətdən uzaqlaşdırması Səfəvi hüdudları daxilində ona tərəfdar olan qoşun döyüşçülərinin və insanların zülm pəncəsindən nicat tapmasına, İran və Turan arasında sülh və səbatın yaranmasına yol açacaqdır (203).

Əlqas Mirzənin İstanbula yollanması Osmanlı mənbələrindən birində belə təsvir edilmişdi: "951-ci il daxilində (1544), fələk kimi ağır başlı cahan padşahı Sultan Süleyman Ədirnə tərəfinə yola düşdü və elə burada gözəl bir xəbər gəldi. Felən Əcəm kisralarından və məmləkətin maliklərindən olan Şah Təhmasibin Şirvan ölkəsində fərmandar olan qardaşı Əlqas Mirzə ilə aralarında soyuqluq və sonra da düşmənçilik vaqe oldu. Nəhayət, Şirvan hakimiyyətini atan Əlqas Mirzə bir neçə havadarı ilə bir müddət sərsəri olaraq ətrafı dolaşdıqdan sonra Dəşti-Qıpçaq səmtindən Krıma gəldi. Kəfədən bir gəmi ilə Qara dəniz boğazına gəldikdə, vəziyyət padşaha ərz olundu və o saat Əlqas Mirzəni könül alıcı bir saraya yerləşməsinə və hər cür yeyəcək və içəcəyinə ehmal olunmasına fərman buyuruldu. Əlqas Mirzənin şərəfinə böyük bir ziyafət tərtib olunmuş idi, bu ziyafətin sanki daha o zamana qədər misli görünməmişdir. Yeməkdən sonra, Əlqas Mirzənin vəziri məqamında vəkil olan Mövlana Seyyid Əzizullah Şirvani, yaxınlarından bəziləri özü ilə birlikdə o gün padşahın dost əlini öpməyə müşərrəf oldular. Özlərinə xələt geyindirilib qaldıqları yerə göndərildilər. Arxalarınca səltənət tərəfindən bir neçə kisə qızıl və quruş ilə nadir qismindən gözləri görmədiyi yadıgarlıq, qızıl və gümüşdən düzəldilən şeylərdən və boxça-boxça qızılla işlənmiş əlbisələr, samur və başqa nadir heyvanların dəriləri, qumaşlar, müxtəlif xələtlər ilə iki uzun araba, atlar və qızılla işlənmiş qılınclar, şeşpərlər və on ədəddən çox gümüş bədənli qulam göndərildi. Beləliklə, bütün zəhməti zail olub, öz qüdrətini təkmil etdi.

Bundan sonra, qardaşı Şah Təhmasibdən şikayətə başlayaraq, Şərq diyarına səfəri üçün padşahın ayağının tozuna üz sürtüb rica

və təmənna etdi. Uca cahan padşahı kərəm və himmət sahibi idi və Mirzənin istədiyinə razılıq verərək, gözəl iltifatlar və təşrifatlar ilə Əlqas Mirzənin qədrini fələk bürclərinə çıxardı. O gündən sonra vəzirlərinə və sair məsul ərkanına, komandanlarına, Əlqas Mirzəyə riayətdə, tam bir qeyrət və ziyafətində də hədiyyə və ərmağanlarla rəğbət edib, səylərinin zühura gəlməsinə işarə buyurdular. Bütün vəzirlər onu qonaq çağırırdı, çoxlu peşkəşlər çəkdilər, Mirzəni xoş tutdular. Bundan sonra da səfərin hazırlanmasına keçdilər"(204).

Əlqas Mirzənin Səfəvi şahına asilik göstərməsi və Osmanlı sarayından sığınacaq istəməsi Osmanlı sultanının da məmnunluğu ilə qarşılandı. Onun İstanbula dəqiq olaraq hansı tarixdə daxil olması bəlli deyildir. Amma məlumdur ki, bu hadisə 1547-ci ilin sonlarında baş vermişdi. Həmin vaxt Sultan Süleyman İstanbul sarayında deyildi. O, Ədirnədə ov etməklə, əylənməklə məşğul idi və Əlqas Mirzənin Osmanlı sarayına sığınması xəbərini də burada olarkən eşitmişdi. Sultan Süleyman dərhal onun yüksək səviyyədə qarşılanması və ona ehtiram göstərilməsi barəsində göstəriş verdi. O tələb etdi ki, Əlqas Mirzəyə ən yüksək səviyyədə qonaqpərvərlik göstərilsin, onun təminatında heç bir qənaətə yol verilməsin. Bildirilir ki, Sultan Süleyman qısa müddətdən sonra İstanbula döndü ki, burada Əlqas Mirzəni öz hüzuruna qəbul edə bilsin. Osmanlı sultanının İstanbula dönüşü özü təntənəli bir mərasim idi və Əlqas Mirzəyə şərait yaradıldı ki, sultanın şəhərə daxil olması münasibətilə təşkil edilmiş mərasimi izləyə bilsin. Bu mərasim sultanın mühafizəsini təmin edən qüvvələrin, xidmət dəstələrinin, təşrifat-protokol adamlarının iştirakı ilə həyata keçirilirdi. Mövcud olan məlumatlara görə, bu mərasim çox təntənəli şəkildə təşkil edilmişdi. Xüsusi geyimlərdə, nizamlı şəkildə göz önündən keçən sultan xidmətçiləri Əlqas Mirzənin heyrətini oyadırdı. Hətta onun qarşısından keçən topçubaşının, cəbəçibaşının təm-tərağını görəndə elə hesab edirdi ki, Osmanlı sultanı elə bunlardır. Yeniçəriağası və vəzirlər də ayrı-ayrılıqda ona Osmanlı sultanı təəssüratı bağışlamışdı. Osmanlı sultanının

özünü müşahidə etdikdə isə Əlqas Mirzədə onun əzəmətinə bir heyrət yaranmışdı (205).

Belə bir təəssürat içində olduğu günlərdə Əlqas Mirzə Osmanlı sultanının qəbulunda da ola bildi. Bununla bağlı sultan sarayında xüsusi və təntənəli bir mərasim təşkil edilmiş, saray protokoluna uyğun olaraq Osmanlı əyanları və əmirləri ziyafətdə öz yerlərini tutmuşdular. Bu mərasimdə Əlqas Mirzəni onun vəziri vəzifəsini icra etmiş Mövlana Seyid Əzizulla Şirvani və ona yaxın olan bir neçə əyan müşayiət edirdi. Əlqas Mirzə bu mərasimdə sultanın əlini öpmək fürsəti əldə etmiş, sultan da Əlqas Mirzəni və onu müşayiət edənləri qiymətli hədiyyələrlə mükafatlandırmışdı. Bu mərasimin təşkkil edildiyi günün sabahı Əlqas Mirzə yenidən sultan dərgahına yol tapmış, ona göstərilən qonaqpərvərliyə görə minnətdarlığını çatdırmaqla bərabər, həm də Osmanlı sarayına sığınmasının səbəbləri, Şah Təhmasibin ona olan münasibəti və Şah Təhmasibə qarşı Osmanlı sultanının mümkün köməkləri barəsində danışmışdı. Məlumdur ki, Əlqas Mirzənin Şah Təhmasibə qarşı mövqe tutması, onun Osmanlı qoşunlarının yeni bir şərq yürüşü arzusunda olması və onun özünün də bu yürüşdə iştirakı sultan tərəfindən məmnunluqla qarşılanmışdı. Osmanlı sultanı bu dəfə də Əlqas Mirzəyə xoş münasibət göstərmiş və bütün vəzir-vəkillərindən tələb etmişdi ki, onlar da Əlqas Mirzəyə qarşı xüsusi qonaqpərvərlik nümayiş etdirsinlər. Bunun nəticəsi idi ki, sarayın həm baş vəziri, həm digər vəzirləri və əyanları Əlqas Mirzəyə qonaqlıq mərasimləri təşkil etmiş və bu zaman ona çoxlu qiymətli hədiyyələr bağışlanmışdı. Sultanın xanımı Xürrəm sultan da Əlqas Mirzəyə xeyli qiymətli hədiyyələr bağışlamış və bununla o da Əlqas Mirzəyə Osmanlı sarayında xüsusi bir münasibət olduğunu göstərmişdi. Xürrəm sultan tərəfindən Əlqas Mirzəyə bağışlanan hədiyyələr içərisində qiymətli geyimlər, yataq dəstləri və s. var idi. Bildirildiyinə görə, Xürrəm sultan tərəfindən verilən hədiyyələrin ümumi dəyəri on min altundan artıq idi.

Məlum idi ki, Səfəvi dövləti üzərinə yeni hücuma keçmək üçün Şah İsmayılın övladlarından birinin yardımı Osmanlı sul-

tanına faydalı ola bilərdi. Bu, həm qızılbaş əyanları arasında parçalanma salınması, Şah Təhmasibdən narazı olan qızılbaş əmir və əyanlarının Əlqas Mirzə ətrafında cəmləşdirilməsi, həm də əməli yardımların alınması üçün əhəmiyyət kəsb edə bilərdi. Ona görə Osmanlı sultanı Əlqas Mirzənin ona sığınmasına Səfəvi hüdudların fəth edilməsi üçün müəyyən ümidlərini də bağlayırdı. İstinad olunan Osmanlı mənbəsində də göstərilirdi ki, Əlqas Mirzənin gəlişi Osmanlı sultanına bir bəhanə verməklə yanaşı, həm də onun Səfəvi hüdudları üzərinə yeni hücuma başlamasına təhrik etdi. Osmanlı sultanı qızılbaş tayfasının davamlı olaraq insanları söyüb təhqir etdiklərinə qəlbən pərişan olmaqla hər zaman intiqam almağa hazır idi və Səfəvi hüdudları üzərinə hücuma başlamaq üçün bir bəhanə axtarırdı. Sultan Süleyman bunun üçün də hər zaman özünə və ətrafdakılara "bu dinsizlərin pisliklərə bulaşmış vücudlarını zaman səhifəsindən nə vaxt yox edəcəyik?" deyə sual verərdi. Əlqas Mirzənin Osmanlı sarayına pənah aparmasından sonra isə Osmanlı sultanı belə bəyan edirdi: "İndi Əlqas Mirzənin Osmanlı diyarına gəlməsi, bu məsləhətin tam olaraq hazır olmağına dəlalət edir və Allah tərəfindən də bir işarətdir. Bu fürsət hər zaman ələ girməz. Tədarükdə olun" (206).

Amma Əlqas Mirzənin Osmanlı sarayına sığınması və onun yüksək qonaqpərvərliklə qarşılanması saray daxilində heç də hamı tərəfindən məmnunluqla qarşılanmırdı. Xüsusilə, Əlqas Mirzənin şiə məzhəbinə mənsub olması, sünniliyiə qarşı rəğbətli mövqeyinin hiss edilməməsi Osmanlı din xadimlərinin, bütünlükdə məzhəb təəssübkeşliyi güclü olanların narazılıqları ilə qarşılanırdı. Mənbələrdə olan məlumatlara görə, saray adamları arasında Əlqas Mirzənin yüksək səviyyədə qarşılanması barəsində belə sözlər danışılırdı: "Bu qədər boş məsrəfə nə lüzum var, bu adam sünniliyə etibar göstərmək üçün gəlmədi, bəlkə başını qurtarmaq üçün buraya qaçdı, üstəlik içində dinsizliyin və rafizliyin mayası vardır, müsəlmanlar arasında bulunması qatqısız zərərdir" (207).

Yəni bəzi saray qüvvələri Əlqas Mirzəni ümumiyyətlə, kafir sayır və onun müsəlmanlar arasında olmasını belə düzgün bil-

mirdilər. Əslində, Sultan Süleymanda da məzhəb təəssübkeşliyi güclü idi. Lakin siyasi maraqlar onu da Əlqas Mirzəyə xüsusi rəğbətlə yanaşmağa sövq edirdi. Sultanın Əlqas Mirzəyə xüsusi marağı və münasibəti digərlərini Əlqas Mirzəyə qarşı dözümlü yanaşmağa məcbur edirdi.

Siyasi maraqlar sabiq Şirvan hakimi Bürhanəli ilə Əlqas Mirzənin də bir-birinə dözümlü yanaşmasına zəmin yaradırdı. Şirvan bütünlüklə Səfəvi sarayının nəzarəti altına alınandan sonra Əlqas Mirzə məhz Bürhanəlinin yerinə Şirvan hakimi təyin edilmişdi. Ona görə sözsüz ki, Əlqas Mirzə də Bürhanəli üçün təbii bir düşmən idi. Bürhanəli öz hakimiyyətini itirdikdən sonra Osmanlı sarayına pənah gətirmişdi. O da vaxtaşırı Osmanlı sultanı və əyanları qarşısında Səfəvilər üzərinə qoşun çəkilməsi və Şirvanın yenidən geri qaytarılması haqqında xahişlər qaldırırdı. İraqeyn səfərindən sonra Osmanlı sutanının başı daha çox Avropa cəbhəsinə qarışmışdı. Amma Əlqas Mirzənin də Osmanlı sarayına pənah gətirməsi Bürhanəlinin özündə də tezliklə Səfəvi dövləti üzərinə hərbi yürüş edilməsinin mümkünlüyü barəsində yeni ümidlər yaratmışdı. Buna görə Əlqas Mirzə ilə Bürhanəli arasındakı düşmən münasibət də təxirə salınmışdı və onlar hər ikisi səbirsizliklə Səfəvi dövləti üzərinə yeni bir hücumun başlanacağı günü gözləyirdilər (208).

Tədqiqatçıların fikrincə, Osmanlı sultanının Səfəvi dövləti üzərinə yürüş hazırlıqlarının Əlqas Mirzənin İstanbula gəlişi ilə bir vaxta düşməsi yalnız Əlqas Mirzənin təhriki və istəyi ilə bağlı deyildi. Bildirilir ki, İraqeyn səfərindən sonra Sultan Süleyman öz diqqətini Avropa cəbhəsinə yönəltmiş və təxminən 12 il müddətində o, Avropa və Aralıq dənizi bölgəsinin fəthi və bu bölgələrdə öz nüfuzunun möhkəmləndirilməsi ilə məşğul olmuşdu. Bildirilir ki, hətta Şah Təhmasib də bundan istifadə edərək özbək qoşunlarına qarşı uğurlu mübarizə apara bilmiş və Şirvanı da birdəfəlik öz hakimiyyəti altına sala bilmişdi. Şah Təhmasibin bu uğurları, o cümlədən şiəliyin Osmanlı ilə həmsərhəd olan ərazilərdə möhkəmlənməsi, hətta Osmanlı daxilində də şiəliyin təbliğinin davam etməsi, mövcud məlumata görə, Sultan Süleymanın

diqqətindən heç də kənarda qalmırdı. Özbək xanlarından aldığı məktublar, Şirvanın Səfəvi hakimiyyəti altına düşməsi haqqında gələn məlumatlar da onu sözsüz ki, razı salmırdı. Amma o da bildirilir ki, bu zaman onun imkanı yox idi ki, şərqə doğru yenidən yürüş həyata keçirsin. Belə bir fürsətin bir də 1547-ci ildən sonra yarandığı bildirilir. Həmin il Osmanlı sarayı ilə Almaniya və Avstriya imperatorluğu arasında müzakirələr aparıldı və anlaşma imzalandı. Bu anlaşma Osmanlı sarayının maraqlarını əks etdirirdi və belə bir anlaşmanın imzalanmasından sonra Sultan Süleyman şərq istiqamətində hərbi yürüşə başlamaq üçün münasib bir şərait əldə edə bildi (209).

Əlqas Mirzənin Osmanlı sultanına pənah aparması barədə Şah Təhmasib də öz təzkirəsində müəyyən qeydlər etmişdi. O yazırdı: " ...Oradan (Kəfəyə-Feodosiyaya çatdıqdan sonra – M.S.) bizə bir məktub yazıb göndərmişdi ki, mən həzrət Xandigarın yanına getdim. Gör sizin başınıza nə gətirəcəyəm.

Mən dedim:

-Heç fikirləşmir ki, Xandigardan da böyüyü var. O böyük [Allah] sirlərdən və gizli işlərdən xəbərdardır. Bütün bəndələrin gizli sirlərini yaxşı bilir. Hər kəsə öz niyyətinə və əməlinə görə cəza verəcəkdir. Xandigar, mən və sən onun qüdrəti qarşısında nəyik və nə edə bilirik.

... [Əlqasib] Kəfədən İstanbula yola düşür. Bədzatlıqda İbrahim paşa kimi olan Rüstəm paşa (qətl edilmiş İbrahim paşanın yerinə təyin edilmiş baş vəzir –M.S.) onun əhvalatını həzrəti Xandigara başqa cür xəbər verir, onu böyük hörmət və ehtiramla İstanbula aparır. O, orada çoxlu yalan toxuyub deyir ki, [qızılbaşlar] məni sevirlər. Həqiqət [isə] budur ki, qızılbaşın başını kəssən də tacı başından götürməz. Vaxtilə Əlqasibin başında tac olduğu halda, heç kəs onun yanına getmirdi. [Çün]ki sufilik qaydasına görə mürşid kimi [ancaq] birini tanıyırlar. Əgər yüz min padşah oğlu olsa, onun üzünə baxmazlar. Bir halda ki, tacını başından atıb, məlumdur ki nə qədər etibarı vardır. Həzrət Xandigar gərək əvvəlcə onun zəka və ağlını yoxlayaydı, ondan sonra onun sözlərinə əməl edib bizim üstümüzə basqın edəydi. İkincisi budur

ki, həzrət Xandigar gərək əvvəlcə bizim yanımıza bir adam göndərib onun günahının bağışlanmasını tələb edəydi. Əgər qəbul etməsəydim və onun vilayətini verməsəydim, o halda bizimlə müharibə etməyə haqqı və sübutu ola bilərdi. Bizə qarşı qəzəblənsəydi də haqq onların tərəfində olardı. Digəri budur ki, [Xandigar] belə etmədisə də, gərək onu İstanbulda saxlayaydı, bəlkə də bir gün onlara lazım olardı. Amma Rüstəm paşa bizə qarşı pislik etdi, biz ona "minnətdarıq" Həzrət Xandigarın duz - [çörəyini] yemişdi. (Ona yalan məsləhət verməməli idi), deməliydi ki, bu haqda əvvəlcə qızılbaşlarla danışaq və məchul [məsələləri] məlum edək. Yalnız onun (Əlqasın) sözlərinin doğru olduğu aşkara çıxdığı təqdirdə, onların üstünə gedək. Çünki bunun (Əlqasın) sözləri birdən yalan çıxar və arada yüngülsaqqal olarıq. ... [Xandigar] onun ağlını və düşüncəsini, sözlərinin doğru və yalan olduğunu öyrənmədən, qalxıb bizim tərəfə gəldi. Hər vilayətdə əhalinin ürəyində olan nüfuzunu heç-puç etməklə özünü yüngül və hörmətsiz etdi" (210).

Beləliklə, 1548-ci ilin yazına doğru Osmanlı qoşunlarının Səfəvi dövləti üzərinə hərbi yürüşə başlayacağı artıq qətiləşdi. Bu yürüşün uğurla başa çatdırılması üçün Osmanlı sultanı tərəfindən bir sıra tədbirlər həyata keçirildi. O cümlədən 1548-ci ilin əvvəllərində bütün vilayət və sancaq hakimlərinə məktub göndərildi ki, onlar yeni bir şərq yürüşünə hazırlaşsınlar, qoşunların toplanması, təchizi üçün lazımi işləri görsünlər. Osmanlı mənbələrindən aydın olur ki, həmin vaxt Ülamə Təkəli Bosniya hakimi idi. Səfəvi dövləti üzərinə hərbi yürüş hazırlıqları başlayanda o, Səfəvi şəraitinə yaxşı bələd olduğu üçün geri çağırıldı və Ərzrum vilayətinin bəylərbəyi təyin edildi. Burada o, sözsüz ki, qoşunların şərqə doğru yürüşünün hazırlanmasında və bu qoşunların Səfəvi hüdudları daxilində fəaliyyətində daha çox faydalı ola bilərdi. Ülamə Təkəliyə eyni zamanda Əlqas Mirzəyə lələlik həvalə olundu. Əlqas Mirzə də bu yürüşdə daha fəal şəkildə iştirak etməyə həvəsləndirildi və ona Səfəvi taxt-tacının ərməğan olunacağı vəd edildi. Onun özünə arxayınlığının və başlanan yürüşün uğurla nəticələnə biləcəyinin görüntüsünü yaratmaq

üçün Əlqas Mirzəyə tuğ, bayraq, təbil verildi, sağ və sol əlufəçilər dəstələri, qərip bölükləri və digər atlı bölükləri verildi və o, sultanın göstərişi ilə 1548-ci il mart ayının 21-də Üsküdardan Səfəvi hüdudlarına doğru hərəkətə başladı. Elə bu vaxtlarda Sultan Süleyman öz elçiləri vasitəsi ilə Şeybani Əbdüllətif xana məktub göndərdi və onu da Səfəvi dövlətinə qarşı mübarizəyə dəvət etdi. Amma bu çağırış nəticə vermədi və Osmanlı hərbi yürüşünün dəstəklənməsi üçün özbək hakimləri tərəfindən ciddi bir fəaliyyət göstərilmədi (211).

Osmanlı mənbələrində olan məlumata görə, Səfəvi dövləti üzərinə növbəti yürüşə hazırlıq çərçivəsində Osmanlı sultanının gördüyü işlərdən biri də Şirvanşahlar nəslindən olan və Osmanlı sarayına sığınan Bürhanəlinin Şimali Qafqazdan adlamaqla Şirvana göndərilməsi idi. Bürhanəli Qafqaz hakimlərinə Osmanlı sultanının məktubunu çatdırmaqla yanaşı, həm də özü Şirvan ərazisinə daxil olmalı, buradakı sünni qüvvələri və ona sədaqətli qalmış qüvvələri təşkilatlandırmaqla Şirvan vilayətini Səfəvi nəzarəti altından çıxarmalı idi. Bu zaman Şirvan hakimi Şah Təhmasibin oğlu İsmayıl Mirzə idi və Bürhanəli də onu hakimiyyətdən uzaqlaşdırmaqla burada öz hakimiyyətini bərqərar etməli idi (212).

“Əhsənüt-təvarix” əsərində Osmanlı sultanının təhriki ilə Bürhanəlinin Şirvana qoşun çəkməsi və onun nəticəsi belə təsvir edilmişdir: “Bu il Şirvan sultanlarının nəvələrindən olan Bürhan hədsizlik və tüğyan cibindan üsyan başını çıxarıb, ayağını doğru yoldan kənara qoyaraq Qaytaqdan Şirvana gəldi. Elə ki bu xəbər aləmin və aləm sakinlərinin şahzadəsi, qalibiyyət sahibi İsmayıl mirzəyə çatdı, çoxlu ordu ilə o yaramazı dəf etməyə yollandı. Filan mövqeyində Bürhan çoxlu adamlarla cəngəllik kənarında çəpərlər tərtib edib, qarşıdurmaya və vuruşmaya hazırlaşaraq inad bayrağını qaldırdı. Bir dəstə qazi qabaqdangəlmişlik edib, ali bayraqların gəlişindən öncə həmin yağı, tüğyançı və azğın camaatla məşğul olaraq dava-qırğın atəşini alovlandırdılar və alışdırdılar. O əsnada yüksək şanlı şahzadə böyük bir qoşunla hərb meydanına çatdı. Qazilərin kos və şeypurunun hay-küyün-

dən və şirvanlıların vəlvələsindən, fəryadından və iniltisindən dövr edən fələk tasına cingilti düşdü. Axırda "De ki, haqq gəldi, batil yox oldu. Çünki batil yoxluğa məhkumdur!" hökmü ilə o həzrətə müqavimət göstərməyə tab gətirmədilər. …Bürhan bildi ki, xoşbəxtlik kələfinin ucunu əldən verib və ruzigar tərsinə dönüb. O, idbar üzünü fərar vadisinə çevirdi, ilan kimi çalan və atəş kimi yandıran oxun zərərindən balıq kimi yerə girdi, döyüşkən şahzadənin xofundan cüyür kimi arxasını çevirib aradan çıxdı, o həzrətin bayrağındakı aslanın qorxusundan tülkü kimi dava-qırığından qaçdı, hərb atəşinin və döyüş girdabının dəhşətindən sel kimi səhraya tələsdi. Elə iti qaçırdı ki, səba küləyi yeyin atla onun yel ayaqlı atının tozuna belə çatmazdı. Enişdə sudan, yoxuşda atəşdən daha cəld idi. Sanki onun külək ayaqlı, tozanaq xasiyyətli kəhəri od xilqətinə tutuşub və onun balıq kimi gedən atı çay içində qaçsa da tərə qərq olar. Qazilər onları təqib edib onun adamlarından bir çoxlarını qətlə yetirdilər və başlarını bədənlərindən ayırıb [İsmayıl] mirzənin atının ayağı altına atdılar.

O əsnada xəbər gəldi ki, Sultan Süleyman Əlqas mirzə ilə birlikdə Təbrizə hərəkət edir. [İsmayıl] mirzə həzrətləri dinin pənahı olan şahın ordusuna yollandı. Mirzənin getməsindən sonra Bürhan Şirvanı boş gördü və Kuhistandan (Dağıstandan) Şamaxıya gəlib o diyarı ələ keçirdi"(213).

Əlqas Mirzənin Səfəvi istiqamətinə yola salınmasından az sonra, yəni 1548-ci il mart ayının 29-da Sultan Süleyman da İstanbuldan hərəkətə gələrək Üsküdara yollandı və martın 31-də isə Osmanlı sultanı özünün on birinci hərbi yürüşünə başladı. Bununla da Səfəvi dövləti üzərinə planlaşdırılan ikinci hərbi kampaniyanın əməli icrasına başlandı. Bu yürüşə başlamaq ərəfəsində də Sultan Süleyman öz niyyətlərini və istəklərini nəzmə çəkdi. Həmin nəzm parçası müxəmməs idi və bu müxəmməs İraqeyn səfəri ərəfəsində Sultan Süleymanın Mühibbi imzası ilə yazdığı qəzəlinin təxmis edilməsi ilə yazılmışdı. Osmanlı qoşunlarınnı Səfəvi hüdudları üzərinə hücumunu vəsf edən həmin müxəmməs belə idi:

“Allah, Allah” deyəlim, Sancaqi-Şahı çəkəlim
Ləşgəri- safşekənü mərəkəxahı çəkəlim
Topdan, şaiqəyi-mülki təbahi çəkəlim
Nəsnə yoxdur, bu qədər zəhməti gahi çəkəlim
Yürüyüb hər yandan Şərqə sipahi çəkəlim

Payimal eyləyəlim kişvərini sürxsərin
Aləmi təng edəlim başına ol bəd-gövhərin
Kühl bilməzsə gübari-rəhini qazilərin
Atəşi-qəhrə yaxıb mülkini ol bədnəzərin
Gözünə, sürmə deyil, dudi-siyahı çəkəlim

İki yerdən kuşanalım yenə qeyrət- kəmərin
Açalım tuği-qəza birlə əcəm pərdələrin
Para-para edəlim həsmi-ləinin ciyərin
Qazilərlə tutulan canibi-məşriq səfərin
Bulaşıb toz ilə torpağa, bu rahı çəkəlim

Bizə fərz olmuş ikən, olmamız islama zahir
Dəxi əl vermiş ikən səltənətü tacü sərir
Məndə ikən neçə İsgəndərü Darayi-kəbir
Əmrü nəhyimizə baş əymiş ikən cəmü kəsir
Necə bir oturalım, bunca günahı çəkəlim

Çariyari umarız bizə inayət qılalar
Qazilər ləşgəri-həsm üzrə zəfərlər bulalar
Əhli-ilhadı qovub mülkün əlindən alalar
Dərki-əsfəldə əbəd qövmü-rəvafiz qalalar
Ey Mühübbi, yürüyüb şərqə sipahi çəkəlim (214)

Sultan Süleymanın oğulları da bu və ya digər dərəcədə onun şərq səfərinin həyata keçirilməsinə cəlb edilmişdilər. Məsələn, məlumdur ki, 1548-ci il aprel ayının 19-da Sultan Süleyman qoşunu ilə birlikdə Seyyid Battal Qazi qonağına (dayanacağına)

çatanda Mənişa-Saruxan valisi olan oğlu şahzadə Səlim də onu qarşılamağa gəlmiş və o buradan atasının qərarı ilə Rumelidə sabitliyin qorunması üçün Ədirnəyə göndərilmişdi. Sultan Süleymanın şərqə səfərində olduğu zaman şahzadə Səlim Rumeli tərəflərinin əmin-amanlığını müşahidə və nəzarət altında saxlamalı idi. Sultan Səlimin tapşırığına əsasən onun digər övladları şahzadə Bəyazid Qaraman vilayətinin, şahzadə Mustafa isə Anadolunun əmin-amanlığına məsuliyyət daşıyırdı. Sultan Süleyman ehtiyat edirdi ki, onun səltənət daxilində olmadığı vaxtlarda qızılbaş-türkmanların təsiri ilə hər hansı bir qiyam qalxa bilər (215).

Farsdilli mənbələrdə olan məlumata görə, Sultan Süleyman Əlqasla ittifaqda Engirüsdən, Əflaqdan, Bosnadan, Serbdən, Moradan, Qaraboğdandan, İredostdan, Anadoludan, Məntəşa-elindən, Qaramandan, Mərəşdən, Hələbdən, Şamdan, Misirdən, Hicazdan, Yəməndən, Diyarbəkrdən, İraqi-Ərəbdən və Kəfədən topladığı müqayisəyəgəlməz bir qoşunla əsləhədən, cəbbədən, cövşəndən, topdan, tüfəngdən və ərradələrdən ibarət mükəmməl bir təchizatla köçə-köçə Təbrizə yollandı. Onu yenə də uzun və yorucu bir səfər gözləyirdi. Başqa bir məlumata görə isə, Sultan Süleyman 12 min nəfərlik bir qoşun dəstəsi ilə Əlqas Mirzəyə Bağdaddan keçməklə İraqi-Əcəmə doğru irəliləmək tapşırığı verdi. Özü isə qoşunların əsas hissəsi ilə Azərbaycana doğru istiqamət götürdü. Bu qoşun dəstələri sonradan birləşərək qarşıya qoyulan başlıca məqsədə çatmalı idilər. Şah Təhmasib öz təzkirəsində Səfəvi hüdudlarına hücum çəkən Osmanlı qoşunlarının sayının 300 min nəfər olduğunu, xidmətçi personal ilə birlikdə Səfəvi üzərinə 600 min nəfərlik bir qoşunun gəldiyini bəyan edirdi (216). Osmanlı qoşunlarının sayı haqqında verilən məlumat bir qədər reallıqdan uzaq görünsə də, bəlli idi ki, hərbi yürüşün uğurlu və qısa zaman ərzində başa çatması üçün bu qoşunların sayı çox idi

"Rövzətüs Səfəviyye" əsərinin müəllifi yazırdı ki, Osmanlı qoşunlarının və Osmanlı sultanının yeni hərbi yürüşü haqqında xəbəri Şah Təhmasib Təbrizdə aldı və dərhal da bu yürüşün

qarşısının alınması barəsində hazırlığa başladı. O da bildirilir ki, Səfəvilərin sərhəd bölgələrinin hakimləri də öz casusları vasitəsilə Osmanlı qoşunlarının şərq hazırlıqları haqqında məlumatlar toplayır və vaxtaşırı gözlənilən təhlükə barəsində Şah Təhmasibə məlumat çatdırırdılar. Şah Təhmasibə göndərilən belə məlumatlardan birində deyilirdi ki, onun qardaşı Əlqas Mirzə fitnə-fəsad qaynatmaqla dəmir dağlara bənzəyən ləşgərlə Osmanlı sultanını Səfəvilər üzərinə gətirir. Şah Təhmasibə aydın idi ki, onu yenidən ağır bir sınaq gözləyir, Avropaya və Afrikaya meydan oxuyan Sultan Süleyman kimi qüdrətli bir hökmdar yenidən çox böyük bir qoşunla onun üstünə gəlir. Sözsüz ki, Şah Təhmasib qoşunların toplanması barəsində əyan və əmirlərinə, vilayət hakimlərinə müvafiq göstəriş verdi. O, toplanan qoşunla ilk növbədə Əlqas Mirzənin dəstəsinin hücumunun qarşısını almağı lazım bildi. Bu məqsədlə o, qardaşı Bəhram Mirzənin rəhbərliyi altında bir qoşun dəstəsini digər qardaşı Əlqas Mirzənin təxribatının qarşısını almaq üçün Həmədan və Nəhavənd istiqamətinə göndərdi. Bəhram Mirzənin rəhbərliyi altında olan qoşun dəstəsinin tərkibinə tanınmış əmirlərdən olan Çırağ sultan da verilmişdi. Sonra da daha böyük bir qoşun dəstəsi Osmanlı qoşunlarının irəliləməsinin qarşısının alınmasına göndərildi. Bu qoşun dəstəsi 12 min nəfərdən ibarət idi və böyük əmirlərdən sayılan Abdulla xan Ustaclının və İbrahim xan Zülqədərin rəhbərliyi altında olan bu dəstə Səfəvi qoşunlarının mənqəlayı (avanqardı) kimi Mərəndə doğru hərəkət etməli idi. Şah Təhmasib bu qoşun dəstələrinin göndərilməsindən sonra Azərbaycanın səfalı yaylaqlarından olan Kələybərə gəldi və qoşunlar da burada toplanmağa başladı. Qısa müddət ərzində Farsda, Əhvazda, İraqda, Kermanda və digər vilayətlərdə toplanmış qoşun dəstələri bu yaylağa axışdılar (217).

Yuxarıda qeyd edilənlərdən məlumdur ki, Osmanlı qoşunlarının hücum xəbəri alınanda Şah Təhmasibin Şirvanda hakim olan oğlu İsmayıl Mirzə də Təbrizə gəldi və Osmanlı qoşunları təhlükəsinin qarşısının alınması daha vacib sayıldığı üçün o geri qayıtmadı. Çox güman ki, İsmayıl Mirzə həm də vilayətin qoşun

dəstəsi ilə gəlmiş və həmin dəstə də Səfəvi qoşunlarına qatılmışdı.

Mənbələrin birində Osmanlı qoşunlarının hərbi yürüşə başlaması xəbəri alınandan sonra Şah Təhmasibin 1548-ci il iyul ayının 11-də Təbrizi tərk etdiyi və onun Əşkənbər və Gülənbər yaylaqlarında olduğu bildirilir. Bundan əvvəl isə o öz hərəmxanasını, əmlakını Seyid bəy Kəmunənun rəhbərliyi altında İsfahana göndərdi. Bundan sonra o, qoşunların səltənətin müdafiəsinə hazırlaşdırılması ilə məşğul oldu. Bu məqsədlə Şah Təhmasib qoşun başçılarına, vilayət əmirlərinə onlara aid olan torpaqlardan toplana biləcək bir illik gəliri xəzinədən ödədi ki, onlar arxayın şəkildə qoşunların təşkilatlanması ilə məşğul olsunlar. Bildirilir ki, Osmanlı qoşunlarına müqavimət göstərməyə Azərbaycan və İraq ərazisindən ilkin olaraq 100 min nəfərə qədər adam toplandı və sonra onların arasında seçim aparıldı. Nəticədə 20-30 min atlı seçildi, onlar təchiz edildi və onlara lazımi məvacib ayrıldı (218).

Başqa bir məlumata görə isə, Şah Təhmasib Osmanlı qoşunlarının hərəkət xəbərini alandan sonra Təbrizin cənub-qərbindəki Şənbi-Qazan qalasına gəldi və bir ay orada qalaraq öz qoşunlarının təşkilatlandırılması ilə məşğul oldu (219).

Şah Təhmasibin yazdıqlarından belə bir qənaət hasil olur ki, Osmanlı qoşunlarının Təbrizə doğru yeni yürüşü başlayandan sonra onunla Əlqas Mirzə arasında məktublar mübadiləsi olmuşdu. Bu məktublaşma zamanı Şah Təhmasib həm bir şah kimi, həm də bir təriqət rəhbəri kimi cərəyan edən hadisələr haqqında öz təəssüratlarını bölüşmüşdü. O, Osmanlı qoşunlarının hücumunun qarşısını almaq üçün hansı taktikanı və nə üçün seçdiyinə də öz təzkirəsində qısaca olaraq toxunurdu. Bu qısa qeydlər bir daha onun hərbi təfəkkürünün, təriqət rəhbəri kimi inanclarının və səltənət rəhbəri kimi səltənətin müdafiəsi ilə bağlı düşüncələrinin qiymətləndirilməsi baxımından elmi-tarixi əhəmiyyət kəsb edir. Həmin qeydlərdə Şah Təhmasibin qardaşının sədaqətsizliyi ilə bağlı keçirdiyi hisslərin ifadəsini də görmək mümkündür: “İbrahim paşa öldükdən sonra illərlə sürən əmin-amanlıq pozuldu. Əlqasib Üləmə ilə birlikdə qabaqca Sivasa gəlib Vanın

hakimi Şahqulu sultan Çiniyə uzun bir məktub yazdılar ki, qalanın açarını götürüb bizim yanımıza gəl. Sənə Xorasanda on Van bərabərində (böyüklüyündə) yer verərik. Sonra [mənə] yazmışdı ki, mən Xandigarın oğluyam, Xandigar məni oğulluğa götürmüş və atamın mülkünü bütünlüklə mənə veribdir.

Bu məktub mənə çatdıqda rumluların divanəliyi və ağıllarının az olması bir daha mənə məlum oldu. [Bildim] ki, necə bir adamın sözünə və hərəkətinə əməl edirlər. Cavabında dedim ki, mülk nə mənim, nə sənin və nə də həzrət Xandigarındır. Mülk Allahındır, hər kəsə istəsə, verər. “De ki, ey sahibkar Allah, sən mülkün sahibisən, onu istədiyin adama verə bilərsən”.

...Bir də yazırdı ki, həzrət Xandigar 7 illik sursat, azuqə və neçə min şücaətli, silahlı qoşunla gəlir. 10 min su tuluğunu dəvələrə yükləyib gətirir ki, qoşunu çöllükdə su ilə təmin etsin. 100 min nəfəri də onların arxasınca göndərəcəkdir [ki], çöldə su cəhətdən xatircəm olsun.

Dedim:

-Bilirəm ki, həzrət Xandigarın hər cür şövkət və əzəməti vardır. Hansı yolla (nə cür) istəyirsə, gələ bilər. Mən köməyi dünya əhlinin pərvərdigarı, cəza gününün padşahı, cah-cəlalı daha yüksək, səxavəti daha çox olan Allahdan gözləyirəm.

Bir də yazmışdı ki, atlar, daş-qaşla bəzənmiş əşya, qumaş libaslar, qatır və dəvədən başqa mənə 30 min əşrəfi bağışlamışdır.

Cavabında yazdım ki, bütün bunlar sənə fayda verməyəcəkdir. Çünki dini dünyaya satmısan.

Peyğəmbərdən – ona salm olsun – hədisdir ki, dünya malı murdar bir şeydir, onun ardınca gedənlər isə itdir. ... O bəzəkli-qiymətli şeyləri ki, sən yazmısan, bilirsən ki, mənim hər bir əmirimdə bunlardan artıq vardır. Mən gərək sənin kimi əbləh olum ki, dünyəvi nəqdə (var-dövlətə), mülkə, müxəlləfata uyub, onlarla qürurlanam. Mən varlığına dair qürurlandığım və qürurlanacağım şeyi daxili aləmimdə ürəyimin dərin guşəsində nəqş etmişəm. Onu öz canımdan yüz min dəfə artıq və bütün dünyadan və onda olan bütün şeylərdən əziz və qiymətli hesab edirəm. Hər iki dünyada mənim karıma o gələcəkdir. O nəqd mənim və bütün

möminlərin ağasına olan mehr və məhəbbətimdir. Mən belə düşünürəm ki, mənim nə xəzinələrim, nə vasitələrim və nə də dünya əhlindən bir köməkçim vardır. Sənin köməkçin və onun sənə bəxş etdiyi nəqd və vasitələrin sənə bir fayda verəcəyini və habelə ağama bəslədiyim mehr və məhəbbətdən ibarət olan mənim nəqdimin və köməkçimin məni nəyə çatdıracağını özün görəcəksən. ...Mənim ağam Allahın yanında sənin ağandan daha əzizdir. Mənim ağama olan sədaqətim ona aydındır. Onun tərifi izzətli Allahın yanında elə bir dərəcədədir ki, əgər yüz min il ins və cin katib, ağaclar qələm, yeddi göy kağız vərəqi və dəryalar [mürəkkəb] [meşələr] qələm olsa, onun fəzilətinin cüzi bir hissəsini yaza bilməz" (220).

Bu söylədiklərində Şah Təhmasib daha çox təriqət rəhbəri kimi, öz fikirlərini izhar etmişdir. Yəni Şah Təhmasib öz qardaşına çatdırmaq istəyirdi ki, qiymətli əşyalara ifrat meylilik və buna görə səltənət maraqlarından uzaq düşmək nə dünyəvi, nə də dini-mənəvi tələblərə cavab verir. Bununla Şah Təhmasib həm də Əlqas Mirzənin düz yol tutmasına bir çağırış edirdi.

Yuxarıdakı cümlələr "Şah Təhmasibin təzkirə"sindən götürülmüşdür. "Şah Təhmasibin Rum elçiləri ilə söhbəti" adlanan əsərdə də bu söylənilənlər müəyyən fərqliliklə təkrar olunmuşdur. Məsələn, bu əsərdə Əlqas Mirzənin Osmanlı sultanından 30 min əşrəfi və digər qiymətli əşyalar alması haqqında dediklərinə Şah Təhmasib belə cavab verirdi:

"-Bu saydıqların da sənə mübarək olsun. Ancaq bu pullar qiyamət günü sənə bir fayda verməyəcəkdir. Aydındır ki, dünyada 30 min əşrəfi ilə külli miqdarda qoşun və əmlak əldə etmək olar. Lakin dünya malının etibarı yoxdur. Dünya malı murdar bir şeydir. Onun ardınca gedənlər isə itdirlər. ...Əgər sənə bu şeyləri veriblərsə, mənim daxilimdə elə şeylər vardır ki, həm bu dünyada, həm də o dünyada mənə fayda verə bilər. O şey qızıl və qoşun deyildir. O öz ağama olan məhəbbətimdir ki, səni də ona tapşırıram. Nəticədə görəcəksən ki, səndə olan nəqd yaxşı faydalıdır, ya da məndə olan nəqd" (221).

Sonra Şah Təhmasib öz təzkirəsində Allahın tərifinə, onun buyuruqlarının təfsirinə, islam peyğəmbərinin və həzrət Əlinin vəsfinə çoxlu “Quran” ayələri və hədislər söyləyirdi və bununla o, Əlqas Mirzəni bir daha inandırmağa çalışırdı ki, səhv yoldadır. Yaradanın lütfünə, müqəddəslərin şəfaətinə pənah aparması həm də Şah Təhmasibin hərbi strategiyasında xüsusi yer tuturdu. Sonra da Şah Təhmasib öz təzkirəsində Osmanlı qoşunlarına qarşı hansı taktikanın tətbiq edilməsinin məqsədəuyğunluğunu açıqlayırdı. Seçdiyi taktikanın doğruluğunu da o, islam müqəddəslərinin fikirləri ilə təsdiqləməyə çalışırdı.

“Xülasə, cümadiəl-əvvəl ayının 24-də casularımız gəlib xəbər gətirdilər ki, həzrət Xandigar Sivasa gəlib, üç həftə orada dayanacaqdır ki, dəvələrə yağ sürtsünlər. Biz Qəzvində idik. Hər yerdən böyükləri, əhalini, bütün məhəllələrin kəndxudalarını çağırtdırıb dedim ki, öz qoşunumdan bir hissə ayırmışam ki, Rum qoşununun qarşısına çıxsınlar, [tarlalardan] taxıl və digər ərzaq məhsullarını bacardıqları qədər [heyvanlara] yedirtsinlər, bütün qalanını isə yandırsınlar. Xatircəm olunuz, mənə bəd dua etməyiniz ki, bu fitnə və fəsadın baisi guya mən olmuşam. Sizə nə zərər dəysə, sizin malücata hesab edəcəyəm. O mahalın taxılını [heyvanlara] yedirtdik və yandırdıq, kəhrizləri isə xarab etdik. Müharibənin işi və ağırlığı ağıllı huşyar adamlara aydındır. Müharibə oyun kimi bir şeydir və burada hiylə böyük rol oynayır. İrəli düşmək, üstün gəlmək və düşməni məğlub edib qalib gəmək üçün nə mümkünsə, onu etmək lazımdır. Həzrət Əmirəlmöminin [Əlinin] – ona salam olsun – kəlamıdır: “əl-hərb xədəə”, müharibə aldatmaq, hiylə işlətməkdir. Müharibədə istəyirsən qaç, istəyirsən hər növ ilə olursa-olsun aldat, ancaq fürsəti düşmənə vermə. Düzü, səhih cavab verənlərdən eşitmişəm və hesablamışam ki, Xandigarın qulluqçularından başqa 300 min qoşunu vardır. Əgər hər birinin bir xidmətçisi, yük və minik heyvanı olsa, bunların sayı 600 min nəfər və minik heyvanı olar. Hər adam və və minik heyvanına hər gün 2 mən azuqə lazımdır. Bu da hər gün 15 min xərvar olar. Ehtimala görə özləri ilə ki, 500 min, ya 600 min dəvə yükü azuqə gətiriblər bu onlara bir aydan artıq bəs etməyə-

cəkdir. Biz bütün yerlərdə taxılı mal qaraya yedirdib yandırmışıq ki, onarla üzbəüz müharibə etməyək. Belə bir vəziyyətdə onların halı necə olacaq? Əgər bir ay irəli gəlsələr, qayıdan baş nə çarə qılacaqlar və azuqəni haradan əldə edəcəklər?

Mən dəfələrlə əmirlərimin hüzurunda demişəm ki, Rum qoşunu aclıq və qızdırma xəstəliyinə tutulacaqlar. Əgər işin xəstəliyin başlanğıcında əlac etməsələr, xəstəni öldürərlər. Əgər bunu müşahidə etmirlərsə, pisdir. Sonra nəzərdə olmalıdır ki, onların müvəffəqiyyəti nə qədər çəkəcək. Ondan sonra az bir vasitə ilə əlac etmək olar. Onları azuqənin yoxluğu yolundan başqa necə aciz etmək olar.

...Əlqərəz, Rum ordusuna qarşı əlaca başqa bir çarə yoxdur. Belə ki, əgər bizim ölkəmizdə otursalar, bizim əlacımız budur ki, hər tərəfdən onların azuqə yolunu kəsək. Onlarla müharibə belə olacaqdır. Bundan başqa [yol] divanəlik və sərfəsizdir. Müsəlmanların qanı səbəbsiz tökülür, özünü bilərəkdən təhlükəyə salmaq şəni uca olan Allahın buyurduğuna xilafdır" (222).

Göründüyü kimi, Şah Təhmasib elə bir taktika seçmişdi ki, onun tətbiqi zamanı daha az insan itkisi ilə qarşıya qoyulan məqsədə çatmaq mümkün olsun. O, Osmanlı qoşunlarına qarşı mübarizədə yalnız qoşunların gücünü kifayət hesab etmirdi və bu işə döyüş bölgələrinin əhalisini də səfərbər etməyə çalışırdı. Bu zaman Şah Təhmasib özü əhali ilə birbaşa ünsiyyətə girdi, yaranmış vəziyyəti onlara çatdırmaqla onların köməyinə arxalandı. Özü də çalışdı ki, Osmanlı qoşunlarının hücumunun qarşısının alınması üçün tətbiq ediləcək taktikadan əhaliyə dəyə biləcək ziyanları da xəzinə hesabına ödəsin. "Şah Təhmasibin Rum elçiləri ilə söhbəti"ndə seçdiyi taktikanın və müharibədə işlədilə biləcək taktikanın mahiyyəti ilə bağlı bir qədər fəqli və daha məzmunlu fikirləri vardır. Şah Təhmasib deyirdi:

"Mən hər yerdən kədxuda və rəiyyətləri toplayaraq onlara dedim:

-Sizin taxıllarınızı biz [atlarımıza] yedirtməsək, qalıb Xandigarın qoşununa qismət olacaq və onlar [heyvanlarına] yedirdəcəklər. Yaxşısı budur ki, bütün taxılları at və qatırlarımıza yedir-

dək, qalanlarını da yandıraq. Bunun əvəzində 3 il sizdən vergi alınmayacaqdır.

Biz ərzaq anbarlarına od vurduq, su kəhrizlərini xarab etdik. Müharibə işi oyun kimi bir şeydir. Nə vasitə olursa, olsun müqabil tərəfi udmaq lazımdır. Müharibədə düşmənə fürsət verməməli, [müqabil] tərəf müharibə etmək istədikdə, nə qədər mümkündürsə, onunla üz-üzə vuruşmamalı" (223).

Beləliklə, Şah Təhmasib çoxsaylı Osmanlı qoşunları ilə açıq meydan döyüşünə girməyə çəkindi və elə bir taktika seçdi ki, onun tətbiqi ilə Osmanlı qoşunlarını ərzaq və təminat çətinlikləri ilə üz-üzə qoysun, bu qoşunları yorub əldən salaraq məhrumiyyətlərə düçar etsin və bununla da onları geri çəkilməyə məcbur etsin. Nəticədə, Təbrizdən başlayaraq qərbə, Osmanlı sərhədinə doğru ərazilərdəki ərzaq ehtiyatları məhv edildi, körpülər dağıdıldı, su quyuları dolduruldu. Elmi-tarixi ədəbiyyatda olan məlumata görə, uzunluğu 800 kilometr və eni 200-250 kilometr olan bir ərazidə ərzaq ehtiyatları məhv edildi və həmin ərazinin əhalisi isə başqa yerlərə köçürüldü (224).

Osmanlı mənbələrindəki məlumata görə, Şah Təhmasib eyni zamanda Anadolu daxilində, yəni hərbi yürüşə başlamış Osmanlı qoşunlarının arxasında təriqət təbliğatlarını gücləndirməyə çalışırdı. Ehtimal edilirdi ki, bu yolla qoşunların arxasında sabitliyi pozmaqla Osmanlı sarayı üçün bir narahatçılıq yaradıla bilərdi. Bu zaman Osmanlı sarayı məcbur olacaqdı ki, qoşunların bir hissəsini Səfəvi təriqət təbliğatının güclənməkdə olduğu ərazilərə göndərsin. Nəticədə Osmanlı qoşunlarının ümumi gücünü parçalamaq və Səfəvi dövləti üzərinə təzyiqləri müəyyən qədər zəiflətmək mümkün ola bilərdi (225).

1548-ci ilin iyun ayında Sultan Süleyman Ərzruma yetişdi və 8 gün orada dayandı. Bu zaman Səfəvilər üzərinə hücumda iştirakı nəzərdə tutulan bütün qoşun dəstələri gələrək orada Osmanlı sultanına qoşuldular. Ərzrumda olarkən Sultan Süleyman həm də Şah Təhmasibə bir məktub göndərdi və onu açıq meydan döyüşünə dəvət etdi. Osmanlı sultanı bu məktubunun elə ilk cümlələrindən başlayaraq Şah Təhmasibi müsəlmanların məzhəbini də-

yişməkdə və şəriəti təhrif etməkdə ittihamlandırır və belə əməlləri insafdan kənar adlandırırdı. Onun yazdığına görə, şəriətin dəyişdirilməsinə cəhd edənlərin qətli üçün fəqihlər və seyidlər tərəfindən fitva verilmişdi. Sultan Süleyman sonra bildirirdi ki, şərqdə yaranmış olan küfr diyarının məhv edilməsi üçün qoşunları ilə hərəkətə başlamışdır. Osmanlı sultanı bir qədər təhqiramiz şəkildə bəyan edirdi ki, Şah Təhmasibdə zərrəcə hünər varsa irəli çıxıb döyüşə girsin (226).

Ərzrumdan sonra Osmanlı qoşunları Ərciş yolu ilə 1548-ci il iyul ayının 10-da Adilcəvaza gəlib çatdı. Burada da Osmanlı qoşunları düşəgəyə dayandılar və Osmanlı sultanın göstərişi ilə Ülamə Təkəli və Qaraman bəylərbəyi Piri paşa Van qalasının ələ keçirilməsinə göndərildilər. Elə həmin günlərdə Şirvanın da Bürhanəli tərəfindən ələ keçirilməsi haqqında Osmanlı sultanına məktub gəldi. Osmanlı qoşunlarının Ərzrum ətrafında olduğu günlərdə Səfəvi sarayının məktubla Anadolu türkman-qızılbaşlarına göndərdiyi dörd casusu da ələ keçirildi. Bildirilir ki, bu casusların Şah Təhmasbin məktubları ilə Amasiya, Sivas və Tokata göndərilməsi nəzərdə tutulmuşdu. Osmanlı mənsubları tərəfindən qətlə yetirilmiş bu adamların Anadolu qızılbaş-türkmanalrına apardığı məktubda deyilirdi: "Siz ki qədimül-əyyamdan əshabi-xanədani-sürxsər və ərbabi-əhzabi-mərdani rəfd pərvərsiz, hazır və mühəyya olasız. Biz bu canibdən ali-Osman ilə karzarda ikən gəlib yetişəsiz. Başəd ki, sizin himmətiniz bərəkətində bu bəliyyeyi-əzimə üstümüzdən dəf ola" (227).

Osmanlı mənbələrində olan məlumata görə, Sultan Süleyman Van qalasının tutulmasını Ülamə Təkəli ilə Qaraman bəylərbəyi Piri paşaya tapşırsa da, özü də qoşunu ilə ora yollanmaq və bu qalanı ələ keçirdikdən sonra Təbrizə doğru istiqamət götürmək istəyirdi. Amma Əlqas Mirzə onun inandıra bilmişdi ki, Təbriz üzərinə hərəkət etmək daha məqsədəuyğundur. Onun fikrincə, Təbrizin ələ keçirildiyi təqdirdə bir çox Səfəvi əmirləri və əyanları, hakimləri könüllü şəkildə Osmanlı sultanının hakimiyyətini qəbul edəcəklərdi. Bu isə Osmanlı qoşunlarını bir sıra məntəqələrə getməkdən xilas edəcəkdi. Bundan başqa Osmanlı sultanına

çatdırıldı ki, Şah Təhmasib də hələlik Təbrizdədir (228). Yəni Osmanlı sultanının Şah Təhmasibi də əl keçirmək şansı var idi. Ona görə də Osmanlı sultanı da Van üzərinə hərəkət etmədən Təbrizə doğru istiqamət götürdü.

Sultan Süleyman onu müşayiət edən qoşun dəstəsi ilə 1548-ci il iyul ayının 21-də Xoya yetişdi. Osmanlı mənbələrindəki məlumata görə, Sultan Süleyman hələ Xoya çatmazdan əvvəl tərəflərin qoşun dəstələri bir-biri ilə qarşılaşmışdılar. Bildirilir ki, qızılbaş qoşun dəstəsinin ətrafda görünməsi xəbəri alınanda Əlqas Mirzə ilə Diyarbəkr bəylərbəyi onlara verilmiş qoşun dəstəsi ilə həmin dəstənin qarşısına göndərilmişdi. Bu dəstənin yaxınlaşması ilə qızılbaş dəstəsi geri çəkilmişdi. Çox güman ki, burada göstərilən qızılbaş dəstəsi Şah Təhmasibin də öz təzkirəsində toxunduğu Abdulla xanın və onun əmirlərinin dəstəsi idi. Qeyd edildiyi kimi, Abdulla xanın dəstəsi irəli çıxarılmışdı və ona qarovul, yəni mühafizə vəzifəsi həvalə olunmuşdu. Şah Təhmasib onun yanına adam göndərərək tapşırdı ki, Osmanlı qüvvələri ilə rastlaşsa onlarla döyüşə girməsin və Osmanlı qüvvələrini çöllərə istiqamətləndirməyə çalışmaqla geri qayıdıb Şah Təhmasibin yanındakı qoşun dəstəsinə qoşulsun. Şah Təhmasibin göndərdiyi adam Abdulla xanın yanına yetişib aldığı tapşırığı ona çatdırdı və bir gün də onun yanında qaldı. Həmin bir gün ərzində bölgədə yandırılmamış ərzaq ehtiyatları məhv edildi və Osmanlı qoşun dəstələrinin yaxınlaşmasını görüncə Abdulla xan da dəstəsi ilə geri çəkldi (229).

“Təkmilətül-əxbar” əsərində də bu məlumat təkrarlanmışdır. “Rövzətüs səfəviyye” əsərində olan məlumat da buna oxşardır. Amma bu əsərdə qızılbaş dəstələrinin döyüşə girməməsinin başqa bir səbəbi göstərilmişdir. Adı çəkilən mənbədə qeyd olunur ki, Osmanlı qoşunlarının yaxınlaşması xəbəri alınanda qızılbaş dəstələri Mərəndin kənarına çıxdılar. Məqsəd də Osmanlı dəstələrinə zərbə vurmaq idi. Lakin məlum oldu ki, Osmanlı dəstələri parçalanmırlar və onlar öz təchizatları ilə birlikdə cəm şəklində hərəkət edirdilər. Bu düzülüş onlara həm də yaxşı müdafiə olun-

maq imkanı verirdi. Ona görə də qızılbaş dəstəsi döyüş keçirə bilmədən geri çəkilməli oldu (230).

"Əhsənüt-tarix" və "Tarix-i aləmara-yi Abbasi" əsərlərində isə Abdulla xanın rəhbərliyi altında olan qoşunların bəzi dəstələri ilə Osmanlı dəstələri arasında döyüş baş verdiyi bildirilir. "Xondgar Divrigi yolundan Bargiriyə gəlib, Üləməni bir dəstə rumi ilə Van qalasını əhatə etməyə göndərdi. [Özü isə] oradan Təbrizə tərəf hərəkətə gəldi və Xoy qəsəbəsindən Əli paşanı, Məhəmməd paşanı, Əhməd paşanı, Heydər paşanı və Əlqas mirzəni qırx min süvari ilə Mərənd çəmənindəki adlı-sanlı əmirlərin üzərinə sürətlə yürüş etməyə göndərdi. Bu tərəfdən Abdulla xanı, Şahverdi sultan Ziyadoğlunu və Əli sultanı qaravulluğa göndərdilər və peşəsi qələbə qazanmaq olan qazilər Kərdbişədə Rum qoşununun ön dəstəsinə çatdılar. [Tərəflər] bir-birilərinə hücum etdilər və meydanın tozu Fərqədan [ulduzlarının] başlarına oturdu. Tozanağın çoxluğundan günəşin çeşməsi örtüldü.

...Şahverdi sultan mərdanə döyüşüb bir çox rumiləri qətlə yetirdi. Lakin Rum əsgərlərinin sayı qızılbaş qoşunlarından çox idi və [onlar] dalğalanan dəniz kimi dəstə-dəstə bir-birinin ardınca gəlib çatırdılar. Ona görə də əmirlər aciz qalıb dağa pənah apardılar. Bu xəbər qəflətən gecə vaxtı yüksək şanlı əmirlərə çatdı. Onlar Hüseyncan sultan Rumlunun vəkili olan Təbət ağanı iki yüz nəfər qazi ilə bu xəbəri yoxlamağa yolladılar. Əmirqeyb bəy Ustaclu da döyüş əhlinin bir dəstəsi ilə yola düşdü. Onlar Rum qoşununun ön dəstəsi ilə vuruşa-vuruşa əmirlərə tərəf üz tutdular. Əlqas mirzə və paşalar Mərənd çəməninə çatdıqda o zaman artıq Abdulla sultan və b. sultanlar köç edib getmişdilər və yalnız yaxşı təchiz olunmuş iki min nizədar süvari [rumilərə] basqın etmək xəyalı ilə [orada] qalmışdı. Onlar döyüş meydanına üz qoydular və [geri çəkilən] qazilər yüyənlərini dartıb hərb etdilər. Rumilər elə bildilər ki, bu pusqudur və cürətlərini itirdilər. [Lakin] vuruşub-çalışdıqdan sonra bunun pusqu olmadığını öyrəndilər. Onlar cəsarətlənib hücum etdilər. Qazilər döyüşə-döyüşə özlərini savaş meydanından çıxardılar və rumilər [onların] bu

igidliyindən xoflandılar və qorxdular. Əmirlər və b. qazilər Əşk-ənbər mənzilində qələbə nişanlı orduya qoşuldular" (231).

Sultan Süleyman isə qoşunların əsas dəstəsi ilə Təbrizə doğru hərəkətini davam etdirdi və 1548-ci il iyul ayının 26-da bu qoşunlar Təbriz ətrafındakı Şənbi-Qazana yetişdilər. Bir gün sonra isə, yəni iyul ayının 27-də Sultan Süleyman və onu müşayiət edən dəstə heç bir müqavimətlə rastlaşmayaraq Təbriz şəhərinə daxil oldu.

Şah Təhmasibin yazdığına görə, Sultan Süleyman Təbriz şəhərinə daxil olanda qızılbaş qoşunlarının heç də hamısı onun ətrafına toplaşa bilməmişdilər. Yetişə bilməyənlər vilayət qoşunları idilər və onlar Şah Təhmasibin göstərişini alan kimi vilayət hakimlərinin rəhbərliyi altında şah düşərgəsinə doğru hərəkətə başlamışdılar. Bəzi dəstələr isə mərkəzi qoşunlara aid olan dəstələr idi və onlar səltənətin müxtəlif nöqtələrində tapşırılan vəzifələrin icrası ilə məşğul idilər. Şah Təhmasibin yazığına görə, bu dəstələr Təbrizin 5 ağaclığında idilər. Həmin dəstələr aşağıdakılardan ibarət idi:

1. Bəhram Mirzə - 1000 nəfər ilə
2. Çıraq sultan – 500 nəfər ilə
3. Əliqulu bəy Türkman – 300 nəfər ilə
4. Dərəcird hakimi Allahqulu bəy – 500 nəfər ilə
5. Çərəndab sultan – 500 nəfər ilə
6. Şiraz hakimi İbrahim xan – 2500 nəfər ilə
7. Kerman hakimi Şahqulu sultan – 1000 nəfər ilə
8. Kazerun hakimi Köpək sultan – 300 nəfər ilə
9. Kuhkələviyyə hakimi Məhəmməd xan – 1000 nəfər ilə
10. Qəzvin qorçuları – 350 nəfər ilə
11. Suklan və tatarlar – 200 nəfər ilə (232).

Şah Təhmasib öz təzkirəsində daha sonra yazırdı: "Əmirlərin camaatı və qoşunlar qərarlaşdıq ki, biz Əhərə gedib orada dayanaq, məzkur camaat da [gəlib] bizə qovuşsun. Bu qovuşmadan sonra bir yerdə olaq. Əvvəlinci mənzilə köç etdikdə Çıraq sultan, Çərəndab sultan və Əliqulu bəy [gəlib] çatdılar. İkinci mənzilə yetişdikdə Bəhram Mirzə, Şiraz hakimi İbrahim xan və Əliqulu

bəy bizə çatdılar. Həzrət Xandigar Təbrizdə və biz Əhərdə idik. Həzrəti Şeyx Şihabəddin Əhərinin [məzarını] ziyarət etdik. Çox incidiyimizdən Əlqasibə qarğış etdim. Cəlalı yüksək olan Allaha yalvardım və dedim:

-İlahi, sən özün demişsən ki, sınıq könülləri sevirəm, sınmış ürəklərdəyəm, acizlərin və rəiyyətin pərişanlıq və kərkədanlığından ürəyi sınığam. Mərhəmət zamanıdır, səndən başqa heç şey [kəs] kömək edə bilməz, çox ah-zar etdim.

Həmin gecə Şeyx Şihabəddini yuxuda gördüm. [Mənə] buyurdu ki, bütün şeyxlərlə bu gün sənə dua etdik, əlbətdə [duamız] qəbul olacaqdır" (233).

Beləliklə, Sultan Süleyman 1548-ci il iyul ayının 27-də üçüncü dəfə Təbriz şəhərinə daxil ola bildi. Lakin burada o, heç də ümidində olduğu ilə qarşılaşmadı. Sultan Süleyman əmin idi ki, o, Təbriz şəhərinə böyük təntənə ilə daxil olacaq, burada onun şərəfinə xüsusi qarşılanma mərasimi keçiriləcək, Təbriz əhalisi onun gəlişinə toy-bayram edəcəkdir. Belə bir əminliyə səbəb onunla bağlı idi ki, onun nəzərində Təbriz əhalisi Şah Təhmasibin hakimiyyətindən narazı idi və bu əhali, xüsusi ilə sünni əhali onun gəlişini böyük sevinclə qarşılayacaqdır. Digər tərəfdən də Əlqas Mirzə onu əmin etmişdi ki, Şah Təhmasib səltənət daxilində insanlara çox zülm edir və ona görə Osmanlı qoşunlarının Təbrizə daxil olması ilə çoxlu sayda qızılbaş əmirləri, əyanları, adi insanlar axışıb osmanlılara öz itaətlərini bildirəcəklər. Amma bu baş vermədi. Səltənət əhli nəinki Şah Təhmasibdən narazılıq əlaməti kimi, osmanlılara sığınmadılar. Əksinə, Əlqas Mirzənin ətrafında olan bir sıra adamlar ondan üz döndərərək Şah Təhmasibə sədaqətlərini bildirdilər (234).

Osmanlı sultanının niyyəti belə idi ki, Şah Təhmasibi məhv etməklə Səfəvi dövlətini nəzarət altına alsın və ona itaətdə olan bir dövlətə sahib olsun. Əlqas Mirzə isə bu dövlətin şahı olmaqla Osmanlı sarayına itaəti təmin etməli idi. Amma Təbriz əhalisinin, Səfəvi təbəələrinin Əlqas Mirzəyə olan münasibəti, onun dəstəklənməsi üçün hər hansı bir əlamətin olmaması Sultan Süleymanı öz qərarına yenidən baxmağa məcbur etdi. İstər Osmanlı mən-

bələrində, istərsə də farsdilli mənbələrdə Şirvan hakimi olduğu zaman insanların Əlqas Mirzədən çox narazı olduğu və bunun da bütünlükdə Səfəvilər daxilində Əlqas Mirzəyə qarşı münasibətin formalaşmasına birbaşa təsir etdiyi göstərilirdi. Məlumdur ki, Sultan Süleyman bu dəfəki gəlişində Təbrizdə cəmi dörd gün qala bilmişdi. Sözsüz ki, bu uğursuzluq həm də Sultan Süleymanın Əlqas Mirzənin sözlərinə xüsusi inam göstərtməsindən irəli gəlirdi. Elə həmin dörd gün ərzində də Əlqas Mirzə Təbriz əhalisinə elə bir zülm və qəddarlıq göstərdi ki, heç Sultan Süleyman da bunu təsəvvür edə bilmirdi. Onun Təbriz əhalisinə heç bir zərər verməməsi haqqında göstərişi olmasına baxmayaraq, Əlqas Mirzə ona itaət göstərmək istəməyən Təbriz əhalisini soyub-talamağa başladı. O hətta ona itaət göstərməyən şəhər əhalisini topa tutmaq, şəhərin sənətkarlarını Osmanlı ərazisinə köçürmək kimi təkliflər irəli sürdü. Sultan Süleyman bu təklifləri qəbul etmədi və Əlqas Mirzənin də Səfəvi taxt-tacına layiq olmadığı qənaətinə gəldi (235).

Sultan Süleyman "Təbrizə gəldikdə şəhərin mühafizəsi üçün çoxlu tədbirlər görüldü. Əlqas Mirzəni o, şəhərə hakim nəsib etmək fikrinə gəldi. Lakin Əlqasın zatında bu mərtəbə iltifatlara ləyaqət olmadığından başqa, daha əvvəl Şirvanda vali ikən müxtəlif basqınlardan da o diyarların xalqının halları pərişan və ciyərləri də odlara yanmış idi. Padşah həzrətləri bu keyfiyyəti bildiyi üçün, bu niyyətindən vaz keçdi" (236).

Sultan Süleymanın təşvişinə rəvac verən əsas məsələ isə Təbrizdə qarşılaşdıqları idi. O bu dəfə də Şah Təhmasibin tətbiq etdiyi taktika qarşısında aciz qaldı. Sultan Süleyman Təbrizə yetişdiyi gündən təsəvvür edə bilmədiyi bir fəlakət və təhlükə ilə üzbəüz qaldı. Bir tərəfdən bölgədə ərzaq ehtiyatlarının məhv edilməsi, digər tərəfdən də qızılbaş dəstələrinin son dərəcə fəallığı Osmanlı qoşunlarını çıxılmaz bir duruma gətirib çıxardı. Şah Təhmasib Osmanlı qoşunlarını demək olar ki, mühasirəyə almışdı. Onun göstərişləri əsasında çevik qızılbaş dəstələri Osmanlı qoşunlarına davamlı şəkildə zərbələr vurmaqda davam edirdilər. Bu dəstələrin ciddi zərbələri onsuz da çətinlik və məhrumiyyət-

lərlə qarşılaşmış Osmanlı qoşunlarının durumunu bir qədər də çətinləşdirirdi. Çox hallarda isə bu sürətli hücumlar Osmanlı dəstələrinin məhvi ilə nəticələnirdi (237).

Aclıq və qıtlıq isə yalnız Osmanlı döyüşçülərini deyil, Osmanlı qoşunlarındakı heyvanları da tamamilə əldən saldı. Bu fəlakət də o dərəcə şiddətli oldu ki, cəmi dörd gündən sonra Sultan Süleyman çıxış yolunun Təbrizi tərk edərək geri qayıtmaqda gördü. Şah Təhmasibin yuxarıda istinad olunan qeydlərində göstərilirdi ki, müqavimət taktikasını tətbiq etməklə o, Osmanlı qoşunlarının təxminən 20 gün ərzində Səfəvi ərazisində qala biləcəyini güman edirdi. Amma Şah Təhmasibin taktikası səltənətin müdafiəsi üçün o dərəcədə səmərəli oldu ki, Osmanlı sultanı Təbrizə daxil olandan cəmi dörd gün sonra geri qayıtmaq qərarını qəbul etməli oldu.

"Əhsənüt-təvarix" əsərində Osmanlı qoşunlarının gəlişindən sonra Təbrizdə baş verənlər belə təsvir edilmişdir: "Əlqas mirzə eyşlə abad olmuş bağa möhnət və fəlakət gətirdi. [Rumilərin] Təbrizdə olduqları dörd gün ərzində onların heyvanlarının və dəvələrinin yemi yarpaqlardan və ağac qabığından ibarət oldu. Dörd gündə təxminən beş min at, qatır və dəvə yoxluq otlağına tələsdi (öldü). Həmin bir neçə gündə küləyin şiddəti səbəbindən toz-torpaq o dərəcədə günəşin aynasını örtdü və qaraltdı ki, uzaqgörənlərin nəzərində gündüzü gecədən ayırmaq müyəssər olmadı. Taxılın azlığı, qidanın və yeməyin çatışmamazlığı, heyvanların ölməsi ucbatından, cüyür şikar edən süvarilər ac qaldılar və ahu rəftarlı piyadalar qüvvətsizlik və ölüm torunda giriftar oldular. Buna görə də Rum ordusu hücum çəkib şəhəri qarət etməyə başladı. Təbriz əhli Qülzüm və Ümman dənizlərində gəmisi sınmış, tufanın dalğalarından gəmiləri şikəst olmuş və ürəkləri candan çıxmış [adamlar] kimi fəryad və fəğanı asimana çatdırdı. Bu xəbər Sultan Süleymana çatdıqda Rüstəm paşanı göndərdi ki, ordunu qarətdən çəkindirsin və şəhərə gəldikdə car çəkdirdi ki, heç kəs rəiyyətə əziyyət verməsin. Buna görə də fitnə sakitləşdi. Dinin pənahı olan şah qızılbaş dilavərlərini rumilərin dörd tərəfində qaravulluq etməyə göndərdi. Qazilər rumilərin ordusunun

kənarına gedib adamlar [əsir] tutdular və ordubazarda onları dar ayağına çəkdilər. Sultan Süleyman qızılbaşların igidliyindən pərişan və heyran oldu, qeyri-mümkün xəyalı başından çıxardı və çəkdiyi zəhmətdən peşman olub geri qayıtmaqdan başqa çarə görmədi. Gecələrdən bir gecə onun ordusunda qızılbaşların yaxınlaşması haqqında xəbər yayıldı. [Həmin gecə] o, yükləri və əşyaları Rum diyarına yolladı, [özü isə qızılbaş] ordusunun qorxusundan gündüzə qədər at üzərində oturdu və düşənbə günü, rəbiüssani [ayının] 24-də (02.06.1548) yola düşdü. Təbrizin yetimləri, çapavulçuları və lotu-potuları onun məiyyətinə və qoşununa təcavüz əllərini uzatdılar və onun adamlarından bir çoxlarını qətlə yetirdilər. İbrahim xan və Məhəmməd bəy Mosullu Türkman onun ardınca gedib, Şam və Diyarbəkr paşası ilə və Mərəş paşası ilə ağır döyüş edərək qüdrətli dövlətin gücü ilə onlardan Ayıntab əmirini iki yüz nəfərlə birlikdə öldürdülər" (238).

Təbriz şəhərinə daxil olduqdan sonra Osmanlı sultanı əldə etdiyi zəfər ilə bağlı Avstriya imperatoru Ferdinanda məktub göndərdi. Əldə etdiyi zəfərin sürəkli olacağını güman edən Osmanlı sultanı yazırdı ki, bu yürüşü zamanı 31 şəhər zəbt edilmiş, 14 şəhər dağıdılmış, o zamana qədər müdafiəsiz olan 18 mövqe isə nəzarət altına alınmışdı. Tədqiqatçıların fikrincə, bu əraziləri ələ keçirməkdən əlavə, Osmanlı sultanı Səfəvilər dövlətini süquta yetirmək və bu dövlətin ərazilərini parçalamaq niyyətində idi. Bildirilir ki, işğal edilmiş Səfəvi ərazilərinin bir hissəsi Şirvana, bir hissəsi Dağıstana, bir hissəsi gürcülərə, bir hissəsi də Osmanlı dövləti nəzarətinə verilə bilərdi (239).

Sultan Süleyman Təbrizi tərk etmək qərarını verəndə Şah Təhmasib öz düşərgəsi ilə Əhərdə idi. O buradan Sultan Süleyman qoşunlarına qarşı göstərilən müqaviməti idarə edirdi. Osmanlı qoşunlarının Təbrizdən geri çəkilməsi haqqında xəbər alınanda Şah Təhmasib istəyirdi ki, 3 min nəfərlik bir qoşun dəstəsini Çuşin Dizmar yolu ilə Ordubad istiqamətinə göndərsin. 10 min nəfərlik bir qoşun dəstəsi isə Ülamə Təkəlini izləməli idi. Onlardan başqa Şah Təhmasib 5 min nəfərlik bir qoşun dəstəsini də Qars istiqamətinə göndərməyi planlaşdırırdı. Bu dəstələrin

ardınca Şah Təhmasib özü də sərəncamındakı qoşunlarla qərbə doğru hərəkət etməli idi. O, çox istəyirdi ki, Ülamə Təkəlini ələ keçirsin, Səfəvilərə qarşı törətdiyi əməllərə görə onu cəzalandırsın. Ülamə Təkəlinin Van ətrafında olduğu bildirilirdi. Şah Təhmasib bu istiqamətə göndərmək istədiyi əmirlərdən tələb edirdi ki, həm Ülamə Təkəlini ələ keçirsinlər, həm də Van ətrafında olan ərzaq ehtiyatlarını məhv etsinlər. Arxadan gələ biləcək Osmanlı qoşun dəstələrinin zərbə təhlükəsi altına düşəcəkləri təqdirdə isə Van tərəfə göndərilmiş qızılbaş dəstəsi Çuxursəəd tərəfə çəkilməli idi. Bundan başqa Qarsa göndərilmiş olan dəstə isə Qars qalasının təmiri və bərpası üçün ora gəlmiş Osmanlı qüvvələrini məhv etməli idi (240).

Amma sonradan bu plan təxirə salındı. Səbəb də bu idi ki, Bəhram Mirzə və onun sərəncamında olan qoşun dəstəsi şah düşərgəsində deyildi. Əmirlər məsləhət bildilər ki, Bəhram Mirzə qoşun dəstəsi ilə birlikdə yetişənə kimi, göstərilən istiqamətlərə qoşun dəstəsi göndərilməsi təxirə salınsın. Şah Təhmasib də bununla razılaşdı. Şah Təhmasib bu barədə belə yazırdı:

"Ona görə qərara alındı ki, hələlik biz Əhərdə qalaq. Bu zaman 250 xarvar sursat və cəbbəxananı ərəb dəvələrinə yüklənmiş halda gətirdilər. Ərəblər gecə ikən dəvələrini götürüb qaçmışdılar. 500 sandıqdan ibarət olan sursat və cəbbəxana yerdə qalmışdı. Bunları yükləmək üçün dəvəmiz yox idi. Mən dedim:

-Bir mənzil geriyə çəkilək və bu silahı hər vasitə ilə olursa, olsun gərək o mənzilə çatdırıb qoşuna paylayaq. Sonra isə birlikdə qabağa gələk.

Dörd ağac yol geri qayıdaraq düşərgə etdik və bir gün orada qalıb silahları bölüşdürmək ilə məşğul olduq. Bu əsnada xəbər gəldi ki, Xandigar geri qayıtdı və Təbriz şəhərinin 8 ağaclığında olan İbrahim xan Xandigarı izləyərək Təsuca kimi getdi. Biz də onların ardınca hərəkət etdik. Çaldırana çatanda dedilər ki, Xandigar Van qalasını mühasirəyə almışdır. O gün Şahqulu sultan, Kuhkələviyyə hakimi Mahmud xan və Köpək sultan da gəlib orduya qoşuldular. Əmirlərdən bəziləri dedi ki, Xandigarın qoşu-

nuna gecə ikən qəflətən hücum edək. Mən buna razı olmayaraq dedim:

-Biz buradan Ərzruma gedək, Xandigar eşitsə ki, biz onun ölkəsinə soxulmuşuq, o, Van qalasını buraxıb oraya gələr” (241).

Osmanlı qoşunları Çərəndabadda olduqları günlərdə təbiət də onlara qarşı amansız oldu və bununla sanki Şah Təhmasibin dualarının həyata keçməsinə şərait yarandı. Belə ki, həmin günlər ərzində hava qaraldı, ildırım çaxdı, tufan qopdu, toz-torpaq havaya qalxdı. Havalar elə qaraldı ki, gündüz sanki gecəyə çevrildi, göz-gözü görə bilmədi. Osmanlı qoşunları bu məntəqəni tərk edəndən sonra isə havalar yenə öz normal vəziyyətə qayıtdı. Bunun ardınca da, Şah Təhmasibin əmrinə əsasən, Osmanlı qoşunlarının təqib edilməsi başlandı. Çevik qızılbaş dəstələri sürətli hücumlarla Osmanlı qoşunlarına təsirli itkilər yetirməyə başladılar. Bu da Osmanlı qoşunları üçün əlavə çətinlikləri ortaya çıxardı (242).

Osmanlı qoşunlarının təqibi zamanı bu qoşunlara güclü zərbələrdən biri İbrahim xanın dəstəsi tərəfindən vuruldu. İbrahim xan bu zaman Məhəmməd bəy Türkmanla birlikdə Şəbüstər ətrafında geri çəkilməkdə olan Osmanlı qoşunlarından Diyarbəkr və Məraş bəylərbəyinin rəhbərliyi altında olan dəstəsinə ciddi zərbə vurdu və bu dəstədən 200 nəfəri qətlə yetirə bildi. Bir tərəfdən Səfəvi qoşunlarının ağır təqibi, digər tərəfdən də yol şəraitinin mürəkkəbliyi, habelə ərzaq və yem çatışmazlığı üzündən Osmanlı qoşunları gün ərzində 3-4 fərsəxdən çox hərəkət edə bilmirdilər. Səfəvi qoşunlarının təqibi elə bir təhlükəli hal almışdı ki, Osmanlı qoşunları ətrafa səpələnməkdən, toplardan və arabalardan uzaqlaşmağa cəsarət etmirdilər (243).

Təbrizi tərk etdikdən sonra Osmanlı sultanı Kürdüstan yolu ilə Van qalasına doğru irəliləməyə başladı. Yuxarıda qeyd edilmişdi ki, Sultan Süleyman qoşunların əsas dəstəsi ilə Təbrizə doğru istiqamət götürəndə Qaraman bəylərbəyi Piri paşa ilə, yenicə Ərzrum bəylərbəyi təyin edilmiş Ülamə Təkəlini Van qalasını tutmağa göndərmişdi. Şah Təhmasib bu qalanın müdafiəsinə xüsusi diqqət yetirirdi və onu Azərbaycanın açarı kimi qəbul

edirdi. Ona görə də Şah Təhmasib bu qalanın möhkəmləndirilməsi üçün bir sıra əlavə tədbirlər də həyata keçirmişdi. O cümlədən, qalanın təchizatı gücləndirilmiş, ora əlavə toplar və sursat gətirilmiş, qala müdafiəçilərinin ailə və uşaqları oradan çıxarılmışdı. Məhz bunun üçün idi ki, Van qalası Osmanlı qoşunlarına qarşı ciddi müqavimət göstərə bilirdi. Nəticədə Piri paşa ilə Ülamə Təkəlinin bütün cəhdlərinə baxmayaraq Van qalasını almaq mümkün olmamışdı. Amma Sultan Süleyman Azərbaycan üzərinə bu dəfəki yürüşünün ciddi nəticəsi kimi heç olmasa iki dövlət sərhədində strateji mövqeyə malik olan bu qalanı ələ keçirməyi qarşısına məqsəd qoydu. Şah Təhmasib hələ Osmanlı qoşunları Azərbaycana doğru irəliləyəndə Van qalasını da dağıdıb məhv etmək istəyirdi. Amma bəzi qızılbaş əyanları buna rəğbətlə yanaşmamışdılar. Ona görə Şah Təhmasib də Van qalasını dağıtmaqdan imtina etmişdi. Osmanlı qoşunlarının Van qalası üzərinə hücum çəkməsi xəbərini eşidəndə isə, Şah Təhmasib əvvəlki qərarının həyata keçməməsini təəssüflə qarşıladı. Osmanlı sultanı isə onu müşayiət edən qoşunla 1548-ci il avqust ayının 15-də Ərzrum düzünə gəlib çatdı və baş vəzir Rüstəm paşanı Van qalasının ələ keçirilməsinə vəzifələndirdi (244).

Şah Təhmasib tərəfindən Van qalasının hakimliyi Şahəli Çepniyə həvalə olunmuşdu və qalanın müdafiəsinə də o rəhbərlik etməli idi. Bu istiqamətdə müəyyən dirəniş də göstərildi. Sultan Süleyman hətta məcbur oldu ki, bir neçə gün ərzində Adilcəvazda tökdürülmüş 7 ədəd "şahi-top" və əlavə olaraq 6 ədəd top Van qalası ətrafına gətirsin və mövcud bütün toplardan və tüfənglərdən istifadə etməklə Van qalası üzərinə hücumu gücləndirsin. Sürəkli və güclü atəşlər Şahəli Çepnini vəziyyətdən çıxmaq üçün daha təsirli yollar aramağa vadar etdi. O öz adamlarını Osmanlı əmirlərinin yanına göndərərək qalanı təhvil verməyə hazır olduğunu və bunun üçün ona bir neçə gün vaxt verilməsini xahiş etdi. Bu təklif Osmanlı düşərgəsində qəbul edildi. Amma qala müdafiəçiləri yaranmış sakitlikdən istifadə edərək qala divarlarının uçulmuş yerlərinin bərpasına başladılar. Osmanlı düşərgəsində bundan xəbər tutulanda yenidən qala divarlarının vurulmasına baş-

landı. Bu dəfə qala müdafiəçiləri qalanı təhvil vermək qərarına gəldilər və 9 günlük mühasirədən sonra Van qalası 1548-ci il avqust ayının 24-də Osmanlı qoşunlarına təhvil verildi. Bəzi məlumatlara görə, Van qalasının ələ keçirilməsində Fransanın Osmanlı sarayı nəzdindəki səfiri Dalamo da iştirak edirdi. Osmanlı sarayı üçün bu qala xüsusi strateji əhəmiyyət kəsb edirdi. Ona görə Sultan Süleyman da bu qalanın möhkəmləndirilməsi və onun yenidən Səfəvi nəzarəti altına düşməsindən qoruması üçün ayrıca Van bəylərbəyi təsis etdi, qalanın mühafizəsinə güclü bir qarnizon ayırdı və İstanbul dəftərdarı Çərkəz İsgəndər paşa Vanın bəylərbəyi təyin edildi. Bildirilir ki, Vanın təhvil verilməsindən sonra ona yaxın olan Amuk qalası da könüllü şəkildə Osmanlı sarayına təslim oldu. (245).

Van qalasının Sultan Süleyman tərəfindən fəthi Osmanlı mənbələrinin birində belə təsvir olunmuşdu: “Sonra Təbrizdən Van tərəfə üzəngilərini çevirdi. Rəcəb ayının sonunda (16 avqust) Van səhrasını dərya-misal əsgərlərinə qərargah təyin etdi. Bundan qabaq Anadolu və Qaraman əsgəri ilə göndərilən toplar quruldu. Mətrislər qazıldı və fütuhatla bağlı tədbirlər görüldü. O günə qədər top-tüfəng və tiru xəndək ilə vuruşandan sonra, qalada mühasirə olunan qızılbaşlar, aman yolu ilə qalanı təslim etdilər. O sağlam qalanın bənzərini, zaman görmüş mühəndislər, heç yerdə görməmişlər. Yaşlı memarların heç biri də könüllülərin lövhələrində təxəyyül yolu ilə bir nümunəsini belə rəsm etmiş sayılmazlar. Xüsusilə, Əcəm şahlarının kilidi və o tərəflərin səddi olan Van qalası üçün, daim yolunu azmış şah: “Nə qədər ki, mənim sarı-qiyam fərmanım altındadır, Osmanlı sultanlarından nə qorxum var!”- deyə iftixar edirdi. Sözün qısası, Van qalası alındı” (246).

Şah Təhmasib Van qalasının itirilməsini təəssüflə qarşıladı və bu qalanın itirilməsinə görə o, həmin qalanın hakimi Şahəli Çepnini günahkar saydı. Farsdilli mənbələr də Şahəli Çepni tərəfindən Van qalasının müdafiəsi üçün bütün imkanların istifadə edilmədiyini bildirirdilər. Bu mənbələrdə onun həm qorxduğu, həm də namərd olması göstərilmişdir. Bəzi məlumatlara görə,

Şah Təhmasib Van qalasının müdafiəsində dirəniş göstərməyənləri "o namərd, haramyeyənlər" deyə adlandırmışdı. Şahəli Çepnini isə Şah Təhmasib inək dərisi içərisinə saldıraraq həyatına son qoymuşdu (247).

Van qalası alındıqdan sonra Osmanlı sultanı qoşunlarla birlikdə Diyarbəkrə üz tutdu. Şah Təhmasib isə Osmanlı qoşunlarının ardınca hərəkət edərək Çaldıran ovalığına yetişdi. Burada olarkən Şah Təhmasib eşitdi ki, Osmanlı sultanı Qars qalasını da nəzarət altına almaq niyyətindədir. Bu qala da kifayət qədər strateji bir mövqedə yerləşirdi. Onun nəzarət altına alınması ilə Çuxursəəd, Gürcüstan, Ərzrum istiqamətlərində əlverişli mövqe ələ keçirmək mümkün idi. Osmanlı mənbələrinə görə, Sultan Süleyman bu məqsədlə Məhəmməd xan Zülqədərin qardaşı Əli bəyə paşa rütbəsi verərək Qars qalasının təmirinə yolladı. Qars qalası iki dövlətin sərhədində yerləşdiyindən tərəflər arasında baş verən yürüşlər nəticəsində təxrib olunub yararsız vəziyyətə düşmüşdü. Sultan Süleyman bu niyyətdə idi ki, həmin qalanı bərpa etsin və sonra da onu nəzarət altına alsın. Bu tapşırığın icra edilməsi üçün ona Ərzrum kətxudası Osman Çələbi ağa köməklik göstərməli idi. Onların sərəncamına 4-5 min nəfərlik bir qoşun dəstəsi verilmişdi. Qars qalasının bərpa edilməsi üçün Amasiyadan, Sivasdan, Tokatdan, Ağşəhrdən, Ərzincandan, Bayburtdan, Kəmahdan, Tərcandan, Ərzrum və ətraf bölgələrdən beş min nəfərə yaxın usta toplanaraq gətirlmişdi. Osmanlı sultanının Qars qalasını da ələ keçirmək niyyəti aydın olan kimi, Şah Təhmasib bu niyyətin baş tutmasının qarşısını almaq üçün qətiyyətli addımlar atdı. Belə ki, Şah Təhmasib böyük oğlu İsmayıl Mirzəni və onun Şirvanda lələsi olmuş Göyçə sultan Qacarı 7 min nəfərlik bir qoşun dəstəsi ilə Qars qalasının tutulub dağıdılmasına vəzifələndirdi (248).

İsmayıl Mirzə də bu tapşırığın öhdəsindən bacarıqla gəldi və qısa zaman ərzində Qarsı Osmanlı nəzarəti altından çıxardı. Qarsın ələ keçirilib dağıdılması ilə bağlı İsmayıl Mirzənin rəhbərliyi altında cərəyan edən hadisələr "Tarix-i aləmara-yi Abbasi" əsərində belə təsvir edilmişdir: "Çuxursəədlə Ərzurum ara-

sında yerləşən, bir tərəfdən də Gürcüstanın Mesx [mahalına] bitişik olan və iki tərəfin əsgərlərinin şəlib-şetməsi nəticəsində xarab olmuş Qars qalasını rumilər bərpa etdilər. [Onlar] Amasya, Ərzurum, Toqat, Sivas, Aqşəhr və başqa şəhərlərdən dörd-beş min nəfər camaatı və mənsəb sahiblərindən oraya şöndərmişdilər. Bu zaman Sultan Süleyman, Osman Çələbi adlı öz qullarağasını dörd-beş min nəfər süvari döyüşçü ilə oranı qorumağa göndərdi, özü isə Muşabad tərəfə getdi. Cənnətməkan şah həzrətləri [düşməni] təqib etməkdən əl çəkməyərək, İsmayıl mirzəni Gökcə sultan Qacarla o camaatın üzərinə Qarsa göndərdi. Onlar ildırım və külək sürəti ilə hücum edib, qala civarında adı çəkilən qullarağasına və Rum qoşununa çatdılar. Onların arasında döyüş baş verdi, Müzəffər əsgərlər Rum qoşununa qalib gəldilər. Rum əsgərlərindən iki-üç min nəfər qətlə yetirildi. Qarsın abad edilməsi üçün ətrafdan toplanmış və başqa yerlərdən buraya köçürülmüş dörd-beş min adam da qazilərin qılıncının yemi oldu; quru da, yaş da qəzəb atəşi ilə yandırıldı. Qılıncdan qurtulanlar canlarının qorxusundan özlərini qalaya saldılar. Məhvedici dəstələr qalanı mərkəz kimi araya götürüb, üç gün ərzində mühasirədəkiləri elə ağır vəziyyətə saldılar ki, onlar aman deyə bağırdılar. Qullarağası Osman Çələbi və mühasirədəki altı yüz nəfərə yaxın adam aman alıb, bayıra çıxdılar. Qullarağası görüş zamanı qılıncla Toyğun bəy Qacarın çiyninə dəlicəsinə zərbə endirdi. Rumilərin hamısı qılınca əl ataraq, şahzadəyə və məclisdə olanlara hücum etdilər. Buna görə də [rumilərə qarşı] ümumi qətliam baş verdi və o camaatdan bir nəfər belə nicat tapmadı. Qazilər kama yetmiş şahın buyruğu ilə qalanı dağıdıb, hökmdarın ordusuna qoşuldular" (249).

Digər farsdilli mənbələrdə də Qars hadisələri ilə bağlı bəzi məlumatlara rast gəlmək mümkündür. Məsələn, "Rövzətüs səfəviyye" əsərində olan bir məlumata görə, Osmanlı qoşunları Çaldıran düzünə yaxınlaşanda Şah Təhmasib oğlu İsmayıl Mirzənin 5 min nəfərlik atlı nizəçilər dəstəsi ilə Qars istiqamətinə göndərdi. Bura Osmanlı qoşunlarının təchizat və təminat ehtiyatlarının toplandığı bir yer idi və İsmayıl Mirzəyə də tapşırıq veril-

mişdi ki, Qarsda Osmanlı qoşunları üçün toplanmış ərzaq və təchizat ehtiyatlarını məhv etsin. Bu zaman Qarsda toplanmış olan Osmanlı ehtiyatlarını Əli bəy Zülqədəroğlunun rəhbərliyi altında 8 min nəfərlik Osmanlı dəstəsi qoruyurdu. Tərəflər arasında qüvvələr nisbəti bərabər olmasa da, mənbənin verdiyi məlumata görə, müqəddəslərin şəfaəti ilə İsmayıl Mirzə bu döyüşdə üstün Osmanlı qoşun dəstəsinə qalib gəldi və orada mövcud olan ehtiyatlar məhv edilməklə, həm də çoxlu sayda qənimət ələ keçirildi. Bu qənimətlər arasında həm qiymətli əşyalar, həm silah, həm də çoxlu sayda cins atlar var idi. İsmayıl Mirzənin verilən tapşırığı uğurla yerinə yetirməsi və böyük qənimətlərlə geri qayıtması Şah Təhmasib tərəfindən çox böyük məmnunluqla qarşılandı. O, kiçik yaşda olan oğlunun belə bir qələbə əldə etməsindən çox sevindi və ona böyük nəvaziş göstərdi. Əldə edilən bu uğurla həm də Osmanlı qoşunlarına arxadan ciddi zərbə vurulmuş oldu (250).

"Təkmilətül-əxbar" əsərində də qeyd olunurdu ki, İsmayıl Mirzənin rəhbərliyi altında olan Şirvan qoşunu Qars qalasının təmir etməyə gələn Osmanlı qüvvələrinə zərbə vurmaq üçün həmin məntəqəyə göndərilmişdi: "Zəfər nişanlı bayraqlar Çaldıran yüksəkliyinə getdi. Nəvvabi-kamyab oradan İsmayıl mirzəni Şirvan qoşunu və bəzi əmirlərlə Qars qalasını təmir etməyə gələn düşmənlərin üstünə göndərdi. [Şah Təhmasib] özü xoş əhvali-[ruhiyyə] ilə düşmənlərin ölkəsinə yola düşdü. Xərpərt və Trabzon ətrafına qədər Pasin, Sarusu, Xünus, Əxlat, Ərzənrum, Tərcan, Bayburd, Ərzincan qələbə əsərli əsgərlər [tərəfindən] tapdalandı. Rüstəm Səyavuş hadisəsindən sonra Turan torpağında nə etmişdisə, onu etdilər. ...Şahın düşərgəsi Pasində olan vaxt Qarsı təmir etmək üçün gələnlərin hamısının üstünə düşdülər, qalib gələn İsmayıl mirzə və onun yanınca gedən əmirlər [gəlib] çatdılar. 6000 atlı olan o camaatdan özləri ilə 2000 kişi, qənimət və onların başçısı Əlaüddövlə Zülqədərin nəslindən olan Məhəmməd xan Zülqədəroğlunun kiçik qardaşı Əli bəyi də gətirdilər" (251).

Şah Təhmasib yalnız Qarsın təxrib edilməsi ilə kifayətlənmədi, Qars-Van gölü-Ərzrum bölgəsində olan məntəqələrin talan

edilməsini və dağıdılmasını davam etdirdi. Bu əməl də Osmanlı qoşunlarının mövqelərinin zəifləldilməsinə xidmət etməli idi və onun Osmanlı qoşunlarının hücumuna qarşı seçdiyi taktikanın davamı olmalı idi. Şah Təhmasib şübhə etmirdi ki, Əlqas Mirzənin Osmanlı himayəsində olması davam etdikcə, Səfəvilərə qarşı müharibələr də aradan qalxmayacaqdır. Ona görə də, Osmanlı qoşunlarına vurula bilən bütün ziyanları Şah Təhmasib məqbul sayırdı: "Belə düşünürdüm ki, nə qədər Əlqas onların əlindədir müharibə və fitnə aradan qalxmayacaqdır. Bizim bircə əlacımız vardı ki, o da Xandigarın ölkəsindən əlimizə keçən yerləri xarab edib, qarət edək və onların məhsullarını yandırıb məhv edək. Bir gün də bir yerdə dayanmayaq. O yerləri çölə döndərib viran edək ki, 10 günlük yolda heç bir abadlıq olmasın. Onların gedib-gəlməsi imkanı aradan qalxsın. Hamı bu tədbiri məsləhət bilib bəyəndi (252).

Qars qalasını təxrib edəndən sonra İsmayıl Mirzə sərəncamında olan qoşun dəstəsi ilə Səfəvi düşərgəsinə gəlib Şah Təhmasibin qoşunlarına qoşuldu. Onun ardınca Bəhram Mirzə də öz qoşun dəstəsi ilə Səfəvi düşərgəsinə yetişdi. Bu zaman o, Həmədan hakimi idi. Şah Təhmasib qərara aldı ki, Bəhram Mirzəni və İsmayıl Mirzəni onların sərəncamında olan qoşun dəstəsi ilə Bayburd istiqamətinə göndərsin və həmin ərazi də təxrib edilsin. Onların ardınca başqa bir qoşun dəstəsi Əxlata, digər biri isə Adilcəvaza göndərildi. Həmin dəstələrin də qarşısında qoyulan vəzifə göndərildikləri məntəqələrin təxrib edilməsi, ərzaq ehtiyatlarının məhvi idi. Şah Təhmasib özü isə qoşun dəstəsi ilə Xınıs və Pasin məntəqələrinə yürüş etdi. O, əvvəlcə Xınısı yandırıb-yaxdı və sonra da Pasinə istiqamət götürdü. Şah Təhmasib qoşunlarının yaxın ərazini təxrib edib viran qoymasının qarşısını almaq, o cümlədən Səfəvi şahını yaxalamaq məqsədi ilə Osmanlı sultanı Xınısa doğru irəliləməyə başladı və Xınıs çayı üzərindəki körpüyə qədər gəlib çıxdı. Lakin kifayət qədər minik heyvanları olmadığı üçün Osmanlı sultanı geri çəkilmək məcburiyyətində qalaraq Muşa yollandı. Bəhram Mirzə ilə İsmayıl Mirzə də tap-

şırılan vəzifənin icrasından sonra Pasinə gəlib yenidən Şah Təhmasiblə birləşdilər (253).

"Xınıs və Pasini yandırdıq. Pasində gözləyirdik ki, [görək] Xandigar nə fikirləşəcəkdir. Xəbər gəldi, Xandigar xaraba Xınısa gəldi. Biz Pasində oturmuşduq, bilirdik ki, onların atları tamamilə arıqlayıb zəifləmiş, onların ordusu qəhətlik çəkib, geri qayıtmışlar. Biz də oradan köç edib, Muş vilayətinə gəldik. Xəbər gəldi ki, Xandigar Bitlisdən keçdi. Biz də oradan dayandığımız yerdən irəli getdik" (254).

Şah Təhmasib tərəfindən digər istiqamətlərə göndərilmiş dəstələr də onlara verilmiş olan tapşırıqları lazımınca yerinə yetirə bildilər. O cümlədən Şahqulu sultan, Mahmud xan və Şahverdi bəy Keçəl Osmanlı qoşunlarının qarovula təyin edilmiş iki minlik dəstəsi üzərinə hücum etdilər, bu dəstənin xeyli sayda döyüşçüsünü məhv etdilər. Pirqulu bəy Əfşar isə Osmanlı qoşunlarının qapıqulu dəstələri üzərinə hücum çəkdilər, bu dəstənin də bir sıra döyüşçülərini, o cümlədən də onların alaybəyini əsir edərək Şah Təhmasibin hüzuruna gətirdilər (255).

Səfəvi-Osmanlı hüdudlarında Səfəvi qoşunlarının fəallıqları, sürətli hücumları və törətdikləri təxribatlar Osmanlı sultanı üçün doğrudan da ciddi bir başağrısına çevrilmişdi. Bu başağırısı elə təhlükəli bir hal almışdı ki, Sultan Süleyman İstanbula doğru hərəkətini təxirə salmalı və o ilin qışını da bölgədə keçirməli oldu. Bununla o çalışırdı ki, Səfəvi təhlükəsinə qarşı vaxtında qərar qəbul edə bilsin. O da bildirilir ki, əgər Osmanlı sultanı Təbrizi tərk etdikdən sonra bölgədə dayanmayıb İstanbula qayıtmış olsaydı, onda onun Səfəvi dövləti üzərinə başladığı ikinci yürüşü bütünlüklə uğursuzluğa düçar olmuş olardı. Səfəvi şahı iki dövlətin hüdudlarında itirilmiş əraziləri geri qaytarmaqla bölgədə öz üstün nüfuzunu bərqərar edə bilərdi. Yəni Osmanlı sultanı üçün bir növ uğurlu görünüşlə başlanan bu hücum kampaniyası osmanlılar üçün belə ağır bir duruma gətirib çıxarmışdı. Digər tərəfdən əgər Şah Təhmasib yetərli sayda qoşuna malik olsaydı, çox güman ki, görülən bütün tədbirlərə baxmayarq Osmanlı qoşunlarının vəziyyəti də başqa cür ola bilərdi.

Osmanlı mənbələrində ikinci vəzir Qara Əhməd paşanın rəhbərliyi altında olan Osmanlı qoşun dəstəsinin bölgədə olan Səfəvi qoşun dəstələrindən birinə ağır zərbə vurması haqqında məlumatlar vardır. Bildirilir ki, Səfəvi qoşunlarının Tərcan və Ərzincan ətrafında təxribat fəaliyyəti ilə məşğul olmasından xəbər tutanda Sultan Süleyman özünün ikinci vəziri Qara Əhməd paşanın rəhbərliyi altında yeniçəri və sipahilər dəstəsini irəli çıxardı ki, Səfəvi qüvvələrini tapıb onların qarşısını almağa çalışsın. Qara Əhməd paşanın dəstəsinin avanqardına rəhbərlik edən çərkəz soyundan olan Osman paşa adlı birisi verilən tapşırığın icrasına yollanan zaman təsadüfən Səfəvi qoşun dəstəsinin düşərgəsi ilə rastlaşmış və bu düşərgə üstünə qəfil bir basqın həyata keçirmişdi. Bu basqının daha da səmərəli olmasına nail olmaq üçün Osman paşa ətraf məntəqələrdən çoxlu sayda qab-qacaq toplatdırıb onları atların quyruğuna bağlatdırmışdı. Sürətli hücum zamanı bu qab-qacaqların yaratdığı səs-küy ciddi bir təhlükə gözləməyən Səfəvi qoşun dəstəsi daxilində böyük təlaş və vahimə yaratmışdı. Qızılbaş döyüşçülərində belə bir təsəvvür yaranmışdı ki, Osmanlı qoşunları bütün gücü ilə onların üstünə hücum çəkib. Bununla belə, qızılbaş döyüşçüləri müqavimət göstərməyə də çalışmış və hətta Osman paşanı da yaralaya bilmişdilər. Bu hücumun nəticəsi olaraq Səfəvi qoşunları Ərzincan və Bayburt ətrafını tərk edərək geri çəkilmişdilər (256).

Səfəvi qoşunları fəallıqlarının qarşısını almaq üçün Osmanlı sultanı da məqsədəuyğun saydığı bəzi qərarları qəbul etdi. Məsələn, Sultan Süleyman Ülamə Təkəli ilə Əlqas Mirzəni qoşun dəstələri ilə birlikdə hərəsini bir istiqamətə göndərdi ki, onlar Səfəvi qoşunlarının diqqətini özünə cəlb etsin və bununla bölgədə aparılan təxribat işlərinə də bir ara verilsin. Əlqas Mirzə 5 min nəfərlik bir qoşun dəstəsi ilə Kərkük və Şəhrizur yolundan keçməklə İraqi-Əcəm istiqamətinə, Ülamə Təkəli isə 12 min nəfərlik qoşun dəstəsi ilə Ərzrum tərəfə göndərildi. Bundan sonra Sultan Süleyman Bitlisdən adlamaqla Diyarbəkrə gəldi. Osmanlı mənbələrindəki məlumatlara görə isə Əlqas Mirzəyə çox böyük bir qoşun dəstəsi həvalə olunmuşdu ki, Qum, Kaşan və İsfahan

istiqamətində Səfəvi hüdudları içərilərinə irəliləməklə Osmanlı qoşunları üzərinə olan təzyiqləri bir qədər səngitsin. Amma o da bildirilir ki, Əlqas Mirzə Kərbəla ətrafında olarkən yenidən şiəlik məzhəbinə dönmüş və bununla Osmanlı sultanı yanında öz etibarını da itirməyə başlamışdı (257).

Ülamə Təkəlinin rəhbərliyi altında olan qüvvələrin aqibəti haqqında "Əhsənüt-təvarix" müəllifi belə yazırdı: "Sultan Süleyman işi ehtiyatlı tutmaq üçün Ülaməni, Ərzurum paşasını və Sivas paşasını yaxşı silahlanmış on üç min süvari ilə Ərzuruma göndərdi, özü isə Mərəş ölkəsinə hərəkət etdi ki, oradan özünü Diyarbəkrə salsın və çoxlu tüfəngçiləri qicdavul [təyin] etdi. Elə ki bu xəbər ali [hökmdarın] qulağına çatdı, o həzrət çoxlu ordu ilə onun ardınca sürətlə hərəkət etdi. Zəfər nişanlı məiyyətin gəlişindən öncə onlar Bitlis yolundan keçib özlərini Amidə çatdırdılar. Dinin pənahı olan şah, Əli sultan Tatıoğlunu yaxşı təchiz edilmiş iki min nizədar süvari ilə Əxlata, Gözəldərəyə və Adilcevaza basqın etməyə göndərdi. Dəniz kimi coşan, ildırım kimi gurlayan ordu Muş ölkəsini elə yandırdı ki, samandan və taxıldan bir əlamət qalmadı. Bu hadisə baş verərkən İmamqulu xəlifə Çəşmkəzəkli, Sultan Süleymanın yanından gələn bir çavuşu tutub islamın pənahı olan dərgaha gətirdi. O ərz etdi ki, Ülamə Tərcanda oturmuşdur. Tərifli xasiyyətə malik padşah o bəd əməlli düşməni məhv etmək üçün hərəkətə keçib, Sənin [yer adıdır] yolundan Tərcana irəlilədi. Sürətli yürüş edərək getdi və fələk rəftarlı əsgərlər dəstə-dəstə onun ardınca tələsdilər

... İki tərəfin dilavərləri bir-biri ilə yumruqlaşmadan öncə Ülamə arxasını çevirdi və iki tərəfin mübarizlərinin bellərindən qılınclarını çəkməsindən əvvəl qalxanını atdı. O, canının qorxusundan Tərcanı buraxıb qaçmağa üz qoydu və qaban kimi enişyoxuş bilmədi. Əzəmətli qazilər dəstə-dəstə ittifaq edib sağa və sola on günlük yol getdilər və qarət edib qənimət gətirdilər" (258).

Ülamə Təkəlinin ələ keçirilməsinə və layiqincə cəzalandırılmasına Şah Təhmasib xüsusi diqqət yetirirdi. Ona görə idi ki, Şah Təhmasib necə olursa-olsun Ülamə Təkəlinin ələ keçirilməsinə

və bunun üçün mövcud olan imkanlardan dərhal bəhrələnməyə çalışırdı. Ülamə Təkəlinin Tərcanda olması və onun ələ keçirilməsi tədbirləri haqqında Şah Təhmasib öz təzkirəsində də qısaca olaraq qeydlər etmişdi. O yazırdı: "...Biz hələ də Pasində idik. Xandigarın qoşununun atları əldən düşmüşdü. Qoşun içərisində aclıq hökm sürürdü. Ona görə də Xınısdan geri çəkildilər. Biz də oradan köçüb Muş vilayətinə getdik. Xəbər gəldi ki, Xandigar Bitlisi də keçmişdir. Biz də irəli getdik. Çəşmgəzəkli qorçular "dil" tutmaq üçün qabağa getmişdilər. Onlar iki nəfər türk çavuşunu yolda tutub gətirdilər. Onlar deyirdilər:

-Xandigar Ülaməyə hökm yazıb vermişdi ki, "biz Hamidə getdik", siz isə qar yağana kimi Tərcanda qalın. Sonra isə Azərbaycanda qışlaq edin.

Biz isə Əli sultan Tatioğluna 12 min qoşun verib göndərdik ki, Əxlat, Bitlis və Muş qalalarına od vurub yandırsın. Biz də Ülamə üzərinə yürüşə başladıq. Təsadüfən biz Tərcana çatmaqdan iki gün əvvəl paşa Bayburda, Ülamə isə Ərzincana getmişlərmiş. Biz əmr etdik bütün Tərcan və Bayburd ölkəsini yandırsınlar. Əmr etdik ki, qoşun böyüklərindən hər biri məscidə oturaraq məscidlərə toxunmağa qoymasınlar" (259).

Ülamə Təkəlinin ələ keçirilməsi üçün Şah Təhmasibin tapşırığına əsasən, Səfəvi qoşunlarının bir dəstəsi Osmanlı qoşunlarını izləməyə başladı. Lakin bir neçə gün yol getsə də bu dəstə Ülamə Təkəlinin olduğu Osmanlı dəstəsinə yetişə bilmədi. Ona görə də dəstə geri qayıtdı. Geri dönüşdə isə Səfəvi dəstəsi ətraf məntəqələri talan etdi ki, orada da Osmanlı qoşunları üçün hər hansı bir ehtiyat qalmasın. Bölgənin digər məntəqələri də Şah Təhmasibin göstərişinə əsasən Səfəvi qoşunlarının talanlarına məruz qaldılar. Bununla, qoşun rəhbərliyi həm Osmanlı qoşunları üçün ərzaq ehtiyatlarını məhv edir, həm də Osmanlı qoşunları tərəfindən dəymiş ziyanları qismən bərpa etməyə çalışırdılar. Mənbələrin birində bildirilir ki, Şahqulu sultan Əfşar və onun həmkarlarının səyləri ilə Əxlat əhalisinin mal-qarası əllərindən alınmışdı. Bu talanlar zamanı Səfəvi dəstələri 5 min baş at, 100 min baş qoyun və 50 min baş inək ələ keçirmişdilər (260).

Bayburdun yandırılması və talan edilməsi isə İsmayıl Mirzəyə tapşırıldı. 1548-ci il sentyabr ayının ilk günlərində İsmayıl Mirzə Bayburd ətrafında Osmanlı əmiri Məhəmməd paşa Təkəoğlunun rəhbərlik etdiyi qoşun dəstəsi ilə qarşılaşdı. Mövcud olan məlumatlara görə, Osmanlı dəstəsi bu qarşıdurmada yeniləcəyini hiss edərək geri qaçmaq yolunu tutdu. İsmayıl Mirzənin tapşırığına əsasən, qızılbaş döyüşçüləri onları izləməyə başladı. Bildirilir ki, bu təqib zamanı Osmanlı döyüşçülərindən 450 nəfər qətlə yetirildi. Bu xəbər Şah Təhmasibə artıq Ərzincan yaxınlığında olarkən verildi (261) və o da İsmayıl Mirzənin növbəti uğurunu məmnunluqla qarşıladı.

Ərzincan ətrafında baş verən hadisələri Şah Təhmasib belə xatırlayırdı: "...doğru və dəqiq məlumata əsasən, Əlqası Həmədan şəhərinə göndərmişdilər. Xandigar özü isə Xərbirt qalasına gəlmiş və Əhməd paşanı da 10 min atlı və 2 min tüfəngli ilə qabağa göndərmişdir ki, o da Keyfaya çatmışdır. Bu vaxt bizim əmirlər Bayburd və Ərzincanda idilər. Qorçulardan başqa heç kəs yox idi. Onlara dedim ki, fikriniz nədir? Bör-bör İbrahim ağa dedi:

-Məsləhət budur ki, biz köçüb Mamaxatuna gedək. Oradan adam göndərib, Bayburdda olan əmirləri yanımıza gətirdək. Habelə Ərzincanda olan əmirlərə də desinlər ki, qalanı yandırıb, sonra da bizim yanımıza gəlsinlər. 10 min nəfər qoşun qabağa göndərək ki, hərgah Əhməd paşa Keyfi qalasına gəlmiş olsa, onun üzərinə hücum etsinlər.

...Yenə də Məhəmməd ağa və İnaloğlu dedi:

-Biz Ərzincanın iki ağaclığına kimi gəlib çatdığımız halda, nə üçün oraya getməyək və orada olan taxılı yandırmayaq? Nə üçün Əhməd paşadan üz döndərək (onunla vuruşmayaq). Əgər Xandigar özü oraya gələ, biz Bayburd yolu ilə çıxıb gedərik.

Onların təklifinə əməl olundu. Biz Ərzincana getdik. Orada Osman paşa qabağa çıxıb qaravul göndərdiyimiz Zülqədəroğlunun dəstələri ilə vuruşmada məğlub oldu. Sonra Ərzincandan köçüb Bayburda getdik. ...Oradan Ərzruma gəldik" (262).

Şah Təhmsib sonra da Əmnikə və Çuxursəədə gəldi.

Həmin günlərdə Bəhram Mirzə tərəfindən də Ərzrum ətrafı yandırıldı, mövcud olan ehtiyatlar isə talan edildi. Bir sözlə, sərhəd bölgəsi ərazilərdə Səfəvi qoşunları kifayət qədər fəallıq nümayiş etdirdilər və nəticədə Osmanlı nəzarəti altında olan Adilcəvaz, Ərciş, Əhlət, Bitlis, Malazgirt, Yalanik, Pasinlər, Handirsk, Hamiri, Tərcan, Kələkit, Dənzik, Bayburt, Ərzurum, Ərzincan, Kemah və Ağşəhr qalaları yandırılıb talan edildi. Farsdilli mənəblərdə olan məlumatlara görə, sərhəd bölgəsindəki fəallıqları zamanı Səfəvi qoşunları böyük zəfərlər və qələbələr qazandılar, çox böyük miqdarda qənimətlər ələ keçirdilər, toplanmış bütün sərvət haqqında Şah Təhmasibə məlumat verildi. Bildirilir ki, Osmanlı qoşunlarının İraqi-Əcəmə yürüşü zamanı yerli əhaliyə dəymiş ziyanların əvəzi birə on qat artıqlaması ilə çıxarıldı və 20 min nəfərə yaxın Osmanlı döyüşçüsü məhv edildi. Baş verən döyüşlər zamanı şücaət göstərən və xüsusi fərqlənən Səfəvi əmirləri və döyüşçüləri Şah Təhmasibin səxavətli lütfü ilə qarşılaşdılar (263).

Osmanlı sarayı Səfəvi dövləti üzərinə yeni hərbi yürüşünü başlarkən gözləmədiyi bir nəticə ilə qarşılaşdı. Qarşıya qoyulan məqsəd Səfəvi dövlətini süquta uğratmaq olsa da, bu kampaniyanın sonu bütünlüklə Səfəvi qoşunlarının üstünlüyü şəraitində keçdi. Şah Təhmasib qüdrətli Osmanlı qoşunları qarşısında ona uğur gətirə biləcək bir taktikanı məharətlə tətbiq etdi və bunun nəticəsində Osmanlı qoşunlarını geri çəkilməyə məcbur edə bildiyi kimi, həm də Osmanlı səltənətinin şərq sərhədi boyunca olan ərazilərinə ciddi bir zərbə də vura bildi. Nəzərdə tutulmuşdu ki, Osmanlı dövlətinin şərq sərhədi boyunca yerləşən məntəqələrin və qalaların yandırılıb talan edilməsi Səfəvi hüdudlarının qorunması üçün Osmanlı potensialını zəiflətsin, Səfəvi sərhədləri yaxınlığında Osmanlı qoşunlarının və hərbi qüvvələrinin kök salması daha da çətinləşsin. Bölgənin təsərrüfatına güclü zərbə vurulması da burada Osmanlı qoşunlarının təminat və təchizatını kifayət qədər çətinləşdirə bilərdi. Bu isə öz növbəsində bölgədən Səfəvi hüdudlarına hərbi yürüşlər edilməsini məhdudlaşdıra bilərdi.

Burada diqqəti cəlb edəcək başqa bir məsələ isə Osmanlı qoşunlarının Osmanlı hüdudları daxilində hərbi təşəbbüsü əldən verməsi idi. Düşünülmüş taktikanın Şah Təhmasib tərəfindən məharətlə tətbiq edilməsi Osmanlı qoşunlarını çox ağır bir çərçivəyə saldı və bu qoşunlar malik olduqları potensialı ortaya qoya bilmədilər. Səfəvi şahının tətbiq etdiyi taktika Osmanlı qoşunlarının parçalanmasına, səpələnməsinə səbəb oldu ki, bu da onların top və tüfənglərinin səmərəli istifadəsinə də mane oldu. Şah Təhmasibin bu döyüşlərin gedişində əldə etdiyi uğurlar hətta Avropa hakimləri tərəfindən də maraqla qarşılanmışdı. Onlar Səfəvi qoşunlarının bu uğuruna Avropa ölkələri üçün real təhdid sayılan Osmanlı dövlətinin zəiflədilməsi şansı kimi də baxırdılar (264).

Şah Təhmasib Osmanlı hüdudlarına yürüşünü başa çatdırıb 1548-ci il noyabr ayının 3-də Üçkilsəyə gəldi. Onun bura gəlməkdə məqsədi həm qışı Üçkilsə ətrafında keçirmək, həm də Şirvan və Şəkidə Səfəvi hakimiyyətini daha da möhkəmləndirmək idi. Bununla bağlı o, İsmayıl Mirzəni Abdulla xanla və Göyçə sultanla birlikdə Şirvana göndərdi. Bundan əlavə, Şah Təhmasibin tapşırığı ilə Sevindik bəy Qorçubaşı da 2500 nəfərlik qorçu ilə Şəkiyə yollandı. Sevindik bəy Qorçubaşı ona tapşırılan vəzifəni uğurla yerinə yetirdi. İsmayıl Mirzə də Şirvanda Səfəvi hakimiyyətini bərqərar etdi. Amma İsmayıl Mirzə yenidən Şirvan hakimi təyin edilmədi. Şah Təhmasib onun yerinə Abdulla xan Ustaclını təyin etdi. Sonra Şah Təhmasib Qarabağa yollandı və Bərdədə düşərgə saldı. O, qışı burada keçirmək istəyirdi. Həmin günlərdə Şah Təhmasib məlumat aldı ki, İraqi-Əcəmə gəlmiş Əlqas Mirzə orada Bəhram Mirzənin ailəsini və köçünü əsir edib özü ilə aparmışdır. Əlqas Mirzə yalnız bununla kifayətlənməmişdi. O, yolu üzərində olan məntəqələri çapıb-talayır, insanlara zülm edirdi. Türkdilli tarixi ədəbiyyatda olan məlumata görə, Əlqas Mirzə həm də digər qardaşı Sam Mirzənin, habelə bir sıra digər tanınmış və imkanlı əmirlərin ailəsini və ev-eşiyini talan etmişdi. Bildirilir ki, bu talanlar zamanı Əlqas Mirzənin təsəvvür edə bilməyəcəyi miqdarda sərvət ələ keçirilmişdi. Onların ara-

sında çoxlu sayda qiymətli daşlar, əşyalar, geyimlər, daş-qaşla bəzədilmiş silah əşyaları, cəvahirat, qiymətli cildlərə malik təfsir və hədis kitabları və s. var idi. Əlqas Mirzə ələ keçirdiyi bu qiymətli əşyaların bir hissəsini vəziri Əzizullahi Şirvani vasitəsilə Osmanlı sultanına göndərmişdi. Osmanlı sultanı qışlaq üçün Hələbdə dayandığı vaxt həmin qiymətli əşyalar ona çatdırılmışdı. Mövcud olan məlumata görə, Sultan Süleyman ona göndərilmiş qiymətli hədiyyələrə görə çox məmnun olmuşdu və öz sevincini Əzizullahi Şirvaniyə faxirə xələt verməklə ifadə etmişdi. Osmanlı sultanı da öz növbəsində Əlqas Mirzəyə qiymətli töhfələr göndərdi. Sultan hədiyyələri arasında qiymətli daşlarla bəzədilmiş qılınc, padşahlıq qiyafəsi və s. var idi. Osmanlı sultanından alınan məktub isə Əlqas Mirzəni yolu üstündə olan digər məntəqələrin də talanmasına təşviqləndirdi. Bu xəbərlər Şah Təhmasibin planlarını dəyişməli oldu və Əlqas Mirzəyə zərbə vurulması və onun tərəfindən mövcud ola biləcək təhlükənin aradan qaldırılması üçün o, Ərdəbil-Tarom-Xalxal marşrutu ilə Qəzvinə doğru hərəkətə başladı (265).

Əlqas Mirzənin yenidən fəallaşması ilə bağlı Şah Təhmasib belə yazırdı: “İsmayıl mirzəni Şirvana göndərdim. Qorçubaşını da 1500 nəfər qorçu ilə birlikdə Şəkiyə göndərdim ki, oranı alsın. Bəhram Mirzəyə, İbrahim xana, Kirman, İraq və fars əmirlərinə icazə verdim ki, hər kəs öz ölkəsinə gedə bilər. Mən isə Qarabağa getdim ki, qışı orada keçirim. Bu zaman dalbadal xəbər gəldi ki, Əlqas İraqa gedib, Çıraq sultanla Bəhram mirzənin köçünü qarət edib, onların kənizlərini öz adamlarına bölüşdürmüşdür. Eyni zamanda Bəhram mirzənin iki oğlunu da özü ilə aparmışdır. Sonra o, belə qərara gəlmişdi ki, bu oğlanları Xandigarın yanına aparmasın. Çünki o bu uşaqları Xandigarın əlinə versəydi, o, Əlqasa əmr edəcəkdi ki, bunları öldürsün. Belə olduqda Bəhram mirzə də qisas almaq üçün Əlqasın oğlanlarını öldürərdi. Ona görə də Əlqas Xandigarın yanına getməyi məqsədəuyğun bilmədi” (266).

Əlqas Mirzənin Həmədan istiqamətinə yollanması Səfəvi qoşunlarının hücumlarının səngidilməsi üçün Sultan Süleymanın

əl atdığı bir taktika idi. O, güman edirdi ki, Əlqas Mirzənin Səfəvi hüdudları içərilərinə yürüş etməsi Şah Təhmasib qüvvələrinin müəyyən qisminin geri göndərilməsinə və bununla da Səfəvi qoşunlarının Osmanlı qoşunları üzərinə təzyiqinin zəifləməsinə yol aça bilər. Bəzi məlumatlara görə, Əlqas Mirzənin rəhbərliyi altına 5 min nəfərlik atlı dəstəsi verilmişdi və o, Kürdüstandan keçməklə Həmədana tərəf hərəkətə başladı (267). Bir başqa məlumata görə isə, Əlqas Mirzənin rəhbərliyi altında 12 min nəfərlik bir qoşun dəstəsi var idi (268).

"Təkmilətül-əxbar"da olan məlumata görə isə Əlqas Mirzənin Həmədana tərəf yürüş etməsi elə onun öz təşəbbüsü idi. "[Əlqas] Xandigardan icazə istədi ki, mühasirəni dəf etmək üçün Bağdad və Kürdüstan tərəfdən özünü Əcəm İraqına çatdırıb, İsfahana qədər getsin, fürsətdən istifadə edib Qızılbaşın köç evini ələ keçirsin və İraqı işğal etsin. Xandigar, vəziyyət tələb etdiyi üçün, ona icazə verir və bunu nəzərdə tutur ki, əgər [Əlqas] Əcəm İraqı sərhəddinə getsə və bu xəbər nəvvabi-ali [Şah Təhmasibə] çatsa, [o] , həyəcanlanar və narahat olub Rumdan geri qayıdar. Əlqas şəvval [ayının] 3-də (5 noyabr 1548) Bağdad yolu ilə Həmədana gəlib, Bəhram mirzə və Çıraq sultanın ordusunu qarət etdi. Bəhram mirzənin kənizlərini öz yaxın adamlarına verdi. Bəhram mirzənin oğlu Bədiüzzaman mirzəni özü ilə götürüb, Qum və Kaşana yola düşdü" (269).

Əlqas Mirzə Həmədandan Quma doğru hərəkət edərkən rastlaşdığı qoşun düşərgələrini də talayıb əldə etdiyi qənimətlərin sayını daha da artırdı. Mənbələrdə onun Qum qalası həndəvərində müqavimətlə rastlaşması haqqında məlumat vardır. Həmin vaxt Qum hakimi Şahqulu bəy idi və o, Şah Təhmasiblə birlikdə hərbi yürüşdə iştirak etdiyi üçün Qumun müdafiəsi Şahqulu bəyin vəziri Asəfcah mirzə Ataullanın üzərinə düşmüşdü. Asəfcah da qala daxilində olan qüvvələri səfərbər edərək müqavimət yolunu tutdu. Bir neçə günlük mühasirədən sonra Qumun Əlqas Mirzə düşərgəsinə yaxın olan Savə darvazası ətrafında yaşayan bəzi adamlar təslim olmağı məqsədəuyğun saydılar. Onlar öz adamlarını Əlqas Mirzənin yanına göndərməklə, həm də darvazaların

açılmasına köməklik etdilər. Əlqas Mirzə də bu yolla Qumu öz nəzarəti altına aldı. Əlqas Mirzə qoşun dəstəsi ilə bir aya yaxın Qumda qaldı, Qum əhalisini talayıb var-yoxdan çıxardı. Məlum olanda ki, Qumda artıq talanası bir sərvət qalmayıb onda o, bir dəstəni Reyin talanmasına yolladı, özü isə Kaşana üz tutdu və bu şəhəri də ələ keçirdi (270).

Kaşandan sonra Əlqas Mirzə İsfahana tərəf hərəkətə başladı. Onun niyyəti bu şəhəri də tutmaq idi. Bu şəhərin ələ keçirilməsi Əlqas Mirzə üçün öz nəzarəti altında olan ərazilərin genişləndirilməsi baxımından, həm böyük sərvətlər ələ keçirilməsi baxımından, həm də Şah Təhmasibə təzyiq göstərilməsi baxımından əhəmiyyət kəsb edirdi. Məlumdur ki, Osmanlı qoşunlarının Səfəvi dövləti üzərinə yeni hərbi yürüşü başlayanda Şah Təhmasib öz ailəsini, hərəmxanasını və yaxınlarını İsfahana köçürmüşdü. Əlqas Mirzə İsfahanı nəzarət altına almaqla Şah Təhmasibin ailəsini və hərəmxanasını ələ keçirə bilsəydi, Şah Təhmasibə təzyiq göstərməklə öz iradəsini də ona qəbul etdirə bilərdi. Amma İsfahan hakimi mövcud imkanları səfərbərliyə alaraq qalanın müdafiəsini təşkil etdi və Əlqas Mirzənin istəklərinin həyata keçməsinə imkan vermədi. Bəhram Mirzənin yaxınlaşması xəbərini alanda isə Əlqas Mirzə İsfahan ətrafını tərk edərək cənuba doğru geri çəkildi.

"O əsnada onun mülazimləri Ərzincan yürüşündən ayrılan və öz ölkələrinə getməkdə olan şah əmirlərinin adamlarından [bəzilərini] tutub onun yanına gətirdilər. Həmin əsirlər dedilər ki, dinin pənahı olan şah həzrətləri məiyyət və ordu ilə yaxınlığa çatmışdır. Buna görə də [Əlqasın] qəlbinə tamamilə qorxu hakim kəsildi və o, İsfahana yollandı. Elə ki Əlqas mirzə müqayisəyəgəlməz qoşunlarla xarabalıq törədə-törədə İsfahan ətrafına gəldi, həmin diyarın böyükləri Şah Təqiəddin Məhəmməd və onun qardaşı Mirmira o nahiyələrin əhalisini şəhərə gətirib mükəmməl bir tərzdə qala müdafiəsi üçün lazım olan hazırlıqları gördülər. Əlqas o xəyalda idi ki, onlar döyüşsüz və vuruşsuz darvazaları açsınlar. Halbuki şəhərlilər bu fikirdən çox uzaq idilər və günbəgün bürclərin və divarların istehkamını artırırdılar. Müxaliflər

ordusu döyüşə gəldi. İsfahanlılar ölüm ahəngli tüfəng zərbələri ilə o güruhu “Dağlar didilmiş yun kimi olacaqdır vəziyyətinə saldılar (darmadağın etdilər). Təxminən bir neçə gün o rəzillər şəhər ətrafında oturdular. Şah Təqiəddin Məhəmməd, Mirmiran, böyüklər və əyanlar dilavərlik meydanının piyadaları ilə ittifaqda, cah-calal sahibi olan Ulu Tanrının yardımı ilə şəhəri qorudular. O əsnada xəbər yetişdi ki, Bəhram mirzə və İbrahim xan bir dəstə dilavərlə birlikdə hərb təndirini alışdırmaq əzmi ilə Kaşan şəhərinə çatmışlar. Buna görə də Əlqas Farsa yollandı və Yəzdxas qalasını tutub qətliam törətdi. Oradan Şiraza yola düşdü. Bəndi-əmir körpüləri çəkilmiş olduğundan o, mümkün olan ən yaxın və ən yaxşı yolla Ağqalanın (Qəleyi-Sefid) ətəyinə getdi. O zaman İbrahim xanın qardaşı Cüneyd bəy zülqədərlərin ailəsi və köçləri ilə orada idi. Onlar bürcləri və divarları möhkəmlətdilər və müdafiə olunmağa qərar verdilər. Əlqas orada beş gün qaldı və qalanı tutmağın qeyri-mümkün olduğunu gördükdə köç edib Behbehana yönəldi. Şulistan və Məməsəni başçıları təxminən min nəfər cəmləşdirdilər və Cüneyd bəyin yanına adam göndərib [soruşdular] ki, məsləhət nədir? Cüneyd bəy dedi ki, bu gün o qaragün qövmə müqavimət etməyin, sabah biz də hazır olub oraya gələrik və birlikdə nifaq əhlini dəf etməyə gedib igidlik və mərdanəlik göstərərik. [Lakin] onlar səbirsizlik edib iki dəstəyə ayrıldılar. Bir dəstəsi onların (Əlqasın) ordusunun ardınca getdilər və çoxlu dəvələr və mallar ələ keçirdilər. Digər dəstə [isə] hamar zəmində sərfəsiz bir şəkildə özlərini onlara vurdular və o pərişan qövmdən təxminən otuz nəfəri qətlə yetirdilər. Axırda Əlqas yeddi yüz müsəlləh süvari ilə köməyə gəlib onları məğlub etdi və onlardan qırx nəfəri öldürdü. Qalanları fərar etdilər. [Əlqas] daha sonra talana getmiş dəstənin ardınca yollanıb, onları da məğlub edərək öz qənimətlərini [onlardan] aldı. Elə ki [Əlqasgili] Behbehana çatdılar, o diyarın adamları fərar etdilər. Oranı yandırıb zilhiccə ayında (yanvar, 1549) Şüştərə gəldi. Onun əsgərləri darvazaya həmlə etdilər. Əmir Zeynəddin Əli və Əmir Əbdülvəhhab şəhərdən çıxdılar və qılınc yarası ilə o tozanağı yatırdılar. Əlqas yəqin bildi ki, bu iş onun iddiasına uyğun şəkildə sona

çatmayacaqdır. Bu səbəbdən Dizful tərəfə getdi və orada da bir iş görə bilməyib Bayat qalası yolundan Bağdad hüduduna getdi" (271).

Bu məlumatdan göründüyü kimi, Şüştəri almaq da Əlqas Mizəyə nəsib olmadı. Çünki Şüştər hakimi və Şüştər əhalisi Şah Təhmasibə sədaqət nümayiş etdirdilər və qalanın Əlqas Mirzəyə təhvil verilməsinə razı olmadılar. Bir neçə gündən sonra Kuhkələviyyədən Məhəmməd xan Əfşarın rəhbərliyi altında bir qoşun dəstəsi Şüştərin köməyinə gəldi və bununla bu qalanın müdafiəsi daha da gücləndi. Ona görə də Əlqas Mirzə Şüştərdən əl çəkərək Dizfula, oradan da Bağdada yollandı.

Əlqas Mirzənin adları çəkilən bir sıra məntəqələri ələ keçirməsi Şah Təhmasibin təşviş və narahatçılığına yol açdı. Onun rəhbərliyi altında Osmanlı qoşunlarının Həmədana qədər irəliləməsi yalnız bölgəyə fəlakət gətirmədi. Əlqas Mirzənin bu yürüşü həm də hərbi-taktiki baxımdan müəyyən narahatçılıqlar doğurdu. Çünki Osmanlı qoşunlarının toparlandığı halda Səfəvi qoşunlarının iki istiqamətdən, həm Osmanlı hüdudları daxilindən Sultan Süleymanın rəhbərlik etdiyi qoşunların, həm də Səfəvi hüdudları daxilində Əlqas Mirzənin rəhbərlik etdiyi qoşunların hücumları altına düşməsi təhlükəsi yarana bilərdi. Vəziyyətin belə təhlükəli hal almasına yol verməmək üçün Şah Təhmasibin bir sıra əyanları ona Şirvan vilayətinin yenidən Əlqas Mirzəyə verilməsini təklif etdilər. Güman edilirdi ki, öz hakimiyyət iddialarını təmin etdikdən sonra Əlqas bəlkə rahatlaşıb sakitləşsin. Şah Təhmasib yazırdı ki, Əlqasib hələ Şüştərdə ikən ona barışıq məktubu yazıb göndərmişdi. Onun ətrafının Şirvanı yenidən Əlqas Mirzəyə vermək təklifini eşidəndə Şah Təhmasib kədərləndi və göz yaşlarını da saxlaya bilmədi. O yenə ümidlərini əmirəlmömininə bağladı və onun şəfaətinə pənah apardı. Mövcud olan təhlükənin aradan qaldırılması, ümumiyyətlə Əlqas Mirzənin ələ keçirilməsi üçün Şah Təhmasib dərhal hərəkətə keçmək qərarı verdi (272). Şirvan hakimliyinin yenidən Əlqas Mirzəyə tapşırılması özlüyündə risqli bir məsələ idi. Çünki Osmanlı sarayı ilə yaxın münasibətlərə malik olan Əlqas Mirzənin sonradan Şirvan

hakimi kimi, yenidən Osmanlı himayəçiliyinə meyl etməsi Şah Təhmasibi bir daha mürəkkəb vəziyyətə sala bilərdi.

Şah Təhmasib yazırdı ki, Əlqas Mirzə Bağdada çatandan sonra da barışıq əldə edilməsi məqsədilə ona məktub göndərmişdi. Əlqas Mirzənin Şah Təhmasiblə barışıq niyyətinə düşməsi və bunun üçün yollar araması Osmanlı mənsublarına da məlum olmuşdu. Bu isə Əlqas Mirzənin həm də Osmanlı sultanı yanında etibardan düşməsinə gətirib çıxardı. Hətta Əlqas Mirzənin ətrafında olan Osmanlı əmirləri və döyüşçüləri də onun qətiyyətsiz hərəkətlərini artıq qəbul etmirdilər. Əlqas Mirzənin kifayət qədər qətiyyətsiz olması, Səfəvi daxilində hər hansı bir nüfuza malik olmaması və Səfəvi daxilində cərəyan edən proseslərə təsir etmək gücündə olmaması Osmanlı sarayına da aydın olurdu. Bütün bu fikirlər Osmanlı sultanına da çatdırılırdı. Osmanlı əmirləri hətta Osmanlı-Səfəvi hüdudlarında baş verən uğursuzluqların günahını da Əlqas Mirzədə görürdülər. Şah Təhmasibin yazdıqlarından belə bir qənaətə gəlmək olar ki, Əlqas Mirzə Bağdadda olarkən artıq Sultan Süleyman tərəfindən onun qətli fərmanı verilmişdi. Osmanlı sarayının baş vəziri Rüstəm paşa Bağdad hakimi Məhəmməd paşaya göndərdiyi məktubunda Əlqas Mirzənin ya öldürülməsi, ya da onun qovulub Osmanlı hüdudlarından çıxarılması barəsində göstəriş verdi. Həm də tələb olundu ki, Əlqas Mirzə Bağdadda qətlə yetirilməsin ki, burada onun qətli müəyyən narahatçılıqlara səbəb ola bilər. “Rum böyükləri anladılar ki, onun əlindən bir iş gəlmir və onun o vilayətdə qalması qarışıqlığa və fəsada, şəhərlərin əmin-amanlığının pozulmasına səbəbdir və [onlar] onu müxaliflikdə ittiham edərək, Sultan Süleymanı onu (Əlqası) dəf etməyə inandırdılar. Xondgar onu ələ keçirmək üçün üzərinə böyük bir qoşun göndərdi. Rumilər qəfildən onun ordusuna hücum etdilər. Əlqas mirzə təşvişə düşərək, o vilayətdən bayıra atıldı və kiçik bir dəstə ilə Ərdəlan ölkəsinə gəldi” (273).

Osmanlı sultanında hətta belə bir şübhə də yaranmışdı ki, öz qarşısına qoyduğu niyyətlərə yetişə bilməyən Əlqas Mirzə qərar tutduğu Bağdadda hakimiyyəti ələ keçirmək fikrinə düşə bilər. Mənbələrdə olan məlumata görə, Osmanlı sultanı hətta Əlqas

Mirzənin yanına öz elçilərini göndərdi. Həmin elçilər vasitəsi ilə ona çatdırıldı ki, Əlqas Mirzə iki seçimdən birini etməlidir: ya İraqi-Əcəmdə ələ keçirdiklərinin hamısını Osmanlı sarayına göndərməli və Osmanlı sarayında onun sədaqətinə olan şübhə aradan qalxmalıdır, ya da Osmanlı hüdudlarını tərk etməli və istədiyi istiqamətə getməlidir. Osmanlı sultanı İraqi-Əcəmdə Əlqas Mirzənin əlinə keçənlər deyəndə daha çox Bəhram Mirzənin övladını nəzərdə tuturdu. Əlqas Mirzə dərhal bu təkliflərin heç birini qəbul edə bilmədi. Lakin ona əyan idi ki, bu seçimlərdən birini etmək məcburiyyətindədir. Belə bir gərgin vəziyyətdə Əlqas Mirzə Şəhrizur adlanan məntəqəyə yollandı və bir müddət orada qaldı. Həmin məntəqədə olarkən Əlqas Mirzə düşdüyü vəziyyətdən nicat tapmaq üçün Hindistana qaçmaq və ya da ətrafda mövcud olan münasib qalalardan birini ələ keçirərək orada möhkəmlənmək fikrinə düşdü. Onun ələ keçirilməsinə çalışan Şah Təhmasib isə İmam Rza türbəsinin xadimi Əmir Əbdüləzimi Əlqas Mirzənin yanına göndərdi və ona olan xoş münasibətini çatdırdı. Amma Əlqas Mirzə öz hərəkətləri ilə Şah Təhmasibə qarşı elə bir hörmətsizlik və günahlara yol vermişdi ki, qardaşının bu təklifini qəbul etməyə üzü olmadı. Yəni o, asiliyini yerə qoyaraq Şah Təhmasibin yanına qayıda bilmədi. O biri tərəfdən isə Sultan Süleyman biləndə ki, Əlqas Mirzə iki dövlətin sərhəd bölgəsində dayanmaqla oradan uzaqlaşmaq istəmir, onda onun ələ keçirilməsi üçün böyük bir qoşun dəstəsi göndərdi. Əlqas Mirzə ya Osmanlı hüdudlarını tərk etməli, ya da tutularaq Osmanlı sarayına gətirilməli idi. Mənbələrdə bildirilir ki, Əlqas Mirzə sərəncamında olan qoşun dəstəsi ilə onun üstünə gəlmiş Osmanlı dəstəsi ilə döyüşə girdi. Lakin qüvvələr nisbəti bərabər olmadığı üçün Əlqas Mirzə ağır döyüşdən sonra, yanında qalmış çox az qüvvə ilə həmin məntəqədən uzaqlaşa bildi. O, min bir çətinliklə özünü Sürxab Ərdəlanın hakim olduğu Mərivan qalasına çatdırdı. Bununla, Əlqas Mirzə Osmanlı sultanının təhlükəsindən nicat tapa bildi. Lakin Şah Təhmasibin təqibindən isə xilas ola bilmədi. Mənbələrdə bildirilir ki, Sürxab Ərdəlan onu qonaqpərvərliklə qarşıladı və orada olduğu müddət ərzində Əlqas

Mirzəyə lazımi xidmət göstərildi. Sürxab Ərdəlan məktub yazaraq Əlqas Mirzənin onun yanına gəlməsini Şah Təhmasibin dərgahına çatdırdı. Bəzi məlumatlara görə, Əlqas Mirzə əsir etdiyi Bəhram Mirzənin oğlu Bədiüzzaman Mirzəni də Şah Təhmasibin yanına göndərdi və onun vasitəsi ilə bağışlanmasını xahiş etdi. Şah Təhmasib isə Əlqas Mirzənin harada olmasını bilən kimi Bəhram Mirzənin, Şahqulu bəy Möhürdarın və İbrahim Zülqədərin rəhbərliyi altında onun tutulub gətirilməsi üçün 20 min nəfərlik qoşun göndərdi. Şah Təhmasib eyni zamanda Sürxab Ərdəlana məktub göndərdi və ondan tələb etdi ki, Əlqas Mirzəni yanında saxlasın, Bəhram Mirzə gələndən sonra onların görüşməsinə imkan yaratsın və eyni zamanda ona mümkün olan nəvazişləri göstərsin (274).

Əlqas Mirzə öz təhlükəsizliyinə təminat almaq üçün bacısının həyat yoldaşı və Nemətulla təriqətinin rəhbəri olan Şah Nemətulla Yəzdini onun yanına göndərilməsini və Şah Nemətulla tərəfindən onun toxunulmazlığına zəmanət verilməsini xahiş etdi. Bəhram Mirzə qoşun dəstəsi ilə Sürxab qalası ətrafında olanda Şah Nemətulla Yəzdi qala daxilinə yollandı. O, əvvəlcə qala hakimi ilə görüşdü və sonra da onlar birlikdə Əlqas Mirzənin yanına yollandı. Şah Nemətulla Yəzdi də Şah Təhmasibin adından ona toxunulmayacağını vəd etdi. Əlqas Mirzə bu sözlərə inandı və o, qaladan çıxaraq Şah Nemətulla Yəzdinin müşayiəti ilə Bəhram Mirzənin yanına gəldi, onunla görüşdü. Bəhram Mirzə də Şah Təhmasibin adından onun həyatına toxunulmayacağına zəmanət verdi. Bundan sonra isə məsləhət bilinən vaxtda onlar Şah Təhmasibin dərgahına yollandılar. Əlqas Mirzə 1548-ci il oktyabr ayının 12-də Şah Təhmasibə təhvil verildi (275).

Bir məlumata görə, Şah Təhmasib əvvəlcə Əlqas Mirzəni alçaldıcı bir şəkildə öz düşərgəsinə gətirmək istəyirdi. Amma bacısı Sultan bəyimin xahişi ilə o, bu qərarından əl çəkdi. Bununla belə, Əlqas Mirzə heç də istəkli qonaq kimi qarşılanmadı. Şah Təhmasibin əmri ilə onun qolları çarpaz şəkildə

bağlandı və sonra da arıq və xəstə bir atın üstündə düşərgəyə gətirildi (276).

Bir başqa məlumata görə isə, Şah Təhmasibin düşərgəsinə yaxınlaşanda Əlqas Mirzəni bir ulağın üstünə otuzdurdular, başına uzun bir papaq geyindirdilər. Bu papağın dövrəsinə xoruz lələkləri, tülkü və ayı quyruqları sancılmışdı. Əyninə xüsusi olaraq onun üçün tikilmiş birrəngli əba geyindirdilər. Əlqas Mirzənin məsxərə edilməsi üçün onun ətrafına musiqiçilər düzdürüldü və bu musiqiçilər də tünbək, dəf, surna, çəğanə və sənc səsləndirməklə ətrafdakılarn diqqətini onun üzəinə cəmləşdirdilər. Bir neçə gündən sonra isə onun geyimləri dəyişdirildi və Şah Təhmasibin dərgahına aparılmazdan əvvəl Əlqas Mirzəyə şahzadələrə layiq olan qiymətli paltarlar geyindirildi. Belə bir libasda Əlqas Mirzə Şah Təhmasibin görüşündə oldu. Şah Təhmasib ona belə müraciət etdi: "Ey həzrət! Bizim tərədən Sizə nə pislik dəydi ki, səbəbsiz yerə bu zavalsız dövlətdən üz döndərdin, bu xanədanın düşmənlərinə birləşdin və nə qədər günahsız insanların qətlinə və məhvinə səbəb olmaqla mənim də həyatıma qəsd etmək istədin? Əlhəmdülilah ki, çatmalı olduğun layiqli cəzaya yetmisən". Bildirilir ki, Əlqas Mirzə bu sözlərin qarşısında sükut elədi, gözlərini yerə dikdi və xəcalət üzündən bir kəlmə də danışmadı. Bu mərasimdə iştirak edən bir sıra Səfəvi əmirləri belə düşünürdülər ki, Şah Təhmasib yəqin ki, elədiklərinə baxmayaraq Əlqas Mirzənin günahlarını bağışlayacaq və onun əvvəlki nüfuzunu bərpa edəcəkdir. Buna görə bu əmirlər hətta narahatçılıq da keçirməyə başladılar. Amma Şah Təhmasibin qərarı başqa oldu və o, Əlqas Mirzəni Qəhqəhə qalasına sürgün etdi (277).

"Tarix-i aləmara-yi Abbasi" əsərində Şah Təhmasiblə Əlqas Mirzənin son görüşü belə təsvir olunmuşdur: "[Əlqas] hökmdarın yanına gələn kimi cənnətməkan şah həzrətləri cəvahir yağdıran sözlərlə ona buyurdular:

- Ey mənim məhəbbətsiz qardaşım! Mən sənə nə pislik etmişəm ki, ata nəslindən üz çevirdin, özünü qüdrət zirvəsindən rəzalət və alçaqlıq quyusuna atdın, düşmənə qoşuldun, bu qədər fitnə-fəsada və qan tökülməsinə səbəb oldun?! [Əlqasın] xacalət

və utanmaqdan savayı cavabı yox idi. Başını peşmanlıqla aşağı salıb, təəssüf etdi. Cənnətməkan şahın qardaşlıq damarı hərəkətə gəldi, ona rəhm etdi və onun qanından keçdi. Amma qızılbaş tayfaları arasında fəsad törətdiyinə görə [Əlqas] daha etimada layiq deyildi. Hörmətli sufi təbəqəsinin ağsaqqalları onun xilas olması ilə razı deyildilər. Cənnətməkan şah camaatı razı salmaq üçün [Əlqası] Qəhqəhə qalasına göndərdi ki, orada qalsın. Qərara alındı ki, onun oğlu Sultan Əhməd mirzə də atası ilə həmin qalada olsun. Axırda Sam mirzə və onun oğlunun da yeri o qalada oldu. Hər dörd padşahzadənin ömrü o qalada sona çatdı. Xülasə, haqqı bilməyən o kəm ağıllı [Əlqasın] törətdiyi o böyüklükdə fitnə uğurlu taleyin gücü və mübarək bəxt ulduzunun yardımı ilə aradan qalxdı, onun üsyan və tüğyan atəşi də Allahın buludunun damcıları ilə söndü" (278).

Şah Təhmasib öz təzkirəsində Əlqas Mirzə ilə son görüşlərini belə xatırlayırdı: "…Adı çəkilən seyidlərin pənahı [Şah Nemətulla] əmirlərlə birlikdə gedib onu gətirdilər.

Bu vaxt şükr səcdəsi etdim. Allaha şükr olsun ki, mən Əlqası öz ağam həzrət Əmirəlmöminin, möminlərin imamı, Allahın qalib şiri, Əmirəlmöminun Heydər, Əli ibn Əbutalibə - ona salam olsun – tapşırmışdım, onu tutub bu halda mənə tapşırdı.

Mənim qarşıma gəldikdə dedim:

-Gördün ki, mənim ağam sənin köməkçindən güclü idi və səni yenidən mənim yanıma göndərdi. Başqa söz demədim.

Xülasə, bir neçə gün mənim yanıma gətirmədilər. Bir gün məsciddə idim, ora gəldi, dedim:

-Nə qədər ki, mənimlə dost idin şərab içmirdin və yaramaz işlər görmürdün. Düşmən olduqdan sonra yaramaz işlər görməyə başladın. Beləliklə, şəni yüksək olan Allaha da düşmən oldun.

Xülasə, bir neçə gündən sonra dedim ki, mənlik iş yoxdur. Daim fikirli idi. Onu İbrahim xan və yüzbaşı Həsən bəylə qalaya göndərdim. Onlar onu Ələmut qalasına aparıb həbs edərək gəldilər. 6 gündən sonra qalada onun keşiyini çəkənlər səhlənkarlıq edirlər. Orada olan adamların iki-üç nəfərinin atalarını vaxtilə Əlqas öldürdüyü üçün, onlar fürsət tapıb öz atalarının qisasını

almaq məqsədi ilə onu qaladan aşağı atdılar. Onun ölümündən sonra dünya əmin-amanlıq oldu” (279).

Şah Təhmasibin bu qeydlərindən belə bir qənaətə gəlmək mümkündür ki, Əlqas Mirzə həbs ediləndən sonra onunla ən azı iki dəfə görüşmüşdü. Digər tərəfdən isə Əlqas Mirzənin burada heç də sərt nəzarət altında olmadığını görmək mümkündür. Sözsüz ki, bu, bir tərəfdən Şah Təhmasibin Əlqas Mirzəyə olmuş səmimi münasibətindən, digər tərəfdən isə Əlqas Mirzənin toxunulmazlığına verdiyi zəmanətdən irəli gəlirdi. Amma Şah Təhmasib çox sevdiyi qardaşının xəyanətinə və onun günahı üzündən səltənətə fəlakətlər gətirilməsinə göz yuma bilmirdi. Ona görə də Əlqas Mirzənin həbsinə və təcrid edilməsinə qərar verildi. Əlqas Mirzə oğlanları Əhməd Mirzə və Məhəmməd Hüseyn Mirzə ilə birlikdə Qəhqəhə qalasında həbsə atıldılar. Şah Təhmasib onların Ələmut qalasında həbs edildiyini qeyd edirdisə, mövzu ilə bağlı olan farsdilli mənbələrin əksəriyyətində Qəhqəhə qalasından söhbət gedir. Bu qala Qaracadağda bir dağ zirvəsində tikilmişdi. Hündür olan bu dağ zirvəsinə çox dar bir çığır qalxırdı ki, həmin cığırla bir nəfər hərəkət edə bilərdi. Bu cığır təxminən üç kilometr uzanırdı və dağ zirvəsində oturmuş bir tüfəngçi bu cığırla qalaya qalxmaq istəyən böyük sayda qüvvənin qarşısını saxlaya bilərdi. Yəni Əlqas Mirzənin insanlardan təcrid edilməsi üçün bu qala münasib məkan sayılırdı. Şah Təhmasib təzkirəsində Əlqas Mirzənin qala divarları üzərindən aşağı atıldığını yazırdı. Hündür divarlar üstündən daşlıq qayalar üzərinə atılan birisinin sağ qalacağı isə mümkün deyildi. Tədqiqatçılar güman edirdlər ki, Əlqas Mirzənin qala divarları üzərindən daş qayaların üstünə atılması Şah Təhmasibin razılığı və tövsiyəsi ilə baş vermiş bir hadisə idi. Çünki Şah Təhmasib and qəbul etmişdi ki, Əlqas Mirzənin səhhətinə toxunmasın. Onun özünün bu andı pozması sözsüz ki, ona etibar edən qüvvələr tərəfindən yaxşı qarşılanmazdı. Lakin onun istəyinə uyğun olaraq Əlqas Mirzənin həyatına qəsd edilə bilərdi (280).

“Rövzətüs səfəviyye” əsərində Əlqas Mirzənin həyatını dəyişməsi başqa şəkildə təsvir edilmişdir. Bu əsərdə bildirilir ki,

Şah Təhmasibin tapşırığı əsasında Həsən bəy Yüzbaşı və İbrahim xan Zülqədər birlikdə Əlqas Mirzəni Qəhqəhə qalasına apardılar. Həmin əmirlər Əlqas Mirzənin mühafizəsini qala mənsublarına tapşırdılar. Amma bu qaladakı təklik, qüssə və kədər günü-gündən Əlqas Mirzənin halını dəyişdi və son nəhayətdə o, ağır xəstəliyə mübtəla oldu. Müalicəsi üçün müəyyən cəhdlər göstərilsə də, Əlqas Mirzənin səhhətini xilas etmək mümkün olmadı və beləliklə, bir müddətdən sonra qalada dünyasını dəyişdi. Adı çəkilən mənbədə o da bildirilir ki, Əlqas Mirzənin dünyasını dəyişməsi Bəhram Mirzəyə də çox pis təsir etdi. Qardaşının ölümü ilə başlanan dərd-qəm sonda onun da xəstəliyinə yol açdı və onu da bu xəstəliyin cəngindən xilas etmək mümkün olmadı. Nəticədə Bəhram Mirzə 1549-cu il oktyabr ayının 11-də dünyasını dəyişdi və Şah Təhmasibin göstərişi ilə o, Məşhəddə dəfn edildi (281).

Əlqas Mirzənin Şah Təhmasiblə son görüşləri barəsində başqa fərqli məlumatlara da rast gəlmək mümkündür. Məsələn, "Aləmara-ye Şah Təhmasib" əsərində mövcud olan məlumat da belə fərqli məlumatlardan biridir. Bu əsərdə Şah Təhmasiblə bağlı olan daha etibarlı mənbələrdəki məlumatlarla təsdiqlənməyən və oxşarlıq təşkil etməyən müəyyən məlumatlarla rastlaşmaq mümkündür. Şah Təhmasiblə Əlqas Mirzənin son görüşləri barəsində adı çəkilən mənbədə olan məlumat bu tədqiqat üçün müraciət edilmiş mənbələrdəki məlumatlardan fərqlidir. Bu əsərdəki məlumata görə, Şah Nemətulla Yəzdi tərəfindən gətirilən Əlqas Mirzə Qəzvinə, yəni Şah Təhmasibin paytaxtına yaxınlaşanda boynuna zəncir salınmasını xahiş etdi. O, güman edirdi ki, bu yolla Şah Təhmasibin rəhmini qazana bilər. Təkid etdikdən sonra Əlqas Mirzəyə köhnə paltar geyindirib boynuna da zəncir bağladılar. Bildirilir ki, Qəzvin küçələrində insanlar Səfəvi şahzadəsini belə bir acınacaqlı vəziyyətdə görəndə ah-fəryad çəkdilər. Bu insanlarda, hətta Əlqas Mirzədən əziyyət görmüş döyüşçülərdə ona qarşı bir rəhm yarandı və onun bu halına onlar çox acıdılar. Şah Təhmasib qırmızı geyinərək onu Çehelsütun sarayında, Uzun Həsənin taxtında oturduğu halda qarşıladı. Adı çəkiln sa-

rayın qapılarına yaxınlaşanda Əlqas Mirzə atdan yerə endirildi, baş geyimi götürüldü və Əlqas Mirzənin boynuna qara bir kəndir salındı. Şah Nemətulla Yəzdi bu kəndirin bir ucunu əlində tutaraq Şah Təhmasibin hüzuruna gəldi. Həm məclisə toplaşmış olan əyan və əmirlər, həm də elə Şah Təhmasib özü Əlqas Mirzənin bu vəziyyətinə dərin təəssüf keçirdilər və qüssələndilər. Mənbədə olan məlumata görə, Əlqas Mirzə dərgaha daxil olanda Şah Təhmasib üzünü çevirdi. Şah Nemətulla Yəzdi yaxınlaşaraq bəyan etdi ki, üzüqara şəhriyar Əlqası gətirmişdir ki, o öz xəcalətindən başını qaldıra bilmir. Şah Təhmasibin işarəsi ilə Şah Nemətulla Yəzdi məclisdə öz yerini aldı və oradakı üləmanın ön sırasında qərar tutdu. Bir əli ilə qılıncının qəbzəsini tutmuş Şah Təhmasib gözaltı gizlicə Əlqas Mirzəyə nəzər saldı və gördü ki, o, xəcalətindən başını qaldıra bilmir. Şah Təhmasib sonra Bəhram Mirzəyə nəzər saldı. Onun ailəsi, uşağı Əlqas Mirzə tərəfindən əsir götürüləndən sonra Şah Təhmasib vəd etmişdi ki, Əlqas Mirzəni ələ keçirən kimi Bəhram Mirzənin ixtiyarına verəcəkdir və Bəhram Mirzə də istədiyi kimi onunla rəftar edə biləcək. Amma Əlqas Mirzəni bu vəziyyətdə görəndə Bəhram Mirzənin də ürəyində bir rəhm yarandı. Şah Təhmasib hələ öz qərarını açıqlamazdan əvvəl Bəhram Mirzə baş geyimini götürərək Əlqas Mirzənin yanında dayandı və bununla Əlqas Mirzəyə olan təəssübünü bəyan etdi. Bəhram Mirzənin öz qardaşının müdafiəsinə qalxmasını məclisə toplaşanların hamısı bəyəndi və onun bu hərəkətinə "afərin" sədaları səsləndi. Şah Təhmasibin oğlu İsmayıl Mirzə də başını açaraq Əlqas Mirzənin yanında yer aldı və o da bununla Əlqas Mirzə ilə bir olduğunu nümayiş etdirdi. Bunu görəndə Şah Təhmasib taxtından yerə düşdü, Əlqas Mirzəyə yaxınlaşıb onu qucaqladı, tacını onun başına qoydu, üzündən öpüb göz yaşı axıtdı. Sonra Şah Təhmasib üzünü Əlqas Mirzəyə tutub ondan soruşdu ki, burada iştirak edən əmir, əyanların, firəng hakiminin, özbək Abdulla xanın, rus-tatar hakimlərinin elçilərinin qarşısında məndən nə əziyyət gördüyünü və buna görə də Osmanlı ocağına pənah aparmağının səbəbini söylə. Əlqas Mirzə də bəyan etdi ki, bu məsələdə onun təqsiri yoxdur. O öz ağılsız-

lığı, böyük iddiaları və nəfsi üzündən bu yola düşmüşdür. Əlqas Mirzə eyni zamanda Şah Təhmasibin böyük səxavətindən də söz açdı. Bununla Şah Təhmasib onun günahından keçdi, ona qiymətli libaslar geyindirdi və nə arzuladığını soruşanda Əlqas Mirzə dedi ki, onu Ələmut qalasına göndərsin və həyatının sonuna kimi orada qalsın. Şah Təhmasib səbəbini soruşanda Əlqas Mirzə bildirdi ki, istəmir ki, qızılbaşlar bir də ondan istifadə etsinlər və onu düz yoldan döndərsinlər. Şah Təhmasib də onun bu arzusu ilə razılaşdı və onu ailəsi ilə birlikdə Ələmut qalasına göndərdi (282). Adı çəkilən mənbədə Əlqas Mirzənin dünyasını necə dəyişməsi barəsində məlumat verilməmişdir.

Şah Təhmasib qardaşı Əlqas Mirzənin dünyasını dəyişməsi xəbərini məyusluqla qarşılamışdı və hətta Şah Təhmasib tərəfindən Əlqas Mirzənin şərəfinə söylənilmiş bir rübai mənbələrdə də öz əksini tapmışdır. Həmin rübai belədir:

Əlqaseb bəradərəm şəhi şir kəmin
Midaşt nəza əz pey-e təxt o negin
Kərdim du bəxş ta bər asayəd xəlq
U zir-e zəmin gereft o mən ruy-e zəmin (283).

(Qardaşım Əlqasib şir pusqusunun şahı
Taxt və sərvət üçün mübarizə edirdi
Xalqın asudəliyi üçün (padşahlığı) iki böldük
O, yerin altını götürdü, mənsə yerin üstünü ).

Əlqas Mirzənin həyatının necə sona çatması haqqında Osmanlı mənbələrində də müəyyən məlumatlar saxlanmaqdadır. Bu məlumatlardan birində bildirilir ki, Əlqas Mirzə ələ keçirilməzdən əvvəl basqın etdiyi məntəqələri var-yoxdan çıxardı, keçdiyi yerlərin altını üstünə çevirdi. Bağdada gələndən sonra Əlqas Mirzənin Osmanlı sultanının dəvətini qəbul etməməsi haqqında bildirilir ki, "qəlbində olan xəbisliyə görə, müxalifət göstərərək müxtəlif və yüzlərcə üzrlər ilə dəvətə cavab verməkdən tərəddüd göstərdi". Bu mənbədəki, məlumata görə, Əlqas Mirzə ələ keç-

məzdən əvvəl xəstələnmişdi və Şah Təhmasibin adamları da onu qəflətən yaxalaya bilmişdilər (284).

Əlqas Mirzənin həbsi ilə 1548-49-cu illər Osmanlı-Səfəvi müharibəsi də başa çatmış oldu. Bu müharibənin Şah Təhmasib üçün hansı nəticələrə gətirib çıxarması haqqında yuxarıda qeydlər edilmişdi. Heç şübhəsiz ki, bu müharibənin Şah Təhmasib üçün başlıca nəticəsi Osmanlı dövləti kimi qüdrətli bir dövlət qarşısında Səfəvi dövlətinin özünü təsdiqləməsi idi. Bu müharibə həm də Şah Təhmasibin qüdrətinin, məharətinin, əzəmətinin təsdiqlənməsi idi. Osmanlı qoşunlarının Səfəvi dövləti üzərinə ilk yürüşünün gözlənilən nəticələri verməməsini bir təsadüf kimi qəbul edənlər indi Səfəvi dövlətinin qüdrəti qarşısında bir daha aciz qaldılar.

Osmanlı sarayı tərəfindən də bu müharibənin nətcələrinin dəyərləndirilməsi aparılmışdı. Sultan Süleyman qarşısına qoyduğu məqsədlərə çata bilməsə də bu müharibənin nətcələrini heç də uğursuz saymırdı. O, Fransa kralına göndərdiyi fəthnamədə bu müharibənin aparılması ilə aşağıdakı nəticələrə yiyələndiyini bəyan edirdi:

1. Azərbaycanın ən sağlam qalalarından olan Van qalası və çevrəsi fəth edilərək orada bəylərbəyi yaradıldı;

2. Şah Təhmasibin nəzarəti altında olan Şirvan məmləkəti qızılbaşlardan təmizlənərək Osmanlı əlinə keçdi;

3. Osmanlı sultanı Hələbdə olduğu zaman Van bəylərbəyi hücum edərək Xoyu ələ keçirdi və Xoy hakimi Hacı Dünbüllünü qətlə yetirdi;

4. Bir qoşun dəstəsi ilə Əlqas Mirzə Həmədandan, Qumdan, Kaşandan, İsfahan və Qəzvindən keçməklə Şah Təhmasibin və onun yaxınlarının var-dövlətini talan etdi;

5.Vəzir Əhməd paşa vasitəsilə Gürcüstanda 35 qala alındı, onlardan 14-dü yerlə-yeksan edildi, qalan qalalara isə Osmanlı qoşun dəstələri yerləşdirildi. Bir bəylərbəyi və dörd sancaq təşkil edildi;

6. Van bəylərbəyi hücum edərək Naxçıvanı, Çuxursəədi və İrəvanı talan etdi (285).

Qeyd olunmasa da, şübhəsiz idi ki, bu müharibə hər iki tərəfə həm də böyük fəlakətlər, dağıntılar və itkilər də gətirmişdi.

## 7. Osmanlı qoşunlarının Səfəvi dövləti üzərinə üçüncü yürüşü

Əlqas Mirzə ilə bağlı etdiyi son qeydlərində Şah Təhmasib yazırdı ki, onun ölümündən sonra dünyada əmin-amanlıq yarandı və o qərara aldı ki, bir daha müsəlmanlarla vuruşmasın və silahını kafirlərə tərəf çevirsin. Amma Şah Təhmasibin işarə etdiyi əmin-amanlıq ümid edildiyi qədər də uzun sürmədi və Səfəvi şahı bunun səbəbini İsgəndər paşanın meydana çıxması ilə əlaqələndirirdi. Şah Təhmasib təzkirəsində İsgəndər paşanın kim olması barəsində də müxtəsər məlumat verirdi. Onun sözlərinə görə, "İsgəndər o vaxt Ərzrum paşası idi və fitnə-fəsad törədirdi. Hərçənd ki, bizim əmirlər ona bəzi şeylər yazıb, nəsihət edirdilər, məktub göndərirdilər, [lakin] qəbul etmirdi. Cavabında təhqiredici sözlər yazırdı" (286).

Yuxarıda qeyd edildiyi kimi, 1548-ci il avqust ayının 24-də Van qalası Osmanlı qoşunlarına təhvil verildi. Osmanlı sarayı üçün strateji əhəmiyyət daşıyan Van qalasının əldə saxlanması və möhkəmləndirilməsi üçün Şah Təhmasib tərəfindən İstanbul dəftərdarı Çərkəz İsgəndər paşa Van bəylərbəyi təyin edildi. Sonradan məlum oldu ki, İsgəndər paşa kifayət qədər iddialı və ötkəm bir insandır və o öz iradəsini qəbul etdirmək üçün hərbi seçimlərə üstünlük verməkdən çəkinmirdi. "Tarix-i aləmara-yi Abbasi" müəllifi İgəndər paşa haqqında belə yazırdı: "İsgəndər paşa fəsad törədən, fitnəkar bir adam idi. Əvvəllər o, Van hakimi idi və o qədər də hörməti yox idi. [O], qəfildən Vandan Xoya gəldi və bu sülalənin (Səfəvilərin) tabeçisi olan Hacı bəy Dünbülini bir qism Xoy rəiyyətləri ilə [birlikdə] öldürdü. Buna görə də o, təltif edilərək, Ərzurum bəylərbəyisi oldu və elə həmin il öz şücaət və igidlik şöhrətini o sərhəddə yaymaq istədi" (287).

Yəni Osmanlı qoşunlarının bölgəni tərk etməsindən az sonra, İsgəndər paşa Xoy üzərinə hücum çəkdi. Bu hadisənin dəqiq ta-

rixi bildirilməsə də, onun 1548-ci ilin sonu, 1549-cu ilin əvvəllərinə təsadüf etdiyi məlumdur. O da məlumdur ki, İsgəndər paşa Xoy hakimi olan Hacı bəy Dünbülünün xanımının qardaşı kürd Həsən bəy Mahmudinin iştirakilə bu hücumu təşkil etdilər. Hacı bəy Dünbülü Xoy qalasının imkanlarını səfərbər edərək qalanı müdafiə etməyə çalışdı. Amma onun xanımı qardaşı Həsən bəy Mahmudinin fitnələrindən sonra qala darvazalarının açılmasına şərait yaratdı ki, bu da Xoyun alınması ilə nəticələndi. Xoy qalası alınan kimi Hacı bəy Dünbülü qətlə yetirildi və onun başı bədənindən ayrılaraq Osmanlı sultanına göndərildi. Sultan Süleyman da Səfəvi idarəçilyinə vurulan bu zərbədən çox sevindi və hətta İsgəndər paşanı mükafatlandıraraq ona qiymətli hədiyyələr göndərdi (288).

Xoy hakiminə və bütünlükdə Səfəvi hakimiyyətinə qarşı kinli mövqedən yazılmış Osmanlı mənbələrinin birində İsgəndər paşanın Xoy üzərinə hücumu belə vəsf olunmuşdur: “Van qalası mücahidlər tərəfindən zəbt altına alınanda, Dünbüllü Hacı bəy adında qəhrəmanlıqda şöhrət və şan qazanan bir namussuzun şahın yanında xeyli etibarı var idi. Vanda olan mücahidlər ilə döyüşə və müxtəlif hiylə ilə üzbəüz olmağa qadirdir – deyə Xoy xanlığını ona verdi. Ara-sıra rəzillər və naməlum kimsələrdən bir-iki min qızılbaş ona yoldaş olub qoşuldu. Van bəylərbəyi İsgəndər paşadan təkrar Van qalasını güclə almaq üçün igidlik davası ilə Xoya gəldikdə, İsgəndər paşa xəbərdar olub, qəflətən o mənfi xasiyyətlilərin üzərinə hücum etdi. Döyüş bilən dilavərlər hər tərəfdən qalaya basqın edib, Allahın fəzli ilə qalanı aldılar. İsgəndər paşa adı çəkilən Dünbüllü Hacının və ona mənsub olan neçə rafizlərin və xaricilərin başlarını kəsib mallarını qarət etdi. Kəsilən kəllələr nizələrini süslədi və bu vəziyyətdə onları aləmpənah padşaha göndərdilər” (289).

Bu uğur İsgəndər paşanı elə təşviqləndirdi ki, o, 1549-cu ildə Çuxursəəd bəylərbəyliyinə də hücum çəkdi. Şah Təhmasibin yazdıqlarından belə bir qənaətə gəlmək mümkündür ki, Çuxursəəd üzərinə hücum çəkməzdən əvvəl İsgəndər paşa Gürcüstanı da hücum hədəfi seçmişdi. Buradan o, Çuxursəəd (İrəvan) hakimi

Hüseynxan sultana məktub göndərib səfəviləri təhdid etməyə başlamışdı: “Bir dəfə o, Hüseynxan sultana məktub göndərib bildirmişdi ki, mən Gürcüstanın Ərvunc qalasını mühasirəyə almışam. Şah mənim üzərinə qoşun çəkib gətirsə, mən vuruşacağam. Bu vuruşda mən qələbə qazansam, Şərqin padşahını məğlub etmiş olaram. Əgər onlar – şah məni məğlub edərsə, deyərlər ki, bir nökəri məğlub etmişdir.

Mən Hüseynxan sultana sifariş göndərib dedim ki, ona cavab yazıb desin ki, sənin yazdıqların ağıllı adama yaramayan sözlərdir. Ancaq nədən adamlar belə sözləri danışırlar. O, həmişə cəhl və nadanlığından deyərmiş ki, Şirvan və Gürcüstanın paşası mənəm” (290).

Şah Təhmasib bu hadisələri davamlı şəkildə izləyirdi və çalışırdı ki, göndərilən məktublar vasitəsi ilə İsgəndər paşanı tutduğu yoldan çəkindirmək mümkün olsun. İsgəndər paşa isə öz gücünə elə arxayınlaşmışdı ki, Səfəvi hüdudlarına hücumunu davam etdirməkdə idi. Bunun nəticəsi kimi, Çuxursəəd də onun qoşun dəstəsinin talanlarına məruz qaldı. Görünür, Çuxursəəd hakiminin sərəncamında olan qoşun dəstəsi elə də böyük deyildi və ona görə də İsgəndər paşanın bu hücumunun qarşısının alınması üçün ciddi bir müqavimət göstərilmədi (291).

“Tarix-i aləmara-yi Abbasi” müəllifi İsgəndər paşanın hərəkətləri barəsində daha sonra belə yazırdı: “ [O], Hüseynxan sultan Rumlunun üzərinə, İrəvana gəldi. Hüseynxan sultan döyüşə girməyi münasib bilməyib, bir tərəfə çəkildi. [İsgəndər paşa] İrəvanda bir qədər dağıntı törədib, adamları qətl edərək qayıtdı. Onun tərəfindən törədilmiş bu iki kobud hərəkətə [cavab olaraq] bu tərəfdən rəiyyətlərin asayişi üçün heç kəs onu tənbeh etməyə və cəzalandırmağa qalxmadığından o, (yəni İsgəndər paşa) ayağını ədəb dairəsindən bayıra qoydu. [O], son dərəcə qürurlanaraq, sərhəd əmirlərinə ədəbsiz sözlər yazdı, həddini aşan əməllərə cəsarət etdi və fitnə törətməyə çalışdı” (292).

Çuxursəəd üzərinə hücumdan sonra İsgəndər paşa Osmanlı sultanı tərəfindən Ərzrum bəylərbəyi təyin edildi (293). Bu isə onun iştahalarını daha da artırdı və onun Səfəvi hüdudları üzərinə

hücum etmək meyli daha da gücləndi. Səfəvi hakimləri yenidən ona məktublar göndərərək onu bu yoldan çəkindirməyə çalışdılar. Lakin İsgəndər paşa öz əməllərindən geri durmadı. Sonradan Çuxursəəd hakimi təyin edilmiş Şahqulu sultan da məktubla İsgəndər paşaya müraciət etdi, onu talançı hücumlardan əl çəkməyə, Səfəvi xanədanına qarşı hörmətsizlik  göstərməməyə çağırdı. Şahqulu sultan Ustaclının İsgəndər paşaya ünvanladığı məktubda deyilirdi: "Sən kafir oğlusan, haqqın yoxdur ki, Həzrət Əli – ona salavat və salam olsun – övladına ədəbsizlik edəsən. Bu ailəyə düşmənçilik edənlər öz cəzalarına çatmışlar. Sən də cəzanı alacaqan. Əməvilər sülaləsindən olan məlunlar məzlum İmam [Hüseyni] şəhid edən zaman onun nəslindən Həzrəti İmam Zeynalabdindən – ona salam olsun – başqa bir nəfər də olsun kişi tayfası qalmamışdı. Halbuki, o vaxt Əməvilər sülaləsindən min nəfər uşaq var idi ki, qızıl qübbəli beşiklərdə saxlanılırdı. Buna baxmayaraq, indi Əməvilərdən bir nəfər də qalmamışdır. Halbuki, indi minlərlə seyid tayfası mövcuddur" (294).

Şah Təhmasib də bildirirdi ki, onun əmirləri sərhəd bölgəsində İsgəndər paşanın təcavüzkarlığı nəticəsində baş verənlərin qarşısının alınması üçün Sultan Süleymanın vəzirləri yanına öz elçilərini göndərməyə çalışalar da İsgəndər paşa onlara mane olur və onların getməsinə imkan vermirdi. Səfəvi şahının sözlərinə görə, onun nəslinin seyidliyini danmaqla İsgəndər paşa bir ədəbsizliyə də yol verdi: "Ədəbsizliyi o yerə yetirdi ki, bizim seyidliyimizi də dandı və "Quran"dan bu ayəni yazıb bizə göndərdi: "O sənin ailəndən deyildir. O, yaramaz iş görüb". Şahqulu sultan da həqiqi natiq İmam Cəfər ibn Məhəmməd Sadiq – ona salam olsun – dilindən nəql olunan bu hədisi yazıb İsgəndər paşaya göndərdi: [hər ev, ailə] bizimlə düşmənçilik etsə, xaraba qalar" və ya "Bizim üzərimizə hürən it qotur olar, inanmayanlar sınaqdan keçirə bilərlər". Nəhayət, biz gördük ki, onunla yola getmək mümkün deyilddir. Ona qulaqburması vermək lazımdır" (295).

Qeyd edilməlidir ki, Şah Təhmasib tərəfindən İsgəndər paşanın sərhəd bölgələrində törətdiyi hücumlara və basqınlara müəyyən dözümlülük göstərildi. O, hər halda belə güman edirdi ki,

İsgəndər paşanın hərəkətləri haqqında Osmanlı sultanının razılığı mövcud deyildir və istəmirdi ki, İsgəndər paşaya qarşı qoşun çıxarmaqla iki dövlət arasında yaranmış olan sakitliyə də son qoysun. Bu təşvişləri aradan qaldırmaq üçün Şah Təhmasib məktubla Osmanlı sultanına müraciət etmək qərarına gəldi və 1552-ci ildə o öz məktubunu Osmanlı sultanına göndərdi. Bildirilir ki, bu məktub dostcasına yazılmış bir məktub idi və məqsəd də iki dövlət arasında münasibətlərin normal məcrada inkişafına nail olmaq idi. Şah Təhmasib o zamanlar Şəmsi Fələki Dəvvar adı ilə tanınmış Mirşəms Vəlixanlı vasitəsi ilə göndərdiyi həmin məktubunda Tanrı qullarının rifahını qorumaq üçün çalışdığını bəyan edirdi. Sonra da o, Sultan Süleyman tərəfindən Ərzrum bəylərbəyi təyin edilmiş İsgəndər paşanın sərhəd bölgəsində törətdiyi soyğunçuluqlara toxunmaqla öz narahatçılığını da bəyan edirdi. Şah Təhmasib məktubunda İsgəndər paşanı müfsid (fasid) və fitnəçi bir insan kimi xarakterizə etməklə onun Xoy üzərinə hücum edərək bu şəhərin hakimi Hacı bəy Dünbüllünü qətlə yetirdiyini, bundan sonra isə onun öz "şücaət və cəladətini sərhəddə yaymaq üçün" İrəvan üzərinə də hücum etdiyini yazırdı. Şah Təhmasib Osmanlı sultanına göndərdiyi məktubunda İsgəndər paşanın İrəvan üzərinə hücum edərək bu şəhərin əhalisini qırdığını, bölgə əhalisinin sakit yaşayışı üçün yararlı bir addım atmadığını, sərhəd bölgəsinin hakimlərinə ədəbsiz məktublar göndərərək həddini aşdığını, qacar bəylərinin rəhbərlik etdiyi bir dəstənin üzərinə hücum çəkərək onların hamısını qətlə yetirdiyini və bununla da heç bir çərçivəyə sığmayan hərəkətlər etdiyini bəyan edirdi. Yəni bununla Şah Təhmasib bir daha bildirmək istəyirdi ki, İsgəndər paşanın həddini aşan hərəkətləri iki dövlət arasındakı münasibətlərin mürəkkəbləşməsinə aparır və Səfəvi şahı ümid edirdi ki, Osmanlı sarayı İsgəndər paşanın bu təcavüzkar hərəkətlərinin qarşısını almağa və iki dövlət arasında normal münasibətlərin bərqərar olmasına çalışacaqdır. Amma Şah Təhmasibin bu ümidi heç də özünü doğrultmadı və Sultan Süleyman ona göndərdiyi məktubunda İsgəndər paşanın hərəkətlərinə haqq qazandırmaqla özünün də yaxın vaxtlarda yenidən Səfəvi dövləti

üzərinə hücum çəkəcəyini bildirdi. Mövcud olan məlumatlara görə, Osmanlı sultanın Şah Təhmasibə belə bir təhdid edici məktub yazmağa İsgəndər paşa təhrik etmişdi (296).

Osmanlı sultanından gələn məktubun məzmunu Şah Təhmasibdə əminlik yaratdı ki, sərhəd bölgəsində vəziyyətin normallaşdırılması üçün qətiyyətli tədbirlər həyata keçirilməlidir. Bu qətiyyətli tədbirləri isə o, qoşun toplanmasında və İsgəndər paşaya ciddi dərs verilməsində görürdü. “Ona görə də padşahın qəzəb şöləsi alışdı. Hökmdar fərman verdi ki, cahan qoşunları fəth və zəfər günəşinin doğduğu yer olan fəth ayətli bayraqların kölgəsində hazır olsunlar. Qəzavü-qədər kimi cərəyan edən fərmana əsasən, aləmin pənahı olan dərgaha elə bir ordu cəmləşdi ki, onların atlarının tozundan fələklərin lətif aynası torpağın kəsif səthi kimi qaranlıq oldu və göz bəbəyi o ordunun qaraltısından bulandı. [Ordunun sayı] səyyarələr xosrovunun (günəşin) nur bəxş edən zərrələrindən daha ziyadə və asimanın geniş üzündəki ulduzların ədədindən daha çox idi” (297).

Səfəvi qoşunlarının toplanması 1552-ci ilə təsadüf edir. Tədqiqatçıların fikrincə, Səfəvi qoşunlarının toplanmasının və bu qoşunlara Osmanlı hüdudları üzərinə hücum üçün hazırlıq işarəsinin verilməsinin əsas səbəblərindən biri Osmanlı qoşunlarının Avropa cəbhəsində olması ilə bağlı idi. Mövcud məlumatlara görə, 1551-ci ildən etibarən Sultan Süleyman diqqətini yenidən Avropa cəbhəsinə istiqamətləndirmişdi. Amma Sultan Süleyman 1551-52-ci illəri əhatə edən Avropa kampaniyasında şəxsən iştirak etmirdi. Onun tərəfindən Avropa cəbhəsinə göndərilmiş qoşun dəstələrindən birinə Rumeli bəylərbəyi, digərinə isə ikinci vəzir Əhməd paşa rəhbərlik edirdi. Sultan Süleyman Avropa cəbhəsinə yollanmasa da Osmanlı qoşunlarının əsası Avropada döyüşlərdə idi. Güman edilir ki, Şah Təhmasib də Osmanlı qoşunlarının əsasının Avropada olmasını Osmanlı hüdudlarına hücum üçün münasib zaman kimi dəyərləndirdi və buna görə də qoşun toplanması haqqında göstəriş verdi (298).

Bununla belə, 1552-ci ildə iki dövlətin sərhəd bölgəsində elə bir mürəkkəb vəziyyət yaranmışdı ki, artıq qətiyyətli tədbirlərin

həyata keçirilməsinə ehtiyac duyulurdu. Əgər Sultan Süleyman sərhəd bölgəsində təcavüzkarlığı ilə vəziyyəti daha da ağırlaşdıran İsgəndər paşanın hərəkətlərinin qarşısını alsaydı, yəqin ki, Şah Təhmasib tərəfindən də yeni qoşun toplanmasına ehtiyac yaranmazdı. Sultan Süleymanın özünün də yenidən Səfəvi hüdudlarına hücuma hazırlaşdığını yazması isə Şah Təhmasibə artıq başqa bir seçim yeri qoymadı. Ona görə də Göyçə gölü yaxınlığındakı Ağmeyğan (Ağmanğan) yaylağında olarkən qoşun dəstələrinin onun düşərgəsinə toplanmasına göstəriş verdi. Topladığı qoşun dəstələri vasitəsi ilə Şah Təhmasib bir tərəfdən İsgəndər paşanı törətdiyi əməllərə görə cəzalandırmaq istəyirdi, bir tərəfdən də Şah Təhmasib Osmanlı dövlətinin şərq hüdudlarını talanlara məruz qoymaqla Osmanlı qoşunlarının bu bölgədən keçməklə Səfəvi hüdudlarına doğru hərəkətlərini çətinləşdirmək istəyirdi.

Şah Təhmasib adı çəkilən yaylaqda toplanan qoşunları dörd dəstədə qruplaşdırdı. Nəzərdə tutulmuşdu ki, bu dəstələrin hər biri bir istiqamətdə Osmanlı hüdudlarına hücum həyata keçirsin. **Birinci dəstəyə** Məsum bəy Səfəvi, Allahqulu bəy Ayçəkoğlu, Əli sultan Təkəlü, Şərəfəddin xan Kürdün oğlu Şəmsəddin xan, Xəlifə Ənsar, Həmzə bəy Talış, Uluğxan bəy Səədlü və digər əmirlər rəhbərlik etməli idilər. Bu dəstə Ərciş və Bargiriyə hərəkət etməli idi.

**İkinci dəstəyə** Şahverdi sultan Ziyadoğlu və Ədhəm bəy Rumlunun rəhbərliyi altında olan qoşun dəstələri daxil olmalı idi. Bu dəstə Pasin istiqamətində hərəkət etməli idi.

**Üçüncü dəstəyə** İbrahim xan Zülqədərin, Şahqulu sultan Əfşarın və Çıraq sultanın rəhbərliyi altında olan qoşun dəstələri daxil idi və bu dəstə İraqi-Ərəb istiqamətində hücumlar həyata keçirməli idi.

**Dördüncü dəstəyə** isə Bayram bəy Qacarın, Toyqun bəy Qacarın, Gürcüstan hakimi Keyxosrov Davelinin qoşun dəstələri daxil idi. Bu dəstə isə Ərdəhan, Ərdəniç, Oltu və Tortum məntəqələri üzərinə hərəkət etməli idi (299).

Bu dəstələrin əldə etdiyi nəticələr barəsində "Əhsənüt-təvarix" əsərində nisbətən daha geniş məlumat mövcuddur. Şah Təhmasibin təşkil etdiyi ilk dəstənin fəaliyyəti barəsində bu əsərdə belə bir məlumat verilmişdir: " Ali əmrə müvafiq olaraq, adlı-sanlı əmirlər hərəkətə keçdilər. Hər dəstə işarə edilən səmtə doğru yubanmadan yola düşdü. Məsum bəy on min süvari ilə çaharşənbə günü, şaban [ayının] 17-də (08.08.1552) Ağmeyğan yaylağından yola çıxdı və onlar da dörd güruh olub yürüşə başladılar. Məsum bəy, Əli sultan Təkəlü ilə ittifaqda Ərcişə hərəkət etdi; Şəmsəddin xan Muş səhrasına və Əxlata irəlilədi; Qayıtmış sultan Xınıslu və Allahqulu bəy Ayçəkoğlu igidlik meydanının adlı-sanlılarından [ibarət] bir dəstə ilə hərəkət bayrağını Adilcevaz tərəfə qaldırdı; Həmzə sultan Talış və Xəlifə Ənsar çoxlu qazilərlə Bargiri və Bəndmahi tərəfə yönəldilər. Məsum bəy Ərcişə çatdıqda, xondgarın tərəfindən o diyarın valisi və ixtiyar sahibi olan Qara Piri cəsarət üzünü döyüş və vuruş meydanına çevirib qaladan çıxdı. O tərəfdən Məsum bəy, Əli sultanı bir dəstə dilavərlə onu dəf etməyə göndərdi. Hər iki tərəf bir-birinə həmlə etdi. Əli sultan onun boğazına nizə vurdu. Rumilər güc gəlib Əli sultanı geri oturtdular. O əsnada Uluğxan bəy Səədlü o mərəkəyə çatıb onları məğlub etdi və o bədbəxt qövmdən təxminən otuz nəfəri qətlə yetirdilər. Qara Piri yaralı halda özünü qalaya saldı. Elə həmin gün Xəlifə Ənsar və Həmzə bəy Talış xondgarın mötəbər əmirlərindən olan Məhəmməd bəylə və Xürrəm ağa ilə vuruşdular. Xürrəm ağanı və Məhəmməd bəyi əsir edib, o mənfur qövmdən təqribən yüz altmış nəfəri gedər-gəlməzə göndərdilər. Cümə günü, həmin ayın 27-də (18.08.1552) Ələşkərdin Didəm mövqeyində onları (əsirləri) başlarla və "axtarma"larla aləmin pənahı olan dərgaha gətirdilər. Şəmsəddin xan Əxlata çatdıqda, orada olan təxminən yüz nəfər rumini qətlə yetirib, təqribən otuz min qoyun, on min inək və camış, üç min at ələ keçirdi və o diyarı yandıraraq əzəmətli orduya yollandı. Elə ki Qayıtmış sultan və Allahqulu sultan şücaətlilərin bir dəstəsi ilə düşmən diyarına çatdılar, Rum süvariləri Adilcevaz qalasından çıxıb döyüşə və vuruşa başladılar. Qalibiyyətli ordu o məğrur güruhu məğlub edib

onlardan təxminən yüz nəfəri qətlə yetirdi. O əsnada İbrahim xan Bəxti xondgarın dərgahına gedirdi və qazilərə rast gəldi. Cövşən geymiş dilavərlər o mənfur qövmdən altmış nəfəri gedər-gəlməzə göndərdilər. Onların əlinə iki xərvar qızıl, bir xərvar nəfis gümüş, bir neçə gümüş piyalə və sürahi keçdi" (300).

Osmanlı mənbələrinə görə isə Məsum bəy Səfəvinin rəhbərliyi altında iki min atlıdan ibarət olan birinci dəstə 1552-ci il avqust ayının 9-da Ağmeyqan yaylağından hərəkətə başladıqdan sonra dörd qrupa bölündü. Məsum bəy Səfəvi ilə Əli sultan Təkəlinin rəhbərliyi altında olan bir qrup Ərciş qalası üzərinə, Şəmsəddin xan Kürd-Rojekilinin rəhbərliyi altında olan qrup Bitlisin Muş ovası və Əhlət qalası üzərinə, Qayıtmaz xan Xınıslı ilə Allahqulu bəy Ayçəkoğlunun qrupu Adilcəvaz üzərinə, Həmzə bəy Talış ilə Xəlifə Ənsar Bargiri ilə Bəndimahi üzərinə hərəkət etdilər. Bildirilir ki, Şah Tahmasib də birinci dəstə ilə hərəkət edərək Van gölü ətrafına gəlmiş və Əhlət qalası üzərinə hücumda iştirak etmişdi. Osmanlı mənbələrində bildirilir ki, Səfəvi qoşunları əvvəlcə Ərciş qalası ətrafında istədiklərinə nail ola bilməmiş və bu qalanı ələ keçirməyə müvəffəq olmamışdılar. Yəni həmin qalanın Osmanlı müdafiəçiləri qalanı müdafiə edə bilmişdilər. Verilən məlumata görə, Səfəvi qoşunları Adilcəvazı da ələ keçirə bilməmişdilər. Bildirilir ki, bu qalanının müdafiəsinə məsul olan Sinan Paşazadə ilə Mustafa bəy hətta qala xaricində qızılbaş dəstəsini qarşılamış və bu dəstəyə itkilər yetirərək onu geri çəkilməyə məcbur etmişdi. Əhlət qalasının isə qızılbaş qüvvələri tərəfindən ələ keçirildiyi bəyan olunurdu. Osmanlı mənbələrində olan məlumatlara görə, Əhlət qalasının Osmanlı döyüşçüləri qeyrət göstərərək təslim olmadılar. Lakin Səfəvi düşərgəsindən göndərilən məktub qala müdafiəçilərinin müqavimətinin zəifləməsinə yol açmışdı. Verilən məlumata görə, həm guya bu qalanın müdafiəsi zəif idi, həm də Şah Təhmasib bu qalanın sakinlərinin sakitcə çıxıb getməsinə imkan yaradılacağını bəyan edibmiş. Bildirilir ki, Şah Təhmasib adından qala müdafiəçilərinə göndərilən məktubda da belə bir vəd verilirdi. Həmin məktubun məzmunu belə idi: "Hələ padşahınız bütün əsgər ilə

Rumeli sərhədlərindədir. Bu yaxınlarda o tərəflərdən sizə yardım gəlməsi uzaq bir ehtimaldır. Bu üzdən öz istəyinizlə qalanı bizə təslim ediniz. Hamınıza aman verilir. Lakin inadınıza israr etsəniz, halınız əyan və sonunuz bəsbəlli nümayandır. Gəlin səlamətlə çıxın gedin". Qalanı tərk edən insanlar isə qılıncdan keçirilmiş və Əhlət qalası fəth edilmişdi. O da bildirilir ki, Ərciş qalası da hiylə işlədilməsi ilə Səfəvi qoşunlarının nəzarəti altına düşmüşdü. Osmanlı mənbələri başlanan bu döyüşlər zamanı Van gölü hövzəsində çoxlu sayda yaşayış məskənlərinin Səfəvi qoşunları tərəfindən dağıdılıb təxrib edildiyini də bildirirdilər (301).

Şah Təhmasibin Əhlət qalası həndəvərinə gəlməsini farsdilli mənbələr də təsdiq edirlər. Bildirilir ki, Şah Təhmasib Əhlət istiqamətinə hərəkətə başlamazdan öncə qoşun dəstələrini Van gölü hövzəsindəki məntəqələrin talan edilməsinə göndərmişdi. Konkret olaraq Van qalasının tezliklə ələ keçirilməsi üçün bu qala ətrafına əvvəlcə bir min nəfərlik qoşun dəstəsi göndərildi. Güman edilirdi ki, Van qalasının qarnizonu Səfəvi qoşun dəstəsinin azsaylı olduğunu görüncə qaladan çıxaraq döyüşə girəcəkdir. Səfəvi qoşun dəstəsinin əsas hissəsi isə arxadan yavaş-yavaş irəliləməkdə idi. Van qalasının qorunmasına məsul olan Fərhad paşa ilə Bədir bəy Bəxti qala qarnizonunun bir hissəsi ilə qala kənarına çıxdılar və Səfəvi dəstəsi ilə döyüşə girdilər. Bir azdan Səfəvi qoşunlarının əsas hissəsi özünü yetirdikdə Van qalasının mühafizəçiləri geri çəkilmək məcburiyyətində qaldılar. Buna baxmayaraq qala mühafizəçilərinin bir miqdarını qətlə yetirmək mümkün oldu. Bundan sonra Səfəvi dəstəsi Van, Vostan, Əmük, Gevaş, Əlbaq və Xoşabın bütün taxıl ehtiyatlarını və məskənlərini yandırıb xarab etdilər. Bu işləri görəndən sonra Səfəvi dəstələri Əhlət ətrafına gələrək Şah Təhmasibə qoşuldular (302).

Əhlət qalasının Səfəvi qoşunları tərəfindən fəth edilməsi haqqında isə farsdilli mənbələrdə belə bir təsvir vardır: "Ağmeyğandan köç edib seşənbə günü, həmin ayın 24-də (15.08.1552) Araz çayı kənarında dayandı. Oradan köçhaköçlə Əxlat qalasının ətəyinə gəldi. O, elə mətanətli bir qaladır ki, uca dağlar onun yanında qum təpəsinə bənzəyirlər və o qədər hündürdür ki, asi-

manla bərabərlik edir. O qalada yaşayanlar səma sakinlərinə sirr deyirlər və kəmər kimi məntəqətül-bürucun böyrünə toxunurlar. Uçan tərlan kamil dərəcədə yüksək uçsa da, onun ən alçaq yerinə çatmır. ...Əxlat sakinlərinin beyni xıltların ("əxlat"ın) üfunəti səbəbindən gicəlləndiyi üçün o bürcün möhkəmliyinə və mətanətinə güvənib qarşıdurma və vuruşma məqamında dayandılar və Allahın "Harada olursunuz olun, hətta uca (möhkəm) qalalar içərisində olsanız belə, ölüm sizi haqlayacaq" *["Qurani-Kərim", "Nisa" surəsi, 78-ci ayə]* kəlamının sirrindən qafil və xəbərsiz qaldılar. Özlərini təhlükəyə atmaqdan savayı bir tərz bilməyən və müharibəyə qədəm qoymaqdan başqa bir işlə məşğul olmayan qalibiyyətli qoşunun bahadırları qalanı dairə kimi araya aldılar. ... Qalxanlarını başlarına çəkib, pələng kimi qala bürcünə dırmandılar. ... Neçə gün ərzində bu minvalla sübhdən axşama və axşamdan sübhə qədər aslan ürəkli igidlər və düşmən parçalayan bahadırlar mərdanəlik etdilər. Axırda ordubazarçılar şəhər küçəbəndlərini ələ keçirdilər. Rumilər can qorxusundan qalanın içinə qaçdılar. Əldən iti lağımçılar lağım vurdular. ... Hasarın bürclərini xarab etdilər. Nadir hadisələrdən biri odur ki, qalanın böyründən bir çay axırdı. Hasarın bürclərindən ta çaya qədər təxminən üç yüz zər [məsafə] vardı. Bir şəxs [hündürdən] bürcün yanına düşsə də, ona bir zərər dəymədi. Qala kutvalı iztiraba düçar olub, miskinlik və acizlik qapısından içəri girdi və qalanı təslim etdi. Qalibiyyətli əsgərlərin zərbəsi ilə o hasar yerlə yeksan edildi" (303).

Başqa bir mənbədə Əhlət qalasının kifayət qədər güclü bir qala olmasından və bu qalanın ələ keçirilməsi üçün ciddi mübarizə aparılmasından xəbər verilir. Qala daxilindəkilər Səfəvi qoşunlarının əzmkarlığına qarşı müqavimət göstərməyin mənasız olduğunu anladıqdan sonra təslim olmağı qərara aldılar. Bununla bağlı onlar öz elçilərini şah düşərgəsinə göndərdilər və xahiş etdilər ki, təslim edilən qalanın sakinlərinin can və malına toxunulmasın. Şah Təhmasib bu xahişlə razılaşdı və göstəriş verdi ki, Səfəvi qoşunları Van sakinlərinin həyatına və əmlakına toxunmasınlar (304).

“Rövzətüs səfəviyye” əsərində Ərciş (Ərcis) qalasının Səfəvi qoşunları tərəfindən fəth olunması bir qədər fərqli şəkildə təsvir edilmişdir. Bu mənbədəki məlumata görə, Ərciş qalası Əhlət qalasından sonra fəth edilmişdi. O da bildirilir ki, Ərciş qalası öz müdafiə imkanlarına, malik olduğu ehtiyatların miqdarına görə digər qalalardan fərqlənirdi və bu baxımdan Ərciş qalasının müstəqil şəkildə müdafiə olunmaq imkanları daha böyük idi. Səfəvi qoşunlarının yaxınlaşması ərəfəsində Ərciş qalası daxilindəki qüvvələr arasında bir parçalanma baş vermişdi. Bu qüvvələrdən biri Osmanlı sultanı tərəfindən Ərciş qalasının müdafiəsi üçün göndərilmiş yeniçəri dəstəsi idi, digəri isə yerli kürd qoşun dəstəsi idi. Sultan tərəfindən göndərilmiş qüvvə kimi yeniçərilər qala daxilinə və qala işlərinə nəzarəti bütünlüklə öz əllərində saxlamaq istəyirdilər. Kürd silahlıları isə bununla razı deyildilər və onlar yeniçərilərin tabeliyinə düşmək istəmirdilər. Bu qüvvələr arasındakı narazılıq son nəticədə silahlı qarşıdurmaya gətirib çıxardı və bu qarşıdurma zamanı kürd qüvvələri üstün gələrək qala işlərinə nəzarəti yenidən ələ keçirdilər. Yaranmış vəziyyət yeniçəriləri narazı saldı və onlar kürd qüvvələrindən qisas almaq üçün yollar axtarmağa başladılar. Səfəvi qoşunlarının hücumu isə bu mənada onların marağına cavab verən bir hadisə oldu. Yeniçərilər belə qərara gəldilər ki, qalanı Səfəvi qoşunlarına təhvil verməyə kömək etsinlər və bununla həm də kürd qüvvələrinin qılıncdan keçirilməsinə nail olsunlar. Bu məqsədlə yeniçərilər Şah Təhmasibin adına bir məktub yazdılar. Həmin məktubun məzmunu belə idi: “Əgər şah cəlalı yeniçərilərin həyatının və malının hifzi, kürdlərin isə qətli üçün fərman verilsə, istənilən vaxt qalanı Kəbə əlamətli dərgahın xidmətçilərinə təhvil verərik”. Bu məktub ox ucuna bağlandı və sonra da Səfəvi qoşunları istiqamətinə atıldı. Səfəvi döyüşçülərindən biri bu məktubu taparaq onu Şah Təhmasibin dərgahına apardı. Şah Təhmasib bu təkliflə razılaşdı və onun razılığı yeniçərilərə də çatdırıldı. Qarşılıqlı şəkildə razılaşdırıldı ki, Səfəvi qoşun dəstəsi qala divarları yaxınlığında pusquda dayansın və qərar verilən gün qala daxilinə yollansın. Səfəvi qoşun dəstəsinin qala daxilinə yollanacağı gecə

qala darvazası ətrafındakı bürclərdə dayanan kürd döyüşçülər yeniçərilərin hücumuna məruz qaldılar və belə bir vaxtda yeniçərilər qala darvazasını açaraq qızılbaş döyüşçülərinin qala daxilinə gəlməsinə yol verdilər. Qalanın müdafiəsində dayanmış kürd dəstələri göstərdikləri bütün cəhdlərə baxmayaraq qızılbaşların hücumunun qarşısını saxlaya bilmədilər. Bildirilir ki, bu döyüşün gedişində Ərciş qalası qarnizonunun rəhbəri, habelə bu qalada qorçubaşı olan Bəhram Mirzənin oğlu Bədiüzzaman bəy də qızılbaş hücumunun qurbanına çevrildilər. Sonda Ərciş qalası da Səfəvi qoşunlarının nəzarəti altına keçdi. Mənbədəki məlumata görə, qalanın ələ keçirilməsinə şərait yaratdığı üçün yeniçərilərə toxunulmadı, onlar salamat buraxıldı və hətta əməkdaşlığa görə bəziləri mükafatlandırıldı da (305).

"Tarix-i aləmara-yi Abbasi" əsərində də Ərciş qalasının ələ keçirilməsində qala daxilindəki münaqişənin olması haqqında məlumat vardır. Amma bu əsərdə yeniçərilərin deyil, kürdlərin Səfəvi qoşunları ilə əməkdaşlıq etdiyi bildirilir. Bu əsərdəki məlumatdan həm də belə aydın olur ki, Ərciş qalasının müdafiçiləri bir neçə ay müqavimət göstərə bilmişdilər: "[Şah] oradan Ərciş qalasına tərəf yönəlib, Ərciş qalasını mühasirə etməyi buyurdu. Qalanın hakimi qala divarlarının möhkəmliyinə, dayanıqlılığına və qalanın müdafiə ləvazimatına arxalandı və rumilərin topçuları və tüfəngçiləri şah ordusunun üzərinə top və tüfəng [atəşi] yağdırdılar. Mühasirədəkilər qalanın müdafiəsinə mərdanə səy göstərirdilər. Bu tərəfdən də cəsarətli qazilər mərdliklə irəli atılıb, «sibə»ləri qalanın ətəyinə çatdırdılar. Xasseyi-şərifə topçubaşısı Dərviş bəyin qalanın yanında düzəltdiyi böyük topu bürclərə və hasarlara tərəf yönəldib, divarların bünövrəsini sarsıtdılar. Sözün qısası, qala camaatı üç aya qədər qüdrət və qüvvətlə qalanı müdafiə etdi, dördüncü ayda isə aciz və taqətsiz oldu. Qalada bir dəstə kürd vardı. O tayfanın ümumi adəti belədir ki, iş çətinləşəndə onların hər biri öz canının hayına qalır. Məhz buna görə də [qaladakı kürdlər] zamanın [tələbinə] yar və yoldaş olaraq və dövranın [gedişinə] münasib və müvafiq olaraq, bir-biriləri ilə ittifaqa girib, qala hakimini qətlə yetirdilər və qızılbaşları [qala

divarlarından] yuxarı çəkdilər. Qalib dövlətin qüdrəti ilə Ərciş qalası ələ keçirildi. Yüksək şərəfli [şahın] buyuruğuna görə, [qala] xarab və viran edildi" (306).

Bargiri qalasının ələ keçirilməsi də Səfəvi qoşunlarının birinci dəstəsinə tapşırılmışdı. Ərciş qalası alınandan sonra bu qoşun dəstəsi Bargiri (Muradiyyə) qalası üzərinə istiqamət götürdü və mənbələrdə olan məlumata görə, bu qala kifayət qədər əzəmətli qalalardan biri idi. Mövcud məlumata görə, bu qalanın divarları son dərəcə hündür idi və bu keyfiyyətlərinə görə "ulduzların və fələklərin gözü də onu  müşahidə etməkdən mat və heyran qalmışdı". Bundan əlavə adı çəkilən qala hündür bir dağ zirvəsinin yüksəkliyində tikilmişdi və ona görə bu qalanı ələ keçirmək çətin bir iş idi. Mənbədə göstərilir ki, Ərciş qalasından sonra "…zəfər nişanəli bayraqlar Bargiri qalasına tərəf qaldırıldı. [Şahın] ali iradəsi o möhkəm qalanı almaq məqsədi ilə döyüş və hərb vasitələrini işə saldı. Qalada mühasirə olanlar da mərdanəliklə müdafiəyə qalxdılar. Bir neçə gün aralarında mübarizə və mücadilə atəşi alovlandı, ta o vaxta qədər ki, mühasirədəkiləri hədsiz qorxu bürüdü və [onlar] aman istəmək qərarına gəldilər. Qala hakimi aman istəyərək bağışlandı" (307).

Sultan Süleyman tərəfindən bu qalanın hakimi vəzifəsinə Məhəmməd bəy Zakiroğlu adlı birisi təyin edilmişdi və o, qala darvazalarını möhkəmcə bağladaraq öz tüfəngçilərini və oxatanlarını qala divarları üzərində yerləşdirmişdi. Yəni qala qarnizonu qala daxilində möhkəmlənməklə onun müdafiəsini təmin etməyə çalışırdılar. Qala divarlarının möhkəmliyinə və qala müdafiəsinin ciddiliyinə baxmayaraq Səfəvi əmirləri bu qalanı hücumla almaq qərarına gəldilər və ona görə də bütün qüvvələrə hücum əmri verildi. Həmin əmrə müvafiq olaraq qala ətrafında döyüş mövqeləri tutuldu, qala ətrafında toplar yerləşdirildi, hər bürcün müqabilində səngərlər qazıldı.

"Toplardan atəş açdılar. Quşların və vəhşi heyvanların qulaqları qazğan daşının fəryadının və gurultusunun təsirindən, sözlə ifadəsi mümkün olmayan bir dəhşət və hiddətlə "Qiyamət vaqe olacağı (qopacağı) vaxt"ın *["Qurani-Kərim", "Vaqiə" su-*

*rəsi, 1-ci ayə*] avazını dinləyirdilər. Günəşlə ayın qulağı top daşı zərlərinin zərbəsindən eşitmə duyğusu qüvvəti ilə "Ürəkləri dəhşətə salan qiyamət! Nədir qiyamət?! Sən nə bilirsən (haradan bilirsən) ki, nədir qiyamət?!" *["Qurani-Kərim", "Qariə" surəsi, 1-3-cü ayələr*] sədasını eşidirdi. Bürcləri və divarları elə dağıtdılar ki, "Onların altını üstünə çevirdik" *["Qurani-Kərim", "Hicr" surəsi, 74-cü ayə*] doğruluğunun sübutu müşahidə edildi. Qızılbaş qoşununun dilavərləri neçə gün xəncər vuran günəşin zərnigar bayrağının bu mavi hasarın (səmanın) damında doğduğu vaxtdan ta sabit və səyyar göy cisimlərinin məşəllərinin dövr edən asimanın bürcü üzərində şölələnməsi zamanına qədər hərb və savaş alətlərini işlətməklə məşğul oldular. Qala adamları da yetərincə qiymətli matah olan candan və başdan vaz keçib, bürclərin və divarların üstünə çıxaraq tüfəng atırdılar. [Amma axırda] qazilərin qorxusundan Zakiroğlunun və b. rumilərin təbiətinə dəhşət atəşi düşdü və başlarından heyrət tüstüsü çıxdı. Onlar bürclərin başına gəlib aman istədilər. Dinin pənahı olan şah onların günahından keçib onlara qayğı göstərəcəyi barədə əmin etdi. Məhəmməd bəy Zakiroğlu qaladan çıxıb, aman istəyərək qalanı təslim etdi" (308).

Şah Təhmasib tərəfindən təşkil edilmiş ikinci Səfəvi dəstəsinin fəaliyyəti haqqında da bəzi məlumatlar mövcuddur. Yuxarıda qeyd edildiyi kimi, bu dəstəyə Pasinin alınması və təxrib edilməsi tapşırılmışdı. "Əhsənüt-təvarix" əsərində ikinci dəstəyə daxil olan Şahverdi sultan Ziyadoğlu və Ədhəm bəy Rumlunun fəaliyyəti haqqında belə qeydlər vardır: "Şahverdi sultan Ziyadoğlu və Ədhəm bəy Rumlu Pasin və Avnikə basqına getmişdilər. Onlarla oranın hakimi Murad bəy arasında döyüş oldu. Qazilər onu (Murad bəyi) atdan aşırıb onun mülazimlərindən bir çoxlarını qətlə yetirdilər. Murad bəy min cür zəhmətlə özünü qalaya saldı. Adlı-sanlı əmirlər o diyarı yandırıb fələk şövkətli orduya qoşuldular. Dinin pənahı olan şah, əmirləri düşmənlərin vilayəti üzərinə göndərdikdən sonra hərəkətə keçdi.

... O zaman Tehran qorçuları, Məhəmmədi bəy Türkman və Əmirşan bəy Bayat qəzavü-qədər kimi cərəyan edən fərmana

əsasən, aləmin pənahı olan dərgaha gəlirdilər. Mərdimazar və fəsadçı kürdlərə rast gəldikləri hər yerdə onları qarət edirdilər. Onlar Əlbaqa çatdıqları vaxt Kürdüstan hakimləri Zeynal bəy və Şahqulu Bəlilan batil düşüncə ilə qüdrətsiz bir dəstə toplayıb müqavimətə və döyüşə hazır oldular. [Lakin] zəfər şüarlı qoşunların gəlişinin səs-küyünü eşitdikdə fərar yoluna tələsdilər. Qazilər o vilayəti çalıp-çaparaq Vostanda əmirlərin ordusuna qoşuldular. Dinin pənahı olan şah Şahverdi sultan Ziyadoğlunu və Ədhəm bəy Rumlunu Pasinə basqından sonra Bitlisə yolladı. Elə ki onlar Muş qalasına çatdılar, qəflətən o diyarın sipahilərinin üstünə tökülüşdülər və bir sıra [sipahiləri] qətlə yetirdilər. Çoxlu adamlardan ibarət bir dəstə döyüş əzmi ilə qaladan çıxdı. Onların əksəriyyəti aslan ovlayan dilavərlərin qılınclarına yem oldular. Qazilər sözügedən ölkəni yandırıb Bitlisə yollandılar. [Oranın] hakimi Mustafa bəy Mükri, Nasir bər Rizqi və Əbdal bəy üç yüz süvari ilə döyüş və vuruş iradəsi ilə qaladan çıxdılar. Qazilər o şövkətli güruhdan bir çoxlarını qətlə yetirdilər. Qılıncdan qurtulanlar ölüm pəncəsindən xilas olub qalaya qaçdılar. Əmirlər o diyarı çalıb-çapdılar, yandırdılar və Əxlatda ali orduya qatıldılar" (309).

Bayram bəy Qacarın və Gürcüstan hakimi Keyxosrov Davelinin daxil olduğu dördüncü dəstə isə həvalə olunan tapşırığın icrası zamanı gözlənilən nəticəni əldə edə bilməmişdi. Adları çəkilən əmirlər müştərək qoşun dəstəsi ilə Davelinə yürüş edərək orada iki-üç qalanı ələ keçirə bilmişdilər. Ancaq onların sərəncamında olan qoşun dəstəsi elə də böyük bir dəstə deyildi. Ərzrum bəylərbəyi İsgəndər paşa bundan xəbər tutaraq həmin dəstənin üzərinə hücum təşkil etdi. İsgəndər paşa həm böyük qüvvə ilə, həm də çox böyük sürətlə Bayram bəy Qacar ilə Keyxosrov Davelinin düşərgəsinə basqın etdi. İsgəndər paşanın hücumu zamanı Bayram bəylə Keyxosrov döyüş tapşırığının icrasına yollanmışdılar. Dördüncü dəstəyə daxil olan Toyqun bəy Qacarla Bədri bəy Yüzbaşı düşərgədə idilər və İsgəndər paşanın hücumunun qarşısını almağa da bu əmirlər çıxdılar. Lakin İsgəndər paşanın açıq qüvvə üstünlüyü onlar arasında baş verən döyüşün

taleyini də həll etdi. Səfəvi qoşun dəstəsindən 300 nəfərin qətlə yetirildiyi bildirilirdi. İsgəndər bəy isə bu döyüşdə üstünlük əldə edərək Ərzruma qayıtdı (310).

Şah Təhmasib də öz təzkirəsində İsgəndər paşanın Bayram bəylə Keyxosrovun dəstəsi üzərinə hücumu barəsində müxtəsər məlumat vermişdi. Şah Təhmasib bu hadisə ilə bağlı belə yazırdı: ”Xülasə, bundan (yəni səfərdən) əvvəl Qarabağın Xurcunlu camaatından və gürcülərdən ibarət 500 nəfər Daveliyə getmişdi. İsgəndər paşa budan xəbərdar olur. O, 10 min nəfərlə onların yolunun üstünü kəsir. Xurcunlu camaatı az olmalarına baxmayaraq, onlarla üzbəüz vuruşurlar. Aydındır ki, 500 nəfər 10 min nəfərin qarşısında hünər göstərə bilməzdi, odur ki, qaçırlar. Onların bir hissəsi öldürülür. Başlarını böyük təntənə ilə İstanbula göndərdi. Həmin hadisəni böyük qələbə adlandırmışdı. Bundan o qədər lovğalanmışdı ki, onu şərh etmək mümkün deyildi. Belə fikirləşdim ki, əgər mən özüm onun üstünə getsəm, o, qaladan bayıra çıxmaz. Ərzrum qalasını bu vaxt tutmaq çətin idi” (311).

Yuxarıda adları çəkilən bir sıra qalalar Səfəvi qoşunları tərəfindən ələ keçirilsə də, bölgədə ciddi narahatçılıqlara yol açan İsgəndər paşa hələ də təhlükə mənbəyi olaraq qalmaqda idi. Şah Təhmasibin bölgəyə qoşun çıxarmaqda əsas məqsədi də məhz İsgəndər paşanı cəzalandırmaq idi. Ona görə də Şah Təhmasib bu istiqamətdə qətiyyətli addımlar atılmasına göstəriş verdi və İsmayıl Mirzənin rəhbərliyi altında Ərzrum istiqamətinə böyük qoşun dəstəsi göndərdi. Şah Təhmasib özü bu yürüşdə iştirak etmirdi və səbəbini də yuxarıdakı qeydlərdə göstərmişdi. O belə güman edirdi ki, özünün qoşunla Ərzrum üzərinə yürüş edəcəyi təqdirdə İsgəndər paşa qorxusundan qaladan kənara çıxmazdı və qala daxilində canını qorumağa çalışardı. O güman edirdi ki, Səfəvi qoşunlarına İsmayıl Mirzənin rəhbərlik edəcəyi halda İsgəndər paşa qaladan kənara çıxar və bu halda onun cəzalandırılması üçün də bir imkan əldə edilə bilərdi.

İsgəndər paşanın Səfəvi qoşunlarına qarşı fəallaşması haqqında xəbər alan kimi Şah Təhmasib tərəfindən “fərman verildi ki, o ordunun öndə gedəni və o qoşunun Cahan Pəhləvanı olan

aləm sakinlərinin şahzadəsi və cahan sakinlərinin gözünün nuru Şücaüddövlə İsmayıl mirzə bir dəstə bahadırla İsgəndər paşanı dəf etmək üçün Ərzuruma yollansın. Adlı-sanlı əmirlərdən Şahverdi sultan Ziyadoğlu, Bədir xan Ustaclu, Şahqulu sultan Ustaclu, Məhəmməd bəy Türkman, Ədhəm bəy Rumlu, Əmirqeyb Ustaclu, Allahqulu bəy Ayçəkoğlu, Həmzə bəy Talış, Xəlifə Ənsar, Uluğxan bəy Səədlü, İbrahim xəlifə Alpavut, Zülfüqar bəy Pazuki, Qünqürat sultan Rumlu, min [nəfər] Tehran qorçusu, altı yüz Naxçıvan qorçusu aləm sakinlərinin şahzadəsinin sərəncamına verildilər. Qazilər sürətlə yola düşdülər. Aləm sakinlərinin şahzadəsi, Şahverdi sultan Ziyadoğlunu, Məhəmmədi bəy Türkmanı və Ədhəm bəy Rumlunu mənqəlay təyin edib Pasinə yolladı. Özü isə nəfis vücudu ilə, ağır daş dağları həmlə küləyi ilə yerindən qaldıran, oxun ucu ilə Tiri (Merkuri planetini) öz oxundan dəbərdən, düz nizə ilə Müştərinin üzüyünün qaşını çıxaran və dava atəşini alovlandırdıqları zaman oxun ucu ilə günəşin zərnigar qübbəsini fələklərin laciverd sipərinə tikən çox sayda kinli əsgərlər, zəmanə igidləri və döyüş canbazları ilə onların ardınca Pasinə tərəf hərəkətə gəldi” (312).

Səfəvi qoşunlarının avanqardı (mənqəlay) təyin edilmiş Şahverdi sultan Ziyadoğlu, Məhəmmədi bəy Türkman və Ədhəm bəy Rumlu Pasində dayanmış Osmanlı dəstəsi ilə döyüşə girdilər və elə bir ciddi çətinlik çəkmədən həmin dəstəni məğlubiyyətə uğratdılar. Bu döyüşün gedişində Osmanlı dəstəsindən 300 nəfər qətlə yetirildi və bu dəstədən salamat qalanlar isə qaçaraq Ərzruma yollandılar. İsgəndər paşa Səfəvi qoşun dəstəsinin Pasin ətrafında uğur əldə etməsi xəbərini eşidincə Ərzrumun müdafiəsinin möhkəmləndirilməsi üçün həm Osmanlı sultanından, həm də ətraf bölgələrin hakimlərindən əlavə kömək istədi. Bu xahişdən sonra Sultan Süleyman Ərzruma əlavə olaraq silahlı dəstə göndərdi. Amma məlum idi ki, Ərzrum daxilində böyük bir qüvvə saxlamaq mümkün deyil. Qış mövsümünün yaxınlaşması da qala daxilində çox böyük qüvvənin saxlanmasını təminat məsələləri baxımından mümkünsüz edirdi (313).

Qızılbaş qoşunlarının yaxınlaşması xəbərini alan kimi İsgəndər paşa Ərzincan, Bayburd, Kəmax, Mərəş və Trabzondan, Gürcüstanın Dadian yə Guryal vilayətlərindən onun yanına toplanmış Rum əmirləri və sancaqbəyilərlə məsləhətləşdi ki, qala xaricində döyüşə girsinlər, yoxsa qalanı müdafiə etsinlər. Osmanlı əmirləri qala xaricində döyüşməyi münasib bilməyib dedilər ki, İsmayıl Mirzə böyük qoşun dəstəsi ilə gəlmişdir və bu qoşunlara müqavimət göstərmək üçün yetərli qüvvə mövcud deyil.

"Əhsənüt-təvarix" əsərindəki məlumata görə isə, İsgəndər paşa Səfəvi qoşunlarının qarşısına çıxardığı 250 atlıdan ibarət olan dəstənin 50 nəfərlik qızılbaş dəstəsi tərəfindən məğlub edilməsindən sonra öz əmirlərinin məşvərət toplantısını keçirdi və meydan döyüşünün keçirilib-keçirilməməsi haqqında onların fikirlərini dinlədi. Məlum olduğu kimi, Osmanlı əmirləri də qaladan çıxmamağı və qala üzərində yerləşdirilmiş toplar və tüfənglər vasitəsi ilə müdafiə olunmağı tövsiyə etdilər. "Amma o zaman Ərzincan, Tərcan, Bayburd, Kəmax, Mərəş, Trabzon və Kürdüstan vilayətlərindən cəmləşmiş türklərin və kürdlərin çoxluğu səbəbindən İsgəndər paşanın pərişan beyninin yuvasına lovğalıq və qürur quşu qeyri-mümkün xəyalın yumurtasını qoymuşdu. Buna görə də o, əmirlərin sözünü qəbul etmədi və dedi:

- Hərb tərtibinə, vuruş və zərbə alətlərinin (silahların) hazır edilməsinə başlamaq lazımdır" (314).

"Əhsənüt-təvarix" müəllifi də yazırdı ki, Osmanlı əmirləri İsgəndər paşanın qərarını qəbul etmək məcburiyyətində qaldılar və ona görə də özlərini həyat və ölüm təhlükəsi arasında qoydular. Bu məşvərət toplantısının səhəri günü İsgəndər paşa qala kənarına çıxaraq döyüş mövqeləri tutdu. Elə həmin gün Səfəvi döyüşçüləri irəli çıxarılmış Osmanlı dəstəsinin döyüşçülərindən birini əsir götürdülər və onu İsmayıl Mirzənin yanına gətirdilər. Həmin əsirin dindirilməsi zamanı məlum oldu ki, İsgəndər paşa artıq qala kənarında döyüş mövqeyi tutub və Səfəvi qoşunlarını qarşılamağa hazırdır. Bunu eşidən İsmayıl Mirzə "səba və şimal küləklərini ötən, ipək kimi saçları olan, dağ kimi yerində dayanan

və qırmancın işarəsi ilə quştək qanad açan bir ata minib döyüş və vuruş meydanına yollandı" (315).

"Tarix-i aləmara-yi Abbasi" əsərində olan məlumata görə, müəyyən sayda qoşuna malik olan İsgəndər paşa lovğalanaraq Səfəvi qoşunlarından qorxmadığını bildirmişdi. Bildirilir ki, İsgəndər paşa ağıllı insanların məsləhətlərinə qulaq asmadı, qala xaricində döyüşə girmək qərarına gəldi və gənc döyüşçülərdən ibarət bir dəstəni mənqəlay edərək Səfəvi qoşunları istiqamətinə göndərdi. Sonra da İsgəndər paşa özü qoşun dəstəsi ilə qalanın yarım fərsəxliyinə çıxdı və orada döyüş mövqeyi tutdu. Qoşun dəstəsinin önündə onun göstərişi əsasında 500 nəfərlik tüfəngçilər, 20 dəst top arabası, habelə zərbzən düzdürdü (316).

İsgəndər Mirzə Osmanlı qoşunlarının qaladan kənarda döyüş mövqeyi tutmasını sevinclə qarşıladı və dərhal da rəhbərlik etdiyi dəstəyə irəli hərəkət etmək göstərişi verdi. İsgəndər paşanın rəhbərliyi altında olan qoşun dəstəsinə qarşı uğurlu döyüş aparmaq üçün İsmayıl Mirzə Səfəvi qoşun dəstəsini qruplaşdırdı, bu dəstənin sağ və sol cinahını müəyyənləşdirdi, mərkəzdə lazım bildiyi qüvvələri yerləşdirdi. Bu düzülüşdə də İsmayıl Mirzə irəli atıldı. Səfəvi dəstəsi tərəfindən döyüşü ilkin olaraq çərxçilər başladlar. Onlar Osmanlı dəstəsinin qarovulları üzərinə atıldılar və onlara çox ciddi zərbə vurdular. Osmanlı qarovulları böyük itki verırık geri çəkildilər. İsmayıl Mirzənin çərxçilərinin belə şücaəti Osmanlı qoşunları arasında böyük təşviş və həyacanla qarşılandı. Qızılbaş çərxçilər ardınca da İsgəndər paşanın dəstəsinin mərkəz hissəsinə hücum etdilər. Mərkəzdən zərbə vurmaq vəzifəsini çərxçilər öz üzərinə götürdülər. Digər tərəfdən də İsmayıl Mirzənin sağ və sol cinahları öz istiqamətlərindən Osmanlı dəstəsi üzərinə atıldılar. Bununla da tərəflər arasında qızğın bir döyüş başladı (317).

1552-ci ilin sentyabr ayına təsadüf edən Ərzrum döyüşünün gedişi Osmanlı mənbələrinin birində belə təsvir olunmuşdur: "Ərzrum valisi olan İsgəndər paşa, qızılbaşların hücum niyyətini öyrəndiyində, - paşa ağıllı və bilgin döyüşlər görmüş bir adam

idi, - ancaq düşməni görəndə, səbir və qərarının üzəngisi əlindən gedirdi.

Qızılbaş əmirləri də İsgəndər paşanın cəsarətli olduğunu bilirdilər. Buna görə qalanı mühasirə etmək əvəzinə, onun qarşıya çıxmasını gözləyirdilər. Bundan dolayı, bir neçə yerdə tələ və pusqu qurub, bəzi seçkin əsgərləri orada saxladılar. İsgəndər paşanı tələyə salmaq və başına qorxu salmaq sevdasında oldular. Ta ki bu yolla ələ keçirə bilsinlər. Açıqlıqda olan bəxtsiz əsgərləri ilə qalaya doğru getdilər. Elə oldu ki, qalanın önündə qaynar bir həşərat meydana gətirdilər. Könlü sadə paşa, düşmənin hiyləsindən və məkrindən qafil olub, dörd-beş yüz döyüşçü seçərək, bu igidləri ilə düşmən üzərinə yüyürdü. Sərt bir döyüşə girişərək neçə min qızılbaşı bir anda ölüm torpağına saldı. Amma məlunlar bir az qaçmaqlarını izhar edərək, paşanı qabağa çəkdilər. Pusqu yerləri olan mahala yaxınlaşanda, onu əhatə edib hər yandan üstünə at saldılar. Düşmən tərəfi çox, bunlar sayca az idilər. Nəhayət, qızılbaş tayfası, hesaba gəlməyən ölçüdə çoxluq təşkil edib, qələbə qazandılar. Əmirlərindən bir neçə irəli gələn bəylərbəylər şəhadət şərbətini nuş etdilər. Bunlardan Trabzon bəyi Mustafa bəy, Malatya bəyi Xeyrəddin bəy, Bozok bəyi İsa bəy və Qarahisar bəyi Mahmud paşa idi. Bu dörd igid şəhidlər zümrəsinə qatıldı. Ərzrumun sağında və solunda ağaları əsir edib ələ keçirdilər. Qan tökən paşa da, özünə havadar və qafadar olan bir neçə döyüşçü bahadur ilə möhkəm vuruşdu. Ancaq çarə tapmayaraq salamat yaxasından yapışdı. Vuruşaraq qalaya doğru can atdılar. İşin düzü budur ki, İsgəndər paşadan başqasının bu döyüşü röyasında belə görməsi mümkün deyildi. Adı keçən paşadan başqa vali olsa da, bəlkə Ərzrum dilavərlərindən bir tərəfin xilas olması ehtimal xaricində idi. Qiymət bilən o cahan padşahı, İsgəndər paşaya xələt və mücəvvərli qılınc göndərərək, xətrini ələ aldı. Ayrıca bir xətti-şərif də göndərib, bunları yazdırdı: "İsgəndər! Yaxşı günlər görəsən və hər vəchlə lütf-ü ehsana yaraşıq olasan! Sən şah oğlunun bənzəri deyilsən. Onun əsgəri çox və naqis olub, bu mərtəbədə müqabiləyə girişməyə qeyrəti ola da bilməzdi. Şübhəsiz sənə lazım olan belə bir qeyrət göstərmək idi. Doğrudan

da, qeyrətində heç bir qüsur tapılmadı. Könlünü xoş tutasan" – deyə buyurmuşdu" (318).

İstər yuxarıdakı məlumatdan, istərsə də digər Osmanlı qaynaqlarındakı məlumatdan belə bir qənaət hasil olur ki, İsmayıl Mirzə qarşısında dayanan Osmanlı qüvvələrini məğlubiyyətə uğratmaq üçün fənd işlətmiş və qüvvələrinin böyük bir hissəsini pusquda gizlətmişdi. İsgəndər Mirzə qarşısında dayanan azsaylı Səfəvi dəstəsinin geri çəkilməyə başlamasını bütünlükdə Səfəvi qüvvələrinin uğursuzluğunun başlanması kimi qəbul etmiş və geri çəkilən dəstəni təqib etməyə başlamışdı. Nəticədə də İsgəndər paşanın dəstəsi mühasirəyə düşərək çox ciddi itkilərlə üzləşmiş və hətta İsgəndər paşa da yaralanmışdı. Digər məlumatlara görə, Sultan Süleyman məktubdan əlavə İsgəndər paşaya qiymətli xələt, qızıl ilə bəzədilmiş bir qılınc, süslənmiş bir toppuz da göndərmişdi (319).

Səfəvi mənbələrinə görə isə tərəflər arasında gərgin meydan döyüşü baş verdi və bu döyüş elə başlanğıcdan İsmayıl Mirzənin rəhbərlik etdiyi dəstənin təşəbbüsü altında baş verdi. Bildirilir ki, döyüş başlanan kimi qızılbaşlar dəstə-dəstə Osmanlı qoşunları üzərinə atıldılar. İlkin olaraq irəli atılan qızılbaş əmirləri arasında Məhəmmədəli bəy Türkman, Ədhəm bəy Rumlu və Əmirqeyb sultan Ustaclı da var idi. Mənbələrdə bu əmirlərin şücaət və əzmkarlıq göstərmələri qeyd edilmişdir. Bu əmirlərdən başqa Uluğxan bəy Sədlinin, İbrahim xəlifə Alpautun da döyüşün başlanğıcında qorxu bilmədən irəli atıldıqları mənbəlrədə öz əksini tapmışdır. Bununla da tərəflər arasında qızğın və qanlı bir döyüş başladı.

Ərzrum qalası ətrafında Osmanlı və Səfəvi qoşun dəstələrinin döyüşü haqqında daha geniş məlumata "Əhsənüt-təvarix" əsərində rast gəlmək mümkündür. Adı çəkilən mənbədə bu döyüşün gərginliyi aşağıdakı kimi təsvir edilmişdir: "Bir-birinə gürz, nizə, qılınc və xəncər vurdular. Buluddan yağış yağdığı kimi, qılıncdan qan yağırdı. Dilavərlərin meyitlərindən və mübarizlərin cəsədlərindən çöl asimanla bərabər olmuşdu. Xəncərin ildırımı bahadırların canına gülür və Misri qılıncın göz yaşı ölülərin halına ağla-

yırdı. İsgəndər paşa qızılbaş əsgərlərinin igidliyini müşahidə etdikdə qəm və kədər qulduru onun könül şəhristanına basqın etdi və qorxudan başında beyni və mədəsində ödü cuşa gəldi. Onun dərisi nərgiz gülü kimi sap-sarı saraldı və lalənin şehi kimi damarlarında qan donub qaldı. O, can qorxusundan bir dəstə rumi ilə mərkəzdən ayrılıb, qazilərə həmlə edərək onları geri oturtdu. Bu əsnada əmirlər və b. qazilər İsgəndər paşanın ətrafını və yan-yörəsini dövrəyə aldılar, iti qılınc və atəş saçan nızə yarası ilə o külbaş sərgərdanların həyat damarını çıxardılar. Qılınc öz dilini çəkib, "Hər bir kəs (hər bir canlı) ölümü dadacaqdır. Sonra da (qiyamət günü) hüzurumuza qaytarılacaqsınız!" *["Qurani-Kərim", "Ənkəbut" surəsi, 57-ci ayə]* ayəsinin məzmununa uyğun surətdə sərsəm rumilərin başına qaxınc etdi və şiddətli intiqam alan Qəhharın (Allahın) qəzəbinin zərurətinə müvafiq olaraq, qan tökən nizə əfi ilan kimi pis taleli düşmənlərin bədənlərinin divarlarında özünə yer elədi.

... Bu tərəfdən qızılbaş qoşunları məst dəvələr kimi köpük salaraq və rəcəz oxuyaraq, döyüş meydanına girib düşmənin ruh süvarisini bədən atından piyada edirdilər. Digər tərəfdən, rumilər dəstəsi qiyyə çəkib, qartallar kimi ölümcül dimdiklərini mübarizlərin bədənlərinə vuraraq onları yaşayış kürsüsündən həlak torpağına sərirdilər.

... [Ruh] bədəndən ayrılaraq buxar kimi aşağıdan yuxarıya getdi, külək və atəş kimi yer üzündən [çıxıb] əsl mərkəzinə və həqiqi məskəninə tələsdi. Bu nilgün qəfəsin altında (mavi səmada) ruh quşunun pərvazından ruhlar aləmi peyda oldu.

... O əsnada aləm sakinlərinin şahzadəsi qorxunc bəbir və qəzəbli şir kimi bir dəstə qorçu ilə döyüş meydanı üzərindəki bir təpənin üstünə çıxdı. Rumilərin gözü o həzrətin bayrağına düşdükdə onların sabitqədəmliyinin sütunları sarsıldı və öz idbar yüyənlərini fərara doğru çəkib apardılar. Qazilərin qorxusundan yeniçərilər tüfənglərini qoyub qalaya tərəf qaçdılar" (320).

Sonra bildirilir ki, qızılbaş döyüşçüləri geri qaçmaq istəyən yeniçərilərin hamısını qətlə yetirdilər və bununla İsgəndər bəyin dəstəsinə də təsirli bir zərbə vurulmuş oldu. Verilən məlumata

görə, təkcə öldürülmüş yeniçərilərin sayı 500 nəfərdən çox idi. Döyüşün gedişinin heç də uğura aparmadığını görəndə İsgəndər paşa özü də geri çəkilmək və qalaya sığınmaq məcburiyyəti qarşısında qaldı. Ona görə bütün Osmanlı qüvvələrinin geri çəkilməsi başlandı. Qızılbaş döyüşçüləri geri çəkilən Osmanlı döyüşçülərinin təqibinə girişdilər. Onlar yaxalaya bildikləri Osmanlı döyüşçülərini qətlə yetirdilər. Alınan zərbədən sonra Osmanlı dəstəsi çarəsiz vəziyyətə düşüb yalnız geri çəkilmək barəsində düşünürdü. Mənbə məlumatlarına görə, geri çəkilən Osmanlı döyüşçüləri əvvəlcə giriş qapısı həndəvərində tıxac yaratdılar. Sonra isə təşviş və həyəcandan giriş darvazalarının bağlanması da yaddan çıxdı. Verilən məlumata görə, hətta Məhəmməd bəy Türkmanın döyüşçülərindən üç nəfər qala daxilində də girə bilmişdilər (321).

"O həzrət (İsmayıl mirzə) istədi ki, nəfis vücudu ilə rumiləri dəf etmək əzmi ilə meydana getsin. ... Bədir xan və Şahqulu sultan Lələ aləm sakinlərinin şahzadəsinin yüyənini tutub qoymadılar ki, irəli getsin. O həzrətin qəzəb odu alışdı, onları acıladı və qılıncını çəkib həmlə etdi. Onlar onun yüyənini buraxdılar. O əsnada qorçular qoymadılar ki, [İsmayıl] mirzə özü döyüşə atılsın. Həqiqətən, əgər o həzrətə imkan versəydilər, qazilər qalaya girib o hasarı (qalanı) tutardılar. Xəndəkdə və başqa yerlərdə öldürülənlərdən savayı, həmin hərb meydanında rumilərdən iki min beş yüz yetmiş altı nəfər qətlə yetirildi. Mötəbər əmirlərdən Məraş hakimi Kəbir İsa, Misir padşahı Sultan Qansu zamanında Hələb hakimi olmuş Xeyirbəyin qardaşı oğlu Mahmud bəy, İsgəndər paşanın qardaşı Ramazan bəy, Çəmişkəzək hakimi Pir Hüseyn bəy, Malatya hakimi Xeyrəddin bəy, Trabzon valisi Mustafa bəy, Pasin əmiri Heydər bəy, Əli ağa Qullarağası, Bayburdlu Məhəmməd bəy, İsgəndər paşanın arvadının qardaşı Əli bəy və Ərzurum Qazi sı əsir oldular. Həyat paltarını ölüm küləyinə vermiş digər əmirlərin, mötəbərlərin, adlı-sanlıların, seçkin və misilsiz süvari olan cavanların sayı həddən və hesabdan artıq idi" (322).

Qeyd edilməlidir ki, Şah Təhmasib öz qoşunlarını dörd dəstəyə böldüyü üçün bu dəstələr ayrı-ayrılıqda verilən tapşırıqların icrasına başladılar. Həm də bu döyüşlər müxtəlif vaxtlarda həyata keçirilmişdilər. Vaxt baxımından Ərzrum qalası ətrafındakı döyüş Əhlət və Ərciş qalaları ətrafındakı döyüşdən əvvəl baş vermişdi. Bargiri qalasının fəth edilməsi də Ərzrum döyüşündən sonra həyata keçmişdi. Bölgədə aparılan döyüşlər arasında Ərzrum döyüşü öz miqyası və əhəmiyyəti ilə xüsusi ilə fərqlənirdi. Çünki bu qala ətrafında sərhəd bölgəsində hərbi-siyasi vəziyyətin mürəkkəbləşməsində özünəməxsus yeri olan İsgəndər paşaya güclü zərbə vuruldu və həm də Səfəvi dövlətinin gücü və qüdrəti bir daha ortaya qoyuldu.

Bargiri qalası fəth ediləndən sonra Şah Təhmasib bütün qoşunlarla birlikdə Divcamə keçidindən keçib cənuba doğru irəliləməyə başladı. Bu, 1553-cü ilin əvvəllərinə, yəni qış dövrünə təsadüf edirdi. Şah Təhmasib nəzərdə tutmuşdu ki, Naxçıvana geri çəkilsin və qışı orada keçirsin. Havaların soyuq olmasına baxmayaraq, Şah Təhmasib qoşunların bir hissəsini İsmayıl Mirzənin rəhbərliyi altında Kürdüstan vilayətinə göndərdi və bu dəstəyə tapşırıq verdi ki, bölgənin ərzaq ehtiyatlarını məhv etməklə bərabər, orada Səfəvi dövlətinə qarşı mövqe tutmuş qüvvələrə də zərbə vursun. İsmayıl Mirzə ona tapşırılmış olan bu vəzifənin də öhdəsindən bacarıqla gəldi. Kürdüstan hakimi olan Şahqulu sultan Bəlilan, habelə Kürdüstan əmirləri Səfəvi qoşun dəstəsinin qarşısında duruş gətirə bilməyərək qaçıb ətrafa səpələndilər. İsmayıl Mirzənin rəhbərliyi altında olan qoşun dəstəsi çox böyük miqdarda sərvət və mal ələ keçirdi. Sonra Şah Təhmasibin rəhbərliyi altında olan qoşun dəstəsi Əlbağa doğru irəlilədi. Burada olarkən Şah Təhmasib bölgədə yerləşən Gevar məntəqəsinin ələ keçirilməsi üçün İsmayıl Mirzənin, Sevindik bəy Qorçubaşının və Məhəmməd bəy Türkmanın rəhbərliyi altında bir qoşun dəstəsi göndərdi. Amma Gevar keçidinə böyük miqdarda qar yağdığından İsmayıl Mirzə və onun ətrafında olanlar geri qayıtmaq məcburiyyətində qaldılar. Bununla belə, Şah Təhmasib bu kampaniyanın gedişində iki dövlətin sərhəd böl-

gəsində yerləşın təhdid ocaqlarını aradan qaldırmaqla, Osmanlı dövlətinin şərqindəki bir sıra qala və məntəqələri məhv etdi və bu bölgədə Səfəvi dövlətinə qarşı formalaşa biləcək təhdid imkanlarını da xeyli məhdudlaşdıra bildi. 1553-cü ilin mart ayının sonu, aprel ayının əvvəllərində Şah Təhmasib qoşunla birlikdə Naxçıvana gəldi (323).

## 8. Osmanlı qoşunlarının Səfəvi dövləti üzərinə dördüncü yürüşü

Osmanlı dövlətinin şərq sərhədləri boyunca baş verənlər sözsüz ki, Sultan Süleyman tərəfindən də ardıcıl şəkildə izlənilirdi və bu ərazilərdə baş verənlərə qarşı heç də biganə deyildi. Bu bölgədə cərəyan edənlər Osmanlı sarayının diqqət mərkəzində idi və Səfəvi qoşunlarının bölgədəki təşəbbüskarlıqlarının davam etməsi Osmanlı dövləti üçün ciddi nəticələrə gətirib çıxara bilərdi. Ona görə Sultan Süleyman da, Osmanlı saray əyanları da şərq hüdudlarının möhkəmləndirilməsi, o cümlədən də Şah Təhmasibə ciddi zərbə vurulması məsələsini diqqətdən kənara qoymurdular. Sultan Süleyman tərəfindən Ərzrum bəylərbəyi olan İsgəndər paşanın sərəncamına müəyyən sayda qoşun dəstəsi göndərilməsi, əslində, Osmanlı sultanının özünün iştirakı olmadan Şah Təhmasib təhlükəsinin şərq hüdudlarından uzaqlaşdırılması istəyi ilə bağlı idi. Amma kömək göndərilməsinə baxmayaraq, İsgəndər paşa gözlənilən ümidi doğrultmadıqda Sultan Süleyman özü əməli fəaliyyətə keçmək qərarına gəldi və Səfəvi dövlətinə qarşı yeni müharibə hazırlıqlarına başlanması üçün göstəriş verdi. Hətta Osmanlı sultanı 1552-ci ilin payızında Ədirnədən İstanbula dönərək Səfəvi dövlətinə qarşı yeni bir müharibənin hazırlıqlarına başladı. Bu məsələ ilə bağlı Sultan Süleyman Avropa cəbhəsində davam edən bəzi döyüşlərin dayandırılmasını da lazım bildi. O cümlədən, Osmanlı sultanı göstəriş verdi ki, Macarıstandakı Eger qalasının mühasirəsi dayandırılsın və Rumeli bəylərbəyi olan Uzun Sokullu Mehmet paşa sərəncamında olan qoşun dəstəsi ilə geri qayıtsın. Nəzərdə tu-

tulmuşdu ki, Rumeli qoşunları Anadoluya gəlsin, qışı orada keçirməklə bu qoşunlar həm də yürüş hazırlıqlarını və tədarüklərini görsün. Zəruri olan hazırlıq işləri başa çatdırdıqdan sonra bu qoşunlar yazın açılması ilə Sivasda toplanmalı və Səfəvi dövləti üzərinə yürüş etməli idilər (324).

1552-ci ilin sonlarından etibarən Səfəvi dövləti üzərinə hücum hazırlıqları ilə bağlı Sultan Süleymanın bir sıra əyalət bəylərbəylərinə də məktublar göndərdiyi məlumdur. Həmin məktublarda da bildirilirdi ki, qarşıdan gələn yayda Səfəvi dövləti üzərinə yürüşə başlanması planlaşdırılmışdır. Ona görə tələb olunurdu ki, əyalət hakimləri də belə bir yürüşün həyata keçirilməsinə hazırlıq görsünlər. Sultan Süleyman hələ Səfəvi qoşunlarının Əhlət ətrafında olduğu zamanlar Diyarbəkr bəylərbəyi Ayaz paşaya göndərdiyi məktubda bildirirdi ki, qarşı tərəfin hücum və yürüşlərinə son qoymaq məqsədilə yeniçəri və saray qullarından ibarət olan qüvvələrin rəhbərliyinə sədr-əzəm Rüstəm paşa gətirilmişdir. Rüstəm paşaya tapşırıq verilmişdi ki, Səfəvi qoşunları üzərinə hücuma hazırlaşsın və həmin hücum 1552-ci ilin sonlarında başlasın. Diyarbəkr bəylərbəyindən də tələb olunurdu ki, səfəvilərə qarşı başlanacaq “cihadi-əkbərdə” (böyük cihadda) o da sərəncamında olan qoşun dəstəsi ilə fəal şəkildə iştirak etsin (325).

1552-ci ilin sonlarında Sultan Süleyman tərəfindən Diyarbəkr bəylərbəyi Ayaz paşaya başqa bir fərman da göndərilmişdi. Həmin fərman da Səfəvi hüdudları üzərinə növbəti yürüş hazırlıqları ilə bağlı idi. Osmanlı sultanı tələb edirdi ki, qoşunlar yığılsın, onların təminat və təchizat məsələləri həll edilsin və bu qoşunlar Harputda sultan düşərgəsinə toplaşsınlar. Osmanlı sultanının fərmanına əsasən, sədr-əzəm Rüstəm paşa, Ərzrum bəylərbəyi İsgəndər paşa, habelə Anadolu, Sivas, Qaraman, Mərəş və Hələb bəylərbəyləri də sərəncamlarında olan qoşun dəstələri ilə müvafiq hazırlıqlardan sonra Harputa doğru irəliləməli idilər. Ərzrum bəylərbəyi İsgəndər paşaya göndərilən fərmanda da ayrıca olaraq ondan yeni səfərə hazırlaşmaq tələb olunurdu. İsgəndər paşadan tələb olunurdu ki, 50 minlik bir qoşun toplansın

və bu qoşunun bütün təchizat tələbləri ödənsin. Oxşar fərmanlar Kürdüstan və Şəhrizol bölgələrindəki yerli hakimlərə də göndərilmişdi (326).

Osmanlı qoşunlarının Səfəvi hüdudları üzərinə Naxçıvan səfəri kimi tanınan növbəti yürüşünə Krım xanı, Gürcüstan və Kürdüstan əmirləri də cəlb edilmişdi. Onlara da konkret tapşırıqlar verilmişdi. Krım xanı 50 ədəd gəmi ilə öz qoşunlarını Trabzona gətirməli və onları sultan düşərgəsinə istiqamətləndirməli idi. Eyni zamanda Krım xanı Osmanlı qoşunları üçün iaşə və silah ehtiyatlarının daşınmasında da iştirak etməli idi. Kürd bəylərinə göndərilən hökmdə onların əmlaklarına vərəsəlik hüququnun tətbiqinə razılıq verilməsi bildirilməklə bu bəylərin də Naxçıvan səfərində daha fəal olmaları təşviq edilirdi (327).

Yəni Naxçıvan səfərinin uğurla tamamlanması və Şah Təhmasibə güclü bir zərbə vurulması üçün uzun illərdən bəri həyata keçməyən planların nəhayət ki, baş tutması üçün Sultan Süleyman ciddi hazırlıqlar görürdü. Bu səfər zamanı Osmanlı sultanı yalnız şərq hüdudlarında yaşanan gərginliyi aradan qaldırmaqla kifayətlənmirdi. O, ümumən, bu gərginliyin səbəbi kimi gördüyü Səfəvi dövlətinə güclü bir zərbə vurmaq və bu dövləti süquta uğratmaqla Səfəvi təhlükəsini birdəfəlik aradan qaldırmaq istəyirdi. Tarixdən məlumdur ki, Səfəvi üzərinə 1548-49-cu illərdə baş verən hərbi yürüşdən sonra Sultan Süleyman heç bir hərbi yürüşdə iştirak etməmişdi. Çox güman ki, bu məqam da Naxçıvan səfərinə xüsusi hazırlıqlar görülməsini şərtləndirirdi. Sultan Süleyman yəqin ki, təxminən 6-7 ildən sonra rəhbərlik etdiyi hərbi yürüşün uğurunu etibarlı şəkildə təmin etmək istəyirdi. Ona görə də bu yürüşə çox ciddi hazırlıqlar görülürdü. Naxçıvan yürüşünə hazırlıqları gücləndirmək üçün baş vəzir (sədr-əzəm) Rüstəm paşa da Ağsaraya göndərilmişdi. 1553-cü ilin əvvəllərində, yəni qış mövsümündə Rüstəm paşa yenidən İstanbula çağırıldı və ona Naxçıvan səfərinin hazırlıqları ilə bağlı əlavə göstərişlər verildi. Eyni zamanda Rüstəm paşanın İstanbulda olduğu vaxt Sultan Süleymanın özünün Naxçıvan səfərinə rəhbərlik edəcəyi qətiləşdi və buna uyğun olan göstərişlər də verildi (328).

Rüstəm paşa Naxçıvan səfərinə son hazırlıqlar barəsində sultandan lazımi göstərişlər almaqla yanaşı, eyni zamanda sultanın xanımı Xürrəm sultandan böyük şahzadə Sultan Mustafanın qətlinə nail olunması barəsində də müəyyən göstərişlər aldı. Belə ki, Sultan Mustafa, Osmanlı sultanının Gülbahar xanım adlanan başqa bir hərəmindən doğulmuşdu və yaşca böyük olduğu üçün taxt-tac varisi sayılırdı. Xürrəm sultan isə Sultan Mustafadan yaşca kiçik olan oğlunun taxt-tac varisi olmasını istəyirdi və ona görə də Sultan Mustafanın aradan götürülməsi üçün məkrli planlar qurmuşdu. Rüstəm paşa isə bu planın icrasında əsas rollardan birini oynamalı idi. Ailə qohumluğu da ona olan etibarı bir qədər artırırdı. Çünki Rüstəm paşa Osmanlı sultanının Xürrəm sultandan olan qızı ilə evlənmişdi. Yəni Xürrəm sultan Rüstəm paşanın qaynanası idi və Rüstəm paşa da doğma qayınlarından birinin taxt-tac sahibi olmasında maraqlı idi. Sultan Süleymanın 60 yaşını haqlaması onun varisinin kim olması məsələsini də aktuallaşdırmaqda idi. Xürrəm sultanla Rüstəm paşa arasında qurulan plana əsasən, Sultan Mustafanın asiliyi, onun səltənət taxt-tacını ələ keçirmək üçün Sultan Süleymana qarşı qəsd hazırlaması barəsində şayiələr yayılmalı və Sultan Süleyman da bu şayiələrə inandırılmalı idi. Bu yolla Sultan Mustafanın qətlinə nail olmaq olardı. Mövcud məlumatlara görə, Rüstəm paşa bu istiqamətdə intriqalar qurmağa müvəffəq ola bilmişdi. O, Sultan Mustafanın möhrünün surətini hazırlatmış və həmin möhürdən istifadə etməklə Şah Təhmasibə məktub göndərmişdi. Bildirildiyinə görə, Şah Təhmasib də bu məktuba cavab vermiş və onun cavab məktubu yolda Rüstəm paşanın adamları tərəfindən ələ keçirilmişdi. Rüstəm paşa bu məktubun məzmununu Sultan Mustafa ilə Şah Təhmasib arasında bir sövdələşmənin olmasına sübut kimi, Sultan Süleymana çatdırmışdı. Bundan əlavə, Sultan Süleymana xəbər çatdırıldı ki, guya Sultan Mustafanın hakimiyyət iddiasını yeniçərilər dəstəkləməkdədir. Bu zamanlar Sultan Mustafanın doğrudan da yeniçərilər arasında böyük nüfuzu var idi və bu məqam da onun hakimiyyət iddiası ilə yeniçərilərlə sövdələşməyə girməsi xəbərinin doğruluğuna ehtimalı artırdı.

Bəzi məlumatlara görə, Rüstəm paşanın adamları tərəfindən Sultan Mustafa da inandırıla bilmişdi ki, o gərək hakimiyyəti ələ keçirsin (329).

Qeyd edildiyi kimi, Rüstəm paşanın İstanbula çağırılması, Sultan Mustafanın qətlə yetirilməsi üçün məkrli planların hazırlanması 1553-cü ilin əvvəllərinə təsadüf edirdi. Bu zaman artıq Şah Təhmasib də Osmanlı sarayının Səfəvi hüdudlarına yeni yürüşə hazırlaşması barəsində məlumatlar almışdı. Türkdilli tədqiqatçıların fikrincə, məhz bu yürüş hazırlıqlarından xəbər tutduqdan sonra Şah Təhmasib Osmanlı sultanına məktub göndərməyi qərarlaşdırdı. Şah Təhmasib isə Osmanlı sultanına məktub göndərməsinin səbəbini fərqli şəkildə bəyan edirdi.

Təzkirəsində yazdıqlarından aydın olur ki, Şah Təhmasib Ərzrum ətrafında gedən döyüşlər vaxtı əsir alınmış Mahmud bəy adlı Osmanlı əmiri vasitəsi ilə həmin məktubu Osmanlı sarayına göndərdi. Şah Təhmasib yazırdı: "[Belə olduqda] əmirlər Ərzrum ətraflarını talayıb bizim yanımıza gəldilər və biz Naxçıvana yollandıq. Bu əhvalatı müfəssəl yazdım. Ərzrum vuruşmasında əsir alınan və bir müddət bizim yanımızda məhbus olan İlqa hakimi Məhmud bəyi azad etdim, xələt verərək [məktubla bilrikdə] onu həzrət Xandigarın yanına göndərdim. Bir müddətdən sonra həzrəti Xandigarın xüsusi məktubu, habelə Sultan Səlim və həzrət Xandigarın qızının bacıma yazdığı məktub, həmçinin Rüstəm paşanın əmirlərə yazdığı məktub gəlib çatdı. [Məktubun] məzmununun xülasəsi budur:

Elçi göndərin aralıqda sülh bərqərar olsun və qərara gələk ki, bundan sonra acizlər və miskinlər aralıqda pamal olmasınlar.

Biz də onların yazdığı və məsləhətlərinə əsasən seyidlərin pənahı Əmir Şəmsəddinin elçiliyini qərarlaşdırdıq. [O], İstanbula getdikdən sonra Rüstəm paşa və [ciyəri] yanmışlardan bir qədəri ortalığa xoşagəlməyən sözlər atdılar. Hər tərəfdən çoxlu maneçilik edib qoymurdular ki, iş xeyirlə düzəlsin" (330).

Şah Təhmasib məktubunun məzmunu haqqında xəbər verməsə də, çox güman ki, o, iki dövlət arasında yaranan gərginliyin aradan qaldırılması, İsgəndər paşa kimi insanların sərhəd bölgə-

sində təxribatlar törədilməsinin dayandırılması məsələlərinə toxunmuşdu. Məlum idi ki, Şah Təhmasib iki dövlət arasında müharibə gərginliyinin olmasını istəmirdi. Görünür, bu təklif Osmanlı sarayında müəyyən bir maraqla qarşılanmışdı. Amma o da məlumdur ki, Şah Təhmasib hələ Naxçıvana yollanmazdan qabaq Osmanlı sultanı Səfəvi dövləti ilə yeni müharibə hazırlıqlarını vermişdi.

Türkdilli elmi-tarixi ədəbiyyatda Şah Təhmasib tərəfindən yazılıb Mahmud bəy vasitəsi ilə göndərilmiş məktubun mənzum parçası elmi dövriyyəyə çıxarılmışdır. Ehtimal edilir ki, həmin məktubun məzmunu belə idi:

“Ey şəhriyari-müəlla məab
İsgəndər məhabət Süleyman cənab
Nə kim əmr edərsən əmarət sənin
İtaət bizimdir, işarət sənin
Rəvamı arada bu dənli şikak
Nə var olsa mabeynimizdə vifaq
Əgər lütf edib sülhə versən riza
Sana ta olunca edərik dua
Ricavü təmənnamız qıl qəbul
Be həqqi Xuda, be həqqi Rəsul” (331).

Şah Təhmasib yuxarıdakı qeydlərində Xandigarın qızının, habelə Rüstəm paşanın məktublar göndərməsi barəsində məlumatlar vardır. Bu məktubların məzmunu, onların konkret olaraq kimlərə yazılması barəsində məlumat verilmir. Ola bilsin ki, həmin məktublar, yuxarıda işarə edildiyi kimi, Sultan Mustafa ilə Şah Təhmasib arasında sövdələşmənin mövcudluğunun təsdiqi üçün istifadə edilmiş məktublar idi.

Şah Təhmasib yuxarıda istinad olunmuş qeydlərində Osmanlı sarayı tərəfindən iki dövlət arasında sülh yaradılması haqqında təkliflər irəli sürülməsi ilə bağlı verdiyi məlumat müəyyən mənada təəccüblüdür. Çünki artıq 1552-ci ilin sonlarında Səfəvi

hüdudları üzərinə yeni hərbi yürüşə hazırlıqlar əməli mərhələyə qədəm qoymuşdu.

Belə olduğu təqdirdə Osmanlı sarayından sülh təkliflərinin səslənməsi qəribə görünə bilər. Bununla belə, Şah Təhmasibin yazdıqlarından aydın olur ki, o, sülh təkliflərinə rəğbətlə yanaşmış və tanınmış din xadimi Əmir Şəmsəddini elçi kimi Osmanlı sarayına göndərmişdi. Əmir Şəmsəddin həm də Şah Təhmasibin Osmanlı sultanına yazdığı məktubu özü ilə aparmalı idi. Şah Təhmasib bu məktubunda doğrudan da sülh meylli olduğunu nümayiş etdirirdi. Bu məktubunda Şah Təhmasib Osmanlı sultanına olan ehtiramını da ifadə etməyə çalışırdı. O öz məktubunda Sultan Süleymanı dünya vüqarlı, fələk iqtidarlı, Bəhreyn (iki çay arası nəzərdə tutulur- M.S.) xaqanı, müqəddəs məkanın xadimi, padşahlıq nurunun mənbəyi, Süleyman şanlı padşah, Firidun əzəmətli xaqan və s. kimi vəsf edirdi (332).

Şah Təhmasib məktubunda ümid etdiyini bildirirdi ki, iki dövlət arasında elə bir əmin-amanlıq yaranacaq ki, bu da müsəlmanların rifahına cavab verəcəkdir. Səfəvi şahı onu da bəyan edirdi ki, Osmanlı sultanının xətrinə dəyəcək bir hərəkətə yol vermək istəyində olmamışdı və onun nəzərində müsəlmanların zərərinə ola biləcək əməllər də etməmişdi. Şah Təhmasibə görə, Əlqas Mirzənin dövründə bir sıra xoşagəlməz hadisələr baş vermişdi ki, onların da təşəbbüskarı İbrahim paşa idi. Onun yazdığına görə, İbrahim paşanın qətlə yetirilməsi bu insanın əməllərinin doğru olmamasının Osmanlı sultanı tərəfindən də qəbul edilməsi demək idi. Şah Təhmasib qardaşı Əlqas Mirzənin adı ilə bağlı olan hadisələrin baş verməsini təəssüflə xatırlayırdı. O ümid etdiyini bildirirdi ki, Əlqas Mirzənin sədaqətsizliyindən sonra Osmanlı sultanı kimi isə Səfəvi sarayına göndərəcək və Əlqas Mirzənin əməllərinin və sözlərinin doğru olub-olmadığını öyrənəcəkdir. Yəni Şah Təhmasib bildirmək istəyirdi ki, Əlqas Mirzə hadisəsini həll etmək mümkün idi. Bu məsələdə qarşılıqlı anlaşmanın olmaması isə iki dövlət arasında müharibənin alovlanmasına yol açdı. Şah Təhmasib, ümumiyyətlə, iki dövlət arasında gərginliyin mövcudluğunu istəmədiyini bildirirdi. Bununla bağlı

o, hətta Əlqas Mirzə hadisələrindən sonra Osmanlı sarayına elçi də göndərdiyini açıqlayırdı. Səfəvi şahı iki dövlət arasında baş verən toqquşmalara görə də təəssüfləndiyini bəyan edirdi və belə halların aradan qaldırılmasına tərəfdar olduğu üçün Mahmud bəy vasitəsi ilə ona məktub da göndərdiyini yazırdı. Şah Təhmasib Osmanlı sarayına göndərdiyi məktubundan sonra elçi göndərilməsi barəsində təklif almasına işarə edirdi və dövrünün sayılıb-seçilən insanlarından olan Əmir Şəmsəddini də bununla bağlı Osmanlı sarayına yola saldığını və onun vasitəsi ilə bir sıra mətləbləri Osmanlı sultanına çatdırmaq istədiyini qeyd edirdi (333).

Şah Təhmasib iki dövlət arasında münasibətlərin yaxşılaşdırılmasını tələb edən bəzi məqamları da öz məktubunda Osmanlı sultanının nəzərinə çatdırırdı. Bu məqamlardan biri, Səfəvi təbəələri olan müsəlmanların Həcc ziyarətinə və şiə müqəddəslərinin ziyarətinə yollana bilməmələri idi. Bildirilirdi ki, hazırda Səfəvi ərazisində 300-400 min nəfər müqəddəs məkanların ziyarətini səbirsizliklə gözləyirlər. Bu insanlar iki dövlət sərhədində baş verənlər üzündən həm Həcc ziyarətinə, həm də imamların məzarlarının ziyarətinə yollana bilmirlər. Şah Təhmasib bu insanların ziyarət səfərlərinə şərait yaradılmasını Osmanlı sultanı qarşısında qaldırırdı. Şah Təhmasib sonra onu da yazırdı ki, vaxtilə Bağdad ətrafında olan müqəddəs məkanlar Şah İsmayıl tərəfindən Səfəvi hüdudlarına daxil edilmişdi və yeni şəraitdə bu məkanlar Osmanlı nəzarəti altına düşdüyü üçün onların ziyarət edilməsi də çətinləşmişdi. Şah Təhmasib bildirirdi ki, 14 müqəddəsin xidmətində olmağı və qulamı olmağı yer üzünün səltənət sahibi olmaqdan daha üstün sayır. Bəzi tədqiqatçıların fikrincə, Şah Təhmasib burada şiə müqəddəslərinin məzarları olan məkanların geri qaytarılmasına işarə etmişdir. Əslində isə, məktubda bu məsələ aydın və konkret şəkildə qaldırılmamışdır. Şah Təhmasib bu məsələ haqqında belə yazırdı: “Bu canibin əlindən çıxmış məmləkət barəsində heç nə demirəm və onu Siz həzrətin mərhəmətinə, lütfünə, sonsuz inayətinə və hüdudsuz kərəminə buraxıram və o ali şanlı şahın səltənətinə, böyüklük avazına və adı-

na necə yaraşrsa elə də əməl edilsin". Məktubunun sonunda Şah Təhmasib Osmanlı sultanına öz dualarını çatdırırdı (334).

Şah Təhmasibin yazdığına görə, Sultan Süleyman onun məktubuna cavab yazmışdı. Lakin bu cavab heç də Şah Təhmasibin ümidlərini doğrultmadı. Öz təzkirəsində Şah Təhmasib belə yazırdı: "Uzun bir məktub yazıb seyidlərin pənahı [Əmir Şəmsəddin] vasitəsilə göndərmişdilər. [Məktubda yazılmışdı]: Rum alimləri (ruhaniləri) və şeyxlərin hamısı belə fitva vermişdilər ki, müsəlman əsgərləri və rəiyyətindən tutmuş ermənilərə və yəhudilərə qədər bütün Şərq əhalisinin qanı, malı, ailəsinin [namusu] halaldır. Onlara qarşı müharibə müqəddəs müharibədir.

Dedim: Bu fitva çox yaxşıdır, [amma] biz ki, namaz [qılır], oruc [tutur], həccə [gedir], zəkat [verir] bütün dini zəruriyyətləri bilir və əməl edirik. Böyük Allah bizimlə onların arasında hökm versin" (335).

Amma mövcud olan məlumata görə, bu məktub sonralar yazılmışdı. Seyid Şəmsəddinin elçiliyi 1553-cü ilin noyabr ayında Hələbə yetişmiş və 1554-cü ilin əvvəllərində isə Sultan Süleymanın yazdığı cavab məktubu Şah Təhmasibə çatdırılmışdı (336).

"Əhsənüt-təvarix" əsərində Sultan Süleymanın verdiyi cavabın Səfəvi düşərgəsində necə qarşılanması belə təsvir edilmişdir: "Fələk şövkətli ordu (şah ordusu) Aralıq mövqeyində olduğu zaman Ruma getmiş olan Seyid Şəmsəddin Dilicani zəfər şüarlı orduya yetişdi və xondgarın göndərdiyi məktubu ("kitabət") təqdim etdi. O məktubda məşriq və məğrib padşahına (Şah Təhmasibə) çox da ehtiram göstərilməmişdi. Ona görə də o həzrət (Şah Təhmasib) aləm sakinlərinin şahzadəsi İsmayıl mirzəni, Məsum bəy Səfəvini və Şahqulu bəy Möhürdarı çoxsaylı qazilərdən ibarət bir dəstə ilə Rum padşahının vilayətinə basqına yolladı və Sultan Hüseyn mirzə ilə Şahverdi sultan Ziyadoğlunu Kürdüstana basqına göndərdi. Aləm sakinlərinin şahzadəsi İsmayıl mirzə Vanı, Vostanı, Ərcişi və Adilcevazı qarət edib sağlam şəkildə və qənimətlə orduya qayıtdı. Sultan Hüseyn mirzə və Şahverdi sultan Ziyadoğlu da Gevara basqın etdilər və [oranı] yandırdılar,

müzəffər və qalib şəkildə, qeyri-məhdud qənimətlərlə Naxçıvanda zəfər nişanlı orduya qoşuldular" (337).

Göstərilən cəhdlərə baxmayaraq, istər Mahmud bəy elçiliyi, istərsə də Seyid Şəmsəddinin elçiliyi heç bir nəticə vermədi və Sultan Süleyman bu elçiliklərə və onlar vasitəsilə Şah Təhmasibin göndərdiyi ismarıclara çox biganə yanaşmışdı. Bildirilir ki, Mahmud bəy, ümumiyyətlə, Sultan Süleyman tərəfindən qəbul olunmamış, Seyid Şəmsəddin isə Osmanlı sultanı tərəfindən bir də Hələb şəhərində qəbul edilmişdi. Sultan Süleymanın barışa xüsusi meyli olmadığı üçün Seyid Şəmsəddin də əliboş geri qayıtmalı olmuşdu (338).

Beləliklə, lazım olan səfər hazırlıqlarını başa vurduqdan sonra Sultan Süleyman 1553-cü il avqust ayının 28-də üçüncü Osmanlı-Səfəvi müharibəsini başlamaq üçün İstanbuldan Üsküdara gəldi. Osmanlı mənbələrində Sultan Süleymanın rəhbərliyi altında qoşunların səfər düzülüşü və hərəkəti belə təsvir edilmişdir: "Divanxane-i hümayun səhraları gülgun və al bayraqlar ilə məşhun olub sipahilər, silahdarlar, yəmin və yəsar ulufəcilər, qəriblər alayları səflər bağlayıb durdular. Önlərində tüfəng-əndaz dəlilər, on iki min güzidə yeniçərilər, və aralarında ərkan-i dövlət nökərləri, əyan-i səltənət çakərləri, yeddi ədəd altun başlu sancaklar, ələmlər, ruyətlər fətih ayətləri çözüldü. Dilbərində mir ələmlər, mehtərlər, zurnayibilər, köscülər, nəfirzənlər canib-i yesarda vüzəra-i əzam, sayir ərkan-i dövlət və ayan-i səltənət mərtəbəlü mərtəbəsincə aram və qərar edüb səlama müntəzirlar idi. Padişahın yanında Şahzadə Cahangir rikablarınca peyklər, üç yüz miqdarı solaklar əsgər yola çıxdığında köslər figanə başlayıb sonralar, nəfirlər avaz-i fələk əsirə sövd edib cahana vəlvələ verdi. Padişah və ərkan-i səltənət səlam verib tüfəngçilər Allahüəkbər bir uğurdan tüfəngə atəş verdilər. Topxane-i amirədən və Qalatadan gətirilən tüfənglər şənlik üçün atıldı və Üsküdara keçildi" (339).

Sultan Süleymanın Səfəvi hüdudlarına doğru hərəkətinin 1553-cü ilin yazında başlanacağı elan edilmişdir. Amma göründüyü kimi bu qərar dəyişdirilməli oldu və bu qərarın dəyişdiril-

məsinin nə ilə bağlı olduğunu aydın şəkildə söyləmək mümkün deyil. Hərbi yürüşün başlanmasının cəmi bir neçə ay ləngiməsi hücumun da xeyli ləngiməsinə, yəni əsas hadisələrin 1554-cü ilə keçməsinə səbəb oldu. Sultan Süleymanın hərbi yürüşə başlamasının ləngiməsi güman edilir ki, bir tərəfdən saraydaxili gərginliyin artması, Şahzadə Mustafanın qətlə yetirilməsi planlarının qurulması ilə, ya da qoşunların təminat və təchizat məsələlərinin vaxtında həll edilməməsi ilə bağlı ola bilərdi (340).

Mövcud olan faktlar da onu göstərir ki, Sultan Süleyman və onu müşayiət edən qoşunlar şərqə doğru xeyli ləng hərəkət edirdi və bunun nəticəsi idi ki, onlar yalnız 1553-cü ilin oktyabr ayında Konya Ereglisinin yaxınlığındakı Ağtəpədə (Aköyük) düşərgə saldılar. Bura yetişənə qədər Sultan Süleymanın övladları Sultan Bəyazid və Sultan Səlim gəlib ona qoşuldular. Qətlinə plan hazırlanan Şahzadə Mustafa isə oktyabr ayınnı 5-də Ağtəpədə (Aköyük) Sultan Süleymanın hüzuruna gəldi və onunla görüşdü. Sultan Mustafa bu səfərdə iştirak etmək adı ilə atası tərəfindən çağırılmışdı. O da sərəncamında olan böyük qoşun dəstəsi ilə Sultan Süleymanın düşərgəsinə gəldi. Bəzi məlumatlara görə, sarayın ikinci vəziri olan Qara Əhməd paşa gizlicə Sultan Mustafaya xəbər göndərərək onu gözlənilən məkrli plan haqqında xəbərdar etmişdi. Lakin Sultan Mustafa bu xəbərə inanmamış və atasının belə bir addım atacağını təsəvvürünə gətirməmişdi. Ona görə də bu təhlükədən sığortalanmaq üçün Sultan Mustafa hər hansı bir ehtiyat tədbiri görməmişdi (341). Bu isə onun həyatına son qoydu.

1553-cü il oktyabr ayının 6-da Sultan Mustafa atasının əlini öpməyə yollanmalı idi. Bundan əvvəl saray vəzirləri və əyanları onu salamladılar və ehtiram əlaməti kimi onun əllərini öpdülər. Sonra da atası ilə görüşmək üçün Sultan Mustafa sultan çadırına yollandı. İçəri daxil olduqda o, Sultan Süleymanı orada görmədi. Əvəzində çadırda olan yeddi nəfər lal xidmətçi onun üstünə atıldı və onu boğaraq öldürdülər. Sultan Mustafanı müşayiət edən miraxur və bir nəfər qapıağası da bu məkrli planın qurbanına çevrildilər. Bildirilir ki, bu zaman əyan və əmirlər Divanxanada oturub

iclasın başlanmasını gözləyirdilər. Qapıağası Divanxanaya daxil olaraq əvvəlcə Rüstəm paşadan möhrünün təhvil verilməsini tələb edir. Sonra isə vəzirlərə göstəriş verilir ki, hər kəs öz çadırına dağılsınlar. Sultan Mustafanın nəşi bir müddət çadırı qarşısında asılı vəziyyətdə saxlandı və sonra qazilərə və üləmalara tapşırıldı ki, onun dəfnini təşkil etsinlər. O da bildirilir ki, elə o vaxt baş vəzirlik möhürü ikinci vəzir Qara Əhməd paşaya verildi və o, səltənətin baş vəziri elan edildi (342).

Başqa bir məlumata görə isə, Sultan Mustafa saray cəlladları tərəfindən boğulanda Sultan Süleyman pərdə arxasından baş verənləri izləyirdi. Lakin o heç bir vəchlə bu qətli dayandırmadı. Sultan Mustafa isə birdən-birə onun üstünə atılan bu cəlladlara qarşı müəyyən müqavimət göstərdi və hətta onların əlindən çıxaraq qaçmağa da müvəffəq oldu. Bununla belə o öz canının qətldən qurtara bilmədi. Mövcud olan məlumata görə, Sultan Mustafa saray xidmətçilərindən biri olan Zal Mahmud ağa tərəfindən tutuldu və boğularaq öldürüldü. Sultan Süleyman isə yalnız övladının qətlə yetirilməsi ilə kifaytələnmədi. Bir neçə gündən sonra Sultan Mustafanın oğlu olan Sultan Məhəmməd də qətlə yetirildi. Bu qətllərə ürəyi dözməyən şahzadə Cahangir də bir müddət sonra dünyasını dəyişməli oldu. Sultan Cahangir heç də Sultan Mustafa ilə doğma qardaş deyildilər. O, Xürrəm sultandan doğulmuşdu. Verilən məlumata görə, Cahangirin fiziki sağlamlığında müəyyən problemlər mövcud idi və onun Sultan Mustafaya xüsusi ehtiramı var idi. Sultan Mustafaya və onun oğluna qarşı göstərilən haqsızlıqla barışmayan Sultan Cahangir onun bürüyən kədər və qüssədən canını qurtara bilmədi. Sultan Cahangirin xəstələnib dünyasını dəyişməsi noyabr ayının sonlarında Hələbdə baş vermişdi (343).

Yuxarıda qeyd edildiyi kimi, Sultan Mustafa yeniçərilər tərəfindən sevilirdi və ona görə Sultan Mustafanın qətlə yetirilməsi yeniçərilər arasında müəyyən narazılqılara yol açdı. Yeniçərilər şübhə etmirdilər ki, Sultan Mustafanın qətlə yetirilməsində baş vəzir Rüstəm paşanın da rolu vardır. Ona görə onlar Rüstəm paşanın vəzifəsindən kənarlaşdırılması tələbini irəli sürdülər. Yeni-

çərilərin narazılıqlarının böyüməsinə imkan verməmək üçün Sultan Süleyman da Rüstəm paşanı baş vəzir (sədr-əzəm) vəzifəsindən kənarlaşdırdı və onun yerinə ikinci vəzir Qara Əhməd paşanı təyin etdi. Bu hadisələr qışın başlanğıcında baş verirdi. Ona görə Sultan Süleyman qərara aldı ki, qışı Hələbdə keçirsin və havaların qızması ilə yenidən Səfəvi hüdudlarına doğru hərəkətini davam etdirsin. Bu məqsədlə qoşunlar hərəkətə gətirildi və Sultan Süleyman və onu müşayiət edən qoşunlar 1553-cü il noyabr ayının 8-də Hələbə daxil oldu. Bütün qoşunların hamısının Hələbdə qışlaması mümkün olmadığı üçün qərara alındı ki, Rumeli qoşunları Sokullu Mehmet paşanın rəhbərliyi altında Tokatda, Şahzadə Səlimin rəhbərliyi altında olan Anadolu qoşunları isə Maraşda düşərgə salsınlar (344).

Qısa müddət ərzində Sultan Süleyman iki övladını itirdi. O bu hadisələrdən xeyli kədərləndi. Onu bürüyün qəm-qüssədən bir qədər uzaqlaşmaq üçün Sultan Süleyman vaxtının çoxunu ovda keçirməyə çalışdı. Bunun üçün hətta Maraşda olan oğlu Şahzadə Səlimi də yanına çağırdı, onunla birlikdə ova yollandı. Amma bir müddətdən sonra Sultan Səlim yenidən Maraşa qayıtdı. Şah Təhmasib tərəfindən göndərilmiş olan elçi Seyid Şəmsəddin də bir neçə ay Osmanlı düşərgəsində qaldıqdan sonra məhz Hələbdə sultanın cavabını aldı və geri qayıtmaq üçün ona izn verildi. Seyid Şəmsəddinə həm də sultanın Şah Təhmasibə ünvanladığı məktub təqdim olundu. Bu məktubda Sultan Süleyman bir daha Şah Təhmasibi fitnə-fəsad yaratmaqda günahlandırdı və bəyan etdi ki, bu fitnə-fəsadın aradan qaldırılması üçün sağlı-sollu fatehləri ilə birlikdə onun üzərinə qoşun çəkibdir (345).

“Tarix-i aləmara-yi Abbasi” əsərindəki məlumata görə, “Azərbaycana yürüş etmək məqsədi ilə Hələbə gəlmiş olan Sultan Süleyman bu il azuqənin qıtlığı üzündən [oraya yürüşdən] vaz keçərək, Hələbdə qışlaq etdi və gələn il yürüşə çıxmaq üçün lazımi hazırlıq görməklə məşğul oldu” (346). Bu məlumatın doğruluğu mümkündür. Lakin yürüşün təxirə salınması üçün onun yeganə səbəb kimi qəbul edilməsi doğru olmazdı. Havaların so-

yuqluğunun və dağ ərazidə qış dövründə hərəkət etməyin çətinlikləri də bu səfərin təxirə salınmasına səbəb ola bilərdi.

Hələbdə olduğu müddətdə Sultan Süleyman sözsüz ki, qoşunların təminat və təchizatının təkmilləşdirilməsi, bölgə vilayətlərinin Səfəvi hüdudları üzərinə yürüşə hazırlaşdırılması, Şah Təhmasibin planları və fəaliyyəti haqqında məlumatlar toplanmasını davam etdirirdi. Hələbdə olarkən Sultan Süleyman Fransa kralına məktub göndərdi və həmin məktubda bəyan etdi ki, qızılbaşlar yer üzündən təmizlənməyincə başqa işlərlə məşğul olmaq fikrində deyil (347). Yəni Sultan Süleyman Səfəvi hüdudları üzərinə hücuma keçmək üçün belə qətiyyətli bir mövqe sərgiləyirdi.

Sultan Süleyman eyni zamanda Türküstan və özbək hakimləri ilə də əlaqə saxlayaraq onları Şah Təhmasibə qarşı mübarizəyə səfərbər etməyə çalışdı. Həmin hakimlərə göndərilmiş məktublardan birində Sultan Süleyman bildirirdi ki, Şah Təhmasibin aman diləməsi üzündən onun üzərinə bir neçə il qoşun çəkməmişdi və gözləyirdi ki, bəlkə Şah Təhmasib və ümumiyyətlə, bütün Səfəvilər islam dinini təhrif etməkdən əl çəkələr və islama dönələr. Sultan Süleymanın yazdığına görə, Səfəvi sarayı bu xoş niyyətin qarşısında lazımi nəticəni çıxarmamış və ona görə də növbəti dəfə Səfəvilər üzərinə hərbi yürüş həyata keçirilməsinə zərurət yaranmışdır (348).

Hələbdən Naxçıvan istiqamətində yürüşə başlamazdan əvvəl Sultan Süleymanın yəxə türkmanlarına məktub yazması və onları da Şah Təhmasibə qarşı təhrik etməsi haqqında məlumatlar mövcuddur. Astrabad ətrafında bu türkmanların sayı çox idi və onlar özbək hakimlərinin təhriki ilə qiyam qaldıraraq bu şəhərin hakimini qətlə yetirmişdilər. Bununla Astrabad da Səfəvi nəzarətindən çıxarılmışdı. Sultan Süleyman yəxə türkmanlarının Səfəvi hakimiyyətinə qarşı qiyamını dəstəklədiyini bildirir və qeyd edirdi ki, növbəti yazın gəlişi ilə o özü də Şah Təhmasib üzərinə hücuma başlayacaqdır. Bu məktubu yazmaqda Sultan Süleymanın məqsədi o idi ki, yəxə türkmanlarının başladığı qiyam davam etsin və bu qiyam vasitəsi ilə Səfəvi daxilində gərginlik yaradılsın

(349). Çünki belə gərginliyin mövcudluğu Səfəvi hakimiyyətini zəiflətməklə, Şah Təhmasibin qüvvələrini də parçalaya bilərdi.

Qeyd etmək lazımdır ki, Şah Təhmasib də sadəcə olaraq Osmanlı qoşunlarının hücum hazırlığını müşahidə etməklə kifayətlənmirdi. Çoxsaylı kəşfiyyatçılar vasitəsi ilə Şah Təhmasib həm Osmanlı qoşunlarının və Sultan Süleymanın hərəkətlərini izləyir, onların məqsədləri haqqında məlumat toplamağa çalışır, həm də fəal dağıdıcı bir taktikanı həyata keçirməyə çalışırdı. Yəni sərhəd hüdudlarında olan Osmanlı məntəqələrinə hücum və basqınlar həyata keçirilir, bir tərəfdən qənimətlər əldə edilir, digər tərəfdən də Osmanlı məntəqələri dağıdılmaqla bölgədə olan ərzaq ehtiyatları da məhv edilirdi. Yuxarıda verilən məlumatdan da aydındır ki, Seyid Şəmsəddinin gətirdiyi xəbərin məzmunundan agah olandan sonra Şah Təhmasib sərhəd bölgələrində yerləşən Osmanlı qalalarına və məntəqələrinə hücumlar təşkil etdi. Bu hücumların təşkilində İsmayıl Mirzə də böyük fəallıq nümayiş etdirdi.

Hələbdə olduğu zaman Sultan Süleyman eyni zamanda qoşun başçılarına və əyalət hakimlərinə məktub göndərərək onlardan Novruz bayramından dərhal sonra Səfəvi hüdudlarına yürüş üçün hazır olmalarını tələb etdi. Onun tapşırığına əsasən, Novruzdan sonra bütün qoşunlar Ərzruma toplanmalı və oradan şərqə doğru yürüşü davam etdirməli idilər. Yürüşün yaxşı təşkili üçün ikinci vəzir İbrahim paşa İstanbulun mühafizəsinə vəzifələndirdi. Qoşunların daha rahat hərəkətinin təmin edilməsi üçün Fərat çayı üzərindən yeni bir körpünün tikilməsinə də göstəriş verildi. Nəhayət, 1554-cü il aprel ayının 9-da Hələbin kənarındakı Göymeydan adlanan meydanda Sultan Süleymanın yanında olan qoşunlara baxış keçirildi və elə həmin gün də Hələbdən hərəkətə başlandı. Aramla hərəkət edən qoşun dəstəsi aprel ayının 26-da Birəcikdə Fərat çayı üzərində tikilmiş körpüdən adlayaraq yoluna davam etdi (350).

May ayının əvvəllərində Sultan Süleyman onu müşayiət edən qoşun dəstəsi ilə Diyarbəkr yaxınlığına yetişdi. Həmin ayın 15-də Çevlik adlanan bir məntəqədə düşərgə salındı və səltənət divanı

çağırıldı. Bu divanın çağırılmasında məqsəd Sultan Süleyman oğlu Sultan Mustafanın qətlindən sonra ona olan etimad və etibarın zəifləməsinin qarşısını almaq idi. Osmanlı sultanına yaxşı məlum idi ki, Sultan Mustafanın qətlə yetirilməsi qoşunlar daxilində narazılıqla qarşılanmışdı və bu narazılıq Naxçıvan səfərinin nəticələrinə mənfi təsir göstərə bilərdi. Bu divan zamanı Sultan Süleyman həm də qoşunların sıra düzülüşü təşkil etmək, qoşun başçılarını qəbul edərək onların sədaqətli xidmətlərini davam etdirəcəkləri barəsində vədlərini əldə etmək istəyirdi. Ona görə də bu divana yalnız vəzirlər deyil, qaziəsgər, dəftərdar, nişançı, yeniçəriağası, yeniçəri kətxudası, ocaqağası, bölük ağaları, odabaşılar, vəkilixərclər, təcrübəli və yaşlı yeniçərilər dəvət olunmuşdu. Sultan Süleyman onların hər birini səmimiyyətlə salamlamış, onların başlanmış yürüş zamanı hansı çətinliklərlə qarşılaşmaları haqqında soruşmuş, onların sultana olan etimadını möhkəmləndirməyə çalışmışdı. Bundan sonra Sultan Süleyman planlaşdırılan hərbi yürüşün məqsədi haqqında onun dərgahına gələnlərə məlumat verməyə başladı. Osmanlı sultanı qoşun əhlinin dini təəssüblərinə toxunmaqla Səfəvi daxilində islamın təhrif edilməsindən, bu təhfirlərin aradan qaldırılmasının səltənətin namus və şərəfi olmasından danışdı və belə şərəfli bir vəzifənin həyata keçirilməsi üçün onun dərgahında olanlardan böyük xidmətlər gözlədiyini bəyan etdi. Bir tərəfdən din təəssübkeşliyi, digər tərəfdən də qoşun əhlinə şirnikləndirici vədlər verilməsi divana toplaşanlarda daxili ehtirası coşdurdu və onlar Sultan Süleymanı tam şəkildə dəstəklədiklərini bəyan etdilər. Divana toplaşanlar Sultan Süleymana olan dəstəyi belə bəyan etdilər: “Hində və Sində getsən, hətta Qaf dağına qədər səfər etsən, üz döndərmərik və padşah uğrunda baş verməyi dünya və axirət dövləti bilirik. Hər nə əmr etsən fərmanını icra edərik” (351).

Yəni Sultan Süleyman növbəti ağır hərbi yürüşün həyata keçirilməsi üçün öz qoşunlarının və qoşun başçılarının hərtərəfli dəstəyini əldə etdi. Eyni zamanda bu divanın keçirilməsi ilə qoşunlar daxilində də yüksək döyüş əhval-ruhiyyəsi yaradılmış oldu. Haqqında danışılan divan başa çatandan sonra Sultan Sü-

leyman qoşun dəstələri ilə də ayrı-ayrılıqda görüşdü və qoşun əhli də ona qarşıdakı yürüşdə bütün gücləri ilə vuruşacaqlarını bildirdi (352).

Bundan sonra Sultan Süleyman daha böyük ilhamla və qələbə ümidi ilə yürüşünü davam etdirməyə başladı. Uzun yol boyu Osmanlı sultanı və onu müşayiət edən qoşun dəstəsi marşrut üzərində olan məntəqələrdə qısa müddətli düşərgələr qurur və kiçik istirahətdən sonra yolu davam etdirirdilər. Bu qısa müddətli düşərgələr zamanı vilayət hakimləri və onların rəhbərliyi altında olan qoşun dəstələri də gələrək Sultan Süleymana qoşulurdular. Naxçıvana doğru hərəkət həm də qoşunların müharibə hazırlığının son mərhələsi idi. Bu hərəkət zamanı qoşun dəstələrinin imkanları bir daha nəzərdən keçirilir və qoşunlarda mövcud olan çatışmazlıqların aradan qaldırılması üçün lazımi tədbirlər gorulürdü.

1554-cü il iyun ayının 5-də Sultan Süleymanın karvanı Suşəhrə gəlib çatdı və burada bir neçə günlük düşərgə salındı. Osmanlı sultanının Suşəhrində bir neçə günlük ləngiməsinin başlıca səbəbi iki böyük qoşun dəstəsinin gəlib çatması ilə bağlı idi. Bu qoşun dəstələrindən biri Rumeli bəylərbəyi Sokullu Mehmet paşanın, digəri isə Şahzadə Səlimin rəhbərliyi altında olan qoşun dəstəsi idi. Yuxarıda qeyd edildiyi kimi, həmin qoşun dəstələri qışlağa dayanmaq üçün Sultan Süleymanın düşərgəsindən ayrılmışdılar. Bu qoşun dəstələrinin yetişməsi ilə Şah Təhmasib üzərinə hərəkət edən qoşunlar demək olar ki, tamamlanmışdı. Suşəhrində olarkən Sultan Süleyman yenidən qoşunların sıra baxışını keçirdi. Sıraya düzülmüş qoşunların sağ cinahı baş vəzir Əhməd paşanın, sol cinahı isə ikinci vəzir Semizəli paşanın rəhbərliyi altında olan qüvvələr idi. Bildirilir ki, bu sıra baxışı zamanı Rumeli bəylərbəyinin rəhbərliyi altında olan qoşunların qaplan postlu, qurd taclı, çəyirdək mahmızlı, təhnə qalxanlı, dəmir əldivanlı, ağ və qızıl bayraqlı əsgərləri tamaşa edənlərin gözlərini qamaşdırırdı. Rumeli qoşunlarından sonra Osmanlı sultanının qarşısından Sultan Səlim və onun qapıqulu dəstələri, sonra Sarıxan əsgər və bəyləri, Anadolu bəylərbəyi Əhməd paşa

və onun rəhbərliyi altında olan qoşun dəstəsi, Qaraman əsgərləri və igidləri keçdilər. Osmanlı sultanının qarşısından keçən qüvvələr arasında Sivas bəylərbəyi Əli paşanın, Zülqədər bəylərbəyi Heydər paşanın rəhbərliyi altında olan Sivas, Amasiya, Bozok, Maras dəstələri də var idi. Sultan Süleyman gördüklərindən razı qaldı və sonra da hərəkəti davam etdirmək üçün qüvvələrin sırasını, marş tərtibatını müəyyənləşdirdi. Onun göstərişinə əsasən, Zülqədərli və Sivas bəylərbəyləri sərəncamlarında olan qoşun dəstələri ilə qoşun sırasının arxasında hərəkət etməklə, qoşunların təhlükəsizliyini təmin etməli idilər. Şahzadə Səlim, Anadolu və Qaraman bəylərbəyləri isə sərəncamlarında olan qoşun dəstəsi ilə hərəkətdə olan qoşunların sağ cinahını təşkil etməli idilər. Rumeli qoşunları və Rumeli bəylərbəyləri sol cinahda yerləşdirildilər. Ərzrum bəylərbəyi Ayaz paşa və onun qoşun dəstəsi qoşunların qarşısında mövqe tutdular. Qoşunların avanqardı kimi isə Diyarbəkr bəylərbəyi İsgəndər paşa, kürd bəyləri, Şam bəylərbəyi Mehmet paşa sərəncamında olan ərəb dəstəsi ilə irəli çıxarıldılar (353).

1554-cü il iyun aynın 12-də Osmanlı qoşunları Pasin obasına gəlib yetişdilər. Burada da Sultan Süleyman 12 gün dayanmaq məcburiyyətində qaldı. Çünki Səfəvi hüdudlarına yaxın olan ərazilər və məntəqələr Səfəvi qoşunları tərəfindən talandığı üçün o yerlərdə böyük ərzaq ehtiyatları tapmaq çətin idi. Ona görə də arxadan ərzaq gətirilməsinə ehtiyac var idi. Zəruri ərzaq ehtiyatlarının çatırılması üçün Osmanlı qoşunları Pasində 12 gün gözləməli oldular. Bu məcburi dayanmadan faydalanaq üçün Osmanlı qoşun dəstələrinin döyüş hazırlığına əlavə vaxt ayrıldı. Həmin günlər ərzində qoşun dəstələri taktiki manevrlər məşq edir, silahlardan atəş açır, müxtəlif yarışlar keçirirdilər (354).

Osmanlı qoşunlarının Pasində olarkən Şah Təhmasiblə əlaqə yaratmaq cəhdi barəsində Səfəvi şahının təzkirəsində müxtəsər bir məlumat vardır. Şah Təhmasib iddia edirdi ki, Sultan Süleyman iki dövlət arasında sülh yaratmaq niyyətinə düşübmüş: “[Xandigar] Pasinə gəlib dayandı ki, onların köç və azuqəsi gəlib çatsın. Ülamənin mülazimi Baysunquru yanımıza göndərdilər ki,

aralıqda sülh bərqərar edilsin. Mən heç vəchlə razı olmadım ki Ülamənin xahiş və vasitəçiliyi ilə sülh olsun. O bizim yasavulumuz idi, indi [istəyir ki] onun elçiliyi ilə bizimlə Xandigar arasında sülh olsun. Əgər Xandigarın paşalarından biri vasitəçi olsaydı, hər halda, onun yeri vardı ki, müsəlmanların əmin-amanlığı üçün sülh edək" (355).

Şah Təhmasibin Osmanlı qoşunlarının Pasində dayanmasının səbəbinin köç və azuqənin gəlib çatmaması ilə bağlı olduğunu yazmasından belə bir qənaətə gəlmək olar ki, qarşı tərəfin bütün hərəkətləri izlənilirdi və Osmanlı qoşunları haqqında Şah Təhmasibin kifayət qədər məlumatı var idi. Digər tərəfdən isə bu məlumatda tərəflər arasında sülh yaradılması təklifinin olması elə də inandırıcı görünmür. Xüsusi ilə Osmanlı sultanının apardığı hazırlıqlardan sonra belə bir niyyətdə olması məntiqdən uzaqdır. Əgər doğrudan da, Şah Təhmasibin xatırlatdığı elçinin onun yanına gəlməsi doğru idisə, bu gəliş kəşfiyyat xarakterli də ola bilərdi ki, bununla Səfəvi qoşunları haqqında daha dəqiq məlumat toplanılsın. İyul ayının 5-də Sultan Süleymanın Şah Təhmasibə təhdid dolu məktubunun məzmunu da onu deməyə əsas verir ki, Şah Təhmasibin xatırlatdığı sülh təklifi o qədər də ciddi görünmür.

1554-cü il iyul ayının 5-də Sultan Süleyman və onu müşayiət edən Qars vilayətinə daxil oldu və buradan o, Şah Təhmasibə haqqında danışılan təhdid dolu bir məktub göndərdi. Qeyd edilməlidir ki, bəzi elmi-tarixi ədəbiyyatda bu məktubun 1553-cü il iyul ayının 5-də yazıldığı göstərilmişdir. Əslində isə bu məktub 1554-cü ildə yazılmışdır. Bu məktubun mətninin həm orijinalı, həm də həmin mətnin Azərbaycan dilinə uyğunlaşdırılmış variantı elmi-tarixi dövriyyəyə çıxarılmışdır. Sultan Süleyman yazırdı: "... Şah Təhmasib, mislinə eynən uyulması lazım olan və hər şeyə qadir olan Allahın ən ulu bahadurunun naməsi vasil olunca, məlum ola ki, sənə tabe olan və boyun əyən rafizlər və fəsad və quldurluq ərbabı dinsizlər ilə dinin mərasimlərini pozaraq və islam şəriətinin ləvazimini zəiflədərək, möhtərəm şeyxlərinə söyüb saydığın dörd məzhəbdə belə küfr və dəlalət olduğu vazeh və

ayandır. Allahın razılığı olmadığı yola getdiyindən dolayı, bilgili alimlər və islam dininin şeyxülislamı (Allah onun varlığını qiyamət gününə qədər qüvvətləndirsin), qanınızın və malınızın mübah olduğuna fitvalar vermişlər. Bundan dolayı, Peyğəmbərimiz ruhu pak Həzrəti Mustafanın inayət və yardımları ilə, indi üzərinizə gəlirik. Batil məzhəbinizdə və atil etiqadınızda, israrlı olduğunuz təqdirdə faydasız vücudunuzun izaləsilə, gözəl bir niyyətlə və Allahın inayətilə gəlmişik. Şübhəsiz mərdlik odur ki, kəskin qılıncdan qabaq, hidayəti təklif və islama dəvət etmək, Seyyidül-ənam həzrətlərinin sünnəsi olmaqla, uyulması lazım olan bu fərman sizə göndərilmişdir. Beləliklə, qarışıq olan keyfiyyətinizin ixtilalı meydana gəldiyi şəkildə sizə bildirildi. İndi mərdlik davasını edənlər, namərdlik ilə qadınlar kimi meydandan qaçaraq sağ qalmağı düşünməzlər. Qan töküсü arslanlar və intiqam alıcı dilavərlərimizdən hər biri yerli yerinə çəkildikdən sonra, bir bölük yolunu azmış dinsizə başçı olub aciz rəiyyətə və miskinlərə, mallarını talan və qarət ilə, xəsarətlərinə cəsarət olunaraq, nəsəb və nəsillərinin kəlimələrinə başlanması, əhli-islam zümrəsinə daxil olan və qiyamətdə Məşhər gününə inananlara yaraşmaz. Əgər qəlbində inam işığından zərrə və vicdanının bağçasında da dini əqidələrdən təzə, bir yarpaq var isə, əhli-islama tabe olub indiyə qədər olan rafizi və dinsiz pozğunluğuna da tövbə edərsən. Qaçmalarla, arsızlığı və hesaba gəlməz dinsizlərlə yanında ağılsız həşərat və özünü sipəhsalar zənn etməyi atıb, dəryalar kimi səbatlı əsgər ilə üzbəüz gələrsən. Belə İlahi müqəddəratdan aləmin gizli guşələrində hadisələr və asarın zühuruna bağlı olarsan. Əgər qorxu ilə qaçmağına bais olan top və tüfəngdirsə, o cəng alətləri rafizlər üçün hazırdır. Onlar üçün ahəng olmayıb, əhvalları məlum olan məkruh dəstələrin dəfi üçün ox və yay ilə  qarşıdakı döyüş kafidir. Xüsusilə, "Quran"da deyilən: "Bir də dəmir nazil etdik, onda güclü bir sərtlik vardır" [*Əl-hədid surəsi, 25-ci ayə*] vacibliyinə görə, bəla qılıncını çalmaq süngünü uzatmağınızda kifayət edəcəyi zahir və aşikardır. İslam əsgərindən nəsihətlər tamam oldu. Vəssəlam!" (356).

Bu məktub, əslində, Səfəvi dövlətinə qarşı rəsmən müharibə elan edilməsi idi. Sultan Süleyman yenə də bu müharibəni başlamasının başlıca səbəbi kimi, Şah Təhmasibin və bütünlükdə səfəvilərin sünni məzhəbindən uzaqlaşması və şiə məzhəbinə mənsub olmaları göstərilirdi. Səfəvi şahı islam dininin zəiflədilməsində ittihamlandırılır və islam dininin şeyxülislamı tərəfindən şiəməzhəblərin qanının və canının məhvinə fitva verildiyi bildirilirdi. Şah Təhmasibdən tələb olunurdu ki, ya tövbə etsin şiəlikdən uzaqlaşsın, ya da müharibəni qəbul etsin. Osmanlı sultanı formal olaraq müharibəni başlamazdan əvvəl Şah Təhmasibi və onun tərəfdarlarını şiəlikdən əl çəkməyə dəvət edirdi. Sultan Süleyman başlanan müharibəni kişilik meydanı kimi vəsf edir və bu meydandan qaçanları namərd və qadın adlandırırdı. Bununla Osmanlı sultanı Şah Təhmasibi açıq meydan müharibəsinə sövq etmək istəyirdi. O yaxşı bilirdi ki, Şah Təhmasib bu müharibədə də əvvəlki müharibələrdə tətbiq etdiyi taktikanı tətbiq edəcəyi təqdirdə məqsədinə nail olmaya bilər. Ona görə Sultan Süleyman ağır ifadələr işlətməklə Şah Təhmasibin hisslərinə toxunmaq və onu çoxsaylı Osmanlı qoşunları qarşısında açıq müharibəyə cəlb etmək istəyirdi.

Müharibənin başlanmasının səbəbi kimi məzhəb ayrılığı göstərilsə də, sözsüz ki, onun başlanma səbəbinin daha dərin kökləri var idi. Bu da Səfəvi dövlətinin, Şah Təhmasibin qüdrətinin günü-gündən artması, şərq sərhədi boyunca Osmanlı dövlətinə qarşı ciddi bir təhlükənin formalaşması idi. Şah Təhmasib ikinci Osmanlı-Səfəvi müharibəsindən sonra Osmanlı hüdudları daxilinə nüfuz etməyə başlamışdı. Osmanlı sarayı şübhə etmirdi ki, bu nüfuzun və müdaxilənin coğrafiyası daha da genişlənə bilər və onun qarşısının alınması üçün isə müharibə ən təsirli vasitədən biri kimi qəbul edilmişdi. Baxmayaraq ki, Şah Təhmasib iki dövlət arasında münasibətlərin sabitləşdirilməsi üçün sülh yolunun mümkünlüyünü də qəbul edirdi. Səfəvi mənbələrində də Şah Təhmasibin birmənalı şəkildə iki dövlət arasında sülhün bərqərar olmasına tərəfdar olduğu bildirilirdi. Qeyd edilirdi ki, Şah Təhmasib qarşı tərəfə öz elçilərini göndərdi və çalışdı ki, iki dövlət

arasında sərhəd xətti müəyyənləşdirilsin. İki dövlət arasında sərhəd xəttinin müəyyənləşdirilməsinə çalışmaqla Şah Təhmasib heç bir vəchlə iki dövlət arasında müharibə baş verməsini istəmirdi. Sərhəd xəttini dəqiqləşdirməklə hər dövlət öz hüdudlarında qala bilərdi. Səfəvi şahı belə bir qənaətdə idi ki, əgər Osmanlı qoşunlarının hücumları baş versə, onda Səfəvi qoşunları da Osmanlı hüdudlarının sərhəd bölgələrinə hücum edər və bununla da Osmanlı qoşunlarının geri çəkilməsinə səbəb ola bilər. Amma o da bildirilir ki, Osmanlı sarayının əyan və əmirləri belə bir ideya ilə razılaşmadılar və onlar Osmanlı sultanını da buna inandıra bildilər (357).

Osmanlı sultanının məktubu əsir Səfəvi döyüşçüsü ilə göndərildi. Şah Təhmasibin yazdığına görə, bu döyüşçü Dəli Seydi Abdullanın oğlu və Saru Qaplanın mülazimi olan Cami idi (358).

Sultan Süleymanın türkdilli elmi-tarixi ədəbiyyatda mövcud olan məktubunun fərqli variantının bir yerində Osmanlı sultanı Şah Təhmasibə müraciətlə belə deyirdi: "İndi erkəklər davasında olanlara qorxaqlıqla qadın kimi meydandan qaçmaq yaraşmaz, qana susamış erkək aslanlar və öc alan igidlər yerlərinə çəkildikdən sonra bir bölük sapkının önünə düşüb aləmlərin yaradıcısının əmanətləri olan acizlərin, rəaya və xalqın mallarını yəğma edib əllərindən almağa və təxrib etməyə cəsarət ilə soy-soplarını qurtarmağa çalışmaq, müsəlmanam deyib qiyamət gününə inanlara yaraşmaz. Əgər qəlbində inam işığından bir damla və vicdanının bağcasında din inancından bir təzə yarpaq olsa vardırsa, islama uy və indiyə qədər yapdığın sapkınlığa, dinsizliyə və alçaqlığa tövbə qıl. ...Əgər qorxaraq qaçmağın səbəbi əlimizdəki top və tüfəng isə, buna gərək yox... Kullanmağa niyyətli deyiliz, sizin kimi iyrənc sapkın sürüsü üçün savaş aslanlarının əllərindəki parlaq qılınclar yetərlidir" (359).

Göründüyü kimi, Osmanlı sultanının Şah Təhmasibə ünvanladığı məktubda kifayət qədər təhqir dolu ifadələr mövcuddur. Bu məktub həm də, Səfəvi dövlətinə, onun hökmdarı Şah Təhmasibə qarşı aparılan barışmaz təbliğatın tərkib hissəsi idi. Həmin təb-

liğat öz ifadəsini yalnız Osmanlı sultanının məktublarında tapmamışdı.

Şah Təhmasibə və bütünlükdə səfəvilərə qarşı müharibə başlanmasının doğruluğu Osmanlı qoşunları arasında da təbliğ edilirdi. Səfəvilərin islama zidd yol tutması iddia edilməklə Osmanlı döyüşçülərinin dini hissləri coşdurulur və onlara bu müharibənin aparılmasına bütün güclərini səfərbər etməsi təlqin edilirdi. Səfəvilərə qarşı Osmanlı qoşunları daxilində aparılan təbliğatda belə fikirlər səsləndirilirdi: "Kəffeyi-ənam haqqında ulu Tanrının göndərdiyi "Qurani-Əzim"ə başqa məna verən şiələrin əhli-nar olduğu, qövli-rəsul ilə sabitdir. Bu yolu tutmuş bulunan şahi-Əcəm dəxi doğrunu görənlərə müsaidə etmədi. Bunlar zahirən "Quran"i-qədimə etiqad edib əhli-islamdan keçinirlər. Həzrəti Məhəmmədin ulu səhabələrini söyüb lənət edirlər, beş vaxr azanları qaldırıb fərz olan səlatı tərk eylədilər. Camiləri ibtali-xərab, məscidləri axuri-dəvvab qıldılar. Dini qövmdə haram olan halal, halal haram, biqeyri-haqqın qətli-nüfuzu mübah eylədilər. Padşah kaç dəfə onlara öyüd yollu namələr göndərib onları təriqi-haqqa irşad (ilə) fəsad atəşlərini söyündürmək istədilər. Fəqət, fayda vermədi. Bu doğru sözlərə razı olmadıqlarından çarəsi qılınc oldu. Dəfələrcə məmaliki-Azərbaycan və İraq (Əcəm) Osmanlı ordusunun ayaqları altında çiynəndikcə, Şah həp qaçma yolunu tutdu. Padşahın qüvvətü iqtidarları kəmali-nəhayətində olub istənsəydi, Şahilərdən bir fərdə xilasü nicat yox idi. Bəldə daireyi-dinə qədəm qoyub şiari-müslümün ilə xoş-hal olurlar deyə bir taqım məalikü məsalikin fəthü güşadı ilə təsəlli bulub geri dönülmüşdü. Bu səfərə şahi-məzalimi-şiarın müqəddimati-övzayi-fəsad iqaı səbəb olmuşkən Azərbaycan torpağına Osmanlı bayraqlarının kölgəsi düşdüyü halda heç bir zamanda bir padşahi-cahan-pənaha dəxi nəsib olmuş bulunmayan (hər halda 150 mindən çox) Osmanlı ordusundan qorxaraq üslubi-qədimləri üzərə cəngü-əşuba iqdam etməyib təpələr ardına savuşaraq saxlandılar" (360).

Bu məlumatdan göründüyü kimi, Osmanlı sultanı 150 min nəfərlik bir qoşunla Səfəvi dövlətinə qarşı yeni müharibəyə baş-

layırdı. Osmanlı qoşunlarının sayı haqqında olan bu məlumat şübhə doğurmaya bilər. Çünki sultan tərəfindən qoşunlara cəlb edilən qüvvələrin, bölgə hakimlərinin çoxluğu da buna bir əsasdır. Türkdilli elmi-tarixi ədəbiyyatda Səfəvi dövləti üzərinə hücum üçün hazırlanan qoşunlara cəlb olunmuş bəylərbəylərin, sancaq bəylərinin, əyalət və tabelikdə olan hakimlərin geniş ad-baad siyahısı verilmişdir (361). Bu mənsubların siyahısı çox böyükdür və onların hər birinin sərəncamında çox az sayda belə qoşunun olması Osmanlı qoşunlarının ümumi sayının çox böyük olması qənaətinə gəlməyə imkan verə bilər. Bir sıra farsdilli mənbələrdə isə Osmanlı qoşunlarının konkret sayı göstərilməsə də bu qoşunların çoxluğundan onların sayının müəyyənləşdirilməsinin qeyri-mümkün olduğu bildirilirdi (362).

"Tarix-i aləmara-yi Abbasi" əsərində Osmanlı qoşunlarının sayı barəsində belə deyilir: "Sultan Süleyman yaylaq fəslini keçirib, yağışın damlalarının sayı qədər ordu ilə sərhədə yaxınlaşdı" (363). "Əhsənüt-təvarix" əsərində isə Osmanlı qoşunlarının sayı barəsində belə yazılmışdır: "Rum padşahı Sultan Süleyman hesablamaqla qurtarmaq olmayan, yağışın damlalarından və ağacların yarpaqlarından artıq [sayda] bir ordu ilə, Zühəl təbiətli, Mərrix görkəmli, tüfəng atan, qılınc vuran rumilərlə və çərxi-fələk kimi kəcrəftar arabalarla Hələbdən çıxıb köçhaköçlə Azərbaycana yollandı" (364).

Səfəvi qoşunlarının sayına gəlincə isə "Tarix-i aləmara-yi Abbasi" əsərində onun sayının 40 min nəfərə yaxın olduğu göstərilmişdir (365). Yəni Səfəvi qoşunları Osmanlı qoşunları ilə müqayisədə təxminən dörd dəfəyə yaxın az idi. Sözsüz ki, silah və hərbi texnika baxımından da Osmanlı qoşunları daha böyük imkanlara malik idi. Qoşunların sayında olan bu böyük fərq Şah Təhmasibi yenidən əvvəlki taktikasına müraciət etməyə sövq etdi. Yəni açıq meydan döyüşündən imtina edildi və Osmanlı qoşunları üzücü fəaliyyətə cəlb edildi. Bu taktika, əslində, sınanmış taktika idi və səltənətin müdafiəsi üçün Şah Təhmasib məhz səmərəli bildiyi belə bir taktikaya bir daha əl atdı.

Osmanlı sultanından alınan təhdid və həqarət dolu məktuba hansı münasibət göstərilməsi haqqında Şah Təhmasibin təzkirəsində müxtəsər qeydlər vardır. Şah Təhmasib yazırdı: "Məktubun məzmunu o idi ki, gəlin müharibə edək. Həsən bəy yüzbaşı təklif etdi ki, bütün dəvələri, qoşunu və sursatı Gəncə dağlarına və meşələrinə göndərək. Çadırları isə başlı-başına buraxıb özümüz də dağlara çəkilib, yolu bələdliyək. Əgər Xandigar sursatdan ayrılıb bizim ordumuzun üstünə gələrsə, biz də başqa bir yolla onların odrusunun üzərinə gedərik. Xandigar bizim ordudan nə aparsa, onu sədəqə edərik. Biz də onların düşərgəsində nə tapsaq haqsızlıqlarını yumaq üçün möhtaclara paylarıq. Bu da Xandigarın özünün və atasının yerinə yetirmədikləri namaz və orucunun əvəzi olar.

Mən dedim:

-Xandigar hökmən qayıdıb gələcəkdir. Onun bu kağızı yazmaqda məqsədi budur ki, xalq arasında deyə: -mən onları döyüşə çağırdım. Onlar isə qorxub gəlmədilər, mən də qayıdıb gəldim" (366).

Sultan Süleyman beş gün ərzində Qarsda qaldı və sonra Naxçıvana doğru hərəkətini davam etdirdi. Mövcud olan məlumatlara görə, Sultan Süleymanın Qarsda beş gün dayanmaqda məqsədi onu Şirvana göndərdiyi qoşun dəstəsinin hansı nəticəyə nail olması haqqında məlumat əldə etmək istəyi idi. Mənbə məlumatlarndan aydın olur ki, Sultan Süleyman hələ Qarsa yetişməzdən çox qabaq Şirvan şahları nəslindən olan Qasım Mirzə adlı birisinin rəhbərliyi altında Şirvana qoşun dəstəsi göndərmişdi. Bu qoşun dəstəsi Krımdan və Şimali Qafqazdan adlamaqla Şirvan ərazisinə daxil olmuşdu. Həmin vaxt Şirvan hakimi Abdulla xan Ustaclı idi. Qasım Mirzə Şirvanda olan qoşun dəstəsini məğlub edərək bu vilayəti nəzarət altına ala bilsəydi, onda Şah Təhmasibin qoşun dəstəsi mühasirə vəziyyətinə düşmüş olardı. Naxçıvanda olan Səfəvi qoşunları şimaldan Qasım Mirzənin dəstəsinin cənubdan isə Sultan Süleymanın çoxsaylı qoşunlarının təzyiqi altında qala bilərdi. Belə bir şəraitdə Şah Təhmasibin köhnə taktikası lazımi səmərəni verə bilməzdi və onun dəstəsini

haqlayıb məhv etmək mümkün idi. Qasım Mirzənin rəhbərliyi altında olan qoşun dəstəsi Dərbənddən keçməklə Şirvan ərazisinə daxil oldu. Bəzi məlumatlara görə, Şirvanın müəyyən dairələri Qasım Mirzənin gəlişini dəstəklədilər və ona qoşuldular. Amma vilayətdə olan qoşun dəstəsi və əhalinin böyük hissəsi Səfəvi sarayına sədaqətini saxladı və Osmanlı qoşun dəstəsinə qarşı müqavimət yolunu tutdular. Vilayət hakimi Abdulla xan Ustaclı sərəncamında olan qoşun dəstəsi ilə Təngəbədişan adlanan məntəqəyə gəldi və orada Osmanlı dəstəsi ilə qarşılaşdı. Bu qarşılaşmada Osmanlı qüvvələri üstün gəldilər, Abdulla xan Ustaclı Şamaxıya çəkildi və Gülüstan qalasında müdafiə olundu. Osmanlı mənbələrində Qasım Mirzənin 12 min nəfərlik qoşun dəstəsinə malik olduğu bildirilir. İki min nəfərlik qoşun dəstəsi ilə müdafiə olunan Abdulla xan Qasım Mirzəyə güclü zərbə endirə bildi. Qasım xan eşidəndə ki, Abdulla xana əlavə olaraq Şah Təhmasibdən də kömək gəlir, onda geri çəkilib Tabasarana yollandı. Bu döyüş zamanı Qasım Mirzənin 1080 nəfər itki verdiyi bildirilir (367).

"Əhsənüt-təvarix" əsərində Abdulla xanla Qasım Mirzənin Şirvan qarşılaşması belə təsvir edilmişdir: "Sultan Süleyman Azərbaycana gəldiyi zaman Qasım bəy Şirvanini böyük bir qoşunla Kəfə yolundan Şirvana göndərdi və onlar Dərbənddən keçib həmin vilayətə gəldilər. Şirvan sakinləri dəstə-dəstə Abdulla xandan üz döndərib ona qoşuldular. Cənab xan Həzrət Rəbbin köməyi ilə onları dəf etmək və qarşılarına çıxmaq üçün yola düşdü. Təngə mövqeyində onlara çatdı. Xoş rəftarlı atını cövlana gətirib onlara həmlə etdi. Xilaf əhli də qılıncını qılafdan çıxardı və müdafiə olunmaqla məşğul oldu. Onlar bir sıra qaziləri yaraladılar. Məkanın istehkamlı olması ucbatından Abdulla xan bir iş görə bilməyib Şamaxıya qayıtdı. Qasım bəy Biqurd qalasına gəldi və qırx gün orada qaldı. Ondan sonra bir dəstə dayaz düşüncəli adamla öz məskənindən çıxıb Gülüstan qalasına yollandı. Çünki Abdulla xan orada idi. Abdulla xan təvəkkül üzünü kömək edənlərin ən yaxşısının (Allahın) bargahına tutub, peyğəmbərlərin sonuncusuna (Məhəmməd peyğəmbərə) yalvarıb-yaxararaq

sərsər küləyi (badi-sərsər) kimi o qoşun dəryasının üstünə getdi. İki dəstə bir-birinə yaxınlaşıb qarşı-qarşıya gəldilər, sağ (meymənə) və sol (meysərə) cinahların tərtibi ilə məşğul oldular. Qasım bəy çoxlu süvarilərdən və adlı-sanlı yeniçərilərdən [ibarət] on minlik qoşunla döyüşə və vuruşa hazır oldu. Yanında iki min süvari olan Abdulla xan onlara həmlə etdi. Qazilərin dövlət günəşinin yüksəlişi vaxtı olan çaşt çağının başlanğıcından ta o bədkirdar zalımların nəhs taleli ulduzlarının batması vaxtı olan iki namaz arasındakı zamana qədər aramsız çarpışma və ardıcıl şiddət dayanmadı. O yaramaz zümrədən min beş yüz nəfər dövran igidi savaş meydanında həlak torpağına düşdü. Ürək deşən oxun və şimşək [kimi] çaxan tüfəng gülləsinin gəliş-gedişi əsnasında xanın adamlarının ordugahda qalmış nökərləri külək rəftarlı atlara süvar olub, səf bağlayıb köməyə gəldilər. Şirvanlıların gözü onlara düşdükdə zənn etdilər ki, şah tərəfindən kömək yetişmişdir və [bu səbəbdən] qaçıb-dağılışdılar. ... Qorxudan saralmış rənglə və bədbəxtlikdən qaralmış üzlə puç halda Təbərsəran tərəfə qaçdılar. Qazilər onları təqib edib, bir dəstəsini qətlə yetirərək onların başlarından minarələr düzəltdilər” (368).

Şah Təhmasib də Osmanlı qoşunlarının hərəkətini heç də sakitcə müşahidə etmirdi və Sultan Süleyman Araz çayına yetişməzdən əvvəl Səfəvi qoşun dəstələrini müxtəlif istiqamətlərə göndərdi. Məqsəd bu idi ki, Osmanlı qoşunlarının arxasında və onların hərəkət marşrutları üzərində mövcud olan ərzaq ehtiyatlarını məhv etsin və Osmanlı qoşunlarının təminatına çətinliklər yaratsın. Bu məqsədlə iki qoşun dəstəsi yaradıldı. Birinci qoşun dəstəsinə İsmayıl Mirzə rəhbərlik edirdi və Məsum bəy Səfəvi, habelə Şahqulu bəy Möhürdar kimi tanınmış əmir və əyanlar da bu dəstənin tərkibinə qatılmışdılar. İkinci dəstəyə isə Şah Təhmasibin dünyasını dəyişmiş qardaşı Bəhram Mirzənin oğlu Sultan Hüseyn Mirzə rəhbərlik edirdi. Şahverdi sultan Ziyadoğlu da bu dəstənin tərkibində idi. Bu dəstələr reyd dəstələri idilər və onlarına qarşısına da konkret vəzifələr qoyulmuşdu. İsmayıl Mirzənin rəhbərliyi altında olan dəstə Van, Vostan, Ərciş, Adilcəvaz qalalarını və ətrafını hücuma məruz qoydular, bu yerləri

dağıdaraq oradakı ərzaq ehtiyatlarını məhv etdilər. İkinci dəstə isə Osmanlı qoşunlarının hərəkət etdiyi marşrut üzrə dağıdıcı basqın etməli idi və bu dəstə də ona həvalə olunmuş tapşırığı lazımi səviyyədə yerinə yetirdi. Şah Təhmasib oxşar taktikanı Səfəvi hüdudlarında da tətbiq etməyə başladı. O cümlədən, Osmanlı qoşunlarının hərəkət istiqamətində olan Naxçıvan və Qarabağ ərzaq ehtiyatlarından təmizləndi. Bu dəfə də Şah Təhmasib yerli əhaliyə göstəriş verdi ki, qarşı tərəfin əlinə keçməməsi üçün ərzaq ehtiyatlarını özləri ilə aparsınlar. Aparılması mümkün olmayan ərzaq və yem ehtiyatları isə məhv edilsin. Ona görə də qısa zaman ərzində Qarabağ və Naxçıvan ərazisindəki ərzaq ehtiyatları bölgədən ya çıxarıldı, ya da məhv edildi. Bildirilir ki, bölgədə beş günlük məsafə dairəsində olan ərazilərdə olan bütün ərzaqlar məhv edildi (369).

Sultan Süleyman da öz növbəsində başladığı hərbi yürüşün uğurla nəticələnməsi üçün yalnız açıq meydan müharibəsi haqqında düşünmürdü. Qarşıdakı müharibədə Şah Təhmasibi zəiflətmək, ona qarşı olan təzyiqləri artırmaq üçün Sultan Süleyman da müəyyən planlara malik idi. Şirvana qoşun göndərilməsi də bu planın tərkib hissəsi idi. Bundan başqa Osmanlı sultanı özbək hakimlərini də Səfəvi hüdudlarına qarşı hücumlara təhrik etməyə çalışırdı. Lakin özbək hakimlərinin başı daha çox daxili münasibətlərin aydınlaşdırılmasına qarışdığından Naxçıvan səfəri dövründə onların Səfəvi hüdudlarına hücumuna nail olmaq mümkün olmadı. Qarşıya qoyulan məqsədə çatmaq üçün Osmanlı sultanının göstərişinə əsasən, Bağdad bəylərbəyi Osman paşa Şəhrizora hücum etdi, bu bölgənin hakimi Ərdəlan bəyi məğlub edərək Şəhrizoru ələ keçirdi. Sultanın tapşırığına əsasən İmadiyyə hakimi Sultan Hüseyn bəy Urmiyə gölü ətrafı ilə Marağa ətrafına hücum etdi. Van bəylərbəyi Fərhad paşa isə Ələşgirdə doğru istiqamət götürdü (370).

Osmanlı qoşunlarının Naxçıvana doğru hərəkəti barəsində xəbər alınanda Şah Təhmasib Naxçıvanı tərk edərək Bazarçay yaylağında düşərgə saldı. Sultan Süleyman isə 1554-cü il iyul ayının 10-da Şuragölə gəldi. Osmanlı qoşunları bu bölgəni tama-

milə talan və təxrib etdilər. İyul ayının 18-də Osmanlı sultanı və qoşunları İrəvan şəhərini ələ keçirdilər. Burada da eyni əməllər həyata keçirildi. Şəhər və ətrafı bütünlüklə talan edildi, bu şəhərdə şah ailəsinə və eləcə də əhaliyə aid olan hər şey viran günə salındı. Şəhərdə Səfəvi şahına aid olan "Baği-Sultaniyyə" adlanan bağ yerlə-yeksan edildi. İyul ayının 24-də Osmanlı qoşunları Arpaçayın aşağı axarında olan "Arpaçay" qışlağını soyub-taladılar. Osmanlı mənbələrindəki məlumatlara görə, iyul ayının 25-də Araz çayı hövzəsində yerləşən Qarahisar adlı məntəqədə talanla məşğul olan Osmanlı qoşunları Səfəvi qoşunlarının açıq müqaviməti ilə qarşılaşdılar və bu qarşılaşma Osmanlı qoşunlarına xeyli itki gətirdi. İyulun 26-da Osmanlı qoşunları artıq Qarabağ ərazisində idi. Bildirilir ki, Qarabağın əhalisi bölgəni tərk etmişdi. Ona görə də Osmanlı qoşunları əhalisiz yaşayış məntəqələrinə daxil olur və insanların gizlətmiş olduğu var-dövləti açıq şəkildə talamaqla məşğul olurdular. Qarabağ əhalisi ərzaq ehtiyatlarını bölgədən çıxarsa da, məhv etsə də Osmanlı qoşunları kifayət qədər böyük miqdarda sərvət və qiymətli əşyalar ələ keçirə bilmişdilər. Burada o qədər sərvət toplamaq mümkün olmuşdu ki, Osmanlı döyüşçüləri ələ keçən bütün malları daşımaq imkanında deyildilər. Bölgədə müqavimətlə rastlaşmayan Osmanlı qoşunları iyulun 28-də isə Naxçıvana yetişdilər. Naxçıvan və ətrafı da Osmanlı qoşunlarının talanlarına, dağıntılarına məruz qaldı. Qoşunlar heç bir maneəyə rast gəlmədən hər şeyi alt-üst etməyə başladılar. Səfəvi qoşunlarının iki dövlətin hüdudlarında yerləşən qalalarda və məntəqələrdə apardıqları talan və təxriblərin əvəzini çıxmaq üçün Osmanlı qoşunları heç nədən çəkinmədilər. Nəticədə Osmanlı qoşunları, Səfəvi dövləti üzərinə hücumda iştirak edən bütün mənsublar görünməmiş var-dövlət toplaya bildilər. Yalnız iyulun 30-da Ramazan ayının yaxınlaşması münasibətilə Sultan Süleyman Naxçıvan bölgəsinin talanmasını və təxrib edilməsini dayandırdı və bu ayın hörməti üçün qan tökməkdən əl götürərək Naxçıvanı tərk etdi (371).

Osmanlı mənbə müəlliflərindən biri Osmanlı qoşunlarının Naxçıvan və ətrafında törətdikləri talanlar və dağıntıları vəsf

edərək yazırdı: "Şəban ayının on beşində Rəvan tərəfə yola çıxıldı. Rəvan bəldəsi həqiqətən İran məmləkətinin canı dəyərindədir. Şahın oğlunun və bəzi igid xanların və sultanların müzəhhəb və mürəttəb sarayları ilə bağ və bostanları yandırılaraq yerlə bir edildi və qarğalarla bayquşlara aşıyan oldu. Eyni ayın iyirmi birinci günündə Naxçıvan səhrasında padşah mənzilgah qurdu. Orada da qabaqkı kimi qızılbaşların ocaqlarının qarət edilməsi və xarabaya çevrilməsi üçün akınçı tayfasına rüsxət verildi. Akınçılar iyirmi günlük yeri yandırıb yerlə bir etdilər. Məmur və abad olan xanə və kəşanələri yer üzü ilə bir edib daş üstə daş qoymadılar. Adı keçən akınçıların əllərinə düşən qənimət hesaba gəlməzdi. O dərəcə doyumluluqlar aldılar ki, vəsfi mümkün deyil.

Sözün qısası, cahan padşahı Sultan Süleymanın zəfər-nişan əsgərlərinin hücumundan yolunu azmış şah, tülkülər kimi çətin dağları özünə sığınacaq etdi. Əsla üzə çıxmadı və heç bir vəchlə tərəfindən nam və nişan zahir olmadı. Ondan bir hərəkət olunmadığı və bir tərəfdən də ortaya çıxması ehtimalı xətrinə xəta etmədiyi xəbərləri gəlib çatanda, Allahın fəzli ilə islam qazilərinin qeyrətinə dağ və daşın əngəl olması qəbul deyildi. Ancaq "o halı pərişan və tam yolunu azmış Təhmasibə bu qədər qulaq burmaq kifayətdir" deyərək o dairədən qayıtdılar. Adı keçən mənzildən gözəl Osmanlı diyarına qayıtmaq münasib görüldü" (372).

Məlum idi ki, Şah Təhmasib Osmanlı qoşunlarına qarşı açıq meydan döyüşünə girmək fikrində deyildi və bunun üçün yetərli qüvvəsi də yox idi. Ona görə də Səfəvi qoşunlarının geri çəkilməsi və fəal müdafiə müharibə taktikası seçmələri Osmanlı qoşunlarının fəaliyyət sərbəstliyinə müəyyən imkanlar yaratdı. Osmanlı qoşunları də əllərinə düşən bu fürsətdən gen-bol şəkildə faydalanmağa çalışdılar. Bununla belə o da aydındır ki, mənbələrdə Osmanlı qoşunlarının Naxçıvan səfərinə münasibət fərqlidir. Osmanlı mənbələrində Osmanlı qoşunlarının bütün fəaliyyəti vəsf edilirsə, Səfəvi mənbələrində də Səfəvi qoşunlarının müqavimət döyüşlərinin qabardılmasına daha çox diqqət yetirilmişdir. "Əhsənüt-təvarix" əsərində Səfəvi qoşunlarının fəaliyyəti haqqında belə qeydlər vardır: "Elə ki dinin pənahı olan şah bu haldan

xəbər tutdu, ucu gövhər kimi parlaq olan kəhrəba rəngli mizraqlarla dağı saman kimi torpaq xırmanından qaldıran və həmlə küləyi ilə ağır daş dağı quru ot kimi sovuran və dağ deşən ox ucunu qranit daşından keçirən igidlərlə Naxçıvandan çıxdı. Bazarçay yaylağı hökmdarın dayanacaq düşərgəsinə çevrildi. O əsnada Uluğxan bəy Səədlü qaravulluğa yollandı. O, gecənin zülmət hicabı altında Rum ordusunun qaravulu olan Qazan bəyə çatıb ona həmlə etdi. Qüdrətli dövlətin gücü ilə onlara qalib gəlib iyirmi beş nəfəri qətlə yetirdi və onların başlarını hökmdarın dərgahına göndərdi. O əsnada Sultan Süleyman Naxçıvanın ətrafında düşərgə saldı. Onun rəvan qumdan və çöl qarışqasından artıq qoşunları elə bir tərzdə toplaşdılar ki, ağ rəngli xeymələr (çadırlar) və xirgahlar, alaçıqlar və bargahlar al gündüzdə günəşin çöhrəsindən, qara gecədə ayın çöhrəsindən parlaq idi. …O əsnada Həsən bəy Yüzbaşının dil tutmağa getmiş mülazimləri qaramanlılarla döyüşüb onlardan otuz nəfəri qətlə yetirdilər və otuz nəfər digərini əsir edib ulu dərgaha gətirdilər. Məşəl işığında onların boynunu vurdular. Yenidən Uluğxan bəy Səədlü xondgar ordusunun arxasından gedib xondgarın vəziri-əzəmi olan Əhməd paşanın vəkilinə rast gəldi. [Həmin vəkil] çoxlu azuqə ilə xondgarın ordusuna doğru getməkdə idi. [Uluğxan bəy öz dəstəsi ilə] onlardan iki yüz əlli nəfəri qətlə yetirib [şahın] ordusuna döndü. Sultan Süleyman Naxçıvanı yandırıb Ərzurum tərəfə qayıtdı" (373)

"Tarix-i aləmara-yi Abbasi" əsərində də Osmanlı qoşunlarının Naxçıvan səfəri haqqında maraqlı qeydlər vardır: "Cənnətməkan şah səadətli qoşunun döyüşçülərinin bir qismini işbilən, tədbirli və müharibədə sınanmış şücaətlilərin başçılığı ilə qaravulluğa təyin etdi ki, rumilərin dörd tərəfindən xəbərdar olub, fürsətdən qənimət əldə edərək, işin xeyrini əldən verməsinlər. Qızılbaş ordusunun dilavərləri və çoxbilmiş köhnə əsgərlər rumilərin malına tamah dişi qıcıdıb, hər mərhələdə nəzərəçarpan hücumlar edərək, bir dəstəni bəla kəməndinə salırdılar. Heç elə bir gün olmurdu ki, əşrəfin nəzərləri qarşısına qalxanlar, «axtarma»lar və əsirlər gətirilməsin. Sultan [Süleyman] Naxçı-

vana çatanadək Rum qoşunlarından bir çoxu müzəffər qazilərin intiqam qılıncı ilə fanilik yoluna getdi. Xondgar Naxçıvana gəldikdə cənnətməkan şah müzəffər əsgərləri gözdən keçirdi. Qırx min nəfərə qədər nizə atan, məvacib alan süvari, hamısı səba [küləyi] kimi gedən ərəb atlarına minmiş halda, silah və yaraqla nəzərdən keçirildi; şah ordusunda toplanmış başqa adamlar da bu cürə. Orduya baxış keçirildikdən sonra Bazarçay yaylağından düşmənlə döyüşmək qəsdi ilə Kəsralar dəbdəbəsi və Kəyan təntənəsi ilə hərəkət etdilər. Sultan Süleyman azuqənin qıtlığından Naxçıvanda qala bilməyib, şəhəri yandırdı" (374).

Naxçıvanı tərk etməli olan Sultan Süleyman 1554-cü il iyul ayının 31-də Araz çayının cənubunda yerləşən Qarğalıq adlı məntəqəyə, avqust ayının 6-da isə Bəyazid ətrafına gəldi və orada düşərgə saldı. Güman edilirdi ki, Sultan Süleyman qışın yaxınlaşması və Səfəvi hüdudlarında ərzaq qıtlığı ilə qarşılaşdığı üçün qışı Ərzrumda keçirəcək və havaların qızması ilə Şah Təhmasib üzərinə yeni bir hücuma başlayacaqdır. Sultan Süleymanın geri çəkilməsi ilə İsmayıl Mirzə atası Şah Təhmasibdən Osmanlı qoşunlarının təqib edilməsi barəsində icazə istədi. Güman edilirdi ki, Osmanlı qoşunlarını təqib etməklə onlara böyük itki yetirmək mümkündür. Amma Şah Təhmasib buna icazə vermədi. Bununla belə Şah Təhmasib nüfuzlu əmirlərdən biri olan Gəncə bəylərbəyi Şahverdi sultan Ziyadoğlunun Osmanlı qoşunlarından əvvəl Pasinə getməsi və bu qalanı talan edərək təxrib etməsi haqqında icazə istədi. Şah Təhmasib bu təklifin icrasına etiraz etmədi və 5 min nəfərlik bir qoşun dəstəsini Şahverdi sultan Ziyadoğlunun rəhbərliyi altına verdi. Bu dəstə Qars yolu ilə Pasinə yetişdi, bu şəhəri və onun ətrafını talayaraq Səfəvi düşərgəsinə döndü (375).

Pasin üzərinə qoşun göndərildiyi vaxtlar Şah Təhmasib tərəfindən Şahqulu bəy Möhürdarın rəhbərliyi altında başqa bir dəstəni də Olti qalasına doğru göndərdi. Bildirilir ki, bu zaman Sultan Süleyman artıq Ərzruma yaxınlaşmaqda idi. Şah Təhmasib istəyirdi ki, Osmanlı nəzarəti altında olan Olti qalasını da ələ keçirsin və bununla Osmanlı qüvvələrinə daha bir zərbə endirsin. Səfəvi mənbələrindən birində olan məlumata görə, bu zaman iki

dövlət arasında sülh əldə edilməsi söhbətləri ortaya gəlmişdi və ona görə Olti (mənbələrdə Alti və Anti kimi də verilmişdir-M.S.) qalası üzərinə hərəkət dayandırıldı və Şah Təhmasibin əlavə fərmanının nə olacağını gözləmək qərara alındı. Amma Sultan Süleyman eşidəndə ki, Olti qalasına hücum təhlükəsi var, onda Osmanlı sarayının böyük əmirlərindən bir olan Sinan paşanın rəhbərliyi altında olan bir qoşun dəstəsini Olti qalasına istiqamətləndirdi ki, həmin qalanı qızılbaş qoşunlarından qorusun. Sinan paşa da bu tapşırığı alan kimi böyük sürətlə Olti qalasına doğru hərəkətə başladı ki, qızılbaş qoşunlarından daha tez həmin qalaya yetişsin. Bu xəbər Səfəvi qoşun rəhbərliyinə çatanda qərara alındı ki, xüsusi bir dəstə təşkil edilsin və Sinan paşanın hərəkətinin qarşısının alınmasına göndərilsin. Sinan paşa Olti qalası ətrafına yetişdikdən sonra kiçik bir istirahət üçün düşərgə salmalı oldu. Özünə arxayınçılıqdan və bir də yorğunluğun təsirindən Sinan paşa huşyarlığı da əldən verdi. Bunun nəticəsi idi ki, Sinan paşa qəfildən özünü və onu müşayiət edən dəstəni qızılbaş dəstəsinin mühasirəsində gördü. Qızılbaş dəstəsi elə bir çevik və sürətli hücum həyata keçirdi ki, Sinan paşanın özünü toparlamaq və müdafiə tədbirləri həyata keçirmək imkanı olmadı. Nəticədə Osmanlı döyüşçüləri itki verməklə bərabər, həm də qızılbaşların əsirinə çevrildilər. Sinan paşa özü də əsir götürüldü və Səfəvi şahının düşərgəsinə gətirildi. Səfəvi yazılı mənbələrində o da bildirilir ki, Sinan paşanın əsir götürüldüyü vaxt iki dövlət arasında, xüsusi ilə Osmanlı tərəfinin təşəbbüsü ilə sülh əldə edilməsi barəsində söhbətlər gedirdi, ona görə Sinan paşaya toxunulmadı və ondan sülh əldə edilməsində istifadə olunması məqsədəuyğun bilindi (376).

Sultan Süleymanın Naxçıvandan geri çəkilməsindən sonra tərəflər arasında barışığın əldə edilməsi üçün fəal yazışmaların aparılmasını görmək mümkündür. Doğrudur, elmi dövriyyədə olan yazışmaların tarixinin müəyyənləşdirilməsində müəyyən bir qarışıqlıq da mövcuddur. Bununla belə, hər iki tərəfin bu istiqamətdə kifayət qədər fəal olduğunu görmək mümkündür.

Osmanlı mənbələrindəki məlumatlara görə, Sultan Süleyman Bayəzid ətrafına çatandan sonra, 1554-cü il avqust ayının 6-da Şah Təhmasibin Osmanlı sarayının baş vəziri Əhməd paşaya məktubu gətirildi. Bu məktubun elmi-tarixi dövriyyədə olan mətnində bir qarışıqlıq mövcuddur. Amma belə bir fikir iddia olunur ki, Şah Təhmasibin bu məktubu yazmaqda məqsədi iki dövlət arasında barışığın əldə edilməsinə cəhd göstərilməsi idi. Bu məktubda Səfəvi qoşunlarının taktikası haqqında da müxtəsər məlumat verilir və bildirilirdi ki, Osmanlı qoşunları ilə açıq meydan müharibəsinə girilməsi mümkünsüzdür. Belə bir qərara gəlinməsinin səbəbi də məktubda açıqlanırdı. Qeyd edilirdi ki, Osmanlı qoşunlarının bütün gücü onun toplarında və tüfənglərindədir. Bu silahlara qarşı açıq döyüşə girilməsi məktubda zərərli bir hal kimi dəyərləndirilirdi. Şah Təhmasib hətta Çaldıran savaşında Şah İsmayılın Osmanlı toplarına və tüfənglərinə qarşı açıq döyüşə girməsini də təqdir etmirdi. Osmanlı mənbələrinin məlumatına görə, Şah Təhmasib "xeyir barışdadır" deyərək sülh imkanlarının aranmasına tərəfdar olduğunu bildirmiş və bəyan etmişdi ki, əgər Osmanlı sultanı yenidən Səfəvi hüdudları üzərinə qoşun çəksə belə bu qoşunlarla döyüşə girməyəcəkdir. Verilən məlumatdan belə bir qənaət hasil olur ki, Şah Təhmasib iki dövlət arasında müharibə olmasını istəmirdi və hətta Çaldıran savaşının baş verməsinə belə öz peşmançılığını bildirirdi (377).

Osmanlı sarayının baş vəziri Əhməd paşa bu məktuba cavab yazaraq Şah Təhmasibə göndərdi. Bu məktub kifayət qədər kəskin bir məktub idi. Osmanlı baş vəziri iki dövlət arasında mövcud olan gərginliyə görə Səfəvi tərəfini ittihamlandırır və buna görə sülh axtarışlarının da səfəvilər tərəfindən baş verməsinin zəruriliyini qeyd edirdi. Əsir götürülmüş bir qızılbaş döyüşçüsü ilə Səfəvi düşərgəsinə göndərilən məktubunda Əhməd paşa yazırdı: "Məktubunuz varid olub. …İndi padşahlar miyanında iki təriqdən birinə süluk olunmaq qayideyi-müstəməreyi-şahani alişan ola gəlmişdir. Sülh və ya cəng. İstirahəti-rəaya və rəfahiyyəti bəiya üçün "sülh xeyirdir" müğtəsazınca əməl olunmaq şərait və ayini xıvaqin mürüvvət karın olduğunda iştibah yoxdur. Bu ca-

nibdən dəfəatı ilə namələr göndərilib padşahımız əzəmə həzrətlərinin astani-səadət məkanları hər zamanda məftuh və məkşufdur. Kimsənin dostluğundan nifrət və əbaları yoxdur. Sülh və səlahdan qaçmazlar deyə bəyan olunmuşdur. Qətən o canibdən rifahiyyət birayaya rüxsət olunmayıb. Hər zamanda işarəti fayizə fəsada səy və cəhd olunmuşdur. …İkidə bir əhdi pozmaq sizin tərəfinizdən nümayan olunmuşdur. Bu mərtəbədən sonra sapık işlərlə dolu Şərq diyarına yürüməyə qərar verilmişdir. İndi vaxtınıza hazır və keyfiyyətinizin nəticəsinə hazır olasınız ki, himməti uca padşah həzrətlərinin kəsin niyyətləri bu dəfə Ərdəbil gorxanasının təxribi olduğu mühəqqəqdir. Aylardan bəri savaşçı əsgərlərimiz Azərbaycan həvalisini talan etməkdə, sizə gəlincə izninizə rastlanmamaqdadır. …Sərp dağlara qaçıb durursunuz. Əgər şahsınızsa meydana gəlib rəayaya etdiyiniz cəzanın cavabını verin, yurdunuza girmişkən bizimlə ərcə döyüşün, buna iktidarınız yox isə qulluğu qəbul ediniz" (378).

Əhməd paşa Osmanlı qoşunlarının Səfəvi hüdudlarına yürüş etməsini Səfəvi qoşunlarının Osmanlı hüdudlarında törətdikləri talanlara və təxribatara cavab olaraq baş verdiyini bəyan edirdi. Buna baxmayaraq, Əhməd paşa iki dövlət arasında sülh danışıqlarının olmasına da müsbət yanaşırdı: "Neçə dəfədir şərqə gəldik, bədnamlıq edib qarşımıza çıxmadınız. Əgər bu dərəcə qorxub qaçmanıza top ilə tüfəng səbəb olursa, onları buraxıb qılınc və mizraqla vuruşmaya da hazır olduğumuza, padşahın naməsində işarət vardı. Qarışqa yuvalarına da girsəniz, sizi tapmaq üçün hüdudi-məmaliki məhniyyədə qışlamaq niyyət olunmuşdur. İndi bu ölkələrdə Osmanlı bayraqları dalğalanır, əgər meydana gəlirsiniz, topla tüfəngi bir yana buraxıb qılıncla döyüşürüz" (379).

Əhməd paşa məktubunda onu da yazırdı ki, əgər doğrudan da Səfəvi şahı tərəflər arasında sülhün bərqərar olmasının tərəfdarıdırsa əvvəla fitnə-fəsada yol açan əməllərdən əl çəkilsin, sonra isə Osmanlı sarayına etibar və nüfuz sahibi olan bir elçi göndərilsin. Əgər belə bir elçi göndərilsəydi, Əhməd paşanın fikrincə ona cavab verilə bilərdi (380).

Osmanlı mənbələrinin məlumatına görə, Əhməd paşa öz məktubunda Sultan Süleymanın bir daha geri qayıda və Ərdəbilə qədər hərəkət edə biləcəyi ehtimalını da yazmışdı. Onun sözlərindən belə bir qənaət hasil olurdu ki, Sultan Süleyman geri çəkilməklə qışlaq keçirmək qərarında idi. Onun Səfəvi hüdudlarına yenidən hücum etmək niyyəti isə qüvvədə qalmaqda idi. Ehtimal edilir ki, bu xəbərdən ehtiyatlanmağa başlayan Şah Təhmasib iki dövlət arasında sülhün bərqərar olmasına daha ciddi səylər göstərməyə başladı. Bildirilir ki, sülhün əldə edilməsinə nail olmaq üçün Şah Təhmasib yeni bir məktub yazdı və Əhməd paşaya göndərdi. Mövcud məlumata görə, Şah Təhmasibin vəzirləri adından da Ərzrum bəylərbəyi Ayaz paşaya məktub göndərildi (381). Ayaz paşaya göndərilən məktubda da sülh məsələsinin gündəmə gətirildiyi ehtimal edilir.

Əhməd paşanın bu məktuba da cavab yazdığı və bu məktubunda da kəskin mövqe ifadə etməyə çalışdığı bildirilir O, yenə də Osmanlı qoşunlarının şərqə doğru hərbi yürüş etməsinə haqq qazandırır və Səfəvi sarayının sülh istədiyi təqdirdə Şah Təhmasibə məsləhət görürdü ki, öz ölkələrində oturub qalsınlar, fitnə və fəsada qarışmasınlar. Baş vəzir bir daha təkid edirdi ki, sülh danışıqları üçün Osmanlı düşərgəsinə etibarlı bir adam göndərilsin. Bundan sonra isə Səfəvi şahı bir daha təhdid edilirdi ki, sülh məsələsinə ciddi yanaşılmayacağı təqdirdə Osmanlı qoşunları sərhəd xəttindən çox da uzaqlaşmayacaqlar. Osmanlı baş vəziri onu da bildirirdi ki, diyari-Əcəmdə əsil fəsad mənbəyi olan, qızılbaşlar tərəfindən Kəbə kimi ziyarət edilən Ərdəbil Osmanlı qoşunları tərəfindən təxrib ediləcəkdir. Səfəvi düşərgəsinə göndərilən məktublarda o da bəyan edilirdi ki, Osmanlı tərəfinin Səfəvi dövləti ilə bariş etmək niyyəti yoxdur. Bildirilirdi ki, öncəki məktublarda sülhə bir rəğbətli meyl olsa da, əslində, Osmanlı tərəfi bu məktubları sülh qayğıları ilə yazmadı və sülh yeganə seçim deyildir. Ancaq o da əlavə olunurdu ki, xəlifə-padşah onun dərgahında sülh diləyənləri də rədd etmir. Əhməd paşanın yazdığı məktubunda belə fikirlər mövcud idi: "Kim bir mömünü öldürürsə onun cəzası, içində əbədi olaraq qalacağı cəhənnəmdir"

– ayəti-kərimasinə Səfəvilərin istinad etmələrini doğru bulmayaraq, bu ayənin ancaq mömünlər haqqında varid olduğunu, ərbabi-rafiz və ilhad olub əshabi-kiramə sübb edən (söyən) iranlılar haqqında olmayacağını da irəli sürərək, vilayəti-Əcəmdə olan sipahilərdən və rəayadan cümləsi kafirlərdir, qanları, malları halaldır deyə müftilərimiz fitvalar verdilər" (382).

Ərzrum bəylərbəyi Ayaz paşa da öz növbəsində ona ünvanlanmış məktuba cavab yazdı. O da öz məktubunda bir tərəfdən Səfəvi mənsublarını təhdid edir, digər tərəfdən də fikir ciddi olarsa sülh müzakirələrinin mümkün olacağını istisna etmirdi: "Təxribi-Təbriz və Ərdəbil əxbarının istimaından təhsil olunan hərarətin itfası və təskini üçün surəti-vəzü nəsihətdə bəzi kəlimat təhrir olunmuşdur. Bu uğurdakı qeyrətimizin atəşi kolay-kolay sönməz, neçə dəfədir padşahımızın önündən qaçırsınız, sonra da çıxıb ərlik davası edirsiniz. Yaxşıca bilmiş olunuz ki, Təbriz və Ərdəbil şəhərlərini qapan köşələrinə əgərçilər Dərbəndinə təhvil edib qaçırmaq mümkün və qabil deyildir. Sınırlardakı torpaqlarımıza xanlar və mirzələr təyin edərək zəbt eyləyəcəyinizi yazmışsınız. Kaş ki, bunu yaparaq qarşımıza çıxa biləsiniz. Aclıqdan bizim ordumuzun atları qırılıb, yaya qalacağımızdan da söz edirsiniz. Halbuki neçə aylıq zadü zəvada hazırdır ki, Xorasan ilə Səmərqəndə dəkin bizə yetər. …Padşah bütün ordusu ilə sərhədə yaxın yerdə qışlanmasını buyurmuşdur. İnşallah, ilk bahar gəlincə Ərdəbil və Təbrizin halı başqa olur. Əgər barış niyyət edərsiniz padşah qəbul edər" (383).

Elmi-tarixi dövriyyədə Osmanlı sarayının ikinci vəziri İsgəndər paşa tərəfindən də Səfəvi vəzirlərinə göndərdiyi məktubun mətni vardır. Bu məktub onu deməyə əsas verir ki, hər iki tərəfin saray mənsubları tərəflər arasında sülh əldə edilməsi ilə məşğul olmuşdular. Doğrudur, bu məktubların ruhunda qarşılıqlı ittihamlar var idi. Bununla belə, o da məlum olur ki, Səfəvi dövlətinə qarşı yeni münasibətlərin formalaşması Osmanlı sarayı tərəfindən də qəbul edilməkdə idi. İsgəndər paşanın məktubu Məsum bəy Vəkilə, Şahqulu bəy Möhürdara, Sunduq bəy qorçubaşına, Bədr xana ünvanlanmışdı. Osmanlı vəzirinin məktubunun

məzmunundan aydın olur ki, əvvəlcə adları çəkilən Səfəvi əmirləri ona məktubla müraciət etmişdilər. Şübhə yoxdur ki, bu əmirlərin yazdıqları məktubun ruhunda da bir barış istəyi və niyyəti var idi. İsgəndər paşanın məktubu kifayət qədər yumşaq bir dildə yazılmışdı və ona görə güman etmək olar ki, Səfəvi əmirlərinin məktubu da oxşar üslubda yazılmışdı. Bununla belə, Səfəvi əmirlərinin yazdıqları məktubda bir sıra məsələlərə aydınlıq gətirilməsi cəhdinin olmasını da görmək mümkündür. Səfəvi əmirləri Osmanlı qoşunlarının Sultaniyyəyə qədər irəliləməsini və bu zaman yerli əhaliyə böyük ziyanlar dəyməsini yazırdılar. Osmanlı vəziri bu ziyanların mümkün ola biləcəyini istisna etmirdi. Onun yazdığına görə, Osmanlı qoşunları çox böyük sayla yürüş edirdilər və bu böyük sayda olan qoşunların hərəkət marşrutu üzərində olan məntəqələrin əhalisinə müəyyən ziyanlar çata biləcəyi də istisna deyildi. Amma eyni zamanda onu da bildirirdi ki, Sultan Süleymanın Ərzruma tərəf geri çəkilmək qərarı veriləndə Van qalası Səfəvi qoşunları tərəfindən mühasirəyə alındı, bu qala təxrib edildi və onun əhalisinə böyük ziyanlar yetirildi. Yəni Osmanlı vəziri bəyan etmək istəyirdi ki, yaşayış məskənlərinin dağıdılması sahəsində Səfəvi tərəfi daha ağır işlər görmüşdü (384).

İsgəndər paşanın məktubundan aydın olur ki, Səfəvi əmirləri Osmanlı qoşunlarını məscidləri yandırmaqda, insanlara divan tutmaqda, xüsusi ilə hamilə qadınların uşaqlarını qarınlarından çıxararaq qətlə yetirməkdə ittihamlandırırdılar. İsgəndər bəy bu ittihamı qəbul etmirdi və xahiş edirdi ki, söylənilən ittihamın doğruluğunun təsdiq edilməsi üçün ən azı iki nəfər ədalətli şahid göstərilsin. İsgəndər paşa eyni zamanda Səfəvi əmirlərinin Şah Təhmasibin artıq 17 ildən bəri günah işlərdən tövbə etməsinə də öz münasibətini açıqlayırdı. O, Şeyx Səfiəddin Ərdəbilinin adını çəkir və bildirirdi ki, Şah Təhmasib də bu şeyxin nəslindəndir. Başqa sözlə, İsgəndər paşa bildirmək istəyirdi ki, Şeyx Səfiəddin kimi bir təriqət başçısının nəslinin davamçılarının heç vaxt günah işlətməsinə haqqı yoxdur. Bu mənada o, Şah Təhmasibin tövbə etməzdən əvvəl edtiyi günahların heç də ona hörmət gətirmə-

diyini və onun elə o zamanlar belə əməlləri etməyə haqqı olmadığını bildirirdi. Bütünlükdə isə İsgəndər paşanın Səfəvi əmirlərinə ünvanladığı məktub kifayət qədər ədəb qaydalarına uyğun olaraq yazılmışdı. Bununla İsgəndər paşa qabarıq şəkildə nümayiş etdirməyə çalışırdı ki, tərəflər arasında sülhün əldə edilməsinə tərəfdardır. Qarşılıqlı münasibətlərin formalaşması və sülh üçün əlverişli mühitin yaranması üçün İsgəndər paşa hətta Şah Təhmasibin seyidliyini də qəbul edirdi. İsgəndər paşa Səfəvi əmirlərinə çatdırırdı ki, sülhə meylin olduğu təqdirdə gərək sərhəd vilayətlərinin hakimləri qarşı tərəfin ərazilərinə hücum etməkdən çəkinsinlər. Məktubun sonunda isə təklif olunurdu ki, sülhə meylin doğru olduğu təqdirdə Osmanlı sarayına hörmətli nümayəndə heyəti göndərilsin və sülh danışıqları başlansın. O da bildirilirdi ki, Osmanlı sarayına müraciət edən oradan əli boş qayıtmaz (385).

Sultan Süleyman Bəyazid yaxınlığında çox da dayanmadı və 1554-cü il avqust ayının 9-da oradan Ərzruma doğru hərəkətə başladı. Həmin il sentyabrın 3-də Sultan Süleyman Ərzrum yolu üzərində olan Sazlıq adlı məntəqədə düşərgə saldı, sentyabr ayının sonlarına yaxın isə Ərzruma yetişdi.

Şah Təhmasibin yazdığına görə, onun əmirləri və əyanları Osmanlı qoşunlarının təqib edilməsinin və bu qoşunlara güclü zərbə vurulmasının tərəfdarı idilər. Amma Ramazan ayının başlanmasına görə, Şah Təhmasib mərhəmət üzündən Osmanlı ərazisində döyüşlərin aparılmasına razı olmadı. O yazırdı: “…Dedim ki, mübarək ramazan ayı olduğu üçün müsəlmanların ölkəsi üzərinə getməyək. Qərara aldım ki, Gürcüstan tərəfə gedək. Hərbi kafir olan Şirşahın ölkəsini qarət edək və Qərqərə ölkəsində dayanaq ki, atlarımız kökəlsinlər. Kuhguliyə qoşunu bu gün gəldi, qalxıb Gürcüstana yola düşdük. Bir ay müddətində gürcülərin Şuşad ölkəsi (vilayəti), Qədnət ölkəsi (vilayəti) və Qərqərədə dayandıq ki, mübarək ramazan bayramından sonra İsa xanın mülazimi Ərzbar gürcü Bəsbatın yanına getmişdi. Bəsbat onunla xəbər göndərmişdi ki, Ayaz paşa Qalaaltında tənha oturub və Xandigar Ərzrumdadır.

Biz də Pərkan qalası ətrafında möhrdar, Şahqulu bəy Məhəmmədi bəy Mosullu, Ədhəm bəy Rumlu, Uluqxan bəy Sədlu və Tərxan bəyi əmirlərdən bəziləri ilə göndərdik. Gürcü Qərqərənin oğlu, Tubar və gürcü Ərzbar onların çərxçilri oldular. 5 minə qədər adam Ayaz paşanın üstünə getdilər. Bir gecə Şahgəldi bəyin oğlu Əmirxan 200 nəfər sol tərəfdən qaravul olmuşdular ki, Kamxord qalasından bir nəfər bayıra çıxsa, xəbərdar olsunlar. Təsadüfən Sinan bəyə rast gəlirlər. Onu məğlub edərək, tutub mənim yanıma gətirdilər. Vəziyyəti soruşduqda Sinan bəy dedi:

-Xandigardan başqa bütün qoşun Altıya gəlmişdir. Xandigar da arxalarınca gələcək.

Əmirlərlə Altı yolundan qayıdıb Qanlıçəmənə getdik və öz ordumuza qovuşduq ki, əgər Kətlin üstünə qoşun gəlsə vuruşaq. Bu vaxt Əlqasibin mülazimləri: Dəli Əfəndi oğlu, Bəşarət Kələnin hər ikisi qaçıb gəldilər və dedilər ki, paşalar qaçdılar.

Mən də əmirləri toplayıb söhbət etdim. Məhəmmədi dedi ki, Xandigar Ərzrumda oturub, biz Van qalasına gedək. Kürdüstanı qarət edib, orada dayanaq. Atları kökəldək. Nə qədər ki, Xandigar Rumdadır, biz də orada qalarıq. Əgər Xandigar bizim üstümüzə gəlsə, oradan Bağdad tərəfə gedərik. Əgər bizim arxamızca Bağdada yola düşsə, qayıdıb Diyarbəkrə gedərik. Əgər Diyarbəkrə gəlsələr, biz Ərzincana gedər və o vilayəti tamamilə yandırıb qarət edər, xaraba qoyarıq. O vilayətləri tamam xaraba qoyduqdan sonra baharda Xandigar üstümüzə gəlsə, nə edə biləcək? Şübhəsiz ki, aciz qalıb qayıdacaq.

Mən istixarə etdim, yol vermədi; sülhə istixarə etdim, yaxşı gəldi. Əmirlərə dedim ki, əgər həzrət Xandigar cahillərin sözü ilə bizə pislik etdisə, biz onun pisliyinin əvəzində yaxşılıq edək. Xülasə, ondan sonra Əhməd sultanı göndərdim ki, Qurt qalasında dustaq olan Sinan bəyi gətirsin. Şahqulu ağanı Sinan bəyə qoşub, Xandigara bir məktub yazdım ki, əgər həzrəti-Xandigar cahillərin sözü ilə pislik etdisə, biz əvəzində yaxşılıq edirik. [Məşhur] hədisə müvafiq əməl edib, sülh qapısını döyürük. …Şahqulu ağa ilə Sinan bəyi yol salıb, özüm Gürcüstana yollandım. Oranın əksər qala və istehkamlarını fəth edib 30 min əsir tutduq. Oradan

Qarabağ tərəfə gəldik. Eşikağası Fərruxzadı Şahqulu ağadan sonra Gürcüstan hədiyyələri ilə elçi göndərdim. Onun ardınca da Üveys ağanı [göndərdim]. Allaha şükür olsun ki, sülh baş tutdu" (386).

Şah Təhmasib bu qeydlərində üç elçilik nümayəndəsinin adını çəkmişdir. Onlardan birincisi, yəni Şahqulu bəyin elçiliyi 1554-cü il sentyabr ayının 26-da Ərzrumda Sultan Süleymanın qəbuluna düşə bilmiş və məktubu ona təqdim etmişdi. Qeyd olunur ki, bu məktubda Şah Təhmasib nəhayət ki, iki dövlət arasında sülh münasibətlərinin bərqərar olmasının zəruriliyinə toxunmuşdu. Mənbə məlumatlarına görə, Sultan Süleyman topladığı Divanda Şah Təhmasibin elçisini qəbul etmiş, onun gətirdiyi məktubla tanış olmuş və iki dövlət arasında düşmənçiliyin aradan qaldırılması ilə bağlı öz vəzirləri ilə müzakirələr aparmışdı və belə bir qərara gəlmişdi ki, ilk Osmanlı-Səfəvi barış mütarikəsi məqsədəuyğun sayılsın. Çoxlu sayda qiymətli hədiyyələr verildikdən sonra Şahqulu bəy geriyə yola salınmış və Sultan Süleymanın Şah Təhmasibə yazdığı cavab məktubu da ona tapşırılmışdı. Həmin məktubda Sultan Süleyman belə yazırdı: "Asitaneyi-aliyyəmizə hüsni-iltica edənlərin muradatı, həyyizi qəbulda vaqe olmaq şimeyi-kərimeyi şahanəmizdədir. Madam ki, ol canibdən əhdə müxalif evzayi-fitnə iqaə olunmaya, asakiri-zəfər məasirimizdən kimsənə ol tərəflərə mütəərriz olmaz" (387).

Osmanlı mənbələri Şahqulu bəyin Sultan Süleyman tərəfindən xüsusi ehtiramla qarşılandığını və qiymətli hədiyyələrlə geri yola salındığını yazırlar. Bəzi mənbələrdə Osmanlı sultanının yazdığı cavab məktubunun məzmunu haqqında da müxtəsər qeydlər mövcuddur. Həmin mənbələrdən birində Şahqulu bəyin Osmanlı düşərgəsinə gəlməsi belə təsvir olunmuşdur: "Bu vaxt yolunu azmış şah, Şahqulu adlı bir yaxın adamlarının ən məşhuru və inanılmış bir adamını, sülh ricasına göndərdi. Şahqulu gəlib ordugaha çatanda cahan padşahının hüzuruna ərz olundu. Qayda üzrə onu uca divana gətirdilər və o, naməsini təslim etdi. Şahın məktubunda yazılanlar bu idi ki, bundan qabaq ölkələr padşahının tərəfindən göndərilən namədə meydana dəvət olunmuş idi.

O vacib olan əmrə cavab yazılıb, bundan sonra on dəfə də Ucan vilayətində əsgəri çəkilsə, bu tərəfdən müharibə əmrinin verilməsi ehtimal xaricindədir. Çaldıranda atam İsmayıl qəflət etmişdir. Top və tüfəngə və atəşli döyüşə qarşı durmaq ağılsız bir xəyaldır. İndi münasib olan, "hökmlərin ən böyüyü sülhdür" hökmü ilə əməl edib "Sülh ilə əməl xeyirlidir" – deyə məktubunda irad etmiş və padşahın könlü aydın vəziri tərəfindən də belə bir məktub yazılmış idi: "Çox qədim zamanlardan bəri, bu ana gəlincəyə qədər gəlib gedən padşahların adəti ya cəng, ya da sülh olduğu bütün aləmə məlum olduğu halda, ikidə birdə əhdi pozmaq Sizin tərəfinizdən nümayiş edilməkdədir. Bundan sonra qeyri-təbii abidələrlə dolu Şərq diyarına hücum etməyə qərar verilmişdir. İndi vaxtınıza hazır və halınızın nəticəsinə nazir olmalısınız ki, himməti uca padşahın kəsin olan niyyətləri, bu dəfə Ərdəbil türbəsinin dağılması həqiqətdir – deyərək həmin gələn elçini geri göndərdi. Məktubun gəlməsindən sonra, tamamiylə özünə gələn şah, canyaxan bu xəbərlərdən olduqca bunlandı və təkcə qorunma, cəhətindən sülhə rəğbət göstərmişdir. Min hədiyyə və gözəl əşyalarla əyanlarından birisini elçi olaraq hazırlayıb cahan padşahı Sultan Süleymanın xakipayinə təkrar göndərmişdir" (388).

Sultan Süleyman əvvəlki məktublarından fərqli olaraq Şahqulu bəy ilə Şah Təhmasibə göndərdiyi məktub farsca yazılmışdı. Doğrudur, bu məktubda sülh məsələsi ortaya gətirilmişdir. Amma Sultan Süleyman öz iddialarını ortaya qoymaqdan da çəkinməmişdi. Həmin məktub müqəddəs ayələrlə başlayır, Allahın, sonra isə islam peyğəmbərinin vəsfinə həsr edilmiş nəzm parçaları ilə davam edirdi. Sonra da məktubun böyük bir hissəsi Sultan Süleymanın vəsfinə həsr olunmuşdu. Bunun ardınca da məktubda əsas mətləblər ifadə olunmuşdu. Sultan Süleyman, Səfəvi şahının da vəsfini yaddan çıxarmamışdı və ona ehtiram əlaməti olaraq adının qarşısında bir sıra ləqəbləri sadalamışdı. Osmanlı sultanı Şah Təhmasibi "Əcəm mülkünün iftixarı", "sultanların əzimi", "alicənab" adlandırırdı və məlumat verirdi ki, Şah Təhmasibin Şahqulu bəy vasitəsi ilə göndərdiyi məktub ona

yetişib və məktubda ifadə olunan fikirlərlə bağlı şah elçisinin söylədiklərini də dinləyibdir. Sultan Süleyman bu məktubunda Səfəvi hüdudları üzərinə hərbi yürüş etməsinin səbəbinə də toxunmuşdu. Bu yürüşü o, Şah Təhmasibin tapşırığı əsasında həyata keçirilmiş bəzi yürüşlərə cavab olaraq etdiyini bildirirdi. O cümlədən, Səfəvi qoşunlarının Əxlat, Ərciş və Ərzrum qalaları üzərinə hücumu, Ərzrum ətrafında İsgəndər paşa ilə döyüşlər aparılması Osmanlı qoşunlarının da hərbi yürüşə başlamasının səbəbi kimi göstərilirdi. Səfəvi hüdudlarına hərbi yürüşə başlanasının əsas səbəbi  dini inanclarda yol verilmiş təhriflərin aradan qaldırılması ilə bağlanırdı. Sultan Süleyman açıq şəkildə bəyan edirdi ki, bu hücumla islam peyğəmbərinin şəriətinin həyata keçirilməsi üçün münasib şərait yaratmağı qarşısına məqsəd qoymuşdu. Sultan Süleyman, ümumiyyətlə, şərqə doğru hərbi yürüşlər həyata keçirməklə islam dinini himayə etməyi, din qanunlarına riayət olunmasının təmin edilməsini başlıca hədəf olduğunu bildirirdi. Sultan Süleyman bu yürüşlər zamanı hədəfin dünya malı əldə etmək olmadığını yazır, Səfəvi məmləkətinin var-dövlətinə tamah salmadığını söyləyir və dünya dəyərləri üçün çalışmadığını xüsusi olaraq qeyd edirdi. Osmanlı sultanı yazırdı ki, Hindistan yaxınlıqlarından, Ədındən, Sinddən, Sənadan, Həbəşdan başlanan ərazilər onun hakimiyyəti altındadır. Bununla Osmanlı sultanı çox böyük ərazilərin onun hakimiyyəti altında olduğunu çatdırmaq istəyirdi. Bundan sonra isə yazırdı ki, belə geniş ərazilərə malik olduğu halda, onun Əcəm diyarında qarğalar məskəni olan bir neçə xaraba və viranə məkana sahib olmağa ehtiyacı yoxdur. Məktubda bildirilirdi ki, hazırda qış fəsli yaxınlaşmaqdadır və ona görə də qoşunlar bu fəsildə istirahət etməklə öz silah-sursat təchizatını təkmilləşdirəcək və yeni bir qüvvə ilə yeni döyüşlərə hazırlaşacaqlar. Sultan Süleyman havaların qızması ilə yenidən şərqə doğru hərbi yürüş başlayacağını elan edirdi. Eyni zamanda ona da ümid etdiyini bildirirdi ki, yaradanın göstərəcəyi möcüzə nəticəsində heç bu yürüşə başlamağa ehtiyac olmayacaqdır (389).

Sultan Süleyman bəyan edirdi ki, əgər Şah Təhmasibin məktubunda yazılanlar doğrudursa, onda Səfəvi sarayının etibarlı, ağıllı və kamil adamlarından birini göndərsin və şərtlər müzakirə edilsin. Yəni Sultan Süleyman da tərəflər arasında sülh bərqərar olmasına rəğbətlə yanaşdığını yazırdı və tərəflərin maraqlarına cavab verən şərtlərin müzakirəsinə də hazır olduğunu bildirirdi. Eyni zamanda ona da işarə edirdi ki, Səfəvi tərəfi bu məsələyə ciddi yanaşmalıdır və xəbərdarlıq olunurdu ki, sülh danışıqları altında hansısa bir hiyləyə yol verilərsə, bunun qarşılığında atılacaq addımın nəticəsi tezliklə məlum olacaqdır (390).

Bu məktubun məzmunundan göründüyü kimi, tərəflər arasında sülh bağlanması üçün bir ümid yeri var idi və əməliyyatlar mövsümünün başa çatması da bu məsələnin həlli ətrafında müzakirələr aparılmasına münasib şərait yaradırdı. Sultan Süleyman onun yanına Səfəvi sarayının nüfuzlu əyanlarından birinin göndərilməsini istəyirdi və Şah Təhmasib də onun bu istəyi ilə razılaşdı. Şah Təhmasib də tərəflər arasında yaranmış bu yeni vəziyyətdən bəhrələnməyə çalışdı və saray eşikağası Fərruxzad bəy Qaradağlını tərəflər arasında sülh şərtlərinin müzakirə edilməsi üçün məktubla Osmanlı düşərgəsinə göndərdi.

### a) Şah Təhmasibin Sultan Süleymana məktubu

Elmi-tarixi dövriyyədə Şah Təhmasib tərəfindən Sultan Süleymana göndərilmiş böyük bir məktubun da mətni vardır. Şah Təhmasibin həyatı haqqında sanballı əsər yazmış Mənuçehr Parsadustun fikrincə bu məktub 1554-cü il avqust ayının 6-da Bəyaziddə olarkən Sultan Süleymana təqdim olunmuşdu. Amma bu məktubun məzmunu onu avqust ayının 6-da deyil, sonradan Sultan Süleymana təqdim edildiyini deməyə əsas verir. Çünki Şah Təhmasib Osmanlı qoşunlarının Naxçıvandan geri çəkilməsindən sonra Gürcüstan və Şəki istiqamətində yürüşlər keçirməsindən danışır. Onun həmin yürüşləri həyata keçirməsi heç şübhəsiz ki, avqust ayının 6-na kimi mümkün ola bilməzdi. Bundan başqa məktubda Şahqulu bəyin rəhbərliyi altında Sultan Süley-

manın yanına elçilik göndərilməsindən də söhbət açılır. Bu isə onu deməyə əsas verir ki, haqqında danışılan məktub 1554-cü ilin sentyabr ayından sonra yazılmış və Sultan Süleymana təqdim olunmuşdu. Məlumdur ki, Şahqulu bəyin elçiliyindən sonra Şah Təhmasib tərəfindən Fərruxzad bəyin rəhbərliyi altında yeni bir elçilik göndərilmişdi. Haqqında danışılan məktubun məzmunu belə bir ehtimala əsas verir ki, həmin məktub məhz Şahqulu bəyin elçiliyi ilə Fərruxzad bəyin elçiliyi arasında yazılmışdı.

Bu məktubun Sultan Süleymanın Qarsdan Şah Təhmasibə göndərdiyi həqarət və təhdid dolu məktubuna cavab olaraq yazıldığı ehtimal edilir. Məktub Səfəvi döyüşçülərinin əsir götürdüyü Osmanlı döyüşçüsü vasitəsi ilə göndərilmişdi. Həmin məktub kifayət qədər müfəssəl və iri həcmli bir məktub idi (391) və Şah Təhmasib həmin məktubda ikitərəfli münasibətlərdə mövcud olan bir sıra mətləblərə öz münasibətini bildirmişdi. Dövrün yazışma ənənələrinə uyğun olaraq məktub müqəddəs ayələrlə, dualarla başlayır, ifadə olunan fikirlərin təsdiqi üçün müəyyən ayələrə istinad edilirdi. Şah Təhmasib Allaha sitayişini qələmə alır, islam peyğəmbərini və şiə müqəddəslərini mədh edirdi. İslam peyğəmbərini o, həm də nəslinin cəddi kimi təqdim edirdi. Bundan başqa, Şah Təhmasib məktubunda həm özünü, həm də bütünlükdə səfəviləri şiələrin, o cümlədən də Osmanlı ələvilərinin arxası və dayağı hesab edirdi. Səfəvi şahı eyni zamanda ona da işarə edirdi ki, şiələri sünnilərin təqibindən, o cümlədən də Osmanlı türklərinin təzyiqlərindən qorumağa hazırdır. Sonra Şah Təhmasib hökmdarı olduğu Səfəvilər dövlətinin vəsfinə də bir neçə cümlə həsr etmişdi. O şübhə etmirdi ki, müqəddəslərin himayəsi nəticəsində bu dövlət əbədi olan bir dövlətdir və bu dövlətin düşmənləri, heç bir qorxusu yoxdur. Səfəvi dövlətinə qarşı düşmənçilik mövqeyində olanları Şah Təhmasib qara gün sahibləri hesab edirdi. Şah Təhmasib öz məktubunda bildirirdi ki, əksər məzhəb müxaliflərinin Səfəvi dövlətinə qarşı qaldırdıqları təkəbbür bayraqları süquta düçar oldu və bununla beləleri Səfəvi dövlətinin əbədiliyini də təsdiq etmiş oldular. Şah Təhmasib sonra bir daha bəyan edirdi ki, hökmdarı olduğu dövlət Elburus

dağı qədər möhkəm və səbatlıdır və ona görə bu dövlət dünyanın sonuna qədər mövcud olacaqdır. Səfəvi şahına görə, cahan və cahan əhli onun idarəçiliyi altında əmin-amanlıq içərisindədir və hər zaman da belə olacaqdır (392).

Şah Təhmasib kifayət qədər ciddi bir ahənglə Osmanlı sultanına müraciət edirdi və onun məktubunda fikir kəskinliyi özünü göstərirdi. Şah Təhmasib məktubunun əvvəlində bildirirdi ki, Osmanlı sarayı bəzi şeytan xislətli insanların vəsvəsəsi nəticəsində özündə bir məğrurluq hiss etmiş və bu da onda İran məmləkətlərinə padşahlığı ələ keçirmək sövdası yaratmışdı. Bu sövdanın həyata keçirilməsi isə Osmanlı sultanını böyük bir qoşunla Azərbaycan məmləkəti üzərinə hərəkət etməyə sövq etmişdi. Şah Təhmasib bu xəbəri təəssüflə xatırlayırdı və onu da bildirirdi ki, Osmanlı qoşunları Azərbaycan hüdudlarına daxil olduqdan sonra Naxçıvana yollanmış və burada talan və soyğunçuluqlara rəvac vermişdi. Verilən məlumata görə, Naxçıvanın talanmasında Rumeli qoşunları daha fəal iştirak etmişdilər. Bu talanların qarşısının alınması üçün Şah Təhmasib o istiqamətə qoşun dəstəsi göndərmək qərarına gəlmişdi. Bu zaman Osmanlı kəşfiyyatçıları Rumeli qoşunlarına Səfəvi dəstəsinin yaxınlaşması barəsində xəbər verir. Şah Təhmasibin yazdığına görə, talanla məşğul olan döyüşçülər Səfəvi qoşunlarının yaxınlaşması xəbərini eşitcək it kimi qaçıb o məntəqəni tərk etdilər və oradan uzaqlaşdılar. Səfəvi şahı yazırdı ki, Osmanlı qoşunları geri çəkilməyə başlayanda İsmayıl Mirzə onun yanına gəldi və təcrübəli əmir və döyüşçülərin bir dəstəsi ilə Osmanlı qoşunlarının təqib edilməsi haqqında icazə istədi. Yeri gəlmişkən, Şah Təhmasib oğlu İsmayıl Mirzənin vəsf etmək imkanının da əldən vermirdi və onu "bahadur, əhsənulla təali" kimi mədh edirdi. Səfəvi şahı bəyan edirdi ki, onun rəhbərlik etdiyi qoşunlar artıq çoxlu sayda qələbələr əldə etdiyi üçün İsmayıl Mirzənin geri çəkilən Osmanlı qoşunlarını təqib etməsini məqsədəuyğun saymadı. Şah Təhmasibin yazdıqlarından aydın olur ki, Osmanlı qoşunlarının geri çəkilməsindən dərhal sonra Osmanlı sultanının elçiləri Səfəvi düşərgəsinə gələrək baş vəzir Əhməd paşanın və sərhəd bölgələrinin hakimlərinin sülh əldə

edilməsi təkliflərini özündə əks etdirən məktublarını gətirdilər. Bu məktublarda bildirilirdi ki, Səfəvi şahı da qarşılıqlı sülhün əldə edilməsi üçün öz elçisini Osmanlı düşərgəsinə göndərsin. Şah Təhmasibin fikrincə, Osmanlı əmir və əyanları tərəfindən bu məktubların göndərilməsi təsadüfi deyildi. Osmanlı sarayı sadəcə sülh istəmirdi. Həm də çalışırdı ki, Səfəvi elçilərinin sülh təklifi ilə Osmanlı düşərgəsinə gəlməsinə nail olsun və bununla belə bir görüntü yaradılsın ki, guya Səfəvi sarayı tərəflər arasında sülh bərqərar olmasının təşəbbüskarıdır. Bununla belə, Şah Təhmasib tərəflər arasında sülhün əldə edilməsinə tərəfdar idi və əmin idi ki, bu sülhün əldə edilməsi ilə sərhəd bölgəsindəki ərazilərin, bu ərazilərdə yaşayan müsəlmanların talanmasına və ardıcıl basqınlarla qarşılaşmasına son qoymaq olar. Sülhə tərəfdar olmasının əməli nişanəsi kimi Şah Təhmasib hətta Osmanlı düşərgəsinə elçilik heyətinin getməsinə də qərar verdi. Bu elçilik heyətinə Şahqulu ağa Qorçu rəhbərlik etməli idi. Şah Təhmasib xüsusi ilə qeyd edirdi ki, bu elçilik heyətinin göndərilməsinə Osmanlı sarayının baş vəziri Əhməd paşanın və Ərzrum hakimi Ayaz paşanın təkidli xahişlərindən sonra qərar verilmişdi. Amma Səfəvi şahı onu da qeyd edirdi ki, onun ətrafı heç də bütünlüklə Osmanlı ilə barışıq əldə edilməsinə tərəfdar deyil. O cümlədən İsmayıl Mirzə də Osmanlı ilə sülh bağlanmasını istəmirdi və bunun nəticəsi kimi Səfəvi elçilərinin Osmanlı düşərgəsinə getməsini də istəmirdi (393).

Şah Təhmasibin yazdıqlarından belə məlum olur ki, onun göndərdiyi elçilik Osmanlı düşərgəsinə getmiş və Şah Təhmasibin iradəsini və sülhə meylini Osmanlı sultanına çatdırmışdı. Lakin Sultan Süleyman nə baş verdiyindən, o cümlədən baş vəzir Əhməd paşa tərəfindən Şah Təhmasibə və Səfəvi mənsublarına məktub göndərilməsindən xəbərsiz olduğunu bildirmişdi. Başqa sözlə, Osmanlı sultanı tərəflər arasında barışıq əldə edilməsinə heç də ciddi yanaşmamışdı. Şah Təhmasib də iki hökmdar arasındakı münasibətlərin belə məcrada cərəyan etməsindən heç də xoşlanmamışdı və bunu məktubunda da çox kəskin şəkildə ifadə etmişdi. O yazırdı ki, Osmanlı dövləti məkr, yalan və hiylə üzə-

rində qurulmuşdur. Osmanlı sultanı Səfəvi elçiliyinin yetişməsindən sonra Şah Təhmasibə cavab məktubu yazıb göndərmişdi. Şah Təhmasibə görə, həm nəzmlə, həm nəsrlə, ərəb, fars və türk sözlərinin qarışığı ilə yazılmış sultan məktubunda yenə məzhəb məsələlərinə daha çox diqqət ayrılmışdı. Bundan əlavə həmin məktub elə çətin bir dildə yazılıbmış ki, hətta fazil insanlar belə onu anlamaqda çətinlik çəkiblərmiş. Mürəkkəb dildə yazılmış həmin məktubda Osmanlı sultanı tərəfindən tələb olunurdu ki, Səfəvi tərəfdarları Əbu-Bəkir, Osman, Müaviyə, Yəzid və başqalarına lənətlər yağdırmağı dayandırsınlar. Əks təqdirdə qarşılıqlı barışdan söhbət ola bilməzdi. Şah Təhmasib isə belə hesab edirdi ki, tərəflər arasında sülh mümkündür. Bu şərtlə ki, tərəflər öz iddialarından, təhqir və təhdidlərindən, əsassız dini təəssüfkeşliklərindən əl çəksinlər (394).

Sultan Süleyman göndərdiyi cavab məktubunda yazıbmış ki, Əhməd paşanın Səfəvi düşərgəsinə məktub göndərməsindən xəbəri olmamışdır və onun icazəsi olmadan sülh müzakirələrinin mümkünlüyü haqqında məsələ qaldırılmışdır. Belə bir halın necə baş verməsini Şah Təhmasib anlaya bilmirdi. Şah Təhmasib yazırdı ki, əgər Sultan Süleymanın dediyi doğrudursa, onun Əhməd paşa tərəfindən yazılan məktubdan xəbəri yoxdursa, Əhməd paşa öz başına hərəkət edibsə, deməli onda Əhməd paşa Osmanlı sultanını etibarsız bir adam kimi qəbul edib və onun bu hərəkəti sultanına qarşı xəyanət kimi qiymətləndirilməlidir. Şah Təhmasib əlavə edirdi ki, Əhməd paşanın belə bir hərəkəti Osmanlı sultanının rüsvayçılığı deməkdir. Osmanlı sultanını belə məsulyyətsizlikdə ittihamlandırdıqdan sonra Şah Təhmasib Sultan Süleymanla sülh əldə edilməsini heç bir vəchlə düzgün hesab etmirdi və özünün də belə bir sülhə getməyəcəyini açıqlayıdı. Bu yerdə Şah Təhmasib çox kəskin şəkildə Sultan Süleymanı aşağılayırdı, onun kin-küdurət mərkəzi, iblislik mənbəyi, küfr yığnağı, nifaq məcmusu, pislikər məhəlli olduğunu bəyan edirdi.

Sultan Süleyman yazıbmış ki, bir neçə dəfə sənin məmləkətinə gəldim və sən bizim qarşımızda dayana bilmədin. Sonra da əlavə edibmiş ki, sənin bizim qarşımızda dayanmaq gücün yox-

dur. Şah Təhmasib yazırdı ki, adlı-sanlı sultanlar, zəmanənin hökmdarları Osmanlı sultanını mərdlikdən, igidlikdən, hünərdən uzaq bir insan sayırlar və Osmanlı sultanını fateh kimi qəbul etmirlər. Onun fikrincə, Sultan Süleyman həyatı boyu heç bir vaxt igidlərin, mübarizlərin, döyüşkən insanların arasında olmamışdı və heç vaxt da igidlərin və mübarizlərin sırasında qələbə bayrağını qaldıra bilməmişdi, yüz minlərlə oxların, nizələrin, qılıncların, gürzlərin qarşısında sinəsini qabağa verməmişdi, sağ cinahdan sol cinaha, sol cinahdan sağ cinaha yönəlməmişdi, döyüşə girənlərin mərkəzindən və cinahlarından xəbəri olmamışdı, hər zaman qala daxilində şəbədə çıxarmaqla, atəş oynatmaqla, daş atmaqla məşğul olmuşdu, pərdə arxasında gizlənən xanımlar kimi 300 min namərdi döyüş meydanında məhbusa çevirmişdi, onları arabaların və zəncirlərin əhatəsinə salmışdı. Şah Təhmasib Osmanlı sultanına müraciətlə bildirirdi ki, əgər səltənət, şəhriyarlıq, şücaət və hünər iddiasındasansa mərd kimi fitnə-fəsad evi olan gizləndiyin qaladan kənara qədəm qoy, bizim döyüşçülərimizin, bahadırlarımızın, şirlərimizin və aslanlarımızın şücaətini, mərdliyini, dilavərliyini öz gözünlə gör. Səfəvi şahının yazdığına görə, Osmanlı qoşunlarına gətirilmiş nəhənglər əgər Elburus dağı kimi əzəmətli idilərsə də, Səfəvi döyüşçülərinin qılınclarının zərbindən elə ilk döyüşdə yerlərindən qopdular. Şah Təhmasib Osmanlı sultanının nəzərinə çatdırırdı ki, səfəvilərin malik olduğu şücaət və igidlik onun əcdadlarından, atasından miras qalmışdır. Bu şücaətin nəticəsi idi ki, o, hakimiyyətə gələndən sonra Səfəvi dövlətinə qarşı istiqamətlənmiş hücumların qarşısını ala bilmişdi. Şah Təhmasib fəxrlə yazırdı ki, özünü mərdlikdə, mübarizlikdə və bahadırlıqda Osmanlı sultanından iki dəfə üstün sayan 80 nəfər adlı-sanlı padşahlar Amudərya çayını adlayaraq Xorasan vilayətinə girmişdilər. Bu zaman Şah Təhmasib Məşhəddə İmam Rzanın məqbərəsinin ziyarətində olduğunu və özbək hakimlərinin və onların müttəfiqlərinin Xorasan vilayətinə basqın etməsindən xəbərsiz olduğunu yazırdı. Səfəvi şahı yazırdı ki, həmin ziyarət zamanı ona xəbər çatdırılır ki, gözləmədikləri bir bəla onları haqlayıb, Mavəraünnəhr hakimi Kuçum

xan və Turandan, Xətadan, Xütəndən, Qılmağdan, Xarəzmdən, Çərkəsdən, Qıpçaq düzündən toplanan 250 min nəfərlik qoşunla Xorasan vilayəti üzərinə hücuma keçiblər. Şah Təhmasib bildirirdi ki, bu qoşunlarda olan hər bir döyüşçü Osmanlı döyüşçülərinin ikisinə bərabər idi. Onun yazdığına görə, bu qoşunlar səhrada Nuhun tufanını, Hudun ildırımını, Nəmrudun əzabını xatırladırdı. Bu çoxsaylı qoşunlar qarşılaşdıqları zamanı Səfəvi qoşunlarını dərhal dövrəyə aldılar. Şah Təhmasib yazırdı ki, o zaman kiçik yaşında idi və müharibə mərəkəsi ilə hələ qarşılaşmamışdı. Onun ümidi yalnız yaradandan kömək və mədəd istəməkdə idi ki, bunu da etdi və sonra bu qoşuna qarşı döyüşə girdi. Şah Təhmasib belə böyük sayda olan qoşundan qorxmadığını bildirirdi. O yazırdı ki, qorxunu qəlbindən uzaqlaşdıraraq qoşunlarını qruplaşdırdı, onun sağ və sol cinahlarını müəyyənləşdirdi və öz qardaşlarını da bu cinahların rəhbəri təyin etdi. Şah Təhmasibə görə, hücum edənlərin qüvvəsi o qədər böyük idi ki, bu qüvvələr tez bir zamanda Səfəvi qoşunlarını dövrəyə aldılar və dörd tərəfdən Səfəvi qüvvələri ox yağışına tutdular. Bu oxların sayı o qədər çox idi ki, hətta göy üzü belə görünməz olmuşdu. Bu döyüşün gedişində elə gərgin mənzərə yaranır ki, Səfəvi əmirləri və döyüşçülərinin çoxu Şah Təhmasibin döyüş meydanının tərk edərək qaçdığını güman edirlər. Bu aldadıcı fikirlər Səfəvi döyüşçülərinə sarsıdıcı bir zərbə vurur və onların da çoxu qaçmağa üz qoyurlar. Şah Təhmasibi yazırdı ki, o, əslində döyüş meydanını tərk etməmişdi və onun ətrafında 3 min nəfərlik bir dəstə qalmışdı. Onun fikrincə, bu dəstənin hər bir döyüşçüsü özünü min nəfər cavana bərabər tuturdular və onlar Şah Təhmasibin yanını tərk etmədilər. Şah Təhmasib bu azsaylı dəstənin müşayiəti ilə bir təpənin üstünə qalxaraq 250 min nəfərlik özbək qoşunlarını bir daha müşahidə etməli olur. Bu qoşunlar dalğa kimi ləngər vuraraq ətrafın talan edilməsi ilə məşğul idi. Şah Təhmasibin yazdığına görə, bu ağır səhnəni müşahidə etdiyi zaman onun qulağına qeybdən səs gəlir ki, Həzrət sahibəz-zaman onun imdadına yetmişdir, atlan. Bu sədanı eşidəndən sonra Şah Təhmasib də 3 min nəfərlik dəstə ilə müşahidə üçün dayandığı təpədən yenərək

250 min nəfərlik özbək qoşunlarının üzərinə hücum çəkir. Osmanlı sultanına göndərilən məktubda bu döyüş haqqında müxtəsər məlumat verilmişdir. Şah Təhmasib bəyan edirdi ki, özbəklərin 80 nəfər hakimi yanlarında olan 250 min nəfərlik bir qoşuna güvənsə də, 3 min nəfərlik Səfəvi dəstəsi hünər göstərərək bu qoşuna sarsıdıcı zərbə endirdi, qarşı tərəfdən xeyli sayda adamı o dünyaya göndərdi, qalan qoşunlar isə canlarını qaçmaqla qurtara bildilər. Bu hadisə haqqında məlumat verməklə Şah Təhmasib bir daha özünün və qoşununun döyüşkənliyini, mübarizliyini və qorxmazlığını Osmanlı sultanının nəzərinə çatdırmaq istəyirdi. Şah Təhmasib sonra bir daha Sultan Süleymana müraciət edirdi ki, pərdə arxasında gizlənən arvadlar kimi yox, şir ürəkli nəhənglər kimi bizim mərdliyimizi və mərdanəliyimizi müşahidə etmək istəyirsə, qaladan bayıra çıxsın, Allah qüdrətini, padşah dəbdəbəsini və bizim heybətimizi öz gözüylə görsün. Səfəvi şahı hətta Osmanlı sultanını təhdid etməkdən belə çəkinmirdi və onu xəbərdar edirdi ki, əgər sən gəlməsən, onda biz gələcəyik, Yaradanın tövfiqi ilə şahlıq taxtımızı İstanbulda quracağıq, Osmanlının dövlət bayrağını qara torpağa endirəcəyik.

Şah Təhmasibə göndərdiyi məktubunda Sultan Süleyman onun seyidliyini də şübhə altına almışdı. Şah Təhmasib sözsüz ki, bunu qəbul etmirdi və bununla bağlı da Osmanlı sultanına kəskin etirazını bildirmişdi. Onun fikrincə, belə bir fikrin ortaya çıxması ədavətlə, cəhalətlə bağlı idi. Şah Təhmasib Osmanlı sultanının bu iddiasının doğru olmadığını bəyan etməklə, onun fikrinin təkzib edilməsi üçün peyğəmbər övladları ilə bağlı olan bir hadisəni nümunə gətirirdi. Belə ki, Kərbala hadisələri zamanı İmam Hüseyn onun qəsdinə duranlardan nə üçün belə bir əmələ əl atdıqlarını soruşur və bu əməl üçün onların Allah qarşısında cavab verməli olacaqlarını xatırladır. İmam Hüseyn hətta peyğəmbərin nəvəsi olmasını, Həzrət Əlinin gözünün işığı olmasını xatırladır. İmam Hüseynin qətlinə əl atanlar isə onun peyğəmbər ailəsi ilə bağlılığının olmadığını iddia edirlər və qanlı əmələ əl atırlar. Şah Təhmasib bununla demək istəyirdi ki, düşmənləri imam övladlarını peyğəmbər nəslindən olmasını inkar edirdilər. Bununla nə

oldu ki? Şah Təhmasib həm də onu bildirmək istəyirdi ki, Osmanlı sultanının onu seyid kimi qəbul etməməsindən nə dəyişəcək ki? Şah Təhmasibə görə, Osmanlı sultanının bu iddiası ona bənzəyirdi ki, it hürər karvan keçər.

Bunun ardınca Şah Təhmasib yenidən Sultan Süleyman və onun nəsli haqqında ağır sözlər işlədirdi. Onun yazdığına görə, bütün sultanlar və xanlar, habelə bütün aləm üçün məlum idi ki, Sultan Süleymanın əcdadları cəhalət içərisində qalmış insanlar idi. Onlar hər zaman türk və firəng qulamlarla bir yerdə olmuş, onlarla qaynayıb-qarışmışdılar. Sonra isə bu qulamlar vəkillik mənsəbinə qaldırılmışdılar. Şah Təhmasib bildirmək istəyirdi ki, Osmanlı sultanların ilk nəsli böyük xanədanlar ailəsindən çıxmamışdı. Şah Təhmasib əlavə edirdi ki, Yəzid dünya malı və hakimiyyəti xatirinə peyğəmbər övladlarının nəslini kəsməyə çalışaraq həm bu dünyanın, həm də axirət dünyasının əzabları ilə üzbəüz qaldığı kimi, islam libasında cilvələnməyə çalışan o bəd etiqad da (Osmanlı sultanı nəzərdə tutulurdu) artıq təhlükəli xəstəliklərə giriftardır və bununla ən müxtəlif əzablara mübtəla olacaqdır.

Sultan Süleyman özünün cavab məktubunda onu da yazıbmış ki, kafirlərlə qanlı müharibələr aparmış, Bağdad və başqa yerləri fəth etmişdi. Şah Təhmasib bu iddia ilə də razılaşmırdı. O bildirirdi ki, Bağdadın təkəlilərin nəzarəti altında olması hamıya məlum idi. Amma onlar arasında xəyanətlər özünü göstərməyə başladı. Ona görə də oranın hakimi Şərafətdinoğlu Bağdadı tərk edərək Səfəvi şahının yanına üz tutdu. Hətta bundan sonra döyülmüş və sınmış Osmanlı qoşunlarının Bağdadı almaq cürəti yox idi. Van qalasının süqutunu da Şah Təhmasib yerli tayfa mənsublarının və Ülamə Təkəlinin xəyanətləri ilə əlaqələndirirdi. Yəmən və Sənanın ələ keçirilməsi ilə bağlı da Sultan Süleymanın yazdıqları ilə Şah Təhmasib razılaşmırdı. O yazırdı ki, Yəmən hakiminin Osmanlı qoşunlarına qarşı mübarizə aparmasından və bəzi vaxtlarda Osmanlı qoşunlarına üstün gəlməsindən xəbərdardır. Amma Yəmənin də qalaları məkr və xəyanət yolu ilə təslim edilmişdi və bununla da uğursuzluğa yol açılmışdı. Şah Təh-

masib Şirvanın Səfəvi hüdudlarına qatılmasını Yəmənin Osmanlılar tərəfindən ələ keçirilməsi ilə müqayisə edirdi. Şah Təhmasib yazırdı ki, o, Şirvanı mübarizə edərək fəth etmişdi. Yəni heç də Yəmən kimi, xəyanətlər nəticəsində əldə edilməmişdi. Şirvanla bağlı Şah Təhmasib onu da əlavə edirdi ki, bu diyar bir tərəfdən var-dövlət və sərvət baxımından dünyanın ən yaxşı məkanlarından biri idi, digər tərəfdən də Şirvanın ən möhkəm qalaların olduğu bir məkandır və belə bir diyarı o, qılıncının gücü hesabına ələ keçirə bilmişdi. Bundan başqa Şah Təhmasib məktubunda Şəkinin də necə fəth edilməsindən danışırdı. Onun yazdıqlarına görə bu bölgədə də çox möhkəm qalalar var idi və Şəki hakiminin əcdadları illər boyu bu qalaları möhkəmləndirə bilmişdilər. Malik olduğu möhkəmliyinə və müdafiə imkanlarına baxmayaraq Şah Təhmasib topların, badliclərin, tüfənglərin atəşi ilə həmin qalaları yerlə yeksan etmiş və onları fəth etmişdi. Şah Təhmasib Gürcüstanın da fəth edilməsinə toxunurdu və bildirirdi ki, bu diyarın qalaları da möhkəmləndirilmiş qalalar idilər. Buna baxmayaraq bu qalalar da Səfəvi qoşunları tərəfindən fəth edilə bilmişdi. Səfəvi şahı Gürcüstana qarşı aparılan müharibəni cihad kimi qələmə verirdi və bu diyarda kafirlərlə mübarizə aparıldığını qeyd edirdi. Onun yazdıqlarından belə aydın olur ki, islamın yayılması xətrinə bu diyarda xeyli sayda kilsələr bütkədələr məhv edilmişdi. Yəni Gürcüstanın fəth edilməsini Şah Təhmasib yalnız döyüş uğuru kimi yox, həm də islam yolunda aparılan mübarizənin nəticəsi kimi qələmə verirdi.

Şah Təhmasibin Osmanlı sultanına göndərdiyi məktubda söz açdığı başqa bir hərbi məqam səltənətin şərq hüdudlarında Qərcistan vilayətinin ələ keçirilməsi haqqında idi. Bu vilayət Səfəvi sarayının tanınmış əmirlərindən biri olan Məhəmməd xan Şərəfəddinoğlunun rəhbərliyi altında fəth edilmişdi və məktubda yazılanlardan görünür ki, bu uğur Şah Təhmasibin də xüsusi sevincinə səbəb olmuşdu. Məhəmməd xan Şərəfəddinoğlu Herat hakimi idi və Şah Təhmasib də onu mərd və igid bir əmir kimi vəsf edirdi. Onun rəhbərliyi altında Qur və Qərcistan vilayətlərinin fəth edilməsi və Səfəvi hüdudlarına qatılması Şah Təhmasibin

xüsusi sevincinə ona görə səbəb olmuşdu ki, həmin vilayətlər də çox güclü müdafiə imkanlarına malik idilər. Səfəvi şahı bildirirdi ki, Qərcistanda 40 sərhəng və 20 min ox-kamanla silahlanmış qoşun var idi. Eyni zamanda bu vilayətin qalaları da kifayət qədər möhkəmləndirilmiş qalalar idi. Şah Təhmasibin yazdığına görə, o vaxta kimi heç bir kənar hakim bu vilayətin fəthinə nail ola bilməmişdi. Çünki Qərcistanın döyüşçüləri kimsəyə boyun əymək istəmirdilər Bu vilayətin fəth edilməsi Şah Təhmasib üçün ona görə sevindirici idi ki, onun qoşunları belə bir möhkəmləndirilmiş vilayəti ələ keçirmiş və bu vilayətin döyüşkən sakinlərini ram edə bilmişdi. Şah Təhmasibin məmnunluqla qeyd etdiyi başqa bir məqam isə bu diyarın sakinlərinin islamın düz yoluna yönləndirilməsi idi. Bunu da Şah Təhmasib öz fatehliyinin dəyərli məqamlarından biri hesab edirdi və bu barədə Sultan Süleymana da geniş məlumat verirdi.

Sonra Şah Təhmasib Osmanlı sultanının başqa bir iradına cavab yazırdı. Sultan Süleyman öz məktubunda Əbubəkrin xəlifə kimi qəbul edilməməsini Şah Təhmasibə irad tutubmuş. Şah Təhmasib də bu məsələ ilə bağlı öz mövqeyini Osmanlı sultanına açıqlayırdı. Sultan Süleyman bildiribmiş ki, Əbubəkr islam icması tərəfindən qəbul edilmiş xəlifə idi. Amma Şah Təhmasib bununla razılaşmırdı. Onun fikrincə, islam icması heç də bütünlüklə onun xəlifəliyinə etiqad etmirdi və bu məqam islam aləminə də aydın idi. Şah Təhmasib qeyd edirdi ki, nəinki hər hansı bir şəhər, hətta bir məhəllə belə Əbubəkrin xəlifəliyini qəbul etmirdi. Onun yazdığına görə, olsa-olsa bir miqdar fasid insanlar ona etiqad edə bilərdilər. Səfəvi şahı sonra əlavə edirdi ki, islam aləminin böyük bir hissəsi, o cümlədən Əli ibn Əbu-Talib əleyhüssəlam, İmam Həsən, İmam Hüseyn, Həzrət Abbas, Həzrət Abdulla Abbas, Zübeyir, Salman, Əbuzər, Müğdəd, Əmar, Abdulla ibn Məsud, Əbu Əyyub Ənsari, Əbu Kəəb, Malik Əştər, Malik ibn Zəhir 10 min nəfərlə, Səid ibn İbad, Qeys ibn Səid 10 min nəfərlə ona müxalif oldular və onun xəlifəliyini qəbul etmədilər. Şah Təhmasib adlarını çəkdiyi müqəddəsləri islam aləminin böyük şəxsiyyətləri hesab edirdi və bəyan edirdi ki, bu tanınmış

insanlar da Əbubəkrin xəlifəliyini qəbul etmirdilər. Səfəvi şahı da Sultan Süleymana öz iradını bildirirdi ki, onun yazdığını sünni kitablarında görmək mümkün deyil. Şah Təhmasibə görə bu, müqəddəslər dəfələrlə Əbubəkrin xəlifəliyinə öz etirazlarını bildirmişdilər. Ona görə də Şah Təhmasib islam icmasının Əbubəkri xəlifə kimi qəbul etməsi və bununla bağlı peyğəmbər hədisinin olması barəsində deyilənləri qəbul etmirdi. Əksinə, "Qurani-Kərim"də Həzrət Əlinin xəlifəliyinə işarə edildiyini, islam peyğəmbəri tərəfindən onun təqdir edilməsi barəsində kifayət qədər yazıldığını, amma bu yazılanların Sultan Süleymana və onun üləmasına çatmadığı Şah Təhmasibin məktubunda öz əksini tapmışdı.

Həzrət Əlinin islam dininin həqiqi xəlifəsi olması haqqında Şah Təhmasib öz fikirlərini əsaslandırmağa da çalışırdı. O qeyd edirdi ki, Həzrət Adəmdən başlayaraq Məhəmməd peyğəmbərə qədər belə bir ənənə vardır ki, hər peyğəmbərdən sonra onun xəlifəsi və yolunun davamçısı təyin edilmişdi. Bu xəlifə və davamçı Allah tərəfindən müəyyənləşdirilirdi və heç bir əsrdə mümkün deyildi ki, peyğəmbər Allah buyruğu olmadan özünə xəlifə və ya davamçı təyin etmiş olsun. Bu mənada Allah bəndələrinin də ixtiyarı yox idi ki, onlar Allahın izni, peyğəmbərin razılığı olmadan özlərinə xəlifə təyin edə bilsinlər. Peyğəmbərlər də buna razı olmazdılar ki, özlərindən sonra xəlifə və ya davamçı təyin edilməsin, bununla onun ümməti də gözü yolda və başsız qalmış olsun. Şah Təhmasibə görə, kimsə belə bir həqiqəti rədd edə bilməz ki, peyğəmbərlərin seyyidi, rəsulların ən əfzəli olan islam peyğəmbərinin də öz davamçısı kimi vəsiyyət etdiyi insan hamı tərəfindən qəbul edilməlidir. Səfəvi şahı Osmanlı sultanına müraciət edərək deyirdi ki, bəsirət gözü ilə bax və bil ki, aləmin seyyidi olan, xilqətin fəzilət sahibi olmasına şahidlik etdiyi və peyğəmbərlərin sonuncusu olan islam peyğəmbərinə Allah tərəfindən xəlifə və ya davamçının təyin edilməməsi mümkündürmü? Və ya yaradan öz rəsulunun dinini sahibsiz qoya bilərdimi, Allahın rəsulu da öz dinini sahibsiz qoya bilərdimi, o öz ümmətinin gözünü yolda qoyaraq xəlifəsinin və ya davamçısının ol-

masını istəməyə bilərdimi, bu peyqəmbər, davamçısının kim olmasını vəsiyyət etməmiş dünyadan köçərdimi? Şah Təhmasib sonra bir daha Sultan Süleymana müraciət edirdi ki, sən cahil və nadansan, heç vaxt təfsir kitablarını, müqəddəs kəlamlarla bağlı olan kitabları oxumamış, mütaliəsi olmayan, daha çox ata-babalarının eşitdiyi sözlər əsasında danışan bir para insanların söylədiklərinə inanırsan.

Fikrinin əsaslandırılması üçün Şah Təhmasib "Quran" ayələrindən birinə də müraciət edirdi. (Bəqərə surəsi, 207-ci ayə) onun fikrincə, bu ayədə Allahın əmri ilə Həzrət Əlinin islam xəlifəsi təyin edilməsi öz əksini tapmışdı. Şah Təhmasibin yazdığından belə aydın olur ki, bu ayə islam peyğəmbərinin həyatının sonlarına yaxın nazil olmuşdu və bu fikrini bildirdikdən sonra Şah Təhmasib həm də Həzrət Əlinin sifətlərinin vəsfinə yer ayırmışdı. Onun fikrincə, Həzrət Əli heç nədən qorxmayan, islam yolunda Zülfüqar çalan və müsəlmanlar tərəfindən də qəbul edilən bir müqəddəs idi. Şah Təhmasibə görə, bu ayələrin məzmunu Sultan Süleymanın tanış olduğu təfsirlərdə gizlədilmişdi. Onun yazdığına görə, toxunduğu məsələ çoxlu sayda kitablarda öz əksini tapmışdı. Amma Osmanlı sultanı onlara diqqət yetirmirdi. Şah Təhmasib sonra yenidən "Quran" ayəsinə və islam peyğəmbərinin hədislərinə istinad edirdi və həmin hədislərin mötəbərliyinin də qəbul olunduğunu bəyan edirdi.

Həzrət Əlinin xəlifəliyinin sübut edilməsinə Şah Təhmasib məktubunda çox böyük yer ayırmışdı. Bu barədə danışarkən Şah Təhmasib həm "Quran" ayələrinə, həm peyğəmbər hədislərinə, həm islam aləmində mötəbər qəbul edilən təfsirlərə, hədis toplularına istinad edirdi. Məlumdur ki, bu məktub saray münşiləri tərəfindən yazılmışdı. Bununla belə, bu məktubun Şah Təhmasibin diqtəsi ilə yazıldığını da inkar etmək olmaz. Çünki bütün məktub boyu Şah Təhmasibin şəxsi hisslərini, düşüncələrini görməmək mümkün deyildir. Bu baxımdan xilafət məsələsi ilə bağlı məktubda yazılanlar Şah Təhmasibin istər "Quran"a, istər hədislərə, istər "Quran" təfsirlərinə yaxşı bələd olduğunu nümayiş etdirirdi. Şah Təhmasib məktubunda da qeyd edirdi ki, bir sıra məz-

həb məsələlərindən danışanda mövzunun mahiyyətindən uzaq olan alimlər kimlərinsə danışdıqlarına, kimlərinsə nə vaxtsa kimdənsə eşitdiklərinə, hansısa şeyxin yuxuda gördüklərinə, kimlərinsə rəvayətlərinə istinad edirdilər. O, Sultan Süleymana da işarə edirdi ki, onun ətrafında olan üləmalar məzhəb məsələlərinin şərhində bu yolla gedirlər və belələrinə inananlar da əhli-beytə müxalifətçilik edirdilər. Şah Təhmasibə görə, islami dəyərlərin təhrif olunmasının bir səbəbi də bu dəyərlərə münasibətdə sözləri lazımi etibar doğurmayan Əbu Hərirə, Ömər, Müaviyə kimilərinin və onların əshabələrinin fikirlərinin əsas tutulması idi. Şah Təhmasib onları kafir, ruzgarın ən pis əhli kimi dəyərləndirir və onların formalaşdırdığı dini təsəvvürləri də qəbul etmədiyini bildirirdi.

İslami dəyərlərin təhrif edilməsinə görə Şah Təhmasib Osmanlı sultanının etibar etdiyi üləmanı, yolunu azmış fazilləri, cahil alimləri də ittihamlandırırdı. Bunun qarşısında isə Şah Təhmasib qızılbaşların islamın doğru yolunda olmasından danışırdı. Onun yazdığına görə, qızılbaşların əksəriyyəti iman dəyərlərinə bürünmüşdülər, peyğəmbər və imam mərifətinə sahib olmuşdular, islam peyğəmbərinə etiqad gətirmişdilər, bütün işlərdə peyğəmbər şəriətinə riayət edirdilər, bu şəriətə uyğun olaraq xüms və zəkat verir, həccə və cihada yollanırdılar. Şah Təhmasibə görə qızılbaşlar günah işlərdən, o cümlədən şərab içməkdən, zinadan, nahaq qan tökməkdən tövbə etmişdilər. Səfəvi şahı Sultan Süleymana xüsusi olaraq çatdırırdı ki, bu əməllər sizin məzhəbinizdə heç də haram buyurulmamışdır. Şah Təhmasib bəyan edirdi ki, yuxarıda sadalanan əməllər onun hakimiyyəti dövründə haram buyurulmaqla bərabər, islam və iman əhlinin malının, canının qarət edilməsi halal buyurulmamışdır. Bundan başqa, şiə məzhəbinin təmsilçisi kimi, Şah Təhmasib şahı olduğu səltənət hüdudlarında kaftar və uzunqulaq ətinin yeyilməsi, dəf, çəng, ney, rübab, tənbur çalınması, şahmat oynanılması haram buyurulmuşdur.

Qızılbaşlara haram buyurulanlar arasında şərab içilməsi, çirkli paltarda namaza durulması, sol əl ilə üz yuyulması, şeyx-

lərə səcdə edilməsi, cahillərə müridlik edilməsi kimi məsələlər də var idi. Şah Təhmasibə görə, Osmanlı qoşunlarında Avropadan olanların əksəriyyəti "La ilahə illəllah" kəlməsini desələr də, onun tələbini qəbul etməmişdilər, belələri islam əhlinin şüarından xəbərdar da deyildilər.

Şah Təhmasib Osmanlı sultanına müraciət edərək deyirdi ki, biz sizin üləmanızı bir sıra cəhətlərinə görə kafir və fasiğ, bədbəxt və üzüqara hesab edirik. Çünki onların əksəriyyətinin islam peyğəmbərinin əhli-beyti ilə ədavəti var idi, bir çox ibadətləri tərk etmişdilər, günahlara batmışdılar, Şah Təhmasibə görə onların hər biri Lutun ən pis qohumları idilər. Şah Təhmasib bu üləmanı cahil adlandırırdı və şübhə etmirdi ki, əgər Sultan Süleymanın etibar etdiyi din alimləri Səfəvi hüdudlarında yaşayan din alimləri ilə üzbəüz gəlsəydilər Səfəvi alimləri onlardan üstün olardı. Şah Təhmasib yaradana şükr edərək xatırladırdı ki, onun hakimiyyəti illərində çoxlu sayda üləmalar və fazil insanlar yetişmişlər və bu üləma fikir meydanında dünyanın çox alimlərinə üstün gələ bilərdilər. Şah Təhmasibə görə, Səfəvi üləmaları "Quran" kəlamlarını, təfsiri, fiqhi, hədisləri və digər məzhəb məsələlərini elə şərh və izah edirdilər ki, göydəki mələklər də onlara əhsən deyirdilər. Onun yazdığına görə, bu üləmalar bütün məzhəb məsələlərini aydınlaşdırmağa qadir idilər. Yəni tövsiyə olunurdu ki, məhz belə üləmanın fikirlərinə qulaq asılsın, onların söylədikləri dinlənilsin. Şah Təhmasibin fikrincə, Sultan Süleymanın və onun ətrafındakıların ürəyinə şeytan elə bir qıfıl vurmuşdu ki, onlar qafil olmuş, haqq və islam yolundan, şəriət qaydalarından uzaqlaşmışdılar.

Sultan Süleyman Səfəvi şahına göndərdiyi məktubunda şiələri rafiz və fasid adlandırmışdı. Şah Təhmasib şiələrin belə adlandırılması ilə də razı deyildi və məktubunda Sultan Süleymana da bunu çatdırırdı. Onun fikrincə, əvvəllər şiələr haqqında belə sözlər deyilməmişdi. Şah Təhmasib yazırdı ki, şiə sözü hətta islam peyğəmbərinin zamanında da rəvac idi. Başqa sözlə, hələ o zamanlardan şiə sözü ehtiramla çəkilirdi. Şah Təhmasibə görə, şiə sözü sünni sözündən əvvəl işlənməyə başlamışdı və sünni sö-

zünün meydana gəlməsini o, Müaviyə ilə bağlayırdı. O da bəyan edilirdi ki, sünni sözünün şiə sözündən sonra meydana gəlməsi bu məsələnin tədqiqatçılarına da bəlli idi. Şah Təhmasib yazırdı ki, bu söz Həzrət Əli ilə Müaviyə arasında baş verən müharibə zamanı istifadəyə gətirilmişdi. Bu zaman Həzrət Əlinin qoşunları Əli şiələri kimi tanınırdı. Müaviyənin qoşunları isə sünni kimi tanındı. Belə ki, qarşı duran bu qoşunların iki nümayəndəsi arasında bir dəfə bir görüş oldu. Onlardan biri qarşısındakına müraciət edərək soruşdu ki, sünnisən, yoxsa şiə. Müaviyənin qoşunlarından olan döyüşçü də cavab verdi ki, mən sünniyəm. Sünni sözünün işlədilməsində məqsəd o imiş ki, yəni mən Müaviyənin sünnətinə əməl edirəm. Şah Təhmasib bununla onu demək istəyirdi ki, sünni sözü heç də islam peyğəmbərinin sünnətinə sədaqət mənasında işlədilməmişdir və bu sözün islam peyğəmbərinin sünnətlərinə aidliyi yoxdur. Səfəvi şahı bildirirdi ki, sünni sözünün islam peyğəmbərinin sünnəti ilə əlaqəsi varsa, onda nə üçün şiələr də sünni adlanmasın. Çünki şiələr islam peyğəmbərinin bütün sünnətlərinə əməl edirdilər. Şah Təhmasib belə bir qənaətə gəlirdi ki, sünni sözü əslində, əhli-beyt tərəfdarları arasında ədavət yaradılması üçün istifadəyə gətirilmişdir. Onun fikrincə, əgər şiələr rafiz kimi tanınırdılarsa, onda sünniləri də nasibi, yəzidi, nəsrani, mərvani, münafiq, əhli-beyt zalimləri adlandırmaq olar.

Sultan Süleyman öz məktubunda belə bir fikir işlədibmiş ki, öz məzhəbinizdən, əshabəyə küfr deməkdən əl çəkin, peşmançılığınızı bildirin, onda biz sizinlə sülh bağlayarıq. Şah Təhmasib bu təklifi birmənalı şəkildə rədd edirdi. O bildirirdi ki, heç bir diyarda Ali-Məhəmməd şiələrinin heç biri heç zaman öz məzhəbini dəyişməmiş və Ali-Məhəmməd yoluna müxalif olmamışdı. Əvəzində isə, Şah Təhmasibə görə, elə bir ay və il yoxdur ki, sünnilərdən minlərlə adam öz məzhəbini dəyişməsin və şiəliyi qəbul etməsin. Bunun nəticəsi idi ki, Şah Təhmasibə görə, şiə məzhəbinə mənsub olanların sayı gündən-günə çoxalırdı. Şah Təhmasib yazırdı ki, Məvaraünnəhrdə, Hindistanda, Rumda bir neçə il əvvəl heç 500 nəfər şiə yox idi. Amma indi bu ölkələrin hər bi-

rində şiələrin sayı 500 nəfəri ötmüşdü və hər gün də onların sayı artmaqdadır. Şah Təhmasib şübhə etmirdi ki, aləmin bütün əhalisi də bu yolu tutacaqdı. Səfəvi şahı onu da bildirirdi ki, illər ərzində hakimlər şiə tərəfdarlarına qarşı qırğınlar təşkil etmişlər, onların cəsədlərindən kərpic yerinə istifadə etmişlər və çalışmışlar ki, yer üzündə şiə məzhəbinə mənsub olanlar qalmasınlar. Şah Təhmasib bununla bir tərəfdən şiə məzhəbinin getdikcə daha çox müsəlmanlar tərəfindən dəstək qazanmasını, bir tərəfdən də bu məzhəbin daim təqib edildiyini çatdırmağa çalışmışdı. Onun yazdığına görə, artıq şimalda və cənubda, şərqdə və qərbdə şiələrin sayı ulduzların sayından çox idi. Şah Təhmasib fəth etdiyi ölkələrdə, o cümlədən Mavəraünnəhdə və Hindistanda artıq şiəliyin başa düşüldüyünü və ona dözümlü yanaşıldığını bildirirdi. Mavəraünnəhr və Hindistan hakimlərini xatırlatmaqla Şah Təhmasib onların da şiəliyə ehtiramla yanaşdığını və bununla şiəliyin həyatiliyini sübut etməyə çalışırdı.

Məktubunda Şah Təhmasib Hindistan hakimi və onun başına gələnlər və onun Səfəvi sarayından kömək almasına bir qədər ətraflı şəkildə toxunmuşdu. Yəni bununla da Şah Təhmasib Osmanlı sultanına çatdırmaq istəyirdi ki, Hindistan hakimi kimi bir qüdrətli hakimin ona sığınması özü də Səfəvi dövlətinin əzəmətinin göstəricisidir. Şah Təhmasibin məktubda söz açdığı Hindistanla bağlı hadisənin qısa məzmunu belə idi ki, bu ölkənin padşahı Hümayun öz gücünə xeyli arxayın idi və əslində, onun bu arxayınçılığına bir əsas da var idi. Çünki onun sərəncamında 500 min nəfərlik bir qoşun dəstəsi var idi. Hindistan qoşunlarının tərkibində olan döyüş fillərinin sayı isə 12 min baş idi və Hümayunun fikrincə, belə bir qoşunla daha böyük ərazilərə ağalıq etmək olardı. Hümayun padşah bir dəfə yuxusunda görür k, günəş, ay və bəzi digər səma cisimləri onun taxtının ayağına gəliblər və onun xidmətində dayanıblar. Ayılandan sonra Hindistan padşahı öz kahinlərini, münəccimlərini toplayır və onlardan gördüyü yuxunun yozmasını istəyir. Münəccimlər və kahinlər də yuxunu belə yozurlar ki, çox qısa bir zamandan sonra Osmanlı sultanı, İran şahı və Turan hakimləri onun ayağına gələcək və ona öz ita-

ətlərini bildirəcklər. Yəni Hümayun padşah bu hakimlərin sahib olduğu ölkələri də öz sərhədləri daxilinə qatacaqdır. Bu sözlər Hümayun padşahın qürurunu daha da artırsa da, çox qısa zamandan sonra eşitdiklərinin əksi baş verir. Belə ki, Hindistan hüdudları daxilində olmuş əfqan vilayətinin hakimi Şirxan qoşun toplayıb Hümayun padşahın üzərinə hücum çəkir və çox böyük qoşunları olmasına baxmayaraq Hümayuna qalib gəlir. Hümayun da didərgin düşür və canını sağ qurtarmaq üçün Səfəvi hüdudlarına sığınmaq qərarına gəlir. Şah Təhmasib də onu çox nəvazişlə qarşılayır və bir müddətdən sonra ona 20 min nəfərlik qoşun verib öz taxt-tacını geri qaytarmağa göndərir. Hümayun padşah əvvəlcə Əfqanıstanda ona aid olmuş əraziləri geri qaytarır və sonra da öz taxt-tacına sahib olur. Bununla, Şah Təhmasib demək istəyirdi ki, güc heç də qoşunların çoxluğunda deyil. Bu baxımdan o həm də Osmanlı qoşunlarının 300 min nəfərlik bir qüvvə ilə Səfəvi hüdudlarına hücumunu da nümunə gətirirdi. Şah Təhmasib yazırdı ki, Osmanlı sultanı baxmayaraq ki, 300 min nəfərlik qoşunla, top və tüfənglə və dörd illik qoşun ehtiyatı ilə və Əlqas Mirzənin köməyi ilə hücuma keçmişdi, yalnız bir gün Səfəvi hüdudları daxilində qala bildi. Sonra isə o məcbur olub geri qayıtdı.

Bu fikri ifadə etməklə Şah Təhmasib həm də Osmanlı sultanının yenidən onun üzərinə hücum etmək niyyətinin baş tutmayacağına işarə edirdi. Sultan Süleyman yazıbmış ki, üç illik təchizat ehtiyatlarına malik olmaqla dörd tərəfdən Səfəvi hüdudları üzərinə hücum edəcək və Xorasana kimi heç yerdə dayanmayaraq İran torpaqlarını küləyə sovuracaqdır. Şah Təhmasib onun bu sözlərinə istehza ilə cavab verirdi və onu başına gələnlərdən dərs çıxarmağa çağırırdı. Səfəvi şahı yazırdı ki, Osmanlı sultanı həmin məktubu yazmamışdan əvvəl beş dəfə Səfəvi hüdudlarına hücum etmişdi. 300 min nəfərlik bir qüvvə ilə Səfəvi hüdudları daxilində talan və soyğunçuluqla məşğul olan Osmanlı qoşunları öz-özünə məğlub duruma düşərək geri çəkilmək məcburiyyətində qalmışdı. Şah Təhmasibin sözlərinə görə, onun qoşunları ilə qarşılaşmadan da Osmanlı qoşunları aciz itlər gününə düşərək min bir əzab-əziyyətlə qarşılaşmış və hər yürüşdə də 100 minə yaxın itki

verərək geri çəkilmişdi. Şah Təhmasib Osmanlı sultanına müraciət edərək bildirirdi ki, sən hər gəlişində neçə min at, dəvə, top, tüfəng, böyük xəzinələr Yəzid və Müaviyəyə qurban edib qaçdın, elə bir gücün və qüvvətin olmadı ki, beşcə gün bir yerdə dayana biləsən və ya Van qalası istisna olmaqla bircə kənd belə ələ keçirə biləsən. Bu qalanın alınmasını da Şah Təhmasib qaladakı bəzi əmirlərin xəyanəti ilə bağlayırdı. Əvəzində isə Şah Təhmasib hətta qış fəslində olmasına baxmayaraq, Osmanlı tabeçiliyində olan neçə qalanı ələ keçirdiyini və bu qalalarda olan xeyli sayda Osmanlı döyüşçüsünü qətlə yetirdiyini bildirirdi. Onun sözlərinə görə, əgər istəsəydi bir neçə gün ərzində Van qalasını da ələ keçirə bilərdi. Ona görə də Şah Təhmasib Osmanlı sultanının yeni təhdidini ciddiyə qəbul etmirdi. Şah Təhmasib bildirirdi ki, o öz qoşunlarına Osmanlı qoşunları üzərinə hücuma keçmək əmri verməmişdi. Bununla belə, o özü də qeyd edirdi ki, onun qoşunlarından mübariz döyüşçülər, qorçular icazəsiz şəkildə Osmanlı qoşunları üzərinə basqınlar etmiş və hər basqında Osmanlı qoşunlarına 2-3 min nəfərlik itki yetirmişdilər. Səfəvi şahı Osmanlı sultanını xəbərdar edirdi ki, növbəti müharibə olarsa Səfəvi döyüşçüləri artıq icazə gözləmədən Osmanlı qoşunları üzərinə atılacaqlar və bununla Osmanlı qoşunlarının səfini dağıtmaqla onları Fərat çayı sahillərinə qədər qovacaqlar.

Məktubunun sonlarına yaxın Şah Təhmasib özü də Sultan Süleymanı çox kəskin sözlərlə təhdid etməyə başlayırdı. O yazırdı ki, əgər Allahın və Həzrət Rəsalət-pənahın şəriətinin qorxusu olmasaydı və əhli-beyt məzhəbinin haqq yolundan çıxmaq mümkün olsaydı 40 gün ərzində Van sərhədindən küfrlər evi olan İstanbula qədər elə edərdi ki, bir dənə də olsa tikili salamat qalmasın.

Şah Təhmasib məktubunda Osmanlı qoşunlarının əvvəlki hücumuna da toxunmuşdu. Səfəvi hüdudlarına hücum çəkməzdən əvvəl Sultan Süleyman bəyan etmişdi ki, İraqı, Azərbaycanı, Farsı, Kermanı və Xorasanı yerlə-yeksan edib geri qayıdacaqdır. Şah Təhmasib bu sözləri mənasız sözlər kimi qəbul edirdi və həmin sözlərə istehzasının bəyan etməkdən də çəkinmirdi. Səfəvi

şahına görə, Osmanlı sultanının bu iddiaları suyu olmayan quyu, yağı olmayan çırağ, cansız qəlb təsiri bağışlayırdı. Şah Təhmasibə görə, bu sözləri eşidəndə Azərbaycan sakinləri Sultan Süleymanın ağ saqqalına gülürdülər. Bildirilir ki, Sultan Süleyman 400 min nəfərlik qoşun dəstəsi ilə Təbriz ətrafına gəldi və Təbriz sakinləri Səfəvi hakimiyyətinə sadiq qalaraq Osmanlı qoşunları qarşısında boyun əymədilər. Əksinə, hər tərəfdən onlara təzyiqlər göstərilməsinə başlandı, bütün su mənbələri Osmanlı qoşunları üzünə qapandı, çoxsaylı Osmanlı qoşunları azuqə əldə edə bilmədilər və yerli əhali də müqavimət əlaməti olaraq Osmanlı qoşunlarına heç nə satmadı. Bundan əlavə, Təbriz sakinləri qapı bacaları bağlayıb fəal müqavimət göstərilməsi üçün hazırlaşmağa başladılar. Şah Təhmasibin yazdığına görə, bu vəziyyəti görəndə Sultan Süleyman qoşunları şəhərə daxil edərək əhalidən qisas almaq niyyətinə də düşdü. Lakin sonra anladı ki, əgər Osmanlı qoşunları Təbrizə daxil olsalar, küçələrdə və döngələrdə mövqe tutmuş yerli sakinlərinin əlində məhv olacaqdır. Təbriz sakinlərinin qılınc və xəncər zərbələri Osmanlı əsgərlərinin axırına çıxacaqdır. Səfəvi şahının fikrincə, gəldiyinə peşman olan Osmanlı sultanı gecəliklə Təbriz ətrafından baş götürüb qaçdı, iki mənzili bir edərək Van ətrafında düşərgə saldı. Beləcə, Osmanlı qoşunlarının digər dəstələri də üz tutduqları məkandan qaçmağa başladılar. Şah Təhmasibə görə, Osmanlı qoşunlarına qarşı müqavimət göstərilməsi üçün 100 min nəfərlik atlı dəstəsi toplanmışdı və məktubunda Şah Təhmasib bu qoşun dəstəsinin vəsfini də edirdi və onların fəaliyyətini böyük bir səxavətlə tərifləyirdi. Məktubda yazılana görə, Səfəvi qoşunları Osmanlı qoşunlarının təqibinə göndərildi və Səfəvi qoşunlarının bir dəstəsi də Bağdada doğru istiqamət götürdü. Şah Təhmasib yazırdı ki, Sultan Süleyman özü isə İstanbula qaçdı və belə bir şayiə də yaydı ki, Əlqas Mirzə bir qoşun dəstəsini götürərək Kürdüstan istiqamətindən İraqi-Əcəmə hücum etməkdədir. Guya Səfəvi əmirləri və qoşunları da bundan qorxaraq öz ailələrinin və köçlərinin xilas edilməsi haqqında düşünməyə başlamışdılar. Şah Təhmasib isə Əlqas Mirzənin hücumunun qarşısının alınması üçün Bəhram

Mirzənin rəhbərliyi altında ona qarşı qoşun dəstəsi göndərdiyini bildirirdi. Bəhram Mirzə də qoşun dəstəsi ilə Bağdad istiqamətinə yollanaraq on gün ərzində Əlqas Mirzə ilə döyüşlər aparıb onun qoşun dəstəsinə ağır zərbə vurdu. Şah Təhmasib onu da əlavə edirdi ki, belə bir zamanda yaxşı olardı ki, qoşunlar Sultan Süleymanı İstanbula qədər təqib etsin, ona heç bir yerdə dayanmaq imkanı verməsin.

Şah Təhmasib Osmanlı sultanına müraciət edərək bildirirdi ki, o, hazırda bütün aləmdə yüngül və etibarsız bir adam kimi tanınmaqdadır, onun zülmkarlığı, küfrü, bədbəxtliyi və fəsadları haqqında aləmin xəbəri vardır. Səfəvi şahına görə o insanlar ki, uzun illərdən bəri Osmanlı sultanına ehtiramla yanaşırdılar, onun məzhəbi və etiqadı ilə razı idilər, onlar indi  Sultan Süleymanın əməllərindən cana yığılmışdılar, ona lənət və tənə oxuyurdular .

Şah Təhmasib Osmanlı sultanını təhdid edərək onu da babası Sultan Bayəzidin taleyinin gözlədiyini bəyan edirdi. Səfəvi şahına görə, Sultan Bayəzid bütün cəhdlərinə baxmayaraq Əmir Teymur tərəfindən əsir götürüldüyü kimi, Sultan Süleyman da Səfəvi döyüşçüləri tərəfindən əsir götürülərək aləmlər içərisində rüsvay olacaq, başı ağır gürzlərlə və təbərzinlə vurularaq qara torpağa salınacaqdır. Şah Təhmasibə görə, Sultan Süleymanın aqibəti daha da ağır olacaqdı, onun üstünə kuzələrlə neft tökülərək açıq meydanda atəşə çəkiləcəkdi. Məktubda o da yazılmışdı ki, Sultan Süleyman atəşə çəkildiyi zaman qazilər, şiələr, mövləvilər dəmir şişlərlə onun yanında sıraya düzülərək ona deyəcəkdilər ki, ey Süleyman xan, ey sünnilərin pişvası, ey xaricilərin rəhbəri, sənin yeni mənzilin mübarək olmasın. Şah Təhmasib əlavə edərək yazırdı ki, bu zaman əzab mələkləri ərbabların rəbbinin xitabına əsasən, onu yer üzündən atəş taxtına oturdacaq və bu zaman əmirlər, vəzirlər, cahil alimlər, insanlar, ərbablar, dərvişlər, sənətkarlar, guşənişinlər xristianların boynuna taxdıqları kəmərbəndləri atəşdə töhfə kimi onun üstünə tökəcəklər.

Şah Təhmasib öz məktubunu belə bitirirdi: “Gərəkdir ki, xoşagəlməz məktubuna cavabı mütaliə edəsən, xudavəndi cəlli-əlanın bəndəlik vəzifələrinə səy göstərib cəhaləti, qüruru, ədavət-

çiliyi tərk edəsən, peyğəmbər şəriətinə, Murtuza yoluna riayət etməklə onu ibadət vasitəsi kimi qəbul edəsən, təkəbbürü başından uzaqlaşdırasan, özünü aləm içində rüsvay etməyəsən, islam əhlinin yolunu seçəsən, təəssübkeşliyi tərk etməklə yol azmağa son qoyasan ki, əəmeyi-məsumin şəfaətindən faydalanasan, arzularına çatasan və səadət tapasan" (395).

Son dərəcə kəskin ifadələrlə yazılmış bu məktub, heç şübhəsiz ki, Sultan Süleymanın təhqir və istehzalarla dolu olan məktublarının üslubunda yazılmışdı və zəmanəsinin əzəmətli hökmdarlarından və fatehlərindən biri olan Sultan Süleymanın bacarıqsız bir sultan kimi qələmə alınması da Osmanlı sultanının yazdıqlarına verilən cavabdan başqa bir şey deyildi. Doğrudur, Sultan Süleyman böyük iddialarla Səfəvi dövləti üzərinə həyata keçirdiyi yürüşləri zamanı ondan xeyli cavan olan Şah Təhmasibin müharibə taktikası qarşısında ümidində olduğu nəticəni əldə edə bilmədi. Lakin bununla onun bir fateh kimi əldə etdiyi digər möhtəşəm uğurların üstündən xətt çəkmək də mümkün deyildir.

Burada diqqəti cəlb edən belə bir məqam vardır ki, tərəflər arasında sülh meylinin gücləndiyi və bununla bağlı bir fikir də yarandığı halda Şah Təhmasib nə üçün Sultan Süleymana belə kəskin bir məktub ünvanlayıbdır. Ola bilsin ki, sülh meylli yazışmaların davam etdiyi bir vaxtda baş vermiş hansısa bir hadisə tərəflər arasında bu prosesi təhlükə altına alıbmış və Şah Təhmasib də baş vermiş hər hansısa fövqəladə hadisəyə qarşı belə bir məktubu yazmaq məcburiyyətində qalmışdı. Tədqiqata cəlb edilmiş türkdili elmi-tarixi ədəbiyyatda bu məktuba diqqət ayrılmamışdır. Çox güman ki, Sultan Süleymana qarşı kəskin ifadələr işləndiyi üçün bu məktub diqqət obyektinə çevrilməmişdi.

### 9. Amasiya sülh anlaşması

Bəzi məlumatlara görə, Sultan Süleyman Ərzrumdan hərəkət edərək qışlamaq üçün Amasiyaya gəldi və Şah Təhmasibin elçisi olan Fərruxzad bəy də burada Səfəvi şahının məktubunu və bö-

yük sayda qiymətli hədiyyələrini ona təqdim etdi. Osmanlı sultanının Amasiyaya yetişməsi 1554-cü il oktyabr ayının 30-na təsadüf edirdi. Mövcud məlumatlara görə, Sultan Süleymanın qışlamaq üçün Amasiyanı seçməsi heç də təsadüf deyildi. Vaxtilə onun atası Sultan Səlim də Çaldıran döyüşündən sonra Amasiyada qışlağa dayanmış və havaların qızması ilə iki dövlət sərhədində yerləşən bəzi qalaları ələ keçirmişdi. Bildirilir ki, Amasiyada qışlağa dayanmaqla Sultan Süleyman havaların qızması ilə Səfəvi hüdudları üzərinə hücum niyyətinin doğru olduğunu nümayiş etdirməyə çalışırdı (396).

Osmanlı mənbələrindən biri Fərruxzad bəyin Osmanlı düşərgəsinə göndərilməsi haqqında Səfəvi sarayında qərar qəbul edilməsini belə təsvir edirdi: "Həzrəti-padşahi-əncüm sipahun hüdudi-Rumda (Amasiyada) iqamətləri, ovqati-bahari xocəstə əsərdə geri Əcəm diyarına səfəri-zəfər-əsərə əzimətlərinin dəlaləti olmağın, qızılbaşların qülubi-məğlublarına istilayi-hiras oldu. Bu dəfə də qoca ordularla padşah gəlib afaqi Təbriz və Şirvan və İsfahan pür gülgülə və aşub olursa, nə kəndilərinə qaçıb sığınacaq bir yer, nə də məmləkət xalqına oturacaq məkan qalır. Artıq dağlara çəkilmək gərəkdir. Xüsusən, təxribi Ərdəbil əxbarı içlərinə kəmali-iztirab verdi. Düşünüb daşınaraq miczai-məmləkətlərinə daruyi-tədbiri ilac eyləyib abi-nabi sülh səlah ilə nəvayiri aşubü bəla təşkilinə imtizac verdilər" (397).

Başqa bir Osmanlı mənbəsində isə Fərruxzad bəyin rəhbərliyi altında olan Səfəvi elçisinin Osmanlı düşərgəsinə gəlməsi belə təsvir olunurdu: "Zülqədə ayının birinci günündə (9 oktyabr) Əcəm şahının elçisinin Ərzruma gəldiyi Dar-u Dövlətə xəbər verildi. Sultan Süleyman da: "Ardımızca Amasiyaya yollansın" – deyə əmr vermişdir. Padşahın iziylə Əcəm şahı tərəfindən gələn elçi qədim qanuna görə uca divana gələrək peşkəşlərini çəkdi və cahan taxtının payəsini öpməklə müşərrəf oldu. Şahın naməsini təqdim etdi. Məktubu oxuduqdan sonra, sülh işlərinin gerçək edilməsinə və aralarında sərhəd təyininə icazə verildi. Hər iki tərəfdə mövcud olan düşmənçilik məhəbbət və dostluqla dəyi-

şildi. Sonra mühtəvası, təkcə sülh və qurtuluş inayətləri ilə dolu olan namələr yazıldı" (398).

Səfəvi sarayının elçilik heyəti Ərzrum vilayətinin ərazisindən keçməklə Osmanlı düşərgəsinə yollanmalı idi. Belə bir elçilik heyətinin gələ biləcəyi Ərzrum bəylərbəyi Ayaz paşaya məlum idi və Fərruxzad bəyin rəhbərlik etdiyi dəstə iki dövlətin sərhəd xəttinə yetişəndə Ayaz paşa bu elçiliyin Osmanlı daxilinə buraxılmasına icazə almaq üçün Sultan Süleymana xəbər göndərdi. Sultan Süleyman da bu barədə məlumat alan kimi "rüsxət və qəbula mətufü məbzul olub ricayi-şaha iltifat və himayət, rəsuli-kisraya mürüvvət və hüsnü-icazət" verilməsi barəsində göstəriş verdi. Ərzrum bəylərbəyi Ayaz paşaya da tapşırıldı ki, Səfəvi nümayəndə heyətini ehtiramla qarşılasın və ehtiramla da Amasiyaya yola salsın. Osmanlı mənbələrinin məlumatına görə, Fərruxzad bəyin rəhbərliyi altında olan Səfəvi elçiliyi 1555-ci il may ayının 10-da Amasiyaya yetişdi. Bu elçiliyin qarşılanması hələ şəhər kənarında başladı Osmanlı saray ağası və bir sıra vəzifəli çavuşlar Səfəvi elçiliyinin qarşısına yollandılar və bu elçilik Amasiyada qurulmuş xüsusi çadırlarda yerləşdirildi. Hələ Osmanlı sultanı ilə görüşməzdən əvvəl Səfəvi elçilik heyətinin üzvlərinə ziyafətlər təşkil edildi, onlara qiymətli hədiyyələr bağışlandı. Səfəvi elçiliyi də Osmanlı sultanı üçün çox qiymətli hədiyyələr gətirmişdi. Bu hədiyyələrin arasında qiymətli xalçalar, iç tərəfinin rəngarəng süsləmələri olan çadırlar, cins atlar, Şam qılıncları, insan gözünü valeh edən qalxanlar və s. var idi. Verilən məlumata görə, bu hədiyyələr arasında "Quran"ın elə bir əlyazması var idi ki, o, qalan bütün hədiyyələri kölgədə qoyurdu. Sultanın hüzuruna yollanmazdan əvvəl Səfəvi elçiliyi Osmanlı sarayının vəzirləri və yüksək məqamlı mənsubları ilə görüşdülər, Şah Təhmasibin istəyi bu insanlara çatdırıldı və bütünlükdə Səfəvi elçiliyinin hansı missiya ilə gəlməsi haqqında ətraflı məlumat toplandı. Sonra bütün bu məlumat Sultan Süleymana ərz olundu. O isə may ayının 21-də saray divanının toplanmasına göstəriş verdi. Səfəvi elçiliyi də bu divana dəvət olundu və bu elçiliyin üzvlərinə Osmanlı vəzirlərinin qarşısında

yer ayrıldı. Fərruxzad bəy bu mərasimdə Şah Təhmasib tərəfindən elçi kimi göndərildiyini və nə məqsədlə göndərildiyini bəyan etdi. Bildirilir ki, divandan sonra Şah Təhmasib tərəfindən göndərilən qiymətli hədiyyələr, sonra isə məktub Osmanlı sultanına təqdim olundu. Osmanlı mənbələrində Şah Təhmasib tərəfindən Sultan Süleymana səmimiyyət dolu bir məktub göndərilməsi də qeyd olunmuşdur (399).

Şah Təhmasibin göndərdiyi məktub öz tərtibatı ilə göz oxşayırdı. Bu məktub dövrün ənənələrinə uyğun olaraq bəzədilmiş və süslənmişdi və Osmanlı mənbələrində bu məktubda 11 şer parçası işlədilməsi xüsusilə qeyd olunurdu. Məktubun mətni də dövrün ənənələrinə uyğun olaraq müqəddəs kəlamlarla, islam peyğəmbərinin hədisləri ilə başlayırdı. Nəzm parçaları ifadə olunan fikrin məzmununa uyğun olaraq tərtib edilmişdi. Bu mənada bu nəzm parçaları həm dini məzmun daşıyırdı, həm də şahların vəsfinə həsr edilmişdi. Səfəvi şahı bu məktubunda Sultan Süleymana ehtiramla yanaşırdı və onu "ali şanlı sultan", "Süleyman vüqarlı xaqan", "İsgəndər nişanlı qeysər", "alicah padşah" və s. adlarla adlandırırdı. Şah Təhmasib Osmanlı düşərgəsinə göndərdiyi elçisi Şahqulu bəyin geri qayıtdığını və onun vasitəsi ilə Osmanlı sultanının fikirlərindən xəbər tutduğunu yazırdı. O da tərəflər arasında sülh anlaşmasının əldə edilməsini rəğbətlə qarşılayırdı və bu barədə görülməli olan işlərin davam etdirilməsi məqsədilə etibarlı adamlardan biri saydığı eşikağası Kəmaləddin Fərruxzad bəyi yeni bir məktubla Osmanlı düşərgəsinə göndərdiyini bildirirdi. Səfəvi şahı ümid edirdi ki, iki dövlət arasında əldə edilmiş sülh anlaşması islam əhli arasında asudə və əmin-aman həyat şəraitinin bərqərar olmasına yol açacaqdır. Şah Təhmasib ona da ümid etdiyini bildirirdi ki, belə bir anlaşmanın əldə etməsi ilə müsəlmanların, o cümlədən Səfəvi səltənəti hüdudlarında yaşayan müsəlmanların Məkkə ziyarətinə və digər müqəddəs məkanlara ziyarətə yollanmasına imkan yarada bilərdi (400).

Qeyd edilməlidir ki, Şah Təhmasibin bu məktubu xeyli qəliz bir dildə yazılmışdı və mətn daxilində çoxlu sayda ərəb ibarələri

vardır. Osmanlı mənbələrində bu məktubun xülasəsi öz əksini tapmışdır. Həmin xülasə aşağıdakı kimidir: “Günün Süleymanı və ədalətli sultanı, quruda və dənizdə hər kəsin boyun əydiyi, kölgəsində dünyanın rifah görməkdə olduğu cahanın hakimi padşah həzrətlərinə hörmətlərimi sunuram. Ərzrumdan 1554 sentyabrında qorçu Şahqulu bəy ilə göndərilən məktubunuzu ən mutlu bir çağda alırkən, Süleyman nəbidən gəlmişcəsinə, Tanrının adını anaraq, ona əlimi sundum və göydən enən kitablar kimi sayğı göstərməyi vacib bildim. Çünki uğurlu mənasından müsəlmanlar ilə bütün düşgün xalqa qurtuluş və rifah işıqları saçılmaqdadır. Bu məktubunuzda barış işinin eninə-boyuna görüşülməsi üçün bir heyətin göndərilməsi buyurulmuşdu. Bizim də ölkəmiz gerçək bir güvənlik içərisində barışı qüvvətləndirərək imzalamaqdır. Bu üzdən dövlətimizin inağı eşikağası Kəmaləddin Fərruxzad bəyi mürəxxəs təyin edərək dostluq təməllərini qüvvətləndirmək üzrə uca qapınıza göndərdik və hər xüsusi sayğı ilə ərz eyləmək üçün kəndisinə geniş təlimat verdik. …Tanrının ulu və kiçik hər qulunun diləyini dilimə gətirərək qutlu qulağınıza müsaidə buyurulsun. Diləklərim bunlardır:

1) Bundan sonra xəbərləşmə qapısı hər zaman açıq bulundurulsun ki, iki tərəfin ehtiyacı olan barış gerçəkləşsin, zavallı xalq arasında da iyi münasibətlər qurula bilsin.

2) Yeni başdan güvən qurulur da, dindarlıq üzündən ziyarəti Beytül-Həram (Kəbə) və Mədineyi-Müşərrəfə və Mükərrəmə və sair Məşahidi-müqəddəsə (Nəcəfdə Həzrət Əli, Kərbəlada İmam Hüseynin türbələri kimi) istəyənlərə müsaidə buyururlarsa, bu lütfünüzə qarşılıq o kutlu yerlərdə hər kəs sizə dua ilə uğraşar” (401).

Fərruxzad bəy Osmanlı sultanının hüzurundan mürəxxəs olduqdan sonra Osmanlı saray vəzirləi ayrı-ayrılıqda onun şərəfinə ziyafətlər təşkil etdilər. Onun Osmanlı düşərgəsində olduğu günlərdə heç şübhəsiz ki, tərəflər arasında sülh şərtləri də müzakirə edilirdi. Şah Təhmasibin məktubunda irəli sürülən təklif onu deməyə əsas verir ki, başlıca olaraq iki məsələ müzakirə obyekti olmuşdu. Bunlardan biri sərhəd xəttinin müəyyənləşdi-

rilməsi, digər isə Səfəvi təbəələrinin azad şəkildə Osmanlı ərazisindən keçməklə müqəddəs məkanların ziyarət səfərlərinə imkan yaradılması idi. Çox güman ki, Fərruxzad bəy də Osmanlı düşərgəsində aparılan müzakirələrdən xəbərdar idi. Ona görə də qısa müddətdən sonra anlaşmanı razılaşdırmaq mümkün oldu. Bəzi məlumatlara görə, Osmanlı və Səfəvi dövlətləri arasındakı Amasiya sülh anlaşması 1555-ci il may ayının 29-da əldə edilmişdi (402). Bəzi məlumatlara görə isə, bu anlaşma iyun ayının 1-də razılaşdırılmışdı (403).

Yuxarıda qeyd olunan məlumatların təhlili onu deməyə əsas verir ki, Amasiyada tərəflər arasında sülhün əldə edilməsini rəsmiləşdirən hər hansı bir sənəd imzalanmamışdı. Sadəcə qarşılıqlı anlaşmanın əldə edilməsi üçün tərəflərin istəkləri bəlli idi və bu istəklər qarşılıqlı şəkildə qəbul olundu. Tərəflər arasında sərhəd xətti kimi həmin anda qoşunları arasındakı ayırıcı xətt götürüldü. Daha doğrusu, hansı məntəqələr kimdə idisə, bu məntəqələrin tərəflərə mənsubluğu qəbul edildi. Sərhəd xətti isə, əslində, bir qədər şərti xarakter daşıyırdı. Sərhəd vilayətləri arasında qəbul edilmiş olan sərhəd xətti iki dövlət arasındakı sərhəd xətti olmalı idi. Bundan əlavə, Şah Təhmasib Səfəvi təbəələrinin qeyd-şərtsiz müqəddəs məkanlara yollanmasına şərait yaradılması təklifi də Osmanlı sultanı tərəfindən qəbul olunmuşdu. Bu məsələlər Osmanlı sultanının Şah Təhmasibə ünvanladığı məktubda öz əksini tapmışdı. Bəzi məlumatlara görə, həmin məktub 1555-ci il iyun ayının 1-də Fərruxzad bəyə təqdim edildi və ona görə də həmin gün Amasiya sülh anlaşmasının əldə edildiyi gün kimi qəbul edilir.

Sultan Süleymanın Fərruxzad bəylə Şah Təhmasibə göndərdiyi məktub türk dilində yayılmışdı və çox da böyük olmayan bir məktub idi. Əvvəlki məktublardan fərqli olaraq bu məktub ünvanlandığı adamın tərifi ilə başlayırdı və sonra bildirilirdi ki, Sultan Süleyman hələ Ərzrumda olarkən Səfəvi şahının Şahqulu bəy (məktubda qorçu Qacar kimi yazılmışdır) tərəfindən göndərilmiş məktubunu aldı. Bildirilir ki, həmin məktubda xalqların asayişi üçün sülh və səbat əldə olunması xahiş edilmişdi. Osmanlı

sultanı bu təklifə rəğbətlə yanaşdığını və həmin məktub alınandan sonra vilayət hakimlərinə vilayətdən kənara hücum etməmələri barəsində fərman göndərildiyini bəyan edirdi. Sonra Şah Təhmasib tərəfindən Fərruxzad bəyin elçi kimi göndərilməsinə toxunulurdu. Qeyd olunurdu ki, Fərruxzad bəy səltənət hüzuruna yetişdikdən sonra həm Şah Təhmasibin məktubunu, həm də onun təkliflərini çatdırdı. Sultan Süleyman bu məktubunda da ona toxunurdu ki, yaradanın izni ilə çox böyük əraziləri fəth edə bilmişdi. Bununla belə, o, irəlin sürülən təklifə tərəfdar olaraq iki dövlət arasında sülhün əldə edilməsinə rəğbətlə yanaşdığını, Səfəvi qoşunları və vilayət hakimləri tərəfindən Osmanlı mövqeləri üzərinə hücum olmayınca Osmanlı qoşunları tərəfindən Səfəvi hüdudları üzərinə heç bir hücum olmayacağını bəyan edirdi. Bu məktubda sözsüz ki, iki dövlət arasındakı hüdudlar göstərilmirdi və Amasiya anlaşmasının əldə edildiyi zamanda hakimiyyət məxsusluğu müəyyən olan ərazilər uyğun dövlətin ərazisi hesab edilirdi. Şah Təhmasibi maraqlandıran ikinci əsas məsələ isə ziyarətçilərin müqəddəs məkanlara yolunun açılması ilə bağlı idi. Sultan Süleyman bu barədə də vəd edirdi ki, Osmanlı mühafizəçiləri ziyarətə yollananlara heç bir maneçilk törətməyəcəklər və ziyarətçilər istəklərinə uyğun olaraq öz ziyarətlərini icra edə biləcəklər (404).

Osmanlı mənbələrində "Nameyi-Humayun" adlandırılan Sultan Süleymanın Şah Təhmasibə göndərdiyi məktubun xülasəsi belə verilmişdir:"Məxfi olmaya ki, müqəddəmə Darül-Fütuh və ən-nəsr Ərzruma sizin tərəfinizdən Qorçu Qacar (Şahqulu bəy) vasitəsi ilə nameyi-girami varid olub. Cənabi-cəladət-məabımız ilə minbadə mabeyndə müvalatü müsafat olub sülhüsalahi umar ki, mütəzəmmini-asayişi xalq müstəlzəmi-intizami-əhvali-cümhudur, ol təriqə süluk olunmağı təvəqqe və isteda eyləmiş idiniz. Ricanız məhəlli-irtizada vaqe olub ol zaman kitabi-müstətab ilə müşarünəleyh elçiniz geri səvbi-savab əfzanıza göndərilib. Məmaliki-məhrusəmiz hüdudunda hükkama fərmani cihan-mutaimiz irsal olunub: xaricə dəxlü təərrüz olunmaya, deyü tənbihü təkid olunmuş idi. Yenə bu uyğun yolu tutaraq eşiyimizə yolla-

dığınız eşikağası Fərruxzad bəy ilə göndərilən məktubunuz alındı, istənənlər qəbul olundu. Nameyi-dürərbarınız zimnində bu canibə ixlasınız münfəhim oldu. Sonunda da dostluq qurulub bu 3 maddənin qəbul edildiyi bildirilir:

1. Bizim arzumuzun özü əshabi-qozin və xülafeyi-Mehdiyin ki, daciyi seyyidül-mürsəlindirlər (Həzrət Məhəmmədlə birlikdə oturub qalxmışlardır) onların pərdeyi-namusları məhfuz olmaqdır. Varid olan elçiniz bu mənanı işrəb edib: təbərrailər ol canibdə mərfüü məmnu olmaq məlhuzi-xatiri ətiriniz edügün xəbər verirlər. Filvaqe ol xüsus qayəti-əmani və müntehayi-amaldır.

2. Madam ki, ol canibdən müsafatü müvalata müğayir övzayi fitnə əsla zühur və südur etməyə, əknafi məmaliki-məhmiyyəmizdə qonulan zabitani-mülkü millət və harisani əkaalimü məmləkət tərəflərindən ol silsilənin hüduduna əbvabi təərrüz məsdud olub əsbabi-müsafatun müraatında dəqiqə fövt etməyələr.

3. Müqtəzayi-sülhü səlah və müstədayi-fövzü fəlah üzrə nameyi-müstətabınızda işarət olunan hüccaci Beytül-həram və zəvvari Mərqədi-mütəhhəri-seyyidül ənamın rahatlıq və güvənlə gəlib getmələrinə də icazəti aliyyeyi-xaqaniyyəmizlə müsaidə edilib buraları təvaf və ziyarət qəsd edən ümum müsliminə əngəlsiz açıqdır, fərağİ-xatir və etminani-bal ilə itmami-məram eyləyələr” (405).

Bununla, Osmanlı dövləti ilə Səfəvi dövləti arasında anlaşma əldə edilmiş oldu. Səfəvi mənbələrinə görə, bu sülhün əldə edilməsi üçün daha çox Osmanlı tərəfi təşəbbüs göstərmişdi. Osmanlı mənbələrinə görə isə əksinə. Əslində isə bu sülh anlaşması hər iki tərəfin marağında idi. Şah Təhmasib ona görə bu sülhün əldə edilməsi marağında idi ki, onun Osmanlı qoşunları ilə açıq döyüşə girəcək qədər qüvvəsi yox idi. Şah Təhmasib fəal müdafiə taktikasını seçmişdi ki, bu taktika Osmanlı qoşunlarının hərəkət istiqamətində olan məntəqələrin köçürülməsini, həmin məntəqələrdəki ərzaq ehtiyatlarının məhv edilməsini, yolların, körpülərin dağıdılmasını nəzərdə tuturdu. Bu taktika Osmanlı qoşunlarına ciddi müqavimət göstərilməsi üçün ən səmərəli bir taktika oldu və onun tətbiqi ilə Şah Təhmasib qarşısına qoyduğu məqsədə çata

bildi. Lakin bu taktikanın tətbiqi yerli əhaliyə, o cümlədən də elə dövlətin özünə müəyyən məhrumiyyətlər də gətirirdi. Osmanlı qoşunlarının təkrar-təkrar Səfəvi hüdudları üzərinə hücum edəcəyi təqdirdə bu məhrumiyyətlər daha da arta bilərdi. Şah Təhmasib isə bunu istəmirdi və ona görə də sülh anlaşmasının əldə edilməsi onu Osmanlı dövləti ilə aparılacaq müharibələrin məhrumiyyətlərindən xilas edə biləcəyi kimi, həm də qərbdən gözlənilən təhlükəyə də son qoya bilərdi. Şah Təhmasib Osmanlı dövləti ilə aparmalı olduğu müharibələrin gedişində Bağdadla Van gölü arasındakı bəzi əraziləri itirməli oldu. Amma nəzərə alınmalıdır ki, Şah Təhmasib öz dövrünün ən qüdrətli hökmdarına qarşı müharibə aparmalı olmuşdu. Bütün Avropanın gücsüz qaldığı Sultan Süleyman qarşısında Şah Təhmasib nəinki direniş göstərdi, hətta öz iradəsini də ona qəbul etdirə bildi. Halbuki Avropa hökmdarları belə bir nəticəni əldə edə bilməmişdilər. Bu baxımdan sözsüz ki, iki dövlət arasında əldə edilmiş sülhü Şah Təhmasibin müəyyən uğuru kimi də dəyərləndirmək mümkündür. Sultan Süleymanın və onun sarayının bütün cəhdlərinə baxmayaraq, Şah Təhmasib hökmdarı olduğu səltənətin parçalanmasına imkan vermədi, özü isə yerli əhali tərəfindən dəstəkləndi və onun tətbiq etdiyi taktika da insanlar tərəfindən dözümlü şəkildə qəbul edildi. Səfəvi qoşunlarının vaxtaşırı Osmanlı hüdudlarına daxil olaraq ona zərbə vurması da Şah Təhmasibin taktikasının uğurlu tərəflərindən biri idi. Bununla da Şah Təhmasib göstərdi ki, qoşunların gücünün qeyri-bərabər olması onu yalnız geri çəkilməyə sövq etmir. O öz taktikasını elə qurmuşdu ki, bu taktika həm də Osmanlı qoşunlarına böyük döyüş itkiləri yetirirdi. Bu anlaşmanın əldə edilməsi ilə Şah Təhmasib sözsüz ki, həm də Səfəvi dövlətinin qüdrətini təsdiqlədi, bu dövlətin bölgədə söz sahibi olmasını əyani şəkildə nümayiş etdirmiş oldu. Amasiya anlaşması, heç şübhəsiz ki, həm də Şah Təhmasibin özünün bacarıqlı bir hökmdar kimi qüdrətinin, dövlətçilik bacarığının və zəkasının təsdiqinə çevrilmiş oldu.

Güc və qüvvə üstünlüyünə malik olmasına baxmayaraq, Sultan Süleyman da Səfəvi dövləti ilə apardığı müharibələrdə qarşı-

sına qoyduğu əsas məqsədlərə nail ola bilmədi. O, Səfəvi dövlətini çökdürə, Şah Təhmasibi məğlub edə və şərq sərhədləri boyunca şiəliyin yayılmasına son qoya bilmədi. Şah Təhmasibin seçdiyi taktika qarısında Sultan Süleyman aciz qaldı, o, Şah Təhmasibi yaxalaya, Səfəvi qoşunlarına ağır zərbə vura bilmədi. Ümidlərinin əksinə olaraq, yerli əhali də onu duz-çörəklə qarşılamadı, əhalinin müqaviməti ilə qarşılaşdı, Təbrizi işğal etsə də bu şəhərdə möhkəmlənə bilmədi və Təbrizi tərk etmək məcburiyyətində qaldı. Son hərbi yürüş zamanı Sultan Süleyman işğal etdiyi Naxçıvanda cəmi iki gün dayana bildi. Qarşılaşdığı ərzaq və yem çətinliklərindən əlavə, Sultan Süleyman həm də Səfəvi qoşunlarının çevik dəstələrinin ardıcıl hücumlarına məruz qaldı, gözləmədiyi halda böyük itkilərlə qarşılaşdı. Bundan əlavə, hətta hərbi yürüşlərin gedişində Sultan Süleyman səltənətin şərq sərhədlərinin təhlükəsizliyini təmin edə bilmədi. Ona görə o da planlaşdırdığı qədər ələ keçirə bilmədiyi ərazilərlə kifayətlənərək Səfəvi dövləti ilə barış içində olmağa üstünlük verdi. Belə bir barışın əldə edilməsi ən azı şərq sərhədlərinin təhlükəsizliyinə və bir də işğal edə bildiyi ərazilərin əldə saxlanmasına imkan verə bilərdi.

Amasiya sülh anlaşması əldə edildikdən sonra Sultan Süleyman Səfəvi sərhədləri boyunca olan 11 vilayət və bölgə hakiminə hökm göndərdi və əldə edilmiş anlaşmaya uyğun olaraq onlara Səfəvi hüdudlarına hücum etməkdən çəkinməyi tapşırdı. Həmin vilayətlər və bölgələr bunlar idi: 1. Cəzayir; 2. Bəhreyn; 3. Bəsrə; 4. Səmavat; 5. İraqeyn (Bağdad ilə Şəhrizor); 6. Luristan; 7. Kürdüstan (İmadiyyə); 8. Van; 9. Bitlis; 10. Azərbaycan (Qars-Ərzrum); 11. Gürcüstan (Başıaçıq, Davəli). Bu vilayət və bölgə hakimlərinə göndərilən sultan hökmündə deyilirdi: “Əknafi-məmləkəti-xaqaniyyə ilə ətrafı məsaliki-şərqiyyə sükkanı mabeynlərində vaqe olan müxasimə və cidal hüsnü-ülfətə mübəddəl olub. Minbəəd aşubi-qital səlahi-canibeyn və islaha mütəhəvvil ola” (406).

Osmanlı mənbələrinə görə, Osmanlı sarayı Səfəvi dövləti ilə əldə etdiyi razılaşmaya sədaqətli qalmağa çalışdığı kimi, eyni

zamanda yeni münasibətlər qurmaq istədiyi Səfəvi dövlətinə qarşı Türküstan hakimlərinin hərbi müdaxilələrinə də artıq maraqlı olmadığını ortaya qoydu. Məlumdur ki, Səfəvi hüdudları üzərinə hərbi yürüşlər başlananda Osmanlı sarayı Türküstan hakimlərinin də Xorasan vilayəti üzərinə hücuma keçməsində və bununla Səfəvi qüvvələrinin parçalanmasında maraqlı idi. Bu məqsədlə Osmanlı sarayının Türküstan hakimlərinə hətta əməli yardım göstərməsi haqqında məlumatlar da vardır. Məsələn, özbək xanı Borraq xanın Sultan Süleymanla yazışmalarında belə faktların mövcudluğu ilə rastlaşmaq mümkündür. Borraq xan tanınmış Əbülxeyir xanın nəvəsi idi və Daşkəndin hakimi olmuşdu. Bir müddətdən sonra isə o, Səmərqənd və Buxaranı da öz hakimiyyəti altına gətirə bilmişdi və yaranmış vəziyyətdən istifadə etməklə bölgədə öz hakimiyyətini genişləndirə və möhkəmləndirə bildi. Borraq xanın Osmanlı sultanına göndərdiyi məktublardan birində bildirirdi ki, Sultan Süleyman tərəfindən göndərilən elçi, 300 nəfər yeniçəri, toplar və zərbzənlər ona çatmışdır. Bu hərbi kömək heç şübhəsiz ki, Borraq xanın Səfəvi hüdudları üzərinə hücuma təşviq üçün göndərilmişdi. Borraq xan məktubunda bəyan edirdi ki, Osmanlı sarayından aldığı köməklə din düşmənlərinin cəzalandırılması üçün Xorasan vilayəti üzərinə hücuma hazırlaşır. Lakin bu əsnada Əbdüllətif xanın dünyasını dəyişməsi ilə bölgədə hakimiyyət uğrunda mübarizə başlanır. Borraq xanın Səmərqənddə olan qardaşları da bu mübarizəyə qoşulurlar. Digər hakimiyyət iddiaçıları da ortaya çıxırlar və onlar birlikdə bir xeyli qalaları ələ keçirirlər. Amasiya anlaşmasının əldə edilməsi ərəfəsindəki son iki il ərzində Borraq xan hakimiyyətin geri qaytarılması ilə məşğul oldu və apardığı mübarizə onun niyyətlərinin həyata keçməsi və hakimiyyətin onun əlində cəmləşməsi ilə nəticələndi. Sultan Süleymana yazdığı məktubunda Borraq xan bu barədə məlumat çatdırmaqla bərabər, həm də yaxın zamanlarda Xorasan vilayəti üzərinə hücuma keçəcəyini bildirirdi (407).

Bu məktubun ardınca Borraq xan Osmanlı sultanına başqa bir məktub da göndərdi. Həmin məktubda Borraq xan bildirirdi ki,

onun əcdadları hər zaman Osmanlı dövləti ilə yaxın münasibətlərin qurulmasına çalışmışlar, davamlı olaraq qızılbaş qoşunları ilə mübarizə aparmışdılar. Məktubda Osmanlı sarayı ilə münasibətlərin qurulması istəklərinə xüsusi diqqət yetirilirdi. Borraq xan bəyan edirdi ki, o da sələflərinin istəyini davam etdirmək və bütün həyatını kafirlərlə cihada həsr etmək və küfr yoluna düşmüş tayfaların həyatına son qoymaq arzusundadır. Başqa sözlə, Borraq xan Səfəvi dövlətinə qarşı mübarizə aparmaq istəyini Osmanlı sultanına çatdırırdı. Onun sözlərinə görə, qızılbaş qoşunlarına üstün gəlməklə Borraq xan onun hakimiyyəti altında olan ərazilərin sakinlərinin Məkkə və Mədinə ziyarətlərinə getmə yolunu da açmaq mümkün ola bilərdi. Bildirilir ki, möminlər nə zamandır ki, müqəddəs ziyarətlərə gedə bilmirlər və ziyarət yollarının açılmasını intizarla gözləyirlər. Borraq xan Osmanlı sultanından xahiş edirdi ki, Osmanlı sarayı tərəfindən onun əcdadlarına göstərilmiş lütf və kömək yenidən bərpa olunsun və ona yenidən hərbi kömək göndərilsin. Borraq xan hərbi kömək kimi ona yeniçəri dəstəsinin, təcrübəli xidmətçilər dəstəsinin göndərilməsini xahiş edirdi. O ümid editdiyini bildirirdi ki, bu köməyin vasitəsi ilə din düşmənlərini məğlub edə biləcəkdir (408).

Amasiya sülh anlaşmasının müzakirələrinin aparılması ərəfəsində və bu anlaşmanın əldə edilməsindən sonra Sultan Süleyman bu xahişdən imtina etdi və qərarını Borraq xana da açıqladı. Osmanlı sultanı Əbdüllətif xana kömək göstərildiyini və yeni şəraitdə isə Şah Təhmasibin Osmanlı sarayına elçilər göndərərək şəriət yoluna dönəcəyini və bununla bağlı olaraq sülh və səbat istəyində olduğunu bildirirdi. Sultan Süleyman bu istəyin qəbul edildiyini və Şah Təhmasiblə sülh əldə edildiyini bəyan edirdi. Ona görə Osmanlı sultanı məktubunda Borraq xana Səfəvi dövləti üzərinə hücum üçün kömək göndərməyəcəyini və eyni zamanda Səfəvi qoşunlarının da Türküstan istiqamətində hücumu ilə razılaşmayacağını bildirdi: “Abayi-fəhamımızla olan rəvabiti-məhəbbət və aşinayi və qəvayidi- müvəddət və dosti-müəqqəd və müəhhəd olub mürurü sinin və şuhur və qürurü əyyam və zühur ilə tayini-təbdil və tətil və təhvil ehtimalı münqətidir. …Mücəd

və müqtəzi olan təvaridi-rüsul və irsail və təradüfi kütüb və vəsail mübfəsil və münqəti olmaya, dərgahi-aləm pənahımızda Təhmasib şah sülh ilə salah isteda etməgin onlara ehsan olunan əmanı asitineyi-cəlalət ünvanımızla müsafat üzrə olan xanani-kamran və səlatini ali şanə dost olmaq üzrə olunmuşdur. Onlar canibindən diyari-cəlilül irtibatınıza mütəəlliq olan biladi-müsliminə təərrüz və təcavüz olunmaya əsla rizayi-şərifimiz yoxdur" (409).

Sultan Süleyman cavabında Səfəvi hüdudları üzərinə hərbi yürüş etmək istəmədiyini bildirdiyi kimi, özbək hakimlərini də Səfəvi müdaxilələrindən çəkindirmək əzmində olduğunu bəyan etdi. Bu məqam türkdilli elmi-tarixi ədəbiyyatda vurğulanmaqla ona da işara edilirdi ki, Osmanlı sarayı əldə edilmiş sülh anlaşmasına hörmətlə yanaşdığı halda Səfəvi sarayı tərəfindən bu anlaşmanın şərtlərinin pozulmasına cəhdlər göstərilirdi. Ona işarə edilirdi ki, bir tərəfdən Osmanlı hüdudları daxilində təriqət təbliğatı davam etdirilirdi, bir tərəfdən də müxtəlif yollarla bəzi ərazilərin nəzarət altına gətirilməsinə cəhd göstərilirdi. Bildirilirdi ki, Səfəvi sarayı məktublar göndərərək əldə edilmiş sülh anlaşmasına sədaqətini bəyan etsə də, təriqət təbliğatını aparacaq insanlar da Osmanlı hüdudlarına göndərilirdi. Buna isə Osmanlı mənsubları heç də laqeyd qalmaq istəmirdi. Daha böyük narahatçılıq isə guya Səfəvi sarayı tərəfindən Osmanlı nəzarəti altında olan bəzi ərazilərin, o cümlədən Axıskanın, Altunqalanın, Qars və Ərdəhanın Osmanlı nəzarətindən çıxarılması cəhdləri ilə bağlanılırdı. Verilən məlumata görə, bu məntəqələrin Səfəvi nəzarəti altına gətirilməsi üçün hətta hərbi yürüşlərin təşkilinə də cəhd göstərilmişdi. Bu isə Osmanlı sarayının heç də niyyətinə uyğun deyildi. Osmanlı nəzarəti altında olan bəzi ərazilərin geri qaytarılması planlarına son qoymaq məqsədi ilə Osmanlı sarayının baş vəziri Qara Əhməd paşa Amasiyaya gəlmiş şah elçisi vasitəsi ilə "Şah Təhmasib vükəlasına bir cavabnamə" göndərmişdi. Həmin cavabnamə Ərdəbil mütəvəllisi və baş vəzir Məsum xan Səfəviyə, Şahqulu xəlifəyə, Bədri xan Ustaclıya, Sevindik Qorçubaşıya ünvanlanmışdı. Əhməd paşa bu məktubunda Amasiya sülh

anlaşmasının bəzi məqamlarını xatırlatmaqla Altunqalanın Osmanlı nəzarəti altına verilməsi gərəkliyini bildirirdi:

"1. Padşahımız tərəfindən dostluğun və barışın təməlləri sağlamlaşdırılaraq gələn elçiniz Ağa ilə bir Nameyi-Humayun göndərilmişdir. Barışın bizim tərəfimizdən pozulacağını zənn etməyiniz. Padşahımız artıq xəzinələrini artırmaqdan və ölkəsini yeni fəthlər ilə genişləndirməkdən vaz keçdi. Bütün arzusu müsəlmanların barış içində yaşamasıdır, məbədlər və məscidlərə saygı göstərilməsi və ibadətlər yapılmasıdır.

2. Ədavəti-məziyyənin baisi o ölkədə bir taqım şərirlərin əshabi-kibara ədavətdə israrları idi, o da dəf olundu.

3. Həcdə hər kişinin hisseyi-müayinəsi və vəzifeyi-müqəddərəsi Şərif və Hakim (peyğəmbər soyundan) mərifəti ilə sədaqət yenidən tövzi olunur.

4. Atabəy II Keyxosrovun başkənd edindiyi Adıgon (Altunqala)nın bu canibə təslimindən ihmal olunmaya, vəssəlam" (410).

Osmanlı mənbələrinə əsaslanan məlumatlarda bildirilir ki, Şah Təhmasib Altunqalanın geri qaytarılması ilə razı deyildi. Bununla bərabər, onun təhriki əsasında gürcü hakimi II Keyxosrovun nayibi Çalıkoğlu Varazanı Ərdəhanla Qars qalaları üzərinə göndərmişdi. Yəni qızılbaş qoşunları birbaşa bu hücumda iştirak etməsələr də, Səfəvi sarayı gürcü hakimləri vasitəsi ilə bu qalaları nəzarət altına gətirmək istəyirdi. Bu isə Osmanlı sarayını qane etmirdi. Mövcud məlumata görə, bu məsələ ilə bağlı vəziyyət müəyyən gərginlik səviyyəsinə çatdı və bunun nəticəsi kimi Sultan Süleyman da Şah Təhmasibə xüsusi bir məktub göndərməli oldu. Sultan Süleyman baş verənləri narahatçılıqla qarşılayırdı və bu narahatçılığı Səfəvi şahına da çatdırırdı. Onun məktubunda deyilirdi: "Amasiyada elçiniz ilə barış anlaşması yapılmışdı. Hini-sülhdə (1555 Ərzrum mütarikəsi) hüdudi-məmləkət sərhəddi-vilayət və keyfiyyət üzrə isə, ondan təcavüz olunmayıb ələlhalihi ibqaa oluna deyə qərarlaşdırılmışdı. Böylə isə bir taqım şərirlərin fitnə və fəsadlarını artırdıqları görülür. Xüsusən, tayifeyi-xəlifeyi-gürcüdən Vərzə (Varaza) nam ləin ki, …daima müharіq silsileyi-fəsadü üsyan və ahəngi inadü tüğyandan hali ol-

mayıb… pirayeyi-fəzli-namütənahi olan qullarımdan Açıqbaş (İmeretli II Vaxtanq) məliyin vilayətindən necə nahiyələr nəhbu qarət və əhalisini qətli-xəsarət eyləyib xaraba və viran etmişdir. Ərdəhan vilayətinin təvəccühlə təədi eylədiyi məşhur və məzkurdur. Hala Qars qalasına dəxi bəzi adamlar göndərilib zəbt eyləmək mülahizəsi olunmuş. İndi Qars vilayəti qəbl əz sülh dəfatilə hüddami-vala məqamımdan bəziya sancaq təriqi ilə sədəqə olunub və ona tabe necə qəri və məzare (Köylər və məzarlar) daxili-dəftəri-Humayun olmağın sipahi qullarım bər vəchi tımar və zəamət mütəsərrif olub içində evlər və damlar yapıb qərar və aram eyləmişlər ikən, sərhəddi-vilayətdə olan bəzi əşxasi-müxtəlifül-milldən anlara xələl və zələl erişmək qayətində bədi və bəid və xilafi-rəy-sədid idi. …İndi üquudi-ühud, bu kimi ayaq taqımlarının davranışları ilə bozulmaq. Pəs münasib və bəlkə vacibdir ki, sizin tərəfinizdən də Qarsa gələn səğaar və kübarı ol məhəldən qaldırmaq babında şani-məkarim-nişana layiq və səzavar olan məsiyi-cəmilə vüqua gələ ki, bunun dostluğu artıracağı şübhəsizdir. Əyyami-səltənətimdə riyazi-mülki-millətin şirrətli kişilərin əl uzatmasından əmin bulunması və bütün şərlərin qaldırılması padşahlığın ülgüsüdür. Amma bu vəqayiyi-şayiun səhhəti xəbəri sərhəddə olan bəylərbəyləri və bəylər qullarımın mücərrəd elamları ilə etimad olunmuşdur. Bəlkə sizin bəylərinizdən Şahqulu və Mənsur və qeyridən kəndilərə gələn məktubları, eyni ilə belə göndərməyin xəbərinin səhhəti məlum olub ol səvbi-savab qibəlinə inha və elam olunmuşdur” (411).

Görünür, iki dövlət arasında əldə edilmiş sülhə zərər vuran əməllər doğrudan da mövcud imiş. Şah Təhmasib də iki dövlət arasında əldə edilmiş sülhün qorunub saxlanmasına qayğı ilə yanaşmışdır və həyata keçirdiyi tədbirlərlə Osmanlı sultanının da narazılığının aradan qalxmasına səy göstərmişdir. Osmanlı sultanı Səfəvi hüdudlarında şərabxanaların, günah əyləncələrə yol açan məkanların olmasından da təəssüfünü bildirmişdi. Çünki Şah Təhmasibdən alınan cavab məktubunda bu məsələyə də münasibət bildirilmişdi. Şah Təhmasib eyni zamanda onun da narahatlığına səbəb olan məqamlar barəsində Sultan Süleymana

məlumat vermişdi. Səfəvi şahı yazmışdı ki, Zeynal bəy adlı bir Osmanlı əmiri Təsuc adlanan məntəqədəki kürdləri, Əmir Ömər adlı birisi isə müqəddəs məkanlara yollanan zəvvarları talamışdılar. Şah Təhmasib Həmzə sultan adlı bir əyanın vasitəsi ilə göndərdiyi məktubunda səltənət ərazisindəki şərabxanaların, yüngül əyləncə mərkəzlərinin bağlandığını da bildirmişdi. Səfəvi şahının cavab məktubu və bu məktubda yazılanlar Osmanlı sultanı tərəfindən hörmətlə qarşılanmış və o da ardınca Şah Təhmasibə yeni bir məktub göndərmişdi. Bu yazışmalarda ərazi məsələləri ilə bağlı mövcud olan narahatlıqların necə həll olunması haqqında konkret bilgi yoxdur. Lakin tərəflər arasında aparılan yazışmaların ruhuna görə belə bir qənaətə gəlmək olar ki, hər iki tərəf əldə edilmiş sülhə sadiq qalmağı məqsədəuyğun saymışdılar.

Sultan Süleyman Səfəvi şahının Həmzə sultan tərəfindən göndərilən məktubuna cavab olaraq belə yazırdı: " Bəradusr əkradını Zeynal bəyin adamları qəsəbeyi-Təsucdan köç etdirib kəndilərinə ilhaq etdiyi və niyyəti-həcc və ziyarət və qəsdi-kəsb və ticarət üçün səmti-İraqa varid olan qafiləyə Əmir Ömər mane olub bəade nəhb və qarət ilə xəsarət olunduğu əxbar olmuş. İndi bu xüsus üçün Zeynal bəy və Əmir Ömərə fərmani-qəza cərəyan ilə münhiyan əvamiri-alişan olan çavuşlar göndərib bu qəziyyəyi-qeyri-mərziyyəyə əsl və məbdi və zühur və süduruna bais və badi kimlər olub vəch və səbəb nə edib isə cavab olunmuşdur ki, mucebi-fitnə və fəsad olanlara layiq və səza olduqları üzrə ətab və cəza oluna. Siyanəti-məvasiq zatəlbeyndə səy və iqdam və cəlli ehtimamları məbzul olub əslən caddeyi-ədəbdən xüruc və ədul etməyələr" (412).

Göründüyü kimi, Sultan Süleyman iki dövlət arasında əldə edilmiş sülh anlaşmasına ziyan gətirən əməllərə və onların icraçılarına qarşı kifayət qədər sərt və çevik cavab verdi. Şah Təhmasibin elçisi də Sultan Süleyman tərəfindən hörmətlə yola salındı və ona çoxlu qiymətli hədiyyələr verildi. Yəni elçiyə göstərilən münasibət özü də əldə edilmiş anlaşmaya müsbət münasibətin göstəricisi idi. Bundan sonra iki hökmdar arasında davam

edən yazışmalar da onların biri-birinə ehtiramla yanaşmasının təsdiqinə çevrildi. Mövcud olan və istiləşməkdə olan münasibətlər aparılan yazışmaların ruhunda da özünü göstərməkdə idi. Məsələn, Şah Təhmasibin İstanbulda Süleymaniyyə məscidinin açılışı və eləcə də Rüstəm paşanın yenidən baş vəzir seçilməsi münasibətilə göndərdiyi məktubda da iki hökmdar arasında xoş münasibətlərin inkişafını görmək mümkündür.

Süleymaniyyə məscidi Osmanlı sultanları dövründə inşa edilmiş ən böyük məscidlərdən biri idi. Bu məscidin əsası 1550-ci il iyun ayının 13-də qoyulmuşdu. Memarı Qoca Sinan olan bu məscid kompleksində ibadətxananın, şəfaxananın, kitabxananın, yeməkxananın və digər xidmət sahələrinin olması nəzərdə tutulmuşdu. Bu məscid kompleksinin açılışı 1556-cı ilin avqust ayının 15-də baş vermişdi. Yəni Amasiya sülh anlaşmasının əldə edilməsindən təxminən bir il vaxt keçmişdi. Həmin tarixdə kompleksin açılış mərasimi keçirilsə də, onun tikintisi, əslində, sonra da davam etmişdi. Bu məscid kompleksinin açılışı Sultan Süleymanın dövründə yadda qalan hadisə olduğu üçün Şah Təhmasib İstanbula xüsusi bir nümayəndə heyəti göndərdi. Bu nümayəndə heyəti Sultan Süleymana, onun hərəmi Xürrəm sultana və yenidən baş vəzir seçilmiş Rüstəm paşaya Şah Təhmasibin məktubunu və qiymətli hədiyyələrini də gətirmişdi. Başlıcası isə Sultan Süleymana xoş münasibətin etirafı üçün yeni bir fürsətdən istifadə etmək imkanı yaranmışdı. Səfəvi elçiliyi Osmanlı hüdudlarını keçəndən sonra Təkkə mövqeyində qarşılanmış, oradan Üsküdara gətirilərək dəniz yolu ilə İstanbula göndərilmişdi. Bu elçilik İstanbulda Əminönü mövqeyində qarşılanmış və orada atlara mindirilərək qonaqlar üçün nəzərdə tutulmuş qonaq evinə gətirilmişdi. Səfəvi elçilik heyətinə Təbət ağa adlanan birisi rəhbərlik edirdi. Təbət ağanın şah adından gətirdiyi çox qiymətli hədiyyələr arasında xüsusi tərtib edilmiş, al-əlvan süslənmiş "Quran" nüsxələri də var idi. Həmin hədiyyələr təntənəli şəkildə Osmanlı sultanına təqdim olunmuşdu (413).

Məktubunun elə başlanğıcında Şah Təhmasib Osmanlı sultanına hədiyyələr nisar etməkdən məmnunluğunu ifadə etmiş və

Osmanlı sultanını çox ehtiramlı ifadələrlə yad etmişdi. Fikirlərini ifadə etmək üçün Şah Təhmasib məktubunda xeyli sayda nəzm parçaları da istifadə etmişdi. Həmin nəzm parçalarının da bir neçəsi Sultan Süleymanın vəsfinə həsr edilmişdi. Bu minvalla məktubun mətninin yarıdan çoxu Osmanlı sultanının vəsfinə həsr olunmuşdu. Həmin tərif və ehtiram ifadəsindən sonra Şah Təhmasib bildirirdi ki, İran məmləkətləri əhalisindən cavan və qoca, kafir və müsəlman, türk və tacik, güclü və gücsüz, yaxın və uzaq, kişi və qadın, hətta kiçik yaşlı uşaqlar, yeddi yaşından yetmiş yaşına qədər olanlar səhər və axşam özlərinin ibadətlərinin ardınca Osmanlı sultanının səltənətinin davamlı olmasına dua edirlər. Şah Təhmasib onu da bildirirdi ki, Həcc ziyarətinə, Mədinə ziyarətinə və İraq ərazisindəki müqəddəslərin ziyarətinə yollanan neçə minlərlə zəvvarlar da Osmanlı dövlətinin əmin-amanlığına öz dualarını çatdırırlar. Sonra Səfəvi şahı Osmanlı paytaxtında yeni və möhtəşəm bir məscidin tikilişi və onun açılışı münasibətilə bütün müsəlmanları təbrik edirdi. Şah Təhmasib bəyan edirdi ki, həmin məscidin tikintisinin başa çatmasını böyük məmnunluqla qarşıladı və bu məscidin açılışı təbriklərinin çatdırılması üçün Səfəvi sarayının etiqadlı xidmətçilərindən olan Kəmaləddin Təbət ağanı Osmanlı sarayına göndərdi. Şah Təhmasib yazırdı ki, müqəddəs məkanların bəzədilməsi və fərşlənməsi savab işlərdən biri kimi qəbul olunur və ona görə yeni məscidin döşəməsinin Səfəvi fərşləri ilə döşənməsinə kömək göstərməyə hazırdır. Səfəvi şahına görə, onun səltənətində yaxşı xalçalar toxunurdu və Sultan Süleymanın razılığının olacağı təqdirdə yeni məscidin döşənməsi üçün bu xalçalardan göndərilə bilərdi. Məscidin daxilində quraşdırıla biləcək dəmir zərihin hazırlanmasına da Şah Təhmasib hazır olduğunu bildirirdi. Bunun üçün Səfəvi sarayına həmin zərihin ölçüləri haqqında məlumat vermək kifayət idi (414).

Sultan Süleymanın Şah Təhmasibə göndərdiyi cavab məktubunda da həmin hüsnü-rəğbəti görmək mümkündür. Osmanlı sultanı Şah Təhmasibdən belə bir məktub almağına görə məmnun qaldığını açıq ifadə edirdi və ona çox təmtəraqlı ləqəblərlə mü-

raciət edirdi. Bu məktub türkcə yazılmışdı və Şah Təhmasibin məktubundan fərqli olaraq bu məktubda nəzm parçaları yox idi. Sultan Süleyman yeni istifadəyə verilən məscidin fərşlənməsi üçün Şah Təhmasibin öz köməyini göstərməyə hazır olmasına razılığını bildirir və bəyan edirdi ki, haqqında danışılan məscidin bəzədilməsi və təchiz edilməsi üçün əvvəlcədən yaxın və uzaqlara lazımi sifarişlər verilibdir və ona görə də Səfəvi sarayının əlavə lütfünə ehtiyac qalmamışdır. Osmanlı sultanı məktubunun sonunda iki dövlət arasında mövcud olan xoş münasibətlərin əldə edilmiş sülhün pozulmasına imkan verməyəcəyinə də ümid etdiyini bildirirdi (415).

Kəmaləddin Təbət ağa yalnız Şah Təhmasibin deyil, Səfəvi sarayının bəzi yüksək məqamlarının və ailə üzvlərinin məktublarını da Osmanlı sarayına gətirmişdi. Bu da iki dövlət arasında münasibətlərin xoş məramlar üzərində qurulmasının göstəricisi idi. Həmin məktublarda da yeni bərqərar olmuş şərait rəğbətlə qarşılanır və bu şəraitin açmış olduğu imkanlara xoş münasibət nümayiş etdirilirdi. Başlıcası isə iki sarayın ailə üzvləri arasında münasibətlərin qurulmasının mümkünlüyü və bu münasibətlərin faydalı nəticələri ortaya qoyulurdu.

Bu məktublardan biri Şah Təhmasibin oğlu Məhəmməd Mirzənin (Xudabəndə) Osmanlı sarayının yenidən baş vəziri seçilmiş Rüstəm paşaya ünvanladığı məktub idi. Rüstəm paşa kifayət qədər təcrübəli, nüfuzlu saray əyanlarından biri idi və malik olduğu nüfuzun nəticəsi idi ki, Osmanlı sarayının baş vəziri vəzifəsinə yenidən seçilmişdi. Mövcud olan məlumatlara görə, Rüstəm paşa həm də Osmanlı sultanına ciddi təsir imkanlarına malik idi və ona görə də Osmanlı sarayında yüksək mövqe tutmuş belə bir adamla xoş münasibətlərin qurulması Səfəvi-Osmanlı münasibətlərinin daha da inkişaf etdirilməsinə zəmin yarada bilərdi. Yəni bununla Osmanlı sarayında Səfəvi sarayına qarşı münasib bir mühitin yaranmasına təkan vermək olardı. Şah Təhmasib də bunu istəyirdi və mövcud olan məlumatlara görə, Məhəmməd Mirzənin Rüstəm paşaya məktub yazması da onun təşəbbüsü ilə baş vermişdi.

Amasiya sülh anlaşmasının əldə edildiyi vaxtlar Məhəmməd Mirzə Xorasan hakimi idi. Şah Təhmasibin tələbi ilə o, Qəzvinə gəldi və onun yerinə isə İsmayıl Mirzə göndərildi. Səfəvi sarayına geri döndükdən sonra Şah Təhmasib oğlu Məhəmməd Mirzədən Rüstəm paşaya məktub yazmasını və bu məktubda Rüstəm paşanın istər Amasiya sülh anlaşmasının əldə edilməsində, istərsə də qarşılıqlı münasibətlərin yeni məzmun almasında böyük əməyinin olmasının qeyd edilməsini istədi. Əslində, Rüstəm paşa Amasiya sülh anlaşmasının əldə edilməsindən beş ay sonra baş vəzir vəzifəsinə təyin edilmişdi və bu anlaşmanın əldə edilməsində onun elə bir fəaliyyəti yox idi. Amma Rüstəm paşanın yalnız sultan yanında deyil, sultanın siyasi həyatına çox fəal müdaxilə edən Xürrəm sultanın da yanında böyük nüfuza malik olması yəqin ki, Şah Təhmasibə də məlum idi. Ona görə Rüstəm paşa ilə xoş münasibətlər elə sülh anlaşmasının özünün də səbatlılığına şərait yarada bilərdi. Buna görə Məhəmməd Mirzə və hətta onun lələsi Məhəmməd xan Şərəfəddinoğlu Rüstəm paşaya məktub göndərdilər.

Məhəmməd Mirzənin göndərdiyi məktub Rüstəm paşanın vəsfi ilə başlayırdı və o, çoxlu sayda təmtəraqlı epitet və ləqəblərlə xatırlanırdı. Məsələn, məktubda Rüstəm paşaya birinci və böyük vəzir, aləmin vəzirlərindən xəbərdar, bütün işlərin nizamlayıcısı, cahan Süleymanının Asəfi, aləmin rəhmət və əmniyyət vasitəsi, Allah sirlərinin nurunun məzhəri, şahənşah mərhəmətinin məzhəri deyə müraciət edilirdi. Məktubda çoxlu nəzm parçaları da var idi ki, onların da çoxu Rüstəm paşanın vəsfinə həsr edilmişdi. Məhəmməd Mirzə məktubunda Rüstəm paşanın yenidən yüksək vəzifəyə təyin olunmasına məmnunluğunu bildirir və yazırdı ki, Rüstəm paşanın bu vəzifəyə təyin edilməsi ilə ay və ulduzlar da əvvəlki parlaqlıqlarını əldə etmiş oldular. Sonra məktub şərq ənənələrinə uyğun olaraq çoxlu bənzətmələrlə, təriflərlə davam etdirlirdi. Məhəmməd Mirzə yazırdı ki, onun məktubunu gətirən Təbət ağa artıq 50 ildir ki, Səfəvi səltənətinin xidmətindədir və sarayın böyük əmirlərindəndir. Məhz Səfəvi sarayında böyük hörmət və ehtirama malik olduğu üçün idi ki, o,

Şah Təhmasib tərəfindən Osmanlı sarayına göndərilməsi üçün vəzifələndirilmişdi. Məhəmməd Mirzəyə görə, Təbət ağa həm də onun vəkili təyin edilmişdi və onun Rüstəm paşaya olan təbriklərini də o çatdırmalı idi. Məhəmməd Mirzə hələ əvvəldən də qarşılıqlı münasibətlərin formalaşmasındakı xidmətlərinə görə Rüstəm paşaya öz minnətdarlığını bəyan etmək niyyətində olduğunu bildirirdi. Amma uzaqda olması və məsafənin uzaqlığı ona bu niyyətinin həyata keçirilməsinə mane olmuşdu. Məhəmməd Mirzə sonra əlavə edirdi ki, Qəzvinə geri döndükdən sonra Şah Təhmasib ona Rüstəm paşanı təbrik etməyi tapşırmış və o da bu təbriki böyük bir istəklə göndərməyi qərarlaşdırmışdı. Təbriklərindən başqa Məhəmməd Mirzə ümid etdiyini bildirirdi ki, iki dövlətin yüksək məqamları arasında xoş münasibətlər formalaşacaqdır (416).

Məhəmməd Mirzə atası Şah Təhmasibin də Rüstəm paşanın yenidən baş vəzir vəzifəsinə təyin edilməsinə sevindiyini bildirirdi. Sonra da Məhəmməd Mirzə iki dövlət arasında sülh anlaşmasının əldə edilməsində, Səfəvi zəvvarlarının müqəddəs məkanları ziyarət etməsinə şərait yaratmasında, səfəvi zəvvarlarının talan edilməsi hallarının aradan qaldırılmasında gördüyü işlərə görə Rüstəm paşaya təşəkkürünü çatdırırdı. Belə bir təhlükəsiz durumun yaradılmasına görə, Rüstəm paşanın başının həm bu dünyada, həm də o biri dünyada uca olacağı Məhəmməd Mirzənin məktubunda öz əksini tapmışdı. Məhəmməd Mirzəyə görə, iki dövlət arasında həm sülhün əldə edilməsi həm də bu sülh durumunun davam etməsi Rüstəm paşanın kəréminə bağlanılırdı. Onun yazdığına görə, işi başlayan bitirməli idi. Ona görə də Məhəmməd Mirzə öz istəyini belə bildirirdi ki, Rüstəm paşa başladığı işı davam etdirməli və bununla da bütün müsəlmanların dualarını qazanmalı idi (417).

Məhəmməd Mirzənin lələsi Məhəmməd xan Şərəfəddinoğlunun Rüstəm paşaya yazdığı təbrik məktubu da oxşar məzmuna malik idi və heç şübhəsiz ki, onun da belə bir məktub yazması Şah Təhmasibin göstərişi və ya onun razılığı ilə baş vermişdi. Məhəmməd xan Şərəfəddinoğlu da Səfəvi sarayının nüfuzlu və

böyük ehtiram sahibi olan əyanlarından biri idi və onun da Rüstəm paşaya xoş məramlı məktubu iki saray arasındakı münasibətlərin müsbət niyyətlər üzərində formalaşmasına təsir göstərə bilərdi. Onun da məktubu Rüstəm paşanın tərifi və vəsfi ilə başlayırdı və bunun üçün məktubda xeyli yer ayrılmışdı. Sonra Məhəmməd xan Xorasanda olmasından və onun himayəsində olan Məhəmməd Mirzənin neçə illərdən bəri Səfəvi sarayına belə gələ bilməməsindən söz açırdı. Məhəmməd Mirzə Qəzvindəki şah sarayına döndükdən sonra atası Şah Təhmasibdən Rüstəm paşa haqqında xoş sözlər eşitdiyini yazırdı. Şah Təhmasib oğlu ilə söhbətlərində Rüstəm paşa haqqında xoş sözlər söyləmiş, iki dövlət arasında sülh anlaşmasının əldə edilməsində onun xidmətinin olmasını qeyd etmişdi. Hətta Şah Təhmasib onu da bildiribmiş ki, əgər Osmanlı qoşunlarının sonuncu hərbi yürüşü zamanı Əhməd paşanın əvəzinə baş vəzir Rüstəm paşa olsaydı, bu yürüş baş verməzdi və çoxlu sayda fitnə-fəsada, itkilərə də yol verilməzdi. Məhəmməd xan bildirirdi ki, Şah Təhmasibdən bu xoş sözləri eşitdikdən sonra o da qərara gəldi ki, Rüstəm paşaya məktub göndərsin və onu yenidən belə yüksək vəzifəyə təyin edilməsi münasibəti ilə təbrik etsin. O da Səfəvi sarayının təbriklərinin çatıdırılması üçün Təbət ağanın seçildiyini və onun Səfəvi sarayında böyük ehtirama malik olduğunu bildirirdi. Məhəmməd xan da məktubunda iki dövlət arasında sülhün əldə edilməsində Rüstəm paşanın xidmətlərini qeyd edir və bu sülhün əldə edilməsinin nəticələrini, o cümlədən Səfəvi zəvvarlarının müqəddəs məkanlara ziyarət imkanlarının açıldığını, müsəlmanların heç bir çətinliklə rastlaşmadan ziyarət səfərlərini həyata keçirə bilmələrini yüksək qiymətləndirir və buna görə Rüstəm paşanın zəhmətini dəyərləndirdiyini bəyan edirdi. Ona görə də Məhəmməd xan məktubunu bu arzu ilə bitirirdi ki, Rüstəm paşa hər zaman yüksək məqamlarda olsun (418).

Bu təbrik məktubları Rüstəm paşa tərəfindən məmnunluqla qarşılandı və o da Məhəmməd Mirzəyə cavab məktubu göndərdi. Türk dilində yazılmış olan həmin məktubda əvvəlcə Məhəmməd Mirzə vəsf olunur, onun adı ehtiramlı sözlərlə xatırlanır və onun

məktubunun xoş bir anda ona yetişdiyi bildirilirdi. Səfəvi şahzadəsindən gələn məktubun məmnunluqla qarşılandığını yazan Rüstəm paşa iki dövlət arasında sülhün əldə edilməsində onun da müəyyən işlər görməsini istisna etmirdi və eyni zamanda onu da bildirirdi ki, gələcəkdə də iki dövlət arasında sülhün və səbatın qorunub saxlanmasına dəstək verəcəkdir (419).

Şah Təhmasibin bacısının Sultan Süleymanın hərəmi Xürrəm sultana yazdığı və ondan alınan cavab məktubu da belə xoş məramla yazılmış məktublar idi. Bu yazışmalar bir daha göstərdi ki, tərəflər, xüsusi ilə Səfəvi sarayı əldə edilmiş sülhün qorunub saxlanmasında maraqlıdır. Bu sülh anlaşması tərəflər arasında münasibətlərin yeni bir səhifəsini açırdı və məlumdur ki, hər iki hökmdar həyatlarının sonuna qədər əldə edilmiş qarşılıqlı sülhün qorunmasına nail ola bilmişdilər.

## 10. İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.123-124
2. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, s. 155
   Parsadust M. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 562
3. Süleymanov M. Şah İsmayıl Səfəvi. Bakı, 2018, s. 565
4. Həsəni Ə. Əvamel-e bohran dər rəvabet-e İran və Osmani əz mənzər-e müvərrexan-e İrani...........
5. Kılıc R. Kanuni devri Osmanlı-İran münsibetleri (1520-1566). İstanbul, 2006, s.128-130
6. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi Tehran, 1368, s.151-153
   Kılıc R. Kanuni devri Osmanlı-İran münsibetleri (1520-1566). İstanbul, 2006, s.140-141
7. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi Tehran, 1368, s.152-153
   Kılıc R. Kanuni devri Osmanlı-İran münsibetleri (1520-1566). İstanbul, 2006, s.141

8. Kılıc R. Kanuni devri Osmanlı-İran münsibetleri (1520-1566). İstanbul, 2006, s.142-143
9. Əşrəfi Ə. Təamol-e Osmani və özbəkan əvayel-e əsr-e Səfəvi və peyamədha-ye an, s.46//Pəjuheşname-ye tarix-e islam. Sal-e sevvom, şomare-ye dəhom, tabestan, 1392, s. 35-53
Küpeli Ö. İrak-ı Arapta Osmanlı-Safevi mücadelesi (XVI-XVII. Yüzyıllar s.230// History Studies Ortadoğu Özel Sayısı / Middle East Special Issue 2010, s.227-244
10. Hakyeməz C. Osmanlı-İran ilişkileri və sünni-şiə itttifakı. İstanbul, 2014, s.38
Əşrəfi Ə. Təamol-e Osmani və özbəkan əvayel-e əsr-e Səfəvi və peyamədha-ye an, s.46//Pəjuheşname-ye tarix-e islam. Sal-e sevvom, şomare-ye dəhom, tabestan, 1392, s. 35-53
Kılıc R. Kanuni Sultan Süleymanın Irakeyn seferinde (1533-1535) doğu ve güneydoğu
Anadoludaki gelişmeler, s.126/ Bilig N-9, 1999, s.125-129
11. Rumlu H. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Tərcümə edənlər: Oqtay Əfəndiyev, Namiq Musalı. Kastamonı, 2017, s.458-459
12. Mohammednejad H. Osmanlı-Safevi ilişkileri (1501-1576). (Doktora tezi). Ankara, 2015, s. 491
13. İpçioğlu M. Kanuni Sultan Süleymanın Nahçıvan seferi. Ankara, 2003, s. 17
Kılıc R. Kanuni devri Osmanlı-İran münsibetleri (1520-1566). İstanbul, 2006, s.142
14. Şevik İ. Şah Tahmasb (1524-1576) ile Osmanlı sarayı arasında teati edilən mektupları içeren “Münşüat-i atik”in edisyon kritig ve degerlendirilmesi (Doktora tezi). İzmir, 2008, s.59
Kılıc R. XVI. ve XVII. Yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları. İstanbul, 2001, s.33
15. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.19-20
16. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 141
17. Yenə orada, s.143

18. Kılıc R. Kanuni devri Osmanlı-İran münsibetleri (1520-1566). İstanbul, 2006, s.144
19. Yenə orada, s 146
20. Yenə orada, s. 146-147
21. Yenə orada, s. 147-149
22. Rumlu H. Əhsənüt-təvarix, s.487-488
23. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 144
24. Kılıc R. Kanuni devri Osmanlı-İran münsibetleri (1520-1566). İstanbul, 2006, s.152
25. Kılıc R. Kanuni Sultan Süleymanın Irakeyn seferinde (1533-1535) doğu ve güneydoğu Anadoludaki gelişmeler. http://remzikilic.com/kanuni-sultan-suleyman-in-irakeyn-seferi-nde-1533-1535-dogu-ve-guneydogu-anadolu-daki-gelismeler.html
26. Rumlu H. Əhsənüt-təvarix, s.462
27. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.21-22
28. Kılıc R. Kanuni devri Osmanlı-İran münsibetleri (1520-1566). İstanbul, 2006, s.152-153
29. Rumlu H. Əhsənüt-təvarix, s.471
30. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.23
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.402-403
31. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 147
Mohammednejad H. Osmanlı-Safevi ilişkileri (1501-1576). (Doktora tezi). Ankara, 2015, s. 497
32. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.414-415
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 150
Kılıc R. Kanuni devri Osmanlı-İran münsibetleri (1520-1566). İstanbul, 2006, s.156-157
33. Rumlu H. Əhsənüt-təvarix, s.487
34. Kılıc R. Kanuni devri Osmanlı-İran münsibetleri, s. 156
35. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 151
Mohammednejad H. Osmanlı-Safevi ilişkileri (1501-1576). (Doktora tezi). Ankara, 2015, s. 500
36. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.26

37. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 130
38. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 26-27
39. Yenə orada, s. 27
40. Yenə orada
41. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 152
Mohammednejad H. Osmanlı-Safevi ilişkileri (1501-1576). (Doktora tezi). Ankara, 2015, s. 501-502
42. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 130
43. Yenə orada, s. 131
44. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 154
Mohammednejad H. Osmanlı-Safevi ilişkileri (1501-1576). (Doktora tezi). Ankara, 2015, s. 503
45. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 131
Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 2007, s. 79
46. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.422
47. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.29
48. Kılıc R. Kanuni devri Osmanlı-İran münsibetleri (1520-1566). İstanbul, 2006, s.162
49. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 134
50. Kılıc R. Kanuni devri Osmanlı-İran münsibetleri (1520-1566). İstanbul, 2006, s.159-160
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 153
51. Klassik dönemde Osmanlı devlet teşkilatı, s. 31..............--
Hallacoğlu Y. XIV-XVII.yüzyıllarda Osmanlılarda devlet teşkilatı və sosial yapı. Ankara, 1991, s.35
52. Ücel-Ayvet G. Avrupalı seyyahların gözüyle Osmanlı ordusu (1530-1699). İstanbul, 2010, s.10
53. Osmanlı devletnin askeri yapısı. https://www.altayli.net/osmanli-devetinin-askeri-yapisi.html

54. Osmanlı askeri teşkilatı.
http://www.sosyalbilgiler.gen.tr/osmanli-askeri-teskilati/
55. Dinler V. Osmanlı devletinin idari yapısı, s. 30 =======
Osmanlı askeri teşkilatı.
http://www.sosyalbilgiler.gen.tr/osmanli-askeri-teskilati/
56. Hallacoğlu Y. XIV-XVII.yüzyıllarda Osmanlılarda devlet teşkilatı və sosial yapı. Ankara, 1991, s.37-38
Osmanlı devletnin askeri yapısı.
https://www.altayli.net/osmanli-devetinin-askeri-yapisi.html
57. Hallacoğlu Y. XIV-XVII.yüzyıllarda Osmanlılarda devlet teşkilatı və sosial yapı. Ankara, 1991, s.39-40
Osmanlı devletnin askeri yapısı.
https://www.altayli.net/osmanli-devetinin-askeri-yapisi.html
58. Osmanlı ordu teşkilatı.
http://www.tarihsinifi.com/5795/osmanl%C4%B1-ordu-te%C5%9Fkilat%C4%B1-ders-notu-konu-%C3%B6zeti.html
Açıkel F. Osmanlı askeri düzeni və yeniçeriler. Ankara, 2009, s. 17-18
59. Ücel-Ayvet G. Avrupalı seyyahların gözüyle Osmanlı ordusu (1530-1699). İstanbul, 2010, s.66
60. Yenə orada, s. 89
61. Hallacoğlu Y. XIV-XVII. yüzyıllarda Osmanlılarda devlet teşkilatı və sosial yapı. Ankara, 1991, s.44
Açıkel F. Osmanlı askeri düzeni və yeniçeriler. Ankara, 2009, s. 38
62. Taneri A. Osmanlı kara ve deniz kuvvetleri (kuruluş devri). Ankara, 1981, s. 100
63. Açıkel F. Osmanlı askeri düzeni və yeniçeriler. Ankara, 2009, s. 38
64. Ücel-Ayvet G. Avrupalı seyyahların gözüyle Osmanlı ordusu (1530-1699). İstanbul, 2010, s.106
65. Ücel-Ayvet G. Avrupalı seyyahların gözüyle Osmanlı ordusu (1530-1699). İstanbul, 2010, s.106-135

Açıkel F. Osmanlı askeri düzeni və yeniçeriler. Ankara, 2009, s. 40-41
66. Ücel-Ayvet G. Avrupalı seyyahların gözüyle Osmanlı ordusu (1530-1699). İstanbul, 2010, s.195
Hallacoğlu Y. XIV-XVII.yüzyıllarda Osmanlılarda devlet teşkilatı və sosial yapı. Ankara, 1991, s.44
Taneri A. Osmanlı kara ve deniz kuvvetleri (kuruluş devri). Ankara, 1981, s. 102
67. Ücel-Ayvet G. Avrupalı seyyahların gözüyle Osmanlı ordusu (1530-1699). İstanbul, 2010, s.200-202
Hallacoğlu Y. XIV-XVII.yüzyıllarda Osmanlılarda devlet teşkilatı və sosial yapı. Ankara, 1991, s.45
68. Ücel-Ayvet G. Avrupalı seyyahların gözüyle Osmanlı ordusu (1530-1699). İstanbul, 2010, s.205-206
Hallacoğlu Y. XIV-XVII.yüzyıllarda Osmanlılarda devlet teşkilatı və sosial yapı. Ankara, 1991, s.45
69. Osmanlı devletnin askeri yapısı. https://www.altayli.net/osmanli-devetinin-askeri-yapisi.html
Ücel-Ayvet G. Avrupalı seyyahların gözüyle Osmanlı ordusu (1530-1699). İstanbul, 2010, s.207
70. Osmanlı devletnin askeri yapısı. https://www.altayli.net/osmanli-devetinin-askeri-yapisi.html/3
Osmanlılarda ordu. https://www.turkcebilgi.com/osmanl%C4%B1'larda_ordu
71. Hallacoğlu Y. XIV-XVII.yüzyıllarda Osmanlılarda devlet teşkilatı və sosial yapı. Ankara, 1991, s.46
Osmanlılarda ordu. https://www.turkcebilgi.com/osmanl%C4%B1'larda_ordu
Osmanlı devletnin askeri yapısı. https://www.altayli.net/osmanli-devetinin-askeri-yapisi.html/4
72. Açıkel F. Osmanlı askeri düzeni və yeniçeriler. Ankara, 2009, s. 54-55

Hallacoğlu Y. XIV-XVII. yüzyıllarda Osmanlılarda devlet teşkilatı və sosial yapı. Ankara, 1991, s.46

73. Osmanlı ordu teşkilatı. http://www.tarihsinifi.com/5795/osmanl%C4%B1-ordu-te%C5%9Fkilat%C4%B1-ders-notu-konu-%C3%B6zeti.html

Hallacoğlu Y. XIV-XVII. yüzyıllarda Osmanlılarda devlet teşkilatı və sosial yapı. Ankara, 1991, s.48-49

74. Hallacoğlu Y. XIV-XVII. yüzyıllarda Osmanlılarda devlet teşkilatı və sosial yapı. Ankara, 1991, s.50-51

75. Osmanlı devletinde ordu sistemi. https://prezi.com/5liuel0jjmlg/osmanli-devletinde-ordu-sistemi/

76. Hallacoğlu Y. XIV-XVII. yüzyıllarda Osmanlılarda devlet teşkilatı və sosial yapı. Ankara, 1991, s.51

77. Hallacoğlu Y. XIV-XVII. yüzyıllarda Osmanlılarda devlet teşkilatı və sosial yapı. Ankara, 1991, s.51

Ücel-Ayvet G. Avrupalı seyyahların gözüyle Osmanlı ordusu (1530-1699). İstanbul, 2010, s.316-338

78. Kuzucu S. Osmanlı ordusu ve sefer lojistiği (1453-1789). İstanbul, 2017, s.17, 19,21

Elibol A. Yeniçəriulər və iktidar bağlamında Osmanlı sisteminin dönüşümü, s.23-24

/Akademik baxış, kış 2009, cilt 3, sayı 5, s. 21-40.

79. Ekin Ü. Osmanlı ordusunda moral yülseltici bir kurum olaraq ordu şeyhligi, s. 168 http://www.fed.sakarya.edu.tr/arsiv/yayinlenmis_dergiler/2008_1/2008_1_14.pdf

80. Kuzucu S. Osmanlı ordusu ve sefer lojistiği (1453-1789). İstanbul, 2017, s. 35-40

Aydüz S. Osmanlı silahları, silah üretim merkezleri ve literatürü tarihi. Tarih okulu, Mayıs-Ağustos 2011, sayı X, s.1-37

81. Aydüz S. Osmanlı silahları, silah üretim merkezleri ve literatürü tarihi, s.7/ Tarih okulu, Mayıs- Ağustos 2011, sayı X, s.1-37
82. Kuzucu S. Osmanlı ordusu ve sefer lojistiği (1453-1789). İstanbul, 2017, s. 35-40
Aydüz S. Osmanlı silahları, silah üretim merkezleri ve literatürü tarihi. Tarih okulu, Mayıs- Ağustos 2011, sayı X, s.1-37
83. Aydüz S. Osmanlı silahları, silah üretim merkezleri ve literatürü tarihi, s.7
84. Kuzucu S. Osmanlı ordusu ve sefer lojistiği (1453-1789). İstanbul, 2017, s. 59
85. Ücel-Ayvet G. Avrupalı seyyahların gözüyle Osmanlı ordusu (1530-1699). İstanbul, 2010, s.388
Kuzucu S. Osmanlı ordusu ve sefer lojistiği (1453-1789). İstanbul, 2017, s. 59-60
86. Ücel-Ayvet G. Avrupalı seyyahların gözüyle Osmanlı ordusu (1530-1699). İstanbul, 2010, s.404-405
87. Yenə orada, s. 408-415
88. Kuzucu S. Osmanlı ordusu ve sefer lojistiği (1453-1789). İstanbul, 2017, s. 82-83
89. Güntan İ. Osmanlı neferi ve savaş (yüksek lisans tezi). Denizli, 2015, s. 100-103
90. Ekin Ü. Osmanlı ordusunda moral yükseltici bir kurum olaraq ordu şeyhligi, s. 175
Güntan İ. Osmanlı neferi ve savaş (yüksek lisans tezi). Denizli, 2015, s. 122-123
91. Ekin Ü. Osmanlı ordusunda moral yükseltici bir kurum olaraq ordu şeyhligi, s. 171
92. Teyyibi S.M. Məbani-ye paydari-ye sepahiyan dər siyasət-e nizami-ye emperatori-ye Osmani, s. 206.//Nəşriyyeye ədəbiyyat-e paydari. Sal-e 9, şomare-ye 17, payiz və zemestan, 396, s.201-226
93. Yenə orada, s. 207-208
94. Yenə orada, s. 208

95. Yenə orada, s. 209
96. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.167-169
97. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.170
Kılıc R. Kanuni Sultan Süleymanın Irakeyn seferinde (1533-1535) doğu ve güneydoğu Anadoludaki gelişmeler. http://remzikilic.com/kanuni-sultan-suleyman-in-irakeyn-seferi-nde-1533-1535-dogu-ve-guneydogu-anadolu-daki-gelismeler.html
98. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.171
Kılıc R. Kanuni Sultan Süleymanın Irakeyn seferinde (1533-1535) doğu ve güneydoğu Anadoludaki gelişmeler. http://remzikilic.com/kanuni-sultan-suleyman-in-irakeyn-seferi-nde-1533-1535-dogu-ve-guneydogu-anadolu-daki-gelismeler.html
Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 134-135
99. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.172-173
Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 135
100. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.173
101. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 135-136
102. Yenə orada, s. 136-138
103. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.176-177
Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 139
104. Rumlu H. Əhsənüt-təvarix, s.493

105. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. Tərcümə edənlər – Oqtay Əfəndiyev və Namiq Musalı. I cild. Bakı,2009, s.134
106. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.178
107. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 139-140
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.179-180
108. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 141
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.180
109. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 141
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.181
110. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti, s. 80
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.182
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 155
111. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.182
112. Yenə orada, s. 183
113. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 144-145
114. Yenə orada, s. 146-148
115. Yenə orada, s. 148
116. Yenə orada, s. 149
117. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.188
118. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.189-193
119. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 150-151

120. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 151
121. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.31-32
122. Yenə orada, s. 32
123. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.32
Rumlu H. Əhsənüt-təvarix, s.494
124. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 151
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.198-199
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 156
125. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.33
126. Rumlu H. Əhsənüt-təvarix, s.494
127. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.33
128. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.135-136
Bəyani X. Tarix-e nizami-ye İran. Dövre-ye Səfəviyan. Tehran, 1353, s. 238
129. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.423
Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 153
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.202
130. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.33-34
131. Yenə orada, s. 35-37
132. Yenə orada, s. 38
133. Əbdi bəy Şirasi. Təkmilətül-əxbar. Bakı, 1996, s. 53
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.424
Firudin bəy. Müşiatüs-səlatin. C.I, 1274(h.q.), s. 588-589
134. Rumlu H. Əhsənüt-təvarix, s.495
135. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.203
136. Yenə orada, s. 204
137. Yenə orada, s. 204-205
138. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.39

139. Rumlu H. Əhsənüt-təvarix, s.495
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.425
140. Əbdi bəy Şirazi. Təkmilətül-əxbar. Bakı, 1996, s. 54
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.426
Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti, s. 81
141. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.39
142. Yenə orada
143. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.39
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.428
144. Rumlu H. Əhsənüt-təvarix, s.495-496
145. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.40
146. Rumlu H. Əhsənüt-təvarix, s.499
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.137
147. Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 520-521
148. Rumlu H. Əhsənüt-təvarix, s. 496
149. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.426-427
150. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.39
151. Qəzvini, Budaq Münşi. Cəvahürül əxbar. Tehran, 1387, s.176-181
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 166
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 521
152. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 154
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.209
153. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 166
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 521
154. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 154
Kılıc R. Kanuni devri Osmanlı-İran münsibetleri (1520-1566). İstanbul, 2006, s.212

Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 166
155. Bax: Süleymanov M. Şah İsmayıl Səfəvi. Bakı, 2018, s. 731-744
156. Füzuli M. Əsərləri. IV cild. Bakı 1961, s. 76
157. Firudin bəy. Müşiatüs-səlatin. C.II, 1375, s.3
Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtibçi Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s.160
158. Firudin bəy. Müşiatüs-səlatin. C.II, 1375, s.2-6
Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtibçi Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s.158-164
159. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.220-221
160. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 169
161. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.40-41
162. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 158-159
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.222-223
163. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.41-42
164. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.225
165. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti, s.82
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.220, 224
166. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.429
167. Yenə orada, s. 430
168. Əbdi bəy Şirazi. Təkmilətül-əxbar. Bakı, 1996, s. 55
169. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 155
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.226
170. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.97
171. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 156

Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.227-228
Kılıc R. XVI. ve XVII. Yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları. İstanbul, 2001, s.41
172. Rumlu H. Əhsənüt-təvarix, s. 499
173. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.430
174. Rumlu H. Əhsənüt-təvarix, s. 499
175. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.137
176. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.97-98
177. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.229
178. Yenə orada, s.232
179. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.98
Əbdi bəy Şirasi. Təkmilətül-əxbar. Bakı, 1996, s. 56
180. Rumlu H. Əhsənüt-təvarix, s. 499-500
181. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.233
182. Yenə orada, s. 233-234
183. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.98-99
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.432-435
184. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.98-100
185. Əbdi bəy Şirasi. Təkmilətül-əxbar. Bakı, 1996, s. 59
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.436-437
186. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.236-237
Kılıc R. XVI. ve XVII. Yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları. İstanbul, 2001, s.42
187. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.46
188. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.138-139
189. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 175
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 542-543
190. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.46

191. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 176
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 544-545
192. Rumlu H. Əhsənüt-təvarix, s.533
193. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.47
194. Yenə orada
195. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.501-502
196. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.47
197. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.506-507
198. Rumlu H. Əhsənüt-təvarix, s.533-534
199. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.507-508
200. Rumlu H. Əhsənüt-təvarix, s.536-537
201. Yenə orada, s. 537
202. Rumlu H. Əhsənüt-təvarix, s.537-538
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.140
203. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s.170-172
204. Mehmed Solakzadə. Tarix. Bakı, 1992, s.41-42
205. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.253-254
206. Mehmed Solakzadə. Tarix. Bakı, 1992, s. 42
207. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.255
208. Yenə orada, s. 255
209. Yenə orada, s. 251
210. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.48-49
211. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 180-181
212. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 178
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.258-259
213. Rumlu H. Əhsənüt-təvarix, s.540

214. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 182-183
215. Yenə orada, s. 260-261
216. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.106-107
Rumlu H. Əhsənüt-təvarix, s.540
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.509
217. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 509
218. Əbdi bəy Şirasi. Təkmilətül-əxbar. Bakı, 1996, s. 68-69
219. Rumlu H. Əhsənüt-təvarix, s.541
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.140
220. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.49-52
221. Yenə orada, s. 104
222. Yenə orada, s. 55-57
223. Yenə orada, s. 106
224. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 181
225. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 183
226. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s.200-202
Mehmed Solakzadə. Tarix. Bakı, 1992, s. 42
227. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 185
228. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.266
229. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.57
Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 186
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.265
230. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s.510
231. Rumlu H. Əhsənüt-təvarix, s.541
232. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.57
233. Yenə orada, s. 58
234. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti, s.92

Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 186-187
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.266-267
235. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 187
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.266-267
236. Mehmed Solakzadə. Tarix. Bakı, 1992, s. 43
237. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.141
238. Rumlu H. Əhsənüt-təvarix, s.541-542
239. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.269
240. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.58
Hüseyni Qumi, Q. Xülasüt-təvarix. C.I, Tehran,1359, s.328
241. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 109
242. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.141
243. Hüseyni Qumi, Q. Xülasüt-təvarix. C.I, Tehran,1359, s.329
244. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 59
Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 187-188
Cavanşir B. İrandakı türk boyları ve boy mensebu kişilir (Safevi dönümi – I Şah Tahmasb hakimiyyetinin sonuna kadar/1576). Doktora tezi. İstanbul, 2007, s. 237
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 561
245. Hüseyni Qumi, Q. Xülasüt-təvarix. C.I, Tehran,1359, s.330
Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 188
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.270-271
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 562

246. Mehmed Solakzadə. Tarix. Bakı, 1992, s. 43
247. Hüseyni Qumi, Q. Xülasüt-təvarix. C.I, Tehran,1359, s.329
Rumlu H. Əhsənüt-təvarix, s.542
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.142
248. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 59
Hüseyni Qumi, Q. Xülasüt-təvarix. C.I, Tehran,1359, s.329
249. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.142
250. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 510-511
251. Əbdi bəy Şirazi. Təkmilətül-əxbar. Bakı, 1996, s. 68
252. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 59
253. Rumlu H. Əhsənüt-təvarix, s.543
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.143
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.274
254. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 60
255. Rumlu H. Əhsənüt-təvarix, s.543
256. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.276
257. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.143
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.276
258. Rumlu H. Əhsənüt-təvarix, s.543-544
259. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 110
260. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.143
261. Yenə orada, s. 143-144
262. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 111-112
263. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.143
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 564

264. Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 566
265. Hüseyni Qumi, Q. Xülasüt-təvarix. C.I, Tehran,1359, s.332
Əbdi bəy Şirazi. Təkmilətül-əxbar. Bakı, 1996, s. 71
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.144
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.278-279
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 512
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 569
266. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 112
267. Rumlu H. Əhsənüt-təvarix, s.545
268. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 512
269. Əbdi bəy Şirasi. Təkmilətül-əxbar. Bakı, 1996, s. 71
270. Hüseyni Qumi, Q. Xülasüt-təvarix. C.I, Tehran,1359, s. 333
271. Rumlu H. Əhsənüt-təvarix, s.545
272. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 112
273. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 113
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.145
274. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 113
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.145
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 515-516
275. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 516
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 196
276. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 196
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 576
277. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 517
278. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.146
279. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 64-65

280. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 197-199, 276
281. Rumlu H. Əhsənüt-təvarix, s.549
Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 518
282. Aləmara-ye Şah Təhmasib. Tehran, 1370, s.116-118
283. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 201
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 582
284. Mehmed Solakzadə. Tarix. Bakı, 1992, s. 45
285. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 204
286. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 65.
287. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.147
288. Rumlu H. Əhsənüt-təvarix, s.557
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 203
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 587
289. Mehmed Solakzadə. Tarix. Bakı, 1992, s. 45
290. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 115
291. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.147
292. Yenə orada
293. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 206
294. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 116
295. Yenə orada
296. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 211
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.296
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 589
297. Rumlu H. Əhsənüt-təvarix, s.557

298. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.296
299. Rumlu H. Əhsənüt-təvarix, s.557
Hüseyni Qumi, Q. Xülasüt-təvarix. C.I, Tehran,1359, s.353
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.147-148
300. Rumlu H. Əhsənüt-təvarix, s.557-558
301. Mehmed Solakzadə. Tarix. Bakı, 1992, s. 47
Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 212
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.296
302. Rumlu H. Əhsənüt-təvarix, s.559
303. Rumlu H. Əhsənüt-təvarix, s.558-559
304. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 535
305. Yenə orada, s. 535-536
306. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s. 149
307. Yenə orada
308. Rumlu H. Əhsənüt-təvarix, s.565-566
309. Rumlu H. Əhsənüt-təvarix, s.558-559
310. Rumlu H. Əhsənüt-təvarix, s.559
Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 213
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.299
311. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 67
312. Rumlu H. Əhsənüt-təvarix, s.560
313. Rumlu H. Əhsənüt-təvarix, s.560
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.299
314. Rumlu H. Əhsənüt-təvarix, s.560
315. Yenə də orada, s. 561
316. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s. 148

317. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s. 148
318. Mehmed Solakzadə. Tarix. Bakı, 1992, s. 48-49
319. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 214
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.301
320. Rumlu H. Əhsənüt-təvarix, s.561-562
321. Yenə orada, s. 562
322. Yenə orada, s. 563
323. Yenə orada, s. 566
324. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 213
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.299
325. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 217
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.304
Kılıc R. XVI. ve XVII yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları. İstanbul, 2001, s.56
326. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.304-305
Kılıc R. XVI. ve XVII yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları. İstanbul, 2001, s.56
327. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.305
İpçioğlu M. Kanuni Sultan Süleymanın Nahçıvan seferi. Ankara, 2003, s. 36
328. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 217
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.306
Kılıc R. XVI. ve XVII yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları. İstanbul, 2001, s.56

329. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 217
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.310
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 210
330. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 68
331. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.311
Kılıc R. XVI. ve XVII yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları. İstanbul, 2001, s.57
332. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s.291
333. Yenə orada, s.294
334. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 294-297
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 208
335. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 68
336. Kılıc R. XVI. ve XVII yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları. İstanbul, 2001, s.58
337. Rumlu H. Əhsənüt-təvarix, s.568
338. Ekber Diyanet A. İlk Osmanlı-İran anlaşması (1555 Amasiya musalahası). İstanbul, 1971, s.1
Kılıc R. XVI. ve XVII yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları. İstanbul, 2001, s.65
339. İpçioğlu M. Kanuni Sultan Süleymanın Nahçıvan seferi. Ankara, 2003, s. 36
340. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.313
341. Yenə orada, s. 314
342. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 213
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.314
İpçioğlu M. Kanuni Sultan Süleymanın Nahçıvan seferi. Ankara, 2003, s. 39

343. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 211
344. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 218
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.317
İpçioğlu M. Kanuni Sultan Süleymanın Nahçıvan seferi. Ankara, 2003, s. 39
345. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 218
Kılıc R. XVI. ve XVII yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları. İstanbul, 2001, s.58
346. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.150
347. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 211
348. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.319
349. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 212
350. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 219
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.322
İpçioğlu M. Kanuni Sultan Süleymanın Nahçıvan seferi. Ankara, 2003, s. 39
351. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 221
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.323
352. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.323
353. Yenə orada, s. 325
354. Yenə orada, s. 328
355. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 71
356. Mehmed Solakzadə. Tarix. Bakı, 1992, s. 49-50
357. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 539
358. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 120

359. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.330-331
360. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 223
361. İpçioğlu M. Kanuni Sultan Süleymanın Nahçıvan seferi. Ankara, 2003, s. 52-57
362. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 538
363. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.150
364. Rumlu H. Əhsənüt-təvarix, s.569
365. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.151
366. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 120
367. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 224
368. Rumlu H. Əhsənüt-təvarix, s.572
369. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 214
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 643
370. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 224-225
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.322
371. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 228-229
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.335-336
372. Mehmed Solakzadə. Tarix. Bakı, 1992, s. 450-51
373. Rumlu H. Əhsənüt-təvarix, s.569
374. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.150-151
375. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 231-232
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 216
376. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 539-540

Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 232
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 216
377. Ekber Diyanet A. İlk Osmanlı-İran anlaşması (1555 Amasiya musalahası). İstanbul, 1971,s.2
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.337
378. Ekber Diyanet A. İlk Osmanlı-İran anlaşması (1555 Amasiya musalahası). İstanbul, 1971, s.2
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.338
379. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 229
380. Ekber Diyanet A. İlk Osmanlı-İran anlaşması (1555 Amasiya musalahası). İstanbul, 1971, s.4
381. Ekber Diyanet A. İlk Osmanlı-İran anlaşması (1555 Amasiya musalahası). İstanbul, 1971, s.4
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.339
382. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.340
383. Yenə orada, s. 341
384. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 241
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 229
385. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 241-243
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 229-230
386. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 73-75
387. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.344
388. Mehmed Solakzadə. Tarix. Bakı, 1992, s. 51-52
389. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 274-275
390. Yenə orada, s.275-276

391. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 203-237
392. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 203-204
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 217-218
393. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 204
394. Yenə orada, s. 206-207
395. Yenə orada, s. 237
396. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 240
397. Yenə orada, s. 240
398. Mehmed Solakzadə. Tarix. Bakı, 1992, s. 52-53
399. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 241
400. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 277-283
Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 242
401. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 242
402. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 243
Ekber Diyanet A. İlk Osmanlı-İran anlaşması (1555 Amasiya musalahası). İstanbul, 1971, s.9
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 236
403. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 243
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.349
404. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 284-287
Ekber Diyanet A. İlk Osmanlı-İran anlaşması (1555 Amasiya musalahası). İstanbul, 1971, s.8-9

405. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 243-244
406. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 244
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.353
407. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 314-315
408. Yenə orada, s. 316-317
409. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 318-319
Kılıc R. XVI. ve XVII. Yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları. İstanbul, 2001, s.81
410. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 247
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.359
411. Ekber Diyanet A. İlk Osmanlı-İran anlaşması (1555 Amasiya musalahası). İstanbul, 1971, s.10-11
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.360
Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 249
412. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 323
413. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.363-364
414. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 330-337
415. Yenə orada, s. 338-340
416. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 260-263
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 717

417. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 260-263
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 717
418. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 266-270
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 719
419. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 271-272

# IV FƏSİL.

# ŞAH TƏHMASİBİN HAKİMİYYƏTİ İLLƏRİNDƏ SƏFƏVİ-OSMANLI MÜNASİBƏTLƏRİNİN DAVAMI

## 1.Taxt-tacı uğrunda Osmanlı şahzadələri arasında aparılan mübarizənin kəskinləşməsi və bunun ikitərəflı münasibətlərə təsiri

Osmanlı və Səfəvi sarayları arasında əldə edilmiş sülh anlaşması iki saray arasında genişlənməkdə olan xoş münasibətlər nəticəsində əməli bir öhdəliyə çevrildi. Bunun nəticəsi idi ki, saray mənsubları arasında yazışmalar və elçilər göndərilməsi daha da fəallaşdı. Hər dəfə elçi göndəriləndə qarşı tərəfə böyük sayda qiymətdə hədiyyələr də yola salınırdı ki, bu hədiyyələr də tərəflər arasındakı xoş münasibətlərə əlavə bir zəmin yaradırdı. "Rövzətüs səfəviyye" əsərində olan bir məlumata görə, Səfəvi sarayına gələn elçilik nümayəndələrindən biri hədiyyə olaraq qiymətli əşyalarla bəzədilmiş 40 baş cins at və 15 min Kipr əşrəfisi gətirmişdi. Bildirilir ki, 15 min Kipr əşrəfisi 30 min Təbriz tüməninə bərabər idi. Bundan əlavə, çoxlu sayda Avropada və Misirdə istehsal olunmuş qiymətli hədiyyələr gətirilmişdi. Verilən məlumata görə, bu elçilik heyəti öz səfərini başa vurduqdan sonra Səfəvi sarayı tərəfindən Cəfər bəy Kəngərlinin rəhbərliyi altında yeni bir nümayəndə heyəti də Osmanlı sarayına göndərildi (1).

"Rövzətüs səfəviyye" əsərində olan başqa bir məlumata görə, Amasiya sülh anlaşmasının əldə edilməsindən müəyyən müddət sonra iki dövlət arasında sərhəd xəttinin konkretləşdirilməsinə də cəhd göstərildi. Bu məqsədlə nümayəndə heyətləri də təyin olundu. Osmanlı tərəfindən yaradılan nümayəndə heyətinə vaxtilə Səfəvi qoşunları tərəfindən əsir götürülmüş və sonra da sülhə vasitəçi kimi Osmanlı sarayına göndərilmiş Sinan paşa rəhbərlik edirdi. Sinan paşanın rəhbərlik etdiyi nümayəndə heyətinə daxil olan Van hakimi Xosrov paşa və Əli ağa Çavuşbaşı 200 nəfərlik bir dəstə ilə Səfəvi sarayına təşrif gətirmişdilər. Fərruxzad

bəydən sonra Osmanlı sarayına elçi kimi göndərilmiş Vəli bəy Yasavulbaşı da həmin elçilik heyətini müşayiət edirdi. Bu elçilik Qəzvinə gələrək Şah Təhmasiblə görüşdü və onun xeyir-duasını aldı (2).

Lakin bu nümayəndə heyətinin sərhəd xəttinin müəyyənləşdirlməsi sahəsində əldə etdiyi nəticələr barəsində məlumat verilməmişdir. Osmanlı taxt-tacı uğrunda Sultan Süleymanın oğlan övladları olan Sultan Bayəzid ilə Sultan Səlim arasında mübarizənin kəskinləşməsi və Səfəvi sarayının da istəmədən bu mübarizəyə cəlb edilməsi sərhəd dəqiqləşdirilməsi məsələlərini kölgə altına almışdı.

Sultan Süleymanın səkkiz oğlan övladı dünyaya gəlmişdi. Onlardan Murad, Mahmud və Abdulla hələ kiçik yaşlarında ikən dünyalarını dəyişmişdilər. Sultanın Mehmet (Məhəmməd) adlanan başqa bir övladı isə uşaqlıq yaşlarında öz əcəli ilə dünyasını dəyişmişdi. Məlumdur ki, Naxçıvan səfərinə hazırlıq dövründə Sultan Süleyman böyük oğlu Sultan Mustafanı boğduraraq öldürtmüş və onun digər oğlu olan Cahangir isə qardaşının qətlindən doğan nisgildən günü-gündən zəifləmiş və o da nəhayət ki, həyatını itirmişdi. Bundan sonra onun iki oğlan övladı qalmışdı –Şahzadə Səlim və Şahzadə Bayəzid. Bu oğlanların hər ikisi Xürrəm sultandan doğulmuşdular. Şahzadə Səlim yaşca böyük olduğu üçün o, Sultan Süleyman tərəfindən taxt-tac varisi elan edilmişdi. Lakin Sultan Süleymana çox böyük təsir imkanları olan Xürrəm sultan taxt-tacın sahibi kimi Şahzadə Bayəzidi görürdü. Xürrəm sultana görə, Şahzadə Bayəzid həyat tərzi, fikirləri, əməlləri etibari ilə səltənət idarəçiliyini daha yaxşı bacara bilərdi və buna görə Xürrəm sultan da onun taxt-taca yiyələnməsinə çalışırdı. Amma Sultan Süleyman bu məsələdə Şahzadə Bayəzidə heç də rəğbət bəsləmirdi və onun istəyi belə idi ki, özündən sonra Osmanlı taxt-tacının sahibi Şahzadə Səlim olsun (3). Şahzadə Səlimin Osmanlı taxt-tacına sahib olması ehtimalı Şahzadə Bayəzidi razı salmadığı kimi, əslində, onun həyatını da təhlükə qarşısında qoyurdu. Çünki Şahzadə Səlim taxt-taca yiyələndiyi təqdirdə hakimiyyətinin möhkəmləndirilməsi üçün Şahzadə

Bayəzidi qətl etdirməkdən də çəkinməyə bilərdi. Ona görə, Şahzadə Bayəzidin hakimiyyət mübarizəsinə qoşulması həm də onun öz həyatını xilas etmək üçün apardığı bir mübarizə sayıla bilərdi.

Hakimiyyət uğrunda mübarizədə Şahzadə Bayəzid anası Xürrəm sultana və bir də bacısının əri, yenidən baş vəzir seçilmiş Rüstəm paşaya arxalana bilərdi. Bu insanların qurduğu planlar Şahzadə Bayəzidi öz istəklərinə yetişdirə bilərdi. Mövcud məlumatlara görə, Şahzadə Bayəzid saray əyanları və əmirləri arasında da Şahzadə Səlimə nisbətən daha böyük nüfuza və ehtirama malik idi. Bu cəhət də Şahzadə Bayəziddə hakimiyyətə sahib olmaq ümidlərinə əlavə bir güc verirdi.

Səfəvi hüdudları üzərinə sonuncu yürüşü zamanı Sultan Süleyman taxt-tacı Şahzadə Bayəzidə həvalə etmişdi. Çox güman ki, bu məqam da Şahzadə Bayəziddə sultan olmaq ehtimallarını xeyli artırmışdı. Tarixdən o da məlumdur ki, qarşıya qoyduğu niyyətinə yetişməsinin çətin olduğunu görəndə Şahzadə Bayəzid bəzi təxribatlara da əl atmağı mümkün saymışdı. Belə ki, öz nüfuzunun gücləndirilməsi üçün onun Düzməcədə hakimiyyət əleyhinə baş verən qiyamın təşkilində iştirak etməsi haqqında da məlumatlar mövcuddur. Bu qiyam Düzməcə qiyamı kimi tanınmaqdadır. Həmin qiyamın baş verməsi Şahzadə Mustafanın öldürülməməsi iddiası ilə bağlıdır. Şahzadə Mustafanın qoşunlar içərisində, eləcə də sarayda böyük ehtirama malik olmasından bəhrələnmək məqsədilə onun sağ olması şayiələrinin yayılmasına başlanmışdı. Şahzadə Mustafaya oxşayan birisi də bu qiyamın başında dayanmışdı. O, Şahzadə Bayəzidin də vasitəçiliyi ilə ətrafa şayiələr yaydırırdı ki, sultan tərəfindən qətlə yetirilməyib, atasının niyyəti bəlli olanda onun yanına oxşarı olan bir nəfər göndərilib və əslində, o qətlə yetirilib və özü isə canını salamat qurtararaq Trakiyaya qaçıbdır. Şahzadə Bayəzid bu qiyamı elə istiqiamətləndirməli idi ki, son nəhayətdə onun gedişi hakimiyyəti ələ keçirmək üçün müəyyən fayda gətirsin. Amma Düzməcə Mustafa qiyamı haqqında məlumat alınan kimi, Sultan Süleyman onun yatırılması üçün bölgəyə böyük bir qoşun dəstəsi göndərir. Qiyam iştirakçıları bu qoşunlara müqavimət göstərmək gücündə

olmadığı üçün qaçıb dağılmaq məcburiyyətində qaldı. Yalançı Mustafa isə ələ keçirildi və İstanbula gətirildi. Sorğu-sual zamanı bu qiyamın Şahzadə Bayəzid tərəfindən təşkil edilməsi aydın olur ki, bu da Sultan Süleymanın Şahzadə Bayəzidə qarşı münasibətini bir qədər də pisləşdirdi. Bildirilir ki, tutduğu yolun düz olmadığını anlayan Şahzadə Bayəzid atasının yanına gəlir, yol verdiyi xətaya görə ondan üzr istəyir və bir daha belə xətaya yol verməyəcəyini bəyan edir. Sultan Süleyman oğlunu bağışlasa da, ona qarşı olan etibarı da azalır və elə bunun nəticəsi kimi, Şahzadə Bayəzid Konya bəylərbəyi vəzifəsindən alınaraq Kutahyaya bəylərbəyi təyin edilir (4).

Səfəvi hüdudları üzərinə hərbi yürüş zamanı Şahzadə Səlim atası Sultan Süleymanın yanında idi. Yəni qardaşı Şahzadə Bayəzidin hakimiyyəti ələ keçirmək üçün müəyyən planlara əl atdığı və bunun üçün atasının yanında nüfuzunu itirdiyi bir halda Şahzadə Səlim ağır yürüşün sınaqlarını atası ilə birlikdə bölüşür və bu da atasının ona olan hörmət və etibarını artırdı. Hadisələrin öz axarı ilə cərəyan edəcəyi təqdirdə Şahzadə Səlimin taxt-taca yiyələnəcyi elə də şübhə doğurmaya bilərdi. 1558-ci il mart ayının 16-da Xürrəm sultanın dünyasını dəyişməsi Şahzadə Səlimin hakimiyyətə sahib olmaq şansını bir qədər də artırdı. Xürrəm sultanın dünyasını dəyişməsi Şahzadə Bayəzidin isə taxt-taca sahib olmaq şanslarını bir qədər də azaltdı. Çünki taxt-tac uğrunda aparılan mübarizədə Şahzadə Bayəzidin ən təsirli və real arxası Xürrəm sultan idi. Onun yoxluğu Şahzadə Bayəzidi dəstəkləyən baş vəzir Rüstəm paşanın da imkanlarının azalmasına səbəb oldu. Şahzadə Mustafanın qətlində əli olan birisi kimi, Rüstəm paşa qoşun və saray əyanları arasında ehtiyatla qarşılanırdı ki, bu da onun Sultan Süleyman yanındakı mövqeyinə təsir göstərirdi (5).

Xürrəm sultanın dünyasını dəyişməsindən sonra taxt-tac uğrunda mübarizədə Şahzadə Bayəzid yalnız öz gücünə arxalanmalı idi və bunun nəticəsi kimi, anasının ölümündən sonra onun kifayət qədər fəallaşdığını görmək mümkündür. Məlumdur ki, Şahzadə Səlim də bu mübarizədən kənarda qalmaq fikrində deyildi.

Amma tədqiqatçıların fikrincə, Şahzadə Bayəzid daha fərasətli, ayıq düşüncəli birisi idi və bu baxımdan o, Şahzadə Səlimi üstələyirdi. Şahzadə Səlimin bu mübarizədə lələsi Mustafa paşa tərəfindən dəstəklənməsi onun şanslarını müəyyən qədər artırırdı. Bununla belə, Şahzadə Bayəzidin fəallığı real amil olaraq ortaya çıxmaqda idi. Şahzadə Bayəzid qardaşının fərasətsiz bir insan olmasını qabartmaq üçün konkret tədbirlərə də əl atırdı. Ehtimal olunan məlumatlara görə, Şahzadə Bayəzid hakimiyyət uğrunda mübarizədə qalib gəlmək üçün Şahzadə Səlimə sui-qəsd edilməsi planları barədə də düşünür və öz planlarının həyata keçirilməsi üçün qoşun rəhbərliyində özünə daha güclü dəstək tapmağa çalışırdı. Bütün bu fəallıqlar Sultan Süleyman tərəfindən də müşahidə olunurdu və o, qardaşlar arasında ciddi silahlı qarşıdurma baş verməsinə yol verməmək üçün onların vəzifə təyinatına yenidən baxdı. Xürrən sultanın dünyasını dəyişdiyi vaxt Şahzadə Səlim Manisada sancaqbəyi idi. Şahzadə Bayəzid isə Kutahyada sancaqbəyi vəzifəsində idi. Sultan Süleymanın hökmü ilə Şahzadə Səlim Konya hakimi, Şahzadə Bayəzid isə Amasiya hakimi təyin edildi. Bu təyinat müəyyən mənada taxt-tac uğrunda mübarizəyə təsir göstərə biləcək bir təyinat idi. Şahzadə Səlimin səltənət paytaxtına daha yaxın olan Konyaya gətirilməsi onun sultan olmaq şansını bir qədər də artırdı. Baş verən təyinatlar Şahzadə Bayəzid tərəfindən də belə dəyərləndirilirdi və o, şübhə etmirdi ki, bu təyinatlar onu taxt-tacdan bir qədər də uzaqlaşdırmaqdadır. Ona görə də Şahzadə Bayəzid atasının bu hökmünə qarşı çıxdı və atasının göstərişinə riayət etmək istəmədi. Şahzadə Bayəzid hətta atasının hökmünü ona gətirən qapıçıbaşını da bir neçə gün qəbul etmədi. Şahzadə Bayəzid belə bir məlumat da almışdı ki, Sultan Səlim atası ilə birlikdə Naxçıvan səfərində olduğu günlərdə onun (Şahzadə Bayəzidin) Amasiyaya dəyişdirilməsinə cəhd göstərmiş və nəhayətdə buna nail olmuşdu. Görünür, Sultan Süleyman hadisələrin belə cərəyan edə biləcəyini əvvəldən hiss edirmiş. Ona görə də bu təyinatları etməklə bərabər, Osmanlı sultanı övladlarını da ciddi şəkildə xəbərdar etdi ki, hakimiyyət uğrunda çəkişmələrdən əl götürsünlər. Əks təqdirdə,

Sultan Süleyman övladlarının hər ikisini taxt-tac hüququndan məhrum edəcəyi ilə hədələmişdi (6).

Şahzadə Səlim baş vermiş təyinatı dərhal qəbul etdi. Həmin təyinat Şahzadə Səlimin maraqlarına cavab verirdi və əslində, burada etiraz üçün bir əsas da yox idi. Sultanın təyinatları Şahzadə Bayəzidin maraqlarına cavab vermirdi ki, o da əvvəlcə Amasiyaya getməkdən boyun qaçırdı və haqlı olmasını əsaslandırmaq üçün müəyyən vasitələrə də əl atdı. Bu vasitələrdən biri də Sultan Süleymana məktub göndərilməsi oldu. Şahzadə Bayəzid atasına göndərdiyi məktubda yazırdı ki, o nə vaxtdan bəri Kutahyadadır və bu vilayəti o öz vətəni kimi qəbul etməkdədir. Bunun ardınca da yazırdı ki, bu vilayətə böyük bağlılığı vardır və bağlı olduğu bu vilayətdən ayrılmaq niyyətində deyildir. Şahzadə Bayəzid hətta atasından onun Ankaraya hakim təyin edilməsi xahişini də etmişdi. Lakin onun bu təklifi qəbul olunmamışdı (7).

Şahzadələrin iddialarının nəzarət altına gətirilməsi və onların ifrat yollara düşməsinin qarşısının alınması üçün Sultan Süleymanın göstərişi ilə vəzir Sokullu Məhəmməd paşa Şahzadə Səlimin yanına və vəzir Pərtöv paşa isə Şahzadə Bayəzidin yanına göndərilmişdi. Şahzadə Bayəzid ona verilən məsləhətləri qəbul etmədi. Bununla belə, o, nəhayətdə sultan hökmünə boyun əydi və 1558-ci ilin oktyabr ayının sonlarında Amasiyaya doğru hərəkətə başladı.

Amma hələ Amasiyaya doğru hərəkət etməzdən əvvəl Şahzadə Bayəzid əlavə qoşunlar toplanmasına başlamışdı. Yəni Şahzadə Bayəzid hiss edirdi ki, dinc yolla Osmanlı taxt-tacına sahib olması günü-gündən çətinləşir. Ona görə də o, niyyətinə nail olunmasının yollarından birini qoşun toplanmasında görürdü. Bu qoşun dəstəsi ilə, Şahzadə Bayəzid qardaşı Şahzadə Səlimin Konyaya hərəkəti zamanı onun yolunu kəsə və onun həyatına son qoya bilərdi. Şahzadə Səlimin qətli Şahzadə Bayəzidi taxt-tacın yeganə varisi edə bilərdi. Şahzadə Səlim üçün yarana biləcək təhlükə Sultan Süleyman tərəfindən də hiss olunurdu və ona görə də onun hökmünə əsasən Şahzadə Səlimin Konyaya yollanması bir qədər təxirə salındı. Vəzirlər Sokullu Məhəmməd

paşa ilə Pərtöv paşanın Osmanlı şahzadələri yanına göndərilməsi də bu dövrə təsadüf edirdi (8).

Şahzadə Bayəzid onun yanına göndərilmiş Pərtöv paşaya çox sərt münasibət göstərdi. Bununla belə, özünün də göstərdiyi cəhdlərin bir nəticə vermədiyini görəndə şahzadə Bayəzid sultan hökmünü icra etmək məcburiyyətində qaldı. Bəzi məlumatlara görə, yerli və ətraf əhali də Şahzadə Bayəzidi Amasiyaya yollanmağa təşviq etdi. Deyilənə görə, böyük sayda insan dəstələri onun yanına gəlir və qoşun dəstəsinə qoşularaq onunla birgə mübarizə aparmağa hazır olduqlarını bildirirdilər. Onun qoşun dəstəsinə qoşulanların da sayı günü-gündən artmaqda idi. Şahzadə Bayəzidə qoşulanların çoxu vaxtilə Şahzadə Mustafanı dəstəkləyən insanlar idilər. Bu adamların çoxu həm də saray siyasətindən narazı olanlar idi və Şahzadə Bayəzidə qoşulmaqla onlar həm də öz narazılıqları ifadə edirdilər. Şahzadə Bayəzid çox böyük bir dəstə ilə Amasiyaya doğru irəliləməkdə idi. Bu dəstə çox süst şəkildə hərəkət edirdi və bunun da öz səbəbi var idi. Şahzadə Bayəzid çalışırdı ki, Amasiyaya doğru irəlilədiyi zaman onun dəstəsinə daha çox insan qoşulsun. Şahzadə Bayəzidin təyinat yerinə yolçuluğu çox uzun sürdü və bir də təxminən iki aydan sonra, yəni 1558-ci il dekabr ayının sonlarına yaxın Amasiyaya yetişə bildi (9).

Hələ Amasiyaya yetişməzdən əvvəl Şahzadə Bayəzid atasına bir məktub göndərdi və mövcud olan narazı durumu aradan qaldırmağa cəhd göstərdi. Həmin məktub belə idi: “Mənim padişahım, dostum, Sultanım. Minlərcə həsrətlə sənə salam göndərirəm, sənin ayağının altını öpürəm və halını sormaq istəyirəm və sağlıqlı xəbərinizi gözləyirəm. Allahdan sizin sağlığınızı istəyirəm və hər gününüz min gün olsun. Şərəfli məktubunuz mənə ulaşdı və mən onun içərisindən bilgiləndim. Buyurmuşsunuz ki, bir kaç mənzil Ankaradan uzaqlaşayım. Mən on gündür Ankaradan ayrıldım və bu an Çorumdayım və bu bölgədə durumum heç iyi deyil. Əgər kəndi durumumu sizə anlatsam rahatsız olursunuz və durumum fövqəladə kötü və günlərim üzüntüylə keçir. Əgər bu insafsa mən Ankaradan buraya gələyim və Səlim

xan (qardaşım) Bursada qalsın. İnayətinizin mənə kapsamasını və bu ricamı yerinə gətirməsini sizdən bəkliyirəm. Ricalarımı öncəki məktuplarda sizə anlatdım və yazdım əgər yaparsanız Amasyaya gidərim. Böylə olmazsa günlərimi köydən köyə gedib böylə geçirəcəyəm. Kəndi güstahlığımdan üzr dilərim və mənim günahlarımı bağışlamanızı rica edirəm. Haqqınızı halal edin, sizin ayağınızın altındaki toprağı öpürəm və sizin bir qulunuzam. İnayət buyurub mənim istəklərimi yapın ki, mən həlak oldum. Sizin lütf və kəramətinizdən umudluyam. Səadətli Padşahı Haqq Təalaya bıraxıram. Lütfən Kastamonu hakimliyini də qulunuz Osmana (Bayəzidin oğlu) inayət edin" (10).

Bu məktubunda Şahzadə Bayəzid onunla bağlı yayılan şübhələrin heç bir əsasının olmadığını, qarşıya hansısa pis bir planı qoymadığını, əksinə, qardaşının ətrafına bəylərbəylərinin toplaşmasından şübhələndiyini bildirirdi. Şahzadə Bayəzid onu da yazmışdı ki, qardaşı ətrafında bəzi hakimlərin və qoşunların toplanması haqqında onun şübhələrinin nəzərə alınmamasından narahatdır. Onun yazdığına görə, Sultan Süleymanla Şahzadə Səlim ona qarşı haqsız mövqedə idilər və bu mövqeləri ilə ona sıxıntılı anlar yaşadırdılar. Şahzadə Bayəzid onu da bəyan edirdi ki, daha itaətsizlik etməyəcək, atasının sözlərinə qulaq asacaq və istədikləri həyata keçəcəyi təqdirdə ətrafına toplamış olduğu qoşunları da buraxacaqdır. Tədqiqatçıların fikrincə, Şahzadə Bayəzid bu məktubunda atasından üzr istəyib onun mərhəmətinə sığınsa da, Sultan Süleyman onun üzrünü qəbul etmədi. Bu isə Şahzadə Bayəzidə başqa çıxış yolu qoymadı. Güman edilir ki, Sultan Süleyman oğlu Bayəzidin üzrlərinə anlaşıqlı şəkildə yanaşsaydı vəziyyətin mürəkkəbləşməsinin qarşısı alına bilərdi. O da bildirilir ki, bu müraciətə qarşı Sultan Süleyman etinasızlıq göstərdi və bununla, əslində, proseslərin daha gərgin hal almasına yol verdi. Nəticəsi isə şahzadələr arasında silahlı qarşıdurmaya gətirib çıxardı (11).

Osmanlı taxt-tacı uğrunda şahzadələr arasında aparılan mübarizənin kəskinləşməsində Şahzadə Səlimin lələsi Mustafa paşanın da özünəməxsus rolu var idi. Onun da məqsədi Şahzadə

Bayəzidin atasının gözündə nüfuzdan salınması və bununla Şahzadə Səlimin taxt-tac şanslarının daha da artırılması idi. Mustafa paşa Şahzadə Səlimin razılığı ilə Şahzadə Bayəzidi ifrat hərəkətlər etməyə təhrik edirdi. O dəfələrlə Şahzadə Bayəzidə məktub yazaraq Şahzadə Səlimi pisləyir, onun taxt-taca layiq olmadığını bəyan edir və bildirirdi ki, taxt-tac sahibi olduğu təqdirdə Şahzadə Səlim səltənət üçün çox böyük ziyanlara yol açacaqdır. Mustafa paşa səltənət sultanı kimi Şahzadə Bayəzidi gördüyünü və onun taxt-taca layiq olduğunu yazır və bununla da şahzadə Bayəzidin iddialarının genişlənməsinə bir təkan verirdi. Şahzadə Bayəzid də bu yazılanların arxasında məkrli niyyətlərin dayandığını hiss etmir və Mustafa paşanı tərəfdarı hesab etməklə Şahzadə Səlimə təhqir dolu məktublar yazıb göndərirdi. Məktublarla yanaşı Şahzadə Səlimə qadın çarşabı və digər təhqiredici əşyalar da göndərilirdi. Şahzadə Bayəzid eyni zamanda Mustafa paşaya da məktublar göndərirdi və taxt-tac ilə bağlı olan niyyətlərini ona açıqlayırdı. Mustafa paşa da həmin məktubları Şahzadə Səlimə oxuyurdu. Şahzadə Səlim qardaşının böyük və təhlükəli iddialarından xəbər verən məktublarını Sultan Süleymana göndərtdirdi. Nəticədə, Sultan Süleymanda da Şahzadə Bayəzidin təhlükləli yolda olması barəsində qənaət yaranırdı. Onun bu qənaətinin daha da gücləndirilməsi üçün Şahzadə Səlim bir neçə dəfə qardaşı tərəfindən mövcud olan real təhlükə qarşısında atasından onun qorunmasına kömək istədi (12).

Şahzadə Bayəzid eyni zamanda atası Sultan Süleymana da məktub yazaraq çalışırdı ki, onun hörmət və ehtiramını qazansın. Amma bu bir nəticə vermədi. Çünki Sultan Süleymanda oğlu Bayəzid haqqında artıq müəyyən fikirlər formalaşmışdı. Şahzadə Bayəzid yazdığı məktublarda atasından xahiş edirdi ki, o, yalnız Şahzadə Səlimi qayğı altına almasın, ona da müəyyən diqqət yetirsin. Sultan Süleyman da Şahzadə Bayəzidə məktub göndərmişdi və ona tövsiyə edirdi ki, qardaşına qarşı başladığı nifaqa son qoysun. Sultan Süleyman sonra da davam edərək yazırdı ki, əgər Bayəzid atasının xeyrini istəyirsə, onda öz əməllərindən əl çəksin (13).

Mustafa paşa şahzadələr arasındakı nifaqın və mübarizənin daha da kəskinləşməsi üçün Osmanlı sultanının Bayəzidə yazdığı məktubların ünvanına çatmasına imkan vermirdi. Bayəzidə məktub aparan adam Mustafa paşa tərəfindən qətlə yetirilir və sonra da şayiə yayılırdı ki, məktub daşıyan Şahzadə Bayəzid tərəfindən öldürülmüşdür. Belə xəbərlər də Sultan Süleymanda ona qarşı mənfi fikirlərin güclənməinə yol açırdı. Mustafa paşa Osmanlı sultanından gələn və ya Bayəzid tərəfindən atasına yazılan məktubların gediş-gəlişinə də çətinliklər yaradırdı. Bu da Bayəzid haqqında fikirlərin kəskinləşməsinə səbəb olurdu. Mövcud olan məlumatlara görə, Şahzadə Bayəzid şəxsən atasına 23 məktub yazmışdı və iki məktub da onun tapşırığı əsasında Rüstəm paşa tərəfindən yazılmışdı. Bütün bu məktublarda qaldırılan məsələlər heç də Şahzadə Bayəzidin xeyrinə həll olunmadı və xüsusi ilə də saray daxilində onun əleyhinə aparılan təbliğatlar Şahzadə Bayəzidə qarşı olan münasibəti xeyli mürəkkəbləşdirdi. Yəni Şahzadə Bayəziddə də artıq belə bir qənaət yarandı ki, həm ona qarşı olan haqsızlığın, həm də taxt-tac iddiasının ortaya qoyulmasının daha real yolu məhz qoşun toplanması və Şahzadə Səlimə qarşı mübarizənin hərbi yol üzərinə gətirilməsidir (14).

Ətrafına toplaşan könüllülərin sayının günü-gündən artması da Şahzadə Bayəziddə hərbi yola üstünlük verməsi seçiminə meyli daha da artırdı. Qısa müddət ərzində ona qoşulmaq istəyən könüllülərin sayı 10 min nəfəri ötdü. Bu sayda insanın təmin edilməsi üçün ona ayrılmış maliyyə vəsaiti yetərli deyildi. Ona görə Şahzadə Bayəzid ona qoşulan imkanlıların könüllü ianələrinə bel bağlayırdı. Eyni zamanda Şahzadə Bayəzid çalışırıdı ki, ona qoşulmaq istəyən könüllülər öz silahları ilə gəlsinlər və onlar üçün silah axtarmaq ehtiyacı da qalmasın. Bu xəbərlər sözsüz ki, ətrafa da yayılırdı və Osmanlı sarayı daxilində də bundan xəbər tutulmuşdu. Şahzadə Bayəzidi dəstəkləməyən əyanlar və əmirlər dərhal onun qoşun toplamasının hansı nəticələrə gətirə biləcəyi haqqında Sultan Süleymana məlumatlar çardırmağa başladılar. Şahzadə Bayəzidin qoşun toplaması, əslində, Sultan Süleymanın hakimiyyətinə qarşı ciddi bir təhdid kimi qələmə verildi. Sultan

Süleyman da eşitdiklərinə qarşı biganə qalmadı və yaranmaqda olan təhlükənin qarşısının alınması barəsində yollar düşünməyə başladı. Bu zaman Sultan Süleyman artıq 66 yaşında idi və Şahzadə Bayəzidin fəallaşması onun hakimiyyət sövdasına düşməsi kimi dəyərləndirildi. Yəni onda belə bir fikir yarandı ki, Şahzadə Bayəzidin onun yaşlaşmasından sui-istifadə etmək niyyəti vardır (15).

Şahzadə Bayəzidin artıq açıq şəkildə qoşun toplaması və taxt-tac savaşına qoşulması qardaşı Şahzadə Səlim tərəfindən də diqqətlə izlənilirdi. Yaranmış vəziyyətdən məğlub durumda çıxmamaq üçün Şahzadə Səlim də ətrafında qoşun dəstəsi formalaşdırmağa başlamışdı. Lakin onun bu sahədəki imkanları yetərli olmadığı üçün atası Sultan Süleymana müraciət etdi. Qardaşlar arasındakı qarşıdurma elə bir həddə gəlib çıxdı ki, Sultan Süleyman artıq birmənalı şəkildə Şahzadə Səlimi dəstəkləməyə başladı və Şahzadə Bayəzid tərəfindən genişlənən gərginliyin aradan qaldırılması üçün ona hərtərəfli yardım göstərdi. Sultan Süleymanın göstərişinə əsasən, İstanbuldan Şahzadə Səlimin köməyinə 3 min nəfərlik yeniçəri dəstəsi, bir firqə sipahi və silahdarlar, cəbəçilər, topçular və 40 ədəd top göndərilmişdi. Bundan başqa Sultan Süleyman Şahzadə Bayəzid qiyamının baş verəcəyi halda onun yerindəcə boğulması üçün Anadolu bəylərbəyi Əhməd paşaya, Qaraman bəylərbəyi Solak Fərhad paşaya, Zülqədirli bəylərbəyi Gilün Əli paşaya sərəncamlarında olan qoşunlarla Şahzadə Səlimə köməyə getmək tapşırığı verilmişdi. Ərzrum, Van, Hələb və Şam bəylərbəylərinə də tapşırılmışdı ki, qoşunları ilə birlikdə hazır vəziyyətdə dayansınlar və zərurət yaranarsa Konyaya doğru dərhal hərəkətə başlaya bilsinlər. Şahzadə Bayəzidə qarşı belə böyük bir qüvvənin səfərbərliyə alınması heç də təsadüfi deyildi. Sultan Süleyman da Şahzadə Bayəzidi Şahzadə Səlimlə müqayisədə daha bacarıqlı bir adam sayırdı və onun üçün də onun hətta az qüvvə ilə Şahzadə Səlimə üstün gələ biləcəyindən ehtiyat edirdi (16).

Böyük bir qoşun dəstəsini Şahzadə Səlimin köməyinə göndərməklə Sultan Süleyman artıq Şahzadə Bayəzidin qətlinə fər-

man vermişdi. Çünki Şahzadə Bayəzid ətrafına toplanan qoşun dəstəsi ilə həm də Osmanlı sarayına qarşı narazı olanların, müxaliflərin mərkəzinə çevrilmişdi. Lakin Sultan Süleyman öz məqsədinə elə nail olmaq istəyirdi ki, onun hərəkəti insanlar arasında hansısa bir narazılığa yol açmasın. Çünki Şahzadə Bayəzidin ətrafında Osmanlı idarəçiliyindən narazı olan xeyli insan cəmləşmişdi və Sultan Süleyman istəmirdi ki, belələrinin açıq narazılığını özünə qarşı istiqamətləndirsin. Bundan başqa Şahzadə Mustafanın qətl etdirilməsindən sonra böyük narazılar dəstəsinin yaranmasının bu dəfə də təkrar oluna bilməsinin qarşısını almaq üçün Sultan Süleyman Şahzadə Bayəzidin qətli üçün həm də şəriətin fitvasını əldə etməyi lazım bildi. Bu məsələ ilə bağlı Sultan Süleyman İstanbul müftisi Əbu Səid əfəndini hüzuruna çağırtdırdı və məsələni ona belə çatdırdı - əgər sultanın övladlarından biri islam xəlifəsinə itaət etməkdən boyun qaçırsa, bir sıra qalaları və yerləri ələ keçirsə, gün ərzində insanlardan böyük məbləğdə pullar toplayıb və sultan əleyhinə qiyam qaldırsa və mümkün olan vasitələrlə göstərilən təşəbbüslər onun qarşısını almağa yetərli olmasa, bu övlad müharibəyə başlayıb məğlub olsa, onda onun qətli vacibdir, yoxsa yox? İstanbul müftisi də sultanın bu sözlərini eşidəndən sonra ona cavab verir ki, vacib və halaldır. Bildirir ki, bu vaciblik və halallıq "Quran" tərəfindən də aydın şəkildə təsdiq olunmuşdur. Onun sözlərinə görə, kimsə islam xəlifəsinə qarşı qiyam qaldırsa müsəlmanlardan kimin gücü çatırsa müharibəyə qoşularaq mübarizə aparmalıdır, kimin gücü və qüdrəti çatmırsa, o da duaları ilə xəlifəyə qarşı yönəlmiş fitnənin qarşısını almağa səy göstərməlidirlər (17).

Bununla, Şahzadə Bayəzidin qətlinə fitva da alınmış oldu. Bu fitvanı verən İstanbul müftisi Əbu Səid əfəndi müsəlmanlar arasında kifayət qədər nüfuza malik olan bir din xadimi idi və onun fitvası Şahzadə Bayəzidin qətlinə qarşı narazılıqların qarşısının alınması üçün kifayət idi. Amma oğluna qarşı panlaşdırdığı sərt cəza ilə bağlı daha ciddi dəstək əldə edilməsi üçün o, bir sıra digər üləmalardan da fitva alınmasına nail oldu. Həmin üləmalar arasında Hamid əfəndi, Rumeli və Anadolu qoşunlarının Qazi sı Mə-

həmməd əfəndi, Əbdülrəhman Çələbi, qoşunların sabiq Qazisi Səfiyan əfəndi və İstanbul Qazisi Mövlana Mustafa da var idi. Sultan Süleymanın sorğusundan sonra bu din xadimləri də Şahzadə Bayəzidin qətlinə fitva verdilər. Bununla da Sultan Süleyman oğlunun qətli üçün fəaliyyət azadlığı əldə etmiş oldu və ömrünün müdrik yaşında qabiliyyəti ilə seçilən övladının qətlində öz qərarlılığını ortaya qoydu. Bu qərarının həyata keçirilməsi üçün idi ki, Sultan Süleyman oğlu Şahzadə Səlimin əməli dəstəklənməsi üçün onun yanına böyük qoşun dəstəsi topladı. Şahzadə Səlimin köməyinə göndərilən qoşunlar say etibarilə Şahzadə Bayəzidin ətrafında toplanmış qoşun dəstəsi üzərində uğur əldə etməyə yetərli idi və əslində, Sultan Süleymanın istədiyi də bu idi (18).

Şahzadə Bayəzid  də, sözsüz ki, atasının onun qətlinə fitva əldə etməsindən xəbərdar oldu və bununla da, əslində, onun üçün geriyə yol qalmadığını da anladı. Atasının göndərdiyi köməklər nəticəsində Şahzadə Səlimin ətrafında 30 min nəfərlik bir qoşun dəstəsi toplaşmışdı. Bu da Şahzadə Bayəzidin ətrafında olan qoşunlardan iki dəfə çox idi. Bundan əlavə, Şahzadə Səlimin ətrafında toplaşmış qoşun dəstəsinə kifayət qədər böyük döyüş təcrübəsi olan əmirlər rəhbərlik edirdilər. Bu baxımdan da Şahzadə Səlim üstünlüyə malik idi. Bununla belə, Şahzadə Bayəzid  öz mövqeyindən geri çəkilmədi və taxt-tac haqqını qardaşı Şahzadə Səlimlə döyüş meydanında aydınlaşdırmağa qərar verdi. Ona görə idi ki, Şahzadə Bayəzid  ətrafına toplanmış qoşun dəstəsi ilə 1559-cu il aprel ayının 14-də Amasiyadan Konyaya doğru hərəkətə başladı və həmin il may ayının 28-də Konyadan bir mənzillik məsafədə olan Keyğuş adlı məntəqədə düşərgə saldı. Səhəri gün isə, yəni 1559-cu il may ayının 29-da şahzadə qardaşlar ətrafında toplanmış qoşunlar arasında döyüş baş verdi. Həmin döyüş kifayət qədər ciddi bir döyüş oldu və iki gün davam etdi. Şahzadə Bayəzid, sözsüz ki, nə ilə qarşılaşacağını yaxşı bilirdi və ona görə müvafiq hazırlıqlar aparması da şübhəsizdir. Bu da özünü döyüşün gedişində göstərdi. Osmanlı sarayının gözləntilərinin əksinə olaraq, Şahzadə Bayəzid  çoxlu sayda olan qoşun

dəstəsinə qarşı ciddi müqavimət göstərə bildi. Hətta həyata keçirilən sürətli və çevik manevrlər nəticəsində Şahzadə Səlimin ətrafına toplanmış olan qoşunların sol cinahını məhv etmək mümkün oldu. Əgər döyüşün davam etdirilməsi üçün yetərli vaxt olsaydı əldə edilmiş ilkin təşəbbüsü daha da genişləndirmək və döyüşü uğurla başa çatdırmaq olardı. Döyüşün ikinci günə keçirilməsi Şahzadə Səlimin düşərgəsində həm yorğunluğun aradan qaldırılmasına, həm də qüvvələrin bərpasına zəmin yaratdı. Bundan başqa Şahzadə Səlimin ətrafında olan qüvvələri yenidən qruplaşdırmaq mümkün oldu, qapıqulu dəstələri ilə əyalət qoşun dəstələri önə çıxarıldı və onlara daha məsuliyyətli vəzifələr həvalə olundu. Şahzadə Bayəzid isə əlinə düşən istirahət anlarından səmərəli şəkildə istifadə edə bilmədi. Səhəri gün o, yenidən Şahzadə Səlimin qoşun dəstəsinin sol cinahını əsas zərbə obyektinə çevirdi. Lakin bu dəfə həmin cinahı üstələmək mümkün olmadı. Belə olanda Şahzadə Səlimin qoşun dəstəsinin sağ cinahı da hücuma məruz qoyuldu. Şahzadə Bayəzid yenə də niyyətinə nail ola bilmədi. O hər iki cinahda böyük itkilər verərək geri çəkilmək məcburiyyətində qaldı. Ətrafındakı qoşun dəstəsinin böyük bir hissəsini itirən Şahzadə Bayəzid yenidən Amasiyaya döndü (18).

Görünür, Sultan Süleyman oğlu Şahzadə Bayəzidin öz müqavimətini davam etdirəcəyini güman edirmiş. Çünki həmin günlərdə Sultan Süleyman İstanbuldakı sarayını tərk edərək Üsküdara gəldi. Baş vəzir Rüstəm paşa və qoşun dəstələri də onunla birlikdə Üsküdara yollanmışdılar. Amma bəllidir ki, Şahzadə Bayəzidin artıq çoxsaylı mərkəzi qoşunlara qarşı çıxmaq imkanı yox idi. Mövcud məlumatlara görə, onun ətrafında 40-50 nəfərlik bir dəstə qalmışdı. Ona görə də Şahzadə Bayəzid çarəsiz qalaraq yenidən atasına məktub göndərdi. Bu məktubunda Şahzadə Bayəzid əməlindən peşman olduğunu bildirməklə onun bu yola təhrik olunduğunu da bildirirdi. Şahzadə Bayəzid bununla Şahzadə Səlimin lələsi Mustafa paşanı nəzərdə tuturdu. Həmin günlərdə ona məlum olmuşdu ki, Mustafa paşa onu Şahzadə Səlimlə döyüşə girməyə təhrik edirmiş və göndərdiyi məktublarda yazı-

lanlar heç də doğru deyilmiş. Şahzadə Bayəzid atasından üzr istəməklə yanaşı, həm də Mustafa paşanın cəzalandırılmasını istəyirdi. O, güman edirdi ki, bununla günahlarının bağışlanmasına nail ola bilər. Şahzadə Bayəzidin xahişi ilə baş vəzir Rüstəm paşa da Sultan Süleymana Mustafa paşanın bu hadisələrdə gördüyü məkrli işlər haqqında məlumat vermişdi. Bununla belə Mustafa paşa Osmanlı sultanının qəzəbindən öz canını qurtara bilmişdi. Bir tərəfdən Mustafa paşa öz adamları vasitəsi ilə Şahzadə Bayəzidin atasına göndərdiyi məktubu ələ keçirib məhv etmişdi və bununla onun haqqında məlumatın sultana çatmasının qarşısını almış, digər tərəfdən də Şahzadə Səlim onun müdafiəsinə qalxa bilmişdi. Sultan Süleyman eşitdiyi xəbərlərdən sonra Mustafa paşanı Yozqat sancağının hakimi təyin etdi. Lakin Şahzadə Səlim onun Səfəvi hüdudlarının qorunması üçün faydalı ola biləcəyini irəli sürərək Van bəylərbəyi təyin edilməsi haqqında atası qarşısında məsələ qaldırdı. Sultan Süleyman da bu xahişi qəbul etdi və Mustafa paşanı Van bəylərbəyi təyin etdi (19).

Şahzadə qardaşlar arasında baş verən hadisələr haqqında "Əhsənüt-təvarix" əsərində də maraqlı məlumatlar vardır. Həmin məlumatlarda əsərin müəllifinin Şahzadə Səlimə olan rəğbətini duymaq çətin deyil. Bundan başqa bu əsərdə qardaşlar arasında baş verən döyüşün ikinci gününün gedişi haqqında da Osmanlı mənbələrindəkilərdən fərqli olan məlumat vardır: "Rum padşahı Sultan Süleyman, Sultan Bayəzidi Kütahya hakimliyindən çıxarıb o diyarın idarəsini Konyada olan böyük oğlu Sultan Səlimə həvalə etdi. Elə ki Sultan Bayəzid qardaşı barəsində adlı-sanlı atasının səltənət, iqtidar, hüsn-rəğbət və şəfqət xəbərlərini eşitdi, qardaşlıq sikkəsini kin və həsəd ləkələri ilə korladı və sədaqətin səfalı tərzini məkr və hiylə zir-zibili ilə kirləndirdi. Onun beynində pozuq xəyallar və batil təsəvvürlər yer tutdu və qardaşına xilaf çıxmağın şüarını hər tərəfdə zahir etdi. Həm sadə camaata, həm də say-seçmə adamlara çoxlu mallar paylayıb qısa zamanda elə bir böyük qoşun tərtib etdi ki, hamısı şir kimi yırtıcı və qılınc kimi kəsici idilər. Ordu topladıqdan sonra Sultan Səlimi dəf etmək üçün Konya tərəfə hərəkətə gəldi. Lakin o bilmirdi ki,

iqbalı idbara dəyişən və səadəti nəhsliklə əvəzləyən adama malın bolluğu və qoşunun çoxluğu fayda verməz. Mərvan Həmmarın sözüdür: “Müddət başa çatıbsa, say çoxluğu fayda verməz”.Bu xəbər o diyarda yayıldıqda Sultan Səlim bu əhvalatı eşitməkdən mütəəssir oldu. O, Sultan Süleymanın yanına yaxşı nitq qabiliyyətinə malik adamlar göndərdi və bəhs olunan hadisəni ərz etdi. Bu ədəbsizliyi eşidən ali nəsəbli padşahı tər basdı. Hökm etdi ki, Anadolu əmirülümərası Əhməd paşa, Qaraman hakimi Fərhad paşa və Əli paşa Zülqədər dağ şəkilli, fələk əlamətli, ifrit görkəmli, Əhrimən surətli bir qoşunla sürətli yürüş edərək o diyara getsinlər və Sultan Bayəzidi tutub yoxluq zaviyəsində sakin etsinlər (öldürsünlər). Onlar Konya ətrafına çatdıqda, Sultan Səlim qaladan çıxıb onlara qoşuldu. Şəhərin kənarında, Sultan Bayəzidin qarşısında ordu səfi tərtib etdilər. O zaman Sultan Bayəzid tərəfdən bir dəstə igidlik şüarlı rumilər Sultan Səlimin ordusunun üstünə hücum etdilər və dövr edən günbəzə (asimana) döyüş sədası saldılar. Onlar da müdafiə mövqeyi tutub vuruşmağa başladılar. Qılıncların şimşəklərindən və oxların ildırımlarından döyüş meydanının ortasında qan arxı axmağa başladı. ... Cahanı işıqlandıran günəş parlaq oxun qorxusundan bulud cövşəni geymiş və qaniçən Mərrix döyüş meydanı dilavərlərinin qanını görüb başına qalxan çəkmişdi. Həmin gün səhərdən axşama kimi döyüş və vuruş atəşi alovlandı. Amma tale qələmi qəzavü-qədər lövhəsi üzərində Sultan Bayəzidin istəyinə zidd yazı yazdı. Hər iki tərəfdən səkkiz min süvari və piyada qətlə yetirildi. Ondan sonra xəncər vuran günəş məğribxanəsinə doğru hərəkət bayrağını yüksəltdi. Səhər çağı hər iki qoşunun kişiləri və hər iki ölkənin igidləri gürz və xəncərə əl atdılar. O gün Sultan Bəyazid qan saçan qılıncla və əfi ilan misallı nizə ilə elə döyüşdü ki, Rüstəm və İsfəndiyar dastanı yaddan çıxdı. O, Sultan Səlimin meymənə və meysərəsini məğlub etdi. Belə ki, [Sultan Səlimin ordusundan] qaçanlar İstanbuladək heç yerdə qərar tutmadılar. Amma Sultan Səlim mərkəz (“qəlb”) qoşunu ilə Sultan Bayəzidin mərkəzinə (“qol”una) həmlə etdi və onların cəmiyyət xanəsinin şüşəsinə təfriqə daşı vurdu. Fəlakət küləyi Sultan Bayəzidin pərçiminə

əsdi. O, başını tutub Amasiya tərəfə qaçdı. Məqsədinə çatması üçün öz mötəbər mülazimlərindən üç nəfəri öldürüb onların başlarını ərizə ilə birlikdə Sultan Süleymanın yanına göndərdi. [Ərizəsinin] məzmunu belə idi: "Bu camaat məni müxalifliyə təhrik etdi. Cəhalətimin və qürurumun bais olduğu xoşagəlməz düşmənçilikdən peşman olmuşam və təəssüf barmağımı ağzıma qoymuşam. Əgər o həzrət (Sultan Süleyman) bu fəqirin əhvalına öz qayğıkeşliyini şamil edərsə və bu günahlarımın naxışını əfv suyu ilə yuyarsa, qədəm əvəzinə başımı yerə qoyub sürünə-sürünə dərgaha gələrəm". Sultan Süleyman onun ərizəsini qəbul etməyib, acıqla və kinlə yenidən onu dəf etmək üçün böyük bir ordu göndərdi. Sultan Bayəzid həmin ordunun gəlişindən agah olduqda, fərar yolunu tutub köçhaköçlə Ərzuruma gəldi" (20).

"Tarix-i aləmara-yi Abbasi" əsərinin müəllifi də öz əsərində Osmanlı şahzadələri arasında baş verən döyüşə toxunmuşdur. Bu əsərdə bəzi fərqli detalların olması ilə bərabər, diqqəti cəlb edən məqamlardan biri həmin əsərin müəllifinin də Şahzadə Səlimə daha rəğbətli münasibət bələməsidir. Müəllif yazırdı: "Sultan Səlim atasının fərmanına uyğun olaraq, həmin qoşuna qoşulub, izdihamlı bir qüvvə ilə qardaşına qarşı müharibəyə tələsdi. İki gün ərzində tərəflər arasında xeyli dərəcədə ağır bir döyüş baş verdi. [Döyüşün] birinci günü sübhdən axşama qədər hərb dəyirmanı elə dövr etdi ki, hər iki tərəfin həyat buğdasından səkkiz min piyada və süvari üyüdüldü. [Döyüşün] ikinci günü Sultan Bayəzid həmin [rəqib] qoşunun məğlubiyyətə uğradılması üçün səy göstərərək, canından keçən fədailərdən ibarət bir dəstə ilə döyüş meydanına qədəm qoydu və Sultan Səlimin ordusunun sağ və sol cinahlarının elə bir tərzdə məğlub və pərakəndə etdi ki, davadan qaçanlar ta İstanbula qədər dayanmaq bilmədilər. Xülasə, o gün Sultan Bayəzid elə bir döyüş göstərdi ki, onun üzərindən əlli il keçməsinə baxmayaraq, indi də Rumda həmin döyüşün və onun göstərdiyi şücaət və cəngavərliyin xüsusiyyətləri məclislərdə söylənilməkdədir. Lakin həmin əsnada Sultan Səlim ordunun mərkəzində durduğu bir dəstə ilə birlikdə özünü Sultan Bayəzidə çatdırıb, onu bir həmlə ilə məğlub etdi. Niyyəti batil

olduğuna görə [Sultan Bayəzid] apardığı müharibədən bir səmərə hasil edə bilmədi. O, məhz üsyanının şükümsüzlüyü səbəbindən məğlubiyyətə uğrayıb, başılovlu və çaşqın bir vəziyyətdə Amasiyaya qaçdı. Orada qəflət və qürur yuxusundan bir az ayılıb, törətdiyi əməllərdən peşman oldu və onu yanlış yola çəkmiş, fitnə-fəsadın xəmir mayası olmuş üç nəfər mülazimini qətlə yetirib, onların başlarını İstanbula, ali şöhrətli qapıya göndərərək, təqsir və günahlarının əfv olunmasını xahiş etdi. Amma Sultan Süleymanın öz pis taleli oğlunun əməllərinə münasibətdə qəzəb atəşi elə alışmışdı ki, həmin iki-üç nəfər gözlərini qan tutmuş şəxsin öldürülməsi ilə sakitləşmədi və yenidən böyük bir qoşunu İsgəndər paşanın sərkərdəliyi ilə onun üzərinə göndərdi" (21).

Şahzadə Bayəzid Amasiyadan Sultan Süleymana göndərdiyi məktubdan gözlədiyi nəticəni əldə edə bilmədi. Yuxarıda qeyd edildiyi kimi, bu məktub heç Sultan Süleymana yetişmədi. Bütünlükdə, proseslərin onun xeyrinə inkişaf etmədiyini görəndə Şahzadə Bayəzid Amasiyanın müftisi Məhyəddin Curcaninin və Xeyrəddin İcadi Vaizi adlı başqa birisini vasitəçilik üçün Sultan Süleymanın yanına göndərdi. Lakin bu vasitəçilik də qəbul olunmadı və bununla Osmanlı sultanı bildirdi ki, onun qəbul etdiyi qərar icra olunmalıdır. Vasitəçilik edənlərə də çatdırıldı ki, Şahzadə Bayəzidin qətl edilməsi yalnız Sultan Süleymanın istəyi deyil. Bu qətl ilə bağlı üləmalar tərəfindən fitva verilmişdir və Sultan Süleyman da bu fitvanın qarşısının alınmasında gücsüzdür. Osmanlı sultanı oğlunu nəinki bağışlamadı, əksinə, onun ələ keçirilib qətlə edilməsi və bununla Şahzadə Bayəzidin adı ilə bağlanan narahatlıqların aradan qaldırılması üçün qətiyyətli addımlar atmağa da başladı. Bu mənada o, Şahzadə Səlimə də hökm göndərdi ki, Şahzadə Bayəzidi ələ keçirsin və bunun üçün Amasiyaya doğru hərəkətə başlasın. Həmin hökmün həyata keçirilməsi məqsədilə Sokullu Məhəmməd paşa və Rumeli bəylərbəyi Mustafa paşa da çox böyük bir qoşun dəstəsi ilə Şahzadə Səlimin köməyinə göndərildi. Amma mənbə məlumatlarından aydın olur ki, Şahzadə Bayəzidin ələ keçirilməsi məqsədi ilə Şahzadə Səlimə göndərilən hərbi kömək yalnız bundan ibarət deyildir. Yəni

Sultan Süleyman elə bir qoşun dəstəsi göndərmək istəyirdi ki, Şahzadən Bayəzidin daha öz həyatını qurtarmaq şansı qalmasın. Həmin qüvvələr yetişdikdən sonra Şahzadə Səlim 1559-cu il iyun ayının 13-da Şahzadə Bayəzidin ələ keçirilməsi üçün Amasiyaya doğru hərəkətə başladı. Şahzadə bundan xəbərdar olan kimi Amasiyanın tərk etməyi qərara aldı. Onun artıq başqa çıxış yolu da qalmamışdı. Əks təqdirdə onun Şahzadə Səlimin rəhbərliyi altında olan çoxsaylı qoşunlara müqavimət göstərmək gücü yox idi. Ona görə o da dörd oğlan övladını yanına alaraq 10 min nəfərlik qoşun dəstəsi ilə birlikdə 1559-cu il iyul ayının 6-da Amasiyanı tərk etdi. Şahzadə Bayəzid Anadolunun şərqində olan Qarahisar və Bayburt qalalarına doğru hərəkət etdiyinə görə, Sultan Süleyman onun Səfəvi şahına sığınmaq niyyətində olduğu ehtimal etdi (22).

## 2.Şahzadə Bayəzidin Səfəvi sarayına sığınması

Bəzi mənbə məlumatlarına görə, Şahzadə Bayəzidin Amasiyanı tərk etdikdən sonra Səfəvi hüduduna, Ərəbistana və Krıma gedə biləcəyi də ehtimal edilirmiş. İstənilən halda Şahzadə Bayəzidin qaçmasına yol verilməməsi və onun ələ keçirilməsi məqsədilə Sultan Süleyman iyun ayının ikinci yarısında Diyarbəkr və Bağdad bəylərbəylərinə, habelə Kürdüstan bəylərinə və ümərasına hökmlər göndərdi və onlardan Şahzadə Bayəzidin ələ keçirilməsi tələb olundu. Osmanlı sultanı nəyin bahasına olursa-olsun Şahzadə Bayəzidin ələ keçirilməsinə çalışırdı. Bununla bağlı o, Rum bəylərbəyinə, habelə Malatiya və Antip bəylərinə fərman göndərdi ki, ixtiyarlarında olan qoşun dəstələri ilə Şahzadə Bayəzidin izlənilməsinə başlasınlar və onu ələ keçirərək geri qaytarsınlar. Şahzadə Bayəzidin Səfəvi şahına sığınmaq ehtimalı artanda isə Sultan Süleyman sərhəd bölgələrinin hakimlərinə fərman göndərdi və onlara da Şahzadə Bayəzidin tutulması hökmü verdi. Həmin fərmanda deyilirdi: "Oğlum Allahın şərəfli fərmanı olan və "Quran"da yazılmış Allaha, peyğəmbərə, imamlara və alimlərə itaətdən üz çevirmiş və mənim

əgəmənliyimdə olan məmləkətlərdə fitnə və fəsad olan adamları kəndi çevrəsinə toplamış və üsyan etmişdir. Mənim şərəf göstəricisi olan oğlum Səlimə ki, Allah onun ömrünü artırsın, qarşı gəlmişdir və mənim müzəffər ordumun qarşısında savaş açmış və Allahın yardımıyla yenilmiş və qaçmışdır. Qalan əsgərləri ilə İrana qaçma amacı daşımaqdadır. Mənim məqsədim onu yaxalamaqdır. Bütün Şamdakı bəylərbəyimə hökmü-şərifimi yerinə gətirmələrini yazıb onlardan istədim. Hər kim ki, onun yaxalanması üçün bir işarət bizə göstərsə, əgər o adam sancaqbəyi olursa, onun məqamını yüksəldib bəylərbəyi yapacağam və əgər zəim olursa, onu sancaqbəyi yapacağam. Əgər bu adam rəiyyət olursa, ona böyük bir ödül verilməsini və hər kəsə bu konuda qeyrət və himmət göstərmələrini əmr etdim" (23).

Bu zamanlarda Sivasda olan Şahzadə Səlim qardaşının ələ keçirilməsini təmin etmək üçün Sokullu Məhəmməd (Mehmet) paşanın rəhbərliyi altında bir qoşun dəstəsinin Ərzruma doğru hərəkət etməsinə və Şahzadə Bayəziddən öncə ora çatmasına göstəriş verdi. Bu dəstə Şahzadə Bayəzidi önləməli və onun hərəkət yolunu kəsməli idi. Sultan Səlim isə sərəncamında olan qoşun dəstəsi ilə arxadan hərəkətini davam etdirməli və Şahzadə Bayəzidi haqlamalı idi. Mövcud olan məlumata görə, Sultan Süleyman oğluna sığınacaq verməkdən çəkindirmək üçün Şah Təhmasibə də məktub yazmış və onun Səfəvi sarayına çatdırılmasını Şahzadə Səlimə tapşırmışdı. Şahzadə Bayəzidin Səfəvi hüdudlarına daxil olması baş verəndə Şahzadə Səlim həmin məktubu Şah Təhmasibə göndərməli idi. Bununla belə, görülən tədbirlərə baxmayaraq, Şahzadə Bayəzid Ərzruma daha tez yetişə bildi. Ərzrum bəylərbəyi Ayaz paşa verilən fərmanların əksinə olaraq Şahzadə Bayəzidi nəinki həbs etmədi, əksinə, ona qarşı xoş məram nümayiş etdirdi. Ayaz paşa bu məramın nümayişi kimi Şahzadə Bayəzidi hətta Ərzrum ətrafında qarşıladı, ona və onu müşayiət edən qoşun dəstəsinə mehribanlıq göstərdi və sonra da Şahzadə Bayəzidin bağışlanması üçün onunla atası arasında vasitəçilik də etməyə cəhd göstərdi. Amma Ayaz paşanın mövqeyindən asılı olmayaraq Şahzadə Səlimin rəhbərliyi al-

tında olan qoşun dəstəsi yaxınlaşmaqda idi və Şahzadə Bayəzidin də bu dəstəyə qarşı müqavimət göstərmək imkanı az idi. Ona görə Şahzadə Bayəzid Ərzrumda ləngiməyərək Səfəvi hüdudlarına doğru hərəkətini davam etdirdi. Şahzadə Səlimlə birlikdə hərəkət edən Qaraman bəylərbəyi Fərhad paşa, Sivas bəylərbəyi Əli paşa, Diyarbəkr bəylərbəyi İsgəndər paşa təqibi davam etdirərək Araz çayı kənarındakı Qaradərə adlanan məkanda Şahzadə Bayəzidin dəstəsini haqlaya bildilər. Şahzadə Bayəzid döyüşə girmədən həmin məntəqədən uzaqlaşa bildi. Çünki adları çəkilən hakimlərin sərəncamında qoşun dəstəsi say və güc baxımından Şahzadə Bayəzidin qoşun dəstəsindən üstün idi. Ona görə də o, Kağızman Dərbəndini aşaraq Çuxursəəd ərazilərinə daxil oldu. Qeyd edilməlidir ki, onun həbsinə qətiyyət göstərməyən Ərzrum bəylərbəyi sultan fərmanını yerinə yetirmədiyinə və Şahzadə Bayəzidə xoş məramla yanaşdığına görə tezliklə qətlə məruz qaldı (24).

Qaraman, Sivas və Diyarbəkr bəylərbəyləri Şahzadə Bayəzidi yaxalaya bilmədikləri üçün Səfəvi hüdudlarını aşmayaraq geri qayıtmalı oldular. Amma onlar Malatya bəyi Mustafa paşa ilə Antep bəyi Xosrov paşanı çevik bir qoşun dəstəsi ilə Şahzadə Bayəzidin arxasınca göndərdilər. Şahzadə Bayəzid isə Səfəvi hüdudlarına sığınmazdan əvvəl bir də atası Sultan Süleymanın lütfünə tapınmaq istədi və baş vəzir Rüstəm paşaya məktub göndərərək ondan bağışlanması üçün atası qarşısında məsələ qaldırmasını xahiş etdi. O, Çuxursəəd yaxınlıqlarında atasından cavab gözləyərkən Mustafa paşa ilə Xosrov paşanın qoşun dəstəsi onun üzərinə hücum çəkdi. Şahzadə Bayəzidin yanında olan 12 minlik qoşun dəstəsi bu hücumun qarşısını ala bildi. Hətta Mustafa paşa ilə Xosrov paşa ağır zərbə alaraq nicat üçün geri qaçmaq məcburiyyətində qaldı. Bu döyüşdən sonra Şahzadə Bayəzid artıq çıxış yolunun qalmadığını qətiləşdirdi və Çuxursəəd hakimi Şahqulu sultan Ustaclı ilə əlaqə saxlayaraq Səfəvi şahına sığınmaq qərarında olduğunu açıqladı. Şahqulu sultan özbaşına belə bir qərar qəbul etməyə ehtiyat etdi. Bir tərəfdən Şahzadə Bayəzidin yanında böyük bir qoşun dəstəsi var idi və bu qoşun dəstəsinin vilayəti talan etməyə başlayacağı təqdirdə ona müqavimət göstər-

mək imkanı vilayət daxilində mövcud deyildi. Digər tərəfdən də Şahzadə Bayəzid sərhəddən buraxılacağı təqdirdə onu təqib edən Osmanlı qoşunlarının Çuxursəədə daxil olması mürəkkəb bir vəziyyət yarada bilərdi. Ona görə də Şahqulu sultan məsələ barəsində Şah Təhmasibə məruzə etdi. Şah Təhmasib də məlum olduğu kimi, Şahzadə Bayəzidin Səfəvi hüdudlarına daxil olmasına etiraz etmədi və Şahzadə Bayəzid 1559-cu il avqust ayının ortalarında təqiblərdən xilas olmaq üçün Səfəvi hüdudlarına daxil oldu (25).

Osmanlı şahzadələri arasında münaqişə yaranması, Şahzadə Bayəzidin Səfəvi sarayına pənah gətirməsi və bütünlükdə, bu hadisəyə qarşı münasibət Şah Təhmasibin təzkirəsində də öz əksini tapmışdır. Şah Təhmasib bu hadisəni çox ehtiyatla qarşıladı. O, iki dövlət arasında yaranmış sülhə xələl gətirmək istəmirdi, amma Şahzadə Bayəzidin ona pənah gətirməsinə də biganə qalmaq istəmirdi. Şah Təhmasib əvvəlcə öz adamlarını ətrafa göndərərək yayılan xəbərlərin doğruluğunu araşdırdı. Məlumatların doğruluğu bəlli olandan və Şahzadə Bayəzidlə ünsiyyətdən sonra isə onun təhriklərinə uymadı və Osmanlı dövlətinə qarşı münasibətdə dövlətin maraqlarını əsas tutmağı lazım bildi. Yəni müəyyən faydalar əldə etmək xətrinə Şah Təhmasib iki dövlət arasında bərqərar olmuş sülhü pozmağı məqsədəuyğun saymadı. Şah Təhmasib bu hadisəyə münasibətini belə təsvir edirdi: " O tərəflərdən gələn tacirlər və başqaları xəbər verdilər ki, Sultan Bayəzid Amasiyada dayanaraq qoşun toplayır ki, Sultan Səlim ilə müharibə etsin. Mən dedim:

-Xandigar həzrətləri sağ-salamat sultanlıq taxtında oturduğu halda onlar bir-biri ilə müharibə etməyə haqlı deyillər.

Nəhayət, bir nəfər adamı Yadigar bəyin yanına göndərdik ki, o sərhədlərə adam göndərib təhqiqat aparsın və düzgün xəbər gətirsin. Onun nökəri gəldi və Sultan Bayəzidin yanında olan Əlqasın nökərlərindən ikisini gətirdi. Onlar dedilər:

-Biz gedib Konyada Sultan Səlim ilə vuruşub, məğlub olduqdan sonra Amasiyaya gəldik. Sultan Bayəzid bizi öz yanına çağırıb dedi:

-Siz tacik paltarında şahın yanına gedərək ona deyin ki, mənə 1500 tümən pul göndərsin. Mən Xandigarın yerinə taxta oturanda, on qat əvəzini göndərərəm.

Mən dedim:

-Bu adam əcəb axmaq imiş. Mən Həzrəti Xandigar ilə dostam, mən ona pul niyə verim? Bir də o dərəcədə ağılsızdır ki, bilmir 1500 tümənlə Xandigarla düşmənçilik etmək olmaz? O adamların hər ikisini Həsən bəy yüzbaşıya tapşırdım ki, saxlasın, görək axırı nə xəbər olacaqdır. Təqribən bir ay keçdikdən sonra Yadigar bəy xəbər verdi ki, Pasində bir neçə çadır qurulmuşdur. Sonra isə Şahqulu sultanın mülazimi Əli çavuşbaşı gəldi. Çavuşbaşını Sultan Bayəzid göndərmişdi. O dedi:

-Sultan Bayəzid Pasinə gəlmişdir. Məni göndərib soruşur ki, o, (Sultan Bayəzid) şahın yanına gəlsə, onu müdafiə edərmi?

İki gün sonra xəbər gəldi ki, paşalar Bayəzidin üzərinə hücum etmişdir. O, məğlub olaraq Çuxursəədə Şahqulu sultanın yanına gəlmişdir. Mən əmirlərə dedim:

-Bir halda ki, o bizim ölkəmizə gəlmişdir, onu başqa yerə buraxmaq yaxşı deyildir. Çünki o, hər yerə getsə, Xandigar həzrətləri bizdən görəcəkdir. Qəzvin vəziri Ağamollanı, Əmir Şəmsəddin elçini və Allahverən ağa mehmandarı pul və silah ilə göndərdim. Sultan Bayəzidi Təbrizə gətirsinlər" (26).

Bəzi türkdilli mənbə müəllifləri və araşdırmaçıları Şahzadə Bayəzidin Səfəvi hüdudlarına keçməsinin Şah Təhmasib tərəfindən sonsuz sevinclə qarşılandığı və bu hadisəni Əlqas Mirzənin Osmanlı sarayına sığınması ilə müqayisə edildiyini bildirirlər. Bu müəlliflərin məlumatına görə, guya Şah Təhmasib baş verən hadisədən çox sevinmiş və Şahzadə Bayəziddən bir intiqam vasitəsi kimi istifadə etməyə çalışmışdı. Bildirilir ki, Şah Təhmasib məktub göndərərək Şahzadə Bayəzidin Təbrizdə ad-sanına uyğun şəkildə qarşılanacağını, əfv edildiyi təqdirdə onunla atasına gizli mətləblər çatdıracağını bəyan etmişdi. Türkdilli mənbələrə əsaslanan araşdırmalardakı məlumata görə, Şahzadə Bayəzid Çuxursəəd bəylərbəyi Şahqulu sultanla İrəvandan hərəkət edərək Təbrizə gəlmiş, burada o, Azərbaycan vəziri Qiyasəddin Ətaulla tə-

rəfindən qarşılanmış və onun müşayiəti ilə Təbrizə daxil olmuşdu. Verilən məlumata görə, Osmanlı şahzadəsi Təbriz hakimi tərəfindən də yüksək səviyyədə qarşılanmış və beş gün onun qonağı olmuşdu. Bundan sonra isə Şah Təhmasib tərəfindən hədiyyə kimi göndərilmiş qiymətli paltarları geyinərək Qəzvinə, şah sarayına yola düşmüşdü. Şahzadə Bayəzid 1559-cu il noyabr ayının 24-də Qəzvində möhtəşəm bir təntənə ilə qarşılanmış və burada onun Şah Təhmasiblə görüşü olmuşdu. Məlumata görə, bu zaman Şah Təhmasiblə Şahzadə Bayəzid qucaqlaşaraq bir-birilərinə öz səmimiyyətlərini bəyan etmişdilər. Guya Şah Təhmasib onu sanki Osmanlı sultanı səviyyəsində qarşılamış, ona çox böyük ehtiram göstərmiş, saray əyanları isə Şahzadə Bayəzidin başından 30 qab dolu qızılı və zər-ziba tökmüşdülər. Bundan başqa ona 9 baş cins at da hədiyyə edilmişdi (27).

Türkdilli mənbələrdən biri isə Şahzadə Bayəzidin Səfəvi hüdudlarına sığınmasını belə təsvir edirdi: “967-ci ilin səfərində (1559-cu ilin noyabr ayı) Sultan Bayəzid xan və on iki minə qədər cəng axtaran dilavərləri, İran torpaqlarına əzm edib atının başını Rəvan tərəfinə çəkdi. O tarixlərdə Rəvan vilayətində fərman verən Əcəm sərdarlarından Şahqulu sultan, şahzadə Sultan Bayəzidi ikram və izzətlə qarşıladıqdan sonra, bu vaxt İran şahının Astrabad tərəflərində düşmənləri ilə məşğul olduğuna görə şahzadəyə irəli getməsinə izn vermədi və şahdan xəbər gəlincə o yerlərdə gözləməsinin gərək olmasını bildirdilər. İstər-istəməz məğlub olaraq Astrabaddan dönən yolunu azmış şah, Sultan Bayəzid xan məsələsindən xəbərdar olduqda, o saat tezliklə qayıtdı. Yolda ikən nədimlərinə və bəzi yaxınlarına “bu bizə, onların yanına gedən Əlqas Mirzədən bir nemət əvəzidir. Böyük bir mükafatdır” – deyərək, paytaxtı olan Qəzvin şəhərinə gəldiyi kimi, dövlətinin vəkillərini və sair şövkət sahiblərini, şahzadənin istiqbalına göndərdi. Şahın özü də yarım mənzil qarşı çıxaraq Bayəzidin əsgərləri ilə üsbəüz gəlib görüşdülər.

İran mülkünün fəthi, bu fürsətdə qarət asan və qızılbaşların pərişan olması üçün payız yarpaqları kimi apaçıq ortadadır – deyə şahzadənin igidləri müharibəyə başlamaq üçün icazə istədilər.

Lakin şahzadə buna heç bir icazə vermədi: “Bu xam sözü bundan sonra heç dilinizə də gətirməyin və illah deyəni öz əlimlə qətl edərəm” – deyəndə, bu niyyətdən əl çəkildi.

Bəzilərinin etiqadına görə, izin verilmiş olsaydı, Əcəm şahının başını kəsib İran məmləkətini talan və qarət etmək bəlkə müyəssər, bəlkə də Əcəm mülkü şahzadənin zəbtində qalçası müqərrər idi demişlər. Ancaq ağıllı kimsələrə görə, bu xüsusun qayət zor, fəsid və xəyal olduğu apaçıq ortadadır. Zira rəiyyət bir olaraq əhli-sünniyə canla, başla düşmən olduğu üçün, hər tərəfdən hücuma keçsə, bir adamın belə xilas olmasına macal ehtimalı yox idi.

967-ci il səfərin iyirmi üçüncü günündə (25 noyabr 1559-cu il) Bayəzid xan ilə İran mülkünün şahı görüşdülər. Ata oğul kimi öpüşüb qucaqlaşdılar, hal və xətir soruşdular. At başı bərabər şəhərə getdilər. Şahzadə şahın sarayına girdiyi vaxt ağıla gəlməz qumaşlar döşənmişdi. Qoltuğuna girərək atından endirdikləri vaxt otuz teşt dolusu qızıl və gümüş ilə qarışıq inci və gözəl hədiyyələr şahzadəyə bəxşiş edib qabağına tökdülər. Uğur dolu gözəl gəlişi üçün, sevinc və xoş niyyətlər göstərdilər.

Nəhayət saraya daxil oldular. İkisi bir yerdə birlikdə taxta oturduqda, bəxtiyar şah, şahzadənin könül quşunu xoş tutmaq üçün öz mübarək əli ilə bir sorquç qoydu və sevgidən dəm vurdu. İki tərəfdən nə vəchlə dostluq və hər üzdən sevgi bəyan etməklə lazım olan xüsuslar deyildi. Aralarında yüzlərcə əhdlər və minlərcə vədlər verildikdən sonra, şahzadəni ikramla könül süsləyən bir yeri şahın mərifətiylə ona mənzilgah təyin etdilər. Bütün xanları və məşhur sultanları qabağına düşərək onu müşayiət etdilər. Arxasınca şah tərəfindən doqquz xoş yürüşlü at ilə ağır çəkili qızılla işlənmiş çox qiymətli yüyənlər göndərildi” (28).

Yuxarıda istinad olunan mənbədə verilən məlumata görə, Səfəvi hüdudlarına daxil olduqdan sonra Şahzadə Bayəzidin yanında olan qoşun dəstəsi İran (Səfəvi) ərazisini qarət edib talamaq, hətta Səfəvi şahının başını kəsib ölkəni viran günə qoymaq kimi fikirlərə düşübmüş və icazə verilsəydi buna nail olunacağı bildirilirdi. Çox güman ki, burada daha çox Çuxursəəd

vilayətinin talan edilməsi nəzərdə tutulmuşdu. Yuxarıda qeyd edildiyi kimi, Çuxursəəd bəylərbəyi Şahqulu sultan özü də belə bir təhlükədən ehtiyatlanırdı. Amma Şahzadə Bayəzidin ətrafında olan qoşun dəstəsinin bütün ölkəni talan etməyə və Şah Təhmasibin də başını kəsib aparmağa yetəcək gücü yox idi. Burada mənbə müəllifi kifayət qədər səxavətli iddiaya düşmüşdü. Osmanlı sultanı səltənətin bütün potensialını səfərbər edərək Şah Təhmasibə üstün gələ bilmədiyi halda, Şahzadə Bayəzidin 12 min nəfərlik bir qoşun dəstəsi ilə belə bir işi görə biləcəyi heç də inandırıcı görünməzdi.

Osmanlı tarixçisi Memed Solakzadənin yazdığına görə, Şahzadə Bayəzidin də onun üçün ayrılmış iqamətgaha Şah Təhmasibi dəvət etməsi haqqında məlumat vardır. Şahzadə Bayəzid onun qarşılanması üçün təşkil edilmiş mərasimin əzəmətindən cuşa gəlmiş və bir müddət sonra Şah Təhmasibi öz iqamətgahına dəvət etmişdi. Bu görüşün də təntənəli keçməsi üçün Şahzadə Bayəzid iqamətgahın həyətini atlas, ipək və digər qiymətli parçalarla döşədir, Şah Təhmasibin başına tabaq-tabaq qızıl və qiymətli daşlar səpir, ona qiymətli daşlarla bəzədilmiş qılınc və xəncərlər, 50 baş cins at bağışlayır. Haqqında danışılan mənbədəki məlumata görə, bir neçə gündən sonra Şah Təhmasib də yenidən Şahzadə Bayəzidin şərəfinə mərasim təşkil etdi və guya möhtəşəm ziyafətdən əlavə, Şah Təhmasib tərəfindən Osmanlı şahzadəsinə "üç yüz heybə qızıl və bir neçə tövlə yorğa atlar və on cüt qızıl və gümüşdən düzülmüş alət" hədiyyə edildi. Mənbə müəllifi belə bir qənaətdə idi ki, belə bir səxavəti göstərməklə Şah Təhmasib çalışırdı ki, Osmanlı şahzadəsindən Omanlı sultanına qarşı istifadə etsin (29).

Mehmed Solakzadənin digər qeydlərində də Şah Təhmasibə qarşı açıq barışmaz münasibəti görmək mümkündür: "Amma digər tərəfdən əyri əsən ruzgarlar heç də sağlam və sabit deyildir. Həqiqi atası ilə öz oğlu arasında bir nifaq yaradıb, ayrı düşmənlərinə bir yol tapdı. O şuluq salan fələyin bəndini nəqş edən sehrkar qəddar deyil ki, min mərtəbə məhəbbət və dostluq nəqşlərini vəfasızlıq nəqşi ilə yerə tökmüş olmaya. Yəni bu üzdən

açıq ziyafət, bu dərəcədə məhəbbət izhar olunduqdan sonra, əyarı pozğun şah, yenidən qərib bir elmdə nə isə tapıb, şahzadənin min cür məkr və aldatma ilə ağlını oğurlayıb söhbət əsnasında belə dedi: "Aydındır ki, sizə yardımçı olan bəndələriniz zəhmətli səfərləri ilə saysız xərclər sıxıntısından müxtəlif iflasa giriftar olmuşlar. Ona görə məsləhət budur ki, ağalarınızdan başqalarını ətrafda olan xanlara və sultanlara bölüşdürüb zaman uyğun bir nəticə verdiyində, könlünün istədiyi üzrə, ipin ucunu çəkməyə əl atdıqca, yenə hüzuruna gətirilmələrinə tədarük etmək asan və imkan daxilindədir" – deyə şahzadənin bütün əsgərini ətrafa dağıtmağa icazə aldı. Hər birini dondan-dona salıb, qorxu və vahimə qailəsini dəf və bərtərf etdi. Taqəti qalmayan şahzadə də çarəsiz bu xüsusa uydu və tabe oldu. Amma hiylə olduğu apaçıq bəlli idi. Lakin "qəza gəlincə kor olur" məqamında qəzaya qiyam etmək vacibdir" (30).

Sözsüz ki, Şah Təhmasibin Osmanlı şahzadələri arasındakı ciddi münaqişədən xəbəri var idi. Lakin onun səltənətinə pənah gətirmiş Şahzadə Bayəzid ilk növbədə hələlik qüdrətli Osmanlı dövlətinin taxt-tac varislərindən biri, sülh münasibətlərində olmağa çalışdığı Osmanlı sultanının ailə üzvü idi. Hətta o da məlumdur ki, sonralar Şah Təhmasib Şahzadə Bayəzidin Osmanlı sultanı ilə barışdırılması üçün vasitəçilik etmək istəyirdi. Ona görə də Şah Təhmasib onu adına layiq qarşılamağa çalışırdı. Bu qarşılanma mərasiminin necə keçirilməsi həm də Şah Təhmasibin öz qonaqpərvərliyinin nümayişi olmalı idi. "Əhsənüt-təvarix" əsərindəki məlumata görə, Şahzadə Bayəzidin qarşılanması yersiz təntənələrdən uzaq olmaqla Şah Təhmasibin lütfündən də kənar deyildi. Həmin əsərdə Osmanlı şahzadəsinin Səfəvi sarayında qarşılanmasına xüsusi yer də ayrılmamışdı: "O vilayətin hakimi Şahqulu sultan Ustaclu onun gəlişindən agah oldu və dinin pənahı olan şahın dərgahına bir qasid [ilə ərizə] göndərdi. Bu ərizəni gətirən adam Qəzvinə gəldi və [ərizənin] məzmunu dinin pənahı olan şahın ərzinə çatdırıldı. O həzrət Həsən bəy Yüzbaşını çoxlu töhfələrlə ali mənşəli şahzadənin yanına göndərdi. Sultan Bayəzid dinin pənahı olan şahın dərgahına yollanıb bayraq və sanca-

ğını İraq səmtinə yüksəltdi. Elə ki Təbriz şəhərinə çatdı, o diyarın hakimi Əmirqeyb bəy Ustaclu əzəmətli seyidlər, hörmətli nəqiblər, əyan-əşrəflər, böyüklər, bazar adamları və əsnaflarla birlikdə onu qarşılamağa çıxdılar. Qələbəlik və izdiham tamam çölü və dağı bürüdü. Dar yollarda o qədər camaat toplanmışdı ki, heç bir bayramda və Novruzda o qədər adam müşahidə olunmamışdı. Qeysəriyyəni və bazarları bəzəmişdilər. Müğənnilər və mütrüblər lətafətli avazlarla və ürək oxşayan nəğmələrlə ahəngdar nəqəratları ta fələyin zirvəsinə qədər çatdırmışdılar. Sultan Bayəzid Qeysəriyyəyə gəldi. Heç tərəfə nəzər salmayıb, yalnız atının iki qulağı arasından baxdı. Ondan sonra Çərəndabda dayandılar. Bu neçə gündən sonra mətləbə doğru yola düşdülər" (31).

Şahzadə Bayəzidin Səfəvi hüdudlarında qarşılanmasının təntənəsinə "Tarix-i aləmara-yi Abbasi" əsərində nisbətən daha geniş yer ayrılmışdır. Bu əsərdəki məlumatdan onu da görmək mümkündür ki, qarşılanma mərasimlərinin yüksək səviyyədə keçirilməsinə baxmayaraq, Şah Təhmasiblə Şahzadə Bayəzid biri-birilərinə ehtiyatlı münasibət bəsləyirdilər. "Elə ki Sultan Bayəzid şah [Təhmasibin] bəxtəvər dövlətinin ərazisinə daxil oldu, əşrəfin xidmətinə adam göndərib, onu öz halından xəbərdar etdi. [Şahın] izzət büsatının müqərrəblərindən və ulu məclisinin mötəbərlərindən olan yüzbaşı Həsən bəy Ustaclu padşahanə yaraq və əşyalarla onu qarşılamağa göndərildi və ona göstəriş verildi ki, sərhəd əmirləri və [o tərəflərdəki] vilayətlərin əyan-əşrəfi ilə birlikdə [Sultan Bayəzidi] qarşılamağa tələsib, hər yerdə ona layiqli təzimlər və rəğbət doğuran iltifatlar etsinlər, qonaqpərvərlik və xidmətkarlıqdan irəli gələn vəzifələri yerinə yetirsinlər. Eyni zamanda, Azərbaycanın və Şirvanın mütləq ixtiyarlı vəziri olan Mirzə Ətaulla İsfahaniyə tapşırıldı ki, onlarla birlikdə ulu dərgaha qədər gəlsin və yolboyu divanmalından [xərcləyərək] dini zərurətləri təşkil etsin. Onlar buyuruqlara əməl edərək, xidmət göstərməkdə əskiklik etmədilər. Darüssəltənə Təbrizin böyükləri və əyanları şəhəri dəbdəbəyə bürüyüb, Qeysəriyyəni və [digər] bazarları bəzəyərək, elə bir qarşılanma mərasimi təşkil etdilər ki, keçmiş zamanlarda beləsi az-az görülmüşdü. [Sultan Bayəzid]

Təbrizi tərk edib, uludərgaha tərəf yaxınlaşdıqda [Şah Təhmasib] rüknüs-səltənətül-qahirə (qüdrətlisəltənətin dayağı) olan Məsum bəy Səfəvini şahanə yaraqlar, əşyalar və zinətlərlə onun qabağına göndərdi. Cənnətməkan şah həzrətləri darüssəltənə Qəzvinin Səadətabad meydanında ali ziyafət təşkil etmiş, şahanə büsat bəzəyib, əlvan xalçalar döşətdirmiş və zərnigar çadırlar və naxışlı sayəbanlar qurdurub, elə bir məclis tərtib etmişdi ki, ruzigarın gözü hələ belə bir yığıncaq görməmişdi və zəmanənin qulağı onun bənzərini eşitməmişdi. [Sultan Bayəzid] şəhərə daxil olan gün böyük əmirlər, hərbçi və əsnaf təbəqələri, xidmətçilərdən, məiyyətdən və bazar adamlarından ibarət camaat, şəhər sakinləri və şəhərətrafı yerlərin adamları dəstə-dəstə onu qarşılamağa çıxıb, tamam səhranı, çölü və dağı bürüdülər. Sultan Bayəzid təkəbbürlü, qapalı və soyuq xasiyyətli bir adam idi. Bir çox şəxslərdən eşidilmişdir ki, Təbrizdəki qarşılanma mərasimi zamanı hər nə qədər sənət adamlarının məharətləri, oyunbazların və cürbəcür zinətlərlə bəzənmiş dəstələrin şən hərəkətləri baş versə də, həddən ziyadə səylər göstərilsə də, o, heç bir tərəfə nəzər salmamış və gözlərini atının iki qulağı arasından kənara yayındırmamışdı.

Uzun sözün qısası, Sultan Bayəzid onunla birlikdə gələn və hamısı Rum qaydasında əsləhə və silahlarla mükəmməl və müsəlləh vəziyyətdə olan piyadalardan, yeniçərilərdən və süvarilərdən on min nəfərlə Qəzvinin Səadətabad meydanına gəldi. O, [Şah Təhmasibin] asiman kimi uca bargahının büsatının yaxınlığına çatanda atdan yerə endi. Cənnətməkan şah bir neçə addım irəli gəlib, əl sıxmaq qaydasını yerinə yetirdi və ona şəfqətamiz təvazökarlıqlar və məhəbbətəngiz istiqanlılıqlar göstərib, mehribanlıq nümayiş etdirdi. Lakin [Sultan Bayəzid] özünü lovğa və təkəbbürlü aparmaqdan əl çəkməyib, əsla danışmadı. O, hər zaman lazım ola bilən mütəfəkkircəsinə söhbətləşmək xüsusiyyətinə malik deyildi. Nə başınızı ağrıdım, rəsmi qarşılanma mərasimindən sonra onu ürəkoxşayan mənzillərdə yerləşdirdilər və onun gündəlik ehtiyacları təmin olundu. Elə ki bir neçə gündən sonra yol yorğunluğu [Sultan Bayəzidin] canından tamamilə

çıxdı, [Şah Təhmasib] həmin Səadətabad meydanında qonaqpərvərlik təşkil edib, izzət büsatı qurdurdu və meydanın səthini Süleyman sarayında olduğu kimi qızılı və gümüşü xalılarla elə zinətləndirdi ki, Gülüstani-İrəm oraya paxıllıq etdi və cənnət bağı oraya həsəd apardı. Elə bir behişt tərzində ziyafət bəzədildi ki, fələklərin nəzərləri min gözlə ona tamaşa etdilər. Sultan Bayəzid öz oğulları, əmirləri, xüsusi müqərrəbləri və mülazimləri ilə birlikdə həmin behişt nişanəli məclisə dəvət edildi. [Şah Təhmasib] onun xatirini şənləndirmək üçün rəsmiyyətçilikdən uzaq olan, ürək oxşayan söhbətlər etdi, saatbasaat əhvalını soruşub, onun könlünü ələ aldı və onunla isti ünsiyyət qurdu. Xansalarlar şərbətləri, mürəbbələri, meyvələri və xörəkləri nə qədər lazımdırsa və belə bir ziyafətə nə cür gərəkdirsə, anbaan daşıyıb gətirirdilər. Bu məclisdə [Sultan Bayəzidə] on min tümən İraq şahisi məbləğinə bərabər nağd qızıl, daş-qaşla bəzədilmiş alətlər, qumaş parçalar, əşyalar və yaraqlar hədiyyə edildi və onun mülazimləri böyük əmirlərin və mahal hakimlərinin yanına müxtəlif yerlərə mehman təyin olundular ki, onların ehtiyacları təmin edilsin və onlara qonaqpərvərlik göstərilsin. [Sultan Bayəzid] əşrəfin hüzurunda olduğu müddətdə yerli ülufədən, onun qarşılanması zamanı dəfələrlə qarşısına göndərilən hədiyyələrdən və bu məclisdə verilən ənamlardan savayı, təqribən daha on beş min tümən məbləğində nağd vəsaitlər, cavahirlər, qaş-daşla bəzədilmiş alətlər, qızıl və gümüş qablar, görkəmli töhfələr, nəfis kitablar, zərbafta və yun toxumalı Kirman və Cuşqan xalçaları, əlvan təkyələr və müxtəlif diyarlarda istehsal olunmuş qumaşlar ona hədiyyə olaraq təqdim edildi. Xülasə, o həzrət (Şah Təhmasib) sultanzadəyə münasibətdə onun layiq olduğundan artıq dərəcədə şahanə hüsnrəğbət və böyük hədiyyələrlə qayğı göstərdi. Lakin o, qiyamçılıq və nifaq yolunun yolçusu idi və ipə-sapa yatmayan nəfsə malik idi. Buna görə də onun əhvalatının məzmunu ziyanla və fəlakətlə bitdi.

Belə ki, o, yüksək məqamlı şah həzrətlərinin köməyi ilə Rum diyarına qoşun çəkməyi və yenicə asayiş tapmış aləmə qarışıqlıq salmağı təklif edirdi. Onun bu niyyəti bir neçə cəhətdən əşrəfin

ürəyinə yatmadı. Çünki, əvvəla, o həzrətlə (Şah Təhmasiblə) xondgar arasında çoxlu mücadilələrdən, qan tökülməsindən və məmləkətlərin xaraba və viran qalmasından sonra sülh bərqərar olmuş, bu barədə [tərəflər arasında] əhdü-peyman bağlanmış və bununla da fitnə-fəsad aralıqdan qaldırılmış, dərdli könüllərin irinli yaraları sağalmağa başlamış, bir qədər rahatlıq və dinclik meydana gəlmişdi. Buna görə də [Şah Təhmasib] «onlar Allahın əhdini yerinə yetirərlər, anlaşmanı pozmazlar» ayəsinin məzmununa uyğun olaraq, verdiyi vədin ziddinə getməyi və onu pozmağı düzgün hesab etmirdi və müsəlmanların rahatlıq və dincliyinin pozulmasına bais olmaq və «möhkəm and içdikdən sonra onu pozmayın» [ayəsinin] hökmünə əsasən, özünü açıq-aşkar tənqid hədəfinə çevirmək istəmirdi. İkincisi, valideynə qarşı çıxmaq və ona üsyan etmək nankorluğun əlamətidir və həm bu dünyada, həm də axirətdə köməksiz qalmağın mənbəyidir. [Sultan Bayəzid isə] öz atasının üzünə ağ olmuş, ona qarşı üsyan etmişdi. Buna görə də kəramət xanədanından törəmiş, irşad və kamal zinəti ilə bəzənmiş, ağıl və bilik yaraşığı ilə rövnəqlənmiş o həzrət (Şah Təhmasib) layiq bilmədi ki, batil işə kömək etsin" (32).

Əslində isə Şah Təhmasibin Osmanlı mənbələrində yazıldığı qədər də Şahzadə Bəyazidə qarşı xüsusi bir bağlılığı yox idi. Onun Şahzadə Bayəzidə olan münasibəti Sultan Süleymana olan münasibətindən doğurdu. Bir tərəfdən Amasiya sülh razılaşmasına əsasən, tərəflər arasında belə halların baş verəcəyi təqdirdə sığınacaq axtaran əyan və əmirlərin qarşı tərəfə təhvil verilməsi razılaşdırılmışdı (33). Şah Təhmasib də bunu yaxşı xatırlayırdı. Digər tərəfdən də, yuxarıda qeyd edildiyi kimi, Şah Təhmasib iki dövlət arasında əldə edilmiş sülhün Şahzadə Bayəzidə görə pozulmasına razı deyildi və ona görə də Şahzadə Bayəzidin Səfəvi sarayında belə səxavətlə qarşılanması və hədiyyələrə layiq görülməsi heç də ondan Osmanlı sultanına qarşı istifadə edilməsi niyyəti ilə bağlı deyildi. Bunu Şah Təhmasibin elə öz yazdıqlarından da görmək mümkündür: "Şahqulu sultan mənə yazmışdı ki, Sultan Bayəzid səndən qorxur. Bir nəfər göndərin ki, ona

təskinlik versin. Ona görə də Həsən bəy yüzbaşını göndərdim ki, ona təskinlik verib, and içsin ki, onun özünü və oğlanlarını Xandigarın əlinə verməRəm. Əli ağa çavuşbaşının yanında bu məzmunda and içib, onu Həsən bəy ilə göndərdim. Həsən bəy onun yanına gedib and içərək, ona təskinlik verdi və dedi ki, birlikdə Qəzvinə gəlsinlər. O, Təbrizdən bir sifariş göndərdi ki, şah buraya gəlsin. Biz iki dəstəyə bölünərək, bir dəstəmiz Bağdada, digər dəstəmiz isə Van qalasına gedək. Sultan Səlimin başı bizim qoşun dəstəsinin biri ilə vuruşmağa qarışdıqda o biri dəstə istədiyini edə bilər. Qoşunun hamısı dönükdür. Xandigar özü İstanbuldadır. Qoşunun çoxu bizim tərəfə keçəcəkdir. Mən ona cavab olaraq yazdım ki, hələ Qəzvinə gəlsin. Orada danışıb və məsləhət üzrə hərəkət edərik"(34).

Bu qeydlərdən göründüyü kimi, Şah Təhmasib Çuxursəədə göndərdiyi Əli ağa çavuşbaşının yanında Şahzadə Bayəzidə toxunulmayacağına and içsə belə, Osmanlı şahzadəsi tamamilə arxayınlaşa bilməmişdi. Hətta Təbrizə çatandan sonra da Şahzadə Bayəzid həm öz həyatı, həm də övladlarının həyatı üçün narahat idi və ona görə də hər vasitə ilə Qəzvinə gəlməkdən çəkinməyə çalışırdı. Şahzadə Bayəzid yenidən öz yaxınlarından biri olan Hüseyn Çaşnigiri elçi kimi Şah Təhmasibin yanına göndərdi. Mövcud olan məlumatlara görə, Şah Təhmasib bu elçini də qəbul etdi və onun yanında bir daha əmin etdi ki, Şahzadə Bayəzidi həbs etmək, qətlə yetirmək gözlərini kor etmək niyyəti yoxdur və təşviş keçirmədən Qəzvinə gələ bilər (35).

Şah Təhmasibin təzkirəsində belə qeydlər vardır: "Sultan Bayəzid Qəzvinə çatmazdan əvvəl Sinan bəy xandigar tərəfdən elçi sifətilə mənim yanıma gəldi. Xandigarın hökmlərini gətirdi. Həmçinin Sultan Səlim tərəfindən də Turağ ağa gəldi. Mən onlara dedim:

-Gözləyək, Sultan Bayəzid də gəlsin. Sonra danışıb məsləhətləşək, necə lazımdırsa, o cür də əməl edərik" (36).

Çox güman ki, Sultan Süleyman və Şahzadə Səlim tərəfindən Şah Təhmasibin yanına elçilər göndərilməsindən Şahzadə Bayəzid də xəbər tutmuşdu və ona görə də narahatçılıq onu tərk

etmirdi. Şah Təhmasib bu narahatçılığa bir əsas olmadığını bir daha nümayiş etdirmək üçün Şahzadə Bayəzidə bir məktub da göndərdi. Qeyd edilməlidir ki, Şah Təhmasib də hələlik bu narahatçılığa əsas görmürdü. Məhz bunun nəticəsi idi ki, o, Sultan Süleymanın və Şahzadə Səlimin elçilərinə də onların istəyində olduğu cavabı verməmişdi. Şah Təhmasib hələ də bu münaqişənin barışla nəticələnə biləcəyi ümidini kəsməmişdi. Şahzadə Bayəzidə göndərdiyi məktubunda da Şah Təhmasib onun narahatçılıqlarına son qoymağa çalışırdı. Şah Təhmasib yazırdı ki, Şahzadə Bayəzidin yaxşı qarşılanması və ona qarşı yüksək qonaqpərvərlik göstərilməsi üçün Səfəvi sarayının ehtiram sahibi olan əyanlarından birini, Məhəmməd ağanı mehmandar sifətilə Osmanlı şahzadəsinin yanına göndərmişdir. Şah Təhmasib onu da yazırdı ki, Şahzadə Bayəzidin və onun övladlarının asayişinin təmin edilməsi üçün Çuxursəəd bəylərbəyi Şahqulu sultan qoşun dəstəsi ilə onları Naxçıvana qədər müşayiət etməli idi. Onun sözlərinə görə, Azərbaycanın vəziri Ətaullaya da Osmanlı şahzadəsinin qarşılanması, müşayiət edilməsi və xidmət göstərilməsi tapşırılmışdı. Naxçıvandan sonra Osmanlı şahzadəsini məhz Ətaulla müşayiət etməli idi. Səfəvi şahı Şahzadə Bayəzidi əmin etməyə çalışırdı ki, Təbrizdə olduğu zaman ona xüsusi xidmət göstəriləcəkdir. Hətta xüsusi adamlara Şahzadə Bayəzidə və onu müşayiət edənlərə istirahət anlarında dastanlar danışmaq da tapşırılmışdı. Şah Təhmasib əmin edirdi ki, Təbrizə olmaq, bu şəhəri gəzmək, müşahidə etmək Şahzadə Bayəzidin də xoşuna gələcəkdir. Şah Təhmasib onu da əmin edirdi ki, Şahzadə Bayəzid heç bir ehtiyacla qarşılaşmayacaqdır. Şah Təhmasibin bu məktubunda səmimi notları görmək mümkündür. Şahzadə Bayəzid ona göndərmiş olduğu məktubunda Şah Təhmasibə "ata" deyə müraciət etmişdi, Şah Təhmasib də cavab məktubunda onu əziz oğlu kimi qəbul etdiyini bəyan edirdi. Şahzadə Bayəzidin icazəsiz olaraq Səfəvi hüdudlarına daxil olmasına görə üzr istəməsini isə Şah Təhmasib belə cavablandırmışdı ki, onların arasında ata-oğul münasibətlərinin olduğu halda üzr istənilməsinə heç bir ehtiyac

yoxdur. Əksinə, Şah Təhmasib onun öz gəlişi ilə ölkəsinə şərəf verdiyini yazırdı (37).

## 3. Şahzadə Bayəzidin geri qaytarılması üçün Osmanlı-Səfəvi diplomatik fəallıqları

Yuxarıda qeyd edildiyi kimi, Şahzadə Bayəzid Qəzvində də Şah Təhmasibin vəd etdiyi səviyyədə qarşılandı və ona şah səviyyəsində ehtiram göstərildi. Məlum olduğu kimi, Şahzadə Bayəzidin Səfəvi hüdudlarına doğru hərəkəti Osmanlı sarayında ciddi şəkildə izlənilirdi və onun ələ keçirilməsi üçün də qətiyyətli addımlar atılırdı. Şahzadə Bayəzidin ələ keçiriləcəyi təqdirdə onun dərhal qətlə yetiriləcəyi artıq şübhə doğurmurdu. Yəni Bayəzidin mövcudluğu Osmanlı sarayında heç bir vəchlə qəbul olunmurdu. Buna baxmayaraq, Şahzadə Bayəzidin təqib edilməsi üçün Osmanlı qoşunları Səfəvi hüdudlarını aşmadılar və iki dövlət arasında əldə edilmiş Amasiya anlaşmasının şərtləri pozulmadı. Amma Osmanlı sultanı və digər Osmanlı mənsubları Şahzadə Bayəzidin həbs edilərək geri qaytarılması ilə bağlı Şah Təhmasibə məktublar göndərdilər. Bu məktubların daşınması üçün də Osmanlı sarayının nüfuzlu əyanları və əmirləri Səfəvi sarayına yola salındılar. Sultan Süleymanın məktubunu çatdırmaq Sinan bəyə, Şahzadə Səlimin məktubunu çatdırmaq isə Turağ ağa adlı birisinə həvalə olundu.

Şahzadə Bayəzid Səfəvi hüdudlarını aşanda onun ələ keçirilməsi üçün qoşun dəstələrinin fəaliyyətinə rəhbərlik edən Şahzadə Səlim Hələbdə idi və həmin ilin qışını da orada keçirmək fikrində idi. Şahzadə Bayəzidin Səfəvi hüdudlarını aşması onu da, Osmanlı sarayını da mürəkkəb bir duruma saldı. Bayəzidin sağ qalması hakimiyyət uğrunda aparılan mübarizənin davam edəcəyi demək olardı. Atası tərəfindən birmənalı şəkildə dəstəklənən Şahzadə Səlim isə onun hakimiyyət iddialarına təhlükənin olması ilə barışmaq istəmirdi. Ona görə də Şahzadə Bayəzidin təqib edilməsi üçün Səfəvi hüdudlarına müdaxilə edilməsə də, onun geri qaytarılması üçün mümkün vasitələrdən istifadə edil-

məsindən də imtina edilmədi. Elə bu məqsədlə də Şah Təhmasibin yanına elçilər göndərildi.

Şahzadə Səlim tərəfindən Səfəvi sarayına elçilər göndərilməsi ilə bərabər, başqa tədbirlər də həyata keçirildi. Bu tədbirlər başlıca olaraq  sərhəd bölgələrinin və məntəqələrinin möhkəmləndirilməsindən ibarət idi. Həmin tədbirlər Sultan Süleyman tərəfindən də dəstəklənirdi. Belə bir ehtimal var idi ki, Şahzadə Bayəzid Səfəvi daxilində çox qalmayacağı təqdirdə, yenidən Osmanlı hüdudlarına dönə bilər. Ətrafında olan böyük qoşun dəstəsi ilə Şahzadə Bayəzid sərhəd bölgəsində yerləşən Osmanlı vilayətlərinə və qalalarına hücum etməklə orada məskən sala bilərdi. Ona görə Bağdadın mühafizəsi yenidən gücləndirildi və bu məqsədlə ora İstanbuldan qoşun bölməsi göndərildi. Sonra Van, Diyarbəkr və Bağdad bəylərbəyliklərinə aid olan məntəqələrin və qalaların mühafizəsinin möhkəmləndirilməsi üçün də lazımi tədbirlər həyata keçirildi. Bütünlükdə isə, sərhəd bölgəsində dayanan Osmanlı qoşunlarına Ərzrum-Van-Diyarbəkr-Hələb-Bağdad xətti üzrə daimi hazırlıq vəziyyətində dayanmaları tapşırıldı. Bundan başqa Osmanlı sultanı tərəfindən sərhəd bölgəsi hakimlərinə hökm göndərildi ki, Şahzadə Bayəzidin Səfəvi hüdudları daxilində nə işlə məşğul olması barəsində məlumatlar toplasınlar və saraya göndərsinlər (38).

Bununla belə, Osmanlı sarayı Səfəvi şahının yanına göndərilən elçilərin də müsbət cavabla geri qayıdacaqlarına böyük ümidlər bəsləyirdilər. Osmanlı mənbələrindən birində elçilərin Şah Təhmasibin yanına gəlmələri belə təsvir edilirdi: “Sözün qısası, hiyləgər şah ilə zamanı pərişan şahzadə arasında bu dərəcədə ülfət və ittihad, yüksək yaradılışlı padşah həzrətlərinin qulağına çatdığında, şərəf dolu tərəfindən Mahmud bəy adlı igid bir əmirini şahzadə Səlim xan bəndələrindən əmiraxuru Turağ ağa ki, hazırcavab və qorxmaz xoş əda olmaqla, elçilik xidmətinə layiq və Səlim xanın digər ağalarından daha layiq görülüb, ikisini birlikdə müşk qoxulu qələm ilə yazılmış məktubunu, Şah Təhmasib tərəfinə elçilik xidmətiylə təyin və Bayəzid xanı, elçilərinə təslim üçün mübaliğə ilə qeyrət və ehtimam buyuruldu.

Adları keçən elçilər İrana getdilər. Qəzvinə çatdıqda, şahın divanına gəlib namələrini ərz etdilər. O anda, adətləri üzrə namələrin üzərinə ərmağan qoyuldu. Daha sonra təzim ilə məktublar açıldı. Namələrin içindəkilər Şah Təhmasibin məlumu olunca, sözə başlayaraq belə dedi: "Cahan padşahı Sultan Süleyman həzrətlərinə müxalifət etmərik. Lakin müsafirə riayət etmək aləmin fəxri Həzrət Məhəmmədin sünnəsi olub, xüsusilə Bayəzid xanın gəzib yanımıza salamat gəlib bizə qovuşmuşdur" – deyə cavab verdi" (39).

Elmi-tarixi dövriyyədə mövcud olan Sultan Süleymanın məktubunun məzmunu belə güman etməyə əsas verir ki, həmin məktub hələ Şahzadə Bayəzid Səfəvi hüdudlarına daxil olmazdan əvvəl yazılmışdı. Yuxarıdakı qeydlərdən də məlumdur ki, Şahzadə Bayəzidin Səfəvi hüdudlarına yaxınlaşması əsnasında Sultan Süleyman Səfəvi şahının adına məktub yazaraq onu Şahzadə Səlimə vermişdi. Sultan Səlim də Şahzadə Bayəzidin Səfəvi hüdudlarına daxil olacağı təqdirdə həmin məktubu Şah Təhmasibə göndərməli idi. Həmin məktubda ənənəvi qaydada hörmət və ehtiramın ifadəsindən sonra Sultan Süleyman bəyan edirdi ki, onun oğlu Bayəzid qürur və "əğvayi-əshab" ilə ədəb dairəsindən çıxaraq itaət etməkdən üz döndərmiş və asilik yolunu tutmuşdur. Sonra da bildirilirdi ki, bunun nəticəsi kimi, Bayəzid ətrafına fitnə-fəsad adamlarını toplayaraq onun böyük və əziz oğlu Səlimin üzərinə hücum etmiş, dünya malı və sövdaları üçün onunla vuruşmuşdu. Şahzadə Səlim də yanında olan qoşun dəstəsi ilə onun hücumunun qarşısını almağa çalışmışdı. Sultan Süleyman yazırdı ki, Bayəzid bu qarşılaşmada itkilər verərək uğursuzluğa düçar olmuş və ətrafındakılarla qaçmaq yolunu seçmişdi. Onun bildirdiyinə görə, Şahzadə Səlimin rəhbərliyi altında olan yeniçərilərə, Rumeli, Anadolu, Qaraman qoşunlarına qarşı müqavimət göstərə bilməyən Şahzadə Bayəzid şərq sərhədlərinə doğru irəliləməli olmuşdu. Sultan Süleyman məktubunun sonunda Şah Təhmasibdən xahiş edirdi ki, əgər oğlum Bayəzid vilayətinizə daxil olmaq istəyərsə sərhəd bölgəsində dayanan qüvvələr vasitəsi ilə həbs edilib Osmanlı tərəfinə təhvil verilsin. Şahzadə Ba-

yəzidin həbs ediləcəyi təqdirdə onun gətirilməsi üçün mərkəzdən xüsusi dəstə də göndəriləcəyi bəyan edilirdi. Osmanlı sultanı yazdığı məktubu Sinan paşa ilə göndərdiyini də Şah Təhmasibin nəzərinə çatdırırdı (40).

Şahzadə Səlimin  məktubu belə başlayırdı:

“Təhmasib Şah.

Ali mənqəbat, məali-rütbət, Dara həşmət, Firudin şövkət, dursir-rayət, Cəmşid ayət, übüvvət məab, fütüvvət-nisab, sələnət ayab, dövlət-intisab, izzəti-iqtsab, maliki-məmaliki-Əcəm, vahibi-məvahibi-kərəm, la-zalə mənsuran, biəvnillahi və mənzuran bieynillahi və vüfudi-qəvəfili-devati-sadiqati-salihat, icabəti-ayat və cünudi-nıvafili-təhiyyati-vəsiqəti-alisat...” (41).

Şahzadə Səlim də daha sonra onunla qardaşı arasında baş verənlərə toxunur, Şahzadə Bayəzidin itaətsizlik və asilik yolunu tutduğunu, buna görə də onlar arasında döyüş baş verdiyini yazırdı. Məktubun məzmunu ondan ibarət idi ki, Şah Təhmasib Səfəvi hüdudlarına sığınmış Şahzadə Bəyazidi həbs edərək Osmanlı tərəfinə təhvil versin.

Osmanlı saray vəziri Sokullu Mehmet paşanın da Şahzadə Bayəzidin qaytarılması ilə bağlı Şah Təhmasibə məktub göndərdiyi məlumdur. Bu məktubunda Osmanlı vəziri də baş verənlər haqqında qısaca məlumat verir, Şahzadə Bayəzidin ətrafına topladığı qüvvələrlə Osmanlı sultanına asilik etdiyi, sultanın nəsihətlərinə qulaq asmayaraq hərb yolunu tutduğunu, Konya üzərinə qoşun çəkdiyini və uğursuzluğa düçar olaraq geri çəkildiyini yazırdı. Sokullu Mehmet paşa Şahzadə Bayəzidin artıq Səfəvi hüdudları daxilinə gəlməsindən xəbər alındığını və yalnız iki dövlət arasında sülh anlaşması olduğu üçün Şahzadə Bayəzidin təqibi məqsədi ilə Səfəvi hüdudlarına müdaxilə edilmədiyini bildirirdi. Ona görə də, Osmanlı vəziri Şahzadə Bayəzidin tutularaq təhvil verilməsi istənilirdi (42).

Osmanlı elçilərinin Qəzvinə yetişməsi Şahzadə Bayəzidin həmin şəhərə gəlməsindən sonrakı günlərə təsadüf edir. Şah Təhmasibin yuxarıdakı qeydlərində isə həmin elçilərin Şahzadə Bayəziddən əvvəl Qəzvinə gəldikləri aydın olur. Şah Təhmasibə

görə, həmin elçilərin Qəzvinə yetişməsi hələ Təbrizdə olan Şahzadə Bayəzid tərəfindən də narahatçılıqla qarşılanmış və Səfəvi şahından onların söylədiklərinə inanmamağı xahiş etmişdi. Osmanlı elçiləri ilə bağlı öz təəssüratlarını Şah Təhmasib belə yazırdı: "O (Bayəzid), belə bir sifariş göndərmişdi: elə olmasın ki, mən gəlməzdən qabaq Şah [Təhmasib Xandigarın] elçiləri ilə görüşsün və məbada Duraq [Turağ] paşa şahı aldatsın. Mən dedim:

-O boş danışır.

Sultan Bayəzid mənə sifarişlər göndərib, təklif edirdi ki, mən elçiləri təqsirləndirib cavab verim ki, üç dəfə biz Xandigarın yanına kiçik hədiyyələrlə olsa da elçi göndərdik. Buna baxmayaraq, Həzrət Xandigar bizim elçilərə xoş üz göstərmədi.

Əlqas bizim yanımızdan qaçıb Xandigarın yanına gedəndə Xandigar Əlqasın sözünə baxıb üzərimizə basqın etdi. Lakin biz Sultan Bayəzidin sözü ilə yerimizdən əsla tərpənmədik. Beləliklə, hörmət və ədəb qaydalarına riayət etdik. Düzdür, bizim əlimizdən elə bir böyük iş gəlməzdi. Ancaq biz də gedib onun bəzi vilayətlərini viran edə bilərdik. O zaman Xandigar İstanbulda olduğu üçün biz də Ərzincanı, Diyarbəkri, Ərzrumu və Van qalasını elə viran edə bilərdik ki, onlarda abadlığın izi qalmazdı. Sonra Əlqas bizim yanımıza gəldi, biz barışdıq, pislik etmək qərarına gəlmədik. Sultan Bayəzid Qəzvinə gəldikdən sonra təkid edirdi ki, Əlqas oraya getdikdən sonra Xandigar onun xatirinə qoşun çəkib Təbrizə gəldiyi halda, siz nə üçün nəyi isə nəzərə alır və mənə kömək etmirsiniz. O, təklif edib deyirdi:

-Mənim iki oğlum Sizin yanınızda girov qalsın. Siz onlarla birlikdə Ərzruma gedin. Mən qalan iki oğlumla Bağdada gedərəm.

Mən cavab olaraq Bayəzidə dedim:

-Xandigar Əlqasın sözünə baxaraq, bizim üzərimizə basqın etməkdə çox pis iş görmüş oldu. Biz bunu həmişə Xandigar üçün nöqsan hesab edib deyirik ki, o, Rüstəm paşanın sözünə baxıb yüngüllük eylədi. Həmin nöqsan hesab etdiyimiz işi biz etməməliyik. Yaxşısı budur ki, adam göndərək və xahiş edək səni ba-

ğışlasın. Əgər hökm olarsa ki, sənin adamlarını saxlayaq və ya da göndərək, onda yenə də adam göndərib xahiş edərik ki, sənin günahından keçsin və mərhəmət göstərsin. Öz özlüyümdə isə deyirdim ki, bu adam öz böyüyünün sözünə baxmır. "Quran" ayələri və dini hədislərə əsasən vacib sayılan ata-ana hüququna riayət etmir. Cəbrayıl – ona salam olsun – peyğəmbər həzrətlərinə bu barədə təkid edərək deyirdi ki, ata-ana hörmətini saxlamayan adama Allah rəhm etməz.

Bir də ki, mən Xandigar ilə barışıq etmişəm. Bayəzid isə öz atası və böyüyü ilə müxalifət edir. Belə olduqda mən ona yardım edə bilərəmmi?

Sultan Bayəzidin pis iş və ağılsızlıqlarından biri də budur ki, o, mənə sığındığı halda öz məktubunda mənə Şah Təhmasib deyə müraciət etmişdir. Halbuki, Sultan Səlim həzrətləri yad olsa da, mənə ata deyə müraciət edib, hər cür hörmət göstərir. Buradan mənə bəlli oldu ki, bu adam çox ağılsızdır. ...O özü axmaqdır, bəs bu mənə layiqmidir ki, mən də nadan olub, ona qoşulum?" (43).

Şah Təhmasibin Şahzadə Bayəzidə göndərdiyi məktubunda ona ata deyərək müraciət olunduğu, bunun əvəzində isə Səfəvi şahının onu oğlu kimi qəbul etməsi yazılmışdır (44). Şahzadə Səlim isə öz məktubunda, yuxarıdakı istinaddan göründüyü kimi, Səfəvi şahına "Təhmasib şah" deyə müraciət etmişdi. Belə olan halda Şah Təhmasibin Şahzadə Bayəzidi bu məsələdə ittihamlandırılması başa düşülən deyil. Çox güman ki, burada fikir qarışıqlığına yol verilmişdir.

Şah Təhmasib Osmanlı şahzadəsi məsələsində kifayət qədər müdriklik göstərdi, sultanla şahzadə arasındakı münasibətlərin yaxşılaşması və Şahzadə Bayəzidin bağışlanması üçün əvvəlcə vasitəçilik etməyi məqsədəuyğun saydı. İki dövlət arasında xoş münasibətlərin yaranmasına görə Şahzadə Bayəzid ümid edirdi ki, onun vasitəçiliyi Sultan Süleyman tərəfindən qəbul oluna bilər. Şah Təhmasibin Şahzadə Bayəzidin xilas edilməsi üçün göstərdiyi vasitəçilik cəhdi öz əksini mənbələrdən birində belə tapmışdır: "[Sinan bəy Şah Təhmasibin hüzurunda] əhdü-peymanın davamlılığından danışdıqdan və dostcasına söhbətləşdik-

dən sonra Sultan Bayəzid barəsində qəti dəlillər və əsaslar üzərində dolğun bir söhbət apardı. [Sultan Süleyman Sinan bəy vasitəsilə göndərdiyi] məktubun haşiyəsində öz xətti ilə yazmışdı: «Onu (Bayəzidi) tutub, tərəfimizdən göndərilən adamlara təhvil verərsiniz. Əgər onu sağ-salamat ələ vermək şərəfli könlünüzə yatmırsa, onda onun fitnə və bezikdirmə çırağı olub cahanı seyr edən gözlərini görmə nurundan məhrum ediniz». Bu cür rəftarın comərdlik və mürvət yolundan uzaq olduğunu hesab edən cənnət məskənli şah həzrətləri Sinan bəyə xoş üz göstərərək, yenidən [Osmanlı sarayına] şirin dilli  adamlar və yaxşı nitq qabiliyyətinə malik elçilər göndərib, [Sultan Süleymandan] artıq dərəcədə xahiş etdi ki, [Sultan Bayəzidə] iqta olaraq bir mahal verilsin, o gedib orada məskunlaşsın və əgər bundan sonra onun tərəfindən ədəbsiz hərəkətlər üz verərsə, onda şərəfli xatirinizdə onun barəsində hər nə fikir varsa, onu orada icra etmək çətin olmaz” (45).

Sultan elçiləri Şah Təhmasib tərəfindən ehtiramla qarşılandı və onlara qarşı yüksək qonaqpərvərlik nümayiş etdirildi. Amma Şah Təhmasib onların gətirdiyi məktublardakı xahişləri icra etmədi və qərarlaşdırdığı vasitəçiliyi etmək üçün həm Sultan Süleymana, həm də Şahzadə Səlimə məktub yazıb göndərdi. Bu məktubların çatdırılması üçün də nüfuzlu əyanlar və əmirlər seçildi. “Dinin pənahı olan şah onun günahını əfv etdirməyə təşəbbüs göstərərək Ağcasaqqal Əli ağa Qacarı xondgarın yanından gəlmiş Sinan bəylə birlikdə Sultan Süleymanın hüzuruna göndərdi. Ərəştə ağa Zülqədəri isə Duraq [Turağ]bəyin müşayiəti ilə Sultan Səlimin hüzuruna yolladı. [Şahın] ismarışının məğzi bu idi ki, “bundan sonra sizinlə Sultan Bayəzid arasında uzlaşmanın baş verməsini, sədaqətin təməlinin möhkəmlənməsini və hər iki tərəfin könül aynasının düşmənçilik rəngindən arınmasını istəyirəm” (46).

Şah Təhmasibin elçilərinin Osmanlı sarayına gəlməsi və Sultan Süleyman tərəfindən bu elçilərin necə qarşılanması haqqında türkdilli mənbələrdən birində belə yazılmışdır: “Bunlar uca səltənət qapısına gəldilər. Gələn kimi cahan padşahının hüzuruna daxil oldular və qoca yeri öpdükdən sonra Sultan Süleymana ya-

zılan naməni ədəblə verdilər. Əlindən alıb başdan-başa oxudular. Namənin içində yazılanlar bu şəkildə ifadə olunmuşdur: "Şahzadə Sultan Bayəzid, bilgisiz cahil və atalıq hüququndan və qardaşlıq günəşinin müsaidəsindən qafil və ağılsız olmaqla, gördüyü pis işlərin səfehliyinin nəhayətsiz olduğuna biz də məlumat almışıq. Ancaq padşahın qəzəbindən qorxuya düşüb, o zamanlar üzərinə hücum edən ucu-bucağı olmayan əsgərdən halını eynən müşahidə edərək zəruri olaraq qaçıb aramızda dostluq rabitəsi sağlam bir şəkildə olduğuna etimad və etiqad etməklə, günahlarına üzr istəyən olub şəfaət ümidi ilə müxlisiniz yaxına gəlib, pis düşüncəli və zərərinizi istəyənlərin yanına getmədi. Artıq o, gördüyü işləri və pis nəticələrə layiq olan cəzasını alıb. Bağışlayan Allah yanında ən xeyirli iş, gücü çatdığında əfv etmək və qəzəb vaxtında həlim olmaqdır. Yeddi iqlimin xudavəndigarı "adamlarımızı qeydü bənd ilə təslim edəsən" – deyə fərman buyurmuşdur. Amma belə bir söz mənə və əcdadıma heç bir şəkildə deyilməmişdi. İndi bu zor müşkilin hasili, yəni şahzadə Bayəzid xanın sizə ulaşması gözəl bir şəkildə mümkün və müyəssər ikən, əli bağlı və ciyəri dağlı göndərməyə, bu mərtəbə namərdliyə qeyrət edə bilmərəm. Hətta mənalarla dolu namənizi özünə oxunduqda, qəbahətinə peşimanlıq göstərib göz yaşı ilə saysız yalvarmalarda oldu. "Əgər mənim günahlarımın əfvini istəməkdən qabaq o tərəfə göndərsəniz padşah həzrətlərinin atəşi parlayaraq, mərhum böyük qardaşım Sultan Mustafa kimi məni qətl etməsi aydındır" – deməkdədir. Mərhəmət və şəfaqət mülahizəsiylə fələyin padşahı olan Sultan Süleyman həzrətlərindən rica və iltimas olunan budur ki, hələ üsyan dəryasına dalmış olan Sultan Bayəzidin günahlarını tayı olmayan bu dostlarına bağışlasınlar. Şahzadənin xatirinə güvən gəlməsi üçün səadət nişanlı bir mənşur yazılaraq sizə bağlı olan tərəfimə göndərsinlər. Ta ki, iki tərəfin namus və dövlətinə layiq olduğu üzrə xidmətlər əda oluna" (47).

Bu mətnin öz əksini tapdığı mənbə müəllifi sonra İbrahim Əfəndi Peçeviyə istinad edərək bəzi maraq doğuracaq detallara da yer vermişdir. Onun yazdığına görə, Şah Təhmasib şifahi şəkildə Osmanlı sultanından xahiş etmişdi ki, Şahzadə Bayəzidi

bağışlamaqla Bağdadın hakimliyini ona versin. Guya Şah Təhmasib onu da əlavə edibmiş ki, əgər Bağdad Şahzadə Bayəzidə verilməzsə onda elə Səfəvi şahına ehsan edilsin (48).

Qeyd edilməlidir ki, mənbə müəllifləri bu məlumatın doğruluğuna yəqinlik vermirlər və əslində, bu məlumat şayiə xarakteri daşımaqdadır. İstər Səfəvi mənbələrində, istərsə də Şah Təhmasibin yazışmalarında belə bir məlumatın mövcudluğuna rast gəlmək mümkün deyil. Heç Şah Təhmasibin bu məsələ ilə bağlı yazışmalarında da belə bir məntiq izlənilmir.

Şah Təhmasibin Osmanlı sultanına yazdığı məktubun tam mətni hazırda elmi-tarixi dövriyyədə mövcuddur. Bu məktub kifayət qədər müfəssəl bir məktubdur və onun mətni heç də yuxarıda verilən tərcümədən ibarət deyildir. Həmin məktub Şah Təhmasibin ənənəvi üslubunda yazılıb və mətnin daxilində 12 yerdə nəzm parçası işlədilibdir. Məktubun əvvəlində Osmanlı sultanın vəsfinə böyük yer ayrılıb və Səfəvi dövləti adından ona hörmət və ehtiram ifadə olunubdur. Onun geniş vəsfi ilə Şah Təhmasib həm də iki dövlət arasında əldə edilmiş sülh razılaşmasına hörmətlə yanaşdığını nümayiş etdirməyə çalışmışdı. Ərdəhan hakimi Sinan bəy tərəfindən sultan məktubunun ona çatdırılmasına və bu məktubun yaratdığı məmnunluğa da Şah Təhmasib məktubunda xeyli yer ayırmışdı. Bunlardan sonra Şah Təhmasib nəhayət ki, Şahzadə Bayəzidlə bağlı olan fikirlərinin ifadəsinə başlayır. O yazırdı ki, Şahzadə Bayəzid öz cavanlığı, nadanlığı, cəhaləti və təcrübəsizliyi üzündən ədəbsizliyə və günahlara yol vermişdir. Onun sözlərinə görə, sultanın məktubu onun da hüzurunda oxundu və məlum oldu ki, yol verdiyi xətalara görə onun tutularaq Şahzadə Səlimə təhvil verilməsi tələb olunur. Şah Təhmasib bu məktubun oxunmasından sonra Şahzadə Bayəzidin keçirdiyi hisslərə də toxunurdu. Onun fikrincə, Osmanlı hüdudları daxilində olarkən o, atasının qəzəbindən çox qorxuya düşübmüş və başına gələnlərdən sonra nicat üçün Səfəvi hüduduna gəlmişdi. Şah Təhmasibə görə, iki dövlət arasında xoş münasibətlərin olmasına görə, Şahzadə Bayəzid də nicatını Səfəvi hüdudlarında axtarmağa çalışırdı. Şah Təhmasibin yazdığından o da məlum

olur ki, Osmanlı şahzadəsi Qəzvinə gəldikdən sonra onlar arasında dəfələrlə görüşlər olmuşdu və bu görüşlərdə Şahzadə Bayəzidlə bağlı baş verənlər müzakirə edilmişdi. Bu müzakirələr zamanı Şahzadə Bayəzid də baş verənlərdən peşmançılığını bəyan etmiş və mövcud vəziyyətin aradan qalxmasını istəmişdi. Şahzadə Bayəzid bildirmişdi ki, onun haqqında Sultan Süleymana çoxlu doğru olmayan məlumatlar çatdırılmış və bu da Sultan Süleymanın onun haqqında münasibətinin dəyişməsinə yol açmışdı. Şahzadə Bayəzid Səfəvi şahından da xahiş etmişdi ki, onun bağışlanması haqqında Sultan Süleymana müraciət etsin. Osmanlı şahzadəsi şübhə etmirdi ki, əgər o, dərhal Osmanlı sarayına təhvil verilsə onda o da qardaşı Sultan Mustafa kimi qətlə yetiriləcəkdir. Şahzadə Bayəzidə görə belə olardısa, onda onun qanı Səfəvi şahının üzərində qalacaqdı. Yəni Şahzadə Bayəzid istəyirdi ki, Şah Təhmasib onu təhvil verməzdən əvvəl bağışlanması haqqında Osmanlı sultanına müraciət etsin və ümid edirdi ki, bu müraciətdən sonra Osmanlı sultanı onu bağışlayacaqdır. Şah Təhmasib əvvəllər də belə xətalara yol vermiş insanların bağışlandığını və bu ənənənin indi də davam etdiriləcəyinə ümid etdiyini bildirirdi. Ona görə də Səfəvi şahı Şahzadə Bayəzidin bağışlanması ilə bağlı Osmanlı sultanına müraciət etdiyini bildirirdi. Bu müraciətindən sonra da Şah Təhmasib məktubunda böyük bir nəzm parçası verirdi və həmin nəzm parçasında da Sultan Süleymandan şəfaət və lütf göstərməsi, oğlunun bağışlanması xahiş olunurdu. Şah Təhmasib xahiş edirdi ki, əgər Şahzadə Bayəzidin günahları böyük olsa belə, Sultan Süleyman padşahlıq kərəmi göstərsin və onun təqsirlərindən keçsin. O da bildirilirdi ki, Şahzadə Bayəzid hərəkətlərindən peşimançılıq duyur və baş verənlərə görə tövbə də etmişdir. Məktubda o da xahiş olunurdu ki, Sultan Süleyman tərəfindən oğlunun bağışlanması barəsində bir məktub göndərilsin və Şahzadə Bayəzid də bundan sonra arxayınlaşsın (49).

O da qeyd edilməlidir ki, Osmanlı sarayı yalnız Şahzadə Bayəzidi tələb etməklə kifayətlənmirdi. Osmanlı sarayı tərəfindən həm də Şahzadə Bayəzidin qətl edilməsi ilə bağlı da müəyyən

işlər görülürdü. Bununla bağlı Səfəvi hüdudlarına xüsusi adamlar göndərilmişdi ki, onlar Şahzadə Bayəzidi taparaq onu qətlə yetirsinlər. Bu adamların bir dəstəsi Ayaz paşa tərəfindən göndərilmişdi. Bu xəfiyyələrin Səfəvi ərazisindəki fəaliyyəti ilə bağlı Ayaz paşanın saraya göndərdiyi məlumatda bildirilirdi ki, Şahzadə Bayəzidin qətlinə nail olunması üçün əvvəlcə 10 nəfər göndərilmişdir. Sonradan daha 10 nəfər xəfiyyə seçilərək Səfəvi ərazisinə göndərildi ki, nəhayət onların səyləri ilə Şahzadə Bayəzidin qətlinə nail olunsun (50). Bu məktub yalnız xəfiyyələrin göndərilməsi haqqında idi. Onların fəaliyyətinin nəticəsi barəsində isə bir xəbər yox idi. Tarixdən də məlumdur ki, Osmanlıdan göndərilən xəfiyyələr Şahzadə Bayəzidin qətlində bir nəticə əldə edə bilməmişdilər.

Şah Təhmasibin məktubunu aparan elçilər geri Sultan Süleymanın Səfəvi şahına yazdığı cavabla döndülər. Bu məktubda da əvvəlcə Səfəvi şahı uzun-uzadı vəsf edilirdi və Şahzadə Bayəzidin əməlləri barəsində məlumat verilirdi. Sultan Süleyman əvvəlcə Konyada Şahzadə Səlimin rəhbərliyi altında olan sultan qoşunları ilə Şahzadə Bayəzidin ətrafına toplanmış qoşunlar arasında baş verən döyüşə toxunurdu. Osmanlı sultanı bu döyüşdə Şahzadə Bayəzidin uğursuzluğa düçar olduğunu, ətrafında toplanmış olan qoşunların qırılmasından sonra onun özünün hakimi olduğu Amasiya sancağına qaçdığını bildirirdi. Onun sözlərinə görə, bu döyüşdən sonra vəziyyət normallaşa bilərdi. Bunun üçün Şahzadə Bayəziddən tələb olunmuşdu ki, yanında olan təhrikçilər qətl edilsin və özü də müxalifətçilik yolundan əl çəksin. Amma bu baş vermədi və nəticədə vəziyyət daha da mürəkkəbləşdi. Sultan Süleyman onu da yazırdı ki, Şahzadə Bayəzid özünün günahsızlığı görüntüsünü yaratmaq üçün ətrafında olanlardan üç nəfəri qətlə yetirərək onların başlarını Osmanlı sarayına göndərdi. Həqiqətdə isə Şahzadə Bayəzid öz müxalifətçiliyindən əl çəkməmiş və ətrafına mərkəzi hakimiyyətə müxalif olan 10 min nəfərlik bir qüvvə toplamışdı. Yəni məlum oldu ki, Şahzadə Bayəzid hakimiyyət iddialarından əl çəkməyib və bu iddianın həyata keçirilməsi üçün əməli hazırlıqlar da görməkdədir. Belə

olanda onun zərərsizləşdirilməsi qərara alındı və üzərinə qoşun dəstəsi göndərildi. Osmanlı sultanı yazırdı ki, Şahzadə Bayəzid bu qoşun dəstəsinin qarşısında duruş gətirə bilmədi və şərq diyarına tərəf irəliləməyə başladı. Bütün bunlardan sonra Sultan Süleyman Səfəvi şahının xahişinə cavab verməyə çalışırdı və bildirirdi ki, Şahzadə Bayəzid öz müxalifətçiliyi və iddiaları ilə çoxlu sayda insanın qətlinə səbəb olub. Ona görə o, törətdiyi əməllərin cəzasına çatmalıdır. Amma Səfəvi şahının xahişinə cavab olaraq onu da bildirirdi ki, Şahzadə Bayəzidin əfv olunması və bağışlanması da mümkündür. Bunun üçün Şahzadə Bayəzid müqəddəs kəlamları dilinin əzbəri etməli, etdiyi günahlara görə tövbə etməli və düz yola qayıtmalıdır. Sonra Sultan Süleyman oğlunun əfv olunması üçün bəzi tələbləri də irəli sürürdü. O tələb edirdi ki, Şahzadə Bayəzid onun yanında olan, təhrikçiliyi və fitnə-fəsadı ilə tanınan Fərrux Əbdülqəni oğlunu, Dursunu, Ağsaq Seyfəddini qətlə yetirsin. Bundan sonra Şahzadə Bayəzid övladları və ətrafındakı yaxşı insanlarla sərhədə gəlməli və beləliklə, təslim olmalı idi. Sultan Süleyman bildirirdi ki, əgər Şahzadə Bayəzid bu nəsihətləri qəbul etsə, müxalifətdə olanlardan uzaqlaşsa və deyilən sözləri qəbul etsə onda bu barədə xəbər etsin. Bundan sonra Osmanlı sarayı tərəfindən onun sərhəddə qarşılanmasına bir bəylərbəyi və nüfuzlu adamlar göndərilə bilərdi. Bağışlandığı təqdirdə Şahzadə Bayəzidin yenidən Amasiyaya dönməsi də mümkün sayılırdı. (51).

Məktubdan göründüyü kimi, Sultan Süleyman Səfəvi şahının təklifini qəbul etdi. Bu razılığın nə dərəcədə səmimi olduğunu söyləmək çətindir. Çünki Sultan Süleymanla Şahzadə Bayəzid arasındakı münaqişənin kökləri xeyli dərinlərə getmişdi və görünən odur ki, Şahzadə Bayəzid atasının onu bağışlaması xəbərini heç də arxayınçılıqla qarşılamadı. Çox güman ki, Şahzadə Bayəzid geri qayıdacağı təqdirdə onun salamat buraxılmayacağına şübhə etmirdi. Ona görə də Şahzadə Bayəzid həyatının daha əminlik içində olması üçün başqa yollar da aramağa başlamışdı. Bu barədə Şah Təhmasibin təzkirəsində də bəzi qeydlər var idi.

## 4. Şahzadə Bayəzidin Şah Təhmasibə qarşı sui-qəsd cəhdi və onun həbsə alınması

Şahzadə Bayəzid Səfəvi sarayında sadəcə qonaq və ya bu saraya sığınmış birisi deyildi. O eyni zamanda Səfəvi şahının girovu idi və Səfəvi şahının izni olmadan onun hara isə yollanmasına icazə verilməzdi. Ona görə də Şahzadə Bayəzid gizli şəkildə Səfəvi hüdudlarını tərk etmək və bununla da Sultan Süleyman təhlükəsindən birdəfəlik yaxa qurtarmaq istəyirdi. Öz elçilərini məktubla Osmanlı sarayına göndərdiyini xatırladandan sonra Şah Təhmasib təzkirəsində belə yazırdı: “Bayəzidi də dilə tutub saxladım. Çünki [Bayəzid] istəyirdi ki, sərhəd əyalətlərinin əmirlərinə, məsələn: Xorasan, Herat, Qəndəhar, Sistan, Şiraz, Kirman, Gilan, Mazandaran əmirlərinə sovqatlar göndərsin. Fərrux bəyə də demişdi ki, Gilana gedərik, Ustad Zeytunun sazını dinləyək və onunla bir qədər saz çalmaq istəyirəm. Bu zaman öz ağalarına əmrlər və töhfələr verib, əmirlər üçün vilayətlərə göndərdi. Fərrux bəy Gilana getdi. O xatırlamışdı ki, bir gün 5-6 min nəfər ilə ov etmək adı ilə şəhərdən çıxıb qaçaram. Onlar ancaq bir gündən sonra xəbər tutacaqlar. Bizim dalımızca gəlsələr də, bizə çata bilməzlər. Axırı budur ki, onlar bizim adamlardan ancaq atları yorulanları tuta bilərlər. Buna baxmayaraq mən yenə də özümü bir-iki min nəfər ilə türkmanların arasına sala bilərəm. Oradan da gəmiyə minib gizlincə Hacıtərxan və Qazan ətrafına gedib rus çarı yanına adam göndərib ona deyərəm ki, mən Xandigarın düşməniyəm. Beləliklə də, rus çarından kömək alaraq, çərkəzləri özümə nökər edib, orada qalaram. Noqay, çərkəz və Krım əhalisini də özümə tabe edərəm. Sonra isə ruslardan kömək alaraq Xandigarın ölkəsinə istədiyim yerə gedər, oranı qarət edərik. Xandigar bizim üstümüzə qoşun yeritmək istədikdə çölə çəkilərik. O bizə heç nə edə bilməz” (52).

Bu məlumatdan belə bir qənaətə gəlmək olur ki, Şahzadə Bayəzid Rusiyaya qaçmağı planlaşdırırmış. O belə güman edirdi ki, Rusiya ərazisinə keçə bilsə özünün təhlükəsizliyini daha etibarlı şəkildə təmin edə bilər. Rusiyaya qaçmaq üçün isə o, Şah

Təhmasibin yazdığına görə, Gilan hakimi Xan Əhmədlə müəyyən əlaqələr yarada bilmişdi. Xan Əhməd Səfəvi hakimiyyətindən qopmaq üçün yollar arayırdı və mövcud məlumatlara görə, Gilan daxilində də öz bildiyi kimi idarəçilik edirdi. Yəni Səfəvi hakimiyyətindən narazılıq Şahzadə Bayəzidlə Xan Əhməd arasında əməkdaşlıq imkanları açırdı və Osmanlı şahzadəsi də bundan istifadə etməyə çalışırdı. Gilandan isə Şahzadə Bayəzid Rusiyaya qaçmaq üçün əlverişli məqam əldə edə bilərdi. Xan Əhmədlə əməkdaşlıq qurulması üçün Şahzadə Bayəzid  Fərrux bəy adlanan əmirlərindən birini də onun yanına göndərmişdi. Fərrux bəylə Xan Əhməd arasında danışıqlar və müzakirələr aparılmış və Şah Təhmasibin yazdığına görə, onlar arasında bir anlaşma da əldə edilmişdi (53).

Amma Şah Təhmasibin yazdığına görə, Şahzadə Bayəzid başqa fikirlərə də düşmüşdü. Belə ki, o, Şah Təhmasibin özünü də aradan götürmək planları hazırlayırmış. Şah Təhmasib bu məsələ ilə bağlı öz fikrini belə davam etdirirdi: “Qara Uğurlu Mustafa və Məhəmməd Çərkəz bu əhvalatı eşidib, müəyyən edirlər ki, nə isə bir qəsd hazırlanır və Həsən bəyə deyirlər ki, sözümüz var, istəyirik şaha ərz edək. Həsən bəy öhdəsinə götürür ki, onları mənim yanıma gətirsin və onlar öz sözlərini desinlər. Sultan Bayəzid məsələni başa düşüb onların hamısını qonaqlığa çağırtdırıb öldürür. Bir neçə gündən sonra Həsən bəy onların öldürülməsindən xəbər tutub, əhvalatı mənə dedi; fürsəti əldən verdik. Bu əhvalatı gizli saxladım və Həsən bəyə dedim ki, sən də bu barədə bir söz danışma. Bir neçə gündən sonra Məhəmməd Ərəb Mazandarandan gəldi. Bir gün Qəzvinin Cənnət bağındakı qonaqlıqda Məhəmməd Ərəb xəlvətcə mənim yanıma gəldi və dedi ki, deyiləsi sözüm var, istəyirəm deyim. Dedim:

-Mən Divanxanaya gedəndən sonra gəl danış.

Dedi:

-Qorxuram ki, fitnə baş verə və gec ola, fürsəti əldən verdikdən sonra nə faydası var.

Sultan Bayəzid özüylə bərabər Rumdan gətirdiyi halvaçını çağırdım. Xəlvətcə mənə söylədi ki halvaya bir şey daxil ediblər,

mənə və bütün əmirlərə yeməyə verəcəklər. Mən halvaçıya bir hədiyyə vermək qərarına gəldim.

Məclisə gəlib özümü xəstəliyə vurdum və məclis əhlinin başını qarışdırıb qusmaq istədiyimi bəhanə edib ləyən istədim və qalxdım. Üşüdüb-titrədiyimi bildirib özünü hərəmxanaya saldım, əmirlərin yanına gizlicə adam göndərdim ki, məclisi dağıtsınlar. O gün məclis dağıldı. Adam göndərdim, o halvadan bir qədər gətirtdirdim və saxladım.

Sultan Bayəzid başa düşür ki, [Məhəmməd] Ərəb onun fikirlərindən xəbərdar olub və mənə  demişdir. O gecə onu çağıraraq gizlicə öldürürlər.

Əli ağa Səgsənbaşı Məhəmməd Ərəblə birlikdə idi, bilirdi ki, iş nə yerdədir. Sultan Bayəzid o gecə qaçmaq istədiyi üçün həyəcanlı və fikirli idi. Məni xəbərdar etdilər ki, onların fikir və xəyalları budur ki, sabah gecə aradan çıxsınlar.

Quduz Fərhad da gəlib dedi ki, sabah gecə istəyirlər Gilana tərəf qaçıb Astrabada getsinlər. Bütün hadisələri təhqiq edib ətraflı düşündüm və ağıllıların söylədiyi aşağıdakı beytdəki nəticəyə gəldim.

Beyt

Pis [adamlara] yaxşılığın [sonu] belədir
Ki, comərdlərə yaxşılıq əvəzinə pislik etməz.

Amma həmin gün əmirləri xəlvətcə çağırıb tapşırdım ki, hər tayfadan şücaətli adamlardan bir dəstə seçib silahlı halda bağda gizlicə saxlasınlar və paltarlarının altından zireh geyinsinlər, hazır olsunlar. Həmin gün Bəhram Mirzənin oğlanlarının kəbinkəsmə mərasimi bəhanəsilə Sultan Bayəzidi onun ağaları ilə məclisə çağırtdırıb, tutdum. Bu işdə onunla müvafiq olanların günahını onların üzlərinə söyləyib öldürtdüm. Bəzilərinə is bizə yedirtmək üçün hazırladıqları halvadan yedirtdim. Onların bəziləri bir gündən sonra, bəziləri isə həmin günü və gecəsi şişib həlak oldular.

[Bayəzidə] dedim:

-Əhsən, mən sənə nə pislik etmişdim? Mənim günahım bu idi ki, istəyirdim fitnə və çaxnaşmaya son qoyulsun. Aranızda xe-

yirxahlıqla barışıq və sülh bərqərar etdim. Yaxud yenidən həzrət Xandigarın məsləhəti ilə sənə Qəndəhar sərhəddində vilayət verim. Necə ki, Humayun padşahla rəftar etmişdim, səninlə də etdim. Sənin arzu və niyyətin isə başqa bir şey imiş.

Onu həbs etdim. Onun camaatından bəzilərini soyundurub (yəni silahlarını alıb) icazə verdim ki, hara istəyirlərsə getsinlər. Ondan sonra mənə bu hadisə üz verdi.

Bu tarixdə Əli ağa Xandigarın yanından gəldi. Əmirlər və camaatın göndərdikləri hədiyyələr müqabilində bizdən başqa onların hər birinə layiqli hədiyyələr gətirdi. Bizim hədiyyə və töhfəmiz lazımi dərəcədə qəbul olunub qiymətləndirilməmişdi və başdan-ayağa kinayə və giley-güzarla dolu bir məktub yazmışdılar.

Mən dedim:

-[Məsələ] belədir ki, Sultan Bayəzidi dörd oğlu ilə tutub həzrət Xandigar və Səlim xanın xatirinə saxlamışdım. Sultan Bayəzidi Xandigara verməyəcəyinə söz verdiyim üçün onları göndərməyin təxirə salınmasının səbəbi budur ki, xandigarın göstərişi çatsın, həzrət Sultan Səlimin göndərdiyi adamlara təslim edim ki, içdiyim andı pozmayım.

Həzrəti-Xandigarın göndərdiyi adamlar gəldilər. Onlara buyurdum ki, paşa həzrətləri və Həsən ağa, siz xoş gəlib, səfa gətirmisiniz. Həzrət Xandigar nə buyursa, mən də elə edərəm. Onun hökm və göstərişlərindən kənara çıxmaram. Nə qulluğu olsa, yerinə yetirərik. Ancaq belə bir dəyərli xidmətlərimiz üçün həzrət Xandigar və Səlim xandan onlara layiq mükafat istəyirəm. Dostluq aləmində xandigardan xahiş edirəm ki, Sultan Bayəzid və uşaqlarına əziyyət yetişməsin" (53a).

Bu fikirlə Şah Təhmasibin təzkirəsi də tamamlanırdı və göründüyü kimi təzkirəsinin sonunda da əməllərinə baxmayaraq Səfəvi şahı yenə də Sultan Bayəzidə atası tərəfindən ciddi cəza verilməməsinin tərəfdarı idi. Bununla belə, Şah Təhmasibə Sultan Bayəzid tərəfindən sədaqətsizlik göstərilməsi və hətta onun qətlə yetirilməsi kimi bir qərar verilməsi son nəticədə Sultan Bayəzidin özünü faciəsinə yol açdı. Məsələn, "Rövzətüs səfə-

viyye" əsərində Şahzadə Bayəzidə Qəzvində göstərilən yüksək qonaqpərvərlikdən sonra onun belə bir fikrə düşməsi təəssüflə xatırlanır. Bu əsərdə bildirilir ki, göstərilən xeyirxahlığa baxmayaraq, Şahzadə Bayəzid savab yolundan çıxdı, bir gecə məclis təşkil edərək yaxınlarını ətrafına topladı və onların da təhriki ilə səhv addım atdı. Belə ki, bu məclisdə fürsət yaranan kimi şahın öldürülməsi və bundan sonra Osmanlı hüdudlarına geri dönülməsi haqqında qərar qəbul edildi. Adı çəkilən mənbədəki məlumata görə, Mustafa bəy Nişançı və Uğurlu Məhəmməd Çərkəs planlaşdırılan fitnə barəsində Həsən bəy yüzbaşıya məlumat çatdırdılar. O isə bu barədə şaha məlumat verdi. Sultan Bayəzid onun məkrinin faş olması ehtimalından xəbər tutan kimi, Mustafa bəy Nişançı ilə Uğurlu Məhəmməd Çərkəsi yanına çağırdı və onları qətlə yetirdi. Bununla belə, Şah Təhmasibə qarşı planlaşdırılan məkrli planı həyata keçirmək mümkün olmadı. Tezliklə həm Şahzadə Bayəzid və həm də onun övladları həbs edildilər. Şahzadə Bayəzidi məkrli planın icrasına təhrik edən bəzi yaxınları dərhal qətlə yetirdi. Onun özü və övladları isə həbsə alındı və bu barədə Osmanlı sarayına da məlumat göndərildi. Haqqında danışılan mənbənin məlumatına görə, Şahzadə Bayəzidin həbs olunan övladlarının hər biri mühafizə olunmaq üçün bir əmirə tapşırıldı. Belə ki, onun böyük oğlu Orxan qorunmaq üçün Həsən bəy Yüzbaşıya, digər oğlu Sultan Mahmud da Seyid Məsum xan Şixavəndə, Sultan Məhəmməd adlı üçüncü oğlu Qorçubaşıya və nəhayət Sultan Abdulla sədr vəzifəsində olan Mir Seyid Şərifə tapşırıldı. Bir qədər irəli gedərək demək olar ki, bu mənbədəki məlumata görə, Şahzadə Bayəzid və onun övladları Qəzvinə gəlmiş Osmanlı elçilərin təhvil verildi. Elçilər isə onların hamısını qətlə yetirdilər və sonra da onların cəsədlərini özləri ilə geri apardılar.

"Tarix-i aləmara-yi Abbasi" əsərində isə Şahzadə Bayəzidin Şah Təhmasibə qarşı xəyanəti belə təsvir olunmuşdur: "Bu əsnada Sultan Bayəzid öz iç üzünü zühura çıxararaq, öz yaxın adamları ilə razılığa gəldi ki, həzrət şaha münasibətdə xəyanət edib, onun onlara göstərdiyi dostluq əvəzində onun misilsiz bə-

dəninə xətər yetirsin və əgər həmin çirkin niyyəti həyata keçirə bilsə, Qəzvində bir qalada möhkəmlənsin, xondgarın yanına adam göndərib mədəd və kömək istəyərək, Əcəm vilayətinin valisinə çevrilsin. Yox, əgər bu iş onun istədiyi kimi baş tutmazdısa, onda o, Ağrıca tərəfə, türkmənlərin sayinxani tayfasının yanına gedib, oradan gəmiyə oturaraq, Kəfəyə qaçmağı düşünürdü. Onun yaxın adamları sırasına aid olan Qara Uğurlu və Mahmud Çərkəz bu planın mahiyyətini xəlvətcə əşrəfin nəzərinə çatdırdılar. Lakin cənnətməkan şah pak təbiətli bir şəxs olduğuna görə bu hekayəti ağzıgöyçək bədzatların uydurması hesab edib, buna inam göstərmədi. Amma Sultan Bayəzid onların həzrət şahla xəlvətcə söhbətləşməsindən agah oldu və onların hər ikisini tutub məhbus etdi. Cənnətməkan şah, Sultan Bayəzidin şübhələrini aradan qaldırmaq və onun qəlbini rahatlaşdırmaq üçün bir gün Qəzvinin Səadətabad bağında söhbət təşkil etdi və öz müqərrəbləri və məxsusi adamları ilə birlikdə öz nəfis vücuduna zərli parçalardan önlüklər bağlayıb, doğrudan da, hər bir hissəsi cənnət bağçalarından nişan verən həmin o behiştə bənzər bağın bir guşəsində qeysərzadənin nəzərində aşpazlıq kefinə məşğul olaraq, onunla səmimi söhbət etdi. Bu zaman Sultan Bayəzidin yaxın adamlarından olan Ərəb Məhəmməd Trabzoni özünü şaha çatdırdı və yavaşca dedi:

- Söylənilməsi vacib olan iki kəlmə sözüm var ki, onları şahın yaxşılığı və xeyirxahlığı müqabilində ona deməyə borcluyam. Lakin istəyirəm ki, [bu sözləri] xəlvətdə ərz edim.

Sultan Bayəzid bu hadisədən xəbər tutub, gecə ikən onu və həmin iki nəfəri (Qara Uğurlunu və Mahmud Çərkəzi), bir sözlə, onların hər üçünü qətlə yetirdi. Onun bu yaramaz hərəkəti səbəbindən yüksək məqamlı həzrət şahın tükü ürpəşdi. Bu əməlin səbəbi barədə [Sultan Bayəzidə] sual etdilər və o, [onları] şahın şərəfli könlünü qübarlandırdıqları üçün [öldürdüyünü] ərz etdi. Qəzvinin sadə camaatı bu halın baş verməsindən və əşrəfin əhvali ruhiyyəsinin korlanmasından xəbərdar olduqda qeysərzadənin evinin qapısına hücum çəkib, onu nankorluqda və hörmətsizlikdə xeyli ittiham etdilər. Bu vəziyyət əşrəfin xatirinin rizasına müva-

fiq olmasa da, qeyri-ixtiyari baş verdi. Bundan sonra həmin adamlara (Sultan Bayəzidə və tərəfdarlarına) etimad qalmadı. Buna görə də [Şah Təhmasib] onun şərinin dəf edilməsi fikrinə düşüb, dövlətsevərlərin məşvərəti və məsləhəti ilə onun tutulmasını qərara aldı. Bir gün qərarlaşdırılmış qaydada onu çağırdılar. O, dövlətxanaya gələn kimi həzrət şah məclisdən qalxdı. Böyük əmirlər onu (Bayəzidi) tutub həbs etdilər. Onun Lələ paşa, Fərrux bəy, Əli bəy Çaşnigirbaşı, Sinan bəy Miraxur və s. kimi bir sıra fəsadçı mülazimləri qətlə yetirildilər, onun oğulları isə əmirlərə tapşırıldılar. Ali taxtın ətəklərində və müxtəlif mahallarda olan onun əksər adamları saf düşüncəli sufilərin qılınclarına yem oldular. Lakin [onun mülazimlərindən] bəziləri savab diləkli xeyirxahların imdadı ilə xilas olub, öz diyarlarına yollandılar" (54).

Şahzadə Bayəzidin Səfəvi şahına qarşı sui-qəsd həyata keçirmək məsələsinə türkdilli mənbə və ədəbiyyatda da müəyyən münasibət bildirilmişdir. Hazırkı tədqiqatın aparılması üçün geniş şəkildə istifadə edilmiş bir araşdırmada Şahzadə Bayəzidin Səfəvi şahına qarşı belə bir plan qurmaq istəməsi birmənalı şəkildə təsdiq olunmuşdur. Bununla bağlı Osmanlı şahzadəsinin yaxınları ilə birlikdə müzakirə aparması da araşdırmada öz əksini tapmışdır. O da bildirilir ki, Şahzadə Bayəzid və onun övladları həbs olunarkən şahzadənin mühafizəsində olan bir min nəfərlik dəstə də qılıncdan keçirilmişdi. Belə ehtimal edilir ki, Şah Təhmasib osmanlı şahzadəsinin yanında 10 min nəfərlik bir qoşun dəstəsinin olmasından ehtiyat edirdi. Ona görə də bu qoşun dəstəsinin ətraf bölgələrə paylanmasına nail olmuşdu. Şahzadə Bayəzidin həbs edildiyi gün onun ətraf bölgələrə səpələnmiş qoşunlarından beş min nəfərinin Səfəvi mənsubları tərəfindən tapılaraq qətl edildiyi bildirilirdi (55).

Sultan Bayəzid tərəfindən Şah Təhmasibə qarşı sui-qəsd təşkil edilməsi bir sıra digər türkdilli araşdırmaçılar tərəfindən də qəbul edilməkdədir. Məsələn, belə araşdırmalardan birində bildirilir ki, Şahzadə Bayəzid ətrafında olan 12 min nəfərlik qoşun dəstəsinin vasitəsi ilə Səfəvi şahını və əyanlarını zəhərləyərək hakimiyyəti ələ keçirmək və bununla da atasının və qardaşının

ona olan münasibətinin dəyişməsinə nail olmaq istəyirdi. Bəzi Osmanlı salnaməçiləri də Şahzadə Bayəzidin belə bir fikirdə olmasını təsdiqləyirlər (56).

Osmanlı salnaməçisi Mehmed Solakzadə öz əsərində bu məsələyə toxunmuş, lakin onu başqa yöndən dəyərləndirmişdir. Bu müəllifin yazdığından belə bir qənaət hasil olur ki, guya elə bir plan qurulmuşdu ki, Şahzadə Bayəzidin həbsi üçün bir bəhanə əldə edilsin. O, məsələni belə şərh edirdi ki, bir gün Şah Təhmasib öz bağçasını bəzəyərək orada böyük bir ziyafət təşkil etdi və Şahzadə Bayəzidi də bu ziyafətə dəvət etdi. Guya Şahzadə Bayəzidin könlünü ələ almaq və diqqətini yayındırmaq üçün Şah Təhmasib onunla şirin söhbətlər elədi, onun qəlbini ələ almağa çalışdı: "Şah və şahzadə bir yerdə oturub bir zaman o geniş və açıq bağda aram üzrə oldular. Hər üzdən danışıb dilləşdilər. Bir gəzdilər, bəzən də ayrıldılar. Sonra şahzadənin ağalarından məzhəbsiz və dinzis Mehmed adında birisi, yolunu azmış şahı ardına alıb birlikdə getmiş idi. Şahı tənha qoymaq fikrində imiş. Halbuki şahzadə Bayəzid xanın xas oğlanlarından birisi də, arxalarında gedirdi. Mehmet isə oğlandan qafil və o yolunu azmış şahı, tək övladın etiqadında olub fitnə qəsdinə düşmüş idi. Şahla görüşüb "Ayıq ol dövlətli şahım, ehtiyatlı ol! Sizə gizli bir guşədə bir iki tüfəngçi, şahzadənin göstərişi ilə zərbə vuracaqlar. Qafil olmayın!" – deyə onu qorxudaraq, aralarında atalıq hüququnu pozmağa niyyət etdi" (57).

Mehmet Solakzadə Səfəvi şahına qərəzli münasibət bəsləyirdi və əslində, bunu başa düşmək mümkündür. Bu qərəzin nəticəsidir ki, o, Şah Təhmasib haqqında təhqir edici ifadələrə də yol verirdi. O cümlədən onu "tiryək çəkən", "rəzil xasiyyətli" ifadələri ilə xatırlayırdı. Onun yazdığına görə, Şah Təhmasib bu xəbəri eşidəndə çox təşvişə düşdü, ağlı başından qaçdı, səbri və qərarı əlindən getdi. Ona görə də arxa qapıdan ziyafəti tərk edərək öz sarayına tələsdi. Ziyafəti tez tərk etdiyi üçün vəzirləri Məsum bəylə Həsən bəyə isə tapşırdı ki, Şahzadə Bayəziddən onun yerinə üzr istəsinlər. Onlar şahzadəyə bildirməli idilər ki, şahın səhhətində yaranmış problemlə əlaqədar olaraq məslisi tərk

etmək məcburiyyətində qalmışdır. Bildirilir ki, Şahzadə Bayəzid də bu hadisədən xeyli qəmgin oldu və şahın ziyafəti vaxtından əvvəl tərk etməsinə təəssüf etdi. Amma bu zaman onun adamlarından biri yanına gəlir və şahın ziyafəti tərk etməsinin Mehmedin (yəqin ki, Ərəb Məhəmməd nəzərdə tutulur) onun haqqında şaha böhtanlar çatdırması ilə bağlı olduğunu deyir. Şahzadə də bundan qəzəblənir və Mehmedin onun haqqında böhtanlar söyləməsinə görə boynunu vurdurur. Mehmed Solakzadənin yazdığına görə, Mehmedin qətl edilməsi şahzadənin adamlarından olan Ağsaq Seyfəddinlə alay bəyi Məstanini qəzəbləndirir və onlar da imkan taparaq Şah Təhmasibin hüzuruna yollanırlar, Şahzadə Bayəzid haqqında ona deyilənlərin doğru olduğunu təsdiq edirlər: "Bu üç namərd şahzadənin əlindən fəryad ilə şaha "Dərdli Mehmed sizin xeyrinizi istəyən olub, hər zaman özünə öyüd və nəsihət verirdi. Bəxtiyar bir padşah haqqınızda, qeyrətini sərf edib əsirgəmədiyi zahir və aşikar ikən, sizin onu tüfəng kəməndinə tutmanız layiq deyildir" – dediyi üçün qətl edildi. Bizə də qəsd olunacağı üçün sizə sığındıq. Qalan fərman sizindir!" – deyə ağlamağa və fəqana başladılar. Qabaqkı apaçıq iftira, bunların şəhadətləri ilə gerçək görüldü. Ayrıca üzüqara Mehmed qətl olunmaqla bu maddəyə heç bir şübhə qalmadı" (58).

M.Solakzadə daha sonra yazırdı ki, bu hadisənin sabahı günü Şahzadə Bayəzidin iqamətgahı qızılbaşlar tərəfindən mühasiryə alındı və ona qarşı zorakılıq əməllərinə yol verildi. İddia olunur ki, şahzadənin öz mühafizəçiləri olmasaydı qızılbaşlar tərəfindən ona ciddi ziyan dəyə bilərdi. Bu vəziyyət Şahzadə Bayəzidi təşvişə salır və baş verən zorakılıq hadisəsindən oğlanlarının da ziyan görə biləcəyi onu xüsusi ilə narahat edir. Ona görə də Şahzadə Bayəzid baş verənlər haqqında Şah Təhmasibə xəbər çatdırır. Guya Şah Təhmasib də bundan sonra Şahzadə Bayəzidin təhlükəsizliyinin təmin ediləcəyini vəd edir: "Şah vəzirlərindən Məsum bəyi və Həsən bəyi şahzadənin yanına göndərərək "qızılbaşların bu uğuruz hərəkətlərindən heç bir şəkildə xəbərdar deyildim. Xüsusiylə, sizinlə atalıq haqqı olub, əsla sizə kədər çatacaq bir hal yox ikən belə bir çirkin əməlin mübaşirətinə bais

və səbəb, yəni şahzadələrin qətl olunmalarına niyət etmənin hikməti nədir", yazılı ədadan sonra, bir az xələtlər və dadlı yeməklər hədiyyə göndərdi. ...Bundan sonra nankor Təhmasib, vəzirləri və xanları ilə çoxlu müşavirələr keçirdi. Nəhayət şahzadənin yaxalanmasına və həbs edilməsinə qərar verildi. Vəlhasil, müsibət dolu bir gündə, 968-ci il cumada əl-əvvəlinin on beşində (14 fevral 1560-cı il idi) əziyyət görmüş və sıxıntı çəkmiş şahzadə ziyafət üçün şah tərəfindən dəvət olundu. Amansız qoruculardan bir nəfər can alan cəllad, rəzil şahın fərmanı ilə özünü dar bir guşədə tək qoyub ələ keçirdilər. Zavallı şahzadə, zamanın əhvala qalib gəlməsi ilə, diyarından avara və o qorxulu pənahgaha uğrayıb, şahın məclisinə vasil olmaq ümidində ikən, birdən-birə yuxarıda zikri keçən aznavurlar zahir olub, şahzadənin ətəyini ələ keçirdilər. O yerdə boş bir oda var idi. Pərişan şahzadəni orada həbs etdilər. Elə o gün şahzadəni yaxın adamlarını və tabeliyində olanları götürüb qılıncdan keçirtdilər. Sonra şahzadədən və adamlarından qalan xəzinələr, hesaba və kitaba gəlməz dəfinə, çoxlu silah və alətlər ilə neçə gözəl şeylərin hamısı şahın xəzinəsinə ilhaq olundu. Elə bu arada padşahın elçiləri də Qəzvinə daxil oldular. Şahın hüzuruna gəlib məktubları verdilər. Məktublarda yazılmışdı ki, şahzadələr tələb olunur. Padşahın qəzəbindən qorxan və ürkən şah: "Onun mübarək rizalarından xaricə çıxmarıq və sevgi ilə bağlılığımızın yolu olarkən əyri yolla getmərik", - cavabını verdi" (59).

Şahzadə Bayəzid şərlənərək həbs olunmuşdu. Amma istər Səfəvi mənbələrində, istərsə də elə Şah Təhmasibin təzkirəsində olan məlumatlar belə bir iddianın doğruluğunu ciddi şəkildə şübhə altına ala bilər. Şah Təhmasib hələ ilk gündən Şahzadə Bayəzidə tamamilə səmimi bir münasibət göstərirdi, onun bağışlanmasına çalışırdı və hətta həbsindən sonra da onun salamat qalmasını arzulayırdı. Sui-qəsdin məhz Şahzadə Bayəzidin rəhbərliyi altında təşkil edilməsi haqqında Şah Təhmasibin öz təzkirəsində yazdıqları konkret faktlara əsaslanır və ona görə daha məntiqi görünür. Onun yuxarıda istinad olunan qeydlərindən də görünür ki, öldürülməsi üçün zəhər qatılmış yeməyi sonradan

Osmanlı xidmətçilərinə yedirdilmiş və bu da onların həyatına son qoymuşdu. Digər Səfəvi mənbələrində olan məlumatlar da konkretliyi və məntiqiliyi ilə fərqlənməkdədir. Bu məntiqiliyi hətta bir çox Osmanlı salnaməçiləri və araşdırmaçıları da qəbul etməli olmuşdular. O da qeyd edilməlidir ki, Şah Təhmasibə qarşı sui-qəsddə əli olan Osmanlı xidmətçiləri, əyan və əmirləri qətlə yetirilsələr də Şahzadə Bayəzid və onun övladları yenə də Şah Təhmasibin lütfü ilə qarşılaşdılar. Güman etmək olar ki, Osmanlı sultanı ilə münasibətlərin korlanmaması üçün Şah Təhmasib belə bir addımı atmışdı. Amma o zaman Osmanlı sultanı ilə Şahzadə Bayəzid arasındakı münaqişə o dərəcədə mürəkkəbləşmişdi ki, Şahzadə Bayəzid Səfəvi şahı tərəfindən qətlə yetirilsəydi belə, Osmanlı sarayı bunu məmnunluqla qarşılayardı. Çünki Osmanlı sarayı tərəfindən onun ölüm hökmü, Osmanlı üləmaları tərəfindən isə onun fitvası verilmişdi. Hətta türkdilli araşdırmalarda da belə bir fikir var ki, Sultan Süleymanın məktubunu gətirən elçilər də Şah Təhmasibə Osmanlı sultanının Bayəzidin həbsindənsə qətlinə daha üstünlük verə biləcəyini çatdırdılar. Bütün bunlara baxmayaraq Şah Təhmasib Osmanlı şahzadəsinin həyatına toxunmamışdı (60).

Bununla belə, yuxarıda qeyd edilənlərdən aydın olduğu kimi, Şah Təhmasibin xahişi əsasında Sultan Süleyman ona göndərdiyi məktubunda Şahzadə Bayəzidi müəyyən şərtlər qarşılığında bağışladığını bəyan etmişdi. Qeyd etmək lazımdır ki, Şahzadə Bayəzid həmin məktubun Səfəvi sarayına yetişməsindən əvvəl həbs edilmişdi. O, övladlarından ayrı şəkildə, Səfəvi dövlətxanasının bağçasındakı xüsusi bir yerdə həbsdə saxlanılırdı. Həbsdəki günləri cansıxıcı keçməsin deyə, Şah Təhmasibin göstərişi ilə şirin söhbətləri ilə tanınan Mirgünəş Qumiyə tapşırıq verilmişdi ki, hər gün Şahzadə Bayəzidlə görüşsün və öz söhbətləri ilə onun darıxmasına imkan verməsin. Adı çəkilən adam da Bayəzidin həbsdə olduğu müddətdə onunla görüşər və söhbətləri ilə onun darıxmasına yol verməməyə çalışardı (61). Əslində, bu cəhət özü də Şah Təhmasibin Şahzadə Bayəzidə olan rəğbətli münasibətinin bir əlaməti idi.

## 5. Şahzadə Bayəzidin Osmanlı sarayına təhvil verilməsi üçün iki dövlət arasında diplomatik fəallıqların davam etməsi

Yuxarıda qeyd edildiyi kimi, Sultan Süleymanın məktubu Qəzvin sarayına gətiriləndə Şahzadə Bayəzid artıq həbsdə idi və Osmanlı elçiləri də Şah Təhmasibə belə bir fikir çatdırdılar ki, Osmanlı sultanı Şahzadə Bayəzidin həbsindənsə qətlinə daha çox üstünlük verərdi. Ona görə də Şahzadə Bayəzidlə bağlı Şah Təhmasib qəti bir qərara gələ bilmədi və bu məsələyə aydınlıq gətirilməsi üçün o, yenidən öz elçilərini Osmanlı sarayına göndərmək qərarına gəldi. Şah Təhmasib eyni zamanda Osmanlı sultanı qarşısında onun üçün maraqlı olan bəzi təkliflər də qaldırdı. Xızır sultan vasitəsi ilə göndərilən məktubda Şah Təhmasib başlıca olaraq iki təklif irəli sürdü. Bu təkliflərdən bir ondan ibarət idi ki, Şah Təhmasibin oğlan övladlarından biri Osmanlı vilayətlərindən birinin hakimi təyin edilsin və o da Osmanlı sultanı ilə birlikdə kafirlərə qarşı müharibələrdə iştirak etsin. Şah Təhmasibin Osmanlı dilinə tərcümə edilmiş həmin məktubunda belə deyilirdi: "...bu mühibbi-dövlətxahın övladlarından birisini və ya ikisini hər növ ilə xatiri-ətir mübarəkə xütur edər mülazim buyuralar. Əgər layiqi-ülufə buyurularsa, ülufəyi şəfqət buyuralar. Əgər tımara səzavar isələr tımar lütf edələr. Əgər layiqi-sancaq isələr, sancaq inayət olunub və əgər paşalıq layiq görülürsə, mərhəmət buyurub paşayai-əzam zümrəsinə ilhaq olunub hökmü aliyi sultan inayət bulunub sancaq irsal olunub mülazimət qəbul qılalar ki onların əsamisi dəfatiri-divani-alidə silki-mülazimanda səbt olunub hər il dərgahi-aləm-pənah həzrəti Sultan Süleymaniyə müryanə niyaz edələr və bu cəhətdən ol həzrətin kərəm və fütüvvətidir, xilət inayət buyurulub çavuşlara irsal buyurula ki, xilafi-şahanə ilə şərəfraz olub ol həzrətə dua edələr. Və ol sultani-alicah kafirəyi-məluna üzrə qəzaya gedərlərsə, hənuz onlar xordsalədir, ləşgər və xadimi-haşimlərin ol həzrətin mülazimatına göndərib rikabi-zəfər intisabla ədayi-vəzayifi xidmətkarəyə və küffari füccara qəza və cihada iğdam göstərələr. ...Dövləti-padşah aliləri ilə qazi

və müğtənim olub qəzavətən müra olunduqdan sonra nə vaxt dəstüri-icazət və inayət buyururlarsa övdət edərlər. Və ol həzrət kəndiləri səfərə buyurmayıb paşayani-əzamdan birini sərdar edib ləşgər ilə göndərirlərsə giru ləşgərü xadim və haşimlərin dərgahi-aləmpənaha göndərələr ki, irsal olunan paşayla varıb qəza və cihad edələr. Qərəz budur ki, ol padşah aləm-pənahın bu müxlisə olan kəmali-inayət və şəfqətlərin xəlqi-aləm arasında zahir olub bilələr və bu dövlətxahın oğulları dəxi bəhricüd və ehsan və ənam və letfi-şəfqət və kərəm və mərhəmətlərindən mütəfəyyiz olmaqla şərəfraz olalar və ləvazimi-xidmətgəridə qiyam göstərələr. Əgər bu şəfqətə qabiliyyətləri yox isə, yenə əmr ol həzrətindir. Əgər sancaq və ülufə və tımar olmaz isə dəxi biülufə yenə xidmətkarlarıdır" (62).

Şah Təhmasib oğlunun sərhəd bölgəsində olan vilayətlərdən birinə, konkret olaraq Bağdad vilayətinə hakim təyin olunmasını istəyirdi. Bununla, Şah Təhmasibin həm də Bağdad vilayətinin gələcəkdə Osmanlı sultanı tərəfindən Səfəvi dövlətinə verilməsi arsuzu həyata keçə bilərdi. Yəni güman edilirdi ki, vilayətlərdən birinə Səfəvi şahzadəsinin təyin edilməsi həmin vilayətin tədricən Osmanlı hakimiyyətindən yadlaşmasına gətirib çıxara bilərdi. Şah Təhmasibin məktubunda açıq şəkildə Osmanlı sarayı tərəfindən ərazi güzəştinə gedilməsi məsələsi qaldırılmamış və oğlunun konkret hansı vilayətə hakim təyin edilməsi göstrilməmişdi. Ona görə ehtimal edilir ki, Şah Təhmasib Osmanlı sarayından ərazi güzəşti gözləyirdi və bu zaman Bağdada daha üstünlük verilə bilərdi. Amma yuxarıdakı sətirlərdən göründüyü kimi, Şah Təhmasib ilk növbədə onun övladlarının Osmanlı sarayında hərbi xidmətə cəlb edilməsinə maraq göstərirdi, onların hərbi vəzifələrə təyin edilməsi məsələsinin mümkünlüyünə baxılmasını da Osmanlı sultanından xahiş edirdi. Səfəvi şahı razı idi ki, onun övladları Osmanlı sarayında ülufə və ya tımar döyüşçüsü kimi xidmətə qəbul olunsun, onların paşalıq mənsəbinə yüksəldilməsi imkanı nəzərdən keçirilsin. Yalnız bundan sonra sancaq bəyliyi təklifi də irəli sürülmüşdü. Şah Təhmasib ona da razı idi ki, əgər sultan özü kafirlərə qarşı qəzavata (cihada) getməsə, onda

onun oğlunu cihada yollanan paşalardan birinin yanına da qoşmaq olardı. Səfəvi şahı onu da əlavə edirdi ki, əgər onun övladlarının bu işlərə cəlb edilməyə qabiliyyəti çatmırsa, onda Osmanlı sultanı özü bildiyi kimi qərar qəbul edə bilərdi. Bu məktub kifayət qədər səmimi yazılmış bir məktub idi və bunu onun mətnindən də duymaq mümkündür. Yəni bu məktubda Şah Təhmasibin Osmanlı sarayına qarşı hansısa bir iddiada olması hiss edilmir.

Amma türkdilli tədqiqatçıların yazdığına görə, Bağdadın hədiyyə edilməsi Şah Təhmasibin məktubunu gətirən elçilər tərəfindən şifahi şəkildə Osmanlı sarayına çatdırılmışdı. Osmanlı mənbələrində olan məlumatlara görə, bu ümid və arzu sultana çatdırılmazdan əvvəl Səfəvi elçisi Osmanlı sarayının baş vəziri Rüstəm paşa tərəfindən sərt cavab almışdı. Rüstəm paşanın cavabı belə olmuşdu: "Şahınız hökmdarlıq kurallarına uyaraq məktubunda ağla aykırı düşəcək bir şey yazmamış, ya sən nə küstahsan ki, bu sözləri ağzına alırsan, sən bilməzmisən ki, öylə bir iş yapmaq qorxudan və ya məcburiyyətdən olur. Bizim isə nə sizin Şahınızdan, nə də ki Bayəziddən qorxumuz və ürkümüz yoxdur ki, torpaq vermək kimi aşağılıq bir duruma düşəlim. Şahzadə Bayəzid xan bir iki il üsyan bayrağını açıb asiləri toplamaq üçün davul və borular çaldırıb yanına Anadolunun bir neçə əşkiyası ilə bozok türkmanlarından bir-iki min başı açıq, yalın ayaqdan başqa kimsəni bula bilməmişdir. Şah inadında dirənirsə iki tərəf arasındakı saxlanan sülh və dostluq düşmənliyə dönüşür. Şahzadə Bayəzidi varıb almaq zor deyildir. Ancaq dostluğun pərçimləşməsi üçün zəngin bir xəzinə bağışlamaqdan əsla çəkinməz" (63).

Rüstəm paşanın adından söylənilən bu fikrin doğru olacağı halda da onu görmək mümkündür ki, Bağdadın güzəştə gedilməsi barəsində Şah Təhmasib tərəfindən məktubda məsələ qaldırılmamışdır. Belə bir məsələnin elçi tərəfindən qaldırılmasının Osmanlı baş vəziri tərəfindən güstaxlıq (axmaqlıq) adlandırılması belə bir ehtimal da yarada bilər ki, bu məsələ elə elçinin öz tə-

şəbbüsü olmuşdur. Hər halda bu məsələnin aydın təsdiqinə bir ehtiyac vardır.

Şah Təhmasib tərəfindən Osmanlı sultanı qarşısında qaldırılan digər bir məsələ isə Səfəvi sarayının iki nümayəndəsinin İraqi-Ərəbə göndərilməsinə icazə verilməsi məsələsi idi. Şah Təhmasib bildirirdi ki, səltənət daxilində müqəddəs məkanların abadlaşdırılması üçün nəzir-niyazlar toplanır və istifadə olunması üçün İraqi-Ərəbə göndərilir. Həmin vəsaitlərin necə xərclənməsinə nəzarət edilməsi üçün müqəddəs məkanlara nümayəndələr göndərilməsinə ehtiyac var idi və barədə məktubda məsələ qaldırıldı: "Əvvəla ol sultan Süleyman həşmət ali-cahın rəyi-aləmaralarına ərz olunan budur ki, bu mühibbi-xeyirxahın bəzi nəzirləri və vəqfləri vardır ki, onun məsrəfi Hərameyni-Şərifeyni-zədəhüməlillahi-Təala şərafən və diyari baqi və İraqi-Ərəbdə vaqe olan məşahidi eimməyi-məsumin səlavətullahi əleyhüm əcməinin imarət və sair məsrəfidir. Ümid oldur ki, hükm-şərif inayət oluna. Bu müxlisin adamlarından iki nəfər kimsənə, birisi əmin və birisi katib ola. Ol nüzurət və məhsuli-mövqüfat onlara göndərilib, onlar dəxi məsrəfinə sərf edib və hesabın zəbt edələr, ta bu xeyratın məsubatı ol Sultani-zillulahın ruzgari-fərhandə əsərlərinə aid və raci ola" (64).

Şah nümayəndələrinin göndərilməsi nəzərdə tutulan konkret məkanın adı çəkilməsə də, tədqiqatçıların fikrincə şah nümayəndələrinin Bağdada göndərilməsi məqsədəuyğun sayılırdı. Şah Təhmasib İraqda yerləşən şiə müqəddəslərinin türbələrinin abadlaşdırılmasının daim nəzarət altında saxlanması məqsədi ilə belə bir təklifi irəli sürürdü.

Sultan Süleyman cavab məktubunda əvvəlcə Şahzadə Bayəzidin təhvil verilməsinin vacibliyinə toxunur və sonra da Şah Təhmasib tərəfindən qaldırılan təkliflərə cavab verirdi. Bununla Sultan Süleyman bildirmək istəyirdi ki, Şahzadə Bayəzidin məsələsi onun üçün daha böyük əhəmiyyət kəsb edir. Bu məktub kifayət qədər mülayim bir dildə yazılmışdı və belə bir qənaət hasil olur ki, Bayəzidin geri qaytarılması sanki artıq həll olunmuş bir məsələ idi. Qaldırılan məsələlərə gəlincə isə, Sultan Süleyman

da Şah Təhmasibə səmimiyyət görüntülü bir məktub yazdı və onun irəli sürdüyü təkliflərə də dostcasına cavab verdi. Sultan Süleyman Səfəvi şahının övladlarından birinin sancaq hakimi təyin edilməsi və onun kafirlərə qarşı döyüşlərdə iştirak etməsi məsələsinə münasibətdə belə bir cavab verildi ki, kafirlərə yaxın olan sancaqlar Rumelidə yerləşən sancaqlardır. Sultan Süleyman ona da işarə edirdi ki, digər sancaqlar məsafəcə uzaqdadırlar və həmin sancaqların kafirlərə qarşı səfərbər edilməsi kifayət qədər çətindir. Burada da Sultan Süleyman konkret sancaq və vilayət adı çəkmir. Amma başa düşülən odur ki, Sultan Süleymana görə, Şah Təhmasib övladlarından birinin Osmanlı hüdudlarında sancaq hakimi təyin edilməsi təklifini irəli sürəndə, Səfəvi hüdudlarına yaxın olan sancaq və ya vilayətləri nəzərdə tutubmuş. Sultan Süleyman isə bildirirdi ki, həmin vilayətlər və ərazilər kafirlərin vətənindən çox uzaqdırlar, kafirlərə yaxın olan ərazilər isə Səfəvi hüdudlarından çox uzaqdırlar. Sultan Süleyman öz fikrini elə çatdırırdı ki, Şah Təhmasibdə onun bu fikrinin səmimiliyinə şübhə qalmasın. Yəni zahiri olaraq Osmanlı sultanı Səfəvi şahının övladlarına qayğı ilə yanaşdığının diplomatik ifadəsini öz məktubunda saxlamışdı: "İmdi məlumdur ki, ol səmtə qərib olan əmakindən bu tərəflərdə ovqati-səfərdə gəlmənin bəədi-məsafət əclindən qayətdə müşgül və əsgər və ərvat və at və alat bu halətə mütəhəmmil olmaz. Amma mətməhi-nəzəri-dəqayiq beynə ayini-dini-mübin üzrə mücahideyi-tüğat və müşrikin olıcak, bu halət sərhəddi-vilayəti Rum elində mütəsəvvirdir. ...Şöylə ki, ehyayi-mərasimi məhəbbətü vəla və ifayi-ləvazimi əhdi-vəfa olunub Bəyazidi və oğullarını təslim və irsal buyurub məsləhət bər tərəf ola, muradi-şərif isə fərzəndi-ərciməndi səadətməndələrindən biri bu tərəfə göndərilə. Atalıq və oğulluq haqqını kəmali-mərtəbə riayət edib inşaallahi-Rəhman eyni inayət və şəfqəti şahanə və yümni himmət bihəmtayi padşahanə ilə məhfuz qılınıb zirvəyi ülyayi-məqasidin mərama vasil və ürveyi-vüsqayi mətalib və məhamm hasil olub səbəbi-hüdudi əsbabi-məhəmmət və baisiübudi zəvabiti-ülfəti müvəddət olub xatiri-ətirə xütur edəndən ziyadə inayətlər və riayətlər müşahidə oluna" (65).

Bununla belə, Sultan Süleyman bu məktubunda Şah Təhmasibin övladlarından birinin onun yanına göndərilməsi təklifinə rəğbətlə yanaşırdı və bildirirdi ki, əgər onun övladlarından biri təşrif gətirərsə, Osmanlı sultanı ona öz övladı kimi qayğı göstərərdi. Yənu bu təklifin həyata keçməsi ilə bağlı Sultan Süleyman əməkdaşlıq etməyə hazır olduğunu bildirirdi. Bununla Sultan Süleyman həm də Səfəvi şahzadəsinin Osmanlı daxilində hakim təyin edilməsi məsələsinin qeyri-mümkünlüyünü də təsdiqləmiş olurdu.

Müqəddəs məkanlara Səfəvi nümayəndələrinin göndərilməsi ilə bağlı qaldırılan təklifə isə Sultan Süleyman müsbət cavab verdi və Bağdada iki nəfərin gəlməsini mümkün saydı (66). Bir daha qeyd edilməlidir ki, bu məktublarda qarşılıqlı ehtiramın və ən azı anlaşmanın olmasını görmək mümkündür. Lakin bəzi türkdilli və farsdilli tədqiqatçılar Şah Təhmasibin bu məktubunu az qala Osmanlı sarayına qarşı məkrli planlarının, Şahzadə Bayəzidin geri qaytarılması əvəzində Osmanlı sultanından nə isə qoparmaq cəhdinin ifadəsi kimi qələmə verməyə çalışırlar. Hətta belə gümanlar irəli sürülür ki, Şah Təhmasib övladlarının Osmanlı daxilində sancaq bəyi təyin edilməsi barəsində təklif irəli sürəndə onun ya Bağdad, ya da Ərzrum vilayətlərindən birinin hakimi olmasını istəyirdi. Halbuki Şah Təhmasibin məktubunda vilayət hakimliyi yox, sancaq hakimliyi təklifi var idi. Guya müqəddəs məkanlarla bağlı işlərin nizamlanması üçün Bağdada iki nəfərin göndərilməsi də Şahzadə Bayəzidlə bağlı əldə edilmiş bir güzəşt idi. Halbuki Sultan Süleyman cavab məktubunda müqəddəs məkanlara xidmət göstərməyi müqəddəs bir iş kimi dəyərləndirirdi. Guya Şah Təhmasibin Osmanlı dövlətinə qarşı gizli bir kini var idi və bunun əvəzi kimi Şahzadə Bayəzidi bir növ bazarlığa çıxarmışdı (67). Amma elə Şah Təhmasibin Osmanlı sultanına və Şahzadə Bayəzidin öz atasına qarşı qiyamına necə münasibət bəsləməsi haqqında yuxarıda onun fikri ifadə olunmuşdu. Ona görə də Şahzadə Bayəzidlə bağlı Şah Təhmasib-Sultan Süleyman münasibətlərinə diqqətlə yanaşılmasına bir ehtiyac vardır.

Şah Təhmasib eyni zamanda Şahzadə Səlimə də məktub göndərmiş və onunla da Sultan Bayəzidin geri qaytarılması məsələsi ilə bağlı öz fikirlərini bölüşmüşdü. Bu məktub da kifayət qədər müfəssəl bir məktub idi (68). Həmin məktub da ənənəvi şərq yazışmaları üslubunda yazılmış, Şah Təhmasib yazışmalarına xas olan nəzm parçalarından istifadə olunmuş və məktub göndərilən adamın vəsfinə xeyli yer ayrılmışdı. Sonra Şahzadə Səlimin Seyfəddin İrişti ağa vasitəsi ilə göndərdiyi məktubun yetişdiyi bildirilir və bu məktubun məzmunundan məmnunluq ifadə olunurdu. Şah Təhmasib iki dövlət arasında əldə edilmiş əhdi-peymanın möhkəmlənməsinə, ittifaq və ittihadın artmasına hər zaman dua etdiyini bildirirdi. Onu da bəyan edirdi ki, onun istəkləinin çatdırılmasını İrişti ağadan da xahiş etmişdir. Uzun-uzadı girişdən sonra Şah Təhmasib nəhayət ki, Sultan Bayəzidlə bağlı olan məsələyə öz münasibətini açıqlayırdı. O, Şahzadə Bayəzidin Çuxursəədə gəlməsi, onun Şahqulu sultan tərəfindən qarşılanması və sonra Osmanlı şahzadəsinin Səfəvi hüdudları daxilində qalması üçün müraciət etməsini öz məktubunda qeyd etmişdi. Səfəvi şahı onu da açıqlayırdı ki, Şahzadə Bayəzidin Səfəvi hüdudlarında qalmasına icazə vermişdi və bunu ona görə etmişdi ki, Şahzadə Bayəzid başqa yerə getməsin və vəziyyətin daha da mürəkkəbləşməsinə yol açmasın. Onun Səfəvi hüdudlarına gəlməsinin Osmanlı sultanına çatdırıldığı da məktubda bəyan edilirdi. Şah Təhmasib yazırdı ki, Şahzadə Bayəzidin və onun övladlarının öldürülməyəcəyi, kor edilməyəcəyi və Osmanlı sultanının adamlarına təhvil verilməyəcəyi barədə and qəbul etmişdir. Sonra da bu məktubda Şahzadə Bayəzidin təhvil verilməsi məsələsinə toxunulurdu. Məktubun mətnindən belə qənaət hasil olur ki, Şah Təhmasib and içdiyi üçün Şahzadə Bayəzidi Osmanlı sultanına təhvil vermək istəmirdi. Yəni o, andının pozulmasını istəmirdi. Amma onu da çatdırırdı ki, Şah Təhmasib belə bir andı Şahzadə Bayəzidin Sultan Süleymana və onun adamlarına verilməməsi ilə bağlı qəbul etmişdir. Şahzadə Səlim isə bu anda şamil deyildi və Şahzadə Bayəzidi Şahzadə Səlimin adamlarına təhvil verilməsi andın pozulması demək olmazdı. Ona

görə də Şah Təhmasib yazırdı ki, onun yanına Osmanlı sultanının adamları gəlmişdi, Şahzadə Səlimin adamları isə gəlməmişdi və bunun üçün də Şahzadə Bayəzid təhvil verilmədi. Şahzadə Səliмə o da çatdırılırdı ki, ona verilən vədə əməl olunacaqdır. Səfəvi şahı Şahzadə Səlimin məktubunu gətirmiş Turağ ağa və onun yoldaşlarına qarşı hər hansı bir anlaşılmazlıq olmadığını yazırdı. Ola bilsin ki, bu elçilik heyətinin səfəri zamanı Osmanlı tərəfinin arzusunda olmadığı bir cavabla qarşılaşmışdı. Şah Təhmasib bir daha yazırdı ki, sultan tərəfindən göndərilən elçiliyin tərkibində Şahzadə Səlimin adamları yox idi və Şahzadə Bayəzidin təhvil verilməməsi də bununla bağlı idi. Ona görə bir daha bəyan edilirdi ki, Şahzadə Səlimin adamlarının gələcəyi təqdirdə Şahzadə Bayəzid və övladları onlara təhvil veriləcək və bu məsələdə heç bir anlaşılmazlığa yol verilməyəcəkdir.

Şah Təhmasib vəd edirdi ki, o öz sözündən çıxmayacaqdır və bəyan edirdi ki, Osmanlı sultanına və onun hörmətli oğluna qarşı heç vaxt xoşagəlməz işlər görməmişdir və bu cəhət bütün aləmə də məlumdur. Vaxtilə iki dövlət arasında mövcud olmuş anlaşılmazlığa gəlincə isə, Şah Təhmasib bildirirdi ki, bunun günahı qarşı tərəfdə olmuşdu və qarşı tərəfin xidmətində olmaq fürsəti yaranan kimi isə öz hüsnü-rəğbətini nümayiş etdirmişdi. Səfəvi şahı bir daha əlavə edirdi ki, onun tərəfindən qarşılıqlı münasibətlərdə birtərəfli müxalif əməllərə yol verilməyəcəkdir. Sonra Şah Təhmasib ona qarşı ünvanlanmış təhdid xəbərdarlığına da cavab verirdi. Mövcud olan məlumatlara görə, Osmanlı elçiləri Şahzadə Bayəzidin əldə edilməsi üçün Osmanlı qoşunlarının müdaxiləsinin mümkünlüyü məsələsini də Şah Təhmasibin nəzərinə çatdırmışdılar. Şah Təhmasib də bu təhdidi təşvişlə qarşılayırdı və Şahzadə Səlimdən də xahiş edirdi ki, bu təşvişi Osmanlı sultanına çatdırsın. Onun yazdığına görə, Osmanlı qoşunlarının gəlməsi böyük sayda insanların qətli və qarəti ilə nəticələnə bilərdi və əlavə olaraq bəyan edirdi ki, belə olduğu təqdirdə Şahzadə Bayəzidin məsələsinə baxıla bilər. Yəni bununla, ona işarə edilirdi ki, Osmanlı qoşunlarının Səfəvi hüdudlarına doğru hərəkət xəbəri alınarsa, onda Şahzadə Bayəzid azad buraxıla bilər. Bundan sonra

onun ələ keçirilməsi artıq Osmanlı sarayı üçün də çətin ola bilərdi. Şah Təhmasib təklif edirdi ki, Osmanlı sultanının elçilərinə Şahzadə Səlimin də elçiləri qoşulsun və göndərilsin və onların vasitəsi ilə Şahzadə Bayəzid haqqında nə qərar olarsa həyata keçirilsin.

Buna baxmayaraq, məsələ yenə həll olunmadı. Şahzadə Bayəzidin geri qaytarılması üçün Osmanlı sarayı ilə Səfəvi sarayı arasında uzun-uzadı yazışmalar başladı. Heç şübhəsiz ki, Şah Təhmasib yaranmış vəziyyətdə Osmanlı dövləti ilə münasibətlərin korlanmasını və Şahzadə Bayəzid məsələsinin həllinin hərbi münaqişəyə gətirib çıxarmasını istəmirdi. Şahzadə Bayəzidin təhvil verilməyəcəyi haqqında qəbul etdiyi and da Şah Təhmasibi tərəddüd məngənəsinə almışdı. Amma o da məlum idi ki, Şahzadə Bayəzidin və onun övladlarının azad edilməsi və onların sərbəst buraxılması da Səfəvi sarayı üçün xeyirli olmaya bilər. Tərəflər arasında davam edən yazışmaların ruhunda bir nəzakət müşahidə olunsa da, bəzi məlumatlara görə bu məsələnin həllinin uzanması Osmanlı sarayının təşvişinə yol açırdı. Sultan Süleyman tərəfindən Səfəvi şahına göndərilən məktublarda nəzakətli münasibət gözlənilsə də, əslində, Osmanlı sultanı Bayəzidin geri qaytarılmamasından narazı idi və özbək hakimləri ilə apardığı yazışmalarda da bu məsələ ilə bağlı Şah Təhmasibə qarşı qəzəbli olduğunu gizlətmirdi. Həmin yazışmalarda hətta gələcəkdə Osmanlı dövləti ilə özbək hakimlərinin Səfəvi dövlətinə qarşı birgə fəaliyyət göstərmək meyllərinin olduğu da ehtimal edilirdi (69).

Sultan Süleyman Bəlx hakimi Pir Məhəmməd xana göndərdiyi məktubunda Şah Təhmasib tərəfindən Şahzadə Bayəzidin təhvilinin gecikdirilməsi qabarıq şəkildə qeyd edilmişdi. Osmanlı sultanının bu məktubda yazdığından belə bir fikir ortaya çıxır ki, Şah Təhmasib Osmanlı dövlətinin qüdrətindən qorxurdu. Ona görə də Osmanlı sarayına tez-tez elçilər göndərilirdi. Sultan Süleyman məktubunu belə davam etdirirdi: “Oğlum gənclik qüruruna uyaraq şərq diyarına getmişdir. Xəta yapan Şah Təhmasibin ürəyi daşdandır və içi kötüdür və daha onun yalanlarına güvən-

məyəcəyəm. Bu fitnə-fəsadı dəf etmək üçün qərarlıyam və bu qərarla İrana saldıracağam". Bu sözlərdən sonra Sultan Süleyman həm də islam peyğəmbərinin şəriətini yerinə gətirmək üçün yenidən Səfəvi hüdudlarına qoşun çıxarılmasına Pir Məhəmməd xandan kömək istəmişdi (70).

Bununla belə, Sultan Süleyman hələ də Şah Təhmasiblə mülayim davranmaqda davam edirdi. O şübhə etmirdi ki, bu məsələdə güc nümayiş etdirmək onun istəyincə nəticələnməyə bilər. Yəni Sultan Süleymanın bu məsələdə daxili narahatçılığı olsa belə, bunu onun Səfəvi sarayına göndərdiyi məktublarında elə də hiss etmək mümkün deyildi. Əksinə, qarşılıqlı münasibətlərin daha da mülayimləşməsi xətrinə Osmanlı sultanı səfəvilərə qarşı kobudluqları ilə tanınan Van bəylərbəyi Mustafa paşanı bu vəzifədən azad edərək onun yerinə Xosrov paşanı təyin etdi (71).

Şahzadə Bayəzidin geri qaytarılması ilə bağlı Osmanlı-Səfəvi yazışmaları iki ildən də artıq davam etdi. Doğrudur, Bayəzid məsələsinin bu qədər uzanması elmi-tarixi ədəbiyyatda Şah Təhmasibin qarşı tərəfdən daha çox güzəşt və fayda əldə etmək məqsədi ilə əlaqələndirilir. Sözsüz ki, Şah Təhmasib öz mövqeyinin və marağının möhkəmlənməsinə çalışa bilərdi. Amma onun yazışmalarnda Şahzadə Bayəzidin geri qaytarılması müqabilində konkret istəklərinin həyata keçməsi əlamətlərini görmək mümkün deyildir. Onun bu məsələ ilə bağlı dilə gətirdiyi məsələ Şahzadə Bayəzidin sağ qalması, bunun üçün zəmanət verilməsi, onunla bağlı qəbul etdiyi andın pozulmasından qaçmağa çalışması və s. idi. Şah Təhmasib Osmanlı şahzadəsinin Şahzadə Səlimə verilməsi mümkünlüyünə öz məktublarında toxunmuşdu. Lakin bu zaman da onun sağ qalacağına ümüdini itirmirdi.

Şahzadə Bayəzidlə bağlı Osmanlı və Səfəvi əmirləri arasında da yazışmanın olduğu məlumdur. Bu yazışma Məsum bəy Səfəvi, Sunduk bəy Qorçibaşı, Şahqulu xəlifə ilə Rüstəm paşa, Əli paşa, Pərtöv paşa və Fərhad paşa arasında aparılmışdı. Səfəvi mənsubları bu yazışma zamanı iki dövlət arasında sülh əldə edilməsinə məmnunluqlarını bildirmiş və bu sülhün davam etməsinə maraqlı olduqlarını açıqlamışdılar. Bu yazışmada da Şahzadə

Bayəzidin məsələsinə toxunulmuş və onun həll edilməsi üçün Osmanlı elçilərinin yenidən Qəzvinə göndərilməsi məsləhət bilinmişdi. Məktubda Şahzadə Bayəzidin geri qaytarılmasının ləngiməsinə görə bir narahatlıq müşahidə olunurdu. Səfəvi əyanları Osmanlı şahzadəsinin geri qaytarılmasının ləngiməsində Şah Təhmasibin günahının olmadığını bildirirdilər. Bu yazışmanın ruhundan görmək mümkündür ki, Səfəvi sarayı Şahzadə Bayəzidin qaytarışının gecikdirilməsinin Osmanlı sarayında narahatçılıqla qarşılanmasından xəbərdardır. Amma bu yazışmada belə bir məqam da var ki, Amasiya razılaşmasının əldə edilməsindən keçən altı il müddətində Şah Təhmasib tərəfindən Osmanlı sarayına dörd dəfə yüksək elçilik heyəti və bu heyətlə birlikdə çoxlu sayda qiymətli hədiyyələr göndərilmişdi. Qarşılığında isə Osmanlı sarayından oxşar hədiyyələr alınmamışdı. Yəni Şah Təhmasib göstərdiyi nəzakət və ehtiramın qarşılığını ala bilmirdi və mümkün idi ki, ona göstərilən bu saymazlıq da Şahzadə Bayəzidin geri qaytarılmasının yubadılmasına bir səbəb ola bilərdi. Səfəvi əyanları da məktubda bəyan edirdilər ki, əgər şahzadə Bayəzidin ələ keçirilməsi üçün Osmanlı qoşunları Səfəvi hüdudlarına daxil edilsə, onda Şahzadə Bayəzidin və onun övladlarının təhvil verilməsi barəsində söhbət ola bilməz. Çünki bu vaxt onların fikrincə, hər kəs artıq öz canının hayında olacaqdı, kimsə Şahzadə Bayəzidin və onun övladlarının taleyini düşünməyəcəkdi. Səfəvi əyanları Osmanlı əyanlarından xahiş edirdilər ki, onların narahatçılığı Sultan Süleymana çatdırılsın və onun tərəfindən elə hərəkət edilsin ki, atılan addımlar iki dövlət arasındakı xeyirxah münasibətlərin qorunmasına xidmət etmiş olsun(72).

Hansı addımların atılması deyiləndə, sözsüz ki, ilk növbədə müharibəyə apara biləcək addımlar nəzərdə tutulurdu və göründüyü kimi, Səfəvi sarayı mövcud olan narahatçılıqların silahlı qarşıdurmaya gətirməsini arzu etmirdi. Əslində, Osmanlı sarayına da məlum idi ki, qoşunları hərəkətə gətirməklə Şahzadə Bayəzidi ələ keçirmək mümkün deyil. Hərəkətə gətirilən qoşunlar Qəzvinə yetişənə qədər Şahzadə Bayəzidin məsələsi Osmanlı sarayının xeyrinə həll edilməyə də bilərdi. Ona görə Osmanlı

sarayı da yaranmış vəziyyətə müəyyən dözümlülüklə yanaşmaq məcburiyyətində idi. Səfəvi əyanlarının məktubuna Osmanlı əyanları da cavab yazdılar. Həmin cavab yeni baş vəzir olmuş Əli paşa və məktubda adı xatırlanan əyanlar tərəfindən imzalanmışdı. Osmanlı əyanları da iki dövlət arasında sülhün və sabitliyin saxlanmasına tərəfdar olduqlarını bildirirdilər. Onlar eyni zamanda onu da bəyan edirdilər ki, əldə edilmiş əhd-peymana sədaqət Sultan Süleymanın xasiyyətindədir, o heç bir əhd-peymanın pozulması istiqamətində bir addım atmamışdır. Səfəvi dövləti ilə əldə edilmiş sülh anlaşmasının pozulmayacağı da onlar tərəfindən əminliklə qeyd edilirdi. Osmanlı əyanları həm də iki dövlət arasında əldə edilmiş sülh anlaşmasının hər iki dövlətin xeyrinə olduğunu və bu anlaşmanın pozulması ehtimalının olmadığını bildirirdilər. Osmanlı əyanalrı özləri də iki dövlət arasında əldə edilmiş anlaşmanın qorunmasına tərəfdar olduqlarını bildirirdilər. Onlar eyni zamanda Şahzadə Bayəzid məsələsi ilə bağlı hədiyyələrin verilməsinin mümkünlüyünə də toxunur və bildirirdilər ki, bu hədiyyələrin göndərilməsi Şahzadə Bayəzidin təhvil verilməsindən sonra icra oluna bilər.

Elmi-tarixi dövriyyədə Osmanlı sarayının ikinci vəziri Məhəmməd paşa ilə Ərzrum hakimi Lala Mustafa paşanın da Şahzadə Bayəzidlə bağlı Şah Təhmasibə göndərdikləri məktub vardır. Həmin məktublarda da Şahzadə Bayəzid hadisəsindən söz açılır, onun rəhbərliyi altında baş verən müxalifətçilikdən danışılır və onun geri qaytarılmasına toxunulurdu (73). Yəni Şahzadə Bayəzid Osmanlı sarayı üçün belə bir təhlükəyə çevrilmişdi və bu təhlükənin sovuşdurulması Osmanlı sarayı üçün ciddi bir başağrısı idi.

Osmanlı sarayının Şahzadə Bayəzidlə bağlı narahatçılıqlarının güclənməsi sözsüz ki, Şah Təhmasibə bəlli idi. Vaxt ötdükcə Şah Təhmasibin bu məsələdə manevr etmək imkanları da azalmaqda idi. Çünki iki dövlət arasında əldə edilmiş Amasiya razılaşması da Osmanlı şahzadəsinin geri qaytarılmasını tələb edirdi. 1561-ci ildə Osmanlı sarayının baş vəziri Rüstəm paşanın dünyasını dəyişməsindən sonra Şah Təhmasib tərəfindən Şah-

zadə Səlimə bir təzkirə göndərildi. Dörd bənddən ibarət olan həmin təzkirədə Şahzadə Bayəzidin qaytarılması məsələsi əsas mövzu oldu. Bu təzkirənin birinci bəndində Şahzadə Bayəzidin qətl edilməsi barəsində məsələ vardır. Bildirilir ki, Şahzadə Bayəzid qətl edilməyincə iki dövlət arasında asayiş də bərqərar olmayacaqdır. Əslində, məlumdur ki, belə bir məsələ Osmanlı sarayı tərəfindən qaldırılmışdı. Şah Təhmasib yazırdı ki, Şahzadə Bayəzidin qətli və onun övladlarının salamat geri qayıtması "Həzrət Sultan Səlim xanın dövlətinə layiqdir". Şah Təhmasib sonra da əlavə edirdi ki, atəş yandırmaq heç də ağıllı əməl deyildir və Şahzadə Səlim qarşısında da belə bir məsələ qaldırdı ki, Şahzadə Bayəzidin qətli və övladlarının sağ-salamat geri qayıtması üçün qərar verilsin və onlar barəsində həmin qərara uyğun hərəkət edilsin. Burada diqqəti cəlb edən bir məqam ondan ibarətdir ki, Şah Təhmasib bu təzkirəsində Şahzadə Səlimə dövlətin rəhbəri kimi müraciət edirdi. Bununla o, çox güman ki, həm də Sultan Süleymandan sonra hakimiyyətə gəlməli olan Şahzadə Səlimin hakimiyyətini öncədən tanımaqla iki dövlət arasındakı münasibətlərin davamına nail olmaq istəyirdi. Şah Təhmasibin toxunduğu ikinci məsələ Rüstəm paşa ilə bağlı idi. Onun yazdığından belə bir qənaət hasil olur ki, Rüstəm paşa Şahzadə Bayəzidin və onun övladlarının geri qaytarılmasını istəmirmiş. Çünki Şahzadə Bayəzidin və onun övladlarının geri qaytarılacağı təqdirdə onların salamat qalacağına Rüstəm paşa əmin deyildi. Şah Təhmasibin yazdığından da aydın olur ki, təhlükəni hiss etdiyi üçün Rüstəm paşa Bayəzidin və onun övladlarının geri qayıtmasına müəyyən maneçilik yaradırmış. Rüstəm paşanın "cəhənnəmə vasil oduğuna" şükrünü bəyan edən Şah Təhmasib bildirirdi ki, daha bütün işlər Şahzadə Səlimin nəzarəti altındadır. Ona görə də tezliklə nümayəndə heyəti göndərilə bilərdi ki, məsələ istənilən şəkildə həll edilsin. Təzkirədə toxunulan üçüncü məsələ olaraq Şah Təhmasib bir daha Şahzadə Bayəzidin Osmanlı sultanının adamlarına verilməyəcəyi barədə and qəbul etdiyini bəyan edirdi. Yenə bildirilirdi ki, qəbul edilən anda əsasən, Şahzadə Bayəzidin və onun övladlarının sultan elçilərinə təslim

edilməsi mümkün deyil. Şah Təhmasib təklif edirdi ki, sultan tərəfindən Ərzrum bəylərbəyi Mustafa Lala paşa və Şahzadə Səlim tərəfindən də Turağ ağa elçi kimi Qəzvinə gəlsinlər. O da xahiş olunurdu ki, Şahzadə Bayəzidlə bağlı öz sifarişini Şahzadə Səlim yazılı şəkildə Turağ ağa vasitəsilə göndərsin və həmin sifarişə əsasən də əməl edilsin. Təzkirədə toxunulan dördüncü məsələ iki dövlət arasındakı münasibətlərin gələcəyi barəsində idi. Şah Təhmasib istəyirdi ki, hakimiyyətə gəlməsindən sonra iki dövlət arasında münasibətlərin düşmənçiliyə çevrilməyəcəyinə, Şahzadə Səlim tərəfindən şəfqət göstəriləcəyinə and qəbul olunsun. Səfəvi şahı əmin olmaq istəyirdi ki, Şahzadə Bayəzid məsələsinin ortaya düşməsindən doğan narahatçılıqlar gələcəkdə dövlətlər arasında xoş münasibətlərin saxlanmasına mənfi təsir göstərməyəcəkdir (74).

Nəzərə alınsa ki, Osmanlı sarayının baş vəziri Rüstəm paşa 1561-ci il iyun ayının sonlarında dünyasını dəyişmişdi (75), deməli bu məktubun yazılması həmin ilin yayının sonları və payızının əvvəlinə təsadüf edə bilərdi. Yəni Sultan Bayəzidin Qəzvinə gəlməsindən xeyli vaxt keçməsinə baxmayaraq, onun geri qaytarılması ilə bağlı aydın bir mövqe mövcud deyildi və tərəflər hələ də öz mövqelərini aydınlaşdırmaqda idilər.

Şahzadə Səlim bu təzkirəyə yazdığı cavabında Şah Təhmasibin qaldırdığı məsələlərə demək olar ki, qaneedici cavab verdi. Onun cavabı kifayət qədər yığcam və konkret idi və bu baxımdan ənənəvi yazışmalardan fərqlənirdi. Şahzadə Səlim əvvəlcə Şahzadə Bayəzidin və onun övladlarının öldürülməsi məsələsinin ortada olmasına toxunur və bildirirdi ki, həm özü və həm də Osmanlı sultanı bu məsələnin həyata keçməsinə tərəfdardırlar. Bununla bağlı artıq hökm verildiyi və onun icrasının mümkünlüyü bildirilirdi. Bütünlükdə, Şahzadə Səlimin cavab təzkirəsinin mətni belə idi: "Əvvəla, təzkirəyi-şərifədə Sultan Bayəzid və oğulları qətl olunmayınca rahəti-tərəfeyn hasil olmaz deyu buyurulmuş vaqiə izalələri müansibi-dövlət və müstəvcibi-istirahətdir. Bu müxlisinizin müqtəzası və padşahi-aləmpənah həzrət-

lərinin dəxi rizası onun üzərindədir. Rəfüdəfi babında əmri-aliləri südur edib icrası lütfünüzə məvqufdur.

İkinci: Rüstəm paşa mürd olub mani bət-tərəf olmuşdur deyə buyurulmuş bihəmdullahi vəlmənnə ki, dövlət yar və ruzgar müsaidkar olmuşdur. Ümiddir ki, əmri-məhud vücuda gəlmək babında lütfünüz məşhud ola.

Üçüncüsü: Və bu mühimmi itmam içün hakimi-Ərzirum ilə bu canibdən Turağ ağa göndərilməsi izhar olunmuş, vilayəti-Van müqərri səadətə qərib olmağın Van bəylərbəyisi Xosrov paşa qulların ixtiyar edüb və Turağ ağa bəndəniz bilfil dəftərdarımız olub bunda xidməti lazıması olmağın irsalı mümkün olmayıb mütəmidlərimizdən Cavubaşımız Əli ağa irsal olundu. Ümiddir ki, itmami-məsləhət buyurula.

Dördüncüsü: və bu müxlislərinə səltənət müyəssər olduqda sülhü səlah mabeyn içün sövqənd olunması sifariş olunmuş, ol xüsus üçün dəxi ənvayi-ükudi eymanla əhdnamə təhrir olunup irsal olunmuşdur. Ümiddir ki, qiyamətə dəkin mabeynimizdə məhəbbət və müvəddət üzərə ola" (76).

Şahzadə Səlim də Rüstəm paşanın ölümündən sonra müsaid bir şərait yarandığını qeyd edir və Şahzadə Bayəzidlə bağlı məsələnin həlli istiqamətində Şah Təhmasib tərəfindən lütf göstəriləcəyinə ümid edirdi. Kimlərin elçi sifəti ilə Səfəvi sarıyana göndərilməsinə gəlincə, Şah Təhmasibin istəyi tamamilə nəzərə alınmamışdı və bunu nə ilə bağlı olduğunu Şahzadə Səlim öz təzkirəsində açıqlayırdı. Sultan Səlim bildirirdi ki, Şah Təhmasibin elçi kimi görmək istədiyi Turağ ağa onun dəftərdarıdır və işləri də çoxdur. Onun əvəzinə Səfəvi hüdudlarına daha yaxın olan Van bəylərbəyi Xosrov paşa sultan elçisi kimi seçilmişdi. Şahzadə Səlimi isə bu elçilikdə onun çavuşbaşısı Əli ağa təmsil etməli idi. Nəhayət, Sultan Səlimin hakimiyyət başına gəlməsindən sonra iki dövlət arasında münasibətlərin pozulmayacağına gəlincə, Osmanlı şahzadəsi bu fikirlə razılaşdığını bildirir və həmin razılığın sübutu kimi bu məsələ ilə iki dövlət arasında əhdnamə hazırlanaraq onun da elçilər vasitəsilə göndərildiyini yazırdı. Öz tərəfindən isə Şahzadə Səlim iki dövlət arasında xoş

münasibətlərin qiyamətə qədər davam edəcəyinə ümid etdiyini bildirirdi.

Sultan Süleyman Səfəvi şahına göndərdiyi məktublardan birində Şahzadə Bayəzidin ətrafında olan on minlik qoşun dəstəsinin qırılmasını Şah Təhmasibin öz maraqlarına çatmaq üçün etdiyini bildirirdi və bununla bir növ ona işarə edilirdi ki, həmin hadisədən sonra Şahzadə Bayəzid daha arxayın bir vəziyyətdə Şah Təhmasibin nəzarəti altına alınıbdır. Baş verən hadisənin həm də iki dövlət arasında faydalı əlaqələrin möhkəmlənməsinə xidmət etmədiyi bildirilirdi. Osmanlı sultanı tərəfindən göndərilən məktubda ona da işarə edilirdi ki, şaha qarşı sui-qəsd hadisəsi ilə bağlı Şahzadə Bayəzidin qətlə yetirilməməsi Şah Təhmasibin ondan faydalanması niyyəti ilə bağlıdır. Əslində, Şahzadə Bayəzidin geri qaytarılmamasının uzanması da elə bununla bağlanırdı. Şah Təhmasib göndərdiyi cavab məktubunda tərəflər arasında dostluq və asayişin mövcudluğuna tərəfdar olduğunu bir daha təkrar edirdi. Sultan Süleymanın son məktubu Ərzrum vilayətinin hakimi Mustafa paşanın iki xidmətçisi tərəfindən gətirilmişdi. Sultan məktubunun belə aşağı səviyyəli məmurlar tərəfindən gətirilməsini Şah Təhmasib narazılıqla qarşılayırdı. Buna baxmayaraq, həmin elçilər elçi adına layiq şəkildə qarşılanmışdılar və bunu Şah Təhmasib məktubunda da açıqlayırdı. Şah Təhmasibin aldığı məktubda o ya yazılıbmış ki, Şahzadə Bayəzid öldürülsün, onun övladları isə Osmanlıya göndərilsin. Osmanlı sultanının yazdıqlarından belə bir qənaət hasil olurdu ki, Şahzadə Bayəzidi təhvil verməməkdə və ya onu öldürməməkdə Şah Təhmasibin məqsədi ondan Osmanlı dövlətinə qarşı istifadə etmək idi. Səfəvi şahı isə bu ittihamla razılaşmırdı. O bəyan edirdi ki, Şahzadə Bayəzidin həbs edilməsi və onun ətrafında olan qüvvələrin zərərsizləşdirilməsi, əslində, Osmanlı sultanına olan hörmətindən irəli gəlirdi. Ciddi ittihamların olmasına baxmayaraq, Şahzadə Bayəzidin öldürülməməsini də Şah Təhmasib iki dövlət arasında yaranmış yeni münasibətlərə ehtiramla əlaqələndirirdi. Şahzadə Bayəzid və onun övladlarının gələcək taleyi ilə bağlı isə Şah Təhmasib yazırdı ki, bu barədə Sultan Süleymanın hökmü nə olsa,

ona da əməl olunacaqdır. Şah Təhmasib yazırdı: "Sultan Süleymana bir xidmət göstərmək fürsəti axtarırdım və o səbəblə Bayəzid və oğullarını əsir aldım və Bayəzidin on minlik ordusunu dağıtdım. Bayəzidin pis və yaxşı adamlarını sənin üçün dağıtdım. Oğullarına öz oğullarım kimi baxıram. Əgər Bayəzidə bir damla güvənim olsaydı, onu həbs etməzdim və onun yaxınlarını öldürməzdim. Onu öz yanımda saxlamağım sizə bağlıdır. Mavəraünnəhr və Hind sultanlarına görə deyil. ...Bayəzid ona etdiklərimdən dolayı məndən ümidsiz və yaxınlarını öldürdükdən sonra necə mənimlə Bayəzidin arasında münasibət yaxşı ola bilər ki? ...Bayəzid və oğulları haqqında nə buyursanız onu edərəm. Hökm sizin fələyə bənzəyən uca həzrətlərin əlindədir. ...Mənim Bayəzidi Osmanlıya qarşı istifadə etmək məqsədim yoxdur. Bayəzidin dirisindən və ya ölüsündən heç bir xeyrim yoxdur. Bayəzidlə belə davranmağına görə aramız necə yaxşı olacaqdır?" (77).

Şah Təhmasib sonra məktubunda sual verməklə davam edirdi ki, onunla Şahzadə Bayəzid arasında münasibətlər nə üçün yaxşı olmalı idi ki? Onun yazdığına görə, Şahzadə Bayəzid böyük səlahiyyətlərə və çoxlu nemətlərə malik olmasına baxmayaraq öz padşahına, möhtərəm atasına qarşı nə fayda verə bilmişdi ki, Səfəvi şahına da bir fayda verə bilsin? Ona görə də Şah Təhmasib bir qədər də qabarıq şəkildə bəyan edirdi ki, Şahzadə Bayəzidin və onun oğullarının həyatı və taleyi barəsində Osmanlı sultanının qərarı nə olsa, həmin qərar da qəbul olunacaqdır. O öz məktubunu belə tamamlayırdı: "Əmr həzrət xandigarın əmridir, hökm o fələk-miqdar alihəzrətin hökmüdür" (78).

Şahzadə Bayəzidin təhvil alınması üçün Xosrov paşanın rəhbərliyi altında göndərilən elçilik heyətindən əvvəl Mərəş hakimi Əli paşa və Həsən ağa Qapıçıbaşının rəhbərliyi altında bir Osmanlı heyəti də Səfəvi sarayına gəlmişdi. Bu heyətin göndərilməsi də iki dövlət arasında davam edən yazışmalarla müşayiət olunurdu və ehtimal olunurdu ki, həmin heyət Şahzadə Bayəzidlə bağlı sonuncu heyət ola bilər. Bu elçilik heyəti Sultan Süleymanın məktubunu təqdim etməklə bir neçə ay Qəzvində gözləməli oldu. Məktubda yenə başlıca mövzu Şahzadə Bayəzidin və onun

övladlarının geri qaytarılması məsələsi idi. Ənənəvi olaraq qarşı tərəfin vəsfi ilə başlayan məktublarda olduğu kimi, bu məktubda da Şah Təhmasib kifayət qədər səxavətlə vəsf olunmuşdu. Səfəvi şahı Osmanlı sultanı tərəfindən İsgəndərə, Qeysərə, Firudinə oxşadılmış və o, peyğəmbər övladı adlandırılmışdı. Şahzadə Bayəzidin təhvil verilməsi ilə bağlı Sultan Süleyman öz məktubunda belə bir ifadə işlətmişdi: "Anlaşmaya uymak dəyərli padişahların görəvidir. Böyləcə dünya xalqı əmniyətdə olacaqdır". Anlaşma dedikdə Sultan Süleyman yəqin ki, Amasiya anlaşmasını nəzərdə tuturdu. Həmin anlaşmanın şərtlərində qaçqın təbəələrin qarşılıqlı şəkildə geri qaytarılmasınının olduğu da elmi-tarixi ədəbiyyatda öz əksini tapmışdır. Lakin bu anlaşmanın şərtləri ilə bağlı Sultan Süleymanın yuxarıda istinad olunmuş məktubunda qaçqın təbəələrin geri qaytarılması məsələsi mövcud deyildir. Çox güman ki, bu məsələ şifahi şəkildə razılaşdırılmışdı. Məlum olduğu kimi, Amasiya anlaşması ümumiyyətlə, şifahi razılaşma üzərində qurulmuş bir anlaşma idi.

"Əhsənüt-təvarix" əsərində bu elçilik heyətinin Qəzvinə gəlməsi haqqında belə qeydlər vardır: "Bu il içində Sultan Süleymanın yaxın və etimadlı adamları cümləsindən olan Mərəş hakimi Əli paşa və Həsən ağa Qapıçıbaşı başda olmaqla yeddi yüz altı nəfərlik elçilik heyəti seşənbə günü, 22 rəcəbdə (08.04.1561) Qəzvinə gəldi. Onlar daş-qaşla bəzədilmiş əşyalardan ibarət hədiyyələr, məsələn, qılınc kəməri, xəncər kəməri, nəfis Firəng qumaşları və bir çox digər nəfis şeylər gətirmişdilər. Kübar əmirlər və adlı-sanlı müqərrəblər onları görməyə getdilər və onların gəlişini salamladılar. Neçə gündən sonra dinin pənahı olan şah fələyin qübbəsinə həsəd verən səadətli bargahında əyləşdi və cahanın pənahı olan dərgah günəş üzlü, Müştəri əlamətli padşahzadələrin çöhrəsinin nuru ilə bəzəndi. Həzrətin (Şah Təhmasibin) əmirləri və dövlət ərkanı öz yerlərində qərar tutdular. ... Əli paşa və Xosrov ağanı tam izzətlə içəri gətirdilər. Dinin pənahı olan şah elçilərlə iqtidar sahibi padşahlar və ali mənşəli hökmdarlar üsulu ilə görüşüb məhəbbətli kəlmələrin və dostyana ifadələrin sığalı ilə onların könül aynasından kədər pasını təmizlədi.

Yemək məclisinin qurtarmasından sonra [şah] izzət və ehtiramla öz otağına çıxıb getdi. Neçə aydan sonra ali məqamlı hökmdar [elçilərə] külək rəftarlı və zərnigar yəhərli atlar, dəyərli xələtlər və bol ənamlar hədiyyə etdi, əmirlər silkinə daxil olan Cəfər bəy Ustaclunu onlarla birlikdə elçi sifəti ilə Ruma göndərdi" (79).

Doğrudur, bu heyət Səfəvi sarayında qonaqpərvərliklə qarşılandı, heyət üzvlərinə böyük hörmət və ehtiram göstərildi. Amma həmin heyət də Şahzadə Bayəzidi təhvil ala bilmədi. Bunun səbəbi barəsində aydın bir fikir söyləmək mümkün deyildir. Elmi-tarixi ədəbiyyatda bununla bağlı bəzi fikirlər ortaya qoyulmaqdadır. Güman edilir ki, Şah Təhmasib Osmanlı şahzadəsinin təhvil verilməsi əvəzində qarşı tərəfdən qiymətli mükafat gözləyirdi (80). Əsas kimi isə Şah Təhmasibin təzkirəsində söylədiyi son cümlələrə istinad olunur: "Həzrəti-Xandigarın göndərdiyi adamlar gəldilər. Onlara buyurdum ki, paşa həzrətləri və Həsən ağa, siz xoş gəlib, səfa gətirmisiniz. Həzrət xandigar nə buyursa, mən də elə edərəm. Onun hökm və göstərişlərindən kənara çıxmaram. Nə qulluğu olsa, yerinə yetirərik. Ancaq belə bir dəyərli xidmətlərimiz üçün həzrət Xandigar və Səlim xandan onlara layiq mükafat istəyirəm. Dostluq aləmində Xandigardan xahiş edirəm ki, Sultan Bayəzid və uşaqlarına əziyyət yetirməsin" (81).

Şah Təhmasib burada konkret olaraq hansı mükafatı nəzərdə tutduğunu söyləməmişdir. Bütünlükdə, Şah Təhmasiblə Osmanlı sarayı arasında aparılan yazışmaların hazırda elmi-tarixi dövriyyədə olan sənədlərinin heç birində Şahzadə Bayəzid qarşılığında pul və ya ərazi güzəşti istənilməsi barəsində heç bir təklif və istək yoxdur. Həm bununla bağlı olaraq, həm də Şah Təhmasibin təzkirəsindəki qeydlərlə bağlı olaraq Şahzadə Bayəzidin təhvil verilməsinin gecikdirilməsinin yalnız qarşı tərəfdən hansı mükafatın verilməsinə bağlanmasının birmənalı şəkildə qəbul edilməsi yəqin ki, doğru olmazdı. Yuxarıda qeyd edildiyi kimi, Şah Təhmasib tərəfindən Osmanlı sarayına göndərilən elçilik heyətlərinin Sultan Süleymana və onun ətrafına çoxlu və qiymətli hədiyyələr aparmasına baxmayaraq, qarşı tərəfdən gələn elçilik heyətləri bunu etmirdilər. Yəni dövrün protokol normaları qarşılıqlı şəkil-

də riayət edilmirdi. Mərəş hakimi Əli paşa ilə Həsən ağanın rəhbərliyi altında gələn elçilik heyəti də gözlənildiyinin əksinə olaraq Şah Təhmasibə qiymətli hədiyyə gətirməmişdi. Bildirilir ki, bu elçilik heyəti özü ilə çoxlu hədiyyələr gətirsə də, onlar qızılbaş əyanları üçün nəzərdə tutulmuşdu (82). Yəni Osmanlı sultanı tərəfindən Şah Təhmasibə qarşı daha bir sayğısızlıq nümayiş etdirilmişdi. Şah Təhmasib "layiqli mükafat" deyəndə nəhayət ki, protokol normalarına riayət edilməsini də nəzərdə tuta bilərdi.

Şah Təhmasibin Şahzadə Bayəzidlə bağlı Osmanlı sultanından nağd pul göndərilməsini gözləməsi haqqında bəzi tədqiqatçılar Avropa səfirlərindən birinin məktubunu əsas tutmağa çalışırlar. Məsələn, Avstriya imperatoru Ferdinandın səfiri olan Busbeqin yazdığına görə, Şah Təhmasib Osmanlı sultanına göndərdiyi məktublarının birində bu məsələni konkret olaraq ortaya qoymuşdu. Guya həmin məktubda Şah Təhmasib yazmışdı: "Bu mürəkkəb məsələnin həlli üçün İran sarayına hörmətli elçilər göndərilsin, Bayəzidin saxlanması üçün onun çəkdiyi xərclər ödənsin. Buna görə də Sultan Süleyman anladı ki, İran şahı nəğd pul istəyir və onun paşaları da məsləhət gördülər ki, məsələ nəğd pulla həll olunsun və Osmanlı qeyri-zəruri müharibənin aparılmasına sürüklənməsin. Ona görə də Həsən ağanı yaşlı paşaların biri ilə İran sarayına göndərdilər"(83).

Bir daha qeyd edilməlidir ki, Osmanlı sarayı ilə Səfəvi sarayının hazırda elmi-tarixi dövriyyədə olan heç bir məktubunda Şah Təhmasibin qarşı tərəfdən nağd pul və ya ərazi istəməsi və ya digər konkret hədiyyə istəməsi haqqında hər hansı bir işarə yoxdur. Ona görə Avropa səfirinin belə bir məlumatına istinad edilməsi məsələyə aydınlıq gətirilməsi üçün yəqin ki, yetərli sayıla bilməz.

Yuxarıdakı yazışmalardan birində Osmanlı əyanları ona işarə etmişdilər ki, Şahzadə Bayəzidin məsələsinin Osmanlı sarayının istəyincə həll ediləcəyi təqdirdə Səfəvi sarayına qiymətli hədiyyələr veriləcəkdir. Yəni bu məsələ həll olunandan sonra belə bir hədiyyə verilə bilərdi. Məlumdur ki, sonradan doğrudan da Səfəvi sarayına müəyyən hədiyyələr verilmişdi. Əgər doğrudan da

Şah Təhmasib sonradan ona hədiyyələr göndəriləcəyini əsas tutaraq Şahzadə Bayəzidi təhvil vermişdisə, onda bu iş elə Mərəş hakimi Əli paşa ilə Həsən ağanın elçilik heyəti Qəzvinə gələndə də edilə bilərdi.

Mənbələrdə və elmi-tarixi ədəbiyyatda mövcud olan məlumata görə, Mərəş hakimi Əli paşa ilə Həsən ağa Qapıçıbaşının elçilik heyəti geri qayıdanda Şah Təhmasib öz əli ilə məktub yazıb Həsən ağa vasitəsi ilə Sultan Süleymana göndərdi. Həmin məktubun əsli hələlik elmi-tarixi dövriyyədə yoxdur. Amma bu məktuba Sultan Süleyman tərəfindən verilən cavabın mətni elmi-tarixi dövriyyədə vardır. Əgər bu mətnin doğruluğu qəbul edilərsə, guya Şah Təhmasibin mükafat və Qars vilayətini istəməsi Həsən ağa ilə göndərilən məktubda öz əksini tapıbmış. Sultan Süleymanın Şah Təhmasibə göndərdiyi məktubun mətni belədir: “Dövlətpənah Təhmasib şah, şöylə məlum ola ki, kəndi xəttin ilə məktub göndərib səddeyi-rəfi məkanım bəndələrindən Qapıçıbaşı Həsən ağa ilə ağız sifarişin edib əhd və yəminlərlə demişşən ki, Bayəzidi oğulları ilə tutub həbs etdiyim xatiri-şərəfi-padşah üçündür. Əmr və fərmani-humayuna əslən müxalifətim yoxdur. Amma bunun kimi xidmət müqabiləsində küllü umaram demişşən. Çün cəmi ədyanda əhd və yəmin mötəbər olub küfr ilə islam arası əhd və yəmin ilə fərq olunur. Bəna əla-zəəlek inayəti-xosrovanəmdən doqquz kərə yüz min altun və əsədi ərcümənd oğlum Səlim xan dəxi üç kərə yüz min altun Ərzruma göndərmək üzrəyiz. Gərəkdir ki, sən dəxi mütəmedi-aliyə adamlar ilə Bayəzidi oğlanları ilə göndərəsən, ta onda ənamı təslim edələr və Qars iltimas olunmuşdu verələr. Madam ki, ol tərəfdən təğyiri vəz[iyyət] olmayıb, dostluqdan qeyri nəsnə vaqe olmaya. Ər olandan xilaf gəlməz. Ər olanın sözü ərdir. Vəssəlam” (84).

Orijinalı olduğu kimi təkrarlanmış bu məktubun tarixiliyi bir sıra məqamlarına görə şübhə doğurur. Əvvəla, bu mətn çox sadə dildədir. Amma elə istinad edilən məktublardan da göründüyü kimi, Sultan Süleymanın məktubları bu gün üçün son dərəcə çətin anlaşılacaq bir dildə yazılmışdır. İkincisi, Sultan Süleyman və Şah Təhmasib dövrü üçün məktubların yazılışının qəbul olunmuş

norması var idi. Məktubda qarşı tərəfin vəsfi, müqəddəs ayələrə müraciət, nəzm parçaları və s. Lakin yuxarıdakı mətn birbaşa Şah Təhmasibə müraciətlə başlayır. Üçüncüsü, Şah Təhmasibə bu məktubda "sən" deyə müraciət edilir. Bu da məktubun doğruluğunu şübhə altına alır. Bununla belə, müəyyən qənaətlərin ortaya qoyulması üçün həmin məktubdan elmi-tarixi araşdırmalarda istifadə edilməkdədir.

Van bəylərbəyi Xosrov paşanın rəhbərliyi altında yollanan bu elçilik heyəti ilə həm Sultan Süleyman, həm də Şahzadə Səlim Səfəvi şahına məktub da göndərdilər. Öz məktubda Osmanlı sultanı əsasən iki məsələyə toxunmuşdu. Bunlardan birincisi sözsüz ki, Şahzadə Bayəzidin və onun övladlarının geri qaytarılması idi. Sultan Süleyman yazırdı ki, elçiləri ilə birlikdə oğlu Şahzadə Səlimin də adamları göndərilmişdir və xahiş olunurdu ki, Şahzadə Bayəzid və övladları həmin adamlara təhvil verilsin. İkinci məsələ isə, Səfəvi hüdudlarından Osmanlı hüdudlarına köç etmək istəyənlərin qarşısının alınması ilə bağlı Şah Təhmasib tərəfindən qaldırılan məsələyə verilən cavab idi. Səfəvi şahı xahiş etmişdi ki, Səfəvi hüdudlarında yaşayan insanların Osmanlı hüdudlarına qaçmasına yol verilməməsi sərhəd mühafizə qüvvələrinə tapşırılsın. Sultan Süleyman belə bir göstərişin verildiyini yazırdı.

İstər Sultan Süleymanın, istərsə də Şahzadə Səlimin məktubları bu gün üçün kifayət qədər qəliz olan bir dildə yazılmışdı. Sultan Süleymanın məktubunun əvvəli ənənəvi olaraq müqəddəs ayələr, bu ayələrin toxunduğu məsələlər, Səfəvi şahının vəsfi kimi məsələlərə həsr olunmuşdu. Bu məktubun əsas mətləbi, yəni Şahzadə Bayəzidin təhvil verilməsi və bununla bağlı elçilik heyətinin göndərilməsi ilə bağlı olan hissəsi aşağıdakı kimidir:

"Və dərci-dürər-məknun nameyi-fəsahət-məşhunda işar olunmuş ki, münhiyani-əxbar və mühəbbirani-məhəbbət və müsərrət-işar olan elçiyani-namdar ilə dövlət-disar, izzət-şiar fərzəndi-ərşədi-əsad və əmcəd oğlum Səlim tale bəqahu bifəzlillahil məlikül kərim tərəfindən mötəmet adamlar göndərilmiş olaydı Bayəzidi və övladı onlara təslim olunurdu.

Şimdi həman intizar yarar və kargüzar kimi nəsnələri gəlməsinə dər irsalına mübadirət oluna ki, təslim olunub baisi-təəkküdi-ixlas və təzayüdi-ihtisas ola denilmiş. Binaən-əla həzə ol zati-mülki-simat və həmideyi-sifatın belliğaəllahü ila aləd-dərəcat qəvaidi-sidq və niyyət və səfayi-məhəbbətləri üzrə bu mühimmin təhsili və bu xüsusun təkmili üçün halən Van bəylərbəyisi olan əmirül-ümərayil-kiram, kəbirül-kübəra fəhham, xülqədri-vəlihtimam, sahibül-izzə vəl ehtişam Xosrov paşa dame iqbalühü və necaha əmalühü-səadət-nihad və nəcabət-nejad mümaileyh oğlum Səlim tərəfindən fülan, ol cənabi-fələk iqtidar və rafiül-miqdar, savbına zührül-əyan, fəxrül-əkran, Ənəsqulu –zidə məvduhü ilə bər vəchi-istical Rəvanə irsal olundular. İndə hüsuli-şərifül-vüsal məmuldur ki, Bayəzidi cümlə övladı ilə onlara təslim edib göndərməkdə müqtəzayi- himəm vəla-şiyəm südur və zühur edə ki, ta intiqaziz-zaman müstəcəbi-atufət və müvəddət bipayan və müstəclibi-əsbabi-hülləti-ədəb iqtiran olub hər dəm mürafiqi-yeganəgi və dosti mürafiq və səidi-yümni səadət müsaid və müvafiq olmaq mühəqqəqdir.
Və məzmuni-meymuni-kitabi-ənbərin-niqab və bəlağət-nisabda bəzi mültəməsat ki, rica və təmənna olmuşdur. Məsmui-səmiqəbul olub həyyiz hüsul məvsul olmuşdur.

Əvvəla, taybeyi-təyyibeyi səniyyeyi-müqədəssiyeyi-nəbəviyyə ki, məhbiti-fyüzi məhzi Rəbbani və mühiti-məvaqibi-məvahibi sübhani olub mətləyi-nur lamiyüz-zühur cəmali Məhəmmədi – əleyhüssəlam və mənbeyi cüybari-Kövsər asar nəvvali-kəmali-Əhmədi əla sakiniha əfdalüs-səlati vət-təhiyye matəaqebət əl-qadəte vəl-aşiyyə civari-izzəti-mədarında olan biqayifələk irtifaından nişaneyi-sahəti-ələmi mələkut və aramgahi məhrəman əsrari-xəlvət-sərayi cəbərrüt nümuneyi-rövzəti-cənnət-bərin büqayi-rəfi sidrə ayində müşahidi-eimməyi-əzam və məraqidi-əcilleyi-kiramın bəzinə ki, hər biri rəhbərani-məsalikidin və sərvərani-məmaliki-yəqindir rizvanüllahi-əleyhüm əcməin mərküzi-xatiri-ətir və mərnüzi-zəmiri-xurşidi-müasir vaqe olan nüzur və sədəqat və silati mübərrati isal və əda üçün adam göndərilmək isteda olunmuş.

İmdi ol zati-sütudəsifət və məkrəmət-simatın rəyi-şərifi aləm-ara və təbi-münifi-həqayiq namlarına zahir və hüveyda ola ki, mabeyndə olan hüsni-təviyyət və məhzi-məhəbbət müqtəzası üzərə itmami-məham və incahi-məramda məsayi-cəmilə və yümni-iqbal zühur edib məşarünileyhi Xosrov paşayla dövlət-iqtiran, səadət-nişan oğlum Səlim canibindən varan adamına Bayəzid ilə dörd nəfər övladı təslim olunub irsal olunduqda ki, nəticeyi-ləvazimi-müsəddiqat və şəritayi-təriqayi-müvalefatdır. Məqsədi-məvud əlamə hüvəl-məmul, şərəf-qəbülə məvsul qılınıb minbəd dəxi üslübi-mərqub əhd və vəfa və adəti meymənəti-məkrun sidq və səfa, məhasini-xəsayili mülük üzərə məri və məsluq olduqca vaqe olan cümləyi-əməl və mültəməsat və məqasid və müradat səhifeyi-zəmiri-münirdə surətpəzir olduğundan ziyadə müyəssər və məhsul olmaq müsəmməm və müqərrərdir.

Saniyən, ol cənabi-alilazalə məhtufən bilməalinin qürreyi-nasiyeyi tacdarı, kürreyi-bəsireyi-şəhriyarı övladi-əmcadları haqqında sabiqən ənvayi nəvazişi xosrovanə və əsnafi-əvatüf-mülükanə, mərcü məmul olduqda məbzul və məqbul olmuş ikən halən varid olan kitabi-müşkin-niqabda həniz ol gülbini-gülüstani-cah və cəlal və ənvari-hədayiqi-izz və iqbalın qönçəyi- vücudları gülşəni-şühudda növşükufdə olduqları işar və inba olunmuş. Pəs istinşaki-rəvayihi-inayəti-amimə və istişmami-fəvayihi riayət cesimə üçün əltafi-şamilədən təşrifati-kamilə süduru məlhuz inzari-isabəti-asar vaqe olmuşdur.

Və fəhvayi-kəlam dürər-nizamnameyi- müsərrət ihtitamda ol cənabi-səltənət məabın mənsubat və mütəəlliqatından bu canibə gələnləri ümərayi-sərhəd mən edib rüxsət verməyib geri ol canibə göndərilmələri işarət olunmağın bu xüsus üçün nigahbani-əqalimi-məmurə olan ümərayi- əzam və müstəhfizani-məmaliki-məhsurə olan kübərayi-kirama tənbih və təkid olundu ki, ol canibdən icazət olmadan gələnlərin təriqi-mürurlar bəstə vəqantari-üburları şikəstə olub əsla bir fərdin sərhəddi-vilayətə düxulun təcviz etməyib geri müavidət etdirələr.

Və ol xosrovi-cəmşid və iqbal və hümayuni-qal qibəlindən şəritayi-vifadət və təriqəti-risalət üzrə halən varid olan hami-

li-namə-nüma və nəqli-kitabi-səmasima, ümdətül-ərkan, zübdətül-əkran yasavulbaşı Vəli bəyin zide qədrihü müəddəma təcdidi-qəvayidi-məhəbbət və təmhidi-müaqidi dosti və müvəddət üçün göndərilən mütəmdüd-dövləti-səniyyəti, mütəmmənül-həzrətül-aliyyəti, məfharül-əyan Cəfər sultan dame məcdühü-mürafiqi-müvafiq olmağın məshubi-əcnasi-təşrifati-faxirə və ənvayi-təbərrikati-zahirə qılınıb bitəxir və tərahi onlar dəxi müvafiqəti-tövfiq və meymənət və mükarənəti-tövfir və tövkir və hüsni icazətlə ol səvbi-səvabi-məaba sərfi-inan etmək müqərrərdir. Ta ki müşarinəleyh Xosrov paşa və oğlumun adamısı ilə Bayəzid və cümlə övladı irsal qılınıb sərhəddə vasil olduqlarında bunlar dəxi təxminən mütəlaqi olalar.

Və mənazili və mərahildə hifz və hərasətləri və tərtibi-mühimmat və məsləhətləri üçün hüddami-vəla məqamdan adamlar qoşulmuşdur. İnşaallahür-Rəhman ənqəribiz-zaman müsaidəti əvni-Yəzdan həmrahi ənsar və əvan səbəbi ilə salim və qənim ol cənabı məkrəmət-mənab və səltənət məabın məclisi-rəfi və məhfüli-mənilarına vasil olalar.

Baqi dərəcati-aliyati-dövlət-hümayun və şərafəti-qürüfati-izzəti-ruzəfzun, ənvari-təvaliyi-mütafiyi səadət və rifət və əsasri savati və ləvamii-səltənət və miknət ilə müzəyyən və mühəlla və rövşən və mücəlla olub təzaüfi-ətaya ilahi və tərадüfi-əlayi-namütənahi övqati-xüsusda saətə məkrun və məxsus və əsasi-həşməti-üzma və əsbabi-şövkət və etila ilə manənd bünyani-mərsus bəd əbədül-abad” (85).

Göründüyü kimi, bu məktubda Şahzadə Bayəzidin və onun övladlarının təhvil alınması və Osmanlıya gətirilməsi haqqında söhbət gedir. Sultan Süleyman hətta təhvil alınan şahzadələrin mühafizəsi və müşayiət olunması üçün əlavə adamlar da göndərildiyini bildirirdi. Bununla bir növ Şah Təhmasib də əmin edilirdi ki, Bayəzidin həyatı nəzarət altında olacaqdır. Osmanlı sultanı özü də ümid etdiyini bildirirdi ki, Allahın (Yəzdan) köməyi ilə təhvil alınan adamlar salim şəkildə vasil olacaqlar.

Eyni zamanda Şahzadə Səlim də Səfəvi şahına məktub göndərdi. Həmin məktubunda Şahzadə Səlim yazırdı ki, atası tərə-

findən elçi kimi göndərilən Xosrov paşaya onun adamları olan Əli ağa Çavuşbaşı ilə Firuz bəy də qoşulmuşdur. Bununla, Şah Təhmasibin qəbuluna həm Osmanlı sultanının adamlarından əlavə Şahzadə Səlimin adamlarının da göndərildiyi bəyan edilirdi, həm də Şahzadə Səlimin şərti də Şah Təhmasibə çatdırılırdı. Şah Təhmasib əvvəlki məktublarında yazmışdı ki, andını pozmamaq üçün Şahzadə Bayəzidi Sultan Süleymana deyil, Şahzadə Səlimə təslim edə bilər. Bunun üçün Şah Təhmasibin yanına Şahzadə Səlimin də adamları göndərilmişdi. Digər tərəfdən, məlumdur ki, Şah Təhmasib Osmanlı sultanı qarşısında müqəddəs məkanlarda görülən işləri nəzarət altında saxlanması üçün iki nümayəndəsinin İraqa göndərilməsi məsələsini qaldırmışdı. Şahzadə Səlim Səfəvi şahına göndərdiyi yeni məktubunda bu şərtin həyata keçməsini birmənalı şəkildə Şahzadə Bayəzidin və onun övladlarının təhvil verilməsi ilə bağlayırdı. Yəni Şahzadə Bayəzid və onun övladları Şahzadə Səlimin adamlarına təhvil veriləcəyi təqdirdə, Şah Təhmasibin nümayəndələri də müqəddəs məkanlara göndərilə bilərdi. Məktubda deyilirdi:

"Ənvayi-lətayifi-nəzayifi dəvəti səlihət ki, qərini-qəbuli-mücibüd-dəvət və əsnafi-şərayifi-səniyyət ki, rəhini-icabəti-qazilhacət ola. Töhfüyi-məclisi-sami-simat və hədiyyeyi-məhfili-münifi-ali dərəcat qılındıqdan sonra inhayi-mühibbi-səadətxah və ənbayi-müxlisi-bilaiştibah oldur ki, mətaviyi-fəhvayi-mülatifeyi-gövhərbar və mücariyi-məzmun mühafizəyi-lətafət-siardan müstəfad olundu ki, caddeyi-vəfa və vifaqda sabit və qayim və nəhci-əhd və misaqda rəsih və daim olub Sultan Bayəzidi və oğullarını bu müxlisləri canibindən irsal olunan mütəmedlərimizə təslim və bu əmri-lazümüt-təqdim ol vasitə ilə bu dəfə tətmin olunmaq babında eyməni-qədimə təcdid və bünyani-ühud və üqud təşyid və təmhid olunmuş müstədami-ömr və dövlət olub həmişeyi-təriqi-istiqamətdə istiqrar və istehkam, bünyani-sədaqət və müvafiqətdə istimrar üzərə olunmaqdan hali olunmaya.

Binaən əla zalik padşayi-gitipənah və səadət-dəstgah, zillillah halədət xilafətühü həzrətlərinin fərmanı vacibül-izanları üzərə bu əmri xatir və kari-isabətpəzir müqabiləsində mükafat və mücazat

üçün sabiqən vədə olunan atiyyat və hibat və hədəya və ənamat və təhiyyə və ihdar və elçiyani-alimiqdar ilə səvbi-səvabi əsara irsal və isdar olunub müqəddəm bər vəchi-istical və imhal bu xidməti əda və bu mühimmi ifa üçün cümlə mütazimani-divan və mütəmədini əyan və ərkanımızdan qüdrətül-əmacid vəl-əkarim camiyül-məhamid vəl-məkarim çavuşlarım başı Əli ağa zadə məcduhu və fəxrül-əmasil vəl-əkran mütəfərriqələrimdən Firuz bəy zadə qədrihü təyin olunub əmirül-ümərayi-qiram, kəbirül-kübərayi-fiham, züqlqədri vəlməcdi vəl ehtiram, sahibül-izzə vəl-ehtişam biməzidi əvatifül-mülkil əla Van bəylərbəyisi Xosrov paşa daməiqbalühü ilə irsal olundular.

Təqbili-riqabi-şərif və təlsimi-turabı cənabı münif ilə müstəsid və müşərrəf olduqlarında məmul və məlhuzdur ki, əl kərimi "iza və əhədə vəfa" müqtəzasınca istifayi-müvəəd və müəhhəd babında səy və iğdam "in-nəllahə yəmürü-küm ən-təəddül əmanəti ila əhliha" [*Nisa surəsis, 58-ci ayə*] müstədasınca təslimi-əmanət və ədayi-vədiat xüsusunda cədd və ehtimam oluna ki, **anlar bu canibə mütəvəccih olub sərhəddə mütəlahiq olduqlarında** bu canibdən varan tühf və hədaya dəxi mütəlasiq olub tərəfeyndən qəvaidi əhd və misaq və mübəhhət və vidad və vəfa və vifaq və müvəddət və ittihad bər vəchlə istiqrar və istehkam və bər təriqlə isticab və istilzam bula ki, inşaallahür-rəhman əclindən əman və müsaidəyi-ömrü zaman olub nəşayü abi-həyatla cəsədi-haki zəban olduqca əhd və peyman və müvalat və müsafat babında müvəəd və eymən müəqqəd və müşəyyəd olduğundan qeyri övladi-əmcad, səadət-nihad və ehfadi-incad səltənət nüjadınıza dəxi ənvayi-təkidatla vəsiyyət və əsnafı tənbihatla sipariş və nəsihət oluna ki, ta qiyami-qiyamət rahi-xilafa güzar dide-yi siqəqlə ol canibə əsla nəzər olunmayıb qəvayimi- sülh və səlah qaim və qəvayidi-fövz və fəlahı babında tutub tərəfeyndən rəaya və bərayanın asayış və itminanı babında mücidd və səy və ühudi-qədimə və hüquqi-müstədiməyə rəy olub əsbabı-müvalat və musafata bais və dai olalar.

Və məzmuni-fəsahət məşhununda və nameyi-humayında Hərəmi-möhtərəm Mədineyi-Nəbəviyyənin əla sakiniha əfdalü

təhiyyət və səlavat civarı feyz-əsarında büqayi-baqi olan ərbabı qədri-rəfi əimmeyi-izam əleyhüm rizvanüllahil Məlikül-Əlləm məşahidində səhifeyi-lətifeyi-xatiri-xatirdə nəqşpəzir olan səda-qət və nüzuru vücuhi-müşarifə məsruf olunmaq babında istida olunmuş ilmi-cahanara və rəyi səvab-fərmaya layih və vəzih ola **ki, ədayi-rizayi-padşahi və itmami-mərami-şahinşahi buyu-rulub məzkur övladiylə adamımıza təslim edib göndərildiyi dərgahi-fələkiştibah həzrəti-sahib-qiraniyə vasil olduqda** cümlə vaqe olan mültəmisat və müradat bidiriğ və məbzul olub bunlardan qeyri bər mühim və mətlub və bərməqsudi-mərğub ki, əqləmi-xəyalə lövhi-bəldə təhrir qılınıb zəkimzadeyi-gülün hə-qayiqi-səfir olub dəbiri-rövşəni-tədbir və bəlağəti təbir xizane-yi-zəmirdən səhfeyi-məhəbbətnamədə təsir eyləyə. Bişəkki və rəyb mühəssil və məqbul olması mükərrərdir.

Ol həzrəti-cəmşid həşmətin mütəəliqatından hər ki, bu tərəfə gələ ümərayi-sərhəd onları iadə edib iqamətə icazə verməyələr deyə buyurulmuş, ol babda dəxi ehkam-cəhan-mütayi-padşahi və əvamir vacibül-ittibayi çahinşahi südur edib ümərayi-sərhəd məmur olunmuşlardır ki, xüsusu məzburda kəmali-səy ilə bizləri məqdur eyləyələr.

Və məvsuli-müfavazayi-meymənət əsər, dövlət-məab, izzət-intisab, müşarün-əleyh Bəşarət bəyləzəla qasimihü mübəşşiran və məqsudihi müyəssiran ədayi xülaseyi-səfarət və ədəbi-vi-fadətdən sonra hüsni-riayət və yümni-icazət ilə mürafiqi- qeydi iqbal olup astaneyi-səadət-aşineyi-padşahda olan fəxrül- həvas vəl-müqərribin imarət-mərtəbət Cəfər sultan zadə məcduhiyə həmrah qılınıb səvbi-səhəti-izz və cəlalə rəvanə olunmuşdur. Həmişə qəvayidi-əyalət və cihanyanı və məbaniyi-sədaqət kam-rani biməyamini-mədalət müşəyyəd və məzbut və zilali- nəval-nisfət və atiyfət bər səhhəti məmləkət məmdud və məbsut bəd əbədül-əhad və əlihül-əmcad” (86).

Diqqət yetirilərsə, Şahzadə Səlimin məktubunda haşiyəyə alınmış sətirlərdə də Şahzadə Bayəzidin Osmanlı sarayına çatdı-rılmasından söz açılır. Yəni bu sətirlər də Şah Təhmasibdə bir əminlik yarada bilərdi ki, Şahzadə Bayəzid qarşı tərəfə təhvil

verildikdən sonra sağ və salamat şəkildə Osmanlı sarayına çatdırılacaqdır.

Səfəvi sarayına yollanan elçilər vasitəsilə eyni zamanda Əhdnamə də göndərilmişdi. Bu Əhdnaməni Amasiyada əldə edilmiş sülh anlaşmasının davamı kimi də qəbul etmək mümkündür. Əgər Amasiya anlaşması öz ifadəsini Sultan Süleymanın məktubunda tapmışdısa, Əhdnamə ilə hücum etməmək barəsində öhdəlik ayrıca bir sənəd kimi ortaya qoyulmuşdu. Doğrudur, bu sənəd birtərəfli öhdəliyin yazılı təsdiqi idi. Yəni Osmanlı sarayı bir tərəfli qaydada və yazılı şəkildə Səfəvi dövləti üzərinə hücum etməməyi öz üzərinə götürürdü. Səfəvi sarayı isə şifahi şəkildə bu öhdəliklə razılaşırdı. Əhdnamə Şahzadə Səlim tərəfindən hazırlanmışdı. Bununla bir tərəfdən Şahzadə Səlimin gələcək hakimiyyəti təsdiqlənmiş olurdu. Digər tərəfdən də Osmanlı sarayı ikitərəfli münasibətlərin gələcəkdə də anlaşma üzərində davam etməsinə zəmanət vermiş olurdu. Bu Əhdnamənin əvvəlində əhdə vəfa saxlanılması barəsində ümumi fikirlər söylənilmiş və bu fikirlər müqəddəs ayələrlə təsdiqlənmişdi. Əhdnamənin iki dövlət arasında münasibətlərin gələcəyinin müəyyənləşdirilməsi ilə bağlı olan hissəsi belədir: "...Zira padşahi-əzam şahənşahani-qiran ma beynində qəvayidi-sülh və səlah qaim və zəvabiti-əhd və misaq daim olub tərəfeyndən təvəddüd və təəllüf mütəəlliq və əlaqəyi-məhəbbət mütəhəqqiq olacaq. "Ən-nəsü əla dini mülüki-him" [hədis] müqtəzasınca əmmeyi-rəaya və qəffeyi-bəraya ol ülfət və hüllət hesabiylə rifahiyyəti-hal və fərağati-hal üzərə olub səbəbi-imarət və abadani məmalik və baisi əmni-məvatin və məsalik olmaqla əshabi-hüzur və istirahət amade və əbvabi-asayişi-cəmiyyət qüşadə olub zəbani-həvəs və əam və lisani-cümləyi ənam, dəvami-dövlətiebadi-yi peyvəndi padişah və qiyami-hiyami-rifat qədri-büləndi-şahənşahi dualarını vəzifeyi-henqami-sübh və şah idinmək mükərrər və mühəqqəq və müəyyən və müsəddəqdir.

Binaən əla zalikə sultanül-güzati vəl-mücahidin, qatilül-kafərəti vəl-müşrikin, qahirül-fəcərəti vəl-mütəmərridin, mütinül-həqqi vəl-milləti vəddin, müqisül-islami vəl-müslimin, rəfiü ila-

miş-şəril-mübin, övnül-xuda və muinüd-din münhizat ləhü mülikül-vəri təvan və izanən mən-kəsahü bimülikül-ərzi ka-ne-ke-mən biz-zücrati dürran cə mırcanən sultanüs-səlatin fil-aləm, xaqanül-xəvaqini-ərəb və vel-Əcəm, maliki-riqabi- üməm, sahibüs-seyfi vəl qələm, əl-mühəlla zatehü bihilyəti hüllətül-lütfi vəl-kərəm, vəl-müəlla, sanehü biülüvvəti-himəm və hüsnüs-siyəm... Sekəndər-dər, qəzənfər-fər, Süleyman nişan, giti-sitan, alicah, səadət-dəstgah, cəhanpənah, əl-mühtəşşü binəşşi “İnnəllahə yəmüru bil-ədli vəl ihsan” [*Nəhl surəsi, 90-cı ayə*] əl-müəyyədü bitəyyidatil məlikül-mənnan əs-sultan bin Sultan ibn Sultan Sultan Süleyman xan bin Səlim xan bin Bayəzid xan lə-zalə bisatü səltənətühi binəşatüs-səadəti ila yövmin-nüşuri mənşürati və livayü mədalətihü fikazail-xilafəti ila nətfiş-şuri mənşüran həzrətləri alicənab, səltənətməab, səadətnisab, döv-lətiqtisab, siyadət-intisab, fifət-kəbab, şövkətayab, gərdünbistat, keyvan mənzilət, bəhram şəvlət, müştəi səadət, xurşidizzət, nahid söhbət, ürtarid-fitnət, kəmər-təalat, xədiv müəzzəm, şahənşahi müfhim, vəliyi-vilayəti-Əcəm, sipəhsalari-gərdunhişam, aliyyi-himam, cəlüyyi-şiyəm, mələkil-xəsail, mələküş-şəmayil, göv-həri-dərci-səadət, əxtəri-bürci-şərəf, dürri-dəryayi-siyadət, xosr-ov gərdun vəkər dər hərimi mülk və millət kamyab vəkambıhs bər firazi dövlət kambin və kamkar, sahibül-mürüvvət vəl-kərəm, mədəni-məkarimi-əxlaq və məhasiniş-şiyəm, qütbi-fələki-rifat və şəhriyar, mərkəzi-daireyi-xilafət və tacdarı, həşmətpənah, izzət dərgah, Cəmşidcah, xürşid gəlah, həzrəti Təhmasib Şahla zalət-şümusə dövlətihi-taliatən min-üfqil-iqbal və nücumə səadətihi satiətən min şəfaki-izzi vəl-iclal ilə ma beyndə olan üdvan və şiqak bi həmdüllahi məlikül-xəllaq vəfa və vifaq və hüsni-ittifaqa təbdil və cəngi-küdurət mirati-dosti hüllətdən cilayi-şəfayi-məhəbbətlə təşkil olunub qəvaidi-müsalihə və məvaidə təşyid və məbaniyi-əhd və müsaq təmhid və təyid olunmuşdur. Bu səa-dətxahın dəxi inayəti-biqayəti-Rəbbaniyə və iradəti-biilləti Şa-mədaniyyə müqtəzasınca riayəti-fəthi-ayati-iqbal və səadəti-qübbeyi-fələki-səltənət və qümmeyi-asimani-rifət üzərə əfraxtə və əsbab və ləvazimi-dövlət və iclali-bihasəbül-istedad vəl-

istihqaq və saxtə olub gövhəri-vücud səadət-nihadım silki-mülki-cəhanbanidə münxərit və səmti-rişteyi-nəsəbi-nəbili-əsili-cəlili-Osmanidə müntəzid və münzabit olub mən ki, ol silsileyi-aliyyəyə irtibat ilə müftəxir və mübahi, dəri-dərtyayi şahi və dəri-asimani-padşahi çerağı-neyyiri-dudmani-Osmani və xələfi- biəş-rəfi Həzrəti Süleyman şən əl-mütəvəkkilü aləl-məlikil-kərimi-mənnan Səlim xan.

Fəhvayi-əl-vələdi sirru əbihi müqtəzasınca validi-eazzü və əzamü və əkramü və efhamü, Padşahi-aləm hüllidat xilafəti-həz-rətlərin ol alicah-səadətdəstgah, əbbədət-dövlətühu və zidət şöv-kətuhu xidmətləriylə olan əhdü peyman və ükudu üymanın mü-qərrər və müəddəs və müəyyən və müsəddəq tutub şöylə əhd et-dim ki, inayətü fərzi-ilahi və əlayi-valayi namütənahi, qərini-hal və rəhni-amalım olub nüzuli-iqbali-səriri-səltənət və iclal və rəb-ti-omuri cümhur və zəbti-məmalik və məsaliki sügürda istibdad vəmistiqlal müyəssər olursa "Allahü şahidün və kəfa billahi şa-hidən" ol vahibül-ətaya və caliqül-bəraya cəllə-cəlalühü və əam-mə nəvalühü-haqq üçün ki, aşikara və nihan aləmi-qədim mühi-tinə yeksan və ehya və imatəti-qüdrəti-əamməsinə nisbət səhl və asandır. ...Madam ki, ol canibdən münaqizəyi-əhdü misaq zahir olmaya, bu canibdən əsla tərəfi-rahi-xilafə güzar və dideyi-şikak ilə ol canibə nəzər olunmayıb caddeyi-sidq və tərəqqiyi-hüsni-vəfadan üdul və insiraf olunmaya. Kəzalik ol canibi-məali-kibab həzrətləri dəxi siyanəti-ülfət və riayəti-zəvabiti-məhəbbət edib rizayi-səadət iqtizayi-padşahi və iradəti-zəfər-qayəti-şahənşahi-dən qeyri şəvba ibitaf və inhirafi rəva görməyələr. Ta ki ma-beyndə olan uküd mübrəm və əsası müsəlləha bər-vəchlə mü-şəyyəd və müstəhkəm ola ki, qüruri-dühur və əvam ilə xələlpəzir və mürur və üburi-əzman və əyyam ilə nöqsangir olmaya.

Tərəfeyndən dosti və hüllət mütəvali və müvəddət və mə-həbbət mütətali olub hüccac və zəvvar və əbnayi-səbil və əshabü əsfar və ərbab və tüccari-şigər və kibər, məmalik və əhrar, leyl və nəhar, əktər və əmsarda səyyar və dəvvar olub cümləyi-varidin və sadirin rifahiyyət və təmkin ilə həmişə sər və karlarında istiqrar üzərə olub harisani-qəla və şügüri-məsalik və zabitani əkasi-

yi-ətrafi-məmalik və paşayani-sərhəddi-məmləkət və valiyani-əknafi-vilayət mane və müzahim olmaya. Madam ki, nihali- vücudi-bostan selsali-həyatla tari və çəməni-zindəgani tündbadi-fənadan bəri ola. Bu əhd və misaq ilə yövmi-təlaq qaim və əsbabı müvafiqəti-vidad və ləvazimi-müşadəqət və ittihad daim olub əqad və ənsabımızdan övlad və əmcad və əhfadi-səadət-nihad və nəcabəti-nijadlarımıza dəxi tənbih və təkidlə vəd və vəsiyyət və pənd və nəsihət oluna ki, daima bünyani-sülh və səlahi müşəyyəd və qəvaidi-əmn və fəlahi müməhhəd dutub əyyami-səadəti- padşahidə tərəfeyndən rəaya və bəraya hüzuri-hal və itminani-hal üzrə olub ədiyyi-dəvami-dövlət və iqbal və əsniyeyi-qiyami-səadət və iclale müdavimət və iştiğal üzrə olalar" (87).

Şahzadə Səlim birtərəfli qaydada Osmanlı dövləti tərəfindən Səfəvi dövlətinə qarşı hərbi təhlükənin baş verməyəcəyinə əhd edirdi. Əgər Səfəvi dövləti tərəfindən sülhün pozulması istiqamətində hər hansı bir hadisə baş verməzdisə Şahzadə Səlim sülhün qorunacağına vəd verirdi. O eyni zamanda sülhün qorunacağı təqdirdə Səfəvi zəvvarlarının təhlükəsiz şəkildə Osmanlı ərazisindən keçib getmələrinə, habelə ticarət işlərinin aparılması üçün hər hansı bir maneçilik yaradılmayacağına da söz verirdi. Amma bütün bu əhdlər o vaxt qüvvəyə minə bilərdi ki, Şah Təhmasib də vədinə əməl edərək Şahzadə Bayəzidi və onun övladlarını Osmanlı sarayının elçilərinə təhvil verəydi.

## 6. Şah Təhmasib tərəfindən Şahzadə Bayəzidin təhvil verilməsi və onun qətli

Sultan Süleymanın və Şahzadə Səlimin məktublarını gətirən Osmanlı elçiliyi 1562-ci il iyul ayının 16-da Qəzvin şəhərinə yetişdi. Bu elçilik 200 nəfərdən ibarət böyük bir nümayəndə heyəti idi. Elçilik heyətinin rəhbəri Xosrov paşa və elçiliyin digər nümayəndələri Şah Təhmasiblə görüşdülər, Sultan Süleymanın və Şahzadə Səlimin məktublarını ona təqdim etdilər və bəzi məlumatlara görə, Xosrov paşa bəyan etdi ki, Şahzadə Bayəzidin təhvil veriləcəyi təqdirdə Şah Təhmasib Osmanlı sarayının böyük

mükafatını alacaqdır. İstənilən halda, Şah Təhmasibin artıq vaxtı uzatmaq imkanları məhdud idi və ona görə də Şahzadə Bayəzidi və onun övladlarını Xosrov paşa elçiliyinə təhvil verdi. Mövcud olan məlumatlara görə, Şahzadə Bayəzid öz övladları ilə birlikdə 1559-cu il oktyabr ayının 24-də Qəzvinə daxil olmuş, 1560-cı il aprel ayının 19-da zindana atılmış və 1562-ci il iyul ayının 24-də (hicri qəməri tarixi ilə 969-cu il zilqəde ayının 22-də cümə günü) Xosrov paşa elçiliyinə təhvil verilmişdir (88).

Bəzi araşdırmalarda Şahzadə Bayəzidin və övladlarının iyul ayının 23-də təhvil verildiyi qeyd olunur. Çünki bu tarix həm də Osmanlı şahzadəsinin və onun övladlarının qətlə yetirildiyi gündür.

Çox güman ki, həbsxana həyatı Şahzadə Bayəzidin görünüşünü dəyişmişdi. Ona görə də mövcud olan məlumata görə, Şah Təhmasib Osmanlı elçiliyinin üzvü olan Sinan ağa Çaşinigirdən Şahzadə Bayəzidi tanıyıb-tanımayacağını soruşdu. Bununla təhvil verilənin doğrudan da Şahzadə Bayəzidin olması haqqında Osmanlı elçiliyinin əminliyi də müəyyənləşməli idi. Sinan ağa da bildirmişdi ki, cavanlığında Şahzadə Bayəzidi görmüşdür. O vaxt ki, onda Şahzadə Bayəzidin saqqalı hələ çıxmamışdı. Yəni Sinan ağa Bayəzidi o vaxt görmüşdü ki, onda onun saqqalı hələ yox idi. Təhvil verilənin doğrudan da Bayəzid olmasına əminlik hasil olması üçün Şahzadə Bayəzidin saqqalı qırxıldı. Belə bir vəziyyətdə Sinan ağa onu tanıdı və təhvil verilənin doğrudan da Şahzadə Bayəzid olmasını təsdiqlədi (89). Elə həmin gün də Şahzadə Bayəzid və övladları Səfəvi sarayının gözləmədiyi bir halda Osmanlı elçiliyini müşayiət edən məmurlar tərəfindən qətlə yetirildilər. Sözsüz ki, Bayəzidin və onun övladlarının dərhal qətlə yetirilməsi əmri Osmanlı sarayından, konkret olaraq Şahzadə Səlim tərəfindən verilmişdi. Şahzadə Bayəzidin sağ qala bilməsi ehtimalı Osmanlı sarayını elə bir təşvişdə saxlayırdı ki, onun ələ keçirilən kimi qətlinə fərman verilmişdi. Mövcud olan məlumatlara görə, Şahzadə Bayəzid Qəzvinin At meydanında (90) kəmənd ipi ilə boğularaq qətlə yetirildi. Onun boynuna kəmənd ipi salındıqdan sonra sonuncu is-

təyinin nə olduğunu soruşdular. Şahzadə Bayəzid də sonuncu dəfə övladlarını görməyi və onlarla hallaşmaq istədiyini dilinə gətirdi. Lakin Osmanlı məmurları buna imkan vermədilər və fürsəti əldən çıxarmadan onu boğaraq öldürdülər. Sonra isə bu qəddarlıq Şahzadə Bayəzidin övladlarına qarşı həyata keçirildi və onların dördü də boğularaq qətlə yetirildi. Bu hadisə ilə bağlı mənbələrdə elə də geniş olmayan məlumatlarla rastlaşmaq mümkündür. Həmin mənbələrdən birində Osmanlı şahzadəsinin qətlə yetirilməsi belə verilmişdir: "Həmin il Ruma elçi getmiş yasavulbaşı Vəli bəy Ustaclu oranın hakimlərindən Xosrov paşa, çaşnigir Sinan bəy və Əliağa çavuş başı və 200 nəfər kişi ilə zilqədə [ayının] 14-də (16 iyul 1562) pəncşənbə günü Qəzvinə çatdılar. [Həmin ayın] 17-də (19 iyul 1562) axşam Səadətabad bağında [şahın ayaqlarını] öpməklə başıuca oldular. [Onlar] Xandigar [Sultan Süleymanın] xəttilə yazılmış əhd və peymandan ibarət məktub gətirdilər və o ölkədən gətirdikləri hədiyyələri verdilər. Sultan Bayəzidi 4 oğlu ilə zilqədə [ayının] 21-də (23 iyul 1562) pəncşənbə günü Xandigar [Sultan Süleymanın] buyuruğuna əsasən elçilərə təqdim etdilər. Onlar Xandigarın dediyi kimi, beşini də boğub həlak etdilər" (91).

"Əhsənüt-təvarix" əsərində də bu hadisə barəsində müxtəsər məlumat verilmişdir: "Daha öncə Ruma elçi gedən, Əmirqeyb bəy Ustaclunun qardaşı olan və o vaxt yasavulbaşı vəzifəsini daşıyan Vəli bəy xondgarın elçiləri ilə – Van hakimi Xosrov paşa, Əli ağa Qapıçıbaşı və iki yüz nəfər digər şəxslə – birlikdə pəncşənbə günü, zilqədə [ayının] 14-də (16.07.1562) Qəzvinə gəldi. Yekşənbə günü, həmin ayın 17-də (19.07.1562) Səadətabad bağında onlar büsatı öpmək səadəti ilə baş ucalığı tapdılar və xondgarın xətti ilə [yazılmış] məktubu təqdim etdilər. Şah onlara növbənöv hüsn-rəğbət göstərdi. Bundan öncə [şah] Fərruxzad bəyi göndərərək xondgarla əhd-peyman bağlamışdı ki, bu iki tərəfin birindən hər kim digər tərəfə qaçıb sığınarsa, onu təslim edəcəklər. Ona görə də pəncşənbə günü, zilqədə [ayının] 21-də (23.07.1562) Sultan Bayəzidi övladları ilə birlikdə xondgarın

istəyinə uyğun surətdə onlara təslim etdilər. Hamısını (Bayəzidi və dörd oğlunu) boğdular (öldürdülər)" (92).

"Xülasüt-təvarix" əsərində Bayəzidin edam edilməsi ilə bağlı verilən məlumatda bəzi fərqli məqamlara rast gəlmək mümkündür. Bu əsərin müəllifi Hüseyni Quminin fikrincə, Sultan Süleymanın Şah Təhmasibə yuxarıda haqqında danışılan və mükafat barəsində məbləğlər xatırlanan məktubu məhz Xosrov paşa elçiliyi ilə gətirilmiş və Səfəvi şahına çatdırılmışdı. Həmin məktubun mətni bu əsərdə də tam şəkildə verilmişdir. Lakin Sultan Süleymana məxsusluğu iddia edilən həmin məktubun "Xülasüt-təvarix" əsərindəki mətni də yuxarıda verilən mətndən fərqli məqamlara malikdir. Bu mətn belədir: "Əlahəzrət oğlum Şah Təhmasib bahadur! Şöylə məlum ola ki, dərgahi-səadətpənaha xəttin ilə məktub göndərib ənvayi-yəminlər ilə əhd və peyman edib rəfi-əlməkanım bəndələrindən Həsən nam qulum ağız xəbərləri sifariş edib və demişsiz ki, Bayəzidi tutub oğlanları ilə həbs elədiyim xatırі-padşah üçün əmri-fərmani-humayun müxalifətim olmayadır. Amma bunun kimi əzim xidmətin müqabilində küllü-asan umaram bildirmişsiz ki, çun cəmi ədyanda əhd və yəmin mötəbər olub küfr ilə islam ortasında əhd yəmin fərq olur. Bəna əla həza bu xidmətinin müqabiləsində inayəti-xosrovanəmdən dörd yüz min altın və ərcümənd səadətmənd oğlum Səlim xan canibindən yüz min altun sərhəd Ərzruma göndərilir və Bağdadda vaqe olan əəmeye-kəran rizvanullah əleyhüm-əcməin astanalarından iki nəfər adam göndərmiş isteda olunmuş icazət verildi və oğlu ki, sancaq iltimasının murad olunmuş, hərgah ki, dərgahi-səadətpənahıma göndərəsən ənvayi-riayəti-padşahanamla məri burulub dövləti-səadət əzimlə mükərrəm və möhtərəm qılına. Madam sizlərdən təğyiri-vəz olmaya, Allah və rəsula nəslən bəəd nəsli və fərən bəəd əsli yanımızda müxalif olunub dostluq və məhəbbətdən qeyri nisbət olmaya. Gər ki, siz dəxi Bayəzidi oğlanları ilə yari və motəmed adamlar ilə Ərzruma göndərəsiz. İltimas olunan ənamı anda təslim edərlər. Budur dəxi olmaya qeyri məktub-şərifə etimad edəsiz. Söz bir olur olanda, xilaf gəlmir. Bəndeyi-xuda, Süleyman" (93).

Göründüyü kimi, bu məktubda da Şahzadə Bayəzidin və onun övladlarının Ərzruma göndərilməsi haqqında söhbət gedir. Yəni bu məktubda da Osmanlı şahzadələrinin sağ-salamat Səfəvi ərazilərini tərk etməsi gözləntiləri öz ifadəsini tapmışdır. Bu da Şah Təhmasibdə Şahzadə Bayəzidin Səfəvi hüdudlarını sağ-salamat tərk edəcəyinə əlavə bir yəqinlik yarada bilərdi.

Adı çəkilən mənbədə daha sonra bildirilir ki, bu məktub və Osmanlı sarayından gətirilmiş hədiyyələr Şaha təqdim edildi. Amma yuxarıda yazılanlardan məlumdur ki, həm Sultan Süleyman tərəfindən, həm də Şahzadə Səlim tərəfindən Şah Təhmasibə başqa məktub və Əhdnamə göndərilmişdi. Bu mənbədə belə bir məlumat da var ki, Şahzadə Bayəzid və onun övladları qətlə yetiriləndən sonra onu Osmanlı elçilərinin özləri ilə gətirdikləri qara məxmərə bürünmüş tabutlara qoydular və dəvələrə yükləyərək İstanbula doğru istiqamət götürdülər (94).

“Tarix-i aləmara-yi Abbasi” əsərində isə bu hadisə ilə bağlı belə bir məlumat mövcuddur: “ikinci dəfə [Sultan Süleyman tərəfdən] aydın fikirli, başbilən bir kişi sayılan, Osmanlı xanədanının əməkdarlarından olan Xosrov paşa bir sıra etimadlı ağsaqqallarla bərəbər gəldi. Sultan Süleyman öz xətti ilə o həzrətə (Şah Təhmasibə) iki kəlmə [məktub] yazıb göndərmişdi. [Həmin məktubda] nəsilbənəsil aralıqdakı əhdü-peymanın təzələnməsinin və bunun and içilməklə möhkəmləndirilməsinin vacibliyi izhar olunur, sülh şərtləri xatırlanaraq və dostcasına sözlər ifadə olunaraq, Sultan Bayəzidin və oğullarının göndərilməsi istənilirdi. Bu təklifə etiraz etmək əhdü-peymanın pozulmasına, həngamə qopmasına və müsəlmanların vəziyyətinin korlanmasına gətirib çıxaracaqdı. Bu xahişə əməl etmək isə camaatın və Allah bəndələrinin rifahına səbəb olacaqdı. Məhz buna görə də o həzrət (Şah Təhmasib) bütün camaatın asayişini nəzərə alıb, sülh şərtlərindən vaz keçmədi və o xain fitnəkarı dörd oğlu ilə birlikdə sağ-sağlam Xosrov paşaya və onun adamlarına təhvil verdi. Beləliklə, cənnətməkan şah həzrətləri ilə Rum sultanı arasında sülhün əsasları bu ildə daha da möhkəmləndi və gözəl bir təsadüfdən, qeybdən gələn bir əlamətdən «sülh yaxşıdır» («əs-sülh

xeyr») sözləri [əbcəd hesabı ilə bu hadisənin] tarixinə müvafiq gəldi. Heç kimin xəyalından keçmirdi ki, onlar (Xosrov paşanın heyəti) bu vilayətdə [Bayəzidə] bir xətər yetirərlər. Amma onlar xondgarın fərmanı ilə tərəddüd etmədən və təxirə salmadan o beş nəfərin hamısını (Bayəzidi və dörd oğlunu) qətlə yetirdilər və onların cəsədlərini Ruma apardılar. ... Həqiqətən də, bu hadisə nəticəsində onun (Sultan Bayəzidin) fitnəyə bulaşmış vücudunda baş qaldırmış böyük çaxnaşma və fəsad aradan qalxdı və hər iki səmtdən sakitləşmiş fitnələrin hərəkətə gələcəyindən, camaatın əzab-əziyyətə düçar olacağından ehtiyatlanan hər iki tərəfin xalqları bu iztirab girdabının əlindən təskinlik tapdılar, onların sakitləşmiş ürəkləri daha da rahatlandı" (95).

Bu məlumatdan göründüyü kimi, Şah Təhmasib təhvil verdiyi Şahzadə Bayəzidin və onun günahsız övladlarının belə faciəli bir şəkildə və dərhal qətlə yetiriləcəyini gözləmirdi. Heç şübhəsiz ki, bu belə idi və Şah Təhmasib hətta çalışırdı ki, Bayəzidin və onun övladlarının sağ qalması üçün Osmanlı sarayından zəmanət də alsın. Türkdiılli araşdırmalarda olan bəzi məlumatlara görə, heç Sultan Süleyman da Bayəzidin dərhal qətlə yetirilməsini istəmirmiş və onun iradəsinin əksinə olaraq Qəzvinə göndərilmiş cəllad Əli ağa bu qətli həyata keçirmişdi (96). Amma Qəzvinə xüsusi olaraq cəlladın da göndərilməsi onu deməyə əsas verir ki, bu qətl əvvəlcədən planlaşdırılmışdı.

Qeyd etmək lazımdır ki, Şah Təhmasibin bu qətldən xəbərdar olması və onun qarşısını almaması barəsində bəzi araşdırmalarda müəyyən fikirlərlə rastlaşmaq mümkündür (97). Bununla Şah Təhmasibin şəxsiyyətinin və xarakterinin qəddarlığı haqqında bir fikir formalaşmaq meyli də özünü göstərməkdədir. Əslində isə bunu birmənalı şəkildə iddia etmək mümkün deyildir. Bir tərəfdən xarici elçilərin Qəzvinda belə bir qətli həyata keçirməsindən Şah Təhmasibin xəbərsiz olması təəccüblü görünə bilər. Lakin bu tədqiqata cəlb edilmiş mənbələrin heç birində Şah Təhmasibin həmin qətlin baş verəcəyindən xəbərdar olması barəsində məlumat mövcud deyil. Bu məsələni ortalığa gətirən müəlliflər daha çox ehtimallara söykənirlər. Amma yuxarıdakı istinaddan da gö-

ründüyü ki, "Tarix-i aləmara-yi Abbasi"nin müəllifinə görə, Şah Təhmasib bu qətlin Qəzvində törədilə biləcəyindən xəbərsiz idi. Elə yuxarıdakı məlumatlardan o da aydın olur ki, Sultan Süleyman da Şahzadə Bayəzidin təhvil alınan kimi dərhal qətlə yetirilməsinə razı deyildi.

Osmanlı salmanəçilərindən olan Mehmet Solakzadə isə qəribə də olsa Şahzadə Bayəzidin qətlində daha çox Şah Təhmasibi ittihamlandırırdı. Bu mənbədə olan məlumata görə, Şah Təhmasibdən aldığı məktubdan sonra Sultan Süleyman qətiyyətli addımlar atmaq qərarına gəldi: "Nəhayət, günlərin bir günündə məktub padşahın hüzurunda oxundu və padşah: "Nə vacibdir etsin, lakin lazım olan onun təslimidir", - buyurdu. Bu dəfə təkrar padşah tərəfindən vəzifəşünaslığı ilə şöhrət qazanmış dəftərdar damadı və bəylərbəyi olan Xüsrov paşa ilə Şahzadə Səlim xanın dərgahında çavuşbaşı olub, hazırcavablıqda və təsirli söz söyləməkdə usta olan Əli ağa birlikdə elçiliyə təyin olunaraq və əllərinə məktublar verilərək tezliklə İrana göndərildilər. Məktubda "Sultan Bayəzid ilə övladlarının gərək ölüsü və ya dirisi hər nə surətdə olursa-olsun fərmanınız üzrə əmrimiz yerini tapsın, bunlara təslim edəsən" – deyə işarə buyuruldu.

969-cu il məhərrəm ayının 15-də elçilər Qəzvinə çataraq şahın divanına daxil oldular. Şahzadələr üçün ayrılmış şahın bağında rəzil yaradılışlı şah keçib taxtına oturdu. Elçiləri hüzuruna gətirdi. Şahzadə Səlim xana mənsub olan Əli ağadan soruşdu: "Bayəzid xanı görsən tanıyarsanmı?" Əli ağa: "Gənc yaşımda şahzadəni bir neçə dəfə görmüşdüm. Hətta mürvətsiz bu fürsəti qənimət bilib, saqqalını qaldırmayıb şahzadənin təsliminə münasib bir yol gördü. Bayəzid xan, zəif bir halda bağın bir guşəsində göründükdə bir çox amansızlardan kimsə qoltuğuna girdi. Başında bir əmmamə, üstündə həqiranə bir əlbəsə və belində ucuz bir kəmər, beləcə bir könlü yaralı, gözləri nəmli idi. Bu heybət və üslub ilə nə vaxt ki, elçilərə təslim üçün özünü götürüb getdilər, o anda bütün xalq nankor Təhmasibin padşahın əmrinə itaət üzündən xainliyini və Osmanlı nəslinə ağır bir şəkildə həqarətini müşahidə etdilər.

Sözün qısası, o bəxtsiz şahzadənin dörd nəfər övladının və özünün işi tamam oldu. Ruhu və təmiz canı cənnət bağçaları tərəfinə uçub getdi. O an, o saat bir dərəcədə fitrət və bir mərtəbədə müsibət peyda oldu ki, Qəzvin xalqı fəryad və fəqana başlayaraq qəzəb və kin ilə şahlarına hər tərəfdən söyüb saymağa başladılar. Elçilər mənzilgahlarına döndükdə ardlarına düşüb xeyli daşqalaq etdilər" (98).

Şübhə yoxdur ki, Şahzadə Bayəzidin və onun günahsız övladlarının belə dəhşətli şəkildə qətlə yetirilməsi ürək ağrıdıcı bir faciə idi. Lakin onların qətlinin günahının Şah Təhmasibin üzərinə atılması da yəqin ki, doğru olmazdı. Çünki bir tərəfdən çevriliş cəhdindən sonra Şah Təhmasib istəsəydi Şahzadə Bayəzidi də qətl etdirərdi. Amma o bunu etmədi və məlumdur ki, Şah Təhmasib hətta Sultan Süleyman qarşısında da Şahzadə Bayəzidə toxunulmaması haqqında məsələ qaldırmışdı. Şahzadə Bayəzidin qətlə yetirilməsi Sultan Süleymanla Şahzadə Səlimin istəyi idi və bu istək onların yuxusunu da əllərindən almışdı. Məhz bunun üçün Şahzadə Bayəzid üzərinə böyük qoşun dəstəsi göndərilmişdi. Belə olmasaydı Şahzadə Bayəzidin Qəzvində olduğu vaxt onun Osmanlı hüdudlarında qalmış 3 yaşlı beşinci oğlu da qətl edilməzdi. Hətta Şahzadə Bayəzidin ardınca sonuncu elçilik göndərilməzdən əvvəl onun Osmanlı daxilində qalmış 3 yaşlı oğlu Sultan Süleymanın hökmünə əsasən boğularaq öldürülmüşdü (99).

Şahzadə Bayəzidin və onun övladlarının və o cümlədən də Osmanlı ərazisində qalmış beşinci oğlan övladının boğularaq qətlə yetirilməsi həm Qəzvində, həm də Osmanlı daxilində böyük qəzəblə qarşılandı. Xüsusi ilə bu qətlin aşura günü həyata keçirilməsi Qəzvin əhalisinin qəzəbini daha da artırdı. Ona görə də bu hadisə Qəzvində Osmanlıdan gəlmiş elçilik heyətinə və bu heyətin mühafizəçi mənsublarına qarşı kütləvi narazılığın baş verməsinə yol açdı. Buna görə də Osmanlı elçiliyinin nümayəndələri şəhər daxilində görünəndə onlar yerli əhali tərəfindən daş-qalaq edilirdilər. Osmanlı elçiliyi törədilən qətlin şəhər əhalisi arasında yaratdığı gərginliyi gördükdə tezliklə geri yola düşmək barəsində

qərar verdi və 8 gündən sonra yerli əhalinin qəzəbindən qurtulmaq üçün Osmanlı sərhədlərinə doğru istiqamət götürdü. Bu elçilik heyətinin 1562-ci il avqust ayının 1-də Qəzvini tərk etdiyi bildirilir. Elçilik heyəti Çuxursəəddən keçməklə İstanbula doğru yola düşdü. Çuxursəəddə olarkən Xosrov paşa elçilik heyətindən ayrıldı və Vana yollandı. Elçilik heyəti isə öz yoluna davam etdi. Mövcud olan bəzi məlumatlara görə, Şahzadə Bayəzid və onun övladları Sivasda, bəzi məlumatlara görə isə Bursanın şimalında dəfn edildilər (100).

Şah Təhmasib Osmanlı elçiliyinə öz elçilərini də qoşdu və onların vasitəsi ilə həm Sultan Süleymana və həm də Şahzadə Səlimə məktub göndərdi. Həmin məktubların məzmunu əsasən Şahzadə Bayəzidin Osmanlı elçilərinə təhvil verilməsinin qarşı tərəfə çatdırılmasından ibarət idi. Şahzadə Səlimə yazılan məktubdan belə aydın olur ki, Sultan Süleymanın yanına şahın etibarını qazanmış əyanlarından olan Hüseyn ağa Yasavulbaşı və Şahzadə Səlimin yanına da Məhəmməd ağa Ustaclı göndərilmişdi. Şah Təhmasib Osmanlı sultanına göndərdiyi məktubunda Şahzadə Bayəzidi və onun övladlarını Sinan bəyin hüzurunda Əli ağaya və Firuz ağaya təhvil verdiklərini bildirirdi. Bəzi dairələr arasında Şah Təhmasib tərəfindən məhz Şahzadə Bayəzidin təhvil verilməsi haqqında şübhəli söhbətlər gəzirmiş. Ona görə Şah Təhmasib də təhvil verilənin məhz Şahzadə Bayəzid olduğunu və onun Sinan ağa tərəfindən təsdiqləndiyinə işarə edirdi. Şah Təhmasib belə söhbətləri yayanların da cəzaya layiq olduğunu məktubunda xatırladırdı (101).

Şah Təhmasibin Şahzadə Səlimə yazdığı məktub isə elmi-tarixi dövriyyədə mövcuddur. Bu məktub müxtəsər bir məktubdur. Fars dilində yazılmış bu məktubun əvvəlində də yazışma ənənələrinə uyğun olaraq Şahzadə Səlim vəsf edilirdi. Sonra məlumat verilirdi ki, Şahzadə Bayəzid dörd övladı ilə birlikdə Əli ağaya təhvil verildi. Yuxarıda qeyd edildiyi kimi, Şah Təhmasib bu məktubunda Məhəmməd ağa Ustaclının da Şahzadə Səlimin qəbuluna göndərildiyi bildirilirdi. Məktubda o da bildirilirdi ki, yaxın zamanlarda şahın Həmzə bəy adlı başqa bir elçisi Sultan Sü-

leymanın yanına, Tebet ağa adlı bir elçisi də Şahzadə Səlimin yanına göndəriləcəkdir. Amma həmin elçilərin nə məqsədlə göndəriləcəyi barəsində məktubda məlumat verilməmişdir. Şah Təhmasib məktubunun sonunda Şahzadə Səlimin nümayəndəsi kimi, Şahzadə Bayəzidi təhvil almağa gəlmiş Əli ağa haqqında xoş sözlər söyləyirdi və xahiş edirdi ki, onu yenidən Şah sarayına göndərsin. Səfəvi şahı bu elçi vasitəsilə Şahzadə Səlimə layiqli hədiyyələr göndərəcəyini vəd edirdi (102).

Yuxarıda qeyd edildiyi kimi, bəzi məlumatlara görə, Sultan Süleyman təhvil verilmiş Şahzadə Bayəzid və onun övladlarının Osmanlı hüdudlarına daxil olmasından sonra Şah Təhmasibə vəd olunmuş hədiyyələrin Səfəvi sarayına göndəriləcəyinə söz vermişdi. Bildirilir ki, bu vədin davamı kimi Şahzadə Bayəzidin və onun övladlarının cəsədləri Osmanlı hüdudlarına daxil olduqdan sonra Şah Təhmasibə vəd olunmuş hədiyyələr də yola salındı. Hazırkı tədqiqat üçün istifadə edilmiş türkdilli araşdırmalardan birinin müəllifi heç bir mənbəyə istinad etmədən belə bir fikir də irəli sürür ki, Qarsın Şah Təhmasibə veriləcəyi doğru xəbər idi və Şahzadə və onun övladlarının Şah Təhmasib tərəfindən Ərzrumda təhvil verilməli olduğu halda Qəzvində qətlinə şərait yaradıldığı üçün Qars Səfəvi şahına verilməmişdi (103).

Lakin bu fikrin obyektivliyi şübhə doğurur. Əgər Şah Təhmasib Osmanlı şahzadəsini Osmanlı ərazisində Osmanlı nümayəndələrinə təhvil verəcəkdisə, onda Osmanlı elçilik heyətləri yanlarına cəllad da alaraq niyə davamlı şəkildə Qəzvinə gəlirdilər? Ümumiyyətlə, bu mövzuda olan araşdırmalarda Şahzadə Bayəzidin və onun övladlarının qətlinin bir çox hallarda səylə Şah Təhmasibin adı ilə bağlanması cəhdlərini görmək mümkündür ki, bunu da birmənalı şəkildə qəbul etmək çətindir. Elə yuxarıda aparılmış təhlillər də bunu deməyə əsas verir. Şahzadə Bayəzidin qətlə yetirilməsinin Səfəvi sarayı üçün heç bir əhəmiyyəti yox idi. Şah Təhmasib onun qətlində maraqlı deyildi, bunu istəməmişdi və buna heç bir maraq da göstərməmişdi. Şah Təhmasibin Şahzadə Bayəzidin qətlində maraqlı olması ilə bağlı hər hansı ciddi bir fakt da ortaya qoymaq mümkün deyildir. Şah

Təhmasib, qeyd edildiyi kimi, Şahzadə Bayəzidi qətl etdirmək istəsəydi ona kimsə mane olar bilməzdi və bunun üçün onun əlində əsaslı səbəb də var idi.

Osmanlı sarayı tərəfindən Şahzadə Bayəzidin təhvil verilməsinə razılıq əlaməti kimi nəzərdə tutduğu hədiyyə və mükafatı hələ Osmanlı şahzadəsi qətlə yetirməzdən əvvəl Səfəvi sərhədinə yola salmışdı. Osmanlı sarayının dördüncü vəziri olan Pərtöv paşa bu hədiyyə və mükafatları sərhəd xəttinə yaxın olan Qaziabad məntəqəsinə qədər müşayiət etmişdi. Orada isə həmin yük Şərqi Qarahisar bəyi İlyas bəyə və Şahzadə Səlimin nümayəndəsi olan Mahmud ağaya tapşırıldı. Həmin adamlar da qiymətli yükü Qəzvinə apardılar və 1562-ci il oktyabr ayının 17-də Şah Təhmasibə təhvil verdilər. Qiymətli yüklə bərabər, Şah Təhmasibə Sultan Süleymanın məktubu da təqdim edildi. Məktub türk dilində və Osmanlı sultanının öz əli ilə yazılıbmış. Bu məktubun fars dilindən tərcüməsi isə belədir: “Oğlum Şah Təhmasib həzrətləri, salam və duamdan sonra sizin istədiyiniz kimi etdik, ömrünüz uzun olsun. Ümid edilir ki, sülh və səbat qiyamətə qədər davam etsin. Allah haqqına, Allah bəndəsi Süleyman” (104).

Elmi-tarixi ədəbiyyatda və mənbələrdə Şah Təhmasibə göndərilən nəğd pulun miqdarı barəsində fərqli məlumatlara rast gəlmək mümkündür. Bir məlumata görə onun miqdarı 500 min altun sikkə (Kipr əşrəfisi) idi. Bundan başqa Şah Təhmasibə 40 baş cins at, at üçün qiymətli və daş-qaşlarla bəzədilmiş yəhər- yüyən əşyaları və başqa göz oxşayan hədiyyələr də gətirilmiş və Qəzvinin Çelsütun (Çehelsütun) sarayında təhvil verilmişdi (105). Bir məlumata görə isə Şah Təhmasibə 1200000 altun vəd edildiyi halda, cəmi 500 min altun verildi ki, onun da 400 mini sultan tərəfindən, 100 mini də Şahzadə Səlim tərəfindən göndərilmişdi (106).

Osmanlı salnaməçisi Mehmet Solakzadə isə təqdim olunan nağd vəsait haqqında fərqli məlumat vermişdir: “Padşah həzrətləri Təhmasib şahın boyun əyməsini həddindən artıq bəyəndi. Ehsan və iltifat olaraq üç kərə yüz min qızıl və Sultan Səlimdən də yüz min tam əyarlı qızıl və hədiyyələr və seçkin peşkəşlər,

hesaba gəlməz şeylər hazırlanaraq vəzir Pərtev paşa ilə Qəzabad adlı yerə göndərildi. Oradan o xəzinələr və malları Qəzvinə götürüb çatdırdılar" (107).

"Əhsənüt-təvarix" əsərində Sultan Süleyman tərəfindən göndərilən hədiyyələr barəsində belə bir məlumat vardır: "Həmçinin bu il Rum padşahı Sultan Süleyman öz mülazimləri sırasından olan İlyas bəyi yaxşı töhfələrlə və rəğbət doğuran hədiyyələrlə, o cümlədən otuz min tümənə bərabər olan beş yüz min əşrəfi ilə və məxmər, zərbafta və qıpqırmızı çulları olan, əksəri daş-qaşlı və qızıl yəhərlərə malik qırx bədöv atla [Şah Təhmasibin hüzuruna] göndərdi. Hədiyyəlik atların arasında bir at vardı ki, ayaqları külək kimi [sürətli] idi, yüyürən zaman atəş kimi aşağıdan yuxarıya qalxar və su kimi yuxarıdan aşağıya enərdi. ... Elçilər səfər [ayının] 19-da (18.10.1562) Qəzvinə çatdılar. Əmirlər onların gəlişi [haqqında] xəbəri [şaha] ərz etdilər. Dinin pənahı olan şah bargahda qərar tutdu. Elçilər töhfələri təqdim etdilər. Dinin pənahı olan şah cəmi şahzadələrə, həzərata, bütün adamlara, təbəqələrə, əyan-əşrəfə və qorçulara dərəcələrinə uyğun surətdə nəfis töhfələrdən, əşrəfilərdən və qeyrilərindən hədiyyə etdi və Məvəraünnəhrdə olan özbək sultanlarından Bəlx hakimi Pir Məhəmməd xan, Buxara valisi Abdulla xan və Səmərqənd hakimi Sultan Səid üçün çeşidli ərməğanlar göndərdi" (108).

Bu məlumat "Tarix-i aləmara-yi Abbasi" əsərində də təsdiqlənmişdir. Həmin əsərdə deyilir: "Xondgarın etibarlı adamlarından olan İlyas bəy adlı birisi fələyin məhvəri olan dərgaha gəlib, Rumdan gətirdiyi qeysər hədiyyələrini və ərməğanlarını Əcəmin şəhriyarı olan və Kəsra və Cəmşid mülkündə hökmranlıq edən [Şah Təhmasibə] təqdim etdi. Hədiyyələr arasında hər biri misilsizlikdən dəm vuran, yəhərləri daş-qaşla və qızılla bəzədilmiş, çulları isə Rum zərbaftasından toxunmuş qırx baş Şam və ərəb cinsli bədöv atlar və əlli min tümən İraq şahisinə bərabər olan beş yüz min ədəd əşrəfi və flori məbləğində nəfis qumaşlar və mallar vardı. Hökmdar gözəl xüsusiyyətlərə malik olduğu üçün o hədiyyələrin hamısını möhtərəm şahzadələrdən, dərgah əmirlərindən, məmləkətin sərhədlərinin hakimlərindən, qorçu-

lardan və qızılbaş tayfalarının əyanlarından ibarət insan təbəqələrinə hər birinin dərəcələrindən asılı olaraq paylayıb, böyük özbək sultanlarından da Bəlx hakimi Pir Məhəmməd xan, Buxara padşahı Abdulla xan, Səmərqənd valisi Sultan Əbu-Səid xan, Urgənc sultanları olan Əbülməhəmməd xan və Hacim xan üçün Rum sultanının töhfələrindən hissə və paylar göndərdi" (109).

Burada diqqəti cəlb edən bir məqam vardır ki, o da Osmanlı sarayı tərəfindən təqdim ediləm altunların və hədiyyələrin Şah Təhmasibin "hədiyyələrin hamısını möhtərəm şahzadələrdən, dərgah əmirlərindən, məmləkətin sərhədlərinin hakimlərindən, qorçulardan və qızılbaş tayfalarının əyanlarından ibarət insan təbəqələrinə hər birinin dərəcələrindən asılı olaraq payla"masıdır. Digər farsdilli mənbələrdə də bu məlumat təsdiqlənir (110). "Tarix-i aləmara-yi Abbasi" müəllifi Osmanlı sultanından alınan pul və hədiyyələrin hamısının Şah Təhmasib tərəfindən bağışlandığını bəyan edirdi. Bu onu göstərir ki, bir sıra əsərlərdə yazılanların əksinə olaraq, Şah Təhmasibin guya Şah Bayəzid məsələsini Osmanlı sarayı ilə alver predmetinə çevirməsi heç də birmənalı qəbul edilə bilməz. Şah Təhmasib yalnız var-dövlət hərisi olsaydı, onda ona bağışlanmış böyük miqdarda pulları və hədiyyələri başqalarına bağışlamazdı. Bu hədiyyələrdən hətta Orta Asiya hakimlərinə də pay düşmüşdü. Bəzi müəlliflər hətta belə bir fikir də irəli sürürlər ki, Şah Təhmasib guya bu pulları onun Şahzadə Bayəzidlə bağlı yol verdiyi haqsızlığa qarşı narazı olanların susmasına nail olmaq üçün paylamışdı (111). Amma o da nəzərə alınmalıdır ki, Şah Təhmasib səltənət daxilində kifayət qədər güclü mövqeyə malik idi və kimlərinsə onun fəaliyyətindən narazılığı səltənət üçün elə bir ciddi təhlükə təşkil edə bilməzdi. Digər tərəfdən isə Şahzadə Bayəzidlə bağlı səltənət daxilində Şah Təhmasibə qarşı narazılığın yaranmasına bir əsas da yox idi. Şahzadə Bayəzidin faciəli şəkildə qətlə yetirilməsi əhali tərəfindən narazılıqla qarşılanmışdı. Lakin bu narazılıq Osmanlı elçiliyinə və bu elçiliyin tərkibində olan mühafizəçilərə qarşı idi. Mənbələr də yerli əhalinin Osmanlı mənsublarına qarşı qəzəb nü-

mayiş etdirdiyini yazırlar və bu qəzəbin nəticəsi idi ki, Osmanlı elçisi çox tez bir zamanda Qəzvini tərk etmək məcburiyyətində qaldı. Bu hadisə ilə bağlı Səfəvi sarayına qarşı ciddi bir narazılığın yaranması haqqında isə mənbələrdə məlumat yoxdur. Yəni Şah Təhmasib tərəfindən Şahzadə Bayəzidin yalnız pul qarşılığında təhvil verilməsi və bununla pulun guya Osmanlı şahzadəsinin və onun övladlarının həyatından üstün tutulması haqqında söylənilən fikirlərin yeganə doğru dəyərləndirmə kimi qəbul edilməsi hadisələrə birtərəfli yanaşılmasından başqa bir şey deyildir. Şah Təhmasibin Şahzadə Bayəzidi qaytarmamaq haqqı və imkanları yox idi. Bir daha qeyd edilməlidir ki, fərari adamların qarşılıqlı şəkildə təhvil verilməsi Amasiya anlaşması ilə də nəzərdə tutulmuşdu və bunu Şah Təhmasib mövzusunda yazan tədqiqatçılar da qəbul edirlər. Bu razılşamya əməl edilməməsi iki dövlət arasında əldə edilmiş sülhün pozulması demək idi. Şah Təhmasib birmənalı şəkildə bu sülhün pozulmasını istəmirdi. Çünki Osmanlı dövlətinin qüdrəti qarşısında lazımi müqavimət göstərmək üçün Şah Təhmasibin yetərli gücü yox idi. Ona görə də Şah Təhmasib nəyin bahasına olursa-olsun iki dövlət arasında sülhün saxlanmasına çalışırdı. Şahzadə Bayəzidin təhvil verilməyəcəyi təqdirdə Osmanlı qoşunlarının Səfəvi dövləti üzərinə hücumu istisna deyildi. Bu isə Səfəvi dövləti ərazisində daha miqyaslı faciələrin baş verməsinə gətirib çıxara bilərdi. Şahidlərin ifadəsincə, Şah Təhmasib özü də dəfələrlə Şahzadə Bayəzidin təhvil verilməsinin müəyyən insanlar tərəfindən yaxşı qarşılana bilməyəcəyini etiraf etmişdi. Amma onu da əlavə etmişdi ki, əgər Şahzadə Bayəzid təhvil verilməsə, iki dövlət arasında başlanacaq müharibə hər iki tərəfdən ən azı minlərlə insanın ölümünə yol açacaqdı. Səfəvi şahının fikrincə, yeni müharibənin başlanması onun dövlətinin təbəələrinə çox böyük möhnətlər gətirə bilərdi. Şah Təhmasib dövrünün salnaməçilərindən biri belə yazırdı: “Şah Təhmasibin padşahlıq zamanında xalq heç bir məsələdə Bayəzid məsələsi qədər könülsüzlük göstərməmişdi. Təhmasb da onu təslim etməsindən rahatsız idi və Təhmasibdən təkrarca



Qanuni Sultan Süleyman



Qanuni Sultan Süleyman







II Sultan Səlim



Amasiya anlaşmasının əldə edilməsini əks etdirən minüatür





Aşağıdakı miniatürdə Sultan Süleyman oğlu Şahzadə Bayəzidi lənətləyərkən, yuxarıdakı miniatürdə isə Sultan Süleyman Şahzadə Bayəzid haqqında Şah Təhmasibin məktubunu oxuyarkən



Şahzadə Bayəzidin və onun üç oğlunun məzarının Sivasın Yuxarı Təkkə qəbristanlığında yerləşən türbəsi



Şahzadə Bayəzidin və onun üç oğlunun məzarları



Sultan III Murad

duymuşdu ki, xalq mənim Bayəzidi təslim etməmdən şikâyətçi olacaqlar. Amma minlərcə insanın qurtuluşu ondaydı və Bayəzid da yapdığı işlərdən dolayı babası tərəfindən sürülmüşdü, bilərək onun muhafizə edilməsindən əl çəkdim. Zira böylə yapmasaydım Sultan Süleyman İrana saldıracaqdı və çıxan savaş da iki tərəfdə çox itki verəcəkdi və İran xalqı zor durumda qalacaqdı" (112).

Şah Təhmasibin gücü ona çatdı ki, Şahzadə Bayəzidin təhvil verilməsini iki il ləngitsin və bu müddət ərzində onunla Sultan Süleyman arasında barışığın əldə edilməsinə, hətta Şahzadə Bayəzidin öz əvvəlki vəzifəsinə bərpa edilməsinə çalışsın. Əgər Sultan Süleyman və Şahzadə Bayəzidin böyük qardaşı Şahzadə Səlim bu təklifi qəbul etsəydilər, onda Şahzadə Bayəzid xeyli əvvəldən təhvil verilə bilərdi. Osmanlı tərəfi isə Şahzadə Bayəzidi qətl etmək istəyində qətiyyətli idi və ona görə də onun həyatının xilas edilməməsinin daha çox Şah Təhmasiblə əlaqələndirilməsi bütün obyektivliyi əks etdirməyən birtərəfli fikirdir. Hətta şahzadə Bayəzid sui-qəsd fikrinə düşüb Şah Təhmasibə qarşı məkrli planlara malik olmasaydı, çox güman ki, Şah Təhmasib yenə də onun həyatına etibarlı zəmanət almasına çalışardı. Şah Təhmasibin xilas etməyə çalışdığı Osmanlı şahzadəsi onu xilas etməyə çalışan Səfəvi şahına qarşı sui-qəsd qurmağa çalışması və bunun üçün yetərli qüvvəyə malik olması Şah Təhmasibin onunla bağlı sonrakı qərarına təsir edə bilərdi. Şahzadə Bayəzidin ətrafında məlum olduğu kimi, 10 min nəfərlik bir qoşun dəstəsi var idi. Şah Təhmasib həm bu böyük sayda olan qoşun dəstəsinin, həm də Şahzadə Bayəzidin və onun ətrafının saxlanmasının çox böyük maliyyə xərclərini öz üzərinə götürmüşdü. Bu qüvvələrin isə üzüdönüklük edərək Şah Təhmasibə qarşı çevriliş etmək planlarının üstü açılanda Səfəvi şahı da müəyyən fikirlər məngənəsində qala bilərdi. Onun hökmü əsasında çevrilişin hərəkətverici qüvvəsi ola biləcək qüvvələr məhv edildi, bu çevrilişə rəhbərlik edən Şahzadə Bayəzid isə məhv edilmədi, salamat saxlandı. Şah Təhmasib onu həbs etdirdi. Amma o da məlum idi ki, Şahzadə Bayəzid hətta həbsdə qalmaqla da iki dövlət arasında gərginliyin getdikcə artmasına səbəb olurdu. Həbsdə olan Osmanlı şahzadə-

sinin təhvil verilməməsinin iki dövlət arasında fəlakətli müharibəyə yol açacağı bəlli olduğu halda və fərari adamların geri qaytarılmasının əvvəldən qarşılıqlı şəkildə razılaşdırıldığı halda Şahzadə Bayəzidin təhvil verilməsi məntiqi bir qənaət kimi ortaya çıxırdı. Yəni, əslində, Səfəvi sarayının başqa təsirli seçim etməsinə yolu da qalmamışdı. Şah Təhmasib də belə bir seçimi etmək məcburiyyətində qaldı. Bu məsələdə mübahisələrə və təəssüflərə səbəb olan məqam Şahzadə Bayəzidin və onun günahsız övladlarının təhvil alınan kimi qətlə yetirilməsi və Osmanlı ərazisinə onların meyitlərinin aparılması idi. Şahzadə Bayəzidin Osmanlıda fitvasının verilməsi və bu fitvanın da Sultan Süleymanın təhriki ilə verildiyi məlumdur. Lakin Şahzadə Bayəzidin sağ olması Osmanlı sarayını, hakimiyyətə şəriksiz namizəd olmaq istəyən Şahzadə Səlimi o dərəcədə narahat edirdi ki, təhvil alınan kimi onun qətli həyata keçirildi. Osmanlı sarayının hətta Şahzadə Bayəzidin Osmanlı hüdudlarına gətirilməsi üçün müəyyən vaxt keçməsinə də səbri çatmadı və onun qətli həyata keçirildi. Sözsüz ki, bu qətl Osmanlı ərazisində həyata keçsəydi, onda bəzi tədqiqatçıların Şah Təhmasibi bu məsələ ilə əlaqədar ittihamlandırmaq cəhdinə də yer qalmazdı.

Yuxarıda qeyd edildiyi kimi, Şah Təhmasib geri qayıdan Osmanlı elçiləri ilə Sultan Süleymana və Şahzadə Səlimə məktub da göndərmişdi. Şahzadə Səlim onun məktubuna cavab verdi və həmin məktubu Məhəmməd ağa vasitəsi ilə Şah Təhmasibə göndərdi. Şahzadə Səlimin bu müxtəsər məktubunda Şahzadə Bayəzidin təhvil verilməsinə məmnunluq ifadə olunur və bununla iki dövlət arasında mövcud olan anlaşmaya da əməl edildiyi bildirilirdi. Şahzadə Səlim bildirirdi ki, iki dövlət arasındakı münasibətlər gələcəkdə də inkişaf etdiriləcəkdir və bunun üçün gəliş-gediş qapıları da hər zaman açıq olacaqdır (113).

Bir müddətdən sonra Şah Təhmasib məktublarında vəd etdiyi kimi, Təbet ağanın rəhbərliyi altında yeni bir elçilik heyətini Şahzadə Səlimin yanına yola saldı və Osmanlı şahzadəsinə yeni bir məktub göndərdi. Bu məktub da kifayət qədər uzun və nəzm parçaları ilə müşayiət olunan bir məktub idi. Ənənəvi ifadə vasi-

tələrindən sonra Şah Təhmasib bir daha Şahzadə Bayəzidin Osmanlı elçilərinə təhvil verdiyini və bu məsələdə qəbul etdiyi andının əleyhinə getmədiyini yazırdı. Məktubda Osmanlı sarayı ilə formalaşmaqda olan xoş məramlı münasibətlərdən məmnunluq ifadə olunmaqla bu münasibətlərin qorunmasına tərəfdar olduğunu Şah Təhmasib bir daha bəyan edirdi. Amma onu narazı salan məqamlar var idi ki, Şah Təhmasib həmin məqamları da Şahzadə Səlimin nəzərinə çatdırırdı. Həmin məqamlardan biri fərarilik edənlərin geri qaytarılması və müəyyən məqsədlərlə Osmanlı ərazisinə səfər edənlərə qarşı xoş münasibət göstərilməsi məsələsi idi. O cümlədən, Səfəvi ərazisindən İraqi-Ərəbdəki müqəddəs məkanların ziyarətinə yollanan zəvvarların səfərlərinə maneçilik yaradılmaması ilə bağlı əldə edilmiş razılaşmaya əməl edilməməsi Şah Təhmasibin narazılığına səbəb olmuşdu. Səfəvi ərazisindən Osmanlı ərazisinə fərarilik edilməsi və bu fərarilərin geri qaytarılmaması ilə bağlı Şah Təhmasibin məktubunda konkret fakt yoxdur. Amma müqəddəs məkanların ziyarətinə yollananların incidilməsi ilə bağlı Səfəvi şahı məktubunda konkret fakta da istinad etmişdi. Belə ki, Səfəvi zəvvarlarının Bağdad ətrafındakı məntəqələrdən birinin Mir Ömər adlı hakimi onları saxlamış və onların hərəkətinə icazə verilməsi üçün öz adamını Bağdad hakimi Bəhram paşanın yanına göndərmişdi. Bağdad hakimi də Osmanlı sultanı və şahzadəsinə istinad edərək bildirmişdi ki, Osmanlı sarayı İraqi-Əcəmdən kimsənin Osmanlı ərazisi ilə hərəkətinə icazə verməmişdir. Səfəvi zəvvarlarının karvanı geri qayıtmaq məcburiyyətində qalmışdı. Yerli hakim Mir Ömərin adamları müəyyən bir məsafəyə qədər təhlükəsizliyin təmin edilməsi adı altında bu karvanı müşayiət etmişdilər. Amma həmin karvandan ayrılandan bir müddət sonra bu karvan üzərinə basqın edib onu talamışdılar. Nəticədə Səfəvi zəvvarlarının karvanı talan olunmuş bir vəziyyətdə geri qayıtmalı olmuşdu (114).

Sonra Şah Təhmasib sərhəd bölgəsində yaşayan əhalinin Osmanlı kürdləri tərəfindən qarət və talan olunması barəsində də faktların olmasını Şahzadə Səlimin nəzərinə çatdırırdı. Onun yazdığına görə, belə bir hadisə Tasuc adlanan məntəqədə baş

vermişdi. Şah Təhmasib bildirirdi ki, İnəl bəy Kürdün rəhbərliyi altında olan 200 nəfərlik bir dəstə həmin məntəqəyə basqın etmiş və orada məskən salan insanları qarət etmişdi. Səfəvi şahının yazdığına görə, bu qarətçilərə cavab verilməmiş və onların ardınca kimsə getməmişdi. Çünki onlara tapşırılmışdı ki, iki dövlət arasında təxribatın baş verməsindən ehtiyat etsinlər və belə hadisələr baş verərdisə lazımi məsələ Osmanlı sultanı qarşısında qaldırılmalı və günahkar adamlar da onun tərəfindən cəzalandırılmalı idilər. Şah Təhmasib bəzi paşaların qarşılıqlı razılaşmaya əməl etmədiyini və bunu Şahzadə Səlimin nəzərinə çatdırmaq istədiyini bildirirdi. Şah Təhmasib yazırdı ki, bu hadisələr barəsində artıq Sultan Süleymana da məktub göndərmişdir. Onun Şahzadə Səlimdən isə xahişi bu idi ki, sultanın verdiyi fərmanların sərhəd mühafizəçiləri tərəfindən icrasını tələb etsin, sərhəd mənsubları sultan fərmanlarının icrasına müxalif olmasınlar və bununla Səfəvi tərəfinin nigarançılığı da aradan qalxsın(115).

Şah Təhmasibin öz məktubunda toxunduğu digər bir məsələ Şahzadə Bayəzidin təhvil verilməsinə elə Osmanlı daxilində maneçilik törədilməsi halları ilə bağlı idi. Onun yazdıqlarından belə bir qənaət hasil olur ki, Osmanlı hüdudlarının sərhəd bölgəsindəki əyanlar və məmurlar Şahzadə Bayəzidin Osmanlı sarayına verilməsini istəmirdilər, bunun üçün şayiələr və doğru olmayan məlumatları yayır və bununla iki dövlət arasında gərginliyin artmasını istəyirdilər. Onlar istəyirmiş ki, tərəflər arasında elə bir gərginlik yaransın ki, bununla Şahzadə Bayəzidin təhvil verilməsi də mümkün olmasın. Bu fikirdə olan adamlar hətta Səfəvi sarayının əyan və əmirlərinə də məktub göndərir və onları da Şahzadə Bayəzidin təhvil verilməsindən çəkindirməyə çalışırmışlar. Onların fikrincə, Şahzadə Bayəzidin təhvil verilməsindən sonra Sultan Süleyman Səfəvi dövlətinə qarşı müharibəyə başlayacaqdı. Şah Təhmasib məktubunda Şahzadə Səlimdən xahiş edirdi ki, bu barədə Sultan Süleymana da məlumat çatdırsın və Osmanlı sultanı belə şayiə yayan fitnə-fəsad adamlarını elə cəzalandırsın ki, onlar gələcəkdə bir də şayiə yaymağa və yalan danışmağa cəsarət etməsinlər. Məktublarının birində Şahzadə

Səlim Səfəvi şahına vəd edibmiş ki, Şahzadə Bayəzidi təhvil verəndən sonra Şah Təhmasibin Osmanlı sarayına aid olan bütün istəkləri yerinə yetiriləcəkdir. Həmin vədi xatırlamaqla Şah Təhmasib xahiş edirdi ki, məktubda toxunduğu məsələlər Osmanlı sultanına da çatdırılsın və həmin məsələlərlə bağlı lazımi qərarlar qəbul edilsin (116).

Şahzadə Səlim bu məktuba cavabını elə Təbet ağa ilə də Səfəvi sarayına göndərdi. Kifayət qədər böyük olan bu məktubda mücərrəd düşüncələr ətrafında fikir söylənilir və yalnız sonda bildirilir ki, Şahzadə Bayəzidin təhvil verilməsinə maneçilik törədilməsi barəsində Osmanlı sultanına məlumat çatdırılacaq. Həm də vəd edilirdi ki, belə əməllərlə məşğul olanlar yaxın zamanlarda öz cəzalarına çatacaqlar (117).

Səfəvi zəvvarlarının müqəddəs məkanların ziyarətinə maneəsiz yollanması barəsində qaldırılan məsələ həll edilməmiş qaldı. Çünki Osmanlı tərəfi Səfəvi zəvvarlarının ərəb qəbilələrinin hücumlarına məruz qala biləcəyini bildirmiş və bununla da məsələ həll edilməmiş qalmışdı. Başqa bir məlumata görə, səltənətin şərq sərhədlərinin möhkəmləndirilməsi üçün Şah Təhmasib özbək hücumlarına qarşı Sultan Süleymandan kömək istəmişdi. Bu xahiş də cavabsız qalmışdı. Osmanlı sarayı məzhəb təəssübü üzündən Şah Təhmasibə kömək verməmişdi. Osmanlı sarayı sünni məzhəbində olan özbəklərə qarşı şiə məzhəbində olan səfəvilərə kömək edilməsini mümkünsüz saydı. O da məlumdur ki, Osmanlı sarayı həm də gürcü hakimlərinin Şah Təhmasibə qarşı mübarizə üçün istədiyi köməyə də müsbət cavab vermədi və Səfəvi dövləti ilə əldə edilmiş razılaşmanın pozulmasına yol vermədi (118).

## 7.Şahzadə Bayəzidin təhvil verilməsindən sonra Səfəvi-Osmanlı münasibətləri

Bəzi ötəri məqamlar nəzərə alınmazsa, Şahzadə Bayəzidin təhvil verilməsindən sonra iki dövlət arasındakı münasibətlər normal məcrasına düşdü və Şah Təhmasibin dünyasını dəyişmə-

sinə qədər iki dövlət arasında sülh anlaşmasının qorunmasına və onun şərtlərinin icrasına riayət olundu.

Şah Təhmasiblə Şahzadə Səlim arasında xoş münasibətlər formalaşmışdı. Ona görə də Sultan Süleymanın dünyasını dəyişməsindən sonra iki dövlət arasındakı xoş münasibətlər öz davamını itirmədi. Çünki bu münasibətlərin davam etməsi hər iki tərəfin maraqlarına cavab verirdi. Sultan Süleymanın dünyasını dəyişməsi isə 1566-cı il sentyabr ayının 6-na təsadüf edirdi. Türk dünyasının qüdrətli hökmdarı olan Sultan Süleyman 74 yaşında olarkən həyatının son fatehlik yürüşünə çıxmış və elə bu yürüşün gedişində də həyata vida demişdi. Avropa istiqamətində olan həmin yürüş zamanı Sultan Süleymanın vəziyyəti artıq kifayət qədər ağırlaşmışdı və onun hərəkət imkanları da kifayət qədər məhdudlaşmışdı. Xüsusilə ayaqlarında şiddətlənməkdə olan xəstəlik onun at belində hərəkətini xeyli çətinləşdirmişdi. Ona görə də Sultan Süleyman çox hallarda arabada oturaraq və ya taxtda əyləşmiş halda yolunu davam etdirməli olurdu. Fəth etdiyi yaşayış məntəqələrinə daxil olarkən isə Sultan Süleyman bütün gücünü toplayıb at belinə qalxır və insanları da at belində salamlayırdı. İstər Osmanlı mənbələrində, istərsə də bəzi Səfəvi mənbələrində Sultan Süleymanın bu yürüşü kafirlərə qarşı qəzavət kimi dəyərləndirilirdi və əldə edilmiş qələbələr səxavətlə vəsf edilirdi. Sultan Süleymanın fəth etdiyi sonuncu qala Zigetvar qalası idi. Farsdilli mənbələrdə də bu qala zamanının ən möhkəm qalalarından biri kimi təsvir edilmişdir. Qalanın doğrudan da yüksək olan müdafiə imkanları Osmanlı qoşunlarının bir müddət onun ətrafında dayanmasına gətirib çıxardı. Bu qalanın ələ keçirilməsi üçün göstərilən cəhdlər isə bir nəticə vermirdi. Belə olanda qalanın divarları altından lağım atılması qərarlaşdırıldı. Nəqəbçilərin səyi ilə qala divarları altına lağım atıldı və bu lağımlar barıtla doldurularaq partladıldı. Bununla da Zigetvar qalasının divarlarını dağıtmaq və qala daxilinə yol açmaq mümkün oldu. Bu hadisə Sultan Süleymanın sevincinə səbəb olsa da, iç qalanın ələ keçirilməsinin dərhal mümkün olmaması onun narahatçılığına yol açdı. Sultan Süleymanın son yazılı göstərişi Zigetvarın iç

qalasının fəthi ilə bağlı idi. Osmanlı sultanı bu iç qalanın fəth edildiyi gün əldə edilmiş uğurdan xəbərsiz olaraq dünyasını dəyişdi (119).

Ömrünün 47 ilini hakimiyyətdə olmuş Sultan Süleymanı bu səfərdə baş vəzir Sokullu Məhəmməd paşa müşayiət edirdi. Məhəmməd paşa sultanın dünyasını dəyişməsini kimsəyə bildirmədi. Onun gümanınca sultanın vəfatı xəbəri qoşunlar daxilində müəyyən təşvişə səbəb olmaqla hərbi vəzifələrin icrasına mane ola bilərdi. Baş vəzir hadisə barəsində dərhal Kutahyada olan Şahzadə Səlimə məktub yazdırıb göndərdi. Bu səbəbdən yalnız məktubu yazmış münşi Firudin bəy sultanın vəfatından xəbərdar olmuşdu. Sokullu Məhəmməd paşanın göndərdiyi çapar səkkiz gündən sonra özünü Şahzadə Səlimə yetirdi. Şahzadə Səlim də dərhal İstanbula gəldi və II Sultan Səlim adı ilə Osmanlı taxtına sahib oldu. Bundan sonra Üsküdardakı Qız qülləsindən açılan top atəşi ilə həm Sultan Süleymanın dünyasını dəyişməsi, həm də Sultan Səlimin taxta çıxması elan edildi. Sultan Səlim 1566-cı il sentyabr ayının 24-də Osmanlı sultanlığını öz üzərinə götürdü. Bundan dərhal sonra Sultan Səlim Belqrada yollandı ki, qoşunlara rəhbərliyi öz üzərinə götürsün və Avropa yürüşünü sona çatdırsın (120).

Elə Avropaya doğru yolda ikən Sultan Səlim həm atasının dünyasını dəyişməsi, həm də özünün taxta çıxması haqqında məktub yazıb Məhəmməd bəy adlı birisi ilə Şah Təhmasibə göndərdi. Məktub türk dilində yazılmışdı. Bu məktub kifayət qədər səmimi yazılmış bir məktub idi və elə ilkin müşahidə onu deməyə əsas verir ki, Sultan Səlim Səfəvi dövləti ilə yaranmış xoş münasibətləri davam etdirmək niyyətində idi. Məktubun əvvəlində Şah Təhmasib vəsf edilir, dünyanın faniliyi haqqında fikir söylənilirdi. Sultan Səlim sonra yazırdı: " Zəmiri-münir aləmara və xatiri-atir səadət-peymalərinə rövşən ola ki, axır ovqat ömri-fənapəzirlərində ol cənab vəlamənzilət xurşid izaət dövlət pənah, səadət-dəstqah ilə məhəbbət və ixlas üzrə olub müqtəzati- dövriporcur ilə sizinlə keçən macərayı fəramuş edib, müqəddimən cənabi-şərifinizə varan qarındaşım Sultan Bayəzid xüsusunda

vaqe olan əltafi-kamiləyə mucibətül-ətafınızı can və cənan edən xalis və müxlis dost-həqiqi olan cənab şəhadət-pənah, cənnət-dəstgah mərhum və məğfurla babam Sultan Süleyman şah, qazi-yi-ənarüllah bürhanə xristianla qədimi adət və iltufatlar üzrə qəzayi-qərayə təvəccüh etmişlərdi. İradəti-həqq və məşiyyətulla mütləq ilə əzz-şanə aləmi-fəna və qürura vida ilə cənnət və xəldbərin guşələrini mənzil və məqam edib padşahan rəhmət həqqiylə ictima eləmişlərdir. ...Cənab səadət-nəsəbinizə baği və müstədam ola "Yələmüllahu kəfi bi şəhida" [ *Nisa surəsi, 166-cı ayə*] ki, mərhumun cənab səadət-intisabınıza əlaqeyi-məhəbbət və dadları kəmali-mərtəbədə subi-cəmil cəlilül-halınıza təvəccüh və müvalatları şəkk və riyadan ari olub bigüman idi. Lacürm tətüvvaris müqtəzasınca mühb xalis əl-tutikər dəxi məhəbbət əba və əcdad cənnətnıhadda bərqərar və müqərrər olub ələlxüsus cənab nisabınızla ülfət və ittihad mövrüsəmiz kəmayinbiği xatiri-atir həqayiqi-müəssərdə sabit və mütəqərrər olmuşdur" (121).

Sonra da Sultan Səlim atasınnı sonuncu Avropa yürüşü, Zigitvar qalası ətrafındakı döyüşü haqqında məlumat verirdi. O yazırdı ki, Sultan Süleyman Osmanlı sərhədi yaxınlığında olan bölgələrə yürüş etmişdi. O, Zigitvar qalasının adını çəkir və bildirirdi ki, Osmanlı qoşunları bu istiqamətdə bir-birindən möhkəm olan dörd qalanı fəth etməyə müvəffəq olmuşdular. Həmin qalaların ələ keçirilməsinin əhəmiyyəti onda idi ki, onlar sərhədə yaxın bölgələrdə idilər və buna görə də onlar müəyyən təhlükə mənbəyi ola bilərdilər. Sultan Səlimin yazdığına görə, bu qalalarda 70-80 min nəfərlik qoşun yerləşdirilmişdi. Ona görə də həmin qalaları bir ay müddətində fəth etmək mümkün olmamışdı. Bildirilirdi ki, Osmanlı qoşunları tərəfindən bu güclü qalalar fəth edildi və ondan sonra isə 12 kiçik qala alınmışdır. Çox güman ki, Sultan Səlim kiçik (para) qala deyəndə iç qalaları nəzərdə tuturdu. O, bu yürüşə bir dini məzmun da verirdi və yazırdı ki, xristianların ibadət evləri məscidlərə çevrilmişdir. Sultan Səlimə görə, fəth edilmiş qalalarda çoxlu sayda kafir qılınca hədəf olmuş, çoxu da əsir götürülmüşdü. Həm də böyük miqdarda qənimətlər ələ keçirilmişdi. Fəth edilmiş qalalardan ən böyüyü Zigitvar hesab olu-

nurdu və yuxarıda qeyd edildiyi kimi, onun fəth edilməsi üçün qala divarlarını dağıtmaq lazım gəlmişdi. Sultan Səlim yazırdı ki, Zigitvar qalasının dağılmış divarları bərpa edildiyi anlarda Sultan Süleyman dünyasını dəyişdi. O bu xəbəri aldıqdan sonra taxta çıxdığını Şah Təhmasibə çatdırırdı. Bildirilirdi ki, taxta çıxandan sonra qoşunların yanına yollanmaq və qoşunlara rəhbərliyi ələ almaq qərarı verilmişdir. Sultan Səlim alman kralının böyük qoşun dəstəsi ilə Osmanlı qoşunlarına qarşı çıxmasından da yazırdı. Bütünlükdə, Sultan Səlimin verdiyi məlumatdan onu Avropa cəbhəsində böyük sınaq gözlədiyini hiss etmək mümkündür (122). Çox güman ki, Sultan Səlim yaranmış həssas vəziyyətdə Səfəvi qoşunlarının Osmanlı hüdudlarına hücum etməyəcəyindən də arxayın olmaq istəyirdi. Avropa cəbhəsində ciddi döyüşlərin getdiyi və Sultan Süleymanın vəfat etdiyi bir dövrdə Səfəvi qoşunlarının Osmanlı hüdudlarına hücum edə bilməsi Sultan Səlimin vəziyyətini daha da mürəkkəbləşdirə bilərdi. Görünür elə ona görə də Sultan Səlim fürsəti əldən vermədən, hələ Avropa cəbhəsinə doğru irəliləyərkən Səfəvi şahına məktub yazdı və həmin məktubun sonunda Şah Təhmasibdən xahiş etdi ki, ona cavab yazsın və bununla ondan xatircəm olsun.

Sultan Səlimin məktubunu gətirən elçilik heyəti Qəzvində böyük təntənə ilə qarşılandı. Şah Təhmasib bununla yeni Osmanlı sultanına da böyük hörmətlə yanaşdığını nümayiş etdirdi. Onun fərmanına əsasən, Qəzvinin Səadətabad meydanında yenicə tikilmiş bazar bağlandı, şəhər əhalisi, o cümlədən saray əyanları və əmirləri Osmanlı elçisi Məhəmməd bəyin qarşılanmasına çıxdılar. Elə Qəzvinə yetişən günü də elçi şah tərəfindən qəbul edildi və Sultan Səlimin məktubu ona təqdim edildi. Səfəvi şahı məktubun məzmunundan məmnun olduğunu bəyan etdi və Qəzvində qaldığı günlərdə Osmanlı elçisinə yüksək qonaqpərvərlik nümayiş etdirdi. Bir müddətdən sonra Məhəmməd bəyin geri qayıtmasına icazə verildi. Onun yola düşməsindən dərhal sonra Çuxursəəd hakimi Şahqulu sultanın ardınca adam göndərildi. Şah Təhmasibin hökmü ilə o, Osmanlı sarayına elçi kimi yollanmalı idi. Şah Təhmasibin fərmanı ilə Osmanlı sultanına iki məktub

yazıldı. Məktubun biri Sultan Süleymanın dünyasını dəyişməsi münasibəti ilə baş sağlığı verilməsinə, digəri isə taxta çıxması münasibəti ilə Sultan Səlimin təbrik edilməsinə həsr edilmişdi. Başqa bir məlumata görə isə, Şah Təhmasib çox uzun bir məktub yazmışdı və hətta bu məktubun yazıldığı kağızın uzunluğu da müşahidəçilərin diqqətini özünə cəlb etmişdi (123).

Amma diqqəti cəlb edən yalnız Şah Təhmasibin məktubunun uzunluğu deyildi. Şah Təhmasibin Sultan Səlimə göndərdiyi hədiyyələrin miqdarı və qiyməti də heyrət doğurucu hadisəyə çevrilmişdi. Bu hədiyyələrin arasında Həzrət Əlinin əli ilə yazılmış və çox nəfis şəkildə bəzədilmiş "Quran" kitabı, Firdövsinin çox qiymətli daşlarla bəzədilmiş "Şahnamə" əsəri də var idi. Bildirilir ki, bu əsərin bəzədilməsi və ona miniatürlər çəkilməsi üzərində Səfəvi sarayının ən mahir xəttatları çalışmış və onlar tərəfindən yüksək sənətkarlıq nümunəsi olan 257 minüatür hazırlanmışdı. Bundan başqa şahın göndərdiyi hədiyyələr içərisində hər biri iki misqal ağırlığında olan iki ədəd mirvari, armud böyüklüyündə olan, qiymətinin hesablanması mümkün olmayan bir ədəd yaqut və digər qiymətli hədiyyələr var idi. Səfəvi mənbələrində olan məlumata görə, Şah Təhmasib yeni Osmanlı sultanına o miqdarda və o qiymətdə hədiyyələr göndərmişdi ki, padşahlara layiq belə hədiyyələr toplusunu heç bir vaxt heç bir padşah başqasına göndərməmişdi. Bu hədiyyələr toplusuna çoxlu sayda cins atlar, dəvələr və digər heyvanlar da daxil idi. Bütün bu hədiyyələri Şahqulu sultan Ustaclının rəhbərliyi altında böyük bir heyət müşayiət edirdi. Həmin heyətə isə başlarında qızıl saplarla tikilmiş papaq olan 120 nəfər gənc, libasları zərli və qiymətli parçalardan tikilmiş 200 nəfər atlı, habelə 400 nəfər tacir daxil idi. Bütünlükdə, elçilik heyətinin sayı 700 nəfərdən çox idi. Bu elçilik heyətini, onların yüklərini, habelə hədiyyələri daşımaq üçün 1900 baş at, qatır və dəvə toplanmışdı. Elçilik heyətinin əzəmətini yüksəltmək üçün onun tərkibinə musiqiçilər dəstəsi də verilmişdi. Musiqiçilər dəstəsi isə müxtəlif alətlərin ifaçılarından ibarət idi. Bu dəstədə 5 ədəd uzun şeypur (kərənay), beş ədəd qısa şeypur, 5 ədəd böyük təbil, 5 ədəd ney və digər musiqi alətləri var idi. Elçilik heyətinin

tərkibində əlavə olaraq iki nəfər "Quran" oxuyan, bir nəfər ud çalan, bir nəfər ərğovan ifaçısı, 4 nəfər xanəndə kəniz var idi. Yuxarıda xatırlanan qiymətli daşlardan əlavə, elçilik heyətinin apardığı hədiyyələrin ümumi qiyməti avropalı müəlliflərin fikrincə 16 kurur 200 min aspər idi. Hədiyyələrə 40 baş qiymətli ov quşları da daxil idi (124).

Səfəvi elçiliyi möhtəşəm olduğu qədər də onun Osmanlı hüdudlarında qarşılanması da belə möhtəşəm oldu. Sultan II Səlim Səfəvi elçiliyinin gəlməsindən xəbər tutan kimi, bu elçiliyin yüksək səviyyədə qarşılanması barəsində fərman verdi. Bu elçilik heyətinin qarşılanması hələ Ərzrumda başladı. Ərzrum hakimi vilayət əyanları və əmirləri, habelə 8 min nəfərlik qoşun dəstəsi ilə Səfəvi elçiliyinin istiqbalına çıxdı. Burada elçilik heyətinə böyük ehtiram göstərildi və sonra da bu ehtiramla İstanbula doğru yola salındı. Səfəvi elçiliyinin qarşılanma təntənələri İstanbulda da davam etdi. Belə qarşılanma təntənəsi İstanbulda heç bir səfirə və elçiliyə göstərilməmişdi. Sultan Səlim də bu elçilik heyətinin qarşılanmasına xüsusi diqqət yetirirdi. O fərman vermişdi ki, onun taxta çıxmasını təbrik etməyə gələn digər ölkələrin elçilik heyətləri də Səfəvi elçiliyinin keçdiyi yola çıxarılsınlar və onlar da bu mərasimi müşahidə etsinlər. İstanbula daxil olmasından iki gün sonra Şahqulu sultan Osmanlı sarayının baş vəziri tərəfindən ziyafətə dəvət olundu. Bildirilir ki, Şahqulu sultan bu ziyafətə yollanarkən küçədə dayananlardan biri əlindəki tüfənglə onu hədəf aldı. Açılan güllə Şahqulu sultana dəyməsə də, onun yanındakı adamlardan birini yaraladı. Dərhal atəş açan adan yaxalandı və baş vəzirin göstərişi ilə onu at quyruğuna bağlayıb küçələr boyu sürüdülər. Beləcə həmin adan tikə-tikə olaraq dünyasını dəyişdi. Bu hadisəyə görə Şahqulu sultanın hər hansı bir təşviş keçirmədiyi bildirilir. Gətirilən hədiyyələr içərisində baş vəzir üçün də nəzərdə tutulanlar var idi. Səfəvi elçisi səxavətlilik göstərərək Osmanlı sarayının baş vəzirinə Dərcəzin və Həmədan istehsalı olan ipək xalçalar, Xorasan xəzləri, Ərdəkan sabunları, Mehruyan dəstmalları, Darabcərd fərşləri, Şiraz qılıncları və s. qiymətli əşyalar bağışladı (125).

Baş vəzirin təşkil etdiyi ziyafətdən üç sonra Şahqulu sultan Osmanlı sultanı tərəfindən də qəbul olundu. Şahqulu sultan öz hörmət və ehtiramını ifadə etdikdən sonra Şah Təhmasibin məktubunu ona təqdim etdi. Eyni zamanda elçilik heyəti gətirmiş olduğu hədiyyələri Sultan Səlimə təqdim etdi. Bildirilir ki, şah tərəfindən sultan üçün göndərilən hədiyyələr 44 dəvəyə yüklənmişdi. Bundan əlavə Şahqulu sultan özü də Osmanlı sultanına hədiyyələr gətirmişdi və həmin hədiyyələr də 10 baş dəvəyə yüklənmişdi. Başlıcası isə Şah Təhmasibin məktubu Sultan Səlimə təqdim olundu. Bu məktubun orijinalı çox böyükdür və Səfəvi mənbələrinin birində onun mətni verilmişdir (126). Həmin məktubda 1149 beytlik nəzm vardır ki, onun da 95 beyti türk dilindədir. Əlavə olaraq məktubun sonunda daha 26 beytlik bir nəzm vardır. Əslində, bu məktub bir protokol məktubu idi və onun yazılması heç də konkret mətləblərin və ya maraq doğuran məsələlərin müzakirəsi üçün yazılmamışdı. Bu halda məktubun böyüklüyü də Sultan Səlimə olan böyük ehtiramın göstərici idi. Başqa sözlə deyilərsə, bu məktubun özü də hər iki tərəfin əzəmətinin ifadəsi kimi ortaya qoyulurdu. Mütəxəssislərin fikrincə, həmin vaxta kimi hər hansı bir əmirin və ya şahın vəsfi üçün 1000 beytlik qəsidə deyilməmişdi (127).

Şah Təhmasibin Osmanlı mənbələrində yer almış cavab məktubu isə xeyli müxtəsərdir. Bu məktub Allahın vəsfinə həsr olunmuş nəzm parçası ilə başlayır. Sonra isə Allahın və onun peyğəmbərinin vəsfi həm nəsrlə, həm də nəzmlə davam etdirilirdi. Məktubda Həzrət Əlinin vəsfinə də yer ayrılmışdı. Allahın və müqəddəslərin vəsfinə həsr edilmiş cümlələr çoxlu sayda ayələrlə tamamlanırdı. Bundan sonra isə məktubda Sultan Süleymanın vəsfi başlanırdı. Şah Təhmasibin yazdığına görə, o, Sultan Süleymanın Avropaya yürüş etməsindən xəbər tutmuşdu. Bu xəbəri ona Ərzrum bəylərbəyi Zeynəddin Əli paşa çatdırıbmış. Səfəvi şahı da bu yürüşü kafirlərə qarşı qəzavat kimi dəyərləndirirdi və ümid etdiyini dilinə gətirirdi ki, həmin yürüşün nəticəsi kimi, islam dini daha da yayılacaq, kilsələr məscidə çevriləcək və islam dininə dönənlərin sayı da artacaqdır. Şah

Təhmasib bu yürüşü islam aləmi üçün əhəmiyyət kəsb edən bir yürüş kimi qəbul etdiyini və bu yürüşün uğurlarla başa çatması üçün dualar etdiyini də bildirirdi. Səfəvi şahı hətta səltənəti daxilində olan bütün şəhərlərə, məntəqələrə fərman göndərərək hər yerdə Osmanlı sultanının qələbəsi üçün dualar etməyi tapşırdığını bildirirdi. Onun özü də dua etməkdən başqa, həm də "Quran" xətmi üzərində çalışırmış (128).

Sultan Süleymanın qələbə xəbəri gözlənildiyi bir vaxtda onun dünyasını dəyişməsi xəbəri alındı. Şah Təhmasib bu barədə daha əvvəldən məlumat almışdı. O yazırdı ki, Səfəvi ərazisindən müqəddəs məkanların ziyarətinə yollanmış etiqad adamları, dövrünün tanınmış müctəhidləri geri qayıdarkən Bağdad bəylərbəyi İsgəndər paşa tərəfindən qəbul edilmiş və İsgəndər paşa onlara Osmanlı sultanının dünyasını dəyişməsi haqqında məlumat vermişdi. Şah Təhmasib yazırdı ki, kafirlərlə müqəddəs savaşa getmiş Osmanlı sultanının dünyasını dəyişməsi bütün insanlar kimi, onun da qəlbində böyük qəm və kədər yaratdı və onu sarsıtdı. Sonra özünün hüzn hisslərini Şah Təhmasib nəzm parçaları ilə ifadə edərək bu itkiyə görə Sultan Səlimə təsliyyət verirdi. Onun təsliyyətinin məzmunu ondan ibarət idi ki, dünya fani dünyadır, kimsə bu dünyada əbədi həyata malik deyildir. Onun fikrincə, əgər kimsə əbədi həyata malik ola bilsəydi, onda islam peyğəmbəri və əhli beyt bu ölməzliyə sahib olmağa daha çox haqlı olardılar. Şah Təhmasibə görə, bu hadisədə təsəlli ola biləcək iki məqam var idi. Birinci məqam ondan ibarət idi ki, Sultan Süleyman cihad və kafirlərə qarşı qəzavət zamanı dünyasını dəyişmişdi. Ona görə Səfəvi şahı şübhə etmirdi ki, dünyasını dəyişmiş Sultan Süleymanın o dünyadakı yeri behiştdir. Şah Təhmasibə görə, təsəlli ola biləcək ikinci məqam isə ondan ibarət idi ki, dünyasını dəyişmiş Sultan Süleymandan sonra Osmanlı taxtına Sultan Səlim kimi şərəfli bir insan, ali şahənşah, cahangirlikdə əzəmət sahibi bir şəhriyar çıxmışdı. Şah Təhmasib şübhə etmədiyini bildirirdi ki, Sultan Süleymanın Firəngistan istiqamətində fəth edə bilmədiyi əraziləri cavan sultan fəth edəcək və o ərazilərdə əzan səsi göylərə yüksələcəkdir. Bununla da o öz dostları-

nın sevincinə, düşmənlərinin isə kor olmasına yol aça biləcəkdi. Daha sonra isə Şah Təhmasib yeni taxta çıxmış Osmanlı sultanına hakimiyyətinin əbədi və asudə olmasını arzu edirdi (129).

Bununla, Şah Təhmasib əməli şəkildə Osmanlı dövləti ilə sülh və xoş münasibətlərdə olmaq istədiyini bir daha ortaya qoydu. Sultan II Səlimin hakimiyyətinin sonuna qədər bu münasibətlər davam etdi. Həmin dövr ərzində yalnız bir dəfə iki dövlət arasındakı münasibətlərin xarakterinə təsir göstərə biləcək bir hadisə baş verdi. Lakin bu zaman da Şah Təhmasibin göstərdiyi müdriklik nəticəsində sülh və sabitliyi qoruyub saxlamaq mümkün oldu. Baş verən hadisə isə Səfəvi sarayının vəkili, səltənət idarəçiliyində çox yüksək məqam tutan Məsum bəyin Osmanlı ərazisində qətlə yetirilməsi ilə bağlı idi. Məsum bəy həm də Şah Təhmasibin etibarlı adamlarından biri idi. Bu hadisə barəsində "Əhsənüt-təvarix" əsərində belə bir qeyd vardır: "Bu il dinin pənahı olan şahın vəkili Məsum bəy şərəfli Hərəmeynə yollandı. Yol əsnasında rumilər qəflətən onun üzərinə tökülüb onu qırx səkkiz nəfər mülazimləri və yoldaşları ilə birlikdə qətlə yetirdilər və söz yaydılar ki, bu işi ərəb quldurları (yolkəsənləri) törətmişlər. Sultan Səlim üzrxahlıq etmək üçün Əli ağa Çavuşbaşını aləmin pənahı olan dərgaha göndərdi. O həzrət (Şah Təhmasib) məhəbbətin kamalı üzündən ona hörmət-izzət göstərib Rum diyarına [geri] göndərdi" (130).

Məsum bəy bütün həyatını Səfəvi sarayına xidmətdə keçirmiş və sədaqətli xidmətinə görə nüfuz və ehtiram sahibi olmuşdu. O öz xidmətini qorçu kimi başlamış və bir müddətdən sonra Səfəvi xanədanı üçün müqəddəs bir məkan sayılan Ərdəbildəki Şeyx Səfi türbəsinin mütəvalisi təyin edilmişdi. Bir müddət sonra isə Məsum bəy əmir-nizam vəzifəsinə və bundan dörd il sonra isə səltənət vəkili vəzifəsinə irəli çəkilmişdi. Qətlə yetirildiyi günə qədər o, 16 il səltənət vəkili vəzifəsini icra etmişdi. Həyatının müdriklik çağlarında, 1569-cu ildə Məsum bəy oğlunun xahişi ilə Məkkə ziyarətinə yollanmaq qərarına gəldi və bunun üçün Şah Təhmasibdən də icazə aldı. Şah Təhmasib onun üçün sədaqətli olan bir yaxınının Həcc ziyarətinə getmək istəyinə mane olmadı

və Məsum bəy oğlu Xanmirzə və daha 47 nəfərin müşayiəti ilə Həcc ziyarətinə yola düşdü. Mənbələrdə həm Məsum bəy, həm də onun oğlu Xanmirzə zəkalı, savadlı insanlar kimi xarakterizə olunurlar. Məsum bəy həm də Səfəvi təriqətinin ardıcıllarından biri idi və onun Ərdəbil xanəgahına mütəvali təyin edilməsi də bununla bağlı idi. Onun təriqət tərəfdarları arasında da böyük hörmət və nüfuzu var idi. Mənbə məlumatlarına görə, Məsum bəyin Osmanlı hüdudlarına daxil olması bəzi Osmanlı məqamları tərəfindən təşvişlə qarşılandı. Onlar belə ehtimal edirdilər ki, Məsum bəy kimi Səfəvi təriqətinin nüfuzlu bir nümayəndəsinin Osmanlı ərazisindən keçməsi Osmanlı daxilində yaşayan ələvilərə, Səfəvi təriqət tərəfdarlarına təhrikedici təsir göstərə bilər. Ona görə də Sultan Səlimə bu adamın gəlişinin arzuedilməz təsirlərə yol aça biləcəyi haqqında məlumatlar çatdırıldı. Sultan Səlim də deyilənləri doğru qəbul etdi və o, Şam bəylərbəyi Dərviş paşaya göstəriş verdi ki, nə yolla olursa-olsun Məsum bəyi aradan götürsün. Dərviş paşa da 200 nəfərlik bir dəstəyə ərəblərin paltarını geyindirərək Məsum bəyin üzərinə göndərdi. Həmin dəstə Fatma vadisi adlanan bir yerdə Məsum bəyi və onun yanında olanların hamısını qətlə yetirdi. Bu hadisə Səfəvi sarayında böyük üzüntü ilə qarşılandı. Tezliklə Osmanlı sarayında da aydın oldu ki, Səfəvi sarayının ən yüksək vəzifəli məqamının qətlə yetirilməsi iki dövlət arasındakı münasibətlərə təsirsiz ötüşə bilməz. Ona görə də Sultan II Səlim baş verən hadisəyə görə sarayın təəssüfünü çatdırmaq üçün Qəbihəli ağa Çavuşbaşını Səfəvi sarayına yola saldı. Şah Təhmasib bu elçini mehribanlıqla qarşıladı və baş vermiş hadisəyə baxmayaraq iki dövlət arasında xoş münasibətlərin davamına tərəfdar olduğunu bildirdi (131).

1574-cü ildə Sultan II Səlim dünyasını dəyişdi. Onun yerinə hakimiyyətə böyük oğlu III Murad adı altında Osmanlı taxtına çıxdı. III Muradın hakimiyyətə gəlməsi Şah Təhmasibin həyatının sonlarına təsadüf edirdi. Məlumdur ki, III Muradın Osmanlı taxtına çıxmasından cəmi iki il sonra Şah Təhmasib də dünyasını dəyişdi. III Muradın hakimiyyətə gəlməsi Şah Təhmasibin həyatının və hakimiyyətinin müdriklik çağlarına təsadüf edirdi. O, iki

dövlət arasında sülh münasibətlərinin davam etməsinin qədir və qiymətini yaxşı bilirdi. Ona görə bu münasibətlərin III Muradın hakimiyyəti illərində də davam etməsini istəyirdi. Bunu o, III Muradın hakimiyyətə gəlməsi münasibətilə göndərdiyi məktubunda da açıqlamışdı.

## 8. İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Cunabedi M. Rövzətüs səfəviyye. Tehran, 1378, s. 551
2. Yenə orada
3. Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen mektupları içeren "Münşeat-ı Atik"n edisyon kritiği ve degerlendirilmesi. Yüksek lisans tezi. İzmir, 2008, s. 66
4. Yenə orada, s. 66-68
5. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri 1520-1566). İstanbul, 2006, s.373
   Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen ..., s. 70
6. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.374
   Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen ..., s. 71
7. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.374
   Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen ..., s. 71
8. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.374
   Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen ..., s. 71
   Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 294
9. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.375
   Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 294

10. Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.742
11. Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.743
Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen ..., s. 75
12. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.376
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 294-295
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.743
13. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 295
14. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 295
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.743
15. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 296
Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen ..., s. 73
16. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.376
17. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 297
18. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 298
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.750
19. Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.752
20. Rumlu H. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Tərcümə edənlər: Oqtay Əfəndiyev, Namiq Musalı. Kastamonı, 2017, s.457-458
21. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. Tərcümə edənlər – Oqtay Əfəndiyev və Namiq Musalı. I cild. Bakı,2009, s.188-189
22. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.380
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 298

Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.753
23. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 299
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.753-754
24. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.382-383
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 300
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.754-755
25. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.385
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 300
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.755
26. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.123-124
27. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.385-386
28. Mehmed Solakzadə. Tarix. Çevirəni Ziya Bünyadov. Bakı, 1992, s. 53
29. Yenə orada, s. 54
30. Yenə orada, s. 55
31. Rumlu H. Əhsənüt-təvarix, s.588
32. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s. 189-192
33. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 302
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.757
34. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.124
35. Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.758
36. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.124-125
37. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 356-358

38. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.389-390
39. Mehmed Solakzadə. Tarix. Çevirəni Ziya Bünyadov. Bakı, 1992, s. 55-56
40. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 359-360
41. Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen ..., s. 101
42. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.390-391
43. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.125-126
44. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 358
45. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s. 192
46. Rumlu H. Əhsənüt-təvarix, s.589
47. Mehmed Solakzadə. Tarix. Çevirəni Ziya Bünyadov. Bakı, 1992, s. 56-57
48. Yenə orada, s. 57
49. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 361-368
50. Arşiv belgelerine göre Osmanlıda istihbarat. İstanbul, 2017, s. 75
51. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 369-373
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 311
52. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.126-127
53. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 317
53a. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 79-81
54. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s. 193-194
55. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.395
56. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 316

Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.775-776
57. Mehmed Solakzadə. Tarix. Çevirəni Ziya Bünyadov. Bakı, 1992, s. 57-58
58. Yenə orada, s. 58-59
59. Yenə orada, s. 59-60
60. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 320
61. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 318
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.779
62. Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen ..., s. 128-129
63. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.398
64. Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen ..., s. 128
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 321
65. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdül-hüseyn Nəvayi. Tehran, 1368, s. 378-3782
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 320
66. Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen ..., s. 141
67. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 320
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.399
Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen ..., s. 88
68. Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen ..., s. 130-138
69. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 322
70. Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.783
71. Yenə orada, s. 784
72. Yenə orada, s. 792

73. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 398-402
74. Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen ..., s. 92, 162-163
75. Rumlu H. Əhsənüt-təvarix, s.592
76. Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen ..., s. 163-164
77. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 426-428
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.789
78. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 428
79. Rumlu H. Əhsənüt-təvarix, s.591-592
80. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 333
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.790
81. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.81
82. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 334
83. Yenə orada
84. Firudin bəy. Münşüat, II hissə, s.43
Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 446
85. Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen ..., s. 164-169
86. Yenə orada, s.173-175
87. Yenə orada, s. 176-180
88. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 337
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.798
Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen ..., s. 95
89. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.404
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 337

90. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 336
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.798
91. Əbdi bəy Şirazi. Təkmilətül-əxbar. Bakı, 1996, s. 87
92. Rumlu H. Əhsənüt-təvarix, s.593
93. Hüseyni Qumi, Q. Xülasüt-təvarix. C.I, Tehran,1359, s.432
94. Yenə orada, s. 433
95. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s. 194-195
96. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.404
97. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 337
98. Mehmed Solakzadə. Tarix. Bakı, 1992, s. 60-61
99. Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.799
100. Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.801-802
Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen ..., s. 95
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.405
101. Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen ..., s. 96
102. Yenə orada, s.184-185
103. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.406
104. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 338
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.802
105. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 339
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.802
106. Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen ..., s. 98
107. Mehmed Solakzadə. Tarix. Bakı, 1992, s. 61

108. Rumlu H. Əhsənüt-təvarix, s.594
109. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s. 216-217
110. Hüseyni Qumi, Q. Xülasüt-təvarix. C.I, Tehran,1359, s.437
111. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 339
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.803
112. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 341-342
Mohammednejad Hamidreza. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.807-808
113. Şevik İsa. Şah Tahmasb (1524-1576) ilə Osmanlı sarayı arasında teati edilen ..., s. 96, 185-188
114. Yenə orada, s. 188-195
115. Yenə orada, s. 197
116. Yenə orada, s. 198
117. Yenə orada, s. 199-203
118. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.407
119. Hüseyni Qumi, Q. Xülasüt-təvarix. C.I, Tehran,1359, s.437
Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.408
120. Kılıc R. Kanuni devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s.409
121. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 453
122. Yenə orada, s.454-455
123. Hüseyni Qumi, Q. Xülasüt-təvarix. C.I, Tehran,1359, s.461
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 360-361
124. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 456
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 361
125. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 458
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 361

126. Hüseyni Qumi, Q. Xülasüt-təvarix. C.I, Tehran,1359, s.478-544
127. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 362
128. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 460-464
129. Yenə orada, s. 464-471
130. Rumlu H. Əhsənüt-təvarix, s.609
131. Hüseyni Qumi, Q. Xülasüt-təvarix. C.I, Tehran,1359, s.560-561
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 365

## MÜNDƏRİCAT

**GİRİŞ ........................................................................ 3**

**I FƏSİL. ŞAH TƏHMASİBİN HAKİMİYYƏTƏ GƏLİŞİ . 9**

1.Şah İsmayılın hakimiyyətinin sonunda səltənət daxilində ictimai-siyasi və hərbi şərait ........................................................ 9
2. Şah Təhmasibin hakimiyyətinin başlanması ........................ 16
3. Səltənət daxili hərbi-siyasi vəziyyətin möhkəmləndirilməsi cəhdləri ........................................................................ 29
4. İstifadə olunmuş mənbə və ədəbiyyat .................................. 77

**II FƏSİL. SƏFƏVİ-ÖZBƏK MÜHARİBƏLƏRİ ............... 83**

1.Özbək qoşunlarının Xorasan üzərinə ilk hücumu ................. 83
2. Özbək qoşunlarının ikinci hücumu ...................................... 87
3. Özbək qoşunlarının üçüncü hücumu .................................. 103
4. Özbək qoşunlarının dördüncü hücumu .............................. 121
5. Şah Təhmasib və Übeyd xan yazışmaları .......................... 137
6. Səfəvi qoşunlarının sıra baxışı .......................................... 167
7. Özbək qoşunlarının beşinci hücumu .................................. 179
8. Özbək qoşunlarının altıncı hücumu .................................. 192
9. Özbək qoşunlarının sonrakı hücumları .............................. 224
10. İstifadə olunmuş mənbə və ədəbiyyat 240

**III FƏSİL. SƏFƏVİ-OSMANLI MÜHARİBƏLƏRİ........ 251**

1. Şah Təhmasibin hakimiyyəti dövründə Səfəvi-Osmanlı münasibətlərinin xarakteri ...................................................... 251
2. Şah Təhmasib dövrünün Osmanlı qoşunları ...................... 289
3.Osmanlı qoşunlarının Səfəvi hüdudlarına ilk hücumu ........ 332
4.Sultan Süleymanın fəthnaməsi ............................................ 374
5.Osmanlı qoşunlarının Azərbaycan üzərinə təkrar hücumu ......................................................................... 377

6. Osmanlı qoşunlarının Səfəvi dövləti üzərinə ikinci yürüşü ........................................................................ 401
7. Osmanlı qoşunlarının Səfəvi dövləti üzərinə üçüncü yürüşü ........................................................................ 470
8. Osmanlı qoşunlarının Səfəvi dövləti üzərinə dördüncü yürüşü ........................................................................ 495
a)Şah Təhmasibin Sultan Süleymana məktubu 538
9. Amasiya sülh anlaşması .................................................. 559
10. İstifadə olunmuş mənbə və ədəbiyyat ............................ 581

**IV FƏSİL. ŞAH TƏHMASİBİN HAKİMİYYƏTİ İLLƏRİNDƏ SƏFƏVİ-OSMANLI MÜNASİBƏTLƏRİNİN DAVAMI ........................................................................ 610**

1.Taxt-tacı uğrunda Osmanlı şahzadələri arasında aparılan mübarizənin kəskinləşməsi və bunun ikitərəfli münasibətlərə təsiri ........................................................................ 610
2.Şahzadə Bayəzidin Səfəvi sarayına sığınması .................... 628
3.Şahzadə Bayəzidin geri qaytarılması üçün Osmanlı-Səfəvi diplomatik fəallıqları ........................................................ 643
4.Şahzadə Bayəzidin Şah Təhmasibə qarşı sui-qəsd cəhdi və onun həbsə alınması .......................................................... 655
5.Şahzadə Bayəzidin Osmanlı sarayına təhvil verilməsi üçün iki dövlət arasında diplomatik fəallıqların davam etməsi ........... 666
6. Şah Təhmasib tərəfindən Şahzadə Bayəzidin təhvil verilməsi və onun qətli ........................................................................ 697
7.Şahzadə Bayəzidin təhvil verilməsindən sonra Səfəvi-Osmanlı münasibətləri ........................................................................ 722
8. İstifadə olunmuş mənbə və ədəbiyyat ................................ 733

**Nəşriyyat direktoru:** İsmayıl Nərimanoğlu

Kitab hazır depozitivlərdən istifadə edilərək
"Maarif" nəşriyyatında çap edilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Maarif" Dövlət
Tədris Pedaqoji Ədəbiyyatı nəşriyyatı

Çapa imzalanmışdır: 13.03.2020
Kitabın formatı: 60x84 1/16.
Həcm: 46,5 ç.v.

Ünvan: Mətbuat prospekti, 529-cu məh.